AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "HEYDƏR ƏLİYEV VƏ MÜASİR TÜRK DÜNYASI" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları

# Материалы международной научно-практической конференции на тему: «ГЕЙДАР АЛИЕВ И СОВРЕМЕННЫЙ ТЮРКСКИЙ МИР", ПОСВЯЩЕННОЙ 100-ЛЕТИЮ СО ДНЯ РОЖДЕНИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

# The materials of international scientific-practical conference "HEYDAR ALIYEV AND MODERN TURKİC WORLD" DEVOTED TO NATİONAL LEADER HEYDAR ALİYEV`S 100 ANNİVERSARY



02 may 2023-cü il

BAKI, AZƏRBAYCAN

AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI




# HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

10.05.1923-12.12.2003

***Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.***

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli"
elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti
İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamından

## TƏŞKİLAT KOMİTƏSİ

*Sədr:* **Eldar Quliyev** – professor, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, Milli Məclisin Hesablayıcı Komissiyasının sədri

*Həmsədr:* **Ziyad Səmədzadə** – akademik, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı

*Sədr müavini:* **Bəyalı Ataşov** – professor, Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorektoru, Əməkdar elm xadimi

## ÜZVLƏR:

1. **Firudin Qurbanov** – Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini.
2. **Əhliman Əmiraslanov** – akademik, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini.
3. **Eldar İbrahimov** – professor, Milli Məclisin İntizam Komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini.
4. **Elmira Süleymanova** – professor, müstəqil Azərbaycanın ilk ombudsmanı, Ağsaqqallar Şurasının sədr müavini.
5. **Vahid Novruzov** – professor, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini.
6. **Ramin Həsənli** – Azərbaycan Ağsaqqallar Şurası Aparatının rəhbəri.
7. **Elşad Səmədzadə** - Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini.
8. **Aygün Quliyeva** – professor, Azərbaycan Kooperasiya Universitetinin beynəlxalq əlaqələr və təlim – tərbiyə işləri üzrə prorektoru.
9. **Fikrət Quliyev** – dosent, Azərbaycan Kooperasiya Universitetinin tədris işləri üzrə prorektoru.
10. **Samirə Məmmədova** – dosent, Azərbaycan Kooperasiya Universitetinin Elm və doktorantura şöbəsinin müdiri.
11. **Elşən İbrahimov** - i.e.d., Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat" fakültəsinin dekanı, AKU – nun elmi katibi.
12. **Sodiqjon Turdiyev** – Özbəkistan Respublikası Ali Məclisinin senatoru, respublika veteranlarının ictimai fəaliyyətinin dəstəklənməsi üzrə "Nuraniy" Fondunun idarə heyətinin sədri.
13. **İmbat Muğlu** – görkəmli yazıçı və publisist, Türkiyə Respublikası.
14. **İkram Adırbek** – iqtisad elmləri doktoru, Qazaxıstan Respublikası Senatorlar Şurasının üzvü, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü.
15. **Medetxan Şerimkulov** – professor, Qırğız Respublikasının Qəhrəmanı, Qırğız Respublikası Parlamentinin sabiq spikeri, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü.
16. **Tansel Fikri** – Quzey Kıbrıs Türk Cümhuriyyətinin tanınmış ictimai – siyasi xadimi, görkəmli yazıçı, Türk dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü.

## TƏŞKİLAT KOMİTƏSİNİN İŞÇİ QRUPU

1. Rafiq Rzayev
2. Kamal Əliyev
3. Elşad Quliyev
4. Vüqar Əmiraslanov
5. Əhməd Ziyəddinoğlu
6. Nərmin Mehdizadə
7. Şahnaz Hacıyeva
8. Gülsüm Bədirzadə
9. Tamerlan Əkbərov

0503229412-217
124-2023

© "Kooperasiya" nəşriyyatı - 2023

## KONFRANSDA İŞTİRAK EDƏN ELMİ QURUMLAR VƏ TƏŞKİLATLARIN SİYAHISI

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
2. Azərbaycan Milli Elmlər Akademiyası
3. Azərbaycan İqtisadçılar İttifaqı
4. Bakı Dövlət Universiteti
5. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
6. Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
7. Naxçıvan Dövlət Universiteti
8. Azərbaycan Dövlət Aqrar Universiteti
9. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi
10. Azərbaycan Respublikası Auditorlar Palatası
11. Azərbaycan Texniki Universiteti
12. Azərbaycan Texnologiya Universiteti
13. Azərbaycan Universiteti
14. Bakı Biznes Universiteti
15. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
16. Odlar Yurdu Universiteti
17. Sumqayıt Dövlət Universiteti
18. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
19. Bakı Mühəndislik Universiteti
20. Gəncə Dövlət Universiteti
21. Lənkəran Dövlət Universiteti
22. AR İqtisadi İslahatların Təhlili və Koordinasiya Mərkəzi
23. AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
24. AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu
25. AMEA-nın Qafqazşünaslıq İnstitutu
26. Quba şəhəri, "Soyqırımı Memorial Kompleksi"
27. Azərbaycan Dövlət Pedaqoji Universiteti
28. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu
29. AMEA-nın Tarix İnstitutu
30. Türkiyə Respublikasının Ağsaqqallar Şurası
31. Qazaxıstan Respublikasının Ağsaqqallar Şurası
32. Cənubi Qazaxıstan Universiteti
33. Özbəkistan Respublikasının Ağsaqqallar Şurası
34. Qırğızıstan Respublikasının Ağsaqqallar Şurası
35. Quzey Kıbrıs Türk Cümhuriyyətinin Ağsaqqallar Şurası
36. Gürcüstan Elmlər Akademiyası
37. Pakistanın Lahor Dövlət Kollec Universiteti

## KONFRANS BARƏDƏ QISA MƏLUMAT

2 may 2023-cü il tarixində Bakının "Fairmont" otelində Azərbaycan Ağsaqqallar Şurası, Azərbaycan Kooperasiya Universiteti və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş **"Heydər Əliyev və müasir türk dünyası"** mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbirdən öncə konfrans iştirakçıları Fəxri xiyabana gələrək müasir, müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Şimali Kipr Türk Respublikasından, Pakistan və Gürcüstandan olan görkəmli alimlərin, ictimai-siyasi xadimlərin, Türk Dövlətləri Təşkilatının rəhbər heyətinin, eləcə də respublikamızın tanınmış alimlərinin, ziyalıların iştirakı ilə keçirilən beynəlxalq elmi – praktiki konfransın plenar iclası Azərbaycan Respublikasının dövlət himnin səsləndirilməsi ilə açıq elan olunub. Ulu öndər Heydər Əliyevin keçdiyi şərəfli ömür yolunu və türk dünyasının müasir əlaqələrini özündə əks etdirən videoçarxın nümayişindən sonra konfrans öz işinə başlayıb. Konfransın Təşkilat Komitəsinin sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, Milli Məclisin Hesablayıcı Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor **Eldar Quliyev** giriş nitqi ilə çıxış edərək qonaqları salamlayıb.

Plenar iclasda Türk Dövlətləri Təşkilatının baş katibinin müavini **Erjan Mukaş**, Azərbaycan Respublikasının Elm və Təhsil nazirinin müavini **Firudin Qurbanov**, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, akademik **Ziyad Səmədzadə**, Türkiyə Respublikasının Azərbaycandakı sabiq, böyük elçisi, tanınmış diplomat **Hulusi Kılıç**, Özbəkistan Respublikasının Qəhrəmanı Ali Məclisinin senatoru, respublika veteranlarının ictimai fəaliyyətinin dəstəklənməsi üzrə "Nuraniy" Fondunun idarə heyətinin sədri **Sodiqjon Turdiyev**, Azərbaycan Respubikası Auditorlar Palatasının sədri, i.e.d., professor **Vahid Novruzov**, Qazaxıstan Respublikası Senatorlar Şurasının üzvü, TDT Ağsaqqallar Şurasının üzvü **İkram Adırbek**, Qırğız Respublikasının Qəhrəmanı, Qırğız Respublikası Parlamentinin sabiq spikeri, TDT Ağsaqqallar Şurasının üzvü **Medetxan Şerimkulov**, Türkiyənin görkəmli yazıçısı və publisisti **İmbat Muğlu**, Şimali Kipr Türk Respublikasının tanınmış ictimai – siyasi xadimi, görkəmli yazıçı, TDT Ağsaqqallar Şurasının üzvü **Tansel Fikri**, Qazaxıstan Respublikasından filologiya elmlər doktoru, professor **Adil Axmet** çıxış etmişlər.

Natiqlər çıxışlarında görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın və türk dünyasının çoxəsrlik dövlətçilik tarixinin nadir siması olduğunu, Ulu Öndər Heydər Əliyevin yaşadığı dövrün real mahiyyətini dərindən dərk edərək özünün aydın siyasi mövqeyi, möhkəm iradəsi və uzaqgörənliyi ilə zamanı irəli aparmaq qüdrətinə malik olduğunu vurğulamışlar. Konfransda Azərbaycanın türk dünyası ilə əlaqələrinin qurulmasında, münasibətlərin dərinləşməsində, habelə ölkəmizdəki tolerantlıq mühiti və azərbaycançılıq ideologiyasının inkişafında Heydər Əliyevin əvəzsiz xidmətləri xüsusi qeyd edilmişdir.

Plenar iclasdan sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

Sonda bölmə rəhbərlərinin hesabatları Təşkilat Komitəsinin sədri tərəfindən qəbul olunub, irəli sürülən təklif və tövsiyələr nəzərə alınmaqla məruzələr, məqalələr və tezislərin toplu şəklində çap olunması qərara alınıb. Bununla da konfrans öz işini yekunlaşdırıb.

TÜRK DEVLETLERİ TEŞKİLATI

*Genel Sekreter*

**Eldar Quliyev**
**Azerbaycan Aksakallar Şurası Başkanı**

Değerli Aksakal,

Başkanlığını yürütmekte olduğunuz Azerbaycan Aksakallar Şurası tarafından düzenlenen, Azerbaycan devletinin kurucusu ve Azerbaycan halkının umumi lideri Haydar Aliyev'in Türk dünyası için taşıdığı değeri konu alan uluslararası konferans, Türk dünyasının giderek daha çok kenetlendiği bu süreçte çok değerli bir faaliyettir.

Bu itibarla, Türk dünyasının büyük siması Haydar Aliyev'in doğumunun 100. yılına tesadüf eden ve 2023-Haydar Aliyev Yılı münasebetiyle düzenlenen bu konferansın, Haydar Aliyev'in Türk devletleri arasındaki bugün büyük bir memnuniyetle müşahede ettiğimiz üst düzey ilişkilerin teşekkülünde sahip olduğu ayrıcalikli yerin tespit ve teslim edilmesi bakımından büyük önem taşıdığını düşünüyorum. Bu itibarla, bu zamanlı faaliyetin icrasi için başta Zat-i Aliniz olmak üzere Azerbaycan Aksakallar Şurasını gönülden tebrik ederim.

Konferans Aksakallarımızın engin tecrübeleri ve geleneğimizdeki müstesna yerleriyle geçmişle gelecek arasında kiymetli bir köprü vazifesi gördükleri gerçeğini de izhar etmektedir. Ümit ederim ki, konferans vesilesiyle gençlerimiz Haydar Aliyev ve benzeri üstün şahsiyetlerin Türk devletleri ve halkları arasındaki kardeşlik baglarının güçlendirilmesi yolunda çektikleri zahmet, gösterdikleri azim ve fedakârlık ile göğüsledikleri zorlukları öğrenme imkânı bulacaklardır.

Bu vesileyle, Size bu değerli konferansı teşkil ettiğiniz için teşekkürlerimi sunar, konferansa başarılar dilerim. Konferansın degerli katılımcılarına selamlarımı bildiririm.

**Kubanıçbek ÖMÜRALİYEV**

**KONFRANSIN PLENAR İCLASININ AÇILIŞ MƏRASİMİNDƏ TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ, AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASININ SƏDRİ, AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİNİN REKTORU, MİLLƏT VƏKİLİ PROFESSOR ELDAR QULİYEVİN**

# ÇIXIŞI

Hörmətli konfrans iştirakçıları! Əziz qonaqlar! İlk növbədə Azərbaycan Ağsaqqallar Şurasının, Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan İqtisadçılar İttifaqının adından hamınıza "xoş gəlmişsiniz" deyirəm. Artıq qeyd edildiyi kimi, bizim beynəlxalq elmi–praktik konfransda Türkiyədən, Özbəkistandan, Türkmənistandan, Gürcüstandan, Kırğızıstandan, Pakistandan, Qazaxıstandan, Şimali Kipr Türk Cumhuriyyəti dövlətlərindən qonaqlarımız var, bir daha onları salamlayıram. Konfrasın hazırlanmasında təşkilat məsələlərində bizə yaxından köməklik göstərmiş Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov və Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri Elnur Vəlizadə iştirak edirlər.

Əziz konfrans iştirakçıları! Bildiyiniz kimi, keçən ilin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları sərəncam imzalayaraq, 2023 – cü ili "Heydər Əliyev ili" elan etdi. Bu gün bütün azərbaycan xalqı, dünya azərbaycanlıları və eləcə də türk xalqları, ayrı – ayrı dövlətlər ümummilli liderimiz Heydər Əliyevin 100 illiyini təntənəli şəkildə qeyd edirlər. Bu tədbirlərdə Heydər Əliyevin həyat və yaradıcılığından, o dövrdəki Azərbaycana verdiyi qiymətindən, onun qorunmasından, iqtisadiyyatın güclənməsindən həm orta nəsilə, həm də cavanlara ətraflı məlumatlar verilir.

Heydər Əliyevin həyatına nəzər salsaq görərik ki, 1923-cü ildə anadan olandan sonra yeniyetmə və gənclik çağlarında ağır vaxtlar keçirdib. Amma buna baxmayaraq, Bakı Dövlət Universitetini bitirib, sonra Leninqrad, indiki Sankt-Peterburq Universitetində "Dövlət Təhlükəsizliyi" ixtisası üzrə bir illik əlavə təhsil alıb. O, Azərbaycana qayıdanda Dövlət Təhlükəsizlik Komitəsində şöbə müdiri, idarə rəisi, sədrin müavini və ilk olaraq SSRİ dövründə o, milli kadr kimi, sədr seçilmişdir. 1969–cu ildə Heydər Əliyev cənabları Azərbaycan Kommunist Partiyasının birinci katib təyin olundu. Əlbəttə, Azərbaycan o dövrlərdə iqtisadiyyatın bütün sahələrində böyük tənəzzülə uğramışdı. Baxmıyaraq ki, SSRİ tərkibində olan respublikalardan biri idi. 14 il ərzində Heydər Əliyevin rəhbərlik dövründə Azərbaycanın inkişafında böyük canlanma başladı. Yəni tək şəhərlərdə yox, hər bir kənddə, hər bir qəsəbədə canlanma o dərəcəyə gəldi catdı ki, Azərbaycan bu müddət ərzində 14 il ərzində 14 dəfə ardıcıl Kecici Bayraq aldı. Bu da bilavasitə Heydər Əliyevin əməyinin bəhrəsi idi. Bizim ən böyük xoşbəxtliyimiz o olub ki, həmin dövrlərdə biz də müxtəlif sahələrdə çalışmışıq və Ulu öndər bizim üçün canlı məktəb olub. O dövrdə biz də Heydər Əliyev yolu ilə getməyi arzu edirdik.

1982-ci ildə Heydər Əliyev Moskvaya çağırıldı və orada ən böyük vəzifələrə, əvvəlcə Sov.İKP Siyasi Büronun üzvü seçildi və ardınca SSRİ Nazirlər Şurası sədrinin birinci müavini təyin edildi. Ən ağır sahələrdə fəaliyyət göstərirdi. Sonradan 1990–cı ildə Heydər Əliyev Azərbaycana qayıtdı və Naxçıvanda Ali Sovetin sədri seçildi. O dövrlər çox ağır dövrlər idi. Sözsüz ki, ən böyük arzumuz idi ki, torpaqlarımız işğaldan azad olunsun. O vaxtlar Azərbaycanın nə ordusu var idi, nə də hakimiyyətdə olan səriştəli rəhbərliyi Musavat və AXCP öz aralarında münaqişələrdən başqa torpaqların hansısa şəkildə azad olunması problemləri ilə yaxından məşğul olmurdu. Hansı ki, ölkəmizin 20% ərazisi Ermənistan tərəfindən işğal olunmuşdu və bu ərazilərdən qovulmuş 1,0 milyona yaxın əhalimiz məcburi köçkün və qaçqın vəziyyətinə düşmüşdü.

O dövrdə Azərbaycan xalgı ayağa qalxaraq yekdilliklə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etdi. Xahiş olundu ki, o Naxçıvandan Bakıya gəlsin. Heydər Əliyev Bakıya gələn kimi Azərbaycanın iqtisadiyyatında inkişaf başladı. Azərbaycan ilk növbədə öz neft məhsullarını xarici bazarlara çıxartmaq üçün, o dövrlərdə 9 ölkə arasında "Əsrin müqaviləsi" bağlanıldı. İlk ildə Azərbaycana 6 mlrd. dollar invesitisiya qoyuldu. Bu da o dövr üçün çox böyük vəsait idi. Bunula da Azərbaycan genişmiqyaslı inkişafa başladı. Heydər Əliyevin çox böyük arzuları var idi. Bir qismini özü həyata keçirtdi, bir qismini isə 2003-cü ildə Prezident seçilmiş onun layiqli davamçısı İlham Əliyev cənabları uğurla yarımçıq qalan işləri başa çatdırdı. Xalqımız İlham Əliyev cənablarına ehtimad göstərdi və bu gün biz çox fəxr edirik ki, bizim Prezidentimiz İlham Əliyevdir.

Bu gün Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişaf edir, Azərbaycanın ordusu dünyanın tanınmış orduları sırasında yer almışdır. İqtisadiyyatın bütün sahələri inkişaf elədi. Azərbaycanın sosial – iqtisadi inkişafına dair Strateji Yol Xəritələri qəbul olundu. Heydər Əliyevin ən böyük arzusu işğalda olan torpaqların qaytarılması və Azərbaycanın bütövlüyünün təmin olunması idi. İkinci arzusu o idi ki, türk dövlətləri ilə bir yerdə olmaq. Bilirsiz ki, o dövrlərdə Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələn kimi, birinci növbədə Türkiyə ilə əlaqələri gücləndirildi. Məşhur kəlam da ordan yarandı: "Bir millət, iki dövlət". Biz artıq deyə bilərik ki, biz 6 millət, bir dövlətik. Baxmayaraq ki, İlham Əliyev hərbiçi deyil, o çox yüksək döyüş qabiliyyətli səviyyədə ordu yaratdı. Biz hər zaman istəmişik sülh yolu ilə torpaqlarımız qayıtsın. Lakin düşmənlərimiz həmişə təxribatlar hazırlayıblar bizə qarşı. Bu təxribatlara cavab olaraq, Ali Baş Komandan 27 sentyabr 2020-ci ildə ordumuza göstəriş verdi və 44 günlük müharibə ərzində biz demək olar ki, tamamilə torpaqlarımızı işğaldan azad elədik.

Bir sözlə, artıq Türk Dövlətlərinin Təşkilatı yaranıb. Bunun yaradıcıları Türkiyənin Cumhur başqanı Rəcəb Təyyub Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev cənabları oldular. İlk dəfə Naxçıvanda yarandı. Keçən ildən etibarən isə türk dilli dövlətlərin Təşkilatı yarandı. İstər Şimalda, istər Avropada, istər Cənubda çox qısqanclıqla türk birliyinə baxırlar. Amma türk həmişə sülhün tərəfdarı olub, başqasının torpağında heç vaxt gözü olmayıb.

Bir daha konfrans iştirakçılarını salamlayıram, onlara tədbirimizdə fəal iştirakları üçün öz minnətdarlığımı bildirirəm və konfransımızın işinə uğurlar diləyirəm.

***Diqqətinizə görə təşəkkür edirəm!***

# PLENAR İCLASDAKI ÇIXIŞLAR

*Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ*
*akademik, Milli Məclisin deputatı,*
*Azərbaycan İqtisadçılar İttifaqının sədri*

## HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASININ İQTİSADİ İNKİŞAF STRATEGİYASI

**Hörmətli konfrans iştirakçıları!**

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin rəhbəri seçildiyi andan Azərbaycanın Türkiyə, türkdilli dövlətlərlə münasibətlərinin qurulması, xalqlarımız arasında dostluq, qardaşlıq əməkdaşlığının inkişafı üçün titanik fəaliyyət göstərdi. Bu gün hər birimiz tam məsuliyyət və qürurla deyirik ki, Ulu Öndər türk dövlətləri arasında sağlam, faydalı əməkdaşlığın əsaslarını yaratdı. Bu əsaslara söykənərək, türk dövlətləri qlobal təhdidlərə baxmayaraq, inkişaf edir, öz iqtisadi, siyasi gücünü artırır, dünyada nüfuz, söz sahibinə çevrilirlər.

Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş bu möhtəşəm elmi konfransda biz fəxrlə bildiririk ki, Türkiyənin Mustafa Kamal Atatürkü və Azərbaycanın Heydər Əliyevi türk dünyasının XX əsrdə yetişdirdiyi nadir şəxsiyyətlərdir. Bu iki görkəmli şəxsiyyətin çox dəyərli iqtisadi platformaları, baxışları olub ki, bunların da ana xəttini Türkiyə və Azərbaycanın, cəmi türk dövlətlərinin iqtisadi-siyasi cəhətdən güclü dövlətlər səviyyəsinə yüksəlmələri təşkil edir.

Bu, bir həqiqətdir ki, əlverişli geostrateji və coğrafi mövqedə yerləşən türk dövlətləri dünyəvi əhəmiyyət kəsb edən inteqrasiya prosesləri üçün çox böyük potensiala malikdirlər.

1993-cü ilin may-iyununda Azərbaycanda hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində müstəqilliyimizin itirilməsi təhlükəsi yarandıqda xalqımızın tələbi ilə zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev yenidən böyük siyasətə qayıtdı. O, böhran vəziyyətində olan ölkə iqtisadiyyatını dirçəltmək, dövlətimizin müstəqilliyini qorumaq, iqtisdi təhlükəsizliyini təmin etmək üçün neft amilini ön plana çəkdi, dünyanın aparıcı neft şirkətləri ilə əməkdaşlığın qurulması üçün əməli tədbirlər həyata keçirdi.

1994-cü ilin 20 sentyabrında Azərbaycan hökuməti dünyanın aparıcı şirkətləri ilə “Əsrin müqavilə”sini imzaladı. Bu böyük tarixi hadisəyə həsr edilmiş mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirdi ki, müqavilənin reallaşması ölkəmizin tərəqqisinə güclü təkan verəcək, müstəqilliyimizin əsaslarını möhkəmləndirəcək, respublikamızın iqtisadi, sosial həyatında fundamental dəyişikliklər yaradacaqdır.

1999-cu ilin noyabr ayında İstanbulda keçirilən ATƏT-in zirvə görüşündə Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan rəhbərləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlamaq üçün anlaşma sənədi imzaladılar. 2002-ci il iyunun 22-də İstanbulun “Konrad” hotelində “Üç Dənizin Əfsanəsi” konfransı keçirildi. Tədbirdə Azərbaycan Prezidenti Heydər Əliyev dedi:

“Biz Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında hələ 1994-cü ildən düşünürdük. Amma o vaxtlar buna inanan çox az idi. Mane olanlar da çox idi və bu günə qədər də bəziləri hesab edirlər ki, bu, xəyaldır. Yaxud da deyirlər ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə ixrac edilməsi üçün Xəzər dənizində yetərli qədər neft yoxdur. Onlara cavab verərək, mən bu gün demək istəyirəm ki, 2010-cu ildə “Azəri-Çıraq-Günəşli” yataqlarından 50 milyon ton neft hasil olunacaqdır və bu da Bakı-Tbilisi-Ceyhan boru kəmərinin işləməsi üçün tamamilə bəsdir. Amma bir bu deyil, başqa yataqlar da var.”

Heydər Əliyev bildirdi ki, vaxtilə Xəzər dənizindən Qara dənizə, oradan da Aralıq dənizinə qədər gedəcəyimizi təsəvvür etməzdik, indi 2 min kilometr uzunluğunda böyük bir neft kəməri çəkilir. Bu, həqiqətən, əfsanədir.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində Heydər Əliyev Adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev dedi:

**“Heydər Əliyevin adını həm Bakı-Tbilisi-Ceyhan, həm də Ceyhan terminalı daşıyır. Heydər Əliyev bu layihələrin təşəbbüskarı, onların memarı olmuşdur. Mən bu gün çox təəssüf edirəm ki, o, bu günləri görmədi. Allah ona bunu nəsib etmədi. Amma inanıram ki, onun ruhu bu gün bizimlədir. Bizimlə bərabər onun ruhu bu gün şaddır. Azərbaycan, Gürcüstan və Türkiyənin işbirliyi, qardaşlığı, əməkdaşlığı bundan sonra da möhkəmlənəcək və bizim bölgəyə sülh, sabitlik gətirəcəkdir.”**

Ardınca Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bu hadisə münasibətilə hamını təbrik edərək dedi: **“Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gerçəyə çevrildiyinin şahidi oluruq. Bakı-Tbilisi-Ceyhan bir mühəndislik əsəri olmaqla yanaşı, ekoloji baxımdan da uğur nümunəsidir. Bakı-Tbilisi-Ceyhan bölgənin ekologiyasını dəyişdirəcək strateji bir layihədir. Bu layihə “XXI əsrin İpək Yolu” adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən mühüm xəttini təşkil etməkdədir. Bölgəmizin həm sabitliyi, həm də iqtisadi və sosial inkişafı baxımından son dərəcə taleyüklü layihədir”.**

Ümumiyyətlə, türk dünyası ölkələri yanacaq-enerji resurslarına görə xeyli dərəcədə yaxşı təmin olunmaları ilə fərqlənirlər. Dünyanın ümumi 45 milyon kv.km-lik neftli-qazlı sahəsinin 6,6 faizi türk dünyası ölkələrinin payına düşür.

Bu o deməkdir ki, həmin ölkələrin müstəqilliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi dirçəlişinin və təhlükəsizliyinin təmin edilməsi üçün neft-qaz amilindən istifadə imkanları son dərəcə artmışdır.

Türk dünyası ölkələri ərazisində neft və təbii qaz ehtiyatları qeyri-bərabər paylanıldığından yanacaq məhsullarına olan tələbatı ödəmək üçün bu ölkələrin qarşılıqlı iqtisadi münasibətlərinin dərinləşməsi istiqamətində böyük işlər görülür.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında dahi xidmətlərindən biri də Qədim “İpək Yolu” nəqliyyat dəhlizinin yenidən bərpası prosesində Azərbaycanın aktiv iştirakının təmin edilməsi üçün titanik fəaliyyəti ilə bağlıdır. O, qəti əmin idi ki, bu tarixi nəqliyyat dəhlizinin işə düşməsi bütövlükdə türk dünyasının dirçəlişinə də böyük təsir göstərəcəkdir.

Qədim «İpək yolu»nun bərpası və orada Azərbaycanın aktiv iştirakı qlobal, əhatə dairəsi, miqyası çox böyük olan bir məsələdir ki, onun da həllində Heydər Əliyev müstəsna rol oynadı. **1998-ci ilin sentyabrında Bakıda Qədim “İpək Yolu”nun bərpasına həsr olunmuş möhtəşəm bir konfrans keçirildi.** Konfransda Avropa ilə Şərqi birləşdirən İpək yolu nəqliyyat dəhlizinin Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə inkişafına xidmət edəcək bəyamnamə qəbul edildi. Bakı Sammitinin dövlətimiz, millətimiz, türk dünyası üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etməsi barədə Ulu Öndərin fikirlərini diqqətinizə çatdırmaq istəyirəm. O demişdi:

**“Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Biz tariximizi yaxşı bilirik və ona görə də cəsarətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində belə böyük beynəlxalq konfransın keçirilməsi ilk hadisədir. Mən bir də deyirəm və qətiyyətlə, cəsarətlə deyirəm ki, tarixə nəzər salarkən Azərbaycan Respublikasının, dövlətinin, ölkəsinin tarixində bu, ilk böyük beynəlxalq konfransdır. Biz bunu yüksək qiymətləndirməliyik və bu, Azərbaycan xalqının, dövlətinin böyük nailiyyəti kimi qiymətləndirilməlidir.**

**Bu, bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Bu, böyük tarixi hadisədir. Biz müstəqil dövlət kimi Bakı Sammitində 32 dövlətin və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın - tarixi İpək yolunun bərpası proqramının əsasını qoyduq.”**

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Xəzərin statusunun qəbul edilməs, Yeni Bakı limanının, Bakı Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Xəzər Dənizçilik Donanmasının müasir gəmilərlə təminatnın ildən-ilə yaxşılaşması, Ələt Xüsusi İqtisadi Zonasının yaradılması, eləcə də nəqliyyat kompleksinin inkişafına xidmət edən mühüm tədbirlərin həyata keçirilməsi təkcə Azərbaycanın deyil, Türk dövlətlərinin iqtisadi gücünü, beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artıracaq.

Prezident İlham Əliyev 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən Türkdilli dövlətlərin zirvə görüşündə demişdi:

“Bugünkü zirvə görüşümüz çox gözəl və əlamətdar bir hadisədir. Əminəm ki, zirvə görüşünün

nəticələri gözəl olacaq, çox səmərəli işləyəcəyik və qəbul ediləcək qərarlar bizim birliyimizi daha da gücləndirəcəkdir... Mən əminəm ki, bizim birliyimiz bundan sonra daha da güclənəcəkdir. Bunu etmək üçün bütün imkanlar vardır.

Bizi müştərək tarix birləşdirir, tarixi-mədəni köklər birləşdirir. Biz öz işimizi bu möhkəm təməl üzərində qururuq. Bizim birliyimiz təkcə ölkələrimizi gücləndirmir, bizim birliyimiz böyük mənada regional əməkdaşlığın da çox vacib amilidir.

Biz çox istəyirik ki, aramızda olan iqtisadi əlaqələr daha da sürətlə inkişaf etsin. Bunu etmək üçün yaxşı imkanlar vardır. Biz iqtisadiyyatlarımızın bir-birini tamamlanması üçün bütün imkanlardan istifadə etməliyik. Ən əsas məqamlardan biri də odur ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır."

Bu gün türk dövlətlərində ümumi dirçəlişə güclü təsir göstərən islahatlar aparılır. Qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edən qanunvericilk bazası yaradılır. Bununla belə, onların iqtisadi yüksəlişi üçün hələ də istifadə olunmayan geniş imkanlar vardır.

Əlverişli demoqrafik şəraitə malik olan türk dövlətlərində yeni iş yerlərinin ildən-ilə artmasına baxmayaraq, işsizlik, ölkədaxili regionlar arasında inkişaf səviyyəsinə görə fərqlər hələ də böyükdür. Bir sıra türk dövlətlərində dünya üzrə ümumi daxili məhsulun 1,4 faizi, sənaye məhsulunun isə 1,2 faizi istehsal edilir. Əlbəttə, bu rəqəmlər qənaətbəxş sayıla bilməz. Onu da qeyd etmək lazımdır ki, türkdilli dövlətlərin iqtisadi inkişaf səviyyəsində böyük fərqlər mövcuddur. Türkiyədə adambaşına ümumi daxili məhsulun həcmi türk dövlətləri üzrə orta göstəricidən xeyli yuxarıdır. Hər nəfərə düşən ÜDM-in həcmi isə Türkiyədə Qərbin inkişaf etmiş dövlətlərindən 3 dəfədən aşağıdır. Rusiyanın tərkibindəki türkdilli muxtar qurumların da sosial-iqtisadi inkişaf sahəsində problemlər az deyildir. Bütün bunlar onu deməyə əsas verir ki, türkdilli dövlətlər, qurumlar arasında əməkdaşlığın genişləndirilməsi, bütövlükdə türkdilli dövlətlərin iqtisadi inkişaf sürətinin artırılması imkanlarından daha səmərəli istifadə edilməsi qarşıdakı dövrdə əsas hədəflərdən olmalıdır. Müqayisəli araşdırmalar göstərir ki, türk dünyası ölkələri yanacaq-enerji resurslarına görə daha yaxşı təmin olunmaları ilə fərqlənirlər.

Türk dövlətlərinin dinamik və keyfiyyətli inkişafında qarşılıqlı əməkdaşlığın rolunu artırmaq məqsədilə 2023-cü ildə Azərbaycan Respublikası, Qazaxısan Respublikası, Qırğızıstan Respublikası, Türkiyə Respublikası Türk dövlətləri təşkilatının (TDT) üzvləri kimi Türk İnvestisiya Fondunun yaradılması haqqında saziş imzalayıblar. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT iştirakçı dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir.

Fond öz məqsədini həyata keçirmək üçün investisiya fəaliyyəti vasitəsilə aşağıdakı funksiya və səlahiyyətlərə malikdir: regiondaxili ticarətin təşviqində yardım etmək; xüsusilə mikro, kiçik və orta müəssisələrə aid olan layihələri maliyyələşdirmək; beynəlxalq və milli maliyyə və inkişaf institutları, eləcə də ticarət palataları və özəl müəssisələr ilə əməkdaşlıq etmək və birgə maliyyələşdirmək; nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsini dəstəkləmək; dövlət-özəl tərəfdaşlığı daxil olmaqla fiziki və rəqəmsal infrastrukturun yaradılmasını və modernləşdirilməsini dəstəkləmək; sənaye istehsalı, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, informasiya və kommunikasiya texnologiyaları və turizm daxil olmaqla qarşılıqlı maraq doğuran sahələrdə inkişaf layihələrini dəstəkləmək; enerji səmərəliliyi, bərpa olunan enerji və ətraf mühitin mühafizəsinə investisiya yatırmaqla yaşıl iqtisadiyyata töhfə verən layihələri maliyyələşdirmək; zəruri hesab edildikdə investisiya layihələrinin hazırlanması üçün yardım və maliyyə dəstəyi təmin etmək; öz məqsədinə nail olmaq üçün bu cür başqa fəaliyyətləri həyata keçirmək və bu cür başqa xidmətləri təmin etmək.

Türk dövlətləri təşkilatına üzv dövlətlər beynəlxalq ticarət əlaqələrində fəal iştirak edirlər. Bu dövlətlərin xarici ticarət dövriyyəsi 2022-ci ildə 800 milyard dollara yaxın olub. Onu da qeyd edək ki, Azərbaycanda uzun illərdir ki, tədiyə balansı müsbət saldo ilə formalaşır. Eyni müsbət meyillər Qazaxıstanda da özünü göstərir. Xarici ticarət dövriyyəsi 620 milyard dollardan çox olan Türkiyədə qlobal təhdidlərə baxmayaraq, ölkə iqtisadiyyatının inkişafı, onun rəqabətədavamlılığının artırılması, inflyasiyanın azaldılması, tədiyə balansının göstəricilərinin yaxşılaşdırılması istiqamətində böyük işlər görülür.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il martın 16-da şəxsi təşəbbüsü ilə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə xüsusi olaraq vurğuladı ki, **«Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir. 2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir.»**

Son 20 ildə Türkiyədə baş verən iqtisadi artım bu ölkənin əvvəlki 80 illik tarixinin iqtisadi göstəricilərindən qat-qat yüksəkdir.

Müqayisə üçün qeyd edək ki, Türkiyənin 2003-cü ilədək 80 illik Cümhuriyyət dönəmində toplam ixracatı 395 milyard 22 milyon dollar olduğu halda, son 20 ildə 2 trilyon 793 milyard dollara çatmışdır. AKP-yədək Türkiyənin illik ortalama ixracı 4,9 milyard dollar olduğu halda, son 20 ilin ortalaması illik 139,6 milyard 650 milyon dollardır. Yalnız son 2 ildə ixracatın həcmi 460 milyard dollar olmuşdur ki, bu da 2003-cü ilədək olan 80 il ərzində ixracatın həcmindən 16,4 faiz çoxdur.

Razılıq hissi ilə qeyd edilməlidir ki, türk dövlətlərinin yaxın və uzaq gələcək üçün müəyyən edilmiş inkişaf strategiyalarında iqtisadi artımın sürətləndirilməsi, əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilərin yaxşılaşdırılması əsas hədəflər kimi götürülmüşdür.

Bu nəcib məqsədlərə nail olmaq üçün onların böyük imkanları var. Bu imkanlardan daha səmərəli istifadə edilməlidir ki, türk dövlətlərinin iqtisadi qüdrəti daha da möhkəmlənsin, xalqlarımızın keyfiyyətli həyat səviyyəsi təmin edilsin, türk dövlətlərinin inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində daha cəsarətli addımlar atılsın.

Heç şübhəsiz ki, türk dövlətlərinin möhkəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyətləri nəzərdə tutulmuş strateji layihələrin uğurla reallaşmasında əhəmiyyətli rol oynayacaq, dünyada əmin-əmanlığın, sabitliyin qorunmasına öz layiqli töhfəsini verəcəkdir.

2020-ci ildə Azərbaycan erməni faşizmi üzərində parlaq qələbə çalaraq, öz ərazi bütövlüyünü təmin etdi.

***

Erməni faşizminə qarşı Vətən müharibəsi Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirdi, sarsılmaz etdi. Türk dünyasının öndərləri olan Heydər Əliyevin **«Bir millət iki dövlət»** və Mustafa Kamal Atatürkün **«Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir»** kəlamları bir daha öz təsdiqini tapdı. Prezident İlham Əliyev bizim müştərək, ortaq şanlı tariximiz olduğunu bildirərək deyib: **«Otuz illik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər – Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq.»**

Bu səfərlə bağlı başqa bir maraqlı məqam tarixin seçilməsi ilə bağlıdır. Türkiyə Prezidentinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə ilk dəfə səfər etdiyini nəzərə alsaq, o zaman səfərin günü və təyinat nöqtəsi seçiminin heç də təsadüfi olmadığını deyə bilərik. *Adətən bir xalqın, bir ölkənin taleyində xüsusi əhəmiyyət kəsb edən əlamətdar günləri tarixi gün adlandırırlar. Necə ki, iyun ayının 15-i Azərbaycan xalqı üçün müstəsna əhəmiyyət kəsb edən tarixi günlərdən biridir. 1993-cü ilin məhz bu günündə Ulu Öndər Heydər Əliyev öz xilaskarlıq missiyasını yerinə yetirmək üçün Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan xalqı bu tarixi ümumxalq bayramı olaraq böyük təntənə ilə qeyd edir. Lakin bundan sonra gələcək nəsillər iyunun 15-ni yalnız bir tarixi gün kimi deyil, həm də bütün türk dünyasının ən yeni tarixinin bir başlanğıc nöqtəsi kimi də qeyd edəcəklər.* ***2021-ci ilin iyun ayının 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə***

***Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qədim Azərbaycan şəhəri, türk mədəniyyətinin beşiyi olan Şuşada, sözün əsl mənasında, tarix yazdılar.*** Səfərin məhz 15 iyun tarixində baş tutmasını isə bu əlamətdar günün Azərbaycan xalqının tarixində həqiqətən böyük başlanğıclar günü olduğuna işarə kimi qəbul etmək lazımdır. Ulu Öndərin dühasından doğan Qurtuluş yolunun bu gün bütün türk dünyasının yeni formatda birliyinə aparan bir başlanğıc olması Heydər Əliyev siyasi kursunun bundan sonra da bütün bəşəriyyətin rifahına, inkişafına misilsiz töhfələr verəcəyini göstərir.

Milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Bu müstəvidə Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Bəyannamədə deyilir: **«Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək, birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.»**

Belə bir müddəanın Bəyannamədə yer alması bu gün Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm mesajdır və tərəflərdən birinin ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, digər tərəfin öz ordusu ilə onun yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Təbii ki, öncə söhbət bölgədə əsrlərdir erməni məsələsi adı altında öz dövlət maraqlarını reallaşdırmaq istəyən hərbi-siyasi dairələrdən gedir. Artıq onların hər biri bilir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

Hazırda davamlı inkişafda olan Azərbaycan-Türkiyə münasibətləri bütün beynəlxalq təşkilatlarda, habelə Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, TÜRKPA, Beynəlxalq Türk Mədəniyyəti və İrs Fondu kimi beynəlxalq və regional təşkilatlar, həmçinin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiya, Kənd Təsərrüfatı İcra Komitəsi, Quru Nəqliyyatı üzrə Birgə Komissiya, Gömrük Məsələləri üzrə Birgə Komitə, Azərbaycan-Türkiyə Qarışıq Komissiyası kimi mexanizmlər çərçivəsində genişlənməkdə və möhkəmlənməkdədir.

Araşdırmalar, proqnozlar göstərir ki, XXI əsrdə türk dünyasının davamlı inkişafı üçün real zəmin yaranmışdır. Ən mühüm nailiyyət ondan ibarət olacaqdır ki, türk dünyası ölkələrinin bir-birinə yaxınlaşması daimi, dinamik prosesə çevriləcəkdir. Onlar özlərinin tarixi köklərini dərk etdikcə yaxınlaşacaq, birləşəcək, daha da güclənəcək, bir-birinə arxa olacaqlar. İqtisadi əməkdaşlıqdan başlanan yaxınlıq dostluğa, tərəfdaşlığa və birliyə çevriləcəkdir. Bütün bunlarla isə güclü iqtisadiyyatın qurulması ön plana çəkilir. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Dahi Heydər Əliyevin bu tarixi fikirləri türk dünyasının xoşbəxt gələcəyi üçün möhtəşəm bir çağırışdır.

**Diqqətinizə görə sağ olun!**

*Vahid Novruzov*
*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,*
*iqtisad elmləri doktoru, professor*

# MÜSTƏQİL AZƏRBAYCAN - HEYDƏR ƏLİYEV DÜHASININ MƏHSULU

1993-cü ilin səksəkəli yayında ulu öndər Heydər Əliyevin Vətəni sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik" sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi.

Hələ 1994-cü il iyunun 21-də Prezident sarayında keçirilən müşavirədəki yekun nitqində ulu öndər demişdi: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir".

Xalqın təkidli tələbi ilə respublikada siyasi rəhbərliyə qayıdan Heydər Əliyev yeni tarixi şəraitdə iki mühüm vəzifənin – Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsinin aradan qaldırılması, dövlət müstəqilliyimizin qorunub saxlanması və əbədi edilməsi, habelə dünyəvi, demokratik dövlət quruculuğunun həyata keçirilməsi vəzifələrinin həlli istiqamətində cahanşümul işlərə başladı. Müdrik rəhbərimizin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində tarixən qısa zaman kəsiyində dövlət müstəqilliyimizin dönməz xarakter alması təmin olundu, demokratik hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi sabitlik, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu.

Bütün bunların da sayəsində ulu öndər Heydər Əliyev milli dəyərlər zəminində çağdaş dövlətçilik sistemimizin əsaslarını yaradaraq, müstəqilliyimizi əbədi etmişdir. Məhz belə bir tarixi missiyanı müvəffəqiyyətlə həyata keçirmiş Heydər Əliyev Azərbaycan xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider zirvəsini fəth etmişdir.

Başqa sözlə, böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Xalqımız yaxşı bilir ki, müasir Azərbaycan cəmiyyətinin formalaşması və qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş və qalib Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, ulu öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" deyən xalqımızın böyük oğlu, Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, ölkəmizin regionda lider dövlətə çevrilməsinə nail olmuşdur.

Bu gün biz hamımız böyük iftixar hissi ilə qeyd edirik ki, Azərbaycan Respublikasının siyasi tarixinin qürurvericiliyi ulu öndər Heydər Əliyevin adı ilə, onun Azərbaycan xalqının bu gününə və gələcəyinə yönəlmiş uğur siyasəti ilə bağlıdır. Sovet hakimiyyəti illərində Heydər Əliyev təxminən 14 ilə yaxın bir müddət ərzində respublikaya rəhbərlik etmiş və həmin dövrdə onun fəaliyyətinin mühüm istiqamətlərindən birini iqtisadiyyatın səmərəli şəkildə təşkili və idarə edilməsi əsasında respublika əhalisinin maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi problemi təşkil etmişdir. Məlum olduğu kimi, XX əsrin 70-ci illərinin əvvəllərinədək Azərbaycanın iqtisadi və sosial inkişafında lazımi dönüş yaradılmamış, respublikanın malik olduğu iqtisadi, elmi-texniki və humanitar potensialdan tam dolğun və səmərəli şəkildə istifadə edilməmiş, bu isə istər-istəməz sosial-iqtisadi inkişafın ümumi səviyyəsinin o vaxtkı orta İttifaq göstəricilərindən çox aşağı olması ilə nəticələnmişdir. Ağır iqtisadi və sosial şəraitdə respublikada rəhbərliyə gələn Heydər Əliyev həmin vaxt üçün mövcud olan vəziyyəti siyasi uzaqgörənliklə düzgün qiymətləndirmiş, iqtisadiyyatda, sosial-mədəni və mənəvi sahələrdə əsaslı dəyişikliklərin həyata keçirilməsini, iqtisadiyyatın təşkili və inkişafı sahəsində dönüş yaradılmasını başlıca vəzifə kimi müəyyənləşdirərək, çox qısa

zaman kəsiyində bütün əsas göstəricilər üzrə Azərbaycanın keçmiş SSRİ-də öncül mövqelərə çıxmasını təmin etmişdir.

Bütövlükdə, 1970-1982-ci illər Azərbaycan Respublikası üçün böyük quruculuq illəri, iqtisadi inkişafla yanaşı, sosial sferanın da inkişafına böyük qayğı illəri olmuşdur.

1970-ci illə müqayisədə 1982-ci ildə milli gəlir 2,3 dəfə, sənaye məhsulları 2,2 dəfə, kənd təsərrüfatı məhsulları 2,25 dəfə artmışdır. 220-dən çox yeni sənaye müəssisəsi fəaliyyətə başlamışdır.

Təkcə 1971–1975-ci illərdə respublikada 64 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Onlardan Bakı məişət kondisionerləri, Sumqayıt kompressor zavodları, üst trikotaj fabriki, Xankəndi (Stepanakert) ayaqqabı fabriki, Kirovabadda ət kombinatı və qənnadı fabriki, Lənkəranda və Xudatda konserv müəssisələri və başqalarını göstərmək olar.

1971-1975-ci illərdə Azərbaycan Respublikasının neft-maşınqayırma sənayesi SSRİ neftmədən avadanlığının 1/3-dən çoxunu, neftçıxarma texnikasının 70 faizdən çoxunu verirdi. Belə uğurlara dəlalət edən çox faktlar göstərmək olar.

Heydər Əliyev həmin dövrdə sosial-mədəni inkişafın sürətləndirilməsinə də xüsusi fikir verirdi. Məhz bu inkişaf sayəsində Azərbaycan keçmiş SSRİ-nin ən geridə qalan respublikalarından ən qabaqcılına çevrilmişdir.

Lakin ulu öndər SSRİ rəhbərliyinə irəli çəkiləndən sonra Azərbaycanın sosial-iqtisadi inkişafında əldə edilmiş yüksək mövqelər nəinki möhkəmləndirilmiş, əksinə, tədricən itirilmiş, 1989-cu ildən etibarən isə iqtisadiyyatda istehsal həcmi sürətlə aşağı düşməyə başlamışdı. 1991-ci ilin oktyabrında özünün dövlət müstəqilliyini elan edərkən respublikamız əslində siyasi-hərbi böhranla yanaşı, həm də dərin sosial-iqtisadi böhranla üz-üzə qalmışdı. Ölkənin ictimai-siyasi həyatında baş verən mürəkkəb proseslər, iqtisadiyyatda idarəetmə və istehsal intizamının pozulması, Azərbaycanın məcburi cəlb olunduğu müharibə və bunun nəticəsində ayrı-ayrı bölgələrin bir-birinin ardınca Ermənistanın silahlı qüvvələri tərəfindən zəbt edilməsi, qaçqın və məcburi köçkünlər ordusunun gündən-günə artması, müxtəlif şəxslərə və siyasi qruplaşmalara tabe olan silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəyə cəlb edilməsi, separatçılıq meyillərinin güclənməsi, dövlət çevrilişinə cəhdlərin bir-birini əvəzləməsi iqtisadi inkişafa ciddi zərbə vurmuş, məhsul istehsalını kəskin surətdə azaltmış, əhalinin rifahının nəzərəçarpacaq dərəcədə pisləşməsinə səbəb olmuşdu. Nəticədə 1993-cü ildə ÜDM-in həcmi həmin göstəricinin 1988-ci ildəki səviyyəsinin cəmi 60 faizini təşkil etmişdi. 1992-1994-cü illər ərzində real daxili məcmu məhsul ildə orta hesabla 20 faiz, milli gəlir 50 faiz azalmışdı; 1991-ci ildən etibarən hər il dövlət büdcəsi böyük kəsirlə formalaşdığından, yalnız Mərkəzi Bankın yeni kreditləri hesabına maliyyələşdirilirdi. 1993-cü ildə büdcə kəsiri 23,8 milyon manat təşkil etmişdi ki, bu da ÜDM-in 14,4 faizinə bərabər idi; həmin il idxal və ixracın həcmi 50 faizdən çox azalmış, tədiyyə balansında mənfi saldo 23 milyon dollar təşkil etmişdi. 1990-cı illə müqayisədə isə üç ildə ÜDM-in real həcmi iki dəfə azalmış, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz aşağı düşmüş, sürətli inflyasiya prosesi nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı enmişdi.

Azərbaycanın sərbəst bazar münasibətlərinə əsaslanan liberal iqtisadiyyat xəttini dəstəklədiyini dünyaya bəyan edən ulu öndərin böyüklüyü ondadır ki, o, həqiqi müstəqilliyin, siyasi azadlığın iqtisadi qüdrət və inkişafdan keçdiyini bilir və ölkənin məhz belə bir yolla irəliləməsini təqdir edirdi.

Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu.

Azərbaycan iqtisadiyyatının son onilliklərdəki inkişaf tarixi bariz şəkildə göstərir ki, Heydər Əliyev məntiqindəki "müstəqillik - iqtisadiyyat" dialektikası ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli kimi çıxış etmişdir.

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır: 1) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsilə ölkə iqtisadiyyatını inkişaf etdirmək; 2) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan

yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialın bütün Azərbaycan xalqının sərvəti kimi respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək.

Məhz bu baxımdan müstəqillik şəraitində, heç kimə ümid olmadan iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, özü də təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt sayan Heydər Əliyev deyirdi: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın".

Azərbaycanın iqtisadi tərəqqisinin dayaq sütunlarını müəyyən edən Heydər Əliyev ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək, fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın əsasını təşkil edən zəngin bir konsepsiya idi. Bu mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına, kompleks islahatların reallaşmasına möhkəm əsas yaratdı.

Qeyd edilənlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, ulu öndərin iqtisadi siyasət strategiyası 1) sabitləşdirmə, 2) islahatlaşdırma, 3) dünya iqtisadi inteqrasiyasına qoşulma, 4) sosial-iqtisadi inkişaf və bunların da nəticəsində nail olunmuş xalqın rifahının yüksəldilməsi, cəmiyyət həyatının bütün sahələrinə dair düşünülmüş, genişmiqyaslı radikal islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində artıq 1996-cı ildən etibarən yeni Azərbaycan quruculuğunun, o cümlədən milli iqtisadiyyatın sürətli inkişaf və yüksəliş dövrü başlanmışdır.

Bir məsələni də xüsusi vurğulamaq yerinə düşər ki, Ulu öndər həmişə nominal islahatların, yəni islahat xatirinə islahatların aparılmasının əleyhinə olub. İslahatların keçirildiyi bir dövrdə mövcud iqtisadi strukturların və inzibati-amirlik metodlarının olduğu kimi saxlanması onun iqtisadi baxışlar sistemində yolverilməz hesab edilirdi. Əksinə, iqtisadi islahatlar həyata keçirilərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli, kompleks aparılmasını və sosial yönümlü olmasının zəruriliyini vurğulayırdı.

Heydər Əliyevin konkret situasiyaya və ölkənin iqtisadi “landşaftına” hesablanmış iqtisadi konsepsiyasına əsasən islahatların üç mərhələdə həyata keçirilməsi daha məqsədəuyğun hesab edilmişdi: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadiyyatın dirçəlişinə və yüksək xətlə inkişafına nail olmaq lazımdır.

Hər bir mərhələyə uyğun olaraq, həmin illərdə məqsədli kompleks proqramlar işlənib hazırlanmış, onların həyata keçirilmə müddətləri müəyyən edilmişdi. Kompleks proqramların məqsədi minimum itkilərlə və sosial çaxnaşmalarsız böhrandan çıxmaq, cari tədbirlərdən perspektiv tədbirlərə adlamaq idi. Birinci mərhələni, xalq üçün ağır olduğuna görə, mümkün qədər sürətlə həyata keçirmək nəzərdə tutulurdu. Bu dövrdə reallaşdırılan sosial təmayüllü bazar iqtisadiyyatına keçid konsepsiyası dövlətin optimal tənzimləmə roluna əsaslanırdı.

Beləliklə, Heydər Əliyev islahatları dünya təcrübəsində müşahidə etdiyimiz bütün proqramlardan əsas bir əlaməti ilə fərqlənir: onun islahatlar keçirdiyi ölkə dörd bir tərəfdən blokada, müharibə və sosial sarsıntılar (qaçqınlar problemi) içərisində olmasına baxmayaraq, Azərbaycanı 1993-cü ildən 1997-ci ilin iqtisadi artımına ardıcıl siyasi və iqtisadi addımlar həyata keçirməklə gətirmişdir.

İslahatlar aparılarkən xarici ölkələrin təcrübəsindən yaradıcılıqla bəhrələnməyi daim tövsiyə etməklə yanaşı, həmin işdə kor-koranə ehkamçılığa və tələskənliyə qarşı çıxan Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, “bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir” və “yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla” həyata keçirilməlidir.

Keçid dövrünün Azərbaycan üçün xarakterik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi islahatların aparılması onun müvəffəqiyyətini təmin etmişdir və burada Heydər Əliyev dühasının əvəzolunmaz rolu vardır. Belə ki, ilk növbədə, onun fövqəladə zəhməti sayəsində bağlanan neft sazış-

ləri iqtisadiyyatın bütün sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynadı.

Çox böyük əhəmiyyəti olan beynəlxalq kontraktların bağlanması, dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, Azərbaycana investisiya axınının güclənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və s. məhz Heydər Əliyevin müdrik daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi mümkün olmuşdur. Bütün bunlar Azərbaycanın sabahına inam yaratmış, respublikamızın ümdə problemlərinin həllinə, əhalinin rifahının yüksələcəyinə böyük ümidlər doğurmuş, xalqın iqtisadi fəallığının artmasına təsir etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik, dünyəvi dövlət quruculuğu və sosial yönümlü bazar prinsiplərinə əsaslanan sosial-iqtisadi inkişaf siyasəti artıq iyirmi ilə yaxındır ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu siyasət Azərbaycanın bölgədə iqtisadi cəhətdən lider dövlətə çevrilməsi və dünya iqtisadi sisteminə uğurla inteqrasiya etməsi, ölkədə sosial problemlərin həlli və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluğun sürətlə azaldılması, işsizlik problemlərinin həlli və infrastrukturun yenidən qurulması istiqamətində mühüm dövlət proqramlarının ardıcıl həyata keçirilməsi üçün möhkəm təməl yaratmışdır.

Ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin səyi ilə tarixən qısa müddət ərzində Azərbaycanın keçid iqtisadiyyatını arxada qoymasına nail olunmuşdur. Ölkədə həyata keçirilən mükəmməl islahatlar konsepsiyasının müəllifi kimi, Prezident İlham Əliyev iqtisadi inkişafın müasir Azərbaycan modelini yaratmışdır. Bu, ölkəmizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, Azərbaycanın iqtisadi tərəqqisinə, hərbi qüdrətimizin gücləndirilməsinə, dünya birliyində köklü mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına xidmət edir.

Bu gün ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin getdikcə artması və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması, misilsiz tarixi qələbəmiz olan 30 il işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir. Ayrı-ayrı dövlət proqramlarında, Böyük Qayıdış strategiyasında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla, ölkənin iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşdırılmasında getdikcə mühüm rol oynayır.

Eyni zamanda, bu gün Azərbaycanda iqtisadiyyatın intensiv inkişafının təmin edilməsi, dövlət büdcəsi mədaxilinin neft sektorundan asılılığının azaldılması, sənayenin, kənd təsərrüfatının, iqtisadiyyatın digər sahələrinin sistemli inkişafı, xalq təsərrüfatının bütün sahələrində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və vətəndaş təşəbbüskarlığına hərtərəfli stimullar yaradılması üçün ardıcıl tədbirlər görülür.

Ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatların ən mühüm elementlərindən biri də onların aşkarlıq şəraitində reallaşdırılmasıdır. Dünya təcrübəsi göstərir ki, aşkarlıq özü ilə tərəqqi gətirirsə, qapalılıq mütləq tənəzzül ilə nəticələnir. Heç də təsadüfi deyildir ki, Partiyamızın Sədri, Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasətində aşkarlıq və şəffaflıq amilinə xüsusi diqqət yetirilir və bu prinsipə əməl olunması hər bir rəhbər işçinin, məmurun və Partiya üzvünün ümdə vəzifəsi hesab edilir.

Şəffaflığın təminatçısı kimi səmərəli və stimullaşdırıcı nəzarət sisteminin yaradılması hər bir ölkədə sosial-iqtisadi inkişafa təminatın vacib amillərindən biri hesab edilir. Bu mənada çox səciyyəvidir ki, Azərbaycanda mövcud nəzarət sisteminin təkmilləşdirilməsi ulu öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən olmuşdur.

Eyni zamanda ölkəmizdə şəffaflığın artırılması investisiya cəlbediciliyinin yüksəldilməsində mühüm rol oynamaqla iqtisadiyyatımızın şaxələndirilməsi, davamlılığın möhkəmləndirilməsi və rəqabətin artırılması nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir ki, bu da Böyük Qayıdış dönəmində çox vacibdir.

Maliyyə intizamının gücləndirilməsi, şəffaflığın artırılması və kölgə iqtisadiyyatı ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən kompleks tədbirlər beynəlxalq təşkilatlar tərəfindən getdikcə

daha yüksək dəyərləndirilir və Azərbaycanın reytinqi stabil olaraq artmaqdadır.

Bununla belə, son illərdə yeni dövrün çağırışları zəminində ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində əldə edilən uğurlu nəticələrlə yanaşı, ölkə iqtisadiyyatının inkişafı yolunda bir sıra əngəllər hələ də tam aradan qaldırılmamışdır ki, bunlardan da biri cinayət yolu ilə əmlakın əldə edilməsi və ondan istifadə olunmasıdır. Çox önəmlidir ki, belə halların yolverilməzliyini kəskin və davamlı olaraq tənqid edən Prezident İlham Əliyevin 2023-cü il 28 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı" bu istiqamətdə çox mühüm kompleks tədbirlərin reallaşdırılmasını hədəfləyir. "Milli Fəaliyyət Planı" öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli sənəd olmaqla, cəmiyyətimiz üçün həyati vacib olan bir sıra sahələri özündə ehtiva edir.

Ulu öndərin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaşımız üçün firavan və rahat həyat şəraitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşmək, Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq ümummilli liderin ruhu qarşısında ən ümdə borcumuzdur.

**Diqqətinizə görə minnətdaram!**

# KONFRANSIN GEDİŞİNDƏN FOTOGÖRÜNTÜLƏR






olmasının 100 illik yubileyinə
"HEYDƏR Ə
MÜASİR
elmi-prak
лидера
c-practical


Ümummilli Lider Heydər Əliyevin anadan
olmasının 100 illik yubileyinə həsr olunmuş
"HEYDƏR ƏLİYEV VƏ
SİR TÜRK DÜNYASI"
mövzusunda beynəlxal
i-praktiki konfrans
международная научн
конференция на тем
ТЮРКСКИЙ М
ня рождения
ейдара Алиева
l conference on
N TURKİC WORLD
liyev`s 100 anniversary


alq elmi-praktiki konfrans
ктическая конференция на тему
ЕМЕННЫЙ ТЮРКСКИЙ МИР",
летию со дня рождения
лидера Гейдара Алиева
c-practical conference on
MODERN TURKİC WORLD"
Heydar Aliyev`s 100 anniversary
2 may 2023-cü il
BAKI, AZƏR
Fairmont
BAKU


nadan
lunmuş
K DÜNYASI"
konfrans
ференция на
ОРКСКИЙ
ждения
а Алиева
erence on
Fairmont
BAKU


AĞSAQQALLAR
ŞURASI
Ümummilli Lider Heydər Əliyevin anadan
olmasının 100 illik yubileyinə həsr olunmuş
Fairmont
BAKU


Ümummilli Lider Heydər Əliyevin anadan
Fairmont
BAKU


olmasının 100 illik
"HEYDƏR ƏLİYEV VƏ MÜASİR TÜRK
Fairmont
BAKU


AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI
KOOPERASİYA UNİVERSİTETİ
Ümummilli Lider Heydər Əliyevin anadan
olmasının 100 illik yubileyinə həsr olunmuş
"HEYDƏR ƏLİYEV V ÜASİR TÜRK DÜNYASI"
mövzusunda beyn elmi-praktiki konfrans
Fairmont
BAKU


Ümummilli Lider Heydər
olmasının 100 illik yubileyinə h
HEYDƏR ƏLİYEV VƏ MÜASİR
mövzusunda beynəlxalq elmi-pra
научно-практическая
ЛИЕВ И СОВРЕМЕННЫЙ
посвященная 100-летию со дня
общенационального лидера Гей
nternational scientific-practical
AR ALİYEV AND MODERN
ted to national leader
Fairmont
BAKU


anadan
həsr olunmuş
R TÜRK DÜNYASI"
raktiki konfrans
я конференция на те
ИЙ ТЮРКСКИЙ
дня рождения
ейдара Алиева
l conference on
TURKİC WO
Fairmont
BAKU








AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
Ümummilli Lider Heydər Əliyevin anadan
olmasının 100 illik yubileyinə həsr olunmuş
"HEYDƏR ƏLİYEV VƏ MÜASİR TÜRK DÜNYASI"
mövzusunda beynəlxalq elmi-praktiki konfrans
международная научно-практическая конференция на тему


AZƏRBAYCAN
AĞSAQQALLAR
ŞURASI
AZƏRBAYCAN
KOOPERASİYA
UNİVERSİTETİ
AZƏRBAYCAN
İQTİSADÇILAR
İTTİFAQI
Ümummilli Lider Heydər Əliyevin anadan






olmasının 100 illik
ƏLİYEV VƏ
mövzusunda




AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
Ümummilli Lider Heydər Əliyevin anadan
olmasının 100 illik yubileyinə həsr olunmuş

# KONFRANSIN BÖLMƏLƏR ÜZRƏ İŞİ

## I BÖLMƏ

### HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI TÜRK DÖVLƏTLƏRİNİN İQTİSADİ VƏ SİYASİ ƏMƏKDAŞLIĞININ GÜCLÜ İNKİŞAF AMİLİDİR

**UOT: 332:338.012**

***Aygün Eldar qızı QULİYEVA***
***Azərbaycan Kooperasiya Univesitetinin prorektoru,***
***iqtisad elmləri doktoru***
***AZ1124, Azərbaycan Respublikası,***
***Bakı şəhəri, N.Nərimanov küç.93,***
***ORCİD-ID:***
***E-mail: aygun.e.guliyeva@hotmail.com***

# AZƏRBAYCANDA MÜASİR REGİONAL İQTİSADİYYAT QURUCULUĞUNUN FORMALAŞDIRILMASINDA HEYDƏR ƏLİYEV AMİLİ

***Xülasə***

Məqalədə Azərbaycanda müasir regional iqtisadiyyat quruculuğunun formalaşdırılmasında Heydər Əliyev amili araşdırılmışdır. Müstəqilliyin bərpasından sonra Azərbaycanda iqtisadi inkişaf modelinin yaradılmasında və inkişaf etdirilməsində Heydər Əliyevin tarixi xidmətləri təhlil olunmuşdur. Müasir şəraitdə Azərbaycanda regional iqtisadiyyat quruculuğunun yaradılmasında Heydər Əliyevin roluna dair ümumiləşdirmələr aparılmışdır.

***Açar sözlər: Heydər Əliyev, Azərbaycan, müasir regional iqtisadiyyat, iqtisadiyyat quruculuğu, regional iqtisadiyyatın inkişaf etdirilməsi.***

***

Müasir dövrdə ölkə regionlarının idarə olunması, idarəetmə proseslərinin təkmilləşməsi, regionların resurslarından səmərəli istifadə edilməsi çox mühüm aktuallıq tələb edir. Belə ki, ölkə iqtisadiyyatının strukturu təkmilləşdikcə, yeni iqtisadi artım mənbələrinin yaranmasına ehtiyac artdıqca, digər tərəfdən ölkəmizdə qeyri-neft sektorunun prioritetliyi baxımından daha yüksək hədəflər qarşıya qoyulduqca ölkə regionlarının resurslarından maksimum səmərəli istifadə edilməsi, onların təsərrüfat və maliyyə dövriyyəsinə cəlb olunması, regionlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi məsələləri ön plana çıxır. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı və xüsusilə aqrar islahatların aparılması vasitəsilə kənd rayonlarının inkişaf etdirilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1990-cı illərin ortalarında aqrar sahənin inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin formalaşdırılması və qida təhlükəsizliyi tədbirlərinin görülməsi məqsədilə qanunvericilik bazası gücləndirilmiş və zəruri tədbirlər görülmüşdür [4, s. 224]. Eyni zamanda, aqrar islahatların aparılması və bu sahədə modernləşdirmə imkanlarının səfərbər edilməsi də Ulu Öndərin adı ilə bağlıdır. “İnkişaf etməkdə olan ölkələr sırasında önəmli yeri olan Azərbaycan Respublikasında xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyi şəraitində həyata keçirilən uğurlu və köklü islahatlar nəticəsində nisbətən qısa müddət ərzində bazar təsərrüfatçılığı sisteminə adekvat aqrar strukturun yaradılması təmin olunmuşdur” [1, s.7].

Azərbaycanda son 15-20 il ərzində regionların sosial-iqtisadi inkişafı üçün konseptual, praktiki baxımdan xeyli işlər görülmüşdür. 2004-cü ildən başlayaraq, bir-birinin ardınca regionların sosial-iqtisadi inkişafı proqramları həyata keçirilmişdir. Əgər bu proqramların mənzərəsini praktiki fəaliyyət istiqamətlərinin ifadəsi kimi qeyd etmək istəsək, bir sıra məqamları xüsusi olaraq fərqləndirə bilərik: 1) 2004-2008-ci illərdə ölkə regionlarında, ilk növbədə, sosial və istehsal infrastrukturunun yaradılması və əsas etibarilə üstünlüyün sosial-iqtisadi əhəmiyyət kəsb edən infrastruktur layihələrinə verilməsi baş vermişdir. Çünki, həmin dövrdə regionlarda vəziyyət olduqca acınacaqlı idi, körpülər, yollar və regionlar arasında iqtisadi münasibətlərin inkişaf etdirilməsi baxımından xeyli çətinliklər var idi; 2) 2009-2013-cü illərdə isə rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılması və istehsal infrastrukturunun yaradılması, formalaşdırılması, inkişaf etdirilməsi prosesləri daha çox diqqəti cəlb edir. Həmin dövrdə ölkə regionlarının iqtisadi cəhətdən inkişaf etdirilməsi və sosial problemlərin həlli üçün yeni mənbələr yaradılmışdır; 3) 2014-2018-ci illərdə isə regionların sosial-iqtisadi inkişafında demək olar ki, daha yüksək hədəflər, yəni regionların iqtisadiyyatının formalaşdırılması, rəqabətqabiliyyətli müasir istehsal infrastrukturunda müəssisələr şəbəkə-

sinin yaradılması daha çox fərqlənir; 4) Nəhayət, hazırda icra olunan IV regional sosial inkişaf proqramı 2019-2023-cü illəri əhatə edir və bunların icra edilməsi prosesləri gedir.

Qeyd edək ki, müstəqilliyin bərpasından sonra regionların sosial-iqtisadi inkişafı və ölkə regionlarında resurslardan səmərəli istifadə edilməsinin əsasını bu il 100 illik yubileyi qeyd olunacaq Ulu Öndər Heydər Əliyev qoymuşdur [2]. Heydər Əliyevin rəhbərliyi altında hələ 1970-1985-ci illərdə Azərbaycan Respublikasının sovetlər birliyi tərkibində olduğu dövrdə rayonların sosial-iqtisadi inkişafını, rayonlarda mövcud resurslardan səmərəli istifadə edilməsi və xüsusilə, aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi üçün geniş həcmli işlər görülmüşdür [3, s.16].

Həmin dövrdə Azərbaycan rayonları öz simasını tamamilə dəyişmiş, yollar asfaltlaşdırılmış, rayonlarda yüzlərlə məktəblər, xəstəxanalar, mədəniyyət evləri, idman obyektləri və sosial-iqtisadi əhəmiyyət kəsb edən ictimai binalar və s. tikilmişdir. Eyni zamanda, körpülər salınmış və rayonların siması tamamilə yenilənmişdir. Əhalinin gəlirləri yüksəlmiş, xüsusilə üzümçülük və pambıqçılığın sürətlə inkişaf etdirilməsi sayəsində əhalinin gəlirləri artmış və fərdi evlərin tikintisi üzrə demək olar ki, ciddi dəyişikliklər baş vermişdir. Palçıq-gildən kəsilən kərpic evlərdən əsər-əlamət qalmamış, ölkə vətəndaşları rayonlarda mişar daşından və digər müasir tikinti materiallarından istifadə etməklə yaraşıqlı və geniş fərdi evlər tikmişlər.

Eyni zamanda, rayonların mərkəzlərində beşmərtəbəli, həmin dövr üçün müasir evlər tikilmiş və insanların həyat şəraiti yaxşılaşdırılmış, mənzil fondunun artırılması üçün işlər görülmüşdür. Rayonlarda çoxlu sayda müəssisələr fəaliyyətə başlamış, xüsusilə ət və ət məhsulları, süd və süd məhsullarının emalı üzrə, demək olar ki, hər bir rayonda müəssisələr yaradılmışdır, yağ-pendir zavodları və digər yeyinti məhsulları istehsal edən müəssisələr istismara verilmişdir. Həmçinin, üzümçülük müəssisələri, demək olar ki, ölkənin bütün əksər üzümçülüklə məşğul olan rayonlarında fəaliyyət göstərirdi. Bundan əlavə, həmin dövr üçün yüksək ixrac potensialına malik olan pambıqtəmizləmə zavodları mövcud idi. Əslində yetişdirilən pambıq məhsulundan alınan pambıq mahlıcının – yəni xammal yarımfabrikatının, demək olar ki, əhəmiyyətli hissəsi Rusiya, Belarus və digər sovet respublikalarında olan yüngül sənaye müəssisələrinə göndərilirdi.

1993-2003-cü illərdə ikinci dəfə Azərbaycana hakimiyyətə gələn Ulu Öndər bu məsələləri çox gözəl bildiyindən, işlərin çoxluğuna, Qarabağla və məcburi köçkünlərlə bağlı problemlərin həddindən ziyadə olmasına baxmayaraq, rayonlara səfər edir, yerlərdə vəziyyəti öyrənir və ölkə regionlarının inkişafı üçün əlavə tədbirlərin görülməsinə çalışmışdır. Bütün bunların hesabına əvvəldə qeyd etdiyimiz kimi, məhz həmin dövrdə Azərbaycanın rayonlarında çox böyük dəyişikliyə səbəb olan aqrar islahatlar keçirilmişdir. Qeyd edək ki, Ulu Öndərin rəhbərliyi altında keçirilən bu islahat MDB dövlətləri arasında ilk dəfə keçirilmiş və ümumiyyətlə müasir Azərbaycanın iqtisadi həyatında, tarixində, demək olar ki, ən uğurlu islahatlardan biri olmuşdur. Belə ki, həmin dövrdə insanlar işsizlikdən əziyyət çəkmiş və gəlirləri xeyli aşağı düşmüşdü. Torpaq paylarının verilməsi iqtisadi fəallığı artırmış, məşğulluq problemlərinin həllinə müsbət təsir göstərmiş və insanların qədimdən məşğul olduğu fəaliyyət istiqamətləri üzrə işlə təminatına əlavə imkanlar yaratmışdır. Bundan əlavə, torpaq paylarının verilməsi fərdi sahibkarlığın inkişafına, ev təsərrüfatlarının inkişaf etdirilməsinə və müxtəlif kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına müsbət təsir göstərmişdir. Bunlarla bərabər, 1995-ci illərin ortalarında Azərbaycanda ərzaq təhlükəsizliyi ciddi təhdidlər qarşısında idi. Demək olar ki, ərzaq məhsullarının təminatı üzrə ölkəmizdə çox ciddi problemlər yaranmışdır. Lakin torpaq paylarının verilməsindən sonra regionlarda kənd təsərrüfatı ilə məşğul olanların və kənd təsərrüfatı məhsullarının emalı üzrə kiçik, orta müəssisələrin yaradılması proseslərinin sürətlənməsi hesabına bu sahədə xeyli dəyişikliklər baş vermişdir.

Ulu Öndərin digər əsas məqsədlərindən biri də məhz kənd rayonlarında məskunlaşmanın, demokratik proseslərin tənzimlənməsi, kənddən işçi qüvvəsi axınının qarşısının alınması və kəndlərin boşalması proseslərini məhdudlaşdıran stimullaşdırıcı tədbirlərin görülməsi idi. Hesab edirik ki, 1993-2003-cü illərdə Heydər Əliyevin bu istiqamətdə gördüyü işlər öz bəhrəsini vermiş, ölkəmizdə müasir regional iqtisadiyyat quruculuğunun formalaşdırılmasına imkan verilmişdir [5, s. 73]. Məhz müasir tələblər və çağırışlar əsas olmaqla, regionların inkişafına özünün çox zəngin təcrübəsindən yanaşan Heydər Əliyev gözəl dərk edirdi ki, regionlarda sosial-iqtisadi inkişafı

tənzimləmədən və təmin etmədən ölkədə makroiqtisadi və siyasi sabitliyi təmin etmək qeyri-mümkündür. Eyni zamanda, ölkə əhalisinin şəraitinin yaxşılaşdırılması və demoqrafik problemlərin həlli baxımından bu məsələlərin vacib olduğunu dəfələrlə qeyd etmişdir.

Bütün bunlarla yanaşı, həm də regionların inkişaf etdirilməsi insanların dədə-baba torpaqlarında olan resurslardan istifadəyə marağını artırmış və sonrakı proseslər göstərmişdir ki, məhz Ulu öndərin uzaqgörənliyi sayəsində regionlarda rəqabətqabiliyyətli müəssisələrin tikilməsi, xarici-iqtisadi fəaliyyət iştirakçılarının sayının artması və regionlarda sosial-iqtisadi inkişafın yeni mərhələyə qədəm qoyması üçün əsaslar formalaşdırılmışdır. Bütün bunlar 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi altında təmin olunmuşdur.

Hazırda ölkə regionlarının inkişaf etdirilməsi yeni bir müstəviyə keçmişdir. Belə ki, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ zəfərindən sonra ölkə regionlarının idarəetmə prinsiplərinin dəyişdirilməsi və onların sosial-iqtisadi, tarixi aspektləri nəzərə alınmaqla, iqtisadi rayonların yenidən formalaşmasına zərurət yaranmışdır Bunların nəticəsində iqtisadi rayonlaşmanın yeni bölgüsü aparılmışdır. Bu bölgü əsasında işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır və iqtisadi rayonların sayı 12-dən 14-ə çatdırılmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının həm tarixi-iqtisadi, həm də siyasi amilləri, onların inzibati vahid kimi mövcudluğu və əzəli Azərbaycan torpaqlarının olmasını ifadə edən tarixi inkişaf qanunauyğunluqlarının nəzərə alınması təmin olunmuşdur.

Qeyd edək ki, Qarabağ iqtisadi rayonu tarixən mövcud olduğu öz coğrafiyasına qayıtmış və bu ərazilərin inkişaf etdirilməsi üçün yeni imkanlar formalaşdırılmışdır. Şərqi Zəngəzur iqtisadi rayonunu isə bütövlükdə Zəngəzur əyalətinin Azərbaycana məxsusluğuna mesaj verən bir siyasi akt kimi də dəyərləndirmək olar. Şərqi Zəngəzurun bərpa edilməsi prosesləri gələcəkdə Qərbi Zəngəzur konsepsiyasının reallaşdırılmasına və Qərbi Zəngəzura soydaşlarımızın qayıtması, burada məskunlaşmanın təmin edilməsilə bağlı tarixi hədəflərin reallaşdırılmasına ciddi əsaslar yaradacaqdır.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı quruculuq işləri aparılır. 2021-2022-ci illərdə dövlət büdcəsindən bu ərazilərin reabilitasiyası və sosial-iqtisadi inkişaf layihələrinin reallaşdırılması üçün hər il müvafiq olaraq 2,2 milyard manat vəsait ayrılmışdır. 2023-cü ildə isə dövlət büdcəsindən bununla bağlı daha çox vəsait – yəni 3 milyard vəsait yönəldilmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti regionların inkişafına daha çox diqqət yönəldir və regionların sosial-iqtisadi inkişafının maliyyə mexanizmlərinin təmin edilməsi ilə bağlı olaraq Heydər Əliyev tərəfindən formalaşdırılmış regional inkişaf konsepsiyasının müasir dövrdə onun layiqli varisi ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin daha da təkmilləşdirilmiş mexanizmləri tətbiq edilir.

Yaxın perspektivdə ölkə regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və regional iqtisadiyyat quruculuğunun təkmilləşdirilməsi məqsədilə, bir sıra tədbirlər keçirilməsinə zərurətin olduğunu da qeyd etmək istərdik:

- Ölkə regionlarında filiz və qeyri-filiz ehtiyatlarından daha səmərəli istifadə etmək imkanları və bunların dəyərləndirilməsi məqsədilə emal müəssisələri şəbəkəsinin yaradılması vacibdir;
- Ölkənin bəzi regionlarının resurs potensialından, iqtisadi inkişaf xüsusiyyətlərindən yanaşmaqla, maksimum daha rəqabətqabiliyyətli və ixracyönlü müəssisələrin yaradılmasına ehtiyac vardır;
- Müasir dövrdə mövcud olan reallıqlardan yanaşmaqla, texnoloji-innovativ inkişaf drayverləri nəzərə alınmaqla bərabər, məşğulluğu daha səmərəli təmin edə biləcək iqtisadiyyat sahələrinin, yəni əməktutumlu sahələrin inkişafının təmin olunması da xüsusi diqqət mərkəzində saxlanılmalıdır;
- İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış çərçivəsində regional inkişafın yeni və daha işlək modelinin formalaşdırılması imkanlarının yüksək olduğunu qeyd edə bilərik və s.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:


1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, “Kooperasiya” nəşriyyatı, 536 s.
2. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.

3. Əliyev, Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi // Jurnal “Geostrategiya”(AAK), Bakı, №05, noyabr, 2017, №05 (41).- S.14-18.
4. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya. Bakı, 2020, “Kooperasiya” nəşriyyatı, 464 s.
5. Алиев, Ш.Т. Актуальные проблемы и перспективы экономики Азербайджана на рубеже XXI века // Журнал “Финансовая экономика”, Москва, 2021, № 09, с.71-76.

***Айгюн Эльдар кызы Гулиева***
***проректор Азербайджанского Университета Кооперации,***
***доктор экономических наук***

**Роль Гейдара Алиева в осуществлении современных региональных экономических преобразований в Азербайджане**

***Резюме***

В статье исследована роль Гейдара Алиева в осуществлении современных региональных экономических преобразований в Азербайджане. Рассмотрены усилия Гейдара Алиева в заключении “Контракта Века”, проведении экономических реформ и необходимых мероприятий по улучшению жизненного состояния населения. Отмечена историческая роль Гейдара Алиева в обеспечении развития регионов страны.

***Ключевые слова: Гейдар Алиев, Азербайджан, региональная экономика, преобразование региональной экономики, историческая роль Гейдара Алиева в региональном развитии Азербайджана.***

***Aygun Eldar Guliyeva***
***Vice-Rector of Azerbaijan Cooperation University,***
***doctor of economic sciences***

**Heydar Aliyev's factors in implementation of modern regional economic transformations in Azerbaijan**

***Summary***

The factors of Heydar Aliyev in the implementation of modern regional economic transformations in Azerbaijan are investigated in the article. Heydar Aliyev's efforts are considered in concluding the “Contract of the Century,” carrying out economic reforms and necessary measures to improve the living condition of the population. Heydar Aliyev's historical role in ensuring the development of the regions of the country is noted.

***Key words: Heydar Aliyev, Azerbaijan, regional economy, reconstruction of regional economy, historical role of Heydar Aliyev in regional development of Azerbaijan.***

UOT: 332:338.012

*Şəfa Tiflis oğlu ƏLİYEV*
*Sumqayıt Dövlət Universitetinin professoru, UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru*
*AZ 1001, Azərbaycan Respublikası, Bakı, İstiqlaliyyət, 6.*
*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*
*E-mail: garabagh.iam@unec.edu.az*

# ZƏNGƏZUR QLOBAL NƏQLİYYAT DƏHLİZİNİN TÜRK DÖVLƏTLƏRİNİN İQTİSADİ İNTEQRASİYASINDA STRATEJİ FUNKSİYALARI

***Xülasə***

Məqalədə Zəngəzur qlobal nəqliyyat dəhlizinin Türk dövlətlərinin iqtisadi inteqrasiyasında strateji funksiyaları araşdırılmışdır. Müasir şəraitdə Zəngəzur dəhlizinin Türk coğrafiyasının birləşdirilməsində və işğaldan azad olunmuş ərazilərin regional, həm də dünya səviyyəsində inteqrasiyasında əhəmiyyəti baxılmışdır. Türkdilli dövlətlərin iqtisadi əlaqələrinin genişləndirilməsində Zəngəzur qlobal nəqliyyat dəhlizinin rolu əsaslandırılmışdır.

***Açar sözlər: Zəngəzur; Zəngəzur nəqliyyat dəhlizi, Türkdilli dövlətlər, iqtisadi inteqrasiya, strateji funksiyalar, Zəngəzur nəqliyyat dəhlizinin strateji rolu.***

***

Müasir dövrdə Azərbaycan öz şanlı və şərəfli tarixini yaşayır. Türk dünyasının əyilmiş qamətinin qaldırılmasında, Türk qürurunun yeni bir oyanış səviyyəsinə yüksəldilməsində və işğal olunmuş ərazilərin azad edilməsində dünya səviyyəsində cəsarətli addımların atılmasında və çox gözəl pozitiv bir nümunənin formalaşdırılmasında Azərbaycan dövlətinin və Azərbaycanın rolu və tarixi xidmətləri artıq bütün dünyada qiymətləndirilməlidir. Bu tarixi səhifələrin yazılmasında bu il 100 illiyini qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri unudulmazdır və strateji əhəmiyyət kəsb edir [1]. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıtmasından sonra 1993-cü ilin ortalarından başlayaraq, tarixi işlər görülmüşdür. Heydər Əliyevin uzaqgörənliyi və misilsiz dühası nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmış və neft strategiyasının reallaşdırılması sayəsində iqtisadi islahalar başlanılmış və ordu quruculuğunun əsası qoyulmuşdur [2, s. 16]. Ulu öndərin layıqli varisi Prezident İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu daha da sürətləndirilmiş və işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsinə ciddi hazırlıqlar görülmüşdür.

Uzun illər ərzində aparılan sülh danışıqları heç bir nəticə verməmiş və Ermənizstan Qarabağı öz ərazisi kimi tanımaqda davam etmişdir. 2020-ci il sentyabrın 27-dən erməni silahlı qüvvələri və işğalçıları müxtəlif iriçaplı silahlardan atəş açmaqla, göstərdilər ki, Qarabağdan getmək, işğal altında olan torpaqları azad etmək fikrində deyillər və bütün bunların müqabilində Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli milli ordumuz əks hücuma keçdi. 44 gün ərzində gedən döyüşlərdə əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıq göstərərək torpaqlarımızı ermənilərin murdar ayaqları altından azad etdilər və tezliklə işğaldan azad olunmuş ərazilərdə geniş həcmli quruculuq işləri başlanıldı.

İşğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi reabilitasiyası, quruculuq tədbirlərinin görülməsi, infrastruktur layihələrinin reallaşdırılması, sosial və istehsal əhəmiyyətli müəssisələrin təşkili – bütün bunlar əlbəttə kifayət qədər vəsait və vaxt aparan, əmək sərf edilməsi lazım gələn məsələlərdəndir [3, s.151]. Amma bütün bunların həyata keçirilməsi üçün elə məsələlər vardır ki, onlar daha çox vacibdir və strateji əhəmiyyət kəsb edir. İstənilən bir ərazidə iqtisadiyyat quruculuğu və məskunlaşma problemlərinin həll olunması, ilk növbədə, yol layihələrinin həyata keçirilməsi və kommunikasiyaların açılması vacib şərtlərdəndir.

Bunlarla bərabər, həm də iqtisadi rayonlaşmanın yeni modelinə əsasən işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon yaradılmış, yəni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları formalaşmış və ümumilikdə ölkəmizdə iqtisadi rayonların sayı 12-dən 14-ə qədər yüksəlmişdir. Yeni yaradılmış iqtisadi rayonların həm resurslarından səmərəli istifadə edilməsi, bu ərazilərdə müasir obyektlərin inşa olunması, yaşayış massivlərinin salınması, istirahət məkanlarının forma-

laşdırılması, kommunal xidmətləri özündə ehtiva edən sahələrin təşkili, ümumiyyətlə normal yaşayışı təmin edə biləcək şəraitin formalaşdırılması davamlı işlərin görülməsini, xeyli vəsait və əmək sərf edilməsini tələb edir. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdə ilk nəzərə çarpan iri miqyslı layihələr məhz nəqliyyat layihələri ilə bağlı olmuşdur və biz istərdik ki, bu qəbildən olan layihələrə daha geniş toxunaq.

Qeyd edək ki, hazırda Qarabağda ən iri layihələr məhz nəqliyyat layihələri ilə bağlıdır. Bu regionun ən iri hava limanlarından olan Füzuli Beynəlxalq Hava Limanı çox qısa müddətdə - 8 ay ərzində tikilərək 2021-ci ilin sentyabrında istismara verilmişdir. Buna çox böyük bir sürətlə reallaşdırılan qlobal nəqliyyat layihəsi kimi də baxmaq olar. Məhz belə bir beynəlxalq hava limanının qısa müddət ərzində inşa olunması və istismara verilməsi onu göstərir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş torpaqlarımızı intensiv şəkildə dirçəltmək və bölgənin sosial-iqtisadi inkişafını maksimum sürətləndirmək əzmindədir. Daha sonra Zəngilanda Beynəlxalq Hava Limanının tikilməsi və analoji nəqliyyat-logistika infrastrukturunun yaradılması öz növbəsində daha bir iri nəqliyyat layihəsinin formalaşdırılmasına və 2022-ci ildə bu hava limanının istismara verilməsinə nail olunmuşdur. Bütün bunlar onu göstərir ki, regiondakı resurslardan daha səmərəli istifadə edilməsi, onların təsərrüfat dövriyyəsinə daxil edilməsi və məhsuldar qüvvələrin yerləşdirilməsi, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin yüksək səviyyəli məskunlaşmasının təmin edilməsi tədbirləri artıq intensiv fazaya keçməkdədir. Məlumdur ki, daha belə bir layihə Laçında reallaşdırılır və gələcəkdə üç beynəlxalq hava limanının istismara verilməsi regionun nəqliyyat-logistika imkanlarını artırmaqla bərabər, həm də sosial-iqtisadi quruculuq proseslərinin sürətləndirilməsinə müsbət təsir göstərəcəkdir və artıq bunlar fəal şəkildə baş verməkdədir.

Bununla bərabər, irili-xırdalı 17 nəqliyyat layihəsinin həyata keçirilməsi, məsələn, Əhmədbəyli-Füzuli-Şuşa zəfər yolunun - çox müasir mühəndis qurğularından ibarət olan zəfər yolunun tikintisi, eyni zamanda, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad olunmuş digər ərazilərlə birləşdirən bir neçə yol layihələrinin icra edilməsi, mürəkkəb relyefə malik olan ərazilərdə tunellərin tikilməsi, yeni yolların salınması son nəticədə regionda inteqrativ proseslərin sürətlənməsinə və müəssisələr şəbəkəsinin yaradılmasına, əhalinin məskunlaşmasına əlavə stimul yaradacaqdır. Yaxın illərdə bununla bağlı biz daha cəsarətli addımların atılmasının, əhalinin məskunlaşması baxımından daha intensiv tədbirlərin görülməsinin və Böyük Qayıdışın sürətləndirilməsinin şahidi olacağıq.

Hesab edirik ki, bu layihələr içərisində ən önəmli layihələrdən biri də - Zəngəzur nəqliyyat dəhlizidir. Ümumiyyətlə, Zəngəzur nəqliyyat dəhlizi hazırda beynəlxalq səviyyədə nəqliyyat-logistika və kommunikasiyaların açılması, ölkələrin, bölgələrin, regionların, qitələrin inteqrasiyası və beynəlxalq ticarət proseslərinin intensivləşdirilməsi, alqı-satqı proseslərinin və mal axınlarının sürətləndirilməsi, investisiya axınlarının sürətləndirilməsi və qitələr arasında ticarət iqtisadi əlaqələrin yeni mərhələyə qaldırılması, bununla bağlı xərclərin optimallaşdırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir və bu amillər öz növbəsində Zəngəzur qlobal nəqliyyat dəhlizinin rolunu artıran arqumentlərdəndir. Müasir qlobal iqtisadi və texnoloji çağırışların sürətləndiyi bir şəraitdə bu qeyd olunanlar mühüm elementlər kimi qiymətləndirilir [4, s.361].

Eyni zamanda, son dövrlərdə dünyada baş verən ziddiyyətli hadisələr, müharibələr, ölkə qruplları arasında olan problemlər, ABŞ və Avropa Birliyi ölkələrinin Rusiyaya qarşı sanksiyaları, Çin ilə münasibətlərin pisləşməsi, regionda olan bəzi dövlətlərin qeyri-konstruktiv davranışları qlobal nəqliyyat dəhlizlərinə yeni baxışları formalaşdırmışdır. Zəngəzur dəhlizi kimi belə bir kommunikasiyanın açılmasında nə qədər güclü ölkələrin marağının olduğunu da nəzərdən qaçırmaq olmaz. Zəngəzur nəqliyyat dəhlizinin açılması əslində həm də böyük dövlətlərin marağındadır, o cümlədən, Avropa Birliyinin maraq dairəsindədir. Qlobal iqtisadiyyatın önündə gedən ən iri iqtisadiyyata malik ölkələrdən biri olan Çinin marağındadır və bütün bunlar Zəngəzur nəqliyyat dəhlizinin aktuallığını və strateji əhəmiyyətini özündə ehtiva edir.

Amma hesab edirəm ki, Zəngəzur qlobal nəqliyyat dəhlizinin açılması, ilk növbədə, türk dövlətləri üçün tarixi əhəmiyyət və strateji məna kəsb edir. Türk dövlətləri uzun illərdir - yüz illərdir ki, bir-birlərindən ayrı düşmüşlər. Türk dövlətlərinin arasında quru əlaqələrin kəsilməsi nəticəsində bu dövlətlərin inteqrasiyasında, coğrafi bağlılıqlarının qorunmasında ciddi problemlər yaranmışdır. Rusiya və İran Birinci Dünya müharibəsindən sonra Osmanlı imperiyasının süquta uğ-

raması və Türkiyənin müstəqil dövlət kimi formalaşmasına müəyyən vaxtın lazım gəlməsini fürsət kimi dəyərləndirərək, xaincəsinə Türk dünyasının coğrafiyasını yaralamağa nail oldular və məhz Rusiya bolşevikləri Azərbaycanla Naxçıvan arasında olan ərazini Ermənistana verməklə, Azərbaycanla Türkiyə arasında quru sərhədləri kəsməyə nail oldular, bu da Azərbaycan üçün, müasir Azərbaycan dövlətinin inkişafından ötrü çox ciddi əngəllər yaratmışdır və bu problemlər hələ də davam etməkdədir.

Bu amillər baxımından, Zəngəzur dəhlizinin açılması Türk dövlətləri üçün, onların iqtisadi inteqrasiyasından ötrü kifayət qədər strateji əhəmiyyət kəsb edir. Türk dövlətlərinin ümumi bazarı 1,2 trilyon dəyərində qiymətləndirilir və bura dünyanın ilk 15 iqtisadiyyatı sırasında olan Türkiyə iqtisadiyyatı, Mərkəzi Asiyada kifayət qədər güclü bir iqtisadiyyata malik olan Qazaxıstan iqtisadiyyatı, həmçinin Özbəkistan, Türkmənistan, Qırğızıstan və Azərbaycan iqtisadiyyatları daxildir. Ümumilikdə Türkdilli dövlətlərin ərazilərində kifayət qədər resurslar, təbii ehtiyatlar, yeraltı-yerüstü sərvətlər vardır. Təbiət Türk dövlətlərinə kifayət qədər resursları bəxş etmişdir. Qazaxıstan, Özbəkistan, Azərbaycan və Türkmənistanda neft və qaz yataqları vardır. Sevindirici haldır ki, son dövrlərdə Türkiyə Qara dənizdə təbii qaz hasilatına başlamışdır. Bu, təbiətin Türk dövlətlərinə bəxş etdiyi milli sərvətlərdir və hesab edirik ki, Zəngəzur qlobal nəqliyyat dəhlizinin açılması ilə Türk dövlətlərinin inteqrasiyası yeni bir müstəviyə və mərhələyə çıxacaqdır.

Bu təkcə adi iqtisadi əlaqələrin genişlənməsi yox, həm də Türk dünyasının birləşməsi, Türk mədəniyyətinin, Türk adət-ənənələrinin daha çox bir-birinə yaxınlaşması, gediş-gəlişin, alqı-satqı proseslərinin intensiv baş verməsi və nəticədə Türkdilli dövlətlərin iqtisadi layihələrinin reallaşdırılmasında yeni imkanların yaradılması və iqtisadi gücünün artması potensialının formalaşmasıdır.

Digər tərəfdən, Zəngəzur qlobal nəqliyyat dəhlizinin yaranması həm də Türk dünyasının güclənməsinə, Türkdilli dövlətlərin təşkilatlanmasında yaranan yeni şəraitdə onların dünya iqtisadiyyatında və dünya siyasətində daha önəmli rol oynamasına imkan verəcəkdir. Ən əsası Türkdilli dövlətlərin iqtisadi tərəqqisinə, əhalinin yaşayış səviyyəsinin artırılmasına, iqtisadi və siyasi təhlükəsizliyinin, müdafiəsinin gücləndirilməsinə, yüksək texnologiyaların inkişafı üçün transfer mübadiləsinin intensivliyinə və Türk dünyasının dəyərlərinin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə yeni resursların cəlb edilməsinə və s. imkan verəcəkdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.
2. Əliyev, Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi// Jurnal "Geostrategiya"(AAK), Bakı, №05, noyabr, 2017, №05(41).- S.14-18.
3. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// Вопросы Истории" (Москва), № 6, 2022.– с.148-155.
4. Megits, N., Aliyev, S.T., Pustovhar,S., Bielialov,T., & Prokopenko, O. (2022). The "Five-Helix" Model as an effective way to develop business in Industry 4.0 of selected countries.// Journal of Eastern European and Central Asian Research, 9(2), 2022. 357-368. https://doi.org/10.15549/jeecar.v9i2.92012(Scopus),https://ieeca.org/journal/index.php/JEECAR/article/view/920.



***Шафа Тифлис оглы Алиев***
***Профессор Сумгаитского Государственного Университета,***
***руководитель Карабахского центра экономических***
***исследований UNEC, доктор экономических наук***


### Стратегические функции Зангезурского глобального транспортного коридора в экономической интеграции Тюркоязычных государств


***Резюме***

В статье исследованы стратегические функции Зангезурского глобального транспортного коридора в экономической интеграции тюркоязычных государств. Рассмотрены

важные аспекты и стратегические направления развития внешнеэкономических связей между тюркоязычными государствами. Отмечены стратегические функции Зангезурского глобального транспортного коридора в объединении турецкой географии.
***Ключевые слова: Зангезур, Зангезурский транспортный коридор, Тюркоязычные государства, экономическая интеграция, стратегические функции, стратегическая роль Зангезурского глобального транспортного коридора.***

***Shafa Tiflis Aliyev***
***Professor of Sumgayit State University,***
***head of UNEC Karabakh Economic***
***Research Center, Doctor of Economic Sciences***

**Strategic functions of the Zangezur Global Transport Corridor in the economic integration of the Turkic-speaking countries**

***Summary***

The strategic functions of the Zangezur Global Transport Corridor in the economic integration of Turkic-speaking countries are considered. Important aspects and strategic directions of development of foreign economic relations between Turkic-speaking countries are investigated. The strategic functions of the Zangezur Global Transport Corridor in the unification of Turkish geography are noted.
***Key words: Zangezur, Zangezur transport corridor, Turkic-speaking countries, economic integration, strategic functions, strategic role of Zangezur global transport corridor.***

**UOT 339.9**

***Möhübbət Musa oğlu HÜSEYNOV***
***i.e.d., dosent***
***Azərbaycan Kooperasiya Universiteti***
***ORCİD-İD 0000-0002-7550-3273***

## AZƏRBAYCAN-TÜRKİYƏ XARİCİ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Xülasə***

Məqalədə müasir türk-Azərbaycan iqtisadi münasibətləri tədqiq olunur. Burada iki ölkənin əməkdaşlığının tarixi, bu əməkdaşlığın əsas istiqamətləri, perspektiv münasibətlərin inkişaf yolları təhlil olunur. Sonda məqalədə tədqiqat nəticəsində əldə olunmuş nəticələr əks edilir.
***Açar sözlər: Azərbaycan, Türkiyə, iqtisadi münasibətlər, turizm, energetika, banklar.***

***

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünyanın bir çox dövlətləri ilə iqtisadi əlaqələri ildən-ilə artır, dünya ticarət-iqtisadi məkanına getdikcə daha da dərindən daxil olur və öz mövqelərini möhkəmləndirir. Cəlbedici investisiya mühitinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafı üçün şəraitin təmin edilməsi, artan iqtisadiyyat, əlverişli coğrafi mövqe respublikanın qonşu dövlətlərlə xarici iqtisadi əlaqələrinin inkişafına da öz töhfəsini vermişdir. Genişmiqyaslı və çoxşaxəli əməkdaşlıq arzusu, balanslaşdırılmış, hərtərəfli inkişaf etmiş iqtisadiyyatın inkişafı, iqtisadiyyatın açıqlığı - bu prinsiplər son illər Azərbaycanın xarici iqtisadi inkişaf strategiyası üzərində qurulub. Şübhəsiz ki, Azərbaycan öz yaxın qonşusu, dost və qardaş ölkə olan Türkiyə ilə ticari-iqtisadi əməkdaşlığı ildən-ilə artırır. Bu iqtisadi əməkdaşlıq böyük perspektivlərə malik olmaqla hal-hazırda müxtəlif istiqamətlərdə inkişaf edir.

Azərbaycanın Türkiyə ilə əməkdaşlığının dərin tarixi kökləri var. Eyni dil, din, mədəniyyət, oxşar adətlər, ənənələr, mentalitet ölkələrin yaxınlaşmasına, xarici iqtisadi əlaqələrin, o cümlədən

ixrac-idxal əməliyyatları sahəsinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan həm Qafqazda, həm də bütün Xəzər regionunda Türkiyə üçün mühüm vasitəçi rolunu oynayır. Şübhəsiz ki, hər iki tərəf bu əlaqələrin möhkəmlənməsində maraqlıdır [2, s. 235].

Tarixən Türkiyə Azərbaycanın beynəlxalq aləmdə həmişə siyasi müttəfiqi və dayağı olub, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin ildən-ilə güclənməsi Türkiyənin iqtisadi potensialının artmasına, dünya siyasətindəki roluna xidmət edir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı. Beynəlxalq əlaqələrdə, xüsusilə Azərbaycan - Türkiyə əməkdaşlığında yeni mərhələ açıldı. Ümummilli liderin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Qeyd edək ki, iki dövlət arasında münasibətlərin inkişafı və möhkəmlənməsi beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında baş tutur. Türkiyə 1991-ci il noyabrın 9-da suveren Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətdir və bu günə qədər Azərbaycanın dünya siyasətində strateji tərəfdaşı, Azərbaycana daim hərtərəfli dəstək verən dövlət olaraq qalır. Azərbaycan həm Cənubi Qafqazda, həm də bütün türkdilli məkanında Türkiyənin əsas tərəfdaşıdır. Dövlət səviyyəsində Azərbaycan və Türkiyə arasında bir çox müxtəlif sazişlər, o cümlədən Dostluq və Tərəfdaşlıq Müqaviləsi (1995-ci il), Strateji Əməkdaşlıq haqqında Bəyannamə (1997-ci il) və Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi (2021-ci il) imzalanmışdır. Bu günə qədər Türkiyə ilə Azərbaycan arasında ikitərəfli ticarət-iqtisadi əlaqələrin hüquqi əsasını iqtisadi tərəfdaşlığın genişləndirilməsinə yönəlmiş 40-dan çox sənəd təşkil edir ki, bunlardan da başlıcası "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş" və "İqtisadi və Texniki Əməkdaşlığın İnkişafı haqqında Saziş" (1992), "Qarşılıqlı təşviq və investisiyaların qorunması haqqında Saziş" (1994), "İkiqat vergitutmanın qarşısının alınması haqqında Müqavilə" (1994) [4, s.158] və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" (2020) kimi sənədlərdir.

1992-ci il mayın 3-də Türkiyə hökumət nümayəndə heyətinin Bakıya rəsmi səfəri zamanı Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr quruldu. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk Petrolları" şirkətinin təmsil olunması, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi. Azərbaycanın neft-qaz sektoru ilə əlaqəli beş beynəlxalq konsorsiumun kapitalında Türkiyənin payı var: Bakı-Tbilisi-Ceyhan layihəsində (neft kəməri) - 6,53%; Azəri-Çıraq-Günəşli layihəsində (Xəzər şelfində üç neft yatağının işlənməsi) - 6,75%; Şahdəniz layihəsində (qaz hasilatı) - 19%; "Kürdaşı" və "Araz-Alov-Şərq" neft hasilatı layihələrində müvafiq olaraq 5 və 10% [3, s.217]. 1999-cu il oktyabrın 29-da Ankarada Xəzər dənizinin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan marşrutu ilə beynəlxalq bazarlara nəqlini tənzimləyən bəyannamə, 1999-cu il noyabrın 18-də isə İstanbulda Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə Xəzər dənizinin enerji ehtiyatlarının nəqlinə xidmət edən Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə dair bəyannamə imzalandı. Bundan sonra 2005-ci il mayın 25-də Gürcüstan, Türkiyə, Azərbaycan, Qazaxıstan və ABŞ-ın rəsmi nümayəndələri Bakıda Qars (Türkiyə)-Axalkalaki (Gürcüstan)-Tbilisi-Bakı dəmir yolunun tikintisinə dair saziş imzaladılar. 2006-cı il iyulun 13-də Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəməri istifadəyə verilmiş, beləliklə də, iki ölkənin iştirak etdiyi beynəlxalq transkontinental layihə həyata keçirilmişdir. Bu kəmərin ümumi uzunluğu 1769 km (Azərbaycan hissəsi - 443 km, Gürcüstan hissəsi - 250 km, Türkiyə hissəsi - 1076 km), illik ötürmə qabiliyyəti 50 milyon tondur. 2007-ci ilin yanvarında Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. Boru kəmərinin Azərbaycan və Gürcüstan ərazisindən keçən hissəsinin 690 km-i Cənubi Qafqaz Boru Kəməri (CQBK), Türkiyənin BOTAŞ şirkətinin boru kəmərinin Gürcüstan və Türkiyə sərhədində Cənubi Qafqaz Boru Kəmərinə birləşən hissəsidir. 280 km məsafə qət edərək Ərzuruma çatır. 2010-cu ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında imzalanmış müqavilə isə artıq Azərbaycan qazının Türkiyə və digər Avropa ölkələrinə

satışını həyata keçirməyə başlamışdır. Nahayət TANAP qaz kəmərinin tikintisinə dair Azərbaycan-Türkiyə hökumətlərarası saziş 2012-ci il iyunun 25-də İstanbulda imzalanmışdır.

2018-ci ildə artıq TANAP işə salınıb. "Cənub Qaz Dəhlizi" layihəsində Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya iştirak edib. Azərbaycan üçün öz qazını Avropa ölkələrinə - Yunanıstan və İtaliyaya nəql etmək imkanı açılıb. Cənub Qaz Dəhlizinin yaradılması Türkiyənin maraqlarına cavab verdi və o, Avropa ölkələrinə qaz tədarükünü nəzarətdə saxlamaq üçün əlavə imkanlar əldə etdi. Azərbaycan qazının tədarük gücünün artmasına təkcə Azərbaycanda karbohidrogen hasilatının səviyyəsi deyil, həm də Avropa ölkələrində qaz istehlakının səviyyəsi də təsir göstərəcək.

Eyni zamanda, Avropa arenasında gedən geosiyasi proseslərin və Ukrayna müharibəsinin təsiri altında Cənub Qaz Dəhlizi yeni məna və əhəmiyyət kəsb edir. O, iki ildən bir qədər əvvəl açılıb, lakin artıq bu gün biz TANAP-ın 16 milyarddan 32 milyard kubmetrə, TAP-ın isə 10 milyarddan 20 milyard kubmetrə qədər genişləndirilməsindən danışırıq. Aİ hökuməti ilə müvafiq sazişlər 2022-ci ilin yayında imzalanıb. Bu, həqiqətən də alternativ enerji mənbələrinə böyük ehtiyac olduğunu göstərir. Bu, fikrimizcə, enerji təchizatının daha da şaxələndirilməsinə böyük ehtiyac olduğunu nümayiş etdirir. Bu çatdırılmalarda isə əsas rolu Türkiyədə formalaşmış nəqliyyat infrastrukturu oynayacaq. Belə ki, Türkiyə ilə enerji sektorunda həyata keçirilən iqtisadi layihələr qardaş ölkə ilə iqtisadi əməkdaşlığın təməl elementlərindən biridir.

Qeyd edək ki, Türkiyəyə gedən Azərbaycan vətəndaşlarının qeydiyyatı 1992-ci ildən, onların səfər məqsədinə görə qruplaşdırılması isə 1997-ci ildən başlayıb. 1992-ci ildə Azərbaycan və Türkiyə arasında imzalanmış Dostluq və Əməkdaşlıq Müqaviləsi ilə turistlər üçün vizasız rejim tətbiq olundu. İlkin olaraq Naxçıvan sakinlərinə vizasız rejim tətbiq edilib, sonra isə bütün Azərbaycan vətəndaşlarına şamil edilib. 2019-cu ildə Azərbaycana 3,2 milyon xarici turist gəlmişdir, 2022-ci ilə qədər isə bu turistlərin sayı bir milyon yarıma enib ki, bu da COVID-19 pandemiyasının nəticələri ilə bağlıdır. Statistika göstərir ki, Azərbaycana gələn türk turistlərin sayı azalmağa meyillidir. Əgər 2014-cü ildə turizm agentlikləri vasitəsilə Azərbaycana gələn türkiyəli turistlərin sayı 4174 nəfər, 2019-cu ildə 1211 nəfər, 2020-ci ildə 104 nəfər, 2021-ci ildə isə artıq 44 nəfər təşkil etmişdir [5], yəni 2014-2021-ci illər arasında türk turistlərin sayı təxminən 100 dəfə azalıb. Bunun əsas səbəbi, fikrimizcə, Azərbaycan hökumətinin Türkiyə vətəndaşlarının ölkəmizə gəlişi üçün viza rəsmiləşdirilməsindən imtina etmək qərarı olub. Bu qərarın nəticəsidir ki, əksər insanlar turizm agentliklərinə müraciət etmədən Azərbaycana turizm məqsədi ilə səfər etməyə üstünlük verirlər və beləliklə, Türkiyədən Azərbaycana gələn turistlərin real sayı dövlət statistikası tərəfindən nəzərə alınmır.

Statistik məlumatların təhlili göstərir ki, türk turistlərin əksəriyyətinin səfərinin məqsədi işgüzar səfərlərdir. Ən çox turist Bakıya gəlir. Bu, Bakının biznes mərkəzi kimi formalaşması ilə bağlıdır. Türkiyəli turistlərin bölgələrə səfərləri əksər hallarda kəşfiyyat xarakteri daşıyır. Nadir hallarda istirahət üçün rayonlara üz tuturlar.

Eyni zamanda, Azərbaycan və Türkiyənin turizm təşkilatları mütəmadi olaraq birgə məlumat turları təşkil edirlər. Bu cür turların təşkili ilk dəfə 1997-ci ildə Beynəlxalq Azərbaycan-Türkiyə Sənayeçi və İş Adamları Birliyi (TÜSİAB) tərəfindən həyata keçirilib. Əvvəlcə məlumat turlarının təşkili tələbələrin mübadiləsindən ibarət idi, sonra belə turlar əhalinin bütün təbəqələrini əhatə etməyə başladı. TÜSİAB-ın təşkil etdiyi məlumat turları Türkiyənin turizm mərkəzlərini tanıtmaq məqsədi daşıyırdı. Bir qrup azərbaycanlı tələbə təcrübə keçmək üçün Türkiyəyə gedib. Bundan əlavə, ölkənin müəyyən bölgələrinə turist turlarını təşkil edir, tələbələr təcrübə ilə yanaşı, mövsümi işlərə cəlb edilirdilər. Məlumat turları daha da genişləndirilmiş və onların təşkilinə digər turizm təşkilatları və dövlət qurumları cəlb edilmişdir. Məlumat turlarının təşkili iki ölkə arasında turizm əlaqələrinin genişlənməsinə, turist mübadiləsinə, turizm şirkətləri arasında əlaqələrin inkişafına töhfə verib. 1990-cı illərin ikinci yarısından yerli şirkətlər Türkiyənin təcrübəsindən bəhrələnə bilmişdir. Türkiyənin bu sahədəki təcrübəsi ilə tanış olmaqda Türkiyənin Azərbaycan turizm şirkətlərinə təklif etdiyi məlumat turları mühüm rol oynayıb. Bu turlar 1997-ci ildən hər il keçirilir. Turizm sahəsində əməkdaşlığın digər mühüm məqamı birgə müəssisələrin təşkilidir. Lakin qeyd etməliyik ki, Türkiyəli sahibkarların Azərbaycanın turizm sektoruna qoyduğu sərmayələr isə

iqtisadiyyatın digər sahələrinə yatırılan investisiyalardan azdır. Türkiyəli sahibkarların otel biznesinə investisiyaları Avropa şirkətləri ilə birgə həyata keçirilir. Türkiyənin transmilli şirkətləri beşulduzlu otellərin və biznes mərkəzlərinin tikintisi və idarə olunmasında geniş iştirak edirlər. Qardaş ölkənin şirkətləri bölgələrdə idman və istirahət mərkəzlərinin tikintisində də fəallıq nümayiş etdirirlər. Məsələn, türk şirkətləri "Şahdağ" qış-yay turizm kompleksinin, H.Əliyev adına beynəlxalq hava limanının yeni terminalının tikintisində fəal iştirak ediblər. 2006-cı ildə Dənizkənarı Parkın ərazisində "Muğam evi"nin layihələndirilməsi və tikintisinə başlanmışdır. Tikinti Türkiyənin "SCALA Mimarlıq" şirkətinin layihəsi əsasında həyata keçirilib [1, s.15].

Qeyri-neft sektorunda fəaliyyət göstərən türk firmalarının əksəriyyəti sənaye sektorunda çalışır. Digər sahələrdə də kiçik və orta həcmdə sərmayə qoyan türk firmaları var. Azərbaycanın neft sektoruna yatırılan xarici investisiyaların həcmində Türkiyə birinci yerdədir. Hazırda Azərbaycanda Türkiyənin bir neçə TMŞ-ləri fəaliyyət göstərir. Bunlara Yapı Kredit Bank, Arçelik, Beko və TPAO (Türkiye Petrolleri Anonim Ortaklığı) şirkətləri daxildir. "Beko" və "Arçelik" şirkətlərinin üstəlik yerli istehlak bazarında çoxsaylı mağazaları da var. Eyni zamanda Azərbaycanda 4797 Türkiyə şirkəti qeydiyyatdan keçərək müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Ümumilikdə, Türkiyə indiyədək Azərbaycanın qeyri-neft sektoruna 13 milyard dollardan çox sərmayə qoymuşdur [6].

Amma türk şirkətləri arasında Azərbaycanda ən böyük investisiya həcmi TPAO şirkətinə məxsusdur. Türk iş adamları həmçinin yüngül və qida sənayesində də böyük təcrübəyə malikdirlər. Ona görə də türkiyəli sahibkarlar Azərbaycanda daha çox sərmayəni yüngül və yeyinti sənayesinə, eləcə də tikintiyə yatırırlar.

Onu da qeyd edək ki, Türkiyə şirkətləri həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də aktiv şəkildə fəaliyyət göstərməkdədir. Bununla yanaşı, Türkiyə türk şirkətlərinin Qarabağda həyata keçirilməsi üçün Bakı layihələrini təklif edib ki, bu layihələrə sərmayələr isə 3,8 milyard dollar həcmində qiymətləndirilir. Türkiyə şirkətləri işğaldan azad edilmiş Azərbaycan ərazilərində 19 investisiya layihəsi təqdim ediblər. Hazırda 16-ya yaxın türk şirkəti Qarabağda hava limanı, yollar, infrastruktur layihələrində, o cümlədən Zəngilanda Türkiyə və Azərbaycanın birgə layihəsi olan "Dost Aqroparkı"nın tikintisində iştirak edir. Hazırda işğaldan azad edilmiş ərazilərdə müxtəlif istiqamətlər üzrə 107 layihə Türkiyə şirkətləri tərəfindən həyata keçirilməkdədir.

Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir və son zamanlar bu investisiyalarda mühüm artım müşahidə olunur. Belə ki, hazırda Türkiyədə Azərbaycan sərmayəli 2000-ə yaxın şirkət fəaliyyət göstərir. 1995-2021-ci illər ərzində Azərbaycandan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dolları olmuşdur (17,1 milyard ABŞ dolları neft-kimya sektoruna, 3,2 milyard ABŞ dolları qeyri-neft sektoruna). Sadəcə SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya hesab olunur. Ümumilikdə, Türkiyədə investisiya qoyan Azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir.

Türkiyə və Azərbaycan arasındakı ticarət davamlı artmaqdadır. Türkiyə Azərbaycanın həm idxalda, həm ixracda, həm də ikitərəfli dövriyyədə əsas ticarət tərəfdaşıdır. 2021-ci ildə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 4661,85 mln. ABŞ dolları (13,7%), o cümlədən idxalın həcmi 1843,71 mln. ABŞ dolları (15,8%), ixracın həcmi 2818,14 mln. ABŞ dolları (12,7%) təşkil etmişdir [7].

Azərbaycan-Türkiyə iqtisadi münasibətlərinin inkişaf istiqamətlərini araşdıran zaman belə nəticəyə gəldik ki, xarici iqtisadi əlaqələrin yaradılmasında Azərbaycanın potensial tərəfdaşlarından biri qardaş Türkiyə Respublikasıdır. İki ölkə arasındakı əlaqələrin təqiqindən aydın olur ki, müasir dövrdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq iqtisadiyyatın bir çox sahələrində inkişaf edir. Lakin son vaxtlar, Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox özünü göstərir. Belə ki, Türkiyə ilə ticarət əlaqələrinin təhlili göstərir ki, bu ölkə Azərbaycanın xarici ticarət dövriyyəsində xüsusi çəkiyə malikdir.

Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrdə daha bir perspektivli sahə kimi turizmi də qeyd etmək olar. Türkiyənin turizm sahəsində inkişafı çox güclüdür və bu sahədə əlaqələrin gücləndirilməsi ölkəmizdə turizm sektorunun inkişafına bir növ təkanverici əsasdır. Bu inkişaf bizə zəngin təcrübə qazanmağa və dünyada lider karyera qurmaq üçün imkan verəcək. Azərbaycan və Türkiyə iqtisadi əlaqələrinin digər perspektivli inkişaf istiqaməti bank və sığorta sektorunun gücləndirilməsidir. Türkiyə ölkəmizin bank və sığorta müəssisələrinin fəaliyyətində respublikamıza əlavə üstünlüklər verə bilər. Birincisi, qeyd edək ki, türk banklarının Azərbaycanda iş aparmasının bir neçə səbəbi var. Türkiyədə bank əməliyyatlarının yaxınlığı və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında ticarətin koordinasiyası səbəbindən maliyyə sektorunda yaranan problemlərin asanlıqla həll edilməsi vacibdir. Digər tərəfdən, uzun illərdir ki, Azərbaycanda minlərlə türk iş adamı və işçisi çalışır. Türkiyə bankları xüsusilə, iş adamlarının Türkiyəyə pul göndərərkən və digər bank xidmətlərindən istifadə edərkən bank işində mühüm rol oynayır. Bütün bunlarla yanaşı, Türkiyənin ixrac sektoru və administrasiyaya xidmətlərin göstərilməsi ilə bağlı bəzi problemlər öz həllini tapmış və nəticədə yuxarıda qeyd olunan bu və digər amillər Azərbaycanda yeni türk banklarının açılmasına səbəb olmuşdur. Eyni zamanda, Türkiyə ilə Azərbaycan arasında geostrateji əməkdaşlığın davamlı inkişafı bu prosesi sürətləndirir. Hazırda Türkiyə banklarının geniş resursları və təcrübəsi var. Məlumdur ki, Azərbaycana xarici investisiya cəlb edən 7 bankdan 3-ü türk iş ortaqlıqlarına məxsusdur. “Yapı Kredi Bank”, “Ziraat Bank” kimi banklar müstəqil fəaliyyət göstərə bildiyinə görə, Türkiyəni Azərbaycanda iqtisadi drayver-ölkə kimi hesab etmək olar. Türkiyə bankları, həmçinin Azərbaycanın Dünya Bank sistemi ilə əməkdaşlığının genişlənməsinə də münbit şərait yaradır.

Hazırkı iqtisadi tərəfdaşlıq Azərbaycan və Türkiyənin həm ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artmasında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə liderləri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir. Mövcud potensialın dəyərləndirilməsi iqtisadi əlaqələrin inkişafı, hər iki ölkədə əhalinin rifah halının yüksəldilməsi, işsizliyin həlli, rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı, enerji təhlükəsizliyinin təminatı, ölkələrin makroiqtisadi dayanıqlılığı, həmçinin Qarabağ və Şərqi Zənqəzur iqtisadi rayonlarının bərpası kimi məsələlərdə böyük səmərə qazandıra bilər.

## ƏDƏBİYYAT


1. AR Mədəniyyət və Turizm Nazirliyinin cari arxivi, Fond 13, siyahı 1, bağlama 5-9, AR Mədəniyyət və Turizm Nazirliyinin 2006-cı il üzrə hesabatı, v. 130
2. Аббасов,Ч.М. Пути интеграции Азербайджана в мировую экономику. Баку, 2005. -395 с.
3. Гаджиев,Ш.Т. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев, 2000. -317 с.
4. Гасанов, А.К. Современные международные отношения и внешняя политика Азербайджана. Баку. “Шерг-Герб”, 2007. 1008 с.
5. https://stat.gov.az/source/tourism/az/001_9.xls
6. https://stat.gov.az/source/tourism/az/001_9.xls
7. https://ankara.mfa.gov.az/az/content/106/azerbaycan-turkiye-iqtisadi-elaqeleri



***Мохуббат Муса оглы Гусейнов***
***д.э.н., доцент***
***Азербайджанский Университет Кооперации***
***ORCİD-İD 0000-0002-7550-3273***


## Основные направления развития внешнеэкономических связей Азербайджана и Турции


***Резюме***

В статье исследуются современные турецко-азербайджанские экономические отношения, анализируются история сотрудничества двух стран, основные направления этого сот-

рудничества, а также пути развития перспективных отношений. В конце статьи отражены результаты, полученные в результате исследования.
***Ключевые слова: Азербайджан, Турция, экономические отношения, туризм, энергетика, банки.***

***Mohubbat Musa Huseynov***
***Doctor of economics, associate professor***
***Azerbaijan Cooperation University***
***ORCİD-İD 0000-0002-7550-3273***

**The main directions of development of foreign economic relations of Azerbaijan and Turkey**

***Summary***

Modern Turkish-Azerbaijani economic relations are explored in the article, the history of cooperation between the two countries, the main directions of this cooperation, and the ways of development of perspective relations are analyzed. At the end of the article, the results obtained as a result of research are reflected.
***Key words: Azerbaijan, Turkey, economic relations, tourism, energy, banks.***

**UOT 331.105.4**

***Səbinə İzzət qızı VƏLİYEVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının dosenti, i.e.d.***
***E-mail: sabina_valiyeva@mail.ru***
***ORCİD-İD: 0000-0002-6027-1692***

# TÜRKİYƏ İLƏ İQTİSADİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN UNİKAL BALANS STRATEGİYASI

***Xülasə***

Türk Cümhuriyyətləri müstəqillik əldə etdikdən sonra kommersiya-iqtisadi əlaqələrin hüquqi bazasını təşkil edən İqtisadi Əməkdaşlıq müqavilələri imzalamış, iqtisadi əməkdaşlıq təşkilatlarına qoşulmuşlar. Türkiyə ilə qurulan iqtisadi əlaqələr Azərbaycanın iqtisadi böhrandan çıxması üçün həyati əhəmiyyət kəsb etsə də, Rusiyanın regionda artan təzyiqləri balanslı iqtisadi siyasətin aparılmasını zəruri edirdi. Ona görə də Azərbaycanla Türkiyə arasında ikitərəfli iqtisadi əlaqələr müəyyən müddət ərzində günün şərtlərinə və regiondakı siyasi şəraitə uyğun inkişaf edə bilmədi. Bu vəziyyət Orta Asiya Türk Cümhuriyyətləri üçün də xarakterik idi. Bu araşdırmada elmi baxımdan diqqəti cəlb edən mühüm məqamlardan biri də Heydər Əliyev şəxsiyyətinin Azərbaycan Respublikası dövlətinin inzibati strukturunun inkişafı və onun möhkəmlənməsi çərçivəsində gördüyü işlərdir. Heydər Əliyevin Azərbaycan Respublikası dövlətinin suverenliyinə xələl gətirmədən dövlət maraqlarının maksimuma çatdırılması və Türkiyə ilə münasibətlərin inkişafı ilə bağlı unikal balans strategiyası bu gün də öz töhfələrini verir. Azərbaycan neftinin dünya iqtisadiyyatında istifadəsi üçün Türkiyəyə verilən prioritet də Türkiyənin bölgədəki əhəmiyyətini artırıb. Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələr ümumilikdə Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi çərçivəsində həyata keçirilsə də, investorlar üçün mühüm əhəmiyyət kəsb edən müqavilələr də imzalanıb.
***Açar sözlər: Heydər Əliyev, Türkiyə, enerji resursları, balans strategiyası, xarici investisiyalar, iqtisadi inkişaf.***

***

Azərbaycanın mərhələli şəkildə bazar iqtisadiyyatına keçidi asan olmayıb. Şərq Bloku və Baltikyanı ölkələrlə müqayisədə Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Avropa İttifaqının təsir

dairəsində olmaması ciddi mənfi təsirlərə yol açmışdır. Digər tərəfdən, müharibə və digər səbəblərdən daxili siyasi sabitliyə nail ola bilməməsi nəticəsində Azərbaycan iqtisadi artımda lazımi uğuru əldə edə bilmədi. 1994-cü il fevralın 9-da H.Əliyev dövründə imzalanan dostluq və çoxşaxəli əməkdaşlığın inkişafı haqqında müqavilə Azərbaycan neftinin Türkiyə üzərindən xarici bazarlara çıxarılmasına imkan yaradıb. Əslində Azərbaycanın Qərb neft şirkətləri ilə bağladığı müqavilələrdə Türkiyə də iştirak edib. Məhz, TPAO "Azəri-Çıraq-Günəşli" neft yataqları ilə bağlı müqavilədə 6,75% payla iştirak edib. Bundan başqa, TPAO-nun "Şahdəniz" yatağı müqaviləsində 9,2%, "Kürdəsi" yatağı layihəsində 5%, Araz-Alov və Şərq neft sazişi layihələrində isə 10% payı var. 09 fevral 1994-cü ildə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında ikiqat vergitutmanın qarşısının alınması haqqında Saziş və 1995-ci ilin fevralında imzalanmış investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş Türkiyə investorlarının Azərbaycandakı yatırımları üçün hüquqi infrastruktur yaratmış oldu. Bu çərçivədə 1997-ci ildə ticarət və iqtisadi əlaqələr adına atılan digər bir addım da Birgə İqtisadi Komissiyanın iclasları çərçivəsində həyata keçirilən fəaliyyətlər oldu. Bu görüşlər Türkiyənin bəzi ölkələrlə imzaladığı ticarət, iqtisadi və sənaye əməkdaşlıq müqavilələrində nəzərdə tutulan ikitərəfli ticari və iqtisadi məsələlərin ən yüksək və əhatəli səviyyədə müzakirə edildiyi bir platformadır. Görüşdən sonra iqtisadi əlaqələrin inkişafı istiqamətində bir çox addımlar atıldı. 1997-ci il mayın 5-də Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında kiçik və orta sahibkarlığın inkişafı üzrə tərəfdaşlıq haqqında protokol və dəniz əməliyyatları haqqında saziş imzalandı [1, s. 224-227].

Türkiyə və Azərbaycan iqtisadi quruluşunun, coğrafi mövqeyinin, milli-mənəvi dəyərlərinin böyük təsiri ilə bir-birini tamamlayır. Türkiyə iqtisadiyyatı ixracyönümlü istehsal və sənaye istehsalı yönümlü struktur imicini yaratdığı halda, Azərbaycan iqtisadiyyatında daha çox enerji resursları və xammal əsas paya malikdir. Türkiyəli sahibkarların Azərbaycan iqtisadiyyatında, xüsusilə qeyri-neft sahələrində əhəmiyyətli çəkisi var. Keçid dövrlərində xarici sərmayəyə böyük ehtiyacı olan Türkiyə kapitalının Azərbaycana töhfəsi əhəmiyyətli ölçülərə çatmışdır [2, s. 273].

Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələr təkcə enerji sahəsi ilə məhdudlaşmır. H.Əliyev dövründə ikitərəfli münasibətlərdə ticarətin bütün sahələrində əməkdaşlıq üçün bir çox zəruri addımlar atıldı. İki ölkə arasında 1994-cü ilin fevralında imzalanmış "Kənd təsərrüfatı sahəsində elmi-texniki və iqtisadi əməkdaşlıq haqqında" protokol bu istiqamətdə daha bir mühüm sənəddir. Əslində bu protokol çərçivəsində Türkiyə Özbəkistandan qaçaraq Azərbaycanda məskunlaşan Ahıska türklərinə 25 ton buğda yardımı edib [2, s. 274].

***Cədvəl 1.***

***H.Əliyev hakimiyyətinin son 4 ilində Türkiyənin Azərbaycanla Xarici Ticarət Məlumatları, 2000-2004, (Milyon $)***

| İllər | İxrac | Saldo | İdxal | Saldo | Həcm | Balans |
|---|---|---|---|---|---|---|
| 2000 | 230 | -7,13 | 96 | 117,2 | 326 | 135 |
| 2001 | 225 | -2,24 | 78 | -18,3 | 303 | 147 |
| 2002 | 231 | 2,76 | 65 | -17,2 | 296 | 167 |
| 2003 | 315 | 36,3 | 123 | 89,7 | 438 | 193 |

*Mənbə: [7,8]*

Yeni müstəqillik əldə etmiş Türk Cümhuriyyətlərində investisiya təşəbbüslərinə rəhbərlik edəcəkləri gözlənilən türk iş adamları tezliklə anladılar ki, bu bazarlara girmək və bizneslə məşğul olmaq onların düşündüklərindən də çətindir. Türk iş adamları bu ölkələrin inkişaf etmiş bir inzibati quruluşa malik olduğunu düşünərkən, verilən vədləri yerinə yetirmək üçün gözlənildiyindən daha zəif təchizatlı olduqlarını gördülər. Türk iş adamları bölgədə məskunlaşaraq, yavaş-yavaş da olsa, bölgənin ticarət və bazar imkanlarını öyrənməyə başladılar, daxili ticarət və investisiyalarda sabitlik üçün ciddi potensial görməyə başladılar. Türk Eximbank investisiyaları təşviq etmək üçün siyasi riskə qarşı zəmanət tətbiq etdi. Bank öz investisiya riskini sığortalamaq və nümunəvi müqavilələr yaratmaq üçün Dünya Bankının Çoxtərəfli İnvestisiya Zəmanət Ofisindən (MIGA) kömək

istədi. Türk Eksimbank tərəfindən Azərbaycan Respublikasına 300 milyon dollar kredit verilmişdir. Lakin bu rəqəmin 91,7 milyon dolları istifadə olunmayıb. İxracın maliyyələşdirilməsi üçün 100 milyon dollarlıq kreditlə yanaşı, 200 milyon dollarlıq layihə krediti də verilib. Lakin ayrılan kreditlər səmərəli və zəruri sahələrdə istifadə olunmadığından ödənişlərdə problemlər yaranıb. Bu səbəbdən, 8 avqust 1996-cı ildə cəmi 74,8 milyon dollarlıq borcların təxirə salınması müqaviləsi imzalandı. Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında 1992-ci il noyabrın 2-də imzalanmış Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi iki ölkənin iqtisadi və ticarət əlaqələrinin əsasını təşkil edir [3, s. 65].

***Cədvəl 2.***

***Türkiyə-Azərbaycan arasında ikitərəfli ticarət məlumatları (Milyon ABŞ dolları)***

| İl | İxrac | İdxal | Həcm | Balans |
|---|---|---|---|---|
| 1997 | 319,7 | 55,8 | 375,5 | 263,9 |
| 1998 | 327,2 | 50,3 | 377,5 | 276,9 |
| 1999 | 248,1 | 44,0 | 292,1 | 204,1 |
| 2000 | 230,0 | 96,6 | 326,6 | 133,4 |

*Mənbə: [7,8]*

Bu cədvəldə elektrik maşınları, heyvan və bitki yağları, dəyirman məhsulları, şəkər və şəkər məhsulları, qazanlar və maşınlar Türkiyənin xarici ticarətində ən əhəmiyyətli ixracat malları arasındadır. Ən mühüm idxal malları arasında pambıq, xam dərilər, dəmir-polad, plastik və mineral yanacaqlar var.




**Qrafik 1: 1995-2019-cu illərdə Azərbaycan və Türkiyə arasında xarici ticarətin həcmi (milyon dollar)**

*Mənbə: [7,8]*

2000-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş 800-dən çox türk şirkəti fəaliyyət göstərir. Onlardan 300-ü aktivdir və 2003-cü ilə qədər qeyri-enerji sektoruna Türkiyə əsaslı investisiyaların məbləği 850 milyon dollara çatmışdır. TPAO-nun enerji sektoruna etdiyi 650 milyon dollarlıq sərmayə nəzərə alındıqda Türkiyənin cəmi investisiyaları 1,5 milyard dollara çatıb. O cümlədən, 2003-cü ilin sonuna türk podrat şirkətlərinin Azərbaycanda gördüyü işlərin həcmi 1 milyard 431 milyon dollara çatmışdır.

Azərbaycan ilə Türkiyə arasında iqtisadi və ticarət əlaqələri 1 noyabr 1993-cü il tarixli Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi çərçivəsində həyata keçirilir. Bu razılaşmaya əsasən, tərəflərin bir-birinə ən əlverişli ölkə (ECKU) statusu verməsi qərara alınıb. Digər tərəfdən, türk sərmayədarları üçün böyük əhəmiyyət kəsb edən İnvestisiyaların Qarşılıqlı Təşviqi və Qorunması haqqında Saziş 31 iyul 1996-cı il və Türkiyə ilə Azərbaycan arasında ikiqat vergitutmanın qarşısının alınmasına dair saziş isə 1 yanvar 1998-ci il tarixindən qüvvəyə minmişdir.




**Qrafik 2: Azərbaycan və Türkiyədə ixracın idxala nisbəti 1995-2019**

*Mənbə: [7,8]*

2000-ci ildə Azərbaycanın ən çox idxal etdiyi ikinci ölkə Türkiyədir. 2000-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 325,3 milyon dollara çatdığı halda, Türkiyənin Azərbaycana ixracı 229,7, idxalı isə 95,6 milyon dollar olmuşdur. Türkiyənin ixracatında Azərbaycanın yeri 0,84%, idxalda isə 0,16% təşkil edir. Türkiyənin ümumi xarici ticarətində Azərbaycanın yeri 0,04% təşkil edib [7,8].

Azərbaycanın digər qonşusu İran ixrac etdiyi məhsulların keyfiyyətinin Türkiyənin ixrac məhsulları ilə müqayisədə aşağı olması səbəbindən Azərbaycanın xarici ticarətində xeyli geridə qalıb və Türkiyədən Azərbaycana ixraca müsbət təsir edib. Lakin bir müddət sonra Türkiyənin Azərbaycana ixracında azalma müşahidə olunub. Bunun əsas səbəblərindən biri də türk podratçı şirkətlərinin öhdəsinə götürdüyü podrat işlərinin böyük ölçüdə başa çatdırılması və yeni layihələrə başlanmamasıdır. Qeydə alınmamış ticarət əməliyyatları, xüsusilə də servis ticarəti nəzərə alındıqda, iki ölkə arasında xarici ticarət həcminin rəsmi məlumatlardan daha yüksək ola biləcəyi təxmin edilir. Naxçıvan Muxtar Respublikası ilə 11 kilometrlik quru sərhədi istisna olmaqla, iki ölkə arasında birbaşa avtomobil əlaqəsinin olmaması bəzən Türkiyənin Azərbaycanla iqtisadi və ticarət əlaqələrini, xüsusən də digər qonşu ölkələrlə müqayisədə mənfi vəziyyətə salır. Gürcüstanın tətbiq etdiyi yüksək vergilər və Türkiyənin Azərbaycanla magistral əlaqəni təmin etdiyi İranın tətbiq etdiyi tonaj məhdudiyyətləri, Azərbaycanın MDB üzvü olması və MDB ölkələri ilə gömrük müqavilələri Türkiyənin Azərbaycanla iqtisadi və ticarət əlaqələrinə mənfi təsir göstərib [4, s.449].

Türk nəqliyyat vasitələrinə tətbiq edilən yüksək yol vergiləri, gömrük rəsmiləşdirilməsi problemləri, viza müraciətləri, bürokratik prosedurların çoxluğu, lazımi hüquqi tənzimləmələrin olmaması, qeydiyyatsız iqtisadiyyatın gətirdiyi haqsız rəqabət mühiti, nəzarətsiz inhisarlaşma kimi problemlər öz həllini tapsa da zamanla türk iş adamlarının Azərbaycandakı fəaliyyətinə mənfi təsir göstəriblər.

Heydər Əliyev dövründə Azərbaycana yatırılan türk sərmayələri ölkəyə qoyulan qeyri-neft xarici investisiyalar arasında birinci yeri tuturdu. Türkiyəli sahibkarlar Azərbaycanda telekommunikasiya, bank və sığorta, maliyyə lizinq, tikinti-podrat, mətbuat yayımı, təhsil, səhiyyə, nəqliyyat, avtomobil, istehsal sənayesi, neft və xidmət sektoru kimi demək olar ki, bütün sahələrdə fəaliyyət göstərirlər. Ziraat Bankın tərəfdaşlığı ilə yaradılan Azər-Türk-Bank sahəsində əməkdaşlığın ilk nümunəsidir. Daha sonra Azərbaycanda Baybank, Royalbank, Koçbank, İşbank Azərbaycan və Citybank kimi türk kapitallı banklar fəaliyyətə başladı. Bundan başqa, Azərbaycanda Türkiyə kapitallı 3 sığorta şirkəti fəaliyyət göstərir. 2000-ci ilin sonuna olan məlumata görə, müxtəlif statuslu 1327 türk şirkəti (100% Türkiyə kapitallı, ortaq müəssisə, filial və ya nümayəndəlik kimi) Azərbaycanda rəsmi təsis əməliyyatları edərək hüquqi şəxs statusu qazanıb. Lakin Azərbaycanda yerli biznesin inkişafı ilə bu şirkətlərin əhəmiyyətli bir hissəsi sıradan çıxıb. 2000-ci ilə qədər bu şirkətlərin sayı 400-ə çatırdı. Türk şirkətlərinin Azərbaycanda sərmayələri təxminən 1,5 milyard dollar təşkil edir və bu şirkətlərdə təxminən 30.000 nəfər çalışır [5, s.117].

Azərbaycan bir çox üstünlükləri ilə türk iş adamlarının investisiya və kommersiya fəaliyyəti üçün üstünlük verdiyi ölkəyə çevrilib. Bu baxımdan bir çox türk şirkətləri Azərbaycanda ortaq müəssisələr yaradıb, filial və ya nümayəndəliklər açıblar. Müxtəlif sahələrdə fəaliyyət göstərən türk şirkətlərinin böyük bir hissəsi ticarətlə məşğul olur və ya kiçik və orta sərmayələrə üstünlük verir. Bu şirkətlərin fəaliyyət sahələri ümumiyyətlə neft, telekommunikasiya, bank və sığorta, qida məhsulları istehsalı, təhsil, media, tekstil və hazır geyim, nəqliyyat, avtomobil, meşə məhsulları, dəmir-polad, əlvan metallar kimi sektorlardır [6, s.17].

Azərbaycanda Heydər Əliyev hökuməti ilə Türkiyə arasında münasibətlərdə mühüm irəliləyiş əldə olunub. H.Əliyev dövründə Türkiyə-Azərbaycan münasibətləri ikitərəfli münasibətlər baxımından əsasən müsbət məcrada getmişdir. Bu dövrdə ikitərəfli əlaqələr çərçivəsində Türkiyə ilə xüsusilə enerji siyasətləri ilə bağlı uzunmüddətli əməkdaşlıq qurulmuş, əlaqələrin daimi və iqtisadi maraqlara söykənməsinin əsasları qoyulmuşdur. Bu fondlar İlham Əliyevin hakimiyyəti dövründə də Türkiyəyə qarşı iqtisadi siyasətin formalaşmasında əhəmiyyətli paya malik olub. Tədqiqat nəticəsində məlum olmuşdur ki, Türkiyə sərmayələri Azərbaycanda bir çox sahələri əhatə edərək, bankçılıqdan telekommunikasiyaya, nəqliyyatdan enerjiyə, qida sənayesindən sənaye obyektlərinin tikintisinə, kimyadan neft-kimyaya və baqaj ticarətinə qədər türk şirkətləri Azərbaycan iqtisadiyyatında həlledici rol oynayıb. Azərbaycan iqtisadiyyatının lokomotiv sektorunu təmsil edən enerji sektorunda Türkiyə fəal siyasət nümayiş etdirir. Xüsusilə H.Əliyev dövründə Türkiyə həm Azərbaycanın neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, işlənilməsi və istismarında, həm də bu ehtiyatların dünya bazarlarına çıxarılması layihələrində mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında // – Gəncə: Elmi Xəbərlər, – 2015. – s. 224-227.
2. İlham Əliyev Ümummilli lider Heydər Əliyevin layiqli davamçısıdır // Azərbaycanşünaslığın aktual problemləri, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI beynəlxalq elmi konfransın materiallari 2-ci hissə, –Bakı: – 2015, – s. 273-276.
3. Heydər Əliyev siyasəti və İlham Əliyev tərəfindən bu siyasətin yerinə yetirilməsi // – Bakı: Geostrategiya, – 2017. № 3 (39), – s.65-68.
4. Prezident İlham Əliyev və Qafqazda Azərbaycanın iqtisadi inkişaf tempi // AMEA, Qafqazşünaslıq institutu, Qafqazşünasların I Beynəlxalq Forumu: 2-ci kitab, – Bakı: – 2017, – s.447-452.
5. Ümummilli lider Heydər Əliyevin irsi müstəqil Azərbaycan dövlətinin milli sərvətidir // – Lənkəran: Elmi Xəbərlər, – 2018. № 2, – s.115-121.
6. Aslanlı, Araz (2018). "Türkiye-Azerbaycan Ekonomik İlişkileri", Yönetim ve Ekonomi 25 (1): 15-27.
7. Azərbaycan Dövlət Statistika Komitəsi: https://www.stat.gov.az;
8. Türkiyə Dövlət Statistika Təşkilatı: http://www.tuik.gov.tr



***Сабина Иззат кызы Велиева***
***Азербайджанский Университет Кооперации***
***д.э.н., доцент кафедры "Экономика аграрной отрасли и промышленности"***
***E-mail: sabina_valiyeva@mail.ru***
***ORCİD-İD: 0000-0002-6027-1692***


## Уникальная стратегия Гейдара Алиева в развитии экономических отношений с Турцией


***Резюме***

После обретения независимости Турецкие Республики подписали соглашение об экономическом сотрудничестве, составляющие правовую основу торгово-экономических отно-

шений, и присоединились к организациям экономического сотрудничества. Хотя экономические отношения, установленные с Турцией, жизненно важны для выхода Азербайджана из экономического кризиса, растущее давление России в регионе сделало необходимым проведение взвешенной экономической политики. Поэтому двусторонние экономические отношения между Азербайджаном и Турцией не могли развиваться в соответствии с условиями дня и политическими условиями в регионе в течение определенного периода времени. Такая ситуация была характерна и для среднеазиатских Турецких республик. Одним из важных моментов, привлекающих внимание с научной точки зрения в данном исследовании, является работа, проделанная личностью Гейдара Алиева в рамках развития административного устройства Азербайджанской Республики и его укрепления. Уникальная сбалансированная стратегия Гейдара Алиева по максимизации государственных интересов и развитию отношений с Турцией без ущерба для суверенитета государства продолжает вносить свой вклад и сегодня. Приоритет, отданный Турции в использовании азербайджанской нефти в мировой экономике, также повысил значение Турции в регионе. Хотя экономические отношения между Азербайджаном и Турцией в основном осуществляются в рамках Соглашения о торгово-экономическом сотрудничестве, также были подписаны важные для инвесторов соглашения.

***Ключевые слова: Гейдар Алиев, Турция, энергоресурсы, балансовая стратегия, иностранные инвестиции, экономическое развитие.***

***Sabina Izzat Valiyeva***
***Azerbaijan University of Cooperation***
***“Economics of the agricultural field and industry”***
***department doctor of economic sciences, associate professor,***
***E-mail: sabina_valiyeva@mail.ru***
***ORCİD-İD: 0000-0002-6027-1692***

## Heydar Aliyev's unique balance strategy in the development of economic relations with Turkey

***Summary***

After gaining independence, the Turkish Republics signed economic cooperation agreements, which form the legal basis of commercial and economic relations, and joined economic cooperation organizations. Although the economic relations established with Turkey are vital for Azerbaijan to get out of the economic crisis, the growing pressure of Russia in the region made it necessary to conduct a balanced economic policy. Therefore, the bilateral economic relations between Azerbaijan and Turkey could not develop according to the conditions of the day and the political conditions in the region for a certain period of time. This situation was also characteristic of the Central Asian Turkish Republics. One of the important points that attract attention from a scientific point of view in this study is the work done by the personality of Heydar Aliyev within the framework of the development of the administrative structure of the Republic of Azerbaijan and its strengthening. Heydar Aliyev's unique balance strategy of maximizing state interests and developing relations with Turkey without harming the sovereignty of the state of the Republic of Azerbaijan continues to contribute today. The priority given to Turkey for the use of Azerbaijani oil in the world economy has also increased Turkey's importance in the region. Although the economic relations between Azerbaijan and Turkey are generally implemented within the framework of the Agreement on Trade and Economic Cooperation, agreements of great importance for investors have also been signed.

***Key words: Heydar Aliyev, Turkey, energy resources, balance strategy, foreign investments, economic development.***

**UOT: 327:33**

***Aqil Məhiyəddin oğlu ƏSƏDOV***
***İİTKM1-in şöbə müdiri,***
***iqtisad elmləri doktoru, dosent***
***Email: aqil.asadov@ereforms.gov.az***

***Ədalət Məhiyəddin oğlu ƏSƏDOV***
***Azərbaycan Kooperasiya Universiteti,***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent,***
***Email: adalatasad50@gmail.com***

***Zülfiyyə Hafiz qızı ELLAZOVA***
***İİTKM, "İslahat" könüllüsü,***
***Email: zulfiyyeellazova@gmail.com***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN QLOBAL MƏKANA ÇIXIŞI

***Xülasə***

Məqalədə Azərbaycan Respublikasının iqtisadi inkişaf dinamikası qısaca şərh edilir. Ümummilli liderin şah əsəri adlandırılan "Əsrin müqaviləsi"nin imzalanması və onun sosial-iqtisadi əhəmiyyəti izah edilir. Azərbaycanın əldə etdiyi bütün uğurların əsasında, məhz bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strategiyanın dayandığı vurğulanır. Müəlliflər Azərbaycanın qoşulduğu beynəlxalq nəqliyyat layihələrini nəzərdən keçirib. Məqalədə İpək yolu və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyəti vurğulanır. Orta dəhlizin aktuallığı əsaslandırılır, onun cəlbedici xüsusiyyətləri sadalanır. Azərbaycan, Gürcüstan və Qazaxıstan tərəfindən Orta dəhlizin cəlbediciliyinin artırılması istiqamətində görülən işlər geniş şərh edilir. Xəzər dənizində limanların imkanlarının artırılması ilə bağlı həyata keçirilən layihələr nəzərdən keçirilir. Müəlliflər qeyd edir ki, hazırda Orta dəhliz Şimal-Cənub nəqliyyat dəhlizi üzrə daşınmaların 5 faizə qədərini əhatə edir. Azərbaycanda və Qazaxıstanda infrastruktur təminatın yaxşılaşdırılması istiqamətində aparılan işlər Orta dəhlizin payının 25-30 faizə qədər artacağına əsas yaradır. Məqalədə, infrastruktur təminatla yanaşı, sərhəd-keçid proseslərinin də asanlaşdırılması zərurliyi qeyd edilir.

***Açar sözlər: Əsrin müqaviləsi, İpək yolu, Şimal-Cənub, Orta dəhliz, infrastruktur və s.***

***

Müasir Azərbaycan Respublikası davamlı inkişaf edən bir ölkədir ki, bu da öz mənbəyini ümummilli liderin iqtisadi strategiyasından alır. Bu gün müxtəlif sahələrdə ölkəmizin əldə etdiyi hər bir uğurun əsasında bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strategiya dayanır. Hansı ki, bu strategiyanın əsasında Azərbaycan iqtisadiyyatı müəyyən bir dinamik yol keçmişdir ki, bu yolun da müxtəlif mərhələləri özünəməxsus xüsusiyyətlərlə fərqlənir. Nəzərə alsaq ki, müasir inkişafın əsasında qlobal məkana çıxış, dövlətlərin beynəlxalq aləmdə nüfuzu, dünya bazarında iştirak və s. kimi məsələlər dayanır, onda dinamik və davamlı tərəqqini nəqliyyat əlaqələri olmadan təsəvvür etmək mümkün deyildir.

Ölkəmizin qlobal məkana çıxışının əsasını təşkil edən nəqliyyat əlaqələrinin formalaşması özlüyündə bir alqoritm əmələ gətirir. Bu alqoritm isə Ulu Öndərin şah əsəri olan "Əsrin müqaviləsi" ilə başlayır.

**Əsrin müqaviləsi – dinamik tərəqqinin başlanğıcı**

Xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdı və bununla da Azərbaycanın siyasi və iqtisadi həyatında bir çox mühüm dəyişikliklər etməyə başladı. Müstəqil Azərbaycanı müasir, güclü iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya neft sahəsinin inkişafını və Azərbayca-

[1] İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

nın yeni inkişaf mərhələsinə keçidini təmin etdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə "Gülüstan" sarayında 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən mühüm müqavilələrindən biri - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Bu saziş siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı. İlkin hesablamalara görə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1.072 milyard ton həcmində müəyyən edilib. Bu nəhəng yataqlar blokunun istismarı üç mərhələdə nəzərdə tutulmuşdu. İlk mərhələdə 1997-ci ilin sonlarında neft Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlanıb. İkinci mərhələdə 1999-cu ildə Qara dənizin digər limanına - Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilib və 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb [7; 8].

Üçüncü mərhələdə 2002-ci ildə ümummilli lider Heydər Əliyevin davamlı səyləri nəticəsində "Əsrin müqaviləsi"ndə nəzərdə tutulan, lakin çoxlarının əfsanə və ya kağız üzərində kəmər hesab etdiyi əsas neft kəməri - Bakı-Tbilisi-Ceyhanın təməli qoyulub. 2005-ci il mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi keçirilib, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanılıb. Sonradan isə dünyanın enerji mənzərəsini dəyişən kəmərə ümummilli lider Heydər Əliyevin adı verilib.

"Əsrin müqaviləsi" ilə başlayan dinamika 1998-ci ildə İpək yolunun bərpasına dair konfransla davam etdi. 1993-cü ildə Brüsseldə qəbul edilən TRASECA proqramı əsasında Böyük İpək Yolunun bərpasına başlanıldı. 2005-ci ildə isə Azərbaycan daha bir mühüm nəqliyyat layihəsinə – Şimal-Cənub nəqliyyat dəhlizinə qoşuldu. Beləliklə də, dinamik inkişaf edən Azərbaycanın təşəbbüsü, yaxından iştirakı olmadan regionda hər hansı layihənin reallaşması mümkün deyildir. Azərbaycan dövləti nəinki ölkəmizin, eləcə də regionun inkişafı üçün mühüm təşəbbüslərlə çıxış edir, dünya bazarına, qlobal məkana sürətlə inteqrasiya olunurdu [7; 8].

Son illər isə dünyada və regionda baş verən proseslər nəqliyyat layihələrinin də aktuallığına təsir etmişdir. Bu gün regionda cərəyan edən geosiyasi proseslər, Rusiya-Ukrayna müharibəsi Şimal-Cənub nəqliyyat dəhlizini təhlükəli bir hala gətirib. Ona görə də dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa-Çin marşrutu üçün Azərbaycan üzərindən daşınmalar daha cəlbedici hal alıb. Ölkəmizin təkmil infrastruktur təminatı, əlverişli coğrafi mövqeyi, stabillik, məsafə və zaman azlığı və s. səbəblərdən Çin-Qazaxıstan-Azərbaycan-Türkiyə-Avropa marşrutu – Orta Dəhliz daha cəlbedici görünür.

Əsrin müqaviləsi ilə qoyulmuş dinamika əsasında, Azərbaycan həm də avroatlantik məkanın mühüm nəqliyyat-tranzit qovşağına çevrildi. Ölkəmizin zəngin ixrac və enerji üçün perspektivli dəhlizlərindən biri də "Orta Dəhliz" hesab olunur. Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çini Avropa ilə birləşdirən dəmir yolu, yük və bərə sistemidir. O, Cənub-Şərqi Asiya və Çindən başlayır və yükün təyinat yerindən asılı olaraq, cənub və ya Mərkəzi Avropaya çatana qədər Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçir. Coğrafi baxımdan bu, Qərbi Çin və Avropa arasında ən qısa yoldur. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu nəqliyyat və transsərhəd ticarət üçün böyük əhəmiyyət kəsb edir. Dəhliz həm də inklüziv və davamlı inkişafın aparıcı qüvvəsi kimi əhəmiyyətli potensiala malikdir. Bu potensialdan səmərəli istifadə üçün Orta Dəhliz ölkələri arasında gömrük ittifaqı, birgə tarif koordinasiyası və ya transmilli rəqəmsal inteqrasiya istiqamətində davamlı əməkdaşlıq edilməlidir [1, s.139-147; 9].

Dəhlizdə Xəzər dənizi ilə həmsərhəd olan Azərbaycan, Qazaxıstan və Türkmənistan, eləcə də Özbəkistan mühüm rol oynayır. Orta Dəhliz ölkələri arasında nazirliklərarası və hökumətlərarası əlaqələr, o cümlədən Türk Dövlətləri Təşkilatı və Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində formalaşması nəqliyyat və logistikanın təkmilləşdirilməsinə həsr olunmuş inteqrasiya edilmiş institutların potensialına işarə edir. Bu, Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Cənubi Avropaya fayda gətirəcək regional ticarət və sənaye zonalarının və iqtisadi inteqrasiyanın digər forma-

larının inkişafına təkan verəcəkdir. Bunu etməklə Türkiyə, Azərbaycan və digər Orta Dəhliz ölkələri marşrutun sərt və yumşaq infrastrukturuna daha çox yükdaşımaları və çox ehtiyac duyulan sərmayələri cəlb edərək, Avropa İttifaqı və Çin ilə daha geniş əməkdaşlıq etməlidir. Təbii ki, bu baş verməsə, müxtəlif razılaşmalar real siyasətə çevrilmədiyi üçün yalnız kağız üzərində qalma riski ilə qarşı-qarşıyadır. Həm də ona görə ki, dünyada əsas yük axını Çin-Avropa-Çin marşrutu üzrədir. Çin-Avropa illik ticarət dövriyyəsi 600 milyard ABŞ dollarının üzərindədir və bu rəqəm Orta Dəhlizin perspektivlərini daha da aydın ifadə edir [9; 11].

Təcrübə göstərir ki, Avropa İttifaqı özünün qabaqcıl təcrübələrini bölüşməklə, regiondaxili və regiondankənar iqtisadi inteqrasiya siyasətlərinin həyata keçirilməsində dəstək verməkdə əsas rol oynaya bilər. Orta Dəhliz ölkələrinin nəqliyyat və enerji siyasətlərinin Avropa İttifaqının yaşıl gündəliyi və davamlı əlaqə məqsədlərinə uyğunlaşdırılması da bütün tərəflərin xeyrinə ola bilər. Beləliklə, Orta Dəhliz təkcə iqtisadi və ticari inkişaf yolu deyil, həm də sülh, ədalət və haqsızlığa qarşı birləşmək rəmzidir.

Yaxın vaxtlara qədər qədim İpək Yolunun mərkəzində regional inteqrasiyaya maneələr böyük görünürdü. Postsovet məkanının bir çox problemləri, o cümlədən Ermənistan və Azərbaycan arasında davam edən münaqişə, Gürcüstan ərazilərinin Rusiya tərəfindən işğalı və ABŞ-ın tələsik geri çəkilməsindən sonra Əfqanıstanda hökumətin süqutu da daxil olmaqla, əməkdaşlığı çətinləşdirdi. Həmçinin, Qərbin Rusiya, Çin və İranla davam edən ziddiyyəti bu bölgənin uzun müddət artan strateji risk və qeyri-müəyyənlik kimi qəbul edilməsinə səbəb oldu. Regional sabitliyə dair çoxsaylı narahatlıqlara baxmayaraq, əhəmiyyətli layihələrdən biri də Azərbaycandakı qaz yataqlarını Xəzər dənizindən Gürcüstana, Türkiyəyə və Aralıq dənizi vasitəsilə İtaliyaya boru kəməri ilə birləşdirən Cənub Qaz Dəhlizi idi. Bu layihə regional problemlərə, eləcə də Almaniya və Rusiyanın təşəbbüsün qarşısını almaq üçün ekoloji və siyasi qrupları maliyyələşdirərək ona qarşı çağırışlar gətirmək səylərinə baxmayaraq davam etdi. Sistemin son mərhələsi qismən ABŞ-ın İtaliyadakı lobbiçiliyi sayəsində artıq fəaliyyətdədir [9].

Boru kəməri ilə yanaşı, regional logistika qovşaqları da inkişaf etməkdə davam edir. Layihələrə Gürcüstanın Poti şəhərindəki limanın modernləşdirilməsi və Azərbaycanda Bakı limanının yenidən qurulması da daxildir. Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar və Avropanın mənbələri şaxələndirmək yolu ilə enerji təhlükəsizliyini yaxşılaşdırmaq səylərinin genişlənməsindən sonra Avropa İttifaqı 2022-ci ilin iyulunda Cənub Qaz Dəhlizi vasitəsilə qazın əldə edilməsinə dair saziş imzalayıb. Həcm Rusiya qazını əvəz etmək üçün lazım olan miqdarın bir hissəsini təşkil etsə də, saziş strateji əhəmiyyət kəsb edir.

Cənub Qaz Dəhlizi uzunmüddətli perspektivdə qlobal nəqliyyat və logistikanın, istehsal və ticarət tərəfdaşlığının bir hissəsi olan potensial enerji mənbələri kimi Qərbin Qafqaz və Mərkəzi Asiyaya marağını təzələdi. Azərbaycanın 2020-ci il Vətən müharibəsindəki uğuru da daxil olmaqla, digər amillər geosiyasi vəziyyəti dəyişdi. Bütövlükdə bu hadisələr Qafqaz və Cənubi Avropa ölkələrinə daha müstəqil siyasətlər qurmaq üçün daha çox geosiyasi məkan yaradır. Onların ABŞ, Avropa və müəyyən dərəcədə Cənubi Koreya və Yaponiya ilə əlaqələrə marağını artırır. Məsələn, Yaponiya Orta Dəhlizin yükdaşıma potensialını malları Çin limanlarına daşımaqla, onları Mərkəzi Asiyadan dəmir yolu ilə Azərbaycana və Xəzər dənizi üzərindən Avropaya daşımaq yolu ilə sınaqdan keçirib. Onu da qeyd edək ki, Qazaxıstanla yanaşı, Özbəkistan da Orta Asiyanın inkişafa meyilli ölkəsi kimi görünür. Hər iki ölkə Orta Dəhlizi strateji üstünlük və enerji, logistika və istehsalatda öz imkanlarını genişləndirmək yolu kimi görür [9; 11].

Şərq-Qərb dəhlizi, əsasən, Çin vəsaitləri və təsiri olmadan, dövlət-özəl investisiyalar və idarəetmə yolu ilə inkişaf edir. Bununla belə, həll edilməmiş gömrük və sərhəd nəzarəti və ya məlumatların idarə edilməsi məsələləri kimi maneələr hələ qalmaqdadır. Digər böyük problem modernləşdirilmiş infrastrukturun olmamasıdır. Bu məsələlər səmərəli inteqrasiyanın qarşısını alır, Şərq-Qərb yükdaşıma marşrutunu Rusiyadan keçən şimal dəhlizindən və ya cənub dəniz marşrutlarından daha az iqtisadi rəqabətə davamlı edir. Buna baxmayaraq, təchizat zəncirinin pozulması fonunda nəqliyyata qlobal tələbat bəzi malların bazara çıxarılması üçün alternativ vasitə kimi Orta Dəhlizi cəlbedici edir. Nəticədə marşrutun inkişafı davam edəcək. Bununla belə, qlobal iqtisadi geriləmə səbəbindən tələbin kəskin azalması gələcək səylərə mənfi təsir göstərə bilər [9; 11; 13].

Araşdırmalar göstərir ki, Mərkəzi Asiya və Qafqaz vasitəsilə yüklərin daşınması 2021-ci ilə nisbətən 2022-ci ildə 6,0 dəfə artaraq 3,2 milyon metrik tona çatıb. 2022-ci il mayın 10-da Finlandiyanın "Nurminen Logistics" şirkəti Transxəzər marşrutu ilə Çindən Mərkəzi Avropaya konteyner daşımalarına başlayıb. Gürcüstan Azərbaycan və Qazaxıstan şirkətləri ilə Gürcüstanın Poti və Rumıniyanın Konstansa limanları arasında gəmilərdən istifadə etməklə yeni gəmiçilik marşrutu hazırlamaq üçün işləyir [9; 11; 12].

Bütün bunlara baxmayaraq, Orta Dəhliz hazırda Rusiya üzərindən keçən marşrutun tutumunun təxminən 5%-nə malikdir, lakin Mərkəzi Asiya ölkələri müasir infrastrukturun inkişafı üçün böyük vəsait xərcləyirlər. Məsələn, Qazaxıstan Xəzər dənizi boyunca 2000 kilometrdən çox dəmir yolu, 19,5 min kilometr yol, 15 hava limanı və limanların tikintisinə son 15 ildə təxminən 35 milyard dollar sərmayə qoyub. 2022-ci ildə Qazaxıstan tranzit və yükdaşıma marşrutlarının şaxələndirilməsi və logistik həllərin inteqrasiyası üçün 20 milyard dollarlıq investisiya paketi elan edib ki, bütün bunlar da Orta Dəhlizin perspektivlərini bir daha ifadə edir. Avropa İttifaqı Qazaxıstanın xarici ticarətinin 40%-ni təşkil edən ən mühüm ticarət tərəfdaşıdır və Mərkəzi Asiyada regional inkişafın mühüm dəstəkçisidir. Hazırda Qazaxıstanın Avropa İttifaqına ixracı, demək olar ki, tamamilə enerji və xammaldan ibarətdir [9; 10; 11].

Araşdırmalar göstərir ki, Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Rusiya və Belarusa qarşı artan sanksiyalar Çin-Avropa İttifaqı arasında quru ticarət əlaqələrinə də təsir edir. Qərb istiqamətində daşınma baxımından Şimal Dəhlizinin payı 2020-ci ildə ümumi daxil olan yüklərin 79%-ni təşkil edib və 2021-ci ildə isə 68%-ə çatıb. Son iki ildə şərqə istiqamətli nəqliyyat üçün bu, müvafiq olaraq 90% və 82% təşkil edib [9; 10].

Müşahidələr göstərir ki, "Rusiya Dəmir Yolları"nın Avropa İttifaqı və ABŞ-ın sanksiya siyahısında olmasına baxmayaraq, şirkətlə əməkdaşlıq potensialı hələ də mövcuddur. Lakin bank sektoruna tətbiq edilən sanksiyalar və Rusiyanın daxili siyasətində artan qeyri-müəyyənlik xarici şirkətlərin qərarlarına təsirsiz ötüşmür. Onlar Rusiyanın aparıcı tranzit ölkə kimi istifadəsinin dayandırılmasını təşviq edə bilərlər. Məsələn, Zyxel Communications Corp-un Çindən Avropaya dəmir yolu ilə daşımaları dayandırmaq qərarı və BMW Group Audi-nin Almaniyadan Çinə dəmir yolu ilə avtomobillərin daşınmasını dayandırmaq qərarı beynəlxalq şirkətlərin mülahizələrini əks etdirən əsas nümunələrdir.

Regionda baş verən proseslər, gərginliklər Çin və Avropa, xüsusən də Orta Dəhliz kontekstində potensial alternativ marşrutlar haqqında yeni müzakirələrə səbəb olur. Məsələn, Şimal Dəhlizindəki qeyri-sabitliyə görə, dünyanın ən qədim logistika şirkətlərindən biri olan Gebrüder Weisss, Türkiyədəki iştirakını genişləndirmək qərarına gəldi və Finlandiyanın "Nurminen Logistics" logistika şirkəti ilə Qazaxıstan Dəmir Yolları arasında Orta Dəhlizinin kommersiyalaşdırılması üçün yeni müqavilə imzalandı ki, bu da dəhlizə marağın artdığını göstərir [9; 12; 13].

"Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO), "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında Xəzər dənizi üzərindən iki yeni gəminin istismarına başlanması haqqında saziş imzalanıb ki, bu da daha bir mühüm hadisədir. Çünki Xəzər dənizindən keçmək əhəmiyyətli darboğazdır, çünki bərə və liman xidmətləri hər iki tərəfin dəmir yolu tutumunu balanslaşdırmaq üçün kifayət deyil. Bu yeni müqavilə ilə darboğaz problemini azaltmaq və yükdaşıma həcmini artırmaq şansı var. Nəhayət, Asiya İnkişaf Bankının (AİB) dəstək proqramının köməyi ilə Azərbaycan sərhədi ilə Gürcüstanın Batumi limanı arasında yükdaşımaların orta müddəti 4 saat azalacaq. Bundan əlavə, şəbəkələrin illik yükdaşıma qabiliyyətinin 2024-cü ilə qədər 27 milyon tondan 48 milyon tona yüksəlməsi proqnozlaşdırılır. Artan tutumlar mühüm amildir, çünki bu, Şimal Dəhlizindən daha çox yükün cəlb edilməsinə və dəhlizin səmərəliliyinin artırılmasına kömək edəcəkdir.

Bütün bunlarla yanaşı, infrastrukturun təkmilləşdirilməsi ölkələr arasında dəmir yolu ticarəti üçün xərclərin və vaxtın azaldılmasında mühüm rol oynayır. Birincisi, dəhliz boyunca rəqəmsal transformasiya, elektron növbə sisteminin tətbiqi infrastrukturun inkişafı və daşınmaların çevikliyi üçün vacibdir. Bu sistem yüklərin daşınma xərclərini azalda, korrupsiyasının qarşısını ala və sərhəddə şəffaflığı təmin edə bilər.

Dəhliz boyunca daha bir mühüm irəliləyiş Gürcüstan, Azərbaycan, Türkiyə və Qazaxıstan

arasında "Avrasiya Dəmiryol Alyansı"nın yaradılması üzrə birgə müəssisədir. Birgə müəssisələr tənzimləmənin birləşdirilməsində, tariflərin azaldılmasında və yüksək keyfiyyətli intermodal daşımaların təşviqində həlledici rol oynaya bilər.

Ümumiyyətlə, infrastrukturun inkişafı Şimal Dəhlizindən Orta Dəhlizə daha çox yük daşınmasını təşviq edir, çünki tariflərin azaldılması, qaydaların birləşdirilməsi, dəmir yolu xəttinin və bərə xidmətinin uzadılması xarici şirkətlərin qərarlarına təsir edir və dəhlizin xərc və qiymət baxımından cəlbediciliyini artırır. Orta Dəhliz Çin və Avropa arasında daşınan yüklərin cəmi 3-5%-ni təşkil etsə də, Şimal Dəhlizində yaranan nasazlıq səbəbindən Orta Dəhliz üzərindən daşınmaların təqribən 15-20%-ədək artacağı gözlənilir [9; 11; 12].

Nəticə olaraq, Orta Dəhlizin Çin-Avropa quru əsaslı kommersiya əlaqələri üçün məhdud imkanlarına baxmayaraq, son hadisələr dəhlizin daha çox yük cəlb etmək, qısa və orta müddətdə təchizat zəncirinin pozulmasını azaltmaq üçün bir sıra potensiala malik olduğunu göstərir. Uzunmüddətli perspektivdə "Nəqliyyata baxış - 2053" və "Orta Dəhliz Təşəbbüsü" kimi aydın strategiyalar infrastrukturun inkişafı üçün ölkələr arasında koordinasiyanı gücləndirə bilər. Nəticədə, gələcək əməkdaşlıq dəhliz ölkələri üçün Çin və Avropa arasında yüklərin 22-30%-ə qədərini cəlb etmək şansı yarada bilər [9; 12].

Onu da qeyd edək ki, Azərbaycan və Qazaxıstan arasında sıx ikitərəfli münasibətlər Orta Dəhlizin uğuru üçün çox aktualdır. Dəhliz Bakı Beynəlxalq Dəniz Limanı (Azərbaycan), Port Aktau və Port Kurık (Qazaxıstan) vasitəsilə Qafqazı Mərkəzi Asiya ilə birləşdirir. Beləliklə, aydın olur ki, iki ölkə arasında sıx münasibətlər dəhlizin səmərəli olması üçün həyati əhəmiyyət kəsb edir.

Regionda cərəyan edən proseslər, Rusiya-Ukrayna münaqişəsi səbəbindən Orta Dəhliz Rusiya və Belarusdan keçən standart marşrutun məcburi əvəzedicisinə çevrilib. 2021-ci ilin birinci rübündə buradan 16 000-dən az konteyner keçdiyi halda, 2022-ci ilin birinci rübündə 19 500 ədəd qeydə alınıb. Orta Dəhliz üzrə 2022-ci ilin ilk üç ayında konteyner daşımaları keçən illə müqayisədə 28% artıb . Xəzər dənizi ilə yükdaşıma qabiliyyəti ildə təqribən 135 milyon ton olduğu halda, bu gün liman qurğularından cəmi 30 milyon ton istifadə olunur. Mütəxəssislərin fikrincə, Xəzəryanı ölkələrin dəniz limanlarının yalnız 20%-i beynəlxalq yükdaşımaları üçün istifadə olunur. Qazaxıstan və Azərbaycan yüklərin daşınmasını artırmaq üçün nəqliyyat infrastrukturunu təkmilləşdirir, Bakı və Aktau limanları xeyli genişləndirilir. Azərbaycandan 25 milyon ton yük və 500 min TEU konteyner daşınma imkanının yaradılması üçün ardıcıl işlər aparılır. Eyni zamanda, Qazaxıstan ixrac potensialını artırmaq üçün Xəzər dənizində yeni yük terminalı tikməyi planlayır [9; 11; 12; 13].

Aparılan təhlil və araşdırmalar Orta Dəhlizin sürətlə inkişaf etdiyini, Azərbaycan və Qazaxıstan arasında əlaqələrin daha da gücləndiyini göstərir. İkitərəfli əlaqələr, tarixi ənənələr Orta Dəhlizin inkişaf etdiyi bu münasibətlərin təməl daşıdır. Orta Dəhliz müzakirə edilərkən nəzərə alınmalı çoxlu problemlər və məsələlər olsa da, Bakı və Qazaxıstan yaxın münasibətlərini qoruduqca, Orta Dəhlizin uğur qazanmaq üçün şansı daha da artır. Qeyd edildiyi kimi, nəqliyyatın böyük hissəsi Şimal dəhlizindən keçirdi. Səbəb isə Orta Dəhlizdə hələ də bəzi infrastrukturun olmaması, bəzi hissələrinin isə işlənməməsi idi.

Beləliklə, Orta Dəhlizdən ticarət üçün istifadə xərclərini azaltmaq üçün Azərbaycan Gürcüstan və Qazaxıstan kimi əsas tərəfdaş ölkələrlə koordinasiya etməli, dəhlizin daha operativ olması üçün lazım olan infrastruktura sərmayə qoymalıdır. O cümlədən, iştirakçı dövlətlərin sərhədlərdə prosedurlar, xüsusən də tranzit daşımalarla bağlı ticarət maneələrinin azaldılmasına çox diqqətlə baxması vacibdir. Bu, əslində dinamik özəl sektora əsaslanan yeni artım modelinin əhəmiyyəti ilə bağlı daha böyük məsələnin bir hissəsidir. Çünki buna nail olmaq üçün Azərbaycanın ən azı üç istiqamətdə fəaliyyət göstərməsinə ehtiyac olacaq. İlk növbədə, özəl sektorun inkişafı üçün bütün vasitələrlə əlverişli mühitin yaradılması, ədalətli rəqabət mühitinin formalaşdırılması lazımdır. Digər tərəfdən investisiya cəlb edilməlidir, Azərbaycan nəqliyyat və enerji sektoruna investorların cəlb edilməsində güclü təcrübəyə malikdir. Nəhayət, bütün bunların əsasında qlobal məkana daha sürətli inteqrasiya formalaşacaqdır.

## ƏDƏBİYYAT


1. Eyvazov, E., Balabəyova,N. "Beynəlxalq nəqliyyat əməliyyatları". Bakı, "Elm və təhsil", 2019, 336 səh.;
2. Feyziyev,C. "Beynəlxalq münasibətlərin inkişafında qlobal siyasət və humanitar sahənin konvergensiyası (Siyasi analitikanın imperativləri)". http://cavansir.feyziyev.com/bloq/elmi/beynelxalq-munasibetlerin-inkishafinda-qlobal-siyaset-ve-humanitar-sahenin-konvergensiyasi.php
3. Abbasbəyli, A. "Müasir beynəlxalq münasibətlər və qloballaşma". Bakı, "Bakı Universiteti", 2007, 165 səh.;
4. Трачук, Н. "Мировая глобализация: причины, тенденции, вызовы и последствия". https://uiamp.org/mirovaya-globalizaciya-prichiny-tendencii-vyzovy-i-posledstviya
5. Элвуд Уэйн "Глобализация". М.:, Книговек, 2013 г., стр. 208;
6. https://president.az/az/articles/view/56442
7. https://president.az/az/pages/view/azerbaijan/contract
8. https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
9. https://www.dailysabah.com/opinion/op-ed/the-middle-corridor-promising-alternative-for-export-and-energy
10. https://www.gisreportsonline.com/r/middle-corridor/
11. https://www.aa.com.tr/en/analysis/analysis-emerging-potential-of-the-middle-corridor/2579415#
12. https://www.geopoliticalmonitor.com/kazakhstan-azerbaijan-the-axis-of-the-middle-corridor/
13. https://www.silkroadbriefing.com/news/2023/01/04/world-bank-highlights-azerbaijan-and-middle-corridor-between-europe-asia-as-ripe-for-foreign-investment/



***Агиль Махияддин оглы Асадов***
***начальник отдела ИИТКМ,***
***доктор экономических наук, доцент***
***e-мейл: agil.asadov@ereforms.gov.az***

***Адалат Махияддин оглы Асадов***
***Азербайджанский Университет Кооперации,***
***доктор философских наук, доцент,***
***e-мейл: adalat.asad@gmail.com***

***Зульфия Хафиз кызы Эллазова***
***ИИТКМ, волонтер "Ислахат",***
***e-мейл: zulfiyyeellazova@gmail.com***


## Гейдар Алиев и появление Азербайджана в мировом пространстве


***Резюме***

В статье кратко описывается динамика экономического развития Азербайджанской Республики. Объясняется подписание "Контракт века", который называют шедевром национального лидера, и его социально-экономическое значение. Подчеркивается, что все достигнутые Азербайджаном успехи основаны на стратегии, заложенной великим лидером Гейдаром Алиевым. Авторы рассмотрели международные транспортные проекты, к которым присоединился Азербайджан. В статье подчеркивается важность Шелкового пути и транспортных коридоров Север-Юг. Обоснована актуальность среднего коридора, перечислены его привлекательные черты. Широко комментируется работа, проделанная Азербайджаном, Грузией и Казахстаном в направлении повышения привлекательности Среднего коридора. Рассматриваются проекты увеличения пропускной способности портов на Каспии. Авторы отмечают, что Средний коридор в настоящее время охватывает до 5 про-

центов трафика транспортного коридора Север-Юг. Работа, проводимая в направлении улучшения инфраструктурного обеспечения Азербайджана и Казахстана, создает основу для увеличения доли Среднего коридора до 25-30 процентов. В статье упоминается необходимость облегчения процессов пересечения границы наряду с обеспечением инфраструктуры.

***Ключевые слова: Контракт века, Шелковый путь, Север-Юг, Средний коридор, инфраструктура и др.***

***Agil Mahiyaddin Asadov***
***Head of department of CAREC,***
***doctor of economic sciences, associate professor***
***Email: agil.asadov@ereforms.gov.az***

***Adalat Mahiyaddin Asadov***
***Azerbaijan Cooperation University,***
***Doctor of Philosophy in Economics, Associate Professor,***
***Email: adalat.asad@gmail.com***

***Zulfiyya Hafiz Ellazova***
***CAREC, "Islahat" volunteer,***
***Email: zulfiyyeellazova@gmail.com***

## Heydar Aliyev and the emergence of Azerbaijan in the global space

***Summary***

The article briefly describes the economic development dynamics of the Republic of Azerbaijan. The signing of the Contract of the Century, which is called the national leader's masterpiece, and its socio-economic significance are explained. It is emphasized that all the successes achieved by Azerbaijan are based on the strategy laid by the great leader Heydar Aliyev. The authors reviewed the international transport projects that Azerbaijan joined. The article emphasizes the importance of the Silk Road and the North-South transport corridors. The relevance of the middle corridor is justified, its attractive features are listed. The work done by Azerbaijan, Georgia and Kazakhstan in the direction of increasing the attractiveness of the Middle Corridor is widely commented. Projects on increasing the capacity of ports in the Caspian Sea are being reviewed. The authors note that the Middle Corridor currently covers up to 5 percent of North-South transport corridor traffic. The work carried out in the direction of improving the infrastructure provision in Azerbaijan and Kazakhstan creates the basis for the increase of the share of the Middle Corridor up to 25-30 percent. The article mentions the need to facilitate border crossing processes along with infrastructure provision.

***Key words: Contract of the century, Silk Road, North-South, Middle Corridor, infrastructure, etc.***

**UOT 339**

***Əşrəf Rəsul oğlu ƏLƏKBƏROV***
***dos., i.e.n. Azərbaycan Kooperasiya Universiteti***
***"Dünya iqtisadiyyatı" kafedrası***
***ashrafelalakbarov@gmail.com***

## AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASININ BƏZİ İSTİQAMƏTLƏRİ

***Xülasə***

Məqalədə, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq kapital axınının artmasına, əmtəə və xidmətlərin beynəlxalq hərəkətinin liberallaşmasına kömək edən şərtlərin

məcmusuna, azad və ya xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətinə baxılır. İnteqrasiya proseslərinin təhlili verilir.

***Açar sözlər: H.Əliyev, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft borusu, azad iqtisadi zona, birbaşa xarici investisiya.***

***

Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə, eləcə də heç kəsə nəsib olmayan uzunmüddətli məharətlə başçılıq etdiyinə görə, hələ uzun illər öncədən xalqımızın qəlbində əvəzsiz dövlət xadimi qiymətini almış möhtərəm Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müxtəlif dövrlərdə müəyyən etdiyi və həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix xalqımıza Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətin simasında əsl ümummilli liderə xas olan parametrlərə tam cavab verən, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir. [ 1, s. 3]

Bu gün ölkəmiz bütün sahələrdə, o cümlədən yüksək inkişaf etmiş iqtisadiyyatı ilə dünya arenasında öz adından bəhs etdirir. Təbii ki, məhz ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər və sonrakı dövrlərdə bu nailiyyətlərin uğurla davam etdirilməsi ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaradıb. Hətta son illər bəzi ölkələrdə yaşanan ciddi iqtisadi problemlər, valyuta bazarlarında kəskin təlatümlər fonunda da Azərbaycan iqtisadiyyatı yüksək dayanıqlılıq nümayiş etdirir, həyata keçirilən siyasətin alternativsiz olduğunu bariz şəkildə göstərir. Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi prinsipi artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıdıb. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz". [2 , s.5]

"Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft borusu, Bakı-Supsa neft borusu və s. bu istiqamətə atılan addımlardı.

Müasir dünya iqtisadiyyatının və orada gedən inteqrasiya proseslərinin təhlili bizə iki əsas tendensiyanı ayırmağa imkan verir. Birinci tendensiya müxtəlif beynəlxalq iqtisadi birliklərdə birləşən ölkələrin kəmiyyət artımıdır ki, bu da qloballaşmanın güclənməsinə işarədir. Birincidən irəli gələn ikinci tendensiya dünya iqtisadi inteqrasiyasının həyata keçirilməsi forma və üsullarının daim təkmilləşdirilməsidir ki, bu da inteqrasiya proseslərində dərin keyfiyyət dəyişikliklərindən xəbər verir.

Dünya iqtisadiyyatına inteqrasiyaya, beynəlxalq kapital axınının artmasına, əmtəə və xidmətlərin beynəlxalq hərəkətinin liberallaşmasına kömək edən şərtlərin məcmusuna azad və ya xüsusi iqtisadi zonaların (AİZ) yaradılması və fəaliyyət göstərməsi daxildir.

AİZ-in mövcud formaları haqqında ətraflı danışmazdan əvvəl qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında 2016-cı ilin mart ayında Ələt qəsəbəsində Yeni Bakı limanı yaxınlığında azad ticarət zonasının (ATZ) yaradılması üzrə işlərə başlanılıb. [3, s.1] Ölkənin əlverişli coğrafi mövqeyi və nəqliyyat infrastrukturunun inkişafına çoxmilyardlı investisiyalar bu layihəyə yüksək investisiya cəlbediciliyinə və beləliklə, nisbətən tez geri qaytarılmasına zəmanət verir. Yaranmaqda olan ATZ üçün yer seçimi də optimaldır, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC-nin (BMTP) yanında yerləşir və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə birlikdə rahat, yüksək sürətli və Avropanı Asiya ilə birləşdirən İpək Yolu üzərində yüksək rəqabətli quru-dəniz marşrutudur. Bu məqsədlə limanın ərazisində 100 min standart konteynerə xidmət göstərmək üçün nəzərdə tutulmuş və Xəzər dənizinə çıxışı olan 5 ölkə arasında multimodal daşımaların inkişafını təşviq

etmək üçün nəzərdə tutulmuş ən böyük regional logistika mərkəzinin yaradılması nəzərdə tutulur. Həmin logistik məzrkəz Şərq və Qərbin arasında iqtisadi əlagələrin daha yüksək səviyyəyə çıxmasını təmin edəcək. Ekspertlərin fikrincə, Ələt qəsəbəsində ATZ-nin yaradılması tranzit yükdaşımaların həcmini ildə 26 milyon tona çatdırmağa imkan verəcək. [4, s. 2]

Azad iqtisadi zonaların təşkilinin digər formaları ilə müqayisədə azad ticarət zonalarının əsas üstünlüyü nisbətən kiçik ilkin kapital qoyuluşları ilə onların tez geri qaytarılmasıdır. Ən əsası isə dünya praktikasına görə, ən qısa müddətdə ATZ-nin yaradılması daxili iqtisadiyyata əhəmiyyətli xarici kapital cəlb edəcək.

Öz növbəsində, investorlar üçün cəlbedicilik, ilk növbədə, azad ticarət zonalarının adətən milli gömrük ərazisindən çıxarılan ayrıca ərazi qurumları olması ilə bağlıdır. Adətən onlar dəniz limanlarında, hava limanlarında, böyük sərhəd dəmir yolu stansiyalarında və s. yerlərdə yerləşir.

Belə azad ticarət zonalarında yerli və xarici sahibkarlar gömrük əməliyyatlarını həyata keçirə, sərbəst şəkildə mal idxal və ixrac edə, malları yenidən yükləyə və saxlaya bilərlər. Həmçinin, qablaşdırma və ən sadə dəqiqləşdirmə, markalanma, keyfiyyətə nəzarət, topdan və pərakəndə satış partiyaları burada həyata keçirilə bilər.

Bu sxemin effektivliyi zəngin beynəlxalq təcrübə ilə təsdiqlənir. Bu gün dünyada 1000-dən çox xüsusi iqtisadi zona var ki, onların da üçdə biri azad ticarət zonalarıdır. ATZ dünya ticarətinin 25%-ə qədərini təşkil edir. Hazırda ABŞ-da 180-ə yaxın, Avropada 150, Yaponiyada 23, Çində 14-ə yaxın azad ticarət zonası fəaliyyət göstərir.Dünyanın ən böyük azad ticarət zonaları Honq-Konq, Sinqapur və Birləşmiş Ərəb Əmirliklərində yaradılıb.

Dünya praktikasında azad ticarət zonalarının, məsələn, Honq-Konq, Şençjen (ÇXR) və ya Cebel Ali (BƏƏ) kimi dünyanın hər yerindən kapital axınına töhfə verdiyi və dövlətə böyük gəlirlər gətirdiyinə dair çoxlu nümunələr var. Onların təcrübəsindən Ələt Azad Ticarət Zonasında istifadə olunması planlaşdırılır. Bu məqsədlə BƏƏ-dən konsaltinq xidmətləri göstərəcək, ATZ ərazisi üçün baş plan hazırlayacaq, azad ticarət zonası üçün normativ sənədləri işləyib hazırlayacaq DP World (Dubay Port World, dünyanın ən böyük liman operatoru) şirkəti seçilmişdir. Layihənin texniki-iqtisadi əsaslandırmaları, DP World ekspertləri Ələt Azad Ticarət Zonasında təkcə milli deyil, həm də beynəlxalq hüquqa diqqət yetirə biləcək müstəqil arbitraj sisteminin yaradılmasını təklif edirlər. Azad Ticarət Zonası özünün əmək, ekoloji və investisiya rejimlərinə riayət edəcək, fiskal və gömrük ayırmaları üçün xüsusi mexanizm hazırlanıb.

Hazırlıq dövrü başa çatdıqdan sonra 2020-ci ilin noyabrında dövlət başçısı İ.H.Əliyev tərəfindən Ələt Azad Ticarət Zonasının idarəetmə strukturunun yaradılmasını nəzərdə tutan sərəncam imzalayıb, 2021-ci il mayın 22-də isə idarə heyətinin sədrinin təyin edilməsi barədə sərəncam imzalayıb. Bu səlahiyyətli strukturun müasir infrastrukturunun yaradılmasına hazırlıq işlərinə başlanılıb. 2020-ci il üçün Dövlət İnvestisiya Proqramında yuxarıda göstərilən məqsədlər üçün vəsait nəzərdə tutulub. O cümlədən, "Azərişıq" ASC gələcək ATZ ərazisində elektrik enerjisi infrastrukturunun layihələndirilməsi və formalaşdırılması üzrə işlərin satın alınması üçün açıq tender elan edib.

Aydındır ki, qlobal enerji böhranı və koronavirus pandemiyası bu planlara müəyyən düzəlişlər edib və çox güman ki, Azad Ticarət Zonasının formalaşdırılması qrafiki dəyişdiriləcək. Bununla belə, ən qısa zamanda torpaqların alınması və infrastruktur işlərinə başlanılması nəzərdə tutulur.

Bir sıra beynəlxalq ekspertlər hesab edirlər ki, Ələt Azad Ticarət Zonası investorları inkişafa cəlb etmək üçün çox ümidverici perspektivlərə malikdir. Xüsusilə, Ümumdünya Azad və Xüsusi İqtisadi Zonalar Federasiyasının (FEMOZA) prezidenti Xuan Torrents Ələtdəki dəniz limanına çıxışın olmasını, eləcə də FTA-nın müəyyən edilmiş razılaşma əsasında formalaşmasını çox uğurlu hesab edir. Müasir idarəetmə modeli və təkmil qanunvericilik bazası, güzəştli rejim və fiskal güzəştlər Ələt limanının Xəzər regionunda nəinki tranzit daşımalarına xidmət edəcək, həm də malların sonradan üçüncü ölkələrə satılması üçün saxlanmasına və emalına imkan verəcək, ən böyük logistika qovşağına çevrilməsinə kömək edəcəkdir.

Son illərdə AB, Türkiyə, Qazaxıstan və Çindən olan bir sıra şirkətlər ATZ infrastrukturunun inkişafında iştirak etməkdə və burada rezident kimi qeydiyyatdan keçməkdə maraqlıdırlar. Xüsusilə, cari ilin əvvəlində Avstriyanın nəqliyyat və logistika şirkətləri ilə belə danışıqlar aparılıb və

Avstriyanın ÖBB Rail Cargo şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında üçillik uğurlu əməkdaşlığı nəzərə alsaq, bu istiqamət çox perspektivli görünür.

"Mərkəzi Avrasiya regionunda transkontinental daşımalarda Azərbaycanın rolu: dənizin və qurunun birləşdirilməsi nöqteyi-nəzərindən Qlobal dəyər zəncirlərinə" adlı konfransda ABŞ şirkətlərinin Ələt ATZ-yə investisiya cəlb etmək perspektivləri müzakirə olunub. Oxşar danışıqlar 2019-cu ilin aprelində Pekində keçirilən İkinci Kəmər və Yol Forumu zamanı Çin ekspeditor şirkətləri ilə də aparılıb. Hələ əvvəllər Rusiyanın "Pony Express" logistika şirkəti Ələtdə anbarların yaradılması variantını öyrənmişdi. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Ələt ATZ-nin potensial investorları sırasındadır və dörd il əvvəl BMMCP ilə müvafiq memorandum imzalamış Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının (ICD) mütəxəssisləri, Ələt qəsəbəsindəki limanın və STA-nın potensialını öyrənir və potensial investorların cəlb edilməsi üzərində işlər aparılır.

Uzunmüddətli perspektivdə Azad Ticarət Zonasının ərazisində neft-kimya, əczaçılıq, toxuculuq istehsalı, yüngül sənaye məhsulları, kənd təsərrüfatı və s. sahələrdə sənaye klasterinin yaradılması üçün xarici və yerli investorların cəlb edilməsi nəzərdə tutulur. Azad Ticarət Zonasının ərazisində istehsal komponentinin formalaşdırılması üçün xüsusi vergi və gömrük siyasətinin tətbiqi nəzərdə tutulur: güzəştlər, gəlir vergisi, ƏDV vergisi və xüsusən də əmlak vergisi, malların idxalı zamanı gömrük rüsumlarına şamil edilə bilər. Komponentlər və xammallar ləğv edilə bilər. Təbii ki, ATZ-də istehsal olunan məhsulların ixracı da güzəştli fiskal rejimlə tənzimlənəcək.

Müvafiq olaraq, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin (BMTP) ekspertlərinin fikrincə, ortamüddətli perspektivdə ATZ layihəsi həm anbar logistikası, həm də istehsal sahələrinə təxminən 1 milyard dollar xarici investisiya cəlb edə biləcək.

Şübhəsiz ki, ATZ-nin müxtəlif formalarının respublikamızda yaradılması Azərbaycanın dünya iqtisadiyyatına geniş inteqrasiyasına öz töhfəsini verəcək.

Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan Dövlətinin banisi Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş və hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən keyfiyyətcə yeni müstəviyə keçirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosialyönümlü iqtisadiyyatın inkişafına nail olunub, ölkə əhalisinin həyat səviyyəsi yüksəlibdir.

## ƏDƏBİYYAT


1. "Xalq qazeti", 16 may 2010.
2. https://azerbaijan-news.az/az/posts/detail/liderlik-remzi-217652
3. "Ələt azad iqtisadi zonası haqqında Azərbaycan Respublikasinin Qanunu". Bakı şəhəri, 18 may 2018-ci il
4. https://oxu.az/politics/508211



***Ашраф Расул оглы Алекперов***
***доц, к.э.н. Азербайджанский Университет Кооперации,***
***кафедра "Мировой экономики"***
***ashrafelalakbarov@gmail.com***


## Некоторые направления интеграции Азербайджана в мировую экономику


***Резюме***

В статье показана интеграция Азербайджана в мировую экономику, создание и функционирование свободных или специальных экономических зон как совокупность условий, способствующих увеличению международных потоков капитала, либерализации международного движения товаров и услуг. Дан анализ интеграционных процессов.



***Ключевые слова: Г. Алиев, "Контракт века", нефтепровод Баку-Тбилиси-Джейхан, свободная экономическая зона, прямые иностранные инвестиции.***

*Ashraf Rasul Alakbarov*
*Assoc. Prof., PhD in Economics*
*Azerbaijan Cooperation University*
*Department of "World Economy"*
*ashrafelalakbarov@gmail.com*

**Some directions of Azerbaijan's integration into the world economy**

***Summary***

The article shows the integration of Azerbaijan into the world economy, the creation and functioning of free or special economic zones as a set of conditions that contribute to the increase in international capital flows, the liberalization of the international movement of goods and services. The analysis of integration processes has been provided.

***Key words: H. Aliyev, "Contract of the Century", Baku-Tbilisi-Ceyhan oil pipeline, free economic zone, foreign direct investment.***

**UOT 327**

***Ramilə Bəhlul qızı DADAŞOVA***
***siyasi elmlər doktoru, dosent,***
***AMEA-nın Qafqazşünaslıq İnstitutunun icraçı direktoru***
***ORCID: 0000-0002-2376-5941***
***dadashova.ramila@rambler.ru***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN TÜRKİYƏ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN QURULMASINDA ROLU

***Xülasə***

Müstəqilliyin ilk illərində Azərbaycanın Türkiyə ilə iqtisadi əlaqələri yaradılsa da, istənilən səviyyədə inkişaf etməmişdir, əsasən ticarət sahəsində olmuşdur, Azərbaycan və Türkiyə iqtisadiyyatını bir-birinə sıx bağlayan müştərək müəssisələr, iş yerləri yaradılması məsələsi aşağı səviyyədə olmuşdur. Türkiyə ilə güclü iqtisadi əlaqələrin yaradılmasında ümummilli lider Heydər Əliyevin böyük rolu olmuşdur. Heydər Əliyev belə münasibətlərin həm iqtisadi əlaqələri, həm də tarixi dostluğu, qardaşlığı davam etdirmək nöqteyi-nəzərindən Azərbaycan üçün çox əhəmiyyətli olduğunu bildirirdi.

***Açar sözlər: iqtisadi əlaqələr, Türkiyənin iş adamları, müştərək müəssisələr, "Əsrin müqaviləsi", Ceyhan.***

***

Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə həmin vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur. 1994-cü il fevralın 8-də Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfər etdi. Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasının istiqlalının əldə olunduğu vaxt böyük fəaliyyət göstərdiyini, Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün böyük xidmətləri olduğunu bildirmişdir: "…Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur" [1, s. 362-363].

Dahi uzaqgörən dövlət xadimi Heydər Əliyev Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında Qazi Mustafa Kamal Atatürkün dəyərli bir fikrini xatırlatmaqla müstəqilliyi yenidən əldə edən türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsində Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğunu nəzərə çatdırdı: "Bu gün Sovet İttifaqı bizim dostumuz,

qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır" [1, s.370-371].

Ümummilli lider Heydər Əliyev Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini və həmçinin Azərbaycanın da mövqeyini açıqladı: "…Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir. Bizim mövqeyimiz belədir. Biz bu yolla gedəcəyik və əmin olun ki, bugünkü Azərbaycan dövləti bu yola sadiqdir və sadiq qalacaqdır…" [1, s.372-373]

Süleyman Dəmirəl Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin, qardaşlıq, dostluq əlaqələrinin heç bir ölkə ilə müqayisə edilməyəcək qədər gözəl olduğunu vurğulamışdır [5, s.165-166].

Azərbaycan öz müstəqilliyini əldə etməmişdən əvvəl və sonra xarici ölkələrlə, ilk növbədə həm milli köklərinə, adət-ənənələrinə, dilinə, dininə, tarixi keçmişin eyniliyinə görə, həm də coğrafi baxımdan yaxın, həmsərhəd olan Türkiyə ilə əlaqələrin inkişaf etdirilməsinə əhəmiyyət vermişdir. Lakin Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunması, bir milyondan çox Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün düşməsi, daxili qeyri-sabitlik, üç dəfə hakimiyyətin dəyişməsi, xarici ölkələrin kapitallarının qorunması üçün qanunun olmaması, vergi məsələsindəki əngəllər Azərbaycanın iqtisadiyyatının geriləməsinə səbəb olsa da, böyük iqtisadi potensiala malik olması ölkəyə xarici investisiya qoyulmasına imkan verirdi. Sovet dövründən qalan neftayırma, neft kimyası, maşınqayırma, metallurgiya, elektrotexnika, elektronika, yüngül sənaye sahələrinin iri istehsal müəssisələri, digər fabrik və zavodların çoxu tam gücü ilə işləməsə də, Azərbaycana kapital qoymaq, iş görmək üçün imkanlar var idi. Lakin iş adamlarının bəziləri Azərbaycan müharibə şəraitində olduğuna görə, bəziləri isə Azərbaycanın daxilində sabitlik olmadığına görə investisiya qoymaqdan çəkinirdilər [2, s.464-465].

Türkiyənin iş adamları ilə görüşdə Heydər Əliyev bildirdi ki, bağlanan sazişlərdə iqtisadi əlaqələr geniş şəkildə nəzərdə tutulur, əməkdaşlığın bütün sahələri əhatə edilir, Azərbaycan ilə Türkiyənin iqtisadiyyatının bir-birinə daha da yaxınlaşması məqsədəuyğundur. Çünki bu, həm iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün çox əhəmiyyətlidir, həm də Azərbaycan və Türkiyə arasında tarixi dostluğu, qardaşlığı davam etdirmək üçün vacibdir. Bu əlaqələr istər ticarətdən, istərsə də Türkiyənin ayrı-ayrı şirkətlərinin Azərbaycan şirkətləri, müəssisələri, sənayesi, kənd təsərrüfatı ilə görəcəyi işlərdən ibarətdir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr yaradılsa da, istənilən səviyyədə inkişaf etməmişdir, əsasən ticarət sahəsində olmuşdur, iqtisadiyyatımızı bir-birinə sıx bağlayan müştərək müəssisələr, iş yerləri yaradılması məsələsi aşağı səviyyədə olmuşdur. İqtisadi əlaqələri ən əvvəl Türkiyənin böyük təcrübəsi, böyük iqtisadi potensialı, texniki potensialı olan şirkətləri ilə qurmaq lazımdır [1, s. 390-392].

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının ağır vəziyyətə düşdüyünü nəzərə alaraq müstəqilliyin qazanılmasının ilk illərində Azərbaycana verilən 250 milyon dollar kreditdən istifadə etmək üçün çətinliklərin aradan qaldırılmasını Türkiyə rəhbərlərindən xahiş etdi. 1995-ci ildə Türkiyənin Baş naziri Tansu Çillər Bakıya gələrkən qərar qəbul edildi və kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılıq əldə edildi.

Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa əlaqə saxlasa da, Naxçıvan blokada vəziyyətində idi. Buna görə də Türkiyənin Naxçıvana kömək etməsi barədə razılıq əldə edildi [4, s. 93-94].

Eyni zamanda, yeni kredit açılması üçün sənəd imzalandı. Türkiyə banklarının Azərbaycanda fəaliyyəti məsələsi müzakirə edildi, "Ziraət bankı", "Vakfbank" işə başladı. Ümummilli lider

Azərbaycan əhalisini çörəklə təmin etmək üçün ehtiyatların tükənməsi və müharibə şəraitində başqa imkanların olmaması və yaxud bu imkanların məhdud olması ilə əlaqədar Türkiyədən Azərbaycana pulsuz-parasız taxıl verilməsini Türkiyə rəhbərlərindən xahiş etdi. 100 min ton taxıl verilməsi barədə razılaşdırıldı [1, s. 400-401].

Bu illərdə Azərbaycanda yaranmış iqtisadi, sosial böhran daha da dərinləşmişdir. Bunun səbəblərindən biri Azərbaycanın blokada şəraitində olması idi. Azərbaycanı şimal ölkələri ilə, yəni Rusiya və başqa ölkələrlə bağlayan dəmir yolu Çeçenistanda baş verən hadisələr nəticəsində qapanmışdı, əsas dəmiryol magistralı işləmirdi. Başqa ölkələrlə əlaqələr məhdudlaşmışdı. Dəniz nəqliyyatında da çətinliklər çox idi. Türkiyə ilə əlaqələr dəniz vasitəsilə və Gürcüstan ərazisindən keçirdi. Bütün bunlar Azərbaycanın iqtisadiyyatında gərginliyi daha da artırırdı [2, s. 455-456].

1994-cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin bağlanmasından sonra dünya dövlətlərinin Azərbaycanın iqtisadiyyatına sərmayə qoymaq marağı artdı. Heydər Əliyev iş adamlarını çəkinmədən investisiya qoymağa əmin etdi: "Əgər dünyanın doqquz-on böyük neft şirkəti Azərbaycanda iş görmək üçün müqavilə bağladısa, 3 milyard dollardan çox kapital qoymaq qərarına gəldisə, demək, onlar Azərbaycanın bu gününə də, gələcəyinə də inanırlar... Neft müqaviləsini imzalamağımız bütün iş adamları üçün, o cümlədən Türkiyənin iş adamları üçün həm böyük örnəkdir, həm də sübut edir ki, Azərbaycanda iş görmək, buraya çoxlu kapital qoymaq olar..." [2, s.464-465].

Heydər Əliyev Türkiyədə yaşayan azərbaycanlılarla görüşündə ölkənin iqtisadiyyatının çox ağır vəziyyətdə, respublika əhalisinin çörəklə təminatında çox böyük çətinliklər olduğunu bildirdi: "…Biz indi Rusiyadan çətinliklə buğda gətirmək istəyiriksə, gərək onu Rusiyadan Qazaxıstana keçirək, oradan Özbəkistana, Türkmənistana aparılsın, bundan sonra Krasnovodsk limanına və buradan da gəmi ilə gətirilib Bakıya çatdırılsın. Bu buğdanın nəqliyyat xərcləri onun öz qiyməti qədərdir. Bax, Azərbaycan belə bir ağır vəziyyətdə yaşayır..." [2, s. 470-471]. Şimali Qafqazda, Çeçenistanda vəziyyət gərgin olduğuna görə Azərbaycandan şimala gedən dəmir yolu tamamilə qapanmışdı, Azərbaycan əhalisini çörəklə təmin etmək, buğda, un almaq üçün yeganə ümid Türkiyə idi.

Heydər Əliyev Azərbaycan xalqının hər çətinliyə dözərək öz yurdlarına qayıtmaq arzularını da ifadə etdi: "Ancaq bilirsiniz, xalqımız nə deyir. Məsələn, BMT-nin Baş katibi Butros Butros-Qali Bakıda olarkən, gedib qaçqınlarla görüşəndə ona dedilər ki, biz aclığa da dözərik, bax bütün bu ağır günlərə də dözərik, təki müharibə qurtarsın, torpaqlarımız azad olsun və biz öz doğma yerlərimizə qayıdaq. Bu, xalqımızın ən böyük arzusudur və bu da Azərbaycan prezidenti kimi mənim qarşımda ən böyük vəzifədir. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni həyata keçirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yolda çalışmışam və həyatımın son dəqiqəsinə qədər çalışacağam" [2, s.473-474].

Türkiyənin və Azərbaycanın iş adamları ilə görüşdə Heydər Əliyev Türkiyədəki iş adamlarının Azərbaycana sərmayə qoymasının vacibliyini bildirdi: "Azərbaycanla Türkiyənin əlaqələri elədir ki, gərək Türkiyənin iş adamları bizim aramızda bəziləri tərəfindən yaradılan buzu yara-yara ölkəmizə gəlsinlər". Heydər Əliyev Türkiyənin iş adamlarının Rusiyada, başqa ölkələrdə həddindən artıq böyük miqyaslı işlər gördüyünü qiymətləndirməklə yanaşı, belə fəaliyyətdə Azərbaycanı unutmamağı tövsiyə etdi: "...Nəinki unutmaq, Azərbaycanda şərtlər başqa yerlərdən çətin, ağır olsa da, bu şərtləri birlikdə aradan qaldırıb, ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirməliyik..." [5, s.156-157]

Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərin Bakıya səfəri zamanı Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə petrolları anonim ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün saziş imzalandı. "Əsrin müqaviləsi" imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. Türkiyənin Prezidenti Süleyman Dəmirəlin, Baş nazir Tansu Çillərin müraciətlərindən sonra, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, Azərbaycan həmin müqavilədə öz payından 5 faizin əlavə olaraq Türkiyə Cümhuriyyətinin sərəncamına keçməsinə razılıq vermişdir. Bu haqda sənədləri Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Türkiyə petrolları anonim ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncər imzalamışdılar [3, s. 328-329].

Heydər Əliyev neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsinə həmişə əhəmiyyət vermişdir [3, s.330-331]. Tansu Çillər neft kəmərinin Türkiyə ərazisindən keçməsi ilə bağlı fikrini bildirdi: "... Neft kəmərinin Türkiyədən keçməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlüklə dəstəkləmişdir. Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikri artıq razılaşdırılmışdı..." [4, s.93-94]. Sonrakı Baş nazir Məsud Yılmaz da "Türkiyənin israr etdiyi əsas məsələ Xəzər neftinin Türkiyənin Aralıq dənizi sahilinə axıdılmasıdır. Bu boru xəttinin Ceyhana doğru uzadılmasıdır. Bu həm iqtisadi baxımdan, həm də Qara dəniz boğazlarının təhlükəsizliyi baxımından əhəmiyyətlidir" [6, s.115-116] - demişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasında rəsmi səfərdə olarkən imzalanan birgə bəyanat [5, s. 157-162] müstəqillik əldə etdikdən sonra Azərbaycan və Türkiyə arasında yaradılan əlaqələrin yekunu idi. Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyənin Ceyhan terminalına yönəldilməsi barədə istəklərini təsdiq etmişlər. İki ölkə arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin dönmədən inkişafını təmin edən müqavilə və sazişlərin həyata keçirilməsi mexanizmlərini inkişaf etdirmək və təkmilləşdirmək barədə tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər. Bu məqsədlə tərəflər, xüsusən iqtisadi əlaqələrin daha yüksək səviyyəyə qaldırılması üçün imkanlar olduğunu qeyd edərək müvafiq nazirlərin rəhbərliyi ilə Türkiyə-Azərbaycan birgə iqtisadi komissiyasının ən qısa bir vaxtda Bakıda toplanması və Türkiyə-Azərbaycan və Azərbaycan-Türkiyə işgüzar adamlar şuralarının daha da təsirli fəaliyyəti üçün lazımi şəraitin yaradılması haqqında razılaşmışlar. İki ölkə arasında ticarətin inkişafını təmin etmək və investisiyaları təşviq etmək məqsədi ilə lazımi tədbirlərin görülməsi və iki ölkənin firma və təşkilatları tərəfindən imzalanan müqavilə və protokolların işgüzar hala gətirilməsi haqqında eyni fikirlərə sahib olduqlarını məmnuniyyətlə qeyd etmişlər.

14 aprel 1996-cı il tarixdə Türkiyənin Baş naziri Məsud Yılmaz Bakıda olarkən Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr aparıldı.

İlkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi üçün də Azərbaycan Türkiyə ilə daim əməkdaşlıq etmişdir. Nəticədə Azərbaycanın ilkin neftinin ixracı üçün iki boru kəmərinin – Rusiya ərazisi vasitəsilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisindən keçməklə Türkiyənin Supsa limanına kəmərlərin çəkilməsi haqqında qərarlar qəbul edilmişdir [6, s. 122-123].

30 may 1996-cı il tarixində "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" mövzusuna həsr olunmuş konfransın açılışında Heydər Əliyev nitqində qeyd etdi ki, Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır [6, s. 357-358]. Türkiyənin iş adamları Mərkəzi Asiyaya, Rusiyaya sərmayə qoyurdular, amma ölkədəki qeyri-sabitlikdən, Ermənistanın torpaqları işğal etməsindən dolayı Azərbaycana sərmayə qoymurdular. Heydər Əliyev Türkiyənin iş adamlarını daha çox Azərbaycana sərmayə qoymağa çağırdı.

Türk dünyası yazıçılarının III qurultayında Heydər Əliyev demişdir: "Bizim bu təşkilatın, görüşlərin əsas məna-məqsədi aydındır. Biz birinci növbədə ölkələrimiz arasında olan iqtisadi əməkdaşlığı genişləndirməyə çalışırıq. Bir dilə, bir kökə mənsub olmağımız, ölkələrimizin bir ərazidə, bir-birinə qonşu olan ərazidə yerləşməsi və coğrafi cəhətdən bir-birimizə çox yaxın olmağımız, şübhəsiz ki, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün əsas yaradır. Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır. Bu baxımdan ölkələrimizin bir-biri ilə iqtisadi əməkdaşlıq etməsi üçün daha çox imkanlar var" [7, s.9-10].

Beləliklə, ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının nəinki Türkiyə Cum-

huriyyəti ilə, eləcə də digər türk dövlətləri ilə iqtisadi əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətini görür və bir dilə, bir kökə mənsub olan bu dövlətlərlə iqtisadi əlaqələrin inkişafına çalışırdı.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, 604 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 3-cü kitab, Bakı: Azərnəşr, 1997, 488 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 4-cü kitab, Bakı: Azərnəşr, 1997, 528 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, 500 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 1998, 512 s.
7. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 1998, 488 s.



***Рамила Бахлул кызы Дадашова***
***доктор политических наук, доцент,***
***исполнительный директор Института Кавказоведения НАНА***
***ORCID: 0000-0002-2376-5941***
***dadashova.ramila@rambler.ru***


**Роль национального лидера Гейдара Алиева в установлении экономических отношений между Азербайджаном и Турцией**


***Резюме***

Хотя экономические отношения между Азербайджаном и Турцией были установлены в первые годы независимости, они не получили развития ни на каком уровне, экономические отношения были в основном в сфере торговли. Общенациональный лидер Гейдар Алиев сыграл большую роль в установлении прочных экономических отношений с Турцией. Гейдар Алиев заявил, что такие отношения очень важны для Азербайджана как с точки зрения экономических связей, так и с точки зрения продолжения нашей исторической дружбы и братства.



***Ключевые слова: экономические отношения, турецкие бизнесмены, совместные предприятия, "Контракт века", Джейхан.***



***Ramile Bahlul Dadashova***
***Doctor of Political Sciences, Associate Professor***
***Executive director of the Institute of Caucasus***
***Studies of Azerbaijan National Academy of Sciences***
***ORCID: 0000-0002-2376-5941***
***dadashova.ramila@rambler.ru***


**National leader Heydar Aliyev's role in establishing economic relations between Azerbaijan and Turkiye**


***Summary***

Although economic relations have been established between Azerbaijan and Turkiye in the early years of independence, the economic relations not developed at any level, was mainly in the field of trade, joint ventures, which closely bind our economy together, the issue of job creation has been at a low level. National leader Heydar Aliyev played a great role in establishing strong economic relations with Turkiye. Heydar Aliyev stated that such relations are very important for Azerbaijan from the point of view of continuing our economic relations and historical friendship and brotherhood.



***Key words: economic relations, Turkish businessmen, joint ventures, "The Contract of the Century", Ceyhan.***

**UOT: 332:338.012**

***Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV***
***Azərbaycan Kooperasiya Universitetinin dosenti,***
***iqtisad üzrə fəlsəfə doktoru***
***AZ1124, Azərbaycan Respublikası,***
***Bakı şəhəri, N.Nərimanov küç., 93***
***ORCİD-ID:***
***E-mail: emeherremov79@mail.ru***

# ZƏNGƏZUR BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN TÜRK DÖVLƏTLƏRİNİN MÜASİR İNTEQRASİYASINDA STRATEJİ ƏHƏMİYYƏTİ

***Xülasə***

Məqalədə Zəngəzur beynəlxalq nəqliyyat dəhlizinin türk dövlətlərinin müasir inteqrasiyasında strateji əhəmiyyəti araşdırılmışdır. Türk dövlətlərinin xarici-iqtisadi əlaqələrinin daha intensiv olaraq inkişaf etməsində və türk coğrafiyasının birləşməsində bu dəhlizin rolu əsaslandırılmış, ümumiləşdirmələr aparılmışdır.

***Açar sözlər: Şərqi Zəngəzur, Zəngəzur dəhlizi, Zəngəzur beynəlxalq nəqliyyat dəhlizi, Türk dövlətləri, Türk coğrafiyası, Azərbaycan-Türkiyə.***

***

Müasir dövrümüzdə dünya səviyyəsində baş verən qlobal hadisələr, regional səviyyədə dəyişikliklər, geosiyasi və geoiqtisadi maraqların çarpazlaşması və türk dünyasının coğrafiyasının birləşməsi ilə baş verə biləcək ehtimalların artması diqqət çəkir. Tarixi iqtisadi inkişaf qanunauyğunluqlarının hazırda zaman kəsiyində dəyərləndirilməsi və xüsusilə türk dövlətlərinin inteqrasiyasının yaxın perspektivdə daha da intensivləşəcəyinin şahidi olacağıq.

İlk növbədə, Böyük Qarabağ Zəfərindən sonra, yəni torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra regionun əsas hədəfləri və inkişaf drayverləri kimi ölkə iqtisadiyyatına və ümumilikdə dünya iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi, türkdilli dövlətlər arasında inteqrasiya proseslərinin şaxələndirilməsi, beynəlxalq yük daşımalarının artırılması, xarici-iqtisadi əlaqələrin diversifikasiyalaşdırılması və nəticədə Avropa ilə Asiya arasında yük daşımalarının daha optimal marşrutlarının yaradılması aktuallığı ilə diqqət çəkir. Bu kontekstdə əlbəttə kifayət qədər perspektivli və üstün arqumentləri ilə Zəngəzur Beynəlxalq Nəqliyyat dəhlizi daha çox fərqlənir. Nəqliyyat kommunikasiyalarının açılması həm də Böyük Qayıdış proseslərinə də müsbət təsir göstərəcəkdir [1].

Hələ sovetlər birliyi dövründə bu istiqamətdə yüklər daşınardı və mənfur qonşu Ermənistan da bu dəhlizdən faydalanardı. Ermənistana gedən həm dəmir yolu, həm avtomobil magistral yolları ən sərfəli olan nəqliyyat marşrutlarından hesab olunurdu. Digər tərəfdən, məhz bu ərazidən İrana Bakı-Tehran həm sərnişin qatarı, həm də Rusiyadan digər sərnişin qatarları işləyir, eyni zamanda yüklər daşınırdı. Naxçıvanın Culfa rayonunun İranla həmsərhəd olan ərazisindən keçən dəmiryolu vasitəsilə Araz çayı üzərindən keçməklə məhz İrana dəmiryolu marşrutu fəaliyyət göstərirdi. Bu marşrut Fars körfəzinə-Hind okeanına və digər dünya ölkələrinə qədər uzana bilirdi. Göründüyü kimi Zəngəzur dəhlizinin regionun geoiqtisadi və geosiyasi əhəmiyyətli, həm də Beynəlxalq Nəqliyyat dəhlizi baxımından kifayət qədər üstün elementləri vardır. Regionların inkişafında və inteqrasiyasında nəqliyyat və kommunikasiya dəhlizlərinin xüsusi rolu vardır [5, s.162].

Digər tərəfdən, hazırda alternativ marşrutlar xeyli məhdudlaşmaqdadır. ABŞ və Avropa Birliyinin Rusiyaya qarşı, həm də İrana qarşı çoxsaylı sanksiyaları yeni Beynəlxalq marşrutların işlənilməsini və daha optimal nəqliyyat yollarının-nəqliyyat marşrutlarının müəyyənləşdirilməsini, logistika mərkəzlərinin yaradılmasını şərtləndirir. Bu baxımdan Zəngəzur Beynəlxalq nəqliyyat dəhlizi məhz belə üstün cəhətləri ilə diqqəti cəlb edir.

Belə ki, Avropaya daşınan yüklərin optimallaşdırılması daşınma müddətinin ən azından 12 gün qısaldılması, xərclərin azaldılması beynəlxalq səviyyədə diqqəti xüsusilə cəlb edən, həm maliyyə baxımından, həm də xərclərin azaldılması baxımından, eyni zamanda beynəlxalq səviyyədə yük

dövriyyəsinin artırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, Zəngəzur Beynəlxalq nəqliyyat dəhlizinin ən mühüm və üstün cəhətlərindən biri də məhz türkdilli dövlətlər arasında yük dövriyyəsinin artırılması, tarixi bağlılıqların genişləndirilməsi və ticarət əlaqələrinin şaxələndirilməsi baxımından daha çox cəlbedicidir. Digər tərəfdən, bu dəhliz Qarabağın iqtisadiyyat quruculuğuna da əlavə təsir göstərəcəkdir, belə ki, tarixən həmin dəhlizin keçdiyi ərazilər Qarabağla inteqrativ olaraq inkişaf etmişdir [4, s.207].

Qeyd edək ki, Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən məsələlərdən biri də Naxçıvanın ölkənin digər regionları ilə əlaqəsinin və quru əlaqəsinin bərpa edilməsi, inteqrativ əlaqələrinin daha da genişləndirilməsi, Naxçıvanda mövcud olan resurslardan səmərəli istifadə edilməsi, filiz və təbii filiz ehtiyatlarının təsərrüfat və maliyyə dövriyyəsinə cəlb olunması, bu filiz yataqlarının işlənilməsi, investisiyaların cəlb edilməsi, xarici şirkətlərin daha fəal şəkildə Naxçıvana gətirilməsi üçün münbüt şəraitin yaradılması, rəqabətqabiliyyətli müəssisələrin formalaşdırılması və emal sənayesinin inkişaf etdirilməsi üçün nəqliyyat logistika imkanlarının genişləndirilməsindən ibarətdir. Həm də Şərqi Zəngəzur iqtisadi rayonunun dirçəldilməsində əlavə imkanların yaranması baş verəcəkdir [2, s.68].

Zəngəzur Beynəlxalq dəhlizi əvvəldə qeyd etdiyimiz kimi, dünya dövlətləri arasında və türkdilli dövlətlər arasında kifayət qədər müsbət rol oynayacaqdır. Son illərdə türkdilli dövlətlər təşkilatının yaradılması, mərkəzi İstanbulda olmaqla qərargahın təşkili və bu istiqamətdə tədbirlərin görülməsi, əlbəttə bu anlama gəlir ki, yaxın perspektivdə Zəngəzur Beynəlxalq nəqliyyat dəhlizinin açılması ilə bu əlaqələrin daha fəal şəkildə, həm də praktiki baxımdan reallaşdırılmasına böyük imkanlar yaranacaqdır. Nəzərə almaq lazımdır ki, Türkdilli dövlətlərin ümumi bazarı təxminən 1.2 trilyon dollar dəyərində qiymətləndirilir. Bura həm Türkiyənin iqtisadiyyatı, həm də digər 5 türkdilli dövlətlərin, Qazaxıstan, Azərbaycan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın iqtisadiyyatları daxildir. Son illərdə, xüsusilə, Böyük Qarabağ Zəfərindən sonra bu dövlətlər arasında həm ikitərəfli əlaqələr, həm də türkdilli dövlətlərin sammitləri çərçivəsində xeyli strateji sənədlər qəbul olunmuş və onların reallaşdırılmasına başlanmışdır. Humanitar sahələrlə yanaşı, iqtisadiyyatın inkişaf etdirilməsi, şaxələndirilməsi, qarşılıqlı ticarət əlaqələrinin həcminin artırılması, strukturunun genişləndirilməsi tədbirləri daha çox diqqət çəkir. Bundan əlavə, qeyd olunan tədbirlərin regional iqtisadi təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləmək mümkündür [3, s. 98].

Eyni zamanda, Azərbaycan dövlətinin iqtisadi siyasətində türkdilli dövlətlərin hər biri ilə ayrı-ayrılıqda ticarət-iqtisadi əlaqələrinin strateji səviyyəyə qaldırılması istiqamətində mühüm addımlar atılmışdır. Məsələn, 2021-ci il iyun ayının 15-də Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında bağlanan Şuşa Bəyannaməsi, Azərbaycan-Türkiyə müttəfiqliyinin ən yüksək səviyyəyə qaldırılmasına imkan vermişdir. Məhz bunun əsasında əlaqələrin daha da dərinləşdirilməsi, bütün sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi, qarşılıqlı investisiyalar və iri investisiya-innovasiya layihələrinin həyata keçirilməsi prosesləri daha da intensivləşdirilmişdir. Analoji fəaliyyət istiqamətləri Azərbaycanla Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan – yəni, digər türkdilli dövlətlərlə də inkişaf etdirilməkdədir. Azərbaycan Prezidenti son iki ildə bu dövlətlərin hər birinə səfər etmiş və həmin respublikaların başçıları Azərbaycana gəlmiş, hərtərəfli görüşlər olmuş, dövlətlərarası ticarət iqtisadi əlaqələri inkişaf etdirmək istiqamətində işçi qrupları və komissiyalar yaradılmış, bir çox sahələr üzrə əməkdaşlıq sazişləri imzalanmış və həm də ayrı-ayrı nazirliklər arasında, mərkəzi icra strukturları arasında əlaqələr güclənmişdir.

Fikrimizcə, bu qeyd olunan istiqamətlər üzrə yaxın perspektivdə biz daha təsirli və qətiyyətli tədbirlərin şahidi olacağıq:

- belə ki, Zəngəzur Beynəlxalq nəqliyyat dəhlizinin açılması Azərbaycan və digər türkdilli dövlətlərin maraqları ilə yanaşı, çox iri dövlətlərin, o cümlədən Avropa Birliyi və Cənub-Şərqi Asiya ölkələrinin marağındadır;
- Zəngəzur dəhlizinin açılması dünyada beynəlxalq ticarətin genişləndirilməsinə, mal və investisiya axınlarının şaxələndirilməsinə əlavə imkanlar yaradacaqdır;
- Zəngəzur dəhlizinin açılması türkdilli ölkələrin inteqrasiyasının gücləndirilməsini və son nəticədə türk coğrafiyasının birləşməsini təmin edəcəkdir;

- digər tərəfdən, Zəngəzur dəhlizi vasitəsilə yüklərin daha sərfəli daşınması dünyanın əksər ölkələrinin transmilli şirkətləri və xarici ticarət fəaliyyəti iştirakçılarını cəlb edəcək, beləliklə, yaxın perspektivdə Avropa istiqamətində və əksinə, Şərqə doğru geniş həcmdə yük dövriyyəsinin şahidi olacağıq;

- Zəngəzur dəhlizinin reallaşması Naxçıvanla Azərbaycanın digər regionları reinteqrasiyasını təmin edəcək, onun resurslarından daha səmərəli və məhsuldar istifadə edilməsinə və eyni zamanda, Azərbaycanla Türkiyə arasında birbaşa əlaqələrin daha da gücləndirilməsinə gətirib çıxaracaqdır;

- Nəhayət, Zəngəzur beynəlxalq dəhlizinin yaradılması regionda nəqliyyat-logistika imkanlarının formalaşmasına imkan verəcək, Zəngilanda yaradılan nəqliyyat-logistika qovşaqları, həmçinin işğaldan azad olunmuş ərazilərdə artıq istismara verilmiş iki beynəlxalq hava limanının və Laçında tikiləcək beynəlxalq hava limanının, həmçinin digər nəqliyyat növləri üzrə yaradılan infrastrukturdan səmərəli istifadə edilməsi təmin ediləcəkdir və s.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // “Geostrategiya” jurnalı, – 2021. № 04 (64), – s.67-72.
3. Quliyeva, A.E. Regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effekti və milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi // “Audit” jurnalı. Bakı, 2016 №4, s. 95-102.
4. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.
5. Николаев, М.А., Махотаева, М.Ю. Региональная экономика и управление территориальным развитием. / Псковский Государственный Университет, 2014. – 256 с.



***Эльдениз Мазахир оглы Магеррамов***
***д.ф.э., dоцент, Азербайджанский Университет Кооперации***
***E-mail: emeherremov79@mail.ru***


### Стратегическая важность международного Зангезурского транспортного коридора в современной интеграции тюркоязычных государств


***Резюме***

В статье исследована стратегическая важность международного Зангезурского транспортного коридора в современной интеграции тюркоязычных государств. Обоснована и обобщена научная аргументация роли коридора для расширения географии тюркских народов и в интенсификации развития внешнеэкономических связей тюркоязычных государств.



***Ключевые слова: Восточный Зангезур, Зангезурский коридор, Зангезурский международный транспортный коридор, Тюркоязычные государства, география тюркских народов, Азербайджан-Турция.***



***Eldaniz Mazahir Maharramov***
***Associate professor, PhD in economics,***
***Azerbaijan Cooperation University***
***E-mail: emeherremov79@mail.ru***


### Strategic importance of the international Zangezur transport corridor in the modern integration of Turkic-speaking countries


***Summary***

The strategic importance of the international Zangezur transport corridor in the modern integration of Turkic-speaking countries is investigated in the article. The scientific argumentation

of the role of the corridor for expanding the geography of Turkic peoples and in intensifying the development of foreign economic relations of Turkic-speaking countries is summarized.

***Key words: Eastern Zangezur, Zangezur corridor, Zangezur international transport corridor, Turkic-speaking countries, geography of Turkic peoples, Azerbaijan-Turkey.***

**UOT 330, 341-1**

***Emin Eldar oğlu MƏMMƏDZADƏ***
***iqtisadiyyat üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu***
***ORCİD İD 0000-0001-6420-5206***

# AZƏRBAYCANDA VƏ XARİCDƏ İNNOVATİV MƏHSULLARIN İXRACINA TƏSİR EDƏN AMİLLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Xülasə***

Məqalədə yüksək texnologiyalı məhsulların ixracının artmasına potensial təsir göstərən amillərdən bəhs edilir. Bu amillərin müqayisəli təhlili dünyanın ən innovativ inkişaf etmiş ölkələri və Azərbaycan üzrə aparılır. Korrelyasiya asılılığı aşkar edilir və bu amillər arasında əlaqənin ehtimal olunan reqressiya modeli hesablanır. Təhlillərin nəticələrinə əsasən, Azərbaycanın innovativ məhsullarının ixracının artımının yaxşılaşdırılması üçün müvafiq nəticələr və onlara əsaslanan konkret təkliflər verilir.

***Açar sözlər: yüksək texnologiyalı məhsullar, ixrac, innovasiyalar, korrelyasiya, reqressiya modeli, proqnoz.***

***

Müasir şəraitdə innovasiyanın əsas problemlərindən biri səmərəli elmi potensialın təmin edilməsidir. Həm Azərbaycanda, həm də dünya iqtisadiyyatında COVID-19-un mənfi tendensiyalarının təsiri altında ölkə iqtisadiyyatının sabit vəziyyətini saxlamaq çətindir. İqtisadi yüksəlişə nail olmaq istəyən bütün ölkələr qabaqcıl texnologiyaların və innovasiyaların istehsalda sürətləndirilmiş inkişafı və tətbiqini təmin etmək istəyir və ya başqa sözlə, innovativ inkişaf bir çox dövlətlər üçün təcili ehtiyaca çevrilib. Bu prosesi öyrənmək üçün biz həm Azərbaycandan, həm də inkişaf etmiş ölkələrdən yüksək texnologiyalı və innovativ məhsulların istehsalına və ixracına daha çox təsir edən amilləri müəyyən edəcəyik. 2020-ci il üçün ən innovativ dövlətlərin seçimi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) "Qlobal İnnovasiya İndeksi 2021" adlı illik hesabatı əsasında aparılmışdır [6].

Müvafiq amilləri təhlil etmək üçün bir çox tədqiqatçılar tərəfindən geniş şəkildə bildirilmiş MS Excel proqram paketindən istifadə edən amillərin çoxsaylı reqressiya metodundan (multikorrelyasiya metodu daxil olmaqla) istifadə etdik [1,3,4]. Azərbaycanın innovativ inkişafını xarakterizə edən amillər (Y faktoru) müstəqil amillər (X faktorları) arasında məntiqi və səbəb-nəticə əlaqələri əsasında seçilmişdir. Qeyd etmək lazımdır ki, müqayisəli təhlil üçün amil-göstəricilərin seçimi daha geniş ola bilər, lakin lazımi məlumatların homojenliyi və müqayisəliliyi ilə bağlı məhdudiyyətlərə görə müəllif ümumilikdə 5 göstərici seçmişdir. Tədqiqatın adekvatlığına zəmanət verən məlumatlar Dünya Bankının 2015-2022-ci illər üzrə statistik məlumat bazasından götürülüb. [5]. Azərbaycan və xarici ölkələr üçün nəticə (asılı) amilin (Y faktoru) - "Yüksək texnoloji məhsulların ixracı" və 4 müstəqil amilin (X-faktoru) - "Patentlərin sayı" (X1), " Elmi tədqiqatlara və inkişafa çəkilən xərclərin ölkənin ÜDM-də payı" (X2), "Ölkənin hər 1 milyon əhalisinə düşən elmi tədqiqatçıların sayı" (X3), "Nüfuzlu elmi-texniki jurnallarda dərc olunan elmi məqalələrin sayı" (X4).

Faktorların reqressiya təhlili aparılarkən, ilk növbədə, müstəqil dəyişənlərin multikorrelearlığını yoxlamaq lazımdır. Çünki bu, təklif olunan reqressiya modelinin adekvatlığının yoxlanılması və öyrənilən amillər arasında əlaqənin obyektiv qiymətləndirilməsi baxımından mühümdür [2, s. 6].

MS EXCEL proqram paketində aparılan korrelyasiya təhlilinin nəticələri Cədvəl 1-də göstərilmişdir:

*Cədvəl 1.*

***"Yüksək texnoloji məhsulların ixracı" məhsuldar xüsusiyyətinin (Y faktoru) və onun göstəricilərinə təsir edən müstəqil amillərin (X faktorlarının) korrelyasiya asılılığı (Azərbaycan Respublikası üzrə)***

| | Y | X1 | X2 | X3 | X4 |
|---|---|---|---|---|---|
| Y | 1 | | | | |
| X1 | -0.412097459 | 1 | | | |
| X2 | -0.900208925 | 0.219033497 | 1 | | |
| X3 | 0.587381278 | 0.07759841 | 0.787318592 | 1 | |
| X4 | 0.804054825 | -0.302223489 | -0.90475978 | -0.946318837 | 1 |

Korrelyasiya o zaman yüksək hesab olunur ki, indikatorun qiyməti 0,75-dən yuxarı olsun, göstəricinin qiyməti 0,5-dən aşağı olduqda isə əksinə korrelyasiya aşağıdır. Cədvəl 1-dən görünür ki, "Yüksək texnoloji məhsulların ixracı" (Y faktoru) nəticə atributu X2 müstəqil faktoru ilə (-0,90 korrelyasiya əmsalı ilə "Tədqiqat və inkişafa çəkilmiş xərclərin ölkənin ÜDM-də payı") ən yaxın əlaqəyə malikdir və X4 ("Nüfuzlu elmi-texniki jurnallarda dərc olunan elmi məqalələrin sayı" 0,80 korrelyasiya əmsalı ilə). Eyni zamanda, Y faktoru müstəqil amillərlə X1 (0,41 -korrelyasiya əmsalı ilə "Patentlərin sayı") və X3 (0,58 - "Ölkənin hər 1 milyon əhalisinə düşən elmi tədqiqatçıların sayı" korrelyasiya əmsalı ilə) zəif korrelyasiya olunur Müstəqil amillərlə yaranan amil arasındakı əlaqənin yaxınlığını müəyyən etdikdən sonra müstəqil amillərin özləri arasında korrelyasiya (multikorrelearlıq) dərəcəsini müəyyən etmək lazımdır.

Cədvəl 1-dən görünür ki, X2 və X4 müstəqil amillər arasında sıx korrelyasiya (çoxkorrelearlıq) mövcuddur. Odur ki, reqressiya modelimizin adekvatlığını təmin etmək üçün bu iki amildən biri modeldən xaric edilməlidir. Bunun üçün nəticədə Y amili ilə ən az korrelyasiya yaxınlığına malik olan amili istisna etmək lazımdır. Bizim vəziyyətimizdə bu, "Ölkənin ÜDM-də elmi-tədqiqat və inkişafa çəkilən xərclərin payı" faktorudur (korrelyasiya əmsalı (- 0,90)). Lakin bu əlaqə tərs mütənasib olduğundan və bu amillə nəticələnən arasında səbəb əlaqəsinə uyğun gəlmədiyindən onu təsiredici amil kimi qəbul edə bilmərik. Eyni zamanda, ikinci ən çox korrelyasiya olunan - X4 - amil üçün Y faktoru ilə korrelyasiya əmsalının qiymətinə uyğun olaraq, heç bir səbəb-nəticə ziddiyyəti müşahidə edilmir. Beləliklə, biz effektiv Y amilinin qiymətlərinə təsir edən əsas amil kimi müstəqil X4 amilini qəbul edə bilərik. Bu əlaqə aşağıdakı reqressiya modeli funksiyasından istifadə etməklə əks oluna bilər (funksiya MS Excel proqram paketi əsasında tərtib edilmişdir):

$$-381787.9 + 31661.5*X1= Y$$

Lakin təhlilimiz göstərdi ki, modelin F-test indeksi normativ qiymətdən 0,05 yüksək olduğu üçün bu funksiyadan uzunmüddətli proqnozlaşdırma üçün istifadə etmək mümkün deyil. Bu o deməkdir ki, nəzərdən keçirilən reqressiya modeli tam adekvat deyil.

Tədqiqat zamanı biz də 2022-ci il üçün illik hesabatda əks olunduğu kimi, ÜƏMT-nin 10 ən innovativ ölkəsi üçün oxşar təhlil apardıq.

Təhlil nəticəsində məlum olub ki, tədqiq olunan ölkələr arasında yuxarıda qeyd olunan nəticə Y amili ilə müstəqil X amili arasında heç bir əlaqə yoxdur. Qeyd etmək lazımdır ki, ÜƏMT reytinqinə əsasən yuxarıda göstərilən ölkələr üzrə reqressiya təhlilinin nəticəsi, ehtimal ki, təhlil edilən müstəqil amillərin sayının məhdudlaşdırılmasından təsirlənmişdir. Çünki, əlavə statistik məlumatlar olduqda (məsələn, "Ölkədə texnoparkların sayı" və ya "Alınmış xarici yüksək texnologiyaların sayı" kimi göstəricilər üzrə "Yüksək məhsul ixracı" göstəricisi ilə sıx səbəb əlaqəsi var) 2018-2022-cu illər üçün seçilmiş təhsil dövrü üçün və bütün sorğu edilən ölkələr üçün təhlilin nəticələri daha obyektiv ola bilər.

Beləliklə, reqressiya təhlili nəticəsində məlum olub ki, 2018-2022-ci illər üzrə Azərbaycan Respublikasında tədqiqatçılar tərəfindən nüfuzlu elmi jurnallarda dərc olunan məqalələrin sayı

yüksək texnologiyalı və elmtutumlu məhsulların ixracına ən çox təsir edir. Bu fakt dolayısı ilə onu göstərir ki, ölkədə yüksək texnologiyalı məhsulların ixracını artırmaq üçün elmi-texniki mərkəzlərin və müəssisələrin inkişafını stimullaşdırmaq lazımdır. Tədqiqat nəticəsində məlum olub ki, ÜƏMT-nin hazırladığı reytinqə əsasən 10 ən innovativ ölkə üzrə aparılan reqressiya təhlilinin seçilmiş effektiv və müstəqil amilləri arasında heç bir əlaqə yoxdur. Eyni zamanda, qeyd edirik ki, hesablamalarımıza görə, Y və X faktorları arasında təkcə ayrıca bu 10 ölkənin göstəriciləri arasında deyil, həm də bu amillər arasında müvafiq olaraq hər bir ölkə üzrə sıx korrelyasiya yox idi.

Azərbaycanda yüksək texnologiyalı məhsulların ixracının artmasına təsir edən əsas amilin tədqiqatçılar tərəfindən mötəbər elmi jurnallarda dərc olunan məqalələrin sayı olduğunu əsas götürərək, müəllif bu amilin təsirinin artmasının stimullaşdırılması üçün aşağıdakı yolları təklif edir:

1. Müasir yüksək texnologiyalı məhsulların istehsalına yönəlmiş elmi tədqiqatlar sahəsində ixtisaslaşdırılmış qrant müsabiqələrinin sayının artırılması;
2. Elmi reytinqlərə əsaslanan yüksək texnologiyalı elm sektorlarının maliyyələşdirilməsinin artırılması (ilk növbədə elmi nüfuzlu istinad bazaları siyahısına daxil edilmiş jurnallar və konfrans materiallarında dərc olunmuş məqalələrin sayını nəzərə almaqla);
3. Xarici elmi mərkəzlər və təşkilatlarla birgə tədqiqat və təcrübə işlərinin dövlət tərəfindən stimullaşdırılması və maliyyələşdirilməsi;
4. Müasir yüksək texnologiyalar haqqında yeni biliklərin əldə edilməsi üçün əsas məlumat mənbəyi kimi ölkənin elmi strukturlarında ingilis dilinin təkmilləşdirilməsi kurslarının mütəmadi olaraq keçirilməsi.

## ƏDƏBİYYAT


1. Грибанова, Е.Б. Эконометрика. ТУСУР, Омск: 2014.-156 с.
2. Множественная регрессия. //учебное пособие, под ред. Л.Ф. Филатова // Северск: Изд. СТИНИЯ УМИФИ, 2013. - 50 с.
3. Мусаев, А.Ф., Кахраманлы А. Введение в эконометрику, Чашиоглы, Баку, 2011. - 173 с.
4. Новиков, А. И. Эконометрика. М.: Издательско-торговая корпорация Дашков и К°, 2015.-224 с.
5. The World Bank Open Data, https://data.worldbank.org/ - дата обращения: апрель, 2021
6. Global Innovation Index report 2022, https://www. globalinnovationindex. org/ analysis-indicator - дата обращения: апрель, 2023.



***Эмин Эльдар оглы Мамедзаде***
***доктор философии по экономическим наукам,***
***ведущий научный сотрудник***
***Института Экономики***
***Министерства Науки и Образования***


## Сравнительный анализ факторов, влияющих на экспорт инновационных продуктов в Азербайджане и за рубежом


***Резюме***

В статье рассматриваются факторы, потенциально имеющие влияние на рост экспорта высокотехнологичной продукции. Проводится сравнительный анализ данных факторов по наиболее инновационно развитым странам мира и Азербайджану. Выявляется корреляционная зависимость и рассчитывается вероятная регрессионная модель взаимосвязи между данными факторами. По результатам анализа приводятся соответствующие выводы и основанные на них конкретные предложения по совершенствованию роста экспорта инновационной продукции Азербайджана.



***Ключевые слова: высокотехнологичная продукция, экспорт, инновации, корреляция, регрессионная модель, прогноз.***

*Emin Eldar Mamedzadeh*
*PhD in Economic Sciences*
*Leading Researcher of Institute of economics*
*Ministry of Science and Education*

**Comparative analysis of factors affecting the export of innovative products in Azerbaijan and abroad**

***Summary***

The article discusses factors that potentially have an impact on the growth of high-tech exports. A comparative analysis of these factors for the most innovatively developed countries of the world and Azerbaijan is carried out. A correlation dependence is detected and the probable regression model of the relationship between these factors is calculated. According to the results of the analysis, appropriate conclusions are given and concrete proposals based on improving the growth of innovative products of Azerbaijan.

***Key words: high-tech products, export, innovation, correlation, regression model, forecast.***

**UOT: 334.021**

***Elnur Qara oğlu ALLAHVERDİYEV***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı" kafedrası***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***
***E-poçt: aelnur786@gmail.com***
***ORCID NO: 0000-0002-1477-9217***

## TÜRK DÖVLƏTLƏRİNİN QEYRİ-NEFT SƏNAYESİ ÇƏRÇİVƏSİNDƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI: HEYDƏR ƏLİYEV FAKTORU

***Xülasə***

Türk Dövlətlərinin qeyri-neft sənayesi çərçivəsində iqtisadi əməkdaşlığı: Heydər Əliyev faktoru" adlı məqalə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən iqtisadi siyasət və strategiyaları araşdırmaq məqsədi daşımaqdadır. Məqalədə ölkənin iqtisadi məqsədlərinə çatmaqda siyasətin effektivliyini qiymətləndirmək və onların uğur və ya uğursuzluğuna səbəb olan əsas faktorları müəyyən etmək nəzərdə tutulur. Məqalənin əsas vəzifəsi Türk Dövlətlərinin qeyri-neft sənayesi çərçivəsində iqtisadi əməkdaşlığının çoxtərəfli aspekti üzrə Heydər Əliyev faktorunu araşdırmaq və dərin nəzəri təhlilini verməkdir. Bu məqsədə çatmaq üçün məqalədə ədəbiyyat təhlili, məlumatların analizi və nümunə araşdırmaları daxil olmaqla bir sıra tədqiqat metodlarından istifadə olunur. Məqalənin əsas töhfələrindən biri onun elmi yeniliyindən ibarətdir. Heydər Əliyevin iqtisadi strategiyaları daha əhatəli və nüanslı analiz edilir. Məqalə həmçinin təhlilini dəstəkləmək üçün bir sıra sübuta əsaslanan məlumatların qiymətləndirilməsini təmin edir. Məqalənin nəzəri və praktiki əhəmiyyəti onun Azərbaycanda və digər Türk dövlətlərində gələcək iqtisadi siyasətin formalaşması üçün məlumat vermək potensialındadır.

***Açar sözlər: Azərbaycan Respublikası, ölkə iqtisadiyyatı, iqtisadi strategiya, Heydər Əliyev dövrü, qeyri-neft sənayesi.***

***

Məqalə Heydər Əliyev iqtisadi siyasətinin uğur və ya uğursuzluğuna səbəb olan faktorların əsaslı təhlilini verməklə Azərbaycan Respublikası və türk dövlətləri arasında iqtisadi məqsədlərə nail olmaq ehtimalı daha yüksək olan strategiyaları müəyyən etməyə kömək edə bilər. Məqalənin nəzəri çərçivəsi və tədqiqat metodları digər ölkələrdə qeyri-neft sənayesinin iqtisadiyyatına dair gələcək tədqiqatlar üçün də faydalı model rolunu oynaya bilər.

Beynəlxalq iqtisadi münasibətlər sistemində mövqeyini möhkəmləndirən Azərbaycan Respub-

likası türkdilli dövlətlərlə əməkdaşlığı uğurla davam etdirir. Bu ölkələrdən biri olan Türkmənistanla Azərbaycan arasında münasibətlər dərin tarixi köklərə malikdir. Azərbaycan türkləri və türkmənlər təkcə dil və din baxımından deyil; eyni mədəniyyət və ənənələrə sahib olmaq nöqtəsində birləşirlər. Əslində, Orta Asiya xalqları arasında türkmənlər milli mənsubiyyətinə görə Azərbaycan xalqına ən yaxın xalqlardan biri kimi qəbul edilir. Bu ümumi xüsusiyyətlərin əsas səbəbi hər iki xalqın oğuz mənşəli olmasıdır. SSRİ-nin tərkibində olarkən müəyyən qarşılıqlı əlaqələrə malik olan Azərbaycan və Türkmənistan üçün müstəqillik əldə etməklə bu əlaqələri genişləndirmək imkanı yarandı. Beləliklə, iki müstəqil Türk dövləti - Azərbaycan və Türkmənistan arasında ilk diplomatik əlaqələr 1990-cı illərin əvvəllərində qurulmuşdur. Diplomatik əlaqələr qurulduqdan sonra Bakı ilə Aşqabad arasında qeyri-neft sənayesi çərçivəsində mühüm və strateji məsələlərdə əməkdaşlıq başlandı. Bu kontekstdə 16 oktyabr 1992-ci ildə iki ölkə arasında “Daşıma sahəsində qarşılıqlı münasibətlərin prinsipləri haqqında müqavilə” və bir il sonra Bakıda daşımalara dair bir sıra sazişlər imzalandı [4, s.33-34].

Bunlardan 22 yanvar 1993-cü il tarixli “Azərbaycan Respublikasının Gömrük Komitəsi ilə Türkmənistan Dövlət Gömrük orqanı arasında gömrük prosedurlarının həyata keçirilməsi qaydaları haqqında Saziş”, “Azərbaycan Respublikasının Gömrük Komitəsi ilə Türkmənistan Dövlət Gömrük orqanları arasında əməkdaşlıq haqqında Saziş”, “Türkiyə Respublikasının Gömrük Komitəsi ilə Türkmənistan Dövlət Gömrük İdarəsi arasında narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılığına və qanunsuz dövriyyəsinə qarşı əməkdaşlıq haqqında Azərbaycan Sazişi”, 31 mart 1993-cü il tarixli “Azərbaycan Respublikasının Gömrük Komitəsi ilə Türkmənistan Dövlət Gömrük İdarəsi arasında gömrük işi üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş” əsasdır. 1993-cü il dekabrın 23-24-də Prezident Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən Zirvə Toplantısında iştirak etmiş, Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparmışdır. Ticarət, iqtisadi və maliyyə sahələrində əməkdaşlıq üçün daha əlverişli rejim həyata keçirəcək, ölkələrinin iqtisadiyyatına töhfə verəcək sərmayələrin qoyulmasına şərait yaratmışdır [1, s.45].

Bu gün Cənubi Qafqaz regionunda bir çox göstəricilərə görə lider olan Azərbaycan regionun ən güclü iqtisadiyyatına malik ölkəsidir. 1990-cı illərin əvvəllərində 1662% olan inflyasiya məlumatları (istehlak qiymətləri ilə) indi 1,9% təşkil edir. Bəs bunun əsl səbəbi nədir? Tədqiqatın aktuallığı da bundan irəli gəlir. İqtisadi inkişafın bütün bu səviyyəsi Heydər Əliyev islahatları ilə bağlıdır.




***Qrafik 1. 1991-1993-cü illər arasında Ümumi Daxili Məhsulun artım tempi***

Qrafikdən göründüyü kimi, Azərbaycanın ümumi milli məhsulunun artım tempi 1991-ci ildə -0,7%, 1992-ci ildə -22,6%, 1993-cü ildə -23,1% olmuşdur. Bu baxımdan, inkişafın olduğunu söyləmək olar. İş o yerə çatıb ki, Heydər Əliyev dövründən əvvəlki dövrdə, yəni 1991-1992-ci illər arasında ÜDM-in artım tempində kəskin azalma (-21,9%) müşahidə olunub. Lakin Heydər

Əliyevin hakimiyyətinin birinci ilində (1993) bu azalma dərəcəsi -0,5%-ə qədər azaldı. Bu faiz dərəcələri inkişafın deyil, böhranın qarşısının alınması göstəriciləri olaraq qeyd oluna bilər. Tədqiqatın növbəti mərhələsində Azərbaycanın iqtisadi inkişafı makroiqtisadi göstəricilərlə aydın şəkildə izah edilir.




**Qrafik 2. 1991-1995-ci illər arasında Azərbaycanda inflyasiya səviyyəsi (ÜDM deflyatoru ilə hesablanmış)**

Qrafik nəzərə alındıqda maraqlı məqamlar diqqəti cəlb edir. Azərbaycanda inflyasiya səviyyəsi 1991-ci ildə 83,55%, 1992-ci ildə isə 1065,329% olmuşdur. Əslində, bu rəqəmlərin belə olmasının səbəbini sosialist rejimindən kapitalizmə keçid və Birinci Qarabağ müharibəsi zamanı yaranmış şok-terapiya effekti ilə izah etmək olar. O illərdə ölkə rəhbərliyi düzgün qərarlar qəbul etməyəndə problem daha da ağırlaşırdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda inflyasiya səviyyəsi 1065,329%-dən 747,125%-ə enmişdir. 1994-cü ildə inflyasiyanın artması yeni iş yerlərinin yaradılması ilə əlaqəlidir. Başqa sözlə, ölkədə işsizlərin sayı aşağı düşdükcə inflyasiyanın səviyyəsi yüksəlir və ya inflyasiyanın səviyyəsi azaldıqca işsizliyin səviyyəsi artır. Lakin Heydər Əliyev qısa müddətdə spesifik iqtisadi siyasətini həyata keçirməklə bu problemi həll etdi və 1995-ci ildə ölkədə inflyasiyanın səviyyəsini 1386,067%-dən 545,656%-ə endirməyə nail oldu [2, s.21].

Heydər Əliyev dövründə qeyri-neft sənayesi sektorları ilə bağlı Türkdilli dövlətlərlə əməkdaşlıq artırılmışdır. 1994-cü ilin fevralında Heydər Əliyevin Türkiyə Respublikasına səfəri zamanı sərmayələrin qarşılıqlı həvəsləndirilməsi və ikiqat vergitutma haqqında saziş imzalandı. Həmin ildə Azərbaycan tərəfindən təsdiq edilmiş bu sənədlər müvafiq olaraq 1996 və 1997-ci illərdə Türkiyə tərəfindən təsdiq olunmuş və 1998-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Sonrakı illərdə iki ölkə arasında iqtisadi əlaqələrin hüquqi infrastrukturunu təşkil edəcək bir çox sazişlər, protokollar və bu kimi sənədlər imzalanıb. İkitərəfli iqtisadi əlaqələr baxımından mühüm qurum olan Türkiyə ilə Azərbaycan arasında İqtisadi və Ticari Əlaqələr üzrə Birgə İqtisadi Komissiyanın ilk iclası 1997-ci il fevralın 25-də keçirilmişdir. Müxtəlif səbəblərdən Müştərək İqtisadi Komissiyanın ikinci iclası uzun müddət keçirilə bilmədi. 2001-ci il martın 29-da keçirilən ikinci görüşdə qarşılıqlı ittihamlarla dolu gərgin atmosfer hökm sürmüşdür. Əslində, bu dövrdə ikitərəfli iqtisadi münasibətlərdə çox müsbət atmosferdən danışmaq çətin idi. Çünki bu illərdə iranlı və rusiyalı həmkarları ilə müqayisədə türk sərmayəçilərinin və türk yük maşınlarının neqativ şərtlərlə təmin olunması ilə bağlı kəskin tənqidlər səslənirdi [3, s. 21].

Bununla belə, Heydər Əliyev respublikanın beynəlxalq sistemə inteqrasiya cəhdində "mühüm faktor" rolunu təşkil etmişdir. Bu çərçivədə, kapitalizmin institusional fonunun yetərincə inkişaf etmədiyi bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da əsasən lider və lider bürokratiyasına əsaslanan inzibati və iqtisadi struktur mövcud olmuşdur.

Heydər Əliyevin prezidentliyi dövründə ölkədə formalaşan qeyri-neft sənayesi çərçivəsində

beynəlxalq investisiya mühiti, istehsal səviyyəsi və nisbətən inkişaf etmiş rifah səviyyəsi Azərbaycan üçün yaxşı başlanğıc sayıla bilər. Türkiyə və Azərbaycanın digər ölkələrlə ticarət və iqtisadi əlaqələrini müqayisə etdikdə, ikitərəfli mövcud göstəricilərin çox yüksək səviyyədə olduğu qeyd olunmaqdadır. Ancaq ortaq əlaqələri olan, qardaş mədəniyyəti paylaşan, eyni dildə danışan iki ölkənin potensialını əks etdirməkdən uzaqdır. Azərbaycan hazırda Qafqaz regionunda iqtisadi və siyasi cəhətdən ən sabit ölkədir ki, bu da ölkənin investisiyalarına müsbət təsir göstərir [5, s.43].

Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə ilə müxtəlif sahələri əhatə edən, iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin hüquqi infrastrukturunu formalaşdıran 150-yə yaxın müxtəlif əməkdaşlıq, saziş və protokollar imzalanıb. Lakin müxtəlif səbəblərdən bu razılaşmaların əksəriyyəti lazımi nəticəni verə bilməmişdir. İkitərəfli iqtisadi əlaqələr baxımından xüsusi əhəmiyyət kəsb edən sazişlər: 1 noyabr 1992-ci il tarixli “Kommersiya və İqtisadi Əməkdaşlıq Müqaviləsi”, 31 iyul 1996-cı il tarixli “İnvestisiyaların Qarşılıqlı Təşviqi və Müdafiəsi haqqında Saziş” və “Türkiyə ilə Azərbaycan arasında İkiqat Vergitutmanın aradan qaldırılması haqqında Saziş” isə 1 yanvar 1998-ci il tarixindən qüvvəyə minmişdir. 2000-ci ilə qədər Azərbaycanda fəaliyyət göstərən türk şirkətlərinin sayı təxminən altı yüzə çatmışdır. Azərbaycanda qeyri-neft sektorlarına əsaslanaraq, ən çox sərmayənin türk şirkətləri tərəfindən qoyulduğu bildirilir. Bütün bunlara əlavə olaraq, bankçılıqdan tekstilə, tikintidən telekommunikasiyaya qədər ticarət və iqtisadi həyatın demək olar ki, hər sahəsində Türkiyə sərmayəli şirkətlər fəaliyyət göstərir. Azərbaycan və Türkiyə qarşılıqlı ticarət əlaqələrini inkişaf etdirmək istəyirlər və hər iki ölkənin iqtisadiyyatları əslində bir-birini tamamlamaqdadır. Türkiyə iqtisadiyyatı xarici görünüşlü və istehsal sənaye yönümlü quruluşu ilə diqqətimizi çəkərkən; Azərbaycan iqtisadiyyatı xammal çəkisi ilə diqqətimizi cəlb edir. Türk sərmayədarlarının Azərbaycan iqtisadiyyatında, xüsusilə qeyri-neft sahələrində çəkisi artmaqdadır. Bütün varlığı ilə keçid iqtisadiyyatını yaşayan və investisiyaya ehtiyacı olan Azərbaycana türk kapitalının töhfəsi çox əhəmiyyətli olmuşdur. İkitərəfli iqtisadi əlaqələr üçün mühüm əhəmiyyət kəsb edən Birgə İqtisadi Komissiyanın (BİK) ilk iclası 1997-ci il fevralın 25-də keçirilmiş və iqtisadi əlaqələrin inkişaf etdirilməsi qərara alınmışdır.

1996, 1997 və 1998-ci illərdə Azərbaycana ən çox idxal prosesini təmin edən ölkə Türkiyə olduğu halda; 1999 və 2000-ci illərdə Türkiyə Rusiyadan sonra ən çox məhsul idxal edilən ikinci ölkə mövqeyinə geriləmişdir. Digər tərəfdən, idxalın azalmasında mühüm faktorlardan biri də podratçı şirkətlərin üzərinə götürdüyü podrat işlərinin böyük ölçüdə başa çatdırılması və yeni iri layihələrə start verilməməsidir. Türkiyənin Azərbaycana ixracı 2001 və 2002-ci illərdə yenidən artmağa başlamışdır. Azərbaycana ixrac edilən mallar bunlardır: əczaçılıq məhsulları, elektrik enerjisi, sintetik yuyucu vasitələr, avtomobil şinləri, avtomobillər, akkumulyatorlar, mebellər, tikinti materialları. Bundan əlavə, tekstil sənayesi üçün maşın və avadanlıqlar, trikotaj, kosmetika, plastik məmulatlar, telekommunikasiya avadanlıqları, kabellər, ağac istehsalı üçün maşınlar, elektrik materialları, hər cür geyim. Bununla yanaşı, 1998-1999-cu illərdə Azərbaycan ixrac istiqamətinin dəyişməsinin ən mühüm səbəbi neftin erkən ixracına başlanması idi. 2000-ci ilin yanvar-avqust aylarında Bakı-Novorossiysk Şimal neft xətti ilə 365,879 ton erkən neft ixrac edilmişdir. Azərbaycanın MDB çərçivəsində xarici ölkələrə ixrac məhsullarının 91,5%-ni neft və neft məhsulları təşkil edirdi. Azərbaycandan Türkiyəyə ixrac olunan mallar: Benzin, pambıq, dizel yanacağı, xam neft, polietilen, dəri, xam alüminium, mis, qurğuşun, spirtli içkilər, müxtəlif tərəvəz və meyvələr, yun, gübrə, dəmir-polad, biyan kökü, plastik məmulatlar, çay [6].

Türkiyə ilə Azərbaycanın iqtisadi əlaqələrində statistikalar hər il Türkiyə üçün daha faydalı ticarət profisiti təşkil etmişdir. Başqa sözlə, Türkiyənin xeyrinə olan ticarət profisiti son illərə qədər davam etdi. Lakin son vaxtlar mineral yanacaq idxalının artması ilə əlaqədar olaraq Azərbaycandan ixrac daha sürətlə artmışdır. Bunun nəticəsidir ki, Azərbaycan və Türkiyə iqtisadiyyatları davamlı olaraq bir-birini tamamlayır. Türkiyə iqtisadiyyatı Azərbaycan iqtisadiyyatına nisbətən daha çox emal sənayesi çəkisinə malik olsa da, Azərbaycan iqtisadiyyatı Türkiyə iqtisadiyyatından daha çox xammala əsaslanan bir imic nümayiş etdirir. Bu çərçivədə, son illərdə mineral yanacaq idxalının artması ilə əlaqədar olaraq Türkiyənin Azərbaycandan idxalının bu ölkəyə ixracından daha sürətlə artdığı müşahidə olunur.

Həmçinin, Heydər Əliyev dövründə Qazaxıstan ilə Xəzər dənizinin şimal hissəsinin orta xətlə

bölünməsi haqqında saziş imzalanmışdır. Bu müqavilə Xəzər dənizinin altındakı sərvətlərin sektorlar üzrə bölüşdürülməsini və ərazi sularından kənar sularda ümumi istifadəni nəzərdə tutur. Beləliklə, Qazaxıstan öz sektorundakı sərvətlərdən istifadə etmək şansı əldə etdi. Qeyd olunan proses iki türkdilli dövlət olan Azərbaycan və Qazaxıstan arasında qeyri-neft sənayesi üzrə də əməkdaşlığı başladan əsas faktora çevrilmişdir. Azərbaycan Respublikasının uyğun olaraq, hər bir sahilyanı Türk dövləti ilə qeyri-neft sektorunda əməkdaşlıqla əlaqəli qanunvericilik aktları mövcuddur.

## ƏDƏBİYYAT


1. Abdullayev,C. (2011), "Azərbaycanda Konstitusiyalaşma və Qəbul Sisteminin Təbiəti", Beynəlxalq Münasibətlər və Strateji Araşdırma Jurnalı
2. Aydın, Ü. (2017). "Türkiye ve Azerbaycan Arasında Ulaştırma İşbirliği: Çağdaş İpek Yolu Üzerine Bölgesel ve Küresel Bir Analiz", Kafkas Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Bahar 2017, Sayı 19.
3. Arslan, M. Büşra (2021), "Türkiye'nin Komşularıyla Olan Siyasi İlişkilerinin Ekonomik İlişkilerine Etkisi", İstanbul Ticaret Üniversitesi, YLT, Yayınlanmamış, İstanbul
4. Bil, Ümit (2020), "Azerbaycan-Türkiye ilişkilerinde tarih faktörü", Sakarya Üniversitesi, Yayınlanmamış, YLT, Sakarya
5. Burçak, Rıfkı Salim (1979), "Türkiye'de Demokrasiye Geçiş (1945-1950)", Ankara: Olgaç Matbaası
6. İnternet resursları
7. Azerbaycan Devlet İstatistik Komitesi. (2022). https://www.azstat.org/MESearch/search?departament=9&lang=az



***Эльнур Гара оглы Аллахвердиев***
***Азербайджанский Университет Кооперации***
***кафедра "Экономика аграрной отрасли и промышленности"***
***доктор философии по экономике, доцент***
***Электронная почта: aelnur786@gmail.com***
***ORCID NO: 0000-0002-1477-9217***


## Экономическое сотрудничество Тюркских государств в рамках ненефтяной промышленности: фактор Гейдара Алиева


***Резюме***

Статья под названием "Экономическое сотрудничество Тюркских государств в рамках ненефтяной промышленности: фактор Гейдара Алиева" направлена на изучение экономической политики и стратегий, реализованных во время руководства Гейдара Алиева Азербайджаном. В статье ставится задача оценить эффективность политики в достижении экономических целей страны и выявить основные факторы, обусловливающие их успех или неудачу. Основная задача статьи - рассмотреть экономическое сотрудничество Тюркских государств в рамках ненефтяной промышленности: фактор Гейдара Алиева и дать глубокий теоретический анализ. Для достижения этой цели в статье используется ряд методов исследования, включая обзор литературы, анализ данных и тематические исследования. Одним из основных вкладов статьи является ее научная новизна. Экономические стратегии Гейдара Алиева анализируются более всесторонне и детально. В статье также приводится ряд оценок данных, основанных на фактических данных, в поддержку ее анализа. Теоретическая и практическая значимость статьи заключается в ее возможности предоставить информацию для формирования будущей экономической политики в Азербайджане и других Тюркских государствах.



***Ключевые слова: Азербайджанская Республика, экономика страны, экономическая стратегия, эпоха Гейдара Алиева, ненефтяная промышленность.***

*Elnur Gara Allahverdiyev*
*Azerbaijan Cooperation University*
*Department of Economics of Agrarian Field and Industry*
*Doctor of philosophy in economics, associate professor*
*E-mail: aelnur786@gmail.com*
*ORCID NO: 0000-0002-1477-9217*

**Economic cooperation of the Turkic states in the framework of the non-oil industry: the Heydar Aliyev factor**

***Summary***

The article titled "Economic Cooperation of Turkic States within the Non-Oil Industry: Heydar Aliyev's Factor" aims to study the economic policies and strategies implemented during the leadership of Heydar Aliyev in Azerbaijan. The article aims to assess the effectiveness of policies in achieving the economic goals of the country and to identify the main factors that determine their success or failure. The main objective of the article is to consider the economic cooperation of the Turkic states within the framework of the non-oil industry: the factor of Heydar Aliyev and give a deep theoretical analysis. To achieve this goal, the article uses a number of research methods, including literature review, data analysis, and case studies. One of the main contributions of the article is its scientific novelty. The economic strategies of Heydar Aliyev are analyzed more comprehensively and in detail. The article also provides a number of evidence-based data assessments to support its analysis. The theoretical and practical significance of the article lies in its ability to provide information for the formation of future economic policy in Azerbaijan and other Turkic states.

***Keywords: Republic of Azerbaijan, country's economy, economic strategy, Heydar Aliyev era, non-oil industry***

**UOT 339**

*Solmaz Muxtar qızı GÖZƏLOVA*
*t.e.n., dos. Azərbaycan Kooperasiya Universiteti*
*Email: solmaz.gozalova@mail.ru*
*Orcid İD: 0000-0002-1061-2663*

**HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ**

***Xülasə***

Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

***Açar sözlər: beynəlxalq, müstəqillik, siyasət, əməkdaşlıq, sülh, region.***

***

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır".[1]

Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. İlk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi.

O illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığa dəstək aktı"na 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. [2]

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, ölkəmizin cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Münaqişənin həllinin hüquqi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri

və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyirdi.[3]

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi.

Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığa dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Ötən əsrin 90-cı illərinə doğru sosializm dəyərlərindən imtina edərək bazar iqtisadiyyatı və demokratiya yolunu seçmiş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulması həm də yeni dövrün reallıqları ilə şərtlənir. Məsələ bundadır ki, vaxtilə keçmiş SSRİ də daxil olmaqla, sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi iqtisadi-siyasi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına səbəb olmuşdur. Rəsmi Bakının Mərkəzi və Şərqi Avropa ilə qarşılıqlı faydalı əməkdaşlığı bütün səviyyələrdə genişləndirməyə çalışması bu məkanda yerləşən dövlətlərin Avropanın siyasi atmosferinin müəyyənləşməsində mövqeyinin və fəal xarici siyasətinin mühüm təsirə malik olması ilə şərtlənir. Azərbaycan iqtisadi və siyasi islahatları uğurla başa çatdırmış həmin ölkələrin Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsindəki mütərəqqi təcrübəsindən səmərəli şəkildə yararlanmaq niyyətindədir. Hazırda Qərbi Avropa ilə yanaşı, Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa, Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi ölkələr də Azərbaycanın avrostrukturlara inteqrasiyası prosesinə fəal şəkildə dəstək verir, təcrübələrini bölüşürlər. Eyni zamanda, Mərkəzi və Şərqi Avropa respublikamızın Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmini baxımından əlverişli geosiyasi məkandır.[4]

İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək olsun. Bu isə Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırır. Odur ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı. Bu illər ərzində Türkiyə ilə əlaqələr "bir millət, iki dövlət" formulu əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu

beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Azərbaycanın ardıcıl şəkildə Avroatlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar o, NATO-nun sammitlərində iştirak etmiş və Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2006-cı ildə "Yeni qonşuluq siyasəti" çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır. Prezident Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 2001-ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir.

Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi meqalayihələr nəinki region miqyasında, habelə bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malikdir. Bu qlobal partnyorluq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirmişdir.

Bu gün Azərbaycan dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirir. Cənubi Qafqaz regionu ərazisindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementidir. Bu mənada, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRASECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Habelə, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-

Tbilisi-Qars dəmir yolu xəttinin qurulması istiqamətində əməkdaşlıq edir. Bu xəttin həyata keçirilməsi regional əməkdaşlığın sürətləndirilməsi və gücləndirilməsi üçün vacib addım olacaq, eyni zamanda, qlobal təsirlərə malik yeni regional imkanlar yaradacaqdır.[5]

Ulu öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əlliyev öz tarixi çıxışı zamanı qeyd etmişdir: "Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir. Bunun əsas səbəbi əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur". Azərbaycanın keçdiyi inkişaf yolu, seçilən düzgün kurs dövlətin bu gün müstəqil siyasət yürütməsinin təməlində duran səbəblərdən birincisidir. Son illər Azərbaycan tarixinə nəzər salsaq, siyasi və diplomatik uğurların nə dərəcədə əhəmiyyətli olduğunu görmək mümkündür. Vətən müharibəsində qazanılan qələbəyə qədər görülməli olan işlər bir-bir Prezident İlham Əliyev tərəfindən ən xırda detallarına qədər peşəkarlıqla həyata keçirildi.

## ƏDƏBİYYAT


1. Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev. © F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018
2. Xalid Qüdrət oğlu Niyazov. Azərbaycan Respublikasının Dövlət informasiya siyasəti: təşəkkülü, inkişafi və əsas istiqamətlər. Bakı-2021
3. Novruz Məmmədov. Xarici siyasət: Reallıqlar və gələcəyə baxış. Bakı– 2013
4. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın milli maraqlarına söykənir - "İki sahil" (ikisahil.az)
5. 38542.pdf (president.az)



***Солмаз Мухтар кызы Гозалова***
***т.е.н., доц. Азербайджанский Университет Кооперации***
***Электронная почта: solmaz.gozalova@mail.ru***
***Orchid ID: 0000-0002-1061-2663***


## Гейдар Алиев и Азербайджанская модель внешней политики


***Резюме***

Подчеркивая важность всесторонне взвешенных шагов в направлении защиты интересов страны, Гейдар Алиев предпринял гибкие маневры и специальные тактические ходы с учетом борьбы различных государств за экономические интересы и сферы влияния, построенные на Кавказе в целом и непосредственно на нашу республику, принимая во внимание интересы государственности Азербайджана. В курс внешней политики были внесены практические изменения, учитывающие современные реалии и направленные на защиту интересов страны. Место независимого Азербайджанского государства в системе международных отношений, его отношения с европейскими странами и США, новыми независимыми государствами и Россией, тюркоязычными странами и Турцией, мусульманским миром и Ираном, его отношения с влиятельными международными организациями были определены и постепенно начали реализовываться. Визиты Президента Азербайджана Гейдара Алиева в зарубежные страны, продуктивные встречи, которые он провел с главами государств, другими руководителями и бизнесменами этих стран, придали импульс укреплению двустороннего и многостороннего сотрудничества и создали благоприятные условия для его выхода на качественно более высокий уровень.



***Ключевые слова: международный, независимость, политика, сотрудничество, мир, регион***

*Solmaz Mukhtar Gozalova*
*Assoc. prof. Azerbaijan University of Cooperation*
*E-mail: solmaz.gozalova@mail.ru*
*Orchid ID: 0000-0002-1061-2663*

**Heydar Aliev and Azerbaijan model of foreign policy**

***Summary***

Emphasizing the importance of taking comprehensively measured steps in the direction of protecting the country's interests, Heydar Aliyev made flexible maneuvers and special tactical moves, taking into account the struggles of various states for economic interest and sphere of influence built on the Caucasus as a whole and directly on our republic, taking into account the statehood interests of Azerbaijan. Practical changes were made in the course of foreign policy, taking into account the current realities and aimed at protecting the interests of the country. The place of the independent Azerbaijan state in the system of international relations, its relations with European countries and the United States, newly independent states and Russia, Turkic-speaking countries and Turkey, the Muslim world and Iran, and its relations with influential international organizations were determined and gradually started to be implemented. The visits of the President of Azerbaijan Heydar Aliyev to foreign countries, the productive meetings he held with the heads of state, other leaders and businessmen of those countries gave an impetus to the strengthening of bilateral and multilateral cooperation and created fertile conditions for it to enter a qualitatively higher stage.

***Key words: international, independence, politics, cooperation, peace, region.***

**UOT: 94 (479.24)**

*Vüsalə Zakir qızı ƏLİYEVA*
*Azərbaycan Kooperasiya Universitetinin*
*Humanitar fənlər kafedrasının baş müəllimi t.ü.f.d.*
*E-mail:eliyeva-vus@list.ru*

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTDƏKİ UĞURLARI**

***Xülasə***

Tezisdə əsasən Ümummilli lider Heydər Əliyevin Azərbaycanın gələcəyi üçün həyata keçirdiyi siyasi xəttin əsas tarixi aspektlərindən söz açılır. Xüsusilə də bu yolda xarici dövlətlərlə bağlanılan müqavilələrdən, onların tarixi əhəmiyyətindən danışılır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra xarici ölkələrdə diaspor fəaliyyətinin formalaşması, bu istiqamətdə görülmüş mühüm əhəmiyyət kəsb edən mövzulardan söhbət açılır.

***Açar sözlər: beynəlxalq təşkilatlar, sülh, terrorizmlə mübarizə, işğalçılıq, de-fakto.***

***

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, proqmatik xarici ciyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strasteji maraqları əsasında yenidən qurdu. Ulu öndər ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region və Qafqazda xüsusi təsiri olan ayrı ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı.

Hələ Milli Məclisin Sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və isti-

qamətlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasət olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır". (4) Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldərək qeyd edirdi: "Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır". (5)

Heydər Əliyev Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı.

İlk növbədə yaxın xarici münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi.

Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Rusiya ilə əməkdaşlığın inkişafına həmişə böyük əhəmiyyət vermişdir. İki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xüsusi rolu və xidmətləri olmuşdur. Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında 2008-ci ilin iyulunda Bakıda imzalanmış Dostluq və Strateji Əməkdaşlıq haqqında Bəyannaməyə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur. İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan,Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da yaxın qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soydaşımızın yaşaması, Qafqazın bugünkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan və Gürcüstan arasında ikitərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir.

ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığa dəstək aktına 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti kökündən dəyişdi. Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. (6) Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Butapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı ölkəmizin cəl olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi. Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Daqlığ Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xey-

rinə işləyir.

Ölkəmiz ildən-ilə güclənir, beynəlxalq mövqelərini möhkəmləndirir və bütün bunlar münaqişənin Azərbaycnın ərazi bütövlüyü çərçivəsində həll olunacağına olan ümidləri artırır.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir.

Nəhayət 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, ölkəmizlə iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi. Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakl-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığa dəstək aktı" na ədalətsiz 907-ci düzəlişin qüvvəsini dayandırmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. (2) Ermənistan lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi. Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni istiqamətlər təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni kurs çevik taktiki gedişlərlə həyata keçirilirdi. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayaev Türkdilli Ölkələrin Parlamaent Assambleyasının yaradılması ideyasını irəli sürmüşdü. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün Assambleya böyük əhəmiyyətə malikdir. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik formu kimi təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır. Nəhayət türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin oktyabrında keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır.

Rəsmi imzalanmış Naxçıvan Bəyannaməsinə görə isə yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur. Ölkəmiz İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır və İran dövləti ilə xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişafına, əmtəə dövriyyəsinin ildən-ilə artmasına gətirib çıxarmışdır. Son illər qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığını inkişaf etdirərək, onun siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində təsiri və iştirakının gücləndirilməsi istiqamətində apardığı fəal siyasətini davam etdirmişdir. 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi çox əlamətdar və mühüm hadisə olaraq Azərbaycanın İKT ilə apardığı səmərəli və faydalı əməkdaşlığın, bütövlükdə ölkəmizin İslam ümməti arasında qazandığı nüfuzun mühüm göstəricisi idi.

Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal

əməkdaşlıq edir. Azərbaycanın ardıcıl şəkildə Avroatlantik məkana inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. (1)

Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir. Bu siyasət bu gün də səylə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın və dünya siyasətinin mərkəzinə çevrilmiş Avropanın ən mühüm istiqamətlər üzrə tərəfdaşı kimi tanınır. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2006-cı ildə "Yeni qonşuluq siyasəti" çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır. Bu proqram üzrə Praqa zirvə görüşünün Birgə Bəyannaməsinin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Zirvə görüşü çərçivəsində Transxəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və dövlətimizin enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənub Dəhlizi – Yeni İpək Yolu" Bəyannaməsinin qəbul edilməsi, eyni zamanda ötən ilin dekabrında Avropa İttifaqının bir sıra ölkələrlə, o cümlədən Azərbaycanla assosiasiya sazişi ilə bağlı danışıqlara başlaması niyyətində olduğunu bəyan etməsi xüsusi diqqətə layiqdir. Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. (3)

Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır.

Ermənistanın həmin tarixi mərhələdə getdikcə genişlənən işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti riyakarlıqla çaşdırmaq cəhdlərini ciddiliklə nəzərə alan Ulu Öndərimiz xarici ölkələrdə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamlılığını təmin edən Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Bu gün dünyanı narahat edən bir sıra məsələlərdə böyük dövlətlərin başçıları Azərbaycanın, onun rəhbərinin mövqeyi ilə hesablaşırlar. Bu məqamları nəzərə alsaq belə nəticəyə gələ bilərik ki, Azərbaycanın regional və qlobal siyasətin müstəqil mərkəzi olmasında Heydər Əliyev tərəfindən müəyyən edilmiş çoxvektorlu xarici siyasət kursu həlledici rol oynamışdır. (1) Həmin məqam ölkəmizin dinamik inkişafı üçün geniş perspektivlər açır.

## ƏDƏBİYYAT

1. Y.Mahmudov. "Heydər Əliyev". Bakı, 2013.
2. Heydər Əliyev. "Müstəqillik yollarında". Bakı, 1996.
3. "Ulu öndər". "Şərq-Qərb" nəşriyyatı. Bakı, 2013.
4. Heydər Əliyev. "Müsəqilliyimiz əbədidir". "Şərq-Qərb" nəşriyyatı. Bakı, 2013.
5. Hüseynova İradə. " Müstəqil Azərbaycan dövlətinin qurucusu". Monoqrafiya. Bakı, 2004.
6. Musa Qasımlı. "Heydər Əliyev: İstiqlala gedən yol". Bakı, 2006.

***Вусала Закир кызы Алиева***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры "Гуманитарные науки",***
***доктор исторических наук***
***E-mail:eliyeva-vus@list.ru***

**Внешнеполитические успехи национального лидера Гейдара Алиева**

***Резюме***

В диссертации в основном говорится об основных исторических аспектах политической линии общенационального лидера Гейдара Алиева на будущее Азербайджана. В частности, на этой дороге обсуждаются договоры, заключенные с зарубежными странами, и их историческое значение. После восстановления государственной независимости Азербайджана обсуждаются вопросы формирования диаспорской деятельности в зарубежных странах и важные темы, рассматриваемые в этом направлении.

***Ключевые слова: международные организации, мир, борьба с терроризмом, оккупация, де-факто.***

***Vusala Zakir Aliyeva***
***PhD.in history. Azerbaijan Cooperation University***
***teacher of the Department of Humanities sciences***
***E-mail:eliyeva-vus@list.ru***

**National leader Heydar Aliyev's successes in foreign policy**

***Summary***

The thesis mainly talks about the main historical aspects of the political line implemented by National Leader Heydar Aliyev for the future of Azerbaijan. In particular, the agreements concluded with foreign countries and their historical importance are discussed on this road. After the restoration of Azerbaijan's state independence, the formation of diaspora activity in foreign countries and the important topics seen in this direction are discussed.

***Key words: international organizations, peace, fight against terrorism, occupation, de facto.***

**UOT 338**

***Aydın Ehtibar oğlu BƏHRƏMOV***
***i.f.d. Azərbaycan Kooperasiya Universitetinin***
***"Menecment və ticarət" kafedrasının baş müəllimi,***
***ORCİD-ID: 0009-0008-1494-2134***
***E-mail: bahramovaydin@gmail.com***

**AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASININ REALLAŞMASI PROSESİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ**

***Xülasə***

Taleyini Azərbaycan xalqının taleyi ilə bağlayan, xalqı, vətəni, milləti üçün daim çalışan Ümummilli lider Heydər Əliyev müasir dünyanın siyasi-iqtisadi həyatında dərin izlər qoymuş böyük dühadır. Müstəqilliyini yenidən bərpa etmiş və bu yolda inamla addımlayan Azərbaycan Respublikasının 1993-2003-cü illərdə prezidenti olmuş Heydər Əliyev, öz fəaliyyəti dövründə Azərbaycan iqtisadiyyatını transformasiya edən hərtərəfli neft strategiyasını həyata keçirmişdir. Strategiya Xəzər dənizində neft və qaz ehtiyatlarının kəşfiyyatı, hasilatı və ixracını əhatə edirdi. Bu məqalədə Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin neft strategiyasının müxtəlif komponent-

ləri və onların Azərbaycanın iqtisadi inkişafına təsiri araşdırılacaq.

***Açar sözlər: Neft strategiyası, Heydər Əliyev fenomeni, neft hasilatı tarixi, BTC neft boru kəməri, Azərbaycan Dövlət Neft Fondu.***

***

XX əsrdə tale Azərbaycan xalqına Heydər Əliyev kimi ləyaqətli övlad, dünya miqyasında tanınmış siyasətçi, fenomenal şəxsiyyət bəxş etmişdir. H.Əliyevin strateji düşünmə qabiliyyəti və uzaqgörənliyi respublikamızın davamlı iqtisadi inkişafına zəmin yaratmışdır. Azərbaycanın uzunmüddətli strateji inkişafı naminə həyata keçirdiyi mühüm startegiyalar arasında neft strategiyası xüsusi yerə sahib olmaqla bərabər, ölkənin gələcək taleyini müəyyən etmişdir.

Heydər Əliyevin neft strategiyası Azərbaycanın sahib olduğu neft ehtiyatlarından xalqın maksimum fayda əldə etməsi prinsipinə əsaslanırdı. O, hesab edirdi ki, ölkənin təbii sərvətləri güclü və davamlı inkişaf edən iqtisadiyyatın yaradılmasına, xalqın həyat səviyyəsinin yüksəldilməsinə, beynəlxalq aləmdə ölkənin mövqeyinin möhkəmlənməsinə sərf edilməlidir.

Azərbaycan neft və qaz ehtiyatları baxımından zəngin olan Xəzər dənizi sahilində yerləşir. Üç min ilə yaxın yaşı olan Bakı şəhəri Xəzər dənizi sahilində kiçik bir liman şəhəri idi. Tarixçilərin topladığı təkzibolunmaz məlumatlara əsasən Bakının yerləşdiyi Abşeron yarımadasından neft daşınmasının ən azı 2500 illik tarixi vardır. Şəhər haqqında yazılı mənbələrə IX-XI əsrlərdə Ərəb və İran tarixçilərinin əsərlərində rast gəlinir. [3, s.21] VII əsrdə yaşamış məşhur səyyah Əbu İsaq İstəxri bakılıların ocaqlarda odun əvəzinə neftli torpağı yandırdığını göstərmişdir. Əhməd Balazuri isə 754-cü ildə Şirvanda çıxarılan neftin üzərinə vergi qoyulduğunu yazır. [6, s.195] Marko Polonun yazdığına görə XIII əsrdə Abşeronda mövcud çoxsaylı quyulardan hasil edilən neftdən xəstələrin müalicə edilməsi, binaların işıqlandırılması, eləcə də hərbi məqsədlər üçün istifadə edilir. [1, s.2] 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan vurmuş neft fontanı Azərbaycanda qara qızılın sənaye üsulu ilə çıxarılmasının əsasını qoymuşdur. Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir. [2, s.3] Neft sənayesinin inkişafı xarici kapitalı ölkəyə cəlb etməklə birlikdə, yerli sahibkarlar nəsli də yetişdirmişdir. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev kimi şəxsiyyətlər iri neft sənayeçilərinə çevrilərək, ölkənin, xalqın gələcək taleyində həlledici rol oynamışlar.

Sovet İttifaqı yarandıqdan sonra Azərbaycan nefti dünya arenasına artıq rus nefti olaraq təqdim edilirdi. İkinci Dünya müharibəsində Sovet İttifaqının hasil etdiyi neftin 75 faizi Azərbaycanda çıxarılmaqla alman faşizmi üzərindəki qələbədə həlledici rol oynamışdır.

SSRİ dövründə Azərbaycanın neft sənayesi dövlətin nəzarətində idi və onun resursları əsasən Sovet İttifaqının sənayeləşməsinə dəstək üçün istifadə olunurdu. Lakin 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra, ölkənin sahib olduğu neft ehtiyatlarının səmərəli reallaşdırılması yolları araşdırılmağa başlanıldı.

Heydər Əliyev Azərbaycana ilk dəfə rəhbər seçildiyi ötən əsrin 70-ci illərindən etibarən yeni neft strategiyasını tətbiq etməyə başlamışdır. İlk dəfə olaraq Azərbaycanda neft emalı və neft məhsullarının alınması proqramı hazırlanmış və 70-ci illərdən etibarən həyata keçirilməyə başlanmışdır. [5, s. 3] Proqrama əsasən müasir texnika və texnologiyalara əsaslanan yeni zavodlar inşa edilirdi. İttifaqdaxili nüfuzundan istifadə edərək cənab Əliyev, yüksək məbləğə xarici dövlətlərdən alınan və yeni texnologiyalar əsasında işləyən neftayırma qurğularının Bakıda inşasına nail ola bilmişdi. Əlavə olaraq, 1978-ci ildə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda tikilməsi və Sovetlər İttifaqı tərəfindən zavodun inşasına 450 mln ABŞ dolları yatırılması məhz onun yürütdüyü neft strategiyasının ən parlaq nümunəsidir.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə gəlişi Azərbaycanın gələcək inkişaf strategiyasında olduğu kimi neft strategiyasında da taleyüklü dəyişikliklərin əsasını qoydu.

1994-cü il sentyabrın 20-də BP, ExxonMobil və Chevron kimi nüfuzlu beynəlxalq neft şirkətlərinin də daxil olduğu və 8 ölkənin 13 şirkətindən ibarət konsorsium ilə Azərbaycan hökuməti arasında "Əsrin müqaviləsi" adlandırılan saziş imzalandı. [4, s.375] Bu saziş müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının

miqdarına, həm də qoyulan investisiyaların həcminə görə dünyada bağlanan ən iri müqavilələrdən biri hesab olunur. Bu sazişin imzalanması müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının bir hissəsi olan və Heydər Əliyev tərəfindən işlənib hazırlanan neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Çıxışlarından birində Heydər Əliyev "Əsrin müqaviləsi"ni şərh edərkən demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Bu müqavilənin bağlanması ilə Xəzər dənizində ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlamışdır. Saziş konsorsiuma Xəzər dənizindəki üç əsas neft yatağında neftin kəşfiyyatı və çıxarılması hüququ verirdi. Konsorsium Azərbaycanda neft və qazın kəşfiyyatı və çıxarılmasına milyardlarla dollar sərmayə qoymuşdur. İlk böyük kəşf 1997-ci ildə "Azəri-Çıraq-Günəşli" yatağında edilib və o vaxtdan etibarən həmin yataq dünyanın ən böyük neft yataqlarından birinə çevrilib. Konsorsium həmçinin 1999-cu ildə əhəmiyyətli təbii qaz ehtiyatlarına malik "Şahdəniz" qaz yatağını kəşf edib. Hazırda icra olunan Cənub Qaz Dəhlizinin resurs mənbəyi "Şahdəniz" qaz yatağıdır. Dünyanın ən böyük qaz yataqlarından biri hesab olunan "Şahdəniz" yatağının ehtiyatları 1 trilyon kub metrdən çoxdur.

Heydər Əliyev çox yaxşı anlayırdı ki, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində uğur əldə etmək üçün infrastrukturun inkişafı çox vacibdir. O, Xəzər dənizindən hasil edilən neft və qazın dünya bazarına nəqli üçün boru kəmərlərinin və nəqliyyat şəbəkələrinin tikintisinə böyük sərmayə qoyulmasına şərait yaratmışdır. 1999-cu ildə Xəzər dənizini Qara dənizlə birləşdirən, ölkənin təbii resurs ehtiyatının ixracını təmin edən yeni Bakı-Supsa neft kəməri tikilmişdir.

2003-2005-ci illərdə Azərbaycanın neft yataqlarını Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri tikildi. Boru kəmərinin uzunluğu 1768 kilometr təşkil edir və sutkada 1,2 milyon barel neftötürmə qabiliyyətinə malikdir. Eyni zamanda, "Şahdəniz" yatağından təbii qazı Türkiyəyə nəql edən 980 kilometr uzunluğunda Bakı-Tbilisi-Ərzurum boru kəməri inşa edilmişdir.

Azərbaycanın neft sektorunun inkişafına daxili sərmayə ilə yanaşı xarici investisiyaların da qoyulmasının vacibliyini dərk edən Heydər Əliyev bu yöndə də öz fəaliyyətini davam etdirmişdir. O, beynəlxalq neft şirkətlərini ölkəyə sərmayə qoymağa fəal şəkildə həvəsləndirmiş və onlara əlverişli investisiya şəraiti yaratmışdır. "Əsrin müqaviləsi" Heydər Əliyevin xarici sərmayələri cəlb etmək səylərinin bariz nümunəsi idi. Müqavilə konsorsiuma əlverişli vergi və tənzimləmə şərtləri, habelə hasilatın pay bölgüsü sazişi təqdim etmişdi.

Heydər Əliyev həmçinin 1999-cu il dekabrın 29-da ölkənin neft gəlirlərini idarə etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında fərman imzalamışdır. Fondun yaradılmasında əsas məqsəd neftdən gələn gəlirlərin nəsillər arasında ədalətli bölgüsünü təmin etmək, cari sosial siyasəti dəstəkləmək, həmçinin ölkənin davamlı iqtisadi inkişafını təmin etməkdir.

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası hələ Azərbaycan Respublikası İttifaq daxilində olduğu dövrdən başlayaraq, müstəqillik dövrünə qədər uzanmışdır. Heydər Əliyevin həyata keçirdiyi neft strategiyası müstəqillik əldə etdikdən sonra milli iqtisadiyyatın dünya iqtisadiyyatına qovuşmasına, siyasi-iqtisadi böhranlardan çıxaraq dirçəlməsinə və Azərbaycan Respublikasının demokratik inkişaf etmiş bir ölkəyə çevrilməsinə xidmət etmişdir. Müasir dövrümüzdə cənab İlham Əliyev tərəfindən həyata keçirilən yeni neft strategiyasının özülləri də məhz Heydər Əliyev siyasətinin nəticəsində formalaşmışdır. Ümummilli liderin uzaqgörən siyasəti, formalaşdırdığı neft strategiyası onun əbədiyyətə qovuşduğu dövrdən illər sonra da öz aktuallığını qoruyub saxlamaqdadır.

## ƏDƏBİYYAT

1. Əliyev, N., Şahbazov, E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı. 1997. 17s.
2. Heydər Əliyevin Neft strategiyası Azərbaycanın müstəqilliyi və rifahı naminə. Bakı 2001.493 s.
3. Həsənov, R. Azərbaycan neft sənayesinin inkişaf tarixi, Tarix və onun problemləri, 2014 №3, 116-123

4. Hüseynova, İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, “Çaşıoğlu”, 2008, 672 s.
5. Qasımov, E. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. 2009. 125 s.
6. Şəkərəliyev, A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı. 2016. 415 s.
7. Şirinov, H. Xilaskar. Bakı. “Azərbaycan” nəşriyyatı. 2020, 568s.

***Айдын Эхтибар оглы Бахрамов***
***Азердайджанский Университет Кооперации***
***д.ф.э., Ст.преп. кафедры “Менеджмент и торговля”***
***ORCİD-ID: 0009-0008-1494-2134***
***E-mail: bahramovaydin@gmail.com***

## Феномен Гейдара Алиева в процессе реализации нефтяной стратегии Азербайджанской Республики

***Резюме***

Общенациональный лидер Гейдар Алиев, связавший свою судьбу с судьбой народа Азербайджана, всегда работавший на благо своего народа, Родины и нации, является великим гением, оставившим глубокий след в политической и экономической жизни современного мира. Гейдар Алиев, за годы правления 1993-2003гг. Азербайджанской Республикой восстановил независимость страны и определил нефтяную стратегию, которая стала основой коренной трансформации экономики Азербайджана. Стратегия включала разведку, добычу и экспорт нефтегазовых ресурсов Каспийского моря. В данной статье будут рассмотрены различные составляющие нефтяной стратегии общенационального лидера Гейдара Алирза оглы Алиева и их влияние на экономическое развитие Азербайджана.

***Ключевые слова: нефтяная стратегия, феномен Гейдара Алиева, история добычи нефти, нефтяной трубопровод БТД, Азербайджанский Государственный Нефтяной Фонд.***

***Aydin Ehtibar Bahramov***
***Azerbaijan University of Cooperation***
***PhD ec., Senior Lecturer Department of***
***“Management and Trade”***
***ORCİD-ID: 0009-0008-1494-2134***
***E-mail: bahramovaydin@gmail.com***

## Heydar Aliyev phenomenon in the process of realizing the oil strategy of the republic of Azerbaijan

***Summary***

National leader Heydar Aliyev, who tied his fate with the fate of the people of Azerbaijan, always worked for his people, homeland and nation, is a great genius who has left deep traces in the political and economic life of the modern world. Heydar Aliyev, who was the president of the Republic of Azerbaijan in 1993-2003, who regained his independence and walked confidently on this path, implemented a comprehensive oil strategy that transformed the economy of Azerbaijan during his presidential term. The strategy included exploration, production and export of oil and gas resources in the Caspian Sea. In this article, various components of the oil strategy of national leader Heydar Alirza Aliyev and their impact on the economic development of Azerbaijan will be examined.

***Key words: Oil strategy, Heydar Aliyev phenomenon, history of oil production, BTC oil pipeline, Azerbaijan State Oil Fund.***

UOT 338.436

***Arzu Nürəddin qızı RÜSTƏMOVA***
***i.f.d., Azərbaycan Kooperasiya Universiteti***
***"Kommersiya" kafedrası***

# HEYDƏR ƏLIYEV VƏ AZƏRBAYCANIN "BÖYÜK NEFT" ERASI

***Xülasə***

XX əsrdə və iki əsrin qovşağında Azərbaycanın iqtisadi-siyasi tarixinin ən mühüm səhifələrindən biri müstəqil Azərbaycanın neft strategiyası, onun reallaşması və həyata keçirilməsi ilə bağlıdır. Məqalədə 29 il ərzində "əsrin müqaviləsi" nin gerçəkləşməsi və bu fonda Azərbaycanın iqtisadi qüdrətinin artmasından bəhs edilir.

Azərbaycan dövlətinin müstəqillik tarixinin ən taleyüklü məsələsi, iqtisadi müstəqilliyinin təmin edilməsinin ən başlıca amili ölkənin zəngin təbii sərvətlərindən istifadə ilə bağlı müəyyən edilən neft strategiyasıdır. Bu strategiyanın ana xəttini "Əsrin müqaviləsi" təşkil edir.

***Açar sözlər: neft strategiyası, yeni infrastruktur, sərmayələrin yatırılması, sosial-iqtisadi şərait***

***

Şəxsiyyətin böyüklüyü onun tutduğu vəzifənin yüksəkliyi ilə deyil, gördüyü işlərin, vətən, xalq və dövlət qarşısında göstərdiyi xidmətlərin miqyası və faydalılığı ilə ölçülür. Bu mənada XX əsrin böyük tarixi şəxsiyyətlərdən biri olan Heydər Əliyevin dahi lider olmasını sübut edən təkcə bir nümunə tarixə "Əsrin müqaviləsi" adı ilə düşmüş sazişin imzalanması, Böyük İpək Yolunun bərpası üçün Bakıda möhtəşəm tarixi konfrasın keçirilməsi ilə ona xeyir-dua verilməsi, Bakı-Tbilisi-Ceyhan kimi qlobal siyasi və beynəlxalq əhəmiyyətli layihənin gerçəkləşdirilməsi onun nadir tarixi şəxsiyyət, XX əsrin ən böyük siyasət və dövlət xadimi olduğunu göstərir.

Dahi siyasətçi və dövlət xadimi Heydər Əliyev 1994-cü ilin əvvəllərində hazırlanmış və bu günə qədər uğurla həyata keçirilən neft strategiyasının qədim şöhrətini özünə qaytarmasında, müstəqil ölkəmizin dövlət müstəqilliyinin möhkəmləndirilməsində, beynəlxalq iqtisadi münasibətlərə respublikanın qovuşmasında, gələcək nəsillərin etibarlı rifah halının yaxşılaşmasında və çoxlu taleyüklü məsələlərdə əvəzsiz rolu olmuşdur.

Əsası Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən qoyulmuş və artıq Xəzər dənizinin əməkdaşlıq üçün bütün dünyaya açılması ilə nəticələnən neft siyasəti bu gün tam şəkildə öz bəhrəsini verməkdədir.

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev prezident səlahiyyətlərini icra etdiyi andan dünyanın aparıcı neft şirkətlərinin ölkəmizdə marağı xeyli artdı.

Təntənəli mərasim isə 1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında keçirilirdi. Milli neft strategiyasının təməl sütunu hesab edilən "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistan) 13 məşhur neft şirkəti (Amoco, BP, Mc Dermott, UNOCAL, ARDNŞ, LUKoil, Ştatoil, Exson, Türkiyə Petrolları, Penzoil, İtoctry, Ramco, Delta) təmsil edilmişdir.

"Əsrin müqaviləsi"nin və onunla əlaqədar zəruri hesab edilən sənədlərin imzalanması Azərbaycanın neft tarixində yeni bir mərhələnin əsasını qoydu. İmzalanan sənədlər içərisində hasilatın pay bölgüsü haqqında saziş böyük əhəmiyyət daşıyır.

Müqavilənin imzanlanmasını bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addım hesab etmək olar. Azərbaycan bu müqaviləni imzalamaqla xaricdən ölkəyə qoyulan investisiyaların çoxalması üçün böyük yol açır, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradır, Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyası həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdirir.

"Əsrin müqaviləsi" çərçivəsində neçə-neçə platformalar, neft kəmərləri, qaz kəmərləri tikilmiş, Azərbaycan neftinin və qazının Avropaya, Asiyaya və digər qitələrə çatdırılması təmin olunmuşdu. Güclü infrastruktur yaradılmış, neft sənayesinə müasir texnologiyalar, idarəetmə təcrübəsi gətirilmiş, respublikanın neft donanması, dəniz neft sənayesinin infrastrukturu yenidən qurulmuşdu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü ilin 20 sentyabrında neft müqavilələrinin bağlanmasına həsr edilmiş mərasimdə demişdir: Biz bu müqaviləni imzalamaqla Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdirdik ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

Biz bu müqaviləni imzalamaqla xarici investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştriak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə-ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik. [5.s-272;273]

Azərbaycan dövləti bütün imkanlardan istifadə etmək üçün düşünülmüş, müstəqil siyasət yeridərək, maraqlı tərəflərlə strateji əməkdaşlığı genişləndirərək onların həllinə nail olurdu.

Tarix göstərir ki, güclü neft ehtiyatları olan ölkələr həmişə təzyiqlərə məruz qalmış, mənafelərini qorumaq uğrunda inmkanları daxilində mübarizə aparmışlar. Lakin bu mübarizədə onlar heç də qalib gəlmirlər. Bu gün Azərbaycan müstəqil dövlət kimi öz sərvətlərinin sahibidir və həyata keçirdiyi neft strategiyasının ölkənin müstəqilliyinin möhkəmlənməsinə, sosial-iqtiadi düzəlişinə xidmət etmək üçün əlverişli imkanlar yaranmışdır.

1998-ci il fevralın 13-14 də Heydər Əliyev Türkiyədə işgüzar səfərdə oldu. O, Türkiyənin Nərgiz TV telekanalına verdiyi müsahibəsində demişdi: “Bakı-Ceyhan marşrutu ilə strateji neft kəmərinin çəkilməsi haqqında qərarı şəxsən mən qəbul etmişəm. Bizdən asılı olan nə vardısa, hamısını yerinə yetirmişik”.

1998-ci il oktyabrın 29-da isə Ankarada Türkiyə Böyük Millət Məclisinin binasında Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə əsas ixrac neft kəmərinin çəkilməsini dəstəkləyən “Ankara bəyannaməsi”nin imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olundu.

1999-cu il sentyabrın 20-də “Gülüstan” sarayında “Əsrin müqaviləsi”nin beşinci ildönümünə həsr edilmiş mərasim keçirildi. Tədbirdə çıxış edən Prezident Heydər Əliyev bildirdi ki, “Əsrin müqaviləsi” məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş bir tarixi hadisədir. Biz yalnız müstəqil dövlət olandan sonra dünyanın müxtəlif ölkələri, neft şirkətləri ilə sərbəst, heç kəsdən asılı olmayaraq danışıqlar aparmaq imkanı əldə etmişik və bu sahədə gördüyümüz işlərin ən görkəmlisi, ən böyüyü, ən mühüm tarixi əhəmiyyət kəsb edəni “Əsrin müqaviləsi”nin hazırlanıb imzalanması idi. Bu gün təntənəli mərasimdə artıq deyildi ki, bu müqavilənin hazırlanması ilə biz nə cür ağır şəraitdə məşğul olmuşuq, daxili və xarici qüvvələrin yaratdığı nə qədər çətinliklərlə rastlaşmışıq. Ancaq biz iradə və əzm göstərmişik, risk etmişik və “Əsrin müqaviləsi”ni nizamlamağa nail olmuşuq. [4.s 3;4]

Onu da heç vaxt unutmamalıyıq ki ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin təmin edilməsi, respublikamızda vətəndaşların rahat yaşaması üçün lazımi şərait yaradılması, xarici şirkətlər üçün əlverişli investisiya mühitinin formalaşması neft strategiyasının uğurla reallaşmasının əsasını təşkil edir. Bu o deməkdir ki, “Əsrin müqaviləsi”ndən sonra imzaladığımız müqavilələr daha da gözəl nəticələr verəcəkdir.

“Şahdəniz” yatağında aşkar olunan qaz ehtiyatları və əldə etdiyimiz gözəl nəticələr bunu aydın göstərir. Onu da qeyd edim ki, “Əsrin müqaviləsi” imzalandıqdan sonra Xəzər dənizində 22,6 milyon tondan artıq neft çıxarılmışdı ki, bunun da 3,8 milyon tonu Bakı-Novorossiysk, 18,6 milyon tonu isə Bakı-Supsa boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılmışdı. Bu gün də “Əsrin müqaviləsi”nin yeni mərhələləri, strateji hədəfləri davam etməkdədir.

1 iyun 2004-cü ildə Bakıda Heydər Əliyev adına İdman Konsert Kompleksində “Xəzər neft, qaz, neftayırma və neft kimyası-2004” XI beynəlxalq sərgi və konfransın təntənəli açılış mərasimi

olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə geniş nitq söyləmişdir: "Əgər Azərbaycanda ictimai-siyasi sabitlik, asayiş bərpa edilməsəydi, əlbəttə, xarici sərmayənin bu səviyyəyə gətirilməsi mümkün olmazdı. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, səyi nəticəsində Azərbaycan çox qısa müddət ərzində böyük addımlar atıbdır. Neft sektoru inkişaf edir, iqtisadiyyatımızın digər sektorları inkişafdadır. Bu onu göstərir ki, Azərbaycan düz yoldadır". [3. s 4]

Müasir Türkiyə Cümhuriyyəti Atatürkün, müasir İngiltərə Çörçilin, müasir Azərbaycan Heydər Əliyevin xarizmasının bəhrəsidir. Onların xarizmaları olmasaydı, dövlətləri yaşamazdı.

## ƏDƏBİYYAT


1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan xalqına müraciəti. "Azərbaycan" qəzeti 30 dekabr, 2001.
2. Heydər Əliyevin iqtisadi idareətmə məktəbi. II buraxılış, Bakı, 2003-cü il
3. Heydər Əliyevin neft strategiyası "Dirçəliş-XXI əsr" jurnalı № 67-68, səh. 3-4, 2003-cü il.
4. "İqtisadiyyat" qəzeti 19-25 sentyabr 2019-cu il
5. "Dirçəliş-XXI əsr" jurnalı № 73 səh. 272, 273. 2004



***Арзу Нураддин кызы Рустамова***
***д.ф.э.н Азербайджанский Университет Кооперации***
***кафедра "Коммерсия"***


## Гейдар Алиев и эпоха "Большой нефти" Азербайджана


***Резюме***

Одной из важнейших страниц экономической и политической истории Азербайджана XX века и на рубеже двух столетий является нефтяная стратегия независимого Азербайджана, связанная с ее реализацией и реализацией. В нем говорится о реализации "контракта века" за 29 лет и росте на этом фоне экономической мощи Азербайджана.

Самым судьбоносным вопросом в истории независимости Азербайджанского государства, важнейшим фактором обеспечения его экономической независимости является нефтяная стратегия, определяемая в связи с использованием богатых природных ресурсов страны. Основное направление этой стратегии – "Контракт века"



***Ключевые слова: нефтяная стратегия, новая инфраструктура, инвестиции, социально-экономические условия.***



***Arzu Nuraddin Rustamova***
***Phd in economics. Azerbaijan Cooperation University***


## *Heydar Aliyev and Azerbaijan's "Big oil" era*


***Summary***

One of the most important pages of the economic and political history of Azerbaijan in the 20th century and at the turn of two centuries is the oil strategy of independent Azerbaijan related to its realization and implementation. It talks about the realization of the "contract of the century" within 29 years and the growth of Azerbaijan's economic power against this background.

The most fateful issue in the history of the independence of the Azerbaijan state, the most important factor in ensuring its economic independence is the oil strategy determined in connection with the use of the country's rich natural resources. The main line of this strategy is the "Contract of the Century"



***Key words: oil strategy, new infrastructure, investments, socio-economic condition.***

UOT 330

***Telman Əlimusa oğlu NİFTALİYEV***
***sosiologiya üzrə fəlsəfə doktoru,***
***AKU-nun "Sosial elmlər" kafedrasının baş müəllimi***
***niftaliyev1961@gmail.com***

# MÜASİR TÜRK DÖVLƏTLƏRİNİN ƏMƏKDAŞLIĞINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SİYASİ ROLU

***Xülasə***

Tarixi təcrübə sübut edir ki, xalqın özünə lider seçdiyi tarixi şəxsiyyətlər dövlətin daxili və xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsində böyük məsuliyyət daşıyırlar. Ən mühüm qərarlar məhz onların son sözündən sonra qəbul olunur.

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət və siyasi xadim, Ulu öndər Heydər Əliyev belə bir tarixi şəxsiyyətdir. Azərbaycan xalqının 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etməsi türk dövlətləri ilə münasibətlərin inkişafında da yeni bir dövr açdı. Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri türk dövlətləri ilə münasibətlərin yeni təməl üzərində qurulması oldu.

Heydər Əliyevin yürütdüyü ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyət nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yaranmağa başladı.

***Açar sözlər: türkdilli cümhuriyyətlər, qlobal dünya, əməkdaşlıq, Türküstan respublikaları , TÜRKSOY, zirvə toplantıları.***

***

Türklərin tarixboyu dünya birliyi ilə fəal münasibətləri olmuşdur. Buna görə də yer üzünün bütün nöqtələrinə səpələnmiş bu əzəmətli xalqın nümayəndələri arasında böyük mütəfəkkirlərin, qüdrətli dövlət xadimlərinin yetişməsinə şərait yaranmışdır. Türk dünyasının fəxri olan Ulu öndər Heydər Əliyev də XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır.

Heydər Əliyevi başqa tarixi şəxsiyyətlərdən fərqləndirən başlıca xüsusiyyətlər onun qeyri-adi zəkaya, yüksək təşkilatçılıq bacarığına, hadisələri müşahidə və təhlil etmək sahəsində unikal qabiliyyətə malik olmasıdır. Heydər Əliyev dühasının şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır. [1, s.150-155.]

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 34 illik siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna əsasən nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb bütövlükdə Türk dünyasını, ümumən dünyanı əhatə edir. Təsadüfi deyildir ki, Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli liderdir.

Türk dünyasının birləşməsi zərurəti dünya sivilizasiyasına böyük töhfələr vermiş türkdilli cümhuriyyətləri də əhatə etmişdir. Yeni dövrdə yaranmış tarixi imkan nəticəsində türkdilli cümhuriyyətləri (TDC) son illərdə sürətlə inkişaf edərək, qlobal dünyada mühüm nüfuz sahibi olmuş, öz aralarında siyasi, iqtisadi, mədəni və elmi-texniki sahələrdə əlaqələri əhəmiyyətli dərəcədə genişləndirmişlər. TDC-lərin İşbirliyi Şurası, Parlament Assambleyası, TÜRKSOY və digər sağlam qurumlar yaradılmışdır. [7, s. 232-237.]

Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının I qurultayını təşkil etməklə təkcə Azərbaycan xalqının deyil, bütünlüklə türk dünyasının lideri kimi tarixi missiyanı həyata keçirmişdir.

Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir ki, buraya əsasən aşağıdakılar daxildir:

- Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından

istifadə etmək;

- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;
- türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s. [2, s. 192- 194.]

... Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin — Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir... Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;
2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışması;
3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük düha"lardan saymışdır.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir.

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır...

Türkiyə xüsusilə 20-ci illərdən başlayaraq yalnız türkiyəlilərin deyil, ümumən dünya türklərinin mənəvi vətəni olmuşdur. Sibir, Türküstan, Volqaboyu, Şərqi Avropa, Şimali Qafqaz, Azərbaycan türkləri həmin illərdən etibarən ümidlərini Türkiyəyə bağlamışdılar. Bunun bir səbəbi də o idi ki, cəza orqanlarının təqibindən qaçan yüzlərlə türk mücahidi XX əsrin 20, 30, 40-cı illərində məhz Türkiyədə məskunlaşmışdılar. Onların içərisində Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Zəki Vəlidi Toğan, Yusif Akçura oğlu, İsa Yusif Alptəkin, Əhməd Cəfəroğlu... kimi böyük simalar vardı ki, elmi, ictimai-siyasi, mədəni-ədəbi fəaliyyətlərinin sonuna qədər türkçülüyü türkiyəçilik səviyyəsinə enməyə qoymamış, böyük ideallar uğrunda gərgin mücadilələr vermişlər. Və beləliklə, Türkiyə faktiki olaraq bir neçə on il (əlli ildən artıq!) ümumən türklərin vətəni olmuşdur... [5, s. 94-95].

Heydər Əliyev, görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün türk dünyası görünürdü (və bu gün də görünməkdədir). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə... Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələr, dedi-qodulara da səbirlə münsiflik edir.

... Heydər Əliyevin tarixi Türküstan - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan... ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir.

1994-cü ilin martında Çinə rəsmi səfərdən Bakıya qayıdan Heydər Əliyev Almatıda dayanır və Nursultan Nazarbayevlə görüşür. Azərbaycan Prezidentinin həmin görüşdəki çıxışı olduqca maraqlı, türk dövlətləri başçılarının münasibətləri baxımından olduqca təsirlidir: "Əvvəlcə qeyd etmək istəyirəm ki, mən özüm Almatıda dayanmağı xüsusi olaraq planlaşdırdım ki, məhz Nursultan Abişeviçlə görüşə bilim". [3, s.159-163].

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin, görünür, ilk proqram əhəmiyyətli fikirləri türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmişdir... Azərbaycan Prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının - N.C.), müstəqil ölkələrimi-

zin (türk dövlətlərinin - N.C) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür". [5, s. 94-95].

Ümummilli liderimiz Heydər Əliyev türk dünyasının bu vacib problemlərinin həllinə xüsusi önəm verirdi. O, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra bu məsələlərlə ardıcıl şəkildə məşğul olmağa başladı. Ulu öndər İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına (5 iyul 1993-cü il) müraciətində demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafina töhfə verəcəkdir". [4, s. 94-95].

1994-cü il oktyabr ayının sonlarında Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının 3-cü ildönümü şənliklərində iştirak etmək üçün Aşqabada getdi. Onun çıxışlarından aydın oldu ki, Azərbaycan Prezidentinin məqsədi heç də yalnız şənliklərdə iştirak etmək deyildir. Aşqabadda jurnalistlərə verdiyi müsahibədə bu səfərin daha böyük bir məqsəd izlədiyi aydınlaşdı: "... Türkmənistan bizə bir qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən demək istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələri möhkəmləndirək.Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, Mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan qaldırılsın. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir". [5, s. 94-95].

Türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsinə xüsusi diqqət 2003-cü ildən sonra da göstərilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il sentyabrın 18-də Türkiyənin Antalya şəhərində türkdilli dövlətlərin və topluluqların 10- cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında etdiyi nitqində demişdir: "Biz türk dünyasını daha da mütəşəkkil şəkildə birləşdirməliyik və türk dünyasında gedən proseslərə biganə qalmamalıyıq. Daim bir-birimizə dəstək olmalıyıq, bir-birimizin problemlərinin həllində iştirak etməliyik" [4, s. 94-95].

Tarixi təcrübə sübut edir ki, xalqın özünə lider seçdiyi tarixi şəxsiyyətlər dövlətin daxili və xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsində böyük məsuliyyət daşıyırlar. Ən mühüm qərarlar məhz onların son sözündən sonra qəbul olunur. Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət və siyasi xadim, Ulu öndər Heydər Əliyev belə bir tarixi şəxsiyyətdir. [4, səh. 232-237.]. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi, əbədi, daimi və dönməzliyi, xarici siyasətinin formalaşdırılması da məhz onun dərin biliyi, böyük dövlətçilik təcrübəsi, bacarığı və fitri istedadı nəticəsində mümkün olmuşdur. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993- 2003-cü illərdə Azərbaycan Respublikasının türk dövlətləri ilə münasibətlərinin inkişaf etdirilməsində tarixi fəaliyyət göstərmişdir. Həmin fəaliyyətin tədqiq edilməsi elmi-nəzəri, tarixi və praktik siyasət baxımından aktual və mühümdür.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 7-ci cild, Azərnəşr, Bakı 1998
2. Azərbaycanın türkdilli dövlətlərlə münasibətlərinin inkişafında Heydər Əliyevin rolu (ümumi baxış) // Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı, 2005, № 5, s.192- 194.
3. Müasir dövrdə Azərbaycan – Türkiyə iqtisadi əməkdaşlıq münasibətlərinə dair // Gəncə Dövlət Universiteti. Elmi əsərlər məcmuəsi. 2005, № 1, Bakı, Nurlan, 2005, s. 159-163.
4. Müasir dövrdə Azərbaycan – Türkiyə ticarət, elmi-texniki, mədəni əməkdaşlıq münasibətlərinə dair // Gəncə Dövlət Universiteti. Elmi əsərlər məcmuəsi. Humanitar və təbiət elmləri seriyası, 2005, № 2, s. 94-95
5. Heydər Əliyev və türk dövlət başçılarının zirvə görüşü // Sumqayıt Dövlət Universiteti Elmi

Xəbərləri. Sosial və humanitar elmlər bölməsi. Sumqayıt, 2006, cild 2, № 2, s. 36-39.
6. Heydər Əliyev və türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları // Azərbaycan Dillər Universiteti Elmi Xəbərləri. Bakı, 2006, № 4, s. 249-251.
7. Heydər Əliyev və türkdilli dövlətlərin TÜRKSOY çərçivəsində əməkdaşlığı // Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı, 2006, № 2, s.232-237.

***Тельман Алимуса оглы Нифталиев***
***доктор философии по социологии,***
***старший преподаватель кафедры "Общественных наук" АКУ***
***электронная почта: niftaliyev1961@gmail.com***

## Политическая роль общенационального лидера Гейдара Алиева в сотрудничестве современных турецких государств

***Резюме***

Исторический опыт доказывает, что исторические деятели, избираемые народом в качестве своих руководителей, несут большую ответственность в определении и осуществлении внутренней и внешней политики государства. Самые важные решения принимаются после их последнего слова.

Такой исторической личностью является Гейдар Алиев, великий сын азербайджанского народа, выдающийся государственный и политический деятель, Великий лидер Гейдар Алиев. Восстановление азербайджанским народом государственной независимости 18 октября 1991 года открыло новую эру в развитии отношений с турецкими государствами. Одним из важных направлений внешней политики Азербайджанского государства было установление отношений с турецкими государствами на новой основе.

В результате последовательной и успешной международно-политической деятельности Гейдара Алиева с начала 1994 года в отношениях с турецкими государствами стал намечаться коренной поворот.

***Ключевые слова: тюркоязычные республики, глобальный мир, сотрудничество, туркестанские республики, ТЮРКСОЙ, встречи на высшем уровне.***

***Telman Alimusa Niftaliyev***
***PhD in Sociology***
***Senior Lecturer of the Department of Social Sciences, ACU***
***Email: niftaliyev1961@gmail.com***

## The political role of the national leader Heydar Aliyev in the cooperation of modern Turkish states

***Summary***

Historical experience proves that historical figures, elected by the people as their leaders, bear a great responsibility in determining and implementing the domestic and foreign policy of the state. The most important decisions are made after their last word.

Such a historical personality is Heydar Aliyev, the great son of the Azerbaijani people, an outstanding statesman and politician, the Great Leader Heydar Aliyev. The restoration of state independence by the Azerbaijani people on October 18, 1991 opened a new era in the development of relations with the Turkish states. One of the important directions of the foreign policy of the Azerbaijani state was the establishment of relations with the Turkish states on a new basis.

As a result of the consistent and successful international political activity of Heydar Aliyev, since the beginning of 1994, a radical turn began to take shape in relations with the Turkish states.

***Key words: Turkic-speaking republics, global peace, cooperation, Turkestan republics, TURKSOY, high-level meetings.***

UOT 911.3

***Köçəri Şamil oğlu ALLAHVERDİYEV***
***dosent, Azərbaycan Kooperasiya Universiteti***
***Allahverdiyev-1956@gmail.com***

# QARABAĞ VƏ ŞƏRGİ ZƏNGƏZURUN DAĞ-ÇƏMƏN LANDŞAFTLARININ İNKİŞAF SAHƏLƏRİNİN RELYEFİNİN MORFOMETRİK XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

Morfometrik xəritələrin təhlili göstərir ki, Qarabağ və Şərgi Zəngəzurun dağ-çəmən zonası morfometrik parametrlərin əhəmiyyətli diferensiasiyası ilə xarakterizə olunur və bu baxımdan landşaftlar ona bitişik ərazilərin landşaftlarından kəskin şəkildə fərqlənir. Hündür silsilələrin dağlararası çuxurlarla birləşməsi, süxurların tərkibində tez-tez dəyişikliklər, yağıntıların və temperatur amplitudalarının dəyişməsi relyefin parçalanmasının ümumən mürəkkəb mənzərəsini yaradır və relyefin parçalanmasına səbəb olan proseslərin intensivliyini müəyyən edir (çay dərələrinin, yarğanların, sıldırım yamacların, iri kənarların inkişafı və s.). Bütün tərtib edilmiş morfoloji xəritələrin və landşaft xəritələrinin müqayisəli təhlili onların bir-biri ilə əlaqəli olduğunu və ayrı-ayrı ərazilərin spesifik xüsusiyyətlərinə görə fərqləndiyini qeyd etməyə imkan verir. Bu da müəyyən edilmiş landşaftların bəzi xüsusiyyətlərini kəmiyyətcə xarakterizə etməyə imkan verir.

***Açar sözlər: dağ-çəmən landşaftları, morfometrik parametrlər, parçalanma dərinliyi, diferensiasiya, parçalanma sıxlığı və s.***

***

Tədqiqat sahəsindəki morfometrik əlamətlərə görə biz aşağıdakı zonaları müəyyən etmişik. Murovdağ, Şahdağ-Ketidağ, Mıxtökən, Qarabağ silsiləsi və Qarabağ vulkanik yüksəklikləri izoxətlərin sıxlığına, parçalanma göstəricilərinin dəyərinə və bu bölgənin landşaftlarının xarakterik xüsusiyyətlərinə görə seçilirlər.

**Murovdağ zonası.** Bu zona kontur izoxətlərin anomal yerləşməsi, parçalanma dərinliyi və sıxlığı, xüsusən də səthin orta yamacları baxımından kəskin şəkildə fərqlənir və əsasən çay vadisindən şimal-şərqdə yerləşən əraziləri əhatə edir.Murovdağ silsiləsinin cənub-şərq hissəsində relyef parçalanmasının sıxlığı 0,5-2,0 km/km$^2$ intervalında dəyişir, cənub-qərb istiqamətində artaraq Kiçik Hinaldağda 3,0 km/km 2-ə çatır. Tədqiqat sahəsində ən yüksək relyefin parçalanma sıxlığı Hilaldağla müşahidə olunmuşdur. Burada sıx yarğan şəbəkəsi inkişaf etmiş, intensiv eroziya-denudasiya prosesləri müşahidə olunur. Dərələrin uzunluğu orta hesabla 1-2 km, dərinliyi 100-150 m, eni 40-60 m-dir. Murovdağ silsiləsinin cənub yamacının mərkəzi hissəsində (Toraqayçay, Qanlıgöl və Gamış zirvəsi arasında) parçalanma sıxlığı 0,5-2,5 km/km2 arasında dəyişir. Burada relyefin nisbətən aşağı sıldırım olması ilə əlaqədar olaraq subalp və alp landşaftlarının ərazilərinin suayrıcına doğru genişlənməsi müşahidə olunur. Tərtərçay vadisində relyef parçalanmasının sıxlığı 0,5 km/km$^2$-ə qədər azalsa da, üstünlük təşkil edən qiymət 1,0 km/km$^2$-dir. Ərazinin bəzi yamaclarının vahid şəkildə kəsilməsi səbəbindən landşaftlar torpaq və bitki örtüyü olmayan açıq yamacların hüdudlarına sıxışdırılaraq kəsilmir [1, s.18].

Murovdağ silsiləsinin cənub-şərq hissəsində çay dərələri boyunca relyefin parçalanma dərinliyi şərq yamaclarında 500-600 m, mərkəzi hissələrdə 1000-1100 m-dir (Susuzluq və Tekeqayası dağlıq rayonunda). Gamış zirvəsinin cənub və cənub-şərq yamaclarında (3724 m) alp landşaftında relyef kəsiklərinin dərinliyi 900-1000 m, cənub yamacının suayrıcı hissələrində isə əksər hallarda kəsik 500- 600 m-dir.

Murovdağ silsiləsinin cənub yamacında yarılma dərinliyinin ən böyük maksimal qiyməti Meydançay-Levçay çaylarının aralığında 1000-1200 m arasında müşahidə olunur. Bu intensiv parçalanmış bölgə subalp və alp landşaftlarının məkan düzülüşü ilə seçilir. Tekeqayası-Kiçik Hinal zirvəsi xəttinin cənub-qərbində parçalanma dərinliyi 400-500 m-ə qədər azalır və bu şəraitdə yuxarıdan aşağıya doğru subnival-qayalı, alp və subalp landşaftları inkişaf edir ki, bunlardan sonuncusu yamac boyu torpaqların və bitki örtüyünün ən yaxşı inkişafi ilə xarakterizə olunur. Murovdağ zonası, xüsusən də bu silsilənin cənub yamacı ümumiyyətlə orta səth yamacının nisbətən yüksək

qiymətləri ilə xarakterizə olunur. Murovdağ silsiləsinin cənub yamacında dağ-çəmən zonasının demək olar ki, 90-95%-nin orta səthi mailliyi 25-45° təşkil edir ki, bu da sürüşmə və s. kimi təbii dağıdıcı proseslərin inkişafı üçün əlverişli şərait yaradır. Cənub-şərqə doğru irəliləyişlə bu göstərici əhəmiyyətli dərəcədə azalır və Qarağölün yaxınlığında 25-30° -dən çox deyil, yəni, burada landşaftlar nisbətən "sakit" inkişaf və yeni formalaşma vəziyyəti ilə xarakterizə olunur.

**Şahdağ-Ketidağ zonası.** Bu zona eyniadlı dağ silsilələrinin şərq hissəsini əhatə edir (Azərbaycan Respublikası daxilində). Fikrimcə, morfometrik əlamətlər Murovdağ silsiləsi zonasından 0,5-2,0 km/km$^2$-ə çatan daha çox relyef parçalanma sıxlığı ilə fərqlənir. Burada gənc, hələ tam formalaşmamış çay vadiləri və sıx yarğan şəbəkəsi geniş şəkildə inkişaf etmişdir. Relyefin şərqə ümumi enişi ilə əlaqədar olaraq çay şəbəkəsi şərq istiqamətinə malikdir. Quru dərələrin uzunluğu 1- 2 km, eni 30-50 m, dərinliyi 100-150 m-dir.

Maksimum parçalanma dərinliyi (900 m) Ketidağın cənub hissəsində, minimumu isə (300 m) Kəlbəcər hövzəsinin Qarabağ vulkanik yüksəklikləri daxilində Tərtərçay vadisi ərazisində müşahidə olunur. Ketidağdan şərq və cənub-şərqdə səthin meyilliyi bəzi yerlərdə 40-45°-yə çatır. Zod aşırımına doğru şərq və cənub-şərqdə yamaclar 25-30°-dək azalır, burada landşaftlar daha sabit, orta dinamikdir, burada torpaq və bitki örtüyü nisbətən yaxşı inkişaf etmişdir. Səthin minimum meyilliyi (20°) Şahdağ silsiləsinin şərq kənarlarında yerləşən Zar kəndində müəyyən edilmişdir. Zeylik çayının Tərtər çayına qovuşduğu yerdə, yamacda 2-2,5 km məsafədə iri sıldırım tektonik-qravitasiya çıxıntısı əmələ gəlir ki, burada yamac səthinin meyilliyi 45°-dən çox olur, nəticədə yalnız qayalıq çıxıntıların kompleksləri müşahidə olunur [2, s. 35].

**Mıxtökən silsiləsi zonası.** Mıxtökən silsiləsinin hündür dağlarının relyefinin səthi parçalanmaları 0,5-3,5 km/km$^2$ arasında dəyişir. Ən yüksək parçalanma sıxlığı (3,5 km/km$^2$) Kiçik istisu kəndindən 1-1,5 km aşağıda Tərtərçay vadisinin yamacı üçün xarakterikdir. Relyefin parçalanmasında yarğanların və çay dərələrinin intensiv inkişafına şərait yaradan litoloji komplekslərin tez-tez dəyişməsi böyük rol oynayır. Belə ki, Konqurdağ zirvəsi yaxınlığında relyef parçalanma sıxlığı 1,0 km/km$^2$, o zaman cənuba doğru 1-2 km, Ortaqaraçanlı yaxınlığında bu göstərici 2,5 km/km$^2$-ə çatır. Qızılqaya və Dəlidağın şimal hissələri eyni bölmə ilə xarakterizə edilir, burada bölmənin sıxlığı 2,5 km/km$^2$ təşkil edir. Şimal-şərqə doğru uzanan dərələrin uzunluğu 1,3-2 km, eni 10-30 m, dərinliyi 5-25 m, yamaclarda ibtidai dağ-çəmən torpaqları və 1-3 sm hündürlüyündə bitki örtüyü inkişaf etmişdir. Bəzi ərazilərdə relyefin yarılma dərinliyinin qiyməti 300-1000 m arasında dəyişirsə, Tutqunçayın sağ sahilində 300-400 m, Xaçınçay çayının qollarının sol sahillərində isə 300-400 m-ə çatır. Relyefin ən dərin yarığı 1100 m-dir.Relyef parçalanma dərinliklərinin böyük olmasının səbəbi yerli eroziya bazisinin (Tutqunçayın) aşağı səviyyədə olmasıdır. Relyef meyilliyi hər iki istiqamətdə azalır: mərkəzi suayrıcı hissəsindən. Dəlidağın qərb hissəsində səthin mailliyi 35° və daha çox, şərqdə -35-40°, cənub yamaclarında 20-25°-dir. Xarakterik subnival-qayalı landşaft kompleksləri ilə Dəlidağ massivinin əsas suayrıcı boyunca bir neçə km2 ərazini əhatə edən dağlıq maili düzənlik uzanır, burada səthin mailliyi 10-15°, sıldırım yamaclar isə subnival-qayalı komplekslərlə təmsil olunur [4].

**Qarabağ vulkanik yüksəkliyi.** Morfometrik xüsusiyyətlərinə görə o, Qarabağ, Murovdağ, Şahdağ-Ketidağ və Mıxtökən silsilələrindən daha kiçik səth parçalanması (0,5-1,5 km/km$^2$) ilə kəskin şəkildə fərqlənir ki, bu da ərazini təşkil edən xarakterik qaya kompleksləri ilə əlaqələndirilir. Onlar yüksək dağlıq ərazilərdə çox yüksək pürüzlülük əmsalı ilə davamlı lava örtüyü əmələ gətirir, bunun nəticəsində atmosfer yağıntıları güclü səth axını və xətti eroziya relyef formaları yaratmağa vaxt tapmadan yerin dərinliklərinə sürətlə süzülür. Buna görə də Axar-Bazarın cənub yamaclarında, Maraldağda, Sarıgüney dağlarının bölgəsi orta parçalanma sıxlığı (2,5 km/km$^2$) ilə seçilir.

Böyük və Kiçik Alağöllər yaxınlığında yarılma dərinliyi 100 m, Dikpilləkən dağının cənub hissəsində isə 200 m.Üçtəpədə və Gəlinqaya dağının cənub yamaclarında parçalanma dərinliyi 100-300 m, İşıxlı-Qızılboğaz vulkan massivlərində - 300-600 m-dir. İzoxətlərin yerləşdirilməsinin belə nisbətən "sakit" sxemi həm də onu təşkil edən süxur komplekslərinin xüsusiyyətlərinin eroziya əsaslarının yerləşdiyi yerlərə nisbəti ilə bağlıdır. (Süleymanov, 2005:102).

Parçalanma dərinliyində anomal artım sahələri vulkan püskürmələrinin və ya bir qaya kompleksindən digərinə keçidlərin mərkəzlərinə uyğun gəlir. Buna görə də bu ərazidə spesifik alp land-

şaftları formalaşmışdır.

Relyef səthinin orta yamacları öz əhəmiyyətsiz göstəriciləri ilə xarakterizə olunur və iz xətlərinin sıxlığına görə fərqlənmir. Səthi anormal yamacların vulkanlarına uyğundur. Səthin yamacında Taxta-Yüzbulaq, Sarıyer, Tamaşalın yaylaq və Alağöllər ən aşağı qiymətlərlə səciyyələnir və 1-5°, şərqdə isə Sultanheydər aşırımından başlayaraq səth meyilliyinin orta göstəricisi yüksələrək 25-30°-ə çatır. Tərtərçayın sıldırım qayalı yamaclarında intensiv aşınma prosesləri ilə əlaqədar çox vaxt torpaq və bitki örtüyü olmayan, süxur komplekslərinin əmələ gəldiyi səpinti konusları əmələ gəlir.

**Qarabağ silsiləsi zonası.** Qarabağ silsiləsi zonası daxilində morfometrik göstəricilərin daxili diferensiallaşmasına, habelə landşaft xüsusiyyətlərinə görə özünəməxsus landşaft morfometrik xüsusiyyətlərinə malik olan 5 bölgəni ayırd etmək olar: Alaqaya, Qırxqız, Ziyarət, Kirs və Sarıbaba və s. Alaqaya dağının dağ-çəmən landşaftının şimal hissəsində parçalanma sıxlığı 1,0-2,5 km/km$^2$, cənub hissəsində 1,0-2,0 km/km$^2$ təşkil edir. Bu dağ zirvəsinin şərqində səthin parçalanmasının sıxlığı azalır. Dağların yamaclarından asılı olaraq yağıntıların miqdarının diferensiallaşdırılması, ərazini təşkil edən süxurların tərkibinin və onların süzülmə qabiliyyətinin ekspozisiyası ərazinin səthinin bölünməsində mühüm rol oynayır. Alaqayanın şimal və cənub yamaclarında çay şəbəkəsi kifayət qədər yaxşı inkişaf etmişdir. Şəlvəçay və Məməliçay dərələrinin dərinliyi 300 m-dən 800-900 m-ə qədər dəyişir [5, s. 89].

Qırxqız dağı ərazisində dağ-çəmən landşaftında dərə və dərə şəbəkəsinin sıxlığı 2,0-2,5 km/km$^2$ arasında dəyişir. Çay şəbəkəsinin sıxlığı 0,5-2,0 km/km$^2$, dərənin eni isə 150-200 m-ə çatır. Qırxqız dağının ərazisində, şimal-şərqə axın istiqaməti olan yarğanların dərinliyi və cənub-qərb, onların yuxarı axarlarında 15-20 m-ə çatır. Bu yarğanların əsas çay vadilərinə qədər uzunluğu 0,5-0,8-dən 1,5-2 km-ə qədərdir.

Qarabağ silsiləsinin cənub-şərq ucunda Ziyarət dağının meşəsonrası subalp landşaft komplekslərində kəsilmə sıxlığı 1,5-2,5 km/km$^2$ təşkil edir ki, burada quru dərələr və yarğanlar müasir relyefin parçalanmasında əsas rol oynayır və bunlar iqlim quraqlaşması ilə bağlıdır. Dərələrin və quru dərələrin uzunluğu 0,7-2,5-3 km arasında dəyişir. Ziyarətin mərkəzi hissəsində relyefin kəsilməsinin dərinliyi 700 m, şimal hissəsində 500-600 m, cənub və şərq hissələrində 600-700 m-dir. Yuxarı meşə sərhədinə yaxın 1800-2000 m mütləq hündürlükdə relyef səthinin mailliyi nəzərəçarpacaq dərəcədə artır ki, bu da Ziyarət dağının mərkəzi hissəsində 30-35°, şimal-şərq istiqamətində 20-25°-ə qədər azalır. Ziyarət dağının mərkəzi, cənub və şərq hissələrində subalp çəmənlikləri, şimal hissəsində meşədən sonrakı subalp landşaftları geniş yayılmışdır.

Morfometrik göstəricilərin təhlili göstərir ki, maksimum dəyərlər parçalanma sıxlığı (2,5 km/km$^2$) Kiçik İstisudan 1-1,5 km məsafədə yerləşən ərazilərlə məhdudlaşır. Bölünməmiş ərazilər (0 km/km$^2$) aşağıdakılar üçün xarakterikdir: Qarabağ vulkanik yüksəkliklərinin ayrı-ayrı hissələri (Alağöllər gölü, Aylaqlı və s.) relyefin konservasiyası ilə əlaqədardır; Dördüncü dövrün vulkan örtüyü və axınları, böyük qırılmalar və sıx filtrasiya qabiliyyəti ilə xarakterizə olunur, səth axını tez bir zamanda yeraltına keçir.

Parçalanma sıxlığına görə bütün tədqiqat sahəsini üç kateqoriyaya bölmək olar: parçalanma sıxlığı 0,5-1 km/km$^2$,1,0-2 km/km$^2$ və 2,5-3,0 km/km$^2$ olanlar. Birinci kateqoriyaya aid ərazilər (0,5- 1,0 km/km$^2$) Qarabağ vulkanik yüksəkliklərində geniş yayılmışdır ki, onlar əsasən vulkanik relyefin gəncliyi ilə əlaqədardır, dördüncü dövr lava axınlarından və qabağını qoruyub saxlayan örtüklərdən ibarətdir. İkinci kateqoriyalı torpaq sahələri Şahdağ, Qarabağ silsiləsi və Mıxtökən dağları daxilində verilir. Burada relyefin parçalanması əsasən ərazinin tektonik qalxması və eroziya-denudasiya proseslərinin yaşı ilə əlaqədardır. Üçüncü kateqoriya ərazilər Mıxtökən, Murovdağ dağlarında və Qarabağ silsiləsinin şərq hissəsində relyefin intensiv şəkildə dərə və yarğanlarla kəsişdiyi ərazilərdə yerləşir. Burada torpaq və bitki örtüyü zəif inkişaf etmiş, çöküntü, səpilmə və sürüşmə sahələri geniş yayılmışdır.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, yüksək dağlıq landşaftların diferensiallaşdırılmasına, əsasən, yamacların ekspozisiyası, onların sıldırımlığı, müasir relyefin parçalanma dərinliyi və sıxlığı təsir göstərir. Dağ-çəmən landşaftının diferensiallaşdırılması ilk növbədə ərazinin morfometrik xüsusiyyətləri ilə bağlıdır. Ona görə də təbiidir ki, relyefin landşaftın diferensiallaşmasına təsiri

aşkar edilərkən yamacların ekspozisiya ilə landşaftın morfometrik xüsusiyyətləri arasında əlaqəyə xüsusi diqqət yetirilmişdir.

Çöl tədqiqatının nəticələri və təhlili göstərir ki, sıldırım 25-35°, dərinliyi 700-800 m, parçalanma səthlərinin sıxlığı 3,0 olan ərazilərdə -3,5 km/km$^2$ torpaq örtüyü adətən zəif inkişaf etmiş və qeyri-sabitdir, bu da ara məsamələrin intensiv aşkarlanmasına gətirib çıxarır; Şimal və qərb yamacları, hündürlükləri ilə fərqlənir; rütubət, 1 m$^2$-ə 21 növə qədər sıx və zəngin bitki örtüyü ilə xarakterizə olunur. Cənub və şərq yamaclarında torpaq-bitki örtüyü az inkişaf edib, burada 1 m$^2$-də 16 növ bitki örtüyü var və s.

## ƏDƏBİYYAT


1. К.Ш.Аллахвердиев. Качественная оценка горно-лугового ландшафта юго-восточной части Малого Кавказа с целью его рационального использования. Баку-2022. 189 с.
2. Кулиев Р.Я. Геоморфология Карабахского вулканического нагорья. Дис. На соиск. уч. степ. геогр.наук/ фонд ИГ ФН Азерб.ССР. 1965. с.205.
3. Кулиев Р.Я. Карабахское нагорье./в кн.: Региональные нагорья. Автореф. Канд. Дисс. Баку, фонд 1966. 22 с.
4. Süleymanov. Azərbaycanın təbii və antropogen landşatlarının coğrafi qanunauyğunluqları. Bakı-2005. 246 s.
5. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı-1998.201 s.



***Кочари Шамиль оглы Аллахвердиев***
***Кандидат географических наук, доцент***
***Азербайджанский Университет Кооперации***


## Морфометрические особенности сфер развития рельефа Карабахского и восточно - зангезурского горно-луговых ландшафтов


***Резюме***

На основе анализа морфометрических карт было установлено, что морфометрические параметры Карабахской и Восточно-Зангезурской горно-луговых зон характеризуются значительной дифференциацией и с этой точки зрения эти ландшафты значительно отличаются от расположенных рядом ландшафтов. Совокупность высоких хребтов с межгорными впадинами, частые изменения внутри почвенных пород, изменение температурных амплитуд осадков образуют сложную картину разложения рельефа и определяют интенсивность процессов, способствующих разложению (развитие речных впадин, обрывов, крутых склонов и т.д.). Сравнительный анализ всех составленных морфологических и ландшафтных карт дает возможность указывать на взаимосвязь и отличия между ними по специфическим особенностям различных территорий. А это дает возможность количественно характеризовать некоторые особенности установленных ландшафтов.



***Ключевые слова: горно-луговой ландшафт, морфометрические параметры, глубина расчленения, дифференциация, плотность расчленения и т. д.***



***Kochari Shamil Allahverdiev***
***Candidate of geographical sciences,***
***associate professor Azerbaijan University of Cooperation***


## Morphometric features of the spheres of development of the relief of the Karabakh and East - Zangesur mountain and round landscapes


***Summary***

Based on the analysis of morphometric maps, it was found that the morphometric parameters of the Karabakh and East-Zangesur mining zones are characterized by significant differentiation

and ffom this point of view these landscapes are significantly different from the landscapes located a number of landscapes. The totality of high ridges with intermountains, frequent changes inside soil rocks, a change in temperatura amplitudes of precipitation form a complex pictura of the decomposition of the relief and determine the intensity of processes that contribute to decomposition (the development of river cavities, cliffs, steep slopes, etc.). A comparative analysis of all compiled morphological and landscape maps makes it possible to indicate the relationship and differences between them according to the specific characteristics of various territories. And this makes it possible to quantify some features of the established landscapes.

***Key words: mountain-meadow landscape, morphometric parameters, depth of dissection, differentiation, density of dissection, etc.***

**UOT: 631.145:004**

***Gülsüm Şamil qızı BƏDİRZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi,***
***iqtisad üzrə fəlsəfə doktoru***
***E-mail: gulya_xaliqova@mail.ru***

## TÜRK DÖVLƏTLƏRİNİN İQTİSADİ QÜDRƏTİNİN ARTMASINDA HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ TARİXİ ROLU

***Xülasə***

Məqalədə Türk dövlətlərinin iqtisadi qüdrətinin artmasında Heydər Əliyevin neft strategiyasının tarixi rolu araşdırılmış və qiymətləndirilmişdir. Neft strategiyasının reallaşdırılması nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin bütün istiqamətlərdə inkişaf proseslərinin genişləndirilməsi reallıqları baxılmışdır.

***Açar sözlər: Heydər Əliyev, Türk dövlətləri, Azərbaycan, Türkiyə, neft strategiyası, neft strategiyasının tarixi rolu.***

***

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra milli sərvətlərindən, ilk növbədə karbohidrogen resurslarından səmərəli istifadə edilməsini ən mühüm prioritet məsələlərdən biri kimi ortaya qoymuşdur. Belə ki, uzun illər ərzində Azərbaycanda neft sənayesinin inkişafı kölgədə qalmış və xüsusilə yenidənqurma dövründə, keçmiş SSRİ-nin dağılması ərəfəsində və müstəqilliyin ilk illərində bu sahəyə demək olar ki, kapital qoyuluşu ən minimal səviyyəyə düşmüşdür. Neft hasilatı xeyli azalmış, qaz hasilatı minimum həddə düşmüş və bununla bağlı hətta Azərbaycanın özündə yanacaq təminatı təhlükə altında idi.

Buna görə neft sənayesinin dirçəldilməsi, yenidən qurulması, yüksək texnologiyaların gətirilməsi və bununla bağlı tarixi işlərin görülməsi lazım gəlir [4, s. 84]. Lakin müstəqilliyin ilk illərində dövlət postlarında təcrübəsiz kadrların olması və dövlət rəhbərliyinin bu sahədə təcrübəsinin olmaması müəyyən mənada bu prosesləri ləngidir və yalnız 1993-cü ilin ortalarından sonra ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra iqtisadiyyatın bütün sahələrində və siyasi sahədə sabitlik yaratmaqla dünya investorlarının diqqətinin Bakıya yönəldilməsi mümkün olmuşdur. Heydər Əliyev ölkənin neft sənayesini çox yaxşı bilirdi və uzun illər bu problemlərlə məşğul olmuşdur.

Belə ki, Ulu Öndər Heydər Əliyev 1970-80-ci illərdə dəfələrlə neft buruqlarında olmuş, hər bir neft quyusunun imkanlarını, neft ehtiyatlarının öyrənilməsi və kəşfi istiqamətində genişmiqyaslı işlərin görülməsini diqqətlə izləmişdir, lazımi tapşırıqlar vermişdir. Ona görə də neft sənayesinin gücünü və ehtiyatlarını yaxşı bilirdi. Həm də Heydər Əliyev öz dahi zəkası ilə dərk edirdi ki, məhz neft sənayesinin bərpa edilməsi, ölkənin yeni neft strategiyasının işlənilməsi Azərbaycanın iqtisadi qüdrətinin, gücünün artırılmasını təmin edə bilər. Eyni zamanda, regionda Azərbaycanın rolunu artırmaqla Türkiyə ilə daha sıx əlaqələrin qurulmasına, Türk dövlətləri ilə qarşılıqlı inteqrasiyanın gücləndirilməsinə əlavə resursların formalaşması mümkün olar.

Heydər Əliyev gözəl anlayırdı ki, Azərbaycan özünün milli sərvətləri ilə dünya bazarlarına çıxdıqca həm nüfuzu, həm beynəlxalq rəqabət qabiliyyəti artacaq. Ölkəmizə valyuta vəsaitlərinin gəlməsi təmin olunacaq, makroiqtisadi və makromaliyyə sabitliyinin gücləndirilməsi üçün ciddi əsaslar yaranacaqdır. Bütün bunları həm yaxşı bilən, həm də uzunmüddətli perspektivi görmək qabiliyyətinə malik olan Ümummilli liderimizin səyləri nəticəsində 1994-cü ilin sentyabrın 20-də Gülüstan sarayında çox möhtəşəm bir şəraitdə regionun və dünyanın iri dövlətlərinin – ABŞ, Rusiya, Türkiyə, Böyük Britaniyanın rəsmiləri və BP başda olmaqla dünyanın bir çox transmilli şirkətlərinin iştirakı ilə "Əsrin kontraktı" imzalandı [2, s.16]. Məhz "Əsrin kontraktı"nın imzalanması nəticəsində neft hasilatı üzrə bir çox müqavilələrin bağlanması, neft strategiyasının işlənilməsi üçün konseptual əsasların formalaşdırılması və hədəflərin müəyyənləşdirilməsi mümkün olmuşdur.

Həmin dövrdən başlayaraq, Azərbaycan iqtisadiyyatının digər sahələrində sabitliyin təmin edilməsi və bununla bərabər atəşkəsin əldə olunması Heydər Əliyev tərəfindən tarixi hədəflərin reallaşdırılması, yaxın və uzaq perspektivdə ölkədə sosial-iqtisadi inkişafın yeni mərhələyə qaldırılmasına imkan verdi. İqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, dövlət strukturları təkmilləşdirildi. Müstəqil dövlət üçün lazım olan mərkəzi strukturlar yaradıldı, nazirliklər, komitələr, agentliklər formalaşdırıldı, dövlət intizamı və xüsusilə maliyyə intizamı gücləndirildi. Dövlətə məxsus olan atributların gücləndirilməsi və inkişaf etdirilməsi təmin olundu.

Mükəmməl və çoxşaxəli iqtisadi diplomatiya ortaya qoyuldu və region ölkələri, dünyanın digər ölkələri ilə iqtisadi əməkdaşlıq imkanları nəzərdən keçirildi. Eyni zamanda, neft sənayesinin inkişaf etməsi və iqtisadiyyatımızın lokomotivinə çevrilməsi nəticəsində qısa müddət ərzində iqtisadiyyatın bərpası və inkişaf imkanları araşdırılaraq mövcud potensialdan səmərəli istifadə edilməsi istiqamətlərində genişmiqyaslı işlər başlanıldı. Ağır sənaye sahələrinin bərpa edilməsi, iri zavodların dayanmış istehsal güclərinin nisbətən reabilitasiya olunması, yeni müasir texnologiyalar əsaslı müəssisələrin istismara verilməsi təmin edildi.

Neft strategiyasının reallaşdırılması nəticəsində Azərbaycan iqtisadiyyatının yeni inkişaf resursları formalaşdırıldı və nəticə etibarı ilə iqtisadiyyatın resurs potensialından səmərəli istifadə olunmasına əlavə imkanlar yaratdı. Neft strategiyası həm də Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı və Heydər Əliyev dünyanın aparıcı ölkələrinin rəhbərləri, liderləri ilə görüşərək Azərbaycan həqiqətlərini, Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda mübarizəsinin ədalətli və haqlı olmasını bütün dünyaya ən böyük tribunalardan çatdıra bildi.

Heydər Əliyev yorulmadan dünyanın müxtəlif ölkələrində diqqəti Azərbaycana yönəldə bilmiş və ölkəyə xarici investisiyaların gəlməsinə nail olmuşdur. Azərbaycan iqtisadiyyatının investisiya cəlbediciliyinin artırılması, neft sənayesinin inkişaf etməsi regionda enerji və yeni nəqliyyat layihələrinin, investisiya-innovasiya layihələrinin reallaşdırılmasına gətirib çıxarmışdır [3, s.305]. Bütün bunlar, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələrin əsası məhz Heydər Əliyevin hakimiyyəti dövründə yaradılmışdır və Heydər Əliyev bu layihələrin reallaşdırılması üçün əlindən gələni etmişdir, bununla da həmin layihələrin əsaslandırılmasında və reallaşdırılmasında onun tarixi xidmətləri danılmazdır. Bu layihələrin reallaşdırılması, ilk növbədə ölkəmizlə yanaşı, Türkiyənin iqtisadi gücünün artmasında və iqtisadi qüdrətinin güclənməsində, Azərbaycanla Türkiyə arasında əlaqələrin genişlənməsində və ümumən Türkdilli dövlətlərin inteqrasiyasında mühüm rol oynamışdır.

Məhz bu qəbildən olan qlobal layihələrin Türkiyə ərazisindən keçməsi, Azərbaycanın Türkiyə ilə birlikdə hərəkət etməsi, maliyyə problemlərini həll etməsi, təzyiqlərin aradan qaldırılması - bütün bunlar öz növbəsində Azərbaycanla Türkiyə arasında əlaqələri ən yüksək müttəfiqlik səviyyəsinə gətirib çıxarmağa imkan vermişdir. Türkiyə ilə qardaş ölkə olan Azərbaycan arasında bütün əlaqələr strateji səviyyəyə qədər yüksəlmiş və Azərbaycanın neftqaz resurslarının həm Türkiyənin tələbatının ödənilməsi, həm də Türkiyə vasitəsilə Avropaya çıxarılması üçün çox böyük həcmdə infrastruktur yaradılmışdır.

Bunlarla bərabər, türkdilli dövlətlərin Şurasının yaradılmasında Heydər Əliyev öz nüfuzundan istifadə edərək, o dövrdə Türkiyə dövlətinin rəhbərliyi ilə, xüsusilə Süleyman Dəmirəllə olan çox sıx dostluğu və əlaqələrindən istifadə edərək, Türkiyə Azərbaycan arasında əlaqələrin gücləndiril-

məsi ilə bərabər, həm də türkdilli dövlətlərin şurasının yaradılmasına nail olmuş, bir sıra zirvə görüşləri keçirilmiş və türkdilli dövlətlərin inteqrasiyası istiqamətində önəmli addımlar atılmış, bu dövlətlər arasında müxtəlif komissiyalar, işçi qrupları formalaşdırılmışdır.

Məhz bütün bunların nəticəsində sonrakı dövrlərdə türkdilli dövlətlərin təşkilatlanması və onların iqtisadi qüdrətinin artması mümkün olmuşdur. Hesab edirik ki, bütün bunların əsasında neft və qaz resurslarının, eyni zamanda böyük ölçüdə Heydər Əliyevin zəkasından formalaşan neft strategiyasının tarixi rolu olmuşdur. Təsadüfi deyildir ki, son illərdə Azərbaycanın beynəlxalq səviyyədə Türkiyə ilə birgə həyata keçirdiyi layihələrin və digər türkdilli dövlətlərin, məsələn Qazaxıstanın bu layihələrdə iştirak etməsi və digər türkdilli dövlətlərin həmin layihələrə ciddi maraq göstərməsini xüsusilə qeyd edə bilərik.

Son illərdə Azərbaycanın dövlət başçısının dəfələrlə bu ölkələrin başçıları ilə görüşməsi, türkdilli dövlətlərin artıq təşkilatının yaradılması və yeni hədəflərin ortaya qoyulması, ikitərəfli görüşlərin artması, yaxın perspektivdə Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Dəhlizinin potensialından daha səmərəli istifadə olunması məsələlərinin geniş müzakirə edilməsi, bu layihələrə Qazaxıstan, Özbəkistan və Türkmənistanın daha geniş şəkildə qoşulması məsələləri daim gündəmdə olmuşdur. Bakı-Tbilisi-Ceyhan xətti ilə Qazaxıstan neftinin ixracı neçə ildir ki davam edir və yaxın perspektivdə isə bunun dəfələrlə artırılması nəzərdə tutulmuşdur.

Azərbaycanla Türkmənistan arasında uzun illər ərzində davam edən soyuq münasibət aradan qalxmış və bu iki ölkə arasında "Dostluq" neft yatağının birgə işlənilməsi qərara alınmışdır. Eyni zamanda, Azərbaycanla Özbəkistan arasında əlaqələrin gücləndirilməsi, bir çox sahələrdə yeni sazişlərin bağlanılması və bütün bunlar Azərbaycanın regionda nüfuzunun artmasını təmin etmişdir və hesab edirik ki, bunların həyata keçirilməsi neft strategiyasının reallaşdırılması nəticəsində mümkün olmuşdur.

Neft strategiyasının banisi Heydər Əliyevin bu il 100 illiyi qeyd ediləcəkdir və Ulu öndər bu strategiyanın həyata keçirilməsi üçün tarixi işlər görmüşdür [1]. Neft strategiyasının reallaşdırılması həm də bütün Türk dünyasının qürurunu yüksəltməyi təmin edən hədəflərə çatmaqda əsas amillərdən biri olmuşdur. Məhz neft gəlirlərindən səmərəli istifadə etməklə, güclü və müasir ordu formalaşdıran Azərbaycan işğalçı Ermənistanı dayandıra bilmiş, işğal altında qalan torpaqlarımızın düşməndən azad edilməsini təmin etmiş və düşmən təslimçilik aktını imzalamışdır. Bütün bu amillər yaxın perspektivdə neft strategiyasının və buna əlavə olaraq təbii qazın hasilatı və ixracı üzrə ildən-ilə artan potensialın ölkəmiz üçün daha çox siyasi və iqtisadi dividentlər gətirəcəyini proqnozlaşdırmağa imkan verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.
2. Əliyev, Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi// Jurnal "Geostrategiya"(AAK), Bakı, №05, noyabr, 2017, №05(41).- S.14-18.
3. Hacızadə, E.M. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası Bakı, Elm, 2003, 512 s.
4. Məmmədova, S.M., Əliyev, Ə.İ., Azərbaycanın neft-qaz sənayesinin iqtisadi inkişaf perspektivləri // Audit № 2, Cild 24, 2019, s.83-95.



***Гюльсум Шамиль кызы Бедирзаде***
***Старший преподователь Азербайджанского Университета Кооперации, доктор философии по экономике.***
***E-адрес: gulya_xaliqova@mail.ru***


## Историческая роль нефтяной стратегии Гейдара Алиева в повышении экономической мощи Тюркоязычных государств


***Резюме***

В статье исследована историческая роль нефтяной стратегии Гейдара Алиева в повышении экономической мощи Тюркоязычных государств. Рассмотрены реалии расширения

процессов развития по всем направлениям азербайджано-турецких отношений в результате реализации нефтяной стратегии.
***Ключевые слова: Гейдар Алиев, Тюркоязычные государства, Азербайджан, Турция, нефтяная стратегия, историческая роль нефтяной стратегии.***

***Gulsum Shamil Bedirzade***
***Senior Lecturer, Azerbaijan University***
***Cooperation, Doctor of Philosophy in Economics.***
***E-mail: gulya_xaliqova@mail.ru***

**Historical role of Heydar Aliyev's oil strategy in raising economic power of Turkic Speaking counrties**

***Summary***

The historical role of Heydar Aliyev's oil strategy in increasing the economic power of the Turkic Speaking counrties is considered in the article. The realities of expanding development processes in all areas of Azerbaijani-Turkish relations as a result of the implementation of the oil strategy are investigated.
***Key words: Heydar Aliyev, Turkic Speaking counrties, Azerbaijan, Turkey, oil strategy, historical role of oil strategy.***

**UOT 339**

***Zaur Rafiq oğlu MEHDİYEV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***Maliyyə kafedrasının müəllimi***
***0009-0000-3830-9861***
***zmehdiyev88@gmail.com***

## HEYDƏR ƏLİYEVİN MİLLİ NEFT STRATEGİYASININ AZƏRBAYCAN VƏ TÜRK DÜNYASININ İNKİŞAFINDA BÖYÜK ROLU

**Xülasə**

Məqalədə müəllif XIX əsrin sonlarından XX əsrə qədər Azərbaycan neft sənayesinin tarixindən qısa məlumat vermiş, müstəqilliyimizin ilk illərində yaranmış iqtisadi və sosial çətinliklərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdən məlumat vermişdir. Məqalədə Azərbaycanın gələcəyi üçün çox vacib olan neft sektorunun böhrandan çıxması prosesindən bəhs edilir, ümummilli liderimiz Heydər Əliyev tərəfindən reallaşdırılan milli maraqlara söykənən neft diplomatiyası araşdırılır.
***Açar sözlər: neft, strategiya, inkişaf, respublika, region.***

***

Neft insan həyatında unikal rol oynayan on əsas təbii sərvətdən biridir. Onun kəşfi, istehsalı və geniş tətbiqi dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının inkişafına güclü təkan verərək, insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur. Dərin mənəvi, mədəni, elmi iqtisadiyyatı, potensialı, ticarəti, coğrafi və siyasi mövqeyi olan Azərbaycan zəngin təbii sərvətləri ilə məşhurdur. Bunların içərisində neft əsas yer tutur.

Bütün dünyada qədim neft yatağı kimi tanınan Azərbaycanda sənaye üsulu ilə neft hasilatı 19-cu əsrin ortalarından başlayıb. Bu dövrdə Rusiya imperiyasında kapitalizmin inkişafı Azərbaycan neft sənayesinin vəziyyətinə birbaşa təsir göstərmiş, neft mədənlərinin istismarı intensiv xarakter almışdır. Neft sənayesinin inkişafı çoxlu sayda yerli sahibkarları yetişdirdi: H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, İ.Hacınski, S.Əsadullayev və başqaları. 19-cu əsrin 70-ci illərindən

başlayaraq Azərbaycanın neft sənayesinə xarici kapitalın güclü axını başladı. Nobel ailəsi, Con Rokfeller, Henri Detergin, Rotşild və b. Bakıya gəlib neftin çıxarılması və emalı ilə məşğul olurdular. [1, s.77-78].

Milli burjuaziyanın formalaşması və xarici kapitalın axını Bakı neft sənayesinin inkişafına böyük təkan verdi. Əgər 1872-ci ildə 2,4 min ton neft hasil edilmişdisə, 1894-cü ildə bu rəqəm 5,4 min tona çataraq, hasilatına görə ABŞ-ı qabaqlamışdır. [2, s.18]. 1901-ci ildə Azərbaycanda 10 milyon tondan çox neft hasil edilmişdir ki, bu da Rusiya neftinin 95 faizini, dünya neft istehsalının yarısını təşkil edirdi [3.1, s.127-128].

1920-ci ildə Azərbaycan Sovet İttifaqına birləşdirildikdən və neft sənayesi milliləşdirildikdən sonra Azərbaycanda neft sektorunda yeni mərhələ başlandı. Uzunmüddətli tərəfdaşı olduğu Sovet İttifaqının əsas neft hasil edən sənaye mərkəzi kimi respublikamızda neft sənayesi, neft-kimya, neft maşınqayırma, metallurgiya, elektroenergetika və s. sahələrdən ibarət sənaye kompleksləri yaradılmışdır. Bu, əlbəttə ki, Sovet İttifaqının iqtisadi qüdrətinin və potensialının inkişafında mühüm amillərdən biri idi. 1949-cu ildə dünyada ilk dəfə olaraq dənizin dibindən güclü karbohidrogenlərin çıxarılması bu dövrə təsadüf etdi. O zaman üçün nadir sayılan əfsanəvi Neft daşlarında neft fantan vurması yeni neft erasının əsasını qoydu. Azərbaycan dünyada açıq dənizdən neft çıxardan ilk ölkə oldu.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın rəhbəri seçildikdən sonra istər sosial-iqtisadi inkişaf sahəsində, istərsə də neft-qaz sənayesində dərhal dəyişikliklər baş verdi, ciddi və səmərəli addımlar atıldı. Bu böyük siyasətçinin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üzrə xüsusi proqram hazırlanaraq istifadəyə verilmişdir. Proqrama uyğun olaraq, yeni texnika və texnologiyaya malik zavodlar yaradıldı və yeni qurğular tikildi. Eyni zamanda yeni neft emalı zavodlarının tikintisinə başlandı. Heydər Əliyevin bu istiqamətdəki ən böyük uğurlarından biri 70-ci illərin sonlarında SSRİ-də yeganə olan və dəyəri 400 mln ABŞ dollarında olan "Dərin Dəniz Özülləri" zavodu kimi nəhəng strateji qurğunun tikilərək istismara verməsi olmuşdur. [4, s. 19].

Bu gün biz əminliklə deyə bilərik ki, Heydər Əliyevin neft sənayesində, eləcə də bu dövrlərdə respublikanın bütün sahələrində gördüyü işlər onun uzaqgörən planlarının əsasını təşkil etmişdir. Azərbaycan müstəqilliyini bərpa edəndə təbii ki, bu nailiyyətlər bizim inkişafımızı təmin etdi.

Azərbaycanın neft sənayesi 150 illik tarixində böyük yol keçsə də, Azərbaycan xalqı bu sərvətdən yalnız 20-ci əsrin sonunda müstəqillik əldə etdikdən sonra tam şəkildə bəhrələnib.

Müstəqilliyimizin ilk illərində neft və qaz hasilatının artması ölkənin üzləşdiyi iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi qəbul edilirdi. Belə bir şəraitdə maliyyə resurslarının olmaması xarici şirkətlərin və investorların cəlb edilməsini strateji zərurətə çevirdi.

Azərbaycan nefti ilə maraqlanan xarici neft şirkətləri ilə hələ 80-ci illərin sonlarından danışıqlar başlamışdı. 1991-ci ilin yanvarında SSRİ Nazirlər Şurası Azərbaycan Nazirlər Şurası ilə birlikdə Qərbin iri transmilli neft şirkətləri arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsi üçün tender keçirməyi qərara aldı. Bununla əlaqədar olaraq 1991-ci ilin iyununda Böyük Britaniyanın "BP", ABŞ-ın "Amoko" və "Yunukal" şirkətləri arasında tender keçirilmiş və "Amoco" şirkətinin şərtləri uyğun olduğu üçün tenderin qalibi olmuşdur [5, s.97].

Bu tenderin nəticəsi, digər şirkətləri Azərbaycan neftindən məhrum etmirdi. Danışıqlar digər şirkətlərlə də davam etdirilirdi. Nəticədə, 1991-ci ilin sonlarında "Amoko" şirkəti "BP", "Statoil", "Ramko Enerji", "Yunukal" və "McDermott" şirkətləri ilə "Azəri" yatağının birgə işlənməsi haqqında "Qarşılıqlı Maraq Zonası" müqaviləsi imzaladı [5, s. 97-98].

1991-ci il oktyabrın 18-də "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbulu ilə Bakı nefti ilə bağlı danışıqların xarakteri bir qədər dəyişdi.Artıq danışıqların bir tərəfində Sovet İttifaqına daxil olan və mərkəzin diktəsi ilə fəaliyyət göstərən Azərbaycan deyil, beynəlxalq hüququn və beynəlxalq münasibətlər sisteminin tam və bərabərhüquqlu subyekti kimi sayılan Azərbaycan, qarşı tərəfdə ənənəvi olaraq Qərbin iri neft şirkətləri dayanırdı.

Lakin SSRİ-nin dağılmasından sonra müstəqil yaşamaq imkanı olan azsaylı respublikalardan biri olan Azərbaycanın Xəzərdə öz sərvətlərinə sahib çıxmaq və siyasi və iqtisadi maraqlarının təmin edilməsi baxımından ciddi problemlər var idi. Ermənistanın Azərbaycana təcavüzü, ölkədə

ictimai-siyasi sabitliyin pozulması, xaos və anarxiya mühitinin formalaşması, iqtisadi tənəzzül prosesinin dərinləşməsi Qərbin nüfuzlu neft şirkətlərinin Azərbaycanla hər hansı bir əməkdaşlıq etməsini imkansız edirdi.

Bir çox xarici şirkətlər Azərbaycanın bu neft müqavilələrini imzalamağa siyasi və psixoloji hazırlığından ciddi narahat olduqlarını bildirirdilər, çünki bəzi dövlətlərin intensiv müdaxiləsi proseslərin rasional inkişafına mane olurdu. Azərbaycanın yerləşdiyi regionun mürəkkəb geostrateji mövqeyi, beynəlxalq miqyasda diqqəti cəlb etməsi, eyni zamanda neftin siyasi və iqtisadi əhəmiyyəti buraya kapital qoyulmasına imkan vermirdi. Respublikada baş verən hər cür özbaşınalıq ölkənin beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində fəaliyyətini tamamilə etibarsız edirdi.

Yalnız 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında dəyişikliklərin başlanğıcı oldu. Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra qısa müddətdə sabitlik bərqərar oldu, ölkənin iqtisadi imkanları səfərbər olundu, dövlətin malik olduğu təbii sərvətlərdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olundu. Onilliklərlə imperiyanın mənafeyinə xidmət edən təbii sərvətlər, Azərbaycanın inkişafı və rifahı naminə istifadə edilmiş və bu məqsədlə xarici sərmayələrin cəlb edilməsi istiqamətində cəsarətli siyasi addımlar atılmışdır.

Azərbaycanın gələcək qüdrəti baxımından son dərəcə vacib olan neft sektorunun böhrandan çıxması, milli maraqlara söykənən neft diplomatiyasının həyata keçirilməsi yalnız Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra baş verdi.

Neft müqaviləsi üzrə danışıqlar praktiki olaraq bərpa olundu və nəhayət, neft müqavilələri üzrə danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tam cavab verən müqavilə şərtləri daxil edildi. 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissələrinin birgə işlənməsi və pay bölgüsü haqqında müqavilə imzalandı. Təxminən 400 səhifə həcmində və 4 dildə tərtib olunmuş müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. Müqavilədə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti ("Amoco", BP, "McDermott", "Unocal", SOCAR, "LUKoil", "Statoil" (indiki "Equinor"), "Exxon", "Türkiye Petrolleri", "Pennzoil", "Itochu", "Remco", "Delta") iştirak edib. Bununla da, müstəqil dövlətimizin neft strategiyası və doktrinasının əsası qoyulub. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi, dövlət müstəqilliyinin mühüm təminatına çevrildi. [6, s. 86].

Dünyaca məşhur olan bu müqavilənin imzalanması və onun həyata keçirilməsi Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının banisi Heydər Əliyevin hazırladığı neft strategiyasının həyata keçirilməsinin bariz təzahürüdür. "Əsrin Müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə daxil olmasına və beynəlxalq bazarda mövqelərinin möhkəmlənməsi üçün imkan yaratmışdır. Beynəlxalq neft müqavilələrinin imzalanması ilə neft müqavilələrində iştirak edən ölkələrlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslar qoyuldu, ölkənin geosiyasi mövqeyi daha da genişləndi, dünya iqtisadiyyatına inteqrasiya prosesi yarandı.

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yenidən tərtib olunmuş Sazişin 14 sentyabr 2017-ci ildə Bakıda, Heydər Əliyev Mərkəzində imzalanması ölkəmizin etibarlı tərəfdaşlığını, neft-qaz ehtiyatlarının əvvəlcədən nəzərdə tutulduğundan çox olduğunu bir daha təsdiqlədi. Yeni Sazişlə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Bununla da respublikaya mərhələli şəkildə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsi, SOCAR-ın payının 11,6 faizdən 25 faizə yüksəldilməsi proqnozlaşdırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz həcmində olması nəzərdə tutulur. Bu sazişlə Azərbaycanda neft sənayesinin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur.

Respublikamızın qazandığı nailiyyətlər ulu öndər Heydər Əliyevin neft strategiyasına uyğun olaraq "Əsrin müqaviləsi"nin uğurla icra edildiyini real faktlarla təsdiqləyir. Yeni önəmli sərma-

yələr cəlb edilir, bu istiqamətdə mühüm addımlar atılır. Bu səbəbdən də, ölkəmizdə kifayət qədər böyük valyuta ehtiyatlarının olmasında və iqtisadiyyatın dinamik şəkildə inkişafında "Əsrin müqaviləsi"nin xüsusi rolu var. Azərbaycanda iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Bir sözlə, "Əsrin müqaviləsi"nin uğurla icrası Azərbaycanı regionun lider dövlətinə çevirib.

Yeni neft strategiyasının yaradıcısı olan ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın uğurlu iqtisadi inkişafının, beynəlxalq aləmdə rolunun və siyasi çəkisinin artmasının, o cümlədən dünya proseslərində fəal iştirakının ölkəmizin iqtisadi imkanları ilə bilavasitə bağlı olduğunu qeyd edir: "Biz haqlı olaraq neft strategiyamızla fəxr edirik. İqtisadi imkanları bizə məhz neft strategiyamız yaratmışdır. O da həqiqətdir ki, biz bu imkanlardan bəzi başqa ölkələrdən fərqli olaraq səmərəli şəkildə istifadə etdik - neft kapitalını qeyri-neft sektorunun inkişafına yönəltdik. Beləliklə, infrastruktur layihələrinin icrası və digər iqtisadi islahatlar əslində imkan verdi ki, biz bugünkü reallıqlar haqqında xalqa qürur hissi ilə danışa bilək".

"Əsrin müqaviləsi" ilə iqtisadi, siyasi, beynəlxalq və əməkdaşlıq çərçivəsində qazanılan uğurlar respublikamızda olduğu kimi, xarici ölkələrdə də yüksək qiymətləndirilir. Bu müqavilənin reallaşması nəticəsində Azərbaycan regionda və dünya birliyində rolunu genişləndirir, xalqımızın rifah halı yaxşılaşır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan neft strategiyasının Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə uğurla davam etdirilməsi müstəqilliyimizin möhkəmləndirilməsinə və dövlətimizin bütün sahələr üzrə tərəqqisinə əvəzsiz töhfələr verir və verəcək.

Bu gün deyə bilərik ki, Azərbaycan iqtisadiyyatı artıq neft amilindən asılı deyil. Bununla belə, neft-qaz amili uzun illər Azərbaycanın iqtisadi maraqlarını təmin edəcək və dünyadakı mövqelərimizi yaxşılaşdıracaq. Ümumiyyətlə, bu amil Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında uzunmüddətli rol oynayacaqdır. Bununla belə, eyni zamanda, artıq qeyd etdiyimiz kimi, bu gün Azərbaycanın qeyri-neft sektorunun inkişafı çox sürətlə gedir. Bunun üçün təkan bizim neft siyasətimiz və neft strategiyamız oldu. Azərbaycanın neft ehtiyatlarından səmərəli istifadə olunması sayəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlər həyata keçirilib.

Hazırda Azərbaycan iqtisadiyyatı inkişaf etmiş iqtisadiyyatdır. bütün investisiya portfelinin yarısı qeyri-neft sektoruna yatırılırsa, bu onu göstərir ki, qeyri-neft sektoru da Azərbaycanda çox cəlbedici fəaliyyət sahəsidir. Yeni situasiya həm qeyri-neft sektoruna xarici, həm də daxili investisiyalar, dövlət büdcəsinin vəsaitləri və xarici sektordan ayrılan vəsaitlər hesabına yaradılıb. İqtisadi nailiyyətlərimizin statistikası göstərir ki, indi Azərbaycan enerjidən daha az asılıdır (neftdən və qazdan) və bu asılılıq azalmağa davam edəcək.

Milli neft strategiyasının uğuru nəticəsində Azərbaycanın regionun aparıcı dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin iştirakçısından biri kimi tanınmasına ehtiyac var idi. Ölkəmizdə bu gün yaradılmış bütün iqtisadi sərvətin başlanğıcında genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət, milli neft təbəqəsi dayanırdı.

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi səfəri, iki qeyri-rəsmi səfəri, on beş işgüzar səfər etməsi ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və iki qardaş ölkə arasındakı strateji birliyin çox fərqli olduğunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət Nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetlərinin Fəxri doktoru seçilməsi Azərbaycan – Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir.

Müasir dövrdə Azərbaycanın etibarlı hərbi, siyasi və iqtisadi strateji tərəfdaşı olan Türkiyə ilə

münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir.

Azərbaycanın ümummilli liderinin türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev türk xalqları arasında əlaqələrin genişlənməsinə, ticarət-iqtisadi, mədəni-humanitar əməkdaşlığın artırılmasına xüsusi əhəmiyyət verir. Ümummilli lider Heydər Əliyevin daha çox əhəmiyyət verdiyi türkdilli xalqlar və dövlətlərin birliyi və əməkdaşlığı məsələləri bu gün ölkə Prezidenti İlham Əliyev və müstəqil türk dövlətlərinin rəhbərləri tərəfindən uğurla davam etdirilir.

Bu gün Türkiyə ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq və strateji tərəfdaşlıq dövlətlərarası münasibətlərin inkişafında dostluq-qardaşlığa söykənir və uğurla davam etdirilir. Hazırda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsindədir. Bu isə Prezident İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın müdrik və uzaqgörən siyasətinin birbaşa nəticəsidir.

Ulu öndərimizin müəyyənləşdirdiyi xarici siyasətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ən başlıca yer tuturdu. Bu siyasət nəticəsində ölkəmiz diplomatik müstəvidə Ermənistanı küncə sıxışdırdı və beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü tanınırdı. 44 günlük Vətən müharibəsi nəticəsində qazanılan qələbənin əsasında məhz Ulu öndərimizin əsasını qoyduğu uzaqgörən siyasət dayanır. Çünki Ulu öndər tərəfindən müəyyənləşdirilmiş siyasi kursda milli maraqlarımız hər şeydən üstün dayanırdı. Bu kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticə etibarilə qələbəmizi şərtləndirdi. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı inamla yeni-yeni zəfərlərə doğru aparır. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalət bərpa edilmiş, işğal altında olan torpaqlarımız azad olunmuş, Zəfər salnaməsi tarixdə layiqli yerini almışdır. Bütün nailiyyətlərin təməlində isə Heydər Əliyev siyasəti dayanır. Müstəqil və qüdrətli Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun parlaq ideyaları gələcəyimizə daim nur saçacaq!

## ƏDƏBİYYAT


1. Алиев Н. Нефть и нефтяной фактор в економике Азербайджана в XXI веке Б,2001
2. İsmayılov İ. Azarbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış )B., 2007
3. Adıgözəlov K. Azərbaycan neft strategiyası beynalxalq siyasətin aparıcı istiqamətlərindən biri kimi.
4. Əliyev Q. Azərbaycan böyük inkişaf yollarında. / Əsrin Müqaviləsi — 10. Azarbaycan böyük inkişaf yollarında (Tarixi-siyasi təhlil). B., 2004
5. Mahmudov C. Bakı nefti, neft milyonçuları və Nobel qardaşları. B., 2006
6. Mehrəliyev E. Beynəlxalq siyasətdə neft amili. B., 2005
7. Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. B., 2001



***Заур Рафиг оглы Мехтиев***

***Азербайджанский Университет Кооперации***

***Преподаватель кафедры "Финансы"***

***0009-0000-3830-9861***

***zmehdiyev88@gmail.com***


## Большая роль национальной нефтяной стратегии Гейдара Алиева в развитии Азербайджана и Турецкого мира


***Резюме***

В статье автор дал краткую информацию об истории нефтяной промышленности Азербайджана с конца 19 века до начала 20 века, а также предоставил информацию о мерах,

предпринятых для ликвидации экономических и социальных трудностей, возникших в первые годы нашей независимость. В статье рассказывается о процессе выхода из кризиса нефтяного сектора, что очень важно для будущего Азербайджана, и исследуется основанная на национальных интересах нефтяная дипломатия, проводимая нашим общенациональным лидером Гейдаром Алиевым.
***Ключевые слова: нефть, стратегия, развитие, республика, регион.***

***Zaur Rafiq Mehdiyev***
***Azerbaijan Cooperation University***
***Lecturer of the department "Finance"***
***0009-0000-3830-9861***
***zmehdiyev88@gmail.com***

## The great role of Heydar Aliev's national oil strategy in the development of Azerbaijan and the Turkish world

***Summary***

In the article the author briefed the history of Azerbaijan oil industry from the late XIX century to the XX century and informed about the measures undertaken in order to overcome economic and social difficulties arisen in the first years of our independency. The article deals with the process of getting out of crisis the oil sector, which is very important for the future of Azerbaijan, and researches oil diplomacy based on national interests and realized by our national leader Heydar Aliyev.
***Key words: oil, strategist, development, republic, region.***

***Aysel Qəhrəman qızı KƏRİMOVA***
***"Humanitar fənlər" kafedrasının müəllimi***
***ORCID: 0000-0002-3885- 6467***
***E-amil: karimova.aysel@rambler.ru***

## HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASININ VƏHDƏTİ

***Xülasə***

Türk xalqlarının uzun əsrlər boyu dünya birliyi ilə fəal münasibətləri dünyanın bütün nöqtələrinə səpələnmiş bu əzəmətli xalqın nümayəndələri arasında böyük mütəfəkkirlərin, qüdrətli dövlət xadimlərinin yetişməsinə şərait yaratmışdır.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna əsasən nail olmuşdur. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir.

Bu gün Türkiyə ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq və strateji tərəfdaşlıq dövlətlərarası münasibətlərin inkişafında dostluq-qardaşlığa söykənir və uğurla davam etdirilir. Hazırda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsindədir. Bu gün hər iki dövlətin lideri illər öncə Ulu öndər Heydər Əliyevin başlatdığı və inkişaf etdirdiyi dostluq, qardaşlıq münasibətlərini uğurla davam etdirirlər.
***Açar sözlər: Ulu öndər, türk dünyası, Azərbaycan, Türkiyə.***

***

Dünya dövlətlərinin tarixi təcrübəsi göstərir ki, hər bir xalqın gələcəyi əhəmiyyətli dərəcədə onun malik olduğu imkanları, zamanın tələblərini düzgün qiymətləndirməyi bacaran, uzaqgörən, müstəqil dövlətçilik konsepsiyasını formalaşdıran və reallaşdıran xarizmatik liderlərin adı ilə bağlıdır. Xüsusən, inqilablar və müharibələr əsri olan XX əsrdə bəşər cəmiyyətində yaranmış yeni inkişaf meyillərini dərindən bilən, onları vaxtında nəzərə alan, qarşısına qoyduğu ideallara doğru xalqı arxasınca apara bilən liderləri olan ölkələr tarixin sınağından uğurla çıxmağı bacarırlar. Belə liderlər xalqların indiki və gələcək yaşayış fəlsəfəsini formalaşdırır, inkişaf etdirirlər. [6, s. 3]

Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində məhz Ulu öndər Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev sərvətləri talan, torpaqları işğal edilmiş, iqtisadiyyatı son dərəcə acınacaqlı vəziyyətdə olan Azərbaycan dövlətini dirçəltmək və dünyada nüfuz sahibi etmək missiyası ilə qarşı-qarşıya qalmışdı. Bu sahədə uzunillik fəaliyyəti nəticəsində də uğur qazanmağı bacarmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb, onun hüdudlarından kənarda, bütövlükdə türk dünyasında dərin izlər buraxmışdır. Bu fəaliyyət, bu sahədə gördüyü işlər az bir zamanda onu türk dünyasının danılmaz liderinə çevirdi. Ulu öndər türk dünyasının həmrəyliyinin, bütün sahələrdə intensiv əməkdaşlığının tarixi əhəmiyyətini dərindən dərk edir və qürurla deyirdi: “Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz bir dilli xalqlarıq. Bizim milli ənənələrimiz, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımız hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir- birimızlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”. [3, s.3.]

Hakimiyyətə qayıdışının ilk günlərindən Heydər Əliyev iqtisadi sahədə gördüyü tədbirlərlə yanaşı Azərbaycanın qonşu dövlətlərlə strateji əməkdaşlıq məsələlərinə də diqqət yetirmişdir. Bildiyimiz kimi Azərbaycan hər zaman regionda sülhün və təhlükəsizliyin təminatçısı kimi çıxış edib. Bu yolda Azəbaycanın ən sadiq tərəfdaşı Türkiyə Cumhuriyyəti olmuşdur. [1, s.143-145]

Heydər Əliyevin xarici siyasətində Türkiyə ilə əməkdaşlıq ilk sıralarda yer alır. Azərbaycan-Türkiyə əlaqələri türkdilli dövlətlərin iqtisadi əməkdaşlığının onurğa sütununu təşkil edir və regional əməkdaşlığın genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə olan hörmət və ehtiramını bu sözlərlə ifadə edir: “ Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir. Bütün türk dünyasının əvəzsiz, ölməz lideridir”. [6, s. 3]

Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq münasibətləri əbədi və dönməz xarakter almışdır. Tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyevin isə “Biz bir millət, iki dövlətik” tezislərinə əsaslanmışdır. Heydər Əliyevin öz xalqına, millətinə təmənnasız xidmətləri yaddaşlara əbədi həkk olunmuşdur. Onun bu xidmətdə əxlaq qaydalarını daim uca tutması ulu öndərin bitib-tükənməz ideyalarının inandırıcı potensialını daha da artırmışdır. Məhz xalqda olan bu inam böyük Azərbaycanlının ikinci dəfə hakimiyyətə gəlişinin istinadına çevrilmişdir.

Ulu öndərin sayəsində Azərbaycanın Türkiyə ilə münasibətləri gerçək tərəfdaşlıq, qarşılıqlı fayda üzərində təşəkkül tapdı. O, Azərbaycana rəhbərlik etdiyi illərdə dəfələrlə Türkiyədə səfərlərdə olmuş, Türkiyənin dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişlər. Bu təmaslar müxtəlif beynəlxalq və regional tədbirlərdə də davam edirdi.

Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlığı da daima prioritet saymışdır. Çünki Azərbaycan bu coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Heydər Əliyevin prezidentliyi dövründə bu kör-

pü real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapdı.

Heydər Əliyev 1994-cü ilin 18 oktyabrında türk dövlət başçılarının İstanbul sammitində bu gerçəyi etiraf etmişdi: "Ötən müddətdə Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycanın Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və çalışacaqdır. Bizim əməkdaşlığımız zamanın hökmüdür. Bizim əməkdaşlığımız xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır və biz bu imkanlardan səmərəli istifadə etməliyik".[4, s. 83-84]

Məlum olduğu kimi, türk dünyasının yeni intibah yoluna qədəm qoyması baxımından zamanın tələbləri olduqca böyükdür. İrimiqyaslı elmi və texniki inqilablar dünyanın anlaşılması, yenidən qurulması, Şərqlə Qərb arasındakı və cəmiyyətin öz daxili qüvvələri arasındakı əlaqələri baxımından yeni bir dövr başlatdı. Dünyanı bir-birindən ayrılmış, təcrid edilmiş hissələrdən ibarət görən anlayışlar tarixə qovuşdu. Elmi və texnoloji sıçrayışlarla bərabər dünya xalqları arasında iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin getdikcə dərinləşməsini əks etdirən inteqrasiya və qloballaşma prosesləri özünün məlum daxili ziddiyyətləri ilə yanaşı, dünyanın inkişafının mühərriki oldu.

Ümummilli liderimiz Heydər Əliyev türk dünyasının bu vacib problemlərinin həllinə xüsusi önəm verirdi. O, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra bu məsələlərlə ardıcıl şəkildə məşğul olmağa başladı. Ulu öndər İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına (5 iyul 1993-cü il) müraciətində demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafina töhfə verəcəkdir".

Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsində Heydər Əliyevin tarixi "İpək Yolu" layihəsinin həyata keçirilməsi işində göstərdiyi səy və xidmətlər müstəsna əhəmiyyətə malikdir. Bu tarixi layihənin əsas məqsədi əhalisinin ümumi sayı 67 milyon nəfər olan (1991-ci il) Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarətdir. [2]

Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət Nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetlərinin Fəxri doktoru seçilməsi Azərbaycan – Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir. XX əsrin sonlarında Azərbaycan və Mərkəzi Asiyanın türkdilli xalqları öz müstəqilliyinə qovuşdular. Bundan sonra proseslər belə oldu ki, türkdilli dövlətlər öz müstəqilliklərini qorumaq şərtilə ümumi türk dünyasına qovuşmaq üçün bir-biriləri ilə fəal şəkildə əməkdaşlığa başladılar. Bu gün də həmin tendensiyanın davamını müşahidə edirik.

Türkdilli dövlətlərin qarşılıqlı inteqrasiyası üçün ilkin olaraq mədəni birlik yaradıldı. 1990-cı illərin əvvəlində yaradılan TÜRKSOY türk xalqlarının mədəni birliyini müdafiə edən və onun inkişafını təmin edən təşkilatdır. Onun ardınca isə Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) yaradıldı ki, bu da çox mühüm məsələ idi. Çünki parlamentlər bütün dünyada dövlətlərin ən demokratik qurumudur və burda deputatların simasında xalq təmsil olunur. Daha sonra isə 10 il əvvəl Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradıldı. Artıq bu o demək idi ki, konkret olaraq türkdilli dövlətlərin birliyini koordinasiya edən işlək bir mexanizm, struktur yaradılır. [5]

Beləliklə, türkdilli dövlərlərin birliyi üçün mükəmməl bir model yaradılıb ki, bu platforma qarşıdakı dövrlərdə daha da inkişaf edə bilər. Amma yenə də əsas məsələ odur ki, müstəqil türk dövlətlərinin ayrı-ayrılıqda inkişafı təmin olunsun və eyni zamanda türk dövlətlərinin qarşılıqlı əlaqələri o qədər geniş olsun ki, mədəniyyətdən başlamış bütün sahələrə qədər strateji əməkdaşlıq

təmin edilsin. Yəni, türk dövlətləri hər bir məsələdə yekdil mövqe bildirməli, bütün məsələlərdə bir-birilərini dəstəkləməlidir. Onların müstəqil dövlət kimi güclənmələri bütövlükdə türk dünyası birliyini gücləndirməlidir və belə də olacaq.

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini də mədəni əmək-daşlıq, müştərək mədəni layihələr təşkil edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan- Türkiyə əlaqələri və Heydər Əliyev 1991-2001// Redaktor M.C. Mərdanov. Bakı: Qafqaz Universiteti nəşri, 2002, 180 s.
2. Böyük İpək Yolunun bərpası // https://president.az/az/pages/view/azerbaijan/silkroad
3. Cəfərov, N. Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə // "Xalq qəzeti".- 2009.- 18 iyul.- s. 3.
4. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyul2009/86532.htm
5. Heydər Əliyev və Şərq // Redaktor M.Qurbanlı, Bakı: Tural-Ə, 2002, 382 s.
6. Türksoy // https://www.turksoy.org/
7. Vəliyev, D. Heydər Əliyev və türk dünyası.// Xalq qəzeti, 14.05.2014. s.3
8. https://old.xalqqazeti.com/az/news/politics/44541



***Айсель Гахраман кызы Каримова***
***Преподаватель кафедры "Гуманитарные науки"***
***ORCID: 0000-0002-3885- 6467***
***E-amil: karimova.aysel@rambler.ru***


### Гейдар Алиев и единство Тюркского мира


***Резюме***

Турецкие народы создали условия для развития великих мыслителей и могущественных государственных деятелей среди представителей этой великолепной нации, активные связи которой с мировым сообществом разбросаны по всему миру на протяжении многих веков.

Гейдар Алиев, архитектор и основатель современного независимого Азербайджанского государства, в ходе своей политической и государственно делать это. Работа, проделанная великим историческим деятелем, выдвинутые им идеи, высказанные им мнения имеют большое историческое значение как своим научно-теоретическим совершенством, так и своей практической перспективой. Гейдар Алиев всегда высоко ценил роль Турции в укреплении и развитии турецкого единства.

Сегодня сотрудничество и стратегическое партнерство между Турцией и Азербайджаном основано на дружбе и братстве в развитии межгосударственных отношений и успешно продолжается. В настоящее время братские отношения между Азербайджанской Республикой и Турецкой Республикой, заложенные Великим Лидером Гейдаром Алиевым, находятся на самом высоком уровне. Сегодня лидеры обеих стран успешно продолжат дружеские и братские отношения, начатые и развитые много лет назад великим лидером Гейдаром Алиевым.



***Ключевые слова: Великий лидер, тюркский мир, Азербайджан, Турция.***



***Aysel Gahraman Karimova***
***Teacher of "Humanities" department***
***ORCID: 0000-0002-3885- 6467***
***E-amil: karimova.aysel@rambler.ru***


### The unity of the Turkic world and Heydar Aliyev


***Summary***

The Turkish peoples have created the conditions for the development of great thinkers and powerful statesmen among the representatives of this magnificent nation, whose active ties with

the world community have been scattered throughout the world for many centuries.

Heydar Aliyev, the architect and founder of the modern independent state of Azerbaijan, in the course of his political and state do it. The work done by the great historical figure, the ideas put forward by him, the opinions expressed by him are of great historical significance both for their scientific and theoretical perfection and for their practical perspective. Heydar Aliyev has always highly appreciated Turkey's role in strengthening and developing Turkish unity.

Today, cooperation and strategic partnership between Turkey and Azerbaijan is based on friendship and brotherhood in the development of interstate relations and continues successfully. At present, fraternal relations between the Republic of Azerbaijan and the Republic of Turkey, founded by the Great Leader Heydar Aliyev, are at the highest level. Today, the leaders of both countries will successfully continue the friendly and fraternal relations begun and developed many years ago by the great leader Heydar Aliyev.

***Key words: Great leader, Turkic world, Azerbaijan, Turkey.***

**UOT: 33.94.479**

***Arzu Böyükağa qızı İBRAHİMLİ***
***Bakı Dövlət Universiteti, müəllim,***
***0000-0003-1540-7965***
***arzushka777@gmail.com.***

## TÜRK DÜNYASININ BİRLİYİ STRATEGİYASI: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ

***Xülasə***

Məqalədə müəllif Azərbaycan ilə türkdilli dövlətlərin əməkdaşlığı, xüsusi ilə iqtisadi əməkdaşlığı məsələlərini tədqiq etmişdir. Məqalədə türk dövlətlərinin əməkdaşlığına ekskurs edilib. Qeyd olunur ki, türkdilli dövlətlərin əməkdaşlığı SSRİ dağılandan sonra başlamışdır. Məqalədə həmçinin türkdilli dövlətlərin reallaşdırdıqları iri iqtisadi layihələr də göstərilmişdir.

***Açar sözlər: Heydər Əliyev, İlham Əliyev, Türkdilli Dövlətlər Birliyi, əməkdaşlıq, Azərbaycan.***

***

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını (və ümumən dünyanı!) əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir. [1, s. 3]

Azərbaycan, həmçinin SSRİ-yə daxil olan digər türkdilli respublikalar dövlət müstəqilliyi əldə etdikdən sonra bu əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir.Ulu öndər Heydər Əliyev 1996-cı ildə türk yazıçılarının üçüncü qurultayının ölkəmizdə keçirilməsini əlamətdar hadisə hesab etmiş və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi çox yüksək qiymətləndirmişdir. Bildirmişdir ki, xalqlarımızın mədəniyyəti, ədəbiyyatı, şeiri bir çox məhrumiyyətlərə, çətinliklərə məruz qalmışdır. Bu çətinliklər tarixin, ola bilər ki, bəzən çox böyük mərhələlərində mədəniyyətimizə zərbələr vurmuş, ancaq mədəniyyətimizi, ədəbiyyatımızı, şeirimizi məhv edə bilməmişdir. Türkdilli xalqların bütün bu çətinliklərdən, sınaqlardan çıxmış mədəniyyəti, ədəbiyyatı, şeiri indi dünyada, bəşəriyyətdə özünəməxsus görkəmli yerini tutmuşdur. Ulu öndər "Kitabi-Dədə Qorqud"un 1300, "Manas"ın 1000, böyük qazax şairi, filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, Azərbaycan şairi, eyni zamanda, bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illik yubileyinin türkdilli dövlətlərin bir yerdə qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir. [ 2, s.11]

1992-ci ildə türkdilli ölkələrin dövlət başçılarının birinci Zirvə toplantısı keçirilib və bundan

sonra ölkələrimizin liderləri müntəzəm olaraq bir araya gəlib əməkdaşlığın əsas prioritetləri və istiqamətlərini müzakirə ediblər. Lakin o dövrdə həmin Zirvə toplantıları daha çox məsləhətləşmələr funksiyasını daşıyırdı və əməkdaşlığın daimi platforması hələ ki, formalaşmamışdı. İllər keçdikcə, ölkələr arasında həm iqtisadi, həm mədəni, həm də siyasi münasibətlər sürətlə inkişaf etdi və həmin münasibətlərin institusional çərçivəyə salınması zamanın tələbi idi. 1993-cü ildə TÜRKSOY-un yaradılması, 2008-ci ildə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA), 2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) təsis edilməsi məhz bu zərurətdən irəli gəlib. Qeyd olunan qurumların yaradılması regionda türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti və əməkdaşlığına önəmli təkan verib. Daha sonra 2010-cu ildə Beynəlxalq Türk Akademiyası, 2012-ci ildə Türk Mədəniyyəti və Miras Fondu və sonra Türk Biznes Şurası kimi təşkilatların qurulması müvafiq sahələrdəki əməkdaşlığımızı daha da dərinləşdirib [4].

Qeyd edilən qurumların yaradılmasından sonra türkdilli ölkələr arasında olan əməkdaşlıq yeni təşkilati mərhələyə daxil olub. Beləliklə, türkdilli dövlətlərin başçıları siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin güclənməsinə xidmət edən sistemli fəaliyyətin əsasını qoymaqla əbədi qardaşlıq bağlarının möhkəmlənməsinə zəmin yaratmış oldular. Bu prosesdə Azərbaycanın çox əhəmiyyətli rola malik olduğunu ayrıca qeyd etmək lazımdır.

Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən və türkdilli ölkələr arasındakı siyasi və iqtisadi sahələrdə əlaqələrin inkişafına yönəldilmiş layihələrin əhəmiyyətini xüsusilə qeyd edə bilərik. Cənab İlham Əliyevin türkdilli dövlətlər arasındakı münasibətlərin inkişafına olan dəstəyi və TÜRKPA, eyni zamanda, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahlarının Bakıda yerləşməsi qeyd olunan diqqət və qayğının bariz nümunəsidir.

Ümumiyyətlə, türkdilli ölkələr arasında əlaqələr hər keçən gün inkişaf etməkdədir. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Bu əlaqələrin əhatə dairəsi çoxşaxəlidir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı olan TÜRKSOY türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir. Məlumdur ki, türkdilli dövlətlər coğrafi-strateji baxımından dünyanın əhəmiyyətli bölgəsində yerləşir. TÜRKSOY-un ardından Türk Şurası və TÜRKPA-nın yaradılması regionda türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti üçün önəmli təkan verir, regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır və ticarət və investisiya imkanlarının möhkəmlənməsinə kömək edir.

Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş olan Türk Şurası özünü bu ümumiliklərlə məhdudlaşdırmır. Daha doğrusu, təşkilat üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr kimi mövcud ikitərəfli əməkdaşlıq sahələrini genişləndirərək regiona fayda verməsi üçün çoxtərəfli əməkdaşlığa çevrilmək niyyəti daşıyır. Təşkilat, eyni zamanda, tarixi İpək Yolunun bərpası, regional Türk Diaspor mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir.

TÜRKPA isə tarix, dil və mədəniyyət ümumiliyinin verdiyi imkanlardan istifadə edərək parlament diplomatiyası vasitəsilə türk xalqlarının və dövlətlərinin ümumi problemlərinin açıq müzakirəsi üçün əlverişli siyasi dialoq forumu rolunu oynayır. TÜRKPA-nın ilk Baş katibi olaraq dörd il Parlament Assambleyasına rəhbərlik etmiş bir şəxs kimi və eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təqdimatı və digər üzv dövlət başçılarının hərtərəfli dəstəyi ilə seçilmiş və dörd il Türk Şurasının Baş katibi olaraq fəaliyyət göstərmiş bir şəxs kimi deyə bilərəm ki, dövlət başçılarımızın vermiş olduğu tapşırıqlar uğurla həyata keçirilməkdədir və iqtisadi, siyasi, strateji əməkdaşlıq istiqamətində məhz bu qardaş təşkilatlar ikitərəfli platformanın çoxtərəfli platformaya çevrilməsinin ən gözəl nümunəsidir.

Yuxarıda qeyd olunanlarla yanaşı, şübhəsiz, qardaş türk respublikaları – Özbəkistan və Türkmənistanla olan əməkdaşlığın genişləndirilməsi də çox əhəmiyyətlidir. Əlbəttə, bu könüllü əsasda olmalıdır. Qeyd etmək lazımdır ki, türkdilli ölkələrin dövlət başçılarının 2018-ci ilin sentyabr ayında Qırğızıstanda keçirilmiş Zirvə toplantısında, təxminən 20 illik fasilədən sonra Özbəkistan dövlət başçısı səviyyəsində iştirak etmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Macarıstan Türk Şurasında müşahidəçi statusu almışdır. Macarıstanın Baş Naziri Viktor Orban da Qırğızıstanda

keçirilən Zirvə görüşünün iştirakçısı olmuşdur. Artıq bu ölkələrin təmsilçiləri Türk Şurası və TÜRKPA-nın toplantılarında müşahidəçi və qonaq qismində iştirak edirlər. Bu fəaliyyətlər gələcəkdə qardaş ölkələrin türk əməkdaşıq qurumlarında tamhüquqlu üzv kimi iştirak etmələri üçün əlverişli zəmin yaradır. Bu da Türk Şurası və digər türk əməkdaşlıq qurumlarının dövlət başçılarımızın vermiş olduğu tövsiyələrə və istiqamətə uyğun olaraq fəaliyyətinin bariz göstəricisidir.

Türkdilli dövlətlər regionda öz aralarında əməkdaşlıq etməklə bərabər, başqa ölkələrlə də dostluq və qarşılıqlı anlayış şəklində münasibətlərini inkişaf etdirirlər. Ona görə də türkdilli ölkələr arasında Türk Şurası və TÜRKPA kimi beynəlxalq təşkilatlar digər üzv olmayan ölkələr və təşkilatlar üçün hər zaman açıq olmuşdur. Dövlət başçılarımız dəfələrlə öz bəyanatlarında bunu xüsusi olaraq vurğulamışlar ki, bizimlə qarşılıqlı əməkdaşlığa maraq göstərən bütün təşkilatlar və ölkələr bu təşkilatların içərisinə inteqrasiya edə bilərlər və bununla da ölkələrimizin hər birinin ortaq maraqlarına xidmət edəcək şəkildə məmnunluq duyulacaq. Məhz buna görə də Özbəkistan, Türkmənistan və Macarıstan bu inteqrasiya prosesinə qoşulmuşlar və əminik ki, bu proses gələcəkdə daha da inkişaf edərək davam edəcəkdir.

Bundan əlavə, yuxarıda qeyd olunan türk əməkdaşlıq qurumları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edirlər. Türk Şurası BMT, BMT-nin İnkişaf Proqramı, Dünya Ticarət Təşkilatı, ATƏT və digər nüfuzlu təşkilatlar ilə mükəmməl dialoq qurmuşdur. TÜRKPA İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, Beynəlxalq Parlamentlərarası İttifaq, Beynəlxalq Parlamentlərin Baş Katiblərinin Assosiasiyası, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası və Asiya Parlament Assambleyası tərəfindən müşahidəçi statusu almışdır. Eyni zamanda, Assambleya ATƏT, ATƏT PA, Avropa Parlamenti, İƏT, GUAM, MDB PA, Baltik Assambleyası və QDİƏT Parlament Assambleyası kimi bir sıra hökumətlərarası və parlamentlərarası təşkilatlarla əlaqələri inkişaf etdirir və fəaliyyətlərində qonaq qismində iştirak edirlər. Beynəlxalq əməkdaşlıq çərçivəsində, TÜRKSOY qeyri-maddi mədəni irsin qorunması ilə bağlı UNESCO ilə birgə fəaliyyətlər həyata keçirməklə əlaqələri inkişaf etdirir. Digər beynəlxalq təşkilatlarda bu cür səviyyədə iştiraklar, türkdilli ölkələrə onların maraq dairəsində olan məsələlərin müzakirəsi və beynəlxalq arenada dəstəklənməsində ortaq mövqedən çıxış etmək üçün önəmli imkanlar yaradır.

Siyasi əlaqələrlə yanaşı, türkdilli dövlətləri bir-birinə bağlayan iqtisadi əlaqələr də mövcuddur. Təqdirəlayiq haldır ki, türkdilli ölkələr arasında iqtisadi münasibətlər hər il inkişaf edir, ticarət əlaqələri genişlənir. Təkcə 2017-ci ildə Azərbaycanın Türk Şurası ölkələri ilə ticarət dövriyyəsi 11,4 faiz, 2018-ci ilin 8 ayı üzrə isə 16 faiz artıb. İnvestisiya sahəsində qarşılıqlı səmərəli əməkdaşlıq həyata keçirilir. Azərbaycan Türk Şurası ölkələrinə 14 milyard ABŞ dollarından çox, Türk Şurası ölkələri isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan artıq sərmayə yatırıb. Bu iqtisadi əlaqələri daha da genişləndirmək üçün Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eləcə də digər türkdilli ölkələrin də qoşula biləcəyi TANAP qaz kəməri kimi daha geniş imkanlar var. Bundan başqa birlik ölkələri arasında investisiya yatırımı və onlayn ticarətin genişlənməsi də önəmli imkanlardan hesab olunur.

19 oktyabr 2018-ci ildə Türkiyədəki dünya miqyasında çox önəmli layihələrdən olan “Star” neft emalı zavodunun açılışını qeyd etmək lazımdır. 6.3 milyard ABŞ dolları dəyərində olan bu layihə, əslində, Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin hansı səviyyədə olduğundan, bu əlaqələrin hansı istiqamətdə getdiyindən və iki ölkə arasında olan strateji əməkdaşlıqdan xəbər verir.

Qardaş dövlətlər olan Qazaxıstanın Türkiyə ilə ikitərəfli ticarət dövriyyəsi dörd milyard dollar təşkil edir. Qırğızıstan ilə bu rəqəm bir milyard dolları ötmüş, Azərbaycan ilə yarım milyard dollara çatmışdır.

Bu faktlar göstərir ki, ölkələrimizin ümumi iqtisadi gücü ildən-ilə artır. Qazaxıstan, Azərbaycan və Türkiyə, həmçinin kosmik proqramlara malikdirlər. Bununla yanaşı, türkdilli dövlətlər iqtisadiyyatlarına yeni texnologiya və ixtiralar təqdim etməklə yerli sənaye sahələrini inkişaf etdirirlər. Karbohidrogen boru kəmərləri, avtomobil və dəmir yolu şəbəkələri inşa olunur və ya əsaslı təmir edilir.

Eləcə də Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında imzalanmış Türk qardaş limanları

haqqında Anlaşma Memorandumu türkdilli ölkələr arasında nəqliyyat dəhlizlərinin inkişaf planları ilə milli nəqliyyat planlarını birləşdirən daha səmərəli regional nəqliyyat sisteminin yaradılması üçün nəqliyyat sahəsində əməkdaşlığın əsas istiqamətlərini müəyyən edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilir.

***Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin iqtisadi göstəriciləri***

| Ölkə | Əhali (2018) | Sahə (km²) | Ümumi Daxili Məhsul (nominal) (2018) | Adambaşına düşən ÜDM (nominal) (2018) | Adambaşına düşən ÜDM (nominal) (2019) |
|---|---|---|---|---|---|
| Azərbaycan | 9,898,085 | 86,600 | $46,940 milyard | $4,721 | $11,674 |
| Qazaxıstan | 18,272,400 | 2,724,900 | $170,539 milyard | $9,331 | $20,609 |
| Qırğızıstan | 6,389,000 | 199,900 | $8,093 milyard | $1,281 | $1,898 |
| Özbəkistan | 33,254,000 | 447,400 | $50,500 milyard | $1,532 | |
| Türkiyə | 82,003,882 | 783,562 | $766,509 milyard | $9,311 | $13,301 |
| Ümumi | 149,817,367 | 4,242,362 | $1,042,581 milyard | $7,047 | $13,718 |

*Mənbə: https://az.wikipedia.org/*

***Türk Dövlətləri Təşkilatının müşahidəçi ölkələrinin iqtisadi göstəriciləri***

| Ölkə | Əhali (2021) | Sahə (km²) | Ümumi daxili məhsul (nominal) (2020) | Kişi başına Ümumi daxili məhsul (nominal) (2020) |
|---|---|---|---|---|
| Macarıstan | 9.709.786 | 93,030 | $149,9 milyard | $15.373 |
| Türkmənistan | 6.341.855 | 488,099 | $42,7 milyard | $7.411 |
| Şimali Kipr Türk Respublikası | 382,836 | 3,355 | $4,234 milyard | $14,942 |
| Ümumi | 15,802,000 | 581,129 | $208,771 milyard | $24,335 |

*Mənbə: https://az.wikipedia.org/*

Yeni nəqliyyat infrastrukturunun yaradılması ilə türk dünyası, eyni zamanda, nəqliyyat şəbəkəsi vasitəsilə də birləşəcəkdir. Bu istiqamətdə Azərbaycanda görülmüş nəhəng işlər xüsusilə vurğulanmalıdır. İlk növbədə, Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini vurğulamaq istərdim. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi, qlobal layihədir və Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulmuşdur. Bu layihənin həyata keçməsindən sonra Ələt limanının imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olmuşdur ki, bu imkanları ilə Ələt regionda ən böyük qeyri-neft yüklərin daşınması limanıdır. Limanın da əhəmiyyəti çox önəmlidir, Qazaxıstan və Özbəkistanın da bu layihəyə qoşulması onun önəmini artırır.

Təbii ki, türk dünyası Türküstandan, Mərkəzi Asiyadan çox genişdir: Yakutiya, Sibir türkləri var; Volqaboyu türkləri — tatarlar, başqırdlar, çuvaşlar var; Şimali Qafqaz türkləri var. Amma Azərbaycan türklərinin türk dünyasının birləşməsində böyük rolu var, çünki Türkiyə türklərindən sonra dünyada sayca ən çox olan türk xalqı azərbaycanlılardır — onlar dünya türklüyünün beşdə birindən çoxunu təşkil edirlər. Və ona görə də dünya azərbaycanlılarının birliyinə, mütəşəkkilliyinə nail olmaq üçün Heydər Əliyevin apardığı ardıcıl mübarizə və bugünkü günümüzdə onun layiqli davamçısı olan Prezident İlham Əliyevin apardığı siyasət türk birliyi, mütəşəkkilliyi uğrundakı mübarizənin, heç şübhəsiz, fəal tərkib hissəsi, fundamental çıxış (və dayaq!) nöqtəsidir.

## ƏDƏBİYYAT

1. “Xalq qəzeti”. - 2009. - 18 iyul. - S. 3.
2. “Kaspi” qəzeti. -2013. -10 aprel. -S.11.

3. Vikipediya.https://az.wikipedia.org/wiki/T%C3%BCrk_D%C3%B6vl%C9%99tl%C9%99ri_T%C9%99%C5%9Fkilat%C4%B1
4. https://azertag.az/xeber/Turkdilli_dovletler_arasinda_strateji_emekdasliq_Azerbaycanin_xususi_rolu-1500519

***Арзу Беюкага кызы Ибрагимли***
***Бакинский Государственный Университет, преподователь,***
***0000-0003-1540-7965***
***Arzushka777@gmail.com.***

**Стратегия единства тюркского мира: от Гейдар Алиева до Ильхама Алиева**

***Резюме***
В статье автор исследовал вопросы сотрудничества между Азербайджаном и тюркоязычными странами, особенно в сфере экономического сотрудничества. В статье сделан экскурс в сотрудничество тюркских государств. Отмечается, что сотрудничество тюркоязычных стран началось после распада СССР. В статье также показаны крупные экономические проекты, реализуемые тюркоязычными странами.
***Ключевые слова: Гейдар Алиев, Ильхам Алиев, Союз тюркоязычных государств, сотрудничество, Азербайджан.***

***Arzu Boyukaga Ibrahimli***
***Baku State University,***
***0000-0003-1540-7965***
***Arzushka777@gmail.com.***

**The strategy of the unity of the Turkic world: from Heydar Aliyev to Ilham Aliyev**

***Summary***
In the article, the author studied the issues of cooperation between Azerbaijan and Turkic-speaking countries, especially economic cooperation. The article made an excursion to the cooperation of the Turkish states. It is noted that the cooperation of Turkic-speaking countries began after the collapse of the USSR. The article also shows the major economic projects implemented by Turkic-speaking countries.
***Key words: Heydar Aliyev, Ilham Aliyev, Union of Turkic Speaking States, cooperation, Azerbaijan.***

**UOT 339**

***Aybəniz Həmzə qızı OSMANOVA***
***elmi işçi, AMEA-nın A.A.Bakıxanov adına***
***Tarix İnstitutunun "Azərbaycanın***
***sovet dövrü tarixi" şöbəsi***
***skazka-alin@mail.ru***
***orcid.org/0000-0002-9030-0618***

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TÜRK DÖVLƏTLƏRİNİN SİYASİ-İQTİSADİ, MƏDƏNİ ƏMƏKDAŞLIĞININ GÜCLƏNDİRİLMƏSİNDƏ ROLU

***Xülasə***
SSRİ-nin dağılmasından sonra yaranmış yeni dünya reallıqları türk xalqlarının hərtərəfli inteqrasiyasını vacib və zəruri etmişdir. Türk xalq və dövlətlərinin tarixləri üçün, bu taleyüklü məsələlərin ardıcıl və məqsədyönlü həlli üçün xüsusi fəaliyyət proqramı və qətiyyətli liderlər olması mü-

hüm şərtlər idi. Məhz müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası öz Ümummilli lideri Heydər Əliyevin timsalında bu tarixi missiyanı öz üzərinə götürdü. Məhz bu məntiqi nəticələr həm də gələcək üçün mayak rolunu oynayacaq yeni nəticələrə gəlməyə əsas yaradır:

- xalqların taleyində tarixi şərait, zaman, məkan və tarixi şəxsiyyətlər mühüm rol oynayır;
- Ümummilli lider Heydər Əliyev irsi xalqlarımızın gələcəyi üçün əvəzsiz örnəkdir;
- inteqrasiya proseslərinin sürətləndirilməsini türk xalqlarının ümumi maraq və mənafeləri tələb edir.

***Açar sözlər: Heydər Əliyev, dövlət, Türk dünyası, siyasət, həmrəylik***

***

SSRİ-nin dağılması ilə keçmiş imperiya məkanında yeni müstəqil dövlətlər yarandı. Yenicə müstəqil olmuş ölkəmizin qarşısında olduqca çətin, həlli böyük zəhmət və qabiliyyət, dövlətçilik təcrübəsi tələb edən iş dururdu. Azərbaycan üçün son dərəcə taleyüklü, həlledici məqamda xalq özünün yetişdirdiyi tarixi şəxsiyyəti meydana çıxara bildi. Gələcək Azərbaycan dövlətçiliyi üçün çox mühüm olan bu missiyanın əsas ağırlığı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çiyninə düşdü. Onun rəhbərliyi və birbaşa iştirakı ilə Azərbaycan Respublikası yalnız özünün qərbyönlü siyasət doktrinasını yaratmaqla bərabər, həm də siyasi, tarixi, dini, mədəni baxımdan yaxın olduğu Şərq ölkələri, qardaş türk xalqları və dövlətləri ilə də güclü və hərtərəfli əlaqələr yaradılması zərurətini dövlət siyasətimizin prioritetlərindən birinə çevirdi. "Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur". [3, səh. 45] 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında deyilmişdir və Ümummilli Liderimiz Heydər Əliyevə məxsusdur.

Müasir Azərbaycan tarixinin və siyasətinin bayraqdarı olan Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan – Türkiyə və digər türk dövlətlərinin hərtərəfli əlaqələrinin inkişafında danılmaz və əvəzedilməz xidmətləri vardır. Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, beynəlxalq diplomatik əlaqələrin möhkəm təməli və dinamik təkamülü də Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Daha doğrusu, "Dünyanın ikiqütblü siyasi sisteminin dağıldığı və yenisinin hələ tam şəkildə öz təşəkkülünü tapa bilmədiyi gərgin və qarışıq bir zamanda, qüdrətli dövlətlərin mənafelərinin çarpazlaşdığı və toqquşduğu məqamlarda geostrateji mövqeyinə görə qərb, şərq, şimal və cənub arasında ideal körpü yaradan, zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanımızda onun keşməkeşli, mürəkkəb və məsuliyyətli bir xadiminin rəhbərlik etməsi taleyin və Tanrının bizə bəxş etdiyi ən böyük ərmağandır" [2, səh.15]

Tarixi şəxsiyyətləri zaman və konkret xalqlar yetişdirir. Şəxsiyyətlər də öz cahanşümul əməl və ideyaları ilə həm tarixi yaradır, həm də tarixi inkişafı istiqamətləndirirlər. Ümummilli lider Heydər Əliyev də müasir dövrümüzün inkişaf axarlarını zərgər dəqiqliyi ilə bilirdi və xarici siyasət kursumuzun son dərəcə praqmatik və həssas şəkildə müəyyən olunaraq milli dövlətçilik maraq və mənafelərimizə tam uyğunlaşdırılması - Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən türk dünyasında aparıcı mövqelərə çıxması, ümumtürk həmrəyliyinin, türk dövlətlərinin iqtisadi və siyasi əməkdaşlığının təmin olunmasında əvəzsiz xidmətlər- bütün bunlar Heydər Əliyev dühasının təntənəsi idi. Məhz bu xidmətlərinə görə onun adı türk dövlətləri və xalqları tərəfindən hörmətlə anılır, türk dövlətlərinin arasındakı hərtərəfli əlaqələrin inkişaf etdirilməsində onun adı məmnunluqla qeyd olunur. 1993-cü ildə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı, qloballaşan dünya reallıqları, regionumuzun strateji əhəmiyyətinin son dərəcə artması həm Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, həm də SSRİ-nin dağılması nəticəsində müstəqilliklərinə qovuşmuş türk dövlətləri və türk dövlətlərinin avanqardı və lokomotivi olan Türkiyə dövləti üçün tarixi şans oldu!

Orta Asiyanın türk respublikaları ilə daha sıx inteqrasiyasının təmin olunması,bütün qardaş türk dövlətlərinin qarşılıqlı münasibətlərdə etnik, dini, mənəvi-əxlaqi, soykök birliyinə əsaslanmaqla

işlək və bitkin konsepsiya şəklinə salınması dövrün sifarişi və çağırışı idi. Görkəmli dövlət xadimimiz, dünya siyasi arenasının liderlərindən olan Heydər Əliyev proqram xarakterli çıxışlarında xüsusi vurğulayırdı ki, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda, keçmiş Sovetlər İttifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Bəli, bu tezislər çox böyük, strateji əhəmiyyətli, türk dövlətlərinin inkişaf və inteqrasiyasına hədəflənmiş əsl proqram xarakterli tarixi çıxış idi. Türkçülüyün ideoloqlarından biri olan İsmayıl bəy Qaspıralının kəlamına istinad edən Ümummilli lider demişdir: "XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olmuşuq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır". [2, səh. 85]

Müasir türk dünyasının flaqmanı olan Türkiyə ilə münasibətlərimizin möhkəm təməl və prinsiplər bünövrəsi üzərində qurulması - ortaq dil, tarix, ənənələrə malik türk xalqlarının ortaq keçmişdən birgə möhtəşəm gələcək quruculuğuna köklənməsi, Azərbaycan-Türkiyə əlaqələrinin özündə yeni keyfiyyət çalarları ehtiva etməsi Heydər Əliyev zəkasının ilk bəhrə və cücərtiləri idi. Türk dövlətləri başçılarının iştirakı ilə keçirilən Zirvə toplantıları 1992-ci il oktyabr ayının 30-31-də Ankarada, ikinci toplantı 1994-cü il oktyabr ayının 19-da İstanbulda, üçüncü toplantı 1995-ci il avqust ayının 28-də Bişkekdə, dördüncü toplantı 1996-cı il oktyabr ayının 21-22-də Daşkənddə, beşinci toplantı 1998-ci il iyunun 9-da Astanada, altıncı toplantı 2000-ci il aprel ayının 8-də Bakıda, yeddinci toplantı 2001-ci ilin aprel ayının 26-27-də İstanbulda, 2009-cu ildə Naxçıvanda keçirilmişdir. 2002-ci ildə Aşqabadda keçirilmiş VIII Zirvə görüşündə dövlət başçıları 19 maddədən ibarət bəyannamə imzalamışlar. Bu toplantıların hər biri türk dövlətlərinin hərtərəfli inteqrasiyası yolunda atılmış xüsusi əhəmiyyətli tədbirlər idi. Naxçıvanda keçirilmiş IX Zirvə görüşündə türkdilli ölkələrin dövlət başçıları Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sənəd (2009) imzaladılar. [1, səh. 534.]

Heydər Əliyevin türk dünyası ilə tərəfdaşlığa verdiyi ən böyük töhfələrdən biri isə ölkəmizin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkiyə üzərindən dünyaya açılması oldu. Əsas ixrac neft kəmərinin Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsi Heydər Əliyevin uzaqgörən siyasətinin növbəti parlaq təntənəsi oldu! 2002-ci ildə boru xəttinin təməli atıldı və beləcə üç dənizin (Xəzər, Qara və Aralıq dənizləri) əfsanəsi gerçək oldu. Eyni zamanda, Bakı-Ceyhan türk dünyasını (Orta Asiyadan Türkiyəyədək) bir-birinə bağlayan strateji kəmərə çevrildi, bu gün Qazaxıstan da neftinin bir hissəsini bu marşrutla ixrac edir. Bakı-Tbilisi-Ərzurum qaz xəttinin istifadəyə verilməsi və Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə Xəzər və Azərbaycan üzərindən türk dünyasının Avropa-Asiya nəqliyyat dəhlizinə çıxışı oldu. Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq səviyyəsinə baxdıqda, Azərbaycanın ev sahibliyi ilə "Böyük İpək yolu" layihəsinin (Avropa-Asiya nəqliyyat dəhlizi) təməlinin qoyulması və s.aktual layihələrdə Heydər Əliyev konsepsiyası aydın görünür.

Böyük qloballaşmaya aparıb çıxaran nəhəng inteqrasiya magistralına qoşulmuş türk dövlətlərinin sosial-iqtisadi, siyasi, hərbi və s. sahələrdəki inteqrasiya prosesləri məntiqi olaraq eyni soykökə malik xalqlarımızın mədəni əlaqələrinin də hərtərəfli inteqrasiyasına güclü təkan verməkdədir. Bütün bu məntiqi inkişaf və inteqrasiya proseslərinin müasir dövrdəki baş memarı və ideoloqu isə Ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Bu gün də Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev ideyaları ilə silahlanmaqla bütün sahələrdə olduğu kimi türk dövlətlərinin qarşılıqlı əlaqələrinin daha intensiv və məhsuldar inkişafına nail olmaq üçün Ümummilli liderin xarici siyasət kursunu uğurla davam etdirməkdədir. Prezident İlham Əliyev 11 noyabr 2022- ci ildə Türk Dövlətləri Təşkilatının IX Zirvə (Səmərqənd) toplantısında demişdir: "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir. Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə

edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.” [Elektron resurs.AZERtac.]

Məhz bu ənənəvi və məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsidir ki, Azərbaycan türk dünyasının aparıcı dövlətlərindən birinə çevrilmişdir.

**ƏDƏBİYYAT**


1. Ağasiyev İ.K., Səlimov S.D., Azərbaycan tarixi(Ali məktəblər üçün dərslik)Bakı-2017.
2. Azərbaycan Beynəlxalq aləmdə: (Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, “Azərbaycan”, 2002, 342 s.
3. Əliyeva F. “Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri”. Bakı-2007.
4. [Elektron resurs] AZERtac.Baku,11 noyabr 2022. president.az›az/articles/view/57816



***Айбениз Гамза кызы Османова***
***Ученый имени А.А.Бакиханова НАНА***
***Институт Истории “История***
***Азербайджана советской эпохи” отделение***
***skazka-alin@mail.ru***


**Роль национального лидера Гейдара Алиева в укреплении политико-экономического, культурного сотрудничества между Турецкими государствами**


***Резюме***

Новые мировые реалии, возникшие после распада СССР, сделали важной и необходимой всестороннюю интеграцию тюркских народов. Для истории турецкого народа и государства важными условиями были наличие специальной программы действий и решительных лидеров для последовательного и целеустремленного решения этих судьбоносных вопросов. Именно после обретения независимости Азербайджанская Республика взяла на себя эту историческую миссию в пример общенационального лидера Гейдара Алиева. Именно эти логические результаты также дают основу для новых выводов, которые послужат маяками на будущее:

- Исторические обстоятельства, время, пространство и исторические личности играют важную роль в судьбах народов.
- Наследие общенационального лидера Гейдара Алиева является бесценным примером для будущего нашего народа.
- Ускорения интеграционных процессов требуют общие интересы и интересы турецкого народа.



***Ключевые слова: Гейдар Алиев, государство, Тюркский мир, политика, солидарность.***



***Aybeniz Hamza Osmanova***
***Scientist Named after A.A.Bakikhanov of ANAS***
***Institute of History “Soviet era***
***history of Azerbaijan” department***
***skazka-alin@mail.ru***


**National leader Heydar Aliyev's role in strengthening political-economic, cultural cooperation between Turkish states**


***Summary***

The new world realities that emerged after the collapse of the USSR made the comprehensive integration of the Turkish peoples important and necessary. For the history of the Turkish people

and states, the existence of a special action program and determined leaders for the consistent and purposeful solution of these fateful issues were important conditions. It was after gaining independence that the Republic of Azerbaijan undertook this historical mission in the example of its National Leader Heydar Aliyev. It is these logical results that also provide a basis for coming to new conclusions that will serve as beacons for the future:

- Historical circumstances, time, space and historical figures play an important role in the fate of peoples.
- The legacy of National Leader Heydar Aliyev is an invaluable example for the future of our peoples.
- Acceleration of the integration processes is required by the common interest and interests of the Turkish people.

***Key words: Heydar Aliyev, State, Turkic world, Politics, Solidarity***

**UOT: 94**

***Kəmalə Allahverdi qızı XUDAVERDİYEVA***
***AMEA Qafqazşünaslıq İnstitutunun***
***Ermənişünaslıq şöbəsinin baş mütəxəssisi***
***https://orcid.org/0000-0002-3789-2706?lang=en***
***kamala.khudaverdiyeva@bk.ru***

## QARABAĞ PROBLEMİNİN HƏLLİNDƏ HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ

***Xülasə***

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyevin xarici siyasətində xüsusi yer tuturdu. Hakimiyyətə gəlməmişdən, yəni 1993-cü ildən öncə də Heydər Əliyev Qarabağ məsələsinin həllində daima ön planda olmuş, xalqı üçün əlindən gələni əsirgəməmişdir. Hakimiyyətə gəlməmişdən öncə 20 Yanvar faciəsinin bütün dünyaya çatdırılması üçün, erməni vəhşiliklərini açıq-aydın şəkildə dünya mediasına göstərmək üçün böyük addımlar atmışdır. Ermənilərin Qarabağı öz torpaqları kimi göstərmələri, ərazi iddialarının gün-gündən artması yalnızca dövləti və xalqı deyil, Heydər Əliyevi də çox narahat edirdi. Ulu öndər hakimiyyətə gəldikdən sonra isə Qarabağ məsələsi ilə daha yaxından maraqlana bilmişdir. Bunun üçün ilk olaraq vəziyyətin sülh yolu ilə həllinə fikrini yönəldən Heydər Əliyev, hər şeyin müharibəsiz və itkisiz həll edilməsinin tərəfdarı idi. Və atəşkəsin imzalanması da bu addımlardan biri idi. Qarabağ məsələsinin həllinə dair daima var gücü ilə çalışan ulu öndərin siyasi irsini davam etdirən prezident İlham Əliyev nəticə olaraq 44 günlük müharibədə bariz şəkildə bütün dünyaya göstərə bilmişdir. Əlbəttə ki, bütün bunlar ümummilli lider Heydər Əliyevin uzun illər davam edən çabasının və uzaqgörənliyinin nəticələridir.

***Açar sözlər: Heydər Əliyev, Qarabağ, 44 günlük müharibə, erməni vəhşilikləri, II Qarabağ müharibəsi***

***

Tarixi proseslərin əlverişli məqamlarından istifadə etməyi “yaxşı bacaran” ermənilər XX əsrdə Rusiyada çarizmin süqutu və Sovet imperiyasının meydana gəlməsi ilə yaranmış əlverişli şəraitdə inzibati ərazi məsələsini qaldırdılar və DQMV kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olan bir qurum yaratdılar. Ermənilərin bu ərazilərdə möhkəmlənməsi onların özlərinə görə deyil, erməniləri himayə edən bir sıra böyük dövlətlərin mənafeyinə uyğun gəldiyi üçün geniş vüsət alırdı. Bu məsələ ilk növbədə öz xristianlıq missiyasını Şərqə doğru genişləndirmək məqsədi güdən Roma papasının istəyinə, sonralar isə Şərq siyasəti yeridən Avropanın və “İsti dənizlərə doğru”, “Qafqaz” siyasəti yürüdən Rusiyanın istəklərinə uyğun idi. XVIII əsrdən Qafqazı, o cümlədən Cənubi Qafqazı ələ keçirmək məqsədilə geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail oldu. XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləkəçilik siyasətini həyata keçirməsi üçün hazırladıqları planlar bu

proseslərin istiqamətlərini müəyyənləşdirdi. XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ keçirmək üçün Osmanlı dövləti və İranla apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. Qarabağ Rusiya imperiyasının tərkibinə keçdi. Rusiya İran və Türkiyədən bu ərazilərə 200 mindən artıq erməni köçürdü. Bununla da Cənubi Qafqazdakı koloniya siyasətini həyata keçirmək üçün özünə dayaq məntəqəsi yaratdı. Bu siyasətdən yararlanan ermənilər heç vaxt olmadıqları bir ərazidə erməni dövləti qurdular. Beləliklə, Azərbaycanın Qarabağ bölgəsi münaqişə yuvasına çevrildi. Ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə daha fəal çıxış etdilər və Azərbaycanın bir çox əraziləri ilə birlikdə Yuxarı (Dağlıq) Qarabağı da ermənilərin tarixi torpaqları kimi qələmə vermək məsələsini ortaya atdılar. 1920-ci il mayın 3-də XI Ordunun silahlı dəstələri Qarabağa soxuldu. Şuşa, Xankəndi və Qarabağın digər şəhər və kəndləri rus qoşunlarının, erməni quldur dəstələrinin nəzarəti altına keçdi. Çarizmin yerində yaranmış Sovet Rusiyası Qarabağda başlanmış azərbaycansızlaşdırma siyasətini davam etdirdi. Dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların gözləri qarşısında XX əsrin ən dəhşətli faciəsi – Xocalı soyqırımı baş vermişdir. Azərbaycan Respublikasının 20% ərazisi Ermənistan ordusu tərəfindən işğal edilmişdir. Ermənilərin həyata keçirdikləri bu təcavüz aktları nəticəsində respublikamıza külli miqdarda maddi ziyan dəymişdir. [1, 271]

Heydər Əliyev hakimiyyətə gələn zaman Qarabağ problemi özünün ən yüksük səviyyəsinə çatmışdı, Qarabağ müharibəsi, ərazilərimizin ard-arda işğalı, xalqımızın təcavüzə, soyqırıma məruz qalması - bütün bunlar Heydər Əliyevi məcbur edirdi ki, tez, qəti addımlar atsın. Heydər Əliyev hakimiyyətə gələn zaman Xocavənd (1992, oktyabr), Xocalı (1992, fevral), Şuşa (1992, may), Laçın (1992, may), Kəlbəcər (1993, aprel), Ağdam (1993, iyul), Cəbrayıl (1993, avqust), Qubadlı (1993, avqust), Füzuli (1993, avqust), Zəngilan (1993, oktyabr) işğal edilmiş, Qarabağ məsələsi iki dövlət arasında sülhü mümkünsüz hala gətirmişdi. Ermənistan dövlətinin Azərbaycan dövlətinə, xalqına yaşatdıqlarına dünya ölkələrinin, təşkilatlarının səssiz qalması vəziyyəti daha da çıxılmaz hala salırdı. Ona görə də, Heydər Əliyev hakimiyyətə gələn kimi, ilk olaraq bu problemin həllinə diqqət yönəltdi. Əlindən gəldiyi qədər məsələni diplomatik yolla, sülh yolu ilə həll etməyə çalışsa da Ermənistan tərəfi ədalətsizlik etməyə davam edirdi. [3]

Azərbaycan Respublikası Prezidenti Ermənistan-Azərbaycan münaqişəsinin, qondarma "Dağlıq Qarabağ problemi"nin, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və qorunması məsələlərinin həll edilməsində ilk gündən beynəlxalq təşkilatların gücündən istifadə edilməsinə, onların vasitəsilə bu məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırdı. Bu təşkilatlardan biri də ATƏT-dir. Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ATƏT-ə üzv qəbul olunmuşdur. O 1992-ci ilin martından Ermənistan-Azərbaycan məsələsi ilə bilavasitə məşğul olmağı öz üzərinə götürüb. Münaqişəni aradan qaldırmaq, Dağlıq Qarabağ məsələsini həll etmək üçün Minsk konfransı, Minsk qrupu yaratmışdır. Birləşmiş Millətlər Təşkilatı da bu məsələni ATƏT-in himayəsinə veribdir. Minsk qrupuna 12 dövlət daxildir. Heydər Əliyev Azərbaycanın dövlət başçısı kimi fəaliyyətə başladığı vaxtdan ATƏT-lə, onun Minsk qrupu ilə sıx əməkdaşlıq etmiş və münaqişənin aradan qaldırılmasında ATƏT-in fəaliyyətinə, xüsusilə Minsk qrupu vasitəsi ilə üstünlük şəraiti yaradılmasına daim çalışmışdır. Çünki, o bu yolu münaqişəyə son qoyulması üçün ən etibarlı yol, mövcud imkanların ən etibarlısı hesab edirdi. Xüsusilə ATƏT-in nümayəndələri ilə, Minsk qrupunun başçıları ilə dəfələrlə görüşmüş, söhbətlər aparmış, ATƏT-in bu məsələlərə bilavasitə qarışmasına, onun hətta təşəbbüsü öz əlinə almasına üstünlük vermişdi. Problemlərin həllinin reallaşmadığına baxmayaraq, öz fəaliyyətini daha da genişləndirmişdi. Azərbaycan Respublikası Prezidenti ATƏT-in zirvə görüşləri vasitəsilə Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ məsələsinin reallığa əsaslanan, obyektiv olaraq həll edilməsinə zəmin yaradılmasına çalışırdı. Müstəqil Azərbaycan Respublikası yaranandan sonra Azərbaycanın iştirak etdiyi ATƏT-in ilk zirvə görüşü 1992-ci ildə Helsinkidə olmuşdur. 1994-cü ilin dekabr ayında Macarıstanın Budapeşt şəhərində keçirilən ikinci zirvə görüşündə Heydər Əliyevin başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir. Üçüncü görüş 1996-cı il dekabrın 2-3-də Portuqaliyanın Lissabon şəhərində olmuşdur. Bu görüşdə də Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. Dördüncü görüş 1999-cu ilin noyabrında İstanbulda keçirilmişdir. Birinci görüşdə o vaxtkı Azərbaycan Respublikası Prezidenti Əbülfəz Elçibəy başda olmaqla Helsinkidə nümayəndə

heyəti iştirak etməsinə baxmayaraq, zirvə görüşünün Azərbaycanda olan sənədlərində Azərbaycan, Azərbaycan-Ermənistan münaqişəsi, Dağlıq Qarabağ haqqında məsələnin qoyulması haqqında heç bir məlumat yoxdur. 1994-cü il dekabrın 5-6-da ATƏM-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə keçirilən zirvə toplantısı xüsusilə yadda qaldı. Heydər Əliyev Budapeşt Zirvə görüşündə Ermənistanla Azərbaycan arasında müharibə məsələlərinin ilk dəfə olaraq gündəliyə salındığını qeyd edir və bu görüşdən çox şeylər gözlədiyinə ümid bəslədiyini vurğulayırdı. Azərbaycan Respublikası Prezidenti Budapeşt sammitində erməni təcavüzü nəticəsində respublikamızın ərazisinin 20%-nin işğal edilməsi, işğal olunmuş rayonların adları haqqında sammit iştirakçılarına məlumat verdi. Müharibə nəticəsində 20 mindən çox adamın həlak olması, təqribən 100 min nəfərin yaralanması və şikəst olmasını, 6 min nəfərin əsir düşməsi faktını qeyd edirdi. İşğal nəticəsində Azərbaycan ərazilərində 700 şəhər və kənd dağıdılmış, yandırılmış, bütün evlər, məktəblər, xəstəxanalar talan olunmuş, mədəniyyət abidələri məhv edilmişdi. Budapeşt zirvə görüşündə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin diplomatik fəaliyyəti, inandırıcı nitqində irəli sürülən müddəaların təsiri, apardığı ikitərəfli və çoxtərəfli danışıqları nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ probleminə dair qərar qəbul edilmişdi. [2]

Müstəqil Azərbaycan Respublikasının Prezidenti, böyük siyasi xadim Heydər Əliyevin başçılığı ilə nümayəndə heyəti ATƏT-in Lissabon sammitində iştirak etdilər. Bu sammit 1996-cı ilin dekabrında baş verdi. Azərbaycan nümayəndə heyəti Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ məsələsinin mahiyyətini orada iştirak edənlərə izah etmiş, öz prinsiplərini onlara bildirmişdi. Onlar üç formuldan ibarət idi: 1. Azərbaycanın ərazi bütövlüyünün tanınması; 2. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək idarəetmə statusunun verilməsi; 3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunmasına zəmanət verilməsi. Çox təəssüf olsun ki, Ermənistanın etirazı nəticəsində bu prinsiplər elə sənəd üzərində qaldı, qəbul edilmədi. Lissabon sammitinin Azərbaycan üçün mühüm nəticələri olmuşdur. İlk növbədə, Azərbaycanın haqlı mövqeyini, ədalətli tələblərini dünyaya çatdırdı. Sammitin iştirakçıları, 53 dövlətin rəhbərləri Prezidentimiz Heydər Əliyevi müdafiə edib dəstəklədi. 1999-cu ilin noyabrın 18-də İstanbulda ATƏT-in zirvə görüşü keçirildi. Burada da Azərbaycan nümayəndəliyi bildirdilər ki, son altı ildə suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsi erməni silahlı qüvvələrinin işğalı altında qalmışdır. Ermənistan tərəfində həyata keçirilən etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvalarından qovulmuşdur. [4, s. 328]

Azərbaycan Respublikası Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməkdə dünyanın böyük dövlət və hökumət başçıları ilə daim görüşlər keçirmiş, bu imkanlardan da istifadə etməyə üstünlük vermişdir. Bu faktı qeyd etmək kifayətdir ki, 1999-cu ilin fevralına qədər Heydər Əliyev 68 ölkənin prezidentləri, dövlət başçıları ilə 485 görüş keçirmişdir. Amerika Birləşmiş Ştatlarının prezidenti, xarici işlər naziri ilə 18 dəfə, Fransanın prezidenti və xarici işlər naziri ilə 16 dəfə, Rusiyanınkı ilə 28 dəfə, Türkiyənin rəhbərlərinin hamısı ilə dəfələrlə, 78 dəfə görüş keçirmişdir. Bu görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini ortaya atmış, bu barədə geniş məlumat vermiş və eyni zamanda Azərbaycana kömək etmələrini, Azərbaycana tərəfdar olmalarını xahiş etmişdi. Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə - keçmiş sədr Butros Butros Qali ilə, ondan sonra sədrlik edən Koffi Annan ilə 10 dəfə görüş keçirmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi barədə söhbət aparmışdı. Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının üç zirvə görüşündə çıxış etmiş, bu çıxışlarda Azərbaycanın vəziyyətini ətraflı təhlil edib, onun işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və köçkünlərin öz torpaqlarına qaytarılması üçün köməklik edilməsini xahiş etmişdi. Eyni zamanda BMT-nin qəbul etdiyi qətnamələri, xüsusilə, Azərbaycan haqqında qəbul edilən dörd qətnaməni yerinə yetirmədiyinə görə onu tənqid etmişdi. NATO-da üç zirvə görüşündə iştirak etmiş, buradakı çıxışlarında da Azərbaycanda qaçqınların vəziyyəti, respublikamızın ərazilərinin işğal edilməsi, Dağlıq Qarabağın işğalı və oradakı beynəlxalq hüquq normalarına, qanunlara zidd hərəkətlər haqqında məlumatlar vermiş və Azərbaycana kömək göstərilməsini xahiş etmişdi. İslam Konfransı Təşkilatının iki zirvə görüşündə iştirak etmiş və ətraflı çıxış etmişdi. İqtisadi Əməkdaşlıq Təşkilatının-EKO-nun dörd zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının beş zirvə görüşündə çıxış etmişdi. Müstəqil Dövlətlər Birliyinin üzvü kimi dövlət başçılarının bütün iclaslarında

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini qaldırmış, ona münasibət bildirməyi xahiş etmişdi. Amma qəribədir ki, bu birliyin üzvlərinin heç biri Ermənistanın təcavüzkar olmasını etiraf etməmişdir. Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı ATƏT-in Minsk qrupu tərəfindən 1997-ci ilin iyun ayında birinci təklif - "Paket həll" təklifi verildi. Azərbaycan Respublikası Prezidenti bu təklifi qəbul etdi. Lakin Ermənistan qəbul etmədi. Bundan sonra ikinci təklif, "mərhələli həll" təklifi irəli sürüldü. Heydər Əliyev onu da qəbul etdi. Ermənistan bunu da qəbul etmədi. Bu iki təklifin qəbul edilməsi heç də o demək deyildi ki, o, Azərbaycan üçün əlverişli idi. 1998-ci ilin sonunda üçüncü təklif, "ümumi dövlət" təklifi verilmişdi. Azərbaycan Respublikası Prezidenti bu təklifi eşidən kimi açıq şəkildə bildirmişdi ki, biz heç bunu müzakirə də etmək istəmirik. Çünki bu təklifi qəbul etmək o deməkdir ki, Azərbaycan ərazisində iki dövlət olur- Azərbaycan, bir də Dağlıq Qarabağ. [5, s. 140]

Nəticə etibarı ilə Heydər Əliyev prezident olduğu müddətdə əlindən gələni etsə də, həm Ermənistanın etirazları, həm də aidiyyatı təşkilatların, qurumların laqeydliyi üzündən bu məsələ sülh yolu ilə həll edilmədi. Amma çox sevindirici haldır ki, Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən İlham Əliyev öz diplomatiyası ilə beynəlxalq aləmdə də, döyüş meydanında da Ermənistanın layiqli cavabını verdi, Şanlı ordumuz torpaqlarımızı ard-arda düşmənin işğalından azad etdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild, Bakı, 2008-ci il, 608 s.
2. https://azvision.az/news/260134/--heyder-eliyevin-arzuladigi-azerbaycan--susa-azaddir,-qarabagimiz-dircelir!-.html
3. Prezident kitabxanası. 1993-2003-cü illər. Elektron sənədlər toplusu.
4. Prof. İradə Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, 2008. 670 səh.
5. Prof. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004. 472 səh.

***Камала Аллахверди Худавердиева***
***Старший Специалист Отдела Арменоведения***
***Института Кавказоведения НАНА***
***https://orcid.org/0000-0002-3789-2706?lang=en***
***kamala.khudaverdiyeva@bk.ru***

## Деятельность Гейдара Алиева в решении Карабахской проблемы

***Резюме***

Урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта занимало особое место во внешней политике Гейдара Алиева. Еще до прихода к власти, то есть до 1993 года, Гейдар Алиев всегда был в авангарде решения карабахского вопроса и делал для своего народа все, что мог. Перед приходом к власти он предпринял большие шаги, чтобы донести до всего мира трагедию 20 января, наглядно показать мировым СМИ армянские зверства. Не только государство и народ, но и Гейдар Алиев были очень обеспокоены претензией армян на Карабах как свою землю и нарастающими территориальными претензиями. После прихода к власти великого лидера он смог более внимательно заняться карабахским вопросом. По этой причине Гейдар Алиев, сосредоточивший свои мысли на мирном разрешении ситуации, был сторонником решения всего без войны и потерь. И подписание перемирия было одним из таких шагов. Президент Ильхам Алиев, продолживший политическое наследие великого лидера, который всегда всеми силами работал над решением карабахского вопроса, в результате смог наглядно показать всему миру 44-дневную войну. Конечно, все это результат многолетних усилий и дальновидности общенационального лидера Гейдара Алиева.

***Ключевые слова: Гейдар Алиев, Карабах, 44-дневная война, армянские зверства, Вторая карабахская война.***

*Kamala Allahverdi Khudaverdiyeva*
*Senior specialist of the Armenian studies*
*department of the Caucasian Studies Institute of ANAS*
*https://orcid.org/0000-0002-3789-2706?lang=en*
*kamala.khudaverdiyeva@bk.ru*

## Heydar Aliyev's activity in solving the Karabakh problem

*Summary*

The settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict had a special place in Heydar Aliyev's foreign policy. Even before he came to power, that is, before 1993, Heydar Aliyev was always at the forefront of solving the Karabakh issue, and he did everything he could for his people. Before coming to power, he took great steps to convey the tragedy of January 20 to the whole world, to show the Armenian atrocities clearly to the world media. Not only the state and the people, but also Heydar Aliyev were very worried about the Armenians' claim of Karabakh as their land and the increasing territorial claims. After the great leader came to power, he was able to take a closer interest in the Karabakh issue. For this reason, Heydar Aliyev, who focused his thoughts on the peaceful solution of the situation, was a supporter of solving everything without war and loss. And the signing of the ceasefire was one of these steps. President Ilham Aliyev, who continued the political legacy of a great leader who always worked with all his might to solve the Karabakh issue, was able to clearly show the whole world in the 44-day war as a result. Of course, all these are the results of long-term effort and foresight of national leader Heydar Aliyev.

***Key words: Heydar Aliyev, Karabakh, 44-day war, Armenian atrocities, Karabakh War II.***

**UOT 930.22**

*Nurlana Qərib qızı HƏMZƏYEVA*
*tarix üzrə fəlsəfə doktoru*
*Gəncə Dövlət Universiteti, Azərbaycan tarixi*
*kafedrasında baş müəllim.*
*ORCİD – İD 0009-0009-7296-5681*
*hemzeyeva_nurlana@mail.ru*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

*Xülasə*

Məqalədə Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrdən bəhs edilib. Ümumiyyətlə, iki dövlət arasında əlaqələrin böyük tarixi var. Dil və din birliyi, mədəniyyət, adətlər və ənənələr, ortaq mənşə bəhs etdiyimiz əlaqələri şərtləndirən amillərdir. Hər iki dövlət tarixən ən mürəkkəb dövrlərdə belə bir-birinə dəstək olmuşlar.

***Açar sözlər: əlaqə, iqtisadiyyat, siyasət, mədəniyyət, beynəlxalq münasibət.***

***

> *“Türk dünyası böyükdür. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur”.*
>
> ***Heydər Əliyev***

Dövlətçilik ideyalarının yaranması dövlətçiliyin varlığı demək deyildir. Müstəqil dövlətçilik ideyasının reallaşması, ümummilli və ümumbəşəri ideyaları özündə cəmləşdirən ümummilli liderin varlığından xəbər verir. Ümummilli lider olmadan müstəqillik, azadlıq, müstəqil dövlətçilik ideyalarını praktik şəkildə cəmiyyət həyatına tətbiq etmək mümkün deyildir. Azərbaycan xalqı

tarixdə böyük şəxsiyyətlər yetirmişdir. Azərbaycan cəmiyyətində ümummilli lider obrazı məhz XX əsrdə Heydər Əliyev şəxsiyyətində öz parlaq təcəssümünü tapdı. Heydər Əliyev əsrlər boyu Azərbaycan cəmiyyətində formalaşan ümummilli və ümumbəşəri ideyaları çox böyük məharətlə, siyasi uzaqgörənliklə cəmiyyət həyatına tətbiq etdi. Heydər Əliyev dövlətçiliyin yaranması və bərqərar olması üçün ilk növbədə milli birlik, mütəşəkkillik və həmrəylik yaradılmasına nail oldu. [5, s. 4] Azərbaycan haqqındakı təsəvvürləri, fikir və mülahizələri dünyaya yaydı. Bu fikir və ideyalar Azərbaycan mədəniyyətini, məişətini, etnik-milli keyfiyyətlərini, Azərbaycan dilini dünyaya çıxarmışdır. Azərbaycan hüdudlarından kənarda məhz Azərbaycan dilinin öyrənilməsi ilə həmin ümumbəşəri ideyalar barədə təsəvvürlər formalaşmışdır. Bu yeniliklər Azərbaycan hüdudlarından kənara yayıldıqca Azərbaycan cəmiyyətində yaranmış milli-mənəvi keyfiyyətlərin daşıyıcılarına çevrildi.

"Mən fəxr edirəm ki, azərbaycanlıyam", -deyirdi Heydər Əliyev. Heydər Əliyev bu sözləri ilə əslində dünyaya car çəkirdi. Dünyanı Azərbaycanla, azərbaycanlı ilə hesablaşmağa çağırırdı. [3, s.104] Bu sözlər həm də vətənə, dövlətə, millətə bağlılığın səmimi etirafıydı. Heydər Əliyev bununla da azərbaycançılığı etnik mənsubiyyətdən çıxararaq,ona dərin məzmun və məna verən fəxri titul səviyyəsinə yüksəldi. Qloballaşan dünyada azərbaycanlıların yerini müəyyən etdi, azərbaycançılıq ideologiyasını yaratdı. Heydər Əliyev öz həyatı ilə əfsanələri həqiqətə çevirdi, bugünkü və gələcək nəsillərin istinadgah yeri oldu.

"Bir millət, iki dövlət" aforizmini hər iki dövlətin milli şüarına çevirən Heydər Əliyev Türkiyə-Azərbaycan münasibətlərinin yüksək zirvəyə qalxmasında tarixdə görünməmiş işlər gördü. Onun Türkiyəyə sevgisi böyük idi. Bu mövzu daim beynəlxalq mətbuatın gündəmində olub. [7, s. 2] Məhz Heydər Əliyevin jurnalistlərlə səmimi işləmək təcrübəsi də ayrıca bir məktəb nümunəsi kimi qiymətləndirilməlidir. Həm də bu məktəbin banisi ona görə bütün media sisteminin marağındadır ki, o, ölkələrin tarixini, xalqların problemlərini çox yaxşı bilirdi. [6, s.18]

Heydər Əliyev Ermənistanın işğalçılıq siyasətinin, onların xalqımıza qarşı törətdikləri vəhşiliklərin bütün rəsmi görüşlərində Türkiyədə və dünyanın bir çox ölkələrində beynəlxalq ictimaiyyətə çatdırılmasında böyük rol oynadı. Türkiyənin bütün televiziya kanallarında müsahibələrində Azərbaycan – Türkiyə qardaşlığı, iki ölkə arasında iqtisadi əlaqələrlə birlikdə Qarabağ problemi ətrafında Türkiyə ictimaiyyətinə çox aydın açıqlamalar verən Heydər Əliyev daim bu problemin media ifadəsini diqqətdə saxlayırdı. [1, s. 225-234]

Azərbaycan ilə Türkiyə arasında böyük tarixi əlaqələrin mövcudluğunu, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsinin Azərbaycan üçün önəmli dönüş nöqtəsi olduğunu daima bildirən Heydər Əliyev "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır" deyə qeyd etmişdir. O bildirirdi ki, Azərbaycan - Türkiyə münasibətlərinin inkişafında hər iki tərəf maraqlıdır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artması deməkdir. Ona görə də bu iki dövlətin münasibətlərinin beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkşafı zəruridir. [2, s. 226]

Ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında, beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsini xüsusi diqqətdə saxlayan Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə bu məsələnin daha da inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir."

Ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin çox fərqli olduğunu göstərən əlamətlərdən biri də onun Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsidir. İki ölkə arasındakı münasibətlərdən danışarkən bir məsələyə də diqqət yetirmək lazımdır ki, Türkiyənin dövlət və hökumət başçılarının xaricə ilk rəsmi səfərlərinə məhz Azərbaycandan başlamaları artıq xoş ənənəyə çevrilib.

İkitərəfli əlaqələrin inkişafına yeni təkanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri vermişdir. Səfər çərçivəsində Türkiyə Prezidenti, Baş nazir və parlamentin rəhbəri ilə görüşən Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verərək mühüm sənədlər imzalamışdır. Bunun ardınca da 5-8 may 1997-ci il tarixində Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi. Heydər Əliyevin Türkiyəyə 12-17 mart 2001-ci ildə növbəti dəfə rəsmi səfərində isə Türkiyənin dövlət və hökumət rəhbərləri ilə görüşlərdə iki dövlət arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivlərinin müzakirəsi, imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə şərait yaradılması baxımından əhəmiyyət kəsb edir. [4, s. 40]

Ümummilli lider Heydər Əliyev 1997-ci ildə Türkiyənin "Dövlət nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülüb, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilib. Ümummilli liderin Türkiyənin bir çox universitetinin Fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xüsusi xidmətlərinin göstəricisidir.

Azərbaycan-Türkiyə iqtisadi münasibətləri də zəngindir; 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə "Türk petrolları" şirkətinin xarici neft şirkətləri konsorsiumunda təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi. 1999-cu ildə isə nəhəng "Şahdəniz" qaz-kondensat yatağının aşkar edilməsi ilə Azərbaycanla Türkiyə arasında qaz sahəsində əməkdaşlığın təməli yaradıldı. Və Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il martın 12-də Türkiyəyə rəsmi səfəri zamanı "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalandı. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmiş bu layihələr Azərbaycanın və Türkiyənin, eləcə də Avropanın və digər regionların enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Beləliklə, iqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində Türkiyə Azərbaycanın əsas tərəfdaşlarından birinə çevrilir.

Uzun illər boyu Sovet İttifaqının tərkibində olan Azərbaycan Respublikasının beynəlxalq mədəni fəaliyyətə birbaşa qoşulmaq hüququ olmasa da istər dil, istərsə də adət-ənənə oxşarlığı baxımından bir-birinə çox yaxın olan hər iki xalq mədəni-kulturoloji əlaqələr yaratmağa daima böyük ehtiyac duymuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, Azərbaycan-Türkiyə mədəni münasibətlərində də böyük dirçəliş baş verib. 2 noyabr 1994-cü ildə Türkiyə Böyük Millət Məclisində keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anma mərasimində və Bilkənt Universitetində Füzulinin 500 illik yubileyinə həsr olunmuş şənlikdə Azərbaycan Prezidenti Heydər Əliyev çıxış edib. Eyni zamanda Türk dramaturqlarının əsərlərinin Azərbaycan teatrındakı tamaşaları, eləcə də Azərbaycan dramaturgiyasının Türkiyə teatrlarında səhnələşdirilməsi teatrlarımızın yaxınlaşmasında müstəsna əhəmiyyət kəsb edib. Heydər Əliyevin 9 mart 2001-ci ildə Azərbaycan Atatürk Mərkəzinin açılması barədə Fərmanı mədəni əlaqələrimizin inkişafına güclü təkan verib. Heydər Əliyev 2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq protokolunun təsdiqi haqqında Sərəncam verib.Həmçinin, iki dövlət arasında mədəni əlaqələrin inkişafında həyata keçirilən tələbə mübadiləsi, qarşılılı tele-radio yayınları da mühüm rol oynayıb. Təməli Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan – Türkiyə mədəni əlaqələri müasir mərhələdə də daha yüksək templə inkişaf etməkdədir, bunu dövlət və hökumət rəhbərləri səviy-

yəsində, cəmiyyətlər və diasporalar əməkdaşlığında qeyd edilən tədbirlər də təsdiqləməkdədir.

Heydər Əliyevin hakimiyyəti dövründə beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə Azərbaycanla Türkiyənin mövqeləri çox yaxın olub və ya üst-üstə düşüb, tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparıb, bir-birinə qarşılıqlı dəstək veriblər. Azərbaycan digər təşkilatlar çərçivəsində də Türkiyə ilə faydalı əməkdaşlıq edib. İki ölkə arasında əlaqələrin gücləndirilməsi daim Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib.

Heydər Əliyev Azərbaycan xalqının tarixində parlaq səhifələr açmışdır. Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaratdı, onun daim, dönməz və əbədi olması üçün möhtəşəm bir proqram hazırladı. Heydər Əliyev Azərbaycanı dünyaya çıxardı. Dünya azərbaycanlılarına öz tarixi vətənini tanıtdı. Heydər Əliyev Azərbaycan xalqının əsrlərlə qazandığı milli-mənəvi keyfiyyətləri unudulmaq bəlasından xilas etdi və sübut etdi ki, milli və mənəvi keyfiyyətlər Azərbaycan xalqında güclü və zəngindir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev və mətbuat. III cild, Bakı, Nurlan, 2003, 640 səh.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı, Azərnəşr, 2007
3. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: N. İbrahimov, İ. Şükürov. Bakı, 1994
4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.
5. Qocayev Ə.Tarixi şəxsiyyətlər.Bakı.2008.]
6. Məmmədli Cahangir. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Zərdabi LTD MMC, 2012, 616 s.
7. Musa Urud. Zəngəzur. Bakı, Nurlan, 2016, 480 səh.



***Нурлана Гариб гызы Гамзаева***
***доктор философии по истории***
***Гянджинский Государственный Университет,***
***старший преподаватель кафедры Истории Азербайджана.***
***ORCİD –İD 0009-0009-7296-5681***
***hemzeyeva_nurlana@mail.ru***


**Общенациональный лидер Гейдар Алиев и Азербайджано-Турецкие отношения.**


***Резюме***

В статье рассказывается об отношениях между Азербайджаном и Турцией в годы правления Гейдара Алиева. В целом между двумя странами существует давняя история отношений. Единство языка и религии, культуры, обычаев и традиций, общность происхождения – факторы, обуславливающие отношения о которых мы говорим. Обе страны исторически поддерживали друг друга даже в самые трудные времена.



***Ключевые слова: общение, экономика, политика, культура, международные отношения.***



***Nurlana Garib Hamzayeva***
***doctor of philosophy in history***
***Ganja State University, senior lecturer at the***
***history department of Azerbaijan.***
***ORCİD –İD 0009-0009-7296-5681***
***hemzeyeva_nurlana@mail.ru***


**National leader Heydar Aliev and Azerbaijan- Turkey relations**


***Summary***

The article talks about the relations between Azerbaijan and Turkey during the years of Heydar Aliyev's rule. In general, there is a long history of relations between the two countries. The unity

of language and religion, culture, customs and traditions, common origin are the factors that condition the relations we are talking about. Both countries have historically supported each other even in the most difficult times.

***Key words: communication, economy, politics, culture, international relations.***

**UOT: 94**

***Sevinc Akif qızı QURBANOVA***
***Gəncə Dövlət Universiteti***
***Ümumi Tarix kafedrasının baş müəllimi***
***İD: 0000-0002-3796-4255***
***sevincakifqizi@mail.ru***

## AZƏRBAYCANIN TÜRK DÜNYASINA İNTEQRASİYASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı nəticə etibarilə təkcə Azərbaycan dövlətçiliyi üçün deyil, eyni zamanda yeni müstəqillik əldə etmiş digər türk dövlətlərinin inkişafı üçün önəmli hadisə idi. Heydər Əliyev Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaqla digər türk dövlətlərinin bərabərliyi, gələcək tərəfdaşlığı üçün tarixi xidmət göstərmiş oldu.

***Açar sözlər: inteqrasiya, türk dünyası, Türksoy, Bakı-Ceyhan, əsas ixrac neft kəməri***

***

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmamış, bütövlükdə türk dünyasını da əhatə etmişdir. Heydər Əliyev türk dünyasının inteqrasiyasının mahiyyətini türk ideoloqu İsmayıl bəy Qaspralının məşhur kəlamı ilə belə ifadə etmişdi: "XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olmuşuq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır"[ 2, s.114]. Ümummilli liderin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası ilə əlaqələrinin müfəssəl proqramını hazırlamışdır. Buraya aşağıdakıları aid etmək olar:

– Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;

– türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;

– türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük düha"lardan saymışdır. Heydər Əliyevin 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında söylədiyi fikirlər diqqətə layiqdir. "Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur" [ 3, s. 357].

Heydər Əliyevin Azərbaycanın türk dünyasına inteqrasiyasına verdiyi ən böyük töhfə ölkəmizin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkiyə üzərindən dünyaya açılması oldu. Əsas ixrac neft kəmərinin Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsi Heydər Əliyevin mürəkkəb geosiyasi şəraitdə, dünya gücləri və neft nəhəngləri ilə gərgin danışıqlarda nümayiş etdirdiyi çevik diplomatiya hesabına mümkün olmuşdu. "Şübhəsiz, mənim ürəyimdən keçən arzu bu xətti Ceyhana çəkməkdir. Onun çəkilməsi tək məndən asılı deyil. Konsorsiumda 11 xarici neft şirkəti var. Amma hər şeyi vaxtı gələndə həll edəcəyik", - deyə o, 1996-cı il noyabrın 13-də Türkiyə jurnalistlərinə müsahibəsində bildirmişdi [7]. 1999-cu ilin noyabrında İstanbulda Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair həlledici qərar verildi, ilkin hökumətlərarası saziş imzalandı. "İstanbul bəyannaməsi"nə Azərbaycan, Türkiyə, Gürcüstanın dövlət başçıları və layihəyə dəstək verən ABŞ rəhbəri Bill Klintonla yanaşı, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin də imza atması kəmərə daha böyük regional önəm qazandırdı. Qazaxıstanın bu layihəyə qoşulmasında Heydər Əliyevin mühüm təşəbbüskar rolu olmuşdu. 2002-ci ildə boru xəttinin təməli atıldı və beləcə üç dənizin Xəzər, Qara və Aralıq dənizləri əfsanəsi gerçək oldu. Eyni zamanda, Bakı-Ceyhan türk dünyasını (Orta Asiyadan Türkiyəyədək) bir-birinə bağlayan strateji kəmərə çevrildi, bu gün Qazaxıstan da neftinin bir hissəsini bu marşrutla ixrac edir. Bu, uzaqgörən siyasətin real nəticəsidir. Bakı-Ceyhan kəməri yeni regional enerji və nəqliyyat layihələrinə zəmin yaratdı, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz xətti istifadəyə verildi. Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə Azərbaycan-Türkiyə əlaqələrinə deyil, eləcə də Mərkəzi Asiya respublikalarının Xəzər və Azərbaycan üzərindən Türkiyəyə bağlanmasına, Avropa-Asiya nəqliyyat dəhlizinə tarixi töhfə olmuşdur.

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini də mədəni əməkdaşlıq, müştərək mədəni layihələr təşkil edir. Dərin tarixi köklərə malik bağların yeni şəraitdə daha effektiv müstəviyə çıxarılmasında, Beynəlxalq Türk Mədəniyyət Təşkilatının - TÜRKSOY-un formalaşması, bu formatda bir çox layihələrin reallaşması Azərbaycanın aktiv rolu sayəsində mümkün olub. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, şəxsiyyətlərinin yubiley mərasimlərində yaxından iştirak edir və xalqlarımızın ümumi mədəni sərvətinin bizi birləşdirən tarixi dəyər olduğunu diqqətə çatdırırdı. Bu fikir onun 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, böyük özbək hökmdarı Əmir Teymurun, qırğız eposu "Manas"ın yubiley mərasimlərindəki çıxışlarının ana xəttini təşkil etmişdir.

Heydər Əliyev 1996-cı ilin noyabrında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprelində isə böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı türk dünyasının təmsilçilərini, dövlət və hökumət adamlarını, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıya topladı. UNESCO səviyyəsində qeyd olunan bu möhtəşəm yubileylər, eyni zamanda, ümumtürk mədəniyyətinin təntənəsi idi. "Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir", - deyə Heydər Əliyev 2000-ci il aprelin 8-də eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə bildirmişdi [6, s. 88-89]. Onun təşəbbüskarı, müəllifi olduğu regional layihələr türk xalqlarının yaşadığı geniş coğrafiyada uzunmüddətli inkişaf və əməkdaşlığa meydan açdı. Bu baxımdan ulu öndər Heydər Əliyevin tanınmış qazax şairi Oljas Süleymenovu və görkəmli qırğız yazıçısı Çingiz Aytmatovu yüksək qiymətləndirməsi və onlarla dostluq münasibətləri saxlaması onun türk ədəbiyyatına və dostluğuna verdiyi diqqətdən irəli gəlir. Oljas Süleymenov Sovet qoşunları 20 yanvar gecəsi günahsız insanları gülləyəndən iki gün sonra Bakıya gəlmiş, qardaş xalqın dərdini öz dərdi kimi bölüşmüş, Xocalı soyqırımını kəskin pisləmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeninə layiq görülməsi isə xalqlarımızın dostluğuna verilən töhfədir. Heydər Əliyevin 2001-ci ildə iştirak etdiyi sonuncu türk zirvəsində (27 aprel 2001-ci il, İstanbul) bəyan etdiyi bu sözləri isə 21-ci yüzilliyin türk dünyası

üçün vəsiyyət kimi qəbul etmək olar: "Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin - milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq" [8].

Böyük dövlət xadimi Süleyman Dəmirəl "Azərbaycan Prezidenti, qardaşım Heydər Əliyev" adlı məqaləsində (2003) Azərbaycan xalqının milli liderinin tarixi xidmətlərini dünyanın böyük dövlət adamlarının öz xalqları qarşısındakı tarixi xidmətləri ilə müqayisə edib göstərir ki, Çörçilin 1940-cı, Ruzveltin 1942-ci, Adenaurun 1946-cı, De Qollun 1958-ci ildə gördükləri işləri Heydər Əliyev 1993-cü ildə gördü. Və Heydər Əliyevin "intəhasız təcrübəsi, qətiyyəti, əzmi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz məhəbbəti, türk tarixinə, mədəniyyətinə və türklüyə bağlılığı, vətənpərvərliyi hər cür tərifdən yüksəkdə dayanır" [5]. Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov (Türkmənbaşı), Əsgər Akayev ilə görüşlərində, münasibətlərində türk dünyasının lideri vəzifəsini həmişə məharətlə yerinə yetirmişdir. Qeyd etmək yerinə düşər ki, türk dünyası Türküstandan, Mərkəzi Asiyadan çox genişdir: Yakutiya, Sibir türkləri var; Volqaboyu türkləri — tatarlar, başqırdlar, çuvaşlar var; Şimali Qafqaz türkləri var... Onların hamısı sovet dövründən keçmişlər, indi isə Rusiyanın vətəndaşıdırlar. Ona görə də Heydər Əliyev Azərbaycanla, eləcə də digər türk dövlətləriylə Rusiya arasındakı iqtisadi, siyasi, mədəni münasibətlərin inkişafına, qarşılıqlı əlaqələrin intensivliyinə həmişə xüsusi önəm vermiş, Rusiya türklərinin milli özünüdərk imkanlarının genişlənməsinə türk dünyasının ümumi yüksəliş strategiyasının üzvü, tərkib hissəsi kimi baxmışdır.

Bir neçə kəlmə də Qarabağ regionu ilə bağlı demək istərdik. Hələ sovetlər birliyi dövründə Heydər Əliyev Qarabağın inkişaf etməsi, Şuşanın Qarabağın mərkəzi kimi inkişafının gücləndirilməsi və eyni zamanda, Qarabağa daxil olan ərazilərin sosial-iqtisadi inkişaf proseslərinin həll olunmasında kifayət qədər fəallıq göstərmişdir. O dəfələrlə Şuşa şəhərinə və Qarabağın digər rayonlarına səfərlər etmiş, Şuşa şəhərinin infrastrukturunun gücləndirilməsinə, burada tarixi abidələrin bərpasına, yenilərinin yaranmasına, şəhərin təbii qaz, elektrik enerjisi təchizatı problemlərinin həll olunmasına, xidmət sektorunun gücləndirilməsinə, turizm-rekreasiya imkanlarının artmasına, “Şuşa” sanatoriyasının tikilməsi üçün Moskvadan- mərkəzdən böyük məbləğdə vəsaitin ayrılmasına nail olmuşdur.

Keçmiş SSRİ-nin süqutundan sonra 1993-cü ilin ortalarında ikinci dəfə hakimiyyətə gəldikdən sonra Qarabağın azad edilməsi və ümumiyyətlə işğal altında qalan torpaqlarımızın azad edilməsi uğrunda əlindən gələni etmiş, bunun üçün ciddi əsaslar yaratmış və məcburi köçkünlərlə görüşündə dəfələrlə qeyd etmişdir ki, biz mütləq o yerlərə qayıdacağıq, biz mütləq işğal altında olan ərazilərimizi, Şuşanı azad edəcəyik. Heydər Əliyevin bu nikbin çağırışları və bunun üçün gördüyü tarixi işlər sonrakı dövrlərdə işğal altında qalan torpaqlarımızın işğaldan azad edilməsi üçün konseptual yanaşmaların əsasını qoymuş və milli ruhun bir yerə cəm edilməsinə, iqtisadi və siyasi gücün birləşməsinə, dövlətlə xalq arasında, liderlə sadə insanlar arasında harmoniyanın yaradılmasına və yumruq kimi birləşərək Qarabağın erməni işğalçılarından azad edilməsinə imkan verdi.

Heydər Əliyev ideyaları, uğurları və ruhu bu gün də regionlarımızda, rayonlarımızda yaşamaqdadır. Həm yaşlı nəsil, həm orta, həm də müasir nəsil bütün bunları ehtiramla yad edir və xatırlayır. Bu il 100 illiyi qeyd ediləcək Heydər Əliyevin ən tarixi xidmətləri bu gün çiçəklənən və dinamik

inkişaf edən regionlarda sabit sosial-iqtisadi proseslərin getməsi və onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionun ən dinamik inkişaf edən ölkəsinə çevrilməsini qeyd edə bilərik [1]. Yaxın perspektivdə Azərbaycanda regional inkişafın təkmilləşdirilməsi və yeni yaradılmış iqtisadi rayonların, yəni işğaldan azad olunmuş ərazilərdə yaradılmış Qarabağ və Şərqi Zəngəzur rayonlarının inkişaf etdirilməsi, onların digər iqtisadi rayonlarla, bölgələrlə inteqrasiyasının təmin edilməsi istiqamətində tarixi işlərin şahidi olacağıq [2; 4, s.65]. Bu istiqamətdə bir sıra tədbirləri qeyd etmək istərdik:

- regional iqtisadiyyatın və bununla bağlı konseptual yanaşmaların formalaşmasında, Azərbaycanın milli ruhunun, tarixi ənənələrinin, adət və yanaşmalarının qorunmasında Heydər Əliyevin tarixi xidmətləri danılmazdır, bütün bunlar həmişə ehtiramla yad edilir və yüksək qiymətləndirilir;
- yaxın perspektivdə regional inkişafın yeni postulatlarını biz görə biləcəyik, belə ki, əvvəldə qeyd etdiyimiz kimi işğaldan azad olunmuş iqtisadi rayonların ölkənin digər əraziləri ilə reinteqrasiya prosesləri dərinləşəcəkdir;
- Azərbaycan regionları artıq sosial-iqtisadi inkişaf meyarları baxımından kompleks və sistemli şəkildə inkişaf hədəflərinə məxsusdur və regionlarda həm iri rəqabətqabiliyyətli sənaye müəssisələrinin, həm də xidmət sahələrinin, xüsusilə turizmin inkişafı üçün böyük potensial vardır;
- Azərbaycanın iqtisadi rayonlarında bir sıra perspektivli iqtisadiyyat sahələrinin, xüsusilə kənd təsərrüfatı və aqrar-emal sənayesi sahələrinin, həmçinin yüngül sənaye sahələrinin inkişaf etdirilməsi perspektivləri ildən-ilə daha çox dəyərləndirilməkdədir və bunlarla əlaqədar olaraq mövcud resurslardan daha səmərəli istifadə olunacağını proqnozlaşdıra bilərik və s.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir, № 500.
2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.
3. Can, E., Bağırzadə, E. Regional inkişaf siyasətinin həyata keçirilməsində inkişaf agentliklərinin rolu: dünya təcrübəsi və istifadə imkanlari // "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalı, №. 3, 2010, s.59-70.
4. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // "Geostrategiya" jurnalı, – 2021. № 04 (64), – s.67-72.
5. Quliyeva, A.E. Regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effekti və milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi // "Audit" jurnalı. Bakı, 2016 №4, s. 95-102.
6. Mahmudov, M.M., Mahmudova, İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2011.– 370 s.



***Зумруд Джумшуд гызы Насибова***

***Диссертант Азербайджанского Университета Кооперации***


# Историческая роль Гейдара Алиева в развитии региональных аспектов экономики Азербайджана


***Резюме***

В статье рассмотрена историческая роль Гейдара Алиева в развитии региональных аспектов экономики Азербайджана. Анализированы и обобщены заслуги Гейдара Алиева в осуществлении широкомасштабных преобразовательных работ в регионах Азербайджана в 1970-1985 гг.



***Ключевые слова: Гейдар Алиев, историческая роль Гейдара Алиева в развитии регионов, экономика Азербайджана, региональное развитие, развитие районов.***

*Zumrud Jumshud Nasibova*
*Doctoral student of Azerbaijan University of Cooperation*

**Heydar Aliyev's historical role in the development of regional aspects of Azerbaijani economy**

***Summary***
The historical role of Heydar Aliyev in the development of regional aspects of the Azerbaijani economy is investigated in the article. Heydar Aliyev's achievements in the implementation of large-scale transformative works in the regions of Azerbaijan in 1970-1985 are analyzed and summarized.
***Key words: Heydar Aliyev, historical role of Heydar Aliyev in development of regions, economy of Azerbaijan, regional development, development of districts.***

**UOT: 339.9**

***Yasəmən Əlövsət qızı QULUZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
***yasamanquluzada@gmail.com***

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN SƏMƏRƏLİ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Xülasə***
İxrac imkanlarının maksimum reallaşması xarici ticarət əlaqələrinin inkişaf mərhələsində olan Azərbaycan üçün xüsusilə önəmlidir. Azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Ölkənin iqtisadi siyasətində qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dövlət dəstəyi, bir sıra stimullaşdırıcı tədbirlər icra olunmaqdadır. Qeyri-neft ixracının stimullaşdırılması, ixrac potensialının tənzimlənməsinin effektiv mexanizmlərinin işlənib hazırlanması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması istiqamətləri kimi çıxış edir.
***Açar sözlər: Xarici iqtisadi əlaqələr, ixrac, səmərəlilik, stimullaşdırılma, qeyri-neft və s.***

***

Müstəqil Azərbaycanı müasir, güclü, davamlı və dayanıqlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici investorların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.

1994-cü il Azərbaycanın müstəqillik tarixində xüsusi yer tutur. Ulu öndər "Əsrin müqaviləsi"ni bütün maneələrə baxmayaraq reallaşdıra bildi. Ötən müddət ərzində Azərbaycan "Əsrin müqaviləsi"-ndən geniş bəhrələndi. Ölkənin beynəlxalq aləmdə nüfuzu xeyli artdı, etibarlı tərəfdaş imici formalaşdı və əsas faktorlardan biri kimi, Azərbaycan zəngin məmləkətlərdən birinə çevrildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasını uğurla inkişaf etdirir. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyev bu sahəyə xüsusi diqqət ayırmış və bu sahənin inkişafına dair müvafiq Fərman və Sərəncamlar imzalamışdır.

"Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə kimi uzadılmışdır. Azərbaycanın gələcək inkişafı üçün, maliyyə imkanlarının genişlənməsi nöqteyi-nəzərindən bu Sazişin çox böyük əhəmiyyəti vardır. Müqavilənin müddətinin uzadılması onu göstərir ki, xarici dövlətlər və şirkətlər Azərbaycanı ciddi və etibarlı tərəfdaş kimi qəbul edirlər. Ölkəmizdə neft gəlirlərindən düzgün və məqsədyönlü şəkildə istifadə olunur. "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycanın əldə etdiyi gəlirlər

maksimum dərəcədə səmərəli şəkildə zəruri olan sahələrə yönəldilib. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun, o cümlədən də özəl bölmənin inkişafı siyasəti həyata keçirilir. Respublikamızda ənənəvi neft sənayesinin yenidən qurulması ilə paralel surətdə, müasir çağırışlar nəzərə alınmaqla modern sənaye quruculuğu həyata keçirilir. Neft gəlirləri, həmçinin institusional inkişafa, ölkənin gələcəyi baxımından müstəsna əhəmiyyət daşıyan insan kapitalı yetişdirilməsinə, sosial məzmunlu layihələrin icrasına, bütün ölkəboyu abadlıq-quruculuq işləri aparılmasına yönəldilir. [8.s-6]

Qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlbinin genişləndirilməsi, bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin yaradılması, həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi, ixracyönümlü məhsul istehsalının artırılması üçün dövlət və özəl sektorun investisiya əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. [1.s-12]

Ölkənin iqtisadi siyasətində son illərdə qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dövlət dəstəyi gücləndirilmiş, sistemli yanaşma prioritet kimi qəbul olunmuş və bir sıra tənzimləyici, stimullaşdırıcı tədbirlər müəyyənləşdirilmiş, icra edilmiş və ya icra olunmaqdadır. Qeyri-neft sektorunun inkişafında mühüm nailiyyətlər əldə olunmuş, onun ümumi daxili məhsulda xüsusi çəkisi üstünlük təşkil etmiş, rəqabət qabiliyyətli və ixrac potensialı yüksək olan məhsulların istehsalı genişlənmişdir.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur. Bu çərçivədə əsas vəzifələrdən biri qeyri-neft sektorunun yüksək inkişaf tempini qoruyub saxlamaqla onun ixrac imkanlarını genişləndirməkdir. [7.s-5]

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 18 yanvar 2016-cı il tarixli Sərəncamını qeyd etmək lazımdır. [2. s-8]

Bu sərəncamın 1.1.-ci bəndində “Kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə dəstəklərinin verilməsi mexanizmi” məsələsi qeyd olunmuşdur. Son dövrlərdə ölkə iqtisadiyyatı sahələrinin, xüsusilə kənd təsərrüfatının inkişafının innovasiya yoluna keçirilməsi iqtisadiyyatın səmərəliliyinin və rəqabətqabiliyyətliyinin yüksəldilməsinin əsas şərtlərindən biri kimi qəbul edilmişdir. Lakin araşdırma göstərir ki, kənd təsərrüfatı məhsullarının yüksək rəqabətqabiliyyətliliyi təmin edilməyib, səmərəlilik səviyyəsi innovasiya əsasında istehsalın genişləndirilməsinə və ixracat potensialının artırılmasına imkan vermir. Səmərəliliyin və rəqabətqabiliyyətliliyin yüksəldilməsini həqiqətən təmin edən sahələrin modernləşdirilməsi və inkişafın innovasiya yoluna keçilməsi milli iqtisadiyyatın mövcud liberal inkişaf modelinə köklü dəyişikliklərin edilməsini zəruri edir.

Sərəncamın 1.2.-ci bəndində “xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsi və ödənilmə mexanizmi” məsələsi yer almışdır. İxracyönümlülük ölkənin dünya təsərrüfatında iştirakının əsas istiqamətlərindən biridir. Onun əsasında ixrac durur. İxracdan daxil olan valyuta gəlirləri idxalı qarşılamaq, valyuta bazarını tənzmiləmək, ölkənin ixracat və investisya imkanlarını genişləndirmək və s. üçün mühüm maliyyə mənbəyidir. İxracyönümlülük olduqca mürəkkəb prosesdir.

Ölkənin ixracyönümlülüyü onun digər ölkələrlə iqtisadi əlaqələrinin xarakterini və dünya bazarında mövqeyinin möhkəmləndirilməsi istiqamətlərini göstərir. Mahiyyət baxımından ixracyönümlülük prosesi bir tərəfdən ölkə iqtisadiyyatının açıqlığında, digər tərəfdən iqtisadi münasibətlərin dəstəklənməsində və dünya təsərrüfatına yaxınlaşmasında təzahür edir. İxracyönümlü siyasətin məqsədi iqtisadi artımın yüksək tempinə və dünya bazarında potensial və artan tələbə adekvat müəyyən çeşidli məhsulların buraxılış yolu ilə istehsalın səmərəliliyinə nail olmaqdır. Bu məsələnin həlli iki halda, birincisi, istehsalın səmərəliliyinin artırılması amillərini, ikincisi, dünya baza-

rında rəqabət mübarizəsi aparmaq üçün müqayisəli üstünlüyə malik, ixracat bazası yarada bilən prioritet sahələri düzgün müəyyənləşdirilməklə mümkündür. Deməli, ixracyönümlü istehsal rəqabətə davamlı məhsul istehsalı nəticəsində dünya bazarının daha çox hissəsini zəbt etməklə ölkənin rəqabət mövqeyini möhkəmləndirir və etibarlı valyuta mənbəyini yaradır .

Səmərəli milli istehsalın təşkili və onun davamlı artımı ölkənin ərzaq təhlükəsizliyinin və dayanıqlı iqtisadi artımın mühüm amillərindən biri kimi çıxış edir. Ona görə də idxalın əvəz edilməsinə idarəedilən xarakter verilməli və ilk növbədə ölkənin uzunmüddətli iqtisadi strategiyasına müvafiq daha prioritet istiqamətlərin seçilməsi vacibdir. İdxalın əvəzedilməsi kənd təsərrüfatının və onun ayrı-ayrı sahələrinin yeni, daha yüksək texnoloji inkişafını, bu proseslərin idarəedilməsi metodlarının təkmilləşdirilməsini tələb edir. Bununla yanaşı yerli ərzaq məhsullarının keyfiyyətinə əhalinin inamının artırılması məqsədilə bütün mərhələlərdə (istehsalı, emalı, saxlanması və satışı) onun keyfiyyətinə nəzarətin müasir sisteminin yaradılması və tətbiqi zəruridir. Təcrübədə iqtisadi strategiyanın iki əsas variantı - idxalı əvəz edən, yəni, daxili bazarda idxal məhsullarını əvəz etmək məqsədilə milli istehsalın inkişafı və ixracyönümlü, yəni iqtisadi inkişafın maliyyələşdirilməsi üçün valyuta daxilolmalarını təmin edən ixracın inkişafının stimullaşdırılması işlənib hazırlanmışdır.

İxracın stimullaşdırılması strategiyasının mahiyyəti ixrac yönümlü istehsalı inkişaf etdirməkdən və istehsal edilən malların xarici bazara çıxarılmasından ibarətdir. İxracın inkişaf strategiyasının həyata keçirilməsinin səmərəlilik göstəricisi ixracın ÜDM-də payının artmasıdır. İkinci göstərici yalnız milli gəlirin yüksəldilməsi deyil, həm də ixracın inkişaf dinamikasıdır. Üçüncü göstərici ixracda sənaye mallarının dəyərinin artımıdır. [5.s-9]

Qida məhsullarının istehsalı insan həyatının ən vacib və ilkin şərtidir. Aqrar sektorun xüsusiyyətləri və kənd təsərrüfatı sferasında formalaşan vəziyyət, həmçinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ortaya çıxan problemlərin miqyası və aktuallığı bu sektorun fəal dövlət dəstəklənməsinə prioritetlik vermişdir. Dövlət dəstəyi əsasən aqrar sektor üçün hüquqi əsasların yaradılmasına, kənd təsərrüfatı istehsalçılarının fəaliyyəti və investisiyalaşdırma sistemi, kənd təsərrüfatı infrastrukturunun inkişafı üçün əlverişli şəraitin təmin edilməsinə, ixracyönümlü istehsalın stimullaşdırılmasına, elmi nailiyyətlərin və yeni texnologiyaların tətbiqinə, təhlükəsiz qida məhsulları sisteminin inkişafına və s. istiqamətlənmişdir. Azərbaycanda dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri kimi qeyri-neft sektorlarının inkişaf etdirilməsi, regionların inkişafına nail olunması göstərilmişdir. Bu baxımdan ölkəmizin aqrar sektoru xüsusilə diqqət cəlb edir. Bu sektor həm də böyük ixrac potensialına malikdir və potensialdan istifadənin yüksəldilməsi uzun illərdir ki, qarşıda duran aktual məsələlərdən biridir.Mühüm problemlərdən biri də kənd təsərrüfatı məhsullarının satış bazarının formalaşması ilə bağlıdır. Xarici ticarətin mal quruluşunda kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin əlverişli olmayan strukturu ixracın diversifikasiyasını zəruri edir. Başqa sözlə desək, müasir dövrdə kənd təsərrüfatı məhsullarının ixracının həcminin artırılması, ticarət balansının və onun strukturunun yaxşılaşdırılması starteji əhəmiyyət kəsb edir. Ona görə də kənd təsərrüfatının inkişafının strateji parametrləri kimi bunların bütün mərhələlərdə nəzərə alınması olduqca vacibdir.

İstər aqrar bölmənin, istərsə də digər sahələrin ixrac potensialının yüksəldilməsində və ondan milli iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə edilməsində özəl bölmənin, xüsusi mülkiyyətə əsaslanan sahibkarlığın rolu xüsusilə vurğulanmalıdır.

İnfrastrukturun inkişafı və biznes mühitinin təkmilləşdirilməsi imkan verəcək ki, daxili və xarici mənbələr hesabına ölkə iqtisadiyyatına daha çox investisiya cəlb edilsin və bir sıra ticari mal və xidmət sektorunda yeni iş yerləri yaradılsın. Ticarət infrastrukturunun yaxşılaşdırılması və ticarət açıqlığının gücləndirilməsi daxili bazarların qorunması siyasəti ilə elə uzlaşdırılmalıdır ki, nəticədə təbii ehtiyatlardan daha səmərəli istifadə əsasında daha çox dəyər ölkədə qalsın və ədalətli bölüşdürülsün. İnkişafın davamlılığının artırılması üçün ölkə iqtisadiyyatının, dövlət büdcəsinin və məzənnənin neftdən asılılığı azaldılmalıdır. Neftdən əldə edilmiş vəsait mal və xidmətlərə olan yerli tələbata əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün neftin qiymətində baş verən dəyişiklik ölkə iqtisadiyyatında sabitliyi pozur. Bundan başqa, neftdən əldə edilən gəlirlər xarici valyutanın əsas mənbəyi olduğu üçün neftin qiymətində baş verən dəyişikliklər ölkənin milli valyutasının

dəyər itirməsinə səbəb olur.

Makroiqtisadi sabitlik həm yerli, həm də xarici özəl sektor nümayəndələrinin investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəmin olacaqdır. Beynəlxalq maliyyə bazarları ilə inteqrasiya və maliyyə texnologiyalarının tətbiqi əsasında rəqabətqabiliyyətli maliyyə sistemi dayanıqlı iqtisadi inkişafı dəstəkləyəcək və əhalinin rifahını yaxşılaşdıracaqdır. Qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın vacib hərəkətverici qüvvəsi olacaqdır. Bu səbəbdən gələcəkdə sənaye və xidmət sektorlarına birbaşa xarici investisiyalar daha geniş miqyasda cəlb ediləcəkdir. Texnologiya, bacarıqlar və qlobal dəyər zəncirlərinə çıxış təklif edən iri xarici şirkətlərin qeyri-neft sektoruna investisiya yatırımı Azərbaycanın qlobal iqtisadi xəritədə yerini möhkəmləndirəcəkdir. Azərbaycana xarici investorlar strateji olaraq üç aspekt üzrə cəlb ediləcəkdir:

- son dərəcə cəlbedici investisiya imkanlarının yaradılması (məsələn, müasir infrastruktura malik sənaye parkları);
- aparıcı beynəlxalq şirkətlərə məqsədyönlü çıxış; mövcud və gələcək investorlar üçün birinci sinif xidmətlər. [9.s-85]

2025-ci ildən sonrakı dövrdə ixrac təkcə mal deyil, həm də xidmət çeşidinin artması hesabına şaxələnəcək və böyüyəcəkdir. İxracın artan məhsul və xidmət sayına əsaslanması neft və qaz qiymətlərindəki dəyişkənliklərdən asılılığı azaldıb, xarici valyuta gəlirini sabitləşdirəcəkdir.

Azərbaycanın hazırkı iqtisadi inkişaf tendensiyaları və strateji hədəfləri ölkə iqtisadiyyatının daha da şaxələndirilməsini və modernləşdirilməsini şərtləndirir. Milli iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və optimal təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, həyata keçirilməsi tədbirləri də vacib şərtlər kimi çıxış edir. Milli iqtisadiyyatın əsas bazar iqtisadiyyatlı funksiyaları və fəaliyyət prinsipləri formalaşdığından yeni keyfiyyət və kəmiyyət mərhələsinə qalxması prioritetlərinin reallaşdırılması və ölkə iqtisadiyyatının baza prinsiplərinin imkan verdiyi yerdən əhəmiyyətli dərəcədə fərqlənə bilən yeni iqtisadi inkişaf meyarlarının müəyyənləşdirilməsi eyni zamanda müasir texnologiyalar, idarəetmə metodları əsaslı innovasiyalaşdırılmış iqtisadi inkişaf modelinə keçidin başa çatdırılması işləri vacib şərtlərdən sayılır. Yeni və məhsuldar rəqabətqabiliyyətli ixracyönümlü müəssisələrin təşkili və bu şəbəkənin genişləndirilməsi strateji hədəf kimi qarşıda durur. Ölkə iqtisadiyyatının neft və qazla bağlı olmayan potensialının yenidən qiymətləndirilməsi və reallıqlar əsasında mühüm meyarların formalaşdırılması və neft-qaz amilindən yararlanaraq və bu sektorun gəlirlərindən bəhrələnərək, ölkənin qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi dərəcəsinin əhəmiyyətli səviyyədə artırılması kimi tədbirlər xarici iqtisadi əlaqələrin səmərəli inkişafına töhvə verəcəkdir. Qeyri-neft sektorunun ixrac potensialının artımına imkan verə bilən iqtisadiyyat sektorlarının inkişafının dayanıqlılığının və davamlılığının təmin edilməsi, qeyri-neft ixracının stimullaşdırılması, ixrac potensialının tənzimlənməsinin effektiv mexanizmlərinin işlənib hazırlanması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması istiqamətləri kimi çıxış edir. [6. s-8]

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında. / – 01 mart 2016-cı il tarixli Fərmanı.
2. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Fərmanı, – Bakı: 14 may 2010-cu il.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respubli-

kası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
4. Azərbaycan Respublikasının Logistika və Ticarətin İnkişafına dair Strateji Yol Xəritəsi. AR 06 dekabr 2016-cı il tarixli Fərmanı
5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
6. Şəkərəliyev, A.Ş. İxracın strukturunun qeyri-neft məhsulları hesabına genişləndirilməsi istiqamətləri. // Elmi Xəbərlər. Qərb Universiteti. – Bakı: – 2017. № 1, – s. 5-14.
7. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
8. Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 18 yanvar 2016-cı il.
9. Şəkərəliyev, A.Ş. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. - Bakı-2016

***Ясамен Аловсат кызы Гулузаде***
***аспирант, Азербайджанский Университет Кооперации.***
***E-mail: yasamanquluzada@gmail.com***

**Эффективные направления развития внешнеэкономических связей Азербайджанской Республики**

***Резюме***

Максимальная реализация экспортных возможностей особенно важна для Азербайджана, находящегося в стадии развития внешнеторговых связей. Реинтеграция освобожденных территорий в общую экономику страны, использование возможностей новых международных и региональных транспортно-логистических коридоров является большим толчком для развития Азербайджана. В экономической политике страны реализуется государственная поддержка по стимулированию экспорта несырьевой продукции и ряд стимулирующих мер. Стимулирование несырьевого экспорта, разработка эффективных механизмов регулирования экспортного тенциала, определение направлений совершенствования выступают направлениями повышения эффективности внешнеэкономических связей.

***Ключевые слова: Внешнеэкономические связи экспорт, эффективность, стимулирование, ненефтяной и др.***

***Yasamen Alovsat Guluzade***
***Postgraduate Student of the Azerbaijan University of Cooperation.***
***yasamanquluzada@gmail.com***

**Effective development directions of foreign economic relations of the Republic of Azerbaijan**

***Summary***

Maximum realization of export opportunities is especially important for Azerbaijan, which is in the stage of development of foreign trade relations. The reintegration of the liberated territories into the general economy of the country, benefiting from the opportunities of new international and regional transport-logistics corridors is a great boost to the development of Azerbaijan. In the country's economic policy, state support for stimulating the export of non-oil products and a number of stimulating measures are being implemented. Stimulation of non-oil export, development of effective mechanisms for regulation of export potential, determination of improvement directions act as directions for increasing the efficiency of foreign economic relations.

***Key words: Foreign economic relations, export, efficiency, stimulation, non-oil etc.***

UOT-338

***Fidan Məhəmməd qızı BAĞIRZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***Elektron poçt: fidanbaghirzada00@gmail.com***
***ORCİD-ID :0009-0001-6548-1568***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI VƏ BUNUN XALQIMIZ ÜÇÜN NƏTİCƏLƏRİ

***Xülasə***

Məqalədə Azərbaycan neft strategiyasının əsasının qoyulması və bu sahədə ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasətindən bəhs olunmuşdur. Müasir neft strategiyasının Azərbaycan Respublikasının inkişafında böyük əhəmiyyət daşıdığı qeyd olunmuşdur. Həmçinin neft sənayesindən gələn gəlirlərin xalqımızın rifahının yaxşılaşdırılması üçün sərf olunmasından bəhs edilmişdir.

***Açar sözlər: Heydər Əliyev, neft, qaz, sənaye, zavod, müqavilə.***

***

Ölkəmiz neft və qaz təbii sərvəti ilə zəngin dövlətlərdən biridir. Həm quruda, həm də dənizdə neft xammalı mövcuddur. Uzun tarixi dövr ərzində Azərbaycan torpaqlarından neft hasil edilmişdir. Zəngin neft və təbii qaz ehtiyatlarına malik olmağımız daim digər dövlətlərin diqqətini cəlb etmişdir. Hətta bəzən bəzi dövlətlər ölkəmizə qarşı təcavüzə əl atmağa çalışmış və işğalçılıq siyasəti yeritmişdir. 19-cu əsrdən başlayaraq torpaqlarımızda neft çıxarılmasına başlanılmışdır. İstər Birinci Dünya müharibəsi, istərsə də İkinci Dünya müharibəsində Azərbaycan ərazisindən çıxarılan neft həm xammal, həm gəlir mənbəyi, həm də yanacaq kimi istifadə edilmişdir. Azərbaycanda neft-qaz sənayesinin inkişafı və təkmilləşdirilməsi bir qayda olaraq dahi şəxsiyyət Heydər Əliyevin rəhbər seçilməsi ilə bağlı olmuşdur. Ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçilmişdir. Bu hadisə xalqımızın taleyinin dəyişməsi ilə nəticələnmişdir. Bir çox sahələrdə olduğu kimi sosial-iqtisadi həyatın bütün sahələrində irəliləyişlər müşahidə olundu. Xüsusilə də neft emalı sahəsində mühüm dəyişikliklər və inkişaf qeydə alınmışdır. Ümummilli lider Heydər Əliyev rəhbər seçildiyi tarixdən başlayaraq bütün sahələrin inkişafına böyük diqqət yetirmişdir. Bu sahələrdən biri neft və qaz sənayesi olmuşdur. Bu sahənin dinamik və sürətli inkişafına diqqət artırılmışdır. Heydər Əliyevin iştirakı ilə 1971-ci ildə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatı ilə bağlı genişmiqyaslı tədbir keçirilmişdir.

1970-1980-ci illərdə ümummilli liderin dəstəkləri əsasında neft və qaz sənayesində böyük canlanma müşahidə olunmuşdur. Bu dövrdə ölkəmizə müxtəlif gəmi növləri gətirilmişdir. Xüsusilə də 70-80-ci illərdə Xəzərdə 2500 ton gücündə “Azərbaycan” kranı, “Xəzər” tipli özüqalxan, “Şelf” tipli yarımdalma üzən qazma qurğularının alınması neft və qaz sferasında daha çox yataqların aşkara çıxmasına imkan yaratmışdır. Nəticədə 60-cı illərlə müqayisədə 70-80 ci illərdə 8 neft və qaz yatağı aşkar edildi. Neft və qaz ehtiyatlarının miqdarında 3 dəfəyə qədər artım müşahidə olundu. Bütün bu proseslər ümummilli liderimiz Heydər Əliyevin uğurlu və strateji siyasətinin nəticəsi idi. 80-ci illərdə üzən qurğuların sayı artırıldı. Artıq 11 üzən qurğu mövcud idi. Bu isə öz növbəsində dənizin daha dərinliklərində yeni yataqların axtarışına , həmin yataqların kəşf olunub daha çox neft və qaz emalına səbəb oldu. “Günəşli”, “Azəri”,”Çıraq” neft yataqları kəşf olundu .

Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmışdır. Qısa müddətdə bu proqram həyata keçirilmiş və müsbət nəticələr əldə edilmişdir. Bu proqramda əsas diqqət yeni texnika və texnologiyaya malik zavodların yaradılması idi. Həmçinin təzə qurğuların inşa edilməsi də diqqət mərkəzində olan mövzulardan biri idi. Neftayırma zavodlarının yenidən qurulması prosesinə başlanıldı. “Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması” planı həyata keçdikcə, bu sahədə başlanan dəyişikliklər dərinləşdi. 1976-cı ildə “ELOU-AVT-6”,1980-ci ildə “Katalitik Riforminq” və digər qurğuların inşası, hələ sovet illərindən yaradılan möhkəm təməl, bu gün müstəqil Azərbaycan neft sənayesinin formalaşmasına böyük təkan olmuşdur. Ümummilli liderimizin uğurlu siyasəti nəticəsində “Dərin Dəniz

Özülləri" zavodunun paxtaxtımız Bakı şəhərində tikilməsi üçün 450 milyon ABŞ dollarının ayrılmasına, həmçinin Moskvadan bu mövzu ilə bağlı icazənin alınmasına nail olunmuşdur. Bu çox mühüm bir hadisə idi. Çünki bu zavodun Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu. Lakin Heydər Əliyevin möhkəm iradəsinin, cəsarətinin nəticəsində bu zavod Azərbaycanda tikildi. 1978-ci ildə tikinti işləri başlandı. Dərin Dəniz Özülləri Zavodu 1989-cu ildə istismara verildi. [1]

Heydər Əliyev çox dərin siyasət yürüdərək ,gələcəkdə müstəqillik əldə edəcək Azərbaycanın iqtisadi müstəqilliyinin də təmin olunmasına şərait yaratmağa çalışırdı. Doğrudan da tarix Heydər Əliyevin çox uzaqgörən və haqlı siyasət yeritdiyini bizlərə göstərdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra çətinliklərlə qarşılaşmışdır. Keçmiş SSRİ-i Respublikaları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələr qırıldı. Bununla yanaşı respublika daxilində qeyri-sabitliyin mövcud olması, maliyyə təchizatının və texniki təchizatın yox dərəcəsində olması bir çox sahələrdə böhran vəziyyətinin müşahidə edilməsinə gətirib çıxardı. Ağır böhran vəziyyəti yaşayan sənaye sahələrindən biri də neft və qaz sənayesi idi. Bir sıra problemlər ortaya çıxmış, nəticədə "Azəri","Çıraq","Günəşli" yataqlarının işlənməsinə imkan vermirdi.

Belə bir çətin vəziyyətdə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev "Neft Azərbaycanın milli sərvətidir" devizi altında çıxış edərək, ölkədə neft və qaz sənayesinin bərpası və inkişaf etdirilməsi ilə bağlı mühüm addımlar atmışdır. Bu zaman neft sənayesindəki böhrandan böhran vəziyyətindən çıxmaq və ölkəmizin karbohidrogen ehtiyatlarının müəyyən edilib istismar edilməsi üçün qarşıya qoyulan 2 yoldan birini seçmək lazım idi. Bu variantlardan biri 15-20 il ölkəmizin maliyyə-iqtisadi durumunun düzəlməsini gözləmək idi. Digər variant isə xarici neft şirkətlərinin ölkəyə dəvət olunması idi.

Xalqımızın ümummilli lideri xarici böyük neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi. Tez bir vaxtda "Yeni neft strategiyası" işlənilib hazırlandı. Azərbaycan Prezidentinin sərəncamı ilə Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə xarici şirkətlərlə danışıqlara başlanıldı. Dahi rəhbər Heydər Əliyev Azərbaycanı böyük fəlakətdən xilas etmişdir. Bundan sonra iqtisadi yüksəliş üçün tədbirlərə başladı .İlk günlərdən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev danışıqlar prosesinə cəlb edilmişdir. İlham Əliyev yeni neft strategiyalarının hazırlanması və həyata keçirilməsində yaxından iştirak etmişdir.

1994-cü il 20 sentyabr Azərbaycan Respublikasının tarixində mühüm hadisənin baş verməsi ilə qeyd edilmişdir. 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" dünyanın 7 ölkəsinin 11 nəhəng neft şirkəti ilə imzalanmışdır. Bu müqavilə həmçinin "Məhsulun Pay Bölgüsü" sazişi kimi də tariximizdə qeyd edilmişdir. Bu müqavilənin bağlanmasında əsas məqsəd Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi idi. Bu müqavilə çox böyük əhəmiyyətə malik idi. Müqavilənin imzalanmasından 20 ildən artıq müddət keçmişdir. Lakin "Yeni neft strategiyasının" uğurla reallaşdırılması günümüzün reallığına çevrilmişdir. "Yeni neft strategiyasının" uğurlarının aşağıdakı kimi reallaşdığını göstərmək olar:

1. Azərbaycan Respublikasının neft və qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, xarici işgüzar dairələrin və iri investisiyaların cəlb edilməsi nəticəsində dünyanın enerji daşıyıcıları bazarına böyük sürətlə çıxışın təmin olunması;

"Əsrin müqaviləsi" imzalandığı tarixdən bugünkü günə qədər nəhəng xarici neft şirkətləri ilə 32 neft sazişi imzalanmışdır. İmzalanmış sazişlər əsasında Azərbaycanın neft və qaz sənayesinə orta hesabla 60 milyard ABŞ dolları miqdarında sərmayə cəlb edilmişdir. Bu proses respublikamızın iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir .

2. Azərbaycan Respublikasının karbohidrogen ehtiyatlarının dünya bazarına sürətli çıxışına nail olmaq üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

İndi hasil edilən neft və qaz ehtiyatları dünya bazarlarına müxtəlif istiqamətli marşrutlar üzrə çıxarılır. Bunlara aiddir: Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum ixrac kəmərləri. Həmçinin "Cənubi Qafqaz Dəhlizi" layihəsinə daxil olan TAP ixrac kəmərinin tikintisi davam etdirilir. Bəzi kəmərlərin mənfi cəhətləri olsa da ümumilli liderimiz Heydər Əliyevin müdrik və yeganə düzgün qərar qəbul etdiyini zaman göstərmişdir. İlk neft layihəsinin həyata keçirilməsi və dünya bazarına çıxarılması neft yataqlarındakı işlərin sürətlənməsinə və karbohidrogen resurslarının kəşf edilməsinə yeni investisiyaların qoyulması üçün əlverişli vəziy-

yət yaradıldı.

1999-cu ilin payızında Türkiyənin paytaxtı İstanbul şəhərində ATƏT-in Sammiti keçirilmişdir. Sammitdə ABŞ, Türkiyə, Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkmənistan dövlətlərinin liderləri tərəfindən Bakı-Tbilisi-Ceyhan "Əsas İxrac Neft Kəməri"-nin çəkilməsi barədə dövlətlərarası saziş bağlanmışdır. 18 sentyabr 2002-ci ildə Səngəçal terminalında Heydər Əliyevin, Türkiyə və Gürcüstan dövlət başçılarının iştirak etməsi ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuşdur. Bu tarixdən etibarən tikinti işlərində başlamışdır. 28 may 2006- cı ildə Neft kəmərinin açılışı olmuşdur. Enerji resurslarımızın daşınmasında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin seçilməsi ümummilli liderimizin uğurlu siyasətinin bariz nümunəsidir. Bakı-Tbilisi-Ceyhan neft kəməri dünya "arteriya"sı kimi neft kəmərləri sisteminə əlavə edilmişdir.

3. Respublikamızın neft sənayesindən gələn gəlirlərin artırılması, bugünkü cəmiyyətin inkişafı üçün sərf edilməsi;

29 dekabr 1999-cu ildə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev fərman imzalamışdır.

4. Heydər Əliyevin reallaşdırdığı saysız-hesabsız nailiyyətlərdən biri Avropanın müasir texnologiyalarının ölkəmizə gətirilməsi idi .

Biz qeyd etdik ki, dövlətimiz neft gəlirlərindən düzgün istifadə edərək, gələcək nəsillərin daha gözəl həyat şərtləri əsasında yaşamasını təmin etmişdir. Dünyada neft və təbii qaz ehtiyatlarına malik olan dövlətlərin sayı olduqca çoxdur. Bu ölkələrdən çox az sayda dövlət neft-qaz ehtiyatlarından gələn gəliri öz xalqının firavan yaşamasına sərf etmişdir. Bu ölkələr sırasında Azərbaycan Respublikası da yer almaqdadır. Bu siyasətin təməlinin qoyulmasında və inkişaf etdirilməsində Heydər Əliyevin rolu çox böyük olmuşdur. Həmçinin ümummilli liderimiz tərəfindən "neft strategiyasının" uğurla həyata keçirilməsi ölkəmizin enerji problemlərinin olmamasına gətirib çıxarmışdır. Dövlət Neft Fondunun yaradılmasını neft hasilatının zəif olduğu bir dövrdə verilmiş ən düzgün qərarlardan biri hesab etmək olar. Ulu öndərimizin uzaqgörən addımları və siyasəti nəticəsində ölkəmiz böyük bir fəlakətdən xilas olmuşdur. Neft Fondunun yaradılması neft-qaz sənayesindən əldə edilən gəlirlərin düzgün istifadəsinə, düzgün yatırımların edilməsinə səbəb olmuşdur.

Dahi liderin Azərbaycan neft strategiyası ilə bağlı bu fikri çox önəmlidir : "Neft strategiyasının əsas məqsədi dövlətimizin zəngin neft və qaz sərvətlərindən xalqımızın rifahı uğrunda düzgün istifadə edilməsidir".

Azərbaycan Respublikasında orta hesabla 4 milyard tondan çox karbohidrogen ehtiyatları mövcuddur. Bu göstərici əsasında biz qeyd edə bilərik ki, ölkəmiz ən zəngin neft ölkələrindən biridir. Yaxın gələcəkdə dövlətimizdə neft hasilatının artırılması proqnozlaşdırılır.

Beləliklə, ümummilli liderimizin yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycan dünya bazarında neft və neft məhsulları ilə təmsil olunur. Neft sənayesindən əldə olunan gəlirlərin digər sahələrə tətbiqi ölkəmizin iqtisadi gücünün artırılmasına səbəb olmuşdur. [2]

Araşdırmalara görə Xəzər dənizinin Azərbaycana aid olan hissəsində qaz ehtiyatlarının miqdarının düşünüldüyündən də çox olduğu müəyyən edilmişdir. Heydər Əliyevin sərəncamı əsasında yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin araşdırmalarına görə "Azəri-Çıraq-Günəşli" yatağından çıxarılan karbohidrogen ehtiyatlarının 1 milyard tonunu neft, 0,3 trilyon kubmetrini qaz təşkil edir. Bu rəqəmlər olduqca yüksəkdir. Lakin gələcəkdə bu rəqəmlərin daha yüksək olacağının proqnozları verilir.

"Əsrin müqaviləsi" imzalanan dövrdə neft ehtiyatlarının yaxın 30 ildə tükənəcəyi düşünülürdü. Lakin aparılan araşdırmalar nəticəsində Azərbaycan neft ehtiyatlarının 100 illik olduğu müəyyən edilmişdir. Qeyd etməliyik ki, sadəcə Abşeron yarımadasında və Xəzər dənizinin şelf zonasında deyil, həmçinin müxtəlif rayonlarımızda və Xəzər dənizinin dərinliklərində də neft ehtiyatları mövcuddur. Dünya iqtisadiyyatlına baxdıqda dünya bazarında neft və təbii qaz ehtiyatlarının böyük rol oynadığını görürük. Heç də təsadüfi deyil ki, Heydər Əliyev neft strategiyasını ölkəmizin əsas inkişaf strategiyası hesab etmişdir. Bütün dünya bazarını və dünya bazarında baş verə biləcək dəyişiklikləri əvvəlcədən düşünən Heydər Əliyev ölkəmizin gələcəyi üçün çox faydalı addım atmışdır. Qarşıdakı dövrlərdə də neftin dəyərinin artacağı və daha çox gəlir əldə edəcəyimiz planlaşdırılır. Ölkəmizdə günü-gündən neft hasilatı artır. Əldə edilən gəlirlər xalqımızın gələcə-

yinin yaxşılaşdırılmasına sərf olunur. Bu addım xarici təşkilatlar və dövlətlər tərəfindən təqdir olunur.

Heydər Əliyevin neft strategiyasının əsas məsələlərindən biri neft sənayesindən əldə olunan gəlirin vətəndaşlar arasında ədalətli şəkildə bölünməsi idi. Ölkəmizin gələcəyi və gələcək nəsillərin daha yaxşı yaşaması bu mövzunun əsas prioritetlərindən idi. Azərbaycan Respublikası Dövlət Neft Fondunun iş prinsipi tam şəffaf təşkil olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı ARDNŞ-nin fəaliyyətini yüksək qiymətləndirir. Dövlət Neft Şirkətinin gəlirləri Azərbaycan xalqının daha firavan yaşaması üçün sərf edilir.

Uzun tarixi dövr ərzində torpaqlarımızdan neft və təbii qaz çıxarılsa da bu sahədən əldə edilən gəlirlər işğalçı dövlətlərin büdcəsinə daxil olurdu. Sanki öz təbii sərvətləri kimi xalqımızın sərvətlərini talan edib öz məqsədləri üçün sərf edirdilər. Daha çox I və II dünya müharibələri dövründən xalqımızın neftindən geniş şəkildə istifadə edildi. Xalqımızın təbii sərvəti olsa da ondan gələn gəlir xalqımıza çatmırdı. Bu proses Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin rəhbər seçilməsinə qədər davam etdi. Heydər Əliyev rəhbər seçildikdən sonra əsas olaraq xalqın rifahı naminə çalışmışdır. Xalqın rifahı naminə bir çox addımlar atmışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, neft sənayesinə diqqəti artırmışdır. Bu isə öz növbəsində daha çox gəlir əldə edilməsinə yol açmışdır. Neft çox gəlirli sahə olduğu üçün ümummilli lider bu sahənin inkişafına böyük diqqət edirdi. Əldə edilən gəlirlərin düzgün və planlı idarə edilməsini təmin etmək üçün bütün səlahiyyətlər ARDNŞ-ə verilmişdir. Ölkəmizdə neft-qaz sənayesinin əsasısını Heydər Əliyev qoymuşdur. Və bu gün cənab Prezidentimiz İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Neft-qaz sənayesindən əldə edilən gəlirlər qeyri-neft sektorunun inkişafına və genişlənməsinə xərclənilir. Həmçinin savadlı kadrların yetişməsi üçün təhsil sahəsinə böyük investisiyalar qoyulmaqdadır. Ölkəmizdə keyfiyyətli örtüyə malik yollar, bütün tələblərə cavab verən iaşə obyektləri tikilməkdədir. Regionlarımızın inkişaf strategiyasına uyğun olaraq müxtəlif addımlar atılır. İşğaldan azad edilmiş torpaqlarda aparılan yenidənqurma işləri, həmin ərazilərin bərpa edilməsi üçün böyük işlər görülür. Əhalinin rahat hərəkəti üçün müasir tələblərə cavab verən komfortlu nəqliyyat vasitələri ölkəmizə gətirilir. Ölkəmiz günü -gündən abadlaşır. Bütün bu hadisələrin həyata keçirilməsi üçün böyük vəsaitlər olmalıdır. Bu vəsaitlərin böyük hissəsi neft-qaz sənayesindən gələn gəlirlərdir. Bütün bunlar göstərir ki, neft – qaz sənayesindən gələn gəlirlər Azərbaycan xalqının daha yaxşı, abad, firavan yaşamasına sərf edilir [3].

## ƏDƏBİYYAT

1. https://azerbaijan.az/related-information/131
2. http://www.anl.az/down/meqale/ses/2011/fevral/154947.htm
3. https://www.socar.az/az/post/heyder-eliyev-ve-azerbaycanin-yeni-neft-strategiyasi-movzusunda-muhazirelere-start-verilib

***Фидан Мухаммед кызы Багирзаде***
***Степень магистра Азербайджанского Университета Кооперации***
***электронная почта: fidanbaghirzada00@gmail.com***
***ORCİD-ID :0009-0001-6548-1568***

## Нефтяная стратегия национального лидера Гейдара Алиева и ее последствия для нашего народа

***Резюме***

В статье обсуждались основы нефтяной стратегии Азербайджана и мудрая политика нашего общенационального лидера Гейдара Алиева в этой области. Было отмечено, что современная нефтяная стратегия имеет большое значение в развитии Азербайджанской Республики. Было также отмечено, что доходы от нефтяной промышленности используются для улучшения благосостояния нашего народа.

***Ключевые слова: Гейдар Алиев, нефть, газ, промышленности, завод, контракт.***

*Fidan Muhammeds Bagirzade*
*Master's degree of Azerbaijan Cooperation University*
*E-mail: fidanbaghirzada00@gmail.com*
*ORCİD-ID :0009-0001-6548-1568*

**National leader Heydar Aliyev's oil strategy and its consequences for our people**

***Summary***

In the article, the foundation of Azerbaijan's oil strategy and the wise policy of our national leader Heydar Aliyev in this field were discussed. It was noted that the modern oil strategy is of great importance in the development of the Republic of Azerbaijan. It was also mentioned that the revenues from the oil industry are used to improve the welfare of our people.

***Key words: Heydar Aliyev, oil, gas, industry, plant, contract.***

**UOT 338**

*Gülzar Akif qızı HÜSEYNOVA*
*Magistrant*
*gulzar.huseynova98@gmail.com*
*Azərbaycan Kooperasiya Universiteti*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI

***Xülasə***

Məqalədə Heydər Əliyevin neft strategiyasının prioritet istiqamətləri araşdırılır. Enerji təhlükəsizliyi nəzəriyyəsinə uyğun olaraq və regional təhlükəsizlik kontekstində Qafqaz regionunda sabitliyi təhdid edən amillər önə çəkilir. Bu əsasda Türkiyənin regional strategiyası təhlil edilir, Türkiyənin enerji təhlükəsizliyində Qafqaz regionunun rolu və əhəmiyyəti göstərilir, Türkiyə ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafı səciyyələndirilir. Qeyd olunur ki, Azərbaycanın neft strategiyası Şərqlə Qərb arasında münasibətlər sistemində öz layiqli yerini bərpa etməyə hesablanmışdır. Müəllif Türkiyənin Qafqazda geosiyasi fəaliyyətini Azərbaycanın maraqlarını nəzərə alaraq və onun dəstəyi ilə həyata keçirdiyini, Azərbaycanın isə Qərb tərəfdaşları ilə transmilli enerji və nəqliyyat-kommunikasiya əlaqələrini eyni prinsiplərə riayət edərək həyata keçirdiyini qeyd edir.

***Açar sözlər: neft strategiyası, Heydər Əliyev, türk dövlətləri, Əsrin müqaviləsi, iqtisadi və siyasi əməkdaşlıq.***

***

1991-ci ilin oktyabrında müstəqillik əldə edildikdən sonra Azərbaycan hökuməti respublikanın üzləşdiyi iqtisadi çətinliklərin həlli yollarından biri olan neft hasilatının artırılmasını və xarici şirkətlərin Azərbaycan iqtisadiyyatının bu sektoruna sərmayə qoymağa cəlb edilməsini müəyyən etdi.

Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, ictimai-siyasi inkişafa nail olmaqla, ölkəni daxili iqtisadi böhrandan çıxarmaqla ictimai-siyasi problemlərin həllinə, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq mümkündür. Həmin dövrdə çoxsaylı inkişaf problemlərinin həlli sərmayə qoyuluşu üçün əhəmiyyətli həcmdə kapitalın, habelə milli iqtisadiyyatın inkişafı üçün zəruri olan qabaqcıl texnologiyaların axtarışında görünürdü. Ölkə iqtisadiyyatına, ilk növbədə, inkişafın əsas resursu hesab edilən neft sənayesinə əlavə resursların cəlb edilməsi əsas prioritet məsələyə çevrilmişdir.

Azərbaycanın yerləşdiyi Xəzər dənizi regionu ən zəngin karbohidrogen ehtiyatlarına malik regionlardan biridir. 6 avqust 1997-ci il tarixli "New York Times" qeyd edirdi ki, Xəzərin sənaye və ya karbohidrogen ehtiyatları 200 milyard barel neftdən, o cümlədən hazırkı qiymətlərlə 4 trilyon ABŞ dolları dəyərində qiymətləndirilən analoji qaz ehtiyatlarından ibarətdir. Xəzər hövzəsində

zəngin neft və qaz ehtiyatlarının olması bu regionun geoiqtisadi və geosiyasi dəyərini artırmış, planetin müasir enerji təhlükəsizliyinin və strateji yanacaq ehtiyatlarının təmin edilməsinin əsas şərtlərindən birinə çevrilmişdir [9, s. 13].

Heydər Əliyev neft və qaz ehtiyatlarında maraqlı olan, respublikanın iqtisadiyyatına sərmayə qoymaq istəyən, dənizin dərin qatlarında neft və qaz hasilatı üçün qabaqcıl texnologiyalara malik olan hər bir dövlətlə əməkdaşlıq etmək arzusunda olduğunu bəyan etdi. 1994-cü il sentyabrın 20-də Bakıda “Gülüstan” sarayında “Əsrin müqaviləsi” adlı ilk transmilli müqavilə imzalandı. Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi haqqında ilk sazişin imzalanması ilə Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni dövr başlandı. Müqaviləyə əsasən, dünyanın ABŞ, Rusiya, Fransa, Türkiyə, Böyük Britaniya, Norveç kimi dövlətlərinə məxsus aparıcı şirkətlər 10 milyard ABŞ dolları məbləğində müştərək vəsait yatıraraq, 511 milyon ton neft hasil etməyi qarşısına məqsəd qoymuşdurlar.

Müqaviləyə əsasən, Qərb şirkətləri tərəfindən cəmi 7,4 milyard investisiya qoyulmalı idi. Layihəyə sərmayə qoymaq üçün iştirakçı şirkətlərin investisiya payları aşağıdakı ardıcıllıqla təqdim olunub: British Petroleum (Böyük Britaniya) - 17,12%, Amoko (ABŞ) - 17,01%, Lukoyl (Rusiya) - 10%, Penzoil (ABŞ) - 9, 81%, Exxon (ABŞ) - 8,00%, Statoyl (Norveç) - 8,56%, Itochu Slodzi (Yaponiya) - 7,45%, Ramko Energy Group (Böyük Britaniya) - 2,0825%, Unocal (ABŞ) - 11,2%, Turkish Petroleum Cor. (Türkiyə) - 5%, Delta Nimur Kharar (Səudiyyə Ərəbistanı) - 1,68%, SOCAR (Azərbaycan) - 5% [4, s. 600].

Azərbaycan Respublikasının yeni neft strategiyasının və enerji təhlükəsizliyi siyasətinin uğurla həyata keçirilməsi ilə ölkənin beynəlxalq nüfuzu ardıcıl olaraq yüksəlməyə başladı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müsahibələrinin birində neft strategiyasının işini belə qiymətləndirmişdir: “Mən neft strategiyası yaratmışam və onu həyata keçirirəm. Axı mən neft strategiyasının nə demək olduğunu bilirəm. Mən 40 ildir ki, Azərbaycanın neft strategiyasında iştirak edirəm... Mən bilirəm ki, nə lazımdır. Bilirdim ki, bundan başqa yolumuz yoxdur” [3, s. 305]. Azərbaycanın yeni neft strategiyası çərçivəsində ilk müqavilədən bir neçə il ərzində dünyanın 14 ölkəsinə məxsus 32 aparıcı şirkətlə daha 20 yeni neft-qaz müqaviləsi bağlanıb. Bu müqavilələr əsasında 30 il ərzində yalnız Azərbaycanın neft-qaz sənayesinə 60 milyard dollardan çox xarici investisiya qoyulmalı idi.

“Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi müstəqilliyinin məhək daşına çevrilərək azad iqtisadi mexanizmlərdən istifadəni və dünya iqtisadiyyatına dinamik inteqrasiyanı, yeni iş yerlərinin açılmasını təmin etmiş, respublikaya investisiya axınını sürətləndirmişdir. Bu saziş dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, həm də ölkəmizin ciddi elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyasının əsasını qoymuş, davamlı daxili sabitlik üçün, enerji təhlükəsizliyinin təmin edilməsi üçün real zəmin yaratmışdır. Regionda digər qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından böyük addımlar atılmışdır. Bu proses eyni zamanda Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərini yeni strateji müstəviyə çıxardı. Hazırda xarici şirkətlərlə bağlanmış 27 neft-qaz müqaviləsi iqtisadiyyatın digər sahələrinin, inkişafına, sosial və sənaye infrastrukturunun inkişafına zəmin yaratmışdır.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra danışıqlarda mübahisəli və uzun müddət müzakirə olunan mövzulardan biri də çıxarılan milyonlarla ton xam nefti hansı ölkələrə çatdırmalı olan boru kəmərlərinin hansı dövlətlərdən keçməsi məsələsi idi. Elə ilk günlərdən bu münasibətlə müxtəlif fikirlər, təkliflər irəli sürülüb. Heydər Əliyevin dəmir iradəsi və qətiyyətli mövqeyi, eləcə də İ.Əliyevin danışıqlarda nümayiş etdirdiyi diplomatik məharəti Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında “Azərbaycan neftinin Azərbaycan Respublikası ilə nəqli haqqında” hökumətlərarası sazişin imzalanmasını təmin etdi. (Bakı-Novorossiysk marşrutu). Azərbaycan neftinin bu xətlə nəqlinə artıq 1997-ci ilin oktyabrında başlanılmışdır.

Azərbaycanın neft ehtiyatları ilə açıq şəkildə maraqlanan və Avrasiya regionunun ən böyük dövlətlərindən biri olan Türkiyə Respublikası Qafqaz regionunu Mərkəzi Asiyaya öz qapısı hesab edir. Geosiyasi baxımdan Türkiyənin bu bölgədə əsas üstünlüyü region xalqlarının dünyəvi inkişaf yolu seçməsi, dil, din və mədəniyyət oxşarlığı idi. Bununla yanaşı, Qafqaz və Xəzər dənizi vasitəsilə Orta Asiyada türk dövlətləri ilə əlaqələr həyata keçirilirdi. Bu baxımdan Qafqaz regionu körpü

rolunu oynayır [11, s. 83].

Geosiyasi və strateji əhəmiyyəti ilə yanaşı, bölgənin zəngin enerji ehtiyatları Türkiyənin də bölgəyə marağını artırıb. Bu çərçivədə Türkiyə regionla bağlı neft və qaz layihələrini dəstəkləyib və enerji müzakirələrində fəal iştirak edib. 1994-cü il sentyabrın 20-də Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan ilə Qərbin aparıcı neft-qaz şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi"ndə Türkiyənin iştirakı təmin edilmiş, "Türk Petrollary" şirkəti də bu sahədə öz yerini tapmışdır. 1994-cü ildən sonra Cənubi Qafqazda həyata keçirilən transmilli layihələrin əksəriyyətində Türkiyənin iştirakı Azərbaycanın bu ölkəyə münasibətdə nümayiş etdirdiyi strateji tərəfdaşlığın birbaşa təzahürü oldu.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə Toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl "Xam neftin bu kəmərlə daşınması haqqında" Saziş imzaladılar. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazisindən keçir" [7, s. 343]. Həmin gün, eyni zamanda, "Şahdəniz" yatağından hasil edilən təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu ilə Türkiyəyə nəqli üçün qaz kəmərinin çəkilməsi barədə qərar qəbul edilmişdir. Bu layihənin həyata keçirilməsi, bir tərəfdən, Azərbaycan və Türkiyənin sosial-iqtisadi inkişafına, regional təhlükəsizliyin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli münasibətlərin və dünya birliyinə hərtərəfli inteqrasiyanın möhkəmlənməsinə, digər tərəfdən, geosiyasi mövqelərin möhkəmlənməsinə töhfə verdi. Hər iki ölkəni regionda və dünyada enerji, nəqliyyat-kommunikasiya və digər transmilli sahələrdə Avropanın mühüm tərəfdaşlarına çevirdi.

Azərbaycan Türkiyə üçün Cənubi Qafqazda daha əhatəli əməkdaşlığın formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edən ölkədir. Bu baxımdan, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması Mərkəzi Asiyanın Avropaya daxil olmasına imkan verəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişinin son mərhələsinə qədəm qoyur. Türkiyəni həm bölgədə, həm də beynəlxalq arenada strateji baxımdan önəmli ölkələrdən birinə çevirir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə vaxtında başlanmasaydı, Azərbaycan və "Əsrin müqaviləsi"nin digər iştirakçıları dalana dirənəcəkdilər. Mövcud Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin gücü ildə 10 milyon tondan çox deyil. Bu baxımdan BTC Azərbaycanda hasil edilən neftin dünya bazarlarına çatdırılmasında əvəzsiz rol oynayır. Bütün bunlarla yanaşı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi Xəzərdə zəngin ehtiyatlara malik Qazaxıstan neftinin nəqli baxımından da müstəsna əhəmiyyət kəsb edir.

2006-cı il mayın 28-də "Əsrin müqaviləsi" çərçivəsində daha bir böyük uğur əldə edildi: Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql olunan xam neftin Ceyhan terminalına daşınması ilə yeni mərhələ başlandı. Bu hadisə Azərbaycanın müstəqil dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli iqtisadi və strateji maraqlarını sona qədər qorumaq əzmini bir daha təsdiqlədi. Təbii ki, bütün sərvətlərdən, o cümlədən neftdən xalqın və dövlətin maraqları naminə səmərəli istifadə olunması uzunmüddətli məqsədlərə çatmaq üçün nəzərdə tutulmuş praqmatik siyasətin aparılmasını zəruri edir. Əks halda neft də sərvət kimi dövlətlərə xoşbəxtlik yox, arzuolunmaz, mürəkkəb problemlər gətirə bilər. Ölkənin müasir neft strategiyasının uğurları hasilatda şəffaflığın təmin edilməsi üçün xüsusi dövlət proqramında neft gəlirlərindən düzgün istifadə olunmasında özünü göstərir. Burada əsas xətt həm də sosial problemlərə lazımi diqqətin təzahürüdür.

Bu gün müstəqil Azərbaycan Respublikası özünün formalaşmasının ən mühüm dövrlərindən birini yaşayır. İndi demokratik dövlət quruculuğu inamla aparılır, ictimai həyatın bütün sahələrində tərəqqi göz qabağındadır. Respublikanın həm regionda, həm də dünyada bir çox vəzifələrdə lider rolunu oynaya biləcək qüdrətli dövlət kimi formalaşması istiqamətində tarixi addımlar atılır.

Cənub dəhlizi çərçivəsində mövcud və davam edən transmilli tranzit və enerji layihələri üzrə birgə əməkdaşlıq maraqları mühüm rol oynamışdır. Belə layihələrdən ikisi - hazırda dünya mətbuatında geniş yer alan TANAP və TAP ən mühüm layihələrə çevrilmişdir.

Azərbaycan ərazisindən, eləcə də Avropanın Adriatik sahillərindən başlayaraq Gürcüstan və Türkiyəni birləşdirəcək Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və "Kiçik Nabukko" adlanan Trans-Adriatik Layihəsi (TAP) Türkiyə ilə Azərbaycan arasında münasibətlərdə yeni

mərhələyə çevrilmiş və üçüncü dövlətin təsiri olmadan onların birgə səyləri nəticəsində yaranmışdır. Qeyd etmək yerinə düşərdi ki, Xəzər hövzəsi Türkiyənin orta hesabla 55 milyon ton neftə və 40-50 milyard kubmetr təbii qaza olan illik tələbatını ödəyə bilər [10, s. 332].

Təbii ki, bu, Xəzər regionunun Türkiyə üçün əhəmiyyətinin bariz sübutudur. Eyni zamanda, Azərbaycanın zəngin enerji məhsullarının Türkiyə vasitəsilə dünya bazarlarına çıxışı Türkiyənin iqtisadi baxımdan sürətli inkişafına təsir edən amillər sırasındadır. Fikrimcə, əvvəllər türk dünyasının ideologiyası əsasında tənzimlənən Türkiyənin bölgə ilə bağlı siyasəti sonrakı illərdə enerji maraqlarına uyğun olaraq istiqamətini dəyişdi. Cənubi Qafqazın hazırkı geosiyasi vəziyyətindən çıxış edərək, iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin tələbi həm də ondan ibarətdir ki, Türkiyə Qafqazda geosiyasi fəaliyyətini Azərbaycanın maraqlarını nəzərə alaraq və onun dəstəyi ilə həyata keçirib və Azərbaycan Qərb tərəfdaşları tərəfindən eyni prinsiplərə uyğun olaraq transmilli enerji və nəqliyyat-kommunikasiya əlaqələri həyata keçirmişdir. Türkiyə üçün Cənubi Qafqazda, o cümlədən Mərkəzi Asiya və Xəzər regionunda Azərbaycan digər dövlətlərlə, xüsusən də türkdilli dövlətlərlə, islam dininə mənsub xalqlarla münasibətlərdə mühüm vasitəçilik rolunu oynayır.

Türkiyənin Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində geosiyasi mövqeyi də bu regionun Rusiya, İran, Ukrayna və Gürcüstan kimi dövlətləri ilə münasibətlərdən asılıdır və bu istiqamətdə Türkiyə öz regional maraqlarını elə reallaşdırmalıdır ki, Cənubi Qafqazda Rusiya, İran və Ukrayna ilə toqquşmasın, mümkünsə sağlam rəqabət şəraitində ortaq maraq və faydaları qarşılasın. Bundan əlavə, Türkiyənin regional siyasəti Rusiya, İran və Ukraynanın milli maraqlarının Azərbaycan və Gürcüstanın milli və strateji maraqları ilə üst-üstə düşməsini dəstəkləməli, əməkdaşlığın qarşılıqlı faydalı xarakterini təmin etməlidir. Ən əsası isə Türkiyənin regional siyasəti Cənubi Qafqazın ən mühüm geosiyasi regionunda yerləşən Azərbaycan və Gürcüstan arasında strateji müttəfiqlik prinsipləri üzərində qurulmağa və ikitərəfli münasibətlərin inkişafına kömək etməlidir. Əks halda Azərbaycan-Türkiyə münasibətlərinin taleyi daim Rusiya, Ukrayna, İran və Ermənistanın bu məsələyə münasibətindən asılı olacaq və dəyişkən olacaq. Regionun digər maraqlı dövlətləri ilə münasibətlər qurarkən Türkiyə Azərbaycan və Gürcüstanın maraqlarını nəzərə almalı, bu iki müttəfiq ölkənin bir tərəfdən Türkiyə, digər tərəfdən isə regionun digər dövlətləri arasında məcburi seçim qarşısında qalmasına imkan verməməlidir.

Bundan əlavə, Türkiyə enerji asılılığını aradan qaldırmış, Mərkəzi Asiya və Xəzərin zəngin neft və qaz məhsullarını öz ərazisindən çıxararaq dünya enerji siyasətinin mərkəzi ölkələrindən birinə çevrilmiş, Türkiyəyə ciddi geosiyasi təsir mexanizminə nail olmuşdur. Avropa və Avrasiya ölkələri, Qara dənizlə Aralıq dənizi arasında əsas tranzit ölkə kimi. 2012-2013-cü illərdə Azərbaycanda imzalanmış Trans-Anadolu Qaz İxrac Sazişləri - TANAP və TAP layihələri də bu ölkənin qaz ixracı sahəsində əlverişli mövqe tutmasına imkan vermişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan-1994: Milli dövlətçilik sınaq qarşısında. II hissə, Bakı, Azərnəşr, 2002, 432 s. (Azərbaycan dilində)
2. Əliyev İ. Azərbaycanıma inanıram, Bakı, Azərnəşr, 2007, 456 s. (Azərbaycan dilində)
3. Əliyev İ. Azərbaycanın Xəzər nefti. - M.: İzvestiya, 2003. - 712 s.
4. Əliyev Q. Müstəqilliyimiz əbədidir, 42 cilddə, V kitab, Bakı, Azərnəşr, 483 s. (Azərbaycan dilində)
5. Həbibbəyli İ. Bu beynəlxalq BTC layihəsi Heydər Əliyevin "Bakı-Tbilisi-Ceyhan: üç dənizin əfsanəsi" adlı parlaq əsəridir. "Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumu", Novosibirsk, 2007, 639 s. (Azərbaycan dilində)
6. Həsənov A.M. Azərbaycanın geosiyasəti. - Bakı: Zərdabi-LTD, 2015. -1048 s.
7. Tağıyev A., Seyidov M. Siyasi lider fenomeni, Ümummilli lider Heydər Əliyev irsi və politologiyanın aktual problemləri, Bakı, Təknur, 2012, 294 s. (azərbaycan dilində)
8. Xəzər: statusu, nefti, səviyyəsi // www.caspiy.net
9. Максаковский В.П. Каспий – Европа. М., 2002.
10. Муллакаев М.С., Турицын И.В., Россия и современные проблемы нефтяной геополитики Каспия // Современная научная мысль. 2016., № 6. 202-210 с.
11. Bilgin M., Avrasiya Enerji savaşları. İstanbul, 2005, 384 s.

***Гульзар Акиф кызы Гусейнова***
***Магистрант***
***gulzar.huseynova98@gmail.com***
***Азербайджанский Университет Кооперации***

**Нефтяная стратегия национального лидера Гейдара Алиева**

***Резюме***

В статье рассматриваются приоритетные направления нефтяной стратегии Гейдара Алиева. В соответствии с теорией энергетической безопасности и в контексте региональной безопасности выделены факторы, угрожающие стабильности в Кавказском регионе. На этой основе проанализирована региональная стратегия Турции, показаны роль и значение Кавказского региона в энергетической безопасности Турции, охарактеризовано развитие двусторонних отношений между Турцией и Азербайджаном. Отмечается, что нефтяная стратегия Азербайджана рассчитана на восстановление своего законного места в системе отношений между Востоком и Западом. Автор отмечает, что Турция осуществляет свою геополитическую деятельность на Кавказе с учетом интересов Азербайджана и при его поддержке, а Азербайджан осуществляет свои транснациональные энергетические и транспортно-коммуникационные отношения со своими западными партнерами, следуя тем же принципам.

***Ключевые слова: нефтяная стратегия, Гейдар Алиев, турецкие государства, контракт века, экономическое и политическое сотрудничество.***

***Gulzar Akif Huseynova***
***Master***
***gulzar.huseynova98@gmail.com***
***Azerbaijan Cooperation University***

**National leader Heydar Aliyev's oil strategy**

***Summary***

The article examines the priority directions of Heydar Aliyev's oil strategy. In accordance with the theory of energy security and in the context of regional security, the factors that threaten stability in the Caucasus region are highlighted. On this basis, Turkey's regional strategy is analyzed, the role and importance of the Caucasus region in Turkey's energy security is shown, and the development of bilateral relations between Turkey and Azerbaijan is characterized. It is noted that Azerbaijan's oil strategy is calculated to restore its rightful place in the system of relations between the East and the West. The author notes that Turkey carries out its geopolitical activities in the Caucasus, taking into account the interests of Azerbaijan and with its support, while Azerbaijan carries out its transnational energy and transport-communication relations with its Western partners, following the same principles.

***Key words: oil strategy, Heydar Aliyev, Turkish states, contract of the century, economic and political cooperation.***

UOT 3.31

***Təhminə Radif qızı XƏLİLOVA***
***Azərbaycan Kooperasiya Universiteti, magistr***
***https://orcid.org/0009-0006-3514-8728***
***xelilova.tehmine89@gmail.com***

# ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ SİSTEMİ DÖVLƏT SİYASƏTİNİN OBYEKTİ KİMİ: XARİCİ TƏCRÜBƏ

***Xülasə***

Məqalədə xarici ölkələrdə əhalinin sosial müdafiəsi sahəsində dövlət siyasətinin təsviri verilmiş, liberal, mühafizəkar, sosial-demokrat və Avropa modelləri timsalında Azərbaycan əhalisinin sosial müdafiəsinin əsas modelləri təhlil edilmişdir.

***Açar sözlər: sosial müdafiə, dövlət sosial siyasəti, sosial müdafiə modelləri, xarici təcrübə, sosial təminat.***

***

Hazırda əhalinin sosial müdafiəsi cəmiyyətdə sosial sabitliyə nail olmaq üçün ayrılmaz mexanizmdir. Azərbaycanda səmərəli sosial müdafiə sistemi yaratmaq üçün əhalinin sosial müdafiəsinin təmin edilməsində dövlətin iştirakında mövcud xarici təcrübəni təhlil etmək və öyrənmək, ən optimal variantları seçmək lazımdır.

Sosial müdafiə mahiyyətcə geniş və əhatəli məsələ olduğundan onun bütün xüsusiyyətlərini özündə ehtiva edən bir tərifin verilməsi hətta indiyənəcən bu sahə ilə məşğul olan mütəxəssislərə də çətinlik yaratmışdır. Buna görə də mövzu ilə əlaqədar müəlliflər arasında tərif vermək məsələsində müxtəlif fikir ayrılıqları mövcuddur.

Sosial müdafiə anlayışı fərdin qarşılaşacağı və həyatı üçün təhlükə yaradan hadisələr, yəni sosial risklərə qarşı təminat axtarışının nəticəsi, sosial risk isə insanların gəlirlərinin azalmasına, xərclərinin artmasına təsir edən hadisələrdir. İstər xəstəlik, qəza, ölüm halları kimi kədərli, istərsə də ailə qurmaq, övladın dünyaya gəlişi kimi sevindirici hadisələr də xərcin artması və gəlirin azalması səbəbindən sosial risk anlayışının tərkib hissəsi olaraq qiymətləndirilir. [8]

Əhalinin sosial müdafiəsinin liberal modeli onunla fərqlənir ki, o, dövlətə (yalnız sosial müdafiənin təminatçısı olan) deyil, sosial sığorta sistemlərinə arxalanır, bərabərlik, universallıq və vahidlik, yəni hamı üçün bərabər şərait, sosial müdafiənin əhatə dairəsi ilə seçilir. Sosial dəstəyə ehtiyacı olanların hamısının pensiya və müavinətlərin bərabər ölçüdə olması və s. liberal model sosial rifah üçün dövlət məsuliyyətinin məhdud olduğu bir modeldir. Vətəndaşlar özləri iqtisadi vəziyyətlərinə görə cavabdeh olmalı, bazar sosial riskləri və patologiyaları yalnız ayrı-ayrı vətəndaşların və ailələrin fəaliyyətini təmin etmək üçün təkliflər və fəaliyyət proqramları vasitəsilə düzəltməli və onlarla mübarizə aparmalıdır. Liberal sistemdə qarşılıqlılığa əsaslanan həmrəylik üstünlük təşkil edir, bir-birinə qarşılıqlı yardımda maraqlılığın mövcudluğu ilə bir mexanizm kimi başa düşülür. Bu modeldə sosial və dövlət hüquqları məhduddur və ya ümumiyyətlə mövcud deyildir. [5] Məsələn, ABŞ-da sosial işin təşkilində prioritet yer bələdiyyələrə deyil, xeyriyyə və qeyri-kommersiya (assosiativ) təşkilatlarına verilir, ona görə də modeli liberal-assosiativ kimi xarakterizə etmək olar. A.V.Qubin öz əsərində vurğulayır ki, "ABŞ-da vahid ümummilli mərkəzləşdirilmiş sosial təminat sistemi yoxdur. O, federal və ya əyalət qanunvericiliyi ilə, ya da federal və əyalət orqanları tərəfindən birgə tənzimlənən müxtəlif növ proqramlardan formalaşır. Fərdi proqramlar da yerli hakimiyyət orqanları tərəfindən qəbul edilir. ABŞ-da dövlət sosial təminat sistemi aydın şəkildə iki sahəyə bölünür: sosial sığorta və sosial yardım. Onlar maliyyə mənbələrinə görə fərqlənirlər. Sosial sığorta ödənişləri işçilərdən (sahibkarlarla payda) tutulan sosial sığorta vergisindən formalaşan sığorta fondlarından həyata keçirilir. Dövlət yardımı büdcə fondlarından ödənilir: federal büdcə, dövlət büdcələri və ya yerli hökumətləri əhatə edir. [6]

Beləliklə, qeyd etmək olar ki, liberal model üzrə əhalinin sosial müdafiəsi digər Avropa ölkələri ilə müqayisədə nisbətən sərtdir. Bu, bir cəhətdən tarixi inkişafdan, milli mentalitetdən asılıdır. İnkişaf etmiş dövlətlərin sosial müdafiə sistemi var, lakin ehtiyacı olanlar üçün çox vaxt əlçatan deyil və ya kiçikdir. Bu baxımdan ictimai və xeyriyyə təşkilatlarının üzərinə böyük rol düşür.

ABŞ-da əhaliyə sosial xidmətlərin göstərilməsi səylərinin əhəmiyyətli bir hissəsi qeyri-hökumət xeyriyyə təşkilatları, özəl şirkətlərin fondları, həmkarlar ittifaqları və bu kimi təşkilatların üzərinə düşür ki, bu da bir vaxtlar Respublikamız üçün xarakterik idi, bu gün isə daha da inkişaf edir. Mühafizəkar, kontinental və ya "Bismarkian" modeli Almaniya, Fransa, Hollandiya və İsveçrədə geniş yer tutmuşdur. O, sosial müdafiə sistemində dövlətin güclü rolu ilə seçilir, vəsaitlərin yenidən bölüşdürülməsi üçün əsas istiqamətləri dövlət idarə edir, bu modelə sosial sığorta, pensiya, tibbi, işsizlik müavinətləri və s. daxildir. Dövlətin sosial və ictimai həyata daha çox müdaxiləsi ehtimalı liberal rejimdən daha məqbuldur. Bu üsulun qəbul olunmuş məqsədlərinə görə sosial proqramlar bazar iqtisadiyyatının fəaliyyətinə daha az, onun inkişafı üçün isə mümkün qədər çox müdaxilə etməlidir. İnsan ehtiyacları ilk növbədə təcrübə və bacarığa görə ödənilməlidir. Sosial sığorta ilk növbədə tipik sosial risklərdən müdafiəni təmin edir, lakin o, elə təşkil olunur ki, ehtiyac səviyyəsi əmək bazarının vəziyyəti və gəlirin miqdarı ilə bilavasitə bağlı olsun. Ona görə də bu modeldə sosial siyasətin ən mühüm xüsusiyyəti əmək bazarında təmsil olunan şəxslə onun gəlirləri arasında möhkəm əlaqənin olmasıdır. Sığorta müavinətləri uşaq müavinətləri və sosial xidmətlər kimi universal müavinətlərin, habelə gəlir meyarlarına əsaslanan sosial yardımların verilməsi ilə tamamlanır. Sistem ənənəvi məqsədi, yəni fərdin bacarıqları inkişaf etdirilməli olan əsas amil olması fikrini dəstəkləyir. Dövlətin ən güclü rolu əhalinin sosial müdafiəsinin sosial-demokratik və ya həmrəylik modelinə xasdır. Bu model İsveç, Norveç, Finlandiya və Danimarkada geniş yayılmışdır, burada iş təcrübəsindən, iş yerindən və sığorta haqlarının ödənilməsindən asılı olmayaraq, ölkənin bütün sakinləri sosial müavinətlərlə təmin edilir [7]

Sosial təminat sistemi tam dövlətin nəzarəti altındadır. Bu modeldə dövlət sosial əhəmiyyətli ehtiyacların ödənilməsinə zəmanət verən sistemin fəaliyyətinə dəstək verməlidir. Sosial siyasət ehtiyacların ödənilməsi prosesində ləyaqət deyil, ilk növbədə zərurət meyarından istifadə etməklə bazar mexanizmlərini əvəz etməlidir. Ölkədə yaşayan hər bir vətəndaşın sosial hüquqları qorunur. Əgər fərz etsək ki, cəmiyyət sosial problemlərin mövcudluğuna görə məsuliyyət daşıyır, deməli, onların həlli də cəmiyyətin üzərinə düşür.

Sosial müavinət sisteminin sığorta-pensiya sistemindən ayrılması istiqamətində ən həlledici iki qanunun – "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbulu oldu. 2006-cı ilin yanvarın 1-dən qüvvəyə minən bu qanunlar ölkədə sosial sferanın tamamilə yeni əsaslarla qurulmasını nəzərdə tutur. [3, s. 53] Respublikamızda universal sosial müavinətlər, bir sıra vergi güzəştləri, kredit töhfələri və yardımlar vasitəsilə həm dövlət, həm də özəl sektorda məşğulluğun artırılması yolu ilə əmək bazarında fəaliyyət siyasəti ilə əlaqələndirilir. Bu, uşaqlara və ailələrə, əlillərə və qocalara yüksək səviyyədə xidmət göstərməklə müşayiət olunur. Bu xidmətlər ailənin ümumi məsuliyyətini azaldır və hər iki valideyn üçün iş və ailə həyatını birləşdirməyə imkanlar yaradır. Bu sistem kifayət qədər maliyyə yüklüdür və yüksək fiscal yükün və yüksək məşğulluğun saxlanmasından asılıdır. Ailə siyasəti uşaqların cəmiyyətin dəstəyi ilə təmin edildiyi inancına əsaslanır və buna görə də cəmiyyətin məsuliyyəti doğuş və təhsil xərclərini ödəməkdir. Sosial müdafiənin Avropa modeli dövlət sosial müdafiəsi sistemində praktiki olaraq iştirak etmir və ya onun rolu çox aşağıdır, sosial müdafiənin bütün aspektləri ailənin və qohumların mərhəmətindədir. Model ənənəvi ailə quruluşunun qorunmasına və ailə birliyinin və möhkəm ailə bağlarının qorunmasına güclü diqqət yetirməsi ilə xarakterizə olunur. Çoxuşaqlı ailələrə uşaq qayğısı və maddi yardım göstərilir, bununla da sosial infrastrukturun inkişafı üçün dövlətin məsuliyyəti nisbətən azalır. Sosial müavinətlər qeyri-bərabər bölünür və seçmə qaydada ödənilir və sosial dövlətin dövlət siyasətində fəaliyyət alətini təşkil edir.

XX əsrin sonlarında Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilib möhkəmləndirilməsi, demokratik inkişaf yolu ilə irəliləyən Respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması məhz Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və səmərəli fəaliyyəti nəticəsində mümkün olub. "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" deyən Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş sosial siyasətdə əhalinin bütün təbəqələrinin ehtiyac və tələbatı nəzərə alındı və aztəminatlı ailələrin, uşaqların, qocaların sosial müdafiəsi məsələlərinə əsaslı dərəcədə əhəmiyyət verildi. Bu gün Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyaraq gələcəyə doğru inamla addımlayır.

Belə ki, əhalinin layiqli sosial müdafiəsini və yaşayış tərzini təmin etmək məqsədi ilə ölkədə genişmiqyaslı pensiya islahatları həyata keçirilir. Əhalinin aztəminatlı hissəsinin digər kateqoriyalarını təşkil edən əlillərin, şəhid ailələrinin, müharibə veteranlarının, pensiyaçıların və s. sosial rifah halının yaxşılaşdırılması da Ulu öndərimizin xüsusi önəm verdiyi sosial məsələlərdən olub. Əhalinin sosial inkişafı üçün lazım olan hər bir şərait yaradılıb. Əmək haqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. [4, s.5] Azərbaycanın xarici siyasət sahəsindəki uğurları da uzaqgörən, mühüm əhəmiyyət kəsb edən tədbirlərin həyata keçirilməsinin nəticəsidir. Ölkəmiz müstəqil dövlət kimi mövcud olduğu qısa müddət ərzində iqtisadi, siyasi və mədəni sahələrdə böyük irəliləyişlərə nail olmuş, iqtisadiyyatdakı geriləmə və tənəzzülün qarşısı alınmış, insanların həyat tərzi getdikcə yaxşılaşmış, xalqı narahat edən işsizlik problemi tədricən aradan qaldırılmış, əhalinin sosial rifah halı yaxşılaşmışdır. Bu gün qazandığımız bütün bu nailiyyətlərin, uğurların əsası ümummilli lider, dünyaşöhrətli siyasi xadim Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycanın müstəqilliyinin əbədiyyətə çevrilməsi, dünya birliyində özünəməxsus layiqli yer tutması, sürətli iqtisadi inkişaf yoluna qədəm qoyması məhz Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərimizin müəyyənləşdirdiyi sosial siyasəti uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. [2.]

Böyük inam və fəxrlə bildirə bilərik ki, ölkəmiz azad və demokratik dövlət əsaslarıyla idarə olunan, sürətlə iqtisadi inkişafda olan bir ölkə kimi dünyaya səs salmışdır. Avropanın aparıcı dövlətləri və dünyanın əsas güc mənbəyi hesab olunan böyük və qüdrətli ölkəsi Amerika bu gün məhz Azərbaycanla müxtəlif istiqamətlərdə əməkdaşlıq üçün addımlar atır. Əsasən neft və qaz sənayesindəki əsas uğurlarımız bizləri beynəlxalq səviyyədə axtarılan və haqqında ən çox danışılan ölkəyə çevirdi. Təsadüfi deyildir ki, 30 sentyabr 2022-ci ildə Bolqarıstanın paytaxtı Sofiyaya rəsmi səfər zamanı Serbiya prezidenti Aleksandar Vuçiç İlham Əliyevin siyasətini yüksək qiymətləndirərək bildirmişdir: “Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim.” [1, s. 6]

Beləliklə, yuxarıda müzakirə olunan sosial müdafiə modellərinin hər birinin öz üstünlükləri və mənfi cəhətləri var, bu modellərin heç biri öz xalis formasında deyil, bir qayda olaraq əksər ölkələr öz sosial müdafiə sistemlərində hər bir modelin müəyyən xüsusiyyətlərini birləşdirir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan” qəzeti, 06 oktyabr 2022-ci il
2. Bayramlı N. Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah // “Yeni Azərbaycan” qəzeti 19.12.2018
3. Hadi Rəcəbli. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, MBM, 2012 406 s.
4. “Xalq qəzeti”.- 2009.- 23 aprel
5. Неделяков К., Танкова Е. Социальная защита и социальная политика в странах Евросоюза // Прикладные экономические исследования - 2014. - № 1. с. 35-39
6. Губин А.В., (2015), Особенности системы социальной защиты в США, Омские социально-гуманитарные чтения-2015, Материалы VIII Международной научнопрактической конференции с.53-60
7. https://cyberleninka.ru/article/n/sovremennaya-sotsialnaya-politika-stran-evropeyskogo-soyuza-problemy-i-perspektivy-razvitiya
8. https://pensiya.az/news/16/sosial-mudafie-nedir.html

*Тахмина Радиф кызы Халилова*
*Азербайджанский Университет Кооперации, магистр*
*https://orcid.org/0009-0006-3514-8728*
*xelilova.tehmine89@gmail.com*

**Система социальной защиты населения как объект государственной политики: зарубежный опыт**

*Резюме*

В статье описывается государственная политика в области социальной защиты населения в зарубежных странах, анализируются основные модели социальной защиты населения Азербайджана на примере либеральной, консервативной, социально-демократической и европейской моделей.

***Ключевые слова: социальная защита, государственная социальная политика, модели социальной защиты, зарубежный опыт, социальное обеспечение.***

*Tahmina Radif Khalilova*
*master, Azerbaijan Cooperation University*
*https://orcid.org/0009-0006-3514-8728*
*xelilova.tehmine89@gmail.com*

**Social protection system of the population as an object of state policy: foreign experience**

*Summary*

The article describes the state policy in the field of social protection of the population in foreign countries, analyzes the main models of social protection of the population of Azerbaijan in the example of liberal, conservative, social-democratic and European models.

***Key words: social protection, state social policy, social protection models, foreign experience, social security.***

**UOT: 65.01**

*Cavid Elçin oğlu ƏLƏKBƏRLİ*
*Magistr*
*Elektron Poçt: cavidalakbarli1@gmail.com*

## HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ DÖNÜŞÜ VƏ NEFT STRATEGİYASI

*Xülasə*

Cəmiyyətdə adətən deyirlər ki, şəxsiyyətləri tarix yaradır, lakin Heydər Əliyev kimi böyük şəxsiyyətlər öz əməlləri ilə tanınıb, tarixi yazıb və onu istiqamətləndiriblər. 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuş Heydər Əlirza oğlu Əliyev təhsilini Naxçıvan Pedaqoji Texnikumunda başa çatdırdıqdan sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. Lakin İkinci Dünya müharibəsinin başlanması Heydər Əliyevə buradakı təhsilini başa çatdırmağa imkan verməmişdir.

Səkkiz övladdan dördüncüsü olan Heydər Əliyevin atası Əlirza bəy dəmiryol işçisi, anası İzzət xanım da evdar qadın idi. İlk baxışdan sadə görünməsinə baxmayaraq bu ailə Azərbaycan xalqına akademik, elmlər namizədi, general və prezident olmuş ümummilli liderimiz Heydər Əliyevi bəxş etmişdir.

Öz dövrünün, zamanının tələblərini dərindən anlayan ümummilli liderimiz Heydər Əliyevin ölkəmizin milli maraqlarının beynəlxalq aləmdə layiqincə qorunmasında və xüsusilə də türk dünyası ilə münasibətlərimizin yüksək səviyyəyə - strateji əməkdaşlığa çatmasında böyük rolu olmuşdur.

Məqalədə Heydər Əliyevin 1993-cü ildə rəhbərliyə geri dönüşündən sonra ictimai-siyasi fəaliyyətindən, Azərbaycan və Türkiyə arasındakı diplomatik əlaqələrdən bəhs edilmişdir.

***Açar sözlər: Heydər Əliyev, Heydər Əliyevin hakimiyyətə geri dönüşü, Heydər Əliyev və türk dünyası, Heydər Əliyevin gördüyü işlər, Heydər Əliyev və "Əsrin müqaviləsi".***

***

1993-cü ildə Heydər Əliyevin rəhbərliyə geri dönüşü Azərbaycan dövlətçiliyi və yenicə müstəqilliyini qazanmış türk dövlətləri ilə geniş siyasi, iqtisadi, diplomatik, mədəni və s. münasibətlərin qurulması və inkişaf etdirilməsi baxımından vacib hadisə idi. Türk dövlətlərinin inkişaf edən əlaqələrindən narahat olan digər dövlətlər və siyasi qurumlar bu münasibətlərə qarşı açıq və gizli fəaliyyətə başladılar.

9 iyun 1993-cü ildə xalqın və mövcud iqtidarın israrlı dəvətini qəbul edən Heydər Əliyev Bakıya gəldi. Azərbaycanın siyasi müstəqilliyinin itirilməsinə, ərazi bütövlüyünün pozulmasına hesablanmış xarici dövlətlərin siyasətini və bu mənfur siyasəti ölkəmizdə həyata keçirəcək qurumlara, şəxslərə qarşı Heydər Əliyev uzaqgörən siyasəti ilə əməli fəaliyyətə başladı. [1]

Hadisələrə düzgün qiymət verən Heydər Əliyev dərhal Gəncəyə gedərək bölgədə hələ də davam etməkdə olan qiyamın qarşısını aldı. Beləliklə, 15 iyun 1993-cü il tarixində hakimiyyətə geri dönən Heydər Əliyev vətəndaş müharibəsi təhlükəsinin, ölkə ərazisinə səpələnmiş kriminal dəstələrin zərərsizləşdirilməsinə nail olmuşdur. [1]

Belə ki, Heydər Əliyev ardıcıl olaraq rəqiblərini neytrallaşdıraraq hakimiyyətini möhkəmləndirməyə başladı. Heydər Əliyev ilk öncə hərbi gücü olan qiyamçı S.Hüseynovu, ardınca isə keçmiş XTPD komandiri və qiyamçı olan R.Cavadovu sıradan çıxardı. Növbəti olaraq isə Heydər Əliyev tərəfdaşı olmasına baxmayaraq siyasi rəqibi olan Rəsul Quliyevi neytrallaşdırdı. Bunun başlıca səbəbi ölkənin inkişafı ilə bağlı məsələlərdə və neft müqavilələrində olan fikir ayrılıqları olmuşdur. [2, səh 129]

Ümummilli lider Heydər Əliyevin layiq görüldüyü ali mükafat və ordenlər:

Atatürk Beynəlxalq Sülh Mükafatı;

"Dövlət nişanı" ordeni (Türkiyə tərəfindın); [8, səh 3]

Beş dəfə keçmiş SSRİ-nin Lenin ordeni;

Qırmızı Ulduz ordeni;

İki dəfə Sosialist Əməyi Qəhrəmanı adı; [8, səh 3]

"Əmək şərəfinə görə" medal; [8, səh 3]

"Mübariz xidmətlərinə görə" medal; [8, səh 3]

Həmçinin nüfuzlu ali məktəblərin fəxri adları və müxtəlif ölkələrin ali mükafatları.

Hakimiyyətdə olduğu illərdə Heydər Əliyevin neft strategiyasının bir nəticəsi kimi 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsindən 13 neft şirkəti iştirak etmişdir. Daha sonra isə 19 ölkənin 41 neft şirkəti ilə 26 sazişin imzalanılmasına nail olunmuşdur. Azərbaycan nefti 1997-ci il tarixdə Bakı-Novorossiysk neft kəməri və 1999-cu ildədə Bakı-Supsa neft kəməri ilə dünya bazarına çıxmışdır. [1]

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onunla ilk dəfə siyasi əlaqələr quran ölkə Türkiyə olmuşdur, bu hadisə 1991-ci ilin 9 noyabr tarixinə təsadüf edir. Azərbaycan və Türkiyə arasında diplomatik əlaqələr 1992-ci il yanvarın 14-də yaradıldı. Həmin vaxtlar Türkiyə Prezidenti olan Turqut Özalın Azərbaycana səfəri zamanı onunla 1992-ci ilin may ayında Birgə Bəyanat imzalandı. Birgə Bəyanat qarşılıqlı əlaqələrin prinsiplərini müəyyən edirdi. [9]

Azərbaycana rəhbərlik etdiyi illərdə Heydər Əliyev dəfələrlə Türkiyəyə səfərlər edərək qardaş ölkə ilə əlaqələri gerçək tərəfdaşlıq üzərinə qurmuşdur. Həmin illərdə xarici ölkələrin rəhbərləri ilə 500-dən çox görüş keçirmiş Heydər Əliyevin bu görüşlərinin təqribən 100-ü Türkiyənin payına düşmüşdür. Heydər Əliyevin Türkiyəyə ilk rəsmi səfəri 1994-cü ilin fevralın 8-də olmuşdur. Bu səfər çərçivəsində Azərbaycan və Türkiyə qarşılıqlı əməkdaşlıq haqqında elmi, mədəni, iqtisadi və texniki sahələrə dair sazişlər imzalamışdır. [4]

Yeri gəlmişkən qeyd edək ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanan zaman Türkiyənin (TPAO şirkəti) buradakı payı 1,75 faiz olmuşdur. Bu göstəricinin aşağı olmasının səbəbi isə türk şirkətinin Qərb sərmayədarları ilə müqayisədə müqavilə danışıqlarına gec qoşulması olmuşdur.

Lakin daha sonralar Heydər Əliyevin də rolu ilə ayrı-ayrı neft-qaz layihələrində Türkiyənin payına düşən göstərici 35 faiz olmuşdur. [3]

Heydər Əliyevin bu tərəfdaşlığa verdiyi ən böyük ərmağan Azərbaycanın enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft kəmərinin vasitəsilə Türkiyə üzərindən keçərək dünyaya açılması olmuşdur. Dünya nəhəngləri ilə danışıqlar zamanı nümayiş etdirdiyi çevik diplomatiya qabiliyyəti hesabına Heydər Əliyev ixrac neft kəmərinin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsinə nail olmuşdur. [9]

Qeyd etmək lazımdır ki, türk dünyasının bir-birilə əlaqəsinin təmin olunmasında Heydər Əliyevin tarixi "İpək Yolu" layihəsinin reallaşdırılmasında göstərdiyi xidmətlər vacib əhəmiyyətə malikdir. Heydər Əliyev "İpək Yolu" layihəsinin gerçəkləşdirilməsində Bakı-Tbilisi-Ceyhan xəttinin əhəmiyyətini uzaqgörənliyi ilə zamanında dərk etmişdir. Baykal-Amur magistralının, Şərq-Qərb nəqliyyat dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolunun türk dünyasını birləşdirməsinin Heydər Əliyevin əvəzsiz xidmətlərindən olduğunu qeyd etmək lazımdır. [4]

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir. Konstitusiya dövlətimizin demokratik əsaslarının, hakimiyyət bölgüsünün prinsiplərinin və insan hüquqlarının təmin olunmasının əsasını qoymuşdur. [8, səh 53]

1996-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində Türk Dünyası Yazıçılarının III Qurultayı keçirilmişdir. Qurultay zamanı Heydər Əliyev çıxışında türkdilli xalqların zamanla bir-birinə yaxınlaşacağını və kömək edəcəyini əminliklə demişdir. [6]

Heydər Əliyevin türk dünyasındakı əvəzsiz xidmətlərindən danışarkən onu da qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığının möhkəm təməli olmuş "bir millət, iki dövlət" ifadəsi məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən səsləndirilmişdir.

Yeni dünya düzəninin formalaşdığı bir zamanda Türk Dövlətlərinin Birliyinin yaranmasında ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi xidmətlərinin əhəmiyyətini bir daha anlamaqdayıq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Salyan Rayon İcra Hakimiyyəti (salyan-ih.gov.az)
2. Dövlət siyasətinin əsasları kitabı, Bakı, 2017, [səh 129]
3. Heydər Əliyev və türk dünyası (medeniyyet.az)
4. Heydər Əliyev və türk dünyası | Xalq Qəzeti (xalqqazeti.com)
5. Tərcümeyi–hal | Ağcabədi rayon Heydər Əliyev Mərkəzi (wordpress.com)
6. Ulu öndər Heydər Əliyevin adı bu gün türk dünyasının birlik rəmzidir (sesqazeti.az)
7. Ümummilli lider "AZƏRBAYCAN" Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi (president.az)
8. Ümummilli lider Heydər Əliyev (preslib.az) [səh 3 və səh 53]
9. Welcome to Heydar Aliyevs Heritage Research Center (aliyev-heritage.org)



***магистр: Джавид Эльчин оглы Алекберлы***
***Электронная почта: cavidalakbarli1@gmail.com***


## Возвращение Гейдара Алиева к власти и нефтяная стратегия

### *Резюме*


В обществе обычно говорят, что история создает личности, но такие великие личности, как Гейдар Алиев, были признаны по своим делам, писали историю и руководили ею. Гейдар Алирза оглы Алиев, родившийся 10 мая 1923 года в городе Нахчыван, после окончания Нахчыванского Педагогического Технического Университета поступил на архитектурный факультет Азербайджанского Индустриального Института. Однако начавшаяся Вторая мировая война не позволила Гейдару Алиеву закончить здесь обучение.

Четвертый из восьми детей, отец Гейдара Алиева, Алирза бек, был железнодорожником, а мать, Иззет Ханум, домохозяйкой. Хотя на первый взгляд это кажется простым, эта семья

дала азербайджанскому народу Гейдара Алиева, нашего общенационального лидера, ставшего академиком, кандидатом наук, генералом и президентом.

Наш общенациональный лидер Гейдар Алиев, глубоко понимавший требования своего времени, сыграл большую роль в надлежащей защите национальных интересов нашей страны в международном мире и особенно в достижении высокого уровня стратегического сотрудничества в наших отношениях с тюркским миром.

В статье рассказывается об общественно-политической деятельности Гейдара Алиева после его возвращения к руководству в 1993 году, особенно о дипломатических и двусторонних отношениях между Азербайджаном, Турцией и другими турецкими государствами и нашей страной.

***Ключевые слова: Гейдар Алиев, возвращение Гейдара Алиева к власти, Гейдар Алиев и тюркский мир, творчество Гейдара Алиева, Гейдар Алиев и "Контракт века".***

***master: Javid Elchin Alakbarli***
***E-mail: cavidalakbarli1@gmail.com***

**Heydar Aliyev's return to power and oil strategy**

***Summary***

In society, we usually say that history creates personalities, but great personalities like Heydar Aliyev were recognized by their actions, wrote history and directed it. Heydar Alirza oglu Aliyev, born on May 10, 1923 in Nakhchivan city, after completing his education at Nakhchivan Pedagogical Technical University, entered the architecture faculty of Azerbaijan Industrial Institute. However, the outbreak of the Second World War did not allow Heydar Aliyev to finish his studies here.

The fourth of eight children, Heydar Aliyev's father, Alirza Bey, was a railway worker, and his mother, Izzet Khanum, was a housewife. Although it seems simple at first glance, this family gave the Azerbaijani people Heydar Aliyev, our national leader who became an academician, candidate of sciences, general and president.

Our national leader Heydar Aliyev, who deeply understood the demands of his time, played a great role in properly protecting our country's national interests in the international world and especially in reaching a high level of strategic cooperation in our relations with the Turkish world.

The article talks about the social and political activities of Heydar Aliyev after his return to leadership in 1993, especially the diplomatic and mutual relations between Azerbaijan, Turkey and other Turkish states and our country.

***Key words: Heydar Aliyev, Heydar Aliyev's return to power, Heydar Aliyev and the Turkish world, Heydar Aliyev's work, Heydar Aliyev and the "The Contract of the Century".***

**UOT 339**

***Nilgün Elçin qızı NƏCƏFOVA***
***Magistr***
***Azərbaycan Kooperasiya Universiteti***
***nilgun.najaf@gmail.com***

## BORU KƏMƏRİ VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİN AZƏRBAYCANIN DAYANIQLI İQTİSADİ İNKİŞAFINDA ROLU

***Xülasə***

Məqalədə Ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyası siyasətinin ölkənin iqtisadi inkişafındakı rolu və bu siyasətin davamı olaraq aktuallaşan boru kəməri və beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycanın dayanıqlı inkişafına verdiyi perspektiv üstünlüklər öz əksini tapmışdır.

***Açar sözlər: "Əsrin müqaviləsi", "Bir kəmər, bir yol", Cənubi Qafqaz, Orta Koridor, Şərq-Qərb nəqliyyat dəhlizi***

***

Dəhlizlər konsepsiyası iqtisadi inkişafda mühüm rol oynayır, çünki iqtisadiyyatlar səmərəli və dayanıqlı logistika sistemləri ilə dəstəklənir. Dəhlizlər həm ticarəti, həm də nəqliyyatı asanlaşdırmaq və ölkələrarası əlaqəni artırmaq üçün bir konsepsiya kimi istifadə olunur.

Müasir dövrümüzdə biznesin qloballaşması və müxtəlif ölkələrin nəqliyyat sistemlərinin dünya nəqliyyat sisteminə inteqrasiyası əsas tranzit yük axınlarının keçdiyi beynəlxalq nəqliyyat dəhlizlərinin intensiv inkişafını daha da şərtləndirmiş oldu.

Azərbaycanın beynəlxalq logistik mərkəzə çevrilmə prosesi ötən əsrin əvvəllərindən başlamışdır. İstər əlverişli coğrafi mövqeyi, istərsə də zəngin enerji ehtiyatları və təbii sərvətləri Azərbaycanı mühüm nəqliyyat qovşağı və Şimalla Cənubu, eləcə də Şərqlə Qərbi əlaqələndirən əhəmiyyətli logistik mərkəzə çevirə bilmişdir. 20 ilə yaxın bir müddətdə Azərbaycanın mühüm geostrateji mövqeyi genişmiqyaslı layihələr həyata keçirməyə və müasir standartlara söykənən nəqliyyat-kommunikasiya infrastrukturunun qurulmasına imkan vermiş oldu.

Azərbaycanda boru kəmər nəqliyyatının inkişaf xətti Ulu Öndər Heydər Əliyevin strateji siyasəti ilə bağlıdır. 1994-cü il 20 sentyabr tarixində onun məqsədyönlü səyi nəticəsində Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian si Petroleum Limited, BP Eksploreyşn (Kaspian si) Limited, Delta Nimir Xəzər Limited, Den Norske Stats Olyeselskap a. s, LUKOYL Səhmdar Cəmiyyəti, Makdermott Azərbaycan İNK, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerci Limited, Türkiye Petrolleri a. o., Yunokal Xəzər LTD arasında Saziş imzalandı [1].

Beynəlxalq və mühüm siyasi əhəmiyyətə malik olan, dörd dildə öz əksini tapmış bu saziş "Əsrin müqaviləsi" adı ilə tarixə düşdü. Bu müqavilənin imzalanması Azərbaycanın uğurlu "Yeni neft strategiyası"nın başlanğıcını qoymuş oldu.

İlkin hesablamalara görə, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun çıxarılabilən neft ehtiyatı 511 milyon ton müəyyən edilmiş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu göstərici 730 milyon tona çatmışdır. Yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları təşkil edirdi. Ümumi xalis gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşürdü. "Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradılaraq, Dövlət Neft Şirkəti ilə birgə işlərə başlanıldı [1, 7].

"Əsrin müqaviləsi" sonrakı dövrdə dünyanın daha 19 ölkəsindən olan 41 neft şirkətləri ilə 30-dan artıq sazişlərin imzalanması prosesini sürətləndirdi. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir [1].

"Əsrin müqaviləsi" çərçivəsində imzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları sərmayə qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldildi [1].

14 sentyabr 2017-ci ildə Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib, yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Yeni Sazişlə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Yeni Saziş Azərbaycana mərhələli şəkildə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsini, SOCAR-ın payının 11,6 faizdən 25 faizə yüksəldilməsini ehtiva edir. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz həcmində olması nəzərdə tutulur [7, 12].

Məhz bu siyasətin davamı olaraq ölkəmizin enerji ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətində uğurlar davam etdirildi. Belə ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə yeni regional və qlobal nəqliyyat və enerji layihələri həyata keçirilməyə başlandı. Bu layihələr əsasən enerji və

yük daşımaları sahəsində effektivliyin artırılmasına nail olmaqla bərabər, həmçinin də regionun inkişafında öz müsbət töhfəsini vermiş oldu. Azərbaycan Böyük İpək Yolu regionu, Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP və TAP qaz boru kəmərləri kimi beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində fəal iştirakçılardan biridir. Cənub Qaz Dəhlizi Layihəsi çərçivəsində qaz kəmərləri də enerji dəhlizinin rolunu artırmış oldu.

2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" Saziş imzalandı. Trans-Anadolu Qaz Kəməri təkcə "Şahdəniz" layihəsi çərçivəsində hasil olunan qazı deyil, Azərbaycanın digər yataqlarından hasil edilən təbii qazı da dünya bazarına çatdırmaq potensialına malik olması ilə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır [4].

Azərbaycanın xarici iqtisadi əlaqələrinin şaxələndirilməsində böyük rol oynayan, Avropa və Asiyanı ən qısa marşrutla birləşdirən əsas dəhliz "Şərq-Qərb" nəqliyyat dəhlizidir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Avropa və Asiyanın ölkələri arasında yükdaşınma prosesində Azərbaycanın tranzit ölkə olaraq əhəmiyyətini artırdı. "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas marşrut xəttinə Çin-Qazaxıstan sərhəddi və Avropa daxildir. Bu xətt yükdaşımalarda həm vaxta, həm də yükdaşımalara görə çəkilən xərclərin qənaət olunmasına imkan yaradır.

Azərbaycanın dayanıqlı iqtisadi inkişafına təsirinə gəldikdə qeyd etməliyik ki, ölkəmizin tranzit potensialından əhəmiyyətli dərəcədə istifadə edilməsi həm ölkənin tranzit imkanlarının artırılmasına, həm də Bakı-Tbilisi-Qars dəmiryol xətti boyunca daşınan yüklərin həcminin artması bu sahədə rəqabətqabiliyyətliliyin yüksəldilməsində mühüm rol oynayır. Statistikaya nəzər salsaq görürük ki, 2018-ci ildə Azərbaycan ərazisindən 9,3 milyon ton tranzit yük daşınmış və tranzit qeyri-neft məhsullarının həcmində 49 faiz artım qeydə alınmışdır [2]. Bu da öz növbəsində ölkədə qeyri-neft sektorundan gələn gəlirlərin artmasına səbəb olacaqdır.

***Cədvəl 1.***

***Boru kəmər nəqliyyatı üzrə yük daşınmasından əldə olunan gəlir, min manat***

| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi gəlirlər, min manat | 49011 | 45144 | 47196 | 39724 | 21946 | 18996 | 1712629 | 1679790 | 2323741 | 3049506 |
| neft kəməri | 6424 | 10423 | 9916 | 10466 | 11930 | 15946 | 1563281 | 1325903 | 1127013 | 1197650 |
| qaz kəməri | 42586 | 34721 | 37280 | 29258 | 10016 | 3050 | 149 348 | 353 887 | 1196728 | 1851856 |

*Mənbə: Dövlət Statistika Komitəsi*

Cədvəl 1-dən də göründüyü kimi, 1996-cı ildən başlayaraq boru kəmər nəqliyyatı üzrə gəlirlərdə müsbət dinamika ilə artım qeydə alınmışdır. Son 20 il ərzində neft kəməri ilə yükdaşımalardan, eləcə də, qaz kəməri ilə yükdaşımalardan əldə olunan gəlirlərdə dəfələrlə artım müşahidə olunmuşdur ki, bu da birbaşa ölkənin dayanıqlı iqtisadi inkişafına təsir edən göstəricilərdən biridir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin təsisçi ölkələri Rusiya, İran, Hindistandır. Bu dəhliz təsisçi ölkələr arasında ticarət əlaqələrinin geniş potensiala malik olması, bu dəhlizin iştirakçısı qismində Azərbaycan Respublikasının əlverişli tranzit imkanlarından geniş istifadəni təmin edəcəkdir [10].

Əsasən Türkiyənin təşəbbüskarlığı ilə qurulan Orta Koridor texniki cəhətdən Çindən Türkiyəyə gedən mövcud avtomobil və dəmir yolu marşrutlarının daha funksional istifadəsinə əsaslanır. Bu çərçivədə atılan addımlardan biri də Çinin Sincan-Uyğur Muxtar Bölgəsindəki Şihezi şəhərindən başlayan və Qazaxıstanın Manqışlak yarımadasındakı Aktau limanına çatan Nomad Ekspresinin istifadəsidir. 07 noyabr 2013-cü il tarixində Astanada keçirilən İkinci Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumunda Gürcüstan, Qazaxıstan və Azərbaycan Dəmir Yolları ilə Batumi, Aktau və Bakı Liman administrasiyaları tərəfindən imzalanmış "Transxəzər Beynəlxalq Nəqliyyat Xəttinin İnkişafı üzrə Koordinasiya Komitəsinin yaradılması" kontekstində yaradılmışdır [11].

Orta Koridor Çindən Türkiyəyə, həmçinin də Avropa Birliyi ölkələrinə və əksinə olaraq yük daşımalarının artırılmasında fəaliyyət göstərir. Bu nəqliyyat dəhlizi boyunca hərəkətdə olan qatarlar yükləri Çindən Avropaya təxminən orta hesabla 10-12 günə çatdırır [6]. Bu nəqliyyat dəhlizi ilə yüklər Avropaya 2 istiqamətdə - Gürcüstanın Poti və Batumi limanları və Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə nəql olunur.

Orta Koridor təşəbbüsü çərçivəsində həyata keçirilən digər mühüm layihə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yoludur. BTQ dəmir yolu layihəsi Ermənistanla münasibətlərində problem yaşayan Türkiyə və Azərbaycan arasında mövcud Qars-Gümrü-Bakı və Qars Gümrü-Tbilisi dəmir yolu xətlərinə alternativ marşrut kimi ortaya çıxdı və xəttin tikintisi ilə bağlı razılıq Türkiyə, Azərbaycan və Gürcüstan arasında 2007-ci il fevralın 7-də Tbilisidə əldə edilmişdir. Ümumi uzunluğu 838 kilometr olan dəmir yolu xətti 30 oktyabr 2017-ci ildə xidmətə başlamışdır.

Orta Koridoru həm də "Böyük İpək Yolu"nun məntiqi davamı hesab etmək olar. Bu vaxtadək Çindən Avropa ölkələrinə daşınan əsas yüklər Rusiya ərazisi ilə Trans-Sibir tranzit marşrutu ilə aparılırdı. Orta Koridor bu tranzit xəttindən 2 min km qısadır və keçdiyi ərazilər əlverişli coğrafi iqlimə malikdir. Əsas uzunluğu 5400 km olan Şərq-Qərb nəqliyyat dəhlizinin ortalama tranzit müddəti 15 gün hesab edilir. Alternativ dəniz yolu ilə müqayisə edərsək bu dəhlizin yükləri Çindən Avropaya 3 dəfəyə qədər daha az müddətə çatdırdığının şahidi olarıq.

Deyilənlərə əsaslanmaqla Azərbaycanın nəqliyyat sektorunda yük daşınması üzrə son 20 il üzrə statistik qiymətləndirmə aparılmışdır (Cədvəl 2).

***Cədvəl 2.***

***Nəqliyyat sektorunda yük daşınması, 1000 ton***

| | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi yük daşınması, min ton | 8 331 | 15 948 | 26 533 | 97 504 | 92 776 | 76 328 | 78 654 |
| dəmiryolu ilə | 2 409 | 5 770 | 9 628 | 8 250 | 6 210 | 4 861 | 5 316 |
| Dəniz | 4 325 | 5 192 | 7 521 | 4 859 | 2 937 | 3 299 | 3 093 |
| Hava | 57 | 102 | 310 | 139 | 582 | 2 302 | 2 802 |
| Boru kəməri | 1 013 | 1 371 | 1 538 | 72 931 | 67 515 | 57 065 | 58 018 |
| neft kəməri | 465 | 646 | 624 | 68 804 | 62 511 | 49 271 | 47 585 |
| qaz kəməri | 548 | 725 | 914 | 4 127 | 5 004 | 7 794 | 10 433 |

*Mənbə: Dövlət Statistika Komitəsi*

Cədvəl 2-dən də göründüyü kimi, nəqliyyat sektorunda yük daşınması son 20 ildə hər il müntəzəm olaraq artmışdır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin istifadəyə verilməsi həmin dövrdə boru kəməri ilə daşınmaları kəskin artırmış və bu da, onun cəmi yükdaşınmalarda payını 2007-ci ildə əvvəlki illə müqayisədə 10 % bəndi artırmışdır [2].

Ölkəmizin tranzit potensialının reallaşdırılmasında Çinin "Kəmər, yol" təşəbbüsünün də böyük əhəmiyyəti vardır. Strategiyanın tərəfdaş ölkələrindən biri Azərbaycan olmuşdur. Azərbaycanın bu strategiya təşəbbüsünün əsas məqsədi Transxəzər Tranzit Dəhlizinin "Kəmər, yol" layihəsi ilə inteqrasiya olunması ilə yanaşı digər iştirakçıların iqtisadi maraqlarına uyğun olaraq fayda əldə etməkdən ibarət olmuşdur.

Azərbaycanın enerji potensialını dünya bazarına çatdırmaq istiqamətində ən mühüm tranzit boru kəmər nəqliyyat xətlərindən biri Transxəzər Boru Kəməridir. Bu kəmər Türkmənistan qazını Avropaya çatdırmaqla yanaşı həm də Azərbaycan və Türkmənistan dövlətlərini yaxınlaşdırmaqda mühüm rola malikdir. Çünki bu kəmərlə Türkmənistan qaz ehtiyatları ilk dəfə Azərbaycan vasitəsilə Avropa bazarına nəql ediləcəkdir. Onu da qeyd edək ki, Türkmənistan əsasən təbii ehtiyatlarını Çin və Rusiyaya ixrac etməkdə maraqlı idi. Türkmənistan Transxəzər boru kəmərinə qoşulmaqla qeyd edilən tərəfdaşlarından daha az asılı olacaq və xarici bazarının əhəmiyyətli dərəcədə şaxələndirilməsinə nail olacaqdır.

Məqalədə qeyd olunanlara əlavə olaraq qeyd etmək yerinə düşər ki, İkinci Qarabağ müharibəsində qazanmış olduğumuz qələbə yeni bir layihənin - Zəngəzur nəqliyyat dəhlizinin aktuallaşma-

sına səbəb oldu. Zəngəzur dəhlizi Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsi olaraq Avropa və Asiyanı birləşdirən və Azərbaycandan keçən mühüm tranzit xətti olacaqdır. Bu layihə Türkiyə və Azərbaycan arasında birbaşa quru yol nəqliyyatının reallaşmasına səbəb olacaqdır.

Ümumilikdə belə nəticəyə gəlirik ki, ölkəmizin istər Ulu öndər Heydər Əliyevin birbaşa təşəbbüsü və uzaqgörən siyasəti ilə əsasını qoyduğu və əsl tarixi nailiyyət hesab olunan boru kəməri nəqliyyatı, istərsə digər tranzit nəqliyyat layihələri Azərbaycanın regionda tranzit mövqeyinin güclənməsi və onun geoiqtisadi mövqeyinin möhkəmlənməsini şərtləndirmiş oldu. Haqqında danışdığımız tranzit marşrutlar ölkəmizdə yükdaşımaların diversifikasiyasına və nəqliyyat sektorunun qeyri-neft sənayesində xüsusi payının artmasına öz müsbət təsirini göstərəcək, qeyri-neft məhsulları üçün yeni ixrac bazarlarının açılmasına səbəb olacaqdır. Azərbaycan iqtisadiyyatının dayanıqlı böyüməsinə və şaxələndirilməsinə töhfəsini verəcəkdir.

Eyni zamanda Orta Koridor layihəsi Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından olan Çinlə ticarət əlaqələrinin inkişafına öz səmərəsini verəcəkdir. Həmçinin bu koridor Rusiya və Türkiyə üçün böyük imkanlar açmış olacaq və iki ölkə arasında yüklərin həm xərc, həm müddət baxımından daha münasib çatdırılmasına gətirib çıxaracaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Energetika Nazirliyi, https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, stat.gov.az
3. "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu
4. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu
5. Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
6. Azərbaycan Dəmir Yolları, https://freight.ady.az/beynelxalq-dehlizler/serq-qerb-neqliyyat-dehlizi
7. Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə layihədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payı ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
8. Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi, http://etsim.az/db/neqliyyat/neqliyyat17.php
9. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı, Bakı Universiteti Nəşriyyatı, 2003, -434s.
10. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
11. Toprak, N. G. (2020). Orta Koridor Girişimi bağlamında Türkiye'nin değişen Orta Asya politikası. Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 6(1), 19-32
12. https://president.az/az/articles/view/25217

***Нильгун Эльчин Наджафова***
***Магистр Азербайджанский Университет Кооперации***
***nilgun.najaf@gmail.com***

## Роль трубопроводов и транспортных коридоров в устойчивом экономическом развитии Азербайджана

***Резюме***

Роль успешной нефтяной стратегической политики Великого лидера Гейдара Алиева в экономическом развитии страны и перспективные преимущества трубопровода и международных транспортных коридоров, ставших актуальными как продолжение этой политики, для устойчивого развития Азербайджана нашли свое отражение в статья.

***Ключевые слова: “Контракт века”, “Один пояс, один путь (ОПОП)”, Южный Кавказ, Средний коридор, транспортный коридор Восток-Запад.***

***Nilgun Elchin Najafova***
***Master's degree Azerbaijan University of Cooperation***

**The role of pipelines and transport corridors in the sustainable economic development of Azerbaijan**

***Summary***

The role of the successful oil strategy policy of the Great Leader Heydar Aliyev in the country's economic development and the prospective benefits of the pipeline and international transport corridors, which became relevant as a continuation of this policy, to the sustainable development of Azerbaijan were reflected in the article.

***Key words: “The Contract of the Century”, “One Belt, One Road (OBOR)”, South Caucasus, Middle corridor, East-West transport corridor.***

**UOT 338**

***Anar Rövşən oğlu QASIMOV***
***Magistr, Azərbaycan Kooperasiya Universiteti***

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏT KURSUNUN MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN OLUNMASINDA ROLU

***Xülasə***

Tezisdə ümummilli lider Heydər Əliyevin iqtisadi siyasət kursunun makroiqtisadi tarazlığın təmin olunmasında rolu ən müxtəlif aspektlərdə, o cümlədən, ölkədə inflyasiya poseslərinin qarşısının alınması, işsizlik səviyyəsinin azaldılması, ölkənin dünya iqtisadi sistemina səmərəli inteqrasiya olunması istiqamətində həyata keçirilən məqsədyönlü siyasət və bu siyasət çərçivəsində aparılan ardıcıl islahatlar kontekstində nəzərdən keçirilmişdir.

***Açar sözlər: İqtisadi siyasət, makroiqtisadi sabitləşmə, iqtisadi inkişaf, milli iqtisadi inkişaf modeli, makroiqtisadi tarazlıq.***

***

XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının qarşısında duran strateji əhəmiyyətli mühüm vəzifələr arasında bazar iqtisadiyyatına keçid və dünya iqtisadi sisteminə səmərəli inteqrasiya olunmaqla milli iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi xüsusi yer tuturdu.

Bu mənada ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə Azərbaycanın milli iqtisadi inkişafının formalaşmasının uğurlu və perspektiv inkişafına istiqamətlənmiş keçid modelinin əsaslarını müəyyənləşdirmiş və bu modelin həyata keçirilməsini təmin edən dövlət proqramlarının, inkişaf strategiyalarının, layihələrin işlənib-hazırlanmasına və reallaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Sözügedən dövrdə Azərbaycanda milli iqtisadiyyatın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər müstəqilliyin ilk illərində reallaşdırılan iqtisadi, siyasi, institusional islahatların ölkə iqtisadiyyatının perspektiv inkişafı üçün fundamental zəmin yaratmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən uzaqgörənliklə müəyyənləşdirilən iqtisadi strategiyanın bu və ya digər məqamlarının nəzərdən keçirilməsi zamanı 1993-2003-cü illərdə ölkəmizin hansı kəskin, ziddiyyətli və eyni zamanda olduqca mürəkkəb proseslərlə üz-üzə qaldığını görməmək mümkün deyildir. Lakin, sözügedən dövrdə cərəyan edən hadisə və proseslərin hansı dəqiqliklə düzgün qiymətləndirilməsi və müvafiq qərarların hansı uzaqgörənliklə qəbul olunduğunu da anlamaq çətin deyildir. Qəbul edilmiş qərarlara uyğun olaraq həyata keçirilən tədbirlər isə ölkə-

mizin gələcək inkişafı üçün olduqca ciddi zəmin yaratmışdır.

Bu dövrdə aparılan məqsədyönlü və ardıcıl siyasətin ilkin nəticəsi kimi formalaşdırılan makroiqtisadi və siyasi sabitlik, eləcə də iqtisadi sistemin transformasiyası ilə bağlı iqtisadi islahatların zəruri qanunvericilik bazasının formalaşdırılmasına, sosial-iqtisadi inkişafla bağlı müvafiq prioritetlərin dəqiqləşdirilməsinə, həmçinin də cari məqsədlər və perspektiv hədəflər nəzərə alınaraq bu və ya digər hədəflərin reallaşdırılması üzrə taktika və strategiyanın seçilməsinə zəmin yaratmışdır. Bazar iqtisadiyyatı sisteminə keçid dövründə müstəqil milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı müəyyənləşdirilən iqtisadi strategiya isə ölkədə makroiqtisadi sabitliyin təmin olunmasına, iqtisadi sistemin transformasiyası ilə bağlı olan istiqamətlərdə iqtisadi islahatların həyata keçirilməsinə, bazar iqtisadiyyatı münasibətlərinin bu və ya digər səviyyələrdə liberallaşdırılmasına, ölkəmizin strateji əhəmiyyətli milli maraq və mənafelərinin ön planda tutulması yolu ilə qlobal iqtisadi sistemə davamlı və səmərəli inteqrasiya prinsiplərinə əsaslanırdı.

Qısa müddətdə ölkədə makroiqtisadi sabitləşmə tədbirlərinin həyata keçirilməsi nəticəsində 1997-2003-cü illərdə Ümumi Daxili Məhsul 74,8 faiz, sənaye məhsulu istehsalı 30,8 faiz, kənd təsərrüfatı məhsullları istehsalı 58 faiz, əsaslı vəsait qoyuluşu isə 4,7 dəfədən çox artmış, adambaşına düşən Ümumi Daxili Məhsul həcmi 1993-cü ildə 179,9 ABŞ dolları, 1995-ci ildə isə 319,3 ABŞ dolları həcmində olduğu halda, bu rəqəm 2003-cü ildə 1995-ci ilə nisbətən 4,9 dəfədən çox artaraq 879,7 ABŞ dollarına, xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artaraq 5,28 milyard ABŞ dollarına çatmış, habelə ticarət dövriyyəsinin ümumi strukturunda idxal 3,9 dəfə, ixrac isə 4,1 dəfə artmışdır.

Azərbaycanın müasir iqtisadi inkişaf modelinin müəllifi, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycan dünyanın aparıcı neft şirkətləri ilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsinin birgə kəşfiyyatı və işlənməsi üzrə 7 ölkənin 11 məşhur şirkəti ilə "Əsrin müqaviləsi" adlandırılan saziş bağlamış və ABŞ, Rusiya, Böyük Britaniya, Yaponiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanı neft şirkətlərinin iştirakı ilə konsorsium - Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. "Əsrin müqaviləsi" Xəzər dənizində ilk irimiqyaslı layihənin həyata keçirilməsində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Dünyanın ən nüfuzlu və yüksək texnologiyalarına malik olan neft şirkətləri ilə neft sazişinin bağlanması ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafının əsasını yaratdı və nəticədə bu tədbirlərin həyata keçirilməsi hal-hazırkı davamlı və dinamik inkişafın təmin edilməsində müstəsna əhəmiyyətə malik oldu. Həyata keçirilən neft strategiyası yerli müəssisələrin müasir texnologiyalarla təchiz edilməsini, bu müəssisələrdə infrastrukturların yenidən qurulmasını və müxtəlif həcmli yeni infrastrukturların yaranmasını təmin etdi.

Müstəqilliyin ilk dövründə qarşıda duran əsas vəzifə ölkəni düşdüyü böhranlı vəziyyətdən çıxarmaq, ölkə iqtisadiyyatının spesifik cəhətlərini, o cümlədən, iqtisadiyyatda qeyri-müəyyənliyi, işsizliyin və inflyasiyanın yüksək səviyyəsini və s. nəzərə almaqla makroiqtisadi sabitliyin təmin olunması və bununla da milli iqtisadi inkişafa nail olunmasından ibarət idi. Təbii ki, bu kimi mühüm vəzifənin reallaşdırılması isə milli iqtisadi inkişaf konsepsiyası olmadan mümkün deyildir. Ölkə iqtisadiyyatının inkişaf mərhələlərində istehsal və qeyri-istehsal sahələrinin əsas makroiqtisadi göstəricilərinin inkişaf dinamikası Ulu Öndər Heydər Əliyevin iqtisadi strategiyasının uğurla reallaşdırılmasının əyani nümunəsidir. Belə ki, 1993-cü ildə ölkədə ÜDM istehsalı 1326,9 milyon ABŞ dolları olduğu halda, 2003-cü ildə bu rəqəm 7276,0 milyon ABŞ dolları təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən Ümumi Daxili Məhsul müvafiq olaraq 179,9 ABŞ dolları və 896,8 ABŞ dolları, Umumi Milli Gəlir 1995-ci ildə 2130,4 milyon manat, 2003-cü ildə 6712,3 milyon manat, xalis milli gəlir isə 1830,3 milyon manat və 5926,4 milyon manat olmuşdur.

Ümummilli lider Heydər Əliyevin iqtisadi inkişaf modelinin əsas cəhətlərindən biri də onun möhkəm elmi konseptual baza və mütərəqqi qanunvericilik əsasları üzərində formalaşmasıdır. Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli iqtisadi inkişaf modeli fundamental prinsiplər üzərində qurulmuşdur. Bu prinsiplər ölkənin malik olduğu zəngin resurslardan səmərəli istifadə edilməsi, bazar iqtisadi sisteminin əsaslarının yaradılması, onun iqtisadi inkişafının sürətləndirilməsi, Azərbaycanın dünya iqtisadi sisteminə səmərəli inteqrasiya edilməsi, son nəticədə ölkənin iqtisadi, siyasi, mənəvi, sosial inkişafına xidmət edən prioritet istiqamətlərdən ibarət olmuşdur. [3]

Sözsüz ki, respublikamızın yüksək artım templəri əldə etməsinin və indiki meqainkişaf erasına çatmasının başlıca məntiqi, elmi-iqtisadi məzmunu Ulu öndər Heydər Əliyevin yaratmış olduğu mükəmməl inkişaf doktrinasının təməlləri üzərində inkişaf etdirilən və yeni iqtisadi qanunauyğunluqlar üzərində diversifikasiya olunan fundamental konsepsiyanın həyata keçirilməsi ilə bağlıdır. Prezident İlham Əliyevin yaratdığı yeni makroiqtisadi platforma və inkişaf formulu Azərbaycanın son illər proqressiv meyillərlə irəliləməsinin əsas konseptlərini təşkil edib. [1]

Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. [2]

Qeyd olunanları ümumiləşdirərək, Heydər Əliyev siyasətinin ən böyük üstünlüyünün onun konkret nəticəyə hədəflənməsi və kompleks inkişafın təmin olunmasına yönəlməsi ilə xarakterizə olunduğunu göstərməklə, bu müdrik siyasətin ən əhəmiyyətli nəticələrini qısaca olaraq, ilk növbədə, uğurla reallaşdırılan yeni neft strategiyasının ölkədə rəqabətqabiliyyətli, yüksək səmərəli neft sektorunun yaradılmasını və Azərbaycanın dünya enerji bazarında nəzərəçarpan subyektə çevrilməsini təmin etmiş olması və eyni zamanda, ölkədə makroiqtisadi sabitlik və tarazlığa nail olunması, dayanıqlı və davamlı inkişaf üçün real zəminin yaradılmış olması, Azərbaycanın iqtisadi artım tempinə görə dünya ölkələri arasında lider dövlətə çevrilmiş olması kimi səciyyələndirmək mümkündür.

## ƏDƏBİYYAT


1. Azərbaycanın dünyaya bəxş etdiyi tolerantlıq modelini öyrənəcəklər. 09.01.2015. https://sia.az/az/news/economy/453462.html
2. Elnur Sadıqov. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. 19.04.2021. https://news.unec.edu.az/ekspert-reyi/7375-heyder-eliyev-ve-azerbaycan-igtisadiyyat-unec-professoru-yazir
3. Məhəbbət Məmmədov. Heydər Əliyevin milli iqtisadi inkişaf modeli Azərbaycanın iqtisadi müstəqilliyinin əsasıdır. 11.03.2023. https://www.yeniazerbaycan.com/xeberlenti_e82159_az.html



***Анар Ровшан оглу Гасымов***

***Магистр, Азербайджанский Университет Кооперации***


## Роль курса экономической политики Гейдара Алиева в обеспечении макроэкономического равновесии


***Резюме***

В тезисе обсуждается роль курса экономической политики общенационального лидера Гейдара Алиева в обеспечении макроэкономической сбалансированности в различных аспектах, в том числе, предотвращение инфляционных процессов в стране, сокращение безработицы, целенаправленная политика, проводимая в направлении эффективной интеграции страны в мировой экономической системы, и в контексте последовательных реформ, проводимых в рамках этой политики.



***Ключевые слова: Экономическая политика,, макроэкономическая стабилизация, экономическое развитие, национальная модель экономического развития, макроэкономическая равновесия.***

*Anar Rovshan Gasimov*
*Master, Azerbaijan Cooperation University*

**The role of Heydar Aliyev's economic policy course in ensuring macroeconomic balance**

***Summary***

In the thesis, the role of national leader Heydar Aliyev's economic policy course in ensuring macroeconomic balance is discussed in various aspects, including prevention of inflationary processes in the country, reduction of unemployment level, purposeful policy implemented in the direction of effective integration of the country into the world economic system, and in the context of successive reforms carried out within this policy. reviewed.

***Key words: Economic policy, macroeconomic stabilization, economic development, national economic development model, macroeconomic balance.***

**UOT 338**

*Nicat Faiq oğlu Qasımov*
*Magistr, Azərbaycan Kooperasiya Universiteti*

# MİLLİ İQTİSADİYYATDA ANTİ-İNFLYASİYA TƏDBİRLƏRİ HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNİN PRİORİTETLƏRİNDƏN BİRİ KİMİ

***Xülasə***

Tezisdə siyasi müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının milli iqtisadiyyatında təzahür edən müəyyən neqativ tendensiyalar, o cümlədən davamlı xarakter alan inflyasiya prosesləri və onun təsirləri müxtəlif aspektlərdə nəzərdən keçirilmiş və ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra sözügedən tendensiyaların aradan qaldırılması məqsədilə həyata keçirmiş olduğu makroiqtisadi siyasətin məntiqi nəticələri şərh olunmuşdur.

***Açar sözlər: Sosial-iqtisadi inkişaf modeli, iqtisadi inkişaf konsepsiyası, inflyasiya, anti-inflyasiya tədbirləri, makroiqtisadi sabitlik.***

***

Ölkəmizin siyasi müstəqilliyinin ilk illərində milli iqtisadiyyatda müşahidə olunan disproporsiyaların aradan qaldırılması, iqtisadiyyatda cərəyan edən bu və ya digər neqativ tendensiyaların qarşısının alınması, o cümlədən inflyasiya proseslərinin cilovlanması istiqamətində həyata keçirilən tədbirlərə baxmayaraq, bir sıra istehlak məhsulları üzrə qiymətlərin səviyyəsində artım meyilləri güclənməkdə davam edirdi. Milli valyutanın devalvasiyası prosesi isə bu kimi neqativ meyillərin daha da geniş vüsət almasına əlavə zəmin yaradırdı. İstehsalın kəskin şəkildə azalması, siyasi qeyri-sabitlik, müharibə, bazar elementlərinin kortəbii fəaliyyəti kimi iqtisadi proseslər və dövlət xərclərinin, əməkhaqqı səviyyəsinin bir neçə dəfə artırılması, maddi vəziyyəti ağır olan sosial təbəqəyə güzəştlər, düşünülməmiş pul-kredit, vergi-büdcə, maliyyə-bank və xarici ticarət siyasəti tədbirləri dövlətin real iqtisadi imkanları ilə uzlaşmadığından inflyasiyanı daha da sürətləndirirdi. Bəzi məqamlarda isə inflyasiya prosesi idarəolunmaz dərəcədə özünü büruzə verirdi. Ölkədə bəzi yerli istehsal sahələrinin fəaliyyətində yaranan durğunluq isə bu istiqamətdə əlavə təsir amilinə çevrilmiş, ölkədə işsizlik səviyyəsi artmış, əhalinin pul gəlirləri isə ciddi şəkildə azalmışdır. Belə bir mürəkkəb iqtisadi şəraitdə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkədə yeni inkişaf dövrünə qədəm qoyulmuş oldu. Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da olduqca ciddi və əsaslı keyfiyyət dəyişikliklərinin reallaşdırılmasına başlanıldı. Ölkə iqtisadiyyatının daha ağır fəlakətlərin astanasından geri qayıtması istiqamətində təxirəsalınmaz işlərin həyata keçirilməsi üçün müvafiq dövlət qurumlarına ciddi tapşırıqlar verilmiş və ən əsası isə, həmin tapşırıqlardan irəli gələn məsələlərin vaxtında, operativ və keyfiyyətli şəkildə həll olunması üçün nəzarət mexanizmləri formalaşdırılmışdır.

İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə beynəlxalq

təcrübəyə uyğun qanunvericilik bazasının yaradılması təmin edilmiş, ölkəmizin milli iqtisadi inkişaf konsepsiyası formalaşdırılmış, iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. [2] Sözügedən sənədlərin qəbulu ilə ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların normativ-hüquqi bazası formalaşdırılmış, düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olunmuş və davamlı iqtisadi artımın əsası qoyulmuş, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanılmış və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlanmış, 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqısı 6,2 dəfə artmış, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirilmişdir. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiyanın qoyulması təmin olunmuşdur. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə də ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün olduqca dayanıqlı və sarsılmaz əsaslar yaratmış oldu.

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. [3]

Azərbaycan iqtisadi islahatlar və inkişaf modelinin həyatqabiliyyətli və səmərəli olmasının ən yaxşı sübutu son illərdə ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş nailiyyətlərdir. Belə ki, bu model üzrə həyata keçirilən siyasət çox tez bir zamanda ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişiklikləri baş verməsinə səbəb olmuşdur: inflyasiya cilovlanmış (1996-cı ildən başlayaraq 2003-cü ilə qədər Azərbaycanda inflyasiyanın səviyyəsi 2-3 faizdən yuxarı qalxmamış), Milli Bank (indi Mərkəzi adlanır) tərəfindən büdcə kəsirinin maliyyələşdirilməsi praktikasına son qoyulmuş, büdcə kəsiri ÜDM-in 1-2 faizi səviyyəsinə endirilmişdir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin edilməsidir. [1] Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

## ƏDƏBİYYAT


1. Allahverdiyeva A.U. “Heydər Əliyev və milli iqtisadi inkişaf stategiyası”. “Heydər Əliyev dühası və müasir Azərbaycan” mövzusunda elmi- nəzəri konfransın materialları. Mingəçevir Dövlət Universiteti, 4-5 may 2022-ci il, 316 səh., s. 244 / https://mdu.edu.az/wp-content/uploads/2022/10/MATERIALLAR_H.Eliyev_4-5-may-2022.pdf

2. Sadıqov E.M. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. 19.04.2021 / https://news.unec.edu.az/ekspert-reyi/7375-heyder-eliyev-ve-azerbaycan-igtisadiyyat-unec-professoru-yazir
3. Vəliyev D.Ə. Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli. "Xalq qəzeti". 22.05.2010, S. 3. / http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/121258.htm

***Ниджат Фаиг оглу Гасымов***
***Магистр, Азербайджанский Университет Кооперации***

**Анти-инфляционные меры в национальной экономике как одно из приоритетных направлений экономической политики Гейдара Алиева**

***Резюме***

В тезисе в различных аспектах рассмотрены некоторые негативные тенденции, проявившиеся в национаьном экономике Азербайджанской Республики в первые годы ее политической независимости, в том числе сохраняющиеся инфляционные процессы и их последствия, а также была истолкована логические последствия макроэкономической политики, проводимой общенационального лидера Азербайджанской Республикой. Гейдара Алиева с целью устранения указанных тенденций после его возвращения к политической власти.

***Ключевые слова: Модель социально-экономического развития, концепция экономического развития, инфляция, антиинфляционные меры, макроэкономическая стабильность.***

***Nijat Faig Gasimov***
***Master, Azerbaijan Cooperation University***

**Anti-inflation measures in the national economy as one of the priorities of Heydar Aliyev's economic policy**

***Summary***

In the thesis, certain negative trends manifested in the national economy of the Republic of Azerbaijan in the first years of its political independence, including persistent inflationary processes and its effects, were considered in various aspects, and has been interpreted the logical consequences of the macroeconomic policy implemented by national leader Heydar Aliyev in order to eliminate the said trends after his return to political power.

***Key words: Socio-economic development model, concept of economic development, inflation, anti-inflationary measures, macroeconomic stability.***

# II BÖLMƏ
## HEYDƏR ƏLİYEV ÇAĞDAŞ AZƏRBAYCAN İQTİSADİYYATININ MEMARIDIR

UOT 338.004.

***Rəsul Ənvər oğlu BALAYEV***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***"Rəqəmsal texnologiyalar və tətbiqi informatika"***
***kafedrasının professoru, iqtisad elmləri doktoru***
***https://orcid.org/0000-0001-7642-1635***
***r.balayev@gmail.com***

# İNNOVASİYALI İNKİŞAFIN RƏQƏMSAL ASPEKTLƏRİ

***Xülasə***

İnnovasiyalı fəaliyyət sosial-iqtisadi inkişafın başlıca amilinə çevrilmişdir. Rəqəmsal mühit innovasiyalı inkişafın xarakteristikalarına təsir edir. Məqalədə rəqəmsal transformasiyaların innovasiyalı inkişafa təsiri xarakterizə edilir.

***Açar sözlər: rəqəmsal, innovasiya, texnologiya, dayanıqlı inkişaf, informasiya.***

***

Ulu öndərin anadan olmasının 100 illiyi onun olduqca zəngin və hərtərəfli irsinə diqqəti daha da artırmışdır. Eyni zamanda, belə bir fikirlə tamamilə razılaşırıq ki, "Heydər Əliyev irsi haqqında danışmaq və yazmaq bütöv bir tarixi mərhələdən bəhs etmək kimi məsuliyyətli bir işdir" [6]. Ümummilli lider Heydər Əliyevin həmişəyaşar ideyalarının uğurla həyata keçirildiyi müasir dövrdə ölkəmiz üçün innovasiyalı fəaliyyətlərin intensivləşməsi və onların əhatə dairəsinin genişlənməsi xarakterikdir.

Məlum olduğu kimi, qlobal miqyasda rəqəmsal iqtisadi inkişafın yüksək dinamizmi, başlıca olaraq rəqabət mühitinin şərtləri daxilində baş verir. İnnovasiyalı fəaliyyətin rəqəmsal mühitinə xas olan cəhətlərdən biri vasitəçilərdən imtina cəhdlərinin güclənməsində ifadə olunur. Başqa sözlə, rəqəmsal rəqiblər "müəssisə və müştərilər arasındakı mövcud münasibətlərdən vasitəçilərin kənarlaşdırılmasına səbəb olurlar" [7, s. 50].

Rəqəmsal mühitdə innovasiyalı fəaliyyətlərin selektiv təşviqi imkanları genişlənir. Belə ki, "bütün təşviq sistemlərinin, ilk növbədə innovativliyinə fokuslanması, başqa sözlə desək milli innovasiya sisteminin gücləndirilməsinə iqtiqamətləndirilməsi zərurəti ortaya çıxır"[5, s.12]. İnnovasiyalı fəaliyyətlərin "informasiya cəmiyyətinin üstünlüklərinin və iqtisadiyyatın innovasiya potensialının reallaşdırılmasına yönəldilməsi rəqəmsal texnologiyaların geniş arealda və fəal tətbiqi sayəsində mümkün olur" [4, s.34].

İnnovasiyalı fəaliyyətlərin rəqəmsal özünəməxsusluqlarından biri müəssisələrin ölçülərindən və fəaliyyət müddətindən asılılığın azalmasıdır. Yeni müəssisələr rəqəmsal transformasiyalar şəraitində elmi innovasiyalardan qazanc əldə etməkdə daha sərbəstdirlər. Onlar böyük və təşəkkül tapmış istehsal potensialını rəqəmsal tələblərə az vaxtda tabe etdirmək məcburiyyətində qalmırlar. Miqyas effektinin artım iqtisadiyyatına xas olan digər təzahürləri rəqəmsal mühitə də xasdır. Yeni, əsasən kibertəhlükəsizliklə əlaqədar məsələlərdə də müəssisələrin ölçülərindən asılılıq və həmin asılılığın maliyyə imkanlarından istifadə səmərəliliyi ilə əlaqədar olduğu müşahidə edilir.

Rəqəmsal mühit innovasiyalı fəaliyyətin təhlili proseslərinə də təsirsiz qalmır. Belə ki, "rəqəmsal iqtisadiyyatın təhlili məqsədilə, əksər hallarda dörd qiymətləndirmə meyarından istifadə edilir: məşğulluq, məkan, texnoloji, iqtisadi. Rəqəmsal iqtisadiyyatın səmərəliliyinin məşğulluq meyarı ilə qiymətləndirilməsinə əsaslanan yanaşmada rəqəmsal texnologiyaların məşğulluğun səviyyəsi və strukturuna təsiri araşdırılır. Məkan meyarı üzrə qiymətləndirmə, konkret halda rəqəmsal iqtisadiyyatın ərazi (coğrafi) xarakteristikaları təhlilə cəlb edilməklə aparılır. Rəqəmsal iqtisadiyyatın təhlili məqsədi ilə istifadə edilən texnoloji meyar üzrə informasiya-kommunikasiya texnologiyaları sahəsində innovasiyaların geniş istifadəçi kütləsi üçün əlyetənliyi qiymətləndirilir. Rəqəmsal texnologiyaların inkişafının qiymətləndirilməsinin iqtisadi meyarına gəldikdə isə, bu halda səmərəlilik, ilkin yanaşmada məsrəf-buraxılış modeli üzrə müəyyən edilə bilər" [3, s. 28-33].

Rəqəmsal texnologiyaların innovasiyaların yayılması və mənimsənilməsində artan rolu rəqəmsal tarnsformasiyaların tədqiqinə vəsait qoyuluşlarını artırır. Bu artım, ümumilikdə rəqəmsal

münasibətlərin dəstəklənməsinə yönəldilən maliyyə və digər resursların artım tempindən geri qalsa da, digər istiqamətlərdə elmi araşdırmalara ayrılan vəsaitlərdən yüksəkdir. Müəssisə səviyyəsində bu meyli rəqəmsal texnologiyaların innovasiyalı inkişafdakı rolu ilə əlaqələndirənlər də vardır. "Müəssisələrin rəqəmsal texnologiyalarla əlaqədar tədqiqatlara xərclərinin artması rəqəmsal texnologiyalar sahəsinin innovasiyalarda aparıcı rol oynadığını göstərir" [8].

Rəqəmsal texnologiyalar sayəsində: qərarların əsaslandırma səviyyəsi yüksəlir, onların hasil edilməsi müddəti qısalır; gözəyarı qəbul edilmiş qərarların aşkar edilməsi imkanları, habelə risklərin idarə edilməsi (xüsusilə profilaktikası) imkanları genişlənir, təhsilin fasiləsizliyini təmin etməkdə (həmişə keyfiyyətdə öz əksini tapmasa da) internetin yaratdığı imkanlar reallaşır, məsafə amilinin təsiri azalır. Haqqında danışılan texnologiyaların şəksiz üstünlüyü qismində bu mühitdə fiziki qüsurlu insanların cəmiyyətə inteqrasiyasını real surətdə dəstəkləməyin texnoloji imkanları fasiləsiz təkmilləşdirilməsi qeyd edilməlidir.

İnnovasiyalı inkişafda rəqəmsal texnologiyalardan istifadə imkanları insan kapitalına münasibətdə yeni yanaşmaları aktuallaşdırır [11, s.963-972. 102]. İnsan bütün yeniliklərin mərkəzində olduqca insan kapitalının inkişafından danışmaq mümkündür. Süni intellektdən istifadəyə əsaslanan innovasiyalı fəaliyyətdə də rəqəmsal transformasiyalar mühit yaratmaqla, intellektual kapitalın formalaşmasında iştirak edir.

İnnovasiyaların yaranması, transferi və mənimsənilməsi prosesləri rəqəmsal mühitdə dəfələrlə sürətlənir. Yüksək operativlik, əsasən texnoloji həllərlə əldə edilir. Sürət (operativ reaksiya vermək) amili əlavə mənfəətlə nəticələndikdə biznesin aparıcı şərtinə çevrilir. Başqa sözlə, iqtisadi innovasiyaların istifadəsində rəqəmsal transformasiyaların əsas üstünlüyü kimi sürət amilinə diqqət artır. Belə olan təqdirdə insan kapitalına münasibətdə digər keyfiyyətlərə də yeni baxışlar zərurətə çevrilir. İlk növbədə, əlbəttə, əmək resurslarının keyfiyyət və kəmiyyət xarakteristikalarını və onların dinamikasını şərtləndirən amillərə kreativ yanaşma ehtiyacı yaranır.

Hesab edirik ki, "insanın peşə fəaliyyəti dövründə ona uğur və gəlir gətirəcək qabiliyyətin (istedadın) dəstəklənməsinə yönəldilən investisiyalar kimi insan kapitalı, rəqəmsal iqtisadiyyatın inkişafının aparıcı amilidir. Rəqəmsal mühitdə insan kapitalının mövqeyinə münasibətdə təşəkkül tapan keyfiyyətcə yeni paradiqma nəzərdə tutur ki, həmin kapital innovasiyalı inkişaf sistemində aparıcı yer tutmaqla intellektual potensialdan istifadə üçün zəruri mühit yaratmalıdır" [2, s. 20 - 30]. İnsan kapitalının inkişafı baxımından digər diqqət çəkən məqam rəqəmsal mühitin sosial tərəqqini dəstəkləmək imkanlarıdır. Rəqəmsal transformasiyalar innovasiyalı inkişafı təşviq etməklə, iqtisadi fəallığı və investisiya cəlbediciliyini yüksəldə bilir. Nəticə etibarı ilə işgüzar fəallıq, məşğulluq səviyyəsi və alıcılıq qabiliyyətli tələb arta bilər.

Rəqəmsal iqtisadiyyat şəbəkə mühitini, sonuncu isə innovasiya fəallığını artırmaq iqtidarındadır. Müşahidələr və araşdırmalar göstərir ki, günümüzdə rəqəmsal biznes iştirakçıları ənənəvi iştirakçılardan daha çevik və kreativdir. Bu keyfiyyətlər həmin iştirakçılara, ilk növbədə fəaliyyəti genişləndirmək və xərcləri azaltmaq baxımından yardımçı olur. Müvafiq mənbələrdə göstərildiyi kimi ölkələr və şirkətlər səviyyəsində çeviklik və kreativlik iqtisadi sistemin innovasiyalı inkişafında müsbət nəticələr verə bilir. "Bu, ilk növbədə xərclərin azaldılmasına yönəlmiş strategiyaların məhsul və xidmətlər təklif etmənin daha innovativ üsullara əsaslanan strategiyalardan daha az səmərəli olacağını göstərir. Gördüyünüz kimi, bu gün tanınan şirkətlər, digər sənaye müəssisələri və ölkələrin yeni yaranan və hər şeyi dəyişən, habelə yenilikçi şirkətlər tərəfindən həddindən artıq böyük təzyiq altındadır. Bu hal, öz innovativ ekosistemlərini qurmaq zərurətini qəbul etməyən ölkələrə də aiddir" [7, s.31].

Təşəkkül tapan intellektual kapitaldan fəal istifadə mövcud reallığın ətalətliyi səbəbindən ləngiyir. Həmin problemlərin həllində rəqəmsal platformalara artan diqqət müşahidə olunur. Müvafiq mənbələrdə təqdim olunan aşağıdakı mövqeni məqbul hesab edirik: hazırda rəqəmsal platformalar innovasiyalı inkişafda intellektual potensialdan fəal istifadə baxımından təkmilləşdirmə alətidir [9, s.106-135]. Doğrudan da, rəqəmsal platformalar bazar iştirakçıları arasında qarşılıqlı münasibətlərin seçimini əsaslandırmaqla innovasiyalı inkişafın sonrakı mərhələləri üçün əlverişli başlanğıc şərtlərini formalaşdırır.

İnnovasiyalı fəaliyyətin dayanıqlı inkişafa müsbət təsirinin təşviqi baxımından rəqəmsal mühi-

tin imkanları da diqqətəlayiqdir. "İqtisadi göstəricilərin yaxşılaşmasının dayanıqlıq vəziyyəti, dövlətin milli ehtiyatlardan istifadə ilə əlaqədar iqtisadi proseslər üzərində məqbul nəzarət imkanlarının olması, ölkənin iqtisadi maraqlarının zəruri səviyyədə qorunması milli iqtisadi təhlükəsizliyin təmin edilməsinin mühüm cəhətləridir. Milli iqtisadiyyatın müstəqilliyi, onun dayanıqlı və innovasiyalı inkişafı rəqəmsal iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsinin mühüm əlamətləridir" [1, s.128-134].

İnnovasiya faəliyyətinin səmərəli idarə edilməsi problemlərinin həlli baxımından rəqəmsal mühit yeni imkanlar açır. Həmin imkanlar qismində idarəetmə innovasiyalarının tətbiqi heç də az əhəmiyyət kəsb etmir. İnnovasiyalı fəaliyyət mühitinin təşəkkül mərhələsində olduğu ölkələrdə biznes üzünü innovativ təcrübəyə çevirmək məcburiyyətindədir. Bu halda biznesin müasir paradiqması yeni tərəfdaşlıqları və yeni strukturları inkişaf etdirməlidirlər. Təbii ki, bu halda rəqəmsal texnologiyalar biznes model axtarışında əhəmiyyətli amil ola bilərlər [12].

İnnovasiya proseslərinin idarə edilməsində informasiya assimmetriyasının azaldılmasında və iqtisadi məqsədəuyğunluq meyarlarına cavab verən əsaslandırılmış qərar qəbulunda rəqəmsal texnoloji imkanlar araşdırılır [10, s. 148-155]. İnnovasiyalı inkişaf tələblərinə cavab verən informasiya təminatı mövcud infrastrukturın təkmilləşdirilməsini və nəticədə innovasiyalı-rəqəmsal infrastrukturun formalaşdırılmasını tələb edir. Sonuncu isə kibertəhlükəsizlik meyarlarına adekvat olmalı və yüksək inkişaf tempini müşayiət etmək qabiliyyəti göstərməlidir.

Yuxarıda deyilənləri xülasə edərək, göstərmək olar ki, innovasiyalı inkişafın rəqəmsal aspektlərindən danışarkən, ilk növbədə sürət (dəyişikliklərə operativ reaksiya verilməsi), rəqəmsal platformaların inteqrasiya və transformasiya, dayanıqlıq meyarlarına uyğunluğu, idarəetmə paradiqmasındakı dəyişmələrin kəmiyyətcə qiymətləndirilməsi və s. kimi məsələlər xüsusi tədqiqat predmetinə aid edilməlidir.

## ƏDƏBİYYAT


1. Balayev R.Ə., Balayeva E.Ə. Rəqəmsal mühitdə iqtisadi təhlükəsizliyə dair. "Kooperasiya" jurnalı. №2, 2020, s.128-134
2. Balayev R.Ə. Rəqəmsal iqtisadiyyat: böhran ehtimalı və artım amilləri. UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, aprel- iyun 2020, səh. 20 - 30
3. Balayev R.Ə. Rəqəmsal iqtisadiyyat: mahiyyət və perspektivlər. Kooperasiya" jurn. №2(53), 2019 s. 28-33
4. Balayev R.Ə. Rəqəmsal mühitdə iqtisadi münasibətlər: aqrar və urbanizasiya aspektləri. Bakı, "MSV NƏŞR", 2022, 268 s.
5. Muradov Ə.C. Rəqəmsal iqtisadiyyat: müasir vəziyyət və perspektivlər// "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" mövzusunda beynəlxalq konfransın materialları. Bakı, 13-14 fevral 2020-ci il
6. Sadıqov Ə. Heydər Əliyev irsi: elm və təhsil. https:// science.gov.az/az/news/ open/ 24308.10.03.2023
7. Клаус Шваб. Четвертая промышленная революция. Формат:FB2 Качество:OCR,2016,278 с.
8. Семячков К. А. Цифровая экономика и ее роль в управлении современными социально-экономическими отношениями// Современные технологии управления. ISSN 2226-9339. №8 (80). Номер статьи: 8001. https://sovman.ru/article/8001
9. Шабанов А. П. Инновационное управление цифровыми платформами в экономике знаний// Системы управления, связи и безопасности №3. 2018. с.106-135
10. Kajtazi, M. (2010) Information Asymmetry in the Digital Economy. In: Charles A. Shoniregun (ed.), Proceedings of the IEEE International Conference on Information Society (i-Society 2010) (pp. 148-155). London, UK: IEEE UK/RI Computer Chapter
11. Maltseva, Daria. (2021). Human Capital Management In The Digital Economy. 963-972. 10.15405/epsbs.2021.04.102
12. Sharma, N. (2019). Management of Innovation in Developing Economies. In: Faghih, N. (eds) Globalization and Development. Contributions to Management Science. Springer, Cham. https://doi.org/10.1007/978-3-030-11766-5_5

***Расул Анвер оглы Балаев***
***профессор кафедры “Цифровых технологий и прикладной информатики”***
***Азербайджанского Государственного Экономического Университета (UNEC)***
***доктор экономических наук***
***https://orcid.org/0000-0001-7642-1635***
***r.balayev@gmail.com***

**Цифровые аспекты инновационного развития**

***Резюме***

Инновационная деятельность стала главным фактором социально-экономического развития. Цифровая среда влияет на характеристики инновационного развития. В статье описано влияние цифровых трансформаций на инновационное развитие.

***Ключевые слова: цифровые, инновации, технологии, устойчивое развитие, информация.***

***Rasul Anver Balaev***
***Azerbaijan State University of Economics (UNEC)***
***Professor of the Department of Digital technologies and applied informatics,***
***doctor of Economic Sciences***
***https://orcid.org/0000-0001-7642-1635***
***r.balayev@gmail.com***

**Digital aspects of innovative development**

***Summary***

Innovative activity has become the main factor of social and economic development. The digital environment affects the characteristics of innovative development. The article describes the impact of digital transformations on innovative development.

***Key words: digital, innovations, technologies, sustainable development, information.***

**UOT: 3633**

***Nizami Cəlal oğlu QAFAROV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Aqrar sahənin və sənayenin iqtisadiyyatı”***
***kafedrasının dosenti, i.e.d.***
***E-mail: qafarovnizami@mail.ru***
***ORCİD-İD: 0000-0002-2570-8967***

## AZƏRBAYCANIN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ

***Xülasə***

Məqalədə ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın malik olduğu təbii, elmi-texniki və iqtisadi potensialını nəzərə almaqla ölkənin inkişaf ideologiyası və prinsiplərinin müəyyən edilməsi, Azərbaycan iqtisadiyyatında islahatların aparılması, bu istiqamətdə elmi əsaslandırılmış siyasətin işlənib hazırlanması məsələləri, məhsulun keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətli məhsul istehsalı istiqamətində gördüyü tədbirlər, ölkəmizdə iqtisadi inkişafın Heydər

Əliyev modelinin formalaşdırılması, bizim üçün Yol Xəritəsi olan Heydər Əliyev siyasətinin həyatımızın bütün sahələrini əhatə etməsi və çox faydalı bir irs qoyduğu göstərilmiş, eyni zamanda bu siyasətin davamçısı kimi Möhtərəm Prezidentimiz İlham Əliyevin bütün sahələrdə apardığı uğurlardan bəhs edilir.

***Açar sözlər: tarazlı iqtisadi inkişaf, idxalı əvəz edən iqtisadi siyasət, rəqabətqabiliyyətli məhsul istehsalı, ərzaq təhlükəsizliyi.***

***

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi onun qarşısında bazar münasibətlərinə keçid şəraitində yeni imkanlar yaratmışdır. Həmin ildən başlanan siyasi və iqtisadi dəyişikliklər, erməni işğalçılarının ölkəmizə təcavüzü respublika iqtisadiyyatının bütün sahələrinə öz təsirini göstərmiş və onların inkişaf tempini aşağı salmışdır. Belə ki, o dövrdə Azərbaycan cəmiyyəti yüksək inflyasiya, kütləvi işsizlik, əhalinin aşağı həyat səviyyəsi, maliyyə və əmtəə bazarında investisiya və mal qıtlığı ilə xarakterizə olunurdu.

Çox çətin və mürəkkəb, qeyri-sabit siyasi şəraitdə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə ictimai -siyasi sabitlik bərpa olundu. Ölkəmizdə o dövrün tələbinə uyğun olaraq, eyni zamanda, həm siyasi sistemin, həm də iqtisadiyyatın idarə edilməsinin demokratikləşdirilməsi prosesi həyata keçirildi. Qısa zamanda mərkəzləşdirilmiş idarəetmə sistemi ləğv edildi və bazar iqtisadi vasitələrinin tətbiqinə rəvac verildi. Ölkədə o dövrdəki makroiqtisadi durumu, Azərbaycanın malik olduğu təbii, elmi-texniki və iqtisadi potensialını nəzərə almaqla inkişaf ideologiyası və prinsipləri müəyyən edildi.

Ümumilikdə, bu dövrdə Azərbaycan iqtisadiyyatında islahatların aparılması, sənaye sahələrinin inkişaf etdirilməsi və bu istiqamətdə elmi əsaslandırılmış siyasətin işlənib hazırlanması məsələləri bir zərurət təşkil edirdi. Qeyd etmək lazımdır ki, ölkənin dinamik və davamlı inkişafı onun təbii resurslarla, əsasən neft və qazla zəngin olması ilə bağlıdır və ölkənin enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu da öz həllini 1994-cü il sentyabr ayının 20-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi"nin imzalanmasında tapdı [7]. Eyni zamanda Heydər Əliyevin öndərliyində siyasi iradənin qətiyyətli addımları bu layihələrin sürətlə və uğurla həyata keçməsinə imkan verdi.

Bütövlükdə və sonrakı illərdə ardıcıl olaraq həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatın bütün sahələrində inkişaf meyilləri artmış və 1996-cı ildən istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmışdır. Beləliklə, iqtisadiyyatda müsbət meyillərin daha da möhkəmlənməsi müşahidə olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən başlayaraq respublika regionlarının inkişafını təmin etmək məqsədilə dövlət tərəfindən bir sıra proqram, proqram məqsədli tədbirlər planı və vasitələr qəbul edilmişdir. Onların da əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

2001-2003-cü illərdə Ulu öndər Heydər Əliyev yerli və xarici sahibkarlarla görüşündə, respublika regionlarına səfəri zamanı etdiyi məruzə və çıxışlarında,"Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təqdimat mərasimindəki nitqində əsas diqqəti regionlarda qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönəltmişdir.

Azərbaycan Respublikasında ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və beləliklə, dinamik iqtisadi inkişafın təməli qoyulmuşdur. Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həlli tələb edilən vəzifələr ön plana çəkilmişdir.

Belə bir şəraitdə düzgün olaraq iqtisadi inkişaf modelinin əsas istiqaməti inflyasiya ilə ciddi mübarizə aparılması, milli valyuta kursunun sabitləşdirilməsi və iqtisadiyyata xarici investisiyaların cəlb edilməsi oldu. Yaradıcısı Heydər Əliyev olan neft strategiyası formalaşdırıldı. Onun reallaşması, istehsal və xidmət sahələrində, habelə maliyyə sektorunda sabitliyin təmin edilməsi nəticəsində iqtisadi inkişafın ümumi göstəricisi olan ümumi daxili məhsul 1996-cı ildən artmağa başladı. Burada bir məqamı qeyd etmək lazımdır ki, "ölkənin iqtisadi inkişafı ilə bağlı dünyada Amerika, Almaniya, İsveç, Yaponiya və Cənubi Koreya modelləri ən çox öyrənilən və istifadə edilən modellərdir. Bu modelləri bir-birindən fərqləndirən və yaxınlaşdıran ümumi cəhətlər

mövcuddur. İqtisadi ədəbiyyatda "milli iqtisadi inkişaf modeli" dedikdə cəmiyyətin məqsədi, inkişaf istiqamətləri və onlara nail olunmasının metodları, mexanizmləri və vasitələri başa düşülür. İqtisadi inkişaf modellərini fərqləndirən əsas xüsusiyyətlərdən biri iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirak səviyyəsi olduğuna görə ümummilli lider Heydər Əliyevin bir kəlamını diqqətə çatdırmaq istərdim. O demişdir: "Biz iqtisadiyyatı vergilər vasitəsi ilə idarə edirik". Bu kəlam o dövrdə Azərbaycanda dövlətin iqtisadiyyatın tənzimlənməsində iştirakını müəyyənləşdirən konsepsiya olmuşdur. Beləliklə, ölkəmizdə iqtisadi inkişafın Heydər Əliyev modeli formalaşdırılmış oldu. Bu modeli fərqləndirən cəhət onun monitar meyilli açıq və liberal xarakter daşımasıdır" [7].

2003-cü ildən Azərbaycanın iqtisadi inkişafında yeni mərhələ başladı. 2003-2005-ci illərdə ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəz edən iqtisadi siyasət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat", "rəqabətqabiliyyətli məhsul istehsalı", "insanların iqtisadi cəhətdən azad olması", "xarici amillərdən asılılığın azaldılması", "ərzaq təhlükəsizliyinin təmin edilməsi" konsepsiyaları Azərbaycanın iqtisadi inkişaf modelində müəyyən prinsipial dəyişikliklərin aparılmasını zəruri etmişdir.

Ərazimizin 20 faizinin erməni vandalları tərəfindən 30 ilə yaxın dövrdə işğalda saxlanılmasına baxmayaraq ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə uğurla həyata keçirilən regional inkişaf proqramları, habelə kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsullarının satışı, xammal və qida bazarlarının tənzimlənməsi üzrə dövlət proqramlarının qəbulu, sonrakı tənzimləmə tədbirləri, iqtisadi mexanizm elementlərini çətin iqtisadi şərtlərə və dəyişikliklərin məqsədyönlü təbiətinə uyğunlaşdıraraq iqtisadiyyatın aqrar sahəsindəki vəziyyəti xeyli yaxşılaşdırdı.

Bizim üçün Yol Xəritəsi olan Heydər Əliyev siyasəti çoxcəhətli, dəyişkən və çevik olmaqla nəinki iqtisadiyyatın, həm də sosial, siyasi və mədəni həyatımızın bütün sahələrini əhatə etmiş və bizim üçün çox faydalı bir irs qoyub getmişdir. Belə məsələlərdən biri də onun məhsulun keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətli məhsul istehsalı istiqamətində gördüyü tədbirlərdir. Hər birimizə məlumdur ki, məhsulun keyfiyyəti ilə dövlət büdcəsinin gəlirləri arasında sıx əlaqə var. Məhsulun keyfiyyətinin yüksəlməsi maya dəyərini aşağı salır, məhsulun satışı və əhalinin tələbatını ödəmək imkanını genişləndirir, rəqabət qabiliyyətini gücləndirir. Nəticə etibarı ilə mənfəəti və dövlət büdcəsinin gəlirlərini artırır. Buna görə də məhsulun keyfiyyətinin yüksəldilməsi məsələsi həmişə aktual olmuşdur və Azərbaycan şəraitində xüsusilə bu çox aktualdır. Belə ki, indi Azərbaycan sürətlə dünyaya inteqrasiya olunur, Ümumdünya Ticarət təşkilatlarına üzv olmağa çalışır, qeyri-neft sektorunu sürətlə inkişaf etdirməyə, ölkədə daha çox rəqabət qabiliyyətli məhsul istehsal və ixrac etməyə çalışır.

Məlum olduğu kimi, bazar iqtisadiyyatının mühüm daxili hərəkətverici qüvvələrindən biri sayılan rəqabət tələb və təklif qanunlarına əsasən formalaşır. O, bazar iqtisadiyyatının zəruri elementi, daha yüksək gəlir əldə etmək üçün istehsalçılar arasında iqtisadi mübarizə və iqtisadi rəqabət formasıdır. Odur ki, istehsalçılar və istehlakçılar qarşısında bütün sahələrdə olduğu kimi aqrar sahədə də kənd təsərrüfatı məhsullarının istehsalı və satışının stimullaşdırılması zərurəti ön plana çıxır.

Ümumilikdə bütün sahələrdə rəqabət qabiliyyətli məhsul istehsalının artırılması ölkə iqtisadiyyatının dinamik inkişafına təkan verən əsas amillərdəndir. Müasir dövrdə, informasiya – kommunikasiya texnologiyalarının inkişafı əmtəə və xidmətlərin, hərəkətini sürətləndirib ki, bu da həm milli, həm də dünya bazarında rəqabət mühitini daha da dərinləşdirib. Hazırda istənilən bazarda üstünlük əldə etməyin ən etibarlı yolu rəqabətqabiliyyətlilikdən keçir. Yəni, hər hansı əmtəə və ya xidmət rəqabət mübarizəsindən qalib çıxdıqdan sonra bazarda uğur qazana bilir. Bütün bunlar, təbii ki, normal yaşayışın əsas amili olan ərzaq məhsulları və qida təminatına da aiddir. Ərzaq məhsulları bazarı nə qədər rəqabət qabiliyyətli məhsullarla zəngin olarsa, qida təminatı və təhlükəsizliyi də o qədər etibarlı olar.

Rəqabətin yaranması tarixən mülkiyyət ayrı-seçkiliyi və əmək bölgüsü nəticəsində əmtəə isthesalının yaranması ilə üst-üstə düşür və məhsul istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal elementinə çevrilir. Rəqabət hər zaman bazar iştirakçıları arasında mövcud olan iqtisadi debat formasıdır. Bu danışıqlar məhsul və xidmətlərin istehsalı, alınması və satışı üçün şəraitin yaxşılaşdırılmasına yönəlib. Başqa sözlə, hər bir bazar subyekti istehlakçıları özünə cəlb etməyə və yüksək

gəlir əldə etməyə çalışır [6, s. 235].

Araşdırmalar göstərir ki, mal, iş və xidmətlərin rəqabət qabiliyyətinə fərqli amillər təsir göstərir. Belə ki, mal, iş və xidmətlərin rəqabət qabiliyyəti dedikdə onun bazarda uğurunu təmin edən istehlak və maya dəyəri (qiymət) xüsusiyyətlərinin məcmusu başa düşülür və üç amil qrupu ilə müəyyən edilir:

1) malın istehlak xüsusiyyətlərinin amilləri;
2) müəssisələrin daxil olduğu sahənin rəqabət amilləri;
3) marketinq amilləri.

Bazarın təzyiqi və tələbləri nəticəsində şirkətlər dünya bazarında ən güclü rəqiblərlə mübarizədə öz üstünlüyünü artırırlar. Mövcud iqtisadi vəziyyətdə, qlobal rəqabət davamlı olaraq artarkən, yüksək səviyyəli lokal proseslər vasitəsilə rəqabət üstünlüyü yaranır və saxlanılır. Ölkələr müəyyən sahələrdə ona görə uğur əldə edirlər ki, onların daxili şərtləri müvafiq olaraq ən dinamik və perspektivli olur.

Hər bir regionda müəyyən sahələrin inkişafını müəyyən edən öz xüsusiyyətləri (ərazinin rəqabət çatışmazlıqları və üstünlükləri) vardır. Eyni zamanda, bir bölgədə sahənin rəqabət qabiliyyətinin təmin edilməsi mexanizmləri digər bir bölgədə lüzumsuz ola bilər. Bizim fikrimizcə ən vacib olan, qida sənayesinin rəqabətli mövqelərini müəyyən edən amillərdir [6,s. 237]. Bu amillərin tərkibi şəkil 1-də verilmişdir.




***Şəkil 1. Sahənin rəqabət mövqeyini müəyyən edən amillər***

Bu amillərin hər birinə ayrı-ayrılıqda nəzər yetirək:

1. Hər hansı bir regionun iqtisadi-coğrafi mövqeyi bir sıra göstəricilərlə: ölkənin digər ərazilərinə, eləcə də digər ölkələrə, xammal resurslarına, satış bazarlarına, logistik marşrutlarına çıxış imkanları ilə xarakterizə olunur;

2. Xammal resursları əsasən onların mövcudluğu və istifadə imkanları ilə xarakterizə olunur. Mineral-xammal, torpaq, meşə, su, faunistik və digər resursları ayırırlar;

3. Demoqrafik resurslar əhalinin ümumi sayı, cins-yaş tərkibi, əhalinin sayının dəyişməsi dinamikası ilə xarakterizə olunur. Əmək resursları işçi qüvvəsinin mövcudluğu, ixtisaslaşması və dəyəri ilə xarakterizə olunur;

4. İstehsal potensialı əsas istehsal fondlarının mövcudluğu, istehsal güclərindən və istehsal sahələrindən istifadə əmsalları ilə, əsas istehsal fondlarının sıradan çıxma və təzələnmə əmsalları ilə, əməyin fondla və elektrik enerjisi ilə silahlanma əmsalları ilə xarakterizə olunur;

5. Maliyyə resursları istehsal və maliyyə sektorlarında böhranın qorunması üçün əsas səbəblərdən biri dövriyyə kapitalının artırılmasıdır. İstehsalın inkişafı və rəqabət qabiliyyətli məhsulların istehsalının genişləndirilməsi əmək kollektivlərinin maddi cəhətdən stimullaşdırılmasına müsbət təsir edir;

6. İnfrastruktur. Sahənin rəqabət qabiliyyəti əsasən infrastrukturun inkişaf səviyyəsinə görə müəyyənləşdirilir. Azərbaycanın davamlı inkişafı şəraitində infrastruktur həm sahənin istehsalının, həm də əhalinin yaşayış səviyyəsinin artmasını təmin edən sahələrin səmərəli fəaliyyət göstərməsi üçün şərtlərin məcmusudur. Sahə infrastrukturu məhsulun istehsalı, mübadiləsi və istehlakı

sahələrini əhatə edir, onları bir zəncirlə birləşdirir, sahə potensialından (istehsal, maliyyə, təşkilati, kadr, və s.) səmərəli istifadəni təmin edir;

7. Bölgənin qida sənayesinin innovativ resursları elmi-istehsal potensialının səviyyəsi və sayı, kadrların hazırlanması və yenidən hazırlanması ilə məşğul olan təşkilatların mövcudluğu və fəaliyyəti ilə müəyyən edilir;

8. Tələb şərtləri. Əhalinin tələbi bir növ "piramidal iyerarxiya"dır. Ən yüksək tələb ərzağa, siqaretə, spirtli içkilərədir. İkinci səviyyə - paltar, ayaqqabı, sonra bahalı davamlı mallara - mebel, avtomobil, daşınmaz əmlak və s. tələb gəlir.

Bu açıqlamalardan görünür ki, rəqabətqabiliyyətliliyin məntiqi zəncirini ayırmaq mümkündür. Dövlət səviyyəsində rəqabət qabiliyyəti iqtisadiyyatın sahələrinin uğurlu fəaliyyəti ilə müəyyənləşdirilir. Rəqabətsiz məhsullar olmadan müvəffəqiyyəti, əsasən, yerləşdiyi bölgənin şəraiti ilə müəyyən edilən müəssisənin fəaliyyəti effektiv ola bilməz.

Hər hansı bir səviyyədə rəqabət qabiliyyəti problemlərinin nəzərdən keçirilməsi rəqabət münasibətlərinin bütün göstərilən səviyyələrinə təsirinin nəzərə alınmasını tələb edir. Eyni zamanda, rəqabət sahəsinin hər bir səviyyəsi özünəməxsus amillərə və ya rəqabət üstünlükləri, xüsusi meyarlar, rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üsulları və onu əldə etmək strategiyası kimi determinantlara malikdir. Rəqabət qabiliyyətinin təmin edilməsində mühüm vasitələrdən sayılan innovasiya prosesləri nəticəsində yaradılmış yeni uğurlu məhsul dəqiq toplanmış informasiya fəaliyyətlərinin nəticəsidir. Yeni məhsulların səmərəliliyi müxtəlif yollarla qiymətləndirilə bilər ki, bu da dolayısı ilə məhsulun rəqabət qabiliyyətini əks etdirir.

Bizim fikrimizcə, məhsul istehsalı sahələrində rəqabət qabiliyyətini artırmaq üçün səmərələşdirmə prinsipini nəzərə almaq lazımdır:

- yerli əmtəə və xidmət istehsalçılarının daxili və dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına köməklik;
- yüksək texnologiyalı məhsul və xidmətlərin payının artırılması üçün struktur çevikliyin təmin edilməsi;
- yeni informasiya texnologiyaları əsasında fəaliyyət göstərən kommersiya və sahibkarlıq strukturlarının inkişaf tempinin yüksəldilməsi, qlobal və regional inteqrasiya proseslərinin gücləndirilməsi [5, s.204].

Bu onunla əlaqədardır ki, əksər hallarda səmərəlilik və rəqabətqabiliyyətlilik bir-birini tamamlayan, birbaşa mütənasib göstəricilərdir. Təbii ki, məhsul nə qədər istehlakçı tələbatını ödəyirsə, bazarda bir o qədər rəqabətə davamlı ola bilər. Başqa sözlə, istehlakçıların yeni məhsulların yaradılmasına cəlb edilməsi innovasiyaları stimullaşdıran mühüm amillərdən biridir.

Kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istehsalçıların, regionların və ölkənin ümumi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Professor E.A.Quliyev əsaslı olaraq qeyd edir ki, "ölkədə yüksək rəqabətqabiliyyətli məhsulların istehsalı üzrə müəssisələr şəbəkəsinin yaradılması və mühüm ərzaq məhsulları üzrə ölkə regionlarının ixtisaslaşması, dünya bazarlarında rəqabətqabiliyyətli ərzaq məhsulları ilə möhkəmlənməsi strategiyasının reallaşdırılması və ərzaq məhsulları istehsal edən müəssisələrin və müxtəlif sahibkarlıq subyektlərinin ərzaq təhlükəsizliyi standartlarına, rəqabətqabiliyyətlilik prinsiplərinə uyğun şəkildə fəaliyyətinin təşkili istiqamətində dövlət dəstəyinin gücləndirilməsi və ərzaq məhsullarının rəqabət qabiliyyətinə təsr edən hər bir detal və amilin ciddi şəkildə araşdırılması, preventiv və sistemli tədbirlərin görülməsinin təmin edilməsi" kimi amillər rəqabətqabiliyyətliliyin əsas prioritetlərindəndir [3, s.363].

Fikrimizcə, aqrar-sənaye sahələrinin inkişaf etdirilməsi, öz növbəsində ölkənin emal sənayesi üzrə inkişafa və regionlar üzrə rəqabətqabiliyyətli emal müəssisələrinin inkişafına rəvac verər. Bununla yanaşı, nəqliyyat dəhlizləri boyunca yerləşən ayrı-ayrı rayonlarda emal müəssisələrinin yaradılması, eyni zamanda bu müəssisələrin rentabelli işləməsi məqsədilə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq məqsədəuyğun olardı. Müşahidələr sübut edir ki, məhsul istehsalının artımına emal müəssisələrinin tələbi ilə istehsalın artırılması istər istehsalçıların, istərsə də emal müəssisələrinin gəlirliliyinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilir.

Bu qeyd edilənlərlə yanaşı, iqtisadi inkişafda əsas amillərdən biri də rəqabətqabiliyyətli məhsul, iş və xidmət sahələrini genişləndirərək bu əlaqələrin vasitəsilə dünya iqtisadi sisteminə fəal inteq-

rasiya olunmaqdır. Bu baxımdan aqrar sahədəki xarici iqtisadi əlaqələrin inkişafı bir zərurət təşkil edir. Araşdırmalara əsasən demək olar ki, cəmiyyətin müasir inkişaf mərhələsində dünya ölkələrinə aqrar-xammal və ərzaq bazarları üzrə sürətli inkişafla bağlı xarici ticarət əlaqələrinin genişlənməsi iqtisadi qloballaşmanın və ərzaq təhlükəsizliyinin qarşılanması zərurəti ilə xarakterizə olunur.

Bu qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, əlverişli iqlim-coğrafi şəraitə və iqtisadi potensiala malik Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması, xarici ölkə bazarlarına rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsulların çıxarılması üçün aşağıdakı istiqamətlərdə bir sıra tədbirlərin görülməsi məqsədəuyğun olardı:

1. Mövcud daxili resurslardan səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yerli istehsalçıların daimi stimullaşdırılması mexanizminin tətbiqi;

2. Emal sənaye şirkətlərinin yaradılması, daimi yeniləşən texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli məhsulların hazırlanmasının stimullaşdırılması mexanizminin (kredit, vergi, gömrük və s.) tətbiqi;

3. Kənd təsərrüfatı və aqrar-sənaye məhsullarının keyfiyyətinin yüksəldilməsi hesabına ixracın artımının təmin edilməsi.

Professor, əməkdar elm xadimi B.X.Ataşov qeyd edir ki, aqrar sahədə geniş miqyaslı istehsalın qurulması, təbii-iqtisadi şəraitin regionlar üzrə müxtəlifliyi, şəhərlə kənd arasında məsafənin uzaqlığı nəzərə alınaraq məhsulun daşınması ilə bağlı xərclərin azaldılmasına, yerli əmtəə istehsalçılarının gəlirlərinin artırılmasına, kənd əhalisinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə aqrar bazar münasibətlərinin inkişafının ən mühüm şərti kimi xüsusi əhəmiyyət verilməlidir [4, s. 85].

Eyni zamanda, istehlak bazarında malların rəqabət qabiliyyətinin artırılması üçün azad rəqabəti stimullaşdıran əlverişli şəraitin yaradılması, bu istiqamətdə məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi zəruridir. Bunun üçün ölkənin əlverişli şəraitindən istifadə etmək, bu istiqamətdə həyata keçirilən mexanizmləri daimi təkmilləşdirmək lazımdır.

Ümumiyyətlə həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi, idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi, kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı, aqrobiznesin inkişafına dəstək, istehsal potensialının dəyər zənciri üzrə artırılması prosesi aqrar bazarın formalaşmasına əhəmiyyətli dərəcədə öz təsirini göstərir.

Apardığımız araşdırmalar onu göstərir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən aparılmış uğurlu siyasət nəticəsində ölkədə bir çox ənənəvi kənd təsərrüfatı məhsullarının istehsal və məhsuldarlıq göstəriciləri xeyli yaxşılaşmışdır. Bununla yanaşı, təhlillər onu da göstərir ki, müvafiq sahələrdə Azərbaycanın daha geniş imkanları və potensialı mövcuddur. Eyni zamanda rəqabət qabiliyyətli məhsulların istehsalı və müvafiq dövlət proqram və sənədlərində nəzərdə tutulmuş hədəflərə nail olunması üçün kənd təsərrüfatının intensiv əsaslarla inkişaf etdirilməsi, ixtisaslaşmaya gedilməsi və intensiv texnologiyadan daha geniş istifadə edilməsi kimi məsələlər ön plandadır. Belə olduğu təqdirdə həm ölkənin kənd təsərrüfatı məhsulları üzrə daha yüksək məhsuldarlıq və istehsal göstəricilərinə çatması təmin olunar, həmçinin də xarici bazarlarda ixrac məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasına nail oluna.

İxracyönümlü dəyər zənciri qurulması istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda göstərilir ki, "işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. İqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması, ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq edilərək, rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal sahələri formalaşdırılacaq,iqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyətinin müasir infrastrukturla dəstəklənməsi, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimulun verilməsi, vergi-

gömrük azadolmaları və güzəştli maliyyələşmə alətlərinin geniş tətbiqi, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılması və ekoloji təmiz, iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq [1, s.19].

Ölkəmizin gələcək iqtisadi inkişafı baxımından işğaldan azad edilmiş ərazilərin təbii ehtiyatları, xüsusilə də kənd təsərrüfatı potensialı mühüm əhəmiyyətə malikdir.

Ərazilərdə infrastruktur, məşğulluq, iqtisadiyyatın bərpası və s. bu kimi istiqamətlər nəzərə alınmaqla, işğaldan azad olunmuş torpaqların bərpası və inkişafı ilə bağlı konsepsiya işlənib hazırlanıb və həyata keçirilməkdədir.

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qeyd olunduğu kimi: "qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir" [2].

Bununla yanaşı, ölkə Prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq 2022-ci ilin 16 noyabrında işğaldan azad edilmiş ərazilərimizə böyük qayıdışın başlanması ilə bağlı I Dövlət Proqramı təsdiq olunub. Təsdiq olunmuş bu Dövlət Proqramında öz əksini tapmış tədbirlər sırasına: "işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri, mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, (infrastrukturun bərpası, iqtisadiyyatın yenidən qurulması, sosial inkişaf və ətraf mühitin tarazlı inkişafı) Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri" [7] daxil edilib.

Təbii ki, quruculuq işləri reallaşdırıldıqdan, insanlar o torpaqlara döndükdən, torpaqlarda quruculuq işlərinin aparılmasından, sosial-iqtisadi infrastrukturun qurulmasından sonra biz həmin ərazilərimizin bütövlükdə ölkəmizin inkişafına hansı müsbət təsirlər göstərəcəyinin şahidi olacağıq.

Ölkə Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə görülən bu silsiləvi və məqsədyönlü tədbirlər Ulu öndər Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin bariz nümunəsidir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"// Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı, 2022, 88 s.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı, 2021.
3. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya. / E.A.Quliyev. Bakı, 2020,"Kooperasiya nəşriyyatı", 464 səh.
4. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. / B.X.Ataşov. Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 s.
5. Qafarov, N.C. İstehlak malları bazarının formalaşmasına sistemli yanaşmanın prinsipləri // Bakı, AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2017, №- 6 s. 203-209.
6. Qafarov, N.C. Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri. /N.C.Qafarov. Bakı, 2023, "Kooperasiya" nəşriyyatı, 324 s.
7. www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi web ünvanı.

***Низами Джалал оглы Гафаров***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры “Экономика аграрной отрасли и промышленности”, д.э.н., доцент***
***E-mail: qafarovnizami@mail.ru***
***ORCİD-İD: 0000-0002-2570-8967***

## Политика Гейдара Алиева в конкурентоспособном экономическом развитии Азербайджана

***Резюме***

В статье, принимая во внимание природный, научно-технический и экономический потенциал независимого Азербайджана великого лидера Гейдара Алиева, определяя идеологию и принципы развития страны, проводя реформы в экономике Азербайджана, разрабатывая научно обоснованную политика в этом направлении, в направлении повышения качества продукции и производства конкурентоспособной продукции действия, предпринятые им, формирование Гейдара Алиева модели экономического развития в нашей стране, политика Гейдара Алиева, которая является для нас Дорожной картой , охватывает все сферы нашей жизни и, как было показано, оставило очень полезное наследие, и в то же время обсуждаются успехи, к которым стремился наш уважаемый Президент Ильхам Алиев во всех областях как последователь этой политики.

***Ключевые слова: сбалансированное экономическое развитие, импортозамещающая экономическая политика, производство конкурентоспособной продукции, продовольственная безопасность.***

***Nizami Jalal Gafarov***
***Azerbaijan Cooperation University***
***“Economics of the agricultural field and industry” department doctor of economic sciences, associate professor,***
***E-mail: qafarovnizami@mail.ru***
***ORCİD-İD: 0000-0002-2570-8967***

## Heydar Aliyev's policy in the competitive economic development of Azerbaijan

***Summary***

In the article, taking into account the natural, scientific, technical and economic potential of the independent Azerbaijan of the great leader Heydar Aliyev, determining the ideology and principles of the country's development, carrying out reforms in the economy of Azerbaijan, developing a scientifically based policy in this direction, in the direction of improving the quality of products and producing competitive products the actions taken by him, the formation of the Heydar Aliyev model of economic development in our country, the Heydar Aliyev policy, which is a Road Map for us, covers all areas of our life and has been shown to leave a very useful legacy, and at the same time, the successes sought by our Honorable President Ilham Aliyev in all fields as a follower of this policy are discussed.

***Key words: balanced economic development, import substitution economic policy, competitive product production, food safety.***

***Anar Fazil oğlu ABBASOV***
***Azərbaycan Kooperasiya Universiteti***
***“Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi”***
***kafedrasının professor əvəzi, iqtisad elmləri doktoru, dosent***
***anar1973@mail.ru***

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Xülasə***

Beynəlxalq iqtisadi münasibətlər sistemində qloballaşma dalğasının güclənməsi ümumiyyətlə cəmiyyətin ictimai-siyasi və iqtisadi həyatına da təsirsiz ötüşməmişdir. Qloballaşma dalğasının yeni təzahürləri özü ilə bərabər yeni çağırışlar və kifayət qədər sərt xarakter daşıyan qlobal təhdidlər də gətirmişdir. Qlobal çağırışlar ilk növbədə hər bir ölkənin milli iqtisadiyyatının qloballaşma prosesinə adekvat reaksiya göstərilməsi ilə bağlı prosesləri özündə əks etdirir. Məhz həmin proseslərin adekvat şəkildə qarşılanması demək olar ki, ölkələrin milli suverenliyinə kifayət qədər zərərsiz ötüşə bilər. Lakin etiraf etmək lazımdır ki, qloballaşma prosesi ölkələr arasında qarşılıqlı əlaqəni gücləndirsə də eyni zamanda kifayət qədər kəskin asılılıq tendensiyaları da doğurur. Bu baxımdan hesab etsək ki, dünyanın İEÖ və İEOÖ-ləri arasında kəskin iqtisadi inkişaf fərqləri var və bu baxımdan adı çəkilən fərqlər qloballaşma prosesində iqtisadi təhlükəsizliyə əhəmiyyətli dərəcədə destruktiv tendensiyalar doğura bilir.

***Açar sözlər: qloballaşma, iqtisadi təhlükəsizlik, iqtisadi təhdidlər, iqtisadi müstəqillik, rəqabət qabiliyyəti, şaxələndirmə.***

***

Qloballaşma beynəlxalq münasibətlər sisteminə inteqrasiyanın yeni təzahür forması olub, ictimai-siyasi və sosial-iqtisadi baxımdan geniş bir məkanı özündə əks etdirir. Müasir şəraitdə qloballaşma prosesinin özünəməxsus obyektiv və subyektiv tərəfləri mövcuddur. Başqa sözlə desək qloballaşma prosesi öz bərabərində kifayət qədər çoxsaylı gözləntilər, çağırışlar və eləcə də təhdidlər gətirməkdədir.

Bir sıra iqtisadçılar və siyasətçilər hesab edirlər ki, qloballaşma əslində tam mənası ilə obyektiv bir təzahürdür və bu prosesin inkişaf etməsi bütövlükdə dünya ölkələri arasında inteqrasiya münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayır. Rus iqtisadçılarından V.V. Boqatırev hesab edir ki, qloballaşma bütün xalqlara, planetin bütün ölkələrinə təsir edən obyektiv bir hadisədir. Onun mövcudluğunun əsaslarına təsir edən planetar problemlərin ortaya çıxması, dərk edilməsi, habelə davamlı sosial mühiti yaratmaq yolu ilə həlli yolları və üsullarının axtarışı bəşər sivilizasiyasının inkişafında obyektiv bir proses kimi xarakterizə olunmalıdır. [1. c 10]

Y.İ.Qlinski hesab edir ki, qloballaşma bizim subyektiv istəklərimizdən asılı olmayaraq, inkişaf edən obyektiv bir prosesdir. Transmilli şirkətlərin fəaliyyəti, ölkələrin qarşılıqlı asılılığı (enerji ehtiyatları, xammal, texnologiyalar və s), dünya informasiya sistemi (internet, peyk rabitəsi və s), ən böyük maliyyə sistemlərinin qarşılıqlı əlaqəsi, müasir nəqliyyat vasitələrinin və şəbəkələrin beynəlmiləlləşməsi və intensivləşdirilməsi, etnik qrupların və mədəniyyətlərin bir-birinə nüfuz etməsi, ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi istifadəsi, ümumi insan dəyərlərinin, yəni insan kapitalının formalaşması, ekoloji problemlərin planetar xarakteri və s. əslində qloballaşma prosesinə daha çox dəlalət edir. [2. c 10]

Obyektivlik naminə istər Boqatırevin, istərsə də Qlinskinin fikirləri ilə razılaşmaq mümkündür. Doğrudan da qloballaşma prosesi müasir dünyada intensivləşmənin və eləcə də informasiyaların sürətli ötürülməsi prosesinin gücləndirilməsində əhəmiyyətli rol oynamışdır. Transmilli şirkətlər vasitəsi ilə reallaşdırılan və dünya iqtisadiyyatı üçün kifayyət qədər yeni olan tendensiyalar və proseslər qlobal bazarlara, eləcə də hər bir ölkənin daxili bazarlarına nüfuz edə bilmişdir. Lakin bütün bunlara baxmayaraq qloballaşma prosesi yuxarıda da qeyd etdiyimiz kimi öz bərabərində kifayət qədər destruktiv tendensiyalar və o cümlədən sosial-iqtisadi təhdidlərə gətirib çıxarmışdır

ki, sonda həmin təhdidlər ölkənin iqtisadi təhlükəsizliyinə kifayət qədər mənfi təsirləri özündə birləşdirir.

Qloballaşma prosesinin doğurduğu iqtisadi təhdidlər özünü müxtəlif formalarda təzahür etdirir. Bu ilk növbədə İEÖ-lərin qlobal bazarlar uğrunda mübarizəsi və eyni zamanda müxtəlif maliyyə oliqarxlarının dünya səviyyəsində qlobal aspektdə maliyyə əməliyyatlarının da məcmusu kimi dəyərləndirilə bilər. Bu baxımdan V.Y.Katasanov hesab edir ki, qloballaşma maliyyə oliqarxiyasının formalaşma dinamikasını gücləndirir, onun yaranması fəaliyyətində müşahidə edilən cinayət əməliyyatlarını artırır və bu prosesdə isə son məqsəd dünya hökmranlığına de-fakto deyil de-yure şəkildə, yəni hüquqi şəkildə nail olunmasından ibarətdir. [3. c 384]. Fikrimizcə, müəllifin qeyd etdikləri iqtisadi təhlükəsizliyin gizli iqtisadiyyat aspektlərini özündə əks etdirir.

Ümumiyyətlə götürdükdə, qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin təmin edilməsi dövlətin iqtisadi suverenliyinin qorunub saxlanılması kimi xarakterizə edilməlidir və iqtisadi təhlükəsizlik qloballaşan dünyada daha çox milli təhlükəsizliyin prioritet aspektini təşkil edir.

Qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin təmin edilməsini şərtləndirən ən böyük obyektiv zərurət ondan irəli gəlir ki, qloballaşan dünyada qlobal risklər və qlobal təhdidlərin təsiri və əhatə dairəsi kifayət qədər genişlənir və bu genişlənmə o həddə qədər davam edir ki, bu təhdidlər hər bir ölkənin milli iqtisadi suverenliyinə mənfi təsir göstərir.

Akademik L.İ.Abalkin hesab edir ki, iqtisadi təhlükəsizlik ölkənin etibarlı müdafiə qabiliyyətinin təmin edilməsi kimi komponentlər də daxil olmaqla dövlət təhlükəsizliyi sisteminin üzvi tərkib hissəsini təşkil edir. Cəmiyyətdə sosial rifahın qorunması, iqtisadi fəlakətlərdən qorunma da iqtisadi təhlükəsizliyin mühüm elementlərindən biridir. Müəllifin fikrincə, burada iqtisadi təhlükəsizliyin, eləcə də milli təhlükəsizliyin bütün komponentləri bir-biri ilə sıx bağlıdır. Zəif və səmərəsiz iqtisadiyyatda hərbi təhlükəsizlik mövcud olmadığı kimi sosial münaqişələrlə parçalanmış cəmiyyətdə nə hərbi təhlükəsizlik, nə də effektli iqtisadiyyatdan bəhs etmək mümkün deyildir. [4. c 85]

Doğrudan da əslində iqtisadi təhdidlər və iqtisadi risklərin simbiozu son nəticədə iqtisadi təhlükələrin yaranmasına gətirib çıxarır və bu təhlükələrin güclənməsi cəmiyyətdə sosial parçalanmaya-deqradasiya prosesinin genişlənməsinə gətirib çıxarır. Bu təsir o qədər güclənir ki, sonda ölkənin milli təhlükəsizliyi zərbə altına düşür.

Beynəlxalq iqtisadi münasibətlərin qloballaşması prosesi iqtisadi, sosial, demoqrafik, ekoloji risklərin bütün spektrini özündə birləşdirərək yeni aspektlərə çevrilir. Bu baxımdan geosiyasi və geoiqtisadi vəziyyət də durmadan mürəkkəbləşir. [5. s. 195]

Beləliklə, qloballaşma şəraitində yuxarıda adı çəkilən risklərin təsir dairəsini neytrallaşdırmaq məqsədilə dövlət tərəfindən iqtisadi təhlükəsizliyin təmin edilməsinə istiqamətlənmiş tədbirlər gerçəkləşdirilməlidir ki, bu da ilk növbədə iqtisadiyyatın immunitet qabiliyyətinin yüksəldilməsi, iqtisadiyyatın xarici risklərə effektli şəkildə reaksiya göstərmək imkanlarının artırılması ilə xarakterizə olunmalıdır. Qloballaşma şəraitində dövlətin iqtisadi təhlükəsizliyinə təsir göstərən amillərdən biri də milli iqtisadiyyatın strukturu, eləcə də ixracın strukturunda baş verən tendensiyalarla bağlıdır. Belə ki, İEOÖ-in əksəriyyətində ixracın strukturunda təbii resurslar və eləcə də xammal resurslarının xüsusi çəkisi daha yüksəkdir. İEÖ-də ixracın strukturunda isə sənaye məhsulları və elmtutumlu məhsullar, kapital tutumlu məhsullar daha çox xüsusi çəkiyə malikdir. Əslində İEOÖ ilə İEÖ-nün dünya bazarına ixrac etdiyi məhsulların qiymətləri arasındakı fərq nəticə etibarı ilə hər iki qrupda olan ölkələrin iqtisadi vəziyyətini və eləcə də iqtisadi təhlükəsizliyinin dözümlülüyünü göstərir. Bu baxımdan təbii ki, İEÖ-lər daha çox irəlidədirlər. Akademik Ziyad Səmədzadə haqlı olaraq qeyd edir ki, dünyada qlobal siyasi, iqtisadi mənafelər uğrunda aparılan mübarizə neftin qiymətini ya aşağı salır, ya da qaldırır. 2007-2008-ci illərdə neftin bahalaşması, 2008-ci il ABŞ-da özünü daha qabarıq şəkildə göstərən maliyyə böhranından sonra neftin qiymətinin aşağı düşməsi dünya siyasətinin ən ciddi müzakirə edilən, ümumiyyətlə narahatlıq doğuran probleminə çevrilmişdir.

Azərbaycan OPEK-in üzvü deyildir və zəngin neft resurslarına malik olan bir dövlət kimi dünya neft siyasətində baş verən proseslərdən o da nəticə çıxarır. Təbii sərvətlərin bolluğu hələ tərəqqi demək deyildir. Elə neft istehsal edən ölkə var ki, orada iqtisadi inkişaf, yaşayış səviyyəsi çox aşağıdır. Çünki, bu ölkələrdə nə siyasi sabitlik var, nədə milli dövlət mənafelərinə əsaslanan

inkişaf strategiyası var. Bu baxımdan Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və bu gün uğurla həyata keçirilən neft strategiyası vardır. Dövlət başçısı İlham Əliyev bildirir ki, işimizi elə qurmalıyıq ki, dünyada qəflətən baş verən və baş verə biləcək iqtisadi titrəmələr bizə baha başa gəlməsin. [6. S 48-49]

Nəzərə almaq lazımdır ki, iqtisadi təhlükəsizlik kifayət qədər geniş və kompleks bir sistemi özündə əks etdirir. İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə bir vəziyyətini nəzərdə tutur ki, iqtisadiyyat bütövlükdə baş verən konyunktur dalğalanmalarına effektiv reaksiya göstərmək iqtidarında olsun. Eyni zamanda dövlətin iqtisadi sahədə milli maraqlarının təmin edilməsi gerçəkləşdirilsin, ixracın strukturunda xammalın xüsusi çəkisinin artmasının qarşısı alınsın və bütün bunlar sənaye məhsullarının xüsusi çəkisinin artımı ilə əvəzlənsin. Bu baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsinin həd göstəriciləri əsas etibarilə istehsal, sosial və maliyyə aspektində təsnifləşdirilir. İstehsal aspektində iqtisadi təhlükəsizliyin hədləri onunla bağlıdır ki, milli iqtisadiyyatın strukturunda emal və sənaye məhsullarının xüsusi çəkisi 70% həddində olsun. Maliyyə baxımından iqtisadi təhlükəsizliyin həd göstəriciləri isə daha çox daxili borcların ÜDM də 30%, xarici borcların isə 25% nisbətlərində olması məqbul hesab edilir. Sosial baxımdan yanaşdıqda isə bu ilk növbədə əhalinin aztəminatlı təbəqələrinin bazara çıxış imkanlarının genişlənməsi ilə sıx bağlı olub istehlak səbətinə daxil olan məhsulların qiymətlərinin artım tempinə uyğun olaraq gəlirlərin müvafiq şəkildə indeksləşdirilməsi ilə səciyyələnir.

İqtisadi təhlükəsizlik poblemləri sahəsində uzun müddət tədqiqat aparmış rus iqtisadçısı akademik V.K.Sençakov hesab edir ki iqtisadi təhlükəsizliyin təmin edilməsinin strateji məqsədi cəmiyyətin hərbi siyasi sabitliyini qorumaq və sosial-iqtisadi inkişafını davamlı olaraq təmin etmək, eyni zamanda hər bir şəxsin həyat şəraiti üçün əlverişli şərait yaratmağa qadir olan iqtisadiyyat formalaşdırmaqdan ibarətdir. Bu baxımdan milli iqtisadi təhlükəsizliyin strateji məqsədləridə daxili və xarici təhdidlərə müvəffəqiyyətlə reaksiya vermək qabiliyyətinə malik olan iqtisadiyyatın yaradılmasından ibarətdir [7, s. 23]

Ümumiyyətlə müəllifin fikirlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, iqtisadi təhlükəsizliyə qlobal təhdidlərin artması artıq iqtisadi təklükəsizliyin milli təhlükəsizlik həddinə qədər yüksəlməsinə gətirib çıxarmışdır. Ümumiyyətlə, müasir şəraitdə hərbi baxımdan müharibələr, daha doğrusu sərt güc strategiyasından istifadə edilməsi prosesi, demək olar ki, arxa plana keçmişdir. Bu baxımdan hətta lokal müharibələr, yəni ərazi müharibələri (qısamüddətli) istisna olmaqla dünyada daha çox yumşaq iqtisadi güc hesabına bazarların ələ keçirilməsinə istiqamətlənmiş tədbirlər gerçəkləşdirilir. Bütün bunlar isə iqtisadi təhlükəsizliyin təmin edilməsi zərurətini artırır və iqtisadi təhlükəsizliyi milli təhlükəsizlik səviyyəsinə belə yüksəldir.

İnkişaf etməkdə olan ölkələrlə İnkişaf etmiş ölkələrin iqtisadi təhlükəsizliyi arasında kifayət qədər iri həcmli və hətta müqayisəolunmaz fərqlər mövcuddur. Bu fərqlər əslində hər iki qrupa daxil olan ölkələrin iqtisadiyyatının xüsusiyyətlərindən irəli gəlir. Yoxsulluq inkişaf etməkdə olan ölkələrin qarşılaşdığı ilkin problemdir və yoxsulluqdan qurtulmaq onların ən önəmli iqtisadi və siyasi çağırışıdır. Sənayeləşmiş iqtisadiyyatlarla müqayisədə əksər inkişaf etməkdə olan ölkələr müasir sənaye üçün əhəmiyyəti olan istehsal amillərində (kapital və ixtisaslı əmək) kasaddır. Bu amillərin müqayisəli məhdudluğu adambaşına düşən gəlirin aşağı səviyyəsinə təsir edir və adətən inkişaf etməkdə olan ölkələrin daha varlı ökələrin əksəriyyətinin faydalandığı miqyas effektini reallaşdırmalarına əngəl olur. Lakin yuxarıda adı çəkilən amillərin məhdudluğu daha dərin problemlərin bir əlamətidir. Siyasi qeyri-sabitlik qorunmayan mülkiyyət hüquqları və səhv yönləndirilmiş iqtisadi siyasət tez-tez kapital və əməyə yatırılan sərmayələri qaçırmış, eləcə də iqtisadi səmərəliliyi başqa yollarla azaltmışdır. [8, s. 759]

Müəlliflərin irəli sürdüyü arqumentlərə dayanaraq belə qənaətə gəlmək olar ki, əslində İEOÖ-də iqtisadi təhlükəsizliyə mənfi təsir göstərən ən mühüm amil sosial və iqtisadi davamlılığın olmamasıyla bağlıdır. Doğrudan da dayanıqlılıq milli iqtisadiyyatın ən mühüm keyfiyyət parametirdir. Dayanıqlı iqtisadiyyat formalaşdırmadan əhalinin sosial ehtiyaclarını ödəmək, bütün sahələrdə geniş təkrar istehsalı təmin etmək demək olar ki mümkün deyil. Ən azı ona görə ki, inkişaf və iqtisadi artım nəticə etibarı ilə daxili bazarın yerli məhsullarla doydurulması, əhalinin və sənayenin gündəlik tələbat və xammala olan ehtiyaclarının daxili mənbələr hesabına ödənilməsinə, eləcə də

xarici bazarlara davamlı olaraq məhsul ixracına əlverişli şərait yaradır. Bundan əlavə, iqtisadi artıma nail olmadan dayanıqlı iqtisadi sistem formalaşdırmaq, eləcə də daxili və xarici mənbədən olan təhlükəli tendensiyalara effektli reaksiya göstərmək də mümkün deyildir. [9. S 57]

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, qloballaşma kifayət qədər obyektiv proses sayılsa da bu prosesin İEOÖ-lərin milli iqtisadiyyatına kifayət qədər çoxsaylı destruktiv təzahürləri və o cümlədən, iqtisdi təhdidləri mövcuddur. Məhz həmin təhdidləri nəzərə alaraq dövlət tərəfindən iqtisadi təhlükəsizliyin təmin edilməsinə istiqamətlənmiş kompleks tədbirlərin eləcə də dövlətin iqtisadi siyasətinin aktivləşdirilməsinin mühüm strateji əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT


1. Богатырев В.В. Глобализация права: автореф. Дис … д-ра юрид, наук / В.В.Богатырев – Владимир, 2004- 45с – с 10
2. Глобализация и девиантност / науч, ред. Я.И. Гилинский – СПб – Юридический центр Пресс, 2006- 393 с, с 10
3. Катасонов В.Ю. Мировая кабала. Ограбление по../ В.Ю.Катасанов – М. 2013- 384с
4. Абалкин Л.И Рассия: поиск самоопределения. Очерки. М. Наука. 2002 424 с. 85
5. Караваева И.В. Лев . М. Ю. Развитие стратегии экономической безопасности (итоги проведения ежогодной международной научно – практической конференчии “Сенчаговские чтения”) //Вестник Института экономики Российской академии наук. 2019. №4 С.194-204. С195
6. Z.Ə.Səmədzadə “Çin qlobal dünya iqtisadiyyatında” – Bakı, “Elm və təhsil” 2009, 608 səh, S. 48-49
7. Экономическая безопастность производство-финансы-банкы под редакцией академика В.К.Сенчагова Москва, 1998, стр 23
8. Kruqman/Obstfeld/Melitz – “Beynəlxalq iqtisadiyyat” nəzəriyyə və siyasət 2018 , 831 S, S759
9. A.F.Abbasov “Ərzaq təhlükəsizliyi”-Bakı 2007, 602 səh. 57.



***Анар Фазил оглы Аббасов***
***АКУ, “Организация бизнеса, государственное и муниципальное управление” кафедры, доктор экономических наук, доцент***


## Некоторые вопросы обеспечения экономической безопасности в условиях глобализации


***Резюме***

Усиление волны глобализации в системе международных экономических отношений не оставило своего влияния на общественно-политическую и экономическую жизнь общества в целом. Новые проявления волны глобализации принесли с собой новые вызовы и глобальные угрозы достаточно жесткого характера. Глобальные вызовы в первую очередь отражают процессы, связанные с адекватным реагированием национальной экономики каждой страны на процессы глобализации. Адекватное выполнение этих процессов можно назвать относительно безвредным для национального суверенитета стран. Однако следует признать, что процесс глобализации усиливает взаимодействие между странами, но в то же время порождает и достаточно острые тенденции зависимости. С этой точки зрения, если учесть, что между ЕЭС и ЕЭС мира существуют резкие различия в экономическом развитии, и в связи с этим указанные различия могут вызывать значительные деструктивные тенденции экономической безопасности в процессе глобализации.



***Ключевые слова: глобализация, экономическая безопасность, экономические угрозы, экономическая независимость, конкурентоспособность, диверсификация.***

*Anar Fazil Abbasov*
*Azerbaijan Cooperation University*
*"Business organization, State and municipal management"*
*Associate Professor of the Department,*
*Doctor of Economic Sciences, Associate Professor*

**Some issues of ensuring economic security in the conditions of globalization**

***Summary***

The strengthening of the wave of globalization in the system of international economic relations has not left its impact on the public political and economic life of the society in general. The new manifestations of the wave of globalization have brought with it new challenges and global threats of a rather harsh nature. Global challenges primarily reflect the processes related to the adequate response of the national economy of each country to the globalization process. Adequate meeting of those processes can be said to be relatively harmless to the national sovereignty of the countries. However, it is necessary to admit that the process of globalization strengthens the interaction between countries, but at the same time, it also gives rise to rather sharp tendencies of dependence. From this point of view, if we consider that there are sharp differences in economic development between the EEC and the EEC of the world, and in this regard, the mentioned differences can cause significant destructive trends to economic security in the process of globalization.

***Keywords: globalization, economic security, economic threats, economic independence, competitiveness, diversification.***

**UOT 33.336**

***Elşən Əli oğlu İBRAHİMOV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"İqtisadiyyat" fakültəsinin dekanı,***
***iqtisad elmləri doktoru, dosent***
***E-mail: elwen.1977@mail.ru***
***ORCID-ID:0000-0001-6582-2687***

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İQTİSADİ İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİ VƏ İNVESTİSİYA QOYULUŞLARI

***Xülasə***

Məqalədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun tarixi torpaqlarımızı işğaldan azad etməsi, post-konflikt dövründə bərpa prosesinə, quruculuq və yenidənqurma işlərinə investisiyaların cəlb edilməsinin zəruriliyi şərh edilmişdir. Respublikamızın dayanıqlı və davamlı inkişafı, işğaldan azad olunmuş ərazilərin iqtisadiyyata inteqrasiyası, bu ərazilərə mərhələli şəkildə sərmayələrin cəlb edilməsi qarşıya qoyulmuş mühüm vəzifə kimi qiymətləndirilmişdir. Azərbaycan dövləti tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən geniş quruculuq və bərpa işləri təhlil edilərək bir sıra təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: Qarabağ, Şərgi Zəngəzur, Qarabağ iqtisadi rayonu, işğaldan azad olunmuş ərazilər, investisiya, iqtisadi inkişaf.***

***

Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü və ardıcıl islahatlar, formalaşdırılmış iqtisadi və hərbi potensial nəticəsində 2020-ci ildə tarixə düşmüş 44 günlük Vətən müharibəsində rəşadətli Ordumuz Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizi azad edərək ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Tarixi ərazilərimizin işğaldan azad edilməsi ilə post-konflikt bərpa

prosesinin başlanmasına zəmin yaranmaqla ölkə iqtisadiyyatının yeni inkişaf dövrünün təməli qoyuldu. Beləliklə də, düşmən əsarətindən azad edilmiş ərazilərdə geniş miqyaslı quruculuq, yenidənqurma və bərpa işlərinə başlanıldı, müvafiq sektorlar üzrə investisiyaların və digər sərmayələrin cəlb edilməsi mexanizmi hazırlandı.

İşğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyin təmin olunması, infrastrukturun formalaşdırılması, sosial xidmətlər şəbəkəsinin qurulması, yaşayış üçün şəraitin yaradılması və regionun iqtisadi potensialının milli iqtisadiyyata sürətlə inteqrasiyasını təmin etmək istiqamətində strateji baxış müəyyənləşdirildi. Bu məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərdə, hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirə salınmaz məsələlərin həlli ilə bağlı Strateji Fəaliyyət Planı"na uyğun olaraq müvafiq tədbirlər həyata keçirilməyə başlanıldı.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritet"dən biri "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" Milli Prioritetidir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi mərhələsində 16 noyabr 2022-ci il tarixli Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir [1;2;3].

Dövlət Proqramının icrası işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial inkişafını dəstəkləməklə dayanıqlı və davamlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli sahələrin qurulması, təhlükəsiz yaşayış şəraitinin yaradılması ilə münaqişə sonrası uyğunlaşmanın mühüm tərkib hissəsi olan əhalinin repatriasiyası, dövlətin xərclərinin azaldılması məqsədilə müxtəlif mənbələrdən investisiyaların cəlb edilməsi, həmçinin dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, təbii sərvətlərin səmərəli istifadəsi və ətraf mühitin əsaslı mühafizəsinə əsaslanan ekoloji təhlükəsizliyin formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Təsadüfi deyil ki, qarşıya qoyulmuş məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2021-ci ildə 2.2 milyard manat vəsait ayrıldığı halda 2022-ci ildə təxminən 2 dəfə çox 4.3 milyard manat vəsait ayrılmışdır. [8; 10]

İşğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın ayrı-ayrı sahələrinin canlanmasının sürətlənməsi və investisiya cəlbediciliyinin artırılması, səmərəli və müasir istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi ilə sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, tənzimləyici və stimullaşdırıcı mexanizmlərin və əlverişli sahibkarlıq mühitinin yaradılması məqsədilə bir sıra təkliflər paketi hazırlanaraq reallaşdırılır.

Qarabağ iqtisadi rayonunda yaradılmış Ağdam Sənaye Parkında 12-si rezident, 3-ü isə qeyri-rezident olmaqla 15 müəssisə, Şərgi Zəngəzur iqtisadi rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 2-si rezident, 1-i qeyri rezident olmaqla 3 müəssisə qeydiyyata alınmışdır. Bu müəssisələrdə müvafiq olaraq 1100 dən çox yeni iş yerilərinin yaradılması reallaşmaqdadır.

İşğaldan azad edilmiş ərazilərdə potensial investorlara təqdim edilməsi məqsədilə müxtəlif istiqamətləri (sənaye, alternativ enerji, turizm, logistika və s.) əhatə edən nümunəvi investisiya layihələri hazırlanmışdır. Belə ki, Kəlbəcər və Laçın rayonlarının ərazisində yerləşən kiçik Su Elektrik Stansiyalarının bərpasına özəl investisiyaların cəlb olunması ilə bağlı xarici investorlarla müzakirələr aparılmış, layihələrin dövlət və özəl sektorun tərəfdaşlığı modelinin tətbiqi ilə həyata keçirilməsi mexanizminə aid təkliflər işlənib hazırlanmışdır. Bütün bunlarla yanaşı, işğaldan azad olunmuş ərazilərin iqtisadi, investisiya və tranzit potensialı, reallaşdırılan və planlaşdırılan infrastruktur layihələri, avtomobil və dəmir yolları, beynəlxalq hava limanları, həmçinin mövcud investisiya imkanlarının müqayisəli təhlili, təbii resurslar, alternativ enerji imkanları və potensial investisiya layihələri barədə geniş məlumatların qlobal miqyasda təqdim olunması, Qarabağa dair obyektiv və geniş informasiyaların beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilməkdədir.

Müəyyənləşdirilmiş tədbirlər planına uyğun olaraq 2022-ci ildə işğaldan azad olunmuş ərazilər-

də biznes qurmaq istəyən sahibkarlardan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) 398 müraciət daxil olmuşdur ki, onlardan da 160-ı investisiya layihələri , 184-ü iş və xidmətlərin həyata keçirilməsi, 54-ü isə vətəndaş müraciətləri ilə bağlı olmuşdur. Müraciətlərin 36%-i tikinti işlərini, 26%-i ticarət və xidmət sahəsini, 19%-i kənd təsərrüfatını, 15%-i sənayeni, 4%-i isə turizm, nəqliyyat və logistika sahələrini əhatə etmişdir [11;12].

Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamında bu ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması, xidmət infrastrukturunun və emal sənayesinin formalaşdırılması məqsədilə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi, investisiya təşviqi məsələlərinin təkmilləşdirilməsi, özəl təşəbbüslərin stimullaşdırılması məqsədilə istehsal fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi tapşırılmışdır.

Sərəncamın icrasının təmin edilməsi məqsədilə investisiya təşviqi mexanizmində bir sıra dəyişikliklər edilmiş, investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, ərazilər və zonalar, həmçinin investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğlər və güzəştlər müəyyənləşdirilmişdir. Habelə işğaldan azad olunmuş ərazilərin rezidentləri tərəfindən müvafiq istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 2023-cü ilin yanvarın 1-dən etibarən 10 il müddətinə gömrük resurslarından azad edilməsi nəzərdə tutulmuşdur.

Həmçinin işğaldan azad olunmuş ərazilərə investisiyaların cəlb edilməsinin və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün stimullaşdırıcı və tənzimləyici mexanizmlərin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində də bir sıra dəyişikliklər edilmişdir. Belə ki, 2023-cü ilin yanvar ayının 1-dən işğaldan azad olunmuş ərazilərin rezidentləri 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, ƏDV ödəyicisi olan rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğular, habelə xammal və materialların idxalı ƏDV-dən azad edilmişdir. Vergi güzəştlərinin verilməsində əsas məqsəd işğaldan azad olunmuş ərazilərə investisiyaların cəlb edilməsi, real sektorun inkişafı və bu sahələrə dövlət tərəfindən stimullaşdırıcı təşviqlərin verilməsindən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına uyğun olaraq bu ərazilərdə mövcud olan yüksək bərpa olunan enerji potensialından istifadə etməklə, "yaşıl enerji" zonasının yaradılması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiq edilmişdir.

Tədbirlər planının həyata keçirilməsi üzrə Kəlbəcər və Laçın rayonlarının ərazilərinin hidroenerji potensialından istifadə istiqamətində ümumi gücü 39.5 MVt olan 10 kiçik Su Elektrik Stansiyasının (SES) bərpasına özəl investisiyanın cəlb edilməsi üçün potensial investor seçilməsinə dair investisiya müsabiqəsi elan olunmuşdur. Hidroenerji potensialından maksimum istifadə edilməsi istiqamətində tədbirlər davam etdiriləcək, ümumi gücü 20.2 MVt olan 4 kiçik SES istismara verilmiş, 68.3 MVt gücündə Zəngilan rayonu ərazisində "Şayıflı", "Sarıqışlaq", "Zəngilan", "Cahangirbəyli", Laçın rayonu ərazisində "Aybulaq", "Mişni" və Kəlbəcər rayonu ərazisində "Zar" olmaqla 7 ədəd SES və kiçik SES-in tikintisi isə davam etdirilir. Həmçinin, 63,1 mvt gücündə 9 ədəd SES və kiçik SES-in Kəlbəcər və Laçın rayonları ərazisində tikintisi istiqamətində işlər aparılır [7,8,11]. Bütövlükdə, işğaldan azad olunmuş ərazilərdə elektrik şəbəkəsi infrustrukturunun formalaşdırılması, müxtəlif təyinatlı layihələrin elektrik enerjisi ilə təmin edilməsi üçün zəruri texniki işlər görülmuşdur. Hazırda Şuşa şəhərində, Xocavənd, Qubadlı, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və Ağdam rayonları ərazisində yarımstansiyaların tikintisi davam etdirilir.

İşğaldan azad olunmuş ərazilərin turizm potensialından istifadə edilməsi məqsədilə "Kəlbəcər Turizm İnkişaf Konsepsiyası" və "İstisu Turizm İnkişaf Konsepsiyası" hazırlanmış, həmin ərazilərdə Turizm və Rekreasiya zonalarının yaradılması ilə əlaqədar turizm resurslarının qiymətləndirilməsi işləri həyata keçirilmiş, ilkin planlaşdırma işləri həyata keçirilərək müvafiq investisiya büdcələri hazırlanmışdır.

Bütövlükdə qeyd etmək yerinə düşər ki, işğaldan azad edilmiş ərazilərə müxtəlif mənbələrdən yönəldilən investisiyalar növbəti mərhələlərdə sosial-iqtisadi canlanmaya və davamlı inkişafın sürətləndirilməsinə də təkan verəcək. Bununla yanaşı qarşıya qoyulmuş strateji hədəflərin reallaşdırılması məqsədilə sərmayələrin nəzərəçarpacaq dərəcədə axınını stimullaşdırmaq və tənzimləmək üçün aşagıdakı məsələlərin diqqət mərkəzində saxlanılmasını məqsədəuyğun hesab edirik:

- regionda əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətində həm qanunvericilik və institusional mexanizmlərin təkmilləşdirilməsi, həm də stimullaşdırıcı tədbirlərin genişləndirilməsi;
- kiçik və orta biznesin inkişafını sürətləndirmək məqsədilə dövlət-özəl tərəfdaşlığını genişləndirməklə investisiya layihələrinin maliyələşdirilməsində dövlət büdcəsinin yükünün azaldılması və özəl sektorun canlandırılması;
- investisiyaların beynəlxalq hərəkəti təcrübəsini tədqiq edərək Azərbaycanın mövcud reallığına uyğun olaraq sənayeləşmə potensialı formalaşdırmaq;
- xarici investisiyaların işğaldan azad olunmuş ərazilərə cəlb edilməsini stimullaşdırmaq məqsədilə ayrı-ayrı rayonların təbii-iqtisadi resurslarını, yeraltı və yerüstü sərvətlərini özündə təcəssüm etdirən məlumatlandırıcı ensiklopediyaların (o cümlədən internet resurslarında) hazırlanması;
- işğaldan azad olunmuş ərazilərə xarici sərmayələrin cəlb edilməsi, bu prosesin tənzimlənməsi və iqtisadi təhlükəsizlik mənafelərinə uyğunlaşdırılmasını həyata keçirmək üçün dövlətin vahid koordinasiya strukturunun yaradılması;
- birbaşa investisiyalarla yanaşı, respublikamızda zəif inkişaf etmiş portfel (maliyyə) investisiyalarının işğaldan azad olunmuş ərazilərə cəlb edilməsi istiqamətində inklüziv iqtisadi siyasətin işlənib hazırlanması;
- innovasiyaların və kreativ elmi yeniliklərin işğaldan azad olunmuş ərazilərə cəlb edilməsini təmin etmək məqsədilə dövlət tərəfindən sinergetik fayda verəcək layihələrin maliyyələşdirilməsi;
- işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi, investisiya qoyuluşlarının səmərəliliyini və təhlükəsizliyini təmin etmək məqsədilə mütərəqqi sığorta mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsi.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetler. Bakı, 2021-ci il 2 fevral
2. Azərbaycan Respublikasının 2022-2026 cı illərdə sosial-iqtisadi inkişaf Stratesiyası. Bakı, 2022 ci il, 22 iyul.
3. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. Bakı, 2022-ci il, 16 noyabr
4. Səmədzadə Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə. Bakı, 2022, 856 səh.
5. Əliyev Ş.T. “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri”. “Geostrategiya” jurnalı, 2021 № 4 . Bakı, 2021. Səh 67-72.
6. Məhərrəmov E.M. “Qarabağ iqtisadi rayonunun inkişaf problemlərinin həll edilməsi üzrə təbii və iqtisadi resurs potensialının qiymətləndirilməsi”. AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası 2022-6 (noyabr-dekabr). Bakı, 2022. Səh 80-87.
7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabatlar (2021, 2022).
8. www. president.az
9. www. cabmin.gov.az
10. www. stat.gov.az
11. www. iqtisadi_islahat.org
12. www. kobim.az

***Эльшан Али оглы Ибрагимов***
***Декан факультета “Экономики”***
***Азербайджанского Университета Кооперации,***
***доктор экономических наук, доцент***
***e-адрес: elwen.1977@mail.ru***
***ORCID-ID:0000-0001-6582-2687***

## Ускорение экономического развития и инвестиции на территориях, освобожденных от оккупации

***Резюме***

В статье раскрывается необходимость освобождения наших исторических земель от оккупации Азербайджанской Армией Храбрых под руководством Президента Азербайджанской Республики Ильхама Алиева, а также необходимость привлечения инвестиций в восстановительные, строительные и восстановительные работы в постконфликтный период. Стабильное и устойчивое развитие нашей республики, интеграция в экономику территорий, освобожденных от оккупации, поэтапное привлечение инвестиций на эти территории оценивались как важная задача. Были проанализированы масштабные строительно-восстановительные работы, проведенные Азербайджанским государством на освобожденных от оккупации территориях, и сделан ряд предложений и рекомендаций.

***Ключевые слова: Карабах, Восточный Зангезур, Карабахский экономический район, территории, освобожденные от оккупации, инвестиции, экономическое развитие.***

***Elshan Ali Ibrahimov***
***Azerbaijan Cooperation University***
***Dean of the Faculty of “Economics”,***
***Dr. of Economic studies, Associate Professor***
***E-mail address: elwen.1977@mail.ru***
***ORCID-ID:0000-0001-6582-2687***

## Acceleration of economic development and investment in the liberated territories

***Summary***

The article describes the liberation of our historical lands by The Brave Azerbaijani army under the leadership of the president of the Republic of Azerbaijan Ilham Aliyev, the need to attract investments to the restoration process, construction and reconstruction in the post-conflict period. Sustainable and sustainable development of our republic, integration of the liberated territories into the economy, attraction of investments in these territories in stages were assessed as an important task. The extensive construction and restoration work carried out by the Azerbaijani state in the liberated territories was analyzed and a number of proposals and recommendations were made in the article.

***Key words: Karabakh, Shargi Zangezur, Karabakh economic region, liberated territories, investment, economic development.***

**UOT: 336.645.1:336.64**

***Elnurə Bünyat qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Maliyyə və bank işi" kafedrasının müəllimi,***
***dosent, iqtisad elmləri doktoru***
***E-mail:mammadova-e@list.ru***
***ORCİD-İD 0000-0003-2721-5733***

# BEYNƏLXALQ İNVESTİSİYALARIN RESPUBLİKA İQTİSADİYYATINA CƏLB OLUNMASI HEYDƏR ƏLİYEV SİYASƏTİNİN NƏTİCƏSİ KİMİ

***Xülasə***

Beynəlxalq iqtisadi əlaqələrin səmərəliliyinin artırılmasında, iqtisadiyyatın dayanıqlı şəkildə inkişaf etdirilməsində, iri layihələrin həyata keçirilməsində, daim tələbat artan enerji resursları yataqlarının işlənməsində, onların təsərrüfat dövriyyəsinə cəlb edilməsində, milli iqtisadiyyatların strukturunun təkmilləşdirilməsi və diversifikasiyalaşdırılması üçün aparılan islahatların reallaşdırılmasında iri məbləğdə investisiyalar tələb olunur. Məhz bu istiqamətdə daha optimal və işlək mexanizmlərin olması iri investisiya layihələrinin hazırlanması və reallaşdırılması üçün əsas şərtlərdən hesab olunur.

***Açar sözlər: investisiya siyasəti, investisiya fəaliyyəti, investisiya əlçatanlığı, investisiya mənbələri, ümumi investisiyalar.***

***

Azərbaycanda investisiya mühitinin formalaşması və müasir dövrün tələblərinə uyğun şəkildə tədbirlərin görülməsi müstəqilliyin bərpasından sonrakı ilk illərdən başlayaraq dövlət səviyyəsində xüsusi diqqət mərkəzində olmuşdur. Başlıca məqsəd ölkədə investisiya fəaliyyəti üzrə qanunvericiliyin yaradılması, xarici investisiyaların qorunması tədbirlərinin görülməsi və bununla da ölkəmizə xarici investisiyaların, o dövr üçün ilk növbədə neft sektoruna vacib olan investisiyaların cəlb edilməsindən ibarət olmuşdur. Həmin mürəkkəb vəzifənin öhdəsindən gəlməkdə ulu öndər Heydər Əliyevin tarixi səylərini də qeyd etmək vacibdir və 1994-cü il sentyabrın 20-də dünyanın iri neft-qaz şirkətlərinin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi" ölkəmizdə investisiya mühitinin sürətli şəkildə cəlbediciliyinin artırılmasına imkan vermişdir. Bu baxımdan, Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həll edilməsində Heydər Əliyevin titanik səylərini və xidmətlərini qeyd etmək obyektivlik olardı. Belə ki, məhz "Əsrin müqaviləsi"nin reallaşdırılması sayəsində Azərbaycanın karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunmasına əsaslı zəmin yaradılmışdır. Neft və qaz hasilatı sahələrinə investisiya axını başlamış, dünyanın aparıcı şirkətləri ölkəmizə gəlmiş və bununla da Azərbaycanda investisiya mühitinin cəlbediciliyi xeyli artmışdır. Hesab edirik ki, məhz əsrin müqaviləsindən irəli gələn vəzifələrin ardıcıl şəkildə reallaşdırılması ölkəmizdə investisiya cəlbediciliyinin artırılmasında həlledici rol oynadı. Belə ki, neft amili Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. "Əsrin müqaviləsi"nin 25 illiyinə həsr edilmiş mərasimdə Prezident İlham Əliyev demişdir ki, "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimizin əyani sübutudur [4]. Ümumən bu proseslərdə ölkəmizə xarici investisiyalar axını intensivləşmiş və müstəqilliyin bərpası dönəmində milli iqtisadiyyatımıza yatırılan investisiyaların əhəmiyyətli hissəsi xarici investisiyalardan ibarət olmuşdur. Bununla belə, qeyri-neft sektoru sahələrinə yönəldilən xarici investisiyaların həcmi ölkəmizin iqtisadi inkişaf prioritetlərinə və hədəflərinə adekvat deyildir. Bu isə həmin istiqamətdə investisiya mühitinin maksimum təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin artırılmasını şərtləndirir. Məhz bu səbəbdən dövlət tərəfindən ölkə regionlarının sosial-

iqtisadi inkişafına, infrastrukturun yaradılmasına, ayrı-ayrı iqtisadiyyat sahələrinin dəstəklənməsinə yönəldilən məqsədli dövlət investisiyalarının yükünü azaltmaq üçün ölkəmizdə dünya təcrübəsinə uyğun investisiya mühitinin formalaşdırılması və investisiya cəlbediciliyi mexanizmi yaradılmalıdır.

Azərbaycanda iqtisadiyyatın tarazlaşdırılması, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, iqtisadiyyatın strukturunun genişləndirilməsi ilə bağlı proseslər son 10-15 il ərzində daha intensiv xarakter almışdır. Bunun əsas səbəblərindən biri ölkəyə neft ixracından daxil olan valyuta vəsaitləri hesabına infrastruktur şəbəkəsinin nəinki mərkəzi şəhərlərdə, həm də regionlarda formalaşdırılmasında böyük həcmli işlərin görülməsidir. Digər mühüm bir səbəb isə qeyri-neftqaz sektoru sahələrinin diversifikasiyalaşdırılması proseslərinin sürətləndirilməsi ilə bağlıdır. Dövlətin iqtisadi siyasətində ölkə regionlarının sosial-iqtisadi inkişafının strateji səviyyədə baxılmasını da buraya əlavə etsək, Azərbaycanda milli iqtisadiyyatın dayanıqlılığının artırılması, əlavə dəyər yaradan sahələrin inkişafına yönəldilən investisiyalardan səmərəli istifadə edilməsi, istehsal fondlarının yenilənməsi və iqtisadiyyatın dinamik inkişafının təmin olunması qanunauyğun iqtisadi proses kimi qiymətləndirilə bilər[3].

Bu sırada mühüm yanaşmalardan biri dövlətin investisiya siyasəti və onun səmərəliliyi ilə bilavasitə bağlıdır və biz bu barədə əvvəlki paraqrafda tədqiqat materiallarını verdik. Məhz dövlətin balanslaşdırılmış investisiya siyasətinin nəticəsində daxili investisiyaların formalaşdırılması və məqsədli şəkildə dövlət investisiya yatırımları kimi milli iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilməsi ilə bərabər, xarici investisiyaların cəlbi istiqamətində də davamlı işlər görülmüş, investisiya cəlbediciliyinin artırılması tədbirləri həyata keçirilmiş və investisiya mühitinin müasir texnologiyalar əsaslı infrastrukturu yaradılmışdır.

Cədvəl 1-də Azərbaycanda 2010-2020-ci illər üzrə iqtisadiyyata yönəldilən investisiyaların dinamikası təhlil olunmuşdur.

***Cədvəl 1.***

***Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyalar, 2010-2020-ci illər***

| | Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla): | | Xarici investisiyalar | | Daxili investisiyalar | |
|---|---|---|---|---|---|---|
| | mln. manat | mln. dollar | mln. manat | mln. dollar | mln. manat | mln. dollar |
| 2010 | 14118,9 | 17591,4 | 6619,7 | 8247,8 | 7499,2 | 9343,6 |
| 2011 | 17048,8 | 21588,9 | 6849,8 | 8673,9 | 10199,0 | 12915,0 |
| 2012 | 20251,0 | 25777,8 | 8102,7 | 10314,0 | 12148,3 | 15463,8 |
| 2013 | 21448,2 | 27340,0 | 8269,3 | 10540,9 | 13178,9 | 16799,1 |
| 2014 | 21890,6 | 27907,5 | 9175,6 | 11697,7 | 12715,0 | 16209,8 |
| 2015 | 20057,4 | 19547,2 | 10998,9 | 10719,1 | 9058,5 | 8828,1 |
| 2016 | 22706,4 | 14228,0 | 16216,1 | 10161,1 | 6490,3 | 4066,9 |
| 2017 | 24462,5 | 14213,3 | 15697,3 | 9120,5 | 8765,2 | 5092,8 |
| 2018 | 25877,0 | 15221,7 | 14002,1 | 8236,5 | 11874,9 | 6985,2 |
| 2019 | 24986,6 | 14698,0 | 12119,5 | 7129,1 | 12867,1 | 7568,9 |
| 2020 | 22484,0 | 13225,9 | 10413,2 | 6125,4 | 12070,8 | 7100,5 |

*AR DSK-nın məlumatları əsasında hazırlanmışdır [www.stat.gov.az]*

Cədvəl 1-ə baxsaq, görmək mümkündür ki, 2010-2020-ci illər ərzində bütün mənbələr üzrə investisiya qoyuluşlarının ümumi həcmində 60%-ə yaxın artım olmuşdur. Bununla belə, 2020-ci ildə 2019-cü ilə nisbətdə investisiyaların ümumi həcmi 11,1% azalmış və 2020-ci ilin yekununda 22,5 mlrd. manata yaxın olmuşdur. Bu dövr ərzində xarici investisiyaların həcmi daxili investisiyalarla nisbətdə daha çox azalmışdır. Buna görə də, hesab edirik ki, xarici investisiyaların cəlbi mexanizmi postpandemiya dövründə yeni çağırışlar səviyyəsində mütləq şəkildə təkmilləşdirilməlidir [6].

Cədvəl 2-dən yanaşsaq, təhlil olunan dövr ərzində dövlət büdcəsinin xərcləri 11,8 mlrd. manat və yaxud 2,32 dəfə artsa da iqtisadiyyata yönəldilən vəsait həmin dövr ərzində cəmisi 1521 mln. manat və yaxud 31,1 % yüksəlmişdir. Bu dövr ərzində dövlət büdcəsi xərclərində iqtisadiyyata

yönəldilən vəsaitlərin payı 41,6 %-dən 21,4 %-ə qədər düşmüşdür. Yaranmış situasiya xarici investisiyaların cəlbinin intensivləşdirilməsinin nə dərəcədə vacib olduğunu şərtləndirir[6].

**Cədvəl 2.**

**Azərbaycanda dövlət büdcəsi xərclərində iqtisadiyyata yönəldilən vəsaitlərin həcmi və payı, 2010-2020-ci illər, mln. manat**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020* | 2021* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xərclər-cəmi, mln. manat, ondan | 11765,9 | 15397,5 | 17416,5 | 19143,5 | 18709,0 | 17784,5 | 17751,3 | 17594,5 | 22731,6 | 24425,9 | 26416,3 | 27412,4 |
| İqtisadiy-yata mln. manat | 4889,9 | 6803,2 | 6960,7 | 8207,5 | 7598,7 | 6408,8 | 4124,0 | 4394,3 | 7822,7 | 7961,5 | 6407,8 | 6411,0 |
| Ümumi xərclərdə iqtisadiy-yata qoyu-luşların payı, % | 41,6 | 44,2 | 40,0 | 42,9 | 40,6 | 36,0 | 23,2 | 25,0 | 34,4 | 32,6 | 24,3 | 23,4 |

*Mənbə: https://www.stat.gov.az/source/finance/*
*Qeyd: * 2020 və 2021 illər üçün – İqtisadiyyata = iqtisadi fəaliyyət + kənd təsərrüfatı*

Cədvəl 3-də Azərbaycanda 2010-2020-ci illərdə emal sənayesi üzrə əsas kapitala yönəldilən daxili investisiyaların dinamikası əks olunmuşdur[6].

Cədvəl 3-ün təhlilindən yanaşsaq, emal sənayesi sahələrinə əsas kapitala yönəldilən daxili investisiyaların yetərincə olmadığını və bəzi sahələr üzrə uzun illər ərzində investisiyaların yatırılmadığını görərik. Biz artıq əvvəldə qida sənayesinə, kimya və neftkimya kompleksinə investisiyaların digər sahələrlə nisbətdə daha çox olduğunu bildirmişik. Amma, təəssüf ki, tikinti materialları istehsalına, geyim istehsalına, əczaçılıq məhsullarının, istehsalına yönəldilən investisiyalar xeyli aşağı səviyyədədir. Güclü potensiala malik metallurgiya sənayesi isə reabilitasiya olunmamış qalmaqdadır və bu sahədə modernizasiya, yeni texnologiyalar, əsaslı istehsal və emal sahələrinin yaradılması məsələləri son illərdə daimi olaraq gündəmdə olmasına baxmayaraq, heç bir investisiya əhəmiyyətli layihələr reallaşdırılmamışdır. Bütün bunlar sistemli və təsirli tədbirlərin görülməsini tələb edir.

Hesab edirik ki, bu istiqamətlərdə daha çox şəffaflığa, yönəldilən investisiyalardan maksimum səmərəli istifadə olunması proseslərinin tənzimləmə mexanizmlərinin və nəzarət formalarının təkmilləşdirilməsi vacibdir. Xüsusilə şəffaflıq məsələləri tam şəkildə yüksək səviyyədə qabardılmalı, investisiya axınlarının hərəkəti üzrə dürüst hesabat dərc olunmalı və keçirilən tenderlərin sağlam rəqabət mühiti şəraitində aparılması məsələləri diqqət mərkəzində saxlanılmalıdır. Son illərdə ölkənin mərkəzi strukturlarında, müxtəlif nazirliklərdə və yerli icra orqanlarında korrupsiya və rüşvət faktları üzrə həbslərin olması, cinayət əməllərinin aşkarlanması, mütəşəkkil korrupsiyanın aşkarlanması bu istiqamətlərdə daha dərindən islahatların aparılmasını, icra və nəzarət mexanizmlərinin təkmilləşdirilməsini tələb edir.

Qeyd edək ki, son illərdə ölkəmizdə bir sıra nəhəng investisiyatutumlu və ixracyönlü neftkimya müəssisələri istifadəyə verilmişdir. Sumqayıtda istismara verilən SOCAR Polimer və SOCAR Karbamid zavodlarının əsas məhsulları yerli tələbatla yanaşı, yüksək ixrac potensialına malikdir. Bu iki zavodun ümumi investisiya tutumu 1,5 mlrd. avrodan çox olmuşdur.

Bütün bunlara baxmayaraq ölkədə investisiya fəaliyyətinin və strukturunun təhlilindən yanaşdıqda daha çox işlərin görülməsinin vacibliyini qeyd etməklə bərabər, bu qənaətdəyik ki, dövlət investisiya resursları ilə yanaşı, daha intensiv şəkildə alternativ investisiya mənbələrinin formalaşdırılması və maliyyə investisiya əlçatanlığının təmin edilməsi tədbirləri görülməlidir.

**Cədvəl 3.**

**Azərbaycanda emal sənayesinə əsas kapitala yönəldilən ümumi investisiyalar (faktiki qiymətlərlə), milyon manat**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Emal sənayesi | 510,2 | 847,9 | 861,2 | 888,9 | 644,6 | 482,9 | 424,3 | 652,6 | 1431,9 | 2466,4 | 2610,5 |
| Qida məhsullarının istehsalı | 27,1 | 46,5 | 75,3 | 160,8 | 92,4 | 87,9 | 63,6 | 125,5 | 196,6 | 140,4 | 225,1 |
| İçki istehsalı | 12,1 | 41,5 | 12,2 | 16,8 | 14,6 | 23,7 | 4,1 | 26,9 | 39,3 | 21,3 | 39,4 |
| Tütün məmulatlarının istehsalı | 32,5 | - | 75,4 | 0,0 | 0,0 | - | 0,8 | 0,4 | 60,7 | 35,1 | 4,3 |
| Toxuculuq sənayesi | 9,8 | 0,2 | 5,7 | 10,4 | 38,8 | 10,2 | - | 5,9 | 42,9 | 88,3 | 15,4 |
| Geyim istehsalı | 13,6 | 14,0 | - | 0,0 | 9,0 | 10,4 | 10,5 | 15,3 | 23,7 | 20,0 | 26,5 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 1,1 | 1,6 | - | - | - | 8,8 | 0,0 | 0,1 | 1,9 | 0,7 | - |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 0,2 | 98,3 | 30,1 | 23,4 | 15,0 | 17,6 | 17,8 | 20,7 | 27,2 | 17,1 | 18,6 |
| Kağız və karton istehsalı | - | 18,5 | 4,4 | 3,5 | 21,1 | 4,1 | - | 5,7 | 7,8 | - | - |
| Poliqrafiya fəaliyyəti | 0,5 | - | - | - | - | 21,9 | 1,0 | 0,0 | 0,0 | 1,1 | 1,1 |
| Neft məhsullarının istehsalı | 25,4 | 48,4 | 32,5 | 25,6 | 33,1 | 16,3 | 88,4 | 83,9 | 322,6 | 208,7 | 463,9 |
| Kimya sənayesi | 1,3 | 1,5 | 1,5 | 3,5 | 2,1 | 6,8 | 18,5 | 87,4 | 230,6 | 172,3 | 1427,9 |
| Əczaçılıq məhsullarının istehsalı | - | - | - | - | - | - | - | - | - | - | 1,8 |
| Rezin və plastik kütlə məmulatları istehsalı | 0,0 | 27,8 | 35,3 | 50,3 | 16,4 | 22,2 | 17,1 | 30,7 | 36,9 | 1430,1 | 33,8 |
| Tikinti materiallarının istehsalı | 195,2 | 139,7 | 26,7 | 43,3 | 56,5 | 37,3 | 27,6 | 33,3 | 138,4 | 100,4 | 119,3 |
| Metallurgiya sənayesi | 21,5 | 100,0 | 54,4 | 51,0 | 2,3 | 5,2 | 1,3 | 0,9 | 4,3 | 16,1 | 1,8 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 149,0 | 294,3 | 259,1 | 366,2 | 170,8 | 98,5 | 95,6 | 99,3 | 83,1 | 44,6 | 55,2 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 1,1 | 0,0 | 0,0 | 2,7 | 0,0 | 0,1 | 0,5 | 0,3 | 0,6 | 0,3 | 0,7 |
| Elektrik avadanlıqlarının istehsalı | 17,9 | 0,0 | 17,3 | 9,7 | 18,5 | 31,1 | 18,2 | 36,5 | 45,9 | 44,4 | 16,9 |
| Maşın və avadanlıqların istehsalı | 0,2 | 0,1 | - | 1,7 | 0,1 | 19,5 | 10,0 | 0,2 | 0,3 | 8,1 | 0,9 |
| Avtomobil və qoşquların istehsalı | 1,1 | - | - | - | - | - | - | - | 23,9 | 34,5 | - |
| Sair nəqliyyat vasitələrinin istehsalı | - | - | 173,7 | 68,2 | 113,4 | 5,9 | 1,3 | 4,3 | 0,5 | 0,1 | 0,7 |
| Mebellərin istehsalı | - | 14,7 | 23,3 | 27,5 | 20,8 | 31,6 | 26,3 | 51,6 | 71,4 | 54,5 | 54,3 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 0,5 | 0,8 | 34,3 | 24,3 | 19,7 | 23,8 | 21,7 | 23,7 | 73,3 | 28,0 | 14,9 |

*Mənbə: https://www.stat.gov.az/source/industry/*

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il: [Elektron resurs] / URL: https://president.az/articles/49859.
2. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. https://azranking.az/az/ratings/dinamika-72.
3. Azərbaycan Respublikasının investisiya mühiti haqqında: [Elektron resurs] /

URL:https://www.economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya -muhiti-haqqinda/21336#.
4. “Əsrin müqaviləsi” üzrə ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - 12 noyabr 1997-ci il. https://lib.aliyevheritage.org/az/7729251.html.
5. Azərbaycanın sənayesi. Statistik məcmuə. /– Bakı, 2021. – 243 s.
6. Azərbaycanın statistik göstəriciləri 2021. /– Bakı, 2021. – 752 s.
7. Azərbaycanın xarici ticarəti. /– Bakı, 2021. – 212 s.

***Эльнура Буньят кызы Мамедова***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры “Финансы и банковское дело”,***
***доцент, доктор экономических наук***
***E-mail:mammadova-e@list.ru***
***ORCİD-İD 0000-0003-2721-5733***

## Привлечение международных инвестиций в экономику республики как результат политики Гейдара Алиева

***Резюме***

В повышении эффективности международных экономических отношений, в устойчивом развитии экономики, в реализации крупных проектов, в освоении месторождений энергоресурсов, спрос на которые постоянно растет, в их вовлечении в хозяйственный цикл, в реализации реформы по совершенствованию и диверсификации структуры национальных экономик требуются инвестиции. Именно в этом направлении наличие более оптимальных и функциональных механизмов считается одним из основных условий подготовки и реализации крупных инвестиционных проектов.

***Ключевые слова: инвестиционная политика, инвестиционная деятельность, доступностьинвестиций, источники инвестиций, общие инвестиции.***

***Elnura Bunyat Mammadova***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department “Finance and banking”,***
***Associate Professor, doctor of economics sciences***
***E-mail:mammadova-e@list.ru***
***ORCİD-İD 0000-0003-2721-5733***

## As a result of Heydar Aliyev's policy, attracting international investments to the republic's economy

***Summary***

In improving the efficiency of international economic relations, in the sustainable development of the economy, in the implementation of large projects, in the development of energy deposits, the demand for which is constantly growing, in their involvement in the economic cycle, in the implementation of reforms to improve and diversify the structure of national economies, investments are required. It is in this direction that the availability of more optimal and functional mechanisms is considered one of the main conditions for the preparation and implementation of large investment projects.

***Key words: investment policy, investment activity, availability of investments, sources of investments, general investments.***

УДК 338.48

*Анар Али оглы АЗИЗОВ*
*доктор экономических наук, заведующий*
*кафедрой Азербайджанского*
*Университета Кооперации*
*ORCİD – İD 0000000330904388*
*anar.azizov71@mail.ru*

# ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ ИННОВАЦИОННОГО РАЗВИТИЯ В СФЕРЕ ТУРИЗМА АЗЕРБАЙДЖАНА

***Резюме***

В статье разработаны рекомендации по эффективному инновационному развитию приоритетных направлений в туризме.

Определены приоритетные направления, в туризме исходя из национальных особенностей Азербайджана. Дан анализ динамики изменения Глобального индекса инноваций Азербайджана и места страны в рейтинге. Сформированы предложения по повышению инновационной активности; обоснована целесообразность создания туристических кластеров в районах страны, которые будут способствовать развитию инновационной среды регионов.

В статье использованы сравнительный и системный анализ обобщение, общенаучные методы, динамическое сопоставление, гарантирующие надежность результатов исследования.

***Ключевые слова: инновационное развитие, глобальный индекс инноваций, приоритетные направления, предпринимательство в туризме, кластеры.***

***

В самые сложные периоды для народа Азербайджана Общенациональный Лидер Гейдар Алиев претворял в жизнь взвешенные политические решения, которые привели к стабильному социально-экономическому развитию страны.

Туризм в Азербайджане стал активно развиваться после принятия 4 июня 1999 года закона “О туризме” Президентом Республики Гейдаром Алиевым. Этот закон стал значимым законодательным актом, обеспечивающим правовые обоснования и выработывающий целый ряд направлений в развитии туристического комплекса в Азербайджане.

Достойным последователем гениального государственного деятеля Гейдара Алиева стал Ильхам Алиев за годы правления, которого возросла значительность и перспективы развития сферы туризма.

Стремительное инновационное развитие, глобальные изменения финансово-экономического, политико-правового, социокультурного и экологического характера, а также общественные вызовы и ожидания, например, в связи с пандемией COVID-19, вновь актуализируют тематику инновационного развития туризма.

На сегодня глобальной целью инновационного развития туризма является продвижение социально ответственного, устойчивого и общедоступного туризма в интересах инклюзивного роста. В связи с этим появляются все новые и новые направления в туризме, а именно: рекреационный, оздоровительный, гастрономический, агротуризм, этнический, исторический, экологический, культурный, религиозный, приключенческий, образовательный, спортивный туризм, и др. При этом важны и такие вспомогательные направления предпринимательства в туризме, как транспортные и трансфертные услуги, отельный и ресторанный бизнес, а также другие разнообразные услуги сервисного и развлекательного характера.

В свою очередь, в Азербайджане, исходя из его национальных особенностей (природные богатства и красивые заповедные зоны, оздоровительная морская и горная местность, лечебные санатории Нафталана, многовековые исторические и культурные памятники, известные города, интересные экскурсионные маршруты, яркие народные традиции и фес-

тивали, в т.ч. гастрономические и фестиваль шопинга) к приоритетным направлениям в туризме следует отнести: гастрономический, оздоровительный, исторический, культурный, экологический, горный, охотничий и шопинг туризм.

На сегодня среди ключевых инновационных цифровых тенденций в индустрии туризма выделяют роботизацию, технологии кибербезопасности, обработки больших данных, смарт-управление, использование голосового управления и поиска, виртуальную и дополненную реальность, технологии распознавания, бесконтактные платежи, Интернет вещей, искусственный интеллект, в том числе чат-боты с искусственным интеллектом и др. [2, с.201].

Следует отметить, что по Глобальному индексу инноваций в 2020 году лидерами стали такие страны, как Швейцария (1 место), Швеция (2 место), США (3 место), Великобритания (4 место), Нидерланды (5 место), Дания (6 место), Финляндия (7 место), Сингапур (8 место), Германия (9 место) и Республика Корея (10 место) [8]. Анализ динамики изменения Глобального индекса инноваций Азербайджана и места страны в рейтинге за 2011-2020 гг. представлен на Рисунке 1.




**Рисунок 1. Динамика изменения Глобального индекса инноваций Азербайджана и места страны в рейтинге за 2011-2020 гг.**

*Источник: построено автором на основе данных WIPO, Global Innovation Index, 2011-2020.*

Азербайджан занимает 82 место из 131 страны. Динамика последние 5 лет характеризуется незначительными изменениями рейтинга на 2 позиции в разных направлениях. Такой неудовлетворительный результат свидетельствует о возрастающей роли государства в повышении инновационной активности туристического предпринимательства. Основными направлениями государственной поддержки туристического предпринимательства должны быть не только бюджетное финансирование сферы туризма, но и налоговое (налоговые льготы, налоговые каникулы) и монетарное (доступные и/или льготные потребительские и ипотечные кредиты) стимулирование инноваций в туризм, способствующее привлечению бизнеса, инвесторов и стартапов в эту сферу.

Во всем мире инновации в современной экономике составляют основу конкурентоспособности фирм, отраслей и стран. Именно они способны выигрывать состязания за рынки сбыта и закупок путем освоения новых, более привлекательных для потребителей продукции, либо более экономичных новых технологий по выпуску прежних продуктов и услуг [3, с. 833].

На разработку, создание и внедрения инноваций в туризме в значительной степени воздействуют:

- экономическое положение в стране;
- социальное состояние населения;

- отечественное законодательство;
- межправительственные и международные соглашения.

С начала XX века начался процесс распада предприятий старого типа и постепенно происходило становление туроператорской и турагентской деятельности. Стали развиваться чартерные перевозки. В этом же период внедрялись автоматизированные системы производства и реализации турпродукта.

В первые годы 2000-х сформировалась система “Мастер тур”, а также использовалась система он-лайн бронирования. Увеличение в эти годы туристских организаций обострили конкуренцию, что привело к необходимости усиления внимания по продвижению туристских услуг.

Одним из примеров целенаправленной инновационной деятельности может служить компания SilkWayTravel, которая первая в Азербайджане запустила свою систему онлайн бронирования и приобретения мест в отелях, как у нас в стране, так и по всему миру. Используя онлайн-системы, SilkWayTravel работает как туроператор, формируя пакеты туристских маршрутов по Азербайджану. Привлекаются и туристские продукты других компаний, которые тем самым получают выход на мировой рынок. Клиенты компании могут по Интернету выбрать заинтересовавший их маршрут, заказать гостиницу, авиарейс, арендовать машину и т.д. [2, с,91].

Начиная с 2010 года стали эффективно использоваться сервисные инновации, CRM-системы, онлайн бронирование для частных клиентов, электронные платежи. С 2013 года применяется выдача иностранным туристам электронной туристской визы, внедрение которой повысило интерес туристских компаний к въездному туризму [1, с,8].

В июне 2016 года на базе службы ASAN Xidmet была создана новая структура ASAN Viza, функцией которой является оперативная выдача электронных виз. За короткое время эта служба показала большую эффективность, реализуя ряд важных новшеств.

Для более активного привлечения туристов в страну 21 июня 2017 года был подписан Указ Президента Азербайджана “О либерализации визового режима”. Согласно статистическим данным, за 6 месяцев с момента запуска интернет-портала ASAN Viza, гражданам иностранных государств были выданы более 100 тысяч электронных виз, что в четыре раза больше показателя за тот же период предыдущего года.

Еще одно новшество это коридор на пребывание в нашу страну граждан иностранных государств, увеличен с 30 до 90 дней. При этом в трехмесячный период иностранец может находиться в Азербайджане не более 30 дней (период действия однократной визы). “Данное нововведение соответствует международно-принятым нормам, которые учитываются при принятии решений ASAN Viza”. В целом, ASAN Viza оперативно реагирует на требования туристического рынка, что позволяет быть уверенным в росте государственных доходов от развития данной сферы экономики.

В предпринимательской деятельности туризма инновационный цикл дает старт с зарождения идеи о новом направлении туризма, новом турпродукте, внедрении новых информационных технологий. Далее определяется направленность нового турпродукта на нужного потребителя. По окончанию формирования идеи будущего турпродукта исследуются возможности этой идеи, проводится тщательный поиск и отбор поставщиков и партнеров, планирование всех услуг, осуществляется экономическая и ценовая проработка. Затем проводится апробация нового турпродукта (экспериментальная проверка). После всех этих действий период создания новации завершается.

Еще одним важным этапом инновационного цикла является проведение мероприятий по продвижению нового турпродукта для внедрения на рынок.

Инновационный цикл завершается, в случае если другие субъекты рынка станут использовать эту инновацию.

В новых условиях реальности динамичность внедрения инноваций в туризме повышается, усиливая “инновационность” конкуренции. В этой связи, развитие инновационной дея-тельности становится обязательным атрибутом функционирования туристских предприятий.

В мировой практике существует богатый опыт стимулирования инновационной активности и развития инновационной среды региона. Сюда можно отнести формирование в регионе развитой инновационной инфраструктуры. Также во многих странах при реализации инновационной политики в регионах успешно применяется кластерный подход [6, с.225].

Применение кластерного подхода в туризме может привести к росту инновационного потенциала, но только при условии, если на уровне страны будут разработаны механизмы, которые позволят использовать гибкое финансирование работы. По развитию кластеров. Использование этих механизмов создаст возможность гибкого применения финансовой поддержки государства для реализации новых кластерных проектов.

Поскольку каждый регион имеет собственный профиль специализации, в кластерной стратегии основной акцент, как правило, делается на конкуренцию, построенную на дифференциации и специализации [7, с. 235].

Еще одним инновационным трендом является франчайзинговые проекты туроператоров. Отметим, что термин франчайзинг в переводе с французского языка означает “льгота”. Договоры франчайзинга и организация бизнеса путем формирования франчайзинговых сетей применяются в сфере предпринимательской деятельности и заключаются с целью создания новых хозяйственных комплексов, расширения сети сбыта товаров и услуг (магазины, рестораны, гостиницы и др.) [5, с.121]. Преимуществами вступления во франчайзинговую сеть является возможность использования бонусов у туроператора, а также получения дополнительных скидок и опций у туроператоров - “Партнеров”. При этом следует признать, что все это, кроме достижения своих целей, еще и свидетельствует о инициативе лидеров этого процесса консолидировать рынок и устранить его от отрицательных тенденций.

Важным инновационным трендом следует также, назвать подключение в систему бронирования принципов “динамического пакетирования”. Под динамическим пакетированием его разработчики понимают “... процесс формирования туристского продукта из множества источников по запросу в реальном времени” [4, с.10]. Поэтому, можно предположить, что “динамическое пакетирование” противопоставляется “стандартным турам”, которые предоставляются другими туроператорами.

Для эффективного инновационного развития туризма целесообразно использовать следующие рекомендации:

- для вхождения Азербайджана в мировое инновационное пространство и создания конкурентоспособного национального туристского продукта, необходимо проводить глубокий анализ уровня развития различных видов инноваций, а также определять инновационный потенциал сферы туризма страны;
- при разработке методики инновационного развития следует дать оценку всем которые
- относятся к сфере туруслуг, при этом необходимо учитывать условия конкретной туристской дестинации, а также проводить анализ состояния туристских ресурсов;
- менеджменту предпринимательских структур туризма в условиях инновационной конкуренции, которая делает невозможным точное прогнозирование рыночной конъюнктуры, следует пристальное внимание уделять целой системе конкретных параметров;
- предпринимателям туризма необходимо своевременно и оперативно реагировать на
- новые изменения в связанных с туризмом сферах деятельности, уметь создавать новейшие методы работы для получения положительных результатов их работы;
- индустрия туризма должна применять все современные компьютерные технологии, от специализированных программных продуктов управления туристским предприятием и до использования глобальных компьютерных сетей;

Таким образом, реализация вышеперечисленных рекомендаций позволит оперативно внедрять инновации в сфере туризма, будет содействовать росту уровня конкурентоспособности туристских организаций и их вхождению в международную туристскую среду.

## СПИСОК ЛИТЕРАТУРЫ:

1. Азизов А.А. Инновационное развитие и интеллектуальное обеспечение предпринимательства в туризме / "Проблемы туризмоведения". Сборник материалов IV Международной научно-практической конференции по туризмоведению. Ростов-на-Дору 2015, с. 4-12.
2. Азизов А.А. Пути эффективного развития предпринимательства в сфере туризма Азербайджана. Монография. Баку: Изд-во, "Кооперация", 2018-320с.
3. Велиева С. Проблемы повышения эффективности инновационной деятельности // Материалы республиканской научно-практической конференции. - Баку: -2010.-е. 833-837.
4. Меньшикова, Н. Добавь динамики. Интервью с ИТ-директором "ИННА- ТУР" // Hotline. Горячая линия. Туризм, - 2014, апрель, № 4(159), - 10 с.
5. Новиков, В.С. Инновации в туризме / В.С.Новиков, - Москва: Академия, 2007. - 208 с.
6. Пономаренко, Л.В. Обеспечение финансирования инновационных процессов в кластере региона. Глобальный мир: многополярность, антикризисные императивы, институты // Материалы V Международной научно-практической конференции. - Ростов-на-Дону: Изд-во Южно Федерального университета, -2014.-е. 225-229.
7. Тарасова, Н.Е., Федирко, П.А. Кластерный подход в развитии розничных торговых сетей ростовской области. Глобальный мир: антикризисные императивы, модернизация, институты // Материалы международной научно-практической конференции. - Москва: -2012.-е. 233-238.
8. WIPO (2020). Global Innovation Index – 2020. Who Will Finance Innovation. 13th edition. Geneva, Switzerland. Retrieved from https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2020.pdf

***Anar Əli oğlu Əzizov***
***iqtisad elmləri doktoru, Azərbaycan Kooperasiya Universiteti,***
***ORCİD –İD 0000000330904388***
***E-mail: anar.azizov71@mail.ru***

### Azərbaycanda turizm sahəsində innovativ inkişafin prioritet istiqamətləri

***Xülasə***

Məqalədə turizmdə prioritet sahələrin səmərəli innovativ inkişafı üçün tövsiyələr hazırlanıb.

Azərbaycanın milli xüsusiyyətlərinə əsaslanaraq turizmdə prioritet istiqamətlər müəyyən edilib. Azərbaycanın Qlobal İnnovasiya İndeksində dəyişikliklərin dinamikası və ölkənin reytinqdə tutduğu yerinin təhlili verilib. İnnovasiya fəallığının artırılması üzrə təkliflər formalaşdırılıb, ölkənin regionlarında innovativ mühitin inkişafına töhfə verəcək turizm klasterlərinin yaradılmasının məqsədəuyğunluğu əsaslandırılıb.

Məqalədə tədqiqat nəticələrinin etibarlılığına zəmanət verən müqayisəli və sistemli təhlil, ümumiləşdirmə, ümumi elmi metodlardan dinamik müqayisədən istifadə edilmişdir.

***Açar sözlər: innovativ inkişaf, qlobal innovasiya indeksi, prioritet sahələr, turizmdə sahibkarlıq, klasterlər.***

***Anar Ali oglu Azizov***
***Doctor of Economic Sciences, Azerbaijan Cooperation University,***
***ORCİD –İD 0000000330904388***
***E-mail: anar.azizov71@mail.ru***

### Priority directions of innovative development in the field of tourism in Azerbaijan

***Summary***

The article develops recommendations for the effective innovative development of priority areas in tourism.

Priority directions have been determined in tourism based on the national characteristics of Azerbaijan. An analysis of the dynamics of changes in the Global Innovation Index of Azerbaijan and the country's place in the ranking is given. Formed proposals to increase innovation activity; the expediency of creating tourist clusters in the regions of the country, which will contribute to the development of the innovative environment of the regions, is substantiated.
The article uses comparative and system analysis, generalization, general scientific methods, dynamic comparison, which guarantee the reliability of the research results.
***Key words: innovative development, global innovation index, priority areas, entrepreneurship in tourism, clusters.***

**UOT 005:338.439**

***Vilayət İbrahim İSMAYILOV***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***i.e.d., kafedranın professoru və müdiri***
***ORCİD-İD 0000-0003-0892-0365 ismaylov1953@mail.ru***

# AQRAR BÖLMƏDƏ MƏHSUL İSTEHSALININ ARTIRILMASININ PROQNOZLAŞDIRILMASI

***Xülasə***
Məqalədə kənd təsərrüfatı müəssisələrində istehsal olunan məhsulun həcminin əkin sahəsi, yağıntının orta illik miqdarı, müəssisədə satışın rentabelliyi və əkinlərə mineral gübrə verilməsindən asılılığı modeli verilmişdir.
***Açar sözlər: aqrar sfera, məhsul, istehsal, həcm, proqnoz.***

***

Aqrar Sənaye Kompleksinin (ASK) inkişafının əsas problemlərindən biri, məhsul istehsalının səmərəliliyinin artımına mane olan kənd təsərrüfatı istehsalçılarının modernləşdirilməsi üçün kifayət qədər gəlir səviyyəsi, habelə kənd təsərrüfatı və qida sənayesi üçün maşınqayırmanın durğunluğu səbəbindən bu sferanın dünyanın inkişaf etmiş ölkələrindən texniki və texnoloji cəhətdən geridə qalmasıdır [3, s. 20-30].

ASK sistemində bazar münasibətlərinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə müvafiq Dövlət Proqramlarının işlənilməsi və həyata keçirilməsində məhsulun istehsal həcminin artırılmasının proqnozlaşdırılması vacib şərtlərdən biridir. Belə ki, bu sferada məhsulun istehsal həcminin artırılmasının proqnozlaşdırılması ilkin informasiya mənbələrindən alınan məlumatlara əsaslanır.

Kənd təsərrüfatında məhsul istehsaının həcmindən asılı olaraq onun realizasiya həcmi və əhalinin bu növ məhsullara olan tələbatının ödənilmə dərəcəsi müəyyən edilir. Eyni zamanda, müəssisədə məhsul istehsalının həcmindən onun istehsal xərcləri və maya dəyərinin səviyyəsi, gəlirin həcmi, müəssisənin maliyyə vəziyyəti və s. iqtisadi göstəricilər bilavasitə asılıdır.

Kənd təsərrüfatı müəssisələrində məhsulun istehsal həcmi onun təsərrüfat fəaliyyətinin genişləndirilməsinə, istehsalın səmərəliliyinin yüksəldilməsinə və digər bir sıra əsas iqtisadi göstəricilərə təsir göstərir. Həmçinin, aqrar sferada məhsulun istehsal həcmi müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsində həlledici amil hesab edilir. Belə ki, kənd təsərrüfatı müəssisələrində məhsul istehsalının səmərəliliyi əməkdən və istehsal fondlarından istifadə, material xərcləri, müxtəlif növ enerji ehtiyatları və s. göstəricilərlə xarakterizə edilir.

Müəssisənin istehsal vasitələrindən istifadənin əsas elementlərindən biri-əsas istehsal fondlarının fondverimi göstəricisinin hesablanması ilə qiymətləndirilə bilər. Kənd təsərrüfatı müəssisələrinin əsas istehsal fondlarının illik fondverimi əmsalı il ərzində istehsal edilmiş məhsulların dəyərinin əsas istehsal fondlarının orta illik dəyərinə olan nisbəti ilə müəyyən edilir [5]. Odur ki, istehsal olunan məhsulların həcmi müəssisədə əmək məhsuldarlığının səviyyəsi ilə düz mütənasib

asılı olmaqla istehsalın səmərəliliyinin ümumiləşdirici göstəricisi kimi qəbul edilir. Bu baxımdan, müəssisədə istehsal amillərinin məhsuldarlığını əmək məhsuldarlığı, torpağın məhsuldarlığı, kapitalın məhsuldarlığı və sahibkarlığın məhsuldarlığı kimi qiymətləndirmək məqsədəuyğundur [2, s.198-207].

Məqalənin məqsədi aqrar sfera məhsullarının istehsal həcminin artırılmasının proqnoz modelinin verilməsi, vəzifəsi modeldən istifadə etməklə bütün növ məhsullar üçün tətbiqinin elmi cəhətdən əsaslandırılmasıdır. Məqalədə təhlil, sintez və iqtisadi-riyazi modellərdən istifadə edilmişdir. Elmi yenilik-istənilən növ kənd təsərrüfatı məhsulunun istehsal həcminin əvvəlcədən müəyyənləşdirilə bilməsindən ibarətdir. Nəzəri və praktiki əhəmiyyəti istehsal həcminə təsir edən amillərin düzgün seçiminin elmi əsaslandırılmasıdır.

Bəllidir ki, aqrar sferada məhsul istehsalının həcminə bir sıra amillər təsir edir. Bu amillər sırasına məhsuldar sortlardan istifadə, əkin sahəsi, orta illik yağıntının miqdarı, məhsul satışının rentabelliliyi, əkin sahələrinə tələb edilən miqdarda gübrələrin verilməsi, texnika və texnologiyadan səmərəli istifadə və s. daxildir. Bu amillərarası əlaqə zəif olduğundan kənd təsərrüfatının səmərəli innovativ fəaliyyətinin modelinə həmin amillərin əksəriyyəti daxil edilmişdir.

2007-2021-ci illəri əhatə edən 15 illik dövr üçün kartof istehsalı və ona təsir edən amillərin statistik məlumatları əsasında kənd təsərrüfatı məhsullarının istehsal həcminin proqnozlaşdırılması modelinə nəzər yetirək. Məlumatlardan göründüyü kimi, qeyd edilən amillərin qiymətləri hesabat dövrü ərzində dəyişərək bəzi illərdə artmış, bəzi illərdə isə azalmışdır [1, s.73, s.110, s.224, s. 441, s.593]. Amillər üzrə məlumatların dəyişkənliyi istehsal həcmi üzrə proqnozun verilməsini nisbətən mürəkkəbləşdirir. Odur ki, proqnozlaşdırmaya təsir edən göstəricilərin uzun dövr [N (i=1,2,…,N)] üzrə qiymətlərindən istifadə olunması məqsədəuyğundur.

Kənd təsərrüfatında məhsul istehsalı həcminin proqnozlaşdırılması (kartofun nümunəsində) məqsədilə istifadə edilən amillər elə seçilməlidir ki, onlar bilavasitə istehsal həcminin dəyişməsinə müəyyən dərəcədə təsir göstərmiş olsun. Bu məqsədlə də, hesablamaların aparılması üçün müəyyən edilmiş göstəricilər aşağıda qeyd edilir:

y – məhsulun istehsal həcmi, min ton;

$x_1, x_2, \ldots, x_m$ – məhsulun istehsal həcminə təsir göstərən amillər qrupu.

Məhsulun istehsal həcminin proqnozlaşdırılması üçün müəyyən edilmiş amillər (m=4) aşağıdakılardır:

$x_1$ – kartofun əkin sahəsi, ha;

$x_2$ – yağıntıların orta illik miqdarı, mm/il;

$x_3$ – kartof satışının rentabelliyi,%;

$x_4$ – əkinlərə mineral gübrənin verilməsi, kq/ha.

Çoxamilli xətti reqressiya modelini bir növ məhsul nümunəsində quraq.

y-in $x_1, x_2, \ldots, x_m$ -dən asılı xətti reqressiya modeli standart şəkildə aşağıdakı kimi göstərilir:

$$y_i = a_0 + a_1 x_{i1} + a_2 x_{i2} + \cdots + a_m x_{im} + u_1 (i = \overline{1, N}) \quad (1)$$

və yaxud $x_0 \cong 1$ köməkçi dəyişəni əlavə etməklə $x_{i0} = 1(i = \overline{1, N})$ olar və (1) tənliyini aşağıdakı kimi yazmaq olar:

$$y_i = a_0 x_{i0} + a_1 x_{i1} + a_2 x_{i2} + \cdots + a_m x_{im} + u_1 (i = \overline{1, N}) \quad (2)$$

Matris halında (2) sistemini aşağıdakı kimi yazmaq olar:

$$Y = XA + U \quad [4, s.116], \quad (3)$$

burada

$$Y = \begin{bmatrix} y_1 \\ y_2 \\ . \\ . \\ . \\ Y_N \end{bmatrix}, X = \left[(x_{ij})_{1,0}^{N,m}\right], \quad A = \begin{bmatrix} a_0 \\ a_1 \\ . \\ . \\ . \\ a_m \end{bmatrix} \quad U = \begin{bmatrix} u_1 \\ u_2 \\ . \\ . \\ . \\ u_N \end{bmatrix}$$

Burada: $U_i$ -reqressiv qalıqlardır ki, onların da kvadratları cəmini $S = \sum_{i=1}^{N} U_i$ aşağıdakı formula ilə ifadə etmək olar:

$$S = U^T U = (Y - XA)^T (Y - XA) \quad (4)$$

burada: T – matrisin yerdəyişmə işarəsidir.

Ən kiçik kvadratlar metodunu (ƏKKM) tətbiq etməklə, $A$ əmsallarının $\hat{A}$ qiymətləri $S$-in $A$-dan asılı minimum kriteriyasına əsasən tapılır və normal tənliklər sistemi şəklində aşağıdakı kimi yazılır:

$$(X^T X)A = X^T Y \quad (5)$$

Buradan da ƏKKM-nin qiymətləri alınır:

$$\hat{A} = (X^T X)^{-1} X^T Y \quad (6)$$

burada: $(X^T X)^{-1} X^T Y$ matrisinin tərs matrisidir.

(2) reqressiya modelinin adekvat tədbiri kimi determinasiya əmsalından istifadə olunur və bu aşağıdakı formula ilə təyin olunur:

$$R^2 = \sum_{i=1}^{N} (\hat{Y}_i - Y)^2 / \sum_{i=1}^{N} (Y_i - \bar{Y})^2 \quad (7)$$

burada: $Y_i$ (I = 1,2,…,N) və Y - Y -in faktiki qiyməti və orta çıxış göstəricisidir (bizim baxdığımız halda Y = y);

$\bar{Y}_i$ (i=1,2,…,N) - Y -in qiymətinin i müşahidəsinə uyğun göstəricidir.

Determinasiya əmsalının kvadrat kökünün ($\sqrt{R^2}$) müsbət qiyməti korrelyasiya əmsalı adlanır. Determinasiya əmsalının ($R^2$) qiyməti nə qədər böyük olarsa, reqressiya tənliyinin adekvatlıq dərəcəsi də bir o qədər yüksək olar. Lakin, determinasiya əmsalı ($R^2$) göstəricisinin əsas nöqsanı ondadır ki, onun böyük qiyməti kiçik saylı müşahidələr nəticəsində əldə olunur. Bu nöqsanı aradan qaldırmaq üçün determinasiya əmsalının ($R^2$) əvəzində determinasiya əmsalının korrektirovka olunmuş qiymətindən istifadə olunur və bu aşağıdakı formula ilə hesablanır:

$$R^{*2} = 1 - \frac{N-1}{N-(m+1)}(1 - R^2) \quad (8)$$

$U_i$ təsadüfi kəmiyyətinin avtokorrelyasiya həddinin qiyməti (reqressiya qalığı), bir qayda olaraq Darbin-Uotson kriteriyası adlanan statistik kəmiyyətlərin köməyi ilə hesablanmışdır:

$$DW = \sum_{i=2}^{N} (U_i - U_{i=1})^2 / \sum_{i=1}^{N} U_1^2 \quad (9)$$

Bizim baxdığımız halda m=4, N=15 olduğu üçün (2) xətti reqressiya modeli aşağıdakı kimi verilir:

$$y_i = a_0 + a_1 x_{i1} + a_2 x_{i2} + a_3 x_{i3} + a_4 x_{i4}, (i = 1,15). \quad (10)$$

ƏKKM-nin ($a_0$, $a_1$,..., $a_5$) əmsallarının qiymətlərini hesablamaq üçün işdə ППП Exel proqramından istifadə edilmişdir. Hesabat nəticəsində qeyd edilən əmsalların, Darbin–Uotson kriteriyası və determinasiya əmsalının müvafiq qiymətləri hesablanmış və nəticələri qeyd olunmuşdur:

$a_0$ =193,7038; $a_1$ = 13,4822; $a_2$ = -0,3362; $a_3$ =0,5741; $a_4$ =1,3918;
DW = 2,1924; $R^{*2}$ =0,23239.

Exel proqramından istifadə etməklə aparılmış hesablama nəticəsində kənd təsərrüfatı məhsulunun (kartofun) istehsal həcminin proqnozlaşdırılması üçün (11) modeli verilmişdir:

$$y_i = 193{,}7038 + 13{,}4822x_{i1} - 0{,}3362\ x_{i2} + 0{,}5741\ x_{i3} + 1{,}3918x_{i4}\ . \qquad (11)$$

Kənd təsərrüfatı məhsullarının istehsal həcminin proqnozlaşdırılması üçün təklif edilən (11) modelinin adekvatlığı faktiki avtokorrelyasiya qalığının olub–olmaması əsasında müəyyənləşdirilir. Bu məqsədlə işdə həmin göstəricinin müəyyən edilməsi üçün Kernelin müvəqqəti sıralarından istifadə etməklə onun aşağı ($d_L$) və yuxarı ($d_u$) həddi qiymətinin 5%- li səviyyəsi təyin edilmiş və modelin faktiki avtokorrelyasiya qalığının olub-olmama şərti seçilmişdir.

Kernelin müvəqqəti sıralarından $d_L = 0{,}56$ və du $d_u = 2{,}21$ qiymətlərinin 5%-li səviyyəsini təyin etməklə, faktiki avtokorrelyasiya qalığının olmaması fərziyyəsi yoxlanılır. Əgər, $DW > d_L$ onda avtokorrelyasiyanın həqiqi qalığının olmaması rədd edilir, $DW > d_u$ olduqda isə bu fərziyyə qəbul olunur. $d_L \leq DW \leq d_u$ halında isə məsələ açıq qalır. Bizim baxdığımız halda $DW > d_u$ olduğu üçün 5%-li səviyyənin həqiqi qiymətində avtokorrelyasiyanın olmaması fərziyyəsi qəbul edilir.

Korrelyasiya əmsalının korrektirovka olunmuş $R^* = \sqrt{R^{*2}} = 0{,}48206$ qiyməti əldə olunan reqressiya modelinin yüksək dərəcədə adekvatlığını göstərir. Məqalədə (11) modelini tətbiq etməklə kənd təsərrüfatı məhsullarının istehsal həcminin proqnozlaşdırılması verilr. Bu zaman $x_1$, $x_2,\ldots, x_m$ – məhsulun istehsal həcminə təsir göstərən amillər qrupunun proqnoz qiymətləri və faktiki qiymətləri nəzərə alınmaqla on beş illik məlumatlara əsaslanaraq kənd təsərrüfatı məhsulunun istehsal həcminin proqnozlaşdırılan qiyməti ($y_i = 931{,}5202$ min ton) hesablanılmışdır.

Kənd təsərrüfatı məhsulunun istehsal həcminin proqnozlaşdırılması bizim baxdığımız halda kartof bitkisi üşün nəzərdə tutulmuşdur. Lakin qeyd etmək lazımdır ki, bu model istənilən növ məhsul üçün özünü doğruldur. Model qurulduqdan sonra istehsal həcminin proqnozlaşdırılan qiyməti ilə statistik istehsal həcminin qiymətləri müqayisə edilmiş və belə bir nəticəyə gəlinmişdir ki, işdə verilən modelin göstəriciləri həqiqi göstəricilərlə müqayisədə özünü doğruldur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın Kənd Təsərrüfatı. Statistik məcmuə. Bakı, -2022, -774 s.
2. İsmayılov V. Kənd təsərrüfatı məhsullarının istehsalının iqtisadi tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi. Monoqrafiya. Bakı: İndiqo, -2020, -291 s.
3. Бураева Е.В. Анализ факторов роста производства сельскохозяйственной продукции в контексте инновационного развития вида экономической деятельности. Журнал Экономический анализ: теория и практика. 2013, -14(317), с.20-30
4. Влоконский В.А. и др. Сборник «Экономико- математические методы». Москва: АН СССР, 1963, 276 с.
5. https://www.un.org/ru/issues/food/taskforce/framework_b12.shtml



***Вилаят Ибрагим Исмайлов***
***Азербайджанская Академия Труда и Социальных Отношений,***
***д.э.н., профессор и заведующий кафедрой***
***ORCID-ID 0000-0003-0892-0365***
***ismaylov1953@mail.ru***


## Прогнозирование прироста производства в сельскохозяйственном секторе


***Резюме***

В статье приведена модель зависимости объема продукции, производимой на сельскохозяйственных предприятиях, от посевных площадей, среднегодового количества осадков, рентабельности продаж на предприятии и внесения минеральных удобрений на посевы.



***Ключевые слова: аграрная сфера, урожай, производство, объем, прогноз.***

*Vilayat Ibrahim Ismailov*
*Azerbaijan Academy of Labor and Social Relations,*
*Doctor of Economics, Professor and Head of the Department*
*ORCID-ID 0000-0003-0892-0365*
*ismaylov1953@mail.ru*

**Forecasting production increase in the agricultural sector**

***Summary***

The article presents a model of the dependence of the volume of products produced at agricultural enterprises on the acreage, the average annual rainfall, the profitability of sales at the enterprise and the application of mineral fertilizers on crops.

***Key words: agricultural sector, harvest, production, volume, forecast.***

**UOT 338; 338.1; 338.2; 338.24; 004.9**

***Ələvsət Qaraca oğlu ƏLİYEV***
***İqtisad elmləri doktoru***
***İnformasiya Texnologiyaları İnstitutu, şöbə müdiri***
***Orcid.org/0000-0002-1174-8036***
***E-mail: alovsat_qaraca@mail.ru;***

# AZƏRBAYCANIN HEYDƏR ƏLİYEV İQTİSADİ MODELİNİN SƏNAYE 4.0 PLATFORMASINDA İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

Məqalə Azərbaycan iqtisadiyyatının son əlli illik inkişaf mərhələlərinin təhlilinə, həmçinin dövlət siyasətinin əsasını təşkil edən Heydər Əliyev iqtisadi modelinin spesifik xüsusiyyətlərinə və onun Sənaye 4.0 platformasında inkişaf perspektivlərinə həsr olunmuşdur. 2023-cü ilin "Heydər Əliyev ili" elan olunmasının əhəmiyyətinin aktuallığı əsaslandırılmışdır. Heydər Əliyev iqtisadi modelinin özəllikləri, formalaşma mərhələləri şərh olunmuş, onun ölkə prezidenti tərəfindən inkişaf etdirilməsi prioritetləri verilmiş və respublikanın rəqəmsal innovativ texnoloji inkişaf mərhələsinə keçidinin perspektiv inkişaf istiqamətləri göstərilmişdir. Heydər Əliyev iqtisadi modelində ənənəvi sahələrin və yeni sektorların inkişaf etdirilməsi xüsusiyyətləri qeyd olunmuş, iqtisadi modeldə texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşmasında İKT-nin tətbiqi problemləri, perspektiv vəzifələri müəyyənləşdirilmişdir. Heydər Əliyev iqtisadi modelində İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorları təklif olunmuş, onun formalaşması xüsusiyyətləri və problemləri analiz olunmuşdur. Big Data, Bulud, Əşyaların İnterneti, Kosmik, süni intellekt və s. kimi müasir texnologiyaların yaratdığı iqtisadiyyatın xüsusiyyətləri tədqiq olunmuşdur. Məqalədə Azərbaycanın iqtisadi inkişafının dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsi ilə yüksəldilməsi üçün Sənaye 4.0 platforması elementlərinin texnoloji tələbləri, prioritetləri nəzərə alınmaqla müvafiq təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: rəqəmsal və intellektual iqtisadiyyat, Heydər Əliyev iqtisadi modeli, texnoloji innovasiya iqtisadiyyatı sektorları, Big Data texnologiyaları iqtisadiyyatı, Sənaye 4.0 platforması.***

***

Məlumdur ki, Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü il "Heydər Əliyev ili" (https://president.az/az/articles/view/57413) elan olunmuşdur. Məlum olduğu kimi, 2023-cü ildə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur. Belə bir şəraitdə onun çoxtərəfli fəaliyyətinin müxtəlif aspektlərdən tədqiqi və irsinin daha da dərindən öyrənilməsi ümumdövlət əhəmiyyətinə malikdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik epoxası bir neçə mərhələyə bölünməklə dərindən öy-

rənilə bilər. Əsas diqqət tələb edən sahə hər cür inkişafın ilk qarantı olan iqtisadi bazadır. Siyasi, hərbi, mədəni, ictimai, sosial müstəqilliyin taleyi də, əsasən ölkənin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Ona görə də Ümummilli lider Heydər Əliyev hakimiyyətinin həm birinci mərhələsində (1970-1980-cı illər), həm də ikinci mərhələsində (1990-2000-ci illər) iqtisadi inkişafa ciddi önəm vermiş, xüsusi qayğı göstərmiş, addım-addım "Azərbaycan iqtisadi modeli"ni işləmiş, tətbiq etmiş və inkişaf etdirmişdir. Yeni iqtisadi modeldə milli regional xüsusiyyətlər nəzərə alınaraq, onlar beynəlxalq inkişaf istiqamətlərinə uyğunlaşdırılaraq, dünya iqtisadiyyatı ilə inteqrasiyaya çalışılmışdır. Təqdim olunan məqalədə müasir dövrdə daha da aktuallaşan Heydər Əliyev iqtisadi modelinin bəzi xüsusiyyətləri və mərhələləri qısaca təhlil olunmuş, onun müasir elmi-texnoloji inkişaf istiqamətləri üzrə modernləşməsinə aid bəzi mülahizələr və tövsiyələr verilmişdir.

Azərbaycanın Heydər Əliyev iqtisadi modelinin xüsusiyyətləri və formalaşma mərhələləri haqqında qeyd olunmalıdır ki, Azərbaycanın Heydər Əliyev iqtisadi modelinin ən əsas, ən həssas, bəlkə də ən gizlin və perspektivə ümidlə hesablanan xüsusiyyəti, onun planlı sovet təsərrüfat sistemi içərisində ilkin baza elementlərinin yerləşdirilməsidir. Azərbaycanın siyasi rəhbərliyinə 1969-cu ildə təyin olunan Heydər Əliyev ölkə iqtisadiyyatının milli regional xüsusiyyətlərinə, ölkənin tarixi formalaşma və inkişaf mərhələlərinə yaxşı bələd idi. Ona görə də ölkə iqtisadiyyatının dirçəldilməsi kursuna rəhbərlik edən Heydər Əliyev sənaye sahələri ilə yanaşı olaraq, qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət ayırdı. Yüksək təhsilli kadr potensialının perspektivdə formalaşmasına, təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsinə, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqinə çalışdı. Ölkənin idarəetmə və texnoloji proseslərində hesablama texnikasının və avtomatlaşdırma vasitələrinin tətbiqi səviyyəsi yüksəldildi, bir çox elmi-texnoloji sahələrin formalaşmasına başlanıldı. Bu proses Heydər Əliyev SSRİ miqyasında rəhbər vəzifədə olarkən də davam etdirildi. Birinci mərhələ hesab oluna biləcək-1970-1980-ci iqtisadi quruculuq illərində ölkənin inkişafı milli-azadlıq hərəkatları dalğasında xeyli ləngisə də, ölkə 1990-cı illərin əvvəlində öz müstəqilliyinə nail oldu. Qısa müddətdə baş verən pərakəndəlik və anarxiyadan sonra 1993-cü ildə yenidən Müstəqil Azərbaycanın ali rəhbərliyinə seçilən Heydər Əliyev özünün sovet dönəmində formalaşdırdığı iqtisadi modeli inkişaf etdirdi. Xüsusi əlamətlərlə xarakterizə olunan torpaq islahatı, özəlləşdirmə proqramları, çoxlu sayda hüquqi-normativ əsasnamələr qəbul edildi. 10 il ərzində davam edən müddətdə H.Əliyev iqtisadi modelində bir çox korrektələr, yeniliklər etdi. Bu illər ərzində neft strategiyasının təntənəsi hesabına ölkə iqtisadiyyatını dirçəltmək əsas vəzifə oldu. Neftdən gələn gəlirlər hesabına ölkənin iqtisadi və siyasi gücü artırıldı, müstəqillik aktının əbədiyyət qazanmasına nail olundu.

2003-cü ilin sonlarında ölkə prezidenti seçilən İlham Əliyev, Heydər Əliyev iqtisadi modelini daha da inkişaf etdirmək kursunu qəbul etdi. İKT-nin Milli inkişaf Strategiyasına start verdi. O, neftdən gələn gəlirləri insan kapitalının inkişafına yönəltdi, qeyri-neft sektorlarını inkişaf etdirdi. Azərbaycan iqtisadiyyatını dünyaya tanıtdı. Neft-qaz strategiyası ilə yanaşı olaraq ölkənin digər sahələrinin strateji yol xəritələri hazırlandı, dövlət proqramları qəbul olundu. Təxminən 15-20 illik inkişaf mərhələsi olan Heydər Əliyev iqtisadi modelinin III mərhələsi post-neft dövrü kimi tarixə düşərək, ölkənin Ermənistanın ədalətsiz olaraq apardığı 30 illik müharibəsini də 2020-ci ildə qələbə ilə başa vuraraq, dördüncü mərhələyə – post-müharibə, post-konflikt dövrünə qədəm qoydu. 2020-ci ildən sonrakı post-müharibə mərhələsi ölkənin innovativ inkişaf kursuna qədəm qoyması ilə xarakterizə olunur. Artıq ölkənin sosial-iqtisadi inkişafının milli prioritetləri elan olunmuşdur. Ölkədə Heydər Əliyev iqtisadi modelinin dördüncü mərhələsinə-innovativ texnoloji inkişaf mərhələsinin icrasına başlanılmışdır.

Heydər Əliyev iqtisadi modelində ənənəvi sahələrin və yeni sektorların inkişaf etdirilməsinə ciddi diqqət yetirilmişdir. Azərbaycan iqtisadiyyatı həmişə müxtəlif dəyişikliklərin təsirlərinə məruz qalan bir mühitdə inkişaf etmişdir. İqtisadiyyatın səmərəlilik əsaslı modeldən innovasiya əsaslı modelə keçməsi modelinin inkişaf etdirilməsi üçün institusional mexanizmlər təkmilləşdirilmişdir (https://president.az/articles/21953). 2025-ci ildən sonra Azərbaycanın şaxələndirilmiş və dayanıqlı iqtisadiyyatında ümumi əlavə dəyərin dörddə üçündən çoxu qeyri-neft sektorlarında yaranacaqdır.

Ənənəvi iqtisadiyyat sektorlarının inkişafında innovativ yüksək texnologiyaların tətbiqi bölgə-

lərdə iqtisadi inkişafın yüksəlməsinə gətirib çıxaracaqdır. Burada yeni iqtisadi sektorlar inkişaf etdikcə, yeni iş yerləri formalaşdıqca əhalinin həyat tərzi də yüksələcəkdir. Nəticə etibarı ilə ölkədə adambaşına düşən ÜDM-in daha da artacağı gözlənilləndir. Bu da gələcəkdə həm respublika iqtisadiyyatının, həm də Qarabağ və onun ətraf rayonlarında ənənəvi iqtisadiyyat sahələri ilə paralel olaraq, qeyri-neft sektorlarının inkişafına gətirib çıxaracaqdır. Azərbaycanın iqtisadiyyatının dünya miqyasında yüksəlməsinə, qlobal bazarda rəqabətqabiliyyətli istehsalının artırılmasına əlavə imkanlar yaranacaqdır.

Azərbaycanda iqtisadiyyatın ənənəvi sektorlarının müasir tələblərə cavab verərək inkişafının modernləşdirilməsi ilə yanaşı, həm də yeni texnoloji innovasiya iqtisadiyyatı sektorları formalaşdırılır. Mobil sistem və texnologiyaları, kosmik, Big Data, bulud, əşyaların İnterneti, kiber- fiziki sistemlər, süni intellekt texnologiyaları və s. kimi texnoloji innovasiya iqtisadiyyatı sektorlarının inkişafı və onun formalaşmasında İKT-nin tətbiqi məsələləri hazırkı dövr üçün aktual məsələlərdən hesab olunur.

Heydər Əliyev iqtisadi modelində texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşmasında İKT-nin tətbiqi xüsusi əhəmiyyətə malikdir. İnformasiya texnologiyalarının inkişafı üzrə müvafiq dövlət proqramlarında ölkədə (https://president.az/articles/51299) iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun sürətli inkişafı, ölkənin İKT sənayesinin potensialının artırılması kimi əsas məsələlər qoyulmuşdur (https://president.az/articles/22382). Hazırkı dövrdə informasiya və biliklərə əsaslanan, rəqabətqabiliyyətli, davamlı, dayanıqlı informasiya, eləcə də elektron – rəqəmsal iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması, güclü İKT infrastrukturunun və vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya təhlükəsizliyinin təmini, ümumdünya elektron informasiya məkanına inteqrasiya, milli proqram vasitələrinin yaradılması, İKT məhsullarının istehsalı, ölkənin rəqəmsal geriliyinin aradan qaldırılması olduqca vacib məsələlərdəndir [1, s.97], [2, s.201-202]. Bunların məntiqi nəticəsi Azərbaycanda İKT sferasının inkişafıyla informasiya cəmiyyətinin və iqtisadiyyatının yaradılmasıdır. İKT-nin respublika iqtisadiyyatının bir hissəsi kimi formalaşması dünyanın əksər ölkələrində XX əsrin 60-70-ci illərinə təsadüf edir. İKT sahəsinin iqtisadi durumu kifayət qədər dayanıqlı və davamlı inkişaf yolundadır. Bütün bunlar isə İKT-nin inkişafıyla əlaqədar iqtisadiyyatın formalaşması proseslərinin həllini zəruri edir. İKT-nin iqtisadiyyatın zəruri bir sahəsi kimi formalaşması proseslərinin təhlili bir çox konseptual istiqamətlərdə həyata keçirilə bilər. Belə sahələrin hər biri üzrə vəziyyətdən asılı olaraq, bu və ya digər dərəcədə mümkün təhlil və proqnozların aparılması İKT sahəsinin iqtisadi durumunu qiymətləndirməyə imkan verə bilər. İKT sektorunun vəziyyəti üzrə olan məlumatların təhlili göstərir ki, İKT bazarı dünya üzrə ÜDM-in 6,5%-ni təşkil edir. Bəzi proqnozlara görə isə 2025-ci ildə onun dünya üzrə ÜDM-dəki payı 9%-ə çata bilər (https://www.ec.europa.eu/jrc/en/predict/ict-sector-analysis-2019). Son məlumatlara görə ABŞ-da İKT sektorunun ÜDM-dəki töhfəsi 6,4%, Yaponiyada isə 6,8% olmuşdur.

Azərbaycanda iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sahəsi kimi İKT sektorunun həcmi təqribən 20-25% orta illik artım tempi ilə hər üç ildə iki dəfə artaraq, 1,9 milyard ABŞ dollarını ötmüş, ÜDM-də payı 1,7%-ə, qeyri-neft ÜDM-də payı isə 3,3%-ə yüksəlmişdir [1, s.98-99]. Sektora investisiya qoyuluşu təqribən 2,5 milyard ABŞ dolları təşkil etmişdir. Onun 28%-i dövlət, 72%-i isə yerli və xarici investisiyadır. Özəl sektorun payı 80%-ə yüksəlmişdir.

Heydər Əliyev iqtisadi modelində İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşması xüsusiyyətləri və problemlərinin təhlili göstərir ki, IV Sənaye inqilabına keçid şəraitində İKT-nin təsiri ilə rəqəmsal, Veb, İnternet, İKT, şəbəkə, informasiya, kosmik, bulud, Big Data və s. kimi yeni texnoloji innovasiya iqtisadiyatı sektorları əmələ gəlmişdir. Bunlardan əlavə İKT iqtisadiyyatı, bioiqtisadiyyat, nanoiqtisadiyyat, dil iqtisadiyyatı, tibb iqtisadiyyatı, təhsil iqtisadiyyatı, elm iqtisadiyyatı, kreativ iqtisadiyyat, incəsənət-art iqtisadiyyatı, mədəniyyət iqtisadiyyatı, idman iqtisadiyyatı, alternativ energetika iqtisadiyyatı, patent iqtisadiyyatı və s. kimi innovativ iqtisadiyyat sektorları da formalaşmaqdadır [1, s.102].

İnnovasiyaya və biliklərə əsaslanan cəmiyyətin qurulması, texnoparkların, yüksək texnologiyalar parklarının yaradılması, elektron informasiya resurslarının inkişaf etdirilməsi, bank, maliyyə, ticarət, təhsil, sosial-iqtisadi və s. sahələrdə elektron xidmətlərin daha geniş tətbiqi formalaşmaqda

olan innovativ informasiya iqtisadiyyatının əsas inkişaf istiqamətləridir. İnnovasiya və biliklərə əsaslanan iqtisadiyyatın əsas inkişaf trayektoriyası, həm də bu sahənin texniki-texnoloji inkişaf xüsusiyyətləri ilə birbaşa bağlıdır. İnformasiya nəzəriyyələri, informasiyanın emalı, saxlanması, ötürülməsi, təhlükəsizliyi nəzəriyyələri, müasir qrid, bulud, duman, Big Data kimi kompyuter texnologiyaları, nano, kvantium, kosmik informatika texnologiyaları, İnternet resurslarının sürətli axtarış mexanizmləri, süni intellekt, robotlaşdırma, intellektual idarəetmə sistemləri, sosial şəbəkə texnologiyalarının tətbiqləri və s. kimi modern elmi-tədqiqat istiqamətləri və perspektiv nəzəriyyələr yeni iqtisadiyyatın texniki-istehsal, infrastruktur cəhətdən elmi-nəzəri əsaslarını və metodoloji formalaşma platformasını təşkil edir.

Big Data texnologiyaları iqtisadiyyatının xüsusiyyətləri haqqında qeyd etmək olar ki, Big Data texnologiyalarının yaradılması, Big Data məhsullarının istehsalı, tətbiqi və idarə edilməsi vasitəsilə yeni iqtisadi sektor yaradılmaqdadır. Hazırkı dövrdə Big Data iqtisadiyyatının formalaşdırılmasını həyata keçirmək, onun davamlı inkişafına nail olmaqla yeni milli iqtisadiyyatın tarazlı iqtisadi inkişaf modelini daha da təkmilləşdirmək tələb olunur. Big Data texnologiyaları vasitəsi ilə müxtəlif formatlı böyük həcmli verilənlərin emalı, analizi və onlardan faydalı biliklərin çıxarılması prosesləri həyata keçirilir. İnternet şəbəkəsi ən nəhəng verilənlər bazası, yəni Big Data-nın ən böyük obyekti, xammal bazasıdır [3, s.210], [4, s.368], [5, s.251].

Bulud texnologiyaları iqtisadiyyatının xüsusiyyətlərinin təhlili göstərir ki, son zamanlar "bulud hesablamaları" adlanan texnologiyanın hesabına proqram təminatına, verilənlər bazalarına, digər xidmətlərə çıxış imkanı əldə edilir. Bulud texnologiyalarının inkişafı və geniş istifadəsi makro və mikro səviyyələrdə bir sıra iqtisadi perspektivlər vəd edir. Buna görə də, bulud xidmətləri informasiya iqtisadiyyatının və onun aparıcı istiqaməti olan İnternet iqtisadiyyatının əsas, perspektiv seqmentlərindən biri sayılır [6, s.45-46].

Əşyaların İnterneti, kiberfiziki sistemlər və süni intellekt iqtisadiyyatının formalaşması göstərir ki, Əşyaların İnterneti (IoT) texnologiyası 5G-nin ayrılmaz hissəsinə çevrilmişdir. 2024-cü ildə müəssisələrdə IoT texnologiyası vasitəsilə qoşulmanın sayı 13,3 milyarda, 2025-ci ilədək isə 25 milyarda çatacaqdır. İstehlakçı IoT ilə qoşulma əlaqələri eyni dövrdə təxminən iki dəfə artaraq 11.4 milyarda çatacaqdır [6, s.34]. 2025-ci ilə qədər 13 milyard yeni IoT əlaqəsi olacaqdır. Qlobal IoT texnologiyası üzrə gəlir üç dəfədən çox artaraq 1,1 trilyon dollara çatacaqdır [6, s.24-26], [7, s.74], [8, s.8-9].

**3D və virtual reallıq texnologiyalarının iqtisadi xüsusiyyətləri.** 3D texnologiyaları sahəsində "gələcəyin dünyası" adlanan virtual reallıq yaranmışdır. Virtual reallıq – üçölçülü mühit meydana gətirərkən istifadəçinin interaktiv şəkildə virtual obyektlərlə qarşılıqlı təsirini yaratmaq üçün kompüterlərdən və insan-maşın interfeysindən istifadə etmək üçün yeni bir konsepsiyadır. Virtual reallıqda əsas məqam kompüter texnologiyalarından istifadə etməklə üç ölçü və interaktivlik sahəsində real obyekt effektini yaratmaqdır [9, s.25-26].

Kosmik iqtisadiyyat – kosmik resurslar və vasitələrlə yeni iqtisadi modelin yaradılması və mövcud iqtisadiyyatın inkişaf etdirilməsidir. Kosmik iqtisadiyyat, kosmik fəaliyyətin dünya iqtisadiyyatında rolunun durmadan artması, qloballaşma proseslərinin əhatə dairəsinin getdikcə genişlənməsi, elm və texnikanın sürətli inkişafı respublika iqtisadiyyatında kosmik texnologiyalardan daha geniş miqyasda istifadə edilməsini ön plana çəkir. Ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində kosmik tədqiqatların nəticələrinin, kosmik sənaye məhsullarının istifadə edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, kosmik sənaye sahələrinin inkişafı, eləcə də kosmik tədqiqatların aparılması üçün investisiya qoyuluşlarının artırılması kosmik fəaliyyət sahəsində dövlət proqramlarından irəli gələn vəzifələrdəndir.

Aparılan araşdırmalar göstərir ki, Heydər Əliyev iqtisadi modelinin elmi-nəzəri əsaslarının dərindən öyrənilməsi və onun inkişafında elmi-texnoloji innovasiya siyasətinin formalaşması və tətbiqi əsas məsələlərdən biridir. Perspektivdə onlar sosial rifah halının yaxşılaşdırılmasının ən yüksək həddə çatdırılmasını təmin edən yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli iqtisadiyyat qurmağı nəzərdə tutur. 2025-ci ilədək Azərbaycanda da müasir texnologiyalara əsaslanmaqla dünya bazarlarına və maliyyə vəsaitlərinə çıxış imkanlarını təmin edən rəqabət mühiti yaradılacaqdır. Ümumilikdə 2025-ci ildən sonrakı dövrdə

əmək bazarının tənzimlənməsi həyata keçirilərkən yüksək texnologiyaların, o cümlədən ağıllı maşınların və sistemlərin tətbiqi, həmçinin kommunikasiya imkanlarının genişlənməsi kimi amillərin təsiri nəzərə alınacaqdır. Azərbaycanın Heydər Əliyev iqtisadi modelində nəzərdə tutulan İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorları inkişaf etdikcə mobil idarəetmə, mobil bulud, mobil hökumət, mobil nəqliyyat vasitələri və s. kimi sahələrin də inkişafına yeni imkanlar yaranacaqdır. İKT əsaslı Heydər Əliyev iqtisadi modelində yeni texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşma istiqamətlərində IV Sənaye inqilabı komponetlərinin inkişafının innovasiya iqtisadiyyatına verəcəyi töhfələrin əhəmiyyətliliyi və hazırkı dövr üçün keçid tələblərinin nəzərə alınması zəruri məsələlərdən hesab olunmalıdır.

## ƏDƏBİYYAT


1. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşması və onların sosial iqtisadi proseslərə təsiri aspektləri. İnformasiya cəmiyyəti problemləri, 2021, №1, səh.94-110.
2. Niebel T. ICT and economic growth – Comparing developing, emerging and developed countries. World Development, 2018, pp.197-211.
3. Mellor R.B. Big Data modelling the knowledge economy. Int. J. Knowledge-Based Development, 2018, vol. 9, No.3, pp.206-220.
4. Померанцева П., Ященко С.Д. Технология больших данных как основа формирования цифровой экономики. Интеллектуальные ресурсы-региональному развитию, 2020, №2, с.365-371.
5. Магомедов Р.М. 5G технологии: прорыв в цифровой экономике. Самоуправление, 2020, Т.2, №1(118), с. 250-253.
6. GSM Association. The Mobile Economy 2020, 62 p.
7. Чернов А.В., Чернова В.А. Интернет вещей как глобальная инфраструктура для новой экономики. Современная наука: актуальные проблемы теории и практики, 2018, №12, с.73-76.
8. Əliyev Ə.Q., Şahverdiyeva R.O., Abdullayev S.H. Mobil texnologiyalar və sistemlər əsasında yeni rəqəmsal iqtisadi sektorların formalaşması məsələləri. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası jurnalı, 2022, №4, səh.4-19
9. Nilsson N.Ch., Serafin S., Steinicke F. Natural walking in virtual reality: A review. Computers in Entertainment, 2018, vol.16, no.2, pp.22–31.



***Аловсат Гараджа Алиев***
***доктор экономических наук Институт Информационных Технологий,***
***Заведующий отделом, Баку, Азербайджан***
***Orcid.org/0000-0002-1174-8036***
***E-mail: alovsat_qaraca@mail.ru;***


## Перспективы развития экономической модели Гейдара Алиева в Азербайджане на платформе Индустрия 4.0


***Резюме***

Статья посвящена анализу этапов развития экономики Азербайджана за последние пятьдесят лет, а также особенностям экономической модели Гейдара Алиева, лежащей в основе государственной политики, и перспективам ее развития на платформе Индустрии 4.0. Обоснована важность объявления 2023 года “Годом Гейдара Алиева”. Были разъяснены особенности экономической модели Гейдара Алиева, этапы ее формирования, приведены приоритеты ее развития со стороны президента страны, обозначены перспективные направления развития перехода республики на этап цифрового инновационно-технологического развития. В экономической модели Гейдара Алиева отмечены особенности развития традиционных отраслей и новых отраслей, в экономической модели определены проблемы при-

менения ИКТ в формировании технико-внедренческих отраслей экономики, определены перспективные задачи. В экономической модели Гейдара Алиева были предложены отрасли технико-внедренческой экономики, основанной на ИКТ, проанализированы особенности и проблемы ее формирования. Исследованы особенности экономики, созданные современными технологиями, такими как Большие данные, облако, интернет вещей, космос, искусственный интеллект и т. д.  В статье даны соответствующие предложения и рекомендации с учетом технологических требований и приоритетов элементов платформы Индустрии 4.0 для повышения устойчивости экономического развития Азербайджана за счет технологий цифровой трансформации.

***Ключевые слова: цифровая и интеллектуальная экономика, экономическая модель Гейдара Алиева, технологические инновационные отрасли экономики, экономика технологий больших данных, платформа Индустрия 4.0.***

***Alovsat Garaja Aliyev***
***Doctor of economic sciences Institute of Information Technology,***
***Head of the department, Baku, Azerbaijan***
***Orcid.org/0000-0002-1174-8036***
***E-mail: alovsat_qaraca@mail.ru;***

## Development prospects of the Heydar Aliyev economic model of Azerbaijan on the Industry 4.0 platform

***Summary***

The article is devoted to the analysis of the development stages of the economy of Azerbaijan over the last fifty years, as well as to the specific features of Heydar Aliyev's economic model, which is the basis of state policy, and its development prospects on the Industry 4.0 platform. The importance of declaring 2023 as the “Year of Heydar Aliyev” has been substantiated. The peculiarities of Heydar Aliyev's economic model, the stages of its formation were explained, the priorities of its development by the country's president were given, and the prospective development directions of the transition of the republic to the stage of digital innovative technological development were indicated. In the economic model of Heydar Aliyev, the features of the development of traditional fields and new sectors are noted, in the economic model, the problems of ICT application in the formation of technological innovation economy sectors, prospective tasks are defined. In Heydar Aliyev's economic model, sectors of the ICT-based technological innovation economy were proposed, and the characteristics and problems of its formation were analyzed. The features of the economy created by modern technologies such as Big Data, Cloud, Internet of Things, Space, Artificial Intelligence, etc. are analyzed. In the article, relevant proposals and recommendations are given, taking into account the technological requirements and priorities of the elements of the Industry 4.0 platform, to increase the sustainability of Azerbaijan's economic development through digital transformation technologies.

Key words: digital and intellectual economy, Heydar Aliyev economic model, technological innovation economy sectors, Big Data technologies economy, Industry 4.0 platform.

**UOT 336.338**

***Xanoğlan Əndəlif oğlu HÜSEYNOV***
***i.e.n., dosent, Azərbaycan Kooperasiya Universiteti***

## AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏQİL BANK SİSTEMİNİN YARADILMASI VƏ İNKİŞAFI HEYDƏR ƏLİYEV İQTİSADİ SİYASƏTİNİN DAVAMIDIR

***Xülasə***

Məqalədə Azərbaycan Respublikasının bank sisteminin formalaşması və onun inkişafı problemləri, Mərkəzi Bankın makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətindən bəhs

edilir. Məqalədə Azərbaycanın bank sektorunun xarici ölkələrlə müqayisədə geri qalması, respublikamızda bank sektorunun inkişafı qarşısında duran vəzifələr də qeyd olunur.

***Açar sözlər: Bank sistemi; bank xidmətləri; manatın sabitliyi; kredit; əmanət və depozitlər; debet və kredit kartları; bankomat; kredit faizi.***

***

"Hər bir müstəqil dövlət, dünya iqtisadiyyatı ilə sıx inteqrasiyada olan müstəqil dövlət, sərbəst iqtisadiyyat yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət dünya iqtisadiyyatına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir. Biz bunu etmişik və bu gün də inkişaf etdiririk" (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Mərəzi Bankın yeni inzibati binasının açılış mərasimində nitqi, 6 oktyabr 1998-ci il).

Müstəqil Azərbaycan Respublikası artıq 30 ildən çoxdur ki, özünün bank sisteminin formalaşdırılması və inkişafı sahəsində mühüm tədbirlər həyata keçirir. Bu müddət ərzində respublikamızda bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq ikipilləli bank sistemi yaradılmış, bank sisteminin hüquqi bazası daha da möhkəmləndirilmiş, dünya bank təcrübəsinə uyğun olaraq beynəlxalq standartlara cavab verən ipkişaf etmiş bank sisteminin yaradılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Yeni tipli bank sisteminin və milli valyutanın yaradılması bazar iqtisadiyyatı yolunu seçmiş hər bir ölkədə bütövlükdə planlı iqtisadiyyatın bazar iqtisadiyyatına transformasiyasını təmin etməyin zəruri şərtlərindən biridir. Lakin müstəqilliyin ilk illərində iqtisadiyyatın və sosial həyatın bütün sahələrində olduğu kimi bank quruculuğu sahəsində də ölkəmiz ciddi çətinliklərlə üzləşmişdi. Həmin dövrdə banklar gizli emissiya əsasında direktiv kreditlər verir, faktiki olaraq gizli emissiya mərkəzləri rolunu oynayır və inflyasiyanın daha da güclənməsinə şərait yaradırdılar. Bu dövrdə çox az (10-12 min ABŞ dolları həcmində) nizamnamə kapitalına malik olan xırda banklar fəaliyyət göstərirdi və onların sayı 230-a çatırdı. İqtisadiyyatın inkişafında elə bir rol oynamayan bu "ev" banklarının əksəriyyəti ölkədə inflyasiyanın sürətlənməsinə və manatın dəyərsizləşməsinə xidmət edirdi.

Ölkədə aparılan uğurlu iqtisadi islahatlar və Mərkəzi Bankın həyata keçirdiyi sərt pul-kredit siyasəti nəticəsində digər sahələrdə olduğu kimi bank sektorunda da qısa müddət ərzində dayanıqlı və davamlı inkişafa nail olunmuş, bank xidmətlərinin səviyyəsi yüksəlmiş, milli valyutanın sabitliyi təmin edilmiş, banklara olan inam və etibar artmışdır.

Mərkəzi Bank ölkədə makroiqtisadi sabitliyə təsir edən amilləri nəzarətdə saxlayaraq adekvat siyasət və tənzimləmə tədbirləri həyata keçirmiş, bank sisteminin sabitliyini və inkişafını təmin etmişdir. Bank aktivlərinin keyfiyyət göstəriciləri stabilləşərək məqbul həddə çatmış, bank sektoruna xarici investisiya cəlbi artmışdır. Bank sektorunun sabitliyinin artırılması məqsədilə bankların kapitallaşması əsas prioritetlərdən biri olmuşdur. Əhalinin bank xidmətlərinə çıxış imkanlarının artırılması məqsədilə bankların filial şəbəkəsi daha da genişləndirilmişdir.

Əmanətlərin sığortalanması, İpoteka və Sahibkarlığın inkişafı fondlarının yaradılması ölkədə banklara olan inam və etibarın yüksəlməsinə, banklara qoyulan əmanət və depozitlərin həcminin artmasına, əhalinin mənzil şəraitinin yaxşılaşmasına və sahibkarlığın inkişafına əlverişli şərait yaratmışdır.

Bank sektorunun inkişafı ilə əlaqədar görülən tədbirlərin nəticəsidir ki, 2007-2008-ci illərdə bütün dünyanı bürüyən, əksər ölkələrin maliyyə qurumlarını və dünyanın ən böyük bank və şirkətlərini müflis vəziyyətə salan dünya maliyyə böhranı respublikamızın iqtisadiyyatından və eləcə də bank sistemindən yan keçmiş və hətta ölkəmiz bu dövrdə iqtisadi artıma da nail olmuşdur. Belə ki, böhran nəticəsində ABŞ-da istehsal son 20 ildə ən açağı səviyyəyə düşmüşdü. ABŞ-ın ən böyük banklarından olan "Amerika Bankı" və "Citiqrup" bankları özlərinin lider mövqelerini itirərək 2009-cu ildə kapitallaşmasına gorə dünyada müvafiq olaraq yeddinci və onuncu yerlərdə dururdular. 2008-ci ilin son rübündə Avrozona üzrə ÜDM-in həcmi 2 faiz azalmışdı. Lakin respublikamızda ÜDM-in həcmi 2008-ci ildə 10,8 faiz, 2009-cu ildə isə 9,3 faiz artmışdır. Ölkənin bank sistemində aktivlərin həcmi 2008-ci ildə 52,7 faiz, 2009-cu ildə 13,5 faiz, bank kapitalının həcmi müvafiq olaraq 47,8 faiz və 17,9 faiz, iqtisadiyyata kredit qoyuluşu 53,5 faiz və 17,0 faiz artmışdır.

Mərkəzi Bankın apardığı makroiqtisadi siyasətin nəticəsində manatın sabitliyi qorunub saxlanmış və bir çöx ölkələrdən fərqli olaraq manatın devalvasiyaya uğramasının qarşısı alınmışdır. Ölkədə denominasiya həyata keçirilmiş və dövriyyəyə daha yüksək nominal dəyərə malik olan yeni pul nişanələri buraxılmışdır. Manatın məzənnəsinin əhəmiyyətli dərəcədə möhkəmlənməsinin qarşısını almaq məqsədilə Mərkəzi Bank təkcə 2010-cu ildə 4 mlrd, dollardan çox valyutanı sterilizasiya etmişdir. Nəticədə iqtisadiyyatın dollarlaşması səviyyəsi aşağı düşmüş və manatın rolunun artmasına şərait yaranmışdır. Banklardakı əmanət və depozitlərdə xarici valyutanın xüsusi çəkisi 2003-cü ildəki 82 faizdən 43 faizə, kredit qoyuluşunda isə 65 faizdən 35 faizə düşmüşdür. (l.s.79,81)

Bank sisteminin institusional inkişafı davam etdirilmiş, bankların maliyyə sabitliyi qorunub saxlanmış, bank aktivlərinin keyfiyyət göstəriciləri yaxşılaşmışdı. 2010-cu ildə bank sektoruna xarici investisiya qoyuluşu 40,5 mln. man.və ya 19,8 faiz artaraq 245 mln manata çatmışdır.

2011-ci ildə də Azərbaycan bank sistemi özünün inkişaf tempini qoruyub saxlamış və sistemin davamlı inkişafı təmin edilmişdir. 2011-ci ildə iqtisadiyyata kredit qoyuluşu 8,6 faiz, banklarda olan əmanət və depozitlərin həcmi 24 faiz artmış, bankların likvidlik göstəriciləri yaxşılaşmışdır. Lakin dünya bazarında neftin qiymətinin aşağı düşməsi ölkə iqtisadiyyatına, manatın sabitliyinə və bank sektorunun fəaliyyətinə mənfi təsir göstərmiş, valyuta ehtiyatları xeyli azalmışdır. Nəticədə ölkəmizdə 2015-ci ildə 2 dəfə devalvasiya həyata keçirilmiş və manatın kursu demək olar ki, 2 dəfə aşağı salınmışdır. Devalvasiya nəticəsində banklarda vaxtı keçmiş borcların həcmi xeyli artmış, istər banklar və istərsə də müştərilər borcların ödənilməsilə əlaqədar maliyyə çətinliklərinə məruz qalmışdır.

Bütün bunlarla yanaşı Mərkəzi Bank ölkəmizdə bankların sabitliyinin daha da yaxşılaşdırılması, bankların likvidliyinin artırılması, banklara olan inam və etibarın təmin edilməsi ilə əlaqədar bank sektorunda islahatlar aparmış və ölkədə fəaliyyət göstərən bir sıra bankların fəaliyyəti dayandırılmışdır. Hazırda ölkəmizdə 25 bank fəaliyyət göstərir ki, onlar da fiziki və hüquqi şəxslərə müxtəlif növ xidmətlər göstərir. Son illərdə bank sektorunun inkişafı aşağıdakı göstəricilərdə öz əksini tapır.

**2016-2021-ci illərdə bank sisteminin inkişaf dinamikası [1. s. 100]**

| № | Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| 1. | Aktivlər, mln.man. | 31439 | 27921 | 29502 | 32723 | 32055 | 38462 |
| | Artım temri, %-lə | -99 | -11,2 | 5,7 | 10,9 | -6,1 | 20,0 |
| 2. | Likvid aktivlər mln.man. | 5168 | 66,48 | 7145 | 9349 | 10536 | 13883 |
| | Artım temri, %-lə | -17,4 | 28,6 | 7,5 | 30,8 | 12,7 | 31,8 |
| 3. | Kapital, mln.man. | 1909 | 3709 | 4072 | 4583 | 4699 | 4969 |
| | Artım temri, %-lə | -472 | 94,3 | 9,8 | 12,5 | 1,7 | 5,7 |

Göründüyü kimi, 2021-ci ildə bank sektorunda aktivlərin həcmi 38,5 mlrd. manata çatmışdır ki, bu da ÜDM-in 41,4%-ni, qeyri-neft ÜDM-inin isə 67,05%-ni təşkil edir. Bank aktivlərinin 43,35-i kreditlərdən ibarətdir.

Lakin bütün bunlarla yanaşı respublikamızda bank sisteminin inkişafı xarici ölkələrlə müqayisədə hələ də geri qalır. Hazırda respublikamızda istər banklar tərəfindən əhalinin kreditləşməsi və istərsə də adambaşına düşən əmanətlərin həcmi bir çox ölkələrlə müqayisədə çox aşağıdır. Belə ki, əhalinin kreditləşmə səviyyəsi 10 faiz təşkil edir ki, bu da xarici ölkələrlə müqayisədə ən aşağı səviyyədədir. Kredit üzrə faizlərin səviyyəsi isə xarici ölkələrlə müqayisədə 2-3 dəfə yüksəkdir. Adambaşına düşən əmanətlərin həcmi Azərbaycanda 500 ABŞ dollarından az olduğu halda, bu göstərici Rusiyada 2 min dollar, Çində 3,4 min dollar, Fransada 36 min dollar təşkil edir.

İnkişaf etmiş ölkələrdə banklar müştərilərə 340-dan çox müxtəlif növ xidmətlər göstərdiyi halda ölkəmizdə 50-ə qədər xidmət göstərir. Xarici ölkələrdə kredit kartlarının müxtəlif növlərindən geniş istifadə olunur. Lakin ölkəmizdə əhalinin yalnız 10 faizə qədərinin kredit kartı vardır. Azərbaycanda müştərilərin banklarla əlaqəsi də Avropa ölkələrilə müqayisədə çox aşağıdır. Əha-

linin yalnız 50%-ə qədərinin banklarda cari və depozit hesabları var. Əhali tərəfindən cəmi 13,3 mln. ədəd ödəniş kartlarından istifadə olunur ki, bunun da yalnız 1,8 milyonu və ya 13,3%-i kredit kartlarından ibarətdir. Əksər ölkələrdə nağdsız ödənişlər ümumi ödənişlərin 80-90 faizini təşkil edir. Respublikamızda son illər bu sahədə müxtəlif tədbirlərin həyata keçirilməsinə baxmayaraq bu göstərici hələ də lazımi səviyyədə deyildir (40%). Banklar tərəfindən quraşdırılan bankomatların sayı cəmi 3068 ədəd təşkil edir ki, bunun da yalnız 1477 ədədi və ya 48,1 faizi regionların payına düşür [5. S.54,55]. Bu da əhaliyə göstərilən bank xidmətlərinin keyfiyyətinin və əhalinin bank xidmətlərilə əhatə olunma səviyyəsinin hələ də aşağı olduğunu göstərir.

Bütün bunlar göstərir ki, ölkəmizdə bank sektorunun daha da inkişaf etdirilməsi, onların maliyyə imkanlarının artırılması, bank xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, banklara olan inam və etibarın artırılması sahəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi bank sektorunun qarşısında duran mühüm vəzifələrdən biridir.

## ƏDƏBİYYAT

1. AR Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatı, Bakı, 2022.
2. S.Səfərov,Yeni Azərbaycan, iqtisadiyyat, siyasət, dinamizm. Bakı, 2003.
3. “İqtisadiyyat” qəzeti, 13 noyabr 2019-cu il.
4. AR Mərkəzi Bankının 2021-ci il hesabatı (Mərkəzi Bankın internet saytı,www.cbar.az.
5. Mərkəzi Bankın statistik bülleteni, 2022-ci il.

***Ханоглан Андалиф Гусейнов***
***к.е.н., доцент Азербайджанской Университет Кооперации***

### Банковская система Азербайджанской Республики ипроблемы ее развития

***Резюме***

В данной статье рассматривается формирование и развитие банковской системы Азербайджанской Республики, мероприятия Центрального Банка по обеспечению макроэкономической стабильности. В статье, а также отмечается отставание банковского сектора Азербайджана по сравнению с зарубежными странами и задачи по развитию банковского сектора в нашей республике.

***Ключевые слова: Банковская система; банковские сервисы; стабильность маната; кредит; сбережения и депозиты; дебетовые и кредитные карты; банкомат; интерес.***

***Khanoglan Andalif Huseynov***
***c.e.s., docent Azerbaijan Cooperation University***

### Banking system of the Republic of Azerbaijan and problems of its development

***Summary***

The independence and development of bank system in Azerbaijan Republic, the measures that Central Bank takes in the sphere of providing the bank system and macroeconomic stability in the country are looked through in the article. With the comparison of foreign countries, the falling behind the development level of bank sector in Azerbaijan and the duties standing in front of this field is also indicated in the article.

***Key words: Banking system; banking services; stability of the manat; credit; savings and deposits; debit and credit cards; ATM; ktrdit interest.***

UOT: 33; 338

*Elşad Ziyad oğlu SƏMƏDZADƏ*
*i.f.d., Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,*
*Beynəlxalq Menecment Akademiyasının müxbir üzvü*
*selshad@yahoo.com,*
*ORCİD: 0000-0002-9213-4561*

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFININ HEYDƏR ƏLİYEV MODELİ

*Xülasə*

Məqalədə iqtisadi model, iqtisadi artım, iqtisadi inkişaf kateqoriyaları təhlil edilir. İqtisadiyyat və təhlükəsizlik anlayışlarının insan tələbatları ierarxiyasında yaxınlığı təqdim olunur. Heydər Əliyev idarəçiliyi nəticəsində formalaşan iqtisadi model araşdırılır. Modeldəki prioritetlər: maliyyə sabitliyi, institusional quruculuq, özəlləşmə, yeni sahibkarlıq sinfinin yaranması, dövlət tənzimləməsi imkanlarından istifadə, neft amilindən çoxşaxəli yararlanma, səmərəli beynəlxalq əməkdaşlıq, sosial təminat, modelin modernləşmə cəhəti göstərilir. Ulu öndərin Azərbaycana Sovet İttifaqı dövründə rəhbərliyi, SSRİ ali rəhbərliyində fəaliyyəti, onun səyi nəticəsində qəbul olunan qərarlar, tikilib istifadəyə verilən zavodlar, istehsal edilən yeni məhsullar, artan əmək məhsuldarlığı, onun təhsil-kadr siyasəti təhlil edilir. Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi dövrü, fəaliyyətinin səciyyəvi xüsusiyyətləri, nailiyyətləri haqqında danışılır. Ulu öndərin fəaliyyətində, zənnimcə, taleyüklülüyü ilə seçilən cəsarət anları, böyük uğurların əldə olunmasıda Heydər Əliyev portretinin cizgiləri, onu əhatə edən nəhəng proseslər, görkəmli şəxslərin onun fəaliyyəti barədə fikirləri, Ulu öndərin iqtisadiyyat və digər sahələrə bəxş etdiyi töhfələr, onun mənəvi irsə münasibəti, azərbaycançılıq məfkurəsi və bir sıra amillər təhlil edilir.

***Açar sözlər: Heydər Əliyev, Azərbaycan, iqtisadi inkişaf.***

## *Giriş*

İqtisadi modellər ikinci dərəcəli elementləri kənara qoyaraq diqqəti sistemin əsas elementləri və onların qarşılıqlı əlaqələri üzərində cəmləndirir. Mikroiqtisadiyyatın banisi sayılan avstriya-amerikan iqtisadçısı Yozef Şumpeter 1911-ci ildə “İqtisadi inkişaf haqqında traktat” əsərində iqtisadi artım və iqtisadi inkişaf arasında fərqi belə izah edir: “Nəqliyyat şirkətinin 1 fiakrı (faytonu) var. O, fiakr sayını 1000-dək artıra bilər. Lakin bu heç vaxt dəmir yolunun yerini verməyəcək. Çünki dəmir yolunda olan təhlükəsizlik, sürət, rahatlıq fiakrda yoxdur. Fiakr sayının artması iqtisadi artım, dəmir yolu sisteminə keçid isə iqtisadi inkişafdır”. [24, s. 804]

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərlik edəndə iqtisadiyyatı cəmiyyətin əsas sahəsi kimi görür və kompleks yanaşma nəticəsində yeni model yaradılır. Yazıçı Anar deyir: “Həqiqəti dərk etmək üçün dünyanı səyahətə çıxmağa ehtiyac yoxdur, hər bir insan öz sənətində səyahətə çıxmalıdır”. Ulu öndər təhlükəsizlik sahəsində çalışıb və tapdığı həqiqət isə bu olub: “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”. [8] Prioritetlər isə bunlar olur:

- maliyyə sabitliyi;
- institusional quruculuq;
- özəlləşmə, yeni sahibkarlıq sinfinin yaranması;
- dövlət tənzimləməsi imkanlarından istifadə;
- neft amilindən çoxşaxəli yararlanma;
- səmərəli beynəlxalq əməkdaşlıq;
- sosial təminat.

Heydər Əliyev modeli keyfiyyətdə yeni mərhələ olur, iqtisadi inkişafa istiqamətlənərək modernləşməni gerçəkləşdirir.

**Bölmə 1.** Ulu Öndərin Azərbaycanda ilk hakimiyyət dövrü 1969-1982-ci illər yüksək iqtisadi inkişaf dövrüdür.

1970-1975-ci illərdə respublika rəhbərinin təşəbbüsü ilə Azərbaycan SSR-in xalq təsərrüfatının, onun aparıcı sahələri: kənd təsərrüfatı və sənayenin inkişaf etdirilməsi barədə SSRİ Mərkəzi Komitəsinin və Nazirlər Sovetinin qərarları qəbul edildi;

Professor Əli Hacıyev bildirib: "1969-cu ilədək Azərbaycanda 735 sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi 14 ildə onların sayı 1048-ə çatdırılıb". [11] Yəni, onun hakimiyyəti dövründə 313 yeni sənaye müəssisəsi yaradıldı, bu hər ay 2 sənaye müəssisəsi deməkdir;

"1969-1982-ci illərdə neft hasilatı 2,8 dəfə, maşınqayırma ve metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artmışdır. Sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəlmiş, 4400 yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olunmuşdur ki, bunlardan da 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal olunurdu"; [7, s.138]: [13]

"1960 - 1970-ci illərdə Azərbaycan SSR sənayedə əmək məhsuldarlığının artımına görə 14-cü yerdə idi. 1980-ci ilin ortalarında isə keçmiş ittifaqda birinci yerə çıxmışdı. Azərbaycan SSR sənayesinin bu göstəriciyə görə xeyli irəliləməsi bütün ittifaqda maraq oyatmışdı"; [16, s.9]

"Görkəmli dövlət xadimi Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişindən sonra su təsərrüfatında ciddi dönüş yaranmış, problemlərin kompleks həlli məqsədilə böyük layihələr sürətlə icra edilmişdir. Kür su kəmərləri sisteminin birinci növbəsi üzrə 30 aya görülməli işlər 12 aya başa çatdırılmış və 1970-ci ilin sentyabrında Bakı Kür suyunu qəbul etmişdir." [5, s.297]

Məişət Kondisionerləri Zavodu tikildi;

1978-ci ildə Həştərxanda tikilməsi nəzərdə tutulan Dərin Özüllər zavodu Bakıda tikilib istifadəyə verildi.

"ARDNŞ-nin birinci vitse-prezidenti akademik Xoşbəxt Yusifzadə "Ömrümün illəri və izləri" kitabında həmin illəri belə xatırlayır: "Dünyada tayı-bərabəri olmayan Dərin Dəniz Özülləri Zavodunun məhz Azərbaycanda inşa edilməsi üçün SSRİ rəhbərliyinin razılığının alınması və bu nəhəng müəssisənin müvəffəqiyyətlə tikilib işə salınması məhz Heydər Əliyev əməyinin, Heydər Əliyev iradəsi və prinsipiallığının nəticəsidir. Bircə rəqəmə diqqət yetirin: 450 milyon ABŞ dolları! Zavodun inşa edilməsi üçün o vaxt sovet hökumətinin bu qədər maliyyə vəsaiti ayırmasına nail olmaq heç bilirsiniz nə deməkdi? Bu, həqiqətən də əsl qəhrəmanlıq idi"; [18, s.16]

Sənayenin sahə quruluşu köklü surətdə yaxşılaşdırıldı. Heydər Əliyev neft-qaz sahəsinə xüsusi diqqət göstərib. Onun hakimiyyəti dövründə 8 iri neft yatağı tapılıb, neft istehsalı 3 dəfə, qaz istehsalı 2 dəfə artıb.

Ümummilli lider gələcək müstəqillik üçün addımlar atıb. Azərbaycan dotasiyasız yaşayan respublikaya çevrildi. İqtisadi müstəqilliyimiz üçün güclü əsaslar yaradıldı. "Sovet Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə Ümummilli lider keçmiş SSRİ-nin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaratmışdır". [19, s.12] Millət vəkili, i.e.d., professor Rüfət Quliyev bildirib: "Bu gün müstəqil Azərbaycanın səfirlərinin 2/3-i "inoqorodiklər"dir." [15] Maslou tələbatlar sistemi ierarxiyasında insanın fizioloji və təhlükəsizlik tələbatları yaxındır. [28] Ulu Dədə Qorquddan aldığımız miras: "Torpağı qorumursansa əkməyə, əkmirsənsə qorumağa dəyməz." [2] Ulu öndər Cəmşid Naxçıvanski adına hərbi lisey yaradılmasının təşəbbüskarı olub. "Sistem onun elementləri cəmindən daha böyükdür"- deyən Aristotelin, [27] "Rus ədəbiyyatında ancaq Lev Tolstoyun pəncərəsindən bütün Rusiya görünür"- deyən Azad Mirzəcanzadənin fikirlərinə uyğun olaraq Heydər Əliyev cəmiyyətin bütün resurslarını görür və onları səfərbər edirdi. Nəticədə keyfiyyətlər cəmi onu zəfərə çatdırır:

Sahəni kompleks şəkildə, incəlikləri ilə öyrənmək, informasiyanı bir neçə mənbədən almaq, mütəxəssisləri bu işə cəlb etmək;

"Seçim bacarığı idarəetmə bacarığıdır." [29, s.295]"Dövlətin vacib funksiyalarından biri istedadlı insanların seçilməsi və idarəetməyə cəlb edilməsidir." [23, s.504] fikirlərinin Ulu öndər

məfkurəsində ifadəsi belədir: “Mən şəxsiyyətə pərəstişin tərəfdarı deyiləm, amma heç bir cəmiyyət şəxsiyyətsiz yaşaya bilməz”;

- Zəhmətkeşlərlə fərdi qaydada işləmək xüsusiyyəti, motivasiya etmək istedadı;
- Tələbkarlıq;
- Ünsiyyət məharəti;
- Cəsarət;

Tükənməz həvəsin doğurduğu enerji. Burada Yelena Sirenkanın fikrini xatirlayırıq: “Arzulara çatmaq üçün cəsarət lazımdır, lakin yalnız enerji ilə birgə o uğur açarı ola bilər!”

**Bölmə 2. SSRİ ali rəhbərliyində.** “Azərbaycan iri addımlarla addımlayır”. Bu sözləri 1981-ci ildə Bakıya səfəri zamanı SSRİ Mərkəzi Komitəsinin baş katibi Leonid Brejnev deyir. [25] Müttəfiq respublika olan Azərbaycan fenomeni SSRİ-də geniş müzakirə olunur və Heydər Əliyev bu uğurlara görə SSRİ Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilir və Nazirlər Kabinetinin birinci müavini təyin edilir. Coğrafi baxımından müasir Azərbaycanla müqayisə edilə bilinməyən nəhəng miqyaslarda iş başlayır. 1982-1987-ci illəri əhatə edən bu dövrdə onun rəhbərlik etdiyi sahələr bunlar olmuşdur: maşınqayırma, yüngül sənaye, ticarət, nəqliyyat, rabitə, mədəniyyət, təhsil.

“Heydər Əliyev 12 ittifaq nazirliyinin kuratoru olub. Onun ümumi rəhbərlik etdiyi sahələrdən biri olan yüngül sənayedə, 3700 müəssisədə 3 milyon adam çalışıb. O, 1984-cü ildə Sovet məktəbinin islahatı komissiyasının sədri, 1986-cı ildə Sosial İnkişaf Bürosunun sədri, “2-ci Siyasi Büro” adını qazanmış Nazirlər Soveti Operativ Məsələlər Komissiyasının sədri vəzifəsində çalışıb. Onun Asiya və Yaxın Şərq istiqamətində beynəlxalq əməkdaşlıqda əhəmiyyətli rolu olub. Heydər Əliyevin SSRİ Nazirlər Kabinetində fəaliyyəti dünyadakı texnoloji transformasiya çağırışına Sovet İttifaqının cavabı olub. Bir faktı diqqətə çatdırmaq o zamankı vəziyyəti xarakterizə edə bilər. 1985-ci ildə SSRİ-də 50 min şəxsi kompüter olduğu halda, onun əsas strateji rəqibi olan ABŞ-da kompüter sayı 30 milyona çatıb. “Rossiyskaya qazeta” Heydər Əliyev fenomeninin nədən ibarət olduğunu belə açıqlayır: “Heydər Əliyevin siyası çəkisi, aparat nüfuzu və idarəetmə səriştəsi gələcək nəsillər tərəfindən sonadək qiymətləndirilməyib. Onun Kreml rəhbərliyindən getməsi gizli siyasi mübarizə və düşünülməmiş islahatlarla təhrik edilən nəhəng dövlətin məhvinin carçısı oldu. Heydər Əliyev şəxsiyyəti ideoloji şablonlarla mürəkkəbləşmiş yüksək intensivliyi olan aparat riskləri içərisində möhkəmlənib. Belə ki, o, neft-qaz sahəsi kapitanları, hərbi-sənaye kompleksi müəssisələrinin direktorları, hərbi və fundamental elmlə bağlı alimlər, hərbçilər, xüsusi xidmət orqanları, ziyalılar, Kommunist Partiyasının müttəfiq respublikalardakı rəhbərlərinin maraqlarını təmin edən nəhəng aparatın rəhbərlərindən biri olub”. [22]

SSRİ Səhiyyəsinə töhfələri olub:

- Ürəkdə açıq əməliyyatlar;
- Gözün mikrocərrahiyyəsi;
- Diaqnostika və Onkoloji mərkəzlərin tikintisi.

Rusiyanın ORT tv kanalında “Pole çudes” verilişinin aparıcısı Leonid Yakubovic: “Heydər Əliyev möhtəşəm intellekt, möhtəşəm xarizmaya sahib idi”. [26] Ulu öndərin SSRİ ali rəhbərlərindən biri kimi məhsuldar, titanik fəaliyyəti, yüksək təşkilatçılıq bacarığı, əmək, elm, incəsənət adamları ilə səmimi ünsiyyəti İttifaq miqyasında xalqımıza olan hörməti artırdı.

**Bölmə 3. Heydər Əliyev və milli dövlətçilik.**

Ulu Öndərin fəaliyyətində, zənnimcə, taleyüklülüyü ilə seçilən 3 cəsarət anı var:

“Bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirən şəxs ümummilli lider Heydər Əliyev olmuşdur. Belə ki, Heydər Əliyev 21 yanvar 1990-cı il tarixdə faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən yığıncaqda çıxış edərək bu hadisəni törədən şəxsləri kəskin şəkildə tənqid edib. Heydər Əliyev bu hadisəni hüquqa, demokratiyaya yad, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini bildirib.” [21]

Ümummilli lider bu barədə deyirdi: “Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı”. [3]

15 iyun 1993-cü ildə Gəncə qiyamının yatırılması üçün bölgəyə gedir, vətəndaş müharibəsinin qarşısını alır.

Milli iqtisadi quruculuq. SSRİ ali rəhbərliyində onun topladığı nəhəng təcrübə sonradan milli dövlətçiliyə xidmət edib:

İnstitusional quruculuq;

"Xəzinə qızılı yığmaq üçündür, Qızılsa düşməni yıxmaq üçündür"[14] deyən Nizami Gəncəvi fəlsəfəsinə uyğun Azərbaycan Respublikası Dövlət Neft Fondu (1999), "inan, amma yoxla" fikrinə uyğun Hesablama Palatası (2001) yaradılır.

Maliyyə sabitliyi;

İnflasiyanın qarşısının alınması;

Beynəlxalq təşkilatlarla: Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə əməkdaşlıq;

O, deyirdi:"Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz." (Heydər Əliyev) [10]

**Neft strategiyası.**

"Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu, müstəqilliyimizin təminatıdır." (Heydər Əliyev) [12] Ulu öndər həmçinin deyirdi: "Neft sənayesi Azərbaycanda özəlləşdirilə bilməz. Neft sənayesi, neft emalı sənayesi dövlətin əlində olmalıdır. Onu, bilin, heç kəsə vermək olmaz" [20, s.194].

Beynəlxalq əməkdaşlıq-tarazlaşdırılmış siyasət. Ulu Öndər dünyanın əsas qütbləri və ölkəmiz üçün strateji tərəfdaşlarla əməkdaşlığı daimi dialoq şəklində qurub. ABŞ, Rusiya, Çin, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı ölkələri, Türkiyə və digər dövlətlərlə xoş münasibətlər saxlayan Heydər Əliyev deyib: "Azərbaycan bundan sonra heç bir dövlətdən asılı olmayacaq". [9] Heydər Əliyev xarici sərmayələr üçün təminatçı olub. "1994-cü ildən başlayaraq Azərbaycana xarici sərmayələrin axını ildən-ilə artaraq, 2002-ci ildə 2,2 milyard ABŞ dollarına çatmışdır". [4, s.125] Bu, qlobal maliyyənin Ulu öndərə olan inamının nəticəsidir. "Lukoil" şirkətinin prezidenti Vahid Ələkbərovun Londonda neft strategiyasının reallaşmasının növbəti mərhələsinə dair ziyafətdə Heydər Əliyevin sağlığına dediyi sözlər bu fikri bir daha təsdiqləyir: "Gəlin badələri bizim sərmayələrin zəmanətçisi olan şəxsin sağlığına qaldıraq!"

Ümummilli lider cəmiyyətin məfkurəsinin formalaşması və möhkəmlənməsində mənəviyyat və mədəniyyətin vəhdətini önəmli sayıb. Milli sərvət ifadəsini M.F.Axundov adına Milli Kitabxana və Bakı Dövlət Universiteti haqqında deyib. Teatlara da, ziyarətlərə də gedib, ehtiramını bildirib. İdmanla bağlı maraqlı bir hadisəni isə mənə AzTV-nin mərhum rejissoru Etibar Babayev danışıb. 1994-cü ilin oktyabrın 11-də Azərbaycan futbol üzrə yığma komandası Polşada bu ölkənin yığmasına uduzub. Oyundan sonra baş məşqçi Ağasəlim Mircavadova zəng olunub ki, Bakıya qayıdanda onu Heydər Əliyev qəbul edəcək. Ağasəlim Mircavadovun Ulu öndərin mühüm siyasi məsələlərlə məşğul olmasina görə futbol məsələsinin üstündən keçəcəyi və baş məşqçini uğursuz anda qəbul etməyəcəyi ümidləri Binə hava limanında komandanın avtobusu yanında prezident aparatı nömrəli (indi administrasiya) avtomobili görərkən puça çıxır. (Qeyd. 1994-cü ilin oktyabrın 2-də ölkəmizdə hərbi çevrilişə cəhd olub. [1] Bu avtomobil onu dərhal Prezidentlə görüşə aparıb. Ulu öndər və baş məşqçi arasında belə bir dialoq olub:

Heydər Əliyev: Eşitdim, Polşaya getmişdiniz?

Ağasəlim Mircavadov: Bəli, cənab prezident, yığmanın oyunu var idi.

Heydər Əliyev: Hesab neçə oldu?

Ağasəlim Mircavadov: 5:0 uduzduq.

Heydər Əliyev: Qapıçı aparmamışdınız?!

Bir daha nəhəng uğurlar qazanmış şəxsiyyətin cəhətləri haqqında:

Xəlqilik. Məcburi köçkün toyunda rəqsi;

Sərtlik və mehribanlığın vəhdəti;

Duyğusallıq. "Dünya sənin, dünya mənim, dünya heç kəsin", "Tut agacı" mahnısını dinləyərkən göz yaşları;

Təbiətə bağlılıq. Ağacların kəsilməsini qollarının kəsilməsinə bənzədib;

Təşəkkür xüsusiyyəti. 1998-ci ilin prezident seçkilərində təklif etdiyi şüara görə şəxs avtomobillə mükafatlandırılıb. Həmin şüar belədir:

"XALQ H.Ə. DEYİR".

### *Nəticə*

Ona: "Azərbaycan Sizin üçün kiçikdir. Siz ABŞ, Çin kimi dövlətlərə rəhbərlik edə bilərdiniz"- deyəndə cavabı belə olub: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, Azərbaycanlıyam!

Heydər Əliyev ölkəmizin gələcəyə getməsi üçün istiqamətlərini müəyyənləşdirdi, sanki qatarı relsə qoydu və dövlət idarəçilik ənənəsini ötürdü.

I Pyotr ruslar üçün Avropaya pəncərə açdısa, Heydər Əliyev azərbaycanlılar üçün Avropaya qapı açdı. Bu əməkdaşlıq Avropa üçün də önəmlidir. Belə ki, vətənimiz Avropanın enerji təhlükəsizliyində, beynəlxalq nəqliyyat dəhlizlərində mühüm rol oynayır.

Deyl Karnegi otağında ABŞ tarixinin ən məşhur prezidentlərindən olan, quldarlığa son qoymuş Abraham Linkolnun şəklini asmağının səbəbini belə izah edir: "Mürəkkəb vəziyyətlərdə nəhəng insanın portretinə baxaraq düşünürəm- görəsən Linkoln bu vəziyyətdə olsaydı nə edərdi? Beləliklə qərarım təmkinli və rasional olur". [17, s.719] Heydər Əliyevin təsvirləri səbir və rasional qərar mənbəyidir. Bu fikrə təsdiq kimi xatirəmdən bir misal çəkim. Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərliyinin ilk dövrü idi. İran qırıcı təyyarəsi Azərbaycan sərhədini pozaraq Bakı səmasına yaxınlaşmışdı. Hamı qarşıdurma olacağını gözləyirdi. Ulu öndərin cavabı isə başqa oldu – onun dəvəti ilə Bakıya gələn türk şahinlərinin paytaxt səmasında göstərdikləri qardaşlıq nümunəsi sülh rəmzinə çevrildi.

Borc. "Prezident Heydər Əliyev çıxışlarında deyərdi ki, müstəqilliyi qazanmaq asandır, ancaq onu qorumaq çətindir". [6] "İqtisadiyyatı güclü olan dövlət hər çeyə qadirdir", [8] "Azərbaycan bundan sonra heç bir dövlətdən asılı olmayacaq" [9] fikirlərinin vəhdətindən əmələ gələn borcumuz: Əsas olan iqtisadi müstəqillikdir, xoşbəxt gələcək naminə iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sahəsinin inkişafı, dayanıqlılığının təmini mütləq zərurətdir.

Dünyanın mötəbər şəhərlərində Ulu öndərə abidələr ucaldılıb. Tiflisin mərkəzində, Azərbaycan səfirliyinin qarşısında Heydər Əliyevin büstünü gördüm. Qərib insanlar arasında bu abidə bir güc mənbəyi idi. Sanki Ulu öndər deyirdi: "Mən əbədi olaraq dövlətimin keşiyindəyəm!"

## ƏDƏBİYYAT


1. Azərbaycanda dövlət çevrilişinə cəhd (1994) — Vikipediya (wikipedia.org)
2. "Dədə Qorqud" filmi, "Azərbaycanfilm" kinostudiyası, rejissor: Tofiq Tağızadə, 1975
3. Dövlət rəmzləri "AZƏRBAYCAN" Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi (president.az))
4. Dövlət Statistika Komitəsi, 1993-2002-ci illəri əhatə edən iqtisadi inkişaf dövrü, səh 125 .
5. Eldarova G. Ə, Azərbaycanın su təchizati və kanalizasiya sistemlərində innovativ aspektlər, "Şollar-Bakı Su Qurğular Kompleksinin" 100 illiyinə həsr olunmuş "Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. (15-16 mart 2017-ci il, Bakı şəhəri, Azərbaycan). I hissə. – Bakı: Mütərcim, 2017. – 456 səh
6. Ələsgərov Şahlar, Heydər Əliyevin şah əsərləri (sesqazeti.az), 5.5.23
7. Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı, «Azərnəşr», 1981,138 s
8. Heydər Əliyev Fondu - Müdrik fikirlər (heydar-aliyev-foundation.org)).
9. Heydər Əliyev müstəqillik haqqında - YouTube
10. https://aztv.az/az/projects/93)
11. https://ikisahil.az/post/86951-news-86951
12. https://lib.aliyev-heritage.org/az/5187693.html
13. https://lib.aliyev-heritage.org/az/93556048.html,
14. https://nizami880.cbar.az/

15. https://yenicag.az/azerbaycanin-sefirlerinin-3-de-2-hissesi-inoqorodniklerdir-rufet-quliyev/
16. İqtisadiyyat, Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası, səh 9, 2021
17. Karnegi Deyl, Dostları necə qazanmalı və insanlara təsir etməli, tərcüməçi Yaşar Əsədov, Bakı, Qanun nəşriyyatı , 719 səhifə
18. Qarayev Ayaz, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun 35 illik şərəfli tarixi , "İki sahil" qəzeti, 2013, səh 16, http://www.anl.az/down/meqale/iki_sahil/2013/noyabr/337594.htm
19. Rəhimli Rəcəb, "Heydər Əliyevin kadr siyasəti müasir Azərbaycan Respublikasının inkişaf strategiyasının təməlidir.", "Azərbaycan" qəzeti, 28.04.2023, səh 12.
20. Səmədzadə Ziyad, "Azərbaycan iqtisadiyyatı 100 ildə, 2022, cild III, 668 səhifə
21. Welcome to Heydar Aliyevs Heritage Research Center (aliyevheritage.org))

*Rus dilində:*

22. Караваев Александр, "РГ" объяснила, в чем состоит политический феномен Гейдара Алиева, https://rg.ru/2013/05/31/alievgeydar.html, 2013).
23. Маргарет Тэтчер, Искусство управления государством. Стратегии для меняющегося мира/Пер. с англ. — М.: Альгана Паблишер, 2003. — 504 с
24. Шумпетер Й.А. Ш 96 Теория экономического развития. Капитализм, социализм и демократия / Й.А. Шумпетер ; [предисл. В.С. Автономова ; пер. с нем. В.С. Автономова, М.С. Любского, А.Ю. Чепуренко ; пер. с англ. В.С. Автономова, Ю.В. Автономова, Л.А. Громовой, К.Б. Козловой, Е.И. Николаенко, И.М. Осадчей, И.С. Семененко, Э.Г. Соловьева]. — М. : Эксмо, 2008. — 864 с. — (Антология экономической мысли).)
25. Эскин Авигдор, https://regnum.ru/article/2279299, 2017
26. Якубович Леонид: Я рассказал Гейдару Алиеву всю свою жизнь - YouTube

*İngilis dilində:*

27. https://www.zencontrol.co.uk/the-whole-is-greater-than-the-sum-of-its-parts/
28. Maslow's Hierarchy of Needs | Overview, Explanation, and Examples (corporatefinanceinstitute.com))
29. W. Ross Ashby, An Introduction to Cybernetics, Chapman & Hall, London, 1956. Internet (1999): http://pcp.vub.ac.be/books/IntroCyb.pdf, 295 page.

***Эльшад Зияд Самедзаде***
***ф.д., заместитель председателя Союза экономистов Азербайджана,***
***доцент Азербайджанского Государственного Экономического Университета,***
***Член-корреспондент Международной Академии Управления***
***selshad@yahoo.com,***
***ORCID: 0000-0002-9213-4561***

## Гейдар Алиев модель экономического развития Азербайджана

***Резюме***

В статье анализируются категории экономической модели, экономического роста и экономического развития. Представлена близость понятий экономики и безопасности в иерархии потребностей человека. Рассматривается экономическая модель, сформированная в результате правления Гейдара Алиева. Приоритетами в модели являются: финансовая стабильность, институциональное строительство, приватизация, появление нового класса предпринимателей, использование возможностей государственного

регулирования, диверсифицированное использование нефтяного фактора, эффективное международное сотрудничество, социальное обеспечение и модернизационный аспект модели. Руководство Великого Вождя Азербайджаном во времена Советского Союза, деятельность Гейдара Алиева в высшем руководстве СССР, решения, принятые в результате его усилий, построенные и введенные в эксплуатацию заводы, производство новой продукции, повышение производительности труда, его образование и анализируется кадровая политика. Обсуждается период руководства Великого Вождя независимым Азербайджаном, характерные черты его деятельности, достижения. В деятельности Великого Лидера моменты мужества, выделенные своей судьбой, особенности портрета Гейдара Алиева в достижении больших успехов, огромные процессы, окружавшие его, мнения выдающихся людей о его деятельности, вклад Великого Лидера в экономике и других областях, его отношение к духовному наследию, идеология азербайджанства и ряд факторов.
***Ключевые слова: Гейдар Алиев, Азербайджан, экономическое развитие.***

***Elshad Ziyad Samedzade***
***PhD, Deputy Chairman of the***
***Azerbaijan Union of Economists,***
***Associate Professor of Azerbaijan***
***State University of Economics,***
***Corresponding member of the International***
***Academy of Management***
***selshad@yahoo.com,***
***ORCID: 0000-0002-9213-4561***

**Heydar Aliyev model of economic development of Azerbaijan**

***Summary***

The article analyzes the categories of economic model, economic growth, and economic development. The proximity of the concepts of economy and security in the hierarchy of human needs is presented. The economic model formed as a result of Heydar Aliyev's administration is examined. The priorities of the model are: financial stability, institutional building, privatization, the emergence of a new entrepreneurial class, use of state regulatory opportunities, diversified use of the oil factor, effective international cooperation, social security, and the modernization aspect of the model. The Great Leader's leadership to Azerbaijan during the Soviet Union, Heydar Aliyev's activity in the supreme leadership of the USSR, decisions made as a result of his efforts, factories built and put into use, new products produced, increased labor productivity, and his education and personnel policy are analyzed. The period of leadership of the Great Leader to independent Azerbaijan, the characteristic features of his activities, and his achievements are discussed. In the activities of the Great Leader, moments of courage distinguished by their destiny, the features of Heydar Aliyev's portrait in the achievement of great successes, the huge processes surrounding him, the opinions of prominent people about his activities, the contributions of the Great Leader to the economy and other fields, his attitude to the spiritual heritage, Azerbaijaniness ideology and a number of factors are analyzed.
***Key words: Heydar Aliyev, Azerbaijan, economic development.***

UOT 339.1.336

***Vasif Balaxan oğlu HƏZİYEV***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Menecment və ticarət" kafedrasının müdiri i.e.n., dos.***
***ORCİD: 0000-0003-0465-3917***
***1_hvb_1@mail.ru***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAF STRATEGİYASI

***Xülasə***

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim iqtisadi yolumuzdur" deyən Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunması nəticəsində sahibkarlar sinfinin formalaşması üçün həm hüquqi baza yaradıldı, həm də dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək nümayiş etdirildi.

Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır.

Hazırda Azərbaycanda həyata keçirilən yeni inkişaf strategiyasının başlıca istiqamətləri ölkədə davamlı və yüksək iqtisadi artıma, sosial rifaha nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir. Bunun üçün hazırkı mərhələdə təbii ehtiyatlar amilinin azaldılması, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin olunması, iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi, bir sözlə, vətəndaşların gündəlik rahat həyatı üçün lazım olan bütün imkanların yaradılması qarşımızda duran əsas vəzifələrdir.

Azərbaycanda qeyri-neft sektoru yüksək templə inkişaf edir və bu sahədə məhsul istehsalı ildən-ilə artır. "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin fərmanına uyğun olaraq, ölkədə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır.

***Açar sözlər: Sərbəst iqtisadiyyata yol verilməsi, sahibkarlıq qabiliyyəti, kommersiya fəaliyyəti, sahibkar, biznes artımının ölçülməsi.***

***

Milli-mənəvi dəyərlər və azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma və əzizdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq, tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşmasıdır. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni bir zəmin yarandı. Milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin əsas nümunəsidir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın əsas adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda Ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi hər zaman tövsiyə edirdi. Ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsini xüsusi vurğulayırdı: "… Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin xidmətləri misilsiz və danılmazdır. Ulu öndər ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə etmişdir: "Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın durmadan artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasə-

timizin əsas prinsipləridir".

Ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti sayəsində Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks inkişaf proqramlarının icrasına birmənalı başlanmışdır. Dahi siyasət korifeyinin həyata keçirdiyi düşünülmüş tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm köklü struktur dəyişiklikləri aparılmış, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olunmuş, yeni sənaye sahələri yaradılmış, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırılmışdır.

İqtisadi sahədə islahatların ardıcıl düşünülmüş və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər beynəlxalq təcrübəyə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Milli iqtisadi inkişaf konsepsiyamızı yaratdı. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Beynəlxalq maliyyə institutları ilə əlaqələr yaradıldı, onların rəhbərləri Bakıya dəvət olundu.

Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının özəl sektorla bağlı olduğunu hər zaman vurğulayırdı: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji və əhəmiyyətli yolumuzdur". Ulu öndərin dərin düşüncələri ilə müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət - sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi. Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm və qətiyyətli addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşdı. Sahibkarların vergi yükünün azaldılması istiqamətində mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq edilməyə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

Heydər Əliyevin planlaşdırılmış xarici siyasət kursu sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lider dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və çox fəal iştirakçısına çevrilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin günü-gündən inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq institutlar arasında səmərəli əməkdaşlıq yaradılmışdır.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı.

Ölkəmizin son 20 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

Sahibkarlıq strukturlarının idarə edilməsinin iqtisadi mexanizminin mahiyyəti, hər şeydən əvvəl, aşağıdakı başlıca kateqoriyalara əsaslanır: sahibkarlıq, sahibkarlıq fəaliyyəti, sahibkarlıq qabiliyyəti, sahibkar, biznes, biznes artımının ölçülməsi, menecment, kommersiya fəaliyyəti, və s.

Sahibkarlıq strukturlarının idarə edilməsinin iqtisadi mexanizminin mahiyyətinin açılmasının uğuru çox halda kateqoriya və anlayışlara yanaşmasından asılı olur.

Bir çox alimlər sahibkarlıq anlayışının mahiyyətini şərh edərkən iqtisadi nəzəriyyənin klassiklərinə istinad edirlər. Misal üçün, Riçard aşağıdakı müddəadan çıxış edir: tələb və təklifin üst-üstə düşməməsi əmtəələri ucuz alıb baha satmağa imkan verir və bu bazarın subyektlərini isə o, sahibkar adlandırmışdır. Y.Şumpeter fəaliyyəti yeni kombinasiyaların yaradılması və tətbiqindən ibarət olan sahibkarları iqtisadi inkişafın hərəkətverici qüvvəsi adlandırmışdır. A.Smit sahibkarı kapitalı

artım təmin etmək məqsədilə istehsala sərmayə edən onun mülkiyyətçisi kimi görürdü. F.Xaek hesab edirdi ki, sahibkar əlavə mənfəətin əldə edilməsi mənbəyi kimi çıxış edən informasiyanın qeyri-tamlığı və qeyri-bərabər bazar situasiyası şəraitində fəaliyyət göstərir [2, s.7-9].

Sahibkarlıq fəaliyyətinin özünə gəldikdə isə ona, bir tərəfdən sahibkarlıq fəaliyyətinin müxtəlif subyektləri və muzdlu işçilər arasında iqtisadi mülkiyyət münasibətləri, digər tərəfdən sahibkarların əmtəə və xidmətlərin istehsal, mübadilə, bölüşdürmə və istehlakı üçün resursların optimal seçimi üzrə sahibkarın fəaliyyətini idarə edən qanunlar haqqında elm kimi tərif verilir [5, s. 7-9].

Sahibkarlıq fəaliyyəti müstəqil, öz riski hesabına həyata keçirilən, əmlakdan istifadədən, əmtəə satışından, qanunla müəyyən olunmuş qaydada qeydiyyatdan keçmiş insanlar tərəfindən işlərin yerinə yetirilməsindən sistematik mənfəətin əldə edilməsinə istiqamətlənən fəaliyyətdir. Sahibkarlıq - yeni əmtəələrin buraxılışı üçün bazarların açılması əsasında müstəqil təşkilati - təsərrüfat novatorluğudur, bu isə təsərrüfat sisteminin və ya onun elementlərinin mənfəət əldə edilməsi və sahibkarın şəxsi məqsədlərinin reallaşdırılması üçün daimi olaraq yenilənməsinə gətirib çıxarır.

Sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağıdakılar məşğul ola bilərlər [1, maddə 3]:

- fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı;
- mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
- hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs;
- xarici hüquqi şəxslər [3].

Sahibkarlıq qabiliyyəti-istehsal prosesində bütün yerdə qalan amilləri (resurslar, əmək, kapital, təbii resurslar) vahid sistem halında birləşdirən istehsalın xüsusi amilidir. Sahibkarlıq qabiliyyəti-qərar qəbul etmək və lazım olduqda risk etmək bacarığıdır [7, s. 6-7].

Motivlərindən və fəaliyyət sferasından asılı olmayaraq, sahubkar öz qabiliyyətlərini aşağıdakı funksiyalar vasitəsilə reallaşdırır:

- tədiyyə qabiliyyətli tələbin mövcud olduğu əmtəə və ya xidmətlərin müəyyən edilməsi məqsədilə bazarın öyrənilməsi;
- bu məhsulun istehsalı və ya xidmət göstərilməsi üzrə resursların qiymətləndirilməsi, resursları aşağı qiymətlərlə əldə etmək mümkün olan bazarların axtarılması;
- işin ən yeni texnika və texnologiyalar və onların idarə edilməsi bazasında təşkili;
- əmtəə və xidmətləri marketinqin müasir prinsiplərindən istifadə etməklə reallaşdırılması;
- qazancın istehlak, yığım fondları, ehtiyat fondu, dividentlərin ödənilməsi fondu və s. arasında bölüşdürülməsi [8, s. 9].

Əgər iqtisadiyyat qlobaldırsa və texniki novatorluq daimidirsə, əgər bazarlar gözlənilməz şəkildə fraqmentləşir və yenidən formalaşırsa, əgər rəhbərlik tənzimləməni dayandırırsa və işçi qüvvəsi dəyişirsə, hətta inkişaf etməyən firmalar belə öz vəziyyətlərini saxlamaq üçün effektiv tədbirlər görməyə başlayırlar. Hazırkı dövrdə yenidən formalaşma, kiçik firmadan tutmuş beynəlxalq şirkətlərə qədər, hər bir firma üçün vahid sabitdir. Biznesin uğuru məhsul istehsalı kimi idarə etmək və dəyişikliklərə reaksiya vermək qabiliyyətindən asılı olacaqdır. Nəticə etibarı ilə, dəyişiklikləri əngəl kimi yox, şans kimi dəyərləndirmək lazımdır və menecerləri elə hazırlamaq lazımdır ki, onlar özündə dəyişiklik gətirən bütün imkanları qəbul etsin və həmin imkanların üstünlüklərini görə bilsinlər .

Kommersiya və sahibkarlıq fəaliyyətinin inkişafının hazırkı mərhələsi bütün biznes-proseslərin fundamental şəkildə transformasiyası ilə müşayiət olunur.

Birincisi, məhsul istehsalı və reallaşdırılmasının təşkilinin xarakteri və istiqaməti dəyişir: hazırda rəqabət üstünlükləri baş şəkildə formalaşır. Misal üçün, əmək vasitələri və uzunmüddətli istifadə əşyaları bazarlarında rəqabət üstünlüyünün əldə edilməsi üçün artıq keyfiyyətli məhsul istehsal etmək kifayət etmir, gələcək servis xidmətinin dəyərini də müəyyən etmək lazımdır.

İkincisi, kommersiya sazişinin bağlanması zamanı alıcını əmtəənin gələcək istismar xərcləri də daxil olmaqla tam dəyəri maraqlandırdığından, təklif də öz tərkibini dəyişir.

Üçüncüsü, bazar tələbi və bazar təklifinin yeni tərkibi məhsul istehlakçılarının və onun istehsalçısının davranış strategiyalarını dəyişir. Servis xidmətinin keyfiyyətcə yaxşılaşması və onun ucuzlaşdırılması üsullarının axtarış prosesi başlamışdır [3, s. 125-126].

Bunu da qeyd etmək lazımdır ki, əgər əvvəl sahibkar əsas etibarı ilə maksimal mənfəət əldə etməyə çalışırdısa, müasir bazar şəraitində o, çox vaxt yüksək ixtisaslı muzdlu menecerin əmək haqqını keçməyən sahibkarlıq gəliri ilə kifayətlənir .

Nailiyyətli sahibkar ən yüksək adaptivlik dərəcəsinə malik olur, sahibkarlığın vəzifəsi isə kanalının digər subyektlərinin, hər şeydən əvvəl, istehlakçıların dəyişən şəraitlə qarşılıqlı əlaqəsini təmin etməkdən ibarətdir. Şərait dedikdə, iqtisadi subyektlərin daxili məqsədi və onlar üçün iqtisadi mühitin xarici parametrləri başa düşülür. Sahibkar istehlakçıların zövq və təkliflərini, habelə əmtəə və xidmətlərin qiymətini formalaşdıran başqa amilləri, həmçinin onların istehsal olunduqları şəraitin dəyişikliklərini nəzərə alır .

Sahibkarlığı kriminal rəqabət qarşısında zəiflədən və onun iqtisadi və informasiya təhlükəsizliyinin təmin edilməsinin zəruriliyini müəyyən edən mühüm əlamətlər aşağıdakılar hesab olunur:

- sahibkarlıq fəaliyyətində yeniliyin, novatorluğun mövcud olması;
- riskə məruz qalma;
- işgüzar iqtisadiyyata riayət edilməsi zəruriliyi;
- sahibkarlığın ən mühüm məqsədlərindən biri kimi yüksək mənfəətin əldə edilməsi;
- sahibkarlıq fəaliyyətinin bütün növlərinin tərkib hissəsi kimi iri həcmli əməliyyatların həyata keçirilməsi;
- daimi olaraq sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi [6, s. 20-22].

Sahibkarlıq, fəaliyyəti təkcə istehsal və əmtəələrin reallaşdırılması sahəsində yox, həmçinin servis fəaliyyəti sahəsində də həyata keçirilir. Servis fəaliyyəti dedikdə, ayrı-ayrı insanlar və təşkilatlar tərəfindən tələb olunan xidmətlərin göstərilməsi yolu ilə müştərinin tələbatlarının təmin edilməsinə istiqamətlənmiş insan fəaliyyətinin yeni növü başa düşülür.

Sahibkarlıq demək olar ki, aşağıdakı keyfiyyət xüsusiyyətləri ilə xarakterizə olunur:

- istehsalın daimi olaraq islahatlar yolu ilə dəyişdirilməsi, bazarın yeni əmtəə və xidmətlərlə təchizatı, istehsal olunan əmtəə və xidmətlərlə təchizatı, istehsal olunan əmtəə və xidmətlərin dəyərini aşağı salan yeni texnologiyaların mənimsənilməsi;
- sahibkar tərəfindən sahibkarlıq fəaliyyətinin nəticələrinə uyğun olaraq, yaratma prosesində iştirakla bağlı mənfəət və mənəvi təminat əldə edilməsi.

Məhz sahibkarlığın innovasiya xarakteri çox halda iqtisadi resursların məhdudluğu problemini həll etməyə imkan verir və iqtisadi artımın əsas amillərindən biri kimi çıxış edir [4, s. 9-10].

## ƏDƏBİYYAT


1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu.15.XII.1992.
2. Альтшулер И.Г.Диалектика бизнеса.СПР.: Питер.2012-224с.
3. Афанасенка И.Д.,Борисова В.В.Экономическая логистика.СПб.Питер.2013,-422с.
4. Балашов А.И.Экономика фирмы.Ростов.н/Д.Феникс.2010,-192с.
5. Предпринимательская деятельность.Под ред.Э.А.Рустамова.М.:КНОРУС.2011,-209с.
6. Одинцов А.А.Экономическая информационная безопасность предпринимательства. М.:Академия.2006,-336с.
7. Череданов Л.Н.Основы экономики и предпринимательства. М.:Академия.2012,-224с.
8. Чиненов М.В.Основы международного бизнеса. М.: КНОРУС.2012,303с.



***Васиф Балахан оглы Хазиев***
***Начальник и.э.н., доц. Кафедра "Менеджмент и торговля"***
***Азербайджанского Университета Кооперации***
***ORCID: 0000-0003-0465-3917***
***1_hvb_1@mail.ru***


## Гейдар Алиев и стратегия развития предпринимательства в Азербайджане


***Резюме***

После возвращения к власти в 1993 году великого лидера Гейдара Алиева в результате политической и макроэкономической стабильности, достигнутой в нашей стране в результате целенаправленной политики и планомерных мер, была создана правовая основа для

формирования класса предпринимателей, а также государство оказывало всестороннюю поддержку частному сектору.

Под руководством Президента Ильхама Алиева, уверенно продолжившего эту политику после великого лидера, в настоящее время во всестороннем развитии Азербайджана переживает новый этап.

Основными направлениями новой стратегии развития, реализуемой в настоящее время в Азербайджане, являются достижение устойчивого и высокого экономического роста, социального обеспечения и диверсификации экономики. Для этого на современном этапе снижение фактора природных ресурсов, обеспечение высоких темпов развития ненефтяного сектора, расширение применения инноваций в экономике, словом, создание всех необходимых возможностей для повседневной комфортной жизни граждане – главные задачи, стоящие перед нами.

Ненефтяной сектор в Азербайджане развивается высокими темпами, и производство в этой сфере увеличивается из года в год. В соответствии с указом Президента "О дополнительных мерах по развитию предпринимательства" продолжаются системные мероприятия в направлении развития предпринимательства и дальнейшего улучшения бизнес-среды в стране, более прогрессивной нормативно-правовой базы. формируется с учетом передового мирового опыта.

***Ключевые слова: обеспечение свободной экономики, предпринимательство, коммерческая деятельность, предприниматель, измерение роста бизнеса.***

***Vasif Balakhan Haziyev***
***"Management and trade" department of Azerbaijan Cooperation University***
***Head of i.e.n., Assoc.***
***ORCID: 0000-0003-0465-3917***
***1_hvb_1@mail.ru***

**Heydar Aliyev and the development strategy of entrepreneurship in Azerbaijan**

***Summary***

After the great leader Heydar Aliyev returned to power in 1993, as a result of the political and macroeconomic stability achieved in our country as a result of the purposeful policy and systematic measures, a legal basis was created for the formation of the entrepreneur class, and the state showed comprehensive support to the private sector.

Under the leadership of President Ilham Aliyev, who confidently continued this policy after the great leader, a new stage is currently being experienced in the comprehensive development of Azerbaijan.

The main directions of the new development strategy currently implemented in Azerbaijan are the achievement of sustainable and high economic growth, social welfare and diversification of the economy. For this, at the current stage, reducing the factor of natural resources, ensuring the high development rate of the non-oil sector, expanding the application of innovations in the economy, in short, creating all the necessary opportunities for the daily comfortable life of citizens are the main tasks before us.

The non-oil sector in Azerbaijan is developing at a high pace, and production in this area is increasing year by year. In accordance with the President's decree "On additional measures related to the development of entrepreneurship", systematic measures are being continued in the direction of the development of entrepreneurship and further improvement of the business environment in the country, and a more progressive normative-legal base is being formed taking into account advanced international experience.

***Keywords: Enabling a free economy, entrepreneurship, commercial activity, entrepreneur, measuring business growth.***

UOT- 33.657

*Şəhla Əli qızı CƏFƏROVA*
*Azərbaycan Kooperasiya Universitetinin*
*"Mühasibat uçotu və audit" kafedrasının müdiri i.e.n., dos.*
*E-mail: cafarovashehla@gmail.com*
*https://orcid.org/my-orcid?orcid=0000-0001-7069-6267*

# TİKİNTİ SEKTORUNUN DAYANIQLI TƏMƏLİNİN QOYULMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU ƏVƏZOLUNMAZDIR

*Xülasə*

Məlumdur ki,müasir Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi illər ərzində mürəkkəb və eyni zamanda, şərəfli bir yol keçmişdir. Ulu öndərimiz Heydər Əliyevin və Onun ideyalarının layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılmış geniş miqyaslı islahatlar ölkəmizdə sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, əhalinin maddi rifahının daha da artmasına xidmət etmişdir.

Azərbaycanda tarixən tikinti və quruculuq işlərinə böyük əhəmiyyət verilmişdir. XIX əsrin ortalarında şəhərsalma və memarlıq ölkə həyatında və cəmiyyətin inkişafında getdikcə böyük rol oynamağa başlamışdır. Bu genişmiqyaslı proqramları həyata keçirmək üçün tikinti işlərini əhəmiyyətli şəkildə sürətləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək tələb olunurdu.

Qeyd etmək lazımdır ki, Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrinin zəruri miqdarda tikinti materialları ilə təmin olunması təkcə onların həcminin artırılması ilə deyil, istehsal prosesində həmin vasitələrdən səmərəli və qənaətlə istifadə edilməsi ilə müşayiət olunur. Bu baxımdan məqalədə istehsal olunan materialların , görülən işlərin maya dəyərinin tərkibində material məsrəflərinin çox böyük xüsusi çəkiyə malik olması öz əksini tapmışdır. Respublikanın iqtisadiyyatının son illərdə müstəqil inkişafı təsərrüfat dövriyyəsinə getdikcə daha çox material – texniki ehtiyatların cəlb edilməsi ilə nəticələnmişdir.

***Açar sözlər: dövriyyə kapitalı, tikinti materialları, dövriyyə vəsaiti, tikinti müəssisələri, istehsal sferası.***

***

Əsası Ümummilli lider tərəfindən qoyulmuş və bu gün uğurla həyata keçirilən uzaqgörən siyasət sayəsində bir çox sosial məsələlər öz həllini tapmış, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bütün bunların əsası XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi dahi şəxsiyyət, idarəçilik sahəsində böyük və təcrübəli siyasət adamı, görkəmli dövlət xadimi və müasir Azərbaycan Respublikasının banisi Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Sosial-iqtisadi göstəricilərin respublika üzrə ildən-ilə yüksəlməsinin əsas səbəbi iqtisadiyyatın ən vacib sahələrindən biri olan tikinti kompleksinə dövlət tərəfindən ciddi qayğı və diqqətin artırılması ilə əlaqədardır. Heydər Əliyevin təşəbbüsü ilə aparılan islahatlar tikinti materialları sənayesinin inkişafı, sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni kadrların hazırlanması kimi istiqamətlərdə ciddi irəliləyişlər əldə etməyə imkan vermişdir [2, səh 2].

Tikintidə mövcud vəziyyət bir qayda olaraq ən yüksək səviyyədə müzakirə olunur, bu sahədə vəziyyəti kökündən yaxşılaşdırmaq məqsədilə tikinti kompleksində fəaliyyət göstərən nazirlik, komitə və idarə rəhbərlərinin şəxsi məsuliyyətinin artırılması, kapital qoyuluşunun səmərəli istifadə edilməsi, tikintinin müddətinin azaldılması və keyfiyyətinin yüksəldilməsi məsələləri Heydər Əliyevin şəxsi nəzarətində saxlanılırdı.

Tikinti müəssisələrində geniş miqyaslı təsərrüfat fəaliyyətinin mövcud olması, onların coğrafi məkan etibarilə geniş xidmət şəbəkəsinə malik olması, dövriyyə kapitalının formalaşdırılmasında çoxsaylı maddi-məsul şəxslərin iştirak etməsi və digər bu kimi məsələlər burada diqqəti dövriyyə kapitalının uçotunun inventarizasiya imkanlarının tədqiq edilməsinə yönəldir. İstənilən tikinti müəssisəsində dövriyyə kapitalının mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsinin yolu müəssisənin uçot siyasəti haqqında əsasnaməsindən irəli gəlir [3, səh 13]. Bu

məsələ tikinti müəssisə və təşkilatlarında mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinin real həyatda necə baş verdiyinə də toxunur. Ona görə də tikinti müəssisə və təşkilatlarında dövriyyə kapitalının uçot siyasəti haqqında əsasnamənin tətbiq edilməsi mühasibat uçotunun düzgün təşkilinə nəzarət edən dövlət orqanlarının da diqqətini cəlb etməlidir.

Tarixin dönüş nöqtələri bir çox hallarda xalqın yetişdirdiyi dahi şəxsiyyətləri ilə bağlıdır. Müasir Azərbaycanın formalaşması və müstəqil respublikanın qurulması yolunda milli tarixin əsas dönüş nöqtələri Ulu öndər Heydər Əliyevin dövlətə rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illərə təsadüf edir. Bu dövrlərdə ölkə iqtisadiyyatının bütün istiqamətlərində müşahidə olunan müsbət dinamika fonunda tikinti sektorunun dayanıqlı təməlinin qoyulmasında və sürətli inkişafında Heydər Əliyevin rolu əvəzolunmazdır [2.səh 3].Tikinti kompleksində görülən işlərin Ulu öndərin daim diqqət mərkəzində olması bu sahədə çalışan rəhbər işçilərin, eləcə də əmək kollektivlərinin məsuliyyətini də artırmışdır. Nəticədə tikintinin əsas göstəriciləri əvvəlki illərə nisbətən dəfələrlə artmış, tikilən mühüm obyektlərin vaxtında və yüksək keyfiyyətlə istifadəyə verilməsi təmin edilmişdir.

Heydər Əliyev hakimiyyətinin 1969-1982-ci illər dövrünü təhlil edərkən görürük ki, Ulu öndərin atdığı bir çox addımlar gələcəyə hesablanmışdır. Bu dahi insan hələ o zaman Azərbaycanın gələcəyi haqqında düşünür, dərin islahatları uğurla həyata keçirməklə respublikanın sosial-iqtisadi inkişafını sürətləndirir, böyük kadr potensialını hazırlayırdı. O illərdə tikinti kompleksində böyük məktəb keçmiş, məsuliyyət hiss edən, tələbkar, peşəkar, səriştəli kadrlar yetişdirilmişdir.

Ulu öndər Heydər Əliyev işində qətiyyəti və güclü şəxsi liderlik xüsusiyyətləri sayəsində xalqın ən istedadlı və peşəkar nümayəndələrini asanlıqla ətrafında birləşdirir, Azərbaycanın parlaq gələcəyi naminə irəli sürdüyü təşəbbüslərin reallaşdırılmasına ruhlandırırdı. Onun respublikaya rəhbərliyi zamanı iqtisadiyyatın bir çox sahələrində olduğu kimi, tikinti sektorunda da göstərdiyi xidmətlərinə görə bir çox memarlar, layihəçilər, inşaatçılar püxtələşib yüksək səviyyəli peşəkarlar kimi yetişərək, ittifaq və dünya miqyasında nüfuz qazanmış, fəxri adlara layiq görülmüş, Azərbaycanın adını daha da ucaltmışlar. Qısa müddət ərzində tikinti sektorunun 100-dən çox peşəkar nümayəndəsi "Əməkdar mühəndis", "Əməkdar memar", "Əməkdar inşaatçı" fəxri adları ilə, orden və medallarla təltif olunmuşlar [ 1.səh 3 ].

Respublikada mənzil tikintisi və şəhərsalma məsələlərinə qayğı və diqqətlə yanaşan Heydər Əliyev əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və urbanizasiya prosesini məqsədyönlü şəkildə inkişaf etdirmək üçün əvvəlki illərdə şəhərsalma ilə bağlı görülən tədbirlərin həyata keçirilməsində buraxılmış nöqsanları ciddi tənqid edirdi. Onun sözlərinə görə, həyata keçirilən tədbirlər kompleksi şəhərsalma və əhalinin yerləşdirilməsi məsələlərinin həllindəki ciddi nöqsanları aradan qaldırmaq üçün çox vacibdir. O, yeni yaşayış kvartallarının salınmasının, köhnə şəhərlərin bərpa olunaraq yenidən qurulmasının, abad kənd və qəsəbələrin salınmasının şəhər və kənd əhalisinin həyat şəraitinin bir-birinə yaxınlaşmasına kömək edəcəyinə inanırdı və bu məqsədlərə doğru qətiyyətlə irəliləyirdi. Zaman Heydər Əliyevin şəhərsalma ilə bağlı olan müdrik və uzaqgörən siyasətinin düzgün perspektivli olduğunu bir daha sübut etdi. Hazırda Bakının bir çox yerlərində müasir layihələr əsasında tikilən çoxsaylı hündürmərtəbəli yaşayış evlərinin və ictimai binaların şəhərə yaraşıq verməsi, bütövlükdə paytaxtda aparılan geniş abadlıq işlərinin nəticələri dahi rəhbərin həmin illərdə irəli sürdüyü təşəbbüslərin uğurla həyata keçdiyini göstərən faktlardır.

Məlumdur ki, şəhərsalma məsələlərində memarlığın rolu böyükdür. Gözəl memarlıq işlərini yüksək qiymətləndirən Heydər Əliyev memar və arxitektorların əməyinə həmişə qayğı ilə yanaşmış, mənzil tikintisi və şəhərsalma məsələlərində onların fəaliyyətini layiqincə dəyərləndirmişdir. Respublika iqtisadiyyatının dinamik inkişafı, insanların rifahının durmadan yüksəlməsi istehsal obyektlərinin, mədəniyyət, elm, təhsil müəssisələrinin, yaşayış evlərinin yüksək sürətlə tikilməsini, şəhərlərin, qəsəbələrin, kəndlərin daha tez abadlaşdırılmasını tələb etdiyini qeyd edən dahi şəxsiyyət bütün bu işlərdə memarların rolunun danılmaz olduğunu hər zaman vurğulayırdı. O, hər zaman qeyd edirdi ki, inşa edilən bütün tikililərin hamısı gözəl, orijinal olmalı, adamların estetik tələblərinə cavab verməlidir.

Heydər Əliyev yeni tikilən binalarda milli memarlıq formalarına geniş yer verməyi, binaların interyer və eksteryerlərində milli naxışlardan səmərəli istifadə etməyi tövsiyə etmişdir ki, bu da

Ulu öndərin milli mədəniyyətimizə dərin məhəbbətini göstərən amillərdəndir. Dahi rəhbər mənzil tikintisində Şərq üslubuna, milli mədəniyyətimizə sadiq qalmağa üstünlük verir və bunu hamıya xatırladırdı. Onun daim vurğuladığı məsələlərdən biri memarların, layihəçilərin öz işlərində Azərbaycan memarlığının binalara Şərq koloriti verən ünsürlərindən geniş istifadə etməsi ilə bağlı olmuşdur. O bildirirdi ki, inşa edilən ansambllar və ayrı-ayrı tikililər Bakının sabahıdır və bunlar gələcək nəsillərimizi də sevindirməlidir.

Heydər Əliyev yeni inşa edilən binaların həm müasir, həm gələcək tələblərə cavab verməsinin inşaatçıların bir nömrəli vəzifəsi olduğunu deyirdi. Bu baxımdan yaxın gələcəkdə Azərbaycanda yeni-yeni binaların yüksələcəyinə şübhə etmirdi. O inanırdı ki, tikilən hər bir yeni bina öz memarlıq keyfiyyətlərinə və funksionallığına görə nə qədər müasir olarsa, bir o qədər də insana yararlı olacaq, şəhərin mənzərəsini zənginləşdirəcəkdir.

Bütün bu faktlardan aydın olur ki, respublikamızın iri şəhərlərində şəhərsalma işlərinin elmi əsaslarla və uzaqgörənliklə planlaşdırılması, urbanizasiyanın tələblərinə əməl edilməsi, bacarıqlı və səriştəli rəhbər olan Heydər Əliyevin təşkilatçılığı ilə əlaqədardır. Bu baxımdan Ulu öndərin uzaqgörənliyi ictimai həyatın başqa sahələrində olduğu kimi, şəhərsalma, urbanizasiya, məişət mədəniyyəti və sosial-ekologiya sahəsində də özünü göstərməkdədir.

Tikinti müəssisələrinin gələcək fəaliyyəti onların dövriyyə vəsaiti ilə nə dərəcədə təmin edilməsindən asılıdır [ 3.səh 18 ]. Dövriyyə vəsaitinin çatışmamazlığı təkrar istehsalın gedişinə mane olur, müəssisədə maliyyə çətinliyi baş verir. Dövriyyə vəsaitinin artıqlığı isə onun dövriyyə sürətinin azalmasına, vəsaitin dövriyyədən yayınmasına və rentabelliyin aşağı düşməsinə səbəb olur. Ona görə də istehsal prosesinin dövriyyə vəsaitinə olan ehtiyatı düzgün müəyyən edilib, istehsalın bu vəsaitlərlə lazımi dərəcədə təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Tikinti müəssisələrinin dövriyyə vəsaiti dedikdə onların dövriyyə istehsal fondlarında və tədavül fondlarında olan pul vəsaitləri nəzərdə tutulur. Dövriyyə vəsaitləri təkrar istehsal prosesində yerinə və roluna görə dörd qrupa bölünürlər:

İstehsal ehtiyatlarına qoyulan vəsaitlər;

Bitməmiş istehsala və gələcək dövrün xərclərinə qoyulan vəsaitlər;

Hazır məhsula qoyulan vəsaitlər;

Pul və hesablaşmalarda vəsaitlər.

Tikinti müəssisələri tikinti-quraşdırma işlərini fasiləsiz yerinə yetirmək üçün tikinti materialları, konstruksiyaları, detalları, məmulatları, yanacaq ehtiyatları və s. ilə daim təmin edilməlidir. Tikinti məhsulunu müəssisə vaxtaşırı reallaşdırır. Bununla əlaqədar olaraq, müəssisələrin vəsaiti eyni bir vaxtda həm istehsal, həm də tədavül sferasında olur. İstehsal sferasında hər bir tikinti müəssisəsinin əsas və dövriyyə istehsal fondları olur [ 4.səh 23 ]. Müəssisənin tədavül sferasında xidmət edilən vəsaiti onun tədavül fondlarını təşkil edir. Tikinti müəssisələrinin tədavül fondları hesablaşma hesabında və kassada pul vəsaitindən ibarət olur.

Tikinti müəssisələrinin dövriyyə fondlarının tərkibi və strukturu müxtəlifdir. Onlar tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinin, istehsalın təşkili və təchizinin, sifarişçilərlə hesablaşmaların xarakterindən və digər amillərdən asılıdır.

Dövriyyə vəsaiti strukturunun mühüm göstəricisi istehsal sferasına və tədavül sferasına qoyulan vəsaitlərin nisbəti ilə müəyyən edilir. İstehsal sferası və tədavül sferası arasında dövriyyə vəsaitinin ümumi məbləğinin düzgün bölüşdürülməsindən onların normal fəaliyyəti, dövretmə sürəti və onların funksiylarının tam yerinə yetirilməsi çox asılıdır [5, s. 28].

Tikinti müəssisələrində faktiki olaraq mövcud olan dövriyyə vəsaitinin bu və ya başqa ünsürünün məbləği ay, rüb, il ərzində daim dəyişir ki, bu da müəssisənin fəaliyyətinin bir çox səbəblərindən və şəraitindən asılı olur.

Ayrı-ayrı müəssisələrin dövriyyə vəsaitinin quruluşu əsas etibarilə, onların fəaliyyət xarakterindən, yerinə yetirilən işlərin material tutumundan, əmək tutumundan, işlərin mexanikləşdirilməsindən, tikintinin yığma səviyyəsindən, icra edilən tikinti işlərinin hesablaşma formalarından, tikinti məhsulunun istehsalına çəkilən xərclərin quruluşundan, tikinti məhsulunun reallaşdırılması şərtlərindən və s. asılıdır [6, s. 33].

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir,

bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi - istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur. Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir.

Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı (Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi)
2. Heydər Əliyev siyasi kursu Azərbaycan xalqının yeganə nicat yoludur ("Azərbaycan" qəzeti, 11.10.2003-cü il, "Qanunçuluq" jurnalı, N 9)
3. B.H.Şirinov. Dövriyyə kapitalından istifadənin səmərəliliyinin iqtisadi qiymətləndirilməsi. Azərbaycan Universitetinin "İpək Yolu" Elmi jurnalı, Bakı, 2013, №3, s. 53-58
4. M.A.Məmmədov, B.H.Şirinov. Dövriyyə kapitalına səmərəli tələbatın müəyyən edilməsi və maliyyələşdirilməsinin alternativ strategiyası.Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi əsərləri, Bakı-2013, №1, s.156-161
5. B.H.Şirinov. Tikinti müəssisələrinin dövriyyə kapitalının mahiyyəti, tərkibi və strukturu. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi əsərləri, Bakı, 2013 №3, s. 358-363
6. B.H.Şirinov. Tikinti müəssisələrində dövriyyə kapitalının tərkibi və strukturu. Azərbaycan Memarlıq və İnşaat Universiteti. Tikintinin İqtisadiyyatı və Menecment Elmi-Praktik jurnalı, Bakı, 2016, №1, s. 93-96



***Шахла Али кызы Джафарова***
***к.э.н., доцент, заведующий кафедры "Бухгалтерского учета и аудита"***
***Азербайджанского Университета Кооперации***
***E-mail: cafarovashehla@gmail.com***
***https://orcid.org/my-orcid?orcid=0000-0001-7069-6267***


## Роль великого лидера Гейдара Алиева в создании устойчивого фундамента строительного сектора неоценима


***Резюме***

Известно, что за годы восстановления независимости современная Азербайджанская Республика прошла сложный и в то же время почетный путь. Широкомасштабные реформы, проведенные под руководством великого лидера Гейдара Алиева и Президента Ильхама Алиева, являющегося достойным последователем его идей, послужили улучшению социально-экономического положения в нашей стране и дальнейшему росту материального благосостояния населения.

Исторически в Азербайджане большое значение придавалось строительству и строительным работам. В середине девятнадцатого века градостроительсво и архитектура стали играть все более важную роль в жизни страны и развитии общества. Для реализации этих масштабных программ требовалось значительно ускорить строительные работы, укрепить его материально-техническую базу.

Следует отметить, что обеспечение различных отраслей экономики Азербайджана необходимым количеством строительных материалов сопровождается не только увеличением их объема, но и эффективным и экономичным использованием этих средств в процессе производства. В связи с этим в статье отражается тот факт, что материальные затраты имеют очень большой удельный вес в составе себестоимости производимых материалов, выпол-

ненных работ. Самостоятельное развитие экономики республики в последние годы привело к привлечению в хозяйственный оборот все большего количества материально – технических ресурсов.

***Ключевые слова: оборотный капитал, строительные материалы, оборотные средства, строительные предприятия, сфера производства.***

***Shahla Ali Jafarova***
***Head of department "Accounting and audit"***
***of Azerbaijan Cooperation University***
***E-mail: cafarovashehla@gmail.com***
***https://orcid.org/my-orcid?orcid=0000-0001-7069-6267***

**The role of the great leader Heydar Aliyev in the development of the construction sector is indispensable**

***Summary***

It is known that the modern Republic of Azerbaijan has passed a complicated and at the same time honorable path during the years of regaining its independence. The large-scale reforms carried out under the leadership of our great leader Heydar Aliyev and President Ilham Aliyev, who is a worthy follower of his ideas, served to improve the socio-economic situation in our country and further increase the material well-being of the population.

Historically, construction and construction works have been given great importance in Azerbaijan. In the middle of the 19th century, urban planning and architecture began to play an increasingly important role in the life of the country and the development of society. To implement these large-scale programs, it was required to significantly speed up the construction work and strengthen its material and technical base.

2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir).
3. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006, 452 s.
4. Бондаревська К. В. Сучасні тенденції розвитку ринку праці в контексті соціальної безпеки держави. Проблеми економіки. 2019. № 3 (41). С. 255–262.
5. Статівка Н. В. Зайнятість і регіональний ринок праці в забезпеченні конкурентоспроможності та соціальної безпеки Харківського регіону.
6. URL: http://www.kbuapa.kharkov.ua/e-book/db/2014-2/doc/2/12.pdf
7. Губарь О. В. Ринок праці України: реалії, проблеми і перспективи розвитку. International Journal of Innovative Technologies in Economy. 5 (17). Vol. 1 2018. P. 36–39
8. AR DSK Əmək bazarı. Statistik məcmuə. Bakı, 2022. – 190 s.
9. https://www.stat.gov.az



***Гахраман Салех оглы Байрамов***
***к.э.н., доцент Азербайджанский Государственный Экономический Университет***
***E-mail: qehreman.bayramli@bk.ru***


## Пути Гейдара Алиева по обеспечению социальной безопасности в Азербайджане


***Резюме***

На уровне отдельных регионов социальная безопасность должно учитывать риски и опасности, характерные для конкретной территории, сложившуюся социально-экономическую региональную дифференциацию и соответствующие предпосылки возникновения внутренних конфликтов и проблем обеспечения достойного уровня социальной безопасности, соблюдая принципы социальной справедливости. Неполное обеспечение или оказание государственной поддержки для удовлетворения социально-экономических потребностей, игнорирование или пренебрежение особыми потребностями регионов создают угрозу национальной безопасности Азербайджана.

Обеспечение развития рынка труда и демографические проблемы являются на сегодняшний день одной из наиболее актуальных проблем с учетом необходимости решения проблемных вопросов, связанных с соотношением спроса и предложения, ростом безработицы и усилением миграционного неравенства, снижением уровня реальных доходов населения. В то же время негативные тенденции, происходящие в сфере социально-трудовых отношений, создают соответствующие угрозы для эффективного развития социальной безопасности и социально-экономических отношений в Азербайджане. Именно поэтому в современных условиях весьма актуально изучение тенденций развития рынка труда и определение факторов, влияющих на состояние социальной безопасности трудовых отношений населения. Знание ситуации и наличие актуальной информации позволит определить и разработать комплекс превентивных мер по предотвращению ухудшения состояния рынка труда, а

также обосновать направления улучшения сложившихся тенденций.
***Ключевые слова: социальная безопасность, рынок труда, регион, занятость, безработица.***

***Gahraman Saleh Bayramov***
***Ph.D in economics, doc.***
***Azerbaijan State University of Economics***
***E-mail: qehreman.bayramli@bk.ru***

**Heydar Aliyev way of providing social security in Azerbaijan**

***Summary***

At the level of individual regions, social security must take into account the risks and dangers specific to a specific area, the existing socio-economic regional differentiation and the relevant preconditions for the emergence of internal conflicts and the problems of ensuring a decent level of social protection, observing the principles of social justice. Failure to fully provide or provide state support for meeting socio-economic needs, ignoring or neglecting the special needs of regions pose threats to Azerbaijan's national security.

Ensuring the development of the labor market and demographic problems are one of the most urgent problems today, taking into account the need to solve problematic issues related to the ratio of supply and demand, the increase in unemployment and the increase in migration inequality, the lowering of the real income level of the population. At the same time, the negative trends occurring in the sphere of social and labor relations create corresponding threats to the effective development of social security and socio-economic relations in Azerbaijan. That is why, in modern conditions, it is quite important to study the development trends of the labor market and to determine the factors affecting the state of social security security of the employment relations of the population. Knowing the situation and having relevant information will allow to define and develop a complex of preventive measures to prevent the deterioration of the labor market, as well as to justify the directions of improvement of the current trends.
***Keywords: social security, labor market, region, employment, unemployment.***

**UOT 338**

***Samirə Yaşar qızı MƏMMƏDOVA***
***i.f.d., dosent, AKU,***
***mamedova.samira64@gmail.com***
***https://orcid.orq/ 0000-0002-1814-5844***

## AZƏRBAYCANIN BAZAR İNFRASTRUKTURUNUN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Ümummilli lider amili müasir dövrdə iqtisadi potensialından asılı olmayaraq hər bir dövlətin inkişaf dərəcəsini şərtləndirən ilkin amillərdəndir. Ümummilli lider fenomeni ölkənin iqtisadi və siyasi sahədə potensialını maksimum dərəcədə artırmaqla yanaşı, onun uğurla həyata keçirilməsi üçün ilkin şərtləri və prioritetləri müəyyən edən mütərəqqi inkişaf modelini müəyyən edir. Bu mənada, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ölkənin inkişaf yolunu müəyyənləşdirdiyi şübhəsizdir. Bütün bunları nəzərə alaraq, məqalədə məhz ölkə iqtisadiyyatının, bazar infrastrukturunun inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rolundan bəhs edilir.
***Açar sözlər: Ümummilli lider, Heydər Əliyev, infrastruktur, iqtisadiyyat, intensiv inkişaf.***

***

Ölkə iqtisadiyyatında bazar iqtisadiyyatı prinsiplərinin bərpası istiqamətində aparılan sosial-iqtisadi islahatlar çərçivəsində iqtisadiyyatımızın infrastruktur təminatı probleminin araşdırılması

və sistemin təşkilində bazar infrastrukturunun rolunun artırılması, bazar münasibətlərinin böyük aktuallığı və əhəmiyyəti vardır. Bu, ilk növbədə, bazarın hərəkət edən elementi hesab edilən infrastrukturun funksiyasının genişlənməsi və ölkə iqtisadiyyatının inkişafına mane olan, inkişaf etmiş infrastruktur təminatının mövcudluğu ilə əlaqədardır. Bazar infrastrukturunun, eləcə də istehsal vasitələri bazarının infrastrukturunun intensiv inkişafı və təkmilləşdirilməsi mühüm problem olmaqla ölkə iqtisadiyyatının müasir bazar iqtisadi münasibətləri sisteminin tələbləri formasında qurulmasına xidmət edir [3, s.99].

"İnfrastruktur" sözü ilk dəfə 20-ci əsrdə silahlı qüvvələrin həyatını təmin edən obyekt və obyektləri ifadə etmək üçün termin kimi istifadə edilmişdir. "İnfrastruktur" latın mənşəli sözdür, "infra" aşağı, "struktur" isə struktur deməkdir. İnfrastruktur anlayışı geniş istifadə olunsa da, müxtəlif mənalarda şərh olunur. İnfrastrukturun əsas vəzifəsinin istehsal və əhaliyə xidmət göstərmək olduğunu nəzərə alan müəlliflər infrastrukturu bütövlükdə xidmət sistemi kimi göstərirlər. Digərləri isə infrastrukturu yalnız sənaye üçün xidmət sistemi kimi başa düşür və onun məqsədini istehsal üçün ümumi şəraitin yaradılmasında, əsas istehsalın fəaliyyətinin təmin edilməsində görürlər. Belə bir fikir də var ki, infrastruktur sənaye müəssisələrinin uğurlu fəaliyyəti üçün zəruri maddi-texniki bazanı təmin edən obyekt və qurğular şəklində maddi sərvətdir [5, s.101].

Bazar, sosial və istehsal infrastrukturları bir-biri ilə bağlıdır və birinin inkişafı digərinə təsir edir və onun inkişafını sürətləndirir.

İstehsal infrastrukturuna diqqət yetirərkən nəzərə almaq lazımdır ki, o, heç bir məhsulun istehsalı ilə məşğul olmur, yalnız onun istehsalı üçün lazımi şəraitin yaradılmasını təmin edir. Bu, yükdaşıma, topdansatış ticarət, anbar, rabitə, informasiya xidmətləri (məlumat bazası, proqram təminatı, informasiya emalı) daxil olmaqla istehsal proseslərindən kənar şəraiti təmin edən sahələr kompleksidir. İnfrastrukturun bu sahəsinə aşağıdakılar aid edilə bilər: marketinq və reklam xidmətləri, lizinq, icarə və konsaltinq xidmətləri, mühəndis konsaltinq və layihə xidmətləri, müvəqqəti işçi qüvvəsi təchizatı sahələri və s. [2, s.67].

Sosial infrastruktur işçi qüvvəsinin təkrar istehsalı ilə bağlı sahələr kompleksidir. Bu, səhiyyə, təhsil, pərakəndə ticarət, mənzil-kommunal xidmətlər, nəqliyyat, ictimai iaşə, idman, təsviri incəsənət, məişət və ailə sahələri və s. deməkdir. Bu infrastruktur sahəsi haqqında daha geniş məlumat yalnız sosial-məişət infrastrukturu kimi təsəvvür edildikdə yaranır. Bu infrastrukturun məzmunu əhalinin normal həyat fəaliyyəti və yaşayışı üçün maddi-mədəni və məişət şəraitini təmin edən sahələrin məcmusudur. Bu şərtlər xidmət və mənəvi xoşbəxtlik deməkdirsə, sosial-məişət infrastrukturunu xidmət və rifahın istehsal sferası da adlandırmaq olar [1, s.55]. Bazar infrastrukturu sosial və istehsalat infrastrukturunun yeni növü hesab olunur. Bazarın yaradılması onun vətəndaş fəaliyyətini təmin edən yeni təşkilat və qurumların yaradılmasını şərtləndirir.

Azərbaycanın bazar infrastrukturunun inkişafında tarixinin ən görkəmli siyasi xadimi-Heydər Əliyev mühüm rol oynamışdır. Onun rəhbərliyi altında Azərbaycanın iqtisadi infrastrukturu, xüsusən də bazar infrastrukturu böyük transformasiyaya məruz qalıb. Belə ki, H.Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti kimi hakimiyyətə qayıdanda Azərbaycan Sovet İttifaqının dağılmasından sonra infrastrukturunun böyük hissəsi bərbad vəziyyətdə olan böyük iqtisadi qeyri-sabitliyin ortasında idi. Xüsusən də bazar infrastrukturunun canlanmaya ciddi ehtiyacı var idi. Ölkənin iqtisadi dirçəlişinin əsas amillərindən biri onun neft və qaz ehtiyatları idi, lakin bu potensialdan tam istifadə etmək üçün Azərbaycana müasir və səmərəli bazar infrastrukturu lazım idi [9, s.62].

Heydər Əliyev güclü bazar infrastrukturunun istər xarici sərmayələrin cəlb edilməsi, istərsə də yerli biznesin inkişaf etdirilməsi baxımından əhəmiyyətini dərk edirdi. Beləliklə, hakimiyyətdə olduğu müddətdə onun əsas diqqət mərkəzindən biri müasir və səmərəli bazar infrastrukturunun əsaslarını qoymaq idi. Buraya ölkənin maliyyə və bank sistemlərinin təkmilləşdirilməsi və modernləşdirilməsi, biznes üçün əlverişli tənzimləmə mühitinin yaradılması və ölkənin fiziki infrastrukturuna sərmayə qoyuluşu daxildir. Onun ilkin strateji prioritetlərindən biri Azərbaycanda müasir maliyyə sisteminin yaradılması idi. Buraya mərkəzi bankın yaradılması və yeni valyutanın tətbiqi də daxildir. 1994-cü ildə ölkənin neft və qaz gəlirlərini idarə etmək üçün iqtisadi dəyişkənliyə qarşı bufer rolunu oynayan Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır [10, s.72].

Ümummilli lider Heydər Əliyev sağlam bazar infrastrukturu üçün maliyyə sabitliyinin mühüm

əhəmiyyət kəsb etdiyini dərk edirdi və o, biznesin kreditə asan və səmərəli çıxış əldə edə bildiyi mühitin yaradılmasına çalışırdı. Bu, banklar və digər maliyyə institutları üçün əlverişli tənzimləmə mühitinin yaradılmasını, bu institutların yaxşı kapitallaşdırılmış və sabit olmasını təmin etməkdən ibarət idi [7, s.129].

Qeyd etdiyimiz kimi, banklar bazar infrastrukturunun ən mühüm elementlərindən biridir. İlk növbədə bankın nə olduğunu izah etmək lazımdır. "Bank" italyan mənşəli sözdür, "pul dəyişdirici masası" kimi tərcümə olunur və "pul masası" deməkdir. Bankların ilkin vəzifələri bazarda sərbəst pul vəsaitlərinin toplanması və onları kredit şəklində qurumlara, firmalara, dövlətə verməkdən, xalq təsərrüfatının və digər sahələrin inkişafına yönəltməkdən ibarətdir. Eyni zamanda banklar pul hesabatlarını aparır və pul qiymətli kağızlarını-veksellləri, çekləri, pul nişanlarını buraxırlar. Müasir bazar iqtisadiyyatında bankların rolu xeyli artmışdır. İndiki banklarda kreditlər təkcə bazardan cəlb olunan pul hesabına deyil, həm də bankların şəxsi vəsaitləri hesabına ödənilir. Bundan əlavə, banklar hər iki vəsait hesabına dövlətin özünə lazımi miqdarda xidmət göstərməklə dövləti gücləndirmək və zəiflətmək səlahiyyətinə malikdirlər. Qeyd etmək lazımdır ki, funksiyalarına görə bir neçə növ bank var ki, bunlar mərkəzi banklar, kommersiya bankları və özəl banklardır. Bank sisteminin əsasını mərkəzi banklar təşkil edir. Bir qayda olaraq mərkəzi banklar dövlətə tabedirlər və iqtisadiyyatın makroiqtisadi tənzimlənməsinin əsas alətidirlər. Mərkəzi Bankın funksiyalarına dövr üçün nağd pulların (əskinasların) dövriyyəyə buraxılması, digər kommersiya banklarının nağd pul ehtiyatları, dövlətin qızıl ehtiyatlarının yığılması və saxlanılması, kommersiya banklarının və digər kredit təşkilatlarının kreditləşdirilməsi daxildir.

Müasir bank sisteminin ikinci mühüm elementlərindən biri universal kredit təşkilatları və milli iqtisadiyyat sistemində ödənişləri təmin edən kredit və fond əməliyyatlarını həyata keçirən kommersiya bankları olan kommersiya banklarıdır. Onun formalaşmasında həm dövlət, həm də özəl kommersiya bankları çox mühüm rol oynayır. Bu gün müasir Azərbaycanda bazar prinsiplərinin tələblərinə cavab verən ikipilləli bank sistemi fəaliyyət göstərir (birinci pillə Azərbaycan Respublikasının Milli Bankıdır, ikinci pillə kommersiya bankları və digər bank olmayan kredit təşkilatlarıdır) [8, s.102].

Bundan əlavə, H.Əliyev Azərbaycanda 1997-ci ildə fəaliyyətə başlayan fond birjasının yaradılması üzərində çalışdı. Bakı Fond Birjasının yaradılması həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərən müəssisələrə kapitalın artırılması və qiymətli kağızların ticarəti üçün yeni məkan verdi ki, bu da Azərbaycanın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir.

Azərbaycanın bazar infrastrukturunun inkişafının digər əsas elementi biznes üçün əlverişli tənzimləmə mühitinin yaradılması olmuşdur. Heydər Əliyev yaxşı bilirdi ki, tənzimləmələr biznesin inkişafına ya mane ola, ya da imkan verə bilər və o, biznes üçün əlverişli mühit yaratmağa çalışırdı [4, s.77].

Qeyd edək ki, Əliyev 1995-ci ildə vergi sistemini əhəmiyyətli dərəcədə sadələşdirən və sahibkarlıq subyektləri üçün vergi yükünü azaldan hərtərəfli vergi islahatları proqramını təqdim etdi. Nəticədə daha çox müəssisə səmərəli və gəlirli fəaliyyət göstərə bildi ki, bu da iqtisadi artıma təkan verdi. H.Əliyev müasir və səmərəli bazar infrastrukturunun ölkənin fiziki infrastrukturuna investisiya tələb etdiyini başa düşürdü. Beləliklə, o, limanların, hava limanlarının və yolların modernləşdirilməsi də daxil olmaqla, əsas nəqliyyat və kommunikasiya infrastrukturunun tikintisinə və yenilənməsinə nəzarət edirdi. Bu, bütün Azərbaycan üzrə logistikanı və əlaqəni təkmilləşdirdi və bizneslərin, mal və xidmətlərin idxalını və ixracını asanlaşdırdı [6, s. 34].

Heydər Əliyevin rəhbərliyi Azərbaycanın müasir bazar infrastrukturunun inkişafında mühüm rol oynamışdır. Onun müasir maliyyə sisteminin inkişafı, əlverişli tənzimləmə mühitinin yaradılması və ölkənin fiziki infrastrukturuna sərmayə qoyması səyləri ilə Azərbaycan xarici investisiyaları cəlb edə və yerli biznesin inkişaf etməsinə şərait yarada bildi. Bu gün Azərbaycan davamlı inkişaf və tərəqqi üçün zəmin rolunu oynayan möhkəm bazar infrastrukturu ilə regionun ən sürətlə inkişaf edən iqtisadiyyatlarından biri kimi tanınır.

## ƏDƏBİYYAT

1. Allahverdiyev H.B, Qafarov K.S, Əhmədov Ə.M., "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi". Bakı, 2007.
2. Ağamalıyev M.Q., Məmmədrzayev M.M., "Kommersiya fəaliyyətinin təşkili" Bakı, 2004.
3. Əmiraslanov A., "Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri". Zaman nəşriyyatı, 2007 .
4. Əlizadə A., "Reklam və kommunikasiya sistemi". Bakı,. 2010.
5. Əhmədov M.Ə., Redaktəsi. Dərslik. "Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi" 2-ci nəşr. Bakı, 2008.
6. Feyzullayev İ.E., "Ticarətin iqtisadiyyatı". Bakı, 1995.
7. Paşayev K.P., Dərslik. "Kommersiya fəaliyyətinin əsasları", Bakı, 2010.
8. Kemal Y., Doğan K., Murat T., "Makroekonomi" Eskişehir, 2006.
9. Məmmədov O., "Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi". Bakı, 2006.



***Самира Яшар Мамедова***
***доц., АУК,***
***mamedova.samira64@gmail.com***
***https://orcid.orq/ 0000-0002-1814-5844***


**Роль национального лидера Гейдара Алиева в развитии рыночной инфраструктуры Азербайджана**


***Резюме***

Фактор национального лидера является одним из основных факторов, определяющих уровень развития каждого государства, независимо от его экономического потенциала, в Новое время. Феномен общенационального лидера определяет прогрессивную модель развития, максимально раскрывающую потенциал страны в экономической и политической сферах, определяет предпосылки и приоритеты ее успешной реализации. В этом смысле, несомненно, общенациональный лидер Азербайджана Гейдар Алиев определил путь развития страны. Учитывая все это, в статье говорится о роли общенационального лидера Азербайджана Гейдара Алиева в развитии экономики страны и рыночной инфраструктуры.



***Ключевые слова: общенациональный лидер, Гейдар Алиев, инфраструктура, экономика, интенсивное развитие.***



***Samira Yashar Mammadova***
***Ph.D-Assoc. Prof., ACU,***
***mamedova.samira64@gmail.com***
***https://orcid.orq/ 0000-0002-1814-5844***


**The role of national leader Heydar Aliyev in the development of market infrastructure of Azerbaijan**


***Summary***

The national leader factor is one of the primary factors determining the level of development of every state, regardless of its economic potential, in modern times. The nationwide leader phenomenon defines a progressive development model that maximizes the potential of the country in the economic and political spheres and defines the preconditions and priorities for its successful implementation. In this sense, there is no doubt that Heydar Aliyev, the national leader of Azerbaijan, determined the country's development path. Considering all this, the article talks about the role of the national leader of Azerbaijan Heydar Aliyev in the development of the country's economy and market infrastructure.



***Keywords: National leader, Heydar Aliyev, infrastructure, economy, intensive development.***

UOT-3.311

***Mehriban Kərəm qızı TAĞIYEVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Maliyyə və bank işi" kafedrasının müdiri i.f.d.,dos***
***mehriban.tagiyeva.79@mail.ru***

# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK ÜSULLA HESABLANMASININ MÜTƏRƏQQİ ÜSULLARI

***Xülasə***

Məqalədə Respublikamızda fəaliyyət sahələrinin işinin səmərəliliyinin və makroiqtisadi göstəricilərin artırılması yolları öyrənilir. Makroiqtisadi göstəricilərin müqayisəli təhlili aparılıb və sistemli yanaşma həyata keçirilir. Fəaliyyət sahələrində ümumiləşdirici göstəricilər sisteminin köməyi ilə makroiqtisadi göstəricilərin artırılması yolları müəyyənləşdirilir.

***Açar sözlər: makroiqtisadi göstəricilər, qeyri-neft sektorları, maliyyə statistikası, gəlirlər, xərclər, ümumiləşdirici göstəricilər sistemi.***

***

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan böyük siyasətçi və dövlət xadimi, ümummilli lider Heydər Əliyev tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, zəngin dövlətçilik nümunəsi göstərmişdir. Bir çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünmüş, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi məhəbbət, yaddaşlarda əbədiyaşarlıq qazanıb. Müasir tariximizə ən böyük siyasətçi kimi həkk olunmuş Heydər Əliyev dövrün ən sərt və çətin sınaqlarından keçərək, xalqımıza milli dövlətçilik ənənələrini vahid sistem halına salaraq özünütəsdiq imkanı qazandırıb.

Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsi, aparılan iqtisadi islahatlar, ölkə iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli mühit yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın inkişafı və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan dövləti daxili bazarın inkişafı və fəaliyyəti üçün çevik infrastrukturun yaradılması, biznes və sahibkarlıq fəaliyyətinin inkişafı, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, maliyyə – kredit, bank işi, pul tədavülünün yenidən qurulması, yeni iş yerlərinin açılması, inflyasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü iş aparır. Respublikamızda xidmət sferalarının, istehsal sahələrinin daha da genişləndirilməsi ümumi daxili məhsulun yüksəlməsinə zəmin yaradıb. Bu müvafiq işlərin gerçəkləşməsində dövlət öz funksiyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir. Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasət artıq öz bəhrəsini verir və bu xalqın maddi rifahının daha da yüksəldilməsi ilə müşayiət olunur. Nəhayət, Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst bazar iqtisadiyyatı, ölkədə sahibkarlıq fəaliyyəti və biznesin inkişaf etdirilməsidir. Bütün bunlar öz növbəsində makroiqtisadi göstəricilərin artmasına və bununla da dövlət büdcəsinin gəlirlərinin yüksəlməsinə müsbət təsirini göstərəcək.

Milli Hesablar Sistemi (MHS) makrosəviyyədə iqtisadi proseslərin ən ümumi tərəflərini və nəticələrini təhlil və təsvir etmək üçün istifadə edilən göstəricilər və təsnifatların qarşılıqlı əlaqədə olan sistemidir. MHS iqtisadiyyatın makrostatistik modelidir. MHS-nin qurulmasında məqsəd təkrar istehsal prosesinin bütün mərhələlərində iqtisadiyyatın inkişafının ümumiləşdirici göstəricilərini və bu göstəricilər arasındakı qarşılıqlı əlaqələri formalaşdırmaqdan ibarətdir. [2.səh.246]

MHS-nin qurulmasında əsas məqsəd iqtisadiyyatın quruluşu,iqtisadi proseslərin müxtəlif tərəfləri haqqında ən mühüm informasiyanı əldə etməkdir.Bunun üçün MHS-də müxtəlif təsnifatlardan istifadə edilir.Bunlara aiddir:

1. İqtisadiyyatın sektorları və sahələri üzrə institusional vahidlərin təsnifatlaşdırılması;

2. İqtisadi əməliyyatların təsnifatlaşdırılması;
3. Aktiv və passivlərin təsnifatlaşdırılması;
4. Mal və xidmətlərin təsnifatlaşdırılması;
5. Təyinatına görə dövlət idarəetmə orqanlarının xərclərinin təsnifatlaşdırılması;
6. Vergi və subsidiyaların təsnifatlaşdırılması.

İqtisadiyyatın fəaliyyət nəticələrini xarakterizə edən əsas makroiqtisadi göstərici Ümumi Daxili Məhsuldur (ÜDM). Ondan beynəlxalq müqayisəlilikdə,makrosəviyyədə əməyin məhsuldarlığını və istehsalın səmərəliliyinin digər göstəricilərini hesablayarkən istifadə edilir. ÜDM hər hansı bir dövrə ölkənin iqtisadi ərazsində yaradılmış mal və xidmətlərin dəyərini əks etdirir.

Fikrimizcə, ÜDM-in müxtəlif üsullarla hesablanmasını səmərəli hesab etmək olar:

I. Mal və xidmətlərin istehsalı mərhələsində:

1. Bazar qiymətlərində ÜDM bərabərdir əsas qiymətlərdə mal və xidmətlərin ümumi buraxılışı çıxılsın aralıq istehlakın ümumi dəyəri, üstəgəl əlavə dəyər vergisi və idxala xalis vergilər,yəni

ÜDM=ÜB-Aİ+ƏDV+İXV

2. Bazar qiymətlərində ÜDM bərabərdir iqtisadiyyatın sahələrinin əlavə edilmiş dəyərinə (yəni ƏDV-siz məhsula və idxala xalis vergilər daxil edilməklə).

ÜDM=ÜƏD

Bu zaman sahələr üzrə ÜƏD bazar qiymətlərində ÜB ilə aralıq istehlakın fərqi kimi hesablanır:

ÜƏD=ÜB-Aİ

3. Bazar qiymətlərində ÜDM bərabərdir iqtisadiyyatın sektorları üzrə bazar qiymətlərində ÜƏD-nin cəminə.

ÜDM=ÜƏD

Bu metodla ÜDM-in hesablanması hər bir sahənin(sektorun) payını,iqtisadiyyatın inkişafının xarakterini və sahəvi quruluşunu əks etdirməyə imkan verir.

II. Bölgü mərhələsində ÜDM bölgü metodu ilə hesablanır.Bu mal və xidmətlərin istehsalçılarının arasında bölünəsi ilkin gəlirlərin cəmi kimi xarakterizə olunur.Yəni

ÜDM=ƏH+İSXV+İDXV+ÜM+ÜQG

Son illərdə Azərbaycan Respublikasında iqtiasi inkişaf siyasəti iqtisadi islahatların dərinləşdirilməsi, mövcud potensialın gücləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi əsasında ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasına, başqa sözlə, ölkənin sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsi və artırılmasına xidmət etmişdir. Fikrimizcə, iqtisadi inkişaf sahəsində əldə olunmuş bu nailiyyətləri aşağıdakılardan ibarət hesab etmək olar:

- makroiqtisadi sabitliyin qorunub saxlanılması və dinamik iqtisadi artımın davamlılığının təmin edilməsi;
- iqtisadiyyatın idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi;
- milli iqtisadiyyatın dünya təsərrüfatı sisteminə səmərəli inteqrsiyası istiqamətində işlərin gücləndirilməsi və s.

Ölkənin iqtisadi vəziyyətində baş verən bu dəyişikliklər statistik göstəricilər vasitəsilə qiymətləndirilir və əsas inkişaf meyilləri müəyyənləşdirilir. [3.səh.305].

Statistikanın əsas vəzifələrindən biri də məhz göstəricilər sistemi vasitəsilə iqtisadi prosesin əsas nəticələrini vermək,iqtisadi artımın tempini müəyyənləşdirməkdən və s.ibarətdir. Buna görə də ölkənin sosial-iqtisadi inkişafını əks etdirən göstəricilərin statistik üsullarla hesablanması zəruridir.

Milli Hesablar – balans qaydasında, qarşılıqlı əlaqədə olan cədvəllər dəstidir. Milli hesabların qurulması metodu mühasibat hesabında olduğu kimidir. Hər bir hesab ikitərəfli cədvəl şəklində balansdır və hər bir əməliyyat iki dəfə – ehtiyatarlarda (resurs) və istifadədə əks etdirilir. Hesabın hər bir tərəfində əməliyyatların yekunu növbəti hesabın resurs maddəsi kimi çıxış edən balanslaşdırıcı maddənin köməyi ilə balanslaşdırılır. [2. səh. 124]

MHS-də daxili və milli iqtisadiyyat anlayışlarından istifadə edilir və bunlara müvafiq olaraq Ümumi Daxili Məhsul və Ümumi Milli Məhsul göstəriciləri hesablanır.Bu kateqoriyaları fərqləndirmək üçün aşağıdakı anlayışlardan istifadə edilir:

- iqtisadi ərazi;
- rezident;
- iqtisadi maraq mərkəzi.

İqtisadi ərazi dedikdə istehsal amillərinin sərbəst yerdəyişməsi baş verən ərazi başa düşülür. Ölkənin iqtisadi ərazisinə həmçinin aşağıdakılar da aid edilir. [3, səh. 128]:

- hava məkanı,beynəlxalq sularda ölkənin ərazi suları. Əgər ölkənin orada istifadəyə müstəsna hüququ vardırsa;
- xaricdə "ərazi anklavı", yəni ölkənin, hökumət idarələrinin diplomatik,hərbi,elmi yaxud digər məqsədlər üçün digər ölkələrdə istifadə etdiyi ərazilər (icarə yaxud mülkiyyət əsasında);
- ölkənin öz sərhəddindən kənarda fəaliyyət göstərən müəssisələr, "sərbəst (azad) zonaları". Onların fiziki yerləşdiyi ərazi fəaliyyət göstəriciləri ölkənin iqtisadi ərazisinə aid edilir.

Ölkənin iqtisadi ərazisinə başqa ölkənin yaxud beynəlxaq təşkilarların ərazi anklavı daxil edilmir.

Ölkənin rezidentində həmçinin həmin ölkənin ərazisində yerləşən səfirliklərdə işləyən ölkə vətəndaşlarına aid edilir.

Xarici tələbələrə, öz ölkələri ilə iqtisadi əlaqələrini itirsələrdə belə təhsil müddətindən asılı olmayaraq gəldikləri ölkənin rezidentləri kimi baxılır. Həmin ölkənin hüdudlarından (sərhəddindən) kənarda fəaliyyət göstərən hava nəqliyyatı vasitələrinin və gəmilərin heyəti həmin ölkənin ev təsərrüfatı rezidentlərinin üzvləri kimi qalır və həmin ölkənin rezidentinə aid edilir. Həmin ölkədə yerləşən beynəlxalq təşkilatın əməkdaşları əgər orada olma müddəti bir ildən çoxdursa onda beynəlxalq xidmətçi kimi işlədiyi ölkənin rezidentlərinə aid edilir.

Digər ölkələrdə müvəqqəti işləyən ölkənin tikinti briqadası, tikinti müəssisəsi yerləşdiyi ölkənin rezidentinə aid edilir. Deməli, daxili iqtisadiyyat ölkənin iqtisadi ərazisindəki həm rezidentlərin, həm də qeyri-rezidentlərin, milli iqtisadiyyat isə onların yerləşməsindən asılı olmayaraq rezidentlərin fəaliyyətini əhatə edir.

Sektorlar üzrə iqtisadiyyatın təsnifatlaşdırılması gəlir və xərclərin, maliyyə aktiv və passivlərinin axınını öyrənmək məqsədilə həyata keçirilir.

Bu qruplaşdırma üçün təsnifat vahidi kimi institusional vahid çıxış edir.İnstitusional vahid dedikdə mühasibat hesabının tam dəstini həyata keçirən və hüquqi şəxs olan, yəni, sərbəst qərar qəbul edən və öz maddi və maliyyə ehtiyatlarına müstəqil sərəncam verən təsərrüfat subyekti başa düşülür. Sektor iqtisadi prosesdə yerinə yetirdiyi funksiyalar və xərclərin maliyyələşdirilməsi üsulu baxımından eyni olan institusional vahidlər qrupudur.

İqtisadi davranışın tipinə uyğun olaraq institusional vahidlər aşağıdakı sektorlarda birləşdirilir: [4.səh.98]

1. "Qeyri-maliyyə müəssisələri"sektoru;
2. "Maliyyə idarələri"sektoru;
3. "Dövlət idarələri" sektoru;
4. "Ev təsərrüfatlarına xidmət edən ictimai təşkilatlar" sektoru;
5. "Ev təsərrüfatları" sektoru;
6. "Xarici iqtisadi əlaqələr" ("Qalan dünya") sektoru

Digər təsnifat iqtisadiyyatın sahələri üzrə təsnifatıdır.Sahələr üzrə qruplaşdırma istehsal prosesini, mal və xidmətlərin ehtiyatları ilə istifadəsi arasındakı balansı öyrənmək üçün həyata keçirilir. Sahəvi təsnifatlaşdırmada vahid, müəssisə, yəni istehsal edilən məhsul baxımından eyni olan vahidlər çıxış edir. Bu cür vahidlərin sahələr üzrə qruplaşdırılması həmin vahidlərin institusional statusundan asılı olmayaraq istehsal münasibətlərinin texniki-iqtisadi tərəfini nəzərdə tutur.

Beləliklə,bu cür təsnifatlaşdırılmalar ölkə səviyyəsində iqtisadi proseslərin ümumi mənzərəsini səciyyələndirməyə və ən mühüm nəticələrini aşkar etməyə imkan verir. Qeyri-neft sektoruna dəstək məqsədilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" hazırlandı. Bu fundamental sənəd iqtisadiyyatda sadəcə özəl sektorun deyil, həm də kiçik və orta biznesin rolunun artırılmasına böyük dəstək verəcək. Yol xəritəsinin vəzifəsi uzun müddət neft sektorunun hesabına inkişaf edən Azərbaycan iqtisadiyyatını balanslaşdırmaqdır. Bunun üçün hökumət iqtisadiyyatın "avanqard" sektoruna fokuslanmağı və əsas diqqəti hasilata deyil, emala, dövlət biz-

nesinə deyil, şəxsi biznesə, az gəlirli bazarlara deyil, yüksək gəlirli işlərə, yüksək ixtisaslı iş qüvvəsinin formalaşdırılmasına yönəldəcək. Sənəd üç dövrü əhatə edir: 1) 2020-ci ilə qədər, 2) 2025-ci ilə qədər 3)2025-ci ildən sonra.

Ümumiyyətlə, Azərbaycanda ötən 8 ildə qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da, son illər qeyri-neft sektoruna diqqət artırılıb. Ən əsası neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə hesablanmış xərclənmə strategiyası özünü doğruldub. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım baş verib.

İqtisadiyyatın fəaliyyət nəticələrini xarakterizə edən əsas makroiqtisadi göstərici Ümumi Daxili Məhsuldur (ÜDM). Ondan beynəlxaq müqayisəlilikdə, makrosəviyyədə əməyin məhsuldarlığını və istehsalın səmərəliliyinin digər göstərcilərini hesablayarkən istifadə edilir. ÜDM hər hansı bir dövrə ölkənin iqtisadi ərazisində yaradılmış mal və xidmətlərin dəyərini əks etdirir.

Mal və xidmətlərin istehsalı mərhələsində ÜDM-i müxtəlif üsullarla hesablaya bilərik.

1) Bazar qiymətlərində ÜDM bərabərdir əsas qiymətlərdə mal və xidmətlərin ümumi buraxılışı, çıxılsın aralıq istehlakın ümumi dəyəri, üstəgəl əlavə dəyər vergisi və idxala xalis vergilər,yəni

ÜDM=ÜB-Aİ+ƏDV+IXV

2) Bazar qiymətlərində ÜDM bərabərdir iqtisadiyyatın sahələrinin əlavə edilmiş dəyərinə (yəni ƏDV-siz məhsula və idxala xalis vergilər daxil edilməklə).

ÜDM=ÜƏD

Bu zaman sahələr üzrə ÜƏD bazar qiymətlərində ÜB-ilə aralıq istehlakın fərqi kimi hesablanır:

ÜƏD=ÜB-Aİ

Bu metodla ÜDM-in hesablanması hər bir sahənin(sektorun) payını,iqtisadiyyatın inkişafının xarakterini və sahəvi quruluşunu əks etdirməyə imkan verir.

Statistikada qeyd edilən metodlar üzrə hesablanmış ÜDM arasındakı kənarlaşma "Statistik kənarlaşma (fərq) " maddəsi ilə bərabərləşdirilir.

Yuxarıdakılara əsasən qeyd etmək olar ki,hesabat dövründə ölkədə ümumi makroiqtisadi sabitlik qorunub saxlanılmış və son illər müşahidə olunan dinamik iqtisadi artımın davamlılığı təmin edilmişdir.

Beləliklə, deyilənlərə əsaslanaraq, belə qənaətə gəlmək olar ki, MHS-nin mühüm göstəricilərindən biri aralıq istehlakdır ki, onun köməyi ilə bir çox makroiqtisadi göstəricilər hesablanır. Ona görə də aralıq istehlakın tərkibini genişləndirib xərc kimi hesab olunan bir çox ünsürlərin ora daxil edilməsi məqsədəuyğundur. Sonda bütün bu təhlil və fikirlərə yekun vuraraq qeyd edək ki, Azərbaycan dövlətinin müasir dövrə uyğun inkişafı, ölkənin iqtisadi qüdrətinin güclənməsi, nəhəng regional layihələrin həyata keçirilməsi işlərinə öz töhfəsini verməkdədir. Bununla da müstəqil dövlətimizin sosial-iqtisadi siyasəti iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində aparıcı amilə çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində müasir Azərbaycanımızda yerli istehsal, sənaye sahələri, idman və turizm, kənd təsərrüfatı inkişaf etmiş və buna uyğun da makroiqtisadi göstəricilər artmış və əhalinin sosial vəziyyəti yaxşılaşmışdır.

Prezident İlham Əliyev tərəfindən imzalanmış "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanın çox böyük əhəmiyyəti var.

Qeyd edək ki, Strateji Yol Xəritəsi milli iqtisadiyyatımızın yaxın, orta və uzunmüddətli dövrdə dinamik inkişafına real zəmin yaradacaq. Bəllidir ki, strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Fərmana əsasən, milli iqtisadiyyat perspektivi və onun 11 prioritet sektoru üzrə strateji yol xəritələrinin müəyyənləşdirilməsi Azərbaycanın yaxın, orta və uzunmüddətli perspektivdə inamlı inkişafını təmin edəcək. Milli iqtisadiyyat və onun 11 sektoru üzrə strateji yol xəritələri müəyyənləşdirilərkən indiki dövrdə meydana çıxan yeni çağırışlar və qarşıda duran prioritet vəzifələr nəzərə alınıb. Bəhs olunan Fərmanla təsdiqlənən strateji yol xəritələrində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin reallaşdırılması ilə bütövlükdə milli iqtisadiyyatımız, onun aparıcı sektorları tamamilə yeni və daha möhkəm əsaslar üzərində inkişaf edəcək. Xüsusilə qeydt etmək istəyirik ki, Prezident İlham Əliyevin imzaladığı

müvafiq Fərmanda nəzərdə tutulan tədbirlər ölkədə investisiya və rəqabət mühitini daha da yaxşılaşdırmaqla iqtisadi aktivliyin artmasına müsbət təsir göstərəcək. Ölkəyə sərmayə yatırımını çoxaltmağın, investisiya cəlbediciliyinin artırılmasının başlıca şərti biznes mühitinin təkmilləşdirilməsidir. Strateji hədəflərdən biri olaraq müəyyən olunan əlverişli biznes mühitinin inkişafı ölkəmizə investor inamını yüksəltməklə iqtisadiyyata sərmayə qoyuluşu imkanlarını daha da genişləndirəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycanın Statistik Göstəriciləri 2022.
2. O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. “Sosial-iqtisadi statistika” I hissə. Dərslik, Bakı-2014.
3. O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. “Sosial-iqtisadi statistika” II hissə. Dərslik, Bakı-2014.
4. Ə.İ.Əliyev “Statistika” Bakı-2010.



***Мехрибан Керем кызы Тагиева***
***д.ф.э., доц. Заведующий кафедрой***
***“Финансы и банковское дело”***
***Азербайджанского Университета Кооперации***


## Передовые методы статистического расчета макроэкономических показателей


***Резюме***

Статья посвящена изучению путей повышения эффективности направлений деятельности и макроэкономических показателей в нашей республике. Проведен сравнительный анализ макроэкономических показателей и реализован системный подход. Пути повышения макроэкономических показателей определены с помощью системы обобщающих показателей по сферам деятельности.



***Ключевые слова: макроэкономические показатели, ненефтяные отрасли, финансовая статистика, доходы, расходы, система обобщающих показателей.***



***Mehriban Kerem Tagiyeva***
***Head of the Department “Finance and Banking” of the***
***Azerbaijan University of Cooperation, Ph.d.ec., Assoc.***


## Advanced methods of statistical calculation of macroeconomic indicators


***Summary***

The article deals with the study of the way to increase the efficiency of the activity areas and macroeconomic indicators in our Republic. A comparative analysis of macroeconomic indicators was carried out and a systematic approach was implemented. Ways to increase macroeconomic indicators have been determined with the help of a system of summarizing indicators in the fields of activity.



***Key words: macroeconomic indicators, non-oil sectors, financial statistics, income, expenditure, summarizing indicators system.***

UOT- 33.657

***Adilə Firdovsi qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Mühasibat uçotu və audit" kafedrası, i.f.d., dos.,***
***E-mail: adilememmedova1967@gmail.com***

# İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞMASI İSTİQAMƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ

***Xülasə***

Məlumdur ki, iqtisadiyyatda baş verən dərin və səmərəli dəyişikliklər yalnız investisiyaların yeni idarəetmə mexanizmlərinin formalaşması və fəal istifadəsi zamanı mümkündür.

Ulu öndər Heydər Əliyevin ideyaları bu gün də Azərbaycan hökuməti tərəfindən uğurla reallaşdırılıb və daima yüksək nəticələr əldə edib. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi yoxdur ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Bu prinsiplər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca hədəflərini təşkil etmiş və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlara imza atılmışdır.

İqtisadiyyatın proporsional və balanslaşdırılmış inkişafının təmin olunması, effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına şərait yaradıb. Bu baxımdan məqalədə iqtisadiyyatda baş verən səmərəli dəyişikliklər zamanı investisiyaların yeni idarəetmə mexanizmlərinin formalaşması və fəal istifadəsinin mümkün olması istiqamətləri öz əksini tapmışdır.

***Açar sözlər: investisiya siyasəti, investisiya strategiyası, iqtisadi dirçəliş, maliyyə vəziyyəti.***

***

Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəlişi, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxası ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına dərin əsaslar yaratmışdır. Bu mənada, demək olar ki, ümummilli liderimizin ideyaları Azərbaycanın dünəni, bu günü, eləcə də gələcəyinə hesablanmış fəaliyyət proqramı, strategiyası və dövlət konsepsiyasıdır [ 1.səh 2 ].

Azərbaycan ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanıb. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda, milli liderin olmasını tələb edirdi. Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, ölkənin ərazi bütövlüyünü və tam suverenliyini təmin etmək, respublika vətəndaşlarının rifahını yaxşılaşdırmaq Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, eləcə də səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikalar sırasında ön yerlərdən birini tutmasına gətirib çıxartmışdı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna ittifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik və iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edirdi. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Ulu öndərin bu fəaliyyəti Azərbaycanın gələcək nəsillərinin xoşbəxt və firavan həyatının

təməlini qoymuşdu. Ulu öndərin yenidən rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar olmuşdu, atəşkəs əldə edilmişdi və irimiqyaslı iqtisadi islahatlara start verilmişdi. Nəticədə ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı və xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı [ 2.səh 4].

Ümummilli lider Heydər Əliyev Azərbaycanı dünya siyasətinin coşqun okeanında passiv müşahidəçi kimi yox, öz dividendlərini və əsaslandırılmış üstünlüklərini müəyyən etməyi bacaran fəal siyasi dövlət olaraq görürdü. Azərbaycanın xarici siyasəti onun real müstəqilliyini təşkil etməklə yanaşı, bu siyasətin azimutlarının müxtəlifliyi onun ardıcıllığına və fasiləsizliyinə zəmanət verirdi. Ümummilli lider Heydər Əliyev əsas səylərini müflisləşmiş siyasətin nöqsanlarının aradan qaldırılması məsələləri üzərində cəmləşdirmişdi.

Müstəqil Azərbaycanın ərazi bütövlüyünün və milli maraqların müdafiəsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya məsələlərini əhatə etməsi, xarici siyasət konsepsiyasının logistikası məhz Heydər Əliyev tərəfindən məqsədyönlü şəkildə formalaşmışdır. Nüfuzlu xarici ekspertlərin çoxunun təsdiq etdiyi kimi, Azərbaycanın gələcək dinamik inkişafı üçün baza rolu oynayan çoxvektorlu, tarazlaşdırılmış və praqmatik xarici siyasət sayəsində struktur xarakterli bir sıra məsələlər həll edilmişdir. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət gələcək illər üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan vermişdir.

Dövlət investisiya proqramının əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun dinamik inkişafı, əhalinin iqtisadi və sosial tələbatlarının daha dolğun təmin olunması, ölkənin iqtisadi təhlükəsizliyinin təşkili məsələləri, ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsi məsələlərindən ibarətdir.

Ölkədə investisiya fəaliyyəti ilə məşğul olmaq marağı ilk növbədə investisiya fəaliyyətinə olan tələbatdan irəli gəlir. Əsasən investisiya fəaliyyətinə olan maraq və tələbat amilləri daha çox inkişaf etməkdə olan ölkələrə xasdır. Belə ki, bu iqtisadiyyatdakı tənəzzülün qarşısının alınması və onun inкişaf etdirilməsi marağı və tələbatından doğan zəruri şərtlərdir. İnvestisiya fəaliyyəti zamanı investisiya subyeкtlərinin öz maliyyə vəsaitlərinin banкlarda deyil, birbaşa olaraq təsərrüfat sahələrinə cəlb edilməsi üçün hüquqi təminat olmalıdır. Hüquqi təminat dediкdə, dövlətin müvafiq qanun, qərar və normativ aktlar vasitəsilə xarici investisiyaların milliləşdirilməsini, onların təminatına zəmanətin verilməsini, investisiya fəaliyyəti ilə məşğul olmaq üçün zəruri olan şəraitin yaradılmasını başa düşmək lazımdır.

İnvestisiya mühiti uzunmüddətli vəsait qoyuluşu, rəqabət mühitinin inkişafı, antiinhisar tədbirləri, istehsala mənfəət gətirən qoyuluşların təmin edilməsi, onun regionlar və sahələr arasında sərbəst axınından və sair amillərdən asılıdır. Onu da qeyd edək ki, bu mühit həmçinin məqsədyönlü investisiya fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksinin təsiri altında təşəkkül tapır. İnvestisiya mühiti sosial-iqtisadi, siyasi və ya investisiyanı qaytaran maliyyə amillərinin məcmusudur [3, səh 6].

Milli iqtisadiyyat üçün önəmli olan cəhət istehsalın artımının təmin edilməsi baxımından investisiya mühitinin təşəkkülüdür. Digər mühüm amil maliyyə sabitliyidir. Bu sabitliyin əldə olunması xeyli dərəcədə investisiya ehtiyatlarının formalaşması və investisiya layihələrinin səmərəliliyinin təmin olunması və ümumən əlverişli investisiya mühitinin şərtləridir.

Ölkə iqtisadiyyatı üzrə bütövlükdə və onun ayrı-ayrı sahələrində investisiya proseslərinin idarə edilməsi onların inkişaf strukturunun dəyişməsinə və dinamikasına təsir edən amillərin kompleks tədqiqini tələb edir. İnvestisiyalar üzrə idarəetmə qərarlarının formalaşmasına təsir edən makroiqtisadi şəraitin öyrənilməsi zəruridir. İnvestisiya fəaliyyətinin başlıca məqsədi müəssisədə investisiya strategiyasının həyata keçirilməsinin ən səmərəli yollarını təmin etməkdən ibarətdir. İnvestisiya problemi ilə məşğul olan xarici ölkə alimləri investisiya fəaliyyətinin aşağıdakı mühüm məsələlərini ön plana çəkirlər:

İnvestisiya siyasətinin işlənilməsi və formalaşması;

Maliyyə təhlilinin aparılması;

Qiymətli kağızlar portfelinin formalaşması;

Qiymətli kağızlar portfelinin araşdırılması və seçilmiş növünün səmərəliliyinin qiymətləndirilməsi.

Dövlətin investisiya siyasətinin formalaşmasının elmi cəhətdən əsaslandırılmış prinsiplərinin işlənib hazırlanması zəruridir. Təsərrüfat subyektlərinin investisiya siyasətinin formalaşması prinsipləri investisiya proseslərinin idarə edilməsi metodologiyasının ən mühüm tərkib ünsürlərindən biridir. Bu prinsiplərin yaradıcılıqla istifadəsi bütövlükdə respublika və onun regionları, ümumilikdə iqtisadiyyat və onun sahələri üzrə məqsədli inkişaf proqramlarının maliyyələşdirilməsi üçün investisiyaların seçimi mexanizminin təkmilləşdirilməsinə kömək etməlidir.

İnvestisiya mühitinin təşkili xeyli dərəcədə özəl sektorun fəallığından, xüsusi çəkisindən, əlaqələrinin intensivliyindən, kiçik və orta sahibkarlığın inkişaf səviyyəsindən asılıdır. İnvestisiya maddi vəsait və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlər aşağıdakılardır :

pul, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və başqa qiymətli kağızlar;

daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);

müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;

bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu;

torpaqdan, sudan və digər təbii ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları və başqa sərvətlər.

Azərbaycan iqtisad elmində investisiya fəallığının stimullaşdırılmasının müxtəlif metodlarından istifadənin səmərəliliyi məsələləri kifayət qədər dərindən tədqiq olunmamışdır [4.səh 32]. Odur ki, texniki inkişaf sferasında artan rəqabət şəraitində investisiya potensialının qiymətləndirilməsi metodikasının işlənib hazırlanmasına ehtiyac vardır.

İqtisadi artımı sürətləndirmək üçün ümumi yığımı artırmaq zəruridir. Lakin yığım fondunun müəyyən səviyyədən çox artırılması labüd olaraq sosial problemlərin həllinin dondurulmasına, son nəticədə istehsalın inkişafının ləngiməsinə gətirib çıxarır. Yığımın müəyyən həddə qədər yüksəldilməsi iqtisadi inkişafın sürətlənməsinə gətirir, bundan sonra isə onun istehsalın inkişafına əks təsiri baş verir. Səmərəlilik aşağı düşür ki, bu da nəticə etibarilə, gəlirliliyin azalmasının qanunauyğun nəticəsi kimi çıxış edir. Bütün bu qeyd edilənlər ölkənin iqtisadi inkişafı üçün investisiyanın mühüm rol oynadığını və iqtisadiyyatın maliyyələşdirilməsinin həm xarici, həm də daxili mənbələri arasında optimal nisbətin gözlənilməsinin vacib olduğunu sübut edir.

İnvestisiya iqtisadiyyatın sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış etməklə real ümumi kapitalın artırılmasında, iqtisadi səmərəliliyin stimullaşdırılmasında, bir sözlə, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında mühüm rol oynayır. Onun istifadə nəticəliliyinin və yığım səviyyəsinin yüksəldilməsi real istehsalın canlandırılmasının və iqtisadiyyatın yeni sektorlarının yaradılması və inkişafının əsas təməli olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına və ölkənin milli sərvətinin artırılmasına zəmin yaradır [5.səh 2].

Hazırda yerli müəssisələrə xarici iqtisadi əlaqələrin bərabər hüquqlu iştirakçısı və tərəfdaşı olmaq ixtiyarı verilmişdir. Məhz bu imkandan istifadə edərək ölkə iqtisadiyyatının bütün sahələrində xarici tərəfdaşlarla faydalı iqtisadi əlaqələr yaradılır. Bu zaman hər bir müəssisə xarici iqtisadi əlaqələr amilinin üstünlüklərindən yararlanmağa can atır. Çox vaxt bunu ölkə iqtisadiyyatında gedən proseslərlə, xüsusilə də istehsalın bərpası və genişləndirilməsi üçün maddi-texniki təminatın, investisiya mənbələrinin və maliyyə vəsaitlərinin məhdudluğu ilə izah edirlər. Odur ki, dövlət və özəl sektorun mülkiyyətçiləri xarici iqtisadi əlaqələr yaradaraq ayrı-ayrı sahələrin, istehsal və qeyri-istehsal müəssisələrinin inkişaf yoluna qaytarılması məqsədilə investisiya cəlb etməyə çalışırlar. Bu istiqamətdə aparılan işlər artıq öz nəticəsini yanacaq-enerji kompleksinin, habelə ölkə iqtisadiyyatının əsas sahəsi olan neft və qaz hasilatı sahəsində vermişdir. Hazırda respublikamıza xarici investisiya axını davam edir və onun tətbiq dairəsi tədricən genişlənərək emal, tikinti və xidmət sahələrini əhatə etməkdədir. Araşdırmalar və inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, investisiya iqtisadiyyatın inkişafını müəyyən edən əsas amildir [6.səh 14]. Cəmiyyətin real kapitalının artması iqtisadiyyatın istehsal potensialını yüksəldir, istehsala, yeni texnologiyaya investisiya qo-

yuluşu kəskin rəqabət mübarizəsində fəaliyyət göstərməyə yardım edir və öz məhsullarına qiymətin daha çevik tənzimlənməsinə imkan verir.

Müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu, sivil demokratik cəmiyyətin, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə əlaqələndirilir. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu elə bir iqtisadi sistemdir ki, o, respublikamızın perspektiv inkişafını və xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmaq üçün güclü zəmin yaratmağa qadirdir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı (Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi)
2. Heydər Əliyev siyasi kursu Azərbaycan xalqının yeganə nicat yoludur ("Azərbaycan" qəzeti, 11.10.2003-cü il, "Qanunçuluq" jurnalı, N 9)
3. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin materialları. www.scs.gov.az
4. A.H.Abbasov "Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri". Bakı-2003.
5. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ nömrəli Qanunu.
6. S.Z.İsayev. "İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi" Dərs vəsaiti. Bakı. 2010.



***Адилы Фирдовси кызы Мамедова***
***доц. кафедра "Бухгалтерский учет и аудит"***
***Азербайджанского Университета Кооперации***
***adilememmedova1967@gmail.com***


## Деятельность великого лидера Гейдара Алиева в направлении улучшения инвестиционной среды


***Резюме***

Известно, что глубокие и эффективные изменения в экономике возможны только при формировании и активном использовании новых механизмов управления инвестициями.

Идеи великого лидера Гейдара Алиева сегодня успешно реализуются правительством Азербайджана и всегда достигают высоких результатов. Следует отметить, что в результате деятельности Гейдара Алиева в республике нет сферы жизни, где не наблюдается развития и прогресса. Эти принципы сформировали основные цели политики, проводимой Президентом Ильхамом Алиевым, достойным последователем великого лидера Гейдара Алиева, и под руководством главы государства он добился важных успехов в процессе формирования просоциальной, многоотраслевой Национальная экономика.

Обеспечение пропорционального и сбалансированного развития экономики, продвижение к эффективности, интенсификация рыночной экономики, применение новых механизмов либеральной экономики и другие реформы создали условия для повышения материального и морального благосостояния населения и создания социальной справедливости. В связи с этим в статье отражены направления формирования новых механизмов управления инвестициями и возможности их активного использования при эффективных изменениях в экономике.



***Ключевые слова: инвестиционная политика, инвестиционная стратегия, оздоровление экономики, финансовое положение.***

*Adila Firdovsi Mammadova*
*Head of "Accounting and audit" department of*
*Azerbaijan Cooperation University*
*Ph.D., Assoc. Prof.,*
*adilememmedova1967@gmail.com*

**The activity of the great leader Heydar Aliyev in the direction of improving the investment environment**

***Summary***

It is known that deep and effective changes in the economy are possible only when new investment management mechanisms are formed and actively used.

The ideas of the great leader Heydar Aliyev have been successfully implemented by the government of Azerbaijan today and have always achieved high results. It should be noted that as a result of Heydar Aliyev's activities, there is no area of life in the republic where development and progress are not observed. These principles formed the main goals of the policy implemented by President Ilham Aliyev, the worthy follower of the great leader Heydar Aliyev, and under the leadership of the head of state, he achieved important successes in the process of forming a pro-social, diversified national economy.

Provision of proportional and balanced development of the economy, progress towards efficiency, intensification of the market economy, application of new mechanisms of liberal economy and other reforms have created conditions for the improvement of the material and moral well-being of the population and the establishment of social justice. In this regard, the article reflects the directions for the formation of new investment management mechanisms and the possibility of active use during effective changes in the economy.

***Keywords: investment policy, investment strategy, economic revival, economic independence, financial situation, economic revival.***

**UOT: 330.35**

***Çingiz Allahyar oğlu İBRAHİMLİ***
***Azərbaycan Kooperasiya Universitetinin "Kommersiya" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent.***
***E-mail: chingiz.ibrahimli@aku.edu.az;***
***ORCİD: 0000-0002-3724-9999***

## AZƏRBAYCAN RESPUBLİKASINDA ELEKTRON ÖDƏNİŞ SİSTEMİNİN İNKİŞAFININ İQTİSADİ ARTIMA TƏSİRİ

***Xülasə***

Qlobal şəbəkə iqtisadiyyatının inkişafı iqtisadi subyektlərin elektron platformalarda fəaliyyətini mümkün edən infrastrukturun cəmiyyətin inkişaf səviyyəsinə uyğun və texnoloji baxımdan səmərəli təşkilindən asılıdır. Müasir şəraitdə elektron biznes və onun mühüm tərkib hissəsi kimi elektron kommersiya bazarının dinamik inkişafını şərtləndirən başlıca infrastruktur elementlərindən biri də elektron ödəmə sistemidir. Qloballaşan dünya iqtisadiyyatına inteqrasiyanın çağırışları, o cümlədən texnologiyaların vasitəsi ilə yaradılan təhlükələr elektron ödəniş sisteminin inkişafına yalnız mikroiqtisadi səviyyədə və ya istehsalçı-istehlakçı münasibətlərində deyil, ölkə iqtisadiyyatı səviyyəsində və onun şəraiti nöqteyi-nəzərindən yanaşılmasını tələb edir.

Məqalədə xarici və yerli mənbələrin məlumatları əsasında son illərdə qlobal elektron ticarətin və bu sahədə ödəniş əməliyyatlarının həcmi təhlil edilmiş, inkişaf perspektivləri araşdırılmışdır. Eyni zamanda, elektron ödənişlərin iqtisadi artımla əlaqəsinin müəyyənləşdirilməsi istiqamətində bu əlaqəyə təsir edən ölkələr üzrə xarakterik amillər öyrənilmişdir. Azərbaycanda son illərdə

nağdsız və elektron ödəniş sistemlərinin inkişaf meyilləri təhlil edilmiş, bu sahədə etibarlı, rahat və səmərəli vasitələrin tətbiqinin əhəmiyyəti əsaslandırılmaqla bir sıra təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: elektron ticarət, elektron ödəniş sistemi, iqtisadi artım.***

***

Müasir dövrdə dünya üzrə qloballaşma və rəqəmsallaşma proseslərinin genişlənməsi, elektron əməliyyatlarda yeni üsulların, texnoloji cəhətdən daha təkmil tətbiqlərin istifadəsi, habelə elektron ticarətin (e-ticarət) ölkələrin milli iqtisadiyyatlarının beynəlxalq iqtisadi sistemində rəqabət mübarizəsinin vacib alətinə çevrilməsi bir sıra vacib məsələlərin nəzərə alınmasını zərurətə çevirir. Belə ki, hazırda elektron ödəniş sisteminə yalnız ayrı-ayrı biznes subyektləri və fərdi istehlakçılar arasındakı hesablaşma forması kimi deyil, daha çox dövlətin cari və uzunmüddətli sosial-iqtisadi maraqlarının təmin edilməsi, davamlı iqtisadi artıma nail olunması vasitəsi kimi yanaşılmasına ehtiyac duyulur.

Hazırda İnternet üzərindən fəaliyyət göstərən elektron platformalar yalnız transmilli şirkətlərin deyil, istənilən bir ölkənin kiçik və orta sahibkarlıq subyektlərinə öz məhsul və xidmətlərini dünya bazarına çıxarmağa imkan verir. “Statista” şirkətinin qiymətləndirmələrinə görə 2022-ci ildə dünya üzrə elektron pərakəndə satışların həcminin 5,7 trilyon ABŞ dollarını keçəcəyi bidirilir. Bu istiqamətdə diqqət çəkən meyillərdən biri də, 2022-ci ilin sonunda dünya üzrə bütün pərakəndə veb-sayt ziyarətlərinin 70 faizindən çoxunun smartfonların payına düşməsidir.[11]

2021-ci ildə qlobal e-ticarət ödəniş əməliyyatlarının təxminən 50 faizi rəqəmsal və mobil pul kisələri tərəfindən həyata keçirilmişdir ki, 2025-ci ildə bu nisbətin 53 faizdən çox olacağı proqnozlaşdırılır. Rəqəmsal və mobil pul kisələri bütün dünyada onlayn alış-veriş üçün əsas seçim olsa da, bəzi bölgələrdə bu ödəniş üsulundan digərlərinə nisbətən daha çox istifadə edilir. Məsələn, 2020-ci ildə e-ticarət əməliyyatlarının təxminən 60 faizinin həyata keçirildiyi Asiya-Sakit Okean regionunda rəqəmsal və ya mobil pul kisəsi ən geniş yayılmış ödəniş üsulu olduğu halda Latın Amerikası ölkələrində onun əməliyyatlardakı payı cəmi 20 faiz təşkil etmişdir.[12]

Beləliklə, müasir həyatın davamlı rəqəmsallaşması fonunda bütün dünyada istehlakçılar onlayn əməliyyatların üstünlüklərindən yararlanırlar. Bu üstünlüklər elektron kommersiya (e-kommersiya) müəssisəsinin texnoloji prosesinə xas olan xüsusiyyətlərdən birini təşkil edən ödənişin rahatlığında ifadə olunur. “Elektron ödəniş sistemləri” və ya “elektron ödəmə xidmətləri sistemi” [7, s. 60] son illərdə dünyanın əksər ölkələrində cəmiyyətin gündəlik həyatına daxil olmuş və getdikcə əhatə dairəsi genişlənən elektron xidmətlərin bir növüdür.

“E-ticarətin həcminin artması yeni və fərqli maliyyə ehtiyaclarının yaranmasına səbəb oldu. Beləliklə, nağd pul sisteminin sürətlə yerini tutan elektron ödəniş sistemi meydana çıxdı. Elektron ödəniş (e-ödəniş) İnternetdə mal və ya xidmətlər üçün ödəniş kimi müəyyən edilə bilər. Buraya kompüterlər, smartfonlar və ya planşetlər kimi elektron cihazlardan istifadə edən bütün maliyyə əməliyyatları daxildir... “Mordor Intelligence”in hesabatına görə, qlobal rəqəmsal ödənişlər bazarının həcminin 2019-2025-ci illərdə 13,7%-lik orta illik artım temi ilə 3,885 milyard dollardan 8,686 milyard dollara qədər artacağı proqnozlaşdırılmışdır”. [10, s. 409]

Müasir dövrdə e-ödəniş sisteminin inkişafına yalnız mikroiqtisadi səviyyədə və ya istehsalçı-istehlakçı münasibətlərində deyil, ölkə iqtisadiyyatı səviyyəsində və onun qloballaşan dünya iqtisadiyyatına inteqrasiyasının doğurduğu şərait nöqteyi-nəzərdən yanaşılması vacibdir. Belə ki, digər səbəblərlə yanaşı, “...ödəniş sistemlərinin formalaşması xərclərin azaldılması və dövlətin ödəniş infrastrukturunun işinin təkmilləşdirilməsi zərurətindən irəli gəlir.” [9, s. 261]

Beləliklə, e-kommersiyanın inkişafının e-ödənişlərə olan müsbət təsiri ilə bərabər, əksinə prosesin, yəni e-ödənişlərin ölkə iqtisadiyyatına, habelə e-kommersiyanın, o cümlədən e-ticarətin inkişafına olan təsirinin də nəzərə alınması vacib problemlərdən biri kimi diqqəti cəlb edir. Belə ki, bir sıra hallarda konkret olaraq B2C e-biznes seqmentinin inkişafında yeni təkan kimi çevik ödəniş sistemlərinin yaranması göstərilir. [8, s. 97]

E-ödəniş sistemlərinə məhz banklar vasitəsilə xidmət göstərməsi nəticəsində bütün vəsaitlərin dövriyyəsi burada baş verir ki, “...bu vəziyyət bankların aktivlərinin artmasına, gəlirlilik səviyyəsinin yüksəlməsinə və ən önəmlisi ucuz kredit qaynaqları əldə etməsinə imkan verir. Bu isə öz növbəsində, bank sisteminin resurs bazasının genişlənməsinə, faiz dərəcələrinin azalmasına,

iqtisadiyyata kapital qoyuluşu imkanlarının çoxalmasına şərait yaradır və nəticədə iqtisadi artımı sürətləndirir. [5]

E-ödəniş sisteminin davamlı inkişafı, yeni texnoloji nailiyyətlərin tətbiqi iqtisadiyyata yeni və mütərəqqi təsir vasitələrinin formalaşmasına səbəb olur ki, bu da makroiqtisadi səviyyədə idarəetmənin səmərəliliyini artırmağa və şəffaflığa nail olmağa imkan yaradır. Təsadüfi deyil ki, "...nağdsız ödəmələrin 10 faiz artması kölgə iqtisadiyyatının 5 faiz azalmasına şərait yaradır". [5]

Bir sıra tədqiqatçılar tərəfindən e-ödənişlərin iqtisadi artımla əlaqəsinin təhlili göstərmişdir ki, hər bir ölkə üzrə bu əlaqəyə təsir edən xarakterik amillər mövcuddur. Belə ki, məsələn, "...Səudiyyə Ərəbistanı üçün ÜDM-in artımı ilə elektron əməliyyatlar arasında yüksək korrelyasiya əmsalı orta və uzunmüddətli dövrdə davam etdiyi halda, İordaniya üçün bu əlaqə qısa müddətdə davam edir. Beləliklə, ...elektron əməliyyat siyasətinin hazırlanmasında beynəlxalq amillərdən daha çox ölkələrin özünəməxsus amillərinə önəm verilməlidir".[10, s. 413]

Azərbaycanda hələ 2001-ci ilin əvvəllərində Real Vaxt Rejimində (onlayn) Banklararası Hesablaşmalar Sisteminin, 2002-ci ilin sonlarından etibarən isə Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin istifadəyə verilməsi ödənişlərin əsas iştirakçıları olan qurumların, müəssisə və təşkilatların Milli Ödəniş Sisteminin infrastrukturuna inteqrasiyası üçün əlverişli zəmin yarandı.

Ümummilli Lider Heydər Əliyevin 09.01.2002-ci il tarixli 865 nömrəli sərəncamına əsasən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiqi e-ticarətin ölkəmiz üçün əhəmiyyətinin vaxtında və lazımınca qiymətləndirildiyini göstərir. Ümummilli Liderin 17.02.2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə təsdiq olunmuş Milli Strategiyada qeyd olunduğu kimi, "...Dünya bazarında elektron ticarətin rolunun artdığı müşahidə olunur və ümumiyyətlə, gələcəkdə ölkələrin rəqabət aparmaq qabiliyyəti onların informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadəsindən asılı olacaqdır". [1]

Milli Strategiyanın əsas vəzifələrinə və fəaliyyət istiqamətlərinə aid edilən "...elektron ticarətin formalaşdırılması və inkişaf etdirilməsi" üzrə aparılacaq əsas işlərdən biri də "...elektron ticarətin həyata keçirilməsi, elektron ödənişlərin geniş miqyasda istifadəsi üçün əlverişli şəraitin yaradılması" kimi göstərilmişdir.

Qeyd edilməlidir ki, Milli Strategiyanın müəyyənləşdirdiyi fəaliyyətin həyata keçirilməsi ölkəmizdə "...mülkiyyət formasından asılı olmayaraq bütün təşkilat və müəssisələr İKT-infrastrukturdan istifadə edəcək, ...ölkənin dünya elektron ticarəti və biznesi proseslərində birbaşa iştirakı təmin ediləcəkdir" kimi strateji nəticəyə nail olunmasına imkan yaratmışdır. Belə ki, ölkəmizdə son 20 ildə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər e-ticarət infrastrukturunun formalaşması və inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə olunmasını təmin etmişdir.

10 may 2005-ci il tarixində təsdiq edilmiş "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununa (maddə 1.0.1.) görə, "Elektron ticarət – informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən, İnternet şəbəkəsi vasitəsi ilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyət"dir. Bununla yanaşı, Qanuna əsasən, (Maddı 1.0.7.) "POS-terminal – ödəniş kartları vasitəsilə əməliyyatların aparılması, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün nəzərdə tutulmuş avadanlıq;" kimi müəyyən olunur. [3]

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2004-cü il tarixli 152 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi ilə ölkəmizdə e-ticarət infrastrukturunun formalaşması və inkişafı prosesləri də genişləndi. Lakin internet üzərində ödəmə sisteminin olmaması səbəbindən bu sahədə fəaliyyətə yalnız 2008-ci ildən başlandı. 2 dekabr 2008-ci il tarixində yerli "Silverkey" şirkəti tərəfindən Azərbaycanda ilk onlayn ödəmə sistemi - "GoldenPay" istifadəyə verildi. [6, 393]

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"ndan nağdsız ödənişlərin payının hər il 7 faiz artması, əksinə,

nağd ödənişlərin payının 5 il ərzində 74 faizdən 40 faizə qədər azalacağı proqnozlaşdırılırdı. "Visa" şirkətinin Qafqaz ölkələri üzrə regional meneceri K.Doroş 2019-cu ildə Azərbaycanda ödənişlərin məbləğinin əvvəlki ilə nisbətən 40 faiz, tranzaksiyaların sayının isə 41 faiz artdığını bildirmişdir.[5]

Azərbaycanda 2006-cı ildə 2070 ədəd, o cümlədən Bakıda 1719 ədəd, regionlarda isə, 351 ədəd POS terminal quraşdırıldığı halda, 2023-cü ilin yanvar ayı üçün müvafiq olaraq bu göstəricilər 79880 ədəd, 53799 ədəd və 26081 ədədə qədər artmışdır. Beləliklə, ölkədə quraşdırılmış POS terminalların ümumi sayı 3,9 dəfə artsa da, ümumilikdə quraşdırılmış avadanlıqların sayında Bakı şəhərinin xüsusi çəkisi 67,3%, regionların xüsusi çəkisi isə, 32,7% təşkil etmişdir. Müqayisə üçün bildirilməlidir ki, 2006-cı il üçün bu göstəricilər müvafiq olaraq Bakı şəhəri üçün 83%, regionlar üçün isə, 17% təşkil edirdi. [13] Beləliklə, 17 il ərzində regionlarda quraşdırılmış POS terminalların sayında 15,7%-lik artım müşahidə olunur. Bu cəhət regionlarda elektron ödəmə sistemlərindən istifadənin genişlənməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyini göstərir.

Azərbaycan Mərkəzi Bankının məlumatlarına görə, "...2022-ci il ərzində ölkə daxilində ödəniş kartları ilə aparılmış əməliyyatların ümumi həcmi 2021-ci il ilə müqayisədə 56% artaraq 56.4 mlrd. manat, o cümlədən nağdsız ödənişlərin həcmi 2.1 dəfə artaraq 24.4 mlrd. manat olmuşdur. Ödəniş kartları ilə aparılmış ölkədaxili əməliyyatlarda nağdsız hesablaşmaların xüsusi çəkisi 2022-ci il ilə müqayisədə 11.4% bəndi yüksələrək 43.2%-ə bərabər olmuşdur." [4]

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında nağdsız ödənişlərin həcminin artması ilə bağlı vacib addımların atılması nəzərdə tutulur. Məsələn, Sənəddə (1.2.2. Fəaliyyət istiqaməti: Maliyyəyə çıxışın artırılması) sahəsində "Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsinə dair tədbirlərin həyata keçirilməsi" ilə bağlı ödəniş kartları ilə aparılan əməliyyatlarda nağdsız əməliyyatların payının 2021-ci ildəki 31,8%-dən hər il 5% bənd artması yolu ilə nağdsız ödənişlərin həcminin artması nəzərdə tutulur. [2]

Ölkəmizdə son illərdə dövlət tərəfindən e-ödəniş sisteminin inkişafı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi fonunda hazırda aşağıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirəm:

- E-ödəniş sisteminin inkişafının iqtisadi artıma olan təsirinin tədqiqi yolu ilə əldə edilən nəticələr Azərbaycan Respublikasında, həm makroiqtisadi, həm də regional səviyyələrdə e-biznes infrastrukturunun təkmilləşdirilməsinə imkan yarada bilər;
- Ölkəmizdə e-ödənişlərin iqtisadi artıma real təsirini qiymətləndirmək üçün bir sıra göstəricilərdən (POS terminalların sayının və ya əməliyyatların həcminin Ümumi Daxili Məhsula nisbəti) istifadə edilə bilər;
- E-ödəniş sisteminin yeni texnoloji üsulların tətbiqi əsasında inkişafı müasir şəraitdə ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasında səmərəliliyi təmin edə bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)", Azərbaycan Respublikasının Prezidentinin 17.02.2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə təsdiq olunmuşdur: [Elektron resurs] https://e-qanun.az/framework/1969
2. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası". Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 saylı Sərəncamı ilə təsdiq edilmişdir: [Elektron resurs] https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf
3. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 10 may 2005-ci il № 908-IIQ, 16 dekabr 2016-cı il və28 dekabr 2018-ci il tarixli dəyişikliklərlə: [Elektron resurs] https://e-qanun.az/framework/10406
4. Nağdsız ödənişlərin həcmi 2,1 dəfə artıb, 13.02.2023: https://marja.az/99016/nagdsiz-odenislerin-hecmi-21-defe-artib

5. Piriyev C. Niyə məhz elektron ödəniş? 6 iyul 2020: https://www.digital.gov.az/digitalazerbaijan/az/blog/40/niye-mehz-elektron-odenis#
6. Süleymanov E., İbrahimova X. Azərbaycanda elektron ticarətin mövcud vəziyyətinin qiymətləndirilməsi / III International Scientific Conference Of Young Researchers Devoted To The 96-Th Anniversary Of Azerbaijani National Leader Heydar Aliyev April 29-30, 2019, Baku Engineering University, s. 391-397.
7. Корень, А.В. Налогообложение субъектов электронной коммерции : проблемы и перспективы [Текст] : монография. – Владивосток : Изд-во ВГУЭС, 2010. - 176 с.
8. Мошкин И.В. Электронный бизнес. Факторы социально-экономического развития в информационной экономике.//LAP LAMBERT Academic Publishing, 2011, 204 с.
9. Файзиев Р.М. Особенности функционирования электронных платежей в банковской сфере Республики Узбекистан // “Инновации и инвестиции”. № 2. 2023, с. 258-261.
10. Abdullah, Aldaas. A study on electronic payments and economic growth: Global evidences Accounting 7 (2021) 409–414 2021 by the authors; licensee Growing Science, Canada doi: 10.5267/j.ac.2020.11.010: [Elektron resurs] https://www.growingscience.com/ac/Vol7/ac_2020_172.pdf
11. E-commerce worldwide - statistics & facts Published by Marina Pasquali, Feb 27, 2023: [Elektron resurs] https://www.statista.com/topics/871/online-shopping/#topicOverview
12. Global e-commerce payment methods 2021 & 2025, by share of transaction volume. Published by Raynor de Best. Oct 17, 2022: [Elektron resurs] https://www.statista.com/statistics/1111233/payment-method-usage-transaction-volume-share-worldwide/#statisticContainer
13. https://www.cbar.az/page-45/payment-system-indicators

***Чингиз Аллахьяр оглы Ибрагимли,***
***Заведющий кафедрой “Коммерция”***
***Азербайджанского Университета Кооперации,***
***доктор философии по экономике, доцент,***
***E-почта: chingiz.ibrahimli@aku.edu.az;***
***ORCİD: 0000-0002-3724-9999***

## Влияние системы электронных платежей на экономический рост в Азербайджанской Республике

***Резюме***

Развитие глобальной сетевой экономики зависит от технологически эффективной организации инфраструктуры, позволяющей хозяйствующим субъектам работать на электронных площадках в соответствии с уровнем развития общества. В современных условиях система электронных платежей является одним из основных элементов инфраструктуры, что обусловливает динамичное развитие электронного бизнеса и рынка электронной коммерции как важной его составляющей. Вызовы интеграции в глобализованную мировую экономику, в том числе угрозы, создаваемые технологиями, требуют подхода к развитию электронной платежной системы не только на микроэкономическом уровне или в отношениях производитель-потребитель, а на уровне экономики страны и ее условий.

В статье проанализированы объемы мировой электронной коммерции и платежных операций за последние годы на основе данных из зарубежных и местных источников, а также рассмотрены перспективы развития. При этом для определения взаимосвязи электронных платежей и экономического роста были изучены характерные для стран факторы, влияющие на эту взаимосвязь. Проанализированы тенденции развития безналичных и электронных платежных систем в Азербайджане за последние годы, выдвинут ряд предложений, обосновывающих важность использования надежных, удобных и эффективных инструментов в этой сфере.

***Ключевые слова: электронная торговля, электронная платежная система, экономический рост.***

***Chingiz Allahiar Ibrahimli,***
***Azerbaijan Cooperation University,***
***head of the "Commerce" chair,***
***Doctor of Philosophy in Economy, Associate Professor,***
***E-mail: chingiz.ibrahimli@aku.edu.az;***
***ORCİD: 0000-0002-3724-9999***

## Impact of the system of electronic payments on economic growth in the Republic of Azerbaijan

***Summary***

The development of the global network economy depends on a technologically efficient organization of infrastructure that allows business entities to work on electronic platforms in accordance with the level of development of society. In modern conditions, the electronic payment system is one of the main elements of the infrastructure, which determines the dynamic development of electronic business and the e-commerce market as an important part of it. The challenges of integration into the globalized world economy, including the threats posed by technology, require an approach to the development of an electronic payment system not only at the microeconomic level or in producer-consumer relations, but at the level of the country's economy and its conditions.

The article analyzes the volume of global e-commerce and payment transactions in recent years based on data from foreign and local sources, and also considers development prospects. At the same time, country-specific factors influencing this relationship were studied to determine the relationship between electronic payments and economic growth. The trends in the development of non-cash and electronic payment systems in Azerbaijan in recent years have been analyzed, and a number of proposals have been put forward justifying the importance of using reliable, convenient and efficient tools in this area.

***Key words: e-commerce, electronic payment system, economic growth.***

**UOT 338**

***Gülnisə Əlisəfa qızı MUSTAFAYEVA***
***i.f.d. dos., Azərbaycan Kooperasiya Universiteti***
***"Marketinq"kafedrasının müdiri***
***glnisa.mustafayeva@mail.ru***
***https://orcid.org/my-orcid?orcid=0009-0005-6843-3245***

## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN İQTİSADİYYATININ BANİSİDİR

***Xülasə***

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin dirçəlməsi üçün bütün sahələri, o cümlədən iqtisadi sahənin yaradılması məqsədi ilə suveren hüquqlarını bərpa etmək, müstəqil hüquq və iqtisadi qanunlarını yaratmaq və müstəqil siyasət aparmaga başladı. Məhz bu dövrdə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin bütün sahələrində, o cümlədən iqtisadi həyatında mühüm dəyişikliklərin əsasını qoymuş oldu. Onun apardığı siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

***Açar sözlər: Heydər Əliyev, müstəqillik, iqtisadi dirçəliş, bazar iqtisadiyyatı, inteqrasiya.***

***

Respublikanın sosial-iqtisadi, sosial-mədəni həyatını əhatə edən bütün sahələrin inkişafı Ulu öndərin adı ilə bağlıdır. Məhz dünyaşöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin titanik səyləri, qətiyyəti, yenilməz siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti yarandı, ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutdu. Onun dəmir siyasi iradəsi sayəsində həyata keçirilən dərin islahatlar bu gün yeni davamlı inkişaf yoluna qədəm qoyan Azərbaycan Respublikasının qlobal miqyasda layiqli yer tutmasında müstəsna rol oynamışdır.

Müstəqillik əldə etdikdən bu günə kimi iqtisadi inkişafı iki əsas mərhələyə bölmək olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən xaos və ya tənəzzül dövrü, ikincisi, 1996-cı ildən başlayan və bu gün də davam edən makroiqtisadi sabitlik və iqtisadiyyatın dinamik inkişafı dövrü idi.

"Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat və sahibkarlıq yoludur" - deyən Ulu öndərin gərgin əməyi nəticəsində iqtisadiyyatın keyfiyyətcə yeni mərhələsinin başlanması, özəl sektorun sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirilməsi, güclü sahibkarlar təbəqəsinin formalaşması, bu məqsədlə 1997-2003-cü illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatının yaradılması, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazasının formalaşdırılması, investisiyaların təşviqi üçün respublikada münbit şərait yaradılması, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə edilməsi, xarici kapital qoyuluşunun enerji sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına yönəldilməsi Ulu öndərin misilsiz xidmətlərindəndir. [4, səh. 8.]

SSRİ dağıldıqdan sonra ilk müstəqillik mübarizəsində qalib gələn xalq öz liderinin ətraflnda cəmləşərək müstəqil və qüdrətli dövlətin quruculuguna başlamış oldu. Vətəninə və xalqına bağlı olan Heydər Əliyaev milli mənafeyi və dövlətçilik maraqlarına sadiq qalaraq müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi təməlini qoymaq üçün daim fədakarlıqla çalışmışdır.

Ulu öndər ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçidlə islahatlar həyata keçirməsinin olduqca çətin və mürəkkəb olduğunu bildirirdi: "Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir [5, səh. 6].

Müstəqillik əldə etdikdən sonra 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. Bu müqavilənin baglanması yeni yaranmış dövlətin siyasətinin, iqtisadiyyatının, sosial həyatının, əhalisinin rifah halının inkişafı və yüksəlməsinin qarantı rolunu oynamış oldu.

29 il bundan əvvəl bağlanmış müqavilənin nəticəsində Azərbaycan 1 sentyabr 2022-ci ilə qədər 162 milyard dollar mənfəət əldə etmişdir. "Həm hökumət vergilərdən qazanc götürüb, həm də Dövlət Neft şirkəti özünə düşən paya görə vəsait qazanıb. Hazırda Dövlət Neft Fondunda 45 milyard ABŞ dolları mövcuddu. Yerdə qalanların hamısı xərclənib. Xərcləmələrin 90 faizindən çoxu dövlət büdcəsinə transfer edilib." [6]

Ulu öndərin uzaqgörən siyasəti nəticəsində bu müqavilənin bağlanması ölkə iqtisadiyyatına çox böyük imkanlar açdı. Belə ki, bu müqavilə Azərbaycana xarici sərmayənin gəlməsi, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşdırılması, iqtisadi mənafelərə yönəldilmiş bir sənəd olduğunu sübut etmiş oldu. Neftdən gələn gəlirlər ölkədə iri büdcə tutumlu layihələrin həyata keçirilməsinə imkan yaratdı. Müqavilənin sayəsində ölkəyə həm daxili, həm də xarici investor kimi

davranmağa şərait yaratdı. Neftdən gələn gəlirdən səmərəli istifadə edilərək eynilə qeyri neft sahələrinə yönəldilən vasaitlərin hesabına aparılan iqtisadi siyasət nəticəsində ölkə iqtisadiyyatının şaxələnməsi və inkişafı sürətlənir. Neft gəlirlərindən düzgün istifadə həmçinin dövlətin hərbi siyasətinin güclənməsi, 30 il işğalda qalan torpaqlarımızı 44 gün ərzində geri qaytara bilən güclü və müasir standartlara cavab verə biləcək bir ordunun yaradılmasının sübutu oldu. Bütün bunlar bir daha sübut edir ki, "Əsrin müqaviləsi sadə bir neft müqaviləsi deyildi. Bu, strateji hədəf idi. Heydər Əliyevin Azərbaycanın gələcək yüzillikdəki inkişaf trayektoriyasını cızan fəlsəfəsi idi. "Əsrin müqaviləsi", məhz qısa müddətdən sonra, Azərbaycan iqtisadiyyatında neft gəlirlərinin artacağına zəmin yaradırdı. Sözügedən saziş Azərbaycana, nəinki regional layihələrdə söz sahibliyi etməyə, həmçinin, Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli mövqe tutmasına imkan verib." [7, səh. 3]

Əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur [1, səh. 3]

Ölkənin iqtisadiyyatının inkişafının prioritet istiqamətləri məhz Ulu Öndərin vaxtilə yürütdüyü siyasətin davamı kimi prezident İlham Əliyevin imzaladığı milli iqtisadiyyatın müxtəlif sahələrinin perspektivinə yönəldilmiş Strateji Yol Xəritələrində öz əksini tapir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Uzun illər Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, habelə bir çox sosial problemlərin ardıcıl şəkildə həllini və xalqın maddi rifahının yüksəlməsini, innovasiyaların sürətlə mənimsənilməsini və insan kapitalının davamlı inkişafını təmin etməkdədir.Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyən edən və dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu təmin etmişdir. [2, səh. 1]

Son illərdə ölkədə əldə edilən, təməli düzgün qoyulan və indi də layiqincə davam etdirilən müstəqil siyasi və iqtisadi fəaliyyətin nəticəsi olaraq xeyli nailiyyətlər əldə edilmişdir. Belə ki, islahatlar nəticəsində ölkədə iqtisadiyyatın makroiqtisadi sabitliyi və dayanıqlıgı təmin edilmişdir. Dövlət Statistika Komitəsinin verdiyi məlumatına əsasən 2021-ci ilin yanvar-noyabr aylarında əvvəlki illə müqayisədə 5,3% çox məhsul istehsal edilmişdir ki, bu da müqayisədə 0,4 % çoxdur. Neft-qaz sektorunda əlavə dəyər 2,7 %, qeyri-neft-qaz sektorunda 6,4% artım olmuşdur.

| Milli iqtisadiyyatda qeyri-neft/qaz sektorunun payı (illərlə) | Ümumi Daxili Məhsul (% lə) | Ümumi Daxili Məhsul (mlrd. manatla) |
|---|---|---|
| 2011 | 48,8 | 25,4 |
| 2021 | 62,2 | 57,8 |

*Cədvəl uyğun sənədlər əsasında müəllif tərəfindən tərtib edilib.*

Bilirik ki, ölkənin iqtisadiyyatının 40%-ni sənaye təşkil edir, lakin onun 70%-i neft-qaz sənayesinin payına düşür və artım tempinə görə öndə gedir.

Keçən ilin yekunlarına nəzər salsaq görərik ki, "ilin yanvar-noyabr aylarında Azərbaycanın ixracının dəyəri 19,8 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixracının dəyəri isə 2,4 milyard ABŞ dolları təşkil edib. Bu da o deməkdir ki, ümumi ixrac 52 faiz, o cümlədən qeyri-neft ixracı 44 faiz artıb. Artım ixrac olunan məhsulların qiymətinin yüksəlməsi ilə izah oluna bilər. Rəsmi rəqəmlərə görə, təkcə cari ilin yanvar-sentyabr aylarında ixrac olunan məhsulların qiyməti ötən ilin eyni dövrü ilə müqayisədə 42,5 faiz artıb." [8].

Azərbaycanda həyata keçirilən davamlı inkişaf strategiyası beynəlxalq və iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən dərc olunan müntəzəm "Doing Business 2020" hesabatında Azərbaycan dünyanın 20 ən islahatçı ölkəsi siyahısına daxil edilib və dünyanın ən islahatçı ölkələrindən biri elan edilmişdir.

Prezidentin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiyası Mərkəzi" publik hüquqi şəxs yaradılıb. Azərbaycan Prezidenti aprelin 19-da "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının inkişafı haqqında" Sərəncam imzalayıb. Dördüncü Sənaye İnqilabının əsas tendensiyaları olan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında işğaldan azad edilmiş ərazilərimizdə də yaşayış məntəqələri bərpa olunacaqdır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 3 may 2021-ci il tarixli Sərəncamının icrası bu sahədə işlərin görülməsinə geniş imkanlar yaradır. 2021-ci il fevralın 2-də Azərbaycan Prezidenti "Azərbaycan 2030-cu ilədək sosial-iqtisadi inkişafın Milli Prioritetləri"nin təsdiq edilməsi haqqında Fərman imzalamışdır.

Həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət bütövlükdə insan kapitalının inkişafına, ölkədə yoxsulluğun və işsizliyin azaldılmasına, dövlət büdcəsindən sosial sahəyə ayrılan vəsaitlərin daha da artırılmasına, sosial infrastrukturun inkişafına və sosial-iqtisadi inkişafa xidmət edir.

Azərbaycan Respublikasının müstəqil, milli iqtisadiyyatının banisi olmuş Heydər Əliyev siyasəti bu gün də ölkədə layiqincə davam etdirilir və qloballaşan dünyada qabaqcıl ideya və siyasi platforması ilə secilən bir dövlət kimi inkişaf etməkdədir. Ölkə iqtisadiyyatı bu gün də, sabah da və uzaq gələcəkdə də milli ehtiyatları, yüksək təhsilli insan kapitalı, uzaqgörən siyasəti, qlobal dünyanın tələblərinə cavab verə bilən siyasəti ilə inkişaf edir. Aparılan islahatlar, neft gəlirlərinin səmərəli tətbiqi nəticəsində qlobal dünya iqtisadiyyatına inteqrasiya olaraq öz iqtisadiyyatını daha da gücləndirəcəkdir. İqtisadiyyatı güclü olan ölkə isə həm də öz müstəqilliyini, ölkədə stabilliyini və əhalinin rifahını saxlamaq iqtidarında olacaqdır.

## ƏDƏBİYYAT


1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 dekabr 2016-cı il
2. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası". "Xalq qəzeti", 13 yanvar 2023-cü il, № 7 (.səh 1)
3. "Əsrin müqaviləsi". Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 4 fevral 1994-cü il. №56.
4. E.Abbasov. "Xalq qəzeti". -2010. 9 may. səh.8
5. R.Məmmədov. Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi. "Respublika" qəzeti. Fevral 2018. səh. 6
6. İ.Şaban. 28 ildə "Əsrin müqaviləsi"ndən nə qazandıq.Modern.az.20 sentyabr 2022.
7. Z.Məmmədov. "Əsrin kontraktı": müstəqilliyimizin qarantı olan tarixi layihə "Yeni Azərbaycan" qəzeti.19.09.2019. səh. 3.
8. C.Piriyev." Qeyri-neft-qaz sektoru: ÜDM-də payı böyükdür, ixracda isə "İki sahil" qəzeti. 15 dekabr 2021.

***доц. Гюльниса Алисафа кызы Мустафаева***
***Азербайджанский Университет Кооперации***
***Заведуюший кафедрой "Маркетинг"***
***glnisa.mustafayeva@mail.ru***

**Гейдар Алиев – основоположник независимой экономики Азербайджана**

***Резюме***

После восстановления своей государственной независимости в 1991 году Азербайджанская Республика приступила к восстановлению своих суверенных прав, созданию независимых правовых и экономических законов и проведению самостоятельной политики с целью возрождения страны во всех областях, в том числе в области экономики. Именно в этот период возвращение Гейдара Алиева к власти заложило основу для важных изменений во всех сферах жизни страны, в том числе и в экономической жизни. Основными направлениями его политики были экономическая система, созданная на основе различных форм собственности, переход к рыночной экономике и интеграция в мировое хозяйство.

***Ключевые слова: Гейдар Алиев, независимость, экономическое возрождение, рыночная экономика, интеграция.***

***Gulnisa Elisefa Mustafayeva***
***Azerbaijan University of Cooperation***
***Head of the "Marketing" department***
***glnisa.mustafayeva@mail.ru***

**Heydar Aliyev is the founder of independent Azerbaijan economy**

***Summary***

After regaining its state independence in 1991, the Republic of Azerbaijan began to restore its sovereign rights, create independent legal and economic laws, and conduct an independent policy in order to revive the country in all fields, including the economic field. It was during this period that Heydar Aliyev's return to power laid the foundation for important changes in all areas of the country, including economic life. The main directions of his policy were the economic system created on the basis of various forms of ownership, the transition to the market economy and integration into the world economy.

***Key words: Heydar Aliyev, independence, economic revival, market economy, integration***

**UOT-6.63**

***Vahid Vaqif oğlu GƏRAYEV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Tədris" şöbəsinin müdiri,***
***iqtisad üzrə fəlsəfə doktoru,dosent***
***E-mail: Vahid.gerayev@mail.ru***
***ORCID-ID:0000-0002-0620-6590***

**AZƏRBAYCAN RESPUBLİKASI KEYFİYƏTLİ ƏRZAQ BUĞDASI İLƏ YERLİ İSTEHSAL HESABINA ÖZÜNÜ TƏMİN ETMƏK QÜDRƏTİNDƏDİR**

***Xülasə***

Məqalədə ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas məhsullardan biri olan ərzaq buğdasının respublikamızda istehsal imkanları təhlil olunmuşdur. Son illərdə dünya miqyasında ərzaq məhsullarının qiymətlərinin qalxması, əhalinin sayının çoxalması nəticəsində tələbatın artması,

iqlim dəyişikliyi, xəstəliklərin daha geniş yayılması, təbii fəlakətlərin yaratdığı fəsadlar, müharibələr və s. ərzaq qıtlığının yaranmasına səbəb olmuş və ərzaq təhlükəsizliyinin aktuallığını daha da artırmışdır. Ərzaq təhlükəsizliyində əsas ərzaq məhsulu kimi birinci növbədə çörəklə təminat məsələsi durur. Bu məqsədlə ölkəmizdə keyfiyyətli ərzaq buğdası ilə təminatın yerli istehsal hesabına ödənilməsi səviyyəsi araşdırılmış, idxaldan asılılığı aradan qaldırmaq üçün istehsalın bütün mərhələlərində müasir elmi əsaslandırılmış aqrotexniki metodların tətbiqinin vacib olduğu müəyyənləşdirilmişdir.

***Açar sözlər: Ərzaq təhlükəsizliyi, ərzaq buğdası, aqrotexniki metodlar, buğda istehsalı, məhsuldarlıq, işğaldan azad olunmuş ərazilər.***

***

Məlumdur ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin əsas şərtlərindən biridir. Ona görə də cəmiyyyətin hər bir üzvünün əsas ərzaq mallarına olan tələbatının ödənilməsi üçün davamlı şəkildə zəruri tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Ərzaq təminatı həm də ölkənin əbədi və daimi müstəqilliyinin təzahür forması olmaqla, cəmiyyət üzvlərinin tələbatının fizioloji qida normalarına uyğun şəkildə daxili istehsal hesabına ödənilməsini və dövlətin ərzaq ehtiyatlarının daha çox yerli istehsal mənbələrinə uyğun çevik və səmərəli formalaşmasını özündə əks etdirir. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, səmərəli ərzaq təminatı və ərzaq təhlükəsizliyi mülkiyyət formasından asılı olmayaraq, dövlətin bütün təsərrüfat subyektlərinin maraq və mənafelərini nəzərə almaqla həyata keçirdiyi aqrar siyasətdən də çox asılıdır.

Qlobal iqtisadi proseslərdə ərzaq, su və enerji kimi tükənən təbii resurslarla bağlı dünya ölkələrinin problemləri artdıqca, biznes subyektləri daha davamlı və dayanıqlı resursların axtarışında maraqlı olacaqlar [1, s. 252].

Son illərdə enerji daşıyıcılarının qiymətlərinin kəskin dəyişməsi, aparıcı ölkələrin maliyyə bazarlarında baş verən mənfi meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişikliyi, su ehtiyatlarının məhdudluğu,pandemiya, xəstəliklər, təbii fəlakətlər və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarında qiymətləri artmağa başlamış, bəzi ölkələrdə isə ərzaq qıtlığı real təhlükəyə çevrilmişdir. Digər tərəfdən isə kənd təsərrüfatı xammalı və ərzaq məhsullarının iri istehsalçıları və ixracatçıları olan Rusiya və Ukrayna arasındakı müharibənin qlobal ərzaq bazarına mənfi təsirləri göz qabağındadır.

Məlumdur ki, ərzaq təhlükəsizliyində əsas ərzaq məhsulu kimi ilk yerdə çörəklə təminat məsələsi durur. Çörək istehsalında əsas xammal buğda unudur. Deməli, keyfiyyətli un və çörək istehsal etmək üçün bu tələblərə uyğun ərzaq buğdasının olması şərtdir. Çörək insanların qidalanmasında əvəzolunmaz nemətdir. Həmçinin aztəminatlı ailələrdə qida rasionunda əsas yeri çörək tutur. Azərbaycan Respublikasında Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normalarına əsasən, orta hesabla bütün əhalinin hər nəfəri üçün çörək və çörək məhsulları istehlakı 126,2 kiloqramdır [2,3]. Bu göstərici dünya ölkələri içərisində ən yüksək göstəricilərdən hesab olunur.

İstehlak normaları birdəfəlik müəyyən edilmiş və daim sabit qalan kəmiyyət göstəricisi deyil. Məhsuldar qüvvələr və istehsal münasibətləri tərəqqi etdikcə, cəmiyyətin sosial-iqtisadi durumu yaxşılaşdıqca, insanın istehlak tələbatı da elastik şəkildə dəyişir. Yəni ümumi həyat səviyyəsi, zəhmət şəraiti, bazar bolluğu,fərdi əmək qabiliyyətinin məhsuldarlığı dəyişdikcə,insanın istehlak mədəniyyəti də yüksəlir və qida rasionları da yeni elmi-texniki nailiyyətlərin təsiri altında zaman-zaman təkmilləşir,səmərələşdirilir [4, s. 83].

Müşahidələr göstərir ki, respublikanın əhalisi arasında çörəyə münasibət çox həssas məsələyə çevrilmişdir. Bunun da obyektiv səbəbləri vardır.

Ölkəmiz müstəqilliyin bərpa olunduğu ilk illərdə bir tərəfdən mənfur qonşularımızın ərazi iddiası nəticəsində cəlb olunduğumuz birinci Qarabağ müharibəsi, torpaqların 20%-nin işğal olunması, bir milyondan artıq məcburi köçkün və qaçqınların olması, ölkəmizdə xaos, hərcmərclik, hakimiyyət davası, ölkənin parçalanma təhlükəsi ilə üz-üzə qalması, digər tərəfdən isə iqtisadiyyatın, demək olar ki, iflic vəziyyətə düşməsi, qiymətlərin artması, inflyasiya, elektrik enerjisinin, buğdanın, unun və digər ərzaq məhsullarının ölkəmizə gətirilməsinə mane olan ölkələrin təzyiq

vasitəsinə çevrilmişdi. Un ehtiyatı tükənmişdi. İnsanlar saatlarla çörək növbələrində dururdu. Bəzi hallarda isə yem unu adlanan undan çörək istehsalında istifadə etmək məcburiyyəti yaranırdı.

Ölkə iqtisadiyyatı elə sürətlə dağılırdı ki, bu prosesin qarşısını almaq imkanları gündən-günə çətinləşirdi. 1993-cü ildə 1987-1988-ci illərə nisbətən ÜDM-in azalması təqribən 40%, bəzi sahələrdə isə hətta 45-50% və ondan da çox təşkil edirdi. İqtisadiyyatda baş verən dağıdıcı proseslər sonrakı illərdə daha geniş xarakter almış, Azərbaycanın sosial-iqtisadi həyatında böhran meyillərini artırmışdır.

1990-cı ilə nisbətən 1995-ci ildə ümumi daxili məhsul istehsalı 2,5 dəfə, sənaye məhsulunun həcmi 2,9 dəfə, kənd təsərrüfatı məhsulunun istehsalı 2 dəfə, bütün maliyyə mənbələri hesabına, kapital qoyuluşu 3,6 dəfə az idi. Adambaşına düşən ümumi daxili məhsul göstəricisi də bir neçə dəfə aşağı düşmüşdür [5, s.18].

O ağır günlərdə bizə dəstək olmağını istədiyimiz, bu gün isə özlərini bizə dost, tərəfdaş hesab edən ölkələr belə, ya müxtəlif bəhanələrlə kömək etməkdən yayınırdılar, ya da razılaşdırılmış müqavilələrin yerinə yetirilməsində müəyyən problemlər yaradırdılar. Bu hallar dövlətimizin onsuz da ağır olan vəziyyətini bir az da acınacaqlı hala salırdı.

Belə acınacaqlı vəziyyətdə 15 iyun 1993-cü ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və onun uzaqgörən siyasəti nəticəsində Azərbaycanın müasir tarixinin yeni, Heydər Əliyevin fədakar və gərgin əməyi sayəsində uğurlu mərhələsi başladı. Ölkədə hökm sürən xaos, anarxiya aradan qaldırıldı, sabitlik təmin edildi, inflyasiya və iqtisadi tənəzzül cilovlandı, islahatlar həyata keçirildi. Azərbaycana firavanlıq və yüksəliş gətirən uğurlu neft strategiyası reallaşdı, nizami ordu yaradıldı, erməni təcavüzünün genişlənməsinin qarşısı alındı, separatizmin kökü kəsildi, dövlətin bütövlüyü qorunub saxlanıldı. Bundan sonra xarici ölkələrdə və nüfuzlu beynəlxalq təşkilatlarda, həmçinin Azərbaycan dövləti ilə əməkdaşlıq qurmaq istəyən dövlətlərdə etibarlı mühitin formalaşdığına əminlik yaranmış oldu.

Beynəlxalq aləmdə Azərbaycan Respublikasının dünya ölkələri ilə normal əlaqələrinin qurulması, ölkənin xarici siyasət strategiyasının müəyyən olunması böyük dövlət xadiminin həm də mahir diplomatik bacarığının əməli ifadəsi idi. Geniş mənada Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda müstəqil dövlətçiliyin möhkəm əsaslarının yaradılması və bütün istiqamətlərdə inkişaf strategiyası layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla yerinə yetirilmişdir. İnnovasiyalara və müasir texnologiyalara əsaslanan iqtisadi quruculuq, sistemli, kompleks xarakterli islahatların uğurlu nəticələri Azərbaycan Respublikasını nüfuzlu beynəlxalq təşkilatların qiymətləndirmələrində müsbət istiqamətdə yüksəlməkdədir. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan ən yüksək göstəricimiz isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində torpaqlarımız erməni işğalından azad etməsi olmuşdur.

Bu gün Azərbaycanın qarşısında duran əsas strateji vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işlərinin aparılması, böyük qayıdışın həyata keçirilməsidir. Bu istiqamətdə mühüm addımlar atılır, həmin ərazilərdə müasir texnologiyalardan istifadə olunur, innovasiyalar tətbiq edilir, yeni infrastruktur yaradılır, beynəlxalq əməkdaşlıq çərçivəsində investisiya cəlb olunur. Bir sözlə, ölkəmiz bütün strateji hədəflərinə doğru addım-addım irəliləyir.

Bu hədəflərdən də biri ölkəmizdə ərzaq təhlükəsizliyinin və yuxarıda şərh etdiyimiz ərzaq buğdası ilə təminatın yerli istehsal hesabına ödənilməsidir. Bu məqsədlə mütəmadi olaraq kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarına dövlət dəstəyi və yardım mexanizmləri formalaşdırılmış və təkmilləşdirilmişdir. Həmçinin beynəlxalq təşkilatlarla birlikdə çoxlu sayda əhəmiyyətli layihələrin icrası yerinə yetirilmişdir. Bununla yanaşı, bir sıra Dövlət Proqramları və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi,sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin etmişdir. Lakin ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır [6, s. 64-65].

Respublikamızda buğda istehsalının və idxal hesabına daxili tələbatın ödənilməsinin mövcud vəziyyəti cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında buğdanın yerli istehsal və idxal hesabına özünütəminetmə səviyyəsi**

| İllər / Göstəricilər | 2009 | 2013 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Yerli istehsal (ton) | 2096203 | 1841307 | 1769574 | 1991683 | 2114139 | 1818665 | 1837188 |
| Yerli istehsal hesabına tələbatın ödənilmə faizi | 69,2 | 55,9 | 58,1 | 64,8 | 57,2 | 57,1 | 61,5 |
| İdxal (ton) | 931239 | 1451257 | 1274434 | 1080906 | 1584998 | 1365100 | 1148101 |
| İdxal hesabına tələbatın ödənilməsi faizi | 31,8 | 54,1 | 41,9 | 35,2 | 42,8 | 42,9 | 38,5 |
| Payızlıq və yazlıq buğdanın əkin sahəsi (min ha.) | 807,9 | 689,5 | 596,1 | 679,1 | 670,0 | 588,4 | 572,3 |
| Məhsuldarlıq (payızlıq buğda) (sent/ha) | 26,5 | 27,5 | 30,5 | 30,1 | 32,4 | 31,7 | 32,9 |
| İtkilər (ton) | 234106 | 271345 | 242532 | 232567 | 262582 | 184230 | 58619 |

*Mənbə. Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir [2,3,7].*

Göründüyü kimi, cədvəl məlumatlarından belə qənaətə gəlmək olur ki, Azərbaycan Respublikasına hər il təxminən 1,4 milyon ton buğda idxal olunur.

Yerli buğda ərzaq buğdası standartlarına (AZS 888:2020 – "Buğda. Texniki şərtlər." Və AZS 894: 2021- "Çörək sənayesi üçün buğda unu. Texniki şərtlər".) uyğun gəlmədiyi üçün xaricdən idxal olunan keyfiyyətli ərzaq buğdasına qarışdırılaraq təxminən 55-60 faizindən istifadə olunur. Qalan 35-40 faizi isə heyvandarlıqda yem kimi istifadə olunur. Bu bir reallıqdır. Ümumilikdə artıq respublikada belə bir fikir formalaşıb ki, yerli buğda ərzaq buğdası kimi yararsızdır və ya Azərbaycanda keyfiyyətli ərzaq buğdası istehsal etmək mümkün deyil. Bu fikirlər tamamilə yanlışdır və əsassızdır. Bəzi hallarda bu fikirlər qlobal iqlim dəyişiklikləri və suvarma problemi ilə əsaslandırılır. Düzdür, bu problemlərin təsiri danılmazdır. Ancaq bu hallar təkcə Azərbaycanda deyil, bütün dünyada baş verir.

Fikrimizcə, bu problemin səbəblərindən biri kimi buğda istehsalçılarının təsərrüfatçılıq bilik və bacarıqlarının hansı səviyyədə olduğuna və istehsal prosesinin bütün mərhələlərinin yerinə yetirilməsinin keyfiyyət göstəricilərinə nəzər salmaq lazımdır. Bu məqsədlə sahibkarlarla aparılmış sorğuların nəticəsi olaraq onları 4 qrupa bölmək olar:

I qrup. Kiçik pay torpaqlarında əlacsız və kortəbii fəaliyyət göstərən istehsalçılar. Bunların əraziləri kiçik (10 hektara qədər) olan və primitiv təsərrüfatçılıq fəaliyyəti nəticəsində məhsuldarlıq 10-15 sentner, bəzi hallarda alaq otları buğdadan çox olduğu üçün ot kimi biçilir.

II qrup. 50 hektara qədər əkin sahələri olan və zəif təsərrüfatçılıq fəaliyyəti nəticəsində məhsuldarlıq 15-20 sentner olan istehsalçılar.

III qrup. 200 hektara qədər əkin sahələri və aqrotexniki qaydalara imkanları çatan qədər əməl edən məhsuldarlıq 20-30 sentner olan istehsalçılar.

IV qrup. 200 hektardan yuxarı əkin sahələri, əsasən aqrotexniki qaydalara əməl edən və məhsuldarlıq 30-50 sentner olan keyfiyyətli buğda istehsalçıları.

Necə olur ki, hər zaman qeyd etdiyimiz doqquz iqlim tipinin olduğu ,coğrafi mövqeyinə və təbii şəraitinə görə aqrar ölkə hesab olunan və son 20 ildə respublikamızda aqrar sahənin inkişafı üçün

dövlətin dəstəyinin ildən-ilə artırılmasına baxmayaraq digər kənd təsərrüfatı məhsullarından fərqli olaraq buğdanın idxaldan asılılığının aradan qaldırılmasına nail ola bilmirik.

Fikrimizcə, bu problemi həll etmək üçün iki istiqamətdə tamamilə fərqli yanaşma tətbiq etmək lazımdır:

Buğda istehsalına taxıl məhsullarından biri kimi ümumi yanaşma deyil, keyfiyyətli ərzaq buğdası istehsalı kimi spesifik yanaşma olmalıdır

Torpağın əkinə hazırlanmasından başlayaraq toxum, becərilmə, istehsal olunmuş məhsulun yığılması, daşınması, saxlanması və s. mərhələlərin axıra qədər diqqətdə saxlamaqla elmi və aqrotexniki metodların tətbiqi sayəsində məqsədə nail olmaq mümkündür.

Ümumiyyətlə, buğdanın əkilməsi, becərilməsi, xəstəliklərə və ziyanvericilərə qarşı həssaslığı digər taxıl növlərinə nisbətən daha fərqlidir. Digər tərəfdən, ərzaq buğdasının əkin prosesindən başlayaraq un üyüdülməsi üçün dəyirmanlara çatdırılmasına qədər hər bir mərhələnin elmi əsaslandırılmış metodlarla başa çatmasını təmin etmək vacibdir.

Buğda istehsalında keyfiyyətli və yüksək məhsuldarlığa nail olmaq üçün əlverişli şərait yaratmaqla əkin işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinin rolu böyükdür. İntensiv metodlarla torpaqdan daha effektli istifadə etmək və yeni yüksək məhsuldar sortlar tətbiq etməklə,elmi əsaslandırılmış növbəli əkinə yiyələnməklə, gübrələrdən və kənd təsərrüfatı texnikasından düzgün istifadə etməklə, keyfiyyəti və məhsuldarlığı yüksəldən digər metodların tətbiqi ilə məqsədə çatmaq mümkündür.

Ən əsası bu sahədə yüksək nəticə almaq üçün təsərrüfatda çalışanların yüksək ixtisaslı və təcrübəli mütəxəssislərin olması və onların işə vicdanla yanaşması lazımdır. Respublikanın bütün regionlarında müasir kənd təsərrüfatı texnikasının idarə edilməsi biliklərinə yaxşı yiyələnmiş, bitkilərin böyümə və inkişaf dövründə onların tələbatını təmin etməklə becərilməni, ziyanvericilər və xəstəlikləri, alaq otları ilə mübarizəni və s. məsələləri bilən savadlı mütəxəssislərin, aqranomların olması vacibdir. Məhsuldarlığı və keyfiyyəti artırmaq üçün müasir aqrotexniki qaydalardan istifadə etmək və bunun üçün torpağın xüsusiyyətlərini yaxşı bilmək, düzgün becərməni bacarmaq, elmi cəhətdən əsaslandırılmış miqdarda gübrə vermək, bitkilərin səpin, qulluq və yığım metodlarına yaxşı yiyələnmək lazımdır. Yeni yüksək məhsuldar sortların aqrotexniki xüsusiyyətlərini, suvarılan və dəmyə torpaqlarda becərilmə üsullarını dərindən bilmək lazımdır.

Son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial,xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması,həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların işğaldan azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması məqsədilə yeni hədəflərin müəyyən edilməsinə imkan verir [8].

Bütün bunları nəzərə alaraq hesab edirik ki, bəzi məhsulların idxalçısından ixracatçısına çevrilmiş ölkəmiz yaxın müddətdə qeyd olunanları tətbiq etməklə ərzaq buğdası təminatını yerli istehsal hesabına yerinə yetirmək hədəfinə nail olacaqdır.

## ƏDƏBİYYAT


1. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi. Bakı, 2018, 480 səh.
2. Azərbaycanın ərzaq balansları. ARDSK. Bakı, 2022
3. http://www.stat.gov.az/
4. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı,2005,336 səh.
5. Səmədzadə Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə. III cild. Bakı,2021, 668 səh.
6. Gərayev V.V. Aqrar sahənin inkişafı və idarə edilməsi. Bakı,2016,208 səh.
7. Azərbaycan Kənd təsərrüfatı. ARDSK. Bakı,2022
8. “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 19 iyul 2022-ci il

***Вахид Вагиф оглы Гераев***
***Заведующей Учебной частью***
***Азербайджанского Университета Кооперации,***
***доктор философии по экономике, доцент***
***e-адрес: Vahid.gerayev@mail.ru***

**Азербайджанская Республика способна обеспечить себя качественной продовольственной пшеницей благодаря местному производству**

***Резюме***

В статье анализируются возможности производства продовольственной пшеницы в нашей стране, одного из основных продуктов в области продовольственной безопасности. Рост мировых цен на продукты питания в последние годы, рост населения, изменение климата, более широкое распространение болезней, последствия стихийных бедствий, войн и т. Д. это привело к нехватке продовольствия и повысило актуальность продовольственной безопасности. В качестве основного продукта питания в области продовольственной безопасности в первую очередь стоит вопрос о поставках хлеба. С этой целью была изучена степень, в которой поставка качественной пищевой пшеницы в нашей стране оплачивается за счет местного производства, и было определено, что важно применять современные научно обоснованные агротехнические методы на всех этапах производства, чтобы устранить зависимость от импорта.

***Ключевые слова: продовольственная безопасность, пищевая пшеница, агротехнические методы, производство пшеницы, продуктивность, освобожденные от оккупации территории***

***Vahid Vagif Garaev***
***Azerbaijan Cooperation University***
***Head of the "Education" department,***
***Doctor of philosophy in economics, docent***
***e-adress: vahid.gerayev@mail.ru***

**The republic of Azerbaijan is able to provide itself with quality food wheat through local production**

***Summary***

The article analyzes the production opportunities of food wheat in our republic, which is one of the main products in ensuring food security. In recent years, rising global food prices, rising population growth, climate change, the spread of disease, the consequences of natural disasters, wars, and so on. led to food shortages and increased the urgency of food security. In food security, the issue of bread supply is first and foremost the main food product. For this purpose, the level of payment of quality food wheat supply to local production in our country was studied, it was determined that the application of modern scientifically based agro-technical methods at all stages of production is important to eliminate dependence on imports.

***Key words: Food security, food wheat, agro-technical methods, wheat production, productivity, occupied territories.***

UOT 33.657

***Vüqar Muxtar oğlu MEHDİYEV***
***Azərbaycan Kooperasiya Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının dosenti, i.f.d.***
***https://orcid.org/0000-0002-9625-1001***
***E-mail: vugar.m@muxtaroglu.az***

# MÜASİR VERGİ XİDMƏTİNİN YARADILMASINDA HEYDƏR ƏLİYEVİN SİYASİ DƏSTƏYİ

***Xülasə***

Məlumdur ki, Azərbaycanda müasir vergi xidmətinin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində, onun bilavasitə rəhbərliyi altında ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi olaraq vergi sisteminin müasir standartlar əsasında formalaşması üçün mühüm tədbirlər həyata keçirilmiş, ölkəmizin vergi siyasətinin konsepsiyası, vergi sistemində aparılan islahatların fəlsəfəsi, strategiyası müəyyən olunmuşdur.

Vergi Məcəlləsinin qəbul edilməsi və təkmil qanunvericilik bazasının yaradılması ölkəmizin həyatında tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addım idi. Bu sənədin qəbulu islahatların genişləndirilməsi üçün təkan rolunu oynayaraq ölkədə investisiya və vergi mühitinin əhəmiyyətli şəkildə yaxşılaşmasına gətirib çıxardı. Vergi siyasəti təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməyə başladı.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan iqtisadiyyatının özəyini təşkil edən neft sənayesi, digər sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, yollar məhz Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir və müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatı məhz həmin təməl üzərində inkişaf edir.

***Açar sözlər: vergi xidməti, büdcə gəlirləri, vergi mühiti, vergitutma mexanizmi, investisiya.***

***

"Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik".
***Heydər Əliyev***

Azərbaycanın təkmil vergi sisteminin qurulması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində vergi siyasətində köklü dəyişikliklər aparılmış, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılması əsas məsələ kimi qarşıya qoyulmuşdur.

Müstəqil Azərbaycanın ilk vergi orqanı olaraq Maliyyə Nazirliyinin tərkibində 1990-cı ilin iyul ayında yaradılmış Baş Dövlət Vergi Müfəttişliyi Ulu öndərin təşəbbüsü ilə 2000-ci il 11 fevral tarixli Fərmanla ləğv edilmiş, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyi yaradılmışdır. Ulu öndər Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq vergi münasibətlərinin tənzimlənməsi sahəsində vahid qanunvericilik bazasının yaradılması məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanmışdır. Bu layihənin hazırlanması prosesində onun ayrı-ayrı hissələri dövlət başçısı yanında dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi barədə dəyərli tövsiyələri bu işin uğurla başa çatdırılmasına kömək etmişdir [1, səh. 3].

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük məharətlə,

uğurla həyata keçirilməsi respublikamızda yeni inkişaf modelinin formalaşmasına və onun dünya iqtisadiyyatına inteqrasiyasına, qloballaşma şəraitində Azərbaycanın milli iqtisadiyyatının dayanıqlı inkişafına, iqtisadiyyatın tarazlı və proporsional tərəqqisinə, əhalinin rifah halının yaxşılaşmasına imkan vermişdir. Milli iqtisadi inkişaf strategiyasında mühüm rol oynayan vergi xidməti orqanlarında son illər vergi sisteminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi xidmətinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblər baxımından qurulmasında bir sıra müvəffəqiyyətlərə nail olunmuşdur. Məlum olduğu kimi, respublikamızın iqtisadiyyatının sürətli inkişafı, sosial məsələlərin müsbət həlli, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və digər məsələlərin müvəffəqiyyətlə həll edilməsi dövlət büdcəsinin ödəmə imkanlarından çox asılıdır. Respublikamızın bazar iqtisadiyyatına keçdiyi hazırkı dövrdə, dövlət büdcəsinə daxil olan vəsaitlərin əsasını hüquqi və fiziki şəxslərdən alınan vergilər təşkil edir. Bunun da xeyli hissəsi hüquqi şəxslərin payına düşür [2.səh.6].Dövlət büdcəsinin formalaşmasında müəssisələrdən alınan vergilərin mühüm rol oynamasını nəzərə alsaq, onda hər bir müəssisə büdcəyə ödəyəcəyi vergi məbləğlərini düzgün hesablamalı və büdcəyə çatan vəsaitin vaxtında ödənilməsini təmin etməlidir.

Vergilər üzrə büdcə ilə hesablaşmaları yoxlayarkən auditor yadda saxlamalıdır ki, bir sıra vergilərin hesablanması şərtləri, dərəcələri və digər parametrləri tez- tez dəyişir və bu səbəbdən onlar bütün lazımi qanun və təlimatlara malik olmalıdır.Vergilər üzrə audit yoxlamasının aparılması metodikasının şərhinə keçməzdən əvvəl qeyd etmək istərdik ki, gələcəkdə vergi siyasətində böyük dəyişikliklərin edilməsi nəzərdə tutulduğundan hər bir vergi, rüsum, yığım və digər ödəmələr üzrə büdcə ilə hesablaşmaların auditi üzrə bütün məsələlərin, onun aparılması qaydasının şərhinə lüzum yoxdur. Biz yalnız istənilən halda nəzarətin predmetini təşkil edən və auditorun öyrənməli olduğu mühüm məsələlərin üzərində dayanmaqla kifayətlənəcəyik.

Vergi auditi planlaşdırılarkən auditor təsərrüfat subyektinin gəlir və xərclərinin uçotunu hansı metodla (hesablama və ya kassa) apardığını müəyyən etməli, bütün vergilər üzrə dəqiq məlumat toplamalı və hər bir vergi növünün necə yoxlanacağını müəyyənləşdirməlidir. Auditor vergilər üzrə büdcə ilə hesablaşmaların auditi metodikasını dərindən mənimsəməlidir. Bununla yanaşı auditor yoxlama zamanı hər bir verginin dərəcəsini, onların hesablanması qaydasını mükəmməl bilməli və bu zaman mövcud qanunvericilik aktlarından, normativ sənəd və təlimatlardan istifadə etməlidir.

Büdcə ilə hesablaşmalar auditinin metodikası dedikdə, təsərrüfat subyektlərinin büdcə qarşısında öhdəliklərinin yerinə yetirilməsi prosesinin yoxlama-ekspertiza işlərinin prosedur qaydaları nəzərdə tutulur. Digər sahələrdə olduğu kimi büdcə ilə hesablaşmaların audit yoxlaması ümumi metodika ilə yanaşı, xüsusi metodlardan istifadə olunmasını da nəzərdə tutur [3.səh.8]. Büdcə ilə hesablaşmaların auditi zamanı aşağıdakı ümumi məsələlər yoxlanılır:

- vergitutma bazasının müəyyən edilməsinin tamlığı və düzgünlüyü;
- əsas məhsul (iş, xidmət) satışından gözlənilən pul gəlirlərinin və mənfəətdən vergi üzrə büdcəyə avans ödəmələrin hesablanması üçün gözlənilən mənfəət məbləğinin müəyyən edilməsinin düzgünlüyü;
- vergi və digər ödəmələr dərəcələrinin tətbiq edilməsinin və eləcə də ödəmələrin hesablanması zamanı aparılan riyazi hesablamaların düzgünlüyü;
- vergilərin ödənilməsi zamanı güzəştlərin tətbiq edilməsinin qanuni və əsaslı olması;
- büdcəyə ödəmələrin vaxtında və tam köçürülməsi;
- ödəmələrin hesablanması və köçürülməsi üzrə mühasibat yazılışlarının tərtib edilməsinin düzgünlüyü;
- ödəmə növləri üzrə hesabat formalarının tərtib edilməsinin düzgünlüyü və vergi orqanlarına vaxtında təqdim olunması;
- 521 saylı "Vergi öhdəlikləri", 421saylı "Mənfəət vergisi üzrə təxirə salınmış vergi öhdəlikləri", 422 saylı "Digər təxirə salınmış vergi öhdəlikləri" hesabları üzrə analitik və sintetik uçotun aparılmasının düzgünlüyü.

Dövlət büdcəsinin formalaşmasında müəssisələrdən alınan vergilərin mühüm rol oynamasını

nəzərə alsaq, onda hər bir müəssisə büdcəyə ödəyəcəyi vergi məbləğlərini düzgün hesablamalı və büdcəyə çatan vəsaitin vaxtında ödənilməsini təmin etməlidir. Eyni zamanda dövlət vergi orqanları tərəfindən təsərrüfat subyektləri və fərdi sahibkarlar tərəfindən vergilərin düzgün hesablanması, vaxtında və tam həcmdə dövlət büdcəsinə ödənilməsi, eləcə də ümumilikdə vergi qanunvericiliyinə riayət olunması üzərində ciddi nəzarət sistemi həyata keçirilməlidir. Hal-hazırda müəssisələr hər tərəfdən çoxsaylı vergilərə (ödəmələrə) cəlb olunurlar ki, bu da dövlətin fiskal siyasətinə bağlıdır. Bu isə iqtisadi böhran, inflyasiya prosesləri və müxtəlif səviyyəli büdcələrin defisit artımı kimi neqativ hallarla müşahidə olunan indiki bazar iqtisadiyyatına keçid dövründə lazımi tədbirdir [4, s.11].

Vergi sferasında aparılan nəzarət tədbirlərinin səmərəliliyi bilavasitə təşkilati-metodoloji amillərdən asılıdır. Vergi auditi onun qarşısında duran tapşırıqların yerinə yetirilməsinin təmin edilməsi üçün onun təşkili prinsiplərinə riayət etməsi lazımdır. Bu prinsiplərə aşağıdakıları aid etmək olar:

- tam səlahiyyətlilik prinsipləri.Vergi orqanları nəzarət hərəkətlərini (fəaliyyətini) qanunvericiliyin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində həyata keçirməlidirlər;
- tam nəzarətin hərtərəfli təmin edilməsi prinsipləri. Bütün vergi növləri və vergi ödəyiciləri istisnasız olaraq, onlar tərəfindən büdcəyə daxil olan vergilərin həcmindən asılı olmayaraq nəzarət sisteminə daxil edilməlidir;
- vergi ödəyicisinə heç bir zərər vurmamaq prinsipi. Vergi auditi vergi siyasətinin fıskal və iqtisadyönümlü qarşılıqlı əlaqəsini maksimum təmin etməklə həyata keçirilməlidir;
- vergi orqanlarının nəzarət hərəkətlərinin və işinin əlaqələndirilməsi prinsipləri. Auditor yoxlama işini yüksək səviyyədə təşkil etmək və başa çatdırmaq üçün yoxlama proqramına malik olmalıdır. Bu proqramda büdcə qarşısında olan vergi öhdəliklərinin yerinə yetirilməsi və hesablaşmaların vəziyyətinin qiymətləndirilməsi strategiyası müəyyənləşdirilməlidir.

Vergilər üzrə büdcə ilə hesablaşmaları yoxlayarkən auditor yadda saxlamalıdır ki, bir sıra vergilərin hesablanması şərtləri, dərəcələri və digər parametrləri tez-tez dəyişir. Bu səbəbdən auditorların yuxarıda qeyd olunan məsələlərin yüksək səviyyədə həll edilməsi (yoxlaması) üçün onlar lazımi normativ bazaya (təlimatlara, qaydalara, əsasnamələrə, vergi dərəcələri haqqmda normativ sənədlərə) malik olmalıdır [5. səh. 23]. Vergilər üzrə büdcə ilə hesablaşmaların auditinin səmərəli aparılmasında lazımi və dolğun məlumatların əldə edilməsi mühüm şərtlərdən biridir. Çünki, büdcə ilə hesablaşmalar mühasibatlıq işinin əhəmiyyətli hissəsini təşkil etməklə yanaşı, gəlir və mənfəətin bölüşdürülməsində iştirak edir. Ona görə büdcə qarşısında öhdəliklərin yerinə yetirilməsi, fondlara müvafiq ayırmaların aparılması üzrə hcsablaşmalann dəqiq uçota alınmasına dair əsaslı məlumatların olması mütləqdir.

Mövcud vergi qanunvericiliyinə uyğun olaraq bir sıra hallarda müəyyən vergilər üzrə güzəştlər nəzərdə tutulmuşdur. Güzəştlərin düzgün tətbiq edilməsinin yoxlanması üçün auditor təsərrüfat subyektinin fəaliyyət xüsusiyyətlərini öyrənməli və güzəştlərin nə dərəcədə düzgün tətbiq edilməsinə qiymət verməlidir. Əgər mənfəət vergisi üzrə güzəştlər olarsa, onda həmin güzəştlərin nə dərəcədə əsaslı olduğu xüsusilə diqqətlə araşdırılmalıdır. Onu da qeyd etmək lazımdır ki, praktikada çox vaxt ƏDV üzrə hesablaşmalar aparılarkən vergi ödəyiciləri tərəfindən vergidən azad edilən və sıfır (0) dərəcə ilə vergiyə cəlb edilən mallar (işlər, xidmətlər) anlayışları ya bilərəkdən, ya da səriştəsizlikdən qarışdırılır.

Fiziki şəxslərdən gəlir vergisinin tutulması və yoxlanılması da auditordan xüsusi diqqət tələb edir. Belə ki, müəssisələr (sahibkarlar) tərəfindən muzdla işləyən işçilərə əməkhaqqına əlavələr, mükafatlar, maddi yardımlar, məzuniyyət haqqı və digər istənilən formada ödənilmiş gəlirlər vergitutma obyekti sayılır. Təcrübədə çox vaxt mülki-hüquqi müqavilələrə əsasən görülmüş işlərə və göstərilmiş xidmətlərə görə ödəmə mənbəyində vergi tutulmadan işçilərə gəlirin ödənilməsi hallarına təsadüf edilir. Analoji hal respublika ərazisindəki fəaliyyəti ilə əlaqədar ödəmə mənbəyində gəlir əldə edən xarici fiziki şəxslərdən gəlir vergisinin tutulması zamanı da müşahidə olunur [6, səh. 326 ].

Son illər ərzində Azərbaycanın hərtərəfli yüksəlişi sahəsində əldə edilən nailiyyətlər Heydər Əliyevin dövlətçilik irsinin layiqli davamçısı Prezident İlham Əliyevin yaşadığımız dövrün ən

mürəkkəb çağırışlarına adekvat olan müasir idarəetmə təcrübəsi sayəsində mümkün olmuşdur. Cənab İlham Əliyev ümummilli lider tərəfindən əsası qoyulmuş inkişaf strategiyasını nəinki qoruyub saxlamış, həm də həyata keçirdiyi praqmatik, məqsədyönlü islahatları sürətləndirməklə iqtisadi sahədə keçid dövrünün tez bir zamanda başa çatdırılmasına nail olmuş və ölkə iqtisadiyyatında yeni bir inkişaf mərhələsinin başlandığını bəyan etmişdir.

Bu gün həyatımızın bütün sahələrində əldə edilmiş uğurlar ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlanan və onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatların nəticələri və bəhrələridir. Ona görə də Heydər Əliyevin adı müstəqil Azərbaycan dövlətinin, onun iqtisadi yüksəlişinin memarı kimi tarixdə əbədi yaşayacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun, 2022.
2. "Mühasibat uçotu haqqında" AR Qanununda dəyişikliklər edilməsi barədə AR Qanunu, 4 may 2018-ci il
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. AR-nın Vahid Büdcə Təsnifatı.Bakı, 2018
4. Azərbaycan-2020: vergi sisteminin gələcəyi` Ulu öndər Heydər Əliyev (azvision.az)
5. İ.M.Abbasov, K.A.Xudaverdiyeva. Vergiqoyma və gömrük əməliyyatlarının uçotu. "Kooperasiya" nəşriyyatı, Bakı-2014.
6. T.Ə. Sadıqov, İ.M. Rzayev. Vergi uçotu və auditi. "Elm" nəşriyyatı, Bakı - 2014, 556 s.



***Вугар Мухтар оглы Мехтиев***
***д.ф.э., доцент кафедры "Бухгалтерского учета и аудита"***
***Азербайджанского Университета Кооперации***
***https://orcid.org/0000-0002-9625-1001***
***E-mail: vugar.m@muxtaroglu.az***


## Политическая поддержка Гейдара Алиева в создании современной налоговой службы


***Резюме***

Известно, что создание в Азербайджане современной налоговой службы связано с именем общенационального лидера Гейдара Алиева. Благодаря инициативе и заботе Гейдара Алиева были предприняты важные меры по формированию налоговой системы на основе современных стандартов в рамках проводимых в стране под его непосредственным руководством экономических реформ, концепции налоговой политики нашей страны, определены философия и стратегия реформ, проводимых в налоговой системе.Принятие Налогового кодекса и создание усовершенствованной законодательной базы стало историческим событием в жизни нашей страны и важнейшим шагом, предпринятым в области совершенствования налоговой системы и ее адаптации к международным стандартам. Принятие этого документа послужило толчком к расширению реформ и привело к значительному улучшению инвестиционной и налоговой среды в стране. Налоговая политика стала служить не только фискальным целям обеспечения доходов бюджета, но и целям ускорения экономического развития страны, создания благоприятной инвестиционной среды с оптимальным механизмом налогообложения, стимулирования развития предпринимательства.

Следует отметить, что нефтяная промышленность, другие промышленные объекты, крупные производственные комплексы, водохранилища, дороги, составляющие сегодня основу экономики Азербайджана, являются результатом неустанной деятельности Гейдара Алиева, а экономика независимой Азербайджанской Республики развивается на этой основе.



***Ключевые слова: налоговая служба, доходы бюджета, налоговая среда, механизм налогообложения, инвестиции.***

*Vugar Mukhtar Mekhtiev*
*Ph.D, associate professor of the*
*"Accounting and Audit" department of*
*Azerbaijan Cooperation University,*
*https://orcid.org/0000-0002-9625-1001*
*E-mail: vugar.m@muxtaroglu.az*

**Heydar Aliyev's political support in creating a modern tax service**

***Summary***

It is known that the creation of a modern tax service in Azerbaijan is connected with the name of national leader Heydar Aliyev. Thanks to the initiative and care of Heydar Aliyev, important measures were taken to form the tax system based on modern standards as part of the economic reforms carried out in the country under his direct leadership, the concept of the tax policy of our country, the philosophy and strategy of the reforms carried out in the tax system were determined.The adoption of the Tax Code and the creation of an improved legislative base was a historical event in the life of our country, and it was the most important step taken in the field of improving the tax system and adapting it to international standards. The adoption of this document served as an impetus for the expansion of reforms and led to a significant improvement of the investment and tax environment in the country. Tax policy began to serve not only the fiscal goals of ensuring budget revenues, but also the goals of accelerating economic development in the country, creating a favorable investment environment with an optimal taxation mechanism, and stimulating the development of entrepreneurship.

It should be noted that the oil industry, other industrial facilities, large production complexes, water reservoirs, roads, which are the core of Azerbaijan's economy today, are the result of Heydar Aliyev's tireless activities, and the economy of the independent Republic of Azerbaijan is developing on that basis.

***Key words: tax service, budget revenues, tax environment, taxation mechanism, investment.***

**UOT: 3633**

***Tamilla Cəlal qızı ABBASOVA***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***"İqtisadiyyat və idarəetmə" kafedrasının dosenti, i.f.d.,***
***E-mail: tamilla_abbasova62@mail.ru***
***ORCİD-İD: 0000-0003--0554-2995***

***Nailə Kamal qızı EYVAZOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının dosenti, i..e.n.***
***E-mail: eyvazova_71@mail.ru***
***ORCİD-İD: 0000-0001-9270-597X***

**AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ ONA İNNOVATİV YANAŞMA**

***Xülasə***

Müasir zamanda sosial şəbəkələrdən istifadənin sürətlə yayılması, "virtual dünya" fenomeninin ortaya çıxması, innovativ informasiya şəbəkələrinin sürətli inkişafı rəqəmsal telekommunikasiya texnologiyasının inkişafına böyük təkan verir. Bu gün rəqəmsallaşmanın insan kapitalına, həmçinin insan fəaliyyətinin bütün sahələrinə təsiri danılmazdır. Azərbaycanda hal-hazırda müasir

iqtisadi mühit və informasiya texnologiyasının səmərəli şəkildə iqtisadiyyata təsiri, müvafiq infrastrukturun və rəqəmsal texnologiyaların tətbiqində mühüm əhəmiyyət kəsb edir. Çağdaş dünyamızda baş verən texnoloji innovasiyaların milli iqtisadiyyatın bütün sektorlarına nüfuz etdiyi bir zamanda Azərbaycan Respublikasında artıq rəqəmsal iqtisadiyyatın biznes sektorlarına transformasiyası və yeni bazar trendlərinə inteqrasiyası müvəffəqiyyətlə davam edir.

***Açar sözlər: telekommunikasiya texnologiyaları, rəqəmsal transformasiya, innovasiya, informasiya, sosial-iqtisadi.***

***

Müasir dövrdə cəmiyyətin bütün sahələrində idarəetmənin təkmilləşdirilməsi, həmçinin telekommunikasiya texnologiyalarının sürətlə inkişafı üçün rəqəmsal transformasiyalı innovasiyaların inkişafı hərəkətverici qüvvəyə malikdir.

Bu gün səmərəliliyin və şəffaflığın daha da artırılmasına nail olmaq üçün ölkələr arasında rəqəmsal xidmətlərin genişləndirilməsi çox vacib sayılır. Son illərdə Azərbaycan Respublikasının qarşısında duran ən prioritet məsələlərdən biri də iqtisadiyyatın səmərəli inkişafı üçün rəqəmsal transformasiyanın yeni infrastruktur quruculuğunda geniş tətbiq olunmasının vacibliyidir. Vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə iqtisadiyyatda dövlət idarəetməsinin səmərəli və nümunəvi inkişafının əsasını İKT və sürətli inkişafa malik olan internet şəbəkəsinin tətbiqi tutur. Nəzərə alaq ki, hal-hazırda Azərbaycanın bütün ərazi və bölgələrində rəqəmsal mərkəzin inkişafı üçün ardıcıl islahatlar aparılmaqdadır. Belə ki, "Hökumət buludu" (G-Village), "Böyükhəcmli məlumatlar" (Big Data), "Ağıllı şəhər" (Smart City), "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal xidmətlər müvəffəqiyyətlə həyata keçirilməkdədir. Bu gün rəqəmsal transformasiya effektivlik və səmərəlilik cəhətdən cəmiyyəti irəli aparacaq yeganə vasitədir.

Hal-hazırda dünya öz inkişafını yeni anlayışlar və proseslər üzərində qurur. Çünki texnologiya və innovasiyalar ölkələrin, xalqların gündəlik həyatlarına daxil olmaqdadır. Bu proseslər biznes və təşkilatların da inkişafında mühüm rol oynayır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də göstərilmişdir: "Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq, həmçinin ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha da yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Belə ki, bu gün insan kapitalının müasirləşdirilməsi – rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin təmin olunmasını tələb edir."[2] Hazırda innovasiyanın sürətli inkişafı, rəqəmsallaşma prosesinin yeni çağırışlarına cavab verməsi, hər bir ölkənin iqtisadi gücü və qüdrətidir. Rəqəmsal transformasiya və innovasiyalı inkişafa nail olmaq üçün ABŞ, Çin, Cənubi Koreya və İsrail kimi böyük dövlətlərin təcrübələrindən istifadə etmək lazımdır.

Rəqabət o qədər şiddətlidir ki, bu ölkələr texnologiyalara daha çox sərmayə qoyan ölkələr sırasındadır. Bu ölkələrin hədəfi yeni innovativ texnologiyaların drayveri olmaq, həmçinin öz şirkətlərinin üstünlüklərindən faydalanmaqdır. Biz də bu texnologiyalara vaxtında yiyələnməli və Azərbaycanı regional data emalı mərkəzinə çevirməliyik. Rəqəmsal texnologiyanın inkişafı, Azərbaycanda "elektron hökumət"in formalaşdırılması Ulu öndər Heydər Əliyev tərəfindən 2003-cü ildə imzalanmış "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ilə başlanmışdır. Bunun davamı olaraq "2005-2008-ci illər üçün Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı Dövlət Proqramı"nın və 2010-2012-ci illərdə ikinci "Elektron Azərbaycan" Dövlət Proqramı qəbul edilməsi nümunəvi bir haldır. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində qeyd edilmişdir: "İKT biznes və ticarət əməliyyatlarının bir sıra aspektlərini dəyişmək potensialına malik olduğundan hökumət bu funksiyaların tənzimlənməsi, həmin xidmətlərin dəstəklənməsi və səmərəliliyinin yüksəldilməsi üçün İKT-nin gücündən istifadə etməklə əlavə mənfəət əldə edə bilər". Avtomatlaşdırılmış bilik yaradılması prosesi "İnternet nəzarəti", uzaq məsafəli idarəetmə texnologiyaları, süni intellekt və robotlaşdırma mövcud bazar liderlərini sınağa çəkərək yeni şirkətlərin qlobal flaqmanlar kimi mövqelərini möhkəmləndi-

rəcəkdir. Azərbaycanda həm dövlət, həm də özəl sektorda idarəetmə bio, nano, informasiya, kommunikasiya, sənaye, maliyyə və başqa sahələrdə qabaqcıl texnologiyaların tələblərinə uyğunlaşacaqdır. Yeni texnologiyaların inkişafı ilə yanaşı artan kibertəhlükəsizlik risklərinin idarə edilməsi qlobal çağırış olaraq Azərbaycan üçün də aktualdır. Qabaqcıl texnologiyaların idxalı ilə yanaşı, həm də onu idarə edən insan kapitalının formalaşdırılması, ümumilikdə təfəkkür tərzinin yeni qlobal çağırışlar və meyillərə uyğun inkişafı həyata keçiriləcəkdir. Azərbaycanın elmi potensialı qlobal meyillərə uyğun şəkildə yeni texnologiyaların inkişafına töhvə verəcəkdir.[3] Hal-hazırda informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, keçən əsrdə dünya iqtisadiyyatının inkişafında mühüm yerlərdən birini tutan neft və qaz resurslarını artıq qabaqlamışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (Asan Xidmət) ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının əhəmiyyətli inkişafı strategiyasının tətbiqi istiqamətində mühüm layihələr həyata keçirmişdir. Xüsusilə Dövlət orqanlarının yerinə yetirdikləri çoxsaylı xidmətlər ölkə vətəndaşlarına böyük qayğının nəticəsidir ki, burada müasir innovativ ideyaların daha geniş tətbiq edilməsinə əlverişli şərait yaradılır. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2 əsas fəaliyyət istiqaməti mövcuddur:

"ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə olunması;

Dövlət orqanlarının informasiya bazarlarının qarşılıqlı inteqrasiyası və elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf strategiyasını araşdıraraq bu qənaətə gəlmək olar ki, müxtəlif texniki vasitələrin qarşılıqlı və optimal əlaqəsində mövcud informasiya resurslarının sürətli artımı – iqtisadiyyatın bütün sektorlarına köklü, inqilabi dəyişikliklər gətirib çıxaran dinamik təsirləri ilə modern cəmiyyət paradiqması yaratmış, bununla yanaşı sivilizasiyanın hazırkı mərhələsində informasiyanın iqtisadi kateqoriya kimi rolu və əhəmiyyətini əsaslı dərəcədə yüksəltmişdir.[8]

Qeyd edək ki, biznes modellərindən istifadə edən firmalar bu gün öz güclərini rəqəmsal platformaya əsaslanan və bu platformada öz gücünü göstərən hər kəsin tanıdığı "Alibaba", "Amazon", "eBay", "Uber", "Facebook", "Didi Chuxing", "Airbnb" məhz rəqəmsal iqtisadiyyata əsaslanan biznes modellərinə malik olan böyük firmalardır. Son illərdə geniş müzakirəyə səbəb olan rəqəmsal iqtisadiyyat, robotlar, süni intellekt və onların bütün dünyaya geniş şəkildə daxil olması nəticəsində ortaya çıxan "sənaye 4.0" konsepsiyası yeni bir istiqamətdə inkişaf etməklə böyük müzakirələrə səbəb olmuşdur. Bir çox ciddi çağırışlar, təhdidlər yaradan rəqəmsal inqilab cəmiyyətdə görünməmiş yüksək sürətlə irəliləməyə başlamışdır. İqtisad elmi bu gün rəqəmsal transformasiyanın ən ciddi çağırışları ilə qarşılaşır. Əmək bazarı üçün ciddi çağırışlara səbəb olan rəqəmsal iqtisadiyyat – yeni və fərqli bacarıqlar, yeni nəsil sosial müdafiə siyasətləri və işləməklə sərbəstlik arasında yeni qarşılıqlı əlaqənin olmasını tələb edir.

Rəqəmsallaşmanın bizi gətirib çıxartdığı "sənaye 4.0" elə bir istehsal modelidir ki, onu idxal edə bilmək mümkün deyildir. Bəzi modeli və texnologiyalarını idxal etmək olar, ancaq bu istehsal modeli davamlı yaxşılaşma, süni intellektin öyrənməsinə imkan verən və özünü davamlı yeniləyən bir strukturdur. Bunu fasiləsiz olaraq idxal etmək mümkün deyil, əks təqdirdə rəqiblərimiz hər zaman sizdən mühüm dərəcədə öndə olacaqdır. Buna görə də ölkənin özünün "sənaye 4.0"ını yarada biləcək təhsilli iş qüvvəsinə və bunları da düzgün qiymətləndirəcək sahibkarlara ehtiyacı vardır. [7]

Əsaslı şəkildə deyə bilərik ki, son illərdə Azərbaycanda da informasiya cəmiyyətinin inkişafı, informasiya-kommunikasiya texnologiyalarının iqtisadiyyata ciddi tətbiqi və bununla yanaşı rəqəmsal iqtisadiyyata daxil olması üçün əsaslı zəminin yaradılması və onun vacib mexanizmlərinin tətbiqinin səmərəli təşkili, çoxlu sayda yeni standartların yaradılması innovasiyalar və texnologiyalar bazarında əsaslı istehsal infrastrukturunun inkişafına böyük zəmin yaradacaqdır.

Akademik Ə.Abbasov və O.İbrahimov rəqəmsal iqtisadiyyat və onun qlobal trendləri, nailiyyətləri ilə bağlı araşdırmalarında göstərirlər ki, bütün dünyanı bürüyən rəqəmsal texnologiyalar, dünyanın sosial, iqtisadi həyatını kökündən dəyişərək, inkişaf hüdudları, təsir imkanları və sosial-iqtisadi fəsadları aydın təsəvvür edilməyən yeni mühit yaratmışlar. Baş verən proseslər 4-cü səna-

ye inqilabı, post-sənaye erası, rəqəmsal bilik və innovativ iqtisadiyyat kimi müxtəlif adlar altında alimlərin, siyasətçilərin, biznes elitasının, ictimai xadimlərin diqqətini ciddi şəkildə zəbt etmişlər. [4]

İqtisadi siyasətin effektivliyinin artırılması üçün rəqəmsal iqtisadiyyatın təqdim etdiyi innovativ rəqəmsal informasiyalar sosial-iqtisadi məsələlərin həlli istiqamətində qarşılıqlı əlaqəni stimullaşdırır və inkişaf etdirir. Bu gün rəqəmsal iqtisadiyyatı, informasiya-kommunikasiya texnologiyasını, rəqəmsal iqtisadiyyatın miqyasını dünya səviyyəsində ölçmək çox çətindir. Çünki inkişaf etməkdə olan ölkələr rəqəmsal iqtisadiyyatdan daha çox faydalanmaq üçün təcrübələr əldə edərək rəqəmsal boşluğu azaltmaq, aradan qaldırmaq niyyətindədirlər.

Azərbaycanda rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 27 aprel 2021-ci ildə fərman imzalamışdır. Fərmanda rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti üzrə idarəetmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, kommersiya fəaliyyəti ilə yanaşı dövlət və ictimai əhəmiyyət daşıyan funksiyaların effektiv həyata keçirilməsi tələb olunur. Qeyd edək ki, Azərbaycanda müvəffəqiyyətlə davam edən xarici və daxili siyasət, həyata keçirilən islahatlar, irimiqyaslı layihələr beynəlxalq miqyasda böyük nüfuz qazanan Prezident İlham Əliyevin adı ilə bağlıdır. 2013-cü ildə "Azerspace-1" peykinin orbitə çıxarılması Azərbaycan tarixinin önəmli layihələrindən biridir. Çünki ölkəmiz azsaylı dövlətlərin təmsil olunduğu "kosmik klub"a üzv olmuşdur. Bundan başqa bu peyk ilə yanaşı "Azersky" da ölkəmizin milli maraqlarının və suverenliyinin qorunması və Azərbaycan haqqında olan həqiqətləri dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlara malikdir. Sevindirici haldır ki, "Azerspace"in davamı olaraq ölkəmizin artıq 3 peyki orbitə çıxarılıb. Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün fikirləri çox maraqlıdır. Onun sözlərinə görə "Dördüncü sənaye inqilabı" o deməkdir ki, hər yer rəqəmsallaşacaqdır. Əvvəlki sənaye inqilablarından fərqli olaraq dördüncü sənaye inqilabında dəyişikliklər daha sürətli olacaq. Əvvəlki inqilablar arasında daha çox zaman fərqi olmuşdur. (ilk üç sənaye inqilabı arasında 100 ilə yaxın zaman fərqi olub) Dördüncü sənaye inqilabı dövründə rəqəmsallaşma artacaq, ətrafımızdakı əşyaların internetə inteqrasiyası güclənəcək, evinizdə və ofisinizdə nə varsa, hamısı internetə qoşulacaq. Dəyişiklik çox sürətli olacaq. Hazırda əsas problem bu dəyişikliklərə uyğunlaşmaqdan ibarətdir. Bu dəyişikliklər bir insan ömründə baş verəcək. O səbəbdən bu prosesdən geri qalmamaq lazımdır. Həm əmək qabiliyyəti baxımından, həm psixoloji baxımdan hazırlıq tələb edir. [6] Azərbaycanın belə sürətlə inkişaf etməsi İKT-nin inkişaf dinamikası, uğurla davam edən neft strategiyası nəticəsində ölkəmizə olan inamın artması - bütün bunlar ölkəmizin gələcəkdə də yüksək texnologiyalar sahəsində böyük uğurlar qazanacağına zəmanət verir. Prezident İlham Əliyev böyük məmnuniyyətlə işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam vermişdir. Sərəncamda deyilir: Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafın təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası, informasiya-kommunikasiya texnologiyasının bu ərazilərə cəlbi və s. istiqamətlərdə genişmiqyaslı tədbirlər həyata keçirilir... Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.[1] Qeyd etmək vacibdir ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işləri, əsasən innovativ texnologiyaların tətbiqi ilə diqqət mərkəzində olacaqdır. Burada əmək qabiliyyətli əhalinin məşğulluğu üçün böyük perspektivlər vardır. Regionda müvəffəqiyyətlə genişmiqyaslı bərpa fəaliyyətləri, innovasiyalı infrastrukturun qurulması yaxın illərdə ölkəmizə böyük töhfələr verəcək. Dövlət başçımız səfərdə olarkən çıxışlarının birində belə demişdir: "Biz yenidənqurma işləri ilə bağlı ilk addımlar atmışıq, ilk müqavilələr artıq bağlanıb və dediyim kimi biz işğaldan azad olunan ərazilərdə dost ölkələrdən olan şirkətlərlə çalışacağıq. İlk müqavilələr türk şirkətləri ilə bağlanıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Növbəti müqavilələr isə İtalya şirkətləri ilə imzalanacaqdır. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur."[5] Bütün bunlarla yanaşı rəqəmsal transformasiya üzrə Azərbaycan-Türkiyə işçi qrupunun Yol Xəritəsi də imzalanmışdır.

Sənəddə əsasən Azərbaycanın rəqəmsal transformasiya konsepsiyasının həyata keçirilməsi, kibertəhlükəsizlik, "hökumət buludu" və digər məsələlər müzakirə edilib. Bu gün birmənalı olaraq demək olar ki, cəmiyyəti irəli aparacaq yeganə vasitə rəqəmsal transformasiya və innovativ inkişafdır. Ölkəmiz dünyada rəqəmsal transformasiyaya inteqrasiya etməklə, texnoloji-innovativ yeniliklərə, rəqəmsal bilik və bacarıqlara uyğunlaşmaqla pilot layihələrin potensialını gücləndirmək istiqamətində inkişaf etməkdədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı. Bakı şəhəri. 10 dekabr 2021-ci il
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02 fevral 2022-ci il
3. Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji Yol Xəritəsi. səh.6
4. Abbasov Ə., İbrahimov O. Rəqəmsal iqtisadiyyat: qlobal trendlər, nailiyyətlər və çağırışlar kontekstində Azərbaycanın inkişaf perspektivləri // "Azərbaycanın iqtisadi inkişaf strategiyası" mövzusunda respublika elmi konfransının materialları. Bakı UNEC. Səh.216-223
5. "İki sahil" onlayn ictimai siyasi qəzet. 27 aprel 2022-ci il
6. M.Bağırov. "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi." Mənbə: aqreqator.az/az/ik/429126
7. Prof.Ədalət Muradov, ADİU-nın rektoru. "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" Beynəlxalq konfransın materialları. Bakı-UNEC. 13-14 fevral 2020. Səh.10-11
8. Козлов И.А. Экономическая модель России XXI века. Москва: Креативная экономика. 2013, стр.559



***д. ф.э., доцент Тамилла Джалал гызы Аббасова***
***Азербайджанский Государственный Экономический***
***Университет преподаватель кафедры***
***"Экономики и управления",***

***д.э.н., доцент Наиля Камал гызы Эйвазова***
***Азербайджанский Университет Кооперации***
***преподаватель кафедры "Экономика аграрной***
***отрасли и промышленности"***


## Перспективы развития цифровой экономики в азербайджане и инновационный подход к ней


***Резюме***

Стремительное распространение использования социальных сетей в современное время, появление феномена "виртуального мира", бурное развитие инновационных информационных сетей дают большой толчок развитию цифровых телекоммуникационных технологий. Сегодня влияние цифровизации на человеческий капитал, как и на все сферы человеческой деятельности, неоспоримо. В настоящее время современная экономическая среда в Азербайджане и эффективное влияние информационных технологий на экономику имеют важное значение в применении соответствующей инфраструктуры и цифровых технологий. В то время, когда технологические инновации в нашем современном мире проникают во все отрасли народного хозяйства, в Азербайджанской Республике успешно продолжается трансформация цифровой экономики в секторы бизнеса и интеграция в новые рыночные тенденции.



***Ключевые слова: телекоммуникационные технологии, цифровая трансформация, инновации, информация, социально-экономические.***

***Tamilla Jalal Abbasova***
***Azerbaijan State University of Economics***
***“Economics and management” department***
***doctor of philosophy in economic sciences,***

***Naila Kamal gızı Eyvazova***
***Azerbaijan Cooperation University***
***“Economics of the agricultural field and industry”***
***department doctor of philosophy***
***in economic sciences, ass. prof.***

**Perspectives of development of digital economy in Azerbaijan and innovative approach to it**

***Summary***
The rapid spread of the use of social networks in modern times, the emergence of the phenomenon of “virtual world”, the rapid development of innovative information networks give a great impetus to the development of digital telecommunications technology. Today, the impact of digitalization on human capital, as well as on all areas of human activity, is undeniable. The current economic environment in Azerbaijan and the effective impact of information technology on the economy are important in the application of relevant infrastructure and digital technologies. At a time when technological innovations in our modern world are penetrating all sectors of the national economy, the transformation of the digital economy into business sectors and integration into new market trends is successfully continuing in the Republic of Azerbaijan.
***Key words: telecommunication technologies, digital transformation, innovation, information, socio-economic.***

**UOT: 338.433; 338.43**

***Şövkət Abuzər qızı YUSUFOVA***
***İqtisad üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Kooperasiya Universiteti***
***ORCİD-İD- 0000-0002-5351-0069***

**AZƏRBAYCANDA AQRAR SAHƏNİN İNKİŞAF PROBLEMLƏRİ**

***Xülasə***
Azərbaycanda aqrar islahatların genişləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin vəziyyəti təhlil olunmuşdur. Eyni zamanda aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalına, inkişafına təsir edən amillərin statistik təhlil, ümumiləşdirmə, analitik təhlil və müqayisə metodlarından istifadə edilməsi öz əksini tapmışdır. Həmçinin kənd təsərrüfatının istehsal vasitələri ilə təchizatının təkmilləşdirilməsi istiqamətləri elmi əsaslandırılmışdır.
***Açar sözlər: aqrar sahə, inkişaf, istehsal, resurs, kənd təsərrüfatı, torpaq islahatı.***

***

Azərbaycan müstəqilliyi bərpa etdikdən sonra iqtisadi əlaqələrin kəsilməsi, ölkənin müharibə şəraitində olması, kənd təsərrüfatının, xüsusilə heyvandarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edən Qarabağın Ermənistan tərəfindən işğal edilməsi ölkə iqtisadiyyatını dərin böhrana sürükləmişdi. 90-cı illərin əvvəllərində ölkədə baş verən hərcmərclik və rəhbərsizlik vəziyyəti daha da gərginləşdirirdi. Azərbaycan xalqının tələbi ilə ölkə rəhbərliyinə gətirilən H.Əliyev ölkənin və xalqın ağır durumunda yeganə ümid yeriydi. Ulu öndər Azərbaycana 2-ci dəfə rəhbərlik etməyə başlayandan ilk işi orduda nizam-intizam yaratmaq, ordu quruculuğunu sürətləndirmək oldu. Lakin, güclü ordunun yaradılması, ölkənin sosial-iqtisadi durumunu böhrandan çıxarmaq üçün güclü

iqtisadiyyata ehtiyac varıydı. Böyük təcrübəyə malik olan rəhbər “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir” [3] deməklə hər şeydən əvvəl qarşıda böyük quruculuq işlərinin olduğunu, iqtisadi-siyasi əlaqələrin genişləndirilməsini, rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafının vacibliyini önə çəkmişdir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətlənməsi üçün ölkə iqtisadiyyatının liberallaşdırılması, islahatların aparılması qaçılmaz idi. Lakin islahatların aparılması sözlə deyildiyi kimi asan deyildi və O, bu işdə tələskənliyə yol verməməyi, yüz ölçüb, bir biçməyi tövsiyə edərək deyirdi “Biz islahatları bir gündə yox, bir ayda yox, bəlkə də bir ildə yox, tədricən həyata keçiririk” [4].

Məlum olduğu kimi, kənd təsərrüfatının inkişafı problemi, SSRİ-nin dağılması səbəbindən vahid iqtisadi əlaqələrin pozulması, istehsalın rəqabət qabiliyyətinin aşağı olması dövlətdə ciddi iqtisadi islahatların aparılmasını şərtləndirmişdir. Etiraf etmək lazımdır ki, torpaqdan təhrif olunmuş istifadə və kəndin texniki təchizatının həddən artıq aşağı düşməsi ölkədə xarici kapitaldan dəhşətli ərzaq asılılığı yaradırdı. Məhz bu baxımdan 1990-cı illərin islahatları kəndlilərin torpaq sahibi olmasını istehsal etdiyi məhsulun sahibi kimi fəaliyyət göstərməsini zəruri edirdi. Bütün bunları nəzərə alan Ulu öndərin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrində islahatlara başlanıldı. Əhalinin 50%-ə qədərinin kənd yerlərində yaşaması və kəndlərdə olan ağır durumu aradan qaldırmaq üçün torpaq sahələrinin kənd əhalisinin xüsusi mülkiyyətinə verilməsi qərara alındı. Bu məqsədlə 16 iyul 1996-cı il № 155-IQ “Torpaq islahatı haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edildi. Qəbul edilən qanun əsasında torpaq islahatları aparılaraq sovxoz və kolxozların mülkiyyətində olan torpaq sahələri dövlət, bələdiyyə və kənd əhalisinin xüsusi mülkiyyətinə verildi, eyni zamanda 1996-cı ildən başlayaraq dövlət torpaq kadastrının məzmunu və aparılması ilə bağlı bu və ya digər dərəcədə bir çox normativ-hüquqi sənədlər qəbul edilmişdir. Qəbul edilən sənədlərdə yeni torpaq münasibətlərinin həyata keçirilməsi, torpaq mülkiyyətinin və torpaqdan istifadənin müxtəlif strukturunun formalaşması, bazar münasibətlərinə keçidi nəzərdə tutan torpaq islahatının həyata keçirilməsi öz əksini tapmışdır. Lakin tək torpaq islahatlarının aparılması hələ kənd təsərrüfatının inkişafı demək deyildir. Bunu nəzərə alan H.Əliyev islahatların davam etməsi üçün Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 2 mart tarixli 290 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına müvafiq tapşırıqlar vermişdir. İslahatların davam edərək daha da təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. Kənd əhalisi istehsal etdiyi məhsula sərbəst qərar verməklə hansı məhsulu istehsal edəcəyinə də özü qərar verirdi.

Azərbaycanda aparılan aqrar və torpaq islahatları müstəqil bir dövlətin sovet və müasir dövrlərin bütün iqtisadi islahatları ilə müqayisədə doğru və qətiyyətli bir seçim etdiyini göstərdi.

Ulu öndər tərəfindən həyata keçirilən islahatlar onun layiqli davamçısı, qalib xalqın, ordunun rəhbəri olan Prezident İ. Əliyev tərəfindən bu gün də davam etməkdədir. Qeyd edək ki, aparılan islahatlar nəticəsində sovxoz və kolxozların mülkiyyətində olan bütün əmlaklar, o cümlədən istehsal resursları da təsərrüfatda çalışan işçilərin mülkiyyətinə verilmişdir. Lakin, bu resursların böyük hissəsi kifayət qədər aşınmış və istismar müddətini başa vurmuşdur. Digər tərəfdən kənd təsərrüfatının dövriyyə resursları ilə, xüsusən də mineral gübrə, bitkiçilikdə və heyvandarlıqda istifadə olunan müxtəlif dərman preparatları ilə təmin edilməsi olduqca çətinləşmişdir.

Keçən müddət ərzində aqrar sahənin və kənd yerlərinin inkişafı ilə bağlı dövlət proqramları işlənib hazırlanmış, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Yol Xəritəsində aqrar sahədə kənd təsərrüfatı məhsullarının istehsalının və emalının genişləndirilməsi, kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələləri öz əksini tapmışdır [6].

Ə.Hacıyev öz tədqiqatlarında qeyd edir ki, kənd təsərrüfatı islahatlarının xüsusiyyətlərindən biri də burada, xüsusilə əkinçilikdə bir çox maşın və mexanizmlərin mobil şəraitdə işləməsi, onlardan mövsümilikdə və açıq hava şəraitində istifadə edilməsidir. Məhsul istehsalının hər bir texnoloji mərhələsinin özünə münasib maşınlar tələb etməsi xalq təsərrüfatının başqa sahələrindən

fərqli olaraq kənd təsərrüfatında texnikaya tələbatı daha da artırır. Stasionar maşınlardan fərqli olaraq mobil maşınların təkmilləşdirilməsinin texniki həlli bir qədər çətindir. Ona görə də kənd təsərrüfatı texnikasına müasir elmi nailiyyətlər ləng yol açır [1, s. 49]

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalı tək torpaqla deyil digər resursların: maddi-texniki (material), əmək, maliyyə vəsaitlərinin köməyi ilə həyata keçirilir. Bu resurslardan düzgün və səmərəli istifadə isə təkcə kəmiyyətə deyil, həm də keyfiyyətə böyük təsir edir. Qeyd edək ki, yüksək keyfiyyətli xammalın mövcudluğu və əlçatanlığı istənilən kənd təsərrüfatı məhsulunun istehsalını artırmağa imkan verir. Son illərdə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və ölkənin ixrac potensialının genişləndirilməsi istiqamətində dövlət tərəfindən xüsusi dəstək proqramları işlənib hazırlanaraq həyata keçirilməkdədir. Burada əsas dəstək fermerlərin istehsal resurslarına əlçatanlığının asanlaşdırlması və istehsal şəraitinin yaxşılaşdırılmasıdır. Kənd təsərrüfatında mexanikləşmə səviyyəsinin yüksəldilməsi üçün texnikaların alınmasına dövlət dəstəyi göstərilir. Azərbaycanda əsas növ kənd təsərrüfatı texnikasının parkı cədvəl 1-də verilmişdir.

***Cədvəl 1***

***Əsas növ kənd təsərrüfatı texnikasının parkı, ilin axırına***

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2018-ci ilə nisbətən% |
|---|---|---|---|---|---|---|
| Traktorlar | 21787 | 34829 | 34936 | 34954 | 36808 | 105.7 |
| Kotanlar | 1624 | 4350 | 4413 | 4519 | 5602 | 128.8 |
| Kultivatorlar | 192 | 589 | 1094 | 1277 | 1618 | 2.7 dəfə |
| Taxıl-toxumsəpənlər | 603 | 1697 | 1797 | 3233 | 3819 | 2.2 dəfə |
| Otbiçənlər | 440 | 660 | 755 | 1312 | 1703 | 2.6 dəfə |
| Otpresləyənlər | 824 | 1656 | 1580 | 1512 | 1697 | 102.5 |
| *Kombaynlar* | | | | | | |
| taxılyığanlar | 1621 | 3671 | 3817 | 3642 | 3588 | 97.7 |
| qargıdalıyığanlar | 2 | 10 | 8 | 7 | 6 | 60 |
| yemyığanlar | 70 | 277 | 172 | 111 | 109 | 39.3 |
| pambıqyığanlar | 311 | 487 | 482 | 485 | 496 | 101.8 |
| *Maşınlar* | | | | | | |
| kartofyığanlar | 12 | 39 | 43 | 49 | 59 | 151.3 |
| çuğunduryığanlar | 8 | 31 | 35 | 34 | 142 | 4.6 dəfə |
| bərk mineral gübrələri dağıdanlar | 82 | 211 | 281 | 335 | 518 | 2.4 dəfə |
| çiləyici və tozlayıcılar | 194 | 849 | 961 | 1299 | 1665 | 196.1 |

*2017-cı il üzrə yalnız saz vəziyyətdə, 2018-2021-ci illər üzrə saz və nasaz vəziyyətdə olan texnikanın ümumi sayı (Aqrar Xidmətlər Agentliyinin elektron informasiya sistemində dövlət qeydiyyatında olan)*

*Mənbə: stat. gov.az. [5]*

Statistik məlumatların təhlili göstərir ki,kənd təsərrüfatında mövcud olan texnikaların 2017-ci ildə saz vəziyyətdə olan hissəsi texnikaya olan tələbatı ödəmir. Eyni zamanda sonrakı illərin məlumatlarında texnikaların saz və nasaz halda cəm şəkildə verilməsi qeyd edilən illər üzrə müqayisədə 2 dəfədən çox fərq edir. Texnikaların təmiri və ehtiyat hissələrlə təminat səviyyəsinin aşağı olması qeyd edilən fərqə uyğun olaraq özünü göstərir ki, bu da məhsul istehsalının mexanikləşməsinə mənfi təsir edir.

Aqrar sahədə rəqabət mühitinin yaradılması yüksək keyfiyyətli resurslardan istifadəni şərtləndirir. Bunun üçün ölkədə kifayət qədər keyfiyyətli toxum və ting istehsalçısı, kənd təsərrüfatı texnikalarının, müxtəlif maşın və avadanlıqların təchizatı və təmiri üçün inkişaf etmiş struktur, tələb və təklifin formalaşması üçün normal şərait olmalıdır.

Professor İ. İbrahimov öz tədqiqatlarında qeyd edir ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının müasir tələblərə cavab verən kənd təsərrüfatı texnikaları ilə təmin olunması istehsalın dinamik inkişafı, ərzaq təhlükəsizliyinin əsas şərtlərindən biridir. Kənd təsərrüfatı texnikalarının möv-

cudluğu və onun səviyyəsi aqrotexniki tədbirlərin müəyyən olunmuş müddətdə həyata keçirilməsini, becərilmiş məhsulun vaxtında və itkisiz yığılmasını, istehsal proseslərində maneələrin aradan qaldırılmasını təmin edir [2. s. 274].

Kənd təsərrüfatının texnika ilə təmin edilməsi istehsal xərclərinin aşağı salınmasında mühüm rol oynamaqla keyfiyyətli məhsul istehsalını təmin edir və rəqabətqabiliyyətli istehsalın inkişafını stimullaşdırır. Son illərdə kənd təsərrüfatının texnika ilə təminat dinamikası cədvəl 2-də verilmişdir.

***Cədvəl 2***

***Kənd təsərrüfatının texnika ilə təminatı***

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2017-ci ilə nisbətən % |
|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə traktorlar düşür, ədəd | 13 | 20 | 20.4 | 21.3 | 22.2 | 171 |
| Bir traktora düşən əkin | 76 | 50 | 49 | 47 | 45 | 59.2 |
| Müvafiq bitkilərin min hektar əkin sahəsinə düşən kombaynların (maşınların) sayı, ədəd | | | | | | |
| Taxılyığan | 1.8 | 3.5 | 3.7 | 3.8 | 3.7 | 2 dəfə |
| Qargıdalıyığan | 0.1 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 2 dəfə |
| Kartofyığan | 0.2 | 0.7 | 0.8 | 0.9 | 1.1 | 5.5 dəfə |
| Çuğunduryığan | 0.6 | 3.6 | 4.8 | 6.8 | 27.8 | 46.3 dəfə |
| Pambıqyığan | 2.3 | 3.7 | 4.8 | 4.8 | 4.9 | 2.1 dəfə |
| 100 traktora düşür | | | | | | |
| Kotan | 8 | 12 | 13 | 13 | 15 | 187.5 |
| Kultivator | 1 | 2 | 3 | 4 | 4 | 4 dəfə |
| Taxıl-toxumsəpən | 3 | 5 | 5 | 9 | 10 | 3.3 dəfə |
| Otbiçən | 2 | 2 | 2 | 4 | 5 | 2.5 dəfə |

*Mənbə: Kənd Təsərrüfatı Nazirliyinin məlumatları əsasında, stat. gov.az. [3]*

Statistik məlumatların təhlili göstərir ki, kənd təsərrüfatının texnika ilə təminat səviyyəsi son illərdə yüksəlmiş və kənd təsərrüfatının mexanikləşmə səviyyəsi artmışdır. Bu isə öz növbəsində əl əməyindən istifadə səviyyəsinin aşağı düşməsinə və sonda istehsal xərclərinin azalmasına müsbət təsir edir.Lakin bir çox texnikaların nasaz olması istehsal səviyyəsinin və fermerlərin gəlirlərinin azalmasına səbəb olur ki, bu da ərzaq təhlükəsizliyinə mənfi təsir edir.

Aparılan araşdırmalar göstərir ki, aqrar sahənin inkişaf etdirilməsində mühüm məsələ kənd təsərrüfatının keyfiyyətli istehsal resursları ilə təminat səviyyəsinin yüksəldilməsi və ondan səmərəli istifadə edilməsidir. Kənd təsərrüfatında əsas məhsul istehsalçısı olan təsərrüfatların çox kiçik olması və onların eyni ərazidə müxtəlif məhsul yetişdirmələri həlli çətin olan problemlər yaradır ki, bu da məhsulun istehsal səviyyəsinə mənfi təsir edir. Kənd yerlərində məşğulluq səviyyəsinin aşağı olması və iş yerlərinin məhdudluğu bu çətinlikləri daha da artırır. Aparılan tədqiqatların təhlili göstərir ki, aqrar sahənin kompleks inkişaf etdirilməsi, rəqabətqabiliyyətli emal sənayesinin inkişaf etdirilməsi, fermerlərin birlik halında çalışma mexanizmlərinin hazırlanması və tətbiqi kənd təsərrüfatının və ümumilikdə aqrar sahənin inkişafında mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Ə.H.Hacıyev, Aqrar-Sənaye komplekslərinin iqtisadiyyatı, "Təhsil" EİM-nin mətbəəsi, Bakı-2006, 334 s.
2. İ.H.İbrahimov, Aqrar sahənin iqtisadiyyatı, Monoqrafiya, NBS "PrintingCompany" MMC, Bakı 2016, 655 s.
3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"
4. 16 iyul 1996-cı il № 155-IQ "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunu
5. https://genprosecutor.gov.az/az/post/2422(22.02.2023)

6. https://sesqazeti.az/news/social/605963.html (22.02.2023)
7. https://www.stat.gov.az/source/agriculture/(23.02.2023)
8. https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf(23.02.2023)
9. https://e-qanun.az/framework/4207(24.02.2023)

***Шовкет Абузар кызы Юсуфова***
***Доктор философии по экономике, доцент***
***Азербайджанский Университет Кооперации***
***ORCİD-İD- 0000-0002-5351-0069***

**Проблемы развития сельскохозяйственной отрасли в Азербайджане**

***Резюме***

Проанализировано состояние размещение аграрных реформ в Азербайджане и направления его совершенствования. При этом отражено использование методов статистического анализа, обобщения, аналитического анализа и сравнения факторов, влияющих на производство и развитие сельскохозяйственной продукции в аграрной сфере. Также научно обоснованы направления улучшения снабжения сельскохозяйственных предприятий средствами производства.

***Ключевые слова: аграрная территория, развитие, производство, ресурс, сельское-хозяйство, земельная реформа.***

***Shavkat Abuzar Yusufova***
***Doctor of philosophy in economics, associate professor***
***Azerbaijan University of Cooperation***
***ORCİD-İD- 0000-0002-5351-0069***

**Problems of development of the agricultural industry in Azerbaijan**

***Summary***

The state of expansion of agrarian reforms in Azerbaijan and the directions of its improvement was analyzed. At the same time, the use of statistical analysis, generalization, analytical analysis and comparison methods of the factors affecting the production and development of agricultural products in the agrarian field has been reflected. Also, directions for improving the supply of agricultural means of production have been scientifically substantiated.

***Key words: agrarian territory, development, production, resource, agriculture, land reform.***

**UOT 338.43**

***Azər Agazeynal oğlu QURBANZADƏ***
***İqtisad üzrə fəlsəfə doktoru, dosent,***
***Azərbaycan Kooperasiya Universiteti,***
***"Kommersiya" kafedrası***
***azercooperation@hotmail.com***

## BƏŞƏRİYYƏTİN QLOBAL PROBLEMLƏRİ FONUNDA ƏRZAQ TƏMİNATINA TƏSİR EDƏN AMİLLƏR

***Xülasə***

XX əsrin sonlarından etibarən dünyanın siyasi xəritəsində sosializm düşərgəsinin tarixə yuvarlanması prinsip etibarilə qloballaşmanın da yeni dalğasını formalaşdırmağa başladı. Qloballaşmanın yeni dalğası cəmiyyətdə özünəməxsus müsbət təzahürlər ilə yanaşı, eyni zamanda özünə-

məxsus destruktiv tendensiyalar da doğurdu. Başqa sözlə, qloballaşma prosesinin güclənməsi fonunda dünyada kifayət qədər qlobal problemlər də yaranmağa başladı.

***Açar sözlər: qloballaşma, ərzaq təminatı, qlobal problemlər, ərzaq təminatına təsir edən amillər, iqtisadi amillər.***

***

Müasir şəraitdə, daha doğrusu, XXI əsrin ilk iyirmiliyi üçün mövcud olan ən mühüm qlobal problemlərdən biri dünyanın ekoloji problemləri hesab edilir. Dünyanın ekoloji problemlərini şərtləndirən ən mühüm amillərdən biri antropogen təsirlər hesab edilir.Antropogen təsirlərin güclənməsi ilk növbədə ətraf mühitə zərərlərin həcminin artması, flora və faunanın,demək olar ki, yox olması, qlobal iqlim dəyişikliklərinin yaranması və ətraf mühitin sənaye prosesləri nəticəsində deqradasiyaya uğraması və s. hesab edilir. Bütün bunlar istər planetin torpaq resurslarının, istərsə də su resurslarının xroniki olaraq çirklənməsinin davam etməsini şərtləndirir.

Müasir şəraitdə qloballaşan dünyanın üzləşdiyi ən mühüm qlobal problemlərdən biri də insanların sayının artmasıdır. Məsələ burasındadır ki, insanların sayının artması, yəni əhali sıxlığı problemi kifayət qədər qeyri-mütənasib formada, yəni fərqli anlamda özünü büruzə verməkdədir. Bu proses daha çox cənub-şərqi Asiya ölkələrində, eləcə də Afrikanın bir sıra ölkələrində özünü daha çox büruzə verir. Avropa isə, demək olar ki, bu və ya digər şəkildə demoqrafiya böhranı ilə üzləşməkdədir. Məsələ burasındadır ki, Avropada insanların sayının sürətli artımı müşahidə edilməsə də, Avropa kifayət qədər sənayeləşmiş bir dövlət kimi xarakterizə edilir.Asiya ölkələrində isə hələ də ekstensiv faktorların təsir gücü kifayət qədər yüksəkdir və bu faktorlar mahiyyət etibarı ilə bölgədə əhalinin sayının artımına uyğun qida məhsullarının istehlakı ilə bağlı tərs mütənasiblik yaradır. Daha doğrusu, dünyada ərzaq problemi əsas etibari ilə dünyanın 3-cü ölkələri sayılan, inkişaf etməkdə olan ölkələrdə, zəif inkişaf etmiş ölkələrdə özünü daha çox büruzə verir. Məsələ burasındadır ki, həmin ölkələr üçün elmi-texniki tərəqqinin inkişafı kifayət qədər zəif, insanların sayının artımı isə kifayət qədər yüksək sürətlə davam edir. Məsələn, 2020-ci ildə dünyanın 47 ölkəsində aclıq indeksi həyəcanverici dərəcədə yüksəlməkdədir ki, bu ölkələr daha çox cənub-şərqi Asiya və Afrika ölkələrində mövcuddur.

Problemə məhz bu aspektdən yanaşdıqda, bəşəriyyətin üzləşdiyi qlobal problemlər fonunda ərzaq təminatı kimi problemlər kifayət qədər aktuallaşır. Ərzaq təminatının aktuallığını şərtləndirən amillərdən biri də,onun qlobal rəqabət mühitində daha çox destruktiv tendensiyalara məruz qalması ilə sıx bağlıdır.

Qloballaşma şəraitində ərzaq təminatı ilə bağlı problemlərin yaranması və eləcə də qloballaşma şəraitində ərzaq təminatına təsir göstərən amilləri təsnifləşdirdikcə belə qənaətə gəlmək olar ki, əslində ilk baxışda qloballaşma ilə ərzaq təminatı arasında tərs mütənasibliyin yaranması prosesləri kifayət qədər real görünmür. Başqa sözlə, məlum olduğu kimi qloballaşma əmtəələrin, kapitalın, texnologiyanın, işşi qüvvəsinin sərbəst hərəkətini özündə əks etdirir və bu baxımdan cəmiyyətin üzləşdiyi problemləri əslində beynalxalq müstəvidə ölkələrin qarşılıqlı münasibətləri və qarşılıqlı asılılığı fonunda aradan qaldırmaq mümkün ola bilər. Bu baxımdan ərzaq təminatının özünə nəzəri baxımdan yanaşdıqda belə qənaətə gəlmək mümkündür ki, əslində ərzaq təminatı məhsulların, daha doğrusu, ishetlakçıların ərzaq məhsulları ilə etibarlı şəkildə təchiz edilməsi,ərzaq məhsulları istehsalının iqtisadi və sosial baxımdan əlyetərli formada reallaşdırılması kimi proseslərin məcmusunu özündə əks etdirir. Doğrudan da, ilk baxışda əslində ərzaq təminatını bu və ya digər şəkildə həll etmək üçün qloballaşma prosesi sanki bir qlobal vasitə kimi əhəmiyyətli rol oynayır. Lakin etiraf etmək lazımdır ki, bütün bunlar prosesin kifayət qədər görünən, daha doğrusu, aysberqin görünən tərəfi kimi səciyyələnir. Əslində qloballaşma şəraitində ərzaq təminatı özünü daha çox aktuallığa çevirir və ərzaq təminatı problemi, demək olar ki, dünyanın inkişaf etməkdə olan ölkələrində əhəmiyyətli destruktiv tendensiyaların məcmusuna çevrilir. Ərzaq təminatının effektiv şəkildə həyata keçirilməsi, ilk növbədə, iqtisadi və sosial əlçatanlığı özündə əks etdirir. İqtisadi əlçatanlıq ondan ibarətdir ki,ərzaq məhsullarının mağazaların piştaxtalarına çatdırılması təmin edilsin. Hansı səviyyədə olursa olsun, hansı xərclərlə olursa olsun, istər idxal və istərsə də yerli istehsal hesabına məhsulların piştaxtalara çatdırılması mühüm əhəmiyyət kəsb edir. İkinci ən mühüm problem, əslində, birincidən də daha çox aktuallıq kəsb edən ikinci ən mühüm problem ondan

ibarətdir ki, cəmiyyətin bütün təbəqələri məhz həmin piştaxtalardakı ərzaq məhsullarını əlçatan qiymətə təmin edə bilsin. Daha doğrusu,cəmiyyətin aztəminatlı təbəqələri belə ərzaq bazarından parter əsaslarla istifadə imkanına malik olsun. Məhz adı çəkilən bu 2 şərtin optimal şəkildə simbiozu bütövlükdə ərzaq təminatının effektiv şəkildə reallaşdırılmasına əlverişli şərait yaradır. BMT-nin dünya ərzaq proqramının icraçı direktoru C.Şiranın fikrincə,müasir şəraitdə qlobal ərzaq problemi, dünyanın əksər ölkələrində əhalinin ən yoxsul təbəqələrini aclığa sürükləyən ərzaq qiymətlərinin artması fonunda özünü büruzə verir [1. s. 8]. Doğrudur, müəllifin fikirləri ilə razılaşmaq mümkündür. Müəllifin fikirləri ilə razılaşacağımız, daha doğrusu, mübahisələndirilməyəcək məqamlardan biri ondan ibarətdir ki,ərzaq məhsullarının qiymətlərinin kifayət qədər yüksək olması yuxarda qeyd etdiyimiz kimi dünyanın 47 ölkəsindən çoxunda ərzaq problemini, demək olar ki, onların fiziki məhvinə çatacaq səviyyəyə qədər qaldırmışdır. Lakin bütün bunlara baxmayaraq, dünyanın yuxarıda qeyd etdiyimiz 47 ölkəsində ərzaq problemini şərtləndirən ən mühüm amillərdən biri də, eləcə də, ərzaq məhsullarının iqtisadi cəhətdən əlyetərli səviyyədə olmaması ilə bağlıdır. Daha doğrusu, torpaqların kənd təsərrüfatı dövriyyəsindən çıxması, kənd təsərrüfatında əl əməyindən istifadə prosesinin həlledici rol oynaması, məhsuldarlığın səviyyəsinin aşağı olması, qlobal iqlim dəyişikliklərinin təzahürləri, əhalinin gəlirlərinin aşağı olması və digər bu kimi amillər, eyni zamanda mübahisələndirəcəyimiz məqamlardan biridir. Daha doğrusu, müəllifin fikirlərinə onu əlavə etmək yerinə düşərdi ki, əslində dünyanın inkişaf etməkdə olan ölkələrində ərzaq təminatına problem yaradan amilləri təkcə qiymətlərin səviyyəsinin yüksək olması ilə bağlamaq doğru olmazdı. Qiymətlərin səviyyəsinin yüksək olması da problemə əhəmiyyətli dərəcədə təsir göstərir. Lakin bununla belə, həmin ölkələrdə ərzağın çatışmazlığı, daha doğrusu, ərzaq məhsullarının supermarketlərin rəflərinə daxil olmasında iqtisadi əlyetərliliyin olmaması da problemi aktual şəkildə ortaya qoyur.

Aparılan tədqiqatlar göstərir ki, əslində ərzaq məhsullarının istehlakına,eləcə də,bütövlükdə ərzaq təminatı proseslərinə makro aspektdə dünyada baş verən sosial-iqtisadi proseslər,daha doğrusu, hər bir fərdin gəlirlərinin artmasında və azalmasında baş verən tendensiyalar da əhəmiyyətli təsir göstərir. Məsələn, Engel qanununun mahiyyətinə görə, əhalinin gəlirləri artdıqca ev təsərrüfatlarının ümumi xərclərində, ərzağın payında bu və ya digər azalma müşahidə edilir. Bennet qanununda isə qeyd edilir ki,ölkənin rifahı artdıqca onun əhalisi bitki mənşəli məhsulları heyvani qida ilə əvəz etməyə başlayır [2, s. 2].

Əslində qanunun mahiyyətini anlaşılan şəkildə belə qəbul etmək olar ki, ölkə əhalisinin istehlak qabiliyyəti tələbinin aşağı olduğu, daha doğrusu, gəlirlərin səviyyəsinin aşağı olduğu şəraitdə insanlar nisbətən ucuz qida məhsullarına, o cümlədən, çörək və digər bitkiçilik məhsullarına daha çox üstünlük verirlər, çünkü həmin məhsulların qiymətləri bazarlarda mövsümi olaraq daha çox ucuz olur. Əslində, bu zaman müəllif daha çox mövsümi faktorları nəzərə almalıdır. İnsanların gəlirlərinin artdığı, daha doğrusu, istehlak qabiliyyətli tələbin həcminin yüksəldiyi şəraitdə insanlar daha keyfiyyətli və daha yüksək qiymətli qida məhsullarına üstünlük verirlər ki,müəllif heyvani qida məhsulları ilə səciyyələndirməyə çalışır. Onu da nəzərə almaq lazımdır ki,dünya əhalisinin istehlakında özünəməxsus fərqli xüsusiyyətlər mövcuddur. Belə ki, regionların əhalisinin üstünlük verdiyi qida məhsulları kifayət qədər fərqlidir. Məsələn, Avropa ölkələrində əhali bütün hallarda Asiya ölkələri ilə müqayisədə daha yüksək alıcılıq qabiliyyətinə malikdir və eyni zamanda Avropa ölkələri ekoloji təmiz və eləcə də, ekoloji sağlam qida məhsulları istehlak etməyə meyillidir. Məsələn, bu baxımdan, Bennet qanununun Avropa üçün tam mənası ilə yetərli olacağını düşünmürük. Hesab edirik ki, Bennet qanunu, xüsusilə, Asiya ölkələri üçün daha çox səciyyəvi xüsusiyyətlərə malikdir. Hesab edilir ki, Asiyada sürətli gəlir artımı, urbanizasiya və qloballaşma prosesinin güclənməsi fonunda əhalinin müəyyən hissəsinin gəlirlərinin yüksəldiyi şəraitdə,onlar ənənəvi qidaları (düyü və nişastalı bitkiləri) inkişaf etmiş ölkələrə xas olan ət və süd məhsulları ilə,eləcə də, tərəvəzlərlə əvəz etməyə cəhd göstərirlər [3, s. 281].

2007-ci ildən ABŞ Milli Elmlər Akademiyasının üzvü, 2008-ci ildən etibarən Cornell Kənd təsərrüfatı və Qidalanma İnstitutunun təsisçi direktoru, hindistanəsilli aqrar iqtisadçı Prabhu Pingali hesab edir ki, bu hadisə Asiya pəhrizinin qərbləşməsi də adlandırıla bilər. Belə ki, pəhrizdə mülayim iqlimdə yetişdirilən buğda, meyvə və tərəvəzlərin üstünlük təşkil etməsi, həmçinin,

proteinlə zəngin qidalarla bağlıdır. Asiya ölkələri üçün isə nişastalı bitkilərin hələ də vacib olduğunu qeyd etmək yerinə düşsə də, indi onlar birbaşa qida kimi deyil, daha çox heyvandarlıq yemi kimi istifadə edilir [4, s.188].

Avropada buğda,bütövlükdə,əhalinin istehlakının strukturu baxımından o qədər də geniş şəkildə istifadə edilmir və gəlirlər artdıqca əhali özünün istehlak rasionundan taxıl məhsullarını bu və ya digər şəkildə sıxışdıraraq çıxarmağa meyillidir. Asiyada ənənəvi məhsul düyü hesab olunsa da, sonralar həmin məhsulun, yəni düyünün buğda ilə əvəz olunması kimi tendensiyalar müşahidə edilir. Təbii ki, Asiyada buğda dolayı yolla (çörək, xəmir, pizza, makaron və s.) hazırlanmasında və istehlakında geniş şəkildə istifadə edilir. Asiya ölkələrində, əslində,qida istehlakında baş verən transformasiya yönümlü dəyişiklikləri 2 mərhələyə bölmək, başqa sözlə, 2 mənbədən formalaşmasını iddia etmək mümkündür. Birincisi, Bennet qanunu ilə idarə olunan pəhriz diversifikasiyası və nəhayət, ikinci, qloballaşma ilə idarə olunan pəhriz nümunələrinin qərbləşməsi. Urbanizasiya prosesi də istehlakın strukturunda baş verən bu cür köklü dəyişikliklərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki,məlum olduğu kimi urbanizasiya kənd regionlarından əhalinin iri partiyalarla ticarət və sənaye mərkəzlərinə,daha doğrusu,şəhərlərə köçü kimi xarakterizə edilir. Bu baxımdan, sonradan kənd həyatını şəhər həyatına dəyişən insanlar, əslində, böyük supermarket şəbəkələri ilə, restoranlarla qarşılaşırlar. Bu baxımdan,sonradan şəhərliləşmiş sakinlər qeyri-ənənəvi qida məhsullarından istifadə edirlər ki, bu da mahiyyət etibari ilə əhalinin istehlakının sutrukturunda da nəzərəçarpacaq dəyişiklikləri şərtləndirir [5, s. 282]. Məhz bütün yuxarda qeyd edilənlər, qeyd edilən ümumiləşdirmələr və eləcə də nəzəri yanaşmaların təhlilindən belə qənaətə gəlmək olar ki, ərzaq məsələsi, eyni zamanda ərzaq məhsulları ilə təminat məsələsi kifayət qədər elastik xarakter daşıyır. Məhz problemin özünün elastik xarakter daşıması da, əslində, dəyişməkdə olan mühitin həmin problemə daha surətli təsirini özündə əks etdirir. Əslində, qloballaşan dünya bütövlükdə informasiya resurslarının və hətta zamanın sürətlə keçməsini şərtləndirir və bu baxımdan,bu gün hadisələrə sabahkı baxış tərzi, dünənki baxış tərzi ilə müqayisədə nəzərəçarpacaq dərəcədə fərqlənir. Odur ki, ərzaq problemi də bu yöndədir və o cümlədən,ərzaq təminatına qlobal təsirlərin və təhdidlərin səviyyəsi də zaman keçdikcə sürətlə artmaqdadır.

Müasir qloballaşan dünyada ərzaq təminatına təsir göstərən amilləri aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

1. Qloballaşan dünyada ərzaq təminatına təsir göstərən daxili mühit amilləri;
2. Qloballaşan dünyada ərzaq təminatına təsir göstərən xarici mühit amilləri.

Ərzaq təminatına təsir göstərən daxili mühit amilləri içərisində,fikrimizcə,daha çox iqtisadi və texnoloji amilləri, bir sıra hallarda insional amilləri də əsas götürmək mümkündür. Ərzaq təminatına təsir göstərən daxili mühit amilləri içərisində iqtisadi faktorlar xüsusilə önəm daşıyır. Bu ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə təsərrüfat fəaliyyətinin nəticələri ilə, daha doğrusu, iqtisadi səmərəlilik göstəriciləri və o cümlədən,renta birlik səviyyəsi ilə sıx bağlıdır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi imkanlarının geniş olması mahiyyət etibari ilə onların daha iri həcmdə məhsul istehsal etmək imkanlarını şərtləndirə bilir.

Ərzaq təminatında texnoloji amillərə isə, ilk növbədə, elmi-texniki tərəqqidə yeni nailiyyətlərin istehsalda tətbiqi, istehsalın intensivləşmə dərəcəsi, mütərəqqi texnologiyalardan istifadə edilməsi, müasir şəraitdə postsənaye cəmiyyətinin təzahürlərindən kənd təsərrüfatında daha geniş şəkildə istifadə edilməsi imkanlarını və s. şamil etmək mümkündür.

Daxili mühit amilləri içərisində insional amillərin rolunu da son zamanlar gözardı etmək mümkün deyildir. Belə ki, əmtəə istehsalçılarının bir sıra hallarda infrastruktur təminatına malik olmaması və eləcə də məhsulların saxlanması və daşınması ilə bağlı problemlərlə üzləşməsi prinsip etibarı ilə ərzaq təminatında müəyyən çətinliklər yaradır. Bu çətinliklərin isə bir sıra hallarda, əslində, yerli əmtəə istehsalçılarının daxili gücləri hesabına təmin etmək mümkün olmadığından,bir sıra hallarda ərzaq təminatının daxili mühit amillərindən biri kimi, insional amilləri xarici mühit faktorlarının tərkibinə də daxil edirlər.

Ərzaq təminatının xarici mühit amilləri içərisində bir daha iqtisadi və sosial amilləri ön plana çəkmək mümkündür. Bir sıra iqtisadçılar, o cümlədən, iqtisad elmləri doktoru, professor Eldar Quliyev hesab edir ki, ərzaq təminatına təsir göstərən xarici amillər içərisində makroiqtisadi siya-

sət, fiskal siyasət, pul siyasəti,dövlətin aqrar siyasəti, ticarət siyasəti və digər faktorlar önəmli rol oynayır. Hər bir ölkənin özünün iqtisadi təhlükəsizliyinin və xüsusilə də, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində atdığı addımlar, o cümlədən, fiskal siyasət mexanizmləri,milli maraqları və milli-iqtisadi maraqları özündə ehtiva etdiyindən başadüşüləndir, izaholunandır. Amma belə olduğu təqdirdə milli iqtisadiyyatın müəyyən bir hissəsinin proteksionist siyasətə məruz qalması qaçınılmaz olur və ölkələr özlərinin yerli, milli bazarlarını milli istehsalçıların rəqabətindən qorumaq üçün tənzimləmə mexanizmlərinə əl atmalı olurlar. Bu isə azad iqtisadi inkişaf meyilləri və bazar iqtisadiyyatı prinsipləri ilə uzlaşmadığından məhsul bolluğunu,o cümlədən, ərzaq məhsullarının geniş şəkildə istehlakını əngəlləyir. Azərbaycanda regionların inkişafı, kənd rayonlarının əkinçilik və heyvandarlıqla məşğul olmaları üçün münbit şəraitin yaradılması, xüsusilə də, suvarma sisteminin təşkili baxımından, dövlət bir tərəfdən davamlı şəkildə iri məbləğdə investisiyalar yatırır, büdcə vəsaitləri ayırır və digər mühüm tədbirlər maliyyələşdirilir. Şübhəsiz ki, bu tədbirlər region əhalisinin, xüsusilə, kənd rayonlarında və kənd yerlərində yaşayan əhalinin iqtisadi fəallığının artmasına və ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərir [6, s. 35-36].

Ərzaq təminatının xarici amilləri içərisində sosial amillər də önəmli yer tutur. Bu ilk növbədə əhalinin ərzaq məhsulları ilə təminatında sosial əlçatanlığı özündə ehtiva edir. Sosial əlçatanlıq,ilk növbədə,ərzaq bazarından parter əsaslarla istifadə edilməsini nəzərdə tutur və eyni zamanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə sıx bağlıdır. Daha doğrusu,yüksək istehlak qabiliyyətli tələbə malik olan əhali kateqoriyaları bazardan parter əsaslarla istifadə edir və ərzaq məhsulları əldə etmək imkanına malik olur. Bütün bunlar isə həm də iqtisadi fəallığın yüksəlməsinə,daha doğrusu, ərzaq bazarında əmtəə dövriyyəsinin həcminin artmasına da əlverişli şərait yaradır.

Qloballaşma şəraitində ərzaq təminatına təsir edən bir çox sayda amilləri müəyyənləşdirirlər ki, bu amillərə:

1. Hər bir ölkədə nəinki sabit, həm də davamlı olaraq inkişaf edən kənd təsərrüfatının formalaşmasını;
2. Əmək bölgüsü və təsərrüfatların ölçüsündə qlobal tendensiyalarla şərtlənən qida istehsalında struktur dəyişikliklərini;
3. Biotexnologiyaların və onların inkişafının sürətlənməsini;
4. Kənd təsərrüfatı istehsalında insan kapitalına olan tələbatın dəyişmə dinamikasını;
5. Kənd təsərrüfatı elmi-tədqiqat sistemlərinin inkişafını və onların nəticələrinin praktikada tətbiqini;
6. Kənd yerlərinin infrastrukturunda məqsədyönlü dəyişiklikləri;
7. Qlobal bazarın,xüsusən də,kənd təsərrüfatı məhsulları və emal sənayesi məhsulları bazarının formalaşmasının sürətləndirilməsi ilə, dünyada qloballaşma proseslərinin inkişafını;
8. Kənd təsərrüfatının daha səmərəli inkişafına, ilk növbədə, kəndlilərə torpaq mülkiyyət hüququnun verilməsinə yönəlmiş islahatların həyata keçirilməsini;
9. Əhalinin ən yoxsul təbəqələrinə ərzaq məhsulları ilə təminatında zəruri köməklik göstərilməsi və bu baxımdan,investisiyaların ayrılmasını, eləcə də, yoxsul ölkələrin iqtisadiyyatında əhalinin rifahını yüksəltmək məqsədilə,insanların aclıq qabiliyyətinin artırılmasını və ən nəhayət, yoxsul ölkələrə beynəlxalq yardımların göstərilməsini şamil etmək olar (URL:https://fundamental-research.ru/ru/article/view?id=32623 (дата обращения : 08.04.2023)).

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki,ərzaq təminatına təsir edən amillərin təsir gücünün optimallaşdırılması, daha doğrusu,həmin faktorların ərzaq təminatına destruktiv təzahürlərinin optimal şəkildə neytrallaşdırılmasının ölkənin strateji maraqları baxımından mühüm əhəmiyyəti vardır. Ərzaq təminatına təsir edən amillərin destruktiv təsirinin neytrallaşdırılması hesabına ölkənin ərzaq təhlükəsizliyini təmin etmək də mümkündür və bütün bunlar həm iqtisadi, həm də sosial əlçatanlığın yüksəldilməsinə əlverişli şərait yarada bilər.

## ƏDƏBİYYAT


1. Introducción A La Crisis Alimentaria Global // GRAİN, Entrepueblos y la Campaña "No te Comas el Mundo" ,2008,P8
2. Regmi A,Takeshimo H,Unnevehr L.Convergence in Global Food Demand and Delivery /

USDA Economic research report,March 2008,P2
3. Pingalli P.Westernization of Asian Diets and the Transformation of Food Systems:Implication for Research and Policy // Food Policy.2006.32(2),P281
4. Puglie K.O.Challenging the Bennet's Law:The How Economics of Starchy Staples in Asia // Food Policy.2004.29,P188
5. Pingalli P.Westernization of Asian Diets and the Transformation of Food Systems:Implication for Research and Policy // Food Policy.2006.32(2),P282
6. E.A.Quliyev. "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" Bakı, 2018, "Kooperasiya" nəşriyyatı, 480 səhifə. səh. 35-36

***Азер Агазейнал оглы Гурбанзаде***
***доктор философии по экономике, доцент***
***Азербайджанский Университета Кооперации***
***Кафедра "Коммерция"***
***azercooperation@hotmail.com***

**Факторы, влияющие на обеспечение продовольствием на фоне глобальных проблем человечества**

***Резюме***

Таким образом, с конца XX века отход социалистического лагеря в историю на политической карте мира в принципе стал формировать новую волну глобализации. Новая волна глобализации также породила своеобразные деструктивные тенденции, стали возникать проблемы.

***Ключевые слова: глобализация, продовольственное обеспечение, глобальные проблемы, факторы, влияющие на продовольственное обеспечение, экономические факторы.***

***Azer Agazeynal Gurbanzade***
***Doctor of philosophy in economics, associate professor***
***Azerbaijan Cooperation University***
***"Commercial" chair***
***azercooperation@hotmail.com***

**Factors affecting food supply against the background of global problems of humanity**

***Summary***

In summary, since the end of the 20th century, the relegation of the socialist camp to history on the political map of the world, in principle, began to form a new wave of globalization. In addition to its unique positive manifestations in society, the new wave of globalization also gave rise to unique destructive tendencies. problems started to arise.

***Key words: globalization, food supply, global problems, factors affecting food supply, economic factors.***

**UOT 332.339**

***Vüsalə Yavər qızı NAĞIYEVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi"***
***kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru***
***vusalanaghieva@mail.ru***

## AQRAR SIĞORTA: BEYNƏLXALQ TƏCRÜBƏ

***Xülasə***

Məqalədə sığorta sahəsinin inkişafında Ulu öndər Heydər Əliyevin rolu, aqrar sığortanın Azərbaycanda və beynəlxalq miqyasda formalaşması xüsusiyyətləri, eləcə də aqrar sığorta sistemləri

müzakirə olunur. Azərbaycanda tətbiq edilən aqrar sığortanın üstün cəhətləri müəllif tərəfindən ümumiləşdirilmişdir. Azərbaycanda aqrar sığortanın inkişaf dinamikası, dünyanın bir çox ölkələrində istifadə olunan aqrar sığortanın mümkün variantlarına xüsusi diqqət yetirilmişdir. Sonda dünyanın müxtəlif ölkələrinin və birliklərinin kənd təsərrüfatı istehsalçılarına dəstək proqramlarını nəzərə alaraq, aparıcı aqrar sığorta növəri müəyyənləşdirilmişdir.
***Açar sözlər: aqrar sığorta, fərdi risklərdən sığorta, kombinə edilmiş sığorta, multiriskli sığorta, indeksləşdirilmiş sığorta, dominant***

***

Müasir iqtisadi inkişaf dövründə aqrar sahənin inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi dünya dövlətlərinin qarşısında duran əsas problemlərdən biridir. Kənd təsərrüfatının istənilən ölkənin ərzaq təhlükəsizliyini təmin edən sahə olduğunu nəzərə alsaq, bu sahədə sığorta sistemi, onun tətbiqi və inkişaf etdirilməsi, aqrar sahənin inkişafının sürətlənməsinə təkan vermiş olur. Belə ki, təbii iqlim şəraitindən asılı olan aqrar sahədə təsərrüfatların və sahibkarların (fermerlərin) qarşılaşdığı problemlərin yumşaldılması, iqlimin gətirdiyi xoşagəlməz hadisələrdən qorunması, təbii fəlakətlərin olması, təsərrüfatlara dəymiş ziyanın nəticələrinin aradan qaldırılması və bu sahənin rəqabətqabiliyyətliliyinin artırılması üçün aqrar sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsi vacib məsələlərdəndir.

Araşdırmalardan aydın olur ki, sığortanın yaranması çox qədim tarixi kökə malikdir. Belə ki, ilkin sığorta formasına eramızdan 2 min il əvvəl təsadüf edilmişdir. Babilistan çarı Hammurapinin qəbul etdiyi qanunlarda ticarət karvanı iştirakçılarının quldur hücumları, oğurluq, qarət, həmçinin digər hadisələr zamanı vurulmuş zərərin birgə ödənilməsi haqqında razılığa gəlinməsinin vacibliyi öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, ilk nizamnamə tipli sığorta təşkilatı Qədim Romada yaranaraq, inkişaf etmişdir. Lakin, əvvəlcədən tədiyyə almağa əsaslanan sığorta isə təxminən XIII-əsrin 50-ci illərində Venesiya, Florensiya və Genuya şəhərərində müşahidə olunmuşdur. [1, s. 370].

Azərbaycanda sığortanın tarixi isə XIX əsrin sonlarına təsadüf edir. Belə ki, o dövrdə Azərbaycana xarici investorların neft sənayesinə axını, ilk neft və gəmiçilk şirkətlərinin meydana gəlməsi, ölkədə sığorta işinin inkişaf etməsinə səbəb olmuşdur. Odur ki, 1912-ci ilin məlumatlarına görə o dövrdə Azərbaycanda 30 sığorta cəmiyyəti və agentliyi fəaliyyət göstərmişdir. [1, s. 357].

Araşdırmalardan aydın olur ki, Azərbaycanda sığorta işinin müstəqil inkişafının müasir dövrü 1990-cı illərin ortalarından formalaşmağa başlamışdır. Belə ki, Azərbaycan tarixində ilk dəfə olaraq, "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu 1993-cü ildə qəbul edilmişdir. Məhz bu qanunun qəbulu nəticəsində isə sığorta işi hüquqi bazaya malik olmaqla, milli sığorta bazarının yaranmasına şərait yaratmışdır. Belə ki, o dövrdə Azərbaycan iqtisadiyyatının digər sahələri ilə yanaşı sığorta sahəsinin inkişafının ilk addımları da məhz Ulu öndər Heydər Əliyev adı ilə bağlıdır. Hələ 1995-ci ildə İngiltərənin "Adam Smit" Universitetinin təşəbbüsü ilə keçirilən simpoziumda Ulu öndər Heydər Əliyev iqtisadiyyatın bütün sahələri kimi sığorta bazarının inkişafı ilə bağlı çıxışında da belə demişdir: "Sığorta - Azərbaycan üçün nisbətən yeni və axıra qədər öyrənilməyən sahədir. Biz, şübhəsiz ki, sığorta işini inkişaf etdirməliyik, lakin bu işi düzgün və peşəkarcasına yerinə yetirməliyik" [2].

Aparılan araşdırmalardan aydın olur ki, sığorta işinin ilkin mərhələsində nəqliyyat sığortası, ikinci mərhələsində isə ixtisaslaşmış sığorta cəmiyyətləri yaranmışdır. Kənd təsərrüfatı sığortası isə ilk dəfə 1750-ci ildə bir qrup fermerin kənd təsərrüfatı məhsullarının qarşılıqlı sığortası üçün bir cəmiyyətdə birləşməsi nəticəsində yaranmışdır. Məhz o dövrdən bu günə kimi bütün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin bir çoxunda aqrar sığorta sxemləri fəaliyyət göstərir ki, bunlardan da ən geniş yayılanı məhsul sığortası, gəlir və gəlirlərin sabitləşdirilməsi sığortasıdır.

Aqrar sığorta kənd təsərrüfatı əmtəə istehsalçılarının kənd təsərrüfatında risklərini azaltmaq və idarə etmək üçün istifadə etməli olduğu faydalı rıçaqdır. Onu da qeyd etmək lazımdır ki, aqrar sahədə baş verən risklər təkcə kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyətinə deyil, eyni zamanda aqrobiznes məhsulunun bütün dəyər zəncirinə (maliyyə qurumları, hökumət, xammal tədarükçüləri, alıcılar, kənd təsərrüfatı istehsalçıları) təsir göstərir. Ümumiyyətlə, aqrar sığorta kənd təsərrüfatı istehsalçılarının təbii fəlakətlərin mənfi nəticələrindən qorunması və onlara dəyən

ziyanın ödənilməsini, kənd təsərrüfatı istehsalının və kənd təsərrüfatı istehsalçıları üçün banklardan və digər maliyyə institutlarından kredit vəsaitlərinin axınının stimullaşdırılmasında kəndliyə adekvat kompensasiyanın ödənilməsinə xidmət edir. “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda kənd təsərrüfatı məhsulları istehsalçıları aqrar sığorta predmetləri üzrə aşağıdakı risklərin bir və ya bir neçəsindən sığorta qaydalarına əsasən sığortalanır: təbii fəlakətlər; yanğınlar; bitki xəstəlikləri və zərərvericilər; yoluxucu xəstəliklər və zəhərlənmələr; vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu; üçüncü şəxslərin hərəkətləri. [3, maddə 5].

Onu da qeyd etmək lazımdır ki, hal-hazırda Sığorta, ÜTT qaydalarını pozmayan və potensial olaraq kənd təsərrüfatı istehsalçılarının və bütövlükdə kənd əhalisinin gəlirlərinin sabitləşdirilməsi üçün effektiv vasitə kimi xidmət edə bilən alətlərdən biridir.

Aparılan təhlillərdən aydın olur ki, ölkəmizdə Türkiyənin dünyaca məşhur TARSİM modeli əsasında formalaşmış, dövlət dəstəkli aqrar sığorta mexanizmindən istifadə edilir. Bu gün Azərbaycanda dövlət-özəl sektor müştərək aqrar sığorta sistemi tətbiq edilir. Bu sistemin üstün cəhətləri aşağıdakılardan ibarətdir:

- ixtisaslaşmış sığorta şirkətləri aqrar sığorta bazarının iştirakçıları deyil;
- fermerlərə dəstək məqsədilə hesablanmış sığorta haqlarının 50%-ni dövlət ödəyir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust “Aqrar Sığorta Fondunun yaradılması barədə” (bundan sonra ASF) Fərmanına uyğun olaraq, fond sığortaçıların ödədikləri vəsaitlər hesabına formalaşdığından, fermerlər sığorta bazarının birbaşa iştirakçısına çevrilməklə, toplanan birgə vəsaitlərlə özlərini mövcud risklərdən sığorta etmiş olurlar.

Formalaşmış dövlət-özəl sektor müştərək aqrar sığorta mexanizmi elə qurulub ki, hər hansı bir sığorta hadisəsi baş vermədikdə yığılmış vəsait silinməyərək növbəti ilə saxlanılır.

Dövlət sığorta iştirakçılarına sığorta vəsaitinin müəyyən edilmiş faizi həcmində subsidiya ayırır.

Təhlillərdən aydın olur ki, 2020-ci ildə bitkiçilik sığortası üzrə ASF-yə toplanan vəsait cəmi 1700 manat, 2021-ci ildə bu vəsait 6 mln. manat, 2022-ci ildə isə bu rəqəm 9 mln. manat olmuşdur. İnsanların bu sistemə inamı ilə əlaqədar olaraq, sığorta müqaviləsi bağlayan fermerlər 2022-ci ildə 2 mln. 400 min manatdan çox sığorta ödənişi almışlar. Eyni zamanda 2022-ci ildə bağlanmış müqavilələr nəticəsində fondda 1 mln. manat ehtiyat toplanmışdır. Onu da qeyd etmək lazımdır ki, 2021-ci illə müqayisədə 2022-ci ildə topladığımız sığorta haqlarının həcmi 21% artmışdır.Onu da qeyd etmək lazımdır ki, hazırda sığortalanan bitkilərin sayı 14-dən 41-ə çatdırılmışdır. [4].

Dünya praktikasında aqrar sektorun xüsusiyyətləri nəzərə alınmaqla, kənd təsərrüfatına səmərəli maliyyə dəstəyi göstərilməsi və sığorta sisteminin tətbiqi sahəsində mühüm təcrübə toplanmışdır. Belə ki, dünyada ən böyük kənd təsərrüfatı sığortası bazarı Şimali Amerikada formalaşıb. Belə ki, burada bu sığorta bütün sığorta haqlarının 50%-dən çoxunu təşkil edir. Aqrar sığorta üzrə sığorta haqlarının təxminən ¼-i Asiya ölkələrində, 20%-dən azı isə Avropa ölkələrində toplanır. [5, s. 102].

Hazırda Şimali Amerikada məhsul sığortası üç əsas növ – multiriskli, dolu sığortası və adı çəkilən risklərdən sığorta üzrə aparılır. Çox riskli sığorta siyasəti, ümumi mükafatın ən yüksək faizini təmin etməklə, quraqlıq və daşqın da daxil olmaqla bütün növ təbii fəlakətlər nəticəsində məhsullara vurulan itkiləri, doludan sığorta siyasəti isə dolu və ya yanğın nəticəsində dəyən zərəri və adlandırılmış təhlükə siyasəti isə çox riskli siyasət çərçivəsində əhatə olunmayan müəyyən təhlükələrdən (məsələn, Floridada sitrus meyvələrinin dondurulması) müəyyən məhsullara dəymiş ziyanı əhatə edir. Onu da qeyd etmək lazımdır ki, multirisk Amerikada federal hökuməti, Kanadada isə federal və əyalət hökumətləri tərəfindən subsidiyalaşdırılır. Burada bəzi məhsulların satışı və xidmət göstərilməsini kommersiya sığorta şirkətləri həyata keçirsə də, sığorta tariflərinə və şərtlərinə məhz müvafiq dövlət qurumları nəzarət edir. Dolu və adlandırılmış risk sığortası isə sırf kommersiya məhsulu olduğu üçün, o dövlət tərəfindən tənzimlənmir (bəzi Kanada proqramları istisna olmaqla) və ya subsidiyalaşdırılmır.

Araşdırmalardan aydın olur ki, aqrar sığortanın dünyada ən çox növü könüllüdür. Ancaq İsrail, Yunanıstan, Belarus, Mərakeş və Qazaxıstan kimi ölkələrdə aqrar sığorta icbari xarakter daşıyır.

Bir çox ölkələrdə isə, xüsusən, ABŞ, İspaniya, İtaliya, Çində sığorta proqramları dövlətin iştirakı ilə həyata keçirildikdə, dövlət tərəfindən müəyyən növ maliyyə dəstəyinin göstərilməsi əsasında uyğunluq prinsipi tətbiq edilir.

Dünyanın mövcud sığorta sistemləri bir-birindən sığorta məhsulları toplusu, özəl sığortaçıların rolu, dövlətin iştirak üsulları ilə fərqlənir. Ümumiyyətlə dünyanın bir çox dövlətlərində istifadə olunan kənd təsərrüfatı sığortasının aşağıdakı variantlarını ayırd etmək olar:

- fərdi risklərdən sığorta ((single-risk insurance));
- kombinə edilmiş sığorta (combined (peril) insurance);
- çox riskli məhsul sığortası (multi-peril crop insurance);
- gəlir (revenue insurance) və mənfəət sığortası (income insurance);;
- indeksləşdirilmiş sığorta;
- heyvanların sığortası. [6. s. 90].

Böyük Britaniya, Belçika, Almaniya, Hollandiya kimi ölkələrdə isə ilk kənd təsərrüfatı sığortası müqavilələri olan, fərdi risk sığortası müqavilələri tətbiq olunur. Fərdi risk sığortası bu ölkələrdən bəzilərində əsas aqrar sığorta növüdür. Onu da qeyd etmək lazımdır ki, bu ölkələrdə aqrar sahədə mövcud risklərdən olan dolu və yanğın sığortalanır. Belə ki, bu ölkələrin əksəriyyətində sığorta dövlətin iştirakı olmadan həyata keçirildiyi üçün, sığorta müqavilələri üzrə ödənişlər, zərərlər yerli xarakter daşıdığından sığorta haqlarının məbləği azdır. Əksər ölkələrdə bu sığorta dövlətin iştirakı olmadan həyata keçirilir. Buna görə də burada sığorta haqlarının məbləği nisbətən azdır.

Şərqi Avropa ölkələrində, Portuqaliyada və İsveçdə kombinə edilmiş aqrar sığortadan istifadə edilir. Bu sığortanın özəlliyi burada sığorta risklərinin bir neçə əlverişsiz hadisədən ibarət olmasındadır.

İnkişaf etmiş ölkələrin əksəriyyətində çox riskli məhsul sığortasından istifadə edilir. Belə ki, ABŞ, Kanada, İspaniya, Avstriya, Fransa, İtaliya kimi ölkələrdə kənd təsərrüfatı istehsalçılarını hava şəraiti və digər mənfi amillərin təsiri nəticəsində məhsul itkisi risklərindən çox riskli məhsul sığortasından istifadə edilir.

Kanadada çox riskli sığorta proqramı fərqli işləyir. Federal hökumətlə hər bir əyalət arasında müqavilə var ki, bu da öz növbəsində Kral Korporasiyaları (hökumət əsaslı kommersiya şirkətləri) vasitəsilə fermerlərə sığorta məhsullarını satır. Əyalətlər sığorta proqramlarını təkbaşına idarə edir və yalnız ekstremal hallarda yardım üçün federal hökumətə müraciət edə bilər. Belə ki, Kanadada çox riskli sığortanın hökumət tərəfindən təkrar sığortalanmasına baxmayaraq, sığortaçılar öz portfellərində dolu və adı çəkilən risk sığortası müqavilələri olmasına baxmayaraq, əhəmiyyətli dərəcədə risk daşıyırlar. Odur ki, sığortaçılar beynəlxalq təkrarsığorta bazarlarında saxlanılan risklərin bir hissəsini və ya hamısını müstəqil şəkildə təkrar sığortalayırlar.

Bu gün ABŞ və Kanada hökumətləri öz ölkələrində kənd təsərrüfatı istehsalçılarını çox fəal şəkildə qorumağa çalışırlar. Əvvəllər bu yardım fermerlərə məhsulun əhəmiyyətli hissəsinin itkisini kompensasiya etmək üçün fəlakətli risk hadisələrindən sonra birbaşa ödənişlər şəklində verilirdi. Son illərdə ABŞ və Kanada kənd təsərrüfatı müəssisələrinin orta həcmi artmış və təsərrüfat istehsalının texnoloji səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. İndi kənd təsərrüfatı istehsalında dünya bazarında qiymətlərin əhəmiyyətli dərəcədə dəyişməsi ilə bağlı daha çox qeyri-müəyyənliklər mövcudluğu, getdikcə fermerlərin multi-risk sığortası alması və müqavilə üzrə əhatə dairəsinin artması ilə şərtlənmişdir.

Hal-hazırda ABŞ hökuməti məhsul sığortası proqramını həyata keçirmək və fermerlər üçün sığorta siyasətini həyata keçirmək üçün satış və xidmət göstərən özəl sığorta şirkətləri ilə tərəfdaşlıq edirlər. Federal hökumətin məhsul sığortası xərclərinə (1) fermerin məhsul sığortası mükafatının bir hissəsini ödəmək üçün subsidiyalar (son illərdə 60 faizdən çox) və (2) məhsul sığortası polislərinin satışı və saxlanması üçün sığorta şirkətlərinə kompensasiyalar daxildir.

ABŞ, Kanada, Yaponiya və İsveçdə aqrar sığortanın gəlir sığortası variantı daha geniş yayılmışdır. Bu kənd təsərrüfatı istehsalçılarının müəyyən məhsul növləri və ya bütün iqtisadiyyat üzrə gəlir itkisini kompensasiya edir. ABŞ-da bu sığortanın mənfəət sığortası çeşidi geniş yayılmışdır.

İndeks sığortası xüsusi hazırlanmış parametrin (indeksin) razılaşdırılmış həddi qiymətindən kənara çıxması halında həyata keçirilir. İndeksli sığorta müəyyən edilmiş bir göstəricinin-indeksin

həddinin aşdığı halda ödənişi təmin edən sığortadır. Belə bir indeks, məsələn, müəyyən bir dövr üçün yağıntıların miqdarı və ya hava hərarətinin müəyyən edilmiş göstəricisi ola bilər. İndeksli sığorta müqaviləsi obyektin fiziki vəziyyətindən asılı olmayaraq qüvvədə qalır. Başqa sözlə, indeks müqaviləsi üzrə sığorta ödənişinin verilməsi əkin sahələrinin itkilərini nəzərə almadan indeksin vəziyyətinə əsasən həyata keçirilir. [7].

Dünyanın həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrində, məsələn, ABŞ, Kanada, Braziliya, Hindistan, Mərakeş və s. indeksli kənd təsərrüfatı sığortası müqavilələrindən istifadə olunur.

Bir çox inkişaf etməkdə olan ölkələr çox riskli məhsul sığortasının həyata keçirilməsi zamanı yaranan problemləri həll etmək üçün Dünya Bankının köməyi ilə indeks sığortasından istifadə edirlər.

Araşdırmalardan aydın olur ki, Avstriya, Böyük Britaniya, İspaniya, İsveç, Finlandiya və s. ölkələrdə kənd təsərrüfatı heyvanlarının sığortasına xüsusi diqqət yetirilir.

Ümumiyyətlə, araşdırmalardan aydın olur ki, Almaniya və Hindistanda fermerlərə subsidiyaların verilməsi, kənd təsərrüfatı sığortasının artımını şərtləndirən yeganə amil deyil. Belə ki, bu ölkələrdə subsidiyaların verilməsi sığortanın kənd təsərrüfatı sektoruna nüfuzunu artırsa da, məhsulun səmərəli marketinqi, sığortanın istehlak mədəniyyəti, sığorta şirkətlərinin xidməti aqrar sahənin inkişafını şərtləndirən əsas amillərdəndir.

2007-ci ilin dövlət büdcəsində ilk dəfə olaraq yaşayış minimumunun həddi həm də ayrı-ayrı kateqoriyalar üzrə (əmək qabiliyyətli əhali, pensiyaçılar, uşaqlar üçün) ayrı-ayrılıqda müəyyən edilir. Bu, irəliyə doğru atılan addım kimi sosial ehtiyac məsələlərini daha əsaslı müəyyən etmək üçün yeni araşdırmalar aparmaq imkanlarını genişləndirir. Dövlətimiz hər zaman bütün sosialyönümlü məsələlərdə insanların rifahı, normal yaşayışını təmin etməyi, həyat səviyyəsinin yüksəldilməsini üzərinə götürərək növbəti illərdə də əməkhaqlarının, pensiyaların artırılması yolunda mühüm addımlar atdı. Bunların işərisində Dövlət başçısının 2019-cu il iyun ayının 18-də imzaladığı 17 sərəncamla əhalinin müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketin təsdiq edilməsi xüsusi yer tutur. Beləliklə, sosial sahədə böyük rifaha yol açan minimum əməkhaqqının artımı 950 minədək vətəndaşı əhatə etdi. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlər idi. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olundu. Minimum əməkhaqqı 250 manata qaldırıldı. Artımdan sonra Azərbaycanda minimum əməkhaqqı MDB ölkələri ilə müqayisədə alıcılıq qabiliyyətinə görə 2-ci yeri tutdu [3].

2018-ci ildə ölkə üzrə 400 min şəxs 180 manatdan az əməkhaqqı alırdı, onların 67 faizi, yəni 270 mini dövlət sektorunda çalışırdı. Prezidentin sərəncamından sonra isə minimum aylıq əməkhaqqı yaşayış minimumuna bərabərləşdi və orta əməkhaqqının 33 faizini təşkil etdi. Minimum əməkhaqqının 250 manata çatdırılması insanların əməkhaqqı gəlirlərinin artmasını xeyli dərəcədə təmin etdi.




**Azərbaycan Respublikasında 1995-2023-cü illər üzrə minimum əməkhaqqının dinamikası**

*Diaqram DSK-nin statistik materialları əsasında tərtib edilmişdir. 1995-ci ildən başlayaraq denominasiya (1AZN=5000AZN) nəzərə alınmışdır.*

Ümumiyyətlə, sosial sahədə imzalanan sərəncamlar böyük sosial paketin tərkib hissəsi olaraq, əhalinin rifahının güclənməsinə istiqamətlənib. Bu barədə Prezident İlham Əliyev hər zaman bildirir ki, əhalinin sosial müdafiəsinə xidmət edən tədbirlər davamlı həyata keçiriləcək. Prezidentin imzaladığı sosial sərəncamlar həm də onu göstərir ki, islahatlar kompleks xarakter daşıyır və atılan hər bir addımın mərkəzində Azərbaycan vətəndaşının etibarlı sosial təminatı dayanır[3].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "2023-cü il üçün yaşayış minimumu haqqında" və "2023-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanunlarına görə, 2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilib. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi də 246 manat məbləğində təsdiq edilib [1].

Beynəlxalq Əmək Təşkilatına üzv ölkələrin 90%-dən çoxu müvafiq qanunvericilik və ya məcburi kollektiv müqavilələr vasitəsilə bir və ya daha çox minimum əməkhaqqı müəyyən etmişdir. Bu ölkələrin bir çoxunda siyasi müzakirələr minimum əməkhaqqının məqsədəuyğunluğu ilə deyil, mexanizmin iş prinsipi ilə bağlıdır. Beynəlxalq Əmək Təşkilatının tövsiyələrinə görə Keitz indeksi (ölkədə minimum əməkhaqqının orta əməkhaqqının neçə faizi olması) 50%, Avropa İttifaqında isə 60% olmalıdır.

2004-cü ilin sentyabr ayında Azərbaycanın Dəyişdirilmiş Avropa Sosial Xartiyasına qoşulmasıyla bağlı Azərbaycan da digər ölkələr kimi minimum və orta əməkhaqqının nisbəti (vergilər çıxılmaqla) ilə bağlı öhdəliklər götürməklə, sənədi yenidən işlənmiş formada ratifikasiya etmişdir (minimum əməkhaqqı orta əməkhaqqının 60%-dən aşağı olmamalıdır). Məsələn, Fransada, Sloveniyada, Portuqaliyada bu göstərici 60%-dir[9].

Yalnız bəzi hallarda onun 50%-ə endirilməsinə icazə verilir. Məsələn, Rusiyada Keitz indeksi 2020-ci il üçün 23,6% təşkil etmişdir[11].

***Cədvəl 1.***

**MDB ölkələrində minimum əməkhaqqının dinamikası Orta aylıq əməkhaqqına nisbətən faizlə**

| | 2000 | 2010 | 2015 | 2017 | 2020 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 2,5 | 22,6 | 22,5 | 21,9 | 35,3 |
| Ermənistan | 22,0 | 29,2 | 32,0 | 30,9 | 35,8 |
| Belarus | 6,1 | 32,9 | 32,5 | 32,2 | 31,0 |
| Qazaxıstan | 18,6 | 19,3 | 17,0 | 16,2 | 20,0 |
| Qırğızıstan | 8,1 | 7,0 | 7,2 | 7,7 | 9,8 |
| Moldova | 4,4 | 20,2 | 22,0 | 17,9 | 12,6 |
| Rusiya | 5,9 | 20,7 | 17,5 | 19,9 | 23,6 |
| Tacikistan | 6,4 | 22,6 | 28,4 | 35,0 | 28,7 |
| Türkmənistan | … | … | 38,4 | 46,3 | … |
| Özbəkistan | 18,1 | 9,9 | 11,1 | 11,8 | 8,3 |
| Ukrayna | 51,3 | 41,2 | 32,8 | 45,0 | 43,1 |

*Cədvəl "Население, занятость и условия жизни в странах содружества независимых государств 2021". səh., 219. Statistik materialları əsasında tərtib edilmişdir.*

Qeyd edək ki, minimum əməkhaqqı ən az maaş alan işçilərin işinə təsir göstərir. İlk dəfə olaraq, belə bir tənzimləmə üsulu daimi fəaliyyət göstərən istehsal müəssisələrinə qarşı mübarizə vasitəsi kimi təklif edilmişdi. Hesab edilirdi ki, onların sahibləri bazarda gücə malik olduqları üçün işçilərin əməyinin ödənilməsində "ədalətsizliyə" yol verirlər. Problemi belə həll etməyin səbəbi ondadır ki, hazırda bazar daha çox bacarıqlı işçilərin əməyi üçün müstəqil olaraq "ədalətli" qiymət təyin etmək iqtidarında deyil. Odur ki, bu problemi həll etməyin yeganə yolu əməkhaqqının strukturunun inzibati yolla dəyişdirilməsi və bununla da gəlirlərin yenidən bölüşdürülməsidir. Bu ba-

xımdan minimum əməkhaqqı yoxsulluqla mübarizə yollarından biri hesab olunur.

Minimum əməkhaqqının tətbiqi üçün aşağıdakı üstünlüklər əsas sayıla bilər:

- Minimum əməkhaqqı ən yoxsul və ən həssas təbəqələr üçün həyat standartlarını artırır və orta həyat səviyyəsini yüksəldir;
- Əhalinin ən yoxsul təbəqələrinin gəlirlərinin artması hesabına dövlət tərəfindən sosial xərcləri azaldır;
- Dövlət aztəminatlıların əlində pul kütləsini artırmaqla istehlakı stimullaşdırır ki, bu da iqtisadi artıma müsbət təsir göstərir;
- Məhsuldarlığı stimullaşdırır, çünki işəgötürən daha çox pul müqabilində daha çox məhsul əldə etməkdə maraqlıdır;
- İşçiləri daha çox işləməyə həvəsləndirir (sosial proqramlar və digər ödənişlərdən fərqli olaraq);
- Müəssisədən kadrların axını azalır, bu səbəbdən işçilərin təliminə daha az vəsait xərclənir.

Minimum əməkhaqqı meyarından hazırda əksər ölkələr istifadə edərək, gəlirlərin bölüşdürülməsində müəyyən qədər bərabərliyin təmin olunmasına çalışırlar. Lakin onun tətbiqi ilə bağlı mütəxəssislərin fikirləri birmənalı deyil. Minimum əməkhaqqının müəyyən edilməsi ilə qarşıya qoyulan məqsədlər ümumilikdə düzgün hesab edilsə də, minimum əməkhaqqının tətbiqinin mənfi nəticələri üzərində müsbət təsirlərin üstünlük təşkil etməsi ilə bağlı fikir ayrılığı mövcuddur. Minimum əməkhaqqının qanunvericilik bazası yaranandan bəri bu qanunlar siyasi mübahisələrə səbəb olub [9].

Minimum əmək haqqının artımı nəyə təsir edə bilər?

Bəzi iqtisadçılar qeyd edirlər ki, minimum əməkhaqqının artımı inflyasiyaya səbəb ola bilər, çünki dövriyyəyə əlavə pul kütləsi daxil olur. Eyni zamanda müəssisələr itkiləri qiymətə əlavə etməklə kompensasiya etməyə çalışırlar. Amma bu qiymət artımı minimum əməkhaqqının artırılmasını şübhə altına ala bilməz. Belə ki, minimum əmək haqqının inkişaf müqabilində artırılması obyektiv zərurətdən irəli gəlir. Minimum əmək haqqının ölçüsü qiymətlər üçün əhəmiyyətli amildir, lakin ümumilikdə inflyasiyaya digər amillər də təsir göstərir.

Qeyd edək ki, inflyasiyaya Mərkəzi Bank cavabdehlik daşıyır və o, minimum əməkhaqqının dəyişməsi əsasında öz siyasətini tənzimləyə bilər və hesab edirik ki, Mərkəzi Bank bu məsələni daim diqqətdə saxlamalıdır.

Əslində minimum əməkhaqqının artırılması aztəminatlı və az məhsuldar işçilərin sayının azalmasına, cəmiyyətin ümumi tərəqqisinə xidmət edir, daha məhsuldar və bacarıqlı işçilər isə əlavə mükafatlandırılır[2].

Akademik Ziyad Səmədzadə hesab edir ki, minimum əməkhaqqının artırılması ölkə iqtisadiyyatında çalışan insanların əməkhaqlarının yüksəlməsinə və pensiya fonduna ödənişlərin çoxalmasına gətirib çıxarır. Əmək bazarının səmərəliliyi daha çox məşğulluğun effektivliyinin artması ilə deyil, əmək gəlirləri, əməkhaqqının dəyişməsi səviyyəsi ilə qiymətləndirilir. İş yerlərinin itirilməsi və əməkhaqqının azalması isə əmək gəlirlərinə görə qeyri-bərabərliyin artmasını şərtləndirən əsas amillər sayılır. Əməkhaqqında uyğunsuzluq halları daha geniş miqyasda qeyri-rəsmi iqtisadiyyatda özünü göstərir. Minimum əməkhaqqının artırılması qeyri-formal məşğulluğun aradan qaldırılmasında və əməkhaqlarının leqallaşmasında mühüm rol oynamış və nəticədə məşğulluq imkanlarının artırılmasına, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım davam edir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, bu ilin birinci rübündə də ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 9 493 müqavilə və ya 0,5 faiz artaraq 1 milyon 755 min 802-yə çatıb. Aparılan əməkhaqqı islahatları və əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunun da davamlı olaraq artması ilə nəticələnir. 2023-cü ilin yanvar-mart aylarında əməkhaqqı fondunda daha 6 faiz artım qeydə alınıb.

Ümumilikdə son 5 ildə əmək müqavilələrinin sayında 34 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib [10].

*Cədvəl 2*

**İqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı (manat)**

| İqtisadi fəaliyyət növləri | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə - cəmi | 331,5 | 466,9 | 528,5 | 544,6 | 635,1 | 707,7 | 732,1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 160,3 | 245,8 | 261,5 | 281,1 | 371,4 | 433,5 | 456,9 |
| Mədənçıxarma sənayesi | 1004,7 | 2171,1 | 3071,9 | 2964,2 | 3055,6 | 3278,6 | 3088.3 |
| Emal sənayesi | 320,5 | 527,9 | 554 | 554,1 | 632,3 | 644,4 | 685,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 349,4 | 513,2 | 547,8 | 583,3 | 638,9 | 698,3 | 770 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 197,7 | 333,3 | 324,6 | 304,6 | 468,9 | 558,3 | 549,6 |
| Tikinti | 505,8 | 677,7 | 783,3 | 698,7 | 737,3 | 790,6 | 887,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 282,8 | 378,1 | 385,6 | 390,3 | 480,3 | 521,4 | 536,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 395,1 | 575,8 | 733,9 | 806,9 | 855,8 | 886 | 953 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 333,7 | 464,6 | 511,2 | 541,7 | 568,3 | 537,7 | 584,9 |
| İnformasiya və rabitə | 531,3 | 747,2 | 870,6 | 881,3 | 1005,3 | 1082,6 | 1155,4 |
| Maliyyə və sığorta fəaliyyəti | 990,2 | 1210,9 | 1387,7 | 1459,3 | 1607,3 | 1726,4 | 1937,6 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 168,1 | 308,2 | 354,6 | 422,5 | 558,2 | 610,5 | 660 |
| Peşə, elmi və texniki fəaliyyət | 592,2 | 752,4 | 1032,7 | 1054,7 | 1180,3 | 1188,4 | 1208,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 526,7 | 542,6 | 547,8 | 548,3 | 386,1 | 426,2 | 431,6 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 376,5 | 494,7 | 534,5 | 596 | 799,9 | 957,2 | 985,3 |
| Təhsil | 271,8 | 301,1 | 322,2 | 365,3 | 438,9 | 515,7 | 526,1 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 155,2 | 204,2 | 222,5 | 239,4 | 352,4 | 524,7 | 568,2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 208,4 | 252,7 | 268,4 | 296 | 423,8 | 529,7 | 535,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 280,3 | 441,9 | 662,6 | 631,8 | 631,8 | 678,8 | 758,5 |

*Cədvəl DSK-nın "Əmək bazarı-2022", səh. 62. statistik materialları əsasında tərtib edilmişdir.*

Aparılan hesablamalar göstərir ki, respublikanın regionlarında Bakı şəhəri və Naxçıvan Muxtar Respublikası istisna olmaqla, orta əməkhaqqı təxminən 2 dəfəyə yaxın aşağıdır. Bu fərqlərin yaxın gələcəkdə xeyli yumşaldılması regionların üstün inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində mümkün olacaqdır.

Bununla belə, əməkhaqqının, sahələr, eləcə də regionlar üzrə dünyada özünü doğrultmuş iqtisadi mexanizmlər vasitəsilə tənzimlənməsi qarşıda duran vəzifələrdən biri olmalıdır[10]. Məsələn, ABŞ-da hər bir ştat öz minimum əməkhaqqını təyin edir. Bu, iqtisadçılara dövlətlər arasında müqayisəli təhlillər aparmağa imkan verir. Ona görə də düşünürük ki, bir ölkənin ayrı-ayrı regionlarında və paytaxtda orta əməkhaqqlarında müşahidə olunan fərqlərin minimum əməkhaqqının təyin edilməsi zamanı nəzərə alınması insanların maddi təminat səviyyəsinin daha da yüksəlməsinə kömək edə bilər.

Ölkəmizdə yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması, aztəminatlı ailələrin, öz doğma yurdlarını məcburi tərk etmiş insanların həyat səviyyəsinin yaxşılaşdırılması məsələləri hər zaman dövlətin diqqət mərkəzindədir ki, bütün bunlar da əhalinin gəlirlərindəki fərqlərin əhəmiyyətli dərəcədə azalmasına müəyyən qədər yardım edir. Bununla belə, məsələnin daha da yumşaldılması istiqamətində tədbirlərin nəzərdə tutulması məqsədəuyğun olardı. Əhalinin inkişaf səviyyəsində fərqlərin azaldılması ilə bağlı mütərəqqi iqtisadi mexanizmlərdən istifadə edilməsi strateji vəzifələrdən biri olaraq qalır. Akademik Ziyad Səmədzadə qeyd edir ki, yoxsulluğun ölçülməsi meyarlarının təkmilləşdirilməsi və bu sahədə bir sıra ölkələrin qabaqcıl təcrübəsinin öyrənilərək ölkədə tətbiqi məqsədilə dərin araşdırılması qarşıdakı dövrlərdə də öz aktuallığını saxlayacaqdır.

### *Nəticə*

Ölkəmizdə insanların həyat səviyyəsinin daim yüksəldilməsində sosialyönümlü proqramların qəbul olunması və onlardan irəli gələn vəzifələrin həlli qarşıda duran mühüm amillərdəndir. Məhz strateji proqramların məqsəd və vəzifələrinin düzgün müəyyən edilməsi, dəqiq icra mexanizminin və maliyyə təminatının olması onların həyata keçirilməsində səmərəliliyi artırır. Hesab edirik ki, minimum əməkhaqqının artırılması ilə yanaşı liberal iqtisadiyyatın inkişafı üçün daha da əlverişli şəraitin yaradılması, gəlirlərin ədalətli bölgüsü, gömrük, vergi qanunvericiliyində islahatların aparılması, biznes mühitinin yaxşılaşdırılması təmin edilməlidir ki, bu da daha çox iş yerlərinin yaradılması, insanların məşğulluğunun artırılması, gəlirlərin çoxalması, həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxara bilər, regional proqramların səmərəli icrası isə regionlar üzrə əhalinin gəlirlərindəki, həyat səviyyəsindəki fərqlərin nisbətən azalmasına kömək etmiş olar. Bu problemlərin həlli nəticəsində ölkədə insanların rifahının dayanıqlı inkişafı mümkündür.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanunu.
2. Əmək bazarı, Böyük İqtisadi Ensiklopediya, II cild, Bakı, 2012, s. 136-137.
3. Səmədzadə Z. Ə. “Azərbaycan iqtisadiyyatı 100 ildə”, IV cild, Bakı, 2022, s 410-415, 442-454.
4. Hüseynov M. “Azərbaycanda sahibkarlığın inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətləri”. Bakı, 2012, 357 s.
5. Quliyev C. “Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər”. Bakı, 2011, 235 s.
6. Şamilova H. S. “Sosial sahənin iqtisadiyyatı”. Bakı, 2017.
7. https://president.az/
8. www.stat.gov.az
9. www.wikipedia.org
10. www.sosial.gov.az
11. www. new.cisstat.org

***Айтен Зияд кызы Самедзаде***
***к.е.н. Азербайджанский Университет Кооперации***

## О минимальном размере оплаты труда: вчера, сегодня, завтра

### *Резюме*

В статье исследуется заработная плата, которая занимает важное место среди факторов, влияющих на уровень жизни населения. Здесь анализируются прогрессивные шаги, предпринятые государством для нормального проживания и функционирования малообеспеченных семей, принятие и реализация социальных программ, динамика минимальной заработной платы в стране по годам. Также в статье проводится сравнение критерия минимальной заработной платы с аналогичными показателями в странах СНГ. Также здесь было отмече-

но, что в настоящее время большинство стран используют критерий минимальной заработной платы для обеспечения определенного равенства в распределении доходов, и необходимость применения этой передовой практики.

***Ключевые слова: средняя заработная плата, минимальная заработная плата, прожиточный минимум, потребительская корзина, бедность, социальное обеспечение.***

***Ayten Ziyad Samadzade***
***Azerbaijan Cooperation University***
***doctor of philosophy in economics***

**On the minimum wage: yesterday, today, tomorrow**

***Summary***

The article examines wages, which occupies an important place among the factors affecting the standard of living of the population. It analyzes the progressive steps taken by the state for the normal living and functioning of low-income families, the adoption and implementation of social programs, the dynamics of the minimum wage in the country over the years. The article also compares the minimum wage criterion with similar indicators in the CIS countries. It was also noted here that most countries currently use a minimum wage criterion to ensure some equity in the distribution of income, and the need for this best practice.

***Key words: average wage, minimum wage, living wage, consumer basket, poverty, social security.***

**UOT – 33.336**

***Aygün Hüseynəli qızı ƏLİYEVA***
***dos. Sumqayıt Dövlət Universiteti***
***Orcid.org / 0000-0001-7072-8708***
***alizadaconi@gmail.com***

***Tofiq Ağabala oğlu AYDAROV***
***dos. Cənubi-Qazaxıstan Universiteti***
***tofik-750908@mail.ru***

## HEYDƏR ƏLİYEVİN AUDİTOR XİDMƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ ROLU

***Xülasə***

Məqalədə daxili auditin rolu və məqsədi, daxili auditin effektivlik səviyyəsinin reallaşdırılması şərtləri, onların qiymətləndirilməsi meyarları və təhlili öz əksini tapmışdır. Eyni zamanda, daxili auditin transformasiyasının həlli yollarının mühüm istiqamətləri qruplaşdırılaraq göstərilmişdir.

***Açar sözlər: daxili audit, effektivlik səviyyəsi, qiymətləndirilmə meyarları, transformasiya, risklər.***

***

Məlumdur ki, təsərrüfat subyektlərinin davamlı, dayanıqlı və etibarlı fəaliyyət göstərməsi dünya iqtisadi proseslərinin sabitliyi kimi qiymətləndirilə bilər. Bu baxımdan hər bir təsərrüfat subyektində daxili auditin rolu və onun müxtəlif istiqamətlərdə təkmilləşdirilməsi vacib şərtdir. Belə ki, daxili audit təsərrüfat subyekti rəhbərliyinin göstərişi ilə müəssisə və təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin qanunvericiliyinə və qəbul edilmiş mühasibat uçotu qaydalarına uyğunluğunun və idarəetmə prinsiplərinin səmərəliliyinin müstəqil yoxlanılması sistemidir.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar prosesində maliyyə nəzarətinin təkmilləşdirilməsinə mühüm əhəmiyyət verilmiş və nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyət-

lərinə uyğunlaşdırılması, o cümlədən müstəqil auditin yaradılması dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur. Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən imzalanmış "Auditor xidməti haqqında" 1994-cü il 16 sentyabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə ölkəmizdə auditin təməli qoyulmuş, həmin qanuna müvafiq olaraq, 1995-ci il 19 sentyabr tarixində Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə" təsdiq edilmiş və 1996-cı il 5 aprel tarixində Auditorlar Palatası fəaliyyətə başlamışdır [1.səh.6].

Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının reallaşdırılması istiqamətində ölkə iqtisadiyyatının tarazlı və dayanıqlı inkişafını təmin etmək, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərin reallaşmasına dəstək vermək məqsədini daşıyır [1.səh.9].

Azərbaycanda ümumi iqtisadi artımın zəifləməsi baş vermiş, bank sektorunda isə əvvəlki illərdə müşahidə olunan fəallıq aşağı düşmüşdür. Bütün bu problemlərin həlli istiqamətində strateji tədbirlərin görülməsi Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsinin strateji baxışlarında 2020-ci ilədək olan dövr üçün maliyyə sisteminin potensialının gücləndirilməsi və risk elementlərinin azaldılması tədbirləri çərçivəsində nəzərdə tutulmuşdur. Eyni zamanda, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışlar maliyyə xidmətlərinin daha da təkmilləşdirilməsi və geniş çeşidli maliyyə xidmətlərinin formalaşdırılmasına imkan verməlidir [2. s. 33]. Bütün bunlar, eyni zamanda daxili auditin fəaliyyəti proseslərinə müasir yanaşmaları şərtləndirir.

Daxili audit müstəqil, təminatverici və məsləhətverici fəaliyyət olaraq onun məqsədi müəssisənin idarəetmə sisteminin səmərəliliyini qiymətləndirməkdir. Bu məqsədlə müəssisədə yaradılan daxili audit bölməsi tərəfindən mühasibat hesabatının düzgünlüyü, xərclər smetasının icrası və əmlakın qorunması üzərində nəzarətin həyata keçirilməsi, habelə istehsalın təşkili üsullarının, müxtəlif bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması sayəsində nail olunur. İnkişafın ilk mərhələsində daxili auditin rolu, maliyyə idarəetməsinin məqsədləri vəsaitlərin qorunmasının təmin edilməsi ilə müəyyən olunurdu və müəssisələrdə kiçik qruplar səviyyəsində ümumi nəzarətin təşkil edilməsindən ibarət idi [3.səh.25]. Sonrakı dövrlərdə daxili auditorların diqqəti onların nə dərəcədə səmərəli təşkil olunmasının və təkmilləşdirmə sahəsində nə kimi işlər aparılmasının təhlilinə yönəldilmişdir. Bu istiqamətdə daxili auditin effektivlik səviyyəsinin müəyyənləşdirilməsi əsas şərt kimi qarşıya qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, daxili auditin transformasiyası problemlərinin müasir dövrdəki tendensiyalarının araşdırılması və onlara adekvat həlli yollarının müəyyənləşdirilməsi, eyni zamanda daxili auditin effektivlik səviyyəsinin düzgün qiymətləndirilməsi iri müəssisələrin fəaliyyətinin sabit təşkilinin mühüm tədbirlərindən və strateji vəzifələrindən biri olmalıdır. Daxili auditin effektivlik səviyyəsinin müəyyənləşdirilməsi özündə bir qrup spesifik yanaşmanın və tədbirlərin reallaşdırılmasını şərtləndirir. Dünya təcrübəsi və müasir bank fəaliyyətinin praktiki aspektləri nəzərə alınmaqla, daxili auditin təşkili, bankın ümumi fəaliyyət strategiyasına müvafiq olaraq, bank əməliyyatlarının, maliyyə və mühasibatlıq hesabatlarının, işçi personalının effektivliyinin yoxlanılması, dürüstlüyün təmin edilməsi, nöqsanların üzə çıxarılması, bunlara müvafiq tədbirlərin hazırlanması, həmin tədbirlər üzrə nəzarət mexanizminin reallaşdırılması kimi mürəkkəb vəzifələrin yerinə yetirilməsini tələb edir. Bu proseslərdə daxili auditin effektiv olması və qarşıya qoyulan vəzifələr üzrə adekvat təklif və tövsiyələri hazırlamaq potensialına yiyələnməsi vacib şərtlər kimi diqqət çəkir.

Daxili auditin effektivlik səviyyəsinin təhlil edilməsi üçün, ilk növbədə, silsilə xarakterli və ardıcıllığı ilə diqqət çəkən tədbirlərin reallaşdırılması lazımdır. Belə ki, yoxlama və audit subyekti kimi götürülən sahələrin, fəaliyyət istiqamətlərinin, struktur bölmələri və filialların, maliyyə və mühasibat sənədlərinin dəqiq və dürüst məlumatları, göstəriciləri, bunlarla bağlı materiallar, zəruri təsdiqedici sənədlər və s. toplanmalı, sistemləşdirilməli, təhlil edilməlidir [5.səh.41]. Daxili auditin effektiv təşkilini qiymətləndirmək üçün planlı şəkildə ildə bir neçə dəfə xüsusi monitorinqlərin

keçirilməsi və auditin effektivliyinin müəyyənləşdirilməsi tədbirləri də vacibliyi ilə diqqət çəkir. Daxili auditin proseduru və metodologiyası baxımından vacib meyarlar kimi daxili auditin daimilik prinsipi əsasında təşkil edilməsi, risklərlə bağlı planlaşdırmalar, auditorların vəzifələrinin və tapşırıqlarının müəyyənləşdirilməsi, daxili auditin müasir texnologiyalar əsasında təşkili üçün xüsusi proqram təminatının tətbiqi, daxili audit xidmətinin digər daxili qurumlarla və kənar təşkilatlarla qarşılıqlı fəaliyyət əlaqəsinin formalaşdırılması, daxili audit resurslarının mənbələrinin aydınlaşdırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi, onların motivasiyasının təmin olunması və digərləri daha çox fərqlənirlər. Daxili auditin səmərəlilik səviyyəsinin qiymətləndirilməsi meyarlarının təxmini sxemini şəkil 1-dəki kimi vermək olar [4. səh.14].




**Şəkil 1. Daxili auditin effektivlik səviyyəsinin qiymətləndirilməsi meyarları (Müəllif tərəfindən hazırlanmışdır)**

Bununla belə, qeyd etmək lazımdır ki, müəssisələr hər bir milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində, sosial-iqtisadi proseslərin ahəngdarlığının qorunmasında, əhaliyə xidmətlərin təqdim edilməsində geniş əhatəli funksiyaları yerinə yetirirlər. Şübhəsiz, bu baxımdan onların fəaliyyətinin səmərəli və effektivli təşkili vacib şərt kimi çıxış edir. Bu proseslərdə daxili auditin əhəmiyyəti də xeyli fərqlənir. Belə ki, daxili auditin, problemli istiqamətlərin öyrənilməsində, bunlara müvafiq tədbirlərin hazırlanmasında və həyata keçirilməsində böyük səmərəsi vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də audit xidmətini yüksək qiymətləndirərək qeyd etmişdir: "Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir"[1.səh.2].

Daxili auditin transformasiyasının həlli yollarının qruplaşdırılmasını, bu sahədəki mühüm istiqamətləri aşagıdakı kimi ümumiləşdirmək mümkündür [4.səh.12, 5.səh.33]:

- daxili auditin transformasiyasına səbəb olan elementlərin və müxtəlif amillərin xarakteri, mahiyyəti, xüsusiyyətləri dərindən öyrənilməklə, daxili auditin adekvat metodikasının işlənib hazırlanması və daxili auditin təşkili üsullarının təkmilləşdirilməsi;

- daxili auditin yoxlama və təhlil metodlarının əsasını təşkil edən uçot sənədlərinin, üsulların və prosedurların seçilməsi mərhələsinin müasir dövrün tələblərinə uyğun baxılması və bu sahə üzrə daxili auditin təşkili üzrə mühüm sənədlərin siyahısının yenilənməsi;
- risklərin kompleks öyrənilməsi, araşdırılması, sistemli təhlili və onların idarə edilməsi prosedurlarının bankın digər struktur vahidləri ilə qarşılıqlı fəaliyyət rejimində təşkili meyarlarının hazırlanması və daxili auditin mühüm bank qurumu kimi fəaliyyətinin təmin olunması;
- müəssisələrdə risklərin daha dürüst mühasibat və maliyyə sənədləri əsasında proqnozlaşdırılması, təhlil edilməsi və idarə olunması sisteminin təşkili;
- risklərin daha çox təzahür etdiyi bank əməliyyatları sahəsinin daxili audit mexanizminin vasitəsi ilə fasiləsiz rejimdə öyrənilməsi, izlənilməsi, buradakı problemlərin üzə çıxarılması, arzuedilməz situasiyaların qarşısının alınması, risklərdən yaranan itkilərin və zərərlərin minimuma endirilməsi tədbirlərinin reallaşdırılması;
- daxili auditin işçi heyətinin və yüksək menecmentinin peşəkarlıq səviyyəsinin dünya standartları səviyyəsinə qaldırılması istiqamətində təsirli tədbirlərin ardıcıl və davamlı görülməsi, onların potensialından kommersiya bankının strateji məqsəd və vəzifələrinin yerinə yetirilməsində maksimum istifadəsinin təmin olunması;
- daxili auditin transformasiyası ilə bağlı informasiya bazasının obyektiv olaraq yaradılması, buraya daxil olan mühüm detalların və elementlərin bankların ali rəhbərliyi səviyyəsində ciddi araşdırılması, yaranmış vəziyyətə müvafiq daxili audit mexanizmlərinin tətbiqi;
- daxili auditin idarəetmə və nəzarət sistemində bank risklərinin idarə olunması və onlara nəzarət funksiyalarının müasir dövrlə adekvatlığının monitorinqinin aparılması və bu sahədə tətbiq edilən bank mexanizmlərinin, daxili audit üsullarının, rıçaqlarının təkmilləşdirilməsi və s.

Daxili auditin effektivlik səviyyəsinin daha obyektiv qiymətləndirilməsi üçün əsasən müəssisə qarşısında duran məqsədlərin və vəzifələrin yerinə yetirilməsi proseslərindəki risklərin sistemli araşdırılması və səmərəli idarə edilməsi ilə birbaşa bağlılıq təşkil edir. Bu proseslərdə daxili audit yüksək standartlar səviyyəsində risklərin dərin təhlilini aparmalı, onlarla bağlı proseslərin mahiyyətini, bu riskləri yaradan çoxsaylı səbəbləri öyrənməli, mövcud risk təhlükələrinin aradan qaldırılması mexanizmlərinin və nəzarət sisteminin təkmilləşdirilməsinə səy göstərməlidir. Həmçinin, hər bir təsərrüfat subyektinin şəffaf və etibarlı fəaliyyət göstərməsi üçün həmin müəssisələrdə daxili auditin effektivlik səviyyəsinin düzgün qiymətləndirilməsinin və transformasiyası problemlərinin həllinin hər zaman diqqət mərkəzində olması vacib şərtdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası. (2012-2020-ci illər). Bakı-2013.68 səh.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016.
3. "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar"ın və "Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin Əsasnaməsi", 11 oktyabr 2013-cü il.
4. İsrafilov Rəşad Ənvər oğlu. "Auditdə idarəetmədə təhlildən istifadə olunması və onun təkmilləşdirilməsi yolları" mövzusunda dis. işi. UNEC-2019
5. Булгакова Л.И., В.В. Гущин, E.A.Arens, C.K. Lobbek, Y.V.Sokolov, V.V.Skobara,2015, Развитие законодательства об аудиторской деятельности // Право и экономика. М.: Юрид. Дом "Юстицинформ", № 5.- С. 65-70

***Айгюн Гусейнали кызы Алиева***
***доц. Сумгаитский Государственный Университет***
***Orcid.org / 0000-0001-7072-8708***
***alizadaconi@gmail.com***

***Тофик Агабалаевич оглы Айдаров***
***доц. Южно-Казахстанский Университет***
***tofik-750908@mail.ru***

**Оценка уровня эффективности внутреннего аудита и направления решения задач трансформации**

***Резюме***

В статье отражены роль и назначение внутреннего аудита, условия реализации уровня эффективности внутреннего аудита, критерии их оценки и анализа. При этом сгруппированы и показаны важные направления решений трансформации внутреннего аудита.

***Ключевые слова: внутренний аудит, уровень эффективности, критерии оценки, трансформация, риски.***

***Aygun Huseynali Aliyeva***
***assoc. Sumgait State University***
***Orcid.org / 0000-0001-7072-8708***
***alizadaconi@gmail.com***

***Tofik Agabala Aydarov***
***assoc. South-Kazakhstan University***
***tofik-750908@mail.ru***

**Assessment of internal audit efficiency level and solution directions of transformation problems**

***Summary***

In this regard, the article reflects the role and purpose of internal audit, the conditions for implementing the level of efficiency of internal audit, the criteria for their evaluation and analysis. At the same time, important directions of decisions for the transformation of internal audit are grouped and shown.

***Key words: internal audit, effectiveness level, evaluation criteria, transformation, risks.***

***Fuad Maarif oğlu İBRAHİMOV***
***i.f.d., Azərbaycan KooperasiyaUniversitetinin***
***elmlər doktoru proqramı üzrə doktorantı***
***ORCİD-İD: 0000-0003-4852-4754***
***e-mail: fuadibrahim@mail.ru***

**DAYANIQLI VƏ İNNOVASİYALI FƏALİYYƏT MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASININ PRİORİTETİDİR**

***Xülasə***

Məqalədə milli inkişaf prioriteti olaraq bəyan edilmiş dayanıqlı və innovasiyalı fəaliyyətin səmərəliliyinin yüksəldilməsi məsələləri tədqiq olunmuşdur. Aqrar-sənaye sahələrinin dinamik və dayanıqlı inkişafında innovasiya amilinin yeri və rolu müəyyən edilmişdir.

***Açar sözlər: inkişaf, innovasiya, dayanıqlıq, strategiya, aqrar-sənaye sahələri.***

***

Azərbaycanın dinamik sosial – iqtisadi inkişafı Ümummilli Heydər Əliyevin ideyalarının ölkə başçısı tərəfindən yaradıcı surətdə reallaşdırılmasının məntiqi nəticəsidir. Yeni əsrin çağırışlarına uyğun olaraq milli aqrar-sənaye sahələrində dayanıqlı və innovasiyalı fəaliyyət inkişaf strategiyası kimi müəyyən edilmişdir. Müəllifi Ümummilli lider Heydər Əliyevin olduğu milli iqtisadi inkişaf strategiyası dayanıqlı və innovasiyalı fəaliyyətlərin intensivləşdirməsini və əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutur. Bu strategiyanın davamlılığı onun çox dərin mahiyyətindən və milli dəyərlərə söykənməsindən irəli gəlir. Başqa sözlə, "Heydər Əliyev strategiyasının müasir inkişafın ideya əsası rolunda çıxış etməsi hər şeydən əvvəl onun universal mahiyyətindən irəli gəlir söyləsək, yəqin ki, səhvə yol vermərik. İkinci bir tərəfdən, bu strategiya ölkəmizdə tarixən formalaşmış dəyərlər sisteminə söykəndiyindən böyük perspektiv üçün nəzərdə tutulub" [2].

Son onilliklərdə innovasiyaların dayanıqlı inkişafın və yaşıl iqtisadiyyatın məqsədlərinə tabe etdirilməsi məsələsinin zəruriliyi gündəlikdən düşmür. Ənənəvi iqtisadiyyatın köklü dəyişmələrə məruz qaldığını önə çəkmək üçün ona artım iqtisadiyyatı, arzu edilən iqtisadiyyata isə "yaşıl" və ya digər adlar verirlər. Bu gün innovasiya inkişafın və rəqabət qabiliyyətinin aparıcı amilinə çevrilir. "Artım" iqtisadiyyatından "yaşıl" iqtisadiyyata keçid, kompleks xarakterli prosesdir. Onun magistral istiqamətlərindən biri kimi enerji resurslarından istifadə üzrə innovasiyaların iqtisadi məqsədəuyğunluğunun təmin edilməsidir. Müvafiq mənbələrdə də anoloji yanaşmalara rast gəlinir. Belə ki, "yaşıl" iqtisadiyyata keçid amillərinə, ilk növbədə aşağıdakılar aid edilir: "qeyri-ənənəvi enerji mənbələrindən, o cümlədən bərpa olunan enerji mənbələrindən geniş istifadə; enerji sektorunun ətraf mühitə antropogen təsirinin azaldılması; - istixana qazları emissiyaları üzrə kvota ticarətinin inkişafı; yaşıl iqtisadiyyat sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi; enerjiyə qənaət edən texnologiyalar sahəsində kadr hazırlığının səmərəli sisteminin yaradılması" [1, s.52].

Ekoloji böhran fonunda innovasiyalı inkişafa qoyulan iqtisadi-ekoloji tələblər ciddiləşir. Təbiətdən istifadənin yeni paradiqmasına keçid obyektiv zərurətə çevrilmişdir. Müasir dövrdə innovasiyaların məqsədi, əksər tədqiqatçılar tərəfindən yaşıl iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi hesab edilir. İnnovasiya və investisiya siyasətinin prioriteti kimi dayanıqlı inkişafın təmin edilməsi önə çəkilir.

Müəssisənin və sahənin dayanıqlı inkişafı, bir çox hallarda ərazi inkişafı məsələləri ilə birgə nəzərdən keçirilir. Bu baxımdan kənd ərazilərinin dayanıqlı inkişafına iqtisadi dinamika və ətraf mühitin mühafizəsi aspektində yanaşmalar maraq doğurur [9]. Terminoloji mühakimələr üzərində ətraflı dayanmadan, ilkin yanaşmada dayanıqlığı mürəkkəb iqtisadi sistemlərin arzu olunan halı hesab edənlərlə razılaşmağı məqsədəuyğun hesab edirik. "Dayanıqlıq dinamik vəziyyət kimi mürəkkəb iqtisadi sistemlərin arzu olunan halıdır. Aqrar və sənaye inqilabından sonra dünyanı dəyişdirməyə qabil olan ekoloji inqilab dayanıqlı inkişaf baxımından bir çox dəyərlərin yenidən dərk edilməsini tələb edir. Ekoloji problemlərin kəskinləşməsi təbii sərvətlər və əhali artımı, ekoloji və sosial-iqtisadi inkişaf templəri arasında müvazinətin yaradılması problemlərini aktuallaşdırır" [3, s. 35-36].

Bəşəriyyətin yeniliklərə can atması heç də həmişə təbii resurslardan istifadə meyarları ilə qiymətləndirilməmişdir. İnnovasiyalı inkişafın iqtisadi nəticələri başlıca olaraq diqqət mərkəzində olmuş, son iki əsrə qədər texnoloji yeniliklərin (innovasiyaların) tətbiqinin ətraf mühitə təsirinə əsasən, etina edilməmişdir. Ekoloji böhranın təzahürləri əyaniləşdikcə innovasiyalı fəaliyyətin iqtisadi və ekoloji nəticələrinə vahid müstəvidə baxış zərurəti meydana çıxmışdır.

Dayanıqlı inkişafa xidmət edən innovasiyalar yeniliklərin reallaşdırıldığı təkrar istehsal, artımı sürətləndirən investisiya və iqtisadi fəallığı yüksəldən stimullaşdıcı funksiyaları yerinə yetirir. Hazırda, müəssisə, sahə və ölkə səviyyəsində səmərəlilik və rəqabət qabiliyyətinin təmin edilməsi dayanıqlı və innovasiyalı fəaliyyətin tətbiqindən birbaşa asılıdır. Əlbəttə, cari təsərrüfatçılıq təcrübəsində innovasiya xarakterli olmayan səmərələşdirici tədbirlərə üstünlük verilməsi də nadir hal deyildir. Bununla belə, aşağıdakı mənbədə qeyd olunduğu kimi tədqiqatların nəticələri və təcrübə yaxın perspektivdə "xərclərin azaldılmasına yönəlmiş strategiyaların məhsul və xidmətlər təklif etməyin daha innovativ üsullara əsaslanan strategiyalarından daha az səmərəli olacağını göstərir" [6, s.31].

Elmi biliklərin əlyetənliyinin təmin oluması bəşəriyyətin daim can atdığı və bu sahədə müəyyən nailiyyətlər əldə etdiyi istiqamətdir. Elmi innovasiyaların yayılması, tətbiqi baxımından elmi nəticələrin açıq olması ictimai mənafe baxımından arzu olunan haldır. Dayanıqlı inkişafın magistral xəttə çevrilməsi bu məsələnin aktuallığını daha da artırmışdır.

Dayanıqlı inkişafa yönəlik və məqsədi yaşıl iqtisadiyyat olan innovasiyalı fəaliyyətin xarakteristikaları, kifayət qədər yüksək ehtimalla innovasiya və investisiya siyasətinin prioritetlərinin və onların reallaşdırılması mühitinin təsiri altında formalaşacaqdır. Həmin prioritetlər qismində aşağıdakılar xüsusi qeyd olunur: "innovasiya fəaliyyətinin aktivləşdirilməsini stimullaşdıran normativ-hüquqi bazanın formalaşdırılması; innovasiya fəaliyyətinə maliyyə dəstəyinin göstərilməsi, respublikanın innovasiya potensialının qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün şəraitin yaradılması; innovasiya infrastrukturunun formalaşdırılması və onun inkişafına yönəldilən tədbirlərin görülməsi; innovasiya fəaliyyətinə yönəldilmiş kadrların hazırlanması" [5, s.344].

Dayanıqlı inkişaf anlayışına münasibətdə fərqli yanaşmalar vardır. Anlayışın, tədqiqatımızın predmeti çərçivəsində formalaşmasına münasibətdə, demək olar ki, zənnimizcə, o, dayanıqlı inkişafa planetar miqyasda artan diqqətdən qaynaqlanmışdır. Ötən əsrin 70-ci illərində dayanıqlı inkişaf problemlərinin beynəlxalq miqyaslı tədbirlərdə müzakirəsi, 1987-ci ildə BMT-nin iştirakı ilə yaradılmış Beynəlxalq Komissiyanın məruzəsində öz əksini tapmışdır. Dayanıqlı İnkişaf Konsepsiyasının hazırlanması təklifi 200-dən artıq dövlət tərəfindən dəstəklənmiş, geniş miqyaslı hazırlıq işlərinə başlanmışdır. Bəşəriyyətin ümumi mənafeyi baxımından Dayanıqlı İnkişaf Konsepsiyasında inkişafın bugünkü və gələcək nəsillərə ziyan verməməsi, ekoloji problemləri kəskinləşdirənlərin məsuliyyət, o cümlədən maliyyə məsuliyyəti daşıması, müvafiq meyarlara cavab verməyən istehsal modellərinin tədricən məhdudlaşdırılaraq ləğv olunması, dayanıqlıq meyarlarına uyğun demoqrafik siyasətin təşviqi, yoxsulluğun azaldılması və bir sıra digər məsələlərin zəruriliyi əsaslandırılmışdır.

Dayanıqlı inkişaf ən müxtəlif xarakterli risklərin idarə edilməsinin optimal sisteminin yaradılmasını nəzərdə tutur. Bu halda siyasi, iqtisadi, sosial, ekoloji, maliyyə, idarəetmə risklərinin neytrallaşdırılması; innovasiyalı biznes modellərdə mükəmməl risk-menecmentin həyata keçirilməsi; hüquqi risklərə hərtərəfli əsaslandırılmış diferensial yanaşmanın təmin edilməsi və s. kimi məsələlər öz həllini tapmalıdır. Aşağıdakı mənbədə göstərildiyi kimi "dayanıqlı innovasiyalı inkişafı təmin edən açıq tipli texniki-iqtisadi mexanizmlərin praktiki fəaliyyət imkanları onun həyata keçirilməsini təmin edən elementlərin məcmusu ilə müəyyən edilir. Onların arasında: 1) innovativ investisiyaların payının milli gəlirin 1 faizindən 3 faizinə və ya daha çox faizinə qədər artması; 2) iqtisadiyyatın bir və ya bir neçə əsas sektorunun sürətli inkişafı; 3) sosial, siyasi və institusional mexanizmlərin mövcudluğu və ya sürətlə ortaya çıxması xüsusi qeyd edilməlidir" [8]. Müasir reallıqlar, bu yanaşmada innovasiyalı inkişafa investisiyaların müsbət təsirinin intervalına, zənnimizcə, bir qədər ehtiyatlı münasibət tələb edir.

Dayanıqlı inkişaf iqtisadi fəaliyyətlə yanaşı, o cümlədən texnoloji - iqtisadi fəaliyyətlərdə yeni keyfiyyət xarakteristikalarını formalaşdırır. Bu xüsusilə mühəndis - texnoloji proseslərə aiddir. Dayanıqlı inkişaf mühitində insanlara layiqli əmək şəraitinin və əmək təhlükəsizliyinin təmin edilməsi imkanlarının və onların reallaşdırılması yollarının araşdırıldığı tədqiqatlar da bu baxımdan təqdirəlayiqdir.

Müasir dövrdə investisiyalaşan biznesin ekoloji xarakteristikalarına diqqət artır. Banklar və digər maliyyə qurumları ekoloji, habelə sosial meyarlara cavab verən layihələri maliyyələşdirməyə maraq göstərirlər. Yaşıl iqtisadiyyatın inkişafına yönəldilən həmin vəsaitlər, elmi dövriyyədə yaşıl maliyyə adını almışdır. Aşağıdakı mənbədə göstərildiyi kimi "yaşıl maliyyə yaşıl iqtisadiyyata keçid baxımdan real rol oynamağa başlamışdır. Bir çox ölkələr ekoloji problemləri həll etmək üçün dövlət subsidiyalaşdırılması, fiskal stimullaşdırma kimi tədbirləri əhatə edən tədbirlər kompleksi həyata keçirirlər. Bu tədbirlər yaşıl iqtisadiyyatın inkişafına töhfə verməklə dövlət və özəl bölmə nümayəndələri üçün maliyyə sektorunda yeni imkanlar açır" [7, s.1766-1767].

Aqrar sahənin maliyyə dayanıqlığı bankların bura nüfuz etməsi və dayanıqlı inkişaf baxımından fəallığı ilə əlaqədardır. Bankların aqrar istehsal sahələrindəki fəallığının qənaətbəxş olmaması bu məsələyə diqqəti daha da artırmalıdır. Bankların milli ərzaq təhlükəsizliyinin təminatında zəruri

funksiyaları yerinə yetirməməsi narahatlıq doğuran amil hesab edilməli və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilməlidir.

Aqrar-sənaye innovasiyalarının dəyər zəncirinin bütün mərhələlərini əhatə etməsi məqsədəuyğun hesab edilir. Aqrar-sənaye innovasiyalarının dayanıqlı inkişaf prioritetlərinə, müvafiq mənbələrdə ərzaq və qida təhlükəsizliyinin təminatı, resurs qoruyuculuq, alternativ enerjidən istifadə, ərazilərin dayanıqlı inkişafı və bu kimi bir sıra digər istiqamətlər qeyd olunur.

Hazırda tədqiqatçılar biznes - modellərin seçimində innovasiyalı və dayanıqlı aqrobiznesin inkişafı baxımından aşağıdakı məsələlərə xüsusi diqqət yetirirlər: dəyər zəncirinin tam əhatə olunması; sahələrarası inteqrasiyanın dayanıqlığını və kooperasiyanın çoxsəviyyəliliyinin təmin edilməsi; innovasiyalı fəaliyyətdə fərdin və əmək kollektivinin maraqlarının vəhdətinin əldə olunması və s.

Müvafiq tədqiqatlarda nəzərə alınır ki, dayanıqlı biznesin, o cümlədən aqrobiznesin inkişaf perspektivləri qlobal amillərlə birbaşa əlaqədar ola bilər. Bunun səbəblərindən biri kimi elmi ideyaların və elmi innovasiyaların yayılma sürətinin qloballaşma proseslərindən asılılığı göstərilir. Aqrar sənaye sahələrində dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat yönümlü innovasiyalı fəaliyyətin nəzəri-metodoloji əsaslarının özünəməxsusluğu, həmin sahələrin innovasiyalara münasibətdə meydana çıxan xüsusiyyətlərini nəzərə almağı tələb edir. Həmin xüsusiyyətlər qismində, hər şeydən əvvəl həmin sahələrdə, innovasiyalara əsasən aqrar sahənin mühafizəkarlığından irəli gələn həssaslığın aşağı səviyyəsi, aqrotexnoloji potensialın reallaşmasının innovasiya mühitinin təşəkkül mərhələsində olması və təşəkkül xronologiyasından asılılığı, innovasiyalı aqrar – sənaye fəaliyyətində motivləşdirmə və iqtisadi davranış arasında kifayət qədər asılılığın əldə edilməsi çətinlikləri, texnoloji innovasiyalarla şərtlənən miqyas effektinin əldə edilməsində ləngimələr, struktur və sahələrarası dayanıqlığın əldə edilməsi tədbirlərinin kompleksliyinə olan ciddi tələblərin olması və s. aid edilə bilər.

Struktur dayanıqlığı aqrar-sənaye sahələrinin yaşıl iqtisadiyyata keçidi baxımından inkişafın mühüm xarakteristikası hesab edilməlidir. Məsələ ondadır ki, təcrübədən göründüyü kimi struktur dayanıqlığı həlledici dərəcədə investisiya siyasətinin prioritetlərindən asılı olur. Aqrar-sənaye sahələrinin innovasiyalı inkişafının dayanıqlıq meyarlarına uyğunluğu, burada sahələrarası əlaqələrin dayanıqlığı səviyyəsi ilə bilavasitə əlaqədardır. Məsələ ondadır ki, sahələrarası əlaqələrin dayanıqlığı səviyyəsi inteqrasiyanın səmərəliliyinin mühüm göstəricisidir və onun yüksəlməsi, əsasən iqtisadi və işgüzar (sahibkar) fəallığının artmasına, fəaliyyət arealının genişlənməsinə, məşğulluğun səviyyəsinin yüksəlməsinə və strukturunun yaxşılaşmasına xidmət edir.

Aqrar və aqrar-sənaye sahələrinin inkişafında ətraf mühitə təsir məsələləri tədqiq olunarkən, innovasiya amilinə artan diqqət başa düşüləndir. Həmin diqqətin fokusu dayanıqlı inkişafa yönəldikcə, innovasiya amilinə münasibətdə təbiətdən istifadənin bərpa aspektinin ön plana çıxacağı gözlənilir. Belə bir fikirlə razılaşırıq ki, hazırda "yaşıl iqtisadiyyatın" dəstəklənməsi çətirinin altında digər sektorlar kimi maliyyə sektoru da böyük potensiala malikdir. Lakin yaşıl maliyyələşmənin inkişafı üçün bir çox problemlərin həllini tapması zəruridir" [4, s.11]. Həmin problemlər iqtisadi, sosial, texnoloji, maliyyə, institusional və əlbəttə ki, ekoloji xarakterlidir.

Nəhayət onu da qeyd edək ki, innovasiyalı inkişaf mühitinin iqtisadi - ekoloji səmərəliliyi vahid müstəvidə qiymətləndirilməli, bu məqsədlə zəruri metodiki və informasiya təminatı sistemi formalaşdırılmalıdır. Belə yanaşma, dayanıqlı inkişaf mühitinin təşəkkülü və inkişafı potensialının qiymətləndirilməsi baxımından mühüm addım sayıla bilər.

Dayanıqlıq tələblərinə cavab verən və yaşıl iqtisadiyyat yönümlü innovasiyalı fəaliyyətin nəzəri-metodoloji problemlərinin həlli, bu istiqamətdə inkişafın əsas xarakteristikalarını müəyyən etməyə imkan yaradacaqdır. Odur ki, innovasiyalı inkişafın və onun səmərəliliyinin yüksəldilməsinin nəzəri-metodoloji problemlərinə, həmin inkişafın investisiyalaşmasının konseptual məsələlərinə həsr olunmuş tədqiqatların nəticələri yaradıcı və daha fəal surətdə istifadə olunmalıdır. Rəqəmsal mühitin üsütünlüklərindən yararlanmaqla innovasiyalı dayanıqlı inkişafın yaşıl iqtisadiyyat quruculuğunda artan rolu təmin edilə bilər.

**ƏDƏBİYYAT**

1. Давыдова Т.Е., Попова А.И., Распопова А.Е. Зеленая экономика в контексте глобального устойчивого развития. ЭКОНОМИНФО. 2020. Т.17. № 1, с.49-54
2. Əhmədov Ə. Heydər Əliyev və müasir Azərbaycan. http://anl.az/down/meqale/ azerbaycan/ azerbaycan_ iyul2009/86109.htm
3. Hüseynov M.C. Aqrar sahənin dayanıqlı inkişaf problemləri.Bakı, 2006, 304
4. Qasımlı V., Hüsyn R. Yaşıl iqtisadiyyat: qavrayış və reallıq. "Kooperasiya" elmi-praktiki jurnal. №3 (66), 2022, s.5-14
5. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar; yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, "Elm", 2009, 416 s.
6. Клаус Шваб. Четвертая промышленная революция. Формат: FB2 Качество: OCR, 2016, 278 с.
7. Мусаилова, К. (2018). Тенденции мировой "зеленой" экономики и перспективы "зеленых" финансов в России. Russian Journal of Entrepreneurship. 19. 1765. 10.18334/rp. 19.6.39196., с.1766-1767
8. Krasota T.G., Hasanov E.A.,Hasanov M.A., Kulikov A.V.. Mechanisms For Ensuring Sustainable Innovative Development Of The Economy. Amurcon 2020: International Scientific Confer. 10.15405/epsbs.2021.06.03.67
9. Masot Ana Nieto, Gurría José L. (2021) Sustainable Rural Development: Strategies, Good Practices and Opportunities. April 2021. Land 10(4):366.DOI:10.3390/ land 10040366

***Фуад Маариф оглы Ибрагимов***
***к.э.н. Азербайджанский Университет Коопераци***
***докторант по программе доктора наук***
***ORCİD-İD: 0000-0003-4852-4754***
***электронная почта: fuadibrahim@mail.ru***

**Устойчивая и инновационная деятельность – приоритет стратегии национального экономического развития**

***Резюме***

В статье исследованы вопросы повышения эффективности устойчиво-инновационной деятельности, заявленной в качестве национального приоритета развития. Определено место и роль инновационного фактора в динамичном и устойчивом развитии агропромышленных отраслей.

***Ключевые слова: развитие, инновации, устойчивость, стратегия, агропромышленные отрасли.***

***Fuad Maarif Ibragimov***
***Ph.D. Azerbaijani University of Cooperation,***
***PhD student***
***ORCID-ID: 0000-0003-4852-4754***
***e-mail: fuadibrahim@mail.ru***

**Sustainable and innovative activity is a priority of the national economic development strategy**

***Summary***

The article examines the issues of increasing the efficiency of sustainable innovation activities, declared as a national development priority. The place and role of the innovation factor in the dynamic and sustainable development of agro-industrial sectors is determined.

***Key words: development, innovation, sustainability, strategy, agro-industrial sectors.***

UOT 330.341.1

***Nurangiz Yanvar MİKAYILOVA***
***Labor and Social Relations Academy, PhD, Docent***
***nurengiz.mikayilova@mail.ru***
***ORCİD-İD: 0009-0004-9697-6127***

## BP'S ROLE İN THE SOCİO-ECONOMİC DEVELOPMENT OF AZERBAİJAN

***Summary***

The article deals with the history of the oil industry in Azerbaijan, the BP's integration with this industry after gaining independence and the positive results. At the same time, studied BP's role in the socio-economic life of Azerbaijan, and determined BP's investment in Azerbaijan during its partnership. At the same time, the article analyzed some aspects of the BP's activities in Azerbaijan, and then summarized by the company's benefits to the country

***Key words: BP Company, Economic Growth, Entrepreneurship Development, Social Projects, Environment.***

***

The existence of crude oil in Central Asia and the Caucasus was already known in XIII century. Information about oil extraction in Azerbaijan are repeatedly mentioned in the works of early medieval scholars and travelers, and noted that this unusual product has brought great revenues. But at that time, oil was used only as fuel in the household, for medical and military purposes.

At the beginning of the XVI century there were about 500 oil pit and wells in Baku, and extracted white and black oil. In 1647, Turkish traveler Evliya Chalabi detailed the oil companies operating in Baku, gave information on the oil fields in Baku, the diversity of oil produced, and transportation of oil to Iran, Central Asia, Turkey and India.

In 1803, for the first time in the world, has began oil extraction from two wells in the Bibiheybat Gulf 18 and 30 meters away from the coast. But in 1825 strong sea breeze destroyed those wells. In 1846, was drilled an exploration well at a depth of 21 meters with industry method Bibiheybat [1.s. 127].

In 1899, Azerbaijan was first in the world in terms of oil production and processing, giving half of world oil production. Investments in other industries have begun to decline, in spite of the disproportionate increase in investments in the oil industry in order to increase oil production and exports over the twentieth century. Azerbaijan, having rich oil and natural gas reserves after the collapse of the USSR, unfortunately did not have the material and technical capacity to use the oil and natural gas reserves. Azerbaijan's oil production and development in the Caspian Sea was concentrated in four areas, including Gunashli, Chirag, Azeri and Kapaz. However, the use of simple technology has resulted in a number of problems in both extraction and transportation.

In 1992, companies wishing to operate in the Caspian oil fields, joined the consortium and signed contracts. However, the non-political stability in Azerbaijan led to the ineffectiveness of the discussions. When Heydar Aliyev elected, again negotiations began. Finally, after long negotiations, the "Contract of the Century" was signed on September 20, 1994. About 30 international oil contracts were signed in Azerbaijan with participation of 33 companies from 19 countries in the world [2, p.4]. Oil contracts signed for the discovery and development of energy resources accelerated the flow of foreign capital into the country, and at the same time , foreign aid and loans from international financial institutions have increased.

Since the BP's first visit to Azerbaijan 27 years ago, the Company's goal was to build and maintain a sustainable company that has earned the safety and the environment as a priority, gaining public confidence and respect, as well as creating value for all stakeholders. The Government and the people of Azerbaijan, as well as our partners, have trusted BP [2, p. 12] in order to benefit for both the government and the partners, BP in its turn has produced and exported oil and gas safely and reliably from the Caspian using advanced technologies. With the transportation of Azerbaijani

hydrocarbon resources to world markets through Georgia and Turkey, the Caspian region has become one of the major oil and gas extractor in the world.

A new signing ceremony was held in Baku on September 14, 2017, which will be in effect until the end of 2049. Azerbaijani government and the State Oil Company of the Azerbaijan Republic (SOCAR), as well as BP, Chevron, INPEX, Statoil, ExxonMobil, TP, TOCHU and ONGC Videsh signed amended and revised Agreement on Joint development of Deepwater part of Azeri, Chirag and Gunashli (ACG) and and production sharing.

BP will remain the operator of the project based on amended and revised Agreement on production sharing. The share of SOCAR in the ACG will increase from 11.65% to 25%, as opposed to the 1994 agreement and international partner companies will pay $ 3.6 billion bonus to the State Oil Fund of Azerbaijan. It is expected that over $ 40 billion will be invested in the ACG over the next 32 years[5].

After the approval of the agreement, new shareholding interests of the partners in the ACG were as follows: BP - 30.37%; AzACG (SOCAR) - 25.00%; Chevron - 9.57%; INPEX - 9.31%; Statoil - 7.27%; Ex-HanMobil - 6.79%; TP-5,73%; ITOCHU - 3.65% and ONGC Videsh Limited (OVL) - 2.31%.

The signed new agreement is more profitable than the agreement signed in 1994 and is more beneficial for Azerbaijan. And so, the signing of the new agreement is considered as the beginning of the new era in the development of Azeri-Chirag-Gunashli oil field and the historic day.

In 1994, when the “Contract of the Century” was signed, the bonus was supposed to be paid, and then the Azerbaijani government was paid $ 300 million. But, of course, the bonus is not paid once. The current bonus is 12 times more than 23 years ago - $ 3.6 billion. Usually after the contract is concluded, initial tranche is given from bonus and then paid in the form of tranches in accordance with the contractual arrangements.

BP is the operator of large oil and gas fields in the sea. Onshore Company manages one of the world's largest complex oil and gas processing terminals (Sangachal), as well as pipelines linking it with the region and the world markets.

Shah Deniz (SD) gas field was discovered in 1999. The bed is located in an area 70 km away from the shore to the sea, where water depths range from 50 to 600 meters. The thickness of its productive layer is more than 1000 meters and its length is 22 kilometers. Geologically complicated SD has very high pressure and many productive lay horizons. Shah Deniz Stage 2 (SD2) is a huge project that will deliver gas from Azerbaijan to Turkey and Europe. This project will strengthen the gas supply and energy security of European markets by opening a new Southern Gas Corridor. SD-2 is one of the world's largest gas development projects.

Oil is the most valuable asset of Azerbaijan. The oil, which has played an important role in our economy since the beginning of its production, is still the main source of the country's main source of income and export goods. After gaining independence, the medium and long-term prospects for the development of the country were directly dependent on the strengthening of the oil sector. Revenues from oil sales continue to play a key role in solving many social and economic problems.

With the signing of the “Contract of the Century” established the foundation for the future economic development of Azerbaijan. Since the first contract was signed up today , $ 33 million has been invested to ACG and Azerbaijan has earned more than $ 125 billion in direct profits by producing 440 million tons of oil[4].

The entry of foreign currency into the country required the establishment of the State Oil Fund. A number of state-funded projects have been financed through the Fund, and this process continues:

• Transfers to the state budget - 88 576.0 million manat

• Improvement and settlement of social and living conditions of refugees and internally displaced persons - 2 302.7 million manat

• Oghuz-Gabala-Baku water pipeline project - 779.6 million manat

• Reconstruction of Samur-Absheron irrigation system - 1 469.6 million manat

• Financing of the State Investment Company's authorized capital - 90,0 million manat

• Baku-Tbilisi-Kars railway project - 748.6 million manat
• State Program on Education Abroad - 212.7 million manat
• Construction of “Star” oil-processing complex - 1,663.3 million manat
• Financing of SOCAR's share in the ACG project - 87.6 million manat
• Southern Gas Corridor -1 530.3 million manat
• Transfer to Central Bank of Azerbaijan - AZN 3 949.5 million manat and so on.

Certainly, the Company’s activity in Azerbaijan can not be limited to only economic aspects.

BP's goal is to create and maintain a positive business environment where employees behave with respect and dignity and are able to fully complement their potential. Properly selecting the right people to achieve this goal is a prerequisite. There is a commitment to allowing everyone to work for the recruitment and promotion of the Company.

The “Contract of the Century” states that Azerbaijani citizens have the right to use medical insurance and other social privileges as foreign citizens. For example, as part of a social package of privileges in Azerbaijan, the Loan Support Program is intended to assume the employee's debt obligations to the bank.

The main purpose of the Loan Support Program is :

- To extend the privileges package of local employees of BP Azerbaijan and ensure the level of competitiveness;;
- Motivate employees by giving loan and contribute to their stay in the company;
- Involve talented employees to the organization.

This support applies to loans received for the following reasons:

• Purchase of Apartment / House (within the territory of the Republic of Azerbaijan only);
• Construction of houses (within the territory of the Azerbaijan Republic only);
• Renovation of the apartment / houses (within the territory of the Azerbaijan Republic only);
• For education of employee’s children under 18 years of age [1, p. 100].

The project envisages providing services to detect disability and developmental retardation in children as early as possible so that appropriate assistance can be provided. The work under this project encompasses the creation of early intervention centers, training for early intervention specialists, and the creation of conditions for parents to actively participate in the development of their children and the public's awareness of the importance of early intervention.

Senior employees are directly responsible for the Code of Support for the BP's Zero-tolerance principle. When it is necessary to speak freely, the greatest fear of workers is often the result. BP's OpenTalk Global Assistance is a confidential tool for both employees and third parties to raise concerns. This helpline, operated by an independent company, works every day, day and night at any time and accepts calls in more than 75 languages. Issues raised through OpenTalk are provided for evaluation and, where relevant, for taking action.

Some of the recent geological explorations in Azerbaijan have been near the Absheron National Park in the country. It is an area of about 75 species of flora and fauna that are internationally preserved. Among these species there are also Caspian seals.There is a risk of extinction of this type that migrate twice a year. As part of its work, the company is conducting seismic surveys in the Caspian Sea to create a spectacular view of the geological structure of thousands of feet of the sea.

BP regularly reports to communities located along the route of the Baku-Tbilisi-Jeyhan (BTJ) and the South Caucasus Pipeline (SCP) and explores issues that worry them. In order to achieve this purpose, the company uses many forms, ranging from distribution of educational resources and formal inquiries and community-level questions or complaints. Responsible employees condust public consultation and review community complaints and suggestions.

In addition, the Company has started social infrastructure projects in various communities in 2017:

• restoration and capital repair of five kindergarten buildings in Aghstafa, Shamkir and Tovuz districts
• Purchase and installation of furniture for eight kindergartens in Yevlakh, Ujar, Aghstafa,

Shamkir and Tovuz districts

The company started the project "Sweet gold" in December 2017. The goal of the project is to increase the revenues of communities in Azerbaijan affected by oil transportation. Additional 600 beekeepers will be trained in six districts along the BTJ and SCP pipelines - Yevlakh, Samukh, Goranboy, Shamkir, Tovuz and Agstafa. As a result of the project, it is also expected that 60,000 trees will be planted as a source of nectar for honey bees[4].

At the same time, the Company acts as an official partner with the National Olympic and Paralympic Committees. This includes sponsorship of the Azerbaijan National Olympic and Paralympic Team and a team of athletes. BP was proud to be the official partner of Baku Fourth Islamic Solidarity Games held on May 12 - 22. This partnership was part of BP's commitment to promoting sport in Azerbaijan and completed the company's long-term successful partnership with Azerbaijan's National Olympic and Paralympic Committees.

In general, the benefits that the alliance with foreign oil companies bring to Azerbaijan can be summarized as follows:

- The "Contract of the Century" provided beautification of the capital of Baku, the regions of the country, in whole Azerbaijan, the realization of large social projects, and established Oil Fund for our contemporaries and future generations.
- create the opportunity to modernize oil industry assets and modernize oil and gas industry in Azerbaijan with the introduction of modern exploration, oil extraction, utilization and transportation technologies;
- Increased oil production as a result of signed contracts has resulted in considerable increase in budget revenues;
- Increased oil and natural gas production has resulted increase in employment and the implementation of new infrastructure projects;
- Realization of projects such as "Entrepreneurship Development and Training", "Loan support program", "Environment and its monitoring", "Culture of speaking freely", development initiatives, working with communities, support of education, culture and sport is part of the commitment undertaken by BP within the framework of the "Contract of the Century" that is still being successfully implemented currently.

## LITERATURE


1. "Contract of the Century", Baku, 20 September, 1994, http://e-qanun.az
2. Mikayilova N.Y., Azərbaycan iqtisadiyyatı, Dərslik, Bakı:2018
3. https://www.bp.com/az_az/caspian/aboutus.htm
4. https://www.oilfund.az/
5. https://www.milli.az/



***Nurəngiz Yanvar qızı Mikayılova***
***i.f.d., dosent Azərbaycan Əmək və Sosial***
***Münasibətlər Akademiyası***
***ORCİD-İD: 0009-0004-9697-6127***
***nurengiz.mikayilova@mail.ru***


## Azərbaycanın sosial-iqtisadi inkişafında BP şirkətinin rolu


***Xülasə***

Məqalədə Azərbaycanda neft sənayesinin tarixindən, müstəqillik qazandıqdan sonra BP şirkətinin bu sənayeyə inteqrasiya etməsindən və əldə olunan müsbət nəticələrdən bəhs olunur. Eyni zamanda BP Şirkətinin Azərbaycanın sosial-iqtisadi həyatında rolu araşdırılmış, tərəfdaşlıq etdiyi müddətdə BP tərəfindən Azərbaycana qoyulan investisiyalar müəyyənləşdirilmişdir. Eyni zamanda məqalədə BP şirkətinin Azərbaycandakı fəaliyyətinin nəzərə çarpmayan bəzi tərəfləri təhlil edilmiş, sonda Şirkətin ölkəyə verdiyi faydalar haqqında ümumiləşmələr aparılmışdır.



***Açar sözlər: BP şirkəti, iqtisadi inkişaf, sahibkarlığın inkişafı, sosial layihələr, ətraf mühit.***

***Нурангиз Январ кызы Микаилова***
***канд. экон. наук, доц. Азербайджанская Академия***
***Труда и Социальных Отношений***
***ORCİD-İD: 0009-0004-9697-6127***
***nurengiz.mikayilova@mail.ru***

**Роль BP в социально-экономическом развитии Азербайджана**

***Резюме***

В статье говорится об истории нефтяной промышленности в Азербайджане, интеграции в эту промышленность впоследствии компании БП и о полученных положительных результатах. Одновременно была расследована роль компании БП в социально-экономической жизни Азербайджана, были определен инвестиции, вложенные в Азербайджан со стороны компании БП. В то же время были проанализированы некоторое невидимые стороны деятельности компании БП в Азербайджане. В конце проведены обобщения о выгодах, данных компанией стране.

***Ключевые слова: Компания BP, экономический рост, развитие предпринимательства, социальные проекты, окружающая среда.***

**UOT-3.336.71**

***Aytən Səfəralı qızı ZEYNALOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***"Maliyyə və bank işi" kafedrasının dosent***
***əvəzi, iqtisad üzrə fəlsəfə doktoru***
***ayten_zeynalova1975@mail.ru***

**BANK SEKTORUNDA XİDMƏTLƏRİN TƏŞKİLİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ**

***Xülasə***

İqtisadiyyatda bankların rolu artmış və onların xidmətləri həm fiziki, həm də hüquqi şəxslər tərəfindən kütləvi şəkildə istifadə olunur. Respublikada bank xidmətləri bazarının özünəməxsus xüsusiyyətləri və inkişaf istiqamətləri məqalədə göstərilmişdir.

***Açar sözlər: bank xidmətləri, informasiya texnologiyaları, bank xidmətləri bazarı, ictimaiyyətlə əlaqələr, internet*.**

***

XX əsrin 2-ci yarısından sonra dünyada texnologiyalar daha da sürətlə inkişaf etməyə başladı. Texnoloji dəyişikliklər qlobal həyatın bütün sahələrini, o cümlədən iqtisadi sferaları da əhatə etdi. Təbii ki, belə şəraitdə informasiya-kommunikasiya texnologiyalarının müxtəlif nümunələri bankların səmərəli fəaliyyət göstərmələri üçün tətbiq edilməyə başlandı.

Azərbaycanda bazar münasibətlərinin inkişafı, konkret xidmətlərə tələbatın yaranmasında istehlakçının artmaqda olan rolu, bankların idarə sisteminə, bank məhsullarının satış həcminin artmasına, mövcud xidmətlərin mükəmməlləşdirilməsinə, eləcə də hesabat və digər sənədlərin müştəriyə ötürülməsi sahəsində yeni texnologiyaların tətbiq edilməsinə yeni tələblər irəli sürür. [2. s.178]

Azərbaycanda bank əməliyyatlarının avtomatlaşdırılma səviyyəsi sürətlə inkişaf edir. Banklar yeni avtomatlaşdırılmış bank sistemləri, kontakt mərkəzləri, onlayn xidmətlər (internet-banking, sms-banking və s.) kimi yeni sistemlər tətbiq edir. Bütün bu vasitələr bank-müştəri qarşılıqlı münasibətlərinin möhkəmlənməsinə və inkişafına xidmət edir.

Çox çevik bir inkişafa malik olan bu sahənin ən son nailiyyətlərinin tətbiqi aşağıdakı əsas şərtlərdən meydana gəlir:

- Yeni texnologiyaların tətbiqi bankın məhsul və xidmətlərini müştərilərə mümkün qədər ya-

xınlaşdırır;

- Müasir texnologiyaların istifadə edilməsi insanlara vaxt, maliyyə və digər resursları daha səmərəli istifadə etməyə imkan yaradır.

Bankların fəaliyyətinə aidiyyatı olan texnologiyaların yerli banklarda istifadə edilməsi və onların mütəmadi olaraq yenisi ilə əvəz edilməsi müştərilərə xidmət göstərməkdə geniş imkanlar açır, eyni zamanda bankın fəaliyyətini operativ və fundamental təhlil etməyə imkan verir. Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyalarını tətbiq etməklə banklar əməliyyatların dövriyyəsini artırmaq, digər tərəfdən əməliyyat xərclərini azaltmaq imkanı əldə etmiş olur. Bütün bunlarla yanaşı, ölkədə rabitə tariflərinin digər ölkələrlə müqayisədə baha olması sahibkarların işinə mənfi təsir göstərir. Bankın inzibati xərclərini artırır ki, bu da sonda müştərilərə təqdim edilən xidmət və məhsulların maya dəyərinə təsir edir.

Bank xidmətləri bazarının inkişafı bu bazara təqdim olunan informasiya texnologiyası xidmət və məhsullarının həcm və çeşidinin artmasını şərtləndirməklə yanaşı, bu sahədə rəqabəti də gücləndirir. Bu rəqabət banklara daha keyfiyyətli və geniş çeşiddə informasiya texnologiyası xidmətlərini daha sərfləli şərtlərlə almağa və keyfiyyətli dəstək tələb etməyə imkan verir, digər tərəfdən isə, yerli informasiya-kommunikasiya texnologiyaları xidmətləri bazarının iştirakçılarının da inkişafını stimullaşdırır.

Sahibkarlığın və əhalinin maliyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi məqsədilə banklar tərəfindən təklif edilən kredit məhsulları üzrə faizlərin, o cümlədən digər bank xidmətləri üzrə tariflərin daima nəzarət altında olması bank məhsulları və xidmətləri bazarının inkişafının əsas şərtlərindəndir.

Əhalinin, sosial baxımdan aztəminatlı kateqoriyadan olan insanların maliyyə və xüsusilə sosial ödənişlər üzrə xidmətləri daha ucuz əldəetmə yolları daima diqqət mərkəzində olmalıdır ki, bazarın inkişafı təmin edilsin. Bu zaman bank fəaliyyətinin özünün də xərcləri və onun strukturu, bank məhsulları və xidmətlərinin maya dəyərinin azaldılması baş verəcəkdir. Həmçinin banklar girovların realizasiyası, bunun üçün tələb olunan müddət və xərclər məsələsi, girov mexanizminin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamalı və bu barədə məlumatı ictimaiyyətə çatdırmalıdır.

Əhalinin və sahibkarların bank xidmətləri barədə məlumatlandırılması səviyyəsinin artırılması, onlara ətraflı izahat verilməsi bank məhsul və xidmətlərindən məqsədəuyğun şəkildə və ondan mənfəət əldə etməklə istifadəsinə şərait yaradır. Eyni zamanda, bank-müştəri münasibətlərində şəffaflıq prinsiplərinə əməl olunması, bank əməkdaşlarının etik davranış səviyyələri, müştərilərlə rəftarda yüksək korporativ mədəniyyət nümayiş etdirilməsi bu və ya digər banka müştərilər tərəfindən daha çox axının olmasına gətirib çıxaracaqdır.

Bank məhsul və xidmətləri bazarının inkişaf istiqamətlərindən biri də bank sektoru tərəfindən xidmətlərin daha müasir texnologiyalar əsasında həyata keçirilməsi, avtomatlaşdırma səviyyəsinin artırılması, müştərilərlə fiziki təmasın minimallaşmasıdır.

İnkişafa nail olmaq üçün banklar öz məhsul və xidmətlərinin çeşidini artırır, geniş əhali kütləsinin və müxtəlif iqtisadi fəaliyyət sektorlarının tələbatlarını ödəyən məhsullar təklif edirlər.

Banklar sosial məsuliyyətlərini artırmaqla, biznes icmasında və cəmiyyətdə maliyyə mədəniyyətinin və şəffaflığının yüksəldilməsinə çalışmaqla bank sektorunun, bank məhsulları və xidmətləri bazarının mütəmadi inkişafına nail olurlar.

Bank məhsulları və xidmətləri bazarının mühüm inkişaf istiqamətlərindən biri də nağdsız ödənişlərin genişləndirilməsidir. Mərkəzi Bank, banklar və aidiyyəti iqtisadi qurumlar birlikdə iqtisadi subyektlərin yaradılmış ödəniş infrastukturundan aktiv istifadə etmələri üçün fəal iş aparırlar.

Əhali isə ödənişləri rahat və təhlükəsiz xidmət vasitəsi ilə həyata keçirir. Banklar nağdsız ödənişlər üzrə stimullaşdırıcı fəaliyyətə keçir, əqdlərin daha sərfəli qiymətlə aparılmasına çalışır, müştərilərə təklif edilən texnoloji infrastrukturu daha da genişləndirir və təkmilləşdirirlər.

Bank xidmətləri bazarı müasir bazar iqtisadiyyatının mühüm və ayrılmaz tərkib hissələrindən biridir. Ona görə də, bu gün bank sistemlərinin fəaliyyətinin müxtəlif aspektlərinə və onların idarə edilməsi metodlarına maraq artmaqdadır. Banklar tədricən kapitalın bölüşdürülməsi, təsərrüfat fəaliyyətinin diversifikasiyası proseslərində başlıca vasitəçiyə çevrilir, eyni zamanda, onlar mühüm iqtisadi və maliyyə informasiyasının daşıyıcılarıdır.

Hər bir bankın qarşısında duran mühüm vəzifə istehlakçıların etibarını qazanmaqdır. Bunun üçün bankın imici formalaşmalıdır. Bankın imici – bank haqqında müştərilərdə və ictimaiyyətdə olan şüurlu, kortəbii təsəvvürlərin və obrazların məcmusudur. Əgər banka etibar yoxdursa, onun müştərisi də olmayacaq. Bank əmanətçilərdən (fiziki və hüquqi şəxslərdən) müvəqqəti sərbəst pul vəsaitlərini cəlb etməklə maliyyə vasitəçisi funksiyasını yerinə yetirir. Banka əmanətini etibar edən şəxs bankın fəaliyyət müddətinə, təqdim etdiyi xidmətlərin keyfiyyət və kəmiyyətinə, onun etibarlılığına diqqət yetirir. Bunun üçün potensial əmanətçinin banka öz pul vəsaitlərini etibar etməsi üçün bankın müsbət nüfuzunun yaradılması mütləqdir. İstehlakçı istehsalçıdan məlum olmayan malı ala bilər, lakin heç vaxt ona tanış olmayan bankda əmanətini yerləşdirməz.

Ölkənin bazar iqtisadiyyatının inkişafında yeni bank sisteminin rolu banklar və onların müştəriləri, eləcə də müxtəlif banklar arasında qurulan qarşılıqlı münasibətlərlə, həmçinin bank xidmətləri bazarının formalaşması, faiz siyasəti və bankların digər fəaliyyətləri ilə müəyyən edilir.

Bank xidmətlərinin inkişafında marketinqin rolu da önəmlidir. Bank marketinqi ciddi hazırlıq, dərin və hərtərəfli analiz, rəhbərlikdən tutmuş aşağı həlqələrə qədər bankın bütün bölmələrinin fəal işini tələb edən bank strategiyası və fəlsəfəsidir. Müasir marketinq çərçivəsində bankla müştəri arasında münasibətlər dəyişir. Əgər əvvəllər bank standart bank məhsulları toplusu təqdim edirdisə, hazırda o, daim konkret müştəri qruplarına – iri firmalar, xırda müəssisələr, ayrı-ayrı kateqoriyalardan olan fiziki şəxslər və s. üçün yeni xidmət növləri işləyib hazırlamalıdır.

İnkişaf etmiş ölkələrdə əhalinin bank əməliyyatları ilə əhatə edilməsi daha yüksəkdir. Ev təsərrüfatlarının 80%-ə qədəri artıq bankların müştəriləridir, cari və əmanət hesabları, kredit kartları vardır. Bununla yanaşı, banklar artıq mövcud olan müştərilərinə yeni xidmət növləri təkliflərini genişləndirir. Konkret əməliyyatları həyata keçirmək üçün banka müraciət edən insanlar həmişə əlavə və ya qarışıq xidmət növlərinin potensial alıcıları kimi çıxış edirlər. Məsələn, əgər müştəri bankdan yol çekləri və ya xarici valyuta alırsa, ona xarici səfər zamanı sığorta üzrə xidmətlər təklif etmək olar. Son onillikdə banklar müştərilərə xidmət üçün kütləvi miqyasda elektron texnikadan istifadə edirlər. Xüsusilə, fərdi kompüterlərdən və internetdən istifadə geniş yayılmışdır.

Hazırkı dövrdə ölkəmizdə də bankların təqdim etdiyi onlayn xidmətlərdən yararlanaraq evdən və ya hansısa bir məkandan çıxmadan sürətli və etibarlı pul köçürmələri, kredit ödənişləri etmək, kart sifarişi vermək, arayış və çıxarışlar almaq hər zamankından daha asan və sürətlidir. Kartdan karta pul köçürmələrini, kommunal və stasionar ödənişlərini onlayn şəkildə etmək olar. Nağd pulu hesablar arasında və ya xarici hesablara sürətli şəkildə köçürmək olar. Ödəniş etmək üçün müxtəlif mobil tətbiqlərdən və ya bankların veb saytından istifadə olunması yetərlidir. Online ödəmə xidmətindən istifadə etmək üçün sadəcə şəxsi hesaba daxil olmaq yetərlidir. Həmçinin, online ödəniş sistemi ilə əməliyyatları yadda saxlayaraq növbəti ödənişləri daha sürətli etmə imkanından yararlanmaq olur. Kredit ödənişlərini və ya kredit sifarişlərini məkandan çıxmadan yerinə yetirmək mümkündür. Kredit hesabındakı qalıq vəsaitin miqdarını öyrənib onlayn ödənişlər həyata keçirmək mümkündür. Mobil tətbiqi və bankların saytları vasitəsi ilə bank əməliyyatlarını günün istənilən vaxtında növbə gözləmədən həyata keçirmək mümkündür. Onlayn bank xidmətləri ilə hesab tarixçəsinə və əməliyyatlara daxil olaraq ödənişləri rahatlıqla incələmək mümkündür. Sistem şəxsi məlumatları gizli saxlamaq və icazəsiz girişin qarşısını almaq üçün yüksək təhlükəsizlik sistemləri ilə qorunur.

Sosial amilin rolunun artdığı müasir şəraitdə bank daha çox bank işçisinin yeni düşüncəsi vasitəsilə məqsədyönlü sosial siyasətin və konkret texniki üsulların birləşdirilməsi kimi izah edilir. Yeni yanaşmanın əsasında "hər şey müştəri üçün" prinsipi durur. Bank müştəri üçün, onun nəzərdə tutulan mənfəəti götürməsi üçün tam məsuliyyət daşıyır.

Prioritet ardıcıllıqla ilk növbədə müştərinin mənfəəti, sonra isə bankın maraqları olmalıdır. Kommersiya bankının müştəriyə oriyentasiyası uğura aparan başlıca amildir. Müştəri həmişə haqlıdır. Bankın davranışının əsl müasir fəlsəfəsi olmalıdır. Xüsusən də, müştəri ilə münasibətlərdə bank işçisi danışıq aparan adi nümayəndə kimi deyil, daha çox müştərinin bankla tərəfdaşlıqdan maksimum qazanc əldə etməsində maraqlı olan ixtisaslı məsləhətçi kimi çıxış etməlidir.

İstər bank, istər sığorta, istərsə də broker kontoru və ya investisiya fondu olsun, maliyyə sektorunda ictimaiyyətlə əlaqələr – bilavasitə firma ilə müştərilər arasında daimi münasibətdir. İctima-

iyyətlə əlaqələr bankın inkişafı üçün güclü alətdir, lakin maliyyə sahəsində ictimaiyyətlə əlaqələrin peşəkar həyata keçirilməsi vacib işlərdəndir. Belə ki, düşünülməmiş kampaniya bankın nüfuzuna xələl gətirə bilər və müştəriləri qaçıra bilər. Bunun üçün banklarda ictimaiyyətlə əlaqələr, yəni PR (public reations) xidmətlərinin təşkili mütləqdir.

PR-xidmətlərin vəzifələri müxtəlif ola bilər: ictimai rəyin öyrənilməsi; bankın missiyasının dürüst ifadəsi və onun müsbət obrazının irəli çəkilməsi; informasiya axınlarının idarə edilməsi; kütləvi tədbirlərin keçirilməsi; xeyriyyəçilik fəaliyyəti və bir çox başqa işlər.

Banklar haqqında nəşrlər bank məhsulları və xidmətlərinin xüsusiyyətləri barədə ətraflı danışmağa, bu və ya digər məsələ üzrə bankın mövqeyini ətraflı şərh etməyə geniş imkan verir. Şəxsi ünsiyyət bu bazarda böyük rol oynayır, odur ki, maliyyə şirkəti rəhbərlərinin şəxsi imici PR-in ən mühüm vasitələrindən biridir.

İctimaiyyətlə əlaqələr sahəsində banklar müxtəlif üsul və metodlardan istifadə edir: ad günü təbrikləri, güllərin, VİP müştərilərə isə hədiyyələrin göndərilməsi və s. Önəmli müştərilərə bankdan illik maliyyə hesabatının və müxtəlif informasiya broşurlarının təqdim olunması tövsiyə olunur.

İctimaiyyətlə əlaqələr sayəsində əsas müraciət kimi etibarı yaymaq, bankın pozitiv imicini və etibarlı reputasiyasını yaratmaq və saxlamaq, cəmiyyətin inamını formalaşdıran bank şəffaflığını qorumaq, informasiyanın təqdim edilməsi zamanı düzgün və ehtiyatlı olmaq, öz bank xidmətlərini birinci dərəcəli mövqedə yerləşdirmək mümkündür.

Uzun müddət birbaşa reklam alətləri bank məhsulunun yeridilməsi üçün əsas vasitə olmuşdur. Müasir dövrdə kütləvi informasiya vasitələri ilə savadlı qarşılıqlı münasibət olmadan bank sistemində müsbət imicin formalaşması mümkün deyil. Məsələn, şirkət rəhbəri ilə müsahibə şirkət haqqında informasiya yaymağın ən təsirli üsullarından biridir. Bundan başqa, güclü, tanınan lider müsbət ictimai rəy formalaşdırır.

Bank PR-in başqa sahələrin PR-indən fərqi bank xidmətinin spesifikası ilə şərtlənir. Bir tərəfdən, onun əldə edilməsi haqqında qərar reklam obrazının təsiri ilə qəbul edilməsi üçün olduqca mürəkkəbdir, digər tərəfdən isə, onun "həqiqi istehlak dəyərinin" hesablanması və müqayisəsi adi məişət mallarından daha asandır.

Müasir bankı qarşılıqlı hesablaşmaların kompüter sistemləri, kredit kartlarının avtorizasiya sistemləri və s. kimi qabaqcıl informasiya texnologiyaları olmadan təsəvvür etmək olmaz. Ən sürətlə inkişaf edən texnologiya – qlobal internet şəbəkəsi banka potensial müştərilərin daha geniş dairəsini əhatə etməyə, xidmətin səviyyəsini yüksəltməyə unikal imkan yaradır. Banklar öz xidmətləri barədə informasiyanı web-səhifələrdə yerləşdirərkən, öz iş saatlarını faktiki olaraq gündə 24 saata qədər uzadırlar, belə ki, bu məlumat qlobal KİV – internet istifadəçiləri üçün istənilən vaxt yetərlidir.

İnternet-bankinq bank xidmətlərinin internet vasitəsilə əldə edilməsi sistemidir. İnternet vasitəsilə bank xidməti XX əsrin 90-cı illərinin ortalarında ABŞ-da həyata keçirilsə də, maliyyə biznesinin aləti kimi internetə maraq bütün dünyada sürətlə artmaqdadır. [1. s. 570]

Bir çox xarici banklar artıq çoxdan internetin funksional imkanlarının geniş spektrindən müvəffəqiyyətlə istifadə edir. World wide web-də bank səhifələrinin sayı 700 mini aşmışdır. Bu gün Qərbdə fərdi və korporativ internet istifadəçiləri bu sistemin köməyilə korporativ və ya şəxsi hesab açır, onu idarə edir, kredit kartından və ya hesabdan ödənişlər edir, qiymətli kağızlar alıb-sata bilir, özləri və xidmətləri barədə çoxlu miqdarda informasiya təqdim edə bilir və s. Bank müştərilərinin böyük təbəqəsi biznesin aparılmasının müasir metodlarından və internetin imkanlarından istifadə edən 25-40 yaşında insanlardır. Hər hansı konkret maliyyə müəssisəsindən istifadə üzərində dayanmazdan əvvəl bank haqqında ümumi məlumatlarla maraqlanırlar (maliyyə hesabatları, investisiya layihələrində iştirak, səhmdarlar, müştərilər, depozit müqavilələrinin şərtləri, kredit alınması şərtləri haqqında ətraflı informasiya, maliyyə göstəriciləri və mətbuatda dərc olunan yazılar əsasında son illər ərzində bankın inkişaf dinamikası və s.). Bankların web-səhifələrində məhz bu cür ətraflı informasiya yerləşdirilməlidir.

İnternetin perspektiv imkanlarından biri elektron hesablaşma sistemidir (Online Banking). Müştəri öz hesabını istənilən vaxt, evdən, işdən, hətta xarici ölkədən belə idarə etmək imkanı qa-

zanır. O, banka gəlmək, növbədə durmaq zərurətindən azaddır. Bu sistem müştərilərin məmnunluq səviyyəsini yüksəldir, bank xidmətinin keyfiyyətini artırır. Bundan əlavə, qeyd etmək lazımdır ki, özünün saytının olması bankın müasir, dinamik, özünə güvənən və etibarlı olması təsəvvürü yaradır.

İnternetdən nəinki müştərilərlə, həmçinin KİV, bankın səhmdarları, dövlət və ictimai qurumlarla ünsiyyət vasitəsi kimi istifadə oluna bilər.

Sonda onu demək olar ki, Azərbaycanın bank sahəsində daha mütəşəkkil və sistemli ictimaiyyətlə əlaqələrdə fəaliyyətə meyil özünü göstərməkdədir. Yerli bankların PR xidmətləri müəssisələrin imicinin formalaşması və bankın peşəkar fəaliyyəti üçün əlverişli mühitin yaradılması ilə fəal məşğul olurlar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında elektron bankçılıq xidmətlərinin göstərilməsinə və bu xidmətlər üzrə təhlükəsizliyin təmin olunmasına dair metodoloji rəhbərlik. 21 dekabr 2015-ci il
2. Məhərrəmov A.M., Qarayev F.M., Sarıyev K.A. və başqaları “Bank işi”. Bakı, 2019. 687s.
3. Sadıqov E. Bank əməliyyatları. Bakı, 2010. 210s.



***Айтен Сафарали кызы Зейналова***
***Азербайджанский Университет Кооперации***
***“Финансы и банковское дело” Заместитель***
***доцента кафедры, доктор философии по экономике***
***ayten_zeynalova1975@mail.ru***


## Организация услуг и направления развития в банковском секторе


***Резюме***

Возросла роль банков в экономике, их услугами массово пользуются как физические, так и юридические лица. В статье показаны уникальные характеристики и направления развития рынка банковских услуг республики.



***Ключевые слова: банковские услуги, информационные технологии, рынок банковских услуг, связи с общественностью, интернет.***



***Ayten Safarali Zeynalova***
***Azerbaijan Cooperation University “Finance and banking”***
***Deputy docent of the department, doctor of philosophy in economics***
***ayten_zeynalova1975@mail.ru***


## Services organization and development directions in the banking sector


***Summary***

The role of banks in the economy has increased and their services are widely used by both individuals and legal entities. The unique features and development directions of the market of banking services in the republic are shown in the article.



***Key words: banking services, information technologies, banking services market, public relations, internet.***

UOT - 3.33

*Nərgiz Şamil qızı XALIQOVA*
*i.f.d., Azərbaycan Kooperasiya Universitetinin*
*"Maliyyə və bank işi" kafedrasının dosent əvəzi*
*nara_xaliqova@mail.ru*

# AZƏRBAYCANIN AQRAR SEKTORUNDA MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

Kənd təsərrüfatı ölkə əhalisini əsas ərzaq məhsulları ilə təmin etdiyinə görə, bu sahənin iqtisadiyyatdakı rolu və əhəmiyyəti çox böyükdür. Aqrar sektor bütövlükdə ölkə iqtisadiyyatının tərkib hissəsidir və ümumi tendensiyaların təsirinə məruz qalır. Eyni zamanda, aqrar sahəyə investisiya qoyuluşlarında da rast gəlinən özünəməxsus xüsusiyyətləri var. Bu məqalə mövcud iqtisadi şəraitdə kənd təsərrüfatı sektoruna investisiya qoyuluşunun ən son tendensiyalarının və xüsusiyyətlərinin açıqlanmasına həsr edilmişdir. Həmçinin, son illərdə Azərbaycan Respublikasında aparılan aqrar islahatlar təhlil edilmiş, sahənin inkişaf perspektivləri nəzərdən keçirilmişdir.

***Açar sözlər: aqrar sahə, modernizasiya, investisiyalar, qeyri-neft sektoru, kənd təsərrüfatı.***

***

Kənd təsərrüfatı sektorunun iqtisadiyyatdakı rolu əvəzsiz və çox əhəmiyyətlidir. Bu sahə hər hansı bir dövlətin iqtisadiyyatında strateji mövqe tutur, çünki kənd təsərrüfatı vətəndaşları ərzaq və zəruri mallarla fasiləsiz təmin edən əsas məhsuldar sistem kimi çıxış edir ki, onsuz yaşamaq mümkün deyil. Belə ki, kənd təsərrüfatı ölkə əhalisini insanların həyat keyfiyyətinin və sağlamlığının asılı olduğu məhsullarla təmin edir. Məhz buna görə də, aqrar sahənin inkişafı dövlətin iqtisadi təhlükəsizliyinin təminatı hesab edilir.

Bundan əlavə, inkişaf etmiş kənd təsərrüfatı sektoru kənd sakinləri üçün iş yerlərinin sayının artmasına kömək edir. Aqrar sektorun rolunun göstəriciləri həm də kənd təsərrüfatında məşğul olan fəal əhalinin faizi, eləcə də ümumi daxili məhsulun strukturunda payıdır. Beləliklə, vətəndaşların rifah səviyyəsi dövlətin iqtisadiyyatının aqrar sektorunun inkişafından asılıdır. Bu parametrlər kənd təsərrüfatı istehsalının vəziyyətini əks etdirir. Onlar bir sıra amillərdən, o cümlədən, dünya iqtisadi siyasətindən, eləcə də kəndlilərə dövlət dəstəyinin səviyyəsindən asılı olaraq hər il dəyişir.

Yuxarıda deyilənləri nəzərə alaraq, heç təsadüfi deyil ki, dövlət tərəfindən aqrar sahəyə və onun inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bu məqsədlə hər il dövlət büdcəsindən kənd təsərrüfatına ayrılan vəsaitin məbləği ötən ilə nisbətən daha yüksək olur. Hələ respublikamızın yeni müstəqillik əldə etdiyi illərdə Ümummilli liderimiz, Ulu öndər Heydər Əliyev öz siyasi xəttində kənd təsərrüfatına xüsusi dövlət dəstəyinin zəruriliyini vurğulayırdı. Məhz zamanında Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və günümüzdə ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən müsbət aqrar siyasətin nəticəsidir ki, ilbəil aqrar sahənin göstəricilərində ötən illərə nisbətən artım müşahidə edilir.

Aqrar islahatların başlanması aqrar-sənaye kompleksi sistemində iqtisadi mexanizmin əsas ünsürlərindən olan qiymət sisteminin də təkmilləşdirilməsini tələb edirdi. Belə ki, artıq mərkəzləşdirilmiş, planlı təsərrüfat sistemi şəraitində tətbiq edilən qiymətlər bazar münasibətləri şəraitinə uyğun gəlmirdi [3, s.37]. Bu səbəbdən də, mövcud iqtisadi şəraitdə aqrar islahatların həyata keçirilməsi artıq bir zərurətə çevrilmişdir.

Son illər ölkəmizdə aparılan sistemli islahatlar və yüksək dövlət dəstəyi sayəsində kənd təsərrüfatı məhsullarının istehsalının göstəriciləri durmadan artır. Bu nəticələr yerli istehsal hesabına daxili bazarda təkliflərin artmasına şərait yaratmaq, özünütəminat səviyyəsini yüksəltmək, fermerlərin gəlir əldə etmək imkanlarını yaxşılaşdırmaqla yanaşı, qeyri-neft ixracının da artmasına mühüm töhfə verir.

Azərbaycanda aparılan genişmiqyaslı aqrar islahatlar sayəsində kənd təsərrüfatında artım templəri sabitdir. 2003-2017-ci illərdə bütövlükdə kənd təsərrüfatı məhsullarının real artımı 166,4 faiz, o cümlədən bitkiçilikdə 156,7 faiz, heyvandarlıq sektorunda isə 177,8 faiz təşkil etmişdir. Dünya

Bankının məlumatına görə, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sektorunun real artımı dünya üzrə orta göstəricidən, eləcə də region ölkələrinin müvafiq göstəricisindən yüksək olub.

Kənd təsərrüfatı sahəsində dinamik inkişaf tendensiyası 2018-ci ildə də davam etmiş, kənd təsərrüfatı məhsullarının ümumi həcmi ötən illə müqayisədə 4,3 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 5,8 faiz, heyvandarlıq məhsulları istehsalı isə 2,7 dəfə artmışdır.

Ölkədə aparılan uğurlu aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şəraiti formalaşmış, işgüzar fəallıq xeyli artmışdır. Bu da işçilərin sayının və investisiyaların artmasına təsir edib.

Ölkədə yerli istehsal potensialının gücləndirilməsi və rəqabət qabiliyyətinin artırılması ilə özünü ərzaq məhsulları ilə təminetmə səviyyəsi xeyli yüksəlmişdir. Əgər Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35% idisə, hazırda 90%-ə yaxındır. Bütün növ tərəvəz və meyvələrlə özünütəminetmə səviyyəsi 100%-i ötür.

Aqrar sistemin təkmilləşdirilməsi və modernizasiyası məqsədilə müxtəlif proqramlar hazırlanır. Onların çərçivəsində kənd təsərrüfatı müəssisələri maddi-texniki bazalarını yeniləmək üçün dövlətdən vəsait ala bilərlər. Yerli istehsal hesabına bir sıra sənaye sahələrində özünütəminat səviyyəsinin yüksəldilməsi, inkişafın və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyinin artırılması ilə müvafiq sahələrdə proqram yanaşmasının tətbiqi və məqsədyönlü siyasi fəaliyyət mexanizminin yaradılması, Dövlət başçısının tapşırığına uyğun olaraq heyvandarlığın intensiv inkişafı və otlaq ərazilərindən səmərəli istifadə edilməsi üzrə Dövlət Proqramı, Taxılçılığın inkişafı üzrə Dövlət Proqramı və Toxumçuluğun İnkişafı Proqramı işlənib hazırlanmışdır.

Əgər dövlət iqtisadiyyatın sabit və güclü olmasında maraqlıdırsa, o zaman qanunvericilik və icra hakimiyyətləri səviyyəsində əlverişli investisiya mühitinin yaradılmasına öz töhfəsini verməlidir. Ona görə də kənd təsərrüfatına investisiyaların cəlb edilməsi məsələsi iqtisadiyyatın inkişafında əsas məsələlərdən biri olaraq qalır. Kənd təsərrüfatına investisiya qoyuluşunun özünəməxsus xüsusiyyətləri var. Onlar onda təzahür edir ki, obyektlərə kapital qoyuluşu ilə yanaşı, insan əməyinin nəticələri iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatında da təbiət obyektlərində həyata keçirilir ki, bu da bütün digər bərabər şərtlər altında, onların geri ödəmə müddətini uzun, kapital tutumunu və riskini isə yüksək edir, çünki təbiət öz qanunlarına uyğun yaşayır, onun idarə edilməsi ya qeyri-mümkün, ya da bahalıdır. 2014-2019-cu illər ərzində ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Azərbaycanın kənd təsərrüfatı sektoruna təxminən 5,5 milyon dollar sərmayə qoyub. Agentliyin dollar sərmayəsi nəticəsində fermerlər 75 milyon ABŞ dolları əlavə ixrac imkanları əldə ediblər ki, bunun da bir hissəsi - 25 milyon ABŞ dolları Avropa bazarıdır. USAID direktoru onu da bildirib ki, aqroturizm aqrobiznesin ən maraqlı sahələrindən biridir və Agentlik ilə Azərbaycan arasında nisbətən yeni əməkdaşlıq sahəsidir. [2].

Aqrar islahatların hazırkı mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya, məhsuldarlığın artırılması və fermerlərin maddi rifahının yüksəldilməsi hesabına istehsal xərclərinin azaldılması təşkil edir.

Aqrar sektorun modernizasiyası ölkəmizin bütün kənd təsərrüfatı sisteminin möhkəmlənməsini təmin edəcəkdir. Bu prosesə kənd təsərrüfatı müəssisələrinin ən müasir texnologiya və müxtəlif istehsal proseslərini operativ şəkildə yerinə yetirməsinə imkan verən avtomatlaşdırılmış sistemlərlə təchiz edilməsi daxildir.

2022-ci ilin yekunlarına görə, Azərbaycanda kənd təsərrüfatı sahəsinə verilən kreditlərin həcmi artaraq biznes kreditlərinin ümumi həcminin 22,5%-ni təşkil edib. Azərbaycan Respublikasının aqrar sektoruna verilən biznes kreditlərinin cəmi üçdə biri dövlət vəsaitlərinin, üçdə ikisi isə bankların öz vəsaitlərinin payına düşüb.

Azərbaycanda mövcud kredit şərtləri fermerlərin böyük əksəriyyəti üçün əlverişli deyildir. Eyni zamanda, son illərdə aqrar sektora, xüsusən də qeyri-dövlət mənbələri hesabına investisiyalar artıb. Beləliklə, aqrar sektora investisiya qoyuluşunda qeyri-dövlət mənbələrinin payı dövlət sektorunun payını üstələyib. Lakin, fermerlərə dövlət tərəfindən ayrılan vəsaitin və güzəştlərin rolunu və əhəmiyyətini də inkar etmək olmaz.

**Cədvəl 1**

**Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəricilərinin dinamikası**

| İllər | Mənfəət, min manat | Zərər, min manat | Ümumi mənfəət, min manat | Satışdan əldə edilən gəlir, min manat | Bitkiçilikdə mənfəət (zərər (-), min manat | Heyvandarlıqda mənfəət (zərər (-), min manat | Kənd təsərrüfatının ümumi məhsulu, (faktiki satış qiymətləri ilə), min manat |
|---|---|---|---|---|---|---|---|
| **2011** | 41912 | 4992 | 36920 | 207904 | 8980 | 25041 | 198806 |
| **2012** | 5225 | 04050 | 48200 | 294726 | 14609 | 29036 | 263180 |
| **2013** | 56339 | 4056 | 52283 | 333603 | 17533 | 27532 | 304766 |
| **2014** | 67331 | 8304 | 59028 | 402402 | 16234 | 25842 | 359314 |
| **2015** | 53275 | 13512 | 39763 | 391801 | 20241 | 19993 | 374320 |
| **2016** | 92290 | 17043 | 75246 | 441505 | 40267 | 31329 | 408711 |
| **2017** | 83720 | 20906 | 62814 | 504031 | 32235 | 24355 | 383157 |
| **2018** | 116506 | 19587 | 96918 | 558807 | 56577 | 19048 | 384958 |
| **2019** | 120622 | 27926 | 92696 | 622035 | 68795 | 10481 | 615203 |
| **2020** | 132835 | 28820 | 104016 | 637351 | 69321 | 27180 | 814426 |
| **2021** | 132835 | 28820 | 104016 | 637351 | 69321 | 27180 | 814426 |

*Qeyd: Cədvəl Azərbaycanın Statistik göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir. [1].*

Cədvəl 1-dən göründüyü kimi, son onillikdə kənd təsərrüfatı müəssisələrinin, demək olar ki, bütün iqtisadi göstəricilərində artım müşahidə edilir.

Belə ki, 2020-ci ildə bütün dünyada COVİD-19 pandemiyasının hökm sürməsinə baxmayaraq, kənd təsərrüfatı xərcləri (cari) üzrə istifadə olunmuş vəsaitin 48,5 %-i (417,9 mln manat) kənd təsərrüfatı tədbirlərinə, 47,5 % (409,8 mln manat) meliorasiya tədbirlərinə, 29 milyon manat və yaxud 3,4 %-i baytarlıq tədbirlərinə, 5,5 milyon manatı və yaxud 0,6 % kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlərə yönəldilib. 2019-cu illə müqaisədə dövlət büdcəsindən kənd təsərrüfatına xərclənən vəsaititn meliorasiya tədbirlərinə 24,6%, yəni 80,9 mln. manat, baytarlıq tədbirlərinə 16,5%, yəni 4,1 mln. manat daha çox vəsait yönəldilmişdir.

İşğal altında olan torpaqların azad edilməsi ölkədə kənd təsərrüfatının bərpası və inkişafı üçün geniş imkanlar yaradıb.

Azərbaycan İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına görə 2022-ci ildən 2026-cı ilə qədər Azərbaycanda kənd təsərrüfatı istehsalının ildə orta hesabla 4% artacağı planlaşdırılıb.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə yaradılan “ağıllı kəndlər”də “ağıllı” kənd təsərrüfatının inkişafı strukturun prioritet istiqamətlərindən biridir. Bu məsələdə KOBİA gənc fermerləri dəstəkləmək üçün Kənd Təsərrüfatı Kredit və İnkişaf Agentliyi ilə əməkdaşlıq edir.

## ƏDƏBİYYAT


1. https://www.stat.gov.az/
2. https://media.az/read/1067757842/
3. Əliyev İ.H. Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı. II kitab. Bakı 2001, 148s.

*Наргиз Шамиль кызы Халыгова*
*И.о. доцента кафедры "Финансы и банковское дело"*
*д.ф.э. Азербайджанского Университета Кооперации*
*nara_xaligova@mail.ru*

**Текущая ситуация и перспективы развития в сельскохозяйственном секторе Азербайджана**

*Резюме*

Поскольку сельское хозяйство обеспечивает население страны основными продуктами питания, роль и значение этого сектора в экономике очень велики. Сельскохозяйственный сектор является составной частью экономики страны в целом и подвержен влиянию общих тенденций. В то же время у него есть свои особенности, которые встречаются и в инвестировании в аграрный сектор. Данная статья посвящена раскрытию последних тенденций и особенностей инвестирования в аграрный сектор в современных экономических условиях. Также в статье были проанализированы аграрные реформы, проведенные в Азербайджанской Республике в последние годы, и рассмотрены перспективы развития отрасли.

***Ключевые слова: аграрный сектор, модернизация, инвестиции, ненефтяной сектор, сельское хозяйство.***

*Nargiz Shamil gizi Khaligova*
*Assistant professor substitute of the*
*"Finance and Banking" Department,*
*Ph.d.ec. Azerbaijan Cooperation University*
*nara_xaligova@mail.ru*

**Current situation and development perspectives in agricultural sector of Azerbaijan**

*Resume*

Since agriculture provides the country's population with basic food products, the role and importance of this sector in the economy are very large. The agricultural sector is an integral part of the country's economy as a whole and is subject to the influence of general trends. At the same time, he has his own features that are also found in investing in the agricultural sector. This article is dedicated to the disclosure of the latest trends and features of investing in the agricultural sector in modern economic conditions. The article also analyzed the agrarian reforms carried out in the Republic of Azerbaijan in recent years, and considered the prospects for the development of the industry.

***Key words: agrarian sector, modernization, investments, non-oil sector, agriculture.***

**UOT: 338.1**

*Nüşabə Zahir qızı MEHDİYEVA*
*Azərbaycan Kooperasiya Universiteti*
*"Sosial elmlər" kafedrası, iqtisad üzrə fəlsəfə doktoru*
*E-poçt: nushabamehdiyeva123@gmail.com*
*ORCID NO: 0009-0001-1815-6287*

**AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ STRATEGİYASININ TƏHLİLİ: HEYDƏR ƏLİYEV DÖVRÜ**

*Xülasə*

Məqalə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən sosial-iqtisadi siyasət və strategiyaları araşdırmaq məqsədi daşıyır. Məqalə üzrə Heydər Əliyevin prezidentliyi

dövründə tətbiq olunan sosial-iqtisadi strategiyaların və siyasətin dərin nəzəri təhlili qeyd olunmuşdur. Bu məqsədə çatmaq üçün məqalədə müxtəlif aktual ədəbiyyatların nəzərdən keçirilməsi, məlumatların təhlili və nümunə araşdırmaları daxil olmaqla bir sıra tədqiqat metodlarından istifadə olunmaqdadır. Həmçinin, məqalənin əsas töhfələrindən biri onun elmi yeniliyidir. Heydər Əliyevin sosial-iqtisadi siyasəti ilə bağlı əvvəlki tədqiqatlardan fərqli olaraq, bu məqalədə innovativ strategiyaların həyata keçirilməsinə və nəticələrinə təsir edən həm siyasi, həm də iqtisadi faktorlar nəzərə alınmaqla onun strategiyaları daha əhatəli və nüanslı şəkildə təhlil edilir. Məqalənin nəzəri və praktiki əhəmiyyəti onun Azərbaycanda və regionun digər ölkələrində gələcək iqtisadi və sosial siyasətin formalaşması üçün analitik məlumat vermək potensialıdır.

***Açar sözlər: Azərbaycan Respublikası, ölkə iqtisadiyyatı, sosial-iqtisadi strategiya, Heydər Əliyev dövrü, müasir yanaşma.***

***

Azərbaycan Respublikası son onilliklərdə, xüsusən də Heydər Əliyevin dövründə mühüm sosial-iqtisadi transformasiyalara məruz qalmışdır. Heydər Əliyev Azərbaycanın müasir tarixinin formalaşmasında həlledici rol oynamış görkəmli siyasətçi və ümummilli liderdir. O, 1993-cü ildən 2003-cü ildə vəfatına qədər Azərbaycan Prezidenti vəzifəsində çalışıb və prezidentliyi dövründə Azərbaycanın müasir və firavan ölkəyə çevrilməsinə kömək edən fundamental siyasət və islahatlar həyata keçirmişdir.

Heydər Əliyevin hakimiyyətinin ilk illərində Azərbaycan bir sıra problemlərlə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi, iqtisadi qeyri-sabitlik və siyasi təlatümlərlə üzləşdi. Lakin bu çağırışlara baxmayaraq, Heydər Əliyev ölkəni sabitliyə və yüksəlişə doğru istiqamətləndirə bilmişdir. O, ölkənin infrastrukturunun müasirləşdirilməsinə, iqtisadi artımın təşviqinə, Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş çox əhəmiyyətli sosial-iqtisadi siyasət həyata keçirmişdir.

Azərbaycan Respublikasının sosial-iqtisadi strategiyası davamlı iqtisadi artıma nail olmağa və Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına yönəlmiş mürəkkəb və çoxşaxəli siyasət və təşəbbüslər məcmusudur. Strategiya infrastrukturun inkişafı, investisiyaların təşviqi, yoxsulluğun azaldılması, təhsil və səhiyyə islahatları, kiçik və orta sahibkarlığa dəstək kimi sahələrdə bir sıra proqram və siyasətləri əhatə edir.

Makro səviyyədə hökumət iqtisadiyyatı şaxələndirməyə və tarixən Azərbaycanda iqtisadi artımın əsas aparıcı qüvvəsi olan neft-qaz sektorundan asılılığını azaltmağa çalışıb. Bu məqsədlə hökumət kənd təsərrüfatı, turizm və İKT kimi qeyri-neft sektorlarını dəstəkləmək üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Hökumət həmçinin daha çox xarici investisiya cəlb etmək və özəl sektorun artımını stimullaşdırmaq məqsədi ilə biznes mühitinin yaxşılaşdırılmasına və korrupsiyanın azaldılmasına diqqət yetirib. Buraya bürokratik prosedurların asanlaşdırılması, vergi tənzimləmələrinin sadələşdirilməsi və hökumət qərarlarının qəbulunun şəffaflığının artırılması üçün müxtəlif islahatların həyata keçirilməsi daxildir [1, s.23].

Eyni zamanda, hökumət yoxsulluğun azaldılmasına və sosial rifahın yaxşılaşdırılmasına yönəlmiş siyasət həyata keçirmişdir. Bura ünvanlı sosial yardım proqramlarının həyata keçirilməsi, səhiyyə və təhsil xidmətlərinin genişləndirilməsi, infrastruktura və aztəminatlı ailələr üçün mənzil tikintisinə investisiyalar daxildir.

Bütövlükdə, Azərbaycanın sosial-iqtisadi strategiyası davamlı artıma nail olmağa, yoxsulluğun azaldılmasına və Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasına yönəlmiş iqtisadi inkişafa kompleks yanaşmadır. Bu yolda uğurlar və çətinliklər olsa da, hökumətin bu məqsədlərə sadiqliyi güclü olaraq qalır və strategiyanın gələcək illərdə də təkamülünü davam etdirəcəyi və dəyişən iqtisadi və sosial şəraitə uyğunlaşacağı gözlənilir.

Heydər Əliyev dövrü Azərbaycan tarixinin Heydər Əliyevin ölkə rəhbəri kimi fəaliyyət göstərdiyi dövrə aiddir. Heydər Əliyev Azərbaycanın görkəmli siyasətçisi olub, 1993-cü ildən 2003-cü ildə səhhəti ilə əlaqədar istefaya gedənə qədər ölkənin prezidenti olub. O, prezidentliyə qədər Azərbaycan Kommunist Partiyasının rəhbəri vəzifəsində çalışıb, Sovet Siyasi Bürosunun üzvü olub [2, s.111].

Heydər Əliyev prezidentliyi dövründə Azərbaycanda iqtisadi yüksəlişə və siyasi sabitliyə nail olmağa yönəlmiş bir sıra siyasətlər həyata keçirmişdir. O, ölkənin neft və qaz ehtiyatlarının işlənməsinə, infrastrukturun qurulmasına, xarici investisiyaların cəlb edilməsinə diqqət yetirib. O, həmçinin özəl sektorun artımını və iş yerlərinin yaradılmasını stimullaşdırmaq məqsədi ilə korrupsiyanın azaldılmasına və biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş siyasət yürüdürdü.

Heydər Əliyevin prezidentliyi həm də xüsusilə Qafqaz regionunda regional sabitliyin və əməkdaşlığın təşviqi səyləri ilə yadda qaldı. O, Rusiya, Türkiyə və İran kimi qonşu dövlətlərlə strateji tərəfdaşlıq əlaqələri qurmağa çalışıb, Ermənistanla Dağlıq Qarabağ münaqişəsi kimi regionda müxtəlif konfliktlərin həllinə çalışıb.

Heydər Əliyevin prezidentliyi iqtisadi yüksəliş və siyasi sabitliklə səciyyələnsə də, həm də insan haqlarının nisbətən pozulması, söz və mətbuat azadlığının qismən məhdudlaşdırılması ilə bağlı narahatlıqlarla yadda qalıb. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycanda çox hörmətli şəxsiyyət olaraq qalır və onun irsi bu günə qədər ölkənin siyasi və iqtisadi mənzərəsini formalaşdırmaqda davam edir [3, s.45].

Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda son bir neçə onillikdə mühüm sosial-iqtisadi dəyişikliklərə məruz qalmış ölkədir. Bu dövrdə ölkənin sosial-iqtisadi inkişafının formalaşdırılmasında əsas fiqurlardan biri 1993-2003-cü illərdə Azərbaycan Prezidenti vəzifəsində çalışmış Heydər Əliyev olmuşdur. H. Əliyevin prezidentliyi dövrü sürətli inkişafa nail olmağa yönəlmiş bir sıra sosial-iqtisadi siyasət və strategiyalarla səciyyələnirdi.

Bu məqalədə Heydər Əliyevin prezidentliyi dövründə həyata keçirdiyi sosial-iqtisadi strategiyanın dərin təhlili, bu siyasətin qarşıya qoyulan məqsədlərə çatmaqda səmərəliliyi diqqət mərkəzində saxlanılır. Məqalədə bu müddət ərzində həyata keçirilən siyasət və strategiyaların hərtərəfli qiymətləndirilməsini təmin etmək üçün ədəbiyyat təhlili, məlumatların analizi və nümunə tədqiqatları daxil olmaqla bir sıra tədqiqat metodlarından istifadə olunur. Məqalədə həmçinin bu siyasətlərin uğur və ya uğursuzluğuna səbəb olan əsas amillər müəyyən edilir və bu nəticələrin Azərbaycanda və regionun digər ölkələrində gələcək siyasətin müəyyən edilməsi üçün nəzəri və praktiki əhəmiyyəti müzakirə olunur.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi Sovet İttifaqının dağılmasından sonra ölkənin sosial-iqtisadi inkişafına böyük təsir göstərmişdir. Azərbaycana bir sıra iqtisadi çağırışlar, o cümlədən neft sektorundan çox asılı olan zəif şaxələndirilmiş iqtisadiyyat, yoxsulluğun yüksək səviyyəsi və qeyri-adekvat infrastruktur miras qalmışdır. Bundan əlavə, ölkə siyasi qeyri-sabitlik, etnik münaqişələr və regional gərginliklə üzləşdi və bütün bunlar hökumətin səmərəli sosial-iqtisadi siyasət həyata keçirmək qabiliyyətinə ciddi problemlər yaratdı [4, s.18].

Bu çağırışlara cavab olaraq Heydər Əliyev sürətli iqtisadi artıma nail olmağa, yoxsulluğun azaldılmasına, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş bir sıra sosial-iqtisadi siyasət və strategiyalar həyata keçirdi. Bu siyasətlərə xarici investisiyaların cəlb edilməsi, ixracyönümlü sənayenin təşviqi, infrastrukturun müasirləşdirilməsi və sosial rifah xidmətlərinin yaxşılaşdırılması tədbirləri daxil idi. Hökumət həmçinin biznes mühitinin yaxşılaşdırılmasına, korrupsiyanın azaldılmasına və qanunun aliliyinin möhkəmləndirilməsinə yönəlmiş bir sıra islahatlar həyata keçirmişdir [5, s.20].

Heydər Əliyevin sosial-iqtisadi siyasət və strategiyalarının səmərəliliyini onların ÜDM-in artımı, yoxsulluğun azaldılması, həyat səviyyəsinin yaxşılaşdırılması kimi əsas sosial-iqtisadi göstəricilərə təsiri baxımından qiymətləndirmək olar. Dünya Bankının məlumatlarına görə, Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanda ÜDM-in orta illik artım tempi təxminən 10% olmaqla sürətli iqtisadi artım müşahidə olunub. Bu artım neft sektoruna sərmayələrin artması, eləcə də iqtisadiyyatın şaxələndirilməsi və kənd təsərrüfatı, turizm və istehsal kimi qeyri-neft sektorlarının təşviqi səyləri hesabına baş verib.

Heydər Əliyev siyasəti iqtisadi yüksəlişlə yanaşı, sosial rifah göstəricilərinin də xeyli yaxşılaşmasına səbəb olmuşdur. Azərbaycanda yoxsulluğun səviyyəsi 1990-cı illərin əvvəllərində təqribən 50%-dən Heydər Əliyevin prezidentliyinin sonunda 20%-ə qədər azaldı. Hökumət həmçinin sosial təminat xidmətlərinə, o cümlədən səhiyyəyə, təhsilə və mənzilə böyük sərmayə qoydu və bu, bir çox azərbaycanlıların həyat səviyyəsinin yaxşılaşmasına səbəb oldu.

Lakin Heydər Əliyev siyasəti çətinliklərdən və məhdudiyyətlərdən xali deyildi. İqtisadiyyatın şaxələndirilməsi səylərinə baxmayaraq, Azərbaycan neft sektorundan ciddi şəkildə asılı qaldı və bu, ölkəni xarici şoklara və qiymət dəyişkənliyinə məruz qoydu. Bundan əlavə, bu dövrdə əldə edilən iqtisadi qazancların bir hissəsi bərabər şəkildə bölüşdürülməmiş, gəlir və sərvət bölgüsündə müəyyən fərqlər qalmışdır. İnsan haqlarının nisbətən pozulması, ifadə və birləşmə azadlığının məhdudlaşdırılması ilə bağlı hesabatlarla hökumətin siyasi və vətəndaş azadlıqlarına yanaşması ilə əlaqəli də narahatlıqlar mövcud idi.

Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi sosial-iqtisadi strategiyanın uğur və ya uğursuzluğunu şərtləndirən amilləri bir sıra daxili və xarici faktorlarla əlaqələndirmək münkündür. Daxili amillərə hökumətin xaricdən investisiyaları cəlb etməsi və Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) kimi beynəlxalq təşkilatlarla strateji tərəfdaşlıq qurmaq imkanları daxildir. Bu, hökumətə iqtisadi islahat proqramını dəstəkləmək üçün çox ehtiyac duyulan resurslara və təcrübəyə çıxış imkanı verdi.

Digər əsas faktorlar hökumətin biznes mühitinin yaxşılaşdırılmasına və korrupsiyanın azaldılmasına diqqət yetirməsi idi. Bu, daha çox investisiya cəlb etməyə və özəl sektorun artımını stimullaşdırmağa kömək etdi ki, proses öz növbəsində iş yerlərinin yaradılmasına və iqtisadi artıma əhəmiyyətli dərəcədə töhfə verdi [7].

Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafının formalaşmasında xarici faktorlar da öz rolunu oynamışdır. Məsələn, qlobal neft bazarı ölkə iqtisadiyyatına əhəmiyyətli təsir göstərdi, neftin qiymətindəki dalğalanmalar hökumətin sosial-iqtisadi proqramlarını maliyyələşdirmə imkanlarına təsir etdi. Həmçinin ölkənin geosiyasi konteksti də problemlər yaradırdı, regiondakı gərginlik ticarət və investisiya axınına və ölkənin iqtisadi artım perspektivlərinə təsir göstərirdi.

Nəticə olaraq, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi sosial-iqtisadi strategiya sürətli iqtisadi artıma, yoxsulluğun azaldılmasına, Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsinə yönəlmişdir. Bu siyasətlərin effektivliyini onların ÜDM-in artımı, yoxsulluğun azaldılması və həyat səviyyəsinin yaxşılaşdırılması kimi əsas sosial-iqtisadi göstəricilərə təsiri baxımından qiymətləndirmək olar. Heydər Əliyevin siyasəti bu sahələrdə mühüm nailiyyətlərə gətirib çıxarsa da, neft sektorundan asılılıq və insan hüquqlarının nisbətən pozulması ilə bağlı narahatlıqlar da daxil olmaqla müəyyən problemlər və məhdudiyyətlər də mövcud idi [6].

Bu siyasətlərin uğur və ya uğursuzluğuna səbəb olan faktorlar həm daxili, həm də xarici, o cümlədən hökumətin xarici investisiyaları cəlb etmək və beynəlxalq təşkilatlarla strateji tərəfdaşlıq qurmaq bacarığı, biznes mühitinin yaxşılaşdırılmasına və korrupsiyanın azaldılmasına diqqət yetirməsi və qlobal neft siyasəti kimi xarici amillər idi. Bu elmi hipotezlər Azərbaycanda və regionun digər ölkələrində siyasətin müəyyən edilməsi üçün mühüm nəzəri və praktiki nəticələrə malikdir və iqtisadi inkişafa həm daxili, həm də xarici faktorları nəzərə alan balanslaşdırılmış və şaxələndirilmiş yanaşmanın vacibliyini vurğulayır.

"Azərbaycan Respublikasının sosial-iqtisadi strategiyasının təhlili: Heydər Əliyev dövrü" mövzusu Heydər Əliyev dövründə Azərbaycanın iqtisadi və sosial sahədə atdığı addımlara və strateji yollara işıq salması baxımından olduqca maraqlı mövzudur.

Tədqiqatların nəticələri göstərir ki, Heydər Əliyev dövründə Azərbaycan iqtisadiyyatı mühüm inkişaf mərhələsi keçmişdir. Heydər Əliyev Azərbaycanın neft-qaz sektorundan asılılığının azaldılması, digər sahələrə investisiyaların cəlb edilməsi, müxtəlif sosial proqramların həyata keçirilməsi, işsizliyin azaldılması istiqamətində çoxsaylı addımlar atdı. Bu addımlara ölkənin infrastrukturunun genişləndirilməsi, vergi qanunvericiliyinin sadələşdirilməsi, əlverişli biznes mühitinin yaradılması, sosial təminat proqramlarının həyata keçirilməsi, tibb və təhsil sektorlarında transformasiyaların aparılması və s. aiddir.

Heydər Əliyev dövrü Azərbaycanın beynəlxalq münasibətlərində də inkişaf dövrü olmuşdur. Heydər Əliyev qonşu dövlətlərlə strateji tərəfdaşlıq əlaqələrinin qurulması, regionda sabitliyin təmin edilməsi, Ermənistanla münaqişənin həlli istiqamətində müxtəlif diplomatik addımlar atdı. Bundan əlavə, Heydər Əliyev dövrü insan haqları ilə bağlı bir sıra problemləri önə çəkdi.

"Azərbaycan Respublikasının sosial-iqtisadi strategiyasının təhlili: Heydər Əliyev dövrü" elmi-tədqiqat nəticələri Heydər Əliyevin təkcə iqtisadi və sosial sahədəki uğurlarını deyil, həm də üzləşdiyi problem və çətinlikləri göstərir. Çətinliklərə baxmayaraq, Heydər Əliyev irsi Azərbaycanda mühüm inkişaf və tərəqqilərin əsasını təşkil edir və onun töhfələri ölkənin gələcəyini formalaşdırmaqda davam etməkdədir.

## ƏDƏBİYYAT


1. Bayramov, V. (2016). The Azerbaijan Economy: Oil, Gas and Beyond. Palgrave Macmillan.
2. Cornell, S. E. (2011). Azerbaijan Since Independence. M.E. Sharpe.
3. Juvarly, T. (2016). Azerbaijan: From Crisis to Rebirth. Routledge.
4. Nuriyev, E. (2011). The Foreign Policy of Azerbaijan: The Quest for Stability and Independence. Palgrave Macmillan.
5. Slider, D. L. (2015). Heydar Aliyev: His Life and Times. Rowman & Littlefield Publishers.
6. İnternet resursları
7. http://anl.az/down/meqale/xalqqazeti/2010/may/119632.htm
8. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_may2009/78718.htm



***Нушаба Захир Мехтиева***
***Азербайджанский Университет Кооперации***
***Кафедра " Социальных наук" доктор философии по экономике***
***Электронная почта: nushabamehdiyeva123@gmail.com***
***ORCID NO: 0009-0001-1815-6287***


## Анализ социально-экономической стратегии Азербайджанской Республики: период Гейдара Алиева

### *Резюме*


Статья Анализ социально-экономической стратегии Азербайджанской Республики: эпоха Гейдара Алиева направлена на рассмотрение социально-экономической политики и стратегий, реализованных в период, когда Гейдар Алиев руководил Азербайджаном. Основная задача статьи заключается в проведении глубокого теоретического анализа социально-экономических стратегий и политики, реализуемых Гейдаром Алиевым в период его президентства. Для достижения этой цели в статье используется ряд методов исследования, включая обзор литературы, анализ данных и тематические исследования. Одним из основных вкладов статьи является ее научная новизна. Хотя ранее проводились исследования социально-экономической политики Гейдара Алиева, в данной статье его стратегии анализируются более комплексно и детально, с учетом как политических, так и экономических факторов, влияющих на реализацию и результаты его стратегий. В статье также используется ряд эмпирических данных для поддержки анализа, обеспечивающего более надежную и основанную на фактических данных оценку политики. Теоретическая и практическая значимость статьи заключается в том, что она может предоставить информацию для формирования будущей политики в Азербайджане и других странах региона.



***Ключевые слова: Азербайджанская Республика, экономика страны, социально-экономическая стратегия, эпоха Гейдара Алиева, современный подход.***

*Nushaba Zahir Mehdiyeva*
*Azerbaijan Cooperation University*
*Department of Social Sciences*
*Doctor of philosophy in economics*
*E-mail: nushabamehdiyeva123@gmail.com*
*ORCID NO: 0009-0001-1815-6287*

**Analysis of the socio-economic strategy of the Republic of Azerbaijan: Heydar Aliyev period**

*Summary*

The article Analysis of the socio-economic strategy of the Republic of Azerbaijan: the era of Heydar Aliyev aims to examine the socio-economic policies and strategies implemented during the period when Heydar Aliyev led Azerbaijan. The main task of the article is to provide an in-depth theoretical analysis of the socio-economic strategies and policies implemented by Heydar Aliyev during his presidency. To achieve this goal, the article uses a number of research methods, including literature review, data analysis, and case studies. One of the main contributions of the article is its scientific innovation. Although previous studies have been conducted on Heydar Aliyev's socio-economic policy, this article analyzes his strategies in a more comprehensive and nuanced manner, considering both political and economic factors that affect the implementation and results of his strategies. The article also uses a range of empirical data to support its analysis, providing a more robust and evidence-based evaluation of policies. The theoretical and practical importance of the article lies in its potential to provide information for future policy formation in Azerbaijan and other countries of the region.

***Key words: Republic of Azerbaijan, country's economy, socio-economic strategy, Heydar Aliyev era, modern approach.***

**UOT 332**

*Afiq Cavanşir oğlu NƏSİBOV*
*Azərbaycan Kooperasiya Universitetinin*
*“Ekspertiza və texnologiya” fakültəsinin dekanı*
*iqtisad üzrə fəlsəfə doktoru*

# QLOBAL ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ KƏND TƏSƏRRÜFATININ MALİYYƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

*Xülasə*

Məqalənin məqsədi qlobal çağırışlar şəraitində kənd təsərrüfatının dövlət tənzimlənməsinin maliyyə mexanizminin təkmilləşdirilməsi ilə bağlı əsaslandırılmış təkliflərin hazırlanmasından ibarətdir.

***Açar sözlər: qlobal çağırışlar, kənd təsərrüfatı, maliyyə mexanizmləri, təkmilləşdirmə.***

***

İqtisadiyyatın digər sahələrindən fərqli olaraq təbii-iqlim şərtlərindən daha çox asılı olan kənd təsərrüfatının inkişafını tamamilə bazar mexanizminin təsiri altında getməsinə etibar etmək heç də həmişə özünü doğrultmur. Bu isə, kənd təsərrüfatının sahələrarası rəqabət mübarizəsində bir çox cəhətdən zəif mövqeyi ilə nəticələnir. Belə vəziyyət məhdud resurslara malik kənd təsərrüfatında geniş təkrar istehsalı çətinləşdirməklə həmişə bəşəriyyət üçün həyati əhəmiyyət kəsb etmiş məhsulların istehsalının həcminin kəskin azalmasına səbəb ola bilər. Digər tərəfdən, kənd təsərrüfatında sərbəst (bazar) qiymətəmələgəlməsinin özünü doğrultmaması, xarici ticarət məhdudiyyətləri, habelə ekoloji aspektlər sahənin davamlı inkişafını ləngidən amillər kimi diqqəti cəlb edir.

Müxtəlif dövrlərdə bu problemin həllinə əsasən dünyanın əksər ölkələrində kənd təsərrüfatı

məhsullarının istehsalı, satışı, idxal-ixrac imkanlarının bu və ya digər dərəcədə tənzimlənməsi yolu ilə nail olunmasına cəhd edilmişdir. Lakin "münaqişə, pandemiya və iqlim dəyişikliklərinin həm bir-birini dərinləşdirdikləri, həm də daha bir böhrana - aclığa doğru apardığı" [12] barədə ekspert rəyləri ərzaq məhsullarının başlıca təbii mənbəsi kimi kənd təsərrüfatının inkişafına daha ciddi münasibət göstərilməsini tələb edir.

Belə ki, "2020-ci ildə COVID-19 pandemiyasının dünya iqtisadiyyatına təsiri ilə ərzaq təhlükəsizliyinin təmin olunması problemi daha kəskin xarakter aldı. Ölkələr ticarət məhdudiyyətləri tətbiq edir, əsas növ ərzaq məhsullarının qlobal çatdırılması zəncirində dayanmalar baş verir, qiymətlər artır, ehtiyatların toplanması zərurəti yaranır." [11]

Digər tərəfdən, "Rusiyanın Ukraynaya müdaxiləsi qlobal ərzaq böhranının əsas amillərindən birinə çevrilib. Rusiyanın hərbi təcavüzü Ukrayna və Rusiyadan ticarət axınının kəsilməsi səbəbindən ərzaq məhsullarının qiymətində rekord artıma səbəb olub. Ukrayna və Rusiya birlikdə dünyada istehlak edilən bütün kalorilərin səkkizdə birini istehsal edirdi, Ukrayna buğda ixracında dünyada ikinci (10%) və qarğıdalı tədarükündə (15%) birinci yerdə idi. Həmçinin, günəbaxan yağının dünya tədarükünün yarısından çoxu Ukrayna və Rusiyanın payına düşür. [13] Eyni zamanda, bu ölkələr tərəfindən kənd təsərrüfatı üçün zəruri olan bir çox adda məhsulların istehsal edilməsi də münaqişənin qlobal təsirinin miqyası barədə təsəvvür formalaşdırır. Belə ki, Rusiya, Ukrayna, Türkiyə və BMT arasında Ukraynadan kənd təsərrüfatı yükləri üçün təhlükəsiz dəniz dəhlizinin təşkili ilə bağlı 22 iyul 2022-ci il tarixində İstanbulda Qara Dəniz Taxıl Təşəbbüsü və ya Taxıl Müqaviləsinin imzalanması nəticəsində dünyada ərzaq qiymətləri 2023-cü ilin əvvəlinə qədər 18% azaldı. [13]

Beləliklə, qloballaşan dünya iqtisadiyyatının yeni çağırışları, xüsusilə də dünyanın vacib ərzaq istehsalçıları olan ölkələr arasındakı müharibə, beynəlxalq və regional səviyyələrdə ərzaq probleminin açıq-aşkar kəskinləşməsi kənd təsərrüfatının dövlət tənzimlənməsinin müxtəlif aspektlərdən öyrənilməsini şərtləndirir.

Bir sıra mühüm funksiyaları yerinə yetirən kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlıq strukturlarının mütəmadi olaraq sahənin təbii-iqlim xüsusiyyətlərindən irəli gələn bir sıra problemlərlə üzləşməsi məlumdur.

Dövlətin kənd təsərrüfatı istehsalının tənzimlənməsi üzrə həyata keçirdiyi tədbirlər strateji və taktiki xarakterli tənzimləmə tədbirləri olmaqla 2 qrupa ayrıla bilər. Kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsi olmadan, bu sahənin arzuolunan templərlə inkişafının təmin edilməsi çətindir. Odur ki, həyati əhəmiyyət kəsb edən bu sahənin inkişafının bir sıra istiqamətlər üzrə müdafiə edilməsi zəruriliyi meydana çıxır. Bu istiqamətlərdən biri də sahənin – daha doğrusu, sahədə fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə baxımından müdafiəsidir. Bir çox hallarda kənd təsərrüfatı subyektlərinin əldə etdikləri gəlirlər onların geniş təkrar istehsalı həyata keçirmələrinə imkan vermir və bu isə, maliyyə resurslarının çatışmazlığını qaçılmaz edir. Dünyanın əksər hətta inkişaf etmiş ölkələrində də müşahidə edilən bu meyillər kənd təsərrüfatının dövlət tənzimlənməsinin maliyyə mexanizminin daima təkmilləşdirilməsini tələb edir. Ümumiyyətlə, bazar münasibətləri şəraitində maliyyə, kredit və vergi siyasəti demək olar ki, bütün sahələrdə ən mühüm tənzimləyicilər hesab olunurlar. Ona görə də dünyanın əksər ölkələrində kənd təsərrüfatının dövlət tənzimlənməsində maliyyə alət və mexanizmlərindən istifadəyə xüsusi fikir verilir.

O.V.Çepik qeyd edir: "İstehsalın iqtisadi səmərəliliyini artırmaq üçün ən mühüm iqtisadi və maliyyə rıçaqlarından biri kənd təsərrüfatı məhsullarının istehsalına, bölüşdürülməsinə, mübadiləsinə və istehlakına birbaşa təsir göstərən qiymətdir. Kənd təsərrüfatı istehsalçılarının maliyyə nəticələrinin formalaşmasına böyük dərəcədə xaricə satılan məhsulların, malların və xidmətlərin qiyməti təsir göstərir. Qiymət əmtəə istehsalçısının mənfəətinə bilavasitə təsir etdiyi üçün onun təsiri təsərrüfat subyektlərinin bir çox mühüm sosial-iqtisadi göstəricilərinə şamil edilir". [10 s. 35-36]

"Aparılmış tədqiqatlar göstərmişdir ki, iqtisadiyyatın, xüsusən də kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsinin formaları, üsulları, alətləri və mexanizmi ilə bağlı vahidlik yoxdur. Dövlətin tənzimləmə üsullarını birbaşa və dolayı olaraq bölmək məqsədəuyğun hesab olunur ...Birbaşa təsir ilə bağlı iqtisadi rıçaqlara aşağıdakılar aid edilə bilər: güzəştli kreditləşdirmə, subsidiyalaş-

dırma və dotasiya təqdim edilməsi, tənzimlənən qiymətlər (tariflər); kənd təsərrüfatı müəssisələri üçün dövlət tapşırığının müəyyən edilməsi. Öz növbəsində, dolayı xarakterli iqtisadi rıçaqlar büdcə-vergi və pul-kredit siyasəti ilə bağlıdır".[9, s. 1473]

Beləliklə, kənd təsərrüfatı sahəsində məhsul istehsalçıları üçün kreditləşmə imkanlarının asanlaşdırılması, başqa sözlə onlara aşağı faiz dərəcələri ilə kreditlərin verilməsi bu sahədə geniş təkrar istehsalın həyata keçirilməsinin mühüm şərti hesab edilir. Bu nöqteyi-nəzərdən dünyanın əksər ölkələrində kənd təsərrüfatı məhsulları istehsalçılarının götürdükləri kreditlərə görə ödədikləri faiz dərəcələri subsidiyalaşdırılır.

Azərbaycanda iqtisadiyyatın mühüm sahələrindən biri olmaqla kənd təsərrüfatının şəraitə uyğun tənzimlənməsi mexanizmlərinin dəyişkən xarakteri həm də ölkə əhalisinin sosial rifahının təmin olunmasının vacibliyi ilə müəyyən olunur. Belə ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2021-ci ildə iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin 36,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində çalışır və ilkin məlumatlara əsasən bu sahələrin hesabına ümumi daxili məhsulun 5,9%-i istehsal edilir. Müqayisə üçün bildirək ki, bu göstəricilər 2003-cü il üzrə müvafiq olaraq 38,9% və 12,4%, 2015-ci il üzrə isə 36,4% və 6,2% təşkil etmişdir.[7, 55-56] Göründüyü kimi, son 18 il ərzində iqtisadiyyatın qeyd olunan sahəsində ümumi daxili məhsul istehsalı xeyli (təqribən 52,4%) azalmışdır.

Qeyd olunmalıdır ki, qloballaşan dünya iqtisadiyyatının daima yeniləşən çağırışları, beynəlxalq iqtisadi proseslərə davamlı surətdə inteqrasiya edən Azərbaycanın kənd təsərrüfatı üçün də həmişə aktuallığı ilə seçilmişdir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyi tədbirləri (vergilərdən azad etmə; istehsalçılara büdcədən güzəştli kreditlərin təqdim edilməsi; əksər istehsal vasitələrinə gömrük güzəştlərinin tətbiqi; gübrələrin dəyərinin istehsalçılara 70% güzəştlə ödənilməsi; əmlakının və müəyyən edilmiş sığorta hadisələrinin sığortalanması üzrə hesablanmış sığorta haqqının 50%-inin dövlət tərəfindən ödənilməsi və s.) əks olunur .[1]

Son illərdə kənd təsərrüfatında sığorta ilə bağlı məsələlərə xüsusi diqqət yetirilməsi təqdirəlayiq hal kimi qiymətləndirilə bilər. Belə ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə 19 avqust 2019-cu il tarixli 809 nömrəli Fərman imzalanmışdır.[5]

Bununla yanaşı, ölkə Prezidentinin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə "Kənd təsərrüfatı məhsulları isthesalının subsidiyalaşdırılması Qaydası" təsdiq edilmişdir. [3]

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına verilən güzəştlərin maliyyələşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2020-ci il tarixli Sərəncamı kənd təsərrüfatı texnikasına, texnoloji avadanlığa, suvarma sistemləri və soyuducu anbar dəstlərinə, damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi ilə əlaqədar maliyyə vəsaitinə yaranmış ehtiyacın qarşılanması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılmışdır. [6]

2020-ci il sentyabr ayının 27-dən başlayan 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında erməni qəsbkarları tərəfindən işğal olunmuş təbii ehtiyatlarla zəngin 7 rayonu azad etməsi yaxın gələcəkdə ölkəmizin iqtisadi potensialını gücləndirmək üçün geniş imkanlar yaratmışdır. Bu ərazilərin dirçəldilməsi, ümumrespublika təsərrüfat dövriyyəsinə cəlb edilməsi məqsədilə kənd təsərrüfatının dövlət tənzimlənməsinin maliyyə mexanizminin mövcud reallıqlar baxımından təkmilləşdirilməsi və bu tənzimləmə tədbirlərinin inkişaf etmiş ölkələrin təcrübəsi ilə uzlaşdırılması imkanlarının tədqiqini tələb edir. İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişaf etdirilməsi dövlətimizin iqtisadi siyasətinin 2030-cu ilədək olan sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində strateji səviyyədə baxılmışdır və bu, Qarabağ regionunda kənd təsərrüfatının və aqrar sektorun inkişafının dünya təcrübəsinə uyğun olaraq təşkilini şərtləndirir.[4]

Hazırda kənd təsərrüfatı sahəsinə göstərilən dövlət müdafiə tədbirlərinin əhatə dairəsi kifayət qədər genişdir və onların hər birinin demək olar ki, istehsalçıların maliyyə vəziyyətinin yaxşılaşmasına çox böyük müsbət təsiri vardır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "3.1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə"sində perspektivdə kənd təsərrüfatının inkişafı ilə bağlı vacib addımların atılması nəzərdə tutulur. Sənəddə qeyd olunur: "Aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaqdır. Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaqdır. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022–2026- cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4% artacaqdır".[2, s. 14]

"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında "1.1.1. Fəaliyyət istiqaməti: Sahibkarlara dəstək mexanizmlərinin effektivliyinin, ünvanlılığının və şəffaflığının artırılması" üzrə "Sahibkarlara göstərilən maliyyə dəstəyinin həcminin artırılması", habelə 1.1.2. Fəaliyyət istiqaməti çərçivəsində "Kiçik və orta biznesin (KOB) resurslara, o cümlədən maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi" üçün KOB İnkişaf Fondunun fəaliyyətə başlaması və KOB subyektlərinin maliyyə əlçatanlığının artırılması, Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) maliyyə mənbələrinin genişləndirilməsi kimi tədbirlərin həyata keçirilməsi" nəzərdə tutulur.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən Azərbaycan Respublikasında 2003-2021-ci illərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 37,4 milyon manatdan 341,9 milyon manata qədər və ya təqribən 10,9 dəfə artmışdır. Bununla belə, 2003-cü ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcmində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrinin xüsusi çəkisi 1,0 % olduğu halda 2021-ci ildə bu göstərici 2,0% təşkil etmişdir. Halbuki, 2018-ci ildə bu göstərici 4,4 %-ə qədər yüksəlmişdi. [7, s. 57]

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə kənd təsərrüfatına ayrılan xərclərin dövlət büdcəsinin xərclərində xüsusi çəkisi 2020-ci ildə 3,26 %, 2021-ci ildə 3,32%, 2022-ci ildə isə, ilkin məlumatlar əsasında 2,87 % təşkil etmişdir. [14]

Beləliklə, kənd təsərrüfatının dövlət tənzimlənməsində maliyyə mexanizmləri və xidmətlərinin əhatə dairəsinin genişlənməsi zəruridir. Bu problemin həlli məqsədilə Azərbaycanda da məqsədyönlü işlər həyata keçirilmiş, kənd təsərrüfatı istehsalçılarına aşağı faizlə kreditlərin verilməsilə məşğul olan qurumlar formalaşdırılmışdır. Lakin bu istiqamətdə bir sıra məsələlərin nəzərə alınması vacibdir.

Belə ki, Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatlarına görə 01.01.2023-cü il tarixinə kredit portfelinin sahələr üzrə strukturunda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun xüsusi çəkisi 3,1 % təşkil etmişdir. [8, s. 81]

Mərkəzi Bankın məlumatlarına görə, kredit müəssisələri tərəfindən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən cəmi kreditlərin həcmi 2018-ci ildəki 424,3 milyon manatdan 2022-ci ildə 583,7 milyon manata qədər artmışdır. Eyni zamanda diqqəti cəlb edir ki, 2018-ci ildə bu vəsaitin hamısı özəl müəssisələrə ayrıldığı halda 2022-ci ildə 1,4 milyon manat vəsait dövlət mülkiyyətində olan müəssisələrə yönəldilmişdir. Digər tərəfdən, 2022-ci ildə ayrılmış kreditlərin 79,6 %-nin uzunmüddətli kreditlər olması müşahidə edilir. Halbuki, 2018-ci il üçün bu göstərici 95,8 % təşkil etmişdir. [8, s. 28]

Azərbaycan Respublikasında Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasının tərkib hissəsi kimi son illər ərzində dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalının maliyyə mexanizmlərindən geniş istifadə edilməklə tənzimlənməsi üzrə məqsədyönlü tədbirlər uğurla həyata keçirilməkdədir. Bununla bərabər, ölkəmizin də sürətlə inteqrasiya etdiyi dünya iqtisadiyyatının meydana gətirdiyi qlobal çağırışlar şəraitində kənd təsərrüfatının dövlət tənzimlənməsinin

beynəlxalq təcrübədə uğurla tətbiq edilən mütərəqqi maliyyə mexanizminin təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Hesab edirik ki, bu sahədə ilk növbədə kredit müəssisələri tərəfindən kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərə aşağı faizli uzunmüddətli kreditlərin təklif edilməsi və sığorta məsələlərinə xüsusi diqqət yetirilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". 177 s. [Elektron resurs] / https://president.az/az/articles/view/22110
2. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası".
3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası". [Elektron resurs] / https://e-qanun.az/framework/42750
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir: [Elektron resurs] / https://president.az/articles/50474.
5. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə Azərbaycan Respublikası Prezidenti tərəfindən 19 avqust 2019-cu il tarixli 809 nömrəli Fərman imzalanmışdır. [Elektron resurs] / https://e-qanun.az/framework/43125
6. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına verilən güzəştlərin maliyyələşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2020-ci il tarixli Sərəncamı. [Elektron resurs] / https://president.az/az/articles/view/40021.
7. "Azərbaycanın kənd təsərrüfatı" Statistik məcmuə / 2022, 774 s.
8. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Statistik bülleten, № 12 (273) Statistika Departamenti, 2022, 90 s.
9. Аксютина С.В., Мироненко Н.В. Актуальные вопросы государственного регулирования отрасли сельского хозяйства // Экономические отношения. – 2020. – Том 10. – № 4. – С. 1469-1490. doi: 10.18334/eo.10.4.111047
10. Чепик О.В. Финансовый механизм государственного регулирования и поддержки сельского хозяйства. Автореферат диссертации на соискание учёной степени доктора экономических наук. Ростов-на-Дону, 2013. 51 стр. (35-36)
11. Шуракова Н.Н. Мировой продовольственный рынок в период COVID-19 // Российский внешнеэкономический вестни, 8 – 2020, с. 112.
12. Stanley, Andrew. Three compounding crises—conflict, COVID, and climate change—are giving rise to another: hunger. // Finance & Development | June 2022, p. 28.
13. https://ru.wikipedia.org/wiki/Черноморская_зерновая_инициатива
14. https://www.stat.gov.az/source/finance/



***Афиг Джаваншир оглы Насибов***
***Декан факультета Экспертизы и технологии***
***Доктор философии по экономике***


**Пути совершенствования финансового механизма сельского**


***Резюме***

Цель статьи - подготовить обоснованные предложения по совершенствованию финансового механизма государственного регулирования сельского хозяйства в условиях глобальных вызовов.



***Ключевые слова: глобальные вызовы, сельское хозяйство, финансовые механизмы, совершенствование.***

*Afiq Javansir Nasibov*
*Azerbaijan Cooperation University*
*Dean of the Faculty Expertise and technology.*
*Ph.D.on economy*

**Ways to improve the financial mechanism of agriculture in the conditions of global challenges**

***Summary***
The purpose of the article is to prepare reasonable proposals for improving the financial mechanism of state regulation of agriculture in the face of global challenges.
***Key words: global challenges, agriculture, financial mechanisms, improvement.***

**UOT 332.336**

*Arzu Rəhim qızı SÜLEYMANOVA*
*i.f.d. Azərbaycan Kooperasiya Universiteti*
*"Maliyyə və bank işi" kafedrası*
*arzu-aliyeva-1979@mail.ru*

# AZƏRBAYCANDA AQRAR SAHİBKARLIĞIN İNKİŞAFININ MALİYYƏ-KREDİT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***
Ümummilli lider Heydər Əliyevin Azərbaycanın iqtisadiyyatının bütün sahələrində iqtisadi inkişafın təmin olunmasında misilsiz xidmətləri vardır. O dövrdə iqtisadiyyatın digər sahələri kimi aqrar sektorda da sahibkarlığın inkişafı üçün əsaslı iqtisadi tədbirlər görülmüşdür. Məqalədə məhz Azərbaycanda aqrar sahibkarlığın inkişafı, bu inkişafın maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi və bu inkişaf prosesində ulu öndər Heydər Əliyevin rolu araşdırılmışdır və onun Azərbaycan Respublikasının iqtisadi inkişafına verdiyi töhfələrdən bəhs edilmişdir.
***Açar sözlər: aqrar sahə, sahibkarlıq, iqtisadi inkişaf, maliyyə-kredit mexanizmi, irriqasiya, meliorasiya.***

***

Azərbaycan dövlətinin görkəmli lideri Heydər Əliyev ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında formalaşdırılmasında və inkişafında mühüm rol oynamış dünyaşöhrətli siyasi xadim olmuşdur. Prezidentliyi müddətində respublika iqtisadiyyatının inkişafı üçün güclü maliyyə bazası yaratmışdır. Ölkənin aqrar sektorunda sahibkarlığı təşviq etmək məqsədi daşıyan çoxsaylı fərman və sərəncamlar vermişdir, onun icrasına birbaşa özü nəzarət edərək nəticələrini qiymətləndirmişdir.

1993-cü ildə hakimiyyətə qayıdışından sonra əsas məqsədi ölkənin kənd təsərrüfatının dirçəlişi olmuşdur ki, bunun üçün yollar axtarmışdır. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin xeyli hissəsinin erməni qəsbkarları tərəfindən işğal altına düşməsi,mövcud sahələrin səmərəliliyinin artırılmasında irriqasiya və meliorasiya tədbirlərinin əsas rol oynadığını daha yaxşı bilən Heydər Əliyev həmin dövrdə kompleks meliorasiya tədbirlərinin həyata keçirilməsi ilə yeni torpaq sahələrinin əkin döriyyəsinə qaytarılmasına xüsusi diqqət yetirmişdir. Qısa müddətdə kənd təsərrüfatında aparılan iqtisadi islahatlar əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında müsbət meyillər yaratmışdır. Hakimiyyətə qayıdışı dövrdə iqtisadiyyatı hiper inflyasiya şəraitində olan respublikada ən başlıca vəzifələrdən biri əhalinin ərzaq təminatının yaxşılaşdırılması olmuşdur. Aparılan özəlləşdirmə tədbirləri qısa müddətdə öz nəticəsini vermişdir. 1995-ci ildə artıq inflyasiyanın qarşısının alınması mümkün olmuşdur. Məlumdur ki, Azərbaycan iqtisadiyyatında 1990-cı illərin ikinci yarısından başlayan iqtisadi tənəzzül daha da dərinləşərək respublika iqtisadiyyatının və ölkənin sosial həyatının bütün sahələrini əhatə edən iqtisadi böhrana çevrilmişdi. Artıq 1995-ci ildən Azərbaycan iqtisadiyyatı, o cümlədən sənaye və kənd təsərrüfatının sürətlə inkişaf etməyə başlaması üçün iqti-

sadi zəmin yaranmışdı. 1994-cü ilin 20 sentyabr tarixində imzalanan "Əsrin müqaviləsi"nin nəticəsi olaraq artıq ölkəmizə maliyyə axınları gəlməyə başladı. Ümumiyyətlə,həmin illərdə ulu öndər Heydər Əliyevin gərgin əməyi və səmərəli fəaliyyəti nəticəsində iqtisadiyyatda, elmdə, incəsənətdə və mədəniyyətdə, sosial sahədə, bir sözlə, ictimai-siyasi həyatımızın bütün sahələrində misilsiz nailiyyətlər əldə edilmişdir. Qısa müddətdə xarici investisiyaların ölkəmizə axını Azərbaycanın iqtisadiyyatının bazar iqtisadiyyatının tələbləri baxımından yenidən təşkilinə imkan vermişdir.Bu illərdən başlayaraq artıq ölkəmizin çiçəklənmə dövrü, başqa sözlə, iqtisadi inkişaf illəri formalaşmağa başlamışdı.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi həmin illərdə kənd təsərrüfatı sektoru, o cümlədən ərzaq məhsulları öz inkişafının əsasını qoymuşdu.Heydər Əliyevin respublikamızın rəhbəri olduğu 1981-ci ildə ölkəmizdə 1 milyon 133 min ton taxıl istehsal olunmuşdur. Tərəvəzçilər yüksək nəticələr əldə edərək dövlətə 640 min ton və ya 1970-ci illə müqayisədə 2,4 dəfə çox məhsul vermişlər. Üzümçülər ən yüksək zirvələrə qalxaraq 1 milyon 616 min ton üzüm yetişdirmişlər. Bu, 1969-cu illə müqayisədə təqribən 7 dəfə çox idi.Ulu öndər Heydər Əliyev keçmiş Sovetlər İttifaqı dövründə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi müddətdə respublikanın inkişafı, o cümlədən kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının artırılması istiqamətində səylərini əsirgəməmişdir [7, s.55].

H.Əliyevin aqrar sahibkarlığın inkişafı üçün maliyyə krediti mexanizminin təkmilləşdirilməsinə verdiyi ən mühüm töhfələrdən biri də kənd təsərrüfatı sahələrinin maliyyələşdirmə mənbələrinin yaradılması olmuşdur[1].

Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) yaradılması da kənd təsərrüfatının maliyyələşmə mexanizminin formalaşmasında və aqrar sahədə sahibkarlığın inkişafında müstəsna rol oynamışdır. Fondun təşkilində əsas məqsəd ölkədə kiçik və orta sahibkarlıq subyektlərini əlverişli kreditlərlə təmin etmək olmuşdur. SKMF aqrar sektorda fəaliyyət göstərən sahibkarlara maliyyə resurslarına çıxışla bağlı çətinliklərin öhdəsindən gəlməyə kömək etmişdir. Ölkənin aqrar sahəsinin inkişafında mühüm rola malik olmuşdur. Aqrar sahənin həmin dövrdə inkişafının təmin olunması neft sektorunun böyüməsi və inkişafı ilə birbaşa əlaqəli olmuşdur. "Əsrin müqaviləsi" əsasında neft sektoruna axan maliyyə resursları paralel olaraq aqrar sahəyə də müsbət inkişaf meyilləri yaradırdı.

Heydər Əliyevin ölkənin aqrar sektorunda sahibkarlığın inkişafına dair bir sıra iqtisadi proqramların həyata keçirilməsində əvəzsiz xidmətləri olmuşdur. Məsələn, 1996-cı ildə Torpaq İslahatı Qanununun qəbulu sektorda sahibkarlığın təşviqi istiqamətində mühüm mərhələ oldu. Qanun mülkiyyət hüquqlarını aydınlaşdırmaq və torpaq satışını asanlaşdırmaq məqsədi daşıyırdı ki, bu da sektora investisiya cəlb etməyə kömək etdi. Bu siyasət dəyişikliyi daha çox torpaq mülkiyyətini asanlaşdırdı və beləliklə, ölkə iqtisadiyyatına əhəmiyyətli töhfə verən iri miqyaslı kənd təsərrüfatının inkişafına səbəb oldu [2].

Məlumdur ki,"Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamına əsasən "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

Səhmlərinin nəzarət zərfinin hamısı tamlıqla dövlətə məxsus olan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yarandığı vaxt onun fəaliyyətinə nəzarəti AR İqtisadi İnkişaf Nazirliyi həyata keçirmişdir.

"Aqrolizinq" ASC-nin AR Kənd Təsərrüfatı Nazirliyinin idarəçiliyinə verilməsi haqqında" AR Prezidentinin 2009-cu il 21 iyul tarixli 392 nömrəli Sərəncamına əsasən "Aqrolizinq" ASC AR Kənd Təsərrüfatı Nazirliyinin idarəçiliyinə verilmişdir.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılarkən əsas məqsəd aqrar bölmənin müasir texnika ilə təchizatı məsələlərinin əsaslı tənzimlənməsini təmin etmək olmuşdur. Sonradan AR Prezidentinin 2007-2009-cu illərdə imzaladığı müvafiq sərəncamlara əsasən onun fəaliyyət istiqamətləri daha da genişləndirilmişdir.

"Aqrolizinq" ASC-nin əsas fəaliyyət istiqaməti dövlət büdcəsindən bu məqsəd üçün ayrılan maliyyə vəsaiti hesabına alınan kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların lizinqlə hüquqi və fiziki şəxslərə icarəyə verilməsinin və ya satılmasının və onlara texniki servis xidməti göstərilməsinin, həmçinin dövlət büdcəsindən ayrılan vəsait hesabına alınan pestisidlərin və aq-

rokimyəvi maddələrin satılmasının reallaşdırılmasından ibarət olmuşdur.

"Aqrolizinq" ASC-yə məxsus kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların, damazlıq heyvanların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması, eləcə də mineral gübrə və pestisidlərin satışı AR Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş qaydalara əsasən aparılır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına aqrotexniki xidmətlər göstərilməsi məqsədilə 2005-ci il 22 noyabr tarixində təsdiq edilmiş "Aqrolizinq" ASC-nin regional bazalar haqqında əsasnamə"yə uyğun olaraq 9 təchizat bazasının tərkibində "Aqroservis" şəbəkələri yaradılmışdır.

Ulu öndər Heydər Əliyev 1995-ci ildə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaranması haqqında fərman imzalamışdır. "Aqrolizinq" Səhmdar Cəmiyyəti kənd təsərrüfatı sahibkarlarına lizinq xidmətlərinin göstərilməsi üzrə ixtisaslaşmışdır. O, traktorlar, kombaynlar və digər əlaqəli avadanlıqlar daxil olmaqla, kənd təsərrüfatı maşınları və avadanlıqları üçün əlverişli lizinq variantlarını təklif etdi. "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması aqrar sahədə sahibkarların istifadə etdiyi maliyyə mexanizminin əhatə dairəsinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb etdi və bu, onlara ən müasir texnika və texnikalar əldə etməyə imkan verdi [3, s.54].

Heydər Əliyev prezident olduğu müddətdə ölkədə aqrar sektorun müasirləşdirilməsi və təkmilləşdirilməsinə yönəlmiş müxtəlif siyasət və proqramlar həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev kənd təsərrüfatının iqtisadiyyat üçün əhəmiyyətini bilmişdir və hər zaman bu sahənin inkişafına üstünlük vermişdir.

"Aqrolizinq" Səhmdar Cəmiyyətinin əsas təşəbbüslərindən biri kənd təsərrüfatının müasir texnologiya və texnika ilə, o cümlədən damcı suvarma, meliorasiya və müasir əkinçilik texnikası ilə təchizatı olub. [9, s.70].

Bundan əlavə, Ulu öndər Heydər Əliyev, torpaqların özəlləşdirilməsinə imkan verən torpaq islahatları həyata keçirdi ki, bu da sektora investisiya qoyuluşunu və məhsuldarlığı artırdı. Həmçinin kiçik miqyaslı fermerləri dəstəkləmək və onların kənd təsərrüfatı resurslarına və kreditlərə çıxışını artırmaq üçün proqramların təşəbbüskarı olmuşdur.

Sonda Heydər Əliyev Azərbaycanda aqrar sahibkarlığın inkişafı üçün kredit mexanizminin təkmilləşdirilməsinə mühüm töhfələr vermişdir. Onun sektorda sahibkarlığın təşviqinə və sərfəli kreditə çıxışın yaxşılaşdırılmasına yönəlmiş iqtisadi siyasəti və qəbul etdirdiyi dövlət proqramları ölkədə kənd təsərrüfatı sektorunun böyüməsi və inkişafının sürətləndirilməsində mühüm rol oynamışdır.

Bütövlükdə, Heydər Əliyevin səyləri kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının əhəmiyyətli dərəcədə artmasına səbəb oldu, Azərbaycan iqtisadiyyatının yüksəlməsinə, kənd yerlərində yaşayan çoxlu sayda insanların maddi güzəranının yaxşılaşmasına töhfə verdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. /Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir/- http://e-qanun.az/framework/41320
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir /- http://www.president.az/articles/22110
3. Əsədov A.M. Azərbaycan respublikasında kənd turizminin inkişafi bələdiyyə büdcələrinin gəlir mənbəyi kimi. AMEA-nın xəbərləri, İqtisadiyyat elmləri seriyası, 2009 №2, 52-55 s.
4. Hüseynov R.Z. Kənd təsərrüfatının çoxfunksiyalılığı: qlobal iqtisadi sistemdə onun yeri və rolu. Bakı: "MBM" nəşriyyatı, 2008, 336 s.
5. Hüseynov R.Z. Kənd turizmi kəndin inkişaf amili kimi. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri №3, Bakı, 2010, 60-66 s.
6. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modelləşdirmə şəraiti. Bakı: "Mütərcim", 2005, 228 s.
7. Quliyev E. Aqrar iqtisadiyyat, "Kooperasiya" nəşriyyatı. Bakı 2015
8. Morgül Şükran Mercan (2006), Trakya Bölgesinde Kırsal Turizm Potansiyelinin Değerlendirilmesine İlişkin Analiz: Kırklareli Örneği, Yayınlanmamış Yüksek Lisans Tezi, Trakya Üni-

versitesi Sosyal Bilimler Enstitüsü, Edirne, 2006, 70s.
9. Soykan F. (1999). Doğal Çevre ve Kırsal Kültürle Bütünleşen Bir Turizm Türü: Kırsal Turizm. Anatolia: Turizm Araştırmaları Dergisi, 10 (1), 67-75 s. Retrieved from https://dergipark.org.tr/tr/pub/atad/issue/53224/706675

***Арзу Рагим кызы Сулейманова***
***д.ф.э. Азербайджанский Университет Кооперации***
***кафедра "Финансы и банковское дело"***

**Роль Гейдара Алиева в совершенствовании финансо-кредитного механизма развития сельскохозяйственного предпринимательства в Азербайджане**

***Резюме***

Общенациональный лидер Гейдар Алиев сыграл большую роль в достижении экономического развития во всех сферах экономики Азербайджана. Он предпринял многочисленные политические шаги для развития предпринимательства в сельскохозяйственном секторе, а также в других областях экономики. В статье рассматривается развитие аграрного предпринимательства в Азербайджане, совершенствование финансово-кредитного механизма этого развития, роль Гейдара Алиева в этом процессе развития и вклад великого лидера Гейдара Алиева в экономику Азербайджана в целом.

***Ключевые слова: аграрная сфера, предпринимательство, экономическое развитие, финансово-кредитный механизм, ирригация, мелиорация.***

***Arzu Rahim Suleymanova***
***Ph.D in economics, Azerbaijan Cooperation University***
***Teacher of the Department "Finance and banking"***

**The role of Heydar Aliyev in improving the financial credit mechanism of agricultural entrepreneurship development in Azerbaijan**

***Summary***

Great leader Heydar Aliyev played a major role in achieving economic development in all areas of Azerbaijan's economy. He took numerous political steps for the development of entrepreneurship in the agricultural sector as well as in other areas of the economy. The article examines the development of agrarian entrepreneurship in Azerbaijan, the improvement of the financial credit mechanism of this development, the role of Heydar Aliyev in this development process, and the great leader Heydar Aliyev's contribution to the economy of Azerbaijan in general.

***Key words: agrarian sector, entrepreneurship, economic development, financial and credit mechanism, irrigation, melioration.***

**UOT 338.48**

***Firuzə Qaraxan qızı ABBASOVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***Aqrar sahənin və sənayenin iqtisadiyyatı***
***kafedrasının müəllimi, i.f.d.***
***fira_elli@mail.ru***

**İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ**

***Xülasə***

Məqalədə Ermənistanın işğalından azad olunmuş Azərbaycan torpaqlarında turizm potensialından, həmin regiona investisiya cəlb edilməsindən, Qarabağ və Şərqi Zəngəzurun bərpası və ye-

nidən qurulması istiqamətində atılan addımlardan, bu sahədəki dövlət proqram və layihələrinin səmərəliliyindən və onların reallaşması yollarından danışılır. Müəllif, həmçinin işğalaqədərki dövrdə ölkə iqtisadiyyatında Qarabağın iqtisadi potensialının yerini və çəkisini müqayisəli şəkildə təhlil edir. Bundan əlavə, məqalədə münaqişə dövründə region iqtisadiyyatına dəyən ziyan, maddi-mənəvi abidələrin, turizm obyektlərinin məhvi və s. məsələlər araşdırılaraq qiymətləndirmələr aparılmışdır. Məqalənin nəticə hissəsində regionda turizmin inkişaf perspektivləri və istiqamətləri ilə bağlı müəllifin tövsiyə və təklifləri yer almışdır.
***Açar sözlər: Turizm, investisiya, rəqabətlilik, tarixi abidələr, istirahət zonaları.***

***

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının 44 günlük müharibədə düşmən üzərində qəti qələbə qazanması, torpaqlarımızın işğaldan azad olması bütövlükdə regionda ciddi dəyişikliklərə və iqtisadi sıçrayışa səbəb oldu. Ölkə başçısının 10 dekabr 2021-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı işğaldan azad edilən ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafın təmin olunması, müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və s. məsələlərlə bağlı qarşıya konkret vəzifələr qoydu [1].

Onu da qeyd edək ki, 44 günlük müharibədən sonrakı yeni iqtisadi vəziyyət mövcud regional əməkdaşlıq problemlərinin həlli üçün geniş imkanlar yaratdı. Çünki erməni işğalı zamanı region ölkələrinin iqtisadiyyatına və iqtisadi əlaqələrinə ciddi ziyan dəymişdi. Belə ki, Ermənistan tərəfindən Azərbaycanın torpaqlarının işğalı ölkənin iqtisadi inkişaf və istehsalında mühüm rol oynayan ərazilərimizin 20 faizinin itkisinə səbəb olmuşdu. Bunun nəticəsində, ölkənin taxıl istehsalı təxminən 24 faiz, spirt istehsalı 41 faiz, kartof istehsalı 46 faiz, ət istehsalı 18 faiz və süd istehsalı 34 faiz azalmış və ümumiyyətlə, Azərbaycan Ümumi Daxili Məhsulunun (ÜDM) 60 faizini itirmişdi. Həmin dövrə qədər Qarabağ ərazisində olan tarixi abidələr və istirahət zonaları pasportlaşdırılmadığından işğal illərində onların nə qədərinin məhv edildiyini söyləyə bilmərik [2.s.351]. Erməni və xarici şirkətlərin iştirakı ilə işğal olunmuş ərazilərin zəngin təbii sərvətlərinin qanunsuz şəkildə istismarından əldə olunan vəsait qanunsuz və terrorist rejimin maliyyələşdirilməsinə yönəldilmişdi. Rəsmi məlumatlara görə, əvvəllər həmin ərazilərdə 163 növ faydalı qazıntı yataqları mövcud olmuşdu [3]. Göründüyü kimi, Ermənistanın kapitulyasiyasından və Azərbaycan ərazisinin bütövlüyü bərpa edildikdən sonra yaranmış yeni geosiyasi və geoiqtisadi vəziyyət ölkənin iqtisadi inkişafı üçün yeni perspektivlər yaratmış oldu. Ölkə başçısının uzaqgörən və qətiyyətli iqtisadi siyasəti sayəsində Azərbaycan hazırda inkişafının yeni və daha yüksək mərhələsinə daxil olmuşdur. Bu gün ölkəmiz "Dünya rəqabətqabiliyyətliliyi" hesabatında 144 ölkə arasında 38-ci yerə çıxmış, əsas kredit reytinq agentlikləri olan "Fitch Ratings", "Standart & Poor's" və "Moody's"in cədvəlində Azərbaycan investisiya reytinqi yüksək olan ölkələr sırasında yer almışdır [4].

Bu da müharibə bitəndən sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərinə başlanması üçün yeni imkanlar yaratmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının malik olduğu imkanların ölkənin ümumi iqtisadi potensialına daxil edilməsi üçün dövlət tərəfindən bütün lazımi tədbirlər görülməkdədir. Doğrudur, ilk vaxtlarda bəzi yerli və xarici investorlar, sahibkarlar, iş adamları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialına dair ətraflı biliyə malik olmadıqlarından və təhlükəsizliyə zəmanət görmədiklərindən tərəddüd edir, regonal fəaliyyətdə gözləmə mövqeyi tuturdular. Lakin müəyyən müddətdən sonra qeyd edilən sahələrdə aktivlik müşahidə edilməyə başladı. Ölkə başçısnın qeyd etiyi kimi, bu gün tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı, emalı, xidmət sahələri, soyuducu kameraları və s. təşkili ilə məşğul olan və 190 hektar ərazidə yerləşən Ağdam Sənaye Parkı istifadəyə verilmişdir. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilən 10-dan çox layihəyə baxılır ki, Prezidentin qeyd etdiyi kimi, yaxın gələcəkdə onlar da işə salınacaqlar. Sahibkarlar burada tikinti, turizm, istehsal, kənd təsərrüfatı məhsullarının tədarükü, eyni zamanda emalı, həmçinin ticarət və müxtəlif növ xidmət sahələrində fəaliyyət göstərmək üçün geniş imkanlara

malikdirlər. Əslində, hazırda bu regionda aktiv fəaliyyət aşağıda qeyd edəcəyimiz səbəblərdən daha səmərəlidir:

1. Hələlik regionda rəqabət yoxdur, investisiya qoyuluşunda birincilik daha çox qazanc gətirə bilər;

2. Dövlət başçısının 10 dekabr 2021-ci il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin təqdim edilməsi burada fəaliyyəti daha səmərəli edir [1].

Qarabağın işğaldan azad edilməsi, sözsüz, regionda turizmin də inkişafı üçün geniş imkanlar yaratmışdır. Otən tarixə nəzər saldıqda görürük ki, Füzuli, Şuşa, Kəlbəcər, Zəngilan və Laçın rayonları böyük turizm potensialına malik olmuşdur. Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarasının Füzuli rayonunda, İstisuyun, tarixi qalaların, kilsə, məscid və digər mədəni-tarixi abidələrin Kəlbəcərdə, Laçında, Qubadlıda yerləşməsi bu rayonları turistlər üçün həmişə cəlbedici etmişdir. Turizmin inkişafı üçün regionun ekoloji tarazlığının qorunması təxirəsalınmaz vəzifə kimi qarşıda durur. Bunu nəzərə alan Azərbaycan Prezidenti bölgədə “yaşıl enerji” layihələrinin həyata keçirilməsi istiqamətində ardıcıl addımlar atır. O, BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında Qarabağda quruculuq və infrastrukturun bərpası ilə bağlı həyata keçirilən layihələr və investorların cəlb edilməsi probleminə toxunarkən bu məsələyə xüsusi diqqət yetirmişdir. “Yaşıl enerji” layihəsi əslində turizmin bu regionda inkişafına maneə ola biləcək ekoloji problemlərin qarşısını bəri başdan almaq deməkdir [5]

Qarabağ probleminin mövcud olduğu dövrlərdə belə regionun iqtisadi səmərəliliyi Azərbaycanı dünyada investisiya qoyuluşuna görə ən cəlbedici ölkələr sırasına çıxarmışdı. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995-2018-ci illər ərzində Azərbaycana orta hesabla 140 milyard ABŞ dolları həcmində xarici investisiya qoyulmuşdur [6]. Təbii ki, münaqişənin həllindən sonra bu maraq daha da artmış, xüsusilə də regionun turizm sektoru həm xarici, həm də daxili investorlar üçün cəlbedici olmuşdur. Turizm sənayesinin inkişafı üçün ilk növbədə regionda ekoloji baxımdan təmiz zona yaradılmalıdır. Bunun üçün ölkəmizdə hazırda illik 5 min meqavatadək günəş enerjisi, 4 min 500 meqavatadək külək enerjisi, 800 meqavata qədər geotermal yeraltı istilik enerjisi potensialı mövcuddur. Qarabağ regionunun geoloji və coğrafi mövqeyi bu tip enerji mənbələrinin istehsalı üçün olduqca əlverişlidir. Yaxın gələcəkdə Qarabağda alternativ enerjinin istehsalı, külək və günəş enerji stansiyalarının açılması həmin ərazilərə qoyulacaq ciddi investisiyalardan xəbər verir. Bu tip layihələrin həyata keçirilməsi, eləcə də bu layihələr çərçivəsində investisiyaların yatırılması, xarici şirkətlərlə anlaşmalar öz növbəsində regionda “yaşıl iqtisadiyyat” sisteminin qurulmasına da gətirib çıxaracaq.

Ümumiyyətlə, Qarabağın mövcud geoloji mövqeyi, iqlim şəraiti və potensial resursları burada hansı sahələrin prioritet olduğunu müəyyən etməyi asanlaşdırır. Əslində Qarabağ regionunun turizm potensialından əldə olunan gəlir ümumi ölkənin turizm potensialından əldə olunan gəlirdən çox ola bilər. Bunun üçün tarixi yerlərin, eləcə də regionun təbiəti və ekoloji potensialının bərpası sürətlənməli, beynəlxalq turizm təşkilatlarının müəyyənləşdirdiyi şərtlərə uyğun modern turizm şəraiti formalaşdırılmalıdır.

Bundan başqa, regionda müxtəlif müalicə əhəmiyyətli resursların olması burada tibbi turizmin inkişafına da böyük imkanlar yaradır. Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciət edən Prezident İlham Əliyev bildirmişdi: “Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq” [7]

Ekspertlərin də fikrincə, azad olunmuş bölgələrin ən böyük potensialı turizmdir. Məsələn, tibbi, tarixi, istirahət turizmi üçün burada unikal imkanlar var. Lakin dünyanın bir çox turizm mütəxəssisləri bölgədə münaqişənin hələ də tam aradan qalxmadığını əsas gətirərək xarici investisiyalar üçün risklərin olduğunu bildirirlər. Ancaq nəzərə almaq lazımdır ki, investisiya heç də həmişə hər şeyin ideal vəziyyətdə olduğu ərazilərə yatırılmır, dünyanın bir çox ərazilərində belə problemlər olub və bu, investisiya cəlbinə mane olmayıb. İnvestisiya cəlbində digər məsələlər də var. 2021-ci il oktyabrın 27-də Bakıda İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq

Təşkilatının Gənclər Forumunun (ICYF) təşkilatçılığı ilə keçirilən Azərbaycan İnvestisiya və Mədəniyyət Sammitində İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin nazirləri, beynəlxalq təşkilatların və diplomatik korpusun təmsilçiləri, iş adamları, investorlar, gənclər təşkilatları, ümumilikdə 20-dən çox ölkədən nümayəndələr Azərbaycanın işğaldan azad olmuş ərazilərində turizmin inkişafının maliyyələşdirilməsi problemlərinə öz münasibətlərini bildirmişlər. Təkcə siyasi yox, həm də müsəlman ölkələri arasında iqtisadi-ticarət, investisiya, humanitar, elmi-texniki əməkdaşlığı təşviq edən İƏT Qarabağ və Şərqi Zəngəzur regionlarının investisiya potensialının tanıdılması istiqamətində səylərini artıracağını bildirib.

2030-cu ilədək sosial-inkişafa dair Milli Prioritetlərə əsasən, hazırda həyata keçirilən 2022-2026-cı illər üzrə ölkəmizin ortamüddətli strateji inkişaf strategiyasında mühüm məsələlərdən biri kimi işğaldan azad edilmiş ərazilərə yeni vergi güzəştlərinin tətbiq edilməsi məsələsi olmuşdur [8]. Hökumət bu addamları silsilə tədbirə çevirməyə çalışır. Onu da deyək ki, bu tədbirlər Qarabağa və Şərqi Zəngəzura investisiya cəlbində təsirsiz olmamışdır.

Avropa İttifaqı (Aİ) ölkələrində Qarabağa investisiya qoymaq arzusunda olan şirkətlərin sayı artıb. Bakıda keçirilən Aİ-Azərbaycan biznes forumunda qrup rəhbəri Boqdana Efe bildirib ki, Aİ-nin 2021-ci ildə Azərbaycanın işgüzar mühiti ilə bağlı araşdırmasına əsasən, Avropa müəssisələrinin 54 faizi Qarabağ və Şərqi Zəngəzura investisiya qoymaq istəyindədirlər. Onlar biliriblər ki, eyni zamanda şirkətlərin 40 faizi Qarabağ və Şərqi Zəngəzurun hesabına öz bizneslərini genişləndirməyə hazırdır. B.Efenın fikrincə, alternativ enerji, "yaşıl" layihələr və nəqliyyat infrastrukturu Qarabağ və Şərqi Zəngəzurda regionlarında investisiya üçün cəlbedici istiqamətlərdəndir və şirkətlərin 30 faizi bu sahəni vurğulayıb [8]

Ölkəmiz həm də Qara Dəniz Ticarət və İnkişaf Bankını (QDTİB) Qarabağa investisiya qoymağa dəvət edir. Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) "Dəyişən dünyada şaxələndirilmiş və innovativ Azərbaycan iqtisadiyyatının dəstəklənməsində rolu" adlı konfransında Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionun bərpa və yenidənqurma işlərinə ötən il və cari ildə 3 milyard dollardan artıq vəsait ayrıldığı bildirilib.

Qarabağ iqtisadiyyatının dirçəlişində alternativ beynəlxalq maliyyə mənbələrinin istifadəsi üçün nə etmək lazımdır? Ölkə Prezidenti tərəfindən müəyyən edilən iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad olunmuş Qarabağ ərazilərində həmin modelin əsas prinsiplərinə əsaslanaraq Alternativ maliyyə kanallarının tətbiqi məsələsi bu gün əsas müzakirə məsələlərindəndir.

21 iyun 2022-ci il tarixində Şuşa şəhərində Qarabağ Dirçəliş Fondu və Azərbaycan Banklar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən "Qarabağın dirçəlişi – mövcud çağırışlar və yeni imkanlar" mövzusunda işgüzar görüşdə bank sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi və innovativliyini nəzərə alaraq ianə mədəniyyətinin təşviqi, "Böyük Qayıdış" prosesində əhalinin sosial rifahının yüksəldilməsi və biznes imkanlarının stimullaşdırılmasında bankların rolu, Şuşanın resurs və infrastrukturuna əsaslanan investisiya və işgüzar potensialının təhlili, Qarabağda dövlət-özəl sektor tərəfdaşlığının imkanları, Qarabağda mədəni-tarixi abidələrin bərpası məsələləri müzakirə olunub və işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası prosesinə maliyyə dəstəyinin göstərilməsi Qarabağ Dirçəliş Fondunun Nizamnaməsində öz əksini tapıb. Azərbaycan cəmiyyətinin və diasporun geniş dairələrini bərpa işlərinə cəlb etmək, onlarda iştirakın zəruriliyi hissini formalaşdırmaq məqsədilə Qarabağ Dirçəliş Fondu ilk növbədə aşağıda göstərilən mədəni dəyərlərin bərpasına xüsusi diqqət yetirmişdir.

Azad olunmuş ərazilərin dirçəlişi təkcə işğaldan azad edilmiş ərazilərdə infrastrukturun və fiziki obyektlərin bərpasından deyil, həm də ilk növbədə rəqabətli insan kapitalının mövcudluğundan asılıdır. Həmin insan kapitalı əgər vətənpərvərlik, etibarlılıq və məqsəd aydınlığı prinsipləri üzərində formalaşsa, biz tezliklə Qarabağın və Şərqi Zəngəzurun bütün dünyada ən məşhur turizm bölgələrindən olduğunun şahidi olacağıq.

## ƏDƏBİYYAT


1. https://president.az/az/articles/view/54575
2. Hüseynov İlqar, Əfəndiyeva Nigar, "Turizmin əsasları", dərslik, Bakı, "Mars Print", 2007.

3. https://azertag.az/xeber/Qarabagin_butun_faydali_qazinti_yataqlari_yeniden_islenmeli_ve_hemin_yataqlarda_kompleks_tedqiqatlar_aparilmalidir-1671243].
4. https://azerbaijan-news.az/index.php/posts/detail/olke-iqtisadiyyati-suretle-saxelenir-6212].
5. [https:// president.az/az/articles/view/53197].
6. https://meclis.gov.az/news-cari.php?id=242&lang=az
7. https://president.az/az/articles/view/48205.
8. https://banker.az/ai-az%C9%99rbaycan-biznes-muhiti-hesabati-2021-s%C9%99n%C9%99di-t%C9%99qdim-olunub/

***Фируза Гарахан гызы Аббасова***
***д.ф.э., Азербайджанского Университета Кооперации***

***Перспективы развития туризма на освобожденных территориях***

***Резюме***

В статье говорится о потенциале туризма на землях Азербайджана, освобожденных от оккупации Армении, привлечении инвестиций в этот регион, предпринятых шагах по восстановлению и реконструкции Карабаха и Восточного Зангезура, эффективности государственных программ и проектов в этой области. и пути их реализации. Автор также проводит сравнительный анализ места и веса экономического потенциала Карабаха в экономике страны в период до оккупации. Кроме того, в статье описывается ущерб, нанесенный экономике региона в ходе конфликта, разрушение материальных и нравственных памятников, объектов туризма и т.д. были рассмотрены вопросы и даны оценки. В заключительную часть статьи были включены авторские рекомендации и предложения относительно перспектив развития и направлений туризма в регионе.

***Ключевые слова: Туризм, инвестиции, конкурентоспособность, исторические памятники, зоны отдыха.***

***Firuza Garakhan Abbasova***
***Doctor of philosophy in economics***
***Azerbaijan Cooperation University***

***Development prospects of tourism in the liberated territories***

***Summary***

The article talks about the potential of tourism in the lands of Azerbaijan freed from the occupation of Armenia, attracting investment to that region, the steps taken towards the restoration and reconstruction of Karabakh and Eastern Zangezur, the efficiency of state programs and projects in this field and the ways of their realization. The author also comparatively analyzes the place and weight of the economic potential of Karabakh in the country's economy in the period before the occupation. In addition, the article describes the damage to the region's economy during the conflict, the destruction of material and moral monuments, tourism facilities, etc. issues were examined and assessments were made. In the final part of the article, the author's recommendations and suggestions regarding the development perspectives and directions of tourism in the region were included.

***Key words: Tourism, investment, competitiveness, historical monuments, recreation areas.***

UOT 334.7

*Zakir Qəşəm oğlu QULİYEV*
*Bakı Biznes Universiteti*
*i.f.d., "Mühasibat uçotu və audit" kafedrası*
*zakirquliyev@inbox.ru*

# VERGİ SİYASƏTİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ MEXANİZMİ KİMİ

***Xülasə***

Vergilər sahibkarlıq fəaliyyətinin maliyyə nəticələrinə təsir göstərən xarici amillər arasında xüsusi yer tutur. Vergi yükü və vergitutma mexanizmi investisiya layihələrinin həyata keçirilməsi, yeni məhsulların istehsalının təşkili və satışı üzrə idarəetmə qərarlarının qəbulu üçün səmərəlilik meyarları kimi də çıxış edir. Qeyri-təkmil vergi sistemi bir çox hallarda müəssisələrin mürəkkəb və bəzən də çıxılmaz maliyyə vəziyyətinə düşməsinə səbəb olur. Buna görə də, vergilərin sahibkarlığın dövlət tənzimlənməsində yeri və sahibkarlıq fəaliyyətinə təsiri problemlərinin öyrənilməsi mühüm yer tutur. Qeyd olunan problemlərin həllində vergi sisteminin sahibkarlıq fəaliyyətinə təsirinin gücləndirilməsi mühüm rol oynayır. Qüvvədə olan vergi qanunvericiliyinin səmərəliliyi və vergi tənzimlənməsinin təkmillik səviyyəsi ölkə iqtisadiyyatının vəziyyətinə birbaşa təsir göstərir.

***Açar sözlər: vergi sistemi, vergi siyasəti, optimal vergi, vergiqoyma bazası, vergi dərəcələri, vergi xidməti.***

***

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strategiyaya uyğun olaraq, onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə vergi xidmətinin təkmilləşdirilməsi prosesi uğurla davam etdirildi. Dövlət başçımızın müasir vergi sisteminin qurulması istiqamətində qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, bu sahədə ardıcıl islahatlar həyata keçirildi. Vergi ödəyiciləri ilə münasibətlər dövlət və biznesin qarşılıqlı maraqlarına söykənməklə kütləvi nəzarətdən tərəfdaşlıq müstəvisinə çevrildi. Vergi sistemində elektronlaşma və texnologiyaların geniş tətbiqi təsbit edildi. Sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə qeydiyyatının aparılması ölkədə biznes mühitinin sağlamlaşdırılması istiqamətində reallaşdırılan islahatların tərkib hissəsi kimi beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yüksəlməsinə əhəmiyyətli təsir göstərdi.

Hal-hazırkı dövrə qədər sahibkarlıq fəaliyyətinin vergi tənzimlənməsi tam şəkildə tədqiq olunmamışdır. Son dövrlərdə vergilərin istehsal proseslərinə təsirini öyrənən monoqrafiyalar, dissertasiyalar yazılmışdır. Lakin, bu tədqiqatlarda əsas diqqət inflyasiya və tənəzzül dövrlərində sahibkarlıq subyektləri qarşısında dayanan problemlərin həllinə yönəlmiş, istehsalın vergi tənzimlənməsinin nəzəri əsaslarının öyrənilməsinə, bu sahədə tarixi təcrübənin və perspektivlərin tədqiqinə lazımi diqqət yetirilməmişdir. Aydındır ki, respublikamızın sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətindən əhəmiyyətli dərəcədə asılıdır. Bununla əlaqədar olaraq deyə bilərik ki, müasir dövrdə istehsal və xidmət sahələrində sahibkarlığın stimullaşdırılması və səmərəliliyin artırılması əsas problem kimi qəbul olunur. Bu baxımdan problemin həlli istiqamətində "Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında vergi tənzimlənməsinin rolu" mövzusu olduqca aktualdır.

Mövcud vergi sistemində sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektləri dövlət orqanları arasında yaranan münasibətlər, vergilərin sahibkarlıq fəaliyyətinə təsiri, vergi tənzimlənməsinin dövlətin digər tənzimləmə tədbirləri ilə qarşılıqlı təsiri bu tədqiqatın predmeti kimi qəbul olunur. Tədqiqatın obyekti isə ölkənin qüvvədə olan vergi sistemi, sahibkarlıq fəaliyyətinə mühüm təsir göstərən vergilər və vergitutmaya bilavasitə təsir göstərən qiymət, gəlir və məsrəflərin tənzimlənməsi sistemidir. Dövlətin vergi siyasətinin işlənməsi və proqnozlaşdırılması üçün vergitutma nəticəsində yaranan iqtisadi-təsərrüfat münasibətlərinin tədqiqi zəruridir. Dövlət vergi siyasətini həyata keçirərkən vergilərə məxsus funksiyalara söykənir və fəal vergi siyasətinin həyata keçirilməsi üçün bu funksiyalardan istifadə olunur. Dövlət vergi siyasətini həyata keçirmək üçün müxtəlif metodlardan istifadə edir.Vergi siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla, onun həyata keçirilməsinin forma və metodlarından əhəmiyyətli dərəcədə asılıdır [1. s. 36.].

Maksimal vergi siyasəti tətbiq edilən zaman dövlət kifayət qədər yüksək vergi tarifləri müəyyən edir, vergi güzəştlərini azaldır və vergi növlərinin sayını artırır. Dövlət bu cür vergi siyasətinin nəticələrini əvvəlcədən fikirləşmədən, daha böyük məbləğdə maliyyə resurslarını ölkə vətəndaşlarının əlindən alır. Belə vergi siyasəti adətən iqtisadi inkişafın iqtisadi böhran həddinə çatdığı, müharibənin baş verdiyi və digər fövqəladə hallarda aparılır. Maksimal vergi siyasətinin həyata keçirilməsinə kifayət qədər iqtisadi, sosial və hüquqi zəmin olmasına baxmayaraq, bu siyasətin həyata keçirilməsi aşağıdakı neqativ halların yaranmasına gətirə bilər:

- vergilər ödənildikdən sonra vergi ödəyicilərində praktiki olaraq sərbəst maliyyə resurslarının qalmaması və geniş təkrar istehsal üçün imkanın olmaması;
- ölkə iqtisadiyyatının getdikcə iqtisadi böhrana doğru irəliləməsi, bütün sahələrdə istehsalın artım tempinin sürətlə aşağı düşməyə başlaması;
- vergidən yayınmanın geniş miqyas alması nəticəsində büdcəyə çatacaq vəsaitlərin azalması;
- "gizli iqtisadiyyat"ın kütləvi xarakter halını alması və istehsal səviyyəsinin 25-40 % intervalında olması.

Optimal vergilər siyasəti zamanı dövlət sahibkarlıq fəaliyyətinin subyektləri üçün vergo yükünü yüngülləşdirir, onların inkişafına təkan verən əlverişli vergi mühiti yaradır. Bu isə dövlət xərclərinin azalmasına, ilk növbədə sosial proqramların məhdudlaşdırılmasına səbəb olur. Sosial yönümlü yüksək dərəcəli vergi siyasəti həyata keçirilərkən dövlət kifayət dərəcədə yüksək vergilər tətbiq etməklə nəzərəçarpacaq sosial müdafiə proqramları işləyib hazırlayır. Bu zaman büdcə gəlirlərinin böyük hissəsi müxtəlif sosial fondların artırılmasına yönəldilir. Vergi siyasəti iqtisadi inkişaf siyasətini reallaşdırmalıdır. Dövlət sahibkarlar üçün minimal vergi dərəcələri təyin etməklə vergi yükünü yumşaldır və öz xərclərini - ilk növbədə sosial proqramlara yönəldilən məsrəfləri azaldır. Vergi siyasəti həyata keçirilən zaman dövlətin iqtisadiyyatın tənzimlənməsində iştirakı vergi tarifi, vergi güzəştləri, vergi bazası və bir sıra digər vergi alətlərinin köməyi ilə təmin edilir. Bu zaman dövlət vergi alətlərindən istifadənin birbaşa və dolayı metodlarından istifadə edir [2. s. 58.].

Tənzimləmə və stimullaşdırma proseslərinə dövlətin birbaşa təsirinin xarakterik nümunəsi kimi vergi güzəştlərindən istifadə etməklə vergidən tam və yaxud qismən azadetməni misal göstərmək olar. Vergiqoyma bazası gəlir və ya mənfəət olan ayrı-ayrı vergi növləri üzrə vergidən tam azad etmə dövlət tərəfindən iqtisadiyyatın yeni sahələrinin və ya fəaliyyət növlərinin inkişaf etdirilməsi və ölkənin qeyri-əlverişli regionlarına investisiya qoyuluşlarının stimullaşdırılması üçün tətbiq olunur. Vergi mexanizmləri vasitəsi ilə dövlət gəlirlərinin tənzimlənməsi siyasəti vergi dərəcəsi və vergi güzəştləri alətlərinin köməyi ilə təmin olunur [3.s. 28]. Gəlirlərin tənzimlənməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsinin əsas vasitəsi vergi dərəcələri hesab edilir. O, vergi bazasının və ya onun bir hissəsinin faizini müəyyən edir. Hökumət vergi qanunvericiliyində elə bir ciddi dəyişiklik etmədən yalnız tətbiq olunan vergi dərəcələrində düzəliş etməklə vergi tənzimlənməsini həyata keçirir. Dövlət siyasətinin həyata keçirilməsi üçün vergi dərəcəsinin əsas rolu ondan ibarətdir ki, o müxtəlif növ vergi dərəcələrindən proporsional, proqressiv və reqressiv dərəcələr xüsusi əhəmiyyət kəsb edir. Onların köməyi ilə təkcə müxtəlif kateqoriyalı vergi ödəyicilərinin gəlirlərinin formalaşdırılması həyata keçirilir.

Respublikamızda vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- vergi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi və vergi mədəniyyətinin formalaşdırılması;
- vergi ödəyicilərinin fəaliyyəti üçün daha da əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması;
- vergi sisteminin idarəetmə orqanlarının fəaliyyətinin digər dövlət orqanlarının fəaliyyəti ilə səmərəli əlaqələndirilməsi;
- dövlət vergi xidməti orqanları əməkdaşlarının fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmini;
- inkişaf etmiş ölkələrin vergi sisteminin özünü doğrultmuş təcrübəsindən milli-mənəvi dəyərlər nəzərə alınmaqla istifadə olunması;
- sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, sadə və eyni zamanda vergiödəyicisi tərə-

findən başa düşülən vergi sisteminin formalaşdırılması [4. s. 81.].

Vergi siyasətinin həyata keçirilməsi dövləti vergi islahatları aparmağa sövq edən əsas amillərdən biridir. İnkişaf etmiş ölkələrdə hər 5-7 ildən bir əsaslı vergi islahatları, hər 2-3 ildən bir isə fəaliyyətdə olan vergi normalarının səmərəliliyinin hərtərəfli təhlili aparılır. Respublikamızda da vergi sistemi yeni təşəkkül tapsa da, onun təkmilləşdirilməsi istiqamətində davamlı işlər görülür, bəzi boşluqların və neqativ halların aradan qaldırılması məqsədilə davamlı islahatlar həyata keçirilir.

Ölkədə aparılan vergi islahatlarının əsas məqsədi yeni istehsal mülkiyyət münasibətləri şəraitində ölkə iqtisadiyyatının bütün sahələrinin potensial imkanlarından istifadənin səmərəliliyini artırmaqdan, onların dinamik inkişafını təmin etməkdən, sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə, kiçik və orta sahibkarlığın formalaşmasına, ümumiyyətlə iqtisadi sistemdə işgüzarlığı, çevikliyi, təşəbbüskarlığı stimullaşdırmaqla bütövlükdə sosial-iqtisadi inkişafa şərait yaratmaqdan ibarətdir.

**Vergi sisteminin sahibkarlıq fəaliyyətinə təsiri**

Dövlətin iqtisadi siyasəti də məhz sahibkarlığın inkişafını təmin etmək üçün yerli istehsal və sosial infrastrukturun yaradılmasına, güzəştli kreditlərin ayrılmasına, insan və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilə mövcud potensialın reallaşdırılmasına, yerli və xarici investorların ölkəyə, xüsusilə regionlara cəlb olunmasına və digər mühüm istiqamətlərə yönəlmişdir.

Məlumdur ki, dövlət sahibkarlıq fəaliyyətinə inzibati yolla birbaşa və iqtisadi tənzimləmə vasitəsilə dolayı yolla təsir göstərə bilər. Vergi sisteminin sahibkarlıq fəaliyyətinə təsiri həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı xarakter daşıya bilər. Müxtəlif vergi növlərinin tətbiqi və ya ləğv edilməsi, vergi bazasının müəyyən edilməsi qaydalarında dəyişikliklər, vergi dərəcələrinin dəyişdirilməsi, vergi güzəştlərinin təbiqi və ya ləğv edilməsi kimi vasitələrlə dövlət sahibkarlıq fəaliyyətini müəyyən sahələrdə stimullaşdıra və ya məhdudlaşdıra bilər [5. s. 47].

Qeyd etmək lazımdır ki, vergilər sahibkarlıq fəaliyyətinə həm mənfi, həm də müsbət təsir göstərə bilər. Belə ikili təsiri iqtisadi islahatlar aparılmasında, xüsusilə vergi islahatlarında mütləq nəzərə almaq lazımdır. Belə şəraitdə sahibkarlıq fəaliyyəti subyektlərində vergitutma mexanizminin təkmilləşdirilməsi problemlərinə vergilərdən stimullaşdırma üçün istifadə edilməsi, işgüzarlıq fəallığının və təşəbbüskarlığın məhdudlaşdırılması hallarına gətirən təsirlərin aradan qaldırılması aid oluna bilər. Bu baxımdan, verginin istehsalın tənzimlənməsini təmin edə bilən xüsusiyyətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir:

- sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində vergi sisteminin rolununun artırılması;
- dövlətin vergi sistemi ilə pul-kredit sisteminin qarşılıqlı əlaqəsinin xarakterizə edilməsi və bu əlaqələrin səmərəliliyinin yüksəldilməsi;
- həm dövlətin, həm də sahibkarların maraqlarının tarazlaşdırılması və vergitutma prinsiplərinə riayət olunması əsasında vergi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- dövlətin vergi siyasətinin sahibkarlığın vergi tənzimlənməsi ilə əlaqədə araşdırılması və tənzimləmədə vergi siyasətinin rolunun artırılmasına nail olunması;
- xarici ölkələrdə vergi tənzimlənməsinin müasir meyillərinin müəyyən edilməsi və onun səmərəli nəticələrinin tətbiqi;
- sahibkarlığın tənzimlənməsi istiqamətində xarici təcrübə nəzərə alınmaqla investisiya mühiti üçün daha əlverişli şəraitin yaradılması;
- vergi yükünün qiymətləndirilməsi metodikalarının təhlili və təsərrüfat subyektlərinin vergi yükünün yeni metodikasının işlənməsi (biznes mühiti üçün məyyən edilən vergi yükünün azaldılması məqsədilə);
- müəssisələrin istehsal məsrəflərinin vergitutma məqsədləri üçün tənzimlənməsi sisteminin iqtisadiyyatın inkişaf şərtlərinə uyğunluğunun qiymətləndirilməsi;
- istehsalda "sair xərclər"in vergi məqsədləri üçün reqlamentasiyası praktikasının təhlili və onun təkmilləşdirilməsi;
- vergitutma sistemində amortizasiya ayırmalarının uçotu praktikasının təhlili və onun təkmilləşdirilməsi;
- mənfəət vergisinə təsir göstərən qiymətlərin dövlət tənzimlənməsi praktikasının qiymətləndirilməsi və təkmilləşdirilməsi istiqamətlərinin göstərilməsi;

- müəssisənin maliyyə nəticələrinə təsir göstərən vergilərin tədqiqi (mənfəət vergisi, ƏDV, mədən vergisi və s.) və onların tənzimləmə rolunun artırılması və vergilərin fiskal funksiyası ilə digər funksiyalarının mütənasibliyinin təmin edilməsi.

Sahibkarlıq fəaliyyətinin daha da stimullaşdırılması məqsədilə vergilərin tənzimləyici rolunun artırılması istiqamətində aşagıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab etmək olar:

- xarici təcrübə nəzərə alınmaqla sahibkarlıq fəaliyyətinə mənfi təsir edən inzibati maneələrin azaldılması və qeydiyyat prosedurlarının daha da sadələşdirilməsi;
- yaranmış ödəməmələr sisteminin aradan qaldırılması, qarşılıqlı silinmə mexanizmlərindən imtina edilməsi, dövlət borclarının vaxtında ödənilməsi;
- vergitutma məqsədləri üçün istehsal məsrəflərinin dövlət tərəfindən reqlamentləşdirilməsi praktikasının təkmilləşdirilməsi;
- məhsulun və aktivlərin rentabelliyindən, xüsusilə mənfəətin gizlədilməsi imkanlarının mövcudluğundan (xüsusilə ticarətdə) asılı olaraq vergi yükünün sahələr üzrə diferensiasiyası zərurətinin nəzərə alınması;
- müasir şəraitdə sahibkarlıq subyektlərinə dövlətin vergi təsirlərinin metodlarının (əsas meyilləri) müəyyən edilməsi;
- təsərrüfat subyektlərinin nisbi və mütləq vergi yüklərinin hesablanması metodikasının, onun optimallaşdırılması və müəssisələr üçün yüngülləşdirilməsi yollarının müəyyən edilməsi;
- kiçik müəssisələr üzrə vergitutma mexanizminin inkişafı istiqamətində səmərəli tədbirlərin görülməsi;
- büdcə gəlirlərinin sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi hesabına artırılmasına nail olunması;
- optimal vergi yükü meyarına əsaslanaraq sahibkarlığın vergi tənzimlənməsi konsepsiyasının hazırlanması;
- ƏDV-nin istehsal və xidmət sahələrində (zəruri istehlak nəzərə alınmaqla mal növləri üzrə) fərqli dərəcələr üzrə tətbiqi praktikasından istifadənin mümkünlüyünə baxılması; [6. s. 52].

Vergi islahatının həyata keçirilməsi vergitutmanın mütərəqqi prinsiplərinə uyğun olmalı, ölkənin iqtisadi inkişafı, sahibkarların və bütövlükdə əhalinin sosial-iqtisadi maraqları nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, 27 fevral 2014
2. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası, 29 dekabr 2012
3. Vergi Ensiklopediyası, Bakı 2013
4. Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu, Elmi-praktiki konfrans materialı. Şamaxı, 5 iyun 2015.
5. F.Ə.Məmmədov, A.F.Musayev, M.M.Sadıqov, Y.A.Kəlbiyev, Z.H.Rzayev, “Vergilər və Vergitutma” Bakı 2010
6. Y.A.Kəlbiyev, R.B.Məhərrəmov, P.Q.Rzayev Xarici ölkələrin vergi sistemi. Bakı 2011.

***Закир Гашам оглы Гулиев***
***д.ф.э.н., Вакинский Университет Бизнеса***

***Налоговая политика как механизм регулирования предпринимательской деятельности***

***Резюме***

Налоги занимают особое место среди внешних факторов, влияющих на финансовые результаты предпринимательской деятельности. Налоговая нагрузка и механизм налогообложения также выступают критериями эффективности принятия управленческих решений по реализации инвестиционных проектов, организации производства и реализации новой про-

дукции. Во многих случаях несовершенство налоговой системы приводит предприятия к сложному, а иногда и безвыходному финансовому положению. Поэтому важно изучить место налогов в государственном регулировании предпринимательства и проблемы их влияния на предпринимательскую деятельность. Важную роль в решении обозначенных проблем играет усиление воздействия налоговой системы на предпринимательскую деятельность. Эффективность действующего налогового законодательства и уровень сложности налогового регулирования оказывают существенное влияние на состояние экономики страны.

***Ключевые слова: налоговая система, налоговая политика, оптимальный налог, налоговая база, налоговые ставки, налоговая служба.***

***Zakir Gasham Guliyev***
***PhD in economics, Baku Business University***
***lecturer in "Accounting and audit"***

***Tax policy as a mechanism for regulating entrepreneurial activity***

***Summary***

Taxes occupy a special place among the external factors affecting the financial results of entrepreneurial activity. The tax burden and the taxation mechanism also act as efficiency criteria for making management decisions on the implementation of investment projects, the organization of the production and sale of new products. In many cases, the imperfect tax system causes enterprises to fall into a complicated and sometimes desperate financial situation. Therefore, it is important to study the place of taxes in the state regulation of entrepreneurship and the problems of their impact on entrepreneurial activity. Strengthening the impact of the tax system on entrepreneurial activity plays an important role in solving the mentioned problems. The effectiveness of the current tax legislation and the level of sophistication of tax regulation have a significant impact on the state of the country's economy.

***Key words: tax system, tax policy, optimal tax, taxation base, tax rates, tax service.***

**UOT: 338.242.4**

***Ağa-Kərim Hüseyn-Ağa oğlu HACIYEV***
***PhD, baş elmi işçi***
***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi***
***İqtisadiyyat İnstitutu***
***https://orcid.org/0000-0003-1750-5147***
***a.h.haciyev@gmail.com***

# AZƏRBAYCANDA MAKROİQTİSADİ TƏNZİMLƏMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARI

***Xülasə***

Tədqiqat işinin məqsədi mövcud şəraitdə Azərbaycanda iqtisadi artım və inflyasiya əlaqələrinin təkmilləşdirilməsi imkanlarının müəyyənləşdirilməsidir. Metodologiya olaraq statistk və analitik təhlillər üzrə sistemləşdirmə üsulu istifadə olunub. Nəticələrdə ölkədə mövcud olan tənzimləmə təcrübəsi şəraitində inflyasiya və iqtisadi artım əlaqələri üzrə mövcud olan qüsurlar və onların aradan qaldırılması imkanları müəyyənləşdirilir. Tədqiqatın tətbiqi əhəmiyyəti: nəticələr müvafiq iqtisadi qurumlar tərəfindən ölkədə reallaşdırılan tənzimləmə rejiminin təkmilləşdirilməsində istifadə oluna bilər. Tədqiqatın orijinallığı və elmi yeniliyi: Azərbaycanda inflyasiya və iqtisadi artım əlaqələrinin qiymətləndirilməsində yeni yanaşmanın müəyyənləşməsi və tətbiqinin zəruriliyi.

***Açar sözlər: inflyasiya, iqtisadi artım, makroiqtisadi tənzimləmə.***

***

Azərbaycanda radikal iqtisadi islahatların başlandığı ilk illərdən – 1995-ci ilin əvvəllərindən etibarən makroiqtisadi tənzimləmənin prioritet hədəfi qismində qiymətlərin sabitliyinin (inflyasiyanın mümkün kiçik səviyyəsinin) təmin olunması çıxış edir. Uzun illərin təcrübəsi göstərdi ki, belə yanaşma ölkədə dayanıqlı makroiqtisadi sabitlik və iqtisadi artımda davamlılığın təmin olunması üçün yalnız zəruri şərt qismində çıxış edə bilir, makroiqtisadi siyasətin digər əsas hədəfləri üzrə müsbət dinamikanın təmin olunması üçün isə yetərli (kafi şərt) deyil. Başqa sözlə, tənzimləmənin yalnız inflyasiyanın minimumlaşdırılması istiqamətində reallaşdırılması bir sıra aparıcı makro parametrlərin real qiymətlərində pozitiv dəyişikliklər müəyyənləşdirməyə də bilir. Bu isə ölkədə əmək resurslarından istifadə, iqtisadiyyatın qeyri-neft sektoruna yönəlik özəl investisiyaların yüksəldilməsi baxımından səmərəli makroiqtisadi şəraitin formalaşmasını mümkünsüz edir (belə parametrlər qismində ilk növbədə manatın real və real effektiv məzənnəsi, real faiz dərəcəsi və s. çıxış edir).

Ümumiyyətlə götürülərsə iqtisadiyyatda qiymət sabitliyinin təmin olunması makroiqtisadi tənzimləmənin istər nəzəri, istərsə də praktiki təcrübəsində qəbul olunmuş ümumi yanaşmadır. Yəni, kiçik səviyyəli inflyasiya tənzimləmədə prioritet hədəf qismində müəyyənləşirsə, hesab edilir ki, bu və tədiyyə balansı üzrə vəziyyətin nəzarətdə saxlanılması dayanıqlı iqtisadi artımın təmin olunması üçün yetərlidir. Əks təqdirdə, yəni, ölkədə qiymətlərin yüksək artım templəri, yüksək inflyasiya şəraitində makroiqtisadi siyasətdə ümumilikdə, fiskal və monetar siyasətlərin əlaqələndirilməsində, o cümlədən, çatışmazlıqlar, həlli zəruri olan problemlər mövcuddur.

Müstəqillik illəri Azərbaycanın iqtisadi inkişaf tarixinə nəzər salsaq yüksək inflyasiya şəraiti (məsələn, 1992-1994-cü illər ərzində mövcud olmuş hiper inflyasiya şəraiti) həqiqətən qiymətlərin artım sürətinin zəiflədilməsini tələb edirdi, belə vəziyyət tənzimləmədə birmənalı olaraq inflyasiyanın kəskin azaldılmasını prioritet kimi müəyyənləşdirirdi. Lakin iqtisadiyyatın istənilən vəziyyətində tənzimləmənin müstəsna olaraq belə prioritetin təmin olunması üzrə reallaşdırılması, inflyasiyanın iqtisadi artımın təmin olunması baxımından məqbul olan yüksək və ya orta səviyyələrində onun azaldılması səmərəli tənzimləmə rejimi olmaya da bilir. Çünki, qısa müddətli dövrdə belə tənzimləmə iqtisadiyyatda məşğulluğun artırılmasına, uzunmüddətli dövrdə isə ümumilikdə iqtisadi inkişafa neqativ təsirlər müəyyənləşdirə bilir. Bu səbəbdən də inkişaf etmiş ölkələr üçün inflyasiyanın orta illik 2-3%-lik səviyyəsinin prioritet kimi müəyyənləşməsi inkişaf etməkdə olan, o cümlədən, Azərbaycan iqtisadiyyatı üçün səmərəli olmaya da bilər.

Elmi ədəbiyyatda da aparılmış araşdırmaların nəticələri göstərir ki, /1,2/ fərqli ölkələr üzrə yüksək inflyasiya şəraitində real iqtisadi artım göstəriciləri yüksək və əksinə, kiçik inflyasiya şəraitində bu göstəricilər zəif, qeyri-məqbul ola bilir. Bundan əlavə, əgər inflyasiya mümkün ola biləcək yuxarı həddi aşmırsa, tənzimlənən real parametrlərə neqativ təsirlər müəyyənləşdirmirsə, bu halda onun azaldılması istiqamətində tədbirlərin reallaşdırılması izafi, yəni, itirilmiş, səmərəsiz xərclərdir. Yalnız inflyasiyanın mövcud səviyyəsinin iqtisadi artıma və makroiqtisadi tənzimləmənin digər aparıcı parametrlərinin real ifadədə qiymətlərinə neqativ təsirlər müəyyənləşdirdiyi hallarda onun səviyyəsi yüksək hesab edilir və tənzimləmədə onun azaldılması zərurəti yaranır. Qeyd olunanlar Azərbaycanda inflyasiya və iqtisadi artım arasında səmərəli əlaqələndirmənin müəyyənləşməsini, makroiqtisadi tənzimləməni Mərkəzi bankın Bəyanatında /3/ göstərilən ...”qiymətlərin sabitliyi ilə iqtisadi artım (məşğulluq) səviyyəsi üzrə dəyişikliklər arasında çevikliyin; investisiya-biznes fəallaşmasının təmin edilməsi”...istiqamətində təkmilləşdirilməsini aktual məsələ kimi müəyyənləşdirir.

Məlumdur ki, inflyasiya ilə iqtisadi artım arasında birbaşa əlaqələrin müəyyənləşdirilməsi üzrə tədqiqatların konkret nəticə verməməsi son dövrlər belə əlaqənin qiymətləndirilməsi üçün inflyasiyanın digər iqtisadi parametrlərdə müəyyənləşdirdiyi dəyişikliklər əsas götürülməyə başlanıb /4,5/. Bu baxımdan ən geniş yayılmış tədqiqat istiqamətlərindən biri inflyasiya ilə real pul kütləsi (M2 pul aqreqatının inflyasiya üzrə korrektə edilmiş səviyyəsi) və real pul kütləsi (RPK) ilə iqtisadi artım arasında mövcud olan yüksək korrelyasiya asılılığından istifadədir. Yəni, iqtisadiyyatda ÜDM o hallarda artır ki: (a) qiymətlərin sabitliyi şəraitində (inflyasiyanın kiçik səviyyələrində) M2 pul kütləsi artır; (b) inflyasiyanın yüksələn səviyyəsini isə pul kütləsinin artımı üstələyir.

Başqa sözlə, ölkə iqtisadiyyatında yüksək inflyasiya şəraitində də iqtisadi artımın sürətlənməsi mümkündür, mühüm olan şərt dövriyyədə olan pul kütləsinin artımının inflyasiyanı üstələməsidir. Eyni ilə, ÜDM o hallarda azalır ki: (a) iqtisadiyyatda inflyasiya səviyyəsi nominal pul kütləsinin artım sürətini üstələyir; (b) qiymətlərin sabitliyi şəritində pul kütləsinin azalması baş verir və ya onun azalmasını üstələyir. Yəni, kiçik inflyasiya şəraitində də iqtisadi tənəzzül mümkündür, əgər dövriyyədə olan pul kütləsinin azalma sürəti inflyasiya səviyyəsindən yüksəkdirsə.Başqa sözlə, əgər RPK ilə ÜDM arasında asılılıq müşahidə olunursa, bu asılılıq üzrə inflyasiya ilə iqtisadi artım arasında konkret əlaqələr müəyyənləşə bilir .

Dünya ölkələrinin təcrübəsində bu asılılığı təsdiq edən kifayət qədər çox sayda nümunələr mövcuddur, yanaşmanın yetərincə əsaslı olmasını göstərən bariz nümunə isə Türkiyədə tətbiq olunan makroiqtisadi tənzimlənmə rejimidir. Belə ki, iqtisadiyyatda son illər bir tərəfdən türk lirəsinin əsaslı ucuzlaşması, inflyasiyanın sürətlənməsi və bu proseslərin əsas təkanverici qüvvəsi kimi mərkəzi bank tərəfindən faiz dərəcəsinin endirilməsi, digər tərəfdən isə ÜDM-in artımı, ixacın artımı, ölkənin qızıl-valyuta ehtiyatlarının artımının müşahidə edilməsidir .




**Şək. Dövlət büdcəsi xərcləri, ÜDM-də faizlə**

Məruzədə ölkədə tətbiq olunan mövcud tənzimləmə rejiminin nəzəri yanaşmalar baxımından təkmilləşdirilməsinin alternativ istiqaməti kimi tənzimləmədə prioritet olaraq iqtisadi aktivliyin stimullaşdırılması (şərti olaraq Türkiyə modeli), yəni, yüksək inflyasiya şəraitində iqtisadiyyatın qeyri-neft sektorunun inkişafının sürətlənməsinə təkan verə biləcək makroiqtisadi şəraitin formalaşması imkanları araşdırılır. Belə yanaşma nəticə etibarı ilə real göstəricilərin - manatın real və real effektiv məzənnəsi, real faiz dərəcəsi, əhalinin real gəlirləri, qeyri-neft sektoru üzrə özəl investisiyaların səviyyəsi və strukturu, büdcə daxilolmalarının səviyyəsi və strukturu üzrə pozitiv dəyişikliklərin əldə olunmasını təmin edə bilər. Bu yanaşmalar çərçivəsində özəl investisiyalar mühitinin aktivləşdirilməsi məqsədi ilə Mərkəzi Bank inflyasiyanın artımı və ya qiymətlərin sabitliyinin təmin olunmasının stimullaşdırılmasının səmərəli müddətlərini müəyyənləşdirməli, dövriyyədə olan pul kütləsinin müəyyən dövrlərdə istehsalın artırılması məqsədi ilə genişlənməsini, müəyyən dövrlərdə isə qiymətlərin sabitliyinin təmin olunması məqsədi ilə artım tempinin zəiflədilməsini təmin etməlidir. Belə tənzimləmə şəraitində mühüm olan qeyd olunan dövrlərin düzgün müəyyənləşməsidir, əks təqdirdə, qiymətlərin sabitliyinin təmin olunması məqsədi ilə dövriyyədə olan pul kütləsinin artım templərinin zəiflədilməsi istehsalın artımında qeyri-sabitlik müəyyənləşdirə bilər.

Azərbaycanda əsaslı islahatların başlandığı ilk illərdən etibarən inflyasiya-iqtisadi artım əlaqələrinin təhlili, tənzimlənən digər parametrlərin real ifadədə dinamikası nəzərə alınaraq, ölkədə makroiqtisadi tənzimləmənin fərqli dövrlərdə fərqli səmərəliliklə reallaşdırıldığını aydın göstərir . Belə ki, məlumatlardan göründüyü kimi, bir dövrdə yüksək inflyasiya şəraitində - yüksək iqtisadi artım, digərində isə iqtisadi tənəzzül (staqflyasiya); bir dövrdə kiçik (birrəqəmli) inflyasiya şəraitində yüksək və ya yüksələn iqtisadi artım, digərində isə - staqnasiya və iqtisadi tənəzzül müşahidə edilir. Bu baxımdan qeyd olunan illər ərzində aşağıdakı dövrləri fərqləndirmək mümkündür:

inflyasiyanın sürətlə azalaraq deflyasiya ilə əvəzləndiyi və iqtisadi artımın sürətləndiyi dövr (1995-1999-cu illər);

inflyasiyanın stabil kiçik (orta illik 2-3% səviyyəsi) və yüksək iqtisadi artım templəri dövrü (2000-2004-cü illər);

yüksək ikirəqəmli inflyasiya və yüksək ikirəqəmli iqtisadi artım templəri dövrü (2005-2008-ci illər);

inflyasiyanın kiçik bir rəqəmli və iqtisadi artım templərinin sürətli azalma, nəticə etibarı ilə staqnasiya ilə əvəzləndiyi dövr (2009-2011-ci illər);

kiçik inflyasiya və kiçik iqtisadi artım templəri illəri (2012-2014-cü illər);

yüksək inflyasiya və iqtisadi tənəzzül, staqflyasiya dövrü (2015-2017-ci illər);

kiçik inflyasiya və kiçik iqtisadi artım templəri illəri (2018-2019-cu illər);

kiçik inflyasiya və əsaslı iqtisadi tənəzzül dövrü (2020-ci il);

inflyasiya və iqtisadi artımın sürətləndiyi illər (2021-2022-ci illər);

Baxılan dövrlər üzrə ayrı-ayrılıqda inflyasiya-iqtisadi artım göstəriciləri ilə yanaşı tənzimlənən aparıcı parametrlərin real ifadədə qiymətlərinin təhlili iqtisadiyyatda baş verən əsaslı dəyişikliklər və ümumilikdə reallaşdırılan makroiqtisadi tənzimləmənin keyfiyyətinin qiymətləndirilməsinə imkan verir. Belə ki, müstəqilliyimizin ilk illəri (1992-1994-cü illər) iqtisadiyyatda mövcud olmuş tənzimləmə rejimi inflyasiya və faiz dərəcəsinin kəskin artımı ilə nəticələnmişdi (dörd rəqəmli inflyasiya və üçrəqəmli faiz dərəcəsi). Bu səbəbdən də tənzimləmə rejiminin təkmilləşdirilməsi (yenilənməsi) obyektiv zərurət idi. Bu illər ərzində ölkədə, BVF-nin tövsiyələri üzrə, tətbiq olunan makroiqtisadi tənzimləmə rejimi (Mərkəzi Bankın yenidən maliyyələşdirmə üzrə faiz dərəcəsinin tənzimlənməsi ilə dövriyyədə olan pul kütləsinin genişlənib/sıxılması) aşağıdakı istiqamətlər üzrə təkmilləşdirildi: (a) ilk növbədə, inflyasiyanın zəiflədilməsi məqsədi ilə manatın daxili dönərliyi təmin edildi (neft bonusları və Beynəlxalq maliyyə təşkilatları tərəfindən islahatların reallaşdırılması məqsədi ilə təqdim edilmiş vəsaitlər əsasında) və nominal mübadilə məzənnəsinin ardıcıl möhkəmlənməsi rejimi reallaşdırılmağa başladı; (b) dövlət büdcəsi üzrə xərclərin artımında sərt azalma və müvafiq olaraq büdcə kəsrinin ÜDM-də pay çəkisinin azaldılması təmin edildi; (c) Mərkəzi bankın yenidən maliyyələşdirmə üzrə faiz dərəcəsi sərt azalıdılmağa və paralel olaraq kommersiya banklarının kreditləşdirilməsində sərt məhdudlaşdırma, bankların təmərküzləşməsi (kiçik bankların bazardan sıxışdırılıb çıxarılması, bank kapitalına olan tələbin ardıcıl yüksəlişi) başlanıldı və s. BVF-nin tövsiyələri üzrə ölkədə davamlı makroiqtisadi sabitliyin formalaşması və dayanıqlı iqtisadi artımın təmin olunması modelinin reallaşdırılması sonrakı illər bu rejimin bəzi qüsurlara malik olduğunu göstərdi. Neqativ nəticələrdən ən mühümü - iqtisadiyyatın strukturu və manatın paritet məzənnəsi üzrə (PPS) müəyyənləşən deformasiyalar idi. Qiymət amili üzrə rəqabətqabiliyyətliliyin pozulması nəticəsində bu illər ərzində müşahidə olunan yüksək iqtisadi artım templəri bir mənalı olaraq neft sektoruna yönəli investisiyaların kəskin artımı ilə müəyyənləşirdi, real parametrlərdəki neqativ meyillər isə iqtisadiyyatın qeyri-neft sektoru üzrə aktivliyin zəifləməsini, qeyri-neft sektorunun inkişafında kəskin azalmanı, iqtisadiyyatda baş verən struktur dəyişiklikləri ilə bağlı olaraq əhalinin məşğulluq səviyyəsində azalmanı müəyyənləşdirdi.

Eyni ilə Azərbaycanda makroiqtisadi inkişaf göstəricilərinin qiymətləndirirlməsi baxımından digər xarakterik dövrlər mövcuddur: 2005-2008-ci illər - manatın real mübadilə məzənnəsinin ardıcıl olaraq möhkəmlənməsi, real pul kütləsinin 2006-2007-ci illər ərzində azalması, real faiz dərəcəsinin kəskin artımı; 2009-2011-ci iilər, iqtisadi artımın ardıcıl olaraq zəifləməsi və yekunda, 2011-ci il staqnasiya ilə əvəzlənməsini; 2015-ci il real pul kütləsinin azalmasının (təqribən iki dəfə), 2016-2018-ci illər əsaslı iqtisadi tənəzzül və iqtisadi staqnasiyanı müəyyənləşdirməsi və s.

Orta müddətli dövrdə ölkədə makroiqtisadi şəraitin 3 (üç) mümkün ssenaridən biri üzrə inkişaf etməsi mümkündür (hər üç variant üzrə tədiyyə balansında mümkün ola biləcək dəyişikliklər əsas götürülür): 1. baza ssenari (rəsmi ölkə hökuməti tərəfindən müəyyənləşmiş ssenari) - tədiyyə balansı üzrə müsbət saldo saxlanır, lakin profisit azalır; 2. pessimist ssenari - tədiyyə balansı üzrə kəsir formalaşır; 3. optimist ssenari - tədiyyə balansı üzrə profisit artır. Hər 3 ssenari üzrə inflyasiya riskləri, məzənnə riskləri, faiz dərəcəsi riskləri, banklarda likvidlik riskləri və əsas aparıcı parametrlər üzrə tənzimləmənin mümkün nəticələri qiymətləndirilməlidir. Alternativ ssenari – məzənnə rejimi üzrə mümkün ola biləcək təkmilədirmələrdir. Dünya təcrübəsində mövcud olan nümunələrə müvafiq olaraq belə istiqamətlər sırasında inflyasiyanın hədəflənməsi, ÜDM-in hədəf-

lənməsi, aydın nominal hədəfin olmaması rejimlərinin tətbiqi çıxış edir Müəllif tərəfindən aparılmış araşdırmaların nəticələri göstərir ki, hazırda Azərbaycanda inflyasiyanın hədəflənməsi və ya inflyasiyanın çevik hədəflənməsi rejimlərindən birinin tətbiqi üzrə tənzimləmənin təkmilləşdirilməsinə alternativ variant mövcud deyil.

## ƏDƏBİYYAT


1. Robert J. Barro, Inflation and Economic Growth, NBER Working Paper 5329 (1995)
2. Stanley Fischer, Role of Macroeconomic Factors in Growth, NBER Working Paper No. 4565 (1993)
3. "Azərbaycan Respublikası Mərkəzi Bankının 2020, 2021. 2022-ci illər üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatları": https://www.cbar.az/page-14/main-directions-of-the-monetary-policy;
4. Гаджиев А.Г. Особенности макроэкономической стабилизации в странах с развивающимися финансовыми рынками // В кн.: "Глобальный мир: антикризисные императивы, модернизация, институты" - Москва, "Вузовская книга", 2012г.
5. Гаджиев А. Проблемы налогово-бюдженой политики и стабилизации экономики Азербайджана // М: "Финансы и Кредит", №34, 2014



***Ага-Керим Гусейн-Ага оглы Гаджиев***
***PhD, главный научный сотрудник***
***Институт Экономики при Министерства Науки и Образования Азербайджанской Республики***
***https://orcid.org/0000-0003-1750-5147***
***a.h.haciyev@gmail.com***


## Возможности совершенствования макроэкономического регулирования в Азербайджане


***Резюме***

Целью исследования является оценка возможностей улучшения процесса взаимодействия экономического роста и инфляции в Азербайджане в памках сложившейся системы регулирования. Методологией исследования является систематизация аналитических подходов, существующих в научной литературе. В условиях сложившесей в стране системы макроэкономического регулирования определены имеющиеся дефекты в практике учета взаимосвязи между инфляцией и экономическим ростом и определены возможности их устранения. Прикладная значимость исследования: результаты могут быть использованы соответствующими экономическими институтами для улучшения режима регулирования реализуемого в стране. Оригинальность и научная новизна исследования: обоснование необходимости применения нового подхода к оценке взаимосвязи между инфляцией и экономическим ростом в Азербайджане.



***Ключевые слова: инфляция, экономический рост, макроэкономическое регулирование.***



***Aga-Kerim Huseyn-Aga Hajiyev***
***Ph.D., associate prof.***
***Institute of Economics under the Ministry of Science and Education of the Republic of Azerbaijan,***
***https://orcid.org/0000-0003-1750-5147***
***a.h.haciyev@gmail.com***


## Opportunities for improving macroeconomic regulation in Azerbaijan


***Summary***

The purpose of the study is to assess the possibilities for improving the process of interaction between economic growth and inflation in Azerbaijan in the context of the existing regulatory

system. The research methodology is the systematization of analytical approaches that exist in the scientific literature. Under the conditions of the system of macroeconomic regulation that has developed in the country, the existing defects in the practice of accounting for the relationship between inflation and economic growth are identified, and the possibilities for their elimination are identified. Applied significance of the study: the results can be used by the relevant economic institutions to improve the regulatory regime implemented in the country. Originality and scientific novelty of the research: substantiation of the need for a new approach to assessing the relationship between inflation and economic growth in Azerbaijan.
***Key words: inflation, economic growth, macroeconomic regulation.***

**UOT- 33.657**

***Aynur Əsgər qızı ADIGÖZƏLOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Mühasibat uçotu və audit” kafedrası, b/m, i.f.d.***
***E-mail: adigozalovaaynur888@gmail.com***
***https://orcid.org/my-orcid?orcid=0000-0002-5696-2730***

# HEYDƏR ƏLİYEVİN BAZAR İQTİSADİ İNFRASTRUKTURLARI SİSTEMİNDƏ AUDİTƏ VERDİYİ DƏYƏR

***Xülasə***

Qeyd etmək lazımdır ki, Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində geniş miqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axınının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır. İndiki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır.

Qeyd etmək lazımdır ki, Auditorlar Palatasının fəaliyyətə başlaması və bunun əsasında ölkədə audit sisteminin formalaşıb inkişaf etməsi ulu öndər Heydər Əliyevin demokratik dünya meyarlarına sədaqətinin, bazar iqtisadi infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürüdür. 1990-cı illərin sonlarında qəbul edilmiş digər bir sıra fərman və sərəncamlarda da auditin inkişafı dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi dəyərləndirilmiş və auditin qarşısında yeni vəzifələr qoyulmuşdur. Bu məqalədə məhz həmin vəzifələrin həllinə nail olmaq üçün 1998-1999-cu illərdə Azərbaycanda auditin ilk inkişaf konsepsiyası işlənib hazırlanmış, bazar iqtisadiyyatının bu mühüm infrastruktur sahəsinin inkişaf prioritetləri müəyyənləşdirilmişdir. Azərbaycanda müstəqil auditin təşəkkülü dövrü də həmin illərə təsadüf edir.
***Açar sözlər: audit sistemi, azad sahibkarlıq, maliyyə nəzarəti, kölgə iqtisadiyyatı, maliyyə əməliyyatları.***

***

2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə iqtisadi islahatların uğurla həyata keçirilməsində, azad sahibkarlıq fəaliyyətinin formalaşmasında və inkişafında mühüm rol oynayan, maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış sivil forması və mühüm bazar infrastrukturu olan auditor fəaliyyətinin təşkili və təşəkkülü “Auditor xidməti haqqında” Qanuna uyğun olaraq həyata keçirilir.

Auditorlar Palatasının intensiv fəaliyyəti sayəsində Azərbaycanda audit sistemi bərqərar olmuş, auditor xidmətlərinin həcmi və əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizədə, kölgə iqtisadiyyatının aradan qaldırılmasında, maliyyə hesabatlılığının təkmilləşdirilməsində, bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu xeyli artmışdır. Auditorlar Palatasının beynəlxalq əlaqələri genişlənmişdir. Bunlar, eyni zamanda

ölkə prezidentinin müstəqil auditor xidməti qarşısında qoyduğu beynəlxalq audit standartlarının və praktikasının ölkəmizdə tətbiqi kimi mühüm vəzifələrin icrası sayəsində mümkün olmuşdur [1. səh. 5]

Audit nəzarəti dediyimiz zaman, əmtəə istehsalı və xidmət göstərilməsi ilə məşğul olan subyektlərin mühasibat uçotunun düzgün aparılmasının yoxlanılması, habelə maliyyə hesabatlarının yoxlanılması başa düşülür. İqtisadi subyektlərin maliyyə hesabatlarının yoxlanılması özündə müəssisənin öhdəliklərinin, kapitalının və bütövlükdə maliyyə göstəricilərinin hesabatlarda düzgün formada əks etdirilməsini ehtiva edir. Subyektlərin, daha dəqiq desək, azad sahibkarlıqla məşğul olan şirkətlərin maliyyə-təsərrüfat fəaliyyətinə dövlət nəzarəti məhduddur. Belə desək, qeyri-dövlət müəssisələrinin fəaliyyətinə birbaşa formada nəzarət edilməsi halları yolverilməzdir. Amma dövlət, iqtisadi subyektlərin qanunlarından irəli gələn tələblərin həyata keçirilməsində maraqlıdır. Bütün sadaladıqlarımızdan belə nəticəyə gələ bilərik ki, auditor nəzarəti, maliyyə hesabatlarının, mühasibat uçotunun aparılmasının qüvvədə olan qanunlara, aktlara uyğunluğunun müstəqil şəkildə auditorlar tərəfindən yoxlanılmasıdır [2, səh. 13]. Auditor nəzarəti 2 formada aparılır: məcburi audit; könüllü audit.

Qrafik 1. Auditin aparılması qrafiki




*Mənbə: Azərbaycan Respublikası Auditorlar palatası tərəfindən keçirilmiş sorğu.*

Məcburi audit dedikdə, illik maliyyə hesabatlarının məcburi şəkildə yoxlanılması başa düşülür. “Auditor xidməti haqqında” Qanuna əsasən həyata keçirilir. Məcburi auditin məqsədi, müəssisənin illik hesabatlarının həqiqiliyinin təsdiq edilməsidir. Bu yoxlama qanunvericiliklə müəyyən olunmuş hallarda həyata keçirilir. Məcburi auditin keçirilmə qaydası və həcmi qanunvericilik normaları vasitəsi ilə tənzimlənir. Məcburi audit məhdud məsuliyyətli cəmiyyətlərdə, açıq səhmdar cəmiyyətlərində, kredit təşkilatlarında, banklarda, sığorta şirkətlərində, fond birjalarında aparılır.

Könüllü audit iqtisadi subyektin qərarı nəticəsində sərbəst auditor ilə bağlanmış saziş əsasında reallaşır. Könüllü audit dediyimiz zaman, məcburi auditdən fərqli olaraq, qanun vasitəsi ilə deyil, müəssisənin özünün reallaşdırdığı audit yoxlaması başa düşülür. Müəssisə sərbəst auditora auditin aparılması məqsədini, vacib olan məsələləri göstərir. Könüllü audit fəaliyyətin müxtəlif yönlərini əhatə edə bilər. Sahibkarın istəyinə əsasən, könüllü audit kompleks və hissə-hissə, yəni bölmə və sektorlar üzrə həyata keçirilir.

İnformasiya istifadəçilərinə və xarakterinə görə auditor nəzarəti kənar və daxili auditə ayrılır.

Kənar audit maliyyə hesabatının etibarlılığının obyektiv şəkildə qiymətləndirilməsi, maliyyə vəziyyətinin yaxşılaşdırılmasına aid tövsiyələrin hazırlanması, fəaliyyətində effektivliyin çoxaldılması məqsədi ilə müstəqil auditor və saibkar arasında imzalanmış saziş əsasında aparılır. Yoxlanılan subyektlərin maliyyə hesabatına tələblərin həyata keçirilməsinə görə öhdəlik daşıyan sahibkarlar, səhmdarlar və başqa şəxslər, eyni zamanda rəhbərliyin qohumları və yaxın əlaqələri olan şəxslər auditor kimi çıxış edə bilməzlər. Kənar auditin həyata keçirilməsinin önəmli məqsədlərinə aşağıdakılar aiddir:

Maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı olan maliyyə hesabatı göstəricilərinin etibarlı və düzgün əks olunmasının yoxlanılması;

Vergi üzrə hesablaşmaların düzgünlüyünün təyin edilməsi;

Müəssisənin aktivləri və kapitalın uçotunu tənzimləyən aktlara düzgün formada riayət edilməsinə nəzarət.

Daxili audit isə subyektin göstərişi nəticəsində müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yaradılması, mühasibat uçotunun aparılmasının, hesabatlarının tərtib edilməsinin qanunvericiliyə uyğunluğunun və səmərəliliyinin müstəqil yoxlanılması sistemidir. Müəssisədaxili fəaliyyətin qiymətləndirilməsi ilə reallaşan nəzarətdir. Daxili auditlə müəssisənin pul vəsaitlərin, habelə müəssisədaxili idarəetmə siyasətinə nəzarət olunur. Daxili audit müstəqil fəaliyyət növü olmaqla yanaşı, təsərrüfat subyektində nəzarət sisteminin ayrılmaz hissəsidir. Onun məqsədi, idarəetmə sisteminin səmərəliliyinin qiymətləndirilməsidir [3, səh. 22]. Daxili audit bölməsi subyektin maliyyə hesabatlarının düzgünlüyünə daima nəzarət edir və eyni zamanda daxili bölmə üsullarının, müxtəlif bölmələrin qarşılıqlı fəaliyyətinin inkişafına aid təkliflər hazırlayır. Müəssisə rəhbərinin tələb etdiyi məsələləri təhlil edərək, nəticələri barəsində təkcə ona hesabat verir. Müəssisədə pul vəsaitlərinin mənimsənilməsinin dayandırılması böhran dövründə təkliflərin hazırlanmasında önəmli rol oynayır. Bu fəaliyyət daxili audit planı köməyi ilə aparılır. Daxili audit planı rəhbər tərəfindən təsdiq edilir və təsərrüfat sahələri üzrə bu xidmət daxili audit proqramı əsasında reallaşdırılır. Daxili auditlə kənar audit arasında əlaqələrin artmasına xüsusi fikir verilməlidir. Eyni zamanda, sifarişçi subyektlərinin illik maliyyə hesabatlarının auditi və digər auditlər aparılarkən daxili auditor nəticələrindən kənar auditorların istifadə olunması məqsədəuyğundur [4.səh.17]. Auditor nəzarətinin növləri aşağıdakılardır:

Sığorta təşkilatlarının auditi;
Bank auditi;
İnvestisiya fondlarının və birjaların auditi;
Ümumi audit;
Dövlət auditi.

Maliyyə nəzarətinin reallaşdırılması zamanından asılı olaraq ilkin, cari və sonradan nəzarət formasına bölünür.

Maliyyə nəzarəti ilkin nəzarət ilə qarsılıqlı əlaqədardır və daha doğrusu, ilkin maliyyə nəzarətinə əsaslanır. İlkin nəzarət müəssisələrin maliyyə planlarının, təskilatların xərc smetalarının, layihələrinin, müqavilə sərtləri ilə bağlı sənədlərin tərtib olunması və təsdiqi vaxtı reallaşır. Bu halda ilkin maliyyə nəzarəti maddi, əmək və həmçinin maliyyə ehtiyatlarının qeyri-səmərəli şəkildə istifadəsinin qarsısını almaga köməklik göstərir və təsərrüfat sahələrinin fəaliyyətlərinin mənfi tərəflərini aradan qaldırmaga şərait yaradır. Bununla yanaşı, ilkin nəzarət zamanı maliyyə planlarının, xərc və gəlir layihələrinin tərtib edilməsi mərhələsində müəssisələrin ehtiyatları askar oluna bilər ki, maliyyə ehtiyatlarının çoxaldılması və maliyyə vəziyyətlərinə görə məsuliyyətin gücləndirilməsi xüsusilə önəmlidir. Maliyyə nəzarətinin bu forması qanunların və başqa sənədlərin pozulmasını əvvəlcədən aydınlaşdırmağa köməklik göstərir [5.səh.39].

Cari nəzarət maliyyə əməliyyatlarının reallaşdırılmasının gedişində maliyyə planlarının həyata keçirilməsi zamanı yerinə yetirilir. Bu vaxt əmtəə dəyərlilərinin və eyni zamanda pul vəsaitlərinin xərclənməsini nəzarətdə saxlamaq mümkün olur.

Sonradan nəzarət, maliyyə əməliyyatları barəsində verilmis nəzarət göstəriciləri əsasında həyata keçirilir. Ümumiyyətlə, maliyyə nəzarətini dəqiq reallasdırmaq üçün bu formaların hamısından istifadə etmək lazımdır.

Qeyd etmək lazımdır ki, ölkədə maliyyə nəzarəti sektorunda qanunvericiliyin inkişafı istiqamətində aparılan çalışmalar genişlənməkdədir. Ölkədə maliyyə orqanlarının fəaliyyətini tənzimləyəcək qanunvericiliyə olan ehtiyacı nəzərə alaraq "Maliyyə nəzarəti haqqında" Qanun hazırlanmışdır ki, ölkə iqtisadiyyatında daima tətbiq edilməkdədir.

Qeyd edilən qanun ölkədə maliyyə effektivliyinin təmin olunması, dövlət vəsaitlərinin üzərində nəzarətin çoxaldılması ilə bərabər maliyyə nəzarətinin tətbiqinin hüquqi və metodoloji əsaslarını, eyni zamanda dövlət maliyyə orqanlarının vahid sistemini və qarsılıqlı əlaqəsini təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası. (2012-2020-ci illər). Bakı-2013.68 səh.
2. Audit və əminlik. Təkmil səviyyə 3. Peşəkar mühasibatlıq kvalifikasiyası. METM 2013
3. "Mühasibat uçotu haqqında" AR Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı-2018-ci il
4. Beynəlxalq Audit və Təsdiqləmə Standartlar Şurası. Keyfiyyətə nəzarət, audit,təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar Toplusu. Azərbaycan Respublikası Auditorlar Palatası. Bakı, 2015.
5. Kazımov R.N., Namazova C.B. Praktiki audit. Dərslik. Bakı, "Elm və təhsil", 2012. 246.səh.



***Айнур Аскер кызы Адигозалова***
***Азербайджанский Университет Кооперации***
***Кафедра "Бухгалтерский учет и аудит",***
***E-mail: адигозаловаайнур888@gmail.com***
***https://orcid.org/my-orcid?orcid=0000-0002-5696-2730***


### *Значение Гейдара Алиева в системе рыночной экономической инфраструктуры для аудита*


***Резюме***

Следует отметить, что аудиторская служба в Азербайджане играет важную роль в реализации масштабных программ в области экономического и регионального развития, усилением притока инвестиций в ненефтяной сектор страны, развитием предпринимательства, увеличением занятости населения, сокращением бедности и улучшением благосостояния населения. На современном этапе особое значение имеют строгое соблюдение финансовой дисциплины и эффективное использование денежных средств и в связи с этим во главе угла успешного выполнения этих задач должен стоять аудит.

Следует отметить, что начало деятельности Палаты аудиторов и формирование на ее основе системы аудита в стране является ярким проявлением верности великого лидера Гейдара Алиева критериям демократического мира, ценности и важности аудита в системе рыночных экономических инфраструктур. В ряде других постановлений и приказов, принятых в конце 1990-х гг., развитие аудита оценивалось как одно из основных направлений государственного строительства и перед аудитом ставились новые задачи. Именно в данной статье для достижения решения этих задач в 1998-1999 годах в Азербайджане была разработана первая концепция развития аудита в Азербайджане и определены приоритеты развития этой важной инфраструктурной области рыночной экономики. С теми же годами совпадает и период становления независимого аудита в Азербайджане.



***Ключевые слова: система аудита, свободное предпринимательство, финансовый контроль, теневая экономика, финансовые операции.***



***Aynur Asgar Adigozalova***
***Head of department "Accounting and audit"***
***of Azerbaijan Cooperation University***
***E-mail: adigozalovaaynur888@gmail.com***
***https://orcid.org/my-orcid?orcid=0000-0002-5696-2730***


### *The importance given by Heydar Aliyev to the audit in the system of market economic infrastructure*


***Summary***

In Azerbaijan, the audit service plays an important role in the implementation of large-scale programs in the field of economic and regional development, strengthening the flow of investment

in the country's non-oil sector, developing entrepreneurship, increasing the employment of the population, reducing poverty and improving the welfare of the people. At the current stage, strict adherence to financial discipline and effective use of funds are of particular importance, and in this regard, audit should be at the forefront of successful performance of these tasks.

The establishment of the Chamber of Auditors and the formation and development of the audit system in the country on the basis of this is a bright manifestation of the great leader Heydar Aliyev's loyalty to the standards of the democratic world and the value and importance he gave to audit in the system of market economic infrastructures. In a number of other decrees and orders adopted in the late 1990s, the development of audit was assessed as one of the main directions of state building and new tasks were set for audit. In 1998-1999, the first development concept of audit was developed in Azerbaijan in order to achieve the solution of these tasks, and the development priorities of this important infrastructure area of the market economy were defined. The period of establishment of independent audit in Azerbaijan also coincides with those years.

***Keywords: audit system, free enterprise, financial control, shadow economy, financial operations, independent audit.***

**UOT: 338.48**

***Zümrüd Məhərrəm qızı HÜSEYNOVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının Baş müəllimi***
***Email: celal_yusif.84@mail.ru***

## MİLLİ TURİZMİN İNKİŞAFININ HEYDƏR ƏLİYEV MODELİ

***Xülasə***

Turizm iqtisadiyyatın mühüm amili, habelə nüfuzlu sosial institut olmaqla yanaşı, cəmiyyətin sosial rifahının və mədəniyyətinin göstəricisidir, insanın həyat səviyyəsinin yüksəldilməsinə, onun mənəvi zənginləşməsinə kömək edir. Məhz bunu nəzərdə tutaraq konfransa təqdim edilən məqalə Azərbaycanda turizmin inkişafının Heydər Əliyev modelinin tətbiqi əsasında onun sosial-iqtisadi səmərəliliyinin və inkişaf potensialının artırılması yollarının tədqiqinə həsr edilmişdir. Bunun üşün əvvəlcə turizmin mahiyyəti, onun sosial-iqtisadi əhəmiyyəti müəyyən edilmiş, onun inkişafına təsir edən mühüm amillərə aydınlıq gətirilmişdir. Qeyd edilmişdir ki, Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə ölkəmizdə turizmin inkişafına böyük önəm verilirdi. Onun dövründə turizmin inkişafı ilə bağlı qanun, proqram və əhəmiyyətli tədbirlər qəbul edilərək reallaşdırılmışdır. Daha sonra müəllif tərəfindən Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmiş, turizm sahəsində həyata keçirilən dövlət siyasəti və proqramlar araşdırılmış, turizmin ölkə regionlarının və bütövlükdə iqtisadiyyatın inkişafına təsiri üzə çıxarılaraq dəyərləndirilmişdir. Tədqiqatın sonunda müəllif ölkədə turizmin inkişafının Heydər Əliyev modeli əsasında müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi yollarını müəyyən etməyə və bununla bağlı müvafiq təklif və tövsiyələr verməyə çalışmışdır.

***Açar sözlər: turizm, Heydər Əliyev modeli, turizm infrastrukturu, turizm potensialı, dövlət siyasəti, turizm sənayesi.***

***

Azərbaycan dövləti milli turizm sektorunun inkişafını iqtisadiyyatın qeyri-neft sektorunda prioritet istiqamət elan edib. Son illər turizmin inkişafı ilə bağlı görülən işlər, dövlət proqramlarının qəbulu, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha təsdiqləyir. Dövlət və regional səviyyədə həyata keçirilən sosial siyasətdə turizm mühüm strateji məsələdir.

Azərbaycanda turizmin inkişafının Heydər Əliyev modelinin tətbiqi əsasında onun sosial-iqtisadi səmərəliliyinin və inkişaf potensialının artırılması yollarının öyrənilməsi tədqiqatın məqsədidir. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycanda turizmin inkişafının mövcud vəziyyətinin təhlili;
- turizm sahəsində həyata keçirilən dövlət siyasətinin və proqramlarının araşdırılması;
- turizmin ölkə regionlarının və bütövlükdə iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi;
- turizmin inkişafı və təkmilləşdirilməsi yollarının müəyyən edilməsi.

Tədqiqat zamanı müşahidə, sintez, müqayisəli təhlil və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilib.

Tədqiqatın elmi yeniliyi ölkə üzrə turizmin mövcud vəziyyətinin hərtərəfli öyrənilməklə inkişaf potensialından səmərəli istiadə səviyyəsini təhlil etməkdən, Azərbaycanda turizmin inkişafının Heydər Əliyev modeli əsasında turizm sahəsindəki dövlət siyasətinin əsas istiqamətlərini əsaslandırmaqdan ibarətdir.

Turizmin dövlətin qeyri-neft sektorunun inkişafında prioritet sahə kimi seçilməsini nəzərə alaraq, bu mövzunun perspektivlərini öyrənmək, təhlil etmək və elmi konfranslarda iştirak etmək, həmçinin turizm sisteminin öyrənilməsində və təkmilləşdirilməsində istifadə etməklə, Azərbaycanı gələcəkdə beynəlxalq turizm bazarının mərkəzlərindən birinə çevirmək olar.

Turizmin mahiyyəti onun sosial-iqtisadi əhəmiyyətindədir. Bir sahə kimi bunun iqtisadi mənası gəlir əldə etmək qabiliyyətidir. Turizm sektoru ölkə əhalisini işlə təmin edir, onun maddi ehtiyatlarını formalaşdırır, müvafiq vəsait təşkil edir. Fəaliyyət nəticəsində gəlir-mənfəət alır. Sosial əhəmiyyəti isə turizm bölgələrində iş yerlərinin açılmasında, sahibkarlığın və təsərrüfatların inkişafında, əhalinin tələbatına uyğun xidmət sahəsinin yaradılmasındadır.

Dünya təcrübəsi göstərir ki, turizmin inkişaf etmiş regionlarında dövlətin və əhalinin gəlirlərinin təxminən 30%-i turizm fəaliyyəti ilə bağlıdır. Turizmin sosial sahə kimi inkişafı xidmət sektoru ilə bağlıdır. O cümlədən turizmin inkişaf etmiş regionlarında sosial infrastruktur geniş yayılmışdır. Sosial infrastruktur sahələri isə nəqliyyat, ictimai iaşə, mənzil və mehmanxana xidmətləri ilə bağlıdır.

Turizm infrastrukturu sahələri regionlarda şəhərlərin formalaşmasını və vahid ərazi inkişafını təmin edir. Turizmin sosial mahiyyəti sosial subyekt kimi öyrənmə və sosial proqnozlar üçün zəmin yaradır. [6, s. 19-20; 14, s. 27]

Turizmin inkişafında sosial amillər demoqrafik və təhsil səviyyələri ilə ölçülür. Turizm sektorunun strukturu, onun regional tərtibatı, yerləşmənin sosial infrastrukturunun konseptual əsaslarını təşkil edir. Xüsusilə, turizm infrastrukturu birbaşa sosial xarakterli infrastrukturdur. Təhsil, səhiyyə, ictimai nəqliyyat, pullu xidmətlər, mənzil-kommunal xidmətlər, qonaqpərvərlik, ev təsərrüfatına münasibət sosial vəzifələrdir.

Turizmin sosial-iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin yüksəlməsinə, rifah halının yaxşılaşmasına kömək edir. Regionlarda sahibkarlar və ya dövlət tərəfindən turizm bazaları yaradılırsa, bu, ilk növbədə, on minlərlə iş yerinin açılması, kənd təsərrüfatı məhsullarının rahat satışı və rayon əhalisinin sosial rifahının yaxşılaşdırılması deməkdir. [5, s.25; 7, s. 46; 14, s. 54]

Müstəqilliyini bərpa etdikdən sonra yeni sosial-iqtisadi inkişaf yolunda inkişaf edən Azərbaycan beynəlxalq arenada açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edərək, dünya ölkələri ilə iqtisadi əlaqələrini bütövlükdə beynəlxalq inteqrasiya proseslərinin çərçivəsində inkişaf etdirmişdir. Bu əlaqələrin tərkib hissəsi olan beynəlxalq turizm əlaqələrinin inkişafı istiqamətində ölkəmizdə təqdirəlayiq işlər görülüb.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə turizmin inkişafına böyük önəm verirdi. Ulu öndərin müvafiq Sərəncamı ilə 1999-cu ildə qəbul edilmiş “Turizm haqqında” Qanun və 2002-ci ildə qəbul edilmiş “2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı Proqramı” Azərbaycanda turizm sektorunun inkişafına öz töhfəsini verib.

Azərbaycan çox nadir təbii, mədəni, milli, etnoqrafik kompleksə malikdir. Əlverişli coğrafi mövqe, doqquz iqlim qurşağı, flora və faunanın müxtəlifliyi və zənginliyi, sahildə yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənəsi ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər açır.

Azərbaycanın turizm sektorunda geniş imkanlar ölkəmizin turizmin inkişafı ilə bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlığına şərait yaradır. Bu beynəlxalq təşkilatlar arasında Ümumdünya Tu-

rizm Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin və digər təşkilatların adlarını çəkmək olar [5, s. 93; 12, s. 52; 17, s. 74].

2002-ci ildən başlayaraq hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AITF) ənənəvi keçirilməsi dövlətimizin turizmin inkişafına nə qədər böyük önəm verdiyini təsdiqləyir. Bundan əlavə, indiyədək Azərbaycanın turizm ehtiyatlarının zənginliyi və bu sahənin maddi imkanları dünyada keçirilən sərgilərdə, o cümlədən İstanbul, Berlin, Moskva, London, Əl-Küveyt, Kiyev, Tbilisi, Daşkənd və s. böyük şəhərlərdə nümayiş etdirildi [7, s. 378; 11, s. 35; 14, s. 56].

Qeyd edək ki, ölkəmizdə turizmin müxtəlif növlərinin inkişafına yeni təkan verəcək, turizm sahəsində çalışan mütəxəssisləri maarifləndirəcək "Azərbaycan Respublikasında 2007-2016-cı illərdə turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edilib.

Dövlət Proqramının əsas məqsədi turizm sahəsində dövlət siyasətinin "Turizm haqqında" Qanunda və digər müvafiq normativ-hüquqi aktlarda müəyyən edilmiş müddəalara uyğun həyata keçirilməsindən, turizm ehtiyatlarından səmərəli istifadə edilməsindən ibarətdir ki, bu da ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə, turizmin ölkə iqtisadiyyatının prioritet istiqaməti kimi tanınmasına, habelə bu sahənin səmərəliliyinin yüksəldilməsinə imkan verəcəkdir.

Azərbaycanda turizmin inkişafında irəli sürülən əsas səbəblər sırasında turizm ehtiyatlarının öyrənilməsi və təkmilləşdirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin göstərilməsi, ekskursiya və digər mədəni-kütləvi tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, müasir standartlara uyğunlaşdırılması, sanatoriya ehtiyatlarının öyrənilməsi və fasiləsiz istismarı, mehmanxana və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişafı, turizmin prioritet növləri, məsələn, mədəni, ekoloji və kənd yaşıl turizmi, rekreasiya turizminin, milli mədəni ənənələrin, Azərbaycan xalqının tarixi-mədəni irsinin dövlət tənzimlənməsinin gücləndirilməsi, müxtəlif rayon və şəhərlərin tarixini, milli incəsənəti əks etdirən materialların nəşri və yayılması və suvenirlərin istehsalı və satışının genişləndirilməsini qeyd etmək olar. [5, s. 68; 10, s. 27; 13, s. 83].

Eyni zamanda, Azərbaycanın turizmin inkişafı üçün əlverişli şəraitə malik ölkə kimi tanıdılması, yeni Azərbaycan turizm brendinin və turizm brendlərinin turizm, regional mədəniyyət, inkişaf və turizm sahəsində təbliğat və məlumat xarakterli tədqiqat fəaliyyətinin təşviq edilməsi məqsədilə turizm marşrutlarının təşviqi və turizmin inkişafı sahələrində beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritetlər sırasındadır.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizdə turizmin inkişafına mühüm sahələrdən biri kimi daim diqqət yetirir. Bunun ən bariz nümunəsi Prezident İlham Əliyevin 2011-ci ili Azərbaycanda "Turizm ili" elan etməsidir. Turizm ili çərçivəsində bir sıra tədbirlər həyata keçirilib. Təsadüfi deyil ki, bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində xüsusi işçi qrupu yaradılıb.

Turizm sosial-iqtisadi sahə kimi XIX əsrin ortalarından inkişaf etməyə başladı. O dövrə qədər turizm fərdi gəzintilər və səyahətlərlə səciyyələnirdi, müxtəlif yerlərə və ölkələrə qeydiyyatsız səyahət edən insanlara "turist" deyirdilər [12, s. 75; 13, s. 112; 16, s. 189].

Azərbaycan təbiətin, demək olar ki, bütün gözəlliklərinin cəmləşdiyi bir coğrafi ərazidə yerləşir. Burada Azərbaycanı turizm məkanına çevirmək üçün çoxlu imkanlar var. Turizmin inkişafı regionların sosial-iqtisadi inkişafının, iqtisadiyyatımızın güclənməsinin, əhalinin gəlirlərinin xeyli artmasının əsasına çevrilə bilər.

Bizim dövrümüzdə turizm təkcə iqtisadi baxımdan deyil, həm də siyasi baxımdan ölkəmiz üçün əsas istiqamətə çevrilib. Çünki dünyada gedən proseslər və təhlükəsizlik məsələləri baxımından turizmin bugünkü inkişafı qaçılmazdır. Turizm həm də ölkələri və xalqları birləşdirir, beynəlxalq əlaqələri, iqtisadi və mədəni əlaqələri möhkəmləndirir. Ölkəmizin turizm zonasına çevrilməsi ilə əlaqədar olaraq, biz eyni zamanda regionların sosial-iqtisadi inkişafını çox tez və səmərəli şəkildə həyata keçirə bilirik. Turizmin inkişafı həm də o deməkdir ki, regionlar qısa müddətdə sosial-iqtisadi baxımdan yenidən doğulur [6, s. 256 ; 8, s.80-82; 15, s. 108].

Bölgələrdə normal yaşayış şəraiti yaradıldığından bir çox insanlar rayon və kənd yerlərində yaşamaq istəyinə meyillidirlər. Bununla da həm kənd sakininin problemi həll olunacaq, həm də gəlir mənbəyi olacaq. Bu gün Azərbaycanda turizmin inkişafı üçün çoxlu imkanlar var.

Son illər Azərbaycanda turizmin inkişafına xüsusi diqqət yetirilir və bu istiqamətdə ilk addımlar atılır. Turizm sektorunda multiplikator effekti prinsipi ilə açılan hər bir iş yeri 3-4, bəzən isə 6-7 yeni iş yeri olacaq. Yəni bu proses kənd təsərrüfatı məhsullarının, su və ərzaq məhsullarının istehsalını genişləndirir, xidmət sahəsinin keyfiyyətini yüksəldir, kurslar açmaqla mütəxəssislər hazırlayır. Bütün bunlar yeni iş yerlərinin açılması, regionların inkişafıdır.

Sosial-iqtisadi inkişaf sahəsində şaxələndirmə siyasətini həyata keçirən Azərbaycan XXI əsrin əvvəllərində dinamik inkişafla səciyyələnən proseslər fonunda dünyaya yeni dövlətçilik modelini təqdim edə bildi.

Müasir şəraitdə turizmin inkişafı problemləri, onun qloballaşma xüsusiyyətləri və resurs potensialındakı struktur dəyişiklikləri onun inkişafının aktuallığını yaradır. Turizmin sosial-iqtisadi rolu, torpaq və landşaft ehtiyatlarının təsərrüfat dövriyyəsində iştirakının xüsusiyyətləri onun idarə edilməsinin xüsusiyyətlərini yaradır. Turizm sektoral, funksional iqtisadi və sosial öhdəlikləri olan müasir islahatlar gündəliyinin tərkib hissəsidir. Turizmin ərazi-sahə strukturu turizmin tələbatına və ölkə iqtisadiyyatında baş verən struktur dəyişikliklərinə uyğun olaraq həyata keçirilir. Bizim dövrümüzdə turizmin inkişafında kənd təsərrüfatına və kənd yerlərinə şərait yaratmaqla iqtisadiyyatın ərazi strukturunu təkmilləşdirmək mümkündür.

Turizm sənayesi sürətli inkişaf tempinə uyğun olaraq XX əsrin fenomeni adlandırılmışdır. ÜTT-nin məlumatına görə, 2014-cü ilin sonunda bu sahə qlobal iqtisadiyyatda dünya məhsulunun 9%-ni təşkil edir. Turizm dünya üzrə ümumi kapital qoyuluşunun 7%-ni, istehlak xərclərinin 11%-ni və vergi gəlirlərinin 5%-ni təşkil edir. Dünya gəlirinin təxminən 6%-i turizm sahəsinin payına düşür ki, bu da dünyada neft, neft məhsulları və avtomobillərdən əldə edilən gəlirdən azdır[6, s. 48].

Turizmin iqtisadiyyatda rolu onun iqtisadi artımdakı payı, balanslaşdırılmış iqtisadi siyasət və beynəlxalq iqtisadi əlaqələrlə müəyyən edilir. ÜDM-in (dünya daxili məhsulunun) iqtisadi artımı və bu artımda turizmin rolu qiymətləndirilir. Bəzi ölkələrdə turizm dövlət büdcəsinin gəlirlərinin 15%-ni, bəzən isə daha çoxunu təşkil edir. Fransada ümumi milli məhsulun 7%-ni, Çexiyada 6%-ni, Macarıstanda, İspaniyada, İsveçrədə 8%-ni, İtaliyada 13-17%-ni turizm təşkil edir. Kiprdə bu rəqəm 20%-ə çatır[6, s. 76].

Azərbaycanda turizm sənayesində yaradılmış əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi 2013-cü ildə 3,6%, 2015-ci ildə 4,1%, 2020-ci ildə 1,9%, 2021-ci ildə isə 2,2% təşkil edib. İqtisadiyyatın əsasını təşkil edən ölkəmiz üçün bu rəqəm inkişaf etmiş digər regionlarla müqayisədə xeyli yüksəkdir. [18]

Ölkənin sanatoriyaları, istirahət müəssisələri və ocaqları, habelə turist bazalarının sayının statistikasına görə, 2006-2021-ci illəri əhatə edən dövrdə sanatoriya və istirahət ocaqlarının sayı 21 vahid və ya 28,8%, turist bazaları və istirahət ocaqlarının sayı isə 6 vahid və ya 35,3% azalmışdır [18].

Dünya İqtisadi Forumunun (DİF) məlumatına əsasən, 2021-ci ildə ölkəmiz qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə 139 ölkə arasında 35-ci yeri tutmaqla 4,7 indeksi əldə etmişdir.

Azərbaycanın turizm sektorunun inkişafı ilə bağlı ölkə Prezidenti İ.Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nə [1], "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na [2], "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə xüsusi önəm verilir[3]. Bu aspektdən yanaşdıqda görərik ki, Azərbaycanın turizm potensialına malik bütün ərazilərində, o cümlədən işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm sekrorunun dayanıqlı inkişafını təmin etmək, Azərbaycanda milli turizm sferasının inkişafını iqtisadiyyatın qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri kimi qiymətləndirmək və beləliklə də ölkədə ixtisaslaşmış turizm sənayesini müasir tələblər səviyyəsinə çatdırmaq olduqca vacibdir.

Fikrimizcə, ölkəmizdə milli turizmin müxtəlif növlərinin təşkilati-iqtisadi aspektlərinin inkişafında turizmin inkişafı ilə məşğul olan dövlət idarəetmə orqanlarının bütün qüvvələri, səyləri və tədbirləri əlaqələndirilməli, eləcə də müxtəlif turizm məhsullarının yaradılmasına, turizm sənayesinə, yeni turizm xidməti növlərinin inteqrasiyasına yönəlik daha sıx və səmərəli sahələrarası

əlaqələr qurulmalıdır. Turizmin inkişaf etdirilməsində fərqli turizm növlərinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi üzrə nəzərdə tutulan tədbirlərin funksional bağlılığına nail olunması milli turizmin inkişafının mövcud Heydər Əliyev modelinin tətbiqi əhəmiyyətini daha da artıracaqdır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi". /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir / Bakı: 2016 - http://e-qanun.az/framework/34254
2. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Bakı: 29 yanvar 2019-cu il / http://e-qanun.az/framework/41320
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının saytı //: www.fairex.az.(electron resurs).
5. Abbasova S.H. "İnnovativ turizm əməliyyatları" Bakı Turizm İnstitutu 2004, 148 səh
6. Bilalov B.Ə., Gülalıyev Ç.G.- "Turizmin Əsasları " –Bakı-2015. – 496 s.
7. Əlirzayev Ə.Q."Turizmin iqtisadiyyatı və idarə edilməsi"- Bakı-2010. İqtisad Universiteti Nəşriyyatı.- 529 s.
8. İsmayılov Ç.N., Zeynalova K.Z. "Klaster konsepsiyası və onun regional inkişafda əhəmiyyəti", "H.Əliyev və Azərbaycanda coğrafiyanın inkişafı" beynəlxalq konfransın materialları, Bakı-2013(səh. 80-82.)
9. Kotler F. "Marketinqin əsasları". Bakı , " Ergün", 1993.
10. Qurbanov F.İ. "Azərbaycanda Turizmin inkişaf problemləri" –, Bakı -2007 Adiloğlu nəşriyyatı .
11. Nəbiyev N.Ə. İqtisadiyyat , cəmiyyət və ekoloji mühit . Bakı, 2000.
12. Soltanova H.B. və Hüseynova Ş.H. "Turizmin Əsasları" –Bakı -2007. "Mütərcim" nəşriyyatı.
13. "Turizm Fəaliyyətinin Tənzimlənməsi", Bilalov B.Ə, Bakı -2006, Mütərcim nəşriyyatı, 280 s.
14. Zeynallı Y.Q. "Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının iqtisadi-coğrafi problemləri" Bakı, Tuna, 1999.
15. Азар В.И . Экономика и организация туризма . М. "Экономика", 1993
16. Александрова А. Ю. Международный туризм /Александрова А. Ю.-М.: Аспект пресс, 2002. 470 с.
17. Гостничный и туристеческий бизнес . М . "Тандем", 1998.
18. www.stat.gov.az



***Зумруд Магеррам гызы Гусейнова***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры "Экономика аграрной отрасли и промышленности", старший преподфватель***
***е-маиль: celal_yusif.84@mail.ru***


## Модель Гейдара Алиева по развитию национального туризма


***Резюме***

Статья посвящена изучению путей повышения его социально-экономической эффективности и потенциала развития на основе модели Гейдара Алиева развития туризма в Азербайджане. В первую очередь был определен характер туризма, его социально-экономическое значение, а также выяснены важные факторы, влияющие на его развитие. Было отмечено, что в период президентства Общенационального лидера Гейдара Алиева большое значение придавалось развитию туризма в нашей стране. При нем были приняты и реализованы законы, программы и важные меры, связанные с развитием туризма. Затем автор проа-

нализировал и оценил современное состояние развития туризма в Азербайджане, исследовал государственную политику и программы, реализуемые в сфере туризма, выявил и оценил влияние туризма на развитие регионов страны и экономики в целом. В конце исследования автор попытался определить пути улучшения развития туризма в стране на основе модели Гейдара Алиева в соответствии с требованиями современной эпохи и дать соответствующие предложения и рекомендации в этой связи.
***Ключевые слова: туризм, модель Гейдара Алиева, туристическая инфраструктура, туристический потенциал, государственная политика, индустрия туризма.***

***Zumrud Maharram Huseynova***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department***
***"Economics of the agricultural field and industry", senior lecturer***
***email: celal_yusif.84@mail.ru***

***Heydar Aliyev model of national tourism development***

***Summary***

The article is devoted to the study of ways to increase its socio-economic efficiency and development potential based on the Heydar Aliyev model of tourism development in Azerbaijan. First of all, the nature of tourism, its socio-economic importance was determined, and the important factors affecting its development were clarified. It was noted that during the presidency of National leader Heydar Aliyev, great importance was attached to the development of tourism in our country. During his time, laws, programs and important measures related to the development of tourism were adopted and implemented. Then, the author analyzed and assessed the current state of tourism development in Azerbaijan, investigated the state policies and programs implemented in the field of tourism, revealed and evaluated the impact of tourism on the development of the country's regions and the economy as a whole. At the end of the research, the author tried to determine ways to improve the development of tourism in the country based on the model of Heydar Aliyev in accordance with the requirements of the modern era and to give relevant suggestions and recommendations in this regard.
***Key words: tourism, Heydar Aliyev model, tourism infrastructure, tourism potential, state policy, tourism industry.***

**UOT: 338**

***Qeys Valeh oğlu MƏMMƏDOV***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının baş müəllimi***
***E-mail – qeys.mamedov@mail.ru***

## HEYDƏR ƏLİYEVİN MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU

***Xülasə***

Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin xidmətləri misilsizdir. Ulu öndər ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə etmişdir: "Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

Məhz Ulu öndərin 90-cı illərin ortalarında təməlini qoyduğu güclü sosial-iqtisadi baza bu gün

Azərbaycan xalqının yüksək rifahına, onun parlaq gələcəyinə xidmət edir.

Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

***Açar sözlər: İqtisadiyyat, inkişaf, beynəlxalq, müstəqillik, lider.***

***

Heydər Əliyev Azərbaycanı davamlı iqtisadi inkişafa aparan strategiyanın banisidir.

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dünya birliyi Azərbaycanı mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıyır. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasında, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsində, gənc dövlətimizin dünya miqyasında tanıdılmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Xalqımızın son otuz illik tarixi məhz Heydər Əliyev kimi böyük bir şəxsiyyətin adı ilə bağlı olmuşdur. Hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilmiş Heydər Əliyev tez bir zamanda öz gərgin əməyi sayəsində Azərbaycan Respublikasını digər SSRİ respublikaları arasında önə çıxarmışdır. Ulu öndərimiz fəaliyyətinin ilk illərindən etibarən daim öz qayğısını xalqdan əsirgəməmiş, istər I katib işləyərkən, istərsə də keçmiş ittifaqda rəhbər vəzifələrdə çalışarkən hər zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutmuşdur. O, dəfələrlə xalqımızın və dövlətimizin əleyhinə qərar qəbul edilməsinə mane olmuş, mötəbər tribunalardan dəyərli, tutarlı və kəskin fikirləri ilə əleyhdarlarını yerində oturtmuşdur.

Müstəqillik illərində ümummilli liderin hakimiyyətə dönüşü təlatümlü, xalqımız üçün taleyüklü bir dövrə təsadüf edirdi. Belə ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin qarşısında müstəqil Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən, ölkədə hər an baş verə biləcək vətəndaş müharibəsindən xilas etmək kimi məsuliyyətli və tarixi vəzifələr dururdu. Xalqımız çox gözəl bilirdi ki, ölkəni bu vəziyyətdən yalnız zəngin siyasi-iqtisadi və idarəçilik təcrübəsinə malik dahi Heydər Əliyev şəxsiyyəti xilas edə bilər. Çünki ümummilli liderin uzun illər ərzində qazandığı siyasi təcrübə, idarəçilik bacarığı və doğma vətəninə olan dərin məhəbbəti onun bu missiyanın öhdəsindən şərəflə gələcəyinə heç kimdə şübhə doğurmurdu [1, s.195].

Ulu öndər Heydər Əliyev bütün bacarığını səfərbər edərək tezliklə ölkədə baş alıb gedən tənəzzülü dayandırdı və tərəqqiyə nail oldu. Ölkədə mövcud olan problemlər tədricən həllini tapdı, iqtisadi və siyasi sabitlik təmin olundu və beləliklə də iqtisadi inkişafın sürətləndirilməsi, ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və s. istiqamətlərdə konkret proqram və layihələrin işlənib hazırlanmasına başlanıldı.

20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənədin imzalanması ilə Azərbaycanın "yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı. Müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi [5, s.217].

Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. Təkcə bir faktı qeyd edək ki, 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır. Bunun da 60 faizdən çoxu (6,1 milyard dolları) xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı isə təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cə-

mi vergi daxilolmalarında 9,3 faizdən 19,7 faizə yüksəlmişdir. Ümumilikdə isə, 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər.

Ümumilikdə neft strategiyası ilə sürət götürən Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası sonrakı illərdə daha genişmiqyaslı formada davam etdirildi. 1995-1998-ci illər əsasən müvafiq normativ hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövr həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və s. istiqamətlərdə Dövlət Proqramları da qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkədə sabitliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə xidmət edən qərarlar qəbul etdi. Bu sahədə görülən işlərin əsl mahiyyətini qiymətləndirmək üçün ümummilli lider Heydər Əliyevin hələ 1996-cı ildə söylədiyi bir fikri yada salmaq məqsədəuyğun olardı: "Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir. Bu, dövlət siyasətimizin əsas prinsipləri olur" [1, s.78].

Hazırda dövlətimizin sosial-iqtisadi və digər istiqamətlərdə əldə etdiyi uğurlar dünya siyasətçisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətdən idarəetmə sahəsində zəngin təcrübə toplamış cənab İlham Əliyevin yüksək idarəçilik keyfiyyətləri ilə bağlıdır. Bütün bunları 2003-2008-ci illərin statistik göstəriciləri də təsdiq edir. Belə ki, möhtərəm İlham Əliyevin ilk prezidentlik dövrünü əhatə edən 2003-2008-ci illərin yekununun statistik mənzərədən başqa simvolik mənası da vardır. Qarşıya qoyulan hər bir məqsəd, hər bir söz layihə və dövlət proqramları kimi praktik fəaliyyətdə həyata keçirilmiş, həm də son dərəcə qısa müddətdə gerçəkliyə çevrilmişdir.

2003-cü ilin avqust ayından keçən beş il ərzində ölkənin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsulun həcmi 2003-cü ildəki 3,1 milyard manatdan 2008-ci ildə 18,5 milyard manata çatmışdır ki, bu da müqayisəli qiymətlərlə 2,7 dəfə artım deməkdir. İqtisadiyyatın dınamik inkişafında mühüm rol oynayan uğurlu fiskal siyasətin həyata keçirilməsi nəticəsində ötən beş il ərzində qeyri-neft sektoru üzrə büdcə gəlirləri 5,3 dəfə, onun ümumi daxili məhsulda xüsusi çəkisi isə 7,7 faiz artmışdır. Bu illər ərzində ölkədə vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 184 minə, onların ticarət dövriyyəsi isə 4,7 dəfə artaraq 16 milyard manata çatmışdır. Bu müddətdə Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiyası daha da sürətlənmiş, ticarət əlaqələri genişlənmişdir ki, bunun nəticəsində xarici ticarət dövriyyəsi 9,9 dəfə, o cümlədən ixrac 17,5 dəfə artmışdır.

Son 5 ildə əhalinin sosial rifahını xarakterizə edən göstəricilərdə də yüksək artım dinamikası müşahidə edilmişdir. Belə ki, 2003-2008-ci illərdə orta aylıq əməkhaqqı 3,3 dəfə artaraq 75 manatdan 250 manata, təyin olunmuş aylıq pensiyanın orta məbləği 3,4 dəfə artaraq 24 manatdan 80 manata, əhalinin pul gəlirləri 4,1 dəfə artaraq 9,4 milyard manata, adambaşına düşən pul gəlirləri isə 3,9 dəfə artaraq 272 manatdan 1060 manata çatmışdır. Eyni zamanda, bu illər ərzində ölkədə minimum əməkhaqqı 10,9 dəfə artaraq 5,5 manatdan 60 manata bərabər olmuş, tələbələrin təqaüdləri 10 dəfə artmış, dövlət büdcəsi üzrə əməyin ödənişi fondunun məbləği 3,9 dəfə artaraq 191 milyon manatdan 741 milyon manata, əsas sosial müavinətlərə yönəldilən vəsaitlərin məbləği isə 1,6 dəfə artaraq 76,2 milyon manatdan 128 milyon manata çatdırılmışdır.

Son beş il ərzində Azərbaycan regionda və dünyada ən dinamik inkişaf edən ölkə imicini qazanmış, intensiv və səmərəli inkişaf modelini dünyaya təqdim etmişdir. 2003-2008-ci illər ərzində dövlət başçısının tapşırıqlarına uyğun olaraq, ölkənin iqtisadi inkişafında ayrı-ayrı sahələrin tarazlı inkişafının təmin edilməsi ilə yanaşı, nəqliyyat sisteminin potensialından tam və səmərəli istifadə edilməsini təmin etmək üçün çox böyük işlər görülmüşdür [4, s.146]. . Buna misal olaraq, bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan "İpək yolu" layihəsinin reallaşması istiqamətində görülən işləri, yol-nəqliyyat infrastrukturlarının təkmilləşdirilməsi sahəsindəki quruculuq işlərini, nəqliyyat qovşaqlarının (vağzallar, liman və s.) müasir standartlar səviyyəsinə

çatdırılması tədbirlərini və digər yüzlərlə belə nümunələri sadalamaq olar.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. 2015-ci ilə qədər prezidentin rəhbərliyi altında üç dəfədən çox böyümüş iqtisadiyyatı post-neft dövründə xarici şokları da dəf etməklə belə bir baza əsasında təkrar davamlı inkişaf xəttinə çıxarmaq qarşıya qoyulan əsas məqsəd idi. Prezident İlham Əliyev tərəfindən təsdiqlənən strateji yol xəritələrinə uyğun olaraq: 2016-2017-ci illərdə Azərbaycan iqtisadiyyatı xarici şokların mənfi təsirindən uzaqlaşaraq inkişaf etməyə başladı. 2017 və 2018-ci ildə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xətti yüksəldi. 2019-2020-ci illərdə Azərbaycanın iqtisadi artımın daha da yüksək pilləyə çıxması ilə, rəqabətliliyin artırılması və dünya iqtisadiyyatına sürətli inteqrasiyanın daha da dərinləşməsi dövrü hesab edilir. 2019-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatı yüksəliş xəttinin növbəti inkişaf mərhələsinə qədəm qoydu [5, s.304].

Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaqdır. Bu İnkişaf Konsepsiyası sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir.

Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır" [4, s.229].

Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

Təbii ki, Azərbaycan xalqının xilaskar oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin və xalqımızın inkişafına xidmət edən fəaliyyətini nəinki bir məqalədə, hətta cild-cild kitablarda belə tam əhatə etmək qeyri-mümkündür. Yuxarıda qeyd edilənlər isə ümummilli liderin xidmətləri qarşısında "dəryadan bir damla" kimi qiymətləndirilə bilər. Azərbaycan Respublikasında istər ayrı-ayrı elm sahələrinin, istər təhsil, səhiyyə kimi sosial sferaların, istər kənd təsərrüfatı və sənayenin inkişafı məhz ümummilli liderin adı ilə bağlıdır. Bütün bunlar isə Heydər Əliyev ideyalarının daha dərindən öyrənilməsini zəruri edir. Çünki dahi Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmaqla yanaşı, həm də Azərbaycan dövlətini davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyanın banisidir.

## ƏDƏBİYYAT


1. Alışanova, Mehriban Nadir qızı. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir / M. N. Alışanova; elmi red. Ş. M. Muradov.- B.: Çinar-Çap, 2006.- 214 s.
2. Əliyev, Vilayət.Heydər Əliyevin dil siyasəti / V. Əliyev; elmi red. N. Cəfərov.- Bakı: Nurlan, 2003.- 100 s
3. The contract of the century" - 10 years / State Oil Company of Azerbaijan Republic.- Baku, 2004.- 16 p.
4. Qasımov, Ədalət. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası : XX əsrin 70-80-ci illəri: monoqrafiya / Ə. Qasımov ; elmi red. Y. M. Mahmudov; AMEA A.A.

Bakıxanov adına Tarix İnstitutu. - Bakı: Təhsil, 2009. - 320 s.
5. Hüseynova, İradə Mehdiqulu qızı. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Monoqrafiya /İ. M. Hüseynova; elmi red. Ə. M. Həsənov.- B.: Təhsil, 2004.- 472 s.

***Гейс Валех оглу Мамедов***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры "Экономика аграрной отрасли и промышленности"***
***старший преподфватель***
***е-маиль: qeys.mamedov@mail.ru***

## Роль Гейдара Алиева в развитии национальной экономики

***Резюме***

Услуги Гейдара Алиева не имеют аналогов в формировании национальной экономики Азербайджана. Великий лидер выразил будущий курс развития нашей страны с большим предвидением: "Как президент, я уже определил государственную политику в экономике Азербайджана. Это способ реформ, увеличение производства за счет реформ, развитие производства, приватизация собственности, обеспечение широкого спектра приватизации, рыночной экономики, свободы, предприятий, предпринимательства и инициативы. Это основные принципы нашей государственной политики ".

Сильная социально-экономическая база, которая является основой фонда в середине 1990-х годов, сегодня служит своим ярким будущим для высокого благосостояния азербайджанского народа сегодня.

Таким образом, успешная страна в области энергетики и транспорта страны, которая имеет стабильную, устойчивую и устойчивую страну экономического развития, активным участником энергетической безопасности Европы, известной как место международных мероприятий, является логическим следствием достойного продолжения Политика Гейдара Алиева.

***Ключевые слова: Экономика, развитие, международная, независимость, лидер.***

***Geys Valeh Mammadov***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department***
***"Economics of the agricultural field and industry", senior lecturer***
***E-mail: qeys.mamedov@mail.ru***

## *The role of Heydar Aliyev in the development of the national economy*

***Summary***

Heydar Aliyev's services are unparalleled in the formation of the national economy of Azerbaijan. The great leader expressed the future course of development of our country with great foresight: "As a president, I have already determined the state policy in Azerbaijan's economy. This is the way of reforms, increasing production through reforms, developing production, privatization of property, providing a wide range of privatization, market economy, freedom, to enterprises, entrepreneurship and initiative. This is the basic principles of our state policy".

The strong socio-economic base, which is the foundation of the Foundation in the mid-1990s, serves its bright future today to the high welfare of the Azerbaijani people today.

Thus, a country's successful, global energy and transportation country, which has a stable, sustainable and sustainable economic development country, the active participant of Europe's energy security, known as the place of international events, is the logical consequence of the deserving continuation of the Heydar Aliyev policy.

***Keywords: Economics, development, international, independence, leader.***

**UOT 331**

***Rəna Mahmudağa qızı AĞAYEVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Kommersiya" kafedrasının baş müəllimi***
***E-mail: rena.agayeva.61@mail.ru***

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏMƏK BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFI PROBLEMLƏRİ

***Xülasə***

Əmək bazarı bazar iqtisadiyyatının inkişafında əsas rol oynayır. Bu zaman cəmiyyətin sosial-iqtisadi vəziyyətini öyrənmək vacib proseslərdən sayılır. Belə ki, iş qüvvəsini satan insanlar əldə etdikləri gəlirlə ehtiyaclarını ödəyirlər. Bu proses zamanı isə əmək bazarı formalaşır. Əmək bazarı işçilərin ixtisas və təhsil səviyyəsinin inkişafına səbəb olur. Buna görə də dünya təcrübəsində olduğu kimi inzibati, iqtisadi və təşkilati metodlardan istifadə edilir.

Ümumiyyətlə, məqalədə əmək bazarı və onun formalaşmasına səbəb olan amillərdən bəhs edilmişdir.

***Açar sözlər: əmək bazarı, bazar iqtisadiyyatı, məşğulluq, iş qüvvəsi, əmək haqqı, tələb, təklif.***

***

Ölkəmizdə son dövrlərdə aparılan iqtisadi islahatların nəticəsidir ki, bir çox müsbət məqamlarla yanaşı inflyasiyanın da qarşısı alınmış, iqtisadiyyatın inkişafının yeni parametrlərinin bünövrəsi qoyulmuşdur. Bunun sayəsində isə, Azərbaycan regionun iqtisadi məsələlərində əvəzolunmaz iştirakçı və əsas söz sahibinə çevrilmişdir. Məhz müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin hakimiyyəti dövründə ölkə iqtisadiyyatının möhkəm və dinamik inkişafının təməli qurulmuşdur. Bu baxımdan Ulu öndərin belə bir fikri həmişə aktuallıq kəsb edir: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdi".

Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir dövrdə əmək bazarının formalaşması da əsas şərtlərdəndir. Əmək bazarının formalaşması ümumilikdə insanların məqsədyönlü fəaliyyəti nəticəsində yaranır ki, bu zaman onların sosial- iqtisadi tələbatlarının ödənilməsi baş verir.

Əmək bazarının formalaşması sosial- iqtisadi və tarixi bir prosesdir. Belə ki, illərlə tarixi bir inkişaf yolu keçərək, sosiasl-iqtisadi amillər əsas olmaqla formalaşmışdır. Başqa sözlə desək gəlir əldə etmək üçün iş qüvvəsini satan insanlar əldə etdikləri gəlirlə özlərinin sosial-iqtisadi ehtiyaclarını ödəyirlər.

Müasir əmək bazarının formalaşmasına təbii- coğrafi, təhsil,milli, dini və s. amillər təsir göstərir ki, bu onu daha da mürəkkəbləşdirir. Təbii-coğrafi amillər yerli əhalinin məşğul olacağı sahəni əvvəlcədən təyin etməklə, əmək fəaliyyətinin istiqamətinə təsir göstərmişdir. Bu isə əməyin hansı növündə ixtisaslaşmasını müəyyən edir. Bu gün istər bir ölkənin regionları üzrə, istərsə də ayrı-ayrı ölkələr üzrə əməyin ixtisaslaşması hansı istiqamətdədirsə, ölkələr dünya bazarında həmin sahələrin məhsulları ilə çıxış edirlər.[1, s.154]

Ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin uğurlu inkişafı mühüm makroiqtisadi göstəricilərin artmasına səbəb olmuşdur. Bu baxımdan əmək bazarında da bir sıra nailiyyətlər əldə edilib. Belə ki, ölkəmizdə işçi qüvvəsinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, vətəndaşların peşə hazırlığının təşkili işsizliyin kəskin şəkildə azaldılmasına, əmək bazarında sabitliyin qorunub saxlanmasına imkan verir.

Əmək bazarının inkişafında təhsilin rolu da sürətlə artmaqdadır. Təhsilin sayəsində insanda əmək qabiliyyətinin və əmək məhsuldarlığının artırılması baş verir. Müasir texnologiyalarla işləmək yüksək qabiliyyətli kadrların yetişməsinə imkan yaradır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyat və təhlil vahid bir sistem kimi formalaşıb.

Umumiyyətlə bazar iqtisadiyyatı şəraitində respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşmasında əmək bazarının təsiri böyükdür. Əhalinin demoqrafik vəziyyəti, yaş strukturu, əmək qabiliyyəti, təhsil səviyyəsi işçi qüvvəsinin təklifinin, ölkənin iqtisadiyyatının inkişafında tələbin müəyyənləşdirilməsində əsas rol oynayır.

Müasir dövrün tələblərinə uyğun olaraq əmək bazarının bir sıra xüsusiyyətlərə uyğun təkmil-

ləşdirilməsi baş verir və cəmiyyətin sosial-iqtisadi vəziyyətini özündə əks etdirir. Bazar iqtisadiyyatının mürəkkəb tərkib hissəsi müxtəlif sahələrdə fəaliyyət göstərən işəgötürən və işçilər arasında iqtisadi və hüquqi münasibətləri özündə birləşdirir. Başqa əmtəə bazarlarında olduğu kimi, bu bazarda da tələb və təklif əsas rol oynayır. Burada işəgötürənlə işçi arasında iş qüvvəsinin alqı-satqısı ilə bağlı razılıq əldə edilir. Bu zaman isə işçi qüvvəsi ehtiyatı, onlar arasında əlaqə birbaşa bazar konyunkturundan asılıdır.

Hazırda ölkəmizdə əmək bazarının formalaşması sahəsində dünya təcrübəsində özünü doğrultmuş metodlardan istifadə olunur ki, bunlar da iqtisadi, təşkilati və inzibati metodlardır.

Qanunvericilikdə nəzərdə tutulan inzibati metodlara-əmək müqavilələrinin bağlanması, məşğulluğun təmin olunması ilə əlaqədar sahibkarlıq subyekləri tərəfindən müxtəlif fondlara ödəmələrin tətbiqi, iş vaxtından artıq işlədikləri hallarda əməkhaqqının ödənilməsi və s. aid edilir.

İqtisadi metodlar – iş yerlərinin yaranması, sahibkarlığın möhkəmlənməsi üçün güzəştli kreditlərin verilməsi, vergitutma və büdcə siyasətinin yeridilməsi.

Təşkilati metodlar – məşğulluq və işədüzəltmə xidmətinin, kadrların hazırlanmasının həyata keçirilməsi .

Bildiyimiz kimi, bazar iqtisadiyyatının əsasını əmək bazarı təşkil etdiyi kimi, mülkiyyət və başqa münasibətlərdə əvvəlcədən dəyişiklik edilmədən, şərait həyata keçirilmədən əmək bazarını formalaşdırmaq olmaz. Onu da qeyd edək ki, əmək bazarının formalaşmasının başqa bazar strukturlarından asılılığı heç də o demək deyildir ki, əmək bazarının müstəqilliyi və əhəmiyyəti yoxdur. Əmək bazarı bir sıra ictimai əhəmiyyət kəsb edən keyfiyyətlərə malikdir. Belə ki, əmək bazarı yüksək texnologiyaya malik istehsalın tələbatına cavab verən iş qüvvəsinin təkrar istehsalında mühüm rol oynayır, əmək ehtiyatlarının bölüşdürülməsi və onlardan səmərəli istifadə olunmasına lazımi şərait yaradır, işçilərin çoxprofilli və universal inkişafı üçün öz peşələrini, ixtisas və təhsil səviyyəsini yüksəltməkdə geniş şərait yaratmaqla əməyin ödənilməsində bazar amillərinin rolunun artırılmasına, səmərəliliyinin artmasına təkan verir və s. [2, s.299]

Əmək bazarında iş qüvvəsinin dəyəri öz qiymətini alır, onun muzdla işləməsi şəraiti, yəni əmək haqqının həcmi, iş şəraiti, təhsili, məşğulluq təminatı və s. müəyyən edilir. Həmçinin əmək bazarı əhalinin məşğulluğunu optimallaşdırır, yeni əmək münasibətlərinin yaranmasına təsir edən subyektlərin rolunu artırır.

Məşğulluq problemi müasir şəraitdə sosial müdafiənin əsas tərkib hissəsidir və bu problemin müsbət həll edilməsi üçün bir sıra işlər görülməlidir. Bunun üçün ilk növbədə onun yaranma səbəbləri lazımınca öyrənilməli, sonra aradan qaldırılmasına çalışmasıdır.

Bu baxımdan məşğulluq probleminin həlli üçün yeni iş yerləri yaradılmalı, müasir bazar tələblərinə uyğun ixtisasartırma kursları təşkil edilməli, keyfiyyətinə fikir verilməli, işsizliyə görə verilən imtiyazlar normal məbləğdə olmalı və s. bu kimi tədbirlər görmək lazımdır. Həmçinin iş yerlərinin yaradılması üçün sahibkarlara investisiya yardımı göstərilməli, kəndli fermer təsərrüfatına kredit güzəştləri verilməsi həyata keçirilməlidir. Bütün bunları isə yerinə yetirmək üçün iqtisadiyyatın inkişafını daim nəzarətdə saxlamaqla artırmaq lazımdır.

Dövlətin apardığı sosial siyasət əmək bazarının inkişafında, vətəndaşların məşğulluğunun təmin edilməsində hazırlanmış proqramların həyata keçirilməsi mühüm amillərdən hesab olunur və bunların nəticəsində əmək bazarının səmərəliliyi xeyli artmışdır.

Respublikamızda işsizliyin olmasını şərtləndirən əsas səbəb torpaqlarımızın 20%-nin 30 ilə yaxın Ermənistanın işğalında olması nəticəsində 1 milyondan çox əhalinin qaçqın düşərək öz iş yerlərini itirməsi olmuşdur. Artıq Qəhrəman Ordumuz torpaqları geri qaytarıb və hazırda işğaldan azad edilmiş həmin torpaqlarda quruculuq işləri böyük sürətlə aparılır. Tezliklə qaçqın düşmüş insanlar öz evlərinə qayıdacaq və işlə təmin olunacaqlar. Bu zaman işğaldan azad olunmuş ərazilərə köçürüləcək şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə regionun iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla müvafiq işlər görülür, əsasən peşə hazırlığına cəlb edilən şəxslərin sayı artırılır. Bu işləri təkmilləşdirmək məqsədilə “Azərbaycan Respublikasının Əmək Məcəlləsi” nə, “Sosial müavinətlər haqqında”, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarına, həmçinin “Sosial sığorta haqqında”, “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına 2022-ci il 28 dekabr tarixində

müvafiq dəyişikliklər edilmişdir.

2022-ci ildə əhaliyə göstərilən məşğulluq xidmətlərinin keyfiyyətinin artırılması, şəffaflığın, operativliyin və əlçatanlığın, habelə inzibati idarəetmə modelindən xidmət modelinə keçidin təmin olunması fövqündə işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə çoxsaylı tədbirlər davam etdirilmişdir.

Son dövrlərdə həyata keçirilən genişmiqyaslı işlər, iqtisadi sahədə icra olunan vətəndaşyönümlü kompleks tədbirlər, qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar, eləcə də əhalinin rifah halının yaxşılaşdırılması, məşğulluq imkanlarının genişləndirilməsi, əmək, məşğulluq və sosial təminat sistemlərinin müasir tələblərə uyğun qurulması, işsizlik səviyyəsinin minimuma endirilməsi ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərməkdədir. [3, s.858]

2022-ci ildə 40 min nəfər münasib işlə təmin edilmiş,7,2 min nəfər haqqı ödənilən ictimai işlərə, 4,6 min nəfər peşə hazırlığı kurslarına, 16,1 min nəfər özünüməşğulluq proqramına cəlb olunmuş, 6,3 min nəfərə isə işsizlikdən sığorta ödənişi təyin olunmuşdur. [4]

Fikrimizcə, əmək bazarı ilə bağlı qeyd olunanları ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

- əmək bazarı digər bazarlarla müqayisədə sosial-iqtisadi münasibətlərə daha çox təsir göstərir;
- əmək bazarında alqı-satqı obyekti əmək deyil, işçinin iş qüvvəsidir;
- təbii-coğrafi amillər əmək bazarının strukturuna ciddi təsir göstərə bilər.

Müasir şəraitdə iqtisadiyyatın yenidən qurulması və inkişafında insan amilinin aparıcı rol oynaması cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan iş qüvvəsinin təkrar istehsalının müxtəlif aspektlərinin, eyni zamanda formalaşmaqda olan əmək bazarının, onun əsas elementlərinin və kateqoriyalarının, həmçinin də Azərbaycan Respublikasında onun spesfik xüsusiyyətlərinin tətbiq edilməsinə aparıcı xarakter verır.

## ƏDƏBİYYAT


1. Şahbaz Muradov "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər" Bakı- "Elm"-2004, səh.154-155
2. Səttar Mehbalıyev, Ramiz İsgəndərov "Əmək bazarı və əhalinin sosial müdafiəsi" Bakı-2002 səh.299
3. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans materialları. Bakı-2018 səh. 858-859
4. "Azərbaycan" qəzeti 18 mart 2023
5. https://nk.gov.az.
6. www.stat.gov.az



***Рена Махмудага кызы Агаева***
***старший преподаватель***
***Азербайджанского Университета Кооперации***
***кафедра "Коммерция"***
***E-mail: rena.agayeva.61@mail.ru***


**Формирование и проблемы развития рынка труда в Азербайджанской Республике**


***Резюме***

Рынок труда играет большую роль в развитии рыночной экономики. В связи сетим изучение соционально-экономического положения общества считается одним из важных процессов.Так, люди, продающие свою рабочую силу, удовлетворяют свои потребности за счет полученного дохода. В ходе этого процесса формируется рынок труда. Рынок труда ведет к повышению квалификации и образовательного уровня работников. Поэтому используются административные, экономические и организационные методы, так же как и в мировом практике.

В целом в статье говорится о рынке труда и факторах, которые приводят к его формированию.



***Ключевые слова: рынок труда, рыночная экономика, занятость, рабочая сила, заработная плата, спрос, предложения.***

***Rena Mahmudagha Aghayeva***
***is the senior instructor of Commercial***
***chair at the Cooperation University***
***E-mail: rena.agayeva.61@mail.ru***

***Forming and developing problems of the labour market in Azerbaijan Republic***

***Summary***

The Labour Market plays main role in the development of the market economics.At this time, studying the socio- economic situation of the socidy is considered one of the important processes.So, people who sell their labour force meet their needs with the income they get .During this process, the labour market is formed.The Labour Market leads to the development of the qualification and education level of employees. Therefore, administrative, economic and organizational methods are used as in the world experience.In general, the article talks about the labour market and the factors that lead to its information.

***Key words: labour market, market economy, employment, labour force, salary, demand, supply.***

**UOT: 94 (479.24)**

***Lamiyə Yaqub qızı TAHİROVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Aqrar sahənin və sənayenin iqtisadiyyatı”***
***kafedrasının baş müəllimi***
***E-mail: lamiya.tahirova1@gmail.com***
***ORCİD-İD : 0009-0005-3772-4015***

## MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI HEYDƏR ƏLİYEV

***Xülasə***

Məqalədə Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan lider kimi əbədilik qazanması barədə bəhs edilir. Ulu öndər öz xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin fəaliyyəti ilə Azərbaycanın iyirminci əsr ictimai-siyasi, iqtisadi, mədəni, mənəvi həyatında yeni bir tarix yaratmışdır. Məqalədə həmçinin Ümummilli liderin xalqımıza və milli dövlətçiliyimizə qazandırdığı, bəxş etdiyi nailiyyətlər haqqında da qeyd edilib.

***Açar sözlər: lider, vətən, sədaqət, tarix, müstəqil Azərbaycan, umummilli lider, xeyirxah, nailiyyətlər.***

***

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli 3494 nömrəli Sərəncamı ilə ölkəmizdə 2023-cü il “Heydər Əliyev İli” elan edilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən bütün dünyanın diqqətini cəlb etmiş qüdrətli şəxsiyyətdir. Xalqımız üçün Heydər Əliyev yeni Azərbaycanın böyük yaradıcısı və qurucusu, sözün əsl mənasında xilaskar və müdrik rəhbər olmuşdur. Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Heydər Əliyevin beynəlxalq aləmdə, dünya siyasəti miqyasında da mühüm simalardan biri hesab edilməsi hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. [1, 272]

Ulu öndər öz xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin fəaliyyəti ilə Azərbaycanın iyirminci əsr ictimai-siyasi, iqtisadi, mədəni, mənəvi

həyatında yeni bir tarix yaratmışdır. Heydər Əliyevin bütün siyasi və dövlətçilik fəaliyyəti çağdaş Azərbaycanın, Azərbaycan xalqının, milli dövlətçiliyin inkişafı və möhkəmlənməsi tarixidir.

Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması heç də təsadüfi deyildir. Bu gün insanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin böyüklüyünü bir daha hiss edir, onun xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi olurlar.

Ulu öndər Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır. Onun həyat və fəaliyyətinin xronologiyası böyük bir tarixi dövrün parlaq səhifəsini təşkil edir.

Heydər Əliyev 10 may 1923-cü ildə Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş, Azərbaycan Sənaye İnstitutunda oxumuş (1939-1941), Leninqradda (indiki Sankt-Peterburq) Ali Təhlükəsizlik Məktəbini və 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində, 1944-1969-cu illərdə Azərbaycan SSR-in təhlükəsizlik orqanlarında çalışmış, 1969-1982-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi, 1982-1987-ci illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 1987-1990-cı illərdə İttifaq əhəmiyyətli fərdi pensiyaçı, fəal ictimai-siyasi xadim, 1990-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri olmuşdur. 1993-cü ilin 15 iyunundan yenidən ikinci dəfə Azərbaycan Respublikasına rəhbərlik etmiş, iki dəfə (3 oktyabr 1993-cü ildə, 11 oktyabr 1998-ci ildə) Azərbaycan Respublikasının prezidenti seçilmişdir. [1, 272]

Ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər genişmiqyaslı inkişaf və tərəqqinin əldə olunması, milli kimliyimizin dirçəldilməsi, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması dövrü kimi xarakterizə olunur. Heydər Əliyev kimi parlaq zəkaya, dərin biliyə və misilsiz işgüzarlığa malik bir şəxsiyyətin respublikamıza rəhbər seçilməsi Azərbaycanın tarixində dönüş nöqtəsi olmuşdur.

1993-cü ildə Azərbaycan dövlətçiliyi ən ağır sınaqlarla qarşı-qarşıya qalanda yenə də xilaskarlıq missiyası Heydər Əliyevin üzərinə düşmüşdür. Heydər Əliyev kimi bütün mənalı ömrünü öz xalqına həsr edən nəhəng dövlət xadimi Azərbaycan xalqının çağırışına və təkidli tələbinə, ölkəmizin üzləşdiyi ağır vəziyyətə laqeyd qala bilməzdi. O, Vətənin ağır günündə yenə də məsuliyyəti öz üzərinə götürmüş, müqəddəs xilaskarlıq missiyasını böyük məharətlə yerinə yetirmişdir. 15 İyunun Azərbaycan dövlətçilik tarixində Qurtuluş günü kimi öz yerini alması məhz bu gerçəkliklərdən irəli gəlir. Ulu öndər Heydər Əliyev xalqını vətəndaş müharibəsindən, dövlətini parçalanmaqdan, xaos, anarxiya və böhrandan xilas edərək inkişaf relsləri üzərinə çıxarmışdır. O, Ali Sovetin iclasında Ali Sovetin sədri seçildikdən sonra etdiyi ilk çıxışında demişdir: "Ali Sovetin sədri kimi, Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm". [2, 415]

Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, o, iki siyasi sistemdə Azərbaycana rəhbərlik etmiş və hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq özünün bütün güc və bacarığını Azərbaycan xalqının rifahına və milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə, xalqın mənəvi-mədəni dəyərlərinin inkişafına yönəltmişdir. O, özünün şərəfli fəaliyyətində xalqına arxalandığı kimi, xalq da öz taleyini ona etibar edərək Ulu öndərə arxalanırdı. Hər zaman xalqına arxalanan Heydər Əliyev özünün həyat amalı haqqında danışarkən demişdir: "Mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". [2, 415]

Ümummilli iderin dövlətçilik baxımından qısa müddət hesab olunan dövrdə xalqımıza və milli dövlətçiliyimizə qazandırdığı, bəxş etdiyi nailiyyətlər yalnız Azərbaycanın müstəqilliyini, möv-

cudluğunu qorumaq, onun sütunlarını möhkəmləndirmək və inkişaf yollarına çıxarmaqla məhdudlaşmır. Yeni əsrin və yeni minilliyin başlanğıcında Ulu öndərin liderliyi ilə artıq ölkəmizin qarşısında duran bir çox məsələlər uğurlu həllini tapmış, gələcəyin güclü, qüdrətli Azərbaycanının sarsılmaz bünövrəsi qoyulmuşdur. Heydər Əliyev Azərbaycan xalqı üçün böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan böyük xilaskarlıq, sabitlik və inkişaf missiyasını həyata keçirmiş qüdrətli şəxsiyyət, Azərbaycanda dövlət müstəqilliyinin banisidir.

Heydər Əliyev öz titanik əməli fəaliyyəti ilə nəinki Azərbaycan, insanlıq, bəşəriyyət üçün dəyərli bir tarix yaratdı, habelə bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyini təcəssüm etdirən bir tarix yaratdı.

Ulu öndər irqindən, dilindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəsə hörmətlə yanaşır, insani keyfiyyətləri - səmimiliyi, düzgünlüyü, xeyirxahlığı, alicənablığı, dostluğu, qətiyyəti, kamilliyi, qoçaqlığı yüksək qiymətləndirir, ağıllı və savadlıları seçib ayırır, sənət adamlarına həssaslıqla yanaşır, xalqla bir yerdə olmaqdan, insanların rəğbətini qazanmaqdan qürur duyurdu.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Ümummilli lider dəfələrlə xatırladırdı: “İnsan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və inanıram ki, xalqımız bu müstəqilliyi heç vaxt bir daha əlindən verməyəcəkdir”.

Bu sözlər Azərbaycanın dövlətçilik tarixinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin-Heydər Əliyevin nəsillərə ən müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də, tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır.

2020-ci ildə qazanılan tarixi Zəfərimiz ordu quruculuğunda Heydər Əliyev strategiyasının uğurlu davamıdır. 28 ildən sonra insanların doğma Qarabağımıza qayıdışı məhz Ümummilli liderimizin siyasi kursunun təntənəsidir. Torpaqlarımızın işğaldan azad edilərək ərazi bütövlüyümüzün bərpa edilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin timsalında gerçəkləşmişdir. [1, 272]

Dahi rəhbərimiz, Ulu öndər Azərbaycan xalqına müraciətində belə demişdi: “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək”.

Bu gün Azərbaycan Respublikası Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Çoxəsrlik Azərbaycan xalqının qəlbində Heydər Əliyev dühası daima yaşayacaq, nə qədər ki, bu millət var, Heydər Əliyev şəxsiyyəti də əbədi olaraq böyük sevgi və ehtiramla yad ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: “Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır”.

## ƏDƏBİYYAT


1. Həbibbəyli, İ.Ə. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr / İsa Həbibbəyli; elmi red. M.Rzayev; red. V.Məmmədov. – Naxçıvan: [Əcəmi], 2013. – 272 s.
2. Əliyev, H,Ə. Müdrik fikirlər / Heydər Əlirza oğlu Əliyev; Heydər Əliyev Fondu; tərt. ed. Regionların İnkişafı İctimai Birliyi. – Bakı: Çaşıoğlu, 2009. – Kitab 2, Oktyabr; 1998-2003 oktyabr. – 415 s.
3. Qafarova, S. Tarixin, liderliyin və xilaskarlığın HEYDƏR ƏLİYEV zirvəsi: Azərbaycanın özü qədər əbədi / Sahibə Qafarova // Azərbaycan. – 2022. – 8 may. – S.1-3.

***Ламия Ягуб кызы Тахирова***
***Азербайджанский Университет Кооперации***
***старший преподаватель кафедры***
***"Экономика аграрного сектора и промышленности"***
***E-mail: lamiya.tahirova1@gmail.com***
***ORCİD-İD 0009-0005-3772-4015***

***Архитектор независимого Азербайджана Гейдар Алиев***

***Резюме***

В статье говорится о том, что великий лидер Гейдар Алиев навсегда остался в памяти азербайджанского народа как основатель и спаситель государства, национальный лидер и лидер, завоевавший любовь народа. Великий лидер своей безграничной преданностью своему народу, Родине, любовью, дальновидностью, добротой, продуманной и напряженной деятельностью создал новую историю в общественно-политической, экономической, культурной, духовной жизни Азербайджана двадцатого века. В статье также было отмечено о достижениях, достигнутых Общенациональным лидером нашему народу и национальной государственности.

***Ключевые слова: лидер, Родина, верность, история, независимый Азербайджан, общенациональный лидер, доброта, достижения.***

***Lamiya Yagub Tahirova***
***Azerbaijan Cooperation University***
***Senior lecturer of the Department***
***"Economics of the agrarian sector and industry"***
***E-mail: lamiya.tahirova1@gmail.com***
***ORCİD-İD 0009-0005-3772-4015***

***Architect of independent Azerbaijan Heydar Aliyev***

***Resume***

The article talks about how great leader Heydar Aliyev gained eternity in the memory of the Azerbaijani people as a founder and Savior statesman, national leader and leader who won the love of the people. The Great Leader created a new history in the public political, economic, cultural and spiritual life of Azerbaijan in the twentieth century with his endless loyalty, love, foresight, kindness, thoughtful and intense activity to his people and Homeland. The article also mentioned the achievements of the national leader to our people and national statehood.

***Key words: leader, motherland, loyalty, history, independent Azerbaijan, national leader, benefactor, achievements.***

**УДК -033**

***Шахираханум Рамиз кызы ДАДАШЕВА***
***Азербайджанский Университет Кооперации***
***Shaxira81@mail.ru***

## МЕСТО И РОЛЬ МАЛОГО БИЗНЕСА В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ РЕГИОНОВ СТРАНЫ

***Резюме***

Развитие малого бизнеса имеет стратегическое значение при разработке и принятии национальных приоритетов экономики. Чтобы добиться устойчивого развития регионов страны, необходима государственная поддержка объектов малого предпринимательства, обес-

печение их самостоятельности, с целью снижения социальной напряженности, увеличения занятости в регионах и обеспечение экономического роста. В статье представлены рекомендации в области устойчивого развития регионов.

***Ключевые слова: Малый бизнес, устойчивое развитие, стимулирование, конкуренция, предпринимательство.***

***

Роль малого бизнеса в экономике Азербайджанской Республики, очень велика. Исходя из этого обеспечение устойчивого развития экономики требует постоянного развития малого предпринимательства. Субъекты малого и среднего бизнеса определяются в соответствии с критериями малого и среднего предпринимательства, утвержденными постановлением Кабинета Министров Азербайджанской Республики № 556 от 21 декабря 2018 года. Согласно данному постановлению малые предприниматели со средней численностью работников от 11 до 50 человек, годовой доход от 200 тысяч до 3000 тысяч манатов, средние предприниматели со средней численностью работников от 51 до 250 человек, годовой доход включает предприятия от 3 000 000 до 30 000 000 манатов.

Малый бизнес имеет множество уникальных особенностей, которые можно разделить на количественные и качественные [4, s.44]. К количественным критериям относятся: количество сотрудников; сумма продаж, т.е. товарооборот; общая стоимость активов; финансовые, человеческие и другие ресурсы. К качественным критериям относятся: качество предоставляемого товара или услуги; высокая маневренность и подвижность.

Субъекты малого бизнеса считаются благоприятными для восстановления, формирования и надлежащего управления экономикой, а именно: [5; s.68] внутренний рынок увеличивается за счет товаров и услуг в результате увеличения производства; количество потребителей увеличивается; формируется здоровая и свободная конкурентная среда; рационально используется местное промышленное и природное сырье; увеличивается занятость в результате создания дополнительных рабочих мест; улучшает структурную реконструкцию; обеспечивает расширение потребительского сектора; расширяются экспортные возможности.

В целях обеспечения устойчивого развития предпринимательства в нашей стране реализована институциональная схема партнерства государства и самостоятельных предпринимателей. Созданные в этой связи механизмы, Агентство по развитию малого и среднего предпринимательства, Фонд поощрения экспорта и инвестиций в Азербайджане, Центры бизнес-обучения и др., играют решающую роль в развитии государственно-предпринимательских отношений на гражданском уровне. В Азербайджане ведется соответствующая работа в области создания новых моделей развития предпринимательства – свободных экономических зон (СЭЗ), промышленных парков и Агро парков.

Как видно из таблицы 1, количество действующих субъектов малого и среднего предпринимательства с каждым годом возрастает. Однако как видно, основная сила предпринимательства сосредоточена в городе Баку. Мы знаем, что основу экономики составляет малое предпринимательство. Исходя из этого, возникает необходимость расширения, ускоренного развития и стимулирования малого предпринимательства в регионах Азербайджана, что приведет также к увеличению и пополнению местных бюджетов.

Развитие малого предпринимательства и реформы в целях создания благоприятной деловой среды вытекают из требований национальной стратегии экономического развития, определенной общенациональным лидером нашего народа Гейдаром Алиевым и в настоящее время последовательно реализуемой под руководством Президента Республики Ильхама Алиева. Обеспечение устойчивого и сбалансированного развития экономики страны и ускорения развития регионов являются одними из приоритетных задач современного этапа социально-экономического развития нашей страны.

Сегодня перед нашим государством стоит задача по ускоренному развитию регионов наших страны, освобожденных от оккупации. По данным Министерства экологии и природ ных ресурсов Азербайджанской Республики, на освобожденных территориях расположены 167 различных месторождений полезных ископаемых.

*Таблица 1*

**Количества действующих субъектов малого и среднего предпринимательства по экономическим районам Азербайджана**

| Название региона | 2020 год | | | 2021 год | | |
|---|---|---|---|---|---|---|
| | Всего | Малое | Среднее | Всего | Малое | Среднее |
| Город Баку | 5830 | 4130 | 1700 | 6631 | 4788 | 1843 |
| Нахичеванская Автономная Республика | 285 | 167 | 118 | 293 | 173 | 120 |
| Апшерон-Хызинский экономический район | 577 | 394 | 183 | 673 | 478 | 195 |
| Ширванский экономический район | 101 | 65 | 36 | 113 | 76 | 37 |
| Гянджа-Дашкесанский экономический район | 222 | 130 | 92 | 253 | 167 | 86 |
| Карабахский экономический район | 165 | 114 | 51 | 181 | 129 | 52 |
| Казах-Товузский экономический район | 197 | 133 | 64 | 199 | 129 | 70 |
| Губа – Хачмазский экономический район | 197 | 124 | 73 | 214 | 136 | 78 |
| Ленкорань-Астаринский экономический район | 213 | 141 | 72 | 234 | 164 | 70 |
| Центрально-Аранский экономический район | 237 | 158 | 79 | 268 | 178 | 90 |
| Шеки-Загатальский экономический район | 242 | 147 | 95 | 280 | 183 | 97 |
| Ширван-Сальянский экономический район | 180 | 111 | 69 | 177 | 105 | 72 |

*[8, https://www.stat.gov.az/search/?q=sahibkarl%C4%B1q]*

Из них 5 - сырье для цемента и соды, 42 - облицовочные, пиленые и различные виды строительных камней, 19 - гипс и глина, 14 - цветные и декоративные камни, 14 - песчано-гравийный и строительный песок, 21- отложения пемзы и вулканического пепла. По предварительным оценкам, на этих месторождениях подтверждено 132,6 тонны золота; 37,3 тыс. тонн свинца, 147,1 млн. тонн цементного сырья и др. Эти месторождения сыграют важную роль в развитии экономики страны и приведут к открытию множества рабочих мест [7]. Как видно, освободившиеся районы богаты различными видами материалов промышленного и строительного назначения. Все это говорит о том, что на наших территориях много сырьевых и энергетических ресурсов для создания широкой сети предприятий, объектов малого бизнеса, объем продукция (работ и услуг) которых должен и сможет составить большую часть ВВП страны. Развитие Карабахского региона приоритетная задача нашего правительства, которая находит свое отражение в целевых государственных программах.

В утвержденной Президентом программе “Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития” от 02 февраля 2021 года определены приоритетные направления – доведение доли Карабахского региона в хозяйственной деятельности страны до оккупационного состояния и постоянно увеличивать ее, обеспечивая жизнедеятельность, построенную на прочном фундаменте. В этом процессе, важное значение, имеет комплексное продвижение частных инициатив на основе необходимых стимулов, а также развитие государственно-частного партнерства [3].

Необходимо восстановить исходное положение освобожденных территорий в экономическом и социальном развитии страны. Новый экономический регион должен стать одним из ведущих звеньев хозяйственной деятельности и иметь уровень развития, соответствующий иным регионам нашей страны. Устойчивое развитие региона будет зависеть от обеспечения нужными ресурсами с целью удовлетворения потребности экономики, обилие природных ресурсов и приобретенный исторический имидж позволят привлечь инвестиции в эти районы. Для того чтобы частный сектор, особенно малые и средние предприятия, стал основным источником экономического роста и занятости, необходимо значительно улучшить бизнес-среду, повысить прозрачность правоохранительной системы, предотвратить недобросовестную конкуренцию. Поэтому должна быть реализована новая и прозрачная стратегия приватизации. Следует повысить экономическую эффективность механизмов продвижения бизнеса. Налоговая и таможенная политика должны служить стимулированию малого предпринимательства, создавая при этом адекватные возможности для обеспечения расходов государственного бюджета. Необходимо улучшить логистическую инфраструктуру и обеспечить доступ к коммунальным услугам, стартапы станут ведущими конкурентоспособными бизнес-организациями. Мы знаем, что уже сегодня стартапы, занимающиеся малой предпринимательской деятельностью, получившие свидетельство “Стартап” на 3 года освобождены от уплаты налога на прибыль; Резиденты промышленных парков освобождаются от налога на прибыль, налога на имущества, земельного налога сроком на 10 лет, а также от НДС на ввозимые машины, технологическое оборудование и установки сроком на 10 лет и от таможенной пошлины сроком на 7 лет, начиная с отчетного года их регистрации. Все это свидетельствует о всесторонней государственной поддержке малого предпринимательства.

В развитии малого предпринимательства в регионах имеет свои проблемы, в решение которых помогут такие мероприятия как увеличение свободы выбора предпринимателям; уменьшение суммы уставного (первичного) капитала; уменьшение количество налоговых проверок; увеличить сумму налоговых льгот; облегчить процесс таможенного оформления, создание СЭЗ и др. Тем самым увеличивается экономическая активность в регионах. Международная практика показывает, что предпринимательство формируется с помощью государства. В этом направлении и в нашей стране должна проводиться обдуманная государственная политика. Для достижения этой цели необходимо установить систему предохраняющих, направляющих, наблюдательных, поощрительных и ограничительных мероприятий как часть процесса государственного регулирования предпринимательства. Эти меры должны быть широко распространены и надлежащим образом реализованы, особенно в сфере малого бизнеса. Средства для предпринимательства на освобожденных территориях – прямые средства из государственного бюджета Азербайджанской Республики и Государственного нефтяного фонда, зарубежные инвестиции, единовременные безвозмездные пожертвования международных организаций, низкопроцентные банковские кредиты, средства страховых организаций, собственные средства населения и иные источники будут основой развития предпринимательства.

## ЛИТЕРАТУРЫ


1. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” 29 yanvar 2019-cu il
2. Постановлением Кабинета Министров Азербайджанской Республики № 556 от 21 декабря 2018 года
3. “Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития” от 02 февраля 2021год
4. Həsənli E.O., “Kiçik və orta biznesin inkişafı və əhalinin məşğulluğunun təmin edilməsi problemləri”, AMEA, “Naxçıvan”, 2018 ci il, 322 səh.
5. Manafov Q.N., , “Sahibkarlıq nəzəriyyəsi”, Bakı, “İqtisad Universiteti”,2016-cı il,158 səh.

6. Мамедова, Н.А., Девяткин Е.А., “Малый бизнес в рыночной среде”, Москва, “ИНФРА-М”, 2019 год 563 стр.
7. http://ikisahil.com/post/185443-azerbaycaninishgaldan-azad-edilen-erazilerinde-sahibkarligin-inkishaf-istiqametleri
8. www: Stat.gov.az

***Şahirəxanım Ramiz qızı Dadaşova***
***Azərbaycan Kooperasiya Universiteti***
***Shaxira81@mail.ru***

***Ölkə regionlarının davamlı inkişafının təmin edilməsində kiçik sahibkarlığın yeri və rolu***

***Xülasə***

Kiçik biznesin inkişafı milli iqtisadi prioritetlərin işlənib hazırlanmasında və qəbulunda strateji əhəmiyyət kəsb edir. Ölkə regionlarının davamlı inkişafına nail olmaq üçün, sosial gərginliyin azaldılması, regionlarda məşğulluğun artırılması və iqtisadi artımın təmin edilməsi məqsədi ilə kiçik sahibkarlığa dövlət dəstəyinin göstərilməsi, onların müstəqilliyinin təmin edilməsi zəruridir. Bu məqalədə regionların davamlı inkişafı sahəsində tövsiyələr təqdim olunur.

***Açar sözlər: Kiçik biznes, davamlı inkişaf, stimullaşdırma, rəqabət, sahibkarlıq.***

***Shahirakhanim Ramiz Dadashova***
***Azerbaijan University of Cooperation***
***Shaxira81@mail.ru***

***The place and role of small business in ensuring the sustainable development of the country's regions***

***Summary***

Small business development is of strategic importance in the development and adoption of national economic priorities. To achieve sustainable development of the country's regions, it is necessary to provide state support for small businesses, ensure their independence, in order to reduce social tension, increase employment in the regions and ensure economic growth. This article presents recommendations in the field of sustainable development of regions.

***Key words: Small business, sustainable development, stimulation, competition, entrepreneurship.***

**УДК: 330.362**

***Лейли Афрас кызы МЕЛИКОВА***
***преподаватель Бакинского Государственного Университета***
***исследователь Центра Исследований Экономики Карабаха UNEC***
***ORCİD-ID: https://orcid.org/0000-0002-2988-2284***
***E-mail: leyli.melikova@unec.edu.az***

## ИСТОРИЧЕСКИЕ ЗАСЛУГИ ГЕЙДАРА АЛИЕВА В ОБЕСПЕЧЕНИИ МАКРОФИНАНСОВОЙ СТАБИЛЬНОСТИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

***Резюме***

В статье исследованы исторические заслуги Гейдара Алиева в обеспечении макрофинансовой стабильности независимого Азербайджана. Анализированы процессы формирования модели экономического развития Азербайджана в начале 1990-х годов и исторические усилия Гейдара Алиева по обузданию темпов инфляции и обеспечению макрофинансовой ста-

бильности в Азербайджане. Обобщен и подготовлен ряд рекомендаций и предложений по рассматриваемым вопросам.

***Ключевые слова: Гейдар Алиев, Азербайджан, макрофинансовая стабильность, финансовая система, обеспечение макрофинансовой стабильности.***

***

После восстановления независимости Азербайджана в начале 1990-х гг. в стране возникли серьезные проблемы. Так, у власти находились случайные кадры - в стране речи не шло о макроэкономической и макрофинансовой стабильности. В бюджете практически отсутсвовали финансовые средства, а только что введенная в оборот национальная валюта – манат – уже была подвергнута девальвации и в экономике наблюдалась гиперинфляция. Кроме того, в тот же период армянские захватчики с помощью своих покровителей оккупировали 20 % наших плодотворных карабахских земель. Таким образом, в целом, в Азербайджане повысилась напряженность во всех сферах общества и государства. В этой ситуации народ искал спасителя и им стала великая личность, опытный управленец, общенациональный лидер Гейдар Алиев, который в тот период занимался обеспечением общественной, экономической и политической стабильности в Нахчыванской Автономной Республике.

В середине 1993-х гг. Гейдар Алиев второй раз возглавил независимый Азербайджан и всю свою оставшуюся жизнь посвятил укреплению государственности, улучшению жизненного состояния населения, в первую очередь, вынужденных переселенцев; одновременно обеспечив макроэкономическую и макрофинансовую стабильность экономики [3, с.40]. Гейдар Алиев своевременно осознал, что без обеспечения притока иностранных инвестиций и построения надежной финансово-кредитной системы в стране, без совершенствования денежной политики не удасться обуздать инфляцию, регулировать курс национальной валюты, тем самым, способствовать развитию национальной экономики и осущетсвлению необходимых экономических реформ. К тому же в стране требовалось заново построить и укрепить финансовую систему и развить деятельность финансовых структур, т.к. здесь отсутствовала централизованная налоговая служба, а таможенные органы только образовались. Локомотив национальной экономики - нефтяная сфера – была разорена, основные фонды были подвержены износу, многие нефтяные скважены эксплуатировались не эффективно, с каждым годом снижалась нефте и газодобыча. Другие сферы национальной экономики переживали так же не лучшие времена, например, хлопководство и виноделие попросту были забыты - хлопкоперерабатывающие и винные заводы практически остановились или работали на минимальной мощности. В целом, в стране отсутствовали реальные источники и база налогообложения, в результате чего существенно снизилась доходная часть государственного бюджета.

Благодаря историческим заслугам и титаническим усилиям Гейдара Адиева была проведена целенаправленная работа по эффективному использованию природных богатсв независимого Азербайджана. Так, 20 сентября 1994 года был заключен “Контракт Века” с участием руководителей и отвественных лиц США, Великобритании, России, Турции и транснациональных компаний во главе с British Petroleum, которые заложили основу стабильности, в том числе, макрофинансовой стабильности в Азербайджане. Начался активный прилив иностранных инвестиций в нефтяную сферу и Азербайджан получил прилагающиеся нефтяные бонусы и финансовые стимулы, которые дали серьезный толчок для стабилизации макрофинансовой ситуации в стране.

Уже к началу 1995 г. появились первые признаки макрофинансовой стабильности, в том же году курс национальной валюты был направлен в разумное русло. Гиперинфляция была обуздана, проводилась интерактивная денежно-финансовая политика, усилилась финансовая дисциплина, активизировалась работа Главной Налоговой Инспекции в стране, был приведен порядок в государственных структурах, особенно в пограничных пунктах таможенных органов [4].

Кроме того, в стране сформировалась необходимая законодательная база и принимались законы по регулированию финансво-кредитной системы, которая способствовала созданию

новых банковских предприятий, страховых организаций и других финансово-кредитных учреждений не банковского статуса. Развитие предпринимательства и повышение экспортного потенциала находились под особым вниманием государства. Гейдар Алиев посетил многие ведущие страны мира и другие постсоветские республики, ускорив, тем самым восстановление торгово-экономических связей и заложив укрепление дружеских отношений со многими государствами [2, с.15].

Одновременно были разработаны глобальный энергетический и транспортный проекты, которые повысили имидж и конкурентоспособность современного Азербайджана, что способствовало тому, что международные финансовые институты стали оценивать позицию Азербайджана как более благоприятную в кредитных рейтингах. В результате этого со стороны структур Мирового Банка и Банка Азии выделялись долгосрочные финансовые кредиты для формирования инфраструктурных объектов, энергетических и промышленных предприятий, проведения экономических реформ и совершенствования государственной структуры. Таким образом, великие и обдуманные замыслы, последовательная политика, в том числе, экономическая, нашего общенационального лидера Гейдара Алиева привела к закладке прочного фундамента макрофинансовой стабильности в Азербайджане.

В 1995-2003 гг. под руководством Гейдара Алиева в Азербайджане были осуществлены системные и комплексные мероприятия для формирования модели экономического развития азербайджанской экономики, которая полностью была пропитана национальными интересами и была направлена на долгосрочное благополучие Азербайджанского народа. С ростом валютных поступлений, за счет нефтедолларов, в стране развивались отдельные сектора национальной экономики, были восстановлены регенерирующие мощности энергетического комплекса. С участием известных транснациональных компаний, в том числе, немецкой фирмы Siemens, была построена современная электроэнергетическая станция в промышленном центре города Сумгаита мощностью 517 мВт, были модернизированы действующие промышленные и энергетические предприятия.

Однако самыми значимыми заслугами Гейдара Алиева были разработка и реализация стабильной денежно-кредитной политики и развитие финансово-налоговой системы в стране. Налоговые режимы были усовершенствованы и были развиты в сторону стимулирования развития предпринимательства и обеспечения более благоприятной инвестиционной среды. Таким образом, на ряду с нефтегазодобывающей сферой, были заложены основы развития и длругих отраслей национальной экономики. В сельском хозяйстве особый акцент был сделан на расширение перечня и повышение объема производства сельскохозяйственной продукции для усиления продовольственной безопасности в стране. Были созданы новые агропромышленные предприятия и заложено начало процесса выделения налоговых и таможенных льгот и дешевых кредитов для экономических субъектов, в частности, для малых и средних предпринимателей. В результате проведения аграрной реформы впервые в пространстве СНГ были распределены земельные фонды, которые значительно улучшили уровень занятости, повысили доходы населения и обеспечили преобразование регионов страны.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.
2. Əliyev, Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi// Jurnal "Geostrategiya"(AAK), Bakı, №05, noyabr, 2017, №05(41).- S.14-18.
3. Кязимов, М.С., Алиев, Н.К. Общая характеристика регламентации финансово-кредитной системы Азербайджанской Республик // Audit № 3, Cild 25, 2019, s.38-48.
4. Налоги и налогообложение в Азербайджане./ Второе издание. "ММ-С", Баку, 2020

*Leyli Əfras qızı Məlikova*
*Bakı Dövlət Universitetinin müəllimi*
*Qarabağ UNEC-in İqtisadi Araşdırmalar Mərkəzinin elmi işçisi*
*E-mail: leyli.melikova@unec.edu.az*

**Azərbaycanın makromaliyyə sabitliyinin təmin edilməsində Heydər Əliyevin tarixi xidmətləri**

***Xülasə***

Məqalədə müstəqil Azərbaycanın makromaliyyə sabitliyinin təmin edilməsində Heydər Əliyevin tarixi xidmətləri tədqiq olunmuşdur. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin səyi nəticəsində "Əsrin kontraktı" bağlanmış, iqtisadiyyatın müxtəlif sahələrində islahatlar aparılmış və ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün iqtisadi inkişaf modeli formalaşdırılmışdır. Baxılan problemlər üzrə bir sıra tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

***Açar sözlər: Heydər Əliyev, Azərbaycan, makromaliyyə sabitliyi, makromaliyyə sabitliyinin təmin olunması, maliyyə sistemi.***

*Leyli Efras Malikova*
*Teacher of Baku State University*
*Scientific worker of the Economic Research Center of Karabakh UNEC*

**Heydar Aliyev's historical merits in ensuring macro-financial stability of independent Azerbaijan**

***Summary***

Heydar Aliyev's historical merits in ensuring the macro-financial stability of independent Azerbaijan are investigated in article. The processes of forming a model of economic development of Azerbaijan in the early 1990s and the historical efforts of Heydar Aliyev to curb inflation rates and ensure macro-financial stability in Azerbaijan are analyzed. A number of recommendations and proposals on the issues under consideration are summarized.

***Keywords: Heydar Aliyev, Azerbaijan, macro-financial stability, financial system, ensuring macro-financial stability.***

**UOT 331.O1**

*Aytən Akif qızı ŞÜKÜROVA*
*müəllim, dissertant, Azərbaycan KooperasiyaUniversiteti*
*şhukurovaayten@mail.ru*

## AQROBİZNEZDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

***Xülasə***

Məqalədə aqrobiznesdə informasiya texnologiyalarının tətbiqinin zəruriliyi və rolu nəzəri və praktiki cəhətdən əsaslandırılmış, həmçinin onlardan istifadənin mövcud vəziyyəti təhlil edilməklə inkişaf istiqamətləri müəyyən edilmişdir.

Məqalədə müasir informasiya texnologiyalarının tətbiqinin bütün sahələr kimi, aqrobiznes sferasında da səmərəliliyin yüksəldilməsi və məsrəflərin ixtisarında mühüm əhəmiyyət kəsb etdiyi elmi araşdırmalarla əsaslandırılmışdır.

Tədqiqat nəticəsində ölkənin kənd təsərrüfatında informasiya texnologiyalarından istifdənin rolunu artırmaq və davamlı inkişaf etdirmək, aqrobiznesin bütün fəaliyyət sahələrində onun tətbiqini təmin etməklə tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

Məqalədə həmçinin kompüter texnologiyalarından və "Ağıllı kənd təsərrüfatı"nın formalaşma-

sı mexanizmlərindən ölkənin kənd təsərrüfatı müəssisələri və fermer təsərrüfatlarında, xüsusilə işğaldan azad olunmuş ərazilərin bərpası prosesinin optimallaşmasında istifadə imkanlarının müəyyən edilməsi məsələlərinə baxılmışdır.

***Açar sözlər: informasiya texnologiyaları; aqrobiznes; kompüter; İnternet şəbəkə.***

***

Müasir şəraitdə müəssisənin səmərəli idarə edilməsi komputer texnologiyalarından istifadə etmədən mümkün deyildir. Uzun müddət kənd təsərrüfatı investorlar üçün səlbedici biznes olmamışdır. Odur ki, aqrobiznesdə informasiya texnologiyalarından istifadə kompüterin tətbiqi ilə məhdudlaşmışdır. Yalnız son illər kənd təsərrüfatı bitkilərinin, ev heyvanları və kənd təsərrüfatı proseslərinin müxtəlif elementlərinin monitorinqi üçün rəqəmsal texnologiyadan istifadəyə başlanmışdır.

Hal-hazırda qlobal dünyada informasiya texnologiyalarının inkişafının mövcud səviyyəsi aqrobiznesdə də onların tətbiqinin sürətləndirilməsini zəruri etmişdir. Belə ki, informasiyaya malik olmaq və ondan istehsal-satış prosesində istifadə bilavasitə ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilə sıx əlaqədardır.

Qeyd etmək lazımdır ki, aqrobiznesin inkişafında idarəetmənin daha müasir texnologiyaların tətbiqi əsasında təkmilləşdirilməsinə ehtiyac olmasını və yeni texnika və texnologiyaların tətbiqinin rolunu yüksək qiymətləndirən Ulu öndər, Ümumilli lider H.Əliyev hələ öz dövründə müvafiq Fərman və Sərəncamları ilə ölkədə aqrar sahənin inkişafının yol xəritəsini müəyyən etmişdir.

Bu baxımdan, rəqabət mübarizəsinin kəskinləşdiyi müasir şəraitdə aqrobiznes sferası informasiya texnologiyalarının (İT) tətbiqi üçün əlverişli mühit hesab edilə bilər. Bununla əlaqədar olaraq, ölkənin aqrar təsərrüfat subyektlərinin səmərəli və dayanıqlı fəaliyyəti üçün onların daxili ehtiyatlarını aşkar etməyə imkan verən qabaqcıl informasiya texnologiyalarını tətbiq etmək lazımdır.

İnkişaf etmiş ölkələrin kənd təsərrüfatı sektorunda informasiya texnologiyalarının tətbiqinə daha çox şərait yaradılır və böyük səylər göstərilir. Burada daha müasir texnologiyaların tətbiqi kompüter proqramları çərçivəsində həyata keçirilir. Bu ilk növbədə əkin dövriyyəsinin zona sistemində kənd təsərrüfatı bitkilərinin yerləşdirilməsi, heyvanların yemlənmə rasionu, mineral gübrə normaları, yer quruluşu və torpaq resurslarının kompleks idarə edilməsi və s. üzrə optimallaşma proqramlarından ibarətdir.

Məhz bu səbəbdən fikrimizcə, ölkəmizin kənd təsərrüfatının inkişafı üçün optimal çıxış yolu hələlik Avropa və Qərb ölkələrində tətbiqi müsbət nəticələr veçmiş İT təcrübəsindən kifayət qədər əsaslı surətdə istifadə etməkdir.

Məlum olduğu kimi, dünyada bazar münasibətlərinə keçid müasir informasiya texnologiyasının kommunikasiya vasitələrinin geniş tətbiqinə yönəlməsinə səbəb olmuşdur. Artıq elə bir şəraitdə yaşayırıq ki, elm və texnikanın inkişafı sayəsində insan fəaliyyətinin bütün sferalarında optimal qərar qəbulu müasir və keyfiyyətli informasiyaya əsaslanır. Bu da aydındır ki, rəqəmsal iqtsadiyyatda elektron informasiyanın işlənməsi və saxlanmasının vasitələri əsasən hesablama texnikasından ibarətdir. Bu texnikadan istifadə isə ilk növbədə kompüter texnologiyalarına əsaslanır. Tədqiqat aparan mütəxəssislərin fikrincə, "maşın daşıyıcılarda saxlanılan qarşılıqlı əlaqəli məlumatların məcmusu "Məlumat bazası", informasiya daşıyıcılarında (kitab, məlumat bazası və s.) yerləşdirilən informasiya isə "İnformasiya resursları" adlanır [6]. Elektron mənbələrdən əldə etdiyimiz məlumata əsasən "informasiya texnologiyaları və ya İT məlumatları saxlamaq, qəbul etmək və ya göndərmək üçün kompüterlərin və telekommunikasiya vasitələrinin istifadəsidir" [5]. Bununla yanaşı, Azərbaycan ədəbiyyatında isə "İnformasiya texnologiyaları – informasiyanın toplanması, saxlanması işlənməsi və yayılması məqsədilə fəaliyyət göstərən proseslərin, prosedurların, reqlamentlərin, aparat-texniki, riyazi və linqvistik vasitələrin məcmusu" kimi müəyyən edilmişdir [3,s.585]. Bütün bunlar, qısaca desək, informasiya texnologiyalarının məzmunu haqqında təsəvvür yaradır.

Dövlət Statistika Komitəsinin məlumatları əsasında apardığımız apaşdırmalara görə, ölkəmizdə əhalinin hər 100 nəfərinə düşən İnternet istifadəçilərinin sayı 2021-ci ildə 2019-cu il ilə müqayisədə 7,4 faiz artaraq 87 nəfərə çatmışdır. Müqayisə edilən dövrdə İKT sektorunda məhsul (xidmət) buraxılışı 2083,2 mln. manatdan 2249,7 mln. manata yüksəlmiş və ya 8 faiz artmışdır. Təkcə 2021-

ci ildə bu sektorda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 1,8 faiz, kompüter və internet istifadəçisi olan məşğul əhalinin payı isə uyğun olaraq 67 və 64,2 fais təşkil etmişdir [2, s.9, 10, 21]. Göründüyü kimi, son illər Azərbaycanın informasiya cəmiyyətində İT-nin inkişafı istiqamətində xeyli dəyişiklik baş vermişdir.

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, rəqəmsal texnologiya şəraitində insan fəaliyyətinin bütün sferalarında səmərəli idarəetmə məqsədilə innovasiya texnologiyaları tətbiq edilməlidir. Bunu aqrobiznesin qarşısında duran yeni vəzifələr-planetin artan əhalisinin qida təminatı, keyfiyyətli qida məhsullarına və xidmətə tələbin ödənilməsi, əməyin səmərəliliyi və rentabelliyin yüksəldilməsi problemləri qoyur.

İnsan fəaliyyətinin iqtisadi, siyasi və sosial sferasının mürəkkəbləşməsi və işğaldan azad olunmuş ərazilərimizin bərpası informasiya texnologiyalarına tələbatın ödənilməsi üçün bu sahədə qabaqcıl Avropa ölkələrinin təcrübəsini öyrənməyə, biliklərin artmasına və inkişafına səbəb olmuşdur. Məhz bu və digər səbəbdən də ölkənin kənd təsərrüfatı da belə dinamik dəyişikliyə məruz qalmışdır.

Aparılan araşdırılmalarla sübut olunmuşdur ki, aqrobiznes sferasında fermerlərin idarəetmə qərarlarının qəbulunda mövcud informasiya bazasının olması sonuncu rolu oynamır. Burada, həmçinin yeni kənd təsərrüfatı bitkilərinin əkini, istehsalı, satışı, saxlanması, daşınması, eyni zamanda iqlim şəraitinin kəskin dəyişmələri ilə əlaqədar bu və ya digər toxum seçiminə vaxtında istiqamətlənmək və s. metodları haqqında bilik iqtisadiyyatı və texnologiyasına malik olmaq vacib şərtlərdən hesab edilir.

Fikrimizcə, ölkədə kənd təsərrüfatının inkişafı və işğaldan azad olunmuş kənd ərazilərinin bərpasının zəruriliyi şəraitində aqrobiznes sferası informasiya texnologiyalarının tətbiqi üçün ideal mühitdir. Məhz bu səbəbdən ölkənin ASK-nın daxili ehtiyatlarının aşkar edilməsi və xarici investorların cəlb edilməsinə imkan verən qabaqcıl informasiya texnologiyalarının tətbiqi vacibdir. Bunun üçün ölkənin hər hansı fermer təsərrüfatının qlobal İnternet şəbəkəsinə qoşulmaq və həmin şəbəkədə açıq saxlanılan, digər fermerlərlə real vaxt rejimində təcrübə mübadiləsi aparılması üzrə biliklərdən istifadə imkanı olmalıdır.

Aparılmış araşdırmaların nəticəsinə əsaslanaraq demək olar ki, müasir informasiya texnologiyalarının tətbiqi aqrobiznesdə müəssisələrin və fermer təsərrüfatlarının idarə edilməsinə və nəzarət proseslərinin yüngülləşdirilməsinə şərait yaradır. Belə ki, fermer təsərrüfatlarında "Qlobal Mövqe Sistemi"nin (QMS) tətbiqi ilə kənd təsərrüfatı texnikasının işinə nəzarət etmək mümkündür.

Son illər ölkəmizin iri aqrar təsərrüfatında tədricən tətbiq edilən və Aİ ölkələrinin təcrübəsində geniş yayılmış torpağın münbitliyini və ya mühitin temperaturunu uzaqdan ölçən sensorlar suvarma və ya havalandırma üzrə tədbirlər görülməsinin zəruriliyi haqqında mütəxəssisləri dəqiq və tez məlumatlandırmağa imkan verir.

Qeyd etmək lazımdır ki, İT həmçinin insan amilinin təsirini xeyli aşağı salır ki, bu da təsərrüfatlar üçün müsbət haldır. Hal-hazırda ölkəmizdə aqrobiznesin aktual problemlərindən biri onun aparıcı aqrar ölkələrlə münasibətdə texnoloji inkişafının xeyli geri qalmasıdır. Buna baxmayaraq, aparılmış tədqiqatların nəticəsi təsdiq edir ki, informasiya texnologiyalarının aqrobiznesdə tətbiqinin mühüm əlamətləri əsasən texnoloji proseslərin avtomatlaşdırılması, kompüterlərin mövcudluğu və İnternetə girişin səviyyəsindən ibarətdir. Xarici mənbələrə əsasən, "Kənd təsərrüfatında kompüter texnologiyaları Skandinaviya ölkələrində daha intensiv tətbiq edilir. Kompüter tətbiq edən fermerlərin sayı onların ümumi sayının 62,5-80 faizinə çatır. İnternetə qoşulma səviyyəsi isə İsveçrədə 46,7 faizdən Norveçdə 57,1 faiz arasında tərəddüd edir" [11]. Bununla yanaşı, bəzi dünya ölkələrində fermerlərin sadə informasiya texnologiyalarından istifadəsinin vəziyyətinin təhlili göstərir ki, "Norveçdə kompüterdən istifadə edən fermerlərin xüsusi çəkisi 74,3 faiz, internetdən istifadə edənlər isə 57,1 faiz təşkil edir. Bu göstəricilər uyğun olaraq , Danimarkada 80 və 50 faiz, Finlandiyada 62,5 və 50 faiz, Böyük Britaniyada 75 və 37,5 faiz, Almaniyada 44,1 və 32,4 faiz, Fransada 33,3 və 7,5 faiz, Rusiyada 3,3 və 1,1 faiz [12], Azərbaycanda isə mövcud olan 2084 təsərrüfatda 694 və ya 33,3 və 53,3 və ya 25,6 faizə bərabərdir [1, s.68;2, s.43,45].

Kənd təsərrüfatının inkişaf etdiyi və rəqabətqabiliyyətli ölkələrin təcrübəsi göstərir ki, texnoloji proseslərin informasiya təminatı olmadan istehlakçıların keyfiyyətli və əlverişli qiymətə məhsul

alması mümkün deyil. Nəzərə almaq lazımdır ki, "ABŞ-da bir fermanın informasiya texnologiyalarına keçidinin dəyəri 24 - 40 min dollar qiymətləndirilir. Bu halda bütün xərclərin 12,5 -16,7 faizi avadanlıqların, 83,7 - 87,3 faizi isə proqram təminatının payına düşür" [11].

Apardığımız araşdırmaların nəticəsi olaraq demək olar ki, müasir şəraitdə kənd təsərrüfatında informasiya texnologiyalarından ən çox intensiv istifadə edən Avropa İttifaqı (Aİ) ölkələridir. Buna baxmayaraq, bu ölkələrdə də fermerlərin "Qlobal İnternet şəbəkəsi"nə çıxış səviyyəsi Norveç istisna olmaqla 50 faizdən yüksək deyildir [12].

Dövlət Statistikasının məlumatına əsasən 2021-ci ildə ölkədə kompüter istifadəçilərinin 4,9 faizi, internet istifadəçilərinin isə 3,4 faizi kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsində iqtisadi fəaliyyətlə məşğul olan işçilərin payına düşmüşdür. Qeyd edilən sahədə kompüterlərin sayı 2019-cu ildəki 2170 vahiddən 2021-ci ildə 2289 vahidə çatmış və ya 5,5 faiz, informasiya texnologiyalarından bu sahə müəssisələrində və fermer təsərrüfatlarında istifadə 3,9 faiz, İnternetə çıxışı olan kompüterlərin sayı 7,5 faiz, müəssisələrin sayı isə 4,5 faiz yüksəlmişdir. Ümumiyyətlə, 2021-ci ildə 2019-cu illə müqayisədə ölkənin aqrobiznes sferasında kompüterlərdən istifadə edən işçilərin sayı 6,1 faiz, İnternetdən istifadə edənlər isə 7,3 faiz artmışdır [2, s. 22, 42, 45, 58, 59].

Nəzərə almaq lazımdır ki, aqrobiznesdə məhsul istehsalçıları zəruri və etibarlı informasiyaya malik olmaqla, həmişə düzgün qərar qəbul edə, həmçinin bu və ya digər texnologiyanın tətbiqindən əldə edilən iqtisadi səmərəni hesablaya bilərlər. Lakin hal-hazırkı şəraitdə bu, Azərbaycan fermerləri üçün çox çətin vəzifədir.

Məlum olduğu kimi, təsərrüfatlarda informasiya texnologiyalarının tətbiqinin mühüm əlamətlərindən biri kompüterlərin mövcudluğu, həmçinin onların İnternet şəbəkəyə çıxışının olmasıdır. Onu da qeyd etmək lazımdır ki, hələlik iri fermer təsərrüfatlarında İT əsasən mühasibat və aqrobiznes proseslərinin avtomatlaşdırılması üçün istifadə edilir.

Aparılan araşdırmalardan sonra belə nəticəyə gəlmək olar ki, müasir şəraitdə aqrobiznesdə informasiya texnologiyalarının tətbiqinin ümumi səviyyəsinin aşağı olması əsasən aşağıdakı səbəblərdən ola bilər:

- aqrobiznesdə İT-nin maddi-texniki bazası və təşkilati- iqtisadi situasiyasının zəifliyi şəraitində kənd təsərrüfatı müəssisələri və fermer təsərrüfatlarının az səmərəli olması;
- ölkəmizin aqrar sferasında İT-nin inkişaf etmiş infrastrukturunun olmaması;
- təsərrüfat subyektlərinin informasiyalaşma sisteminin inkişafında az maraqlı olması.

Bütün bunlarla yanaşı, kənd təsərrüfatında informasiya texnologiyalarının tətbiqinin mövcud çətinliklərinə baxamayaraq, onun bu sahədə əl əməyinin ixtisarına, əkin texnologiyalarından istifadənin sürətlənməsinə, məhsuldarlığın yüksəldilməsinə və son nəticədə "dəqiq əkinçilik", "ağıllı kənd təsərrüfatı", optimal idarəetmə qərarlarının qəbulu və sərf edilən xərclərin minimuma endirilməsinə imkan verəcəkdir.

Müasir informasiya sistemi və texnologiyaları həmçinin aqrobiznesdə innovasiyanın tətbiqinə mane olan assimmetrik informasiya problemini yumşaltmağa, kənd təsərrüfatı müəssisələrinin və fermer təsərrüfatlarının idarəetmə qərarının qəbulu prosesini xeyli dəyişdirməyə və s. problemlərin həllinə imkan verə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycanın Kənd Təsərrüfatı-2022 /Statistik məcmuə/ - Bakı: "Narıncı Nəşriyyat evi"MMC, 2022, 746 s. [Elektron resurs]:-
   https:// www. stat. qov. az/ menu/6/ stat-yearbooks/souzeL/aqricuLtureS 2022-zip
2. Azərbaycanda informasiya cəmiyyəti-2022/Rəsmi nəşr.(Statistik məcmu) Bakı:-2022. [Elektron resurs]:-
   https:// www ozq/.webmar/stat.qov.az/menu/6/statisticaL-yearbooks/i-socity-2022 zip.
3. Böyük İqtisadi Ensiklopediya/ ideya müəllifi və baş redaktoru, Akad.Z.Ə.Səmədzadə. "Azərbaycan İqtisadçılar İttifaqı".-Bakı: "Letterpress" Nəşriyyat evi, s.2, 2012, 632 səh.
4. "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. "Respublika", 2020-ci il, 9 yanvar, №2.

5. İnformasiya texnologiyaları (İT) nədir? [Elektron resurs]:-www.ixtisas.az/az/bloq/ informa-siya-t exnologiyaları -it-nedir-350.
6. Ананьев, М.А. Применение информационных технологий в АПК / М.А. Ананьев, Ю.В.Ухтинская. [Электронный ресурс] – URL:www/sisupr.mrsu.ru
7. Информационные технологий в сельском хозяйства. [Электронный ресурс]:- Реферат информатика дос.,тип= 179985, Дата 27.02.2021.
8. Информационные технологии в аграрном науке и сельскохозяйственные производстве/ [Электронный ресурс]:
-Ozlib/com//1006652/ekonomika/ informatsionnye-tehnoloqii-aqrarnoy-naurt-proczvodstve
9. Меняйкин, Д.В. Информационные системы и их приминение в АПК./ Д.В.Меняйкин, А.О.Таланова // Молодой ученый.-2014.-№3.-с. 485-487
10. Применение ИТ технологий в сельском хозяйства. [Электронный ресурс]: https://www.inf.74_ru/primenenie-it-v-selskom-hozyaystve./
11. Технологии информационные в сельском хозяйстве - [Электронный ресурс]:- https://vocable.ru/termin/texnoloqii-informaconye-v-seLskom- /htmL/
12. Чибисова, И.С. Применение информационный технологий в сельском хозяйстве России.Эпоха науки №13, март-2018, -[Электронный ресурс]:-
cyberleninka/ru/article/n/primenenie-informatisionyh-texnoloqiy-v-selskom-hozyaystve-rossii/vie web/

***Айтен Акиф кызы Шукюрова***
***преподаватель, диссертант***
***Азербайджанский Университет Кооперации***

**Применение информационной технологии в агробизнеса**

***Резюме***

В статье теоретически и практически обосновывается необходимость и роль применения информационных технологий в агробизнесе, а также анализируется современная ситуация их использования и определяются направления развития.

В статье научными исследованиями обосновано, что применение современных информационных технологий имеет важное значение в повышении эффективности и снижении затрат как в сфере АПК, так и во всех сферах.

В результате исследования выдвинуты рекомендации по увеличению и постоянному развитию роли информационных технологий в сельском хозяйстве страны, обеспечивающие их применение во всех сферах агробизнеса.

Также в статье рассмотрены вопросы определения возможностей использования компьютерных технологий и механизмов формирования “Умного сельского хозяйства” в сельскохозяйственных предприятиях и фермерских хозяйствах страны, особенно в части оптимизации процесса восстановления территорий, освобожденных от оккупации.

***Ключевые слова: Информационные технологии; агробизнес; компьютер; сеть Интернет.***

***Ayten Akif Shukurova***
***teacher, dissertation***
***Azerbaijan University of Cooperation***

**Application of information technology in agribusiness**

***Summary***

The article theoretically and practically substantiates the need and role of the use of information technologies in agribusiness, as well as analyzes the current situation of their use and determines the direction of development.

In the article, scientific research substantiates that the use of modern information technologies is important in increasing efficiency and reducing costs both in the field of the agro-industrial complex and in all areas.

As a result of the study, recommendations were put forward to increase and constantly develop the role of information technologies in the country's agriculture, ensuring their application in all areas of agribusiness.

The article also discusses the issues of determining the possibilities of using computer technologies and mechanisms for the formation of "Smart Agriculture" in agricultural enterprises and farms of the country, especially in terms of optimizing the process of restoring territories liberated from occupation.

***Key words: information technologies; agribusiness; computer; the Internet.***

**UOT: 338.48**

***Anar Balabəy oğlu MƏLİKOV***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının müəllimi***
***E-mail – malikzadeanar@gmail.com***

# SƏRHƏDYANI ƏRAZİLƏRDƏ TURİZM TƏYİNATLI XÜSUSİ İQTİSADİ ZONALARIN YARADILMASININ ƏHƏMİYYƏTİ

### *Xülasə*

Regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yaxınlaşması ölkənin idarə olunmasında strateji prioritet tələbdir. Ölkənin müəyyən bir bölgəsinin inkişafı bəzi spesifik xüsusiyyətlərlə, yəni təbii, sosial-siyasi, iqtisadi, demoqrafik amillərlə, eləcə də coğrafi mövqe ilə əlaqələndirilir. Belə ki, məsələn, qonşu ölkələr arasında müvafiq əlverişli münasibətlərə malik olan sərhədyanı rayonlar böyük müsbət ticarət balansı əldə edə bilər. Məqalənin aktuallığı ondadır ki, məqalə müəllifi sərhəd zonasında turizm məkanının xüsusi iqtisadi zonasının yaradılmasının vacibliyini əsaslandırır. Tədqiqatın məqsədi ölkənin sərhədyanı ərazilərində, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm təyinatlı xüsusi iqtisadi zonaların yaradılmasının ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində əhəmiyyətini əsaslandırmaqdır.

Ayrı-ayrı bölgələrin sərhədlərinin düzgün müəyyən edilməsi gələcək inkişafın müəyyən edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Çünki məhz bu tərif əsasında regionun inkişafı proqramı hazırlanır, zəruri hallarda regionun idarə olunması üçün yeni məsul strukturlar müəyyən edilir və nəhayət, növbəti 3-5 ilin inkişaf istiqamətlər üzrə qısamüddətli kompleks plan hazırlanır.

Əsas tədqiqat obyekti kimi ərazinin sərhədyanı turizm regionları müəyyən edilib. Bu aspektdə regionun dövlət sərhədinə yaxın yerləşmə elementi vurğulanır. Sərhədsiz zonaların fəaliyyətinin əsaslandırılması və müsbət nəticələri tədqiq olunan ərazidə oxşar fəaliyyətlərin həyata keçirilməsinə əsas verir. Əsas diqqət turizm məkanının azad iqtisadi zonasının idarə edilməsinin təşkilati tərəfinə verilir.

***Açar sözlər: turizm, xüsusi iqtisadi zona, region, sərhədyanı ərazi, turizm resursları, turizm sənayesi.***

***

Ümummilli lider Heydər Əliyev tərəfindən istər keçmiş sovetlər birliyi dönəmində, istərsə də Azərbaycanın müstəqillik qazandığı ilk dövrdə turizm sektorunun inkişafına xüsusi diqqət ayrılmışdı. Məhz bunun nəticəsidir ki, Ulu öndərin prezidentliyi dövründə onun müvafiq Sərəncamı ilə əvvəlcə, 1999-cu ildə "Turizm haqqında" Qanun [1] qəbul edilərək təsdiq olunmuş və daha sonra 2002-ci ildə "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı Proqramı"nın [2] reallaşdırılmasına qərar verilmişdir.

2016-cı ilin dekabr ayının 6-sında dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Respublikasın-

da ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"[3] təsdiqlənmiş və əsas məqsəd olaraq turizm sənayesinin effektiv fəaliyyətinə nail olunması qeyd edilmişdir. Lakin Ulu öndərdən sonra onun varisi İlham Əliyevin turizm sahəsində ən böyük xidməti regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş bütün dövlət proqramlarında (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər) sərhəd zonalarında yerləşmiş iqtisadi rayonların turizm potensialının inkişafına xüsusi önəm verməsi olmuşdur. Bu həm ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də bu ərazilərdə transsərhəd zonasının turizm təyinatlı xüsusi iqtisadi zonaya (TTXİZ) çevrilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Dünyanın bütün ölkələrində hər il xarici turistlərin axını artır. Bir çox ölkələrdə dövlət büdcəsinin formalaşmasında turizm sənayesi mühüm yer tutur. Amma müvafiq effekt əldə etmək üçün bütövlükdə ölkədə və xüsusilə regionlarda turizmin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul edilməsinə ehtiyac var. Dövlət proqramlarında turizmin müəyyən növləri, ayrı-ayrı regionlar xüsusi qeyd olunur ki, bu da gələcəkdə daha böyük gəlir gətirə və investisiya qoyuluşunu doğrulda bilər. Bir çox ölkələrin hökumətləri müəyyən regionların inkişafı üçün konkret addımlar atır.

Turizm xidmətlərinə tələbat müvafiq olaraq turizm infrastrukturunun təchizatına, təkmilləşdirilməsinə və inkişafına təsir göstərir. Eyni zamanda, ölkənin xarici turistlər üçün cəlbediciliyi böyük əhəmiyyət kəsb edir. Bu məsələdə ölkə daxilində fərqli xüsusiyyətlərə malik olan müəyyən regionlar xüsusi yer tutur.

Proessor Ə.Əlirzayev regionu belə müəyyənləşdirmişdir: "Qapalı iqtisadiyyatdan fərqli olaraq region giriş və çıxış parametrlərinə malikdir və öz iqtisadi və sosial parametrlərinə uyğun olaraq hərtərəfli ərazi vahidi kimi fəaliyyət göstərən ixtisaslaşmış təsərrüfat obyektlərinin məcmusudur. Təsərrüfat obyektləri təkrar istehsal strukturunda malik olduqları maliyyə, əmək və təbii ehtiyatlara görə ayrı-ayrılıqda fəaliyyət göstərirlər"[4, s. 7]. Bölgənin üstünlük və ya zəifliyini göstərən əsas göstəricilər sosial-iqtisadi göstəricilərdir. Müəyyən təbiət xüsusiyyətlərinə sahib olmaq, onların yayılması və fərqli xüsusiyyətlərin yerli strukturlar tərəfindən bölüşdürülməsi son nəticədə müsbət imic sahibi olmağa gətirib çıxarır. Andrlic və başqaları ölkənin regionlarının "istehsal yönümlü region", "sosial-iqtisadi rayon", "ticarət yönümlü region", "maliyyə-investisiya regionu", "innovasiya yönümlü region" kimi növlərini ayırmağı təklif edirlər[10, s. 15].

Y.Xudenkihin fikrincə, turizm regionu və ya destinasiya aşağıdakı meyarlarla müəyyən edilə bilər[8]:

- region vahid təbii məkandır;
- tarixən aparılan iqtisadi fəaliyyət;
- yerli əhalinin turizm fəaliyyətinə müsbət münasibəti;
- fəaliyyətlərdə müəyyən turizm növlərinin üstünlük təşkil etməsi;
- turizm növləri üzrə təşkilat mərkəzlərinin seçilməsi;
- turist marşrutları təyinat yerindən kənara çıxmır;
- sərhəd rayonlarının turizm infrastrukturunun yüksək inkişaf səviyyəsi.

Yuxarıda göstərilən region növləri arasında sərhəd rayonları dövlət sərhədinə yaxın yerləşdiyinə görə xüsusi cəlbediciliyə malikdir. Bilçakın fikrincə, "Hazırda iqtisadiyyatda böhran sərhədyanı regionların inkişafının davamlılığının daha operativ şəkildə təmin edilməsini tələb edir və bu da öz növbəsində bazarların məkan və institusional inteqrasiyasının gücləndirilməsini, ayrı-ayrı iqtisadi qurumların transsərhəd qarşılıqlı fəaliyyətində obyektlər, o cümlədən malların, xidmətlərin, kapitalın, texnologiyanın, məlumatın, işçi qüvvəsinin axını" iştirakını nəzərdə tutur" [5].

Sərhəd bölgələri bu bölgələrin sərhəd və ya transsərhəd turizm növü ərazisinə çevrilməsindən faydalanır. Norveçli tədqiqatçılar transsərhəd turizmi 2 növə bölürlər: "Bir günlük "sərhəd alış-veriş turizmi" sərhəd bölgələrində bir günlük turizmdir ki, bunun da əsas məqsədi daha ucuz mal və ya xidmətlər almaqla daha yüksək keyfiyyət və ya qonşu ölkə üçün əlçatan olan daha geniş çeşiddə mallar arasından seçim qiymət fərqlərindən yararlanmaqdır. Əksinə, "sərhəddənkənar turizm alış-verişi" sərhəd bölgəsində bir gecədə ümumi turizmə, o cümlədən həftəsonu səfərləri və sərhədlər arasında daha uzun səfərlərə aiddir; bu səfərlərə xaricdə alış-veriş və qonaqlama (otellər, pansiyonlar, düşərgələr) və iaşə daxildir. Bu fəaliyyətlər üçün alış-veriş əsas məqsəd deyil, baxmayaraq ki, o, turizm fəaliyyətləri dairəsində geniş şəkildə təmsil olunur"[11, s.5].

Sərhədlərarası istiqamətlər getdikcə populyarlaşır. Dövlət sərhədinin sehri həmişə turistləri cəlb edir. Lakin qeyd etmək lazımdır ki, heç də həmişə sərhəd-keçid məntəqələri, obyektlər və ərazilər turizm məkanına çevrilməməlidir. Lakin onların müvafiq potensialı varsa, o zaman əməkdaşlıq alətlərindən (o cümlədən ərazi əməkdaşlıq alətlərindən) istifadə etməyə və öz alətləri ilə turizmin inkişafına və nəticədə sərhədyanı istiqamətlərin sosial-iqtisadi inkişafına töhfə verə biləcək ayrı-ayrı beynəlxalq təşkilatlardan faydalanmağa dəyər[16, s. 350].

Ölkənin təyin olunan turizmində rəqabət qabiliyyətini artırmaq üçün onun strukturunu formalaşdıran regional və yerli destinasiyaların formalaşdırılmasına səy göstərmək lazımdır. Destinasiyanın turizm sənayesini ən yüksək gəlirlilik səviyyəsində saxlamaq onun rəqabət qabiliyyətini təmin edəcək, onu ziyarətçilər, investorlar, əmək resursları üçün cəlbedici edəcək və yerli əhalinin həyat keyfiyyətini yaxşılaşdıracaq[17, s. 44].

Turizm sənayesinin inkişafı üçün təkcə sərhədyanı ərazinin turizm potensialı kifayət etmir. “Regional inkişafın mənbəyi daxili potensialdan asılı olaraq qəbul edilir. İnkişaf elementləri insan kapitalı, firmaların yerli inteqrasiyası, bilik və təcrübə mübadiləsi, sosial kapital, etimad və qarşılıqlılıq, coğrafi yaxınlıq, xarici iqtisadiyyat, aqlomerasiya kimi müəyyən edilir”[13, s. 4].

Əlavə olaraq qeyd etmək lazımdır ki, sabitlik, iqtisadi inkişaf və qarşılıqlı anlaşma transsərhəd əməkdaşlığı intensiv şəkildə inkişaf etdirməyə imkan verir.

Sərhəd bölgələrində iqtisadi, mədəni və siyasi fəaliyyətin yeni növləri müəyyən edilir. Sərhəd rayonlarının inkişafı istehsal qüvvələrinin münasibətlərin yeni müstəvisində fəaliyyətinin təbii prosesidir. Nəticədə fərdin, sahibkarlığın, dövlətin inkişafı üçün müvafiq şəraitin yaradılması üçün innovativ, elmi, qanunvericilik sisteminin təkmilləşdirilməsinə xüsusi yanaşma yaradılır.

Transsərhəd regional əməkdaşlıq müxtəlif sahələrdə fayda verir[9, s. 88]:

- texniki infrastruktur - kommunal qurğuların tikintisi, bərpası və istismarı;
- iqtisadiyyat - yerli müəssisələrin istehsal fəaliyyətinin genişləndirilməsi;
- sosial sahə - sərhədyanı ərazilərdə yerli əhalinin gəlirlərinin artırılması və sosial vəziyyətinin yüksəldilməsi;
- sosial infrastruktur - mədəni, innovativ və texnoloji mərkəzlərin formalaşdırılması, yerli əhalinin sosial müdafiəsi səviyyəsinin yüksəldilməsi;
- ətraf mühitin mühafizəsi - ərazinin monitorinq sisteminin formalaşdırılması, sərhədin hər iki tərəfində qorunan ərazilərin bərpası.

Beləliklə, turizm təkcə maddi ehtiyacların deyil, həm də mənəvi ehtiyacların ödənilməsinə kömək edir[15, s. 75].

Turizm turizm resurslarına və turizm sənayesinə əsaslanır.

Regional turizmin inkişafı təbii və tarixi-mədəni irsin qorunması ilə bağlıdır, eyni zamanda, bu sənayenin səmərəli fəaliyyəti bölgənin təbii, tarixi və mədəni ehtiyatlarının saxlanmasını və bərpasını təmin edir [6, s. 150]. Biz turizm resurslarını 3 qrupa bölməyi təklif edirik: təbii, antropogen və etnoqrafik. Əhalinin etnoqrafik xüsusiyyətlərinin müəyyən edilməsi yerli əhalinin mədəni özünəməxsusluğunun qorunub saxlanılması və onları turizm fəaliyyətinə cəlb etmək motivasiyası ilə bağlıdır.

Turistləri ən çox etnoqrafik turlar cəlb edir. Etnoqrafik sərvətlər xalq sənətkarlığı, mahnılar, rəqslər, əfsanələr, yerli əhalinin məişəti, yemək bişirmək, bir növ bayramlar, toylar və digər ayinlərdir. “Bəzən etnososial resurslar qeyri-maddi mədəni dəyərlərin spesifik turizm məhsulu, yəni onların dramatik forması ola bilər”[14, s.92]. Etnoqrafik resursların ayrıca qrupa ayrılması, ilk növbədə, multikulturalizmin qorunub saxlanmasıdır. Etnoqrafik özünəməxsusluğun qorunub saxlanması ətraf təbiətin qorunub saxlanmasına müsbət təsir göstərir.

Ölkənin təyin olunan turizmində rəqabət qabiliyyətini artırmaq üçün onun regional və yerli destinasiyalarını formalaşdırmaq üçün səylər lazımdır. TTXİZ-nin idarə edilməsi mexanizminin işlənib hazırlanması bu ərazinin tanınmış turizm məkanına çevrilməsi üçün hərtərəfli tədqiqat işinin aparılmasını tələb edir.

Məqsədə çatmaq üçün ilk addımlar bunlardır:

- bu sərhəd zonasının “turizm təyinatının xüsusi iqtisadi zonası” elan edilməsi;
- Turizm üzrə Regional Şuranın yaradılması;

- regionun sosial-iqtisadi inkişafı Proqramının hazırlanması.

Turizm infrastrukturunun, istehsal və xidmət müəssisələrinin genişləndirilməsi regionun İnkişaf Proqramında nəzərə alınmış yeni su və elektrik enerjisi mənbələrini tələb edir. Maliyyə resurslarının artırılması Regional Turizm Şurasının (RTŞ) əsas vəzifəsidir.

Regionların əsas sosial-iqtisadi göstəricilərinin yaxınlaşması dövlətin ayrılmaz məqsədidir. "Yaxınlaşma və ya bərabərləşmə bütövlükdə regionlar üzrə əməkhaqqı səviyyələrində və faiz dərəcələrində, yəni regionlar üzrə resurs gəlirlərinin bərabərləşdirilməsində əks olunur" [12].

Bölgənin əlçatanlığı kütləvi turist axınını cəlb edən əsas amildir.

Bunun üçün aşağıdakı addımlar tələb olunur:

- yerli turizm agentliklərinin xarici həmkarları ilə sıx işləməsi;
- komfort baxımından beynəlxalq standartlara cavab verən nəqliyyat vasitələri;
- yüksək sürətli dəmir yolu nəqliyyatı;
- TTXİZ-nin vahid turizm məhsulu kimi davamlı reklamı və s.

Bütün bunlar regionun beynəlxalq səviyyədə tanınması üçün çox vacibdir.

Regiona yerli və xarici turistlərin kütləvi axını mehmanxanaların, kənd qonaq evlərinin doluluğunu artıracaq, müvəqqəti çadır şəhərciklərinin fəaliyyətini artıracaq.

Tədqiqat nəticəsində aşağıdakı nəticələr çıxarmaq olar:

- turizm fəaliyyəti sərhədyanı regionların, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi yüksəlişi üçün böyük potensiala malikdir;
- qonşu dövlətlərlə həmsərhəd olan bölgələr əlavə üstünlüklərə malikdir;
- turizm məkanının sahibkarlıq fəaliyyəti üçün bütün imtiyazları olan xüsusi iqtisadi zonasının yaradılması ünvanlı sosial təminat üçün bütün imkanları təmin edir;
- regionların iqtisadi və demoqrafik inkişafı;
- yalnız Regional Turizm Şurasının məqsədyönlü rəhbərliyi altında turizm infrastrukturu müəssisələri ilə turizm fəaliyyəti ilə məşğul olan digər sənaye müəssisələri arasında əməkdaşlıqda fəaliyyət gözlənilən nəticəni verə bilər;
- TTXİZ vahid turizm məhsulu kimi cəlbedici ola bilər və s.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu. 4 iyun 1999-cu il.
2. "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi". /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir / Bakı: 2016 - http://e-qanun.az/framework/34254
4. Əlirzayev Ə.Q., Yusupov Q.M., (2019) Sərhədyanı regionun sosial-iqtisadi inkişafında turizmin rolu. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi xəbərləri, aprel-iyun 2019, s. 5-17.
5. Бильчак М.В. (2011) Совершенствование методологических аспектов развития приграничного региона: моделирование, методика, инструментарий регулирования: диссертация по ВАК 08.00.05, к.э.н.,., 206 с.
6. Гречишкина Е.А. (2018) Механизм управления устойчивым развитием регионального туризма // Економічний вісник Донбасу, №1(51), с. 150-159.
7. Синенко О.А., Цыганова Т.Д. (2018) Особые экономические зоны России: практика применения налоговых льгот и оценка эффективности // Вестник УрФУ. Серия Экономика и управление, №17(1).
8. Худеньких Ю.А. (2006) Туризм в Пермском крае: территориальная организация и региональное развитие: Диссерт. канд. географ, наук: 25.00.24, Пермь.
9. Юсупов Г.М. Механизм превращения приграничного региона в туристскую дестинацию. // The Journal of Economic Research & BusinessA dministration. №3 (137). 2021. Pp. 77-91.
10. Andrlic B., Shtuler I., Serzhanov V. (2019) Differentiation Content Analysis of Socio-Economic Development of Regions of Country// 46th International Scientific Conference on Economic and Social Development – "Sustainable Tourist Destinations", Varazdin, 24-25

october, pp.12-17.
11. Leick B., Schewe T., Kivedal B.K. (2020) Tourism Development and Border Asymmetries: An Exploratory Analysis of Market-Driven Cross-Border Shopping Tourism, pp. 4-27.
12. Calero C., Turner L.W. (2020) Regional economic development and tourism: A literature review to highlight future directions for regional tourism research// Tourism Economics.
13. Çiçek H., Eraydın A. (2012) Competing Regional Development Discourses: Conceptual Foundations, and the Recent Evidence//AESOP 26th Annual Congress, 11-15 July 2012, METU, Ankara.
14. Knezevic R. (2008) Contents and Assessment of Basic Tourism Resources // Tourism and Hospitality Management, vol. 14, No. 1, pp. 79-94.
15. Lipkova L., Ziyadin S., Blembaeva A. (2017) The Economic Essence of Management of The Tourist Industry // The Journal of Economic Research & Business Administration, vol. 4(122), pp. 73-81.
16. Studzieniecki T, Spiriajevas E. (2019) Cross-Border Tourist Destinations In Europe – Genesis, Essence And Promotion // 46th International Scientific Conference on Economic and Social Development-"Sustainable Tourist Destinations", Varazdin, 24-25 October, pp. 341-353.
17. Tarasionak A. (2014) Strategic planning of tourist destinations: new approach towards territorial organization of tourism in Belarus// Geografijos metraštis, vol. 47.

***Анар Балабей оглу Маликов***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры "Экономика аграрной отрасли и промышленности", преподфватель***
***электронная почта: malikzadeanar@gmail.com***

## Значение создания особых экономических зон туризма в приграничных территориях

***Резюме***

Сближение уровня социально-экономического развития регионов является стратегическим приоритетным требованием в управлении страной. Развитие определенного региона страны связано с некоторыми специфическими особенностями, то есть природными, социально-политическими, экономическими, демографическими факторами, а также географическим положением. Так, например, приграничные регионы с благоприятными отношениями между соседними странами могут добиться большого положительного торгового баланса. Актуальность статьи заключается в том, что автор статьи обосновывает важность создания особой экономической зоны туристского назначения в приграничной зоне. Цель исследования - подчеркнуть значение создания особых экономических зон для туризма в приграничных районах страны, в том числе в Карабахском и Восточно-Зангезурском экономических районах, в укреплении экономической безопасности страны.

Правильное определение границ отдельных районов имеет большое значение для определения будущего развития. Потому что именно на основе этого определения составляется программа развития региона, при необходимости определяются новые ответственные структуры по управлению регионом и, наконец, составляется краткосрочный комплексный план направлений развития региона. ближайшие 3-5 лет.

В качестве основного объекта исследования были определены приграничные туристические районы области. В этом аспекте подчеркивается близость региона к государственной границе. Обоснование и положительные результаты деятельности безграничных зон дают основание для осуществления аналогичных мероприятий на изучаемой территории. Основное внимание уделено организационной стороне управления свободной экономической зоной туристской дестинации.

***Ключевые слова: туризм, особая экономическая зона, регион, приграничная территория, туристские ресурсы, индустрия туризма.***

***Anar Balabay Malikov***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department***
***“Economics of the agricultural field and industry”, lecturer***
***E-mail: malikzadeanar@gmail.com***

***The importance of establishing special economic zones for tourism in border areas***

***Summary***

Convergence of the socio-economic development level of the regions is a strategic priority requirement in the management of the country. The development of a certain region of the country is associated with some specific features, that is, natural, socio-political, economic, demographic factors, as well as geographical location. So, for example, border regions with favorable relations between neighboring countries can achieve a large positive trade balance. The relevance of the article is that the author of the article justifies the importance of creating a special economic zone of a tourist destination in the border zone. The purpose of the study is to highlight the importance of the establishment of special economic zones for tourism in the border areas of the country, including the Karabakh and Eastern Zangezur economic regions, in strengthening the country's economic security.

The correct determination of the boundaries of individual regions is of great importance for determining future development. Because it is on the basis of this definition that the development program of the region is prepared, if necessary, new responsible structures for the management of the region are determined, and finally, a short-term comprehensive plan is prepared for the development directions of the next 3-5 years.

Border tourism regions of the area were identified as the main research object. In this aspect, the location element of the region close to the state border is emphasized. The justification and positive results of the activity of borderless zones provide a basis for the implementation of similar activities in the studied area. The main attention is paid to the organizational side of the management of the free economic zone of the tourist destination.

***Key words: tourism, special economic zone, region, border area, tourism resources, tourism industry.***

**UOT 339.336**

***Amirə Cabbar qızı İSMAYILOVA***
***Azərbaycan Kooperasiya Universiteti, müəllim***
***amire1986@mail.ru***

## AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYATININ İNKİŞAFINDA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ ROLU

***Xülasə***

Məqalədə ölkədə həyata keçirilən neft strategiyasının rolu açıqlanmış və bu yolda reallaşdırılan “Açıq qapı”siyasətinin əhəmiyyəti öz əksini tapmışdır.

Beynəlxalq maliyyə-kredit təşkilatlarının, o cümlədən Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Qara Dəniz Ticarət və inkişaf Bankının və s. Azərbaycan Respublikasındakı fəaliyyətlərinin əsas istiqamətləri geniş təhlil edilmişdir.

***Açar sözlər: investisiya, kreditlər, beynəlxalq maliyyə-kredit təşkilatları, strateji layihələr.***

***

Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatına keçid kimi mürəkkəb və çətin bir proseslə üz-üzə qaldı. Yeni inkişaf mərhələsinə qədəm qoyan ölkəmiz yeni iqtisadi münasibət-

lərin qurulması və təşəkkül tapması kimi çətin bir vəzifənin öhdəsindən gəlməli, bazar qaydalarını özündə əks etdirən, bazar prinsipləri ilə fəaliyyət göstərən iqtisadi sistem yaratmalı idi. Bu vəzifələrin yerinə yetirilməsi üçün lazım olan külli miqdarda vəsait dövlətin əlində yox idi. Çünki müstəqilliyin əldə edildiyi ilk illərdə ölkə iqtisadiyyatında dərin böhran mövcud idi, hesablaşmalar pozulmuş, iqtisadi subyektlər arasında əlaqələr üzülmüş, inflyasiya hiper səviyyəyə çatmış, işsizlik həddən artıq yüksəlmiş, məşğulluq səviyyəsi aşağı düşmüş, yoxsulluq səviyyəsi heç vaxt görünməmiş səviyyəyə qalxmışdır, büdcəyə dönüşlər dayanmış, ölkə büdcəsi boşalmış, ölkədə idarəetmə zəifləmişdir. Belə bir vəziyyətdən çıxmaq üçün ölkəyə lazım olan investisiyaların, kreditlərin, yardımların və s. mənbəyi tapılmalı idi.

Vəziyyətdən çıxış yolu kimi müxtəlif mənbə və variantlar axtarılırdı. Buna görə də Azərbaycan Respublikasının ölkədə sosial-iqtisadi inkişafı təmin etmək, əhalinin sosial rifah halını yaxşılaşdırmaq, sosial-iqtisadi və infrastruktur layihələri həyata keçirmək üçün beynəlxalq maliyyə-kredit institutları ilə əməkdaşlıq əlaqələrinin yaradılmasına və onların dəstəyinə ehtiyacı yaranmışdır.

Məhz bu məqsədlə Azərbaycan 1992-ci ildən başlayaraq beynəlxalq təşkilatlarla əlaqələr yaratmağa başladı. Ölkəmiz 18 sentyabr 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna üzv oldu. Bunun ardınca elə həmin tarixdə Azərbaycan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına, 23 sentyabr 1992-ci ildə İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentliyə, 18 oktyabr 1992-ci ildə İnvestisiya Mübahisələrinin Həlli Üzrə Beynəlxalq Mərkəzə, 31 mart 1995-ci ildə Beynəlxalq İnkişaf Assosiasiyasına, 11 oktyabr 1995-ci ildə Beynəlxalq Maliyyə Korporasiyasına, 25 sentyabr 1992-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankına, 4 iyul 1992-ci ildə İslam İnkişaf Bankına, 2002-ci ildən Qara Dəniz Ticarət və İnkişaf Bankına, 29 oktyabr 1999-cu ildə Asiya İnkişaf Bankına üzv olmuşdur. Qeyd edilən bütün Beynəlxalq Maliyyə Təşkilatlarının hər birinin öz məqsədi və fəaliyyət istiqamətləri vardır.

Əksər təşkilatlara üzvlük isə 15 iyun 1993-cü ildən Azərbaycan Respublikasına rəhbərlik etmiş Prezidenti Heydər Əliyevin vaxtında oldu. Heydər Əliyev hər zaman Azərbaycanın maraqlarını, gələcəyini üstün tuturdu.

5 dekabr 1995-ci ildə Ümumdünya Bankının Parisdə təşkil etdiyi "Azərbaycan üçün investisiyalar" beynəlxalq konfransının açılış mərasimində Heydər Əliyevin çıxışı: "Mən buraya, bu görüşə gəlməyi lazım bildim, məhz ona görə ki, şəxsən özüm Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi problemlərinə böyük əhəmiyyət verirəm. Azərbaycanda sərmayələrin fəallaşdırılması problemlərinə, sərmayədarlarla birbaşa əlaqələr yaradılmasına böyük əhəmiyyət verirəm və təbii olaraq, Ümumdünya Bankı ilə sıx, bilavasitə əməkdaşlıq edilməsini çox istəyirəm" (1).

Beynəlxalq Valyuta Fondu ölkəmizdə sənayenin inkişaf etdirilməsi, dövlətə məxsus bankların özəlləşdirilməsi, əhalinin su və enerji təczihatının yaxşılaşdırılması, neft gəlirlərindən səmərəli istifadə edilməsi, dövlət idarəçilik sistemində təkmilləşdirilmənin aparılması və s. istiqamətində əsaslı tədbirlər görmüşdür.

Azərbaycan iqtisadiyyatının inkişafına təsir və kömək edən beynəlxalq maliyyə təşkilatlarından biri də Dünya Bankıdır. Bu təşkilat ölkəmizə kredit verməklə müxtəlif istiqamətlərdə layihələrin reallaşdırılmasını təmin etmişdir. Bu istiqamətlər əsasən ölkədə struktur dəyişikliklərinin aparılması, məşğulluğun yüksəldilməsi, yoxsulluğun azaldılması, iqtisadi islahatların dəstəklənməsi, maliyyə, kənd təsərrüfatı, səhiyyə, mədəniyyət, energetika, təhsil, ekologiya, kommunal xidmətlər və s. sahələrdə layihələrin maliyyələşdirilməsindən ibarət olmuşdur.

Üzv seçilən andan etibarən Dünya Bankı ölkəmizin bazar iqtisadiyyatına keçidində, çevik iqtisadi inkişafın reallaşdırılması və neft və qaz ehtiyatlarının artmasından faydalanmaq üçün qeyri-neft sektoru infrastrukturunun bərpası və inkişafı üzrə Azərbaycana yardım etmişdir. Həmçinin, Dünya Bankı sosial sektorda xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərə, həmçinin, təhsil sektorunda məktəblərin yenidən bərpası və müəllimlərin təlimləndirilməsi istiqamətində layihələrin həyata keçirilməsinə dəstək vermişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı Dünya Bankı ilə sıx əməkdaşlıq əlaqələrinə malikdir və eyni zamanda Dünya Bankında Azərbaycan tərəfindən müdir Azərbaycan Respublikası Mərkəzi Bankının sədridir. Bu əməkdaşlıq çərçivəsində Dünya Bankının Azərbaycan üzrə ölkə Strategiyasında nəzərdə tutulmuş tədbirlərin və sosial-iqtisadi və infrastruktur layihələrin həyata keçiril-

məsində əlaqələndirici rol oynayır. 2007-ci ildə uğurla başa çatan Maliyyə Sektoruna Texniki Yardım Layihəsi və 2010-cu ildə başa çatan Maliyyə Xidmətlərinin İnkişaf Layihəsi birgə həyata keçirilən iri layihələrdəndir (2, səh 142).

Eyni zamanda, Dünya Bankının Azərbaycanda müxtəlif sahələrdə həyata keçirdiyi layihələrlə yanaşı maliyyə sektorunda həyata keçirilən islahatlara yardım göstərilməsi məqsədilə Beynəlxalq Valyuta Fondu və Dünya Bankının dəstəyi ilə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən formalaşdırılmış və həyata keçirilən "Maliyyə sektorunun inkişaf strategiyası"ndan irəli gələn strateji məqsədlərə xidmət edən "Maliyyə sektoruna texniki yardım" layihəsinin icrası müvəffəqiyyətlə reallaşdırılmışdır. Bu layihə çərçivəsində ölkədə mütərəqqi texnologiya əsasında ödəniş sistemlərinin inkişaf etdirilməsi, o cümlədən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi, Kart Prosessinq Mərkəzi, Mərkəzləşdirilmiş Kredit Reyestri və s. mühüm layihələr həyata keçirilmişdir. Layihənin əsas məqsədləri kimi a) hüquqi, tənzimləyici və nəzarət sisteminin təkmilləşdirilməsi, b) bank infrastrukturunun gücləndirilməsi və c) bankların yenidən qurulması və diversifikasiyasına texniki yardım göstərilməsi müəyyən olunmuşdur. Layihə bank sektorunda islahatların stimullaşdırılması və dəstəklənməsində əhəmiyyətli rol oynamaqla bank sisteminin həcminin, habelə xidmətlərin miqyasının və keyfiyyətinin nəzərəçarpacaq artımına gətirib çıxarmışdır. Layihənin Mərkəzi Bank komponenti çərçivəsində müəyyən olunmuş fəaliyyət planına uyğun olaraq aşağıdakı hədəflər üzrə əsaslı nəticələr əldə olunmuşdur: (3)

Xırda Ödənişlər üzrə Hesablaşma – Klirinq Sisteminin (XÖHKS) yaradılması;

"Millikart" Prosessinq Mərkəzinin yaradılması;

Bank sisteminin mühasibat uçotunun beynəlxalq mühasibat uçotu standartlarına (BMUS) tam keçidinin təmin olunması;

Mərkəzləşdirilmiş Kredit Reyestrinin (MKR) yaradılması;

Kommunal Xidmət Haqları Ödənişi Sisteminin (KXHÖS) yaradılması.

2002-ci ildən başlayaraq Dünya Bankı ilə fəal danışıqlar aparılmış və nəhayət 24 may 2005-ci il tarixində Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında dəyəri 8,4 milyon SDR (12,25 milyon ABŞ dolları) məbləğində "İnkişaf krediti haqqında" Saziş (Maliyyə xidmətlərinin inkişafı layihəsi) imzalanmışdır.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası vasitəsilə Azərbaycanın nəqliyyat (52,34%), enerji /dağ-mədən sənayesi (2,31%), səhiyyə/qidalanma/əhali (2,22%), kənd təsərrüfatı (5,74%), təhsil (1,15%), maliyyə (0,57%), sosial inkişaf (1,22%), sosial müdafiə (0,51%), urbanizasiya (7,58%), ətraf mühit (0,6%), su təsərrüfatı (22,63%), dövlət sektorunda idarəetmə (1,44%), maliyyə/özəl sektorun inkişafı (1,7%) sektorlarına investisiya yatırmışdır. Azərbaycanda həyata keçirilməkdə olan 2006-2015-ci illər üzrə Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə yeni Dövlət Proqramı (YADİDP), 2007-2010-cu illəri əhatə edən və YADİDP-in məqsədlərini özündə birləşdirən Ölkə Tərəfdaşlıq Strategiyası (ÖTS) çərçivəsində Dünya Bankı ilə əməkdaşlıq davam etdirilməkdədir. Ölkə Tərəfdaşlıq Strategiyası Azərbaycan Respublikası Hökuməti tərəfindən müəyyən olunmuş ehtiyac və prioritetlərə əsaslanan partnyorluq planıdır. Bu Strategiyada yüksələn struktur islahatları, dövlət sektorunun idarə olunması və institusional potensialın gücləndirilməsi və daha geniş dövlət zəmanətli investisiya proqramının dəqiqliklə prioritetləşdirilməsi və səmərəli icrası əks olunmuşdur.

Ölkə Tərəfdaşlıq Strategiyası Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə yeni Dövlət Proqramının məqsədlərini əks etdirir və aşağıda qeyd olunan dörd vacib prinsipə əsaslanır: (1) dövlət sektorunun idarə olunmasının keyfiyyət və şəffaflığının təkmilləşdirilməsi; (2) qeyri-neft iqtisadiyyatının davamlı və tarazlaşdırılmış inkişafının dəstəklənməsi; (3) sosial xidmətlərin keyfiyyətinin və onlara çıxış imkanlarının yaxşılaşdırılması; (4) ətraf mühitin idarə olunması və mühit dəyişikliklərinin inkişaf etdirilməsi.

Ölkəmizdə iqtisadi tərəqqinin sürətlənməsinə təsir edən digər bir beynəlxalq maliyyə təşkilatı Avropa Yenidənqurma və İnkişaf Bankı olmuşdur. Bu təşkilat ölkəmizdə özəl sektorda biznesin hərtərəfli inkişaf etdirilməsi, sahibkarlıq strukturlarında islahatların aparılması, kiçik və orta layihələrin maliyyələşdirilməsi kimi məsələlərlə məşğul olmuşdur. AYİB ölkəmizdə 9 bank, 6 mikromaliyyə institutu və 3 qeyri-bank maliyyə institutu ilə əməkdaşlıq edir. Ayırdığı vəsaitlərin 50 %-i

enerji sektoruna, 25 %-i maliyyə sektoruna, 6 %-i mikromaliyyə təşkilatlarına, 3 %-i qeyri-bank təşkilatlarına, 16 %-i korporativ sektora yatırılmışdır (4, səh. 121).

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı aktiv portfelinin həcmi 884 mln.avroya (ödənilməmiş öhdəliklər daxil olmaqla) yüksəlib. Bu rəqəm bank tərəfindən təqdim edilən son göstərici (avqust, 2022) ilə müqayisədə 4,7% və ya 40 mln. avro artıb. İcra edilən layihələrin sayı isə 181-dən 183-ə yüksəlmişdir.

Portfelin 90%-ni (793 mln. avro) dayanıqlı infrastruktura yatırımlar, 7%-ni (60 mln. avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 3%-ni (31 mln. avro) isə maliyyə institutlarına yatırımlar təşkil edir. Bankın ölkədəki əməliyyat aktivlərinin həcmi isə 2,4% artaraq 799 mln.avro təşkil edib.

Beləliklə, AYİB bu günədək Azərbaycana 183 layihə çərçivəsində 3,768 mlrd. avro həcmində investisiya yatırıb və sözügedən həcmin 86,5 %-i (3,260 mlrd. avro) borc götürənlər tərəfindən artıq mənimsənilib. Ümumi investisiyaların 13%-i özəl sektorun payına düşüb.

Ölkəmizin iqtisadi inkişafına köməklik göstərən beynəlxalq maliyyə təşkilatlarından biri də İslam İnkişaf Bankıdır. Bu bankın ayırdığı kreditlər hesabına ölkəmizin iqtisadiyyatında xüsusi əhəmiyyətə malik olan aşağıdakı layihələr reallaşdırılmışdır: Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması, Mingəçevir su-elektrik stansiyasının yenidən qurulması, Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi, Şirvan şəhərində 780 Mvt "Cənub" həmdövrəli buxar-qaz elektrik stanstiyasının tikintisi, Vəlvələçay-Taxtakörpü kanalının tikintisi. Bunlarla yanaşı bank ölkəmizdə proqressiv investisiya layihələrinə maliyyə yardımı göstərmiş, lizinq vasitəsinə iqtisadi və sosial infrastruktur investisiyalar ayırmışdır. Nəqliyyat, "Ağıllı şəhər", "Ağıllı kənd", xüsusilə də şəhərlərin transformasiyası sahəsində layihələrin bank tərəfindən dəstəklənməsi, rəqəmsal transformasiya sahəsində bankın texniki dəstəyinin əldə edilməsi imkanları müzakirə olunur. Eyni zamanda, qarşı tərəf işğaldan azad olunmuş ərazilərimizdə İKT, nəqliyyat və infrastruktur sahəsində konkret layihələrin maliyyələşdirilməsində əməkdaşlıq etmək niyyətində olduğunu bildirib.

Sadalanan təşkilatlarla yanaşı Qaradəniz Ticarət və İnkişaf Bankı da ölkəmizlə əməkdaşlıq çərçivəsində xeyli işlər görmüşdür. Bu təşkilat 11 səhmdara malikdir. Ölkəmizin burada payı 5 %-dir. Bu bank ölkəmizdə regional əməkdaşlığın inkişaf prinsiplərini əsas tutaraq ölkəmizdə ayrı-ayrı layihələrin maliyyələşdirilməsi və səhmdar kapitalda iştirakla bağlı layihələr reallaşdırmışdır. Sözügedən bank ölkəmizdə ipoteka kreditləri üçün 10 milyon dollar, kiçik və orta sahibkarlığın inkişafına 24 milyon dollar, ticarətin maliyyələşdirilməsinə 47 milyon dollar, çoxməqsədli kreditlər üçün 16 milyon dollar vəsait ayırmışdır.

2022-ci ilin əvvəlindən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Direktorlar Şurası Azərbaycanda 40 milyon dollar dəyərində üç layihəni təsdiqləyib. QDTİB-in Azərbaycandakı əsas portfelini kiçik və orta sahibkarlığa dəstək (47,5 faiz), enerji (35 faiz), daşınmaz əmlak (8,4 faiz), istehlak malları (4,8 faiz) və sənaye (4,4 faiz) ) təşkil edir.

Fəaliyyətə başladığı vaxtdan Qara Dəniz Ticarət və İnkişaf Bankı Azərbaycan hökumətinin investisiya prioritetlərinə uyğun olaraq Azərbaycanda ümumi dəyəri 500 milyon avrodan çox olan 39 layihəni maliyyələşdirib. Bank "Şahdəniz" kimi strateji əhəmiyyətli enerji layihələrində iştirak etmişdir.

2022-ci ildə Qara Dəniz Ticarət və İnkişaf Bankının SOCAR-ın sponsor qismində iştirakı ilə Azərbaycanda yeni enerji layihəsi üzərində işə başlayıb, lakin bu razılaşma hələlik erkən mərhələdədir. Qara Dəniz Ticarət və İnkişaf Bankı artıq bir neçə ildir ki, SOCAR və onun törəmə müəssisələri ilə uğurla işləyir.

Ölkədə həyata keçirilən neft strategiyası əsasında Azərbaycan dinamik tərəqqini təmin edən investisiya siyasətini formalaşdıra bilmişdir. Buna görə də ölkə prezidenti İlham Əliyev çıxışında deyirdi: "Bugünkü Azərbaycan müasir ölkədir. Güclü iqtisadiyyata malik ölkədir, investisiyalar üçün çox məqbul ölkədir. Xarici tərəfdaşlarla bizim əməkdaşlığımız davam edir və bu çox sevindirici haldır. Biz öz sözümüzə həmişə sadiq olmuşuq, sözümüzlə əməlimiz arasında heç vaxt fərq olmamışdır. Ona görə Azərbaycan dünyada etibarlı dost və tərəfdaş kimi tanınır." [5, səh 142]

Ölkə iqtisadiyyatında dinamik inkişafın təmin edilməsinə kömək edən beynəlxalq təşkilatlardan biri də Asiya İnkişaf Bankıdır. Bu bankın ölkəmizdə apardığı fəaliyyətin əsas istiqaməti yox-

sulluğun azaldılması və həmçinin qeyri-neft sektorunun inkişafına kömək göstərməsidir. Azərbaycan 1999-cu ildə AİB-ə üzv olmuşdur. AİB bu vaxtdan etibarən ölkə üzrə 4,61 milyard dollar dəyərində kredit, zəmanət, qrant və texniki yardımı təsdiq etmişdir.

Hökumətin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinə dəstək olaraq, Asiya İnkişaf Bankının Azərbaycana qısa və ortamüddətli yardımı dövlət sektorunun idarəetməsi, nəqliyyat və enerji, eləcə də şəhər yerlərinin infrastrukturu və özəl sektorun inkişafı sahələrində əməliyyatları ehtiva edəcək.

Bazar tələblərinə cavab verməklə Asiya İnkişaf Bankının özəl sektordakı fəaliyyətləri ticarət, maliyyə, kiçik və orta müəssisələrin genişləndirilməsi və infrastrukturun inkişafı ilə bağlı layihələrlə əməkdaşlıq etmək üçün imkanlar axtarışındadır.

Hər il yenilənməklə Asiya İnkişaf Bankının Məlumat Bülletenində Azərbaycanla bağlı sosial və iqtisadi göstəricilər, eləcə də AİB-in ölkədə fəaliyyətləri ilə bağlı icmal və əlaqə məlumatları təqdim olunur.

Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində 9 regional texniki yardım layihəsi həyata keçirilir.

Asiya İnkişaf Bankı tərəfindən Azərbaycanda həyata keçirilən layihələr:

| | | |
|---|---|---|
| 1 | İqtisadi Diversifikasiya Sektorunun İnkişafı Proqramının Müasirləşdirilməsi üzrə Peşə Təhsili və Təlimin Hazırlanması | Benefisiarlar: Elm və Təhsil Nazirliyi Müddəti: 2022-2023 |
| 2 | Azərbaycan Dövlət - Özəl Tərəfdaşlığının İnkişafı Mərkəzi və Layihələrin İnkişafı Fondunun dəstəklənməsi | Benefisiar: İqtisadiyyat Nazirliyi Müddəti: 2021-2022 |
| 3 | Vergi siyasəti və idarəetmə potensialının gücləndirilməsi | Benefisiarlar: Dövlət Vergi Xidməti, Maliyyə Nazirliyi Müddəti: 2019-2022 |
| 4 | İqtisadi diversifikasiya üçün qeyri-bank maliyyəsi və alternativ maliyyə alətlərinin inkişafı | Benefisiar: Mərkəzi Bank Müddəti: 2017-2022 |
| 5 | Dövlət sektorunda idarəetmə islahatına dəstək | Benefisiar: Maliyyə Nazirliyi Müddəti: 2019-2022 |
| 6 | Naxçıvan Muxtar Respublikasında irriqasiya və drenaj sisteminin inkişafı layihəsi üzrə texniki dəstək | Benefisiar: “Naxçıvan Meliorasiya və Su Təsərrüfatı” ASC Müddəti: 2020-2022 |
| 7 | Yerli Texnoloji Startapların İnkişafının Təşviqi üzrə Bilik və Dəstək Texniki Yardımı | Benefisiar: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Müddəti: 2020-2022 |
| 8 | Daha effektiv iqtisadi siyasət üçün biliyin idarəolunmasının gücləndirilməsi | Benefisiar: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Müddəti: 2020-2022 |
| 9 | COVID-19 Aktiv Müdaxilə və Xərclərə Dəstək Proqramı | Benefisiar: Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi Müddəti: 2021-2022 |

Göründüyü kimi, ölkəmizin inkişaf edərək əldə etdiyi nailiyyətlərdə Heydər Əliyevin, onun davamçısı İlham Əliyevin xidmətləri nəticəsində yuxarıda adları çəkilən beynəlxalq maliyyə təşkilatlarının rolu böyük olmuşdur. Onlar tərəfindən ayrı-ayrı layihələrin həyata keçirilməsini, ölkəyə beynəlxalq kreditlərinin ayrılması, investisiya qoyuluşlarının ayrılması ölkə iqtisadiyyatının strateji sahələrinin və prioritet istiqamətlərin inkişafını şərtləndirmişdir. Dövlətin yeritdiyi uğurlu siyasət nəticəsində cari il üzrə göstəricilər demək olar ki, yüksək olmuşdur.

2022-ci il oktyabrın 21-də Fiç Reytingz (Fitch Ratings) beynəlxalq kredit reytinq agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini “BB+” səviyyəsində bir daha təsdiq edərək proqnozu “sabit”dən “pozitiv”ə yüksəldib. (www.fitchratings.com)

Agentliyin hazırladığı hesabatda qeyd olunur ki, Azərbaycanın güclü fiskal mövqeyi, aşağı suveren borcu, yüksək neft və qaz qiymətləri nəticəsində yığılmış iri həcmdə xarici valyuta aktivləri ölkənin reytinq üzrə proqnozunun artırılmasını şərtləndirib.

Reytinq üzrə proqnozu "sabit"dən "pozitiv"ə yüksəldən agentlik Azərbaycan Respublikasının xalis suveren aktivlərini 2022-2024-cü illərdə 14,3 faiz artaraq ÜDM-in 77,6%-nə çatacağını proqnozlaşdırır ki, bu da reytinq qrupunda ən yüksək göstəricidir. Agentliyin press-relizində qeyd olunur ki, işğaldan azad edilmiş ərazilərə ÜDM-in 2%-i həcmində kapital qoyuluşları, habelə yüksək inflyasiya şəraitində artan sosial xərcləri də nəzərə aldıqda, yenilənmiş neft qiyməti proqnozu və qaz qiymətlərinin müəyyən müddət yüksək qalacağı ilə bağlı gözləntilər nəzərə alınaraq 2023-cü ildə icmal büdcənin profisiti son hesabatdan bəri 1,5 faiz artırılaraq ÜDM-in 6,7%-nə bərabər olacağı gözlənilir.

Qlobal iqtisadi mühitdə cərəyan edən qeyri-sabitlik və yüksək infilyasiya şəraitində Fiç Reytingz tərəfindən Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqinin "BB+" səviyyəsində bir daha təsdiq olunaraq proqnozun "sabit"dən "pozitiv"ə yüksəldilməsi ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir.

## ƏDƏBİYYAT


1. www.lib.aliyev/beynelxalqiqtisaditeskilatlar
2. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. Beynəlxalq iqtisadi münasibətlər (ali məktəblər üçün dərslik). Bakı. Çaşıoğlu nəşriyyatı 2010, 652 səh.
3. www.cbar.az
4. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı. Adiloğlu nəşriyyatı 2008, 428 səh.
5. İnkişafın Azərbaycan modeli. Akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə. Bakı. Oskar NPM, 2009, 204səh.
6. www.fitchratings.com



***Амира Джаббар гызы Исмайлова***
***Азербайджанский Университет Кооперации, преподаватель***


## Роль международных финансовых организаций в развитии экономики Азербайджанской Республики


***Резюме***

В статье разъяснена роль нефтяной стратегии, реализуемой в стране, и отражено значение реализуемой таким образом политики "открытых дверей".

Международные финансово-кредитные организации, в том числе Всемирный банк, Международный Валютный Фонд, Европейский банк Реконструкции и Развития, Исламский Банк Развития, Черноморский банк Торговли и Развития и др. Всесторонне проанализированы основные направления их деятельности в Азербайджанской Республике.



***Ключевые слова: инвестиции, кредиты, международные финансово-кредитные организации, стратегические проекты.***



***Amira Jabbar Ismailova***
***Azerbaijan Cooperation University, teacher***


## The role of international financial organizations in the development of the economy of the Republic of Azerbaijan


***Summary***

The article explains the role of the oil strategy implemented in the country, and reflects the significance of the "open door" policy implemented in this way.

International financial and credit organizations, including the World Bank, the International Monetary Fund, the European Bank for Reconstruction and Development, the Islamic Development Bank, the Black Sea Trade and Development Bank, etc. The main directions of their activities in the Republic of Azerbaijan have been comprehensively analyzed.

***Key words: investments, loans, international financial and credit organizations, strategic projects.***

**UOT 574**

***Könül Sahib qızı MURADOVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***"İqtisadiyyat" fakültəsinin tyutoru,***
***"Ekologiya və coğrafiya" kafedrasının müəllimi***
***e-mail: k.muradova.84@mail.ru***

## AZƏRBAYCAN RESPUBLİKASINDA DEQRADASİYAYA UĞRAMIŞ TORPAQLARIN KEYFİYYƏTİNİN EKOLOJİ NORMALLAŞDIRILMASI VƏ BƏRPA EDİLMƏSİ PROBLEMLƏRİ

***Xülasə***

Torpaq ehtiyatları bütün ölkələrin inkişafı üçün onun varlığının və potensial imkanlarının əsas elementlərindən biri kimi qiymətləndirilir. Torpağa antropogen təsirin artması, torpaq ehtiyatlarının idarə edilməsindəki bəzi çatışmazlıqlar və iqlim dəyişmələrinin təsiri nəticəsində torpaqlarda deqradasiya prosesləri kəskin şəkildə artmışdır. Tədqiqatlar göstərir ki, deqradasiyanın əsas formaları meşəsizləşmə, səhralaşma, duzlaşma və torpaqların eroziyaya uğraması formasında özünü təcəssüm etdirir. Məqalədə ölkəmizdə deqradasiyaya uğramış torpaqların keyfiyyətinin ekoloji normallaşdırılması üçün görülən əsas tədbirlər sırasında yeni meşə və yaşıllıqlar salınması, deqradasiyaya uğramış torpaqların neytral balansının saxlanılması istiqamətində görülən tədbirlərdən bəhs edilməklə bu istiqamətdə bir sıra təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: deqradasiya prosesi, səhralaşma, şoranlaşma, torpaqların münbitliyi, torpaq ehtiyatları.***

***

Relyef-iqlim şəraitinin və antropogen amillərin nəticəsi olaraq quru regionlarda, quraq və yarımquraq ərazilərdəki ekosistemin deqradasiyaya uğraması səhralaşma adlanır. Səhralaşma hazırda dünyada həllini gözləyən başlıca ekoloji problemlərdən biridir. Bildiyimiz kimi planetimizdəki quru ərazilərin üçdə bir hissəsi quraqlıq sahələrdən ibarətdir. Problemin ciddiliyi nəzərə alınaraq, BMT-nin Baş Assambleyası tərəfindən iyunun 17-si Ümumdünya Səhralaşmaya Qarşı Mübarizə Günü elan olunub. Quru iqlimə malik Azərbaycan üçün də səhralaşma problemi son dərəcə aktualdır. Aparılmış tədqiqatlar göstərir ki, bu quraqlıq sahələrin, yəni səhraların formalaşmasına təkan verən əsas səbəblər əsasən aşağıdakılardır:

- mal-qaranın intensiv otarılması;
- becərilən torpaq ehtiyatlarında aqrotəsərrüfat işlərinin düzgün aparılmaması;
- meşə ehtiyatlarından kortəbii istifadə;
- ekstensiv əkinçilik;
- insan amili və s.

Təhlillər göstərir ki, bir sıra tədbirlərin görülməsinə baxmayaraq hələ də dünyada iqtisadi cəhətdən dövriyyədən çıxan və öz münbitliyini itirən torpaqlar ildən-ilə çoxalır ki, bunun da səbəbi il ərzində səhralaşma ilə əlaqədar olaraq 22 milyon hektar torpağın məhsuldarlıq qabiliyyətini itirməsidir [1;2].

Tamamilə səhralaşmış sahələr həddən artıq aridləşmiş ərazilərdir ki, məhz hazırkı dövrdə arid və semiarid ərazilərdə insan amilinin nəticəsi olaraq bu proses davam edir. Səhralaşmanın çoxçeşidli inkişafı bu ərazilərdə müxtəlif cür gedir:

- şirin sulu su hövzələrində (çay, göl və s.) minerallaşma prosesinin çoxalması;

- meşə ehtiyatlarındakı bir çox qiymətli ağac və kolların ikinci tip savanna otları ilə dəyişilməsi;
- çaylarda axım sürətinin qeyri-sabit çoxalması;
- torpaq ehtiyatlarında külək, su kimi eroziya proseslərinin get-gedə çoxalması;
- mayesaxlama və sukeçirmə kimi qabiliyyətin itməsi;
- torpaq örtüyündə münbitliyin azalması;
- torpaq ehtiyatlarında şoranlaşma prosesinin artması;
- ərazidə yerləşən bitki örtüyünün növ və həcminin dəyişməsi və s.

Torpaq ehtiyatlarında şoranlaşma və şorakətləşmə fəaliyyətinin artması, nəmliyi az olan torpaq ehtiyatlarında münbitliyi çoxaltmaq məqsədilə aparılan süni halda həyata keçən suvarılmanın intensivliyi (irriqasiya), dəmyə və otlaqlarda baş verən su eroziyası kimi fəaliyyətlər və s. səhralaşma prosesində torpaq ehtiyatlarının məruz qaldığı deqradasiya probleminin vacib növləridir.

Hər 4-5 hektardan bir ayrı-ayrı növlərdə deqradasiyaya məruz qalmış aqrotəsərrüfat sahələrində belə bir nəticəyə gəlinmişdir ki, torpaq ehtiyatlarının səliqəsiz parçalanması onların deqradasiyaya uğramasına, su hövzələrinin aşağı hissələrindəki səhralaşma fəaliyyətinin çoxalmasına təkan verir.

Ayrı-ayrılıqda bir-birindən seçilən aqrotəsərrüfat sahələrində aparılan işlər, əkin sahələri üzrə elmin nailiyyətlərinə əsaslanan kənd təsərrüfatı tədbirlərinin, irriqasiya proseslərinin düzgün həyata keçirilməməsi, ağac-kolluq və yaşıllıqların məhv edilməsi, istifadə olunan texnika və texnologiyanın hazırkı dövrün tələbatlarına uyğun olmaması və s. bu kimi göstəricilər səhralaşma prosesini çoxaldan əsas amillərdəndir [3].

Hazırda bu terminin (səhralaşma) daha çox yayılmasına səbəb təkcə arid tipli regionların ekosistemlərin hazırki durumunun təhlili yox, eləcə də, digər başqa zonaların da təbii ekosistemlərinin insan fəaliyyəti ilə əlaqədar deqradasiya prosesinə məruz qalması səbəbi ilə əlaqədardır. Buna misal olaraq, şimal variantı adlandırılan səhralaşma tipini məhz mal-qara otlaqlarının deqradasiyaya məruz qalması ilə əlaqələndirirlər. Bu kimi ərazilərdə otlaqların 80%-dək deqradasiya prosesinə məhz otlaq sahələrin mal-qara ilə intensiv otarılması, torpaq ehtiyatlarının üst təbəqəsinin dağılmasına gətirən avtomobil nəqliyyatının intensivləşdirilməsi, mineral resurslardan daha çox istifadə, bütün bu proseslərlə əlaqədar geoloji-kəşfiyyat işlərinin daha da çoxalması və s. ilə əlaqədardır.

Müasir dövrdə tez-tez işlədilən texnogen səhra termini isə - müxtəlif çirklənmə mənbəyi olan müəssisələrin, yəni kimya, metallurgiya, neft emalı və s. kimi subyektlərə (tullantılarına) yaxında yerləşən, intensiv çirklənməyə uğramış və texnogen dərəcədə pozulmuş deqradasiya prosesi ən çox gedən ərazilərə aiddir. Səhralaşma prosesinin sürətlənməsi respublikamızda da geniş vüsət almışdır.

Məhz insan amili ilə əlaqədar olan səhralaşmanın ayrı-ayrı növləri regionlar üzrə formalaşmışdır. Ölkəmizdə səhralaşmanın əmələgəlmə səbəbləri:

- səth sularının azalması və quruması;
- sənayenin inkişafı ilə əlaqədar litosfer, atmosfer və hidrosferin çirklənməyə məruz qalması;
- torpaq ehtiyatlarının səmərəsiz şumlanması və əkilməsi;
- mal-qaranın intensiv otarılması;
- texnika və texnoloji təsirlərin mənfi təsiri;
- bir çox əhəmiyyətə malik, o cümlədən, ətraf mühiti küləkdən qoruyan bitki örtüyünün məhv edilməsi və s.

Ölkədə səhralaşma prosesinin sürətlənməsinə səbəb torpaq ehtiyatlarında gedən deqradasiya fəaliyyətidir. Aparılan tədqiqat işlərinə əsasən məlum olmuşdur ki, ölkədə məhz eroziya-deqradasiya prosesi səhralaşmanın formalaşmasına şərait yaradır. Bütün bunlardan əlavə, respublikada təbii geoloji fəaliyyətlər zəminində torpaq sürüşmələri, sel və daşqınlar, eroziya prosesi də çoxalmışdır. Bu fəaliyyətlər xüsusilə, quru və isti iqlimi ilə fərqlənən, ən çox əhali məskunlaşması və sənaye sahələrinin yayıldığı Abşeron yarımadası, Naxçıvan MR, Kür-Araz ovalığı və digər bu kimi inkişaf etmiş regionlarda da geniş yayılmışdır. Onu da qeyd edək ki, müxtəlif təbiət hadisələrindən əlavə, məs., quraqlıq, sel-daşqınlar, güclü hava kütlələri kimi amillərlə bir yerdə səhralaşmaya təsir edən ən əsas təsirlər insan amilidir.[4]

Keçirilən müşahidələrə əsasən isbat olunmuşdur ki, yay fəsli otlaq sahələrinin münbitliyinin

aşağı düşməsinə əsas səbəb deqradasiya fəaliyyətinin çoxalmasıdır. Buna misal olaraq, Zaqatalanın Həmzəqor yaylağı torpaqlarında otlaq sahələrin münbitliyi (yuyulmaya məruz qalmayan sahələrdə) 31 hektar olsa da, ondan fərqli olaraq 2.5 hektarlıq sahələrdə torpağın məhsuldarlıq xüsusiyyəti az olmuşdur (orta dərəcəli yuyulmaya uğramış ərazilərdə). Torpaq ehtiyatlarının eroziya-deqradasiya proseslərinə uğramasının əsas səbəbi məhz bitki ehtiyatının köklərinin zəifləməsi və yay otlaq sahələrinin münbitlilik xüsusiyyətinin aşağı olması ilə əlaqədardır.

Deqradasiya prosesinin müşahidə olunduğu ərazilərdən biri də ölkənin düzənlik sahələrindəki qış otlaq sahələridir. Qranulometrik struktur formasının dəyişməsi, deflyasiya ilə əlaqədar olaraq kiçik hissələrin çox sovrulması, intensiv otarılma səbəbi ilə bitki örtüyünün azalması-bütün bu kimi fəaliyyətlər özünü Şərqi Şirvan düzü qış otlaq sahələrində keçirilmiş müşahidələrdə göstərir. Müşahidələrə əsasən göstərilir ki, münbitlik qatın azalması prosesi məhz intensiv otarılma ilə əlaqədardır. Buna misal olaraq, Mingəçevir su anbarını göstərmək olar ki, buradakı boz-qonur torpaq ehtiyatlarının otarılmaya məruz qalması burdakı münbitliyin 1.28% (7-8 sm-lik dərinlik) düşməsinə, intensiv otarılmaya məruz qalan otlaq ərazilərdə isə torpaq ehtiyatlarında (6-7 m üst qatlarda) bu rəqəmin 0.95%-ə düşməsinə səbəb olmuşdur.

Formasını dəyişərək ayrı növ torpaq ehtiyatına, yəni səhralara çevrilən ərazilərin bu vəziyyətə düşməsinə əsas səbəb yenidən şorlaşmadır. Çirkləndirici sular və drenaj səbəbindən təkrar şorlaşma, səhralaşma, kanalətrafı ərazilərdə baş verən daşqınlar, torpaqların şoranlaşmaya məruz qalması və s. proseslər nəticəsində milyon hektarla ərazilər dövriyyədən çıxır. Suvarılma prosesinin səmərəsiz və səhv həyata keçməsi ilə əlaqədar torpaq ehtiyatları şoranlaşmaya uğrayır. Buna misal olaraq isbat olunmuşdur ki, suvarılan torpaq ehtiyatında duz qatının yığılması 0.29%, ondan fərqli olaraq suvarılmayan ərazilərdə isə bu proses 0.08% olur. Torpaqların suvarılması prosesi onun xüsusiyyətini də dəyişdirir.

Məlumdur ki, böyük sahələri tutan ölkədəki suvarma əkinçiliyi uzun illərdir ki, mövcuddur. Aqrotəsərrüfat sahələrində istifadə olunan torpaq ehtiyatları 32% olsa da, son illər suvarılma prosesinin səmərəsiz təşkili, eləcə də, texniki vasitələrdən səhv istifadə torpaq ehtiyatlarında deqradasiyanın formalaşmasına təkan verir. Bu daha çox düzən ərazilərdə (ən çox dağətəyi) bu proseslərin (suvarılma) səhv həyata keçməsi səbəbi ilə irriqasiya deqradasiyası da daxil olmaqla torpaq ehtiyatlarının yuyulmaya məruz qalmasını daha da kəskinləşdirir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, düzgün getməyən suvarılma nəticəsində 1 ha-dan yüz tondan çox torpaq ehtiyatı bu proseslər səbəbi ilə dövriyyədən çıxır.

Ölkənin bir çox rayonlarında suvarılma proseslərinin qeyri-qənaətbəxş həyata keçməsi ilə əkilən torpaq ehtiyatlarında məhsuldarlığın faizi çox aşağı düşmüş və istifadə olunmayan torpaqlar adı almışlar. Hətta elə ərazilər vardır ki, bu cür proseslər nəticəsində torpaqlar yarğanlara bölünmüşdür. Mütəxəssislərin gəldiyi rəyə görə, müxtəlif şorakətləşmə prosesinə uğramış (28-29%), elə-cə də şorlaşmış torpaqlar (48%) artıq kənd təsərrüfatında istifadə olunmayan yararsız torpaq adı almışlar.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, respublikanın ən çox suvarılan əraziləri (475-dən çox) Kür-Araz ovalığındadır. Çox qədim tarixə mənsub olan bu ərazilər sovet illəri ərzində səmərəsiz suvarılmaya uğramış, qrunt suları üzə çıxaraq ərazidəki torpaq ehtiyatlarının şoranlaşmasına gətirib çıxarmış, son olaraq deqradasiyaya məruz qalaraq dövriyyə istifadəsindən çıxarılmışlar. Bütün bu kimi proseslərlə əlaqədar olaraq Kür-Araz ovalığı torpaqları kəskin həddə şoranlamaya məruz qalmış torpaqlara malikdir. Bu tip sahələr ən çox Naxçıvanda, Sumqayıt və Siyəzən ərazilərində, Ceyrançöl və digər regionlarda da mövcuddur. Ölkənin təxminən 16%-ni təşkil edən orta və şiddətli dərəcədə şoranlaşmaya məruz qalmış torpaqların sahəsi 1.3 milyon hektara bərabərdir.

Hazırkı şəraitdə torpaqların dayanıqlı istifadəsinin təmin olunması bu sahədə səmərəli mexanizmlərin qurulması ilə bağlıdır. Torpaqların münbitlik xassələri göstəricilərinin uçotunun aparılması "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulur. Bunlara aşağıdakı əsas istiqamətlər aiddir:

- torpaqqoruyucu texnologiyaların tətbiqi;
- mütərəqqi suvarma sistemlərinin stimullaşdırılması;
- kənd təsərrüfatında istifadə olunan aqrokimyəvi məhsulların və pestisidlərin keyfiyyətinə və

təhlükəsiz istifadəyə nəzarətin gücləndirilməsi;
- innovativ biogübrələrin və bioloji mübarizə üsullarının tətbiqi;
- kənd təsərrüfatında uyğun toxumlardan istifadənin stimullaşdırılması;
- dəqiq əkinçilik metodlarının tətbiqi;
- torpaqların mühafizəsi məqsədilə yaşıllaşdırma işlərinin aparılması, qoruyucu meşə zolaqlarının bərpası və genişləndirilməsi;
- yay və qış otlaqlarının istifadəsinin stimullaşdırılması və tələblərə uyğun təkmilləşdirilməsi.

İşğaldan azad olunmuş ərazilərimizdə uzun illər Ermənistan tərəfindən meşələrin kütləvi qırılması, su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarının suyunun qəsdən yay mövsümündə qarşısının kəsilməsi 100 min hektardan artıq əkin sahəsinin suvarılmasında ciddi problemlər yaradıb ki, bu da Aşağı Qarabağ bölgəsində torpaqların eroziyasına və səhralaşmaya səbəb olub. Bu ərazilərə nəzarət imkanının olmaması beynəlxalq konvensiyalar üzrə götürülən öhdəliklərin yerinə yetirilməsində çətinliklər yaradıb. Amma Qarabağın işğaldan azad edilməsi hazırda bu ərazilərin monitorinqinə və ekosistemin bərpasına başlamağa imkan yaradıb. Bon Çağırışı üzrə 2030-cu ilədək 170 min hektar deqradasiyaya məruz qalmış torpaqların bərpası təşəbbüsünə aid tədbirlər işğaldan azad olunmuş ərazilərimizdə də davam etdirilir [5;6].

2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, 2020-ci ildə təşkil edilmiş kütləvi ağacəkmə kampaniyaları, IDEA İctimai Birliyi və ETSN-nin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu" layihəsi çərçivəsində 2021-ci ildə Qarabağ regionu da daxil olmaqla ölkədə 1 milyona yaxın ağacın əkilməsi də səhralaşma ilə mübarizəyə mühüm töhfədir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə müəyyənləşdirilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq 2030-cu ilədək olan dövrdə də ölkədə yaşıllıqların payı artırılacaq, yararsız torpaq sahələri bərpa olunacaq, deqradasiya və səhralaşmaya qarşı mübarizə aparılacaq.[7;8]

## ƏDƏBİYYAT


1. Məmmədov Q.Ş. "Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları" Bakı-2007, səh.207
2. Bəhərçi T., Mehdiyeva V. "Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi" dərslik, Bakı-2012, səh.47
3. Xəlilov S., Nəzirova B.T. "Respublika torpaq sərvətlərinin səmərəli istifadəsinin bəzi problemləri" Azərbaycan Respublikası Torpaq islahatının elmi təminatı, Bakı-2002
4. Azərbaycanda səhralaşma problemləri; Akademik B.Budaqovun anadan olmasının 75 illiyinə həsr olunmuş konfransın materialları, Bakı-2003, səh.300
5. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunu
6. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi. http:// www.e-qanun.az/code/6
7. Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
8. https//agro.gov.az



***Кенуль Сахиб кызы Мурадова***
***тютор экономического факультета***
***Азербайджанского Университета Кооперации***
***Преподаватель кафедры "Экология и география"***
***e-mail: k.muradova.84@mail.ru***


***Экологическое нормирование и восстановление качества деградированных земель в Азербайджанской Республике и проблемы изготовление.***


***Резюме***

Земельные ресурсы рассматриваются как один из основных элементов ее существования и потенциала для развития всех стран. В результате усиления антропогенного воздействия

на почву, некоторых недостатков в управлении почвенными ресурсами, воздействия климатических изменений резко усилились процессы деградации почв. Исследования показывают, что основными формами деградации являются обезлесение, опустынивание, засоление и эрозия почвы. В статье среди основных мер, принимаемых для экологической нормализации качества деградированных земель в нашей стране, упоминаются мероприятия, проводимые в направлении озеленения и озеленения, поддержания нейтрального баланса деградированных земель.
***Ключевые слова: процесс деградации, опустынивание, засоление, плодородие почв, почвенные ресурсы***

***Konul Sahib Muradova***
***tutor of the faculty of economics***
***at Azerbaijan Cooperation University***
***Teacher of the"Ecology and Geography" department***
***e-mail: k.muradova.84@mail.ru***

***Ecological normalization and restoration of the quality of degraded land in the republic of Azerbaijan problems of making***

***Summary***

Land resources are considered as one of the main elements of its existence and potential for the development of all countries. As a result of the increase of anthropogenic influence on the soil, some deficiencies in the management of soil resources, and the impact of climate changes, the processes of soil degradation have increased dramatically. Studies show that the main forms of degradation are deforestation, desertification, salinization and soil erosion. In the article, among the main measures taken for the ecological normalization of the quality of degraded lands in our country, a number of proposals and recommendations were given in this direction, mentioning the measures taken in the direction of planting new forests and greenery, and maintaining the neutral balance of degraded lands.
***The key words: degradation process, desertification, salinization, soil fertility, soil resources.***

**UOT: 338**

***Güllü İbrahim qızı QULUZADƏ***
***Azərbaycan Kooperasiya Universiteti***
***"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"***
***kafedrasının müəllimi***
***E-mail – guluzada97@gmail.com***

## HEYDƏR ƏLİYEVİN SOSİAL RİFAH İQTİSADİYYATI

***Xülasə***

Ölkədə aparılan iqtisadi siyasətin nəticələri xalqın həyat səviyyəsində özünü büruzə verir. Ona görə də aparılan sosial siyasət bilavasitə əhalinin firavan yaşayışının təmin olunmasına, məşğulluq səviyyəsinin və gəlirlərinin yüksəldilməsinə, təkmil sosial müdafiə mexanizminin formalaşdırılmasına yönəldilir.
***Açar sözlər: gəlir, məşğulluq, inflyasiya, pensiya, sabitlik, sosial müdafiə.***

***

Ulu öndər H.Əliyev Azərbaycana rəhbərliyinin hər iki mərhələsində ölkəmizin beynəlxalq aləmdə tanınması, iqtisadi inkişaf dinamikasının və əhalinin sosial rifahının yaxşılaşdırılmasının təmin edilməsi istiqamətində köklü və ardıcıl tədbirlərin həyata keçirilməsiə xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyinin birinci mərhələsində sovet hökumətinin mərkəzləşdirilmiş idarəetmə

sisteminin fəaliyyətinə baxmayaraq, H.Əliyev ittifaqda və beynəlxalq aləmdə tanınan ən iri sənaye müəssisələrinin Azərbaycanda yaradılmasına çalışır, özünün imkanlarından və sarsılmaz iradəsindən bu məqsədlə bacarıqla istifadə edirdi. Məhz bu qəbildən olan tədbirlərin nəticəsində ölkə vətəndaşlarının həyat səviyyəsi ilbəil yaxşılaşırdı. Bu prosesdə sovetlər birliyinə daxil olan ölkələr arasında iqtisadi əlaqələrin şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də mühüm əhəmiyyətə malik olmuşdur.

H.Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışı çox çətin iqtisadi, sosial və siyasi dövrə təsadüf edirdi. Müstəqillik qazanmış, lakin öz inkişaf platformasını tam müəyyənləşdirməmiş Azərbaycan həmin dövr dövlət idarəçiliyində xaotiklik, daxili çəkişmələr, sənaye və kənd təsərrüfatının tənəzzülü, xarici iqtisadi əlaqələrin zəifləməsi, qaçqın və məcburi köçkün problemləri ilə üz-üzə qalmışdı. Sadalanan problemlərin Azərbaycan əhalisinin həyat səviyyəsinə təsir istiqamətlərini və dərəcələrini təsəvvür etməmək mümkün deyil. Məsələ ondan ibarətdir ki, o vaxtkı rəhbərlik tərəfindən görülən tədbirlər lazımi effekt vermirdi. Əksinə, iqtisadi tənəzzül getdikcə dərinləşir, inflyasiya davamlı olaraq yüksəlir və ölkədə yoxsulluq səviyyəsi artırdı. Bundan əlavə qaçqınlara və məcburi köçkünlərə, şəhid ailələrinə və qazilərə müavinətlərin və pensiyaların verilməsində baş verən uzunmüddətli gecikdirilmələr cəmiyyətdə sosial gərginliyi daha da artırırdı.

Xalqın istəyi və tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan H.Əliyev hər şeydən əvvəl müharibə zonasında atəşkəsə, ölkə iqtisadiyyatında sabitliyə nail olunmasına, eləcə də əhalinin təminatlı sosial müdafiə mexanizminin formalaşdırılmasına yönəldilən siyasət aparmağa başladı. Qısa zamanda aparılan siyasət öz nəticələrini büruzə verməyə başladı, digər sahələrdə olduğu kimi, sosial sferada da Ulu öndərin hakimiyyətə gəlişindən sonra əhəmiyyətli dəyişikliklər baş verdi. Vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə 15 iyun 1994-cü il tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman imzalandı. Fərmandan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi üçün həmin dövrdə sosial qanunvericiliyin formalaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac var idi. Ona görə də 1995-ci ildə Ulu öndərin təşəbbüsü ilə insanların sosial müdafiəsinin etibarlı şəkildə təmin olunması məqsədilə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiyanın 16-cı maddəsində Azərbaycan dövlətinin vətəndaşların rifahının yüksəldilməsinin, sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalması ayrıca təsbit olunmuşdur.

H.Əliyevin siyasi iradəsinin və gərgin əməyinin məhsulu olan mqəsədyönlü tədbirlər nəticəsində 1993-1996-cı illərdə Azərbaycanda iqtisadi və siyasi sabitlik təmin olunmuş, tənəzzülün qarşısı alınmışdır. Bununla paralel olaraq, bazar iqtisadiyyatının tələblərinə və prinsiplərinə əsaslanan davamlı islahatların aparılmasına start verilmişdir. Həmin islahatların mühüm tərkib hissəsi olan sosialyönümlü islahatların yeni konsepsiyalara və dövlət proqramlarına uyğunlaşdırılması təmin edildi [2].

Məlum olduğu kimi, dövlətin sosial siyasətinin uğurları iqtisadi inkişaf səviyyəsindən asılıdır. Başqa sözlə, təsirli sosial müdafiə tədbirlərinin səmərəliliyi birbaşa ölkənin iqtisadi imkanları ilə bağlıdır. Məhz buna görə də sosial müdafiə strategiyasının işlənilməsi zamanı Ümummilli lider sosial siyasətin ölkənin mövcud iqtisadi imkanlarına uyğunlaşdırılmasını ön plana çəkmişdir.

Ulu öndərin ölkənin aztəminatlı vətəndaşlarına və həssas əhali qrupuna qayğısının nəticəsi olaraq, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əlillərin tibbi-sosial reabilitasiyası sisteminin yenidən qurulması, onların minik avtomobilləri və reabilitasiya vasitələri ilə təmin olunması, pensiya və müavinətlərin artırılması istiqamətlərdə uğurlu tədbirlər həyata keçirilmişdir.Əhalinin təxminən 15 faizini təşkil edən pensiyaçıların sosial müdafiəyə daha çox ehtiyacının olması onların sosial-iqtisadi dəyişikliklərə həssas olan təbəqə kimi qəbul olunmasını şərtləndirir. Bu baxımdan Ulu öndərin hakimiyyəti dövründə pensiya və müavinətlərin məbləğinin ölkə üzrə orta aylıq əməkhaqqı və yaşayış minimumu əsasında tənzimlənməsi strategiyasının seçilməsi təsadüfi deyildi.

Qeyd edilənlərin davamı kimi bildirək ki, H.Əliyevin rəhbərliyi dövründə "Vətəndaşların pensiya təminatı haqqında" Qanuna əlavə və dəyişikliklər edilmiş, "Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında" sərəncam, minumum aylıq əməkhaqqının və pensiyaların

artırılması haqqında fərmanlar verilmişdir. Təkcə 1997-ci ildə verilən sərəncamla pensiyaçıların yarıdan çoxunun pensiyası 2,2 dəfə artırılmışdır. Bundan əlavə tənha və ahıl vətəndaşların, sosial pensiyaçıların və əlillərin pensiya və müavinətlərinə əlavələr edilmişdir. 1998-ci ildə isə şəhid ailələrinə, müharibə əlillərinə, qaçqınlara və məcburi köçkünlərə verilən müavinətlərin məbləği 2 dəfədən çox artırılmışdır [3].

Dövlət tərəfindən əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi üzrə aparılan tədbirlərin səmərəliliyi iqtisadi imkanlarla yanaşı, həmçinin həmin tədbirlərin konkretliyindən və ünvanlı olmasından asılıdır. Müasir model hesab edilən sosial müdafiənin ünvanlılıq prinsipi Azərbaycanın Ümummilli lider H. Əliyev tərəfindən yaradılan və inkişaf edən sosial müdafiə siyasətində uğurla tətbiq olunur. Göstərmək olar ki, 2001-ci ildə sosial təminata ehtiyacı olan əhali qrupunun bir çox güzəşt və imtiyazlarının ləğv olunaraq, ünvanlı sosial yardımla əvəz olunması nəticə etibarilə çox səmərəli oldu.

Ulu öndərin sosial siyasətindən danışarkən, onun məşğulluq və işsizliyin aradan qaldırılması kimi vacib məsələlərə daim böyük əhəmiyyət verdiyini qeyd etmək lazımdır. Onun rəhbərliyi dövründə ölkəmizdə yeni iş yerlərinin açılması, vətəndaşların əmək hüquqlarının qorunması və təmin olunması sahəsində yüksək nailiyyətlər qaznılmışdır.

Ümumiyyətlə, H.Əliyevin uğurlu sosial siyasətinin nəticəsində əhalinin müxtəlif təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün real şərait yaradılmışdır. Bu siyasət istisnasız olaraq, əhalinin yardıma ehtiyacı olan bütün təbəqələrini əhatə etmişdir.Hazırda Ulu öndərin müəllifi olduğu strategiya və ideyalar uğurla davam etdirilir və öz bəhrəsini verir. H.Əliyevin dünyasını dəyişməsindən 20 il ötsə də əlillər, pensiya yaşına çatmış şəxslər, aztəminatlı ailələr, kimsəsiz uşaqlar Azərbaycan dövlətinə güvənir və ilbəil artmaqda olan ünvanlı sosial yardımla təmin olunurlar.

Bu məqamda bir xatırlatma etmək yerinə düşərdi. Ümummilli lider H.Əliyev kimsəsiz uşaqlarla görüşündə demişdir. “Siz hesab etməyin ki, sizin valideyniniz yoxdur, sizin valideyniniz Azərbaycan dövlətidir, sizin valideyniniz Azərbaycanın Prezidentidir”. Əlbəttə, Azərbaycan dövləti öz xalqının, xüsusən aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılmasına diqqətlə yanaşır. Hazırkı dövrdə də sosial siyasətdə dövlətə güvən və dövlət qayğısının üzvi əlaqəsinə əsaslanan sosial siyasət davam edir. Azərbaycan dövləti və prezidenti H.Əliyev ideyalarına sadiq qalaraq, daim sosial müdafiəyə ehtiyacı olan şəxslərin yanında olduqlarını nümayiş etdirirlər. Bu məqamda qeyd etmək yerinə düşər ki, 2010-cu ildən 2022-ci ilədək ölkəmizdə sosial müvinətlərin sayının 293528 nəfərdən 396891 nəfərə qədər artmasına baxmayaraq, həmin dövrdə bir nəfərə düşən orta aylıq məbləğ 34.48 manatdan 119.07 manatadək yüksəlmişdir [4]. Bütün bunlar bir daha respublikamızın iqtisadi inkişaf dinamikasına paralel olaraq, sosial rifahın da davamlı yüksəlişinə böyük diqqət ayrıldığını sübut edir.

## ƏDƏBİYYAT


1. “Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı 27-28 iyun 2012-ci il
2. X.H,Kazımlı. Böyük siyasətin davamı, Bakı 2016
3. Z.Ə.Səmədzadə.Azərbaycan iqtisadiyyatı son 100 ildə, Bakı 2021
4. www.stat.gov.az



***Гюллу Ибрагим кызы Гулузаде***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры “Экономика аграрной отрасли и промышленности” преподфватель***
***E-mail – guluzada97@gmail.com***


## Экономика социального обеспечения Гейдар Алиева


***Резюме***

Результаты проводимой в стране экономической политики отражаются на уровне жизни народа. Поэтому проводимая социальная политика напрямую направлена на обеспечение благополучного проживания населения, повышение уровня занятости и доходов населения,

формирование опережающего механизма социальной защиты.
***Ключевые слова: доход, занятость, инфляция, пенсия, стабильность, социальная защита.***

***Gullu Ibrahim Guluzada***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department***
***"Economics of the agricultural field and industry" lecturer***
***E-mail – guluzada97@gmail.com***

**Social welfare economics of Heydar Aliyev**

***Summary***

The results of the economic policy conducted in the country are reflected in the standard of living of the people. Therefore, the conducted social policy is directly aimed at ensuring the prosperous living of the population, raising the level of employment and income, forming an advanced social protection mechanism.
***Key words: income, employment, inflation, pension, stability, social protection.***

**УДК 338.43**

***Сабина Садых кызы АСАДОВА***
***старший научный сотрудник Научного центра по восстановлению постконфликтных территорий Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики***
***sabina_esedova@mail.ru***
***https://orcid.org/0000-0003-3133-4305***

## ИННОВАЦИОННОЕ СЕЛЬСКОЕ ХОЗЯЙСТВО АЗЕРБАЙДЖАНА - КАК УСПЕШНОЕ ПРОДОЛЖЕНИЕ АГРАРНОЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА

***Резюме***

Статья посвящена нынешним условиям развития аграрного сектора, прочные основы которого заложены общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым, а в частности необходимости достижения инновационного уровня сельского хозяйства с целью обеспечения продовольственной безопасности. В статье проводится сравнительный анализ на основе положения Азербайджана в международных индексах, выявляются основные тенденции, способные обеспечить высокие позиции нашей страны в данных рейтингах.
***Ключевые слова: аграрный сектор, международные индексы, инновационное развитие, цифровизация сельского хозяйства.***

***

Приход общенационального лидера азербайджанского народа Гейдара Алиева к руководству страной во второй раз вывел экономику Азербайджана на новый этап развития. Так, под руководством великого лидера в Азербайджане стала проводиться взвешенная структурная экономическая политика, основным направлением которой выступила новая модель развития, основанная на различных формах собственности, и конкурентоспособной экономики, способной адаптироваться к условиям глобализации. Это развитие проявилось также на примере аграрного сектора экономики страны. Историческим решением великого лидера стало создание правовой базы аграрных реформ и их осуществление, которое началось с Нахчыванской Автономной Республики и охватило страну в целом. Именно в те годы были приняты специальные решения по аграрным реформам, которые, основываясь на обеспече-

ние частной собственности на землю, заложили фундамент современной бизнес среды и условий для формирования реальной кооперации и дальнейшего инновационного развития аграрного сектора в целом [1, с. 132]. В результате этих реформ более 1350 тыс. га земли были бесплатно предоставлены крестьянам, а колхозы и совхозы заменились фермерскими хозяйствами [4].

Таким образом на место прежней экономической системы пришли новые производственные отношения, а управление сельским хозяйством было адаптировано к требованиям рыночной экономики.

На сегодняшний день все достигнутые в данном направлении успехи гениального политического деятеля Гейдара Алиева последовательно и успешно развиваются под руководством Президента Азербайджанской Республики Ильхама Алиева.

Как известно, инновационный аграрный сектор подразумевает внедрение цифровых технологий во все сферы сельского хозяйства страны. Согласно мировому опыту, цифровизация отдельных секторов экономики выступает в качестве основного драйвера экономического развития региона, района, города, села или отдельных отраслей данного региона. Однако, чтобы построить запланированную стратегию, следует рассмотреть нынешнее положение страны в сфере инноваций, выявить имеющиеся трудности, с которыми сейчас сталкиваются, к примеру, административные районы, неявляющиеся постконфликтными. Именно поэтому данное исследование посвящено анализу места нашей страны в международных рейтингах, характеризующих уровень развития цифровизации стран.

Наиболее известны рейтинги, основанные на следующих индексах: индекс развития информационно-коммуникационных технологий (ICT Development Index – IDI); индекс мировой цифровой конкурентоспособности (IMD World Digital Competiveness Index – WDCI); глобальный индекс инноваций (The Global Innovation Index – GII); индекс сетевой готовности (Networked Readiness Index – NRI) и др. Рассмотрим место и возможности нашей страны по некоторым из вышеперечисленных индексов.

Несмотря на то, что за несколько лет значение Индекса развития ИКТ в Азербайджане значительно выросло: с 2,77 баллов в 2007 г. до 6,20 баллов в 2017 г., однако в общем рейтинге в 2017 году наша страна заняла 65-е место, в основном из-за несколько слабой проводной инфраструктуры (фиксированные телефоны и фиксированная широкополосная сеть). В связи с этим, в качестве одной из главных целей правительство утвердило увеличение числа абонентов фиксированного широкополосного интернета, использующих сети FTTH (Fiber to the Home), и достижения полного охвата широкополосным интернетом с минимальной скоростью 25 Мбит/с к 2024 году [2].

В соответствии с отчетом Глобального инновационного индекса (ГИИ) по Азербайджану, наша страна занимает 93-е место (со значением индекса 21.5) среди 132 стран, включенных в ГИИ 2022 года, и 32-е - среди 36 стран с уровнем дохода выше среднего [7, с.3]. Как отмечается в отчете, в 2022 году Азербайджан демонстрирует более высокие показатели по вложениям в инновации, чем по их результатам, заняв 79-е место по вкладу в инновации, что ниже, чем в 2021 и 2020 годах. Что касается результатов инновационной деятельности, наша страна утвердилась на 110-м месте, что также ниже, чем в 2021 и 2020 годах. К сожалению, в целом по таким направлениям ГИИ, как человеческий капитал и исследования, инфраструктура, знания и технологии, результаты и творческий результат позиции нашей страны также заметно отстают от лидеров.

Как становится очевидным, для достижения экономического развития в любой отрасли экономики, необходимо ее соответствие новым реалиям, определяющим данное развитие. В настоящее время формирование целостной инновационной системы является непременным условием обеспечения конкурентоспособности стран. В подтверждении вышесказанному на основе проведенного анализа составим компаративный анализ по индикаторам аграрного сектора и показателей, способствующих повышению инновационности экономики посредством нижепредставленной таблицы.

*Таблица 1*

**Некоторые экономические показатели развитых и развивающихся стран по 2022 г**

| Страна | ВВП, миллиард долларов | Доля с/х в ВВП, в % | Земли сельскохозяйственного наз-начения в % | Занятость в с/х, % от общей занятости | Доля расходов на науку в ВВП, в % | Доля расходов на образование в ВВП, в % | Место по ГИИ |
|---|---|---|---|---|---|---|---|
| Развитые страны с высоким уровнем дохода | | | | | | | |
| США | 22996.1 | 1,06 | 44.36 | 1.36 | 3,45 | 6.1 | 2 |
| Великобритания | 3186.86 | 0.60 | 71.34 | 1.05 | 1.71 | 5.5 | 4 |
| Нидерланды | 1018.01 | 1,57 | 53.89 | 2.08 | 2,29 | 5,3 | 5 |
| Германия | 4223.12 | 0.80 | 47.50 | 1.21 | 3.14 | 4.7 | 8 |
| Франция | 2937.47 | 1,63 | 52.15 | 2.53 | 2,35 | 5,5 | 12 |
| Канада | 1990.76 | 1.70 | 6.44 | 1.51 | 1.70 | 5.2 | 14 |
| Израиль | 481.59 | 1,15 | 29.87 | 0.92 | 5,44 | 7,1 | 15 |
| Новая Зеландия | 207.0 | 5.65 | 38.56 | 5.84 | 1.41 | 6.05 | 24 |
| Австралия | 1524.4 | 2.27 | 46.25 | 2.56 | 1.83 | 5.12 | 25 |
| Страны с уровнем дохода вышесреднего / ниже среднего и с развитым сельским хозяйством | | | | | | | |
| Китай | 17734.06 | 7.26 | 56.08 | 25.33 | 2.40 | 3.57 | 11 |
| Турция | 815.27 | 5.65 | 49.07 | 18.11 | 1.09 | 4.29 | 37 |
| Индия | 3173.40 | 16.77 | 60.22 | 42.60 | 0.66 | 4.47 | 40 |
| РФ | 1775.80 | 3.80 | 13.16 | 5.83 | 1.10 | 4.68 | 47 |
| Бразилия | 1608.98 | 6.89 | 28.34 | 9.08 | 1.21 | 6.09 | 54 |
| Аргентина | 491.49 | 6.87 | 39.60 | 0.06 | 0.46 | 4.72 | 69 |
| Индонезия | 1186.09 | 13.28 | 33.18 | 28.50 | 0.28 | 2.84 | 75 |
| Азербайджан | 54.62 | 6.7 | 57.84 | 36.00 | 0,22 | 4.3 | 93 |

*Источник: составлено автором на основе [4] и [10].*

Как видно из таблицы, в странах, обладающих высоким уровнем дохода и высокоразвитой производительностью труда в аграрном производстве, доля сельского хозяйства в валовом внутреннем продукте довольна низка, поскольку большую часть ВВП создают промышленность и наукоёмкие отрасли, то есть эти страны характеризуются преимущественно интенсивным типом аграрного развития. Эти страны также находятся в верхней части мирового инновационного рейтинга и выделяются высокими темпами цифровой трансформации сельского хозяйства, путем широкого внедрения информационных технологий в деятельность компаний-производителей (причем не только крупных, но и средних и малых), что позволяет увеличивать эффективность производства продовольствия [3, с.31]. Однако также известно, что в целом данные страны не являются аграрными, а сельское хозяйство не является ключевой отраслью их национальной экономики. Их опыт показывает, что доля расходов на научные исследования и образование являются макроэкономическими показателями, определяющими готовность стран к цифровизации различных отраслей экономики. Далее среди стран, представленных в таблице как страны с уровнем дохода вышесреднего / ниже среднего и развитым сельским хозяйством (Китай, Бразилия, РФ, Аргентина, Турция), есть именно аграрные - Бразилия, Индия, Индонезия, характеризующиеся преимущественно экстенсивным типом аграрного развития, что определяет относительно низкую производительность в сельском хозяйстве по сравнению с развитыми странами. Проведенный сравнительный анализ дает основание сделать вывод, что в период цифровой экономики статус аграрной страны не гарантирует уровень современного развития сельского хозяйс-

тва, а в частности удовлетворение потребностей населения страны в продуктах питания и высокой продовольственной безопасности. Причиной выступает слабый уровень развития производительных сил, находящихся на стадии второго и третьего технологических укладов, тогда когда в странах-лидерах рейтингов по инновационному развитию преобладает пятый технологический уклад и идет переход к шестому.

По Индексу сетевой готовности за 2022 год Азербайджан занял 74-е место со значением индекса 47.74 из 131 экономики, с наивысшим показателем по компоненту "люди" (56-е место) [6]. Среди стран с вышесредним доходом наша страна отстает от таких стран, как Казахстан (58), Аргентина (57) Турция (48), РФ (40), Китай (23), Бразилия (44), но опережает такие, как Грузия (75), Иран (82), Перу (78), Босния и Герцоговина (90) и др. В ниже представленном графике показывается занимаемое место нашей страной в рейтинге по подкомпонентам, входящим в компоненты технологии (доступ, контент, технологии будущего), люди (физические лица, бизнес, правительства), управление (доверие, регулирование, инклюзия) и влияние (экономика, качество жизни, вклад в ЦУР) [8, с.9].

***График 1***

**Рейтинг Азербайджана по подкатегориям Индекса сетевой готовности 2022 г**




*Источник: составлено автором на основе [8].*

Как видно из графика, наиболее высокое место Азербайджан занимает по подкомпонентам "технологии будущего" – 33 место и "правительства" – 44. Заметное отставание наблюдется в компонентах "влияние" и "управление", по подкомпонентам которых наша страна утвердилась на 93-м и 106-м местах соответственно. В качестве сильных сторон в нашей стране выделены такие индикаторы, как уровень грамотности взрослого населения, ИКТ в системе образования, преобладание гиг-экономики, поощрение правительством инвестиций в новые технологии, доступность локального онлайн-контента, внедрение новых технологий, создание устойчивых городов и сообществ, свобода жизненного выбора, наличие компаний с веб сайтами. В отличие от этого, самые слабые показатели экономики включают социально-экономический разрыв в использовании цифровых платежей, разрыв в использовании цифровых платежей в сельской местности и онлайн-доступ к финансовому счету [8, с.5].

Подытожевая сказанное, следует заключить, что существует необходимость изучения и оценки уровня цифровизации на внутрирегиональном уровне, а в частности готовности и фактического использования цифровых технологий в сельских местностях. В частности, в ходе исследования зарубежных методологий мы стали свидетелями того, как субиндексы

международных индексов адаптируются к региональным особенностям той или иной страны. Считаем, что данная практика может быть использована и в нашей стране, в частности, предлагаем адаптировать субиндексы Индекса сетевой готовности в композитный Индекс готовности к цифровому аграрному сектору, в перечень показателей которых, по нашему мнению, могут быть добавлены индикаторы, характеризующие систему цифрового сельского хозяйства страны, отвечающие потребностям нашей страны и действующие в интересах национальной политики. На наш взгляд, такой Индекс позволит оценить готовность региона к цифровизации, а также фактический уровень использования цифровых технологий в агараном секторе на всех уровнях: государственные органы, сельскохозяйственные предприятия, фермеры-предприниматели и домохозяйства.

## ЛИТЕРАТУРА


1. Аграрная политика Гейдара Алиева в Азербайджане [Текст] /Гариб Мамедов; ред. Х. Бабаоглы. Баку: Элм, 2013, 374 с.
2. Азербайджан: обзор цифрового развития страны. Азиатский банк развития. 2019, 29 с. URL:https://www.adb.org/sites/default/files/institutional-document/486341/aze-digital-developmentoverview-az.pdf).
3. Барышникова Н.А. Мировое сельское хозяйство в условиях цифровой трансформации: потенциал достижения глобальной продовольственной безопасности / Вестник СГСЭУ. 2019, № 5 (79), с. 29-33.
4. Восстановление и сохранение государственной независимости. URL: https://republic.preslib.az/ru_a3.html
5. Государственный комитет статистики Азербайджана. URL: https://www.stat.gov.az/source/system_nat_accounts/
6. Global Innovation index 2021 Azerbaijan. URL: https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2021/az.pdf
7. Global Innovation Index 2022 https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_2000_2022/az.pdf
8. Network Readiness Index 2022 Azerbaijan. URL: https://networkreadinessindex.org/country/azerbaijan/
9. irtualkarabakh.az/ru/new-item/6/3853/prezident-ilham-eliyev-hazirda-biz-isgaldan-azad-edilmis-erazilerde-kend-teserrufatinin-inkisafinin-planlasdirilmesi-merhelesindeyik.html
10. https://data.worldbank.org/indicator/GB.XPD.RSDV.GD.ZS?view=chart



***Səbinə Sadıx qızı Əsədova***<br>
***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin***<br>
***İqtisadiyyat İnstitutunun***<br>
***Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin***<br>
***böyük elmi işçisi***


## Azərbaycanın innovativ kənd təsərrüfatı - Heydər Əliyevin aqrar siyasətinin uğurlu davamı kimi


### *Xülasə*

Məqalə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm əsası qoyulmuş aqrar sektorun inkişafının mövcud şəraitinə, xüsusilə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün kənd təsərrüfatının innovativ səviyyəsinə nail olunmasının zəruriliyinə həsr olunub. Məqalədə Azərbaycanın beynəlxalq indekslərdə tutduğu mövqe əsasında müqayisəli təhlil aparılıb, ölkəmizin bu reytinqlərdə yüksək mövqeyini təmin edə biləcək əsas tendensiyalar müəyyən edilib.



***Açar sözlər: aqrar sektor, beynəlxalq indekslər, innovativ inkişaf, kənd təsərrüfatının rəqəmsallaşması.***

*Sabina Sadykh Asadova*
*Senior Researcher at the Scientific Center for the Reconstruction of Post-Conflict Territories of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*

**Innovative agriculture of Azerbaijan as a successful continuation of Heydar Aliev's agricultural policy**

***Summary***

The article is devoted to the current conditions for the development of the agricultural sector, the solid foundations of which were laid by the national leader of the Azerbaijani people Heydar Aliyev, and in particular the need to achieve an innovative level of agriculture in order to ensure food security. The article provides a comparative analysis based on the position of Azerbaijan in international indices, identifies the main trends that can ensure the high position of our country in these ratings.

***Key words: agricultural sector, international indices, innovative development, digitalization of agriculture.***

**UOT 33.336**

***Nərgiz Fikrət qızı HÜSEYNOVA***
***Doktorant, AKU***
***karimli_nargiz@mail.ru***

## AZƏRBAYCANDA SƏNAYE KLASTERLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə hakimiyyətdə olduğu müddətdə ölkənin iqtisadi mənzərəsinin formalaşmasında mühüm rol oynamışdır. Çox vaxt müasir Azərbaycanın memarı kimi tanınan Əliyevin uzaqgörən siyasəti sənayenin inkişafı üçün zəmin yaratmışdır. Tezisdə məhz Heydər Əliyevin Azərbaycanda sənaye klasterlərinin yaradılması və böyüməsindəki rolu, onun rəhbərliyinin ölkənin iqtisadi transformasiyasına necə töhfə verdiyi haqqında məlumat verilir.

***Açar sözlər: Ümummilli lider Heydər Əliyev, sənaye klasteri, iqtisadi inkişaf.***

***

Azərbaycanın sənaye inkişafının əsası ölkənin siyasi qeyri-sabitlik və iqtisadi təlatümlərlə üzləşdiyi bir vaxtda Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qoyulmuşdur. Əliyevin Azərbaycanla bağlı strateji baxışı ölkənin zəngin neft və qaz ehtiyatlarına əsaslanırdı və bu ehtiyatlardan iqtisadi artıma təkan vermək məqsədi daşıyırdı.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın neft-qaz sənayesi üçün dönüş nöqtəsi oldu. Beynəlxalq neft şirkətlərinin iştirak etdiyi saziş "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənməsinə investisiyaların qoyuluşunu asanlaşdırıb. Sonrakı neft bumu böyük gəlirlər yaratdı və Heydər Əliyev bunu məharətlə iqtisadiyyatın şaxələndirilməsinə yönəltdi.

Əliyev özünün diversifikasiya strategiyasının tərkib hissəsi kimi müxtəlif sektorlarda, o cümlədən neft-kimya, aqrar-sənaye və istehsalat sahələrində sənaye klasterlərinin yaradılmasını fəal şəkildə təşviq edib. Əliyev bu sektorlara investisiyaları stimullaşdırmaqla ölkənin neft və qaz gəlirlərindən asılılığını azaltmağı və daha dayanıqlı iqtisadi artım modeli yaratmağı qarşısına məqsəd qoymuşdur [1, s.10].

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda bir sıra sənaye klasterləri yaradılmışdır. Sənaye klasterləri bugünkü qlobal iqtisadiyyatda iqtisadi artımın, innovasiyaların və rəqabətqabiliyyətliliyin güclü sürücüsü kimi meydana çıxmışdır. Müəyyən bir sənaye daxilində bir-biri ilə əlaqəli

müəssisələrin, təchizatçıların və qurumların coğrafi konsentrasiyası ilə xarakterizə olunan bu klasterlər öz üzvlərinə məhsuldarlığın artırılması, ixtisaslaşmış resurslara çıxış və təkmilləşdirilmiş əməkdaşlıq daxil olmaqla çoxsaylı üstünlüklər təklif edir.

Ümumiyyətlə, "Sənaye klasteri" termini Harvard Biznes Məktəbinin professoru Maykl Porter tərəfindən populyarlaşdı və onu "müəyyən bir sahədə bir-biri ilə əlaqəli şirkətlərin, ixtisaslaşmış təchizatçıların, xidmət təminatçılarının və əlaqəli qurumların coğrafi konsentrasiyası" kimi təyin etdi. Sənaye klasterləri bir-birinə yaxın ərazidə fəaliyyət göstərən biznes və təşkilatların paylaşılan resurslardan, biliklərdən və şəbəkələrdən istifadə etməklə daha böyük uğur qazana biləcəyi ilkin faktorlara əsaslanır [4, s.166].

Sənaye klasterləri innovasiyaları təşviq edir, məhsuldarlığı və rəqabət qabiliyyətini yüksəldir. Və aşağıdakı funksiyaları yerinə yetirir [7, s.49]:

İxtisaslaşdırılmış resurslara, o cümlədən ixtisaslı işçi qüvvəsinə, qabaqcıl texnologiyaya və sənayeyə məxsus infrastruktura çıxışın asanlaşdırılması;

Klaster üzvləri arasında fikir, bilik və ən yaxşı təcrübə mübadiləsini təşviq etmək, yeni məhsulların, xidmətlərin və proseslərin yaranmasına gətirib çıxarmaq;

İnnovasiyaları stimullaşdıran və məhsul və xidmətlərin davamlı təkmilləşdirilməsinə təkan verən dinamik və rəqabətli biznes mühitinin yaradılması;

İnvestorlar bu inkişaf edən sənaye mərkəzlərində böyümə və gəlir potensialını tanıdıqları üçün həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi.

Sənaye klasterləri sənayenin xarakteri, ixtisaslaşma dərəcəsi və regional inteqrasiya səviyyəsi kimi amillərə görə müxtəlif növlərə bölünə bilər. Sənaye klasterlərinin ən çox yayılmış növlərinə aşağıdakılar daxildir [5, s.123]:

Təbii Resurslara əsaslanan klasterlər: Bu klasterlər minerallar, meşə təsərrüfatı və ya kənd təsərrüfatı məhsulları kimi təbii ehtiyatların hasilatı, emalı və istifadəsi ətrafında cəmləşmişdir. Nümunələrə Çilidəki mədən klasterləri və ya Skandinaviyadakı meşə klasterləri daxildir.

Biliyə əsaslanan klasterlər: Biliyə əsaslanan klasterlər tədqiqat və inkişaf (R&D) fəaliyyətlərinin, təhsil müəssisələrinin və biotexnologiya, informasiya texnologiyaları və ya qabaqcıl istehsal kimi bilik tutumlu sənayelərin yüksək konsentrasiyası ilə xarakterizə olunur. ABŞ-dakı Silikon Vadisi və Böyük Britaniyadakı Kembric Elm Parkı biliyə əsaslanan klasterlərin məşhur nümunələridir.

İstehsal əsaslı klasterlər: İstehsal əsaslı klasterlər avtomobil, tekstil və ya elektronika kimi müəyyən bir sənaye daxilində malların istehsalına diqqət yetirirlər. Bu klasterlərə çox vaxt iri miqyaslı istehsalçıların, kiçik və orta müəssisələrin (KOB) və ixtisaslaşmış təchizatçıların qarışığı daxildir. Görkəmli nümunələrə ABŞ-ın Detroit şəhərindəki avtomobil klasteri və Hindistanın Tirupur şəhərindəki tekstil klasterini göstərmək olar.

Xidmət əsaslı klasterlər: Xidmət əsaslı klasterlər maliyyə xidmətləri, turizm və ya yaradıcı sənayelər kimi müəyyən sənaye və ya bazar seqmentinə ixtisaslaşdırılmış xidmətlər göstərən biznes və təşkilatlardan ibarətdir. Buna misal olaraq Londonda (Böyük Britaniya) maliyyə xidmətləri klasterini və Hollivudda (ABŞ) kino və əyləncə klasterini göstərmək olar.

Sənayelərarası Klasterlər: Sənayelərarası klasterlər bir çox sənayenin kəsişməsi nəticəsində formalaşır və ənənəvi sənaye sərhədlərini kəsən unikal məhsul və xidmətlərin inkişafına gətirib çıxarır. Bu klasterlər tez-tez güclü innovasiya imkanlarına malik regionlarda yaranır, çünki bizneslər yeni bazar imkanlarını araşdırmaq üçün əməkdaşlıq edirlər. Buna misal olaraq, Danimarka və İsveçdən həyat elmləri, biotexnologiya və səhiyyə şirkətlərini birləşdirən Öresund bölgəsindəki Medicon Valley klasterini göstərmək olar.

Sənaye klasterləri müasir iqtisadi inkişafın mühüm tərkib hissəsinə çevrilib, çünki onlar biznes və təşkilatlara böyümə və innovasiyaya təkan vermək üçün paylaşılan resurslardan, biliklərdən və şəbəkələrdən istifadə etmək imkanı təklif edir. Sənaye klasterlərinin konsepsiyasını və növlərini başa düşməklə, siyasətçilər, biznes liderləri və sahibkarlar bu güclü iqtisadi mühərriklərin potensialını daha yaxşı müəyyən edə bilər [3, s.456].

Son bir neçə onillikdə Azərbaycan iqtisadiyyatının transformasiyasında mühüm nailiyyətlər əldə edib, sənaye klasterləri bu dəyişikliyin idarə edilməsində həlledici rol oynayır. Müəyyən bir

sənaye daxilində bir-biri ilə əlaqəli bizneslərin, təchizatçıların və institutların coğrafi konsentrasiyası ilə xarakterizə olunan bu klasterlər Azərbaycana öz təbii ehtiyatlarından istifadə etməyə, innovasiyaları təşviq etməyə və iqtisadiyyatını şaxələndirməyə imkan verib. Bu məqalə Azərbaycanda sənaye klasterlərinin inkişafı və təsirini tədqiq edir, diqqəti iqtisadi artımın və diversifikasiyanın aparıcı qüvvəsi kimi meydana çıxan əsas sektorlara yönəldir.

Azərbaycanda sənaye klasterlərinin əsası iqtisadi artımı dəstəkləmək üçün ölkənin təbii ehtiyatlarından istifadənin vacibliyini dərk edən Heydər Əliyevin (1993-2003) dövründə qoyulmuşdur. 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənməsinə şərait yaradan "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycan iqtisadi transformasiya yoluna qədəm qoydu.

Neft-qaz sektoru inkişaf etdikcə ümummilli lider Heydər Əliyev bu sənayedən əldə olunan gəliri iqtisadiyyatın şaxələndirilməsinə yönəltdi. O, müxtəlif sektorlarda, o cümlədən neft-kimya, aqrar-sənaye və istehsalat sahələrində sənaye klasterlərinin yaradılmasına fəal yardım göstərmişdir. Bu strateji baxış o vaxtdan Azərbaycanın iqtisadi artımında mühüm rol oynamış sənaye klasterlərinin inkişafı üçün zəmin yaratdı [2, s.187].

Azərbaycanda sənaye klasterlərinin yaradılması çoxsaylı müsbət nəticələrə gətirib çıxarıb, o cümlədən:

İqtisadi Diversifikasiya: Müxtəlif sənaye sektorlarının artımını təşviq etməklə Azərbaycan neft və qaz gəlirlərindən asılılığını azaldıb, daha dayanıqlı iqtisadi artım modelini təşviq edib.

İş yerlərinin yaradılması: Sənaye klasterləri xüsusilə istehsal və aqrar-sənaye sektorlarında yeni məşğulluq imkanları yaradıb, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına töhfə verib.

İnnovasiya və Texnologiya Transferi: Müəssisələrin klasterləşdirilməsi şirkətlər arasında ideya, bilik və texnologiya mübadiləsini asanlaşdırıb, innovasiyaların artmasına və qabaqcıl texnologiyaların mənimsənilməsinə gətirib çıxarıb.

Xarici İnvestisiyaların cəlb edilməsi: Azərbaycanın sənaye klasterlərinin uğurları xarici investorların diqqətini cəlb edib, kapital axınının artmasına və ölkənin sənaye bazasının daha da möhkəmlənməsinə səbəb olub.

Sənaye klasterləri Azərbaycanın iqtisadi transformasiyasında mühüm rol oynayıb, müxtəlif sektorlar üzrə artım və diversifikasiyaya təkan verib. Coğrafi konsentrasiyanın, bir-biri ilə əlaqəli bizneslərin və ixtisaslaşdırılmış resursların üstünlüklərindən istifadə etməklə bu klasterlər Azərbaycan iqtisadiyyatında innovasiya, məhsuldarlıq və rəqabət qabiliyyətini asanlaşdırıb.

Bundan başqa, sənaye klasterlərinin inkişafı Azərbaycanın regional sənaye qovşağı kimi mövqeyini gücləndirib, xarici investisiyaları cəlb edib və beynəlxalq əməkdaşlığa təkan verib. Ölkə inkişaf etməyə və daim dəyişən qlobal iqtisadi mənzərəyə uyğunlaşmağa davam etdikcə, sənaye klasterləri Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasının mühüm komponenti olaraq qalacaq.

Mövcud klasterlərin uğurlarından öyrənməklə və bərpa olunan enerji, informasiya texnologiyaları və qabaqcıl istehsal kimi inkişaf etməkdə olan sektorlarda klasterin inkişafı üçün yeni imkanları müəyyən etməklə Azərbaycan öz sənaye nailiyyətlərini daha da inkişaf etdirə, xalqının firavan və davamlı gələcəyini təmin edə bilər.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bir sıra sənaye klasterləri yaradılmışdır. Onlardan ən əhəmiyyətliləri bunlardır:

Sumqayıt Kimya Sənaye Parkı: Paytaxt Bakı şəhərindən 30 kilometr aralıda yerləşən Sumqayıt Kimya Sənaye Parkı neft-kimya sənayesinin inkişafına kömək etmək məqsədilə yaradılmışdır. Park həm yerli, həm də xarici investisiyaları cəlb edərək, gübrə, plastik və müxtəlif kimyəvi maddələrin istehsalı ilə məşğul olan müəssisələrin inkişafına təkan verdi.

Mingəçevir Sənaye Parkı: Şaxələndirmə strategiyası çərçivəsində toxuculuq sənayesinin inkişafına diqqəti yönəltmək üçün Mingəçevir Sənaye Parkı yaradılmışdır. Park yerli sahibkarlar üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etmək üçün platforma yaratdı, bu da tekstil sektorunun böyüməsinə və ixracın artmasına səbəb oldu.

Aqro-sənaye parkları: Heydər Əliyev Azərbaycanın aqrar sektorunun potensialını tanıdı və ölkə üzrə bir neçə aqro-sənaye parkı yaratdı. Bu parklar kənd təsərrüfatı sektorunun modernləşdirilməsinə şərait yaradıb, məhsuldarlığın artmasına və qida emalı sənayesinin inkişafına gətirib çıxarıb.

Sənaye klasterlərinin böyüməsini dəstəkləmək üçün Heydər Əliyev infrastrukturun, o cümlədən

nəqliyyat, enerji və rabitə şəbəkələrinin inkişafını prioritet hesab edirdi. Avtomobil yollarına, dəmir yollarına və limanlara qoyulan sərmayələr malların və insanların daşınmasını asanlaşdırdı, enerji infrastrukturunun təkmilləşdirilməsi isə artan sənaye bazasının etibarlı enerji təchizatını təmin etdi. Bundan əlavə, kommunikasiya infrastrukturunda irəliləyişlər sənaye klasterlərinin böyüməsini daha da dəstəkləyərək, fasiləsiz məlumat mübadiləsini təmin etdi.

Heydər Əliyevin strateji baxışı və siyasəti Azərbaycanda sənaye klasterlərinin inkişafında mühüm rol oynamışdır. Ölkənin təbii sərvətlərindən istifadə etməklə, o, vəzifədə qaldıqdan sonra uzun müddət inkişaf etməyə davam edən şaxələndirilmiş iqtisadiyyatın əsasını qoydu. Onun rəhbərliyi ilə yaradılan sənaye klasterləri iqtisadiyyatı gücləndirməklə yanaşı, həm də Azərbaycan xalqının iş yerlərinin açılmasına, həyat səviyyəsinin yüksəlməsinə səbəb olub. Bu gün Heydər Əliyevin irsi Azərbaycan onun müasir, çoxşaxəli və firavan bir millətin yetişdirilməsi üçün qoyduğu təməl üzərində qurulmağa davam etdiyi bir vaxtda davam edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan yeni inkişaf mərhələsində, Bakı, //2016, səh.8-15
2. Süleymanova Ə. // İnnovasiya tipli məşğulluğun formalaşdırılmasının müasir mexanizmləri. // "Azərbaycanın vergi jurnalı", 2(082)/2017, s.203
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisadiyyat Universiteti, 2011, 542 s.
4. Бондаренко Н.Е. //Теоретические концепции инновационного развития экономики //Электронный ресурс/ // 2013стр. 205
5. Боровик С., //Ермакова Е.Е., Похвощев В.А. //Занятость населения: "Учебные пособия". -Ростов-но-Дону: Феникс, 2012, 138 с.
6. Кучуков Р. //Бэзальтернативность неоидустриальной модели. // № 5/2014, с. 92
7. Мингалева Ж, Ткачева //С. Кластеры и формирование структуры региона / Мировая экономика, международные отношения, //№6 2014, С.48-55



***Наргиз Фикрет Гусейнова***
***Докторант, АКУ***
***karimli_nargiz@mail.ru***


## Роль Гейдара Алиева в развитии промышленного кластера Азербайджана


***Резюме***

За время своего правления с 1993 по 2003 год общенациональный лидер Гейдар Алиев оказал значительное влияние на экономическое развитие страны. Дальновидная политика Алиева, которого часто называют "архитектором современного Азербайджана", заложила основу для роста промышленных групп в стране. В этой статье подробно рассказывается об участии Гейдара Алиева в развитии и расширении промышленных кластеров в Азербайджане, а также о том, как его руководство повлияло на экономическое развитие страны.



***Ключевые слова: общенациональный лидер Гейдар Алиев, промышленный кластер, экономическое развитие.***



***Nargiz Fikrat Huseynova***
***Ph.D-student, ACU***
***karimli_nargiz@mail.ru***


## The role of Heydar Aliyev in the development of industrial cluster in Azerbaijan


***Summary***

During his rule from 1993 to 2003, national leader Heydar Aliyev had a significant impact on the country's economic development. The visionary policies of Aliyev, who is frequently referred

to as the "architect of modern Azerbaijan," provided the framework for the growth of industry groups in the nation. This article goes into great detail about Heydar Aliyev's part in the development and expansion of industrial clusters in Azerbaijan as well as how his leadership influenced the economic development of the nation.

***Key words: National leader Heydar Aliyev, industrial cluster, economic development.***

**UOT: 33:338**

***Zaur Ədalət oğlu ƏSƏDZADƏ***
***Azərbaycan Kooperasiya Universiteti, doktorant***
***Email.: zaur.esedzade.1130@gmail.com***

## HEYDƏR ƏLİYEV- MÜASİR AZƏRBAYCANIN UĞURLARININ BANİSİ

***Xülasə***

Məqalədə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı və təmin olunan inkişaf dinamikası tədqiq edilir. Azərbaycanın iqtisadi uğurları bir neçə mərhələyə bölünərək təhlil olunur. Məqalədə Əsrin müqaviləsi, TRASECA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan xəttinin istifadəyə verilməsi və s. layihələrdən geniş bəhs olunur. Müəllif İlham Əliyevin hakimiyyəti illərini də ətraflı təhlil etmiş, əldə edilən iqtisadi uğurların ordu quruculuğu, kadr hazırlığı sahələrinə təsirlərini qeyd etmişdir. Müəllifin fikrincə, iqtisadi uğurlar beynəlxalq aləmdə həqiqətlərin təbliği istiqamətində də genişmiqyaslı təbliğata şərait yaratdı. Həyata keçirilən "Xocalıya ədalət" və digər kampaniyalar nəticəsində dünya ictimaiyyəti həqiqələt barədə məlumatlandırıldı. Nəticədə, iqtisadi və siyasi sahədə əldə edilən davamlı uğurlar hərbi uğura – Zəfərə gətirib çıxardı. Şərqi Zəngəzur isə Vətən müharibəsində əldə edilən qələbə ilə azad edilib. Bütün bunlara əsaslanan müəllif, Şərqi Zəngəzurun uğurla həyata keçirilən Heydər Əliyev strategiyasının məntiqi davamı olduğunu qeyd edir.

***Açar sözlər: Ümummilli lider, Şərqi Zəngəzur, Əsrin müqaviləsi, Böyük İpək Yolu, Bakı-Tbilisi-Ceyhan, Vətən müharibəsi, Zəfər və s.***

***

"Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı. Müharibə dayandırıldı, vətəndaş qarşıdurmasına son qoyuldu, qeyri-qanuni silahlı dəstələr tərksilah olundu, qayda-qanun yaradıldı".

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün də təcili tədbirlər görməyə başladı. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz, həyata keçirilən ardıcıl tədbirlər nəticəsində, dinamik iqtisadi artım təmin edilmiş, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb edilmiş investisiyaların həcmi milyardlarla manat çoxalmış və ən əsası investisiya qoyuluşlarında aparıcı mövqeyə yerli maliyyə mənbələri çıxmışlar. Başqa sözlə desək, bu müddət ərzində investisiya qoyuluşlarının əsas hissəsi yerli vəsaitlərin payına düşür.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin xalqımız, müstəqilliyimiz üçün tarixi əhəmiyyət kəsb edən xidmətləri minlərlədir. Bütün bunlar isə, ulu öndərin xidmətlərinin heç də onun işlədiyi vəzifələrdən deyil, özünün malik olduğu yüksək insani keyfiyyətlərə, polad iradəyə, zəngin dünya görüşünə malik, millətini və dövlətini hər şeydən üstün tutmağı bacaran bir insanın vətəninə və millətinə olan sevgisindən irəli gələn bir tələbat idi.

Aparılan araşdırma və təhlillərin əsasında dövlət müstəqilliyinin bərpasından sonrakı iqtisadi inkişaf dövrünü şərti olaraq 3 mərhələyə ayırmaq olar: müstəqilliyin ilk illərindən 1994-cü ilə qədər Azərbaycan iqtisadiyyatında tənəzzül hökm sürmüş, 1995-ci ildən başlayaraq 2003-cü ilə qədər ölkə iqtisadiyyatında stabillik və dinamik inkişaf müşahidə olunmuş, 2003-cü ildən sonrakı illərdə isə ölkə iqtisadiyyatında davamlı inkişaf dövrü başlamışdır.

Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyinin ilk illəri olduqca mürəkkəb şəraitə təsadüf edirdi. Vətəndaş müharibəsi təhlükəsi, iqtisadi çətinliklər, günü-gündən ağırlaşan sosial-iqtisadi vəziyyət, işğalçı Ermənistanın müharibə təhrikləri və s. mürəkkəb bir şərait formalaşdırmışdır. Bütün bunların fonunda, ümummilli lider çox böyük məharətlə neft strategiyasını işləyib hazırladı. Ulu öndər H.Əliyev böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu sahədə ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendi dəqiqliklə qiymətləndirə bilirdi.

Məhz belə bir şəraitdə, dünyanın söz sahibi olan ölkələrin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı və nəhayət 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Vaxtilə "Neft daşları"nın salınması Azərbaycanı Xəzərin söz sahibi etmişdirsə, ümummilli lider Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" də müstəqil Azərbaycanı dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi. Artıq, Azərbaycan dünya dövlətlərinin marağında olan, Avroatlantik məkanın enerji təminatı və təhlükəsizliyində aparıcı mövqeyə malik bir dövlət idi.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının yeni bir mərhələsi isə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsinin reallaşdırılması oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri, xəyal adlandırdıqları BTC 2006-cı ildə işə salındı. BTC-nin açılışında bp şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq qeyd etdi ki, "BTC-nin fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın enerji xəritəsini dəyişən BTC yox, onun yaradıcısı, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev oldu [1, s.148-162; 5].

Ümummilli lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzuolunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasının vacib olduğunu qeyd edir və buna səy göstərirdi.

Heydər Əliyev bütün sahələrdə xalqımızın milli maraqlarının təmin olunması üçün vargücü ilə çalışırdı. O, müstəqil dövlətçilik konsepsiyasının uğurlarını təmin edən dövlət xadimi kimi əbədilik qazanmış böyük bir şəxsiyyətdir. Heydər Əliyevin yürütdüyü iqtisadi siyasət həm sosial ədalətə, həm də iqtisadiyyat prinsiplərinə əsaslanırdı, elə buna görə də Azərbaycanda islahatların uğurlu təməlinin qoyulması milli inkişaf modelini təkmilləşdirdi. Heydər Əliyev fenomeni çoxminillik dövlətçilik tariximizdə xüsusi bir hadisədir. O, həm dövlətçilikdə, həm də siyasi idarəetmədə novator idi, müəyyənləşdirdiyi sosial-iqtisadi strategiyası onun Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə respublikanı parlaq zirvələrə qaldırmışdı. Nəhəng sovet dövlətində ali rəhbər vəzifədə təmsil olunması onun yenilməz iradəsini və işıqlı zəkasını təcəssüm etdirirdi.

Ümummilli lider yaradıcı, gərgin əməyi, strateji mükəmməlliyi, iqtisadi islahatlar və demokratik cəmiyyət uğrunda apardığı mübarizələr nəticəsində müstəqilliyimizin əbədi, dönməz xarakter almasına nail oldu. Ulu öndər Azərbaycanın uğurlarının təminatçısı olaraq inteqrasiya prosesini sürətləndirdi, dünyanın qabaqcıl ölkələri ilə əlaqələrin qurulmasına rəhbərlik etdi. Onun məqsədyönlü siyasəti ilə Azərbaycanın neft sənayesi, xarici dövlətlərlə iqtisadi münasibətləri, nəqliyyat sahəsi də daxil olmaqla, bir sıra başqa sahələri qüdrətləndi, eləcə də ölkəmizin başqa ölkələrlə iqtisadi əlaqələrinin su, hava və dəmir yolları vasitəsilə möhkəmlənməsi üçün Azərbaycan nəqliyyatının bütün sahələri yenidən bərpa olundu, inkişaf etdirildi. Tarixi Böyük İpək Yolunun bərpa olunması sahəsində TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramının yaradılmasına təşəbbüs göstərən 8 ölkədən biri Azərbaycan oldu ki, bu da Mərkəzi Asiyadan Qara dənizə və oradan da Avropaya çıxan nəqliyyat marşrutunun yenidən qurulması demək idi [2, s.168-179; 5].

Bütün bunların Azərbaycan üçün çox mühüm olduğunu bilən böyük liderin təşəbbüsü ilə 1998-

ci ilin 7-8 sentyabrında Bakıda 9 ölkənin (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Həmin konfransda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalandı. Bakı Bəyannaməsi qəbul edildi, saziş imzalandıqdan sonra bir çox sahələrdə canlanma hiss olunmağa başladı [5].

İqtisadiyyatın davamlı və dinamik inkişafı, sosial-iqtisadi konsepsiyalar, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşməsi və Heydər Əliyevin gərgin əməyi ölkəmizi uğurlu nailiyyətlərə aparırdı. Heydər Əliyev hər zaman etibarlı nəqliyyat sisteminin inkişafı, milli yol sisteminin dünya kommunikasiyası məkanına sürətli inteqrasiyası üçün xüsusi diqqət ayırırdı. Məqsədyönlü və sistemli tədbirlər nəqliyyat-kommunikasiya xətlərinin, eləcə də ölkəmizdə beynəlxalq tranzit dəhlizlərin və yolların yenidən qurulmasına, onlardan respublikamızın maraqları naminə istifadə olunmasına xidmət edirdi.

Ulu öndərin müəyyən etdiyi xarici siyasət konsepsiyasının əsas prioritetlərindən birini də Qərbə inteqrasiya, Avropanın nüfuzlu beynəlxalq qurumları ilə birlikdə mühüm layihələrə qoşularaq ölkəmizin iqtisadi potensialını yüksəltməklə xalqımızın sosial vəziyyətinin və maddi rifah halının yaxşılaşdırılmasına nail olmaq təşkil edirdi. Məhz bu səbəblə ümummilli lider Heydər Əliyev İpək Yolunun bərpasına xüsusi diqqət ayırmış və yolun əhəmiyyəti haqqında qeyd etmişdir ki: "İpək Yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. "İpək Yolu" keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır" (1998-ci il sentyabrın 7-də Bakıda keçirilmiş Böyük İpək Yolunun bərpasına həsr olunmuş Beynəlxalq Konfransın materiallarından) [3, s.127-153; 5].

Ulu öndər Heydər Əliyevin İpək Yoluna verdiyi böyük önəm belə bir qənaətə gəlməyə əsas verir ki, dünya dövlətləri arasında strateji mahiyyət daşıyan beynəlxalq münasibətlərin yaranması və onun qlobal inkişaf səviyyəsinə qaldırılması hər bir ölkə üçün prioritetdir. Həmin siyasi missiyanın yerinə yetirilməsi üçünsə bir çox vasitələrdən istifadə olunmuşdur ki, bunlardan da ən qədim tarixə malik olan xarici ticarət əlaqələrini xüsusilə qeyd etmək lazımdır. Çox vaxt siyasi mahiyyəti tam aydın olmayan həmin xarici əlaqələrin dövlətlərarası beynəlxalq münasibətlərdə müstəsna əhəmiyyət kəsb etməsi istər əvvəllər, istərsə də müasir dövrdə real şəkildə təsdiqini tapır. Məhz bu reallıqların həyata keçirilməsində mühüm vasitələrdən biri də "İpək yolu" olmuşdur [5].

Tam qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də özündən sonra Azərbaycanı uğurla inkişaf etdirəcək, ölkəmizi dünya dövlətləri sırasında layiqli zirvələrə daşıyacaq və ötən illərdə başlanılmış böyük layihələri, genişmiqyaslı islahatları müvəffəqiyyətlə həyata keçirəcək uğurlu lideri yetişdirmək olmuşdur. Bu mənada müstəqil Azərbaycan dövlətinin 2003-cü ildən bu günə qət etdiyi inkişaf yolu, əldə etdiyi möhtəşəm nailiyyətlər bu seçimin nə qədər mühüm tarixi əhəmiyyətə malik olduğunu, Azərbaycanın davamlı inkişafı üçün ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu bir daha sübuta yetirmişdir.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ötən dövr Azərbaycan tarixinə sabitlik və davamlı inkişaf dövrü kimi daxil olmuşdur. Tarixi təcrübə göstərir ki, milli həmrəyliyə malik olan, iqtidar - xalq birliyi yüksək səviyyədə təmin edilən ölkələr qarşıya qoyulan hədəflərə müvəffəqiyyətlə çatırlar. Ölkəmizin də inkişafını fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda dövlət siyasətinin müəyyənləşməsində müasir dövrün reallıqları əsas götürülür və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ana xəttini məhz cəmiyyətin, iqtisadiyyatın davamlı inkişafı təşkil edir [6; 8; 9].

Prezident İlham Əliyev 2003-cü ildə öz vəzifəsinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" demişdi. Və ötən dövrdə öz əməli fəaliyyəti ilə xalqımızın böyük dəstək və ehtiramını qazanan dövlət başçısı hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta

yetirmişdir. Gənc dövlətin əsaslarının möhkəmliyi, həyata keçirilən strategiyanın səmərəliliyi, məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi, uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycanın əldə etdiyi genişmiqyaslı nailiyyətlər dövlət başçısının qətiyyətli, yaradıcı və milli maraqlara söykənən fəaliyyətinin nəticəsidir.

Ölkəmizin hərtərəfli inkişafı ciddi konseptual əsaslara malikdir və hər bir sahə üzrə bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış fəaliyyət proqramları həyata keçirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya mövcud olduğu halda müstəqil siyasət yeritmək mümkündür. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır və milli maraqları təmin edir. Ölkəmizin dinamik inkişafını şərtləndirən digər mühüm məsələlərdən biri də həyata keçirilən islahatların ardıcıllığının təmin olunmasıdır. Dövlət başçısı bu islahatların vacibliyini vurğulayaraq inkişaf və tərəqqinin islahatlarsız mümkün olmadığını qeyd edir: "İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk" [6; 9].

Bu dayanıqlı inkişaf nəticəsində, 2003-2021-ci illər ərzində ÜDM istehsalı 3.4 dəfə, sənaye məhsulu 2.7 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2.7 dəfə, yük daşınması 1.8 dəfə, sərnişin daşınması isə 1.3 dəfə, pərakəndə ticarət dövriyyəsi 14.6 dəfə, minimum əməkhaqqı 27.8 dəfə, xarici ticarət dövriyyəsi 6.5 dəfə, ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların ümumi həcmi 3.4 dəfə artmış, 2004-2021-ci illərdə Azərbaycanın digər ölkələrin iqtisadiyyatlarına qoyduğu investisiyaların ümumi həcmi 28.3 milyard ABŞ dolları təşkil etmişdir [3; 5; 9].

Bünövrəsi ümummilli lider tərəfindən qoyulmuş strategiyanın uğurla davam etdirilməsi Azərbaycanı qalib dövlətə çevirdi. Məhz, iqtisadi inkişaf, ordu quruculuğu, düşünülmüş xarici siyasət və s. müxtəlif sahələrdə əldə edilən davamlı uğurlar ölkəmizə regionda ədaləti bərpa etməyə şərait yaratdı. Başqa sözlə desək, Vətən müharibəsində əldə edilən tarixi Zəfər Heydər Əliyev strategiyasının məntiqi davamı idi.

Heydər Əliyev strategiyasının layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı şaxələndi. İqtisadiyyatın demək olar hər bir sektorunda nəzərəçarpacaq tərəqqi müşahidə edildi. Xüsusilə, ordu quruculuğuna önəm verilməsi, Azərbaycan ordusunun ən yeni texnoloji avadanlıqlar ilə təmin olunması ilə yanaşı arsenalın zənginləşdirilməsi, hərbi heyətin kadr hazırlığının inkişafı istiqamətində mühüm işlər görüldü. Paralel olaraq, "Mən hər bir azərbaycanlının prezidenti olacağam" devizi ilə hakimiyyətə gələn cənab İlham Əliyev dünya azərbaycanlılarını bir bayraq altında birləşdirdi. Dünyanın hansı ölkəsində olmasından asılı olmayaraq azərbaycanlıların hər birinin qəlbi Azərbaycan ilə döyünməyə başladı.

Qarabağ həqiqətlərinin, dünya ictimaiyyətinə çatdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirildi. Saysız-hesabsız görüşlərin, tədbirlərin həyata keçirilməsi bu sahədə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyası dünya dövlətlərinə həqiqəti bəyan etdi, 20-yə yaxın dövlət Xocalı faciəsini soyqırımı kimi tanıdı. Dövlət başçısının rəhbərliyi ilə ölkədə savadlı və vətənpərvər gənclərin yetişdirilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini 30 il düşmən tapdağında qalan Qarabağın işğaldan azad edilməsilə verdi. Qarabağın düşmən tapdağından azad edilməsi ümummilli liderin nəsihəti və Heydər Əliyev strategiyasının məntiqi davamı idi [5; 8].

Bu gün işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq və bərpa işləri görülür. Bu ərazilər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təmsil olunur ki, hər bir iqtisadi rayonun da özünəməxsus inkişaf potensialı və perspektivləri mövcuddur. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını özündə birləşdirən Şərqi Zəngəzur, xüsusilə dağ-mədən sənayesinin, aqrar və turizm sektorlarının inkişafı üçün zəngin potensial imkana malikdir. Bünövrəsi ulu öndər tərəfindən qoyulmuş strategiyanın məntiqi davamı olan Şərqi Zəngəzur yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatı və ÜDM-də mühüm payı təmin edəcəkdir. İqtisadi rayonda aparılan işlər və rayonun potensial imkanları buna tam əsas verir [8; 10].

Bütün istiqamətlərdə sürətlə inkişaf edən Azərbaycan ordu quruculuğu, müasir silahların alın-

ması, hərbi və mülki kadr hazırlığı sahəsində də önəmli addımlar atırdı. Əldə olunan iqtisadi uğurlara söykənən bu addımlar, tədricən öz bəhrəsini verməyə başladı. İstər ordu quruculuğu, istərsə də ordunun təminatında bu özünü aydın şəkildə büruzə verirdi.

Nəhayət, Azərbaycan Respublikasının silahlı qüvvələri Ermənistanın işğalçı qüvvələrinin davamlı təxribatlarına cavab olaraq 27 sentyabr 2020-ci ildə əks-hücuma keçdi. Cəmi 44 gün ərzində BMT-nin Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsinə dair müvafiq qətnamələrini təkbaşına icra edərək, haqq-ədaləti bərpa etdi. 30 ilə yaxın müddətdə işğalçı Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlar azad olundu.

10 noyabr 2020-ci ildə Azərbaycan ordusu qarşısında dayana bilməyən işğalçı Ermənistan dövləti kapitulyasiya aktını imzalamağa məcbur oldu. Nəticədə, müharibənin dayandırılmasına, işğal altında qalan torpaqların erməni silahlı qüvvələrindən boşaldılmasına, regionda kommunikasiyaların (nəqliyyat əlaqələrinin) açılmasına dair razılaşma əldə edildi. Hansı ki, istər regionun, istərsə də dünyanın, Avropanın marağında olan, uzunmüddətli inkişaf üçün zəngin perspektivlər vəd edən nəqliyyat əlaqələrindən (layihələrindən) biri də Zəngəzur dəhlizidir. Artıq Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində Şərqi Zəngəzur azad edilib. Bu isə, əvvəldə də qeyd edildiyi kimi, mərhələ-mərhələ əldə olunan siyasi-iqtisadi uğurların məntiqi nəticəsidir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Elektron Sənədlər Toplusu. Məqalələr (2016-2020-ci illər), 1322 səh.;
2. Alıyev İ.H., Hüseynov S.Y. və b. “Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf”. Bakı, “Avropa” nəşriyyatı, 2013, 475 səh.;
3. Əsədov A.M. “Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri”. Bakı, “Avropa” nəşr., 2013, 400 səh.;
4. Axundova Ü. “Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasını təşkil edir”. Yeni Azərbaycan qəzeti, 24.04.2021.
5. Əsədov A.M. “Heydər Əliyev və Azərbaycanın nəqliyyat strategiyası”. 15.02.2023, https://azertag.az/xeber/Heyder_Aliyev_ve_Azerbaycanin_neqliyyat_strategiyasi_maqala-2490545;
6. Qafarov K. “Ölkəmizin uğurları Heydər Əliyev strategiyasının təntənəsidir”. https://marja.az/87301/olkemizin-ugurlari-heyder-eliyev-strategiyasinin-tentenesidir
7. Novruzov V., Allahverdiyev H. Və b. “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı”. Bakı, Azərnəşr, 1998, 388 səh.;
8. Hacızadə Y. “Zəfərə aparan yol”. https://azertag.az/xeber/Zefere_aparan_yol-1923424;
9. https://ikisahil.az/post/vetendash-memnunlugunun-artirilmasi-gunumuzun-esas-chagirishlarindandir
10. https://zefer.az/az



***Заур Адалат оглы Асадзаде***
***Азербайджанский Университет Коперации, докторант***
***e-почта: zaur.esedzade.1130@gmail.com***


## Гейдар Алиев – основоположник успеха современного Азербайджана

### *Резюме*


В статье рассматривается возвращение к власти общенационального лидера Гейдара Алиева и динамика развития. Экономические успехи Азербайджана анализируются, разделяя их на несколько этапов. В статье Контракт Века, программа ТРАСЕКА, восстановление Великого Шелкового Пути, ввод в эксплуатацию линии Баку-Тбилиси-Джейхан и др. проекты широко обсуждаются. Автор также подробно проанализировал годы правления Ильхама Алиева, отметил влияние достигнутых экономических успехов на области армейского строительства и подготовки кадров. По мнению автора, экономические успехи создали условия для широкомасштабной пропаганды в направлении распространения истин в меж-

дународном мире. В результате “Справедливость Ходжалам” и других компаний мировая общественность была доведена до истины. В итоге непрерывный успех в экономической и политической сферах привел к успеху военному - Победе. С победой в Отечественной войне был освобожден Восточный Зангезур. На основании всего этого автор отмечает, что Восточный Зангезур является логическим продолжением успешно реализованной стратегии Гейдара Алиева.
***Ключевые слова: Общенациональный лидер, Восточный Зангезур, Контракт века, Великий шелковый путь, Баку-Тбилиси-Джейхан, Отечественная война, Победа и др.***

***Zaur Adalat Asadzade***
***Azerbaijan Cooperation University, doctoral student***
***Email: zaur.esedzade.1130@gmail.com***

**Heydar Aliyev - the founder of the success of modern Azerbaijan**

***Summary***

The article examines the return to power of national leader Heydar Aliyev and the dynamics of development. Azerbaijan's economic successes are analyzed by dividing them into several stages. In the article, the contract of the century, the TRASECA program, the restoration of the Great Silk Road, the commissioning of the Baku-Tbilisi-Ceyhan line etc. projects are widely discussed. The author also analyzed the years of Ilham Aliyev's rule in detail, noted the effects of the achieved economic successes on the areas of army building and personnel training. According to the author, economic success created conditions for large-scale propaganda in the direction of the propagation of truths in the international world. As a result of “Justice to Khojaly” and other companies, the world community was informed about the truth. As a result, continuous success in the economic and political spheres led to military success - Victory. Eastern Zangezur was liberated with the victory achieved in the Patriotic War. Based on all this, the author notes that Eastern Zangezur is a logical continuation of Heydar Aliyev's successfully implemented strategy.
***Key words: National leader, Eastern Zangezur, Contract of the Century, Great Silk Road, Baku-Tbilisi-Ceyhan, Patriotic War, triumph, etc.***

**UOT: 338.36**

***Nuridə Əliş qızı QASIMOVA***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***
***e-mail: nurida.qasimova1971@gmail.com***

## AZƏRBAYCANDA ÇAY İSTEHSALININ İNKİŞAF DÖVRÜ

***Xülasə***

Məqalədə xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəyə başçılıq etdyi dövrlərdə kənd təsərrüfatında apardığı islahatlar nəticəsində çayçılığın və sitrus meyvələrinin inkişafında göstərdiyi xidmətlər işıqlandırılmışdır. Ulu öndərin rəhbərliyi ilə imzalanan qanun və sərəncamlar, habelə aparılan islahatlar nəticəsində çayçılığın təşkilinin, çay istehsalının, emalının və dövriyyəsinin tənzimlənməsinin, habelə çay məhsullarının keyfiyyətinin yüksəldilməsi təmin edildi.
***Açar sözlər: kənd təsərrüfatı, islahat, aqrar, istehsal, investisiya, rəqabət.***

***

Ümummilli lider Heydər Əliyev öz misilsiz xidmətləri, dünyaşöhrətli fəaliyyətləri ilə Azərbaycan xalqının payına düşən ən dəyərli mükafatdır. Heydər Əliyevin hər kəsə nümunə olan həyat yolu, siyasi baxışları, zəngin dünyagrüşü ilə dövlətçilik ənənələrini yaşatmağa və inkişaf etdirməyə qadir bir şəxsiyyət olması danılmaz faktdır. Müstəqil Azərbaycan dövlətinin yaradılmasında, onun sosial-iqtisadi həyatının inkişaf etdirilməsində, ölkədə aparılan bir sıra islahatların yerinə

yetirilməsində ən mühüm aparıcı lider olmuşdur.

Ulu öndər Heydər Əliyev çətin və məsuliyyətli bir dövrdə Azərbaycan müstəqilliyinin mövcudluğunu bərpa etmək kimi ağır bir missiyanı üzərinə götürmüş və layiqincə bu vəzifənin öhdəsindən gəlmişdir. Heydər Əliyev siyasi hakimiyyətə gəldiyi həm sovetlər dönəmində və həm də ikinci dövr olan Azərbaycanın müstəqilliyi dövründə vətənə, xalqa, torpağa hədsiz bağlılığını, sosial-iqtisadi quruculuq əzmini, milli ideyalara sadiqliyini ən müqəddəs vəzifə kimi qarşısına qoymuşdur.

1969-cu il iyul ayının 14-də Heydər Əlirza oğlu Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən sonra respublikanın kənd təsərrüfatında köklü dəyişikliklərə təkan verildi. Azərbaycan KP MK–nın həmin ilin avqust ayında keçirilən plenumunda Heydər Əliyev məruzə etmişdi. O, çıxışında kənd təsərrüfatının respublikanın iqtisadi inkişafının əsas istiqamətlərindən biri olduğunu vurğulamışdı.

Heydər Əliyev pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük və çayçılıq sahələrində işlərin vəziyyətini hərtərəfli təhlil edib, kənd təsərrüfatının bu sahələrində mövcud nöqsanları və səhvləri göstərmiş, imkanları müəyyən etmiş, kənd təsərrüfatında məhsuldarlığın artırılmasının konkret yollarını təklif etmişdir. Respublikanın rəhbəri həmin plenumda yüksək məhsuldarlıqlı, xəstəliyə davamlı yerli bitki sortları yaratmağa imkan verən aqrar elmin nailiyyətlərinə, toxumculuq təsərrüfatlarının inkişafına, damazlıq təsərrüfatlarının işinin yaxşılaşdırılmasına və məhsuldar heyvanlar yetişdirilməsi məsələlərinə böyük diqqət yetirmişdir. Aqrar sahədə çalışan alimlərin qarşısında dənli bitkilər, pambıq, tərəvəz, meyvə və başqa məhsulların yetişdirilməsi, becərilməsi ilə əlaqədar mütərəqqi texnologiyaların işlənib hazırlanması və tətbiqi üzrə vəzifələr qoyulmuşdu.

Ümummilli lider Heydər Əliyev sovetlər dönəmində respublikaya rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi aqrar sahədə də bir sıra islahatlar aparılmasına nail oldu və aparılan bu islahatlar nəticəsində ölkədə aqrar sahə gəlirli sahələrdən birinə çevrilmişdi. Əsası ulu öndər tərəfindən qoyulan aqrar siyasət nəticəsində respublikanın kənd təsərrüfatı sovetlər birliyinin iqtisadiyyatında həmin dövrdə xüsusi yer tutmuşdu.

Təbii iqlim şəraitinə görə Azərbaycan Respublikasının ərazisi isti, quru və subtropik iqlim növünə malikdir. Subtropik iqlim şəraiti ölkəmizin ümumi sahəsinin 65 %-ni təşkil edir ki, bu da ölkədə sutropik bitkiçiliyin inkişaf etdirilməsi üçün zəmin yaradırdı.

Azərbaycanda ilk dəfə olaraq XIX əsrin sonlarında çay bitkisi əkilmiş, 1929-cu ildən çayın elmi əsaslarla becərilməsinə, 1932-ci ildən isə sənaye miqyaslı plantasiyaların salınmasına başlanılmışdır.

Respublikamızda subtropik bitkiçiliyin, o cümlədən çayçılığın inkişaf tarixinə nəzər saldıqda subtropik təsərrüfatların yüksək templə inkişaf mərhələsi ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrü - 1970-1980-ci illəri əhatə edir. Belə ki, Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 29 aprel 1972-ci il tarixli birgə qərarı respublikada çayçılığın ixtisaslaşmasına və intensivləşdirilməsinə yönəlmişdi.

Respublikamızda çayçılığın inkişaf perspektivlərinə nəzər salsaq görərik ki, çayçılıq Azərbaycanda ənənəvi və gəlirli sahələrdən biridir. Sovetlər dönəmində respublikaya rəhbərlik etdiyi dövr ərzində ümummilli lider Heydər Əliyevin bu sahəyə diqqət və qayğısı nəticəsində Azərbaycanda subtropik bitkiçiliyin, o cümlədən çayçılığın sənaye miqyasında inkişafı başlanmışdı. Həmin dövrdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çay istehsalı 1980-ci ildən başlayaraq inkişaf etmiş, 1988-ci ildə isə maksimum səviyyəyə çatmışdı. O vaxt respublikada çay istehsalı 34,5 min ton, çay plantasiyalarının sahəsi isə 13,2 min hektar olmuşdur. Çay əkinlərinin maksimum sahəsi isə 1985-ci ildə 13,4 min hektara çatdırılmışdı.

O dövrdə əhalisinin sayı 300 milyon olan SSRİ-nin çaya olan tələbatının 8-10 faizi Azərbaycan çayı hesabına ödənilirdi. Sovet dövründə Azərbaycanın cənub bölgəsində çay emalı ilə məşğul olan 10-dan çox fabrik fəaliyyət göstərirdi. Bakıda və Lənkəranda çay qablaşdıran iki nəhəng fabrik var idi ki, bu müəssisələrdə də minlərlə işçi çalışırdı.

"Milli liderimiz Heydər Əliyevin təşəbbüsü, qayğısı ilə Azərbaycanda çayçılığın intensivləşdirilməsi hesabına çay becərilməsi və çayçılıq sənayesi kənd təsərrüfatının daimi gəlirli sahəsinə

çevrilmişdir. Ölkədə çay plantasiyalarının 13,4 min hektara çatdırılması, çay yarpağı istehsalının isə ildə 34 min tonu ötməsi, bundan da 8,5 min ton keyfiyyətli Azərbaycan çayı əldə edilməsi mümkün olmuşdur. Eyni zamanda çay yarpağı emal edən 14 və çay çəkib–bükən 2 fabrikin tikilməsi, ildə 45 min ton yaşıl çay yarpağı emal olunması üçün imkan yaratmışdır. Bununla yanaşı, çay yarpağı istehsalının səmərəliliyi 64% və əldə edilən gəlir isə 16 milyon manatı ötmüşdür. Çay emal edən fabriklər isə Azərbaycan çayı istehsalından 52 milyon manatlıq dəyərində məhsul buraxılışına nail olmuşdur. Həmin dövrdə manatın dollara olan nisbətini, təxminən 70 qəpiyin 1 dollara bərabər olmasını nəzərə alsaq, çayçılığın ölkəyə nə qədər gəlir gətirdiyi aydın görünər. Çay becərmə və çay emalı ilə bölgədə 65-70 min adam məşğul idi və ölkə əhalisinin çaya olan tələbatının 65-70%-i yerli çay istehsalı hesabına (7,5-8,5 min ton) ödənilirdi" [7. s, 5]

Ulu öndər Heydər Əliyev sovet dönəmində ölkəyə rəhbərlik etdiyi dövrdə çayçılıqda emal sənayesinin inkişaf etdirilməsinə də xüsusi qayğı göstərmişdir. Lənkəran-Astara iqtisadi rayonunda çayçılığın ixtisaslaşması onu kənd təsərrüfatının ən gəlirli sahələrindən birinə çevirmişdi.

XX əsrin 90-cı illərində Azərbaycan müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatında böhran vəziyyəti yarandı. Demək olar ki, kənd təsərrüfatının bütün ixtisaslaşmış sahələrində, eləcə də çayçılıqda tənəzzüllər baş verdi.

Bazar iqtisadiyyatına keçid ərəfəsində çay becərilməsi və emalı ilə məşğul olan fermerlərin maddi-texniki və təşkilati cəhətdən üzləşdiyi çətinliklər bu sahənin tənəzzülü ilə nəticələndi, 2016-cı ildə respublikada çay əkinlərinin ümumi sahəsi 1016 hektar olmuşdur. Bu isə 1985-ci illə müqayisədə 13,1 dəfə azdır. Bununla belə, çayçılıq sahəsinin inkişafında müəyyən irəliləyişlər də olmuşdur. Belə ki, 2016-cı ildə Astarada 7 hektar, Masallıda 3 hektar, Lənkəranda 2 hektar olmaqla, yeni çay plantasiyaları salınmışdı.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra 90-cı illərin əvvəlində başlayan tənəzzülün qarşısı alındı. Onun səyi və iştirakçılığı ilə kənd təsərrüftında aparılan islahatlar aqrar sahədə dönüş yaratmağa başladı. Heydər Əliyev hər zaman aqrar islahatların vacibliyini xüsusi vurğulayaraq deyirdi: "Aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm, eyni zamanda son dərəcə əhəmiyyətli, məsuliyyətli və taleyüklü məsələdir" [5, s. 26].

1993-2003-cü illərdə Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar ilə qanuniləşdirilən aqrar siyasətin nəticəsi ölkəmizdə aqrar sahənin inkişafında inqilabi dəyişikliklərin baş verməsinə səbəb oldu.

Aqrar sahədə sıçrayışlı dəyişikliklərin başlanmasına start verən bu qərarlardan birinciləri 1995–ci il fevralın 18–də qəbul edilmiş "Sovxoz və kolxozların islahatı haqqında" və "Aqrar islahatın əsasları haqqında" qanunlardır.

Qəbul edilən qanunlarda respublikanın kənd təsərrüfatını böhran vəziyyətindən çıxarmaq üçün mövcud olan böyük istehsal və iqtisadi potensialdan səmərəli istifadə edilməsi, kənd təsərrüfatının spesifik xüsusiyyətlərini nəzərə almaqla iqtisadi mexanizmin təkmilləşdirilməsi məsələləri nəzərdə tutulmuşdu. Bunun üçün aqrar bölmənin bazar münasibətlərinə keçilməsi əsas istiqamət götürülməklə, köklü islahatların həyata keçirilməsi, müxtəlif təsərrüfat formalarının təşkili və mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, çevik qiymət, vergi və kredit siyasəti yeridilməsi, əkinçilik və heyvandarlığın dünya təcrübəsinin nailiyyətləri və elmi əsaslarla inkişaf etdirilməsi, idarəetmədə iqtisadi amillərə üstünlük verilməsi vacib idi.

Respublikamızda aqrar islahatların hüquqi bazasının yaradılmasında, onun təşkili və həyata keçirilməsində misilsiz xidmət göstərərək ümummilli lider Heydər Əliyev bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin həm banisi, həm də təşkilatçısı olduğunu bir daha sübut etmişdi.

Heydər Əliyevin rəhbərliyi ilə 17 dekabr 2002-ci ildə "Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdu. Bu qanun çayçılığın təşkilinin, çay istehsalının, emalının və dövriyyəsinin tənzimlənməsinin, habelə çay məhsullarının keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edirdi [3].

Qanunun 7.1-ci bəndində göstərilir: " Çayçılığın inkişafı üzrə dövlət proqramı çaya yararlı torpaqların təyinatı üzrə istifadə edilməsini, yeni çay plantasiyalarının salınmasının, mövcud çay

plantasiyalarının bərpasını, çay tingliklərinin salınmasını və çay əkini materiallarının yetişdirilməsini, çayçılıq zonasında suvarma sistemlərinin və istehsalın digər infrastruktur sahələrinin bərpasını və inkişafını, çayçılığın elmi təminatının yaxşılaşdırılmasını, çay məhsullarının istehsalının və keyfiyyətinin yüksəldilməsini, ixracının artırılmasını, habelə bu işlərin həyata keçirilməsi üçün maliyyə mənbələrinin müəyyən edilməsi və çayçılıq sahəsinə investisiyanın cəlb olunması tədbirlərini nəzərdə tutur" [3].

"Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ölkədə, xüsusən Lənkəran iqtisadi rayonunda çayçılığın inkişafı, çay plantasiyalarının genişləndirilməsi, çay məhsulları istehsalı və keyfiyyətinin yüksəlməsi üçün əlverişli mühit yaratmışdır.

Aparılan elmi araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşməklə ölkədə 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqlarının mövcud vəziyyəti çay bitkisinin becərilməsinə imkan verir.

Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsinə xidmət edən aqrar islahatların həyata keçirilməsinin ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün ölkə başçımız Cənab İlham Əliyev tərəfindən böyük əzmkarlıqla və uğurla davam etdirilir.

Müasir dövrümüzdə Prezident İlham Əliyevin ulu öndərin qoyduğu ənənəyə sadiq qalaraq, aqrar sahəyə göstərdiyi daimi diqqət və qayğı, eyni zamanda imzaladığı fərman və sərəncamlar nəticəsində kənd təsərrüfatının bütün sahələri inkişaf edir, köklü dəyişikliklər baş verir, ölkədə sosial-iqtisadi potensialın formalaşdırılması üçün məqsədyönlü tədbirlərin icrası həyata keçirilir.

Çayçılıq Azərbaycanın kənd təsərrüfatının ən gəlirli sahələrindən biri olduğuna görə, vaxtilə respublikamız İttifaq dönəmində Gürcüstandan sonra ikinci çay istehsalı bazası hesab olunurdu.

Hazırda Lənkəran-Astara zonasında çay əkininə yararlı 25 min hektar torpaq sahəsi müəyyən edilmişdir. Ölkədə çayçılığın inkişafına dövlət dəstəyinin artırılması, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və çay istehsalı ilə məşğul olan əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" 12 fevral 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Dövlət Proqramının icrası nəticəsində 2027-ci ilədək çay əkini sahələrinin 3000 hektara, yaşıl çay yarpağı yığımının 8,5 min tona çatdırılması nəzərdə tutulur [2].

Bu gün Azərbaycan çayının ən böyük ixracatçısı Rusiya və Gürcüstandır. Bundan başqa Azərbaycan çayı "Made in Azerbaijan" brendi altında Almaniya, ABŞ, BƏƏ, İngiltərə, Əfqanıstan, İran, İsveç, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya, Qazaxıstan və Ukraynaya da ixrac olunur.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublkasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı.
2. "Azərbycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamı.
3. "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanunu (17 dekabr 2002) https://e-qanun.az/framework/5525.
4. Əhmədov İ.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı, 2006, 880 s.
5. Əliyev İ.N. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. I kitab, Bakı, 1997, 152 s.
6. Ə.Ə.Hacıyev. Aqrar-sənaye kompleksinin iqtisadiyyatı. "Təhsil" EİM, Bakı-2006, 334 s.
7. Fərman Quliyev, Cəlal Məmmədov, Fərman Abdullayev. Azərbaycanda çayın becərilməsinin elmi-praktik əsasları. Bakı, 2012, 336 s.

*Нурида Алиш кызы Гасимова*
*Докторант Азербайджанского Университета Кооперации*
*e-mail: nurida.qasimova1971@gmail.com*

**Период развития производства чая в Азербайджане**

*Резюме*

В статье освещаются заслуги общенационального лидера нашего народа Гейдара Алиева в развитии чая и цитрусовых в результате реформ в сельском хозяйстве в период его руководства страной. В результате законов и указов, подписанных под руководством великого лидера, а также проведенных реформ организация выращивания чая, регулирование производства, обработки и оборота чая, а также улучшение качества были обеспечены чайные продукты.

***Ключевые слова: сельское хозяйство, реформа, аграрный, производство, инвестиции, конкуренция.***

*Nurida Alish Gasimova*
*Ph.D. student of Azerbaijan University of Cooperation*
*e-mail: nurida.qasimova1971@gmail.com*

**Development period of tea production in Azerbaijan**

*Summary*

In the article, the services rendered by the national leader of our people Heydar Aliyev in the development of tea and citrus fruits as a result of reforms in agriculture during his leadership of the country are highlighted. As a result of the laws and decrees signed under the leadership of the great leader, as well as the reforms carried out, the organization of tea cultivdtion, the regulation of tea production, Processing and circulation, as well as the improvement of the quality of tea production, processing and.

***Key words: agriculture, reform, agrarian, production, investment, competition.***

**UOT 336.71**

*Murad Bəylər oğlu MEHDİYEV*
*doktorant, Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: muradmehdiyev13@gmail.com*

## AVROPA İTTİFAQINDA MƏRKƏZİ BANKIN FƏALİYYƏTİ VƏ DAYANIQLI İQTİSADİ İNKİŞAF

*Xülasə*

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" deyən Ulu öndər Heydər Əliyev qısa müddət ərzində Azərbaycan iqtisadiyyatının dünya ölkələrinin, o cümlədən də Avropa ölkələrinin iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək məqsədini müəyyən etmişdir, bunun üçün bank kreditlərini cəlb edərək beynəlxalq əhəmiyyətli layihələrin reallaşma imkanlarını sürətləndirdi. Azərbaycanda müasir bank sisteminin formalaşmasının əsası qoyulmuşdur. Lakin bu sistemin Avropa Bank sisteminin təcrübəsinə əsasən təkmilləşdirilməsi zərurəti yaranmışdır. Bu baxımdan Avropa Birliyi (AB) ölkələri arasında bank sisteminin formalaşmasının unikal inteqrasiya təcrübəsi tədqiq olunmuşdur. AB ölkələri maliyyə xidmətlərinin tənzimlənməsi və institusional inteqrasiya məsələlərini həll etməklə suveren dövlətlər üçün daxili bazarda özünəməxsus bank fəaliyyətləri mexanizmləri formalaşdırmışlar. Sülh, təhlükəsizlik, maliyyə sabitliyi, insanların firavanlığı və valyuta stabilliyi yaratmaq arzusu ilə bankların fəaliyyəti səmərəli idarə olunur. Avropa ölkələri iki dağıdıcı dünya müharibəsindən sonra öz vətəndaşlarının rifah halını yüksəltmək üçün məqsədyönlü

iqtisadi sistem birliyi yaratmışlar.Avropa ölkələri dövlətlərinin suverenliyini qorumaqla bank sistemini iqtisadi cəhətdən birləşdirməyə qərar verdilər.

***Açar sözlər: Avropa Birliyi (AB), Avropa İttifaqı(Aİ), iqtisadi alət, kredit, mərkəzi bank, inteqrasiya.***

***

1952-ci ildən başlayaraq altı təsisçi üzv tərəfindən Avropa Kömür və Polad Birliyinin yaradılması həyata keçirilmişdir. Hər bir ölkənin müxtəlif fərqli iqtisadi-maliyyə siyasət sahələri sonrakı onilliklər ərzində inteqrasiya olunmuşdur. Hal-hazırda Aİ-yə 28 üzv ölkədə uyğun pul-kredit siyasəti həyata keçirilməkdədir. Aİ-nın iqtisadi proseslərində pul-kredit üzrə əsas addım ümumi valyuta olan avronun dövriyyəyə buraxılması ilə aparılmışdır. Aİ-də monetar inteqrasiya üzrə 1999-cu ildə 11 ölkə, 2001-2015-ci illərdə 8 əlavə ölkə prosesə qoşuldu. Aİ üzrə ölkə iqtisadiyyatlarının maliyyə inteqrasiyası artan ticarət inteqrasiyası ilə başlamışdır. Aİ-də 1970-ci illərin sonlarından müxtəlif maliyyə tənzimləmə təşəbbüsləri aparılmışdır. 1980-ci illərin sonundan etibarən iştirakçı Avropa dövlətləri tərəfindən ümumi kapitala nəzarət ləğv edilmişdir. Maliyyə proseslərinin ümumiləşdirilməsi zamanı iqtisadi inteqrasiya irəliləmiş, maliyyə nəzarəti və tənzimləyici tədbirlər üzrə əməkdaşlıq və pul-kredit sistemi üzrə informasiya məlumat mübadiləsi irəliləmişdir. Hətta 1999-cu ildə iqtisadi birləşmə dövlətlərarası birliyin yaradılması ilə müşayiət olunması təşkilatların maliyyə-pul nəzarəti və bank sferasında mövcud olan problemlərin həlli üçün açıq bir məntiq olmasına baxmayaraq bunun üçün iqtisadi siyasət yürüdülmüşdür [1. s. 42]. AB-də güclü maliyyə nəzarəti inteqrasiyası siyasi cəhətdən mümkün görünməsə də iqtisadi cəhətdən yaxşı nəticələr verməyə başlamışdır. Dünya maliyyə böhranının ardından məzənnə baxımından çətin vəziyyətə düşən avro bölgəsi üzrə bank sferasında olan 2007-2009-cu illər üzrə böhran avro valyuta zonasında formalaşmış olan məzənnəni qorumaq üçün avro zonasının bütövlüyü və maliyyə sabitliyinin bərpasını zəruri etmişdir. Aİ birliyinin iqtisadi məqsədləri maliyyə sahəsində son inkişafları nəzərdən keçirməkdir. Bu iqtisadi birlikdə maliyyə-kredit sistemində olan nəzarət və pul tədavül sisteminin tənzimlənməsi meyarları, onun güclü və zəif tərəflərini qiymətləndirməyə imkan verir. Bunun üçün Asiyada regional maliyyə tənzimləmə memarlığının təcrübəsindən nəticə çıxartmaqla Asiya fank fəaliyyəti ilə əməkdaşlığın ola biləcəyi yollar gücləndirilmiş və təkmilləşdirilmişdir. Bu əməkdaşlıq üzrə tərtib edilmiş sənədin əsas məqsədi Aİ-nin pul-maliyyə sferasında təkmilləşdirilmənin tətbiq edilməsidir. Aİ-nin bank fəaliyyətində nəzarət və tənzimləmə kontekstində müxtəlif tənzimləyici təşəbbüslər Avropa maliyyə institutlarını etmək üçün nəzərdə tutulmuşdur. Bu tədbirlər pul bazarlarının və kapital bazarlarının daha sabit, daha dayanıqlı və iqtisadi inkişafı dəstəkləyən olmasıdır. Aİ maliyyə tənzimləmə mərhələlərinin ilkin dövrünü artıq keçmişdir. Aİ-də bir sıra mütərəqqi bank fəaliyyəti və bank xidmətləri üzrə qanunlar formalaşdırılmışdır. AB ölkələrində filiallar vasitəsilə kredit vermək üçün lisenziyası olan banklar əksər məqsədlər üçün yerli ölkə səlahiyyətinə tabe olacaqdır. AB bank fəaliyyətində istisnalar, bank likvidliyinin tənzimlənməsi və bank fəaliyyətinə nəzarət, pul siyasəti və hesabat tələbləri üzrə III İnvestisiya Xidmətləri Direktivi (93/22/EEC, May 1993) qəbul edilmişdir. “Avropa pasportu” (sərhəd keçidində mövcud qanunvericilik maneələrinin aradan qaldırılması fəaliyyəti), investisiya bankı firmalar üçün uyğunlaşdırılmış kapital tələbləri, fond birjaları və digər tənzimlənən bazarlar üçün xüsusi müddəaları daxil etmişdir. AB-də IV Maliyyə Xidmətləri üzrə Fəaliyyət Planı (Komissiyadan məlumat COM (1999) 232, May 1999) qəbul edilmişdir. Bu hərtərəfli islahat proqramı idi. AB-ndə bank fəaliyyətində mövcud qanunvericilik sahəsində digər təşəbbüslər olmuşdur. Bu qəbul edilmiş qanunvericilik arasında: Beynəlxalq Mühasibat Uçotu Standartları haqqında Əsasnaməni (EC 1606/2002, iyul 2002)göstərmək olar. AB-də bu əsasnamənin qəbul edilməsinə və həyata keçirilməsinə digər sənəd yol açdı. Bu sənəd AB-də Beynəlxalq Maliyyə Hesabatı Standartları; o MiFID kimi tanınan Maliyyə Alətlərində Bazarlar Direktivi (2004/39/EC, aprel 2004), 1993-cü ildə İnvestisiya Xidmətləri qurulmuşdur. AB miqyasında rəqabət üçün hüquqi bazanın yaradılmasına dair Direktiv ticarət platformaları yaradılmışdır. Bu keçmiş milli fond birjasını əvəzləyən bir monopoliyadır. Avropa Birliyində ilk Kapital Tələbləri Direktivi qəbul edilmişdir. Bu direktivdə iki ayrı mətn nəzərdə tutulmuşdur, birincisi 2006/48/EC və ikincisi 2006/49/EC. Bu direktiv sənəd 2006-cı ilin iyun ayında qəbul edilmişdir. 2004-cü ildən Avropa qanunvericiliyinə

Bazel II Sazişi köçürülmüşdür. Bankların ödəniş qabiliyyəti 2009-cu ilin noyabrında qəbul edilmiş olan Direktivlə 2009/138/EC tənzimlənir.

Avropanın maliyyə mənzərəsi son bir neçə ildə kəskin şəkildə dəyişmişdir. Avropada İqtisadi və Valyuta İttifaqının (EMU) yaradılması ilə bu dəyişiklik daha da sürətlənmişdir. Bununla bərabər, EMU və avronun tətbiqi ilə Avropada maliyyə sistemində baş verən əsaslı dəyişikliklər olsa da, dövriyyədə avro ilə paralel olaraq Avropa maliyyə sisteminin transformasiyasına sair amillərin də təsir göstərəcəyini müəyyən etmək olar.Bu amilləri aşağıdakı kimi sistemləşdirmək olar:

Birincisi, Avropa iqtisadi inteqrasiya prosesi maliyyə bazarına inteqrasiya və transsərhəd əməliyyatları ilə bərabər,həm də pul bazarlarında, topdansatış bankçılıq və istiqraz bazarlarında artımın əsasını qoydu. Avropa ölkələrinin maliyyə sisteminin inteqrasiyası prosesi ilk olaraq 1987-ci ildə qəbul edilmiş olan və əmtəələr, xidmətlər, işlər və əsaslı kapital qoyuluşları üçün daxili bazarın əsasını yaradan Vahid Avropa Aktı (SEA) ilə idarə olundu. Avropa İttifaqına üzv olan dövlətlərin hamısı kapitalın liberallaşdırılması prosesinə başlamışlar. Bu prosesin birinci mərhələsi 1 iyul 1990-cı ildə kapital axınının liberallaşdırılması ilə başlamışdır.

1999-cu ildə Avropanın dövlət xadimləri Maliyyə Xidmətləri üzrə Fəaliyyət Planı (FSAP) haqqında ümumi razılıq əldə etdilər. (Avropa Komissiyası, 1999). Daxili iqtisadi bazarda əldə edilmiş uğurlu nailiyyətlərə əsaslanaraq, FSAP üç məqsədə nail olmaq üçün 43 sayda qanunvericilik aktlarının qəbulu tədbirləri təklif edilirdi:

1) Topdansatış maliyyə xidmətləri üçün vahid Aİ bazarının yaradılması və təkmilləşdirilməsi;
2) Kifayət qədər açıq və təhlükəsiz pərakəndə satış bazarının yaradılması və təkmilləşdirilməsi;
3) ən müasir prudensial tənzimləmə və nəzarət.

Bu kimi tədbirlər 2005-ci ildən reallaşdırılaraq Aİ-də inteqrasiya olunmuş maliyyə xidmətləri bazarı yaradılmışdır. Bu kimi uğurlar iqtisadi nəzəriyyəyə əsaslanmışdır.Avropa İttifaqında maliyyə bazarlarının inteqrasiyası və inkişafı kapitalın bölüşdürülməsinin səmərəliliyini artırmışdır. Bu kontekstdə Avropanın pul inteqrasiyası prosesi, xüsusən də vahid valyutanın tətbiqi iqtisadi baxımdan Avropada mərhələli maliyyə inteqrasiyası prosesinə səbəb olmuşdur.

Avropa maliyyə sistemi Avropa maliyyə inteqrasiyası prosesi ilə əlaqəli olmuşdur.Avropa İttifaqında həm ekzogen, həm də qlobal hadisələrin tərkib hissəsi olan əsaslı struktur dəyişiklikləri olmuşdur. Avropa maliyyə bazarlarının inkişafına təsir göstərən ən mühüm amil olan texnoloji inkişaf tempi sayəsində mümkün olan dəyişikliklərdir. Endogen dəyişikliklər də olmuşdur ki,buna da bank sektorunda milli birləşmələr və satınalmaları misal göstərmək olar. Avropa İttifaqına bəzi üzv dövlətlərdə müvafiq olaraq maliyyə konqlomeratlarının yaradılması ilə ənənəvi maliyyə məhsulları və maliyyə institutları arasında sərhədlərin aydınlaşdırılması zəminində müəyyənləşdirilməsi olmuşdur. Avropanın bank sektorunda qanunvericilik bazası yaradılmışdır, eyni zamanda tənzimləyici təcrübə tədricən yaxınlaşdırılmışdır.

Avropa İttifaqında avronun dövriyyəyə buraxılması vahid valyuta olaraq bütün avro zonasında qısa və uzunmüddətli faiz dərəcələrinin yaxınlaşması prosesinə səbəb olmuşdur. Avropada pul bazarlarında üzv ölkələrdə faiz dərəcələri fərqləri ləğv edilmişdir.Avropanın dövlət istiqrazları bazarlarında olan fərqlər isə çox kiçik həcmdə olmuşdur. Vahid valyuta valyuta bazarının inteqrasiyasına ən güclü təsir göstərir. Qısamüddətli faiz dərəcələrinin bütün transsərhəd banklararası bazarda aktivliyin artmasında əks olunacağı gözlənilir. Xüsusilə iri banklar ölkə sərhədlərini aşaraq arbitraj üçün daha çox stimullara malikdirlər. Bununla da daha böyük likvidlik mənbələrindən faydalanmağa imkan qazanmışlar. Həmçinin avro zonasında, Eurosystem-in TARGET real vaxt məcmu hesablaşma sistemi və Avropa Banklar Assosiasiyasının Avro bir şəbəkə sistemi kimi vahid pul siyasətini müşayiət edən transsərhəd iri dəyərli ödəniş sistemləri tərəfindən asanlaşdırılmışdır. Avro zonada transsərhəd banklararası iddialar hazırda BIS tərəfindən bildirilən ümumi qlobal banklararası iddiaların demək olar ki, yarısını təşkil edir. [2.s.76].Avropanın əsas avro zonasının korporativ istiqraz bazarına təsiri vardır. Avronun dövriyyəyə buraxılması ilə xalis emissiya "bumu" başladı. Avropa maliyyə bazarlarında son tendensiyalar və bunun nəticəsində yaranan rəqabətli qüvvələr bankları kreditləşdirmə fəaliyyətlərini azaltmağa məcbur etmişdir. Əlaqəli bankçılıq maliyyə sektoruna monetar impulsların ötürülməsində bufer zonanın təmin etdiyi dərəcədə, münasibətlərin kreditləşməsi fəaliyyətinin miqyasının azalması pul siyasətinin ötürülməsi

prosesinə təsir göstərə bilər. Bu da avro zonası biznesinə tsiklik təsir göstərə bilir.

Avropada maliyyə sisteminin son dövrlər sürətli inkişafı,bu transformasiya prosesinin birbaşa mərkəzi banklar üçün çoxsaylı nəticələri və bu prosesin mərkəzi bankların fəaliyyət göstərdiyi daha geniş iqtisadi siyasət mühiti üçün əhəmiyyəti nəzərə alınmalıdır. Avropa Mərkəzi Bankı "Avropa Maliyyə Sisteminin Transformasiyası" üzrə əsas məqamlara diqqət yetirir.

Bank şirkətlərinin bank sistemini inteqrasiya etmək üçün qəbul etdikləri korporativ strukturlardan çıxarıla biləcək tədbirlər Avropa bankçılığında ümumi olan subsidiya strukturlarının müxtəlif təhlillərini və bu strukturların siyasət üçün təsirlərini araşdırır. Ənənəvi bank krediti maliyyələşdirməsi ilə müqayisədə Avropa bazarının maliyyəsində əhəmiyyətli inkişafı təsvir edir. Bu prosesi dayandırmaq üçün maraqlara müqavimət göstərilməlidir.

Avropa bankçılığının keçmişinə, bu gününə və gələcəyinə geniş nəzər salsaq görərik ki, aparılan elmi tədqiqatlarımızın əsas nəticəsi olaraq qeyd etmək olar ki,Avropa bank bazarının özünə məxsus xüsusiyyəti vardır. Avropa sərhədlərini aşaraq genişlənən banklar fəaliyyətlərini xarici ölkələrdə filiallar açmaq əvəzinə, xarici törəmə şirkətləri ilə strukturlar saxlamağa üstünlük verirlər. Avropa bankçılığındakı korporativ törəmə strukturların mühüm siyasi təsirləri vardır. Birincisi, onların mürəkkəbliyi tənzimləməyə nəzarəti çətinləşdirə bilir. İkincisi, transsərhəd törəmə strukturu ilə uğursuz beynəlxalq bankın açılması mürəkkəb və risklidir.Çünki o, müxtəlif hüquq sistemlərini əhatə edir. Üçüncüsü, bu şirkətlər holdinq şirkətləri səviyyəsində nisbətən şaxələnməyə meyilli olsalar da, onların müvafiq milli törəmə müəssisələri daha aydın yerli orientasiyaya görə uğursuzluq riski ilə üzləşə bilir. 1957-ci ildə Roma müqaviləsinin imzalanmasından bu günə qədər Avropa bankçılığının transformasiyasını nəzərdən keçirərkən, diqqət yetirmək lazımdır ki, banklar digər bank siyasəti məsələlərinə az toxunurlar.

Aİ ölkələri arasında əsas bank siyasəti öhdəliklərinin təyin edilməsinin fərqliliyini və bu fərqlərin korporativ strukturun seçimi ilə necə əlaqəli olduğu fikrindəyik. Aİ ölkələri arasında vergi rejiminin törəmə müəssisələrin strukturunda mühüm amil ola biləcəyinə inamı şübhə altına aldı. Beynəlxalq filiallar üçün xalis tənzimləmə yükü, filiallar vəziyyətində ev sahibi və yerli ölkələr arasında daha çox birgə tənzimləmə elementlərinə görə törəmə şirkətlərə nisbətən daha yüksək ola bilər. Onlar, əmanətlərin sığortası mükafatlarını istənilən hüquqi struktur seçimində əsas amil kimi görə bilərlər. Bu da Avropada filiallardan çox filiallara üstünlük verən heterojen mənzərəni şübhə altına alır. Nəhayət, törəmə strukturlar üçün başqa mümkün izahat kimi maliyyə böhranının idarə edilməsində kvazi-fiskal elementləri qeyd edək. Törəmə şirkətlər daha çox yerli əmanətçi bazasına və yerli kapital bazarları ilə daha açıq əlaqələrə malik olurlar. Bu səbəbdən də onların öz ölkəsinin bank fəaliyyəti prinsipinə uyğun olaraq ictimai yardım almaq ehtimalı daha yüksək ola bilər.

Avropa banklarının fəaliyyəti dövrlərində üzləşdikləri üç əsas risk növü vardır. Birincisi, Avropa bank və maliyyə bazarlarının degenerasiyası (fəaliyyətin tədricən zəifləməsi və ya cırlaşması) və bank olmayan maliyyə vasitəçiləri tərəfindən artan rəqabət kommersiya banklarını mürəkkəb olmaqla riskli strategiyalar tətbiq etməyə vadar edir. Onu da qeyd edək ki,Avropada sabitlənmiş valyuta məzənnəsi bank bazarlarında daha çox dəyişkənliyə səbəb ola bilər. Buna görə də yerli törəmə müəssisələrin kredit tarixçəsi əslində defolt riskini qiymətləndirə bilir. Üçüncüsü, ABŞ və Yaponiya ilə bağlı əvvəlki araşdırmalara əsaslanaraq belə qənaətə gəlmək olar ki, Avropa banklarının xaricdə fəaliyyətləri dövründə artan riskləri xarici şokların daxili iqtisadiyyata ötürülməsi riskini artıra bilir. Bunun nəticəsində kommersiya bankları xarici ölkələrdəki filialların fəaliyyətləri zamanı yaranan itkiləri bağlamaq üçün öz ölkələrindəki daxili kreditləri azaltmağa sövq edə bilər. Bu da bir çox iqtisadi ədəbiyyatlarda "idxal " kredit böhranı adlandırılır.

Avropa banklarının fəaliyyət problemlərinə dövlətin əsaslı əmanətlərin sığortalanması sxemlərinin yaratdığı mürəkkəblikləri aid etmək olar. Belə ki, Avropada böyük banklar ABŞ-da olduğu kimi ləğv edilməli olduqda holdinq şirkətlərinə müraciət edilir. Bir çox Avropa ölkələrində resurs potensialının üstünlükləri, törəmə müəssisələrin uğursuzluqları, potensial olaraq qiymətləndirilir. Avropa banklarının fəaliyyətinin tənzimləyiciləri arasında və Avropa İttifaqında pul siyasətini müəyyən edənlər arasında informasiya mübadiləsi üzrə bank böhranlarının qarşısının alınması üçün vahid erkən müdaxilə proqramı hazırlanır və həyata keçirilir.

Mərkəzi banklar üçün xüsusi əhəmiyyət kəsb edən maraq sahələrindən biri də pulköçürmə əmə-

liyyatlarını aparan bankların fəaliyyət mexanizmidir. Buna görə də, mərkəzi banklar bu baxımdan bankların fəaliyyətini tənzimləməyə böyük maraq göstərir. Avropa İttifaqında fəaliyyət göstərən kommersiya bankları tərəfindən qarşılıqlı kreditləşmənin həcmi daima Mərkəzi Bank tərəfindən nəzarətdə saxlanılır. Mərkəzi Bankın əsas fəaliyyət nexanizmi maliyyə sistemi ilə qarşılıqlı şəkildə bağlı olduğundan, onun yürütdüyü pul siyasətini reallaşdırmaq üçün mövcud maliyyə sisteminə əsaslanması aparılır. Maliyyə sisteminin təşkili isə likvidliyin son mənbəyi kimi mərkəzi bankın həyata keçirtdiyi pul-kredit siyasəti əsasında olur. Avropa bank sistemində əsas konsolidasiya, qiymətli kağızlar bazarının güclü inkişafı və istehlakçıların peşəkar aktivlərinin idarə edilməsinin böyüməsi kimi bir sıra struktur tendensiyaları yaşanmışdır.

Avropa bank sistemində struktur son onillikdə böyük dəyişikliyə məruz qalmışdır. İlk növbədə banklar və onların müştəriləri arasında sıx iqtisadi münasibətlər formalaşmışdır. Bu münasibətlər mütərəqqi prinsiplərə əsaslanmaqla daha inkişaf etmiş qiymətli kağızlar bazarları ilə birləşən, mümkün ədalətli, daha rəqabətli münasibətlərə keçidə doğru yönəlmişdir. Bu dəyişiklik fond bazarının kapitallaşmasının ÜDM-ə nisbətinin kəskin yüksəlməsini təmin edir. Bir çox yeni kapital bazarlarının tətbiqi, maliyyə törəmə vasitələrinin öyrənilməsi korporativ borc emissiyasının artan əhəmiyyəti ilə xarakterizə edilir. Avropada bank əsaslı maliyyə sistemlərindən bazar əsaslı maliyyə sistemlərinə əsaslı keçid edilmişdir. Avropa Parlamentində və Şurada maliyyə sisteminin son mərhələdə təkrarsığorta, birgə sığorta və hərtərəfli sığorta sahələrinin digər məsələlərlə bağlılığı müəyyən edilmişdir. Milli banklar sistemində müxtəlif dərəcəli miras və mənəvi təhlükə riskləri mövcuddur. Banklar ittifaq daxilində bank uğursuzluqlarının potensial yükünü bölüşməzdən əvvəl bankların müstəqil əsasda kifayət qədər sağlam olması təmin edilməlidir.

Avropa Şurası 2016-cı ildə Yol Xəritəsini təsdiq etmişdir. Yeni təsdiq edilmiş Yol Xəritəsinə görə, banklar öz fəaliyyətlərini texniki səviyyədə konstruktiv əsaslarla davam etdirəcək və yarana biləcək risklərin azaldılması üzrə tədbirləri reallaşdıracaqdır.

Avropa banklarında əmanətlərin sığortalanmasının təkmilləşdirilməsi sxemi təklif edilmişdir. Hal-hazırda bu istiqamətdə fəaliyyət formalaşdırılmaqdadır. Bundan sonra bank ittifaqı gələcək böhranlara qarşı dözümlülüyünü saxlaya bilər. Bank fəaliyyətində risklərin azaldılmasına uyğun olaraq, daha sivil formada əmanətlərin sığortalanması sxeminin tətbiqini nəzərdə tutur. Təkrar sığorta tədricən qarşılıqlı sığortaya keçir.

Britaniyanın tarixi təcrübəsi kontinental Avropa və ABŞ təcrübəsi ilə maraqlı şəkildə ziddiyyət təşkil edir. Böyük Britaniyanın maliyyə sistemini bazar əsaslı maliyyə sistemi kimi ABŞ ilə sadəcə birləşdirmək olmaz. Böyük Britaniya qiymətli kağızlar bazarları tarixən ABŞ qiymətli kağızlar bazarlarından bir neçə il əvvələ qədər çox az tənzimləmə ilə fərqlənirdi. Böyük Britaniyanın bank sistemi də ABŞ bank sistemindən daha çox mərkəzləşdirildiyi üçün çox fərqlidir.

Aİ direktivlərinə uyğun olaraq, ölkələr müstəqil olaraq bank tənzimlənməsinin əsas aspektlərini, məsələn, əmanətlərin sığortalanması sistemlərinin dəqiq xarakteri və korporativ vergi və əlavə dəyər vergisi (ƏDV) siyasətlərini müəyyən edirlər. Beynəlxalq filiallar və törəmə şirkətlər üçün siyasətin müəyyən edilməsi üzrə öhdəliklər yerli və qəbul edən ölkələr arasında fərqli şəkildədir.

Kommersiya banklarının filialları əsas bank tənzimlənməsi və kapitalın adekvatlığına nəzarət kateqoriyaları, digər prudensial tənzimləmələr (məsələn, böyük risklərə məruz qalma qaydaları) və əmanətlərin sığortalanması üzrə ölkə nəzarətinə tabedir. Likvidlik yardımının göstərilməsi əsas istisnadır. Bu, milli mərkəzi bankın əsas məsuliyyətidir. Maliyyə çətinliyi halında, konsolidasiya edilmiş nəzarəti həyata keçirir.

Güclü İqtisadi və Valyuta İttifaqının (EMU) bir hissəsi kimi tam potensialına çatmaq üçün bank birliyi tamamlanmalıdır. Kapital Bazarları İttifaqı (CMU) ilə birlikdə tam bank birliyi Aİ-də sabit və inteqrasiya olunmuş maliyyə sisteminə töhfə verəcəkdir. Bu, ictimai risklərin bölüşdürülməsinə ehtiyacı azaldacaqdır. Bununla da İqtisadi və Valyuta İttifaqının mənfi təzahürlərə qarşı dayanıqlığını artıracaqdır. Bu həm də transsərhəd ölkələrdə özəl risklərin bölüşdürülməsini əhəmiyyətli dərəcədə asanlaşdıracaqdır.

Aİ-də bank fəaliyyəti geniş dövlət dəstəyinə malik olan məsələdir. 2016-cı ilin iyununda yekunlaşdırılan Banklar İttifaqının Yol Xəritəsinin yekunlarında və 2016-cı ilin mart ayında Banklar İttifaqına dair İllik Hesabatda həm Şura, həm də Avropa Parlamenti Banklar İttifaqının tamamlan-

masının vacibliyini vurğulamışdır.

Aİ-nin son on ildə yaşadığı maliyyə və suveren borc böhranları göstərdi ki, Aİ-nin qeyri-kamil iqtisadi və maliyyə çərçivəsi yaxşı vaxtlarda qeyri-dayanıqlı siyasətlərin yaranmasının qarşısını almaq və ya yaxşı zamanlarda mənfi şokları effektiv şəkildə yox etmək üçün kifayət etmir. Xüsusilə, böhran milli bank sektoru ilə onun suveren dövləti arasında zəif əlaqəni aşkar etdi. Bank ittifaqını yaratmaqla banklararası sıx əlaqəni qurmaq mümkündür. Bu həm də vergi ödəyicilərinin mübarizə aparan bankları xilas etməkdə liderlik etməməsi üçün yaradılmışdır. "Əgər biz bankların qitəmizlə eyni qaydalar və eyni nəzarət altında fəaliyyət göstərməsini istəyiriksə, o zaman bütün üzv dövlətləri bank ittifaqına qoşulmağa təşviq etməliyik. Bir çox üzv dövlətlər bank sistemlərində qalıq riskini azaltmalıdır. Bank ittifaqı yalnız riskin azaldılması və riskin bölüşdürülməsi paralel getdiyi halda işləyə bilər". [5].

Aİ-də birgə tənzimləmə, böhranın idarə edilməsi və əmanətlərin sığortalanması sabit maliyyə sistemi ilə dəstəklənən daha dərin maliyyə inteqrasiyasına imkan verəcəkdir. Bu, bank birliyində iştirak edən üzv dövlətlərin və bütövlükdə Aİ-nin maliyyə sabitliyini gücləndirəcəkdir. Nəhayət, daha sabit bank sektoru həm də bütün ölçüdə şirkətlər üçün daha çox maliyyə imkanları yaradacaqdır. Avropa vətəndaşları üçün isə daha çox iş yerləri və sosial rifah deməkdir. Avropada daha dərin maliyyə inteqrasiyası həm də daha aşağı qiymətlərlə daha çox xidmət göstərilməsini təmin etmək üçün bir açardır. Avropa vətəndaşları üçün inteqrasiyanın faydalarını nəzərə çarpdırmaq üçün Komissiya həmçinin İstehlakçı Maliyyə Xidmətləri üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi, bütün Aİ valyutalarında transsərhəd bank əməliyyatları üçün haqları azaltmağı nəzərdə tutmuşdur. Bunun üçün Sərhəd Ödənişləri Qaydasına müvafiq düzəlişlər etməyi də təklif kimi nəzərdən keçirir.

## ƏDƏBİYYAT


1. Folkerts-Landau və Garber 1992; Schoenmaker 1997.
2. Galati və Tsatsaronis, 2001 və ECB, 2001a, 2002b.
3. Avropa Komissiyası, 1999.
4. İkinci ECB Mərkəzi Bank Konfransı Duisenberg, 2002.
5. https://ec.europa.eu/commission/state-union-2017_en
6. EP,BankingUnion-AnnualReport. 2016. (http://www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-//EP//NONSGML+TA+P8-TA-2017-0041+0+DOC+PDF+V0//EN)



***Мурад Байлар оглы Мехдиев***
***Докторант АУК***


## Деятельность центрального банка в европейском союзе и устойчивое экономическое развитие


***Резюме***

Великий лидер Гейдар Алиев, сказавший, что "государство с сильной экономикой способно на все", определил цель ускорения интеграции экономики Азербайджана в экономику стран мира, в том числе европейских стран, в короткие сроки. Основа формирования системы заложена. Однако необходимо совершенствовать эту систему на основе опыта европейской банковской системы. С этой точки зрения уникальный интеграционный опыт формирования банковской системы среди в странах Европейского Союза (ЕС) сформировались уникальные механизмы банковской деятельности на рынке. Стремясь создать мир, безопасность, финансовую стабильность, процветание людей и валютную стабильность, деятельность банков эффективно управляется.Европейские страны создали целеустремленный союз экономической системы для улучшения благосостояния своих граждан после двух разрушительных мировых войн.



***Ключевые слова: Европейский союз (ЕС), Европейский союз (ЕС), экономический инструмент, кредит, центральный банк, интеграция.***

*Murad Baylar Mehdiyev*
*Doctoral student of Azerbaijan Cooperation University*

**The activity of the central bank in the european union and sustainable economic development**

***Summary***

The great leader Heydar Aliyev, who said that "a state with a strong economy is capable of everything", defined the goal of accelerating the integration of Azerbaijan's economy into the economy of the world countries, including European countries, in a short period of time. the foundation of the formation of the system has been laid. However, it is necessary to improve this system based on the experience of the European Banking system. From this point of view, the unique integration experience of the formation of the banking system among the countries of the European Union (EU) has been studied. have formed unique mechanisms of banking activities in the market. With the desire to create peace, security, financial stability, people's prosperity and currency stability, the activities of banks are effectively managed. European countries have created a purposeful economic system union to improve the welfare of their citizens after two devastating world wars. they decided.

***Key words: European Union (EU), European Union (EU), economic instrument, credit, central bank, integration.***

**UOT 330**

***Murad İlham oğlu QASIMZADƏ***
***Doktorant, "Kapital bank" ASC,***
***Nəzarət departamenti, baş mütəxəssis***
***e-mail: murad.gasimzade777@gmail.com***

## CƏNUBİ QAFQAZIN LOGİSTİKA SİSTEMİNDƏ ƏLƏT AZAD İQTİSADİ ZONASININ ROLU

***Xülasə***

Qloballaşan müasir iqtisadi mühitin logistika sisteminin inkişaf perspektivləri yeni imkanlar yaratmaqda davam edir. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Ələt qəsəbəsində azad ticarət zonası kimi perspektivli layihələrin tikintisi xarici investisiyaların artırılmasını nəzərdə tuturdu. Ələt qəsəbəsində yaradılmış Azad İqtisadi Zona (AİZ) investorları qəbul etməyə hazırdır. Bu məqsədlə dövlət başçısı dövlət qurumlarına daxildə və xaricdə işləri gücləndirməyi tapşırıb.

Bu sahədə əsas vəzifə potensial investorlarla birbaşa əlaqə yaratmaqdır. Bu prioritet məqsədə nail olmaq üçün AİZ nümayəndələri müxtəlif ölkələrə ezam olunacaq, xarici investorlar isə Azərbaycana dəvət olunacaqlar. Bundan əlavə, AİZ nümayəndələrinin müxtəlif ölkələrlə hökumətlərarası komissiyalarımızın iclaslarında iştirakı barədə qərar qəbul edilmişdir.

***Açar sözlər: logistika, azad iqtisadi zona, qloballaşma, sənaye parkları.***

***

Son bir neçə onillikdə beynəlxalq ticarətdə bir neçə mühüm qlobal kommersiya fəaliyyəti mərkəzləri yaranmışdır. Honq-Konqdan Sinqapura, Dubaya qədər bu mərkəzləri liderlərin öz iqtisadiyyatlarını dünyaya açmaq və dünyanın qalan hissəsi üçün mümkün qədər cəlbedici etmək istəyi birləşdirir. İndi şirkətlər və investorlar Asiya və Yaxın Şərqdə belə biznes mərkəzlərinin yaxşı getdiyini gördükdən sonra növbə Qafqaza çatdığı məlum olmuşdur.

Hələ ötən ilin mayında Azərbaycan hökuməti yeni azad ticarət zonasının - Ələt Azad İqtisadi Zonasının (AİZ) yaradılması planlarını açıqlamışdı. 850 hektar ərazini əhatə edən layihə Xəzər dənizinin sahilində yerləşən Ələt qəsəbəsində formalaşmaqda olan ticarət və logistika mərkəzinin bir hissəsi olacaq. Xüsusi statusu və hüquqi fəaliyyət rejimini müəyyən edən AİZ haqqında qanun hələ 2018-ci ildə ölkə parlamenti tərəfindən təsdiq edilib [1]. Az sonra zonanın tikintisinə başlanıldı. İndi Azərbaycan rəhbərliyi dünyanın hər yerindən şirkətləri Ələtə dəvət edir. Xəzərdə yeni

nəqliyyat qovşağının yaradılmasının arxasında bir neçə amil dayanır.

Birinci amil ölkə iqtisadiyyatının informasiya sənayesi hesabına genişləndirilməsi və ənənəvi olaraq Azərbaycan iqtisadiyyatının ən gəlirli sahəsi olan enerji sektorundan asılılığının azaldılması istiqamətində Azərbaycan hökumətinin qəbul etdiyi uzunmüddətli strategiyadır.

AİZ-in yaradılmasında ikinci mühüm amil Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların daxil olması üçün stimulların yaradılmasıdır. Ələt zonasının idarə edilməsini tənzimləyən qanun investorlar üçün cəlbedici şərait yaradır. Bura azad iqtisadi zonada fəaliyyət göstərən şirkətlərə şamil olunacaq xüsusi vergi və gömrük rejimi daxildir. Zonaya idxal edilən mallar, işlər və xidmətlər əlavə dəyər vergisinə cəlb edilməyəcək, həmçinin gömrük rüsumlarından tamamilə azad ediləcək.

Həmçinin onu da qeyd edim ki, Azad İqtisadi Zona, prinsipcə, Azərbaycan iqtisadiyyatında yeni bir hadisədir. İndiyədək "sənaye parkları" Azərbaycanda sənaye investisiyaları üçün əsas infrastruktur bazası olmuşdur. Xatırladıram ki, kimya layihələrini əlaqələndirən flaqman Sumqayıt sənaye parkından başqa, Azərbaycanda daha üç - Mingəçevir, Pirallahı və Balaxanı sənaye parkları da mövcuddur.




2019-cu ilin sonuna sənaye parklarının investorları 3,4 milyard dollar sərmayə qoyublar ki, bu da regional standartlara görə kifayət qədər əhəmiyyətli vəsaitdir [2]. Ələt AİZ-in maliyyə-iqtisadi mexanizmi bu layihələrin inkişafına mühüm əlavə olacaq və ölkə iqtisadiyyatına yeni maliyyə vəsaitləri daxil edəcəkdir.

Fikrimcə, koordinasiyanın təsirini artırmaq üçün AİZ-in idarə edilməsinin bu yaxınlarda sənaye parklarını idarə edən İqtisadi Zonaların İnkişafı Agentliyinə verilməsi daha məqsədəuyğun hesab olunacaqdır.

Azərbaycanda AİZ 2010-cu illərin əvvəlində sırf konsepsiyadan ilk qanunvericilik aktlarına qədər uzun bir yol keçmişdir. Əlstartin ilk investorları gözlədiyi 2022-ci ildə istifadəyə verildikdən sonra AİZ təkcə əmtəə və sənaye sektorlarına deyil, həm də gələcəkdə sırf maliyyə sahələrinə xarici investisiyaların cəlb edilməsi üçün əsas mexanizmə çevriləcəkdir.

Prezident AİZ nümayəndələrinin digər ölkələrdən olan tərəfdaşlarla Azərbaycanın əsas hökumətlərarası komissiyalarının iclaslarında iştirakının zəruriliyi ilə bağlı tapşırıqlar vermişdir. İndi münaqişədən sonrakı bərpaya maraq dalğasında AİZ-lərin mövcudluğu investorların Azərbaycanda həyata keçirəcəyi mümkün layihələrin dairəsini genişləndirmək üçün əlavə stimul rolunu oynamalıdır [3].

Bununla belə, AİZ daxilində maliyyə ofşorlarına bənzər güzəştli vergi rejimləri yaradılırsa, o zaman müəyyən bir sinif xarici investorlar buraya yalnız kommersiya və sənaye fəaliyyəti öhdəlikləri olmadan hüquqi şəxsin rəsmi qeydiyyatı çərçivəsində cəlb ediləcək. Yəni, AİZ əsas funksiyalarından əlavə, Azərbaycanda beynəlxalq maliyyə mərkəzinin yaradılmasının proloquna çevrilə bilər.

Buna baxmayaraq, bu gün Ələt AİZ-in əsas vəzifəsi Xəzər dənizinin nəqliyyat və sənaye dəhlizlərində əlaqələrin gücləndirilməsidir. Deyə bilərik ki, bu, Azərbaycanın Xəzərə inteqrasiya proseslərinə töhfəsidir. Konteyner terminallarının və 300 MVt gücündə Səngəçal elektrik stansiyasının şəbəkə infrastrukturunun bilavasitə yaxınlığı Ələt AİZ üçün əlverişli ərazi seçildiyinə bariz nümunədir. Daha geniş şəkildə baxsaq, AİZ transxəzər marşrutu ilə Şimal-Cənub nəqliyyat dəhlizinin qərb istiqaməti arasında kommunikasiya mübadiləsi potensialını artıracaq. AİZ-in hansı əmtəə koordinatlarında yerləşdiyini ətraflı nəzərdən keçirək. AİZ Rusiya və Azərbaycanın ticarət-iqtisadi layihələrinə öz təsirini göstərəcək və müştərək müəssisələrin yeni istehsal sahələrini məhz orada yerləşdirəcəyi məqsədəuyğun hesab olunur. Ələt AİZ ilk növbədə Xəzər dənizinin nəqliyyat və sənaye dəhlizlərində əlaqələri möhkəmləndiriləcəkdir. Növbəti illərdə Xəzər limanlarının qarşılıqlı əlaqə dinamikası artacaq, aydındır ki, AİZ-dən də belə qarşılıqlı əlaqəni gözləmək mümkündür. Xəzərin geoiqtisadiyyatında dəyişikliklər göz qabağındadır. Trans-Avrasiya konteyner tranzitinin həcmi, sürəti və dəyəri artmaqdadır. Artıq konteynerlərlə tikinti materialları və kənd təsərrüfatı məhsulları daşınır. Taxıl və un məhsullarının axını genişlənir. Beynəlxalq müqavilələri Fars körfəzi ölkələri, Pakistan, Hindistanla ən geniş çeşiddə mallar üzrə bağlanır. Bütün bunlar Ələt AİZ-in imkanları üçün bir sahə hesab etmək olar. Digər cəhət ondan ibarətdir ki, Xəzər regionunda neft-kimya sənayesində, avtomobillərin, kənd təsərrüfatı maşınlarının yığılması, tikinti və sənaye məhsullarının istehsalı sahəsində yeni sənaye kooperasiya layihələri yaranır.

Dəmir yolu xətləri ilə daşınmaların və regionun limanlarında daşınmaların həcmi artır. Çay marşrutlarının inkişafı strategiyasının bir hissəsi olaraq 2030-cu ilə qədər Volqa-Don sisteminin ötürücülüyünün iki dəfə artması gözlənilir və gələn qışdan onun ilboyu istismarı planlaşdırılır. Bu, həm də regionda limanların və AİZ-lərin inkişafına təkan verəcək.

İ.Əliyevin iqtisadi layihəsi istehsal üçün yeni bazarlar və perspektivlər açacaqdır. Yəni söhbət konkret olaraq Ələt AİZ-in Həştərxan vilayətindəki “Lotos” AİZ ilə, İranın “Ənzəli” AİZ ilə, Astara və Türkmənbaşı limanları ilə perspektiv qarşılıqlı fəaliyyətindən gedir. “Ələt” və Mərkəzi Asiya layihələri arasında qarşılıqlı fəaliyyət sahəsinin yaradılması məntiqlidir. Xüsusilə, “Xorgos – Şərq qapısı” AİZ ilə əməkdaşlıq sazişi Çin sakinlərinin Şərqi Avropa və Yaxın Şərq bazarlarına çıxışını genişləndirmək üçün körpü rolunu oynaya bilər.

Qonşu Dağıstanda altı sənaye parkı və iki prioritet sosial-iqtisadi inkişaf sahəsi yaradılıb. Həştərxandakı “Lotos” AİZ-ə investisiyalar fiberglas boruların və konsolların istehsalından gəmiqayırmaya qədər 400 milyon dolları ötüb. “Ələt” əlavə layihələr üçün ya bu sənayelər üçün yeni bazarlar və perspektivlər aça bilər, ya da öz ixrac məhsullarını yaradaraq, xammal bazası kimi tərəfdaşlardan istifadə edə bilər. Bunlar qarşılıqlı əlaqənin mümkün sahələrindən yalnız bir neçəsidir. Beləliklə, Ələt AİZ Xəzər dənizində gələcək transregional inteqrasiya problemlərini, o cümlədən yerli saxlama və nəqliyyat problemlərini həll edəcək. Bu, həm də Azərbaycanın sənaye potensialının artırılmasına mühüm töhfə verəcəkdir.

“Bu, həm dövlət maraqlarını, həm də investorların maraqlarını təmin edən çox mütərəqqi qanundur. Əgər qanunvericilikdə investorlar üçün qeyri-müəyyən məqamlar olsaydı, o zaman onları bura cəlb etmək mümkün olmazdı, həmçinin, COVID-19 şirkətlər üçün beynəlxalq biznes fəaliyyətini inkişaf etdirmək və artırmaq üçün maneəsiz yollara tələbi artırdı” deyə, prezident İlham Əliyev qeyd etmişdir.

Beləliklə, Ələt AİZ unikal coğrafi mövqeyə və infrastruktur potensialına malikdir ki, bu da onu dünya səviyyəli biznes platformasına çevirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihənin ən inkişaf etmiş strukturuna çevrilib. Limanın on milyonlarla ton yükdaşıma qabiliyyəti var və bu, artmaqda davam edir. Bu nəqliyyat qovşağı qərbi (Türkiyə), cənubu (Hindistan) Rusiya və digər Skandinaviya ölkələri ilə birləşdirir. Zonanın yaxınlığında hava limanının da tikiləcəyi planlaşdırılır.

Ələt AİZ-də fəaliyyət göstərən firma və fiziki şəxslər üçün lisenziyalar, vizalar və digər mühüm xidmətlər biznes xidmətləri mərkəzi tərəfindən təmin ediləcək. Ələt zonası layihəsinin həyata keçirilməsində Azərbaycanın əldə etdiyi irəliləyiş milli iqtisadiyyatın innovativ inkişaf yoluna keçməsinə və ölkənin iqtisadi sisteminin daha da müasirləşdirilməsinə sadiqliyini nümayiş etdirdi. Fikrimcə, layihə ümidləri doğrultsa, Ələt AİZ təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz regionu üçün iqtisadi sıçrayış olacaq.

Azərbaycan bu sahədə yenidir, lakin, sevindirici haldır ki, 18 May 2018-ci il tarixində Azərbaycanın beynalxalq dəniz ticarət limanı hesab edilən ərazisində, yəni, Ələtdə bu cür iqtisadi zonanın yaradılması barədə qanun qəbul edilmişdir. Bu qanun maliyyə və sığorta xidmətləri, valyuta əməliyyatları, əqli mülkiyyət və bu kimi fəaliyyət sahələri daxil olmaqla bir sıra əhəmiyyətli sahələri əhatə edir. Deməli, Ələt iqtisadi zonasına idxal edilən mallara, işlərə və xidmətlərə görə heç bir gömrük rüsumu alınmayacaq. Bundan başqa, Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri, Azad Zona hüquqi şəxsləri və onların işçiləri, Azad Zona rezidentləri Azad Zonada fəaliyyətlərinə aid olan bütün vergilərdən azaddırlar.

Azad Zona səlahiyyətli qurumu müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılacaq və Azad Zonanın fəaliyyətinə birbaşa nəzarəti həyata keçirəcək. Bundan başqa, Azad Zonadakı fəaliyyətlə bağlı yaranacaq mübahisələrin həlli və təfsiri üçün Azad Zona müstəsna yurisdiksiyaya malikdir. Yəni, Azərbaycan Resublikasının hal-hazırda mövcud olan məkhəmə orqanları Azad Zonanın müstəsna yurisdiksiyasına daxil olan məsələlərə baxmayacaq.

Beləliklə, bu cür Azad Zonaların yaradılması investisiya fəaliyyətinin aktivləşməsinə, işsizliyin səviyyəsinin artırılmasına və ümumilikdə, iqtisadiyyatın inkişafına böyük təkan vermiş olacaq.

## ƏDƏBİYYAT

1. http://www.e-qanun.az/framework/39078
2. https://president.az/az/articles/view/52363
3. https://afez.az/

***Мурад Ильхам оглы Гасымзаде***
- əsas aqreqatlar baxımından, funksional tərkibi baxımından - dövriyyədə olan vəsaitlər və qənaət;
- pul şəklində - nağd və nağdsız;
- vəsaitlərin regional ayrılması haqqında.

Pul siyasətinin mahiyyəti pul kütləsinə nəzarəti həyata keçirməkdən ibarətdir. Tənzimləyici çox pulun sərbəst dövriyyəyə getməməsinə əmin olur. Bu baş verərsə, mallara tələbat onların istehsalını üstələməyə başlayır.

Uzunmüddətli perspektivdə bazarda balanssızlıq çox xoşagəlməz nəticələrə səbəb ola bilər. İnflyasiya onlardan yalnız biridir. Onlardan qaçmaq üçün dövlət iki növ metoddan istifadə edir – birbaşa və dolayı.

Birbaşa metod bankların fəaliyyətinə inzibati nəzarət tədbirləridir. Onlar dövlət adından Mərkəzi Bank tərəfindən verilən təlimat və göstərişlər formasında olurlar. Bunlara aşağıdakılar daxildir:

- kreditlər və depozitlər üzrə faizlərin tənzimlənməsi;
- banklara verilən kreditlərin həcminin məhdudlaşdırılması;
- prioritet sektorlara daha aşağı faizlə kredit verilməsi;
- müəyyən bank qurumlarına güzəştlərin verilməsi;
- valyuta məhdudiyyətləri.

Birbaşa tədbirlərin köməyi ilə tez və nəzərəçarpacaq nəticələr əldə etmək mümkündür. Digər metod dolayı-bazar metodu dövlət maliyyə sektoruna birbaşa deyil, mövcud bazar alətlərinin köməyi ilə təsir göstərir. Hər bir kredit təşkilatı öz müstəqil maliyyə siyasətini həyata keçirir.

Bu modelin birbaşa ilə müqayisədə üstünlüyü bazara daha yumşaq və incə təsir göstərə bilməsidir. Metodlar daha yaxşı nəticələr əldə etmək üçün həyata keçirildikcə düzəldilə bilir.

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi kontekstində pul siyasətinin və monetar tənzimləmənin məzmununun müəyyən edilməsi aparılan tədqiqatların istiqamətlərini aydın göstərməyə imkan verir:

Birinci növbədə pul siyasəti - pul-kredit tədbirlərinin məcmusunda ifadə olunan pul-kredit tənzimləmə üsulları ilə dövlətin öz iqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsindəki kursudur;

İkinci növbədə isə, pul tənzimi dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin funksional altsistemlərindən biridir ki, bu da nəzərdə tutulan məzənnədən kənarlaşmaları aradan qaldırmaq üçün pul mexanizmi kimi dövlətin iqtisadiyyatın vəziyyətinə məqsədyönlü təsiridir.

Beləliklə, pul siyasətinin və onun üçün adekvat vasitələrin formalaşdırılması zərurəti pul dövriyyəsi qanununun fəaliyyət göstərməsi ilə əlaqədardır.Pul siyasətinin formalaşmasında əsas məqsəd dövlətin iqtisadi təhlükəsizliyinə yaranmış təhdidlərin müəyyən edilməsi və onları aradan qaldırmaq üçün uyğun vəzifələrin müəyyən edilməsidir. Pul tənzimləmə modelini formalaşdırarkən, pul siyasətinin məqsədlərinə yönəlmiş və adekvat pul mexanizmini özündə ehtiva edən müəyyən bir sistemin yaradılması və vəzifələrin müəyyən edilməsi prosesinin vahid qavrayışı vacibdir. Nəzərə almaq lazımdır ki, maliyyə təhlükəsizliyi cəmiyyətin digər sahələrində təhlükəsizliyə əhəmiy-

yətli və həlledici təsir göstərir, çünki bütün növ təhlükəsizlik maddi əsasa malikdir və maliyyə dəstəyinə ehtiyac duyur, onsuz heç bir fəaliyyət həyata keçirilə bilməz. Bu hal maliyyə təhlükəsizliyinin hərtərəfli xarakterindən və onun qanunvericiliklə tənzimlənməsinin əsas milli prioritet kimi əhəmiyyətindən danışır.

Dövlət maliyyə sisteminin sabitliyinin təmin edilməsi kontekstində öz fəaliyyətini üç əsas istiqamət üzrə həyata keçirir:

- birinci istiqamət resurs bazasının genişləndirilməsi və bütövlükdə bütün maliyyə sisteminin likvidliyinin artırılması;
- ikincisi, real sektordakı müəssisələrin bank kreditləşməsi imkanlarının artması;
- üçüncüsü, çətinliklə üzləşən, lakin bank sisteminin ümumi sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edən bankların sağlamlaşdırılmasını təmin etməkdir.

Ümumiyyətlə, maliyyə siyasətinin həyata keçirilməsi yollarının seçilməsi problemi hər bir ölkənin həyatında, o cümlədən onun subyektləri səviyyəsində həmişə əsas problem olub və olacaqdır. Eyni zamanda, qərarlar toplusu maliyyə siyasətinin bütün sahələrində: bank (kredit), antiinhisar, valyuta, sığorta, vergi, büdcə, fond və gömrük sahəsində əlaqələndirilmiş tədbirləri əhatə etməlidir. Belə ki,vergilərin azaldılması mənfəətin artmasına və bu əsasda bütün səviyyələrin büdcələrinin doldurulmasına deyil, yalnız təbii inhisarların gəlirlərinin artmasına səbəb ola bilər. Bu, antiinhisar və gömrük siyasəti sahəsində lazımi tədbirlər görülmədikdə baş verəcəkdir.

Azərbaycanda pul-kredit sisteminin tənzimlənməsi istiqamətlərini özündə əks etdirən prioritet məsələlərin həlli eləcə də dövlətin maliyyə təhlükəsizliyini təmin etmiş olur. Belə bir nəticəyə gələ bilərik ki,respublikada pul kütləsinun tənzimlənməsi, dövlətin maliyyə təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə pul tədavülünün normallaşdırılması,mərkəzdə və regionlarda stabil fəaliyyət göstərən kredit-hesablaşma bazasının olması, eləcə də iqtisadiyyatın inkişafı sahəsində aparılan tədbirlərin həyata keçməsindən çox asılıdır.

Beləliklə, maliyyə təhlükəsizliyi pul siyasətinin həyata keçirilməsinin vacib aspektidir, çünki davamlı iqtisadi artım üçün vacib olan maliyyə sistemində sabitliyi təmin edir. Pul siyasətinin həyata keçirilməsində maliyyə təhlükəsizliyini təmin etməyin bəzi yolları aşağıdakılardır:

**Düzgün tənzimləmə və nəzarət:** mərkəzi banklar maliyyə institutlarının müəyyən edilmiş təlimat və qaydalara əməl etməsini təmin etmək üçün güclü tənzimləyici və nəzarət çərçivəsinə malik olmalıdırlar. Bura bankların maliyyə sağlamlığına, risklərin idarə edilməsi təcrübəsinə və çirkli pulların yuyulmasına qarşı qanunlara riayət olunmasına nəzarət daxildir.

**Effektiv risklərin idarə edilməsi**: mərkəzi banklar maliyyə institutlarının maliyyə qeyri-sabitliyi ilə nəticələnə biləcək həddən artıq risklərin qarşısını alan tədbirlər həyata keçirməklə riskləri effektiv şəkildə idarə etməlidirlər. Buraya kapitalın adekvatlığına dair tələblərin həyata keçirilməsi, risk limitlərinin müəyyən edilməsi və təşkilatların likvidlik mövqelərinin monitorinqi daxildir.

**Güclü ödəniş və hesablaşma sistemləri:** mərkəzi banklar ödəniş və hesablaşma sistemlərinin etibarlı və səmərəli olmasını təmin etməlidirlər, çünki bu, maliyyə sabitliyini qorumaq üçün vacibdir. Buraya böyük həcmdə əməliyyatları idarə edə və onları vaxtında və səmərəli şəkildə həll edə bilən təhlükəsiz ödəniş sistemlərinin olması daxildir.

**Şəffaflıq və kommunikasiya:** mərkəzi banklar pul siyasəti qərarlarını və hərəkətlərini şəffaf şəkildə ictimaiyyətə və maliyyə bazarlarına çatdırmalıdırlar. Bu, mərkəzi bankın maliyyə sabitliyini qorumaq qabiliyyətinə inamı artırmağa kömək edir və maliyyə sisteminə inamı artırır.

**Əməkdaşlıq və əlaqələndirmə:** mərkəzi banklar pul siyasətinin həyata keçirilməsinin daha geniş iqtisadi məqsədlərə uyğun olmasını təmin etmək və tənzimləyici arbitrajın qarşısını almaq üçün tənzimləyicilər və dövlət qurumları kimi digər müvafiq orqanlarla əməkdaşlıq etməlidir.

Bu tədbirləri həyata keçirməklə mərkəzi banklar davamlı iqtisadi artım üçün vacib olan maliyyə təhlükəsizliyini və sabitliyi təmin edə bilərlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. K.S.Dəmirli. Azərbaycan Respublikasının monetar siyasəti.Elmi iş(beynəlxalq elmi jurnal)

2020, № 05/54 (s.103)
3. E.Rəşid. İqtisadi siyasət. SMİ, 2023(s. 20)
4. Клоков Е. А. Финансовая безопасность государства: сущность и современные угрозы. – 2010. (с.45)
5. Истомина Н. А., Смородина Е. А., Одинокова Т. Д., Долганова Ю. С. Финансовые и денежно-кредитные методы регулирования экономики. – 2020.

***Ариф Азер оглы Мустафаев***
***докторант, Азербайджанского Университета Кооперации***
***mustafayev.arif1996@gmail.com***

**Обеспечение финансовой безопасности при реализации денежно-кредитной политики**

***Резюме***

Финансовая безопасность в денежно-кредитной сфере является важным аспектом политической и экономической стабильности. Финансовая безопасность в денежно-кредитной сфере государства обеспечивает его независимость. Финансовая безопасность, характеризуемая состоянием экономики страны и защищенностью от угроз в финансовой сфере, предопределяет стабильные условия жизни населения страны.

***Ключевые слова: денежно-кредитная сфера, финансовая безопасность, экономическая безопасность, финансово-экономическая политика, ценовая стабильность.***

***Arif Azer Mustafayev***
***Doctoral student of Azerbaijan University of Cooperation***
***mustafayev.arif1996@mail.com***

***Ensuring financial security in the implementation of monetary policy***

***Summary***

Financial security in the monetary sphere is an important aspect of political and economic stability. Financial security in the monetary sphere of the state ensures its independence. Financial security, characterized by the state of the country's economy and protection from threats in the financial sector, predetermines stable living conditions for the country's population.

***Key words: monetary sphere, financial security, economic security, financial and economic policy, price stability.***

**UOT**

***Ramil Əlöysəd oğlu ƏSGƏROV***
***Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı***
***E-mail: ramil_asgarov@mail.ru***

**KƏND TƏSƏRRÜFATINDA BİZNES MÜHİTİNİN İNKİŞAFINA AQRAR RİSKLƏRİN TƏSİRİ**

***Xülasə***

Məlum olduğu kimi, kənd təsərrüfatı iqisadiyyatın mühüm və streateji əhəmiyyətli sahəsi olub, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm prioritetləri özündə əks etdirir. Məhz kənd təsərrüfatı məhsullarının istehsalı ərzaq bazarında bolluğun təmin edilməsinə öz təsirini göstərir və qiymətlərin səviyyəsinin sabitləşdirilməsində mühüm rol oynayır. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında əlverişli iqtisadi şəraitin, o cümlədən əlverişli biznes mühitinin yaradılması mühüm strateji əhəmiyyət kəsb edir.

***Açar sözlər: biznes mühiti, aqrar risklər, qloballaşma, iqtisadi faktorlar, sosial faktorlar, konyunktur faktorlar.***

***

Kənd təsərrüfatında əlverişli biznes mühitinin yaradılması mahiyyət etibarilə sahəyə investisiya qoyuluşunun artmasında, xarici investorların sahəyə cəlb olunmasında da mühüm rol oynayır. Kənd təsərrüfatının səciyyəvi cəhətlərindən biri də bu sahədə istehsal prosesinin kifayət qədər riskli xarakter daşımasıdır. Kənd təsərrüfatının risklərlə zəngin olması prinsip etibarilə geniş təkrar istehsal prosesinin nəticələrinə də öz təsirini göstərir. Bu baxımdan, sözü gedən məqalədə kənd təsərrüfatında biznes mühitinin inkişafına aqrar risklərin təsiri ilə bağlı məsələlər öz geniş əksini tapmışdır.

Biznes mühiti dedikdə, ilk növbədə biznes fəaliyyətinin inkişafı üçün zəruri olan platformanın formalaşdırılması başa düşülür. Kənd təsərrüfatında iqtisadiyyata biznes mühitinin tərkib elementlərinə istehlakçıların fəaliyyətini, istehlakçıların sosial motivasiyasını, rəqabət aparan təsərrüfat subyektlərinin sahənin inkişafında rolunu, dövlətin həyata keçirdiyi iqtisadi siyasəti və s. şamil etmək olar. Nəzərə almaq lazımdır ki, qloballaşma şəraitində hər bir ölkənin milli iqtisadiyyatı kifayət qədər liberal xarakter daşıyır və bu liberallıq nəticə etibarilə əmtəələrin, kapitalın, texnologiyaların, işçi qüvvəsinin sərbəst hərəkətini özündə əks etdirir. Odur ki, biznes mühiti anlayışı kifayət qədər şəffaf və liberal bir səciyyə daşıyır.

İqtisadiyyatın mühüm və strateji əhəmiyyət kəsb edən sahələrindən biri kimi kənd təsərrüfatında biznes mühitinin inkişaf etdirilməsi və həmin mühitin əlverişli xarakter daşıması son nəticədə geniş təkrar istehsalın müvəffəqiyyətlə gerçəkləşdirilməsinə öz təsirini göstərir. Kənd təsərrüfatında əlverişli biznes mühitinin yaradılması aşağıdakı arqumentlər baxımından mühüm strateji əhəmiyyət kəsb edir:

- kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsi;
- kənd təsərrüfatının maliyyə nəticələrinin rentabelliklə yekunlaşması;
- ərzaq təhlükəsizliyinin təmin edilməsi və idxaldan asılılığının aradan qaldırılması;
- kənd təsərrüfatında rəqabət qabiliyyətli məhsul istehsalının həyata keçirilməsi;
- kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi.

Dünya iqtisadiyyatının qloballaşması, o cümlədən qlobal bazarların formalaşması və qlobal rəqabət mühitinin mövcudluğu da mahiyyət etibarilə hər bir ölkənin iqtisadiyyatına, o cümlədən iqtisadiyyatın mühüm və strateji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatının inkişafına və kənd təsərrüfatında biznes münasibətlərinin formalaşmasına öz təsirini göstərir. İqtisad elmlər doktoru, professor, əməkdar elm xadimi Bəyalı Ataşovun fikrincə, qloballaşmaqda olan dünyada aqrar sahənin əsas tərkib hissəsi olan kənd təsərrüfatının mövcud problemlərinin aradan qaldırılması əsasında qarşıdakı 10-15 ildə sahənin inkişafına ölkənin ərzaq müstəqilliyinin təmin edilməsi baxımından yanaşılması mühüm əhəmiyyət kəsb edir. Bu zaman ilk vəzifə ölkə əhalisini yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin etməkdən ibarət olmalıdır [1, s. 80].

Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, eyni zamanda onu da əlavə etmək istərdik ki, qloballaşma prosesinin dərinləşməsi, o cümlədən qlobal rəqabət mühitinin mövcudluğu və bu mühitdə inkişaf etmiş gücləri təmsil edən transmilli korporasiyaların mövcudluğu, prinsip etibarilə aqrar sahədə biznes mühitinə də təsirsiz ötüşmür. Artıq aqrar sahədə biznes mühiti nəinki daha çox daxili biznes amillərinin təsirinə məruz qalır, eyni zamanda aqrar sahənin inkişafında qlobal biznes mühiti və onun tərkib elementləri də əhəmiyyətli xüsusi çəkiyə malik olmaqdadır. Fikrimizcə, kənd təsərrüfatında biznes mühitinin inkişafından bəhs edərkən daha çox qlobal biznes mühiti üzərində vurğunu gücləndirmək daha doğru olardı. Çünki artıq qloballaşma prosesi demək olar ki, hər bir ölkənin milli iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərir və ərzaq bazarında bu və ya digər konyunktur dalğalanmaları doğurur.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında biznes mühitinin daxili və xarici mühit faktorları fərqləndirilsə də, daxili mühit faktorlarında elə bir əhəmiyyətli dəyişiklik müşahidə edilmir. Əsas etibarilə xarici mühitin təzahürləri kifayət qədər qloballaşır ki, bu baxımdan kənd təsərrüfatında biznes mühitinin xarici təzahürlərinə daha çox qlobal biznes mühiti anlamında ifadə etmək daha doğru olardı.

Qeyd etmək lazımdır ki, müasir şəraitdə dünya iqtisadiyyatının qloballaşması, qlobal bazarların

formalaşması və qlobal rəqabət mühitinin təsir gücünün yüksəldiyi şəraitdə kənd təsərrüfatında qlobal biznes mühitini şərtləndirən kifayət qədər çoxsaylı qlobal amillər mövcuddur. Onları da kənd təsərrüfatında qlobal biznes mühitinin faktorları kimi səciyyələndirmək mümkündür. Beləliklə, kənd təsərrüfatında qlobal biznes mühitini aşağıdakı kimi təsnifləşdirmək olar:

- qlobal iqtisadi faktorlar;
- qlobal konyunktur faktorları;
- qlobal sosial faktorlar;
- qlobal texnoloji faktorlar;
- qlobal informasiya faktorları;
- qlobal təbii faktorlar;
- qlobal ekoloji faktorlar;
- qlobal hüquqi faktorlar.

Qlobal xarici mühitin iqtisadi amilləri bütövlükdə maddi istehsalın vəziyyətinə və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Elmi ədəbiyyatda bu amillərin təsirinin təhlili əsasən onların təsirinin kəmiyyəti statistik olaraq ifadə edilmiş arqumentləşdirmə olmadan qiymətləndirmək fikrində təqdim olunur. Qarşıda duran vəzifə kənd təsərrüfatı sənayesinə təsir səviyyəsini və təsir dərəcəsini qiymətləndirməyə imkan verəcək göstəriciləri seçməklə, bu cür inkişafın özünəməxsus çatışmazlıqlarını aradan qaldırmaqdan ibarət olmalıdır [2. s.71].

Qlobal iqtisadi faktorlara ilk növbədə maliyyə kredit münasibətlərini aid etmək olar ki, bu zaman bank kreditlərinin faiz dərəcəsi, eləcə də maliyyə sistemində baş verən dəyişiklikləri və s. şamil etmək olar ki, bütün bunlar geniş təkrar istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Kənd təsərrüfatında faiz dərəcələrinin yüksək olması, bütövlükdə sahənin geniş təkrar istehsal rejimində fəaliyyət imkanlarını əngəlləyir. Odur ki, kənd təsərrüfatı elə bir sahədir ki, bu sahənin güzəştli şərtlərlə kreditləşdirilməsi mühüm əhəmiyyətə malikdir və belə bir şəraitdə kənd təsərrüfatı əmtəə istehsalçıları öz maliyyə nəticələrini rentabelliklə başa vura bilirlər. Qlobal konyunktur amillərinə gəldikdə isə, ilk növbədə qlobal bazarlarda baş verən konyunktur dəyişiklikləri kənd təsərrüfatına öz təsirini göstərir. Nəzərə almaq lazımdır ki, liberallaşma şəraitində dünya bazarında baş verən dəyişikliklər bu və ya digər şəkildə daxili ərzaq bazarına da təsirsiz ötüşmür və xüsusilə bu tendensiya idxaldan əhəmiyyətli dərəcədə asılı olan ölkələr üçün kifayət qədər təhdid mənbəyinə çevrilir. Qlobal sosial amillər isə ilk növbədə əhalinin həyat səviyyəsi, məşğulluğu ilə sıx bağlıdır. Bundan əlavə, əhalinin alıcılıq qabiliyyətinin mövcud durumu da bazarlardan əlçatan səviyyədə istifadə edilməsi, aztəminatlı əhali kateqoriyalarının bazarlara daxil olmaqla həmin bazarlardan yararlanmaq imkanlarını özündə əks etdirir.

Qlobal texnoloji amillərə gəldikdə isə, qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiqi, rəqəmsal iqtisadiyyatın imkanları, post-sənaye cəmiyyətinin təzahürləri kənd təsərrüfatında kifayət qədər fərqli situasiya yarada bilir. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələr bu situasiyadan nəzərəçarpacaq dərəcədə bəhrələnirlər və bu da məhsuldarlığın səviyyəsinin yüksəlməsinə təsir göstərir. İnkişaf etməkdə olan ölkələrdə isə texnoloji proseslərin zəif inkişafı, eləcə də istehsal prosesində hələ də ekstensiv faktorların təsir gücünün yüksək olması və əl əməyindən istifadə məhsulun maya dəyərinin yüksəlməsinə səbəb olur və bu da rəqabət qabiliyyətinin aşağı düşməsinə təsirsiz ötüşmür.

Qlobal təbii amillərə gəldikdə isə, bu zaman daha çox iqlim dəyişikliklərini nəzərə almaq vacibdir ki, iqlim dəyişiklikləri kənd təsərrüfatında həm də risklər doğurur. Qlobal ekoloji faktorlar isə onunla bağlıdır ki, ekologiyanın çirklənməsi, ətraf mühitin yetərincə qorunmaması və digər bu kimi proseslər kənd təsərrüfatına da təsirsiz ötüşmür. Bu proseslər son nəticədə kənd təsərrüfatında torpaqların iqtisadi dövriyyədən çıxmasına, şoranlaşma və digər bu kimi hallara səbəb olur. Qlobal hüquqi faktorlar isə ilk növbədə, beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklərlə, ölkələrə tətbiq edilən embarqo, eləcə də digər siyasi şərtlərin gərginləşməsi zəminində özünü biruzə verir və bu tendensiyalar iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında kifayət qədər destruktiv situasiya formalaşdırır.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatı iqtisadiyyatın elə bir sahəsidir ki, bu sahə üçün risklərin baş verməsi bütövlükdə geniş təkrar istehsal prosesinin nəticələrinə təsir göstərir və bu

təsir son nəticədə kənd təsərrüfatı əmtəə istehsalçılarının müflisləşməsinə və urbanizasiya prosesinin dərinləşməsinə səbəb olur.

Məlum olduğu kimi, risklər nəticəsi əvvəlcədən məlum olmayan hadisə və proseslərin məcmusunu özündə ehtiva edir.

Kənd təsərrüfatında biznes mühitinin inkişafına təsir göstərən riskləri əsas etibarilə iki aspektdə təsnifləşdirmək mümkündür. Bunlardan birincisi, bütövlükdə aqro-biznes mühitinə təsir göstərən aqrar riskləri aid etmək olar. İkinci risk kateqoriyasına isə, qlobal riskləri şamil etmək olar. Aqrar risklər bir qayda olaraq, sahənin daxilində yaranır. Eyni zamanda, dövlətlə bağlı qarşılıqlı münasibətlər sistemində formalaşır, sahələrarası iqtisadi əlaqələr aspektində də özünü büruzə verir. Daha doğrusu, bu risk kateqoriyasına ilk növbədə, ölkədaxili münasibətlər sistemində yaranan riskləri şamil etmək mümkündür. Qlobal risklər isə əsas etibarilə ölkə daxilində formalaşmır və bir qayda olaraq, bütövlükdə xarici amillərin təsirini özündə əks etdirir.

Kənd təsərrüfatında biznes mühitinin inkişafına təsir göstərən aqrar risklərə ilk növbədə, təbii riskləri şamil etmək mümkündür. Təbii risklərə təbii iqlim şəraitinin əlverişsiz keçməsi səbəbindən kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsini, eləcə də müxtəlif qlobal iqlim dəyişiklikləri fonunda yarana bilən destruktiv tendensiyaları və ən nəhayət, torpaqların deqradasiyası fonunda yarana bilən destruktiv təzahürləri şamil etmək olar. Ümumiyyətlə, aqrar risklər bir sıra hallarda sahələrarası münasibətlər sistemində yaranan destruktiv tendensiyalardan da qanaqlanır. Belə ki, kənd təsərrüfatı ilə sənaye müəssisələri arasında əvvəllər də mövcud olmuş qiymət spartetlərinin daha kəskin şəkildə təzahür etməsi, bundan əlavə kənd təsərrüfatının digər sahələrdən, eləcə də yanacaq-enerji kompleksinin, maşınqayırma sektorunun fəaliyyətindən asılılığını aid etmək olar. Eyni zamanda kənd təsərrüfatı məhsulları ilə sənaye məhsulları arasında qeyri-ekvivalent müdaxilə də yaranan riskləri səciyyələndirir.

Kənd təsərrüfatında biznes mühitinin inkişafına təsir göstərən qlobal riskləri isə daha çox xarici ticarət aspektində dəyərləndirmək mümkündür ki, bu zaman xarici ticarət şərtlərinin dəyişməsi, eləcə də idxal-ixrac münasibətlərinin dəyişməsini, digər ölkələrin iqtisadiyyatına münasibətdə tətbiq edilən xarici iqtisadi təsir mexanizmlərini aid etmək olar. Ümumiyyətlə, istər daxili və istərsə də qlobal risklər kənd təsərrüfatında biznesin inkişafına əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Məsələ burasındadır ki, həmin risklər effektiv şəkildə sığortalanmadığı şəraitdə artıq təhdid mənbəyinə çevrilir və bu da aqrar sahədə geniş təkrar istehsal prosesinin maliyyə nəticələrini əhəmiyyətli dərəcədə əngəlləyir.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, istər daxili risklərin, istərsə də qlobal risklərin kənd təsərrüfatında biznes mühitinin inkişafına təsiri əslində ixtisaslaşma səviyyəsindən və eləcə də kooperativ münasibətlər sisteminin inkişaf səviyyəsindən asılı olaraq fərqli xarakterə malikdir. Məsələn, inkişaf etmiş kənd təsərrüfatı istehsalı və sahibkarlıq fəaliyyətinə böyük dəstəyi olan ölkələrdə, o cümlədən ABŞ, Fransa, Böyük Britaniyada ixtisaslaşma səviyyəsi kifayət qədər yüksəkdir. Vyetnam kimi inkişaf etməkdə olan ölkələrdə isə fermer təsərrüfatları çox vaxt ixtisaslaşmanı diversifikasiya (şaxələndirmə) ilə birləşdirir. Çünki bu təbii fəlakətlər və bazar daxilolmaları risklərini məhdudlaşdırmağa kömək edir. Kənd təsərrüfatı resurslarından, torpaqdan və işçi qüvvəsindən nisbətən səmərəli istifadə etməyə əlverişli şərait yaradır [3, s.21]

Fikrimizcə, kənd təsərrüfatında biznes münasibətlərinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi prinsip etibarilə istər aqrar, istərsə də qlobal risklərdən əmtəə istehsalçılarının sığortalanmasında əhəmiyyətli rol oynaya bilər. Məsələ burasındadır ki, həm aqrar riskləri, həm də sahələrarası münasibətlər zəminində yarana bilən riskləri, ən nəhayət kənd təsərrüfatı əmtəə istehsalçılarının imkanları daxilində sığortalamaq mümkün deyildir. Bütövlükdə kənd təsərrüfatının riskli xarakterə malik olması baxımından aqrar sahənin inkişaf etdirilməsini qarşısına məqsəd qoyan ölkələr kifayət qədər effektiv sığorta mexanizmləri tətbiq etməlidirlər.

Hökümət dəstəyi məqsədlərdən asılı olaraq məhsuldarlığın artırılmasına (texnoloji tərəqqinin nailiyyətlərini nümayiş etdirməklə və istehsalı optimallaşdırmaqla), aqrar sektorda məşğulluğun təmin edilməsinə və kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilir, o cümlədən daxili bazarın inkişafı və istehlakçıların ərzaq məhsulları ilə əlçatan səviyyədə təmin edilməsinə şərait yaradır [4, s.50-51].

İstehsal və biznes prosesində riskləri azaltmaq üçün təsərrüfatlar bir-biri ilə kooperasiyanın ən yüksək formada olduğu aşağıdan yuxarıya müxtəlif formalarda əməkdaşlıq edirlər. Beləliklə, Böyük Britaniya, Fransa, Almaniya, Hollandiya, İspaniya, Portuqaliya, Danimarka, Kanada, İsveç kimi ölkələrdə təşkilati strukturlarda və kənd təsərrüfatı istehsalında mühüm yer tutan kooperativ hərəkatı məhz bütün bunların nəticəsində geniş vüsət almışdır [4, s.54].

Dünya təcrübəsi göstərir ki, Avropada kənd təsərrüfatında bir çox kooperativ formaları fəaliyyət göstərir. Kapitalın, metarialların, texnologiyanın tədarükü, kənd təsərrüfatı xidmətləri, təlim, elmi tədqiqatlar, kənd təsərrüfatı məhsullarının emalı və məhsulların istehlakı istiqamətində kooperativlər mövcuddur. Hər bir təsərrüfat eyni vaxtda bir çox müxtəlif kooperativlərə qoşula bilir. Belə ki, fermer kooperativləri vasitəsilə kənd təsərrüfatı məhsullarının təxminin məhz 1/3-i reallaşdırılır [5, s. 29]. Bu baxımdan Yaponiyada kooperasiya münasibətləri kifayət qədər geniş yayılmışdır ki, məhz onun köməyi ilə də fermerlər lazımi baytarlıq və aqronomluq xidmətləri almaqla yanaşı, onların gübrə, texnika, yem, dərman, alaq otlarına tələbatlarının ödənilməsi də məhz həmin kooperativlər vasitəsilə gerçəkləşdirilir [6, s.39-40].

Ümumiyyətlə, yuxarıda adı çəkilən müəlliflərin fikirlərinə münasibət bildirərkən qeyd etməliyik ki, kooperativlərin yaradılması və inkişafı həm kənd təsərrüfatında biznes münasibətlərinin inkişafına əlverişli təsir göstərir, eyni zamanda risklərin yalnız bir fərdi subyektin, yəni yalnız bir sahibkarın üzərinə düşməsinin qarşısını alır. Bu zaman həm də risklərin paylanması prosesi baş verir. Risklərin paylanması prosesində isə sahibkarın konkret olaraq zərərə uğraması, onların iri həcmdə zərərlərə məruz qalması prosesləri müşahidə edilmir. Bundan əlavə, kənd təsərrüfatında yarana bilən risklərdən sığortalanmaq məqsədi ilə aqrar sığorta sistemlərinin fəaliyyəti də genişləndirilməlidir və bunun hesabına kənd təsərrüfatı əmtəə istehsalçılarının səmərəli fəaliyyətini həyata keçirmək mümkündür və eyni zamanda kənd təsərrüfatına xarici kapitalın cəlb edilməsinə, xarici texnologiyaların cəlb edilməsinə, birgə əməkdaşlıq formalarının təşkilinə geniş yer vermək mümkündür.

## ƏDƏBİYYAT


1. B.X.Ataşov. "Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika)", Bakı 2017, "Kooperasiya" nəşriyyatı, 536 s.
2. Л.И.Теньковская, Ф.З.Мичурина. Методология и методика исследования влияния внешней среды на сельскохозяйственное производство. Монография. Перим 2017, с. 480. с
3. Nguyen, D.H. The current situation and solutions for the development of animal husbandry during the period of industrialization and modernization of the country of Vietnam. Hanoi [Tekushchaya situatsiya i resheniya dlya razvitiya zhivotnovodstva v period industrializatsii I modernnizatsii strany V'yetnam]: National Policy, 2000. 303s.
4. Nikita, A.A. Development of peasant (farm) farms: on the example of the Republic of Bashkortostan [Razvitiye krest'yanskikh (fermerskikh) khozyaystv: na prinmere Respubliki Bashkortostan]: dissertation for the degree of candidate of economic sciences. Ufa, 2006, 233 s.
5. Feronova, A.V. İncreasing the economic efficiency of the functioning of peasant (farmer) households [Povysheniye ekonomicheskoy effektivnosti funktsionirovaniya krest'yanskikh (fermerskikh) khozyaystv]: a dissertation for the degree of candidate of economic sciences. Stavropol, 2008, 203 s.
6. Bakhteev, A.Yu. Organizational and economic mechanism for attracting investment resources to small forms of managment of the regional agro-industrial complex [Organizatsionno-ekonomicheskly mekhanizm privicheniya investitsionnykh resursov v malyyeformy khozyaystvovaniya regional'nogo APK]: dissertation for the degree of candidate of economic sciences. Moscow, 2013. 149 s.

***Рамиль Алоисад оглы Аскеров***
***докторант, Азербайджанского Государственного***
***Аграрного Университета***
***e-mail: ramil_asgarov@mail.ru***

**Влияние аграрных рисков на развитие деловой среды в сельском хозяйстве**

***Резюме***

Как известно, сельское хозяйство является важной и стратегически важной сферой экономики и отражает важные приоритеты в обеспечении продовольственной безопасности страны. Именно производство сельскохозяйственной продукции влияет на обеспечение изобилия на продовольственном рынке и играет важную роль в стабилизации уровня цен. С этой точки зрения создание благоприятных экономических условий в сельском хозяйстве, в том числе благоприятной деловой среды, имеет стратегическое значение в условиях рыночной экономики.

***Ключевые слова: бизнес-среда, аграрные риски, глобализация, экономические факторы, социальные факторы, конъюнктурные факторы.***

***Ramil Aloysat Asgarov***
***doctoral student Azerbaijan State***
***Agricultural University***
***e-mail.Ramil_Asgarov@mail.ru***

**The impact of agrarian risks on the development of the business environment in agriculture**

***Summary***

As it is known, agriculture is an important and strategically important area of the economy, and it reflects important priorities in ensuring the country's food security. It is the production of agricultural products that has its effect on ensuring abundance in the food market and plays an important role in stabilizing the price level. From this point of view, the creation of favorable economic conditions in agriculture, including a favorable business environment, is of strategic importance in the market economy.

***Key words: business environment, agrarian risks, globalization, economic factors, social factors, conjunctural factors.***

**UOT 33.338.1**

***Ülkər Şahin qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universiteti, dissertant***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim***
***ORCID-ID 0009-0007-8962-2859***
***ulker555@mail.ru***

## KƏND TƏSƏRRÜFATININ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN YOLLARI

***Xülasə***

Məqalədə kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması kontekstində, sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi imkanları tədqiq olunmuşdur. Sahədə investisiya cəlbediciliyinin yüksəldilməsi imkanları qiymətləndirilmişdir, praktiki baxımdan daha önəmli olan amillər, yəni investor, fəaliyyət istiqaməti və vəsait qoyuluşunda məqsədlər nəzərə alınmışdır. İnvestisiya qərarları hazırlanarkən mövcud maliyyə resursları, müəyyən edilmiş investisiya tələ-

batı, yüksək ehtimallı risklər və bir sıra bu kimi digər amillər səciyyələndirilmişdir, dövlətin aqrar sahədə investisiya siyasətinin prioritetləri araşdırılmışdır.

***Açar sözlər: kənd təsərrüfatı, investisiya cəlbediciliyi, maliyyə təminatı, investor, aqrar sahə.***

***

Kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması istiqamətlərindən biri kimi sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsi və həmin imkanların reallaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi müasir dövrün aktual problemlərindən biri kimi diqqət mərkəzindədir. Azərbaycanda bu problemin təxirəsalınmaz həllinin zəruriliyi müvafiq dövlət sənədlərində öz əksini tapmışdır.

İnvestisiya cəlbediciliyi bu və ya digər fəaliyyət sahəsində maliyyə təminatı və maliyyəyə çıxışın asanlaşdırılması baxımından mühüm amildir. İnvestisiya cəlbediciliyi anlayışına ümumilikdə, o cümlədən kənd təsərrüfatı subyektlərinə münasibətdə, hələ ki, əksəriyyət tərəfindən birmənalı qəbul edilən vahid yanaşma yoxdur. Müvafiq mənbələrdə, adətən investisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarının araşdırılması prosesində, bu anlayışa iqtisadi və maliyyə müstəvisində yanaşmalar fərqləndirilir. Bu baxımdan, zənnimizcə, aşağıdakı yanaşma diqqətəlayiqdir.

"İqtisadi baxımdan investisiya cəlbediciliyi müəssisənin investisiya tələbini nümayiş etdirməsinə imkan verən obyektiv xüsusiyyətlərin məcmusu kimi qəbul edilə bilər. Yəni investisiya cəlbediciliyi investora müəssisəyə investisiya qoyuluşunun zəruriliyini və prioritetliyini qiymətləndirməyə imkan verən bir sıra əlamətlərdir. İnvestor üçün "investisiya cəlbediciliyi" konsepsiyasının maliyyə tərəfi, ilk növbədə, kapitalın strukturunun formalaşmasının keyfiyyətini və səmərəliliyini, maliyyələşdirmə mənbələrinin seçilməsini və şirkətin likvidlərinin, ödəmə qabiliyyətinin, investisiya fəaliyyəti ilə əlaqədar risklərinin idarə edilməsini əks etdirir. Bu yanaşma qurumun investisiya cəlbediciliyi səviyyəsini təsdiqləmək üçün maliyyə nisbətlərinin hesablanmasını nəzərdə tutur" [6].

Göründüyü kimi investisiya cəlbediciliyi investorun marağından tutmuş, kapitalın strukturunun formalaşmasının keyfiyyəti və səmərəliliyinə qədər olduqca geniş diapazonda amillərin məcmu təsirinin təzahürü və göstəricisi kimi mühüm rola malikdir. İnvestisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarını qiymətləndirərkən, praktiki baxımdan daha önəmli olan amillər, yəni investor, fəaliyyət istiqaməti və vəsait qoyuluşunda məqsəd nəzərə alınmalıdır. Təsadüfi deyildir ki, müvafiq mənbələrdə investisiya cəlbediciliyini səciyyələndirərkən bu amillərin nəzərə alınması tövsiyə olunur. "İnvestisiya cəlbediciliyinin investorun tipini, şirkətin profilini və hazırkı anda investisiya məqsədlərini nəzərə alan tərifinə üstünlük verilməlidir" [4, s. 843].

İnvestisiya cəlbediciliyinə iqtisadi və maliyyə müstəvisində yanaşmaya belə diqqət verilməsinin səbəbi, onun yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsində investisiya tələbi və onun reallaşdırılması, investor qərarlarının əsaslandırılması, risklərin idarə edilməsi və bir sıra digər istiqamətlərdə təkmilləşdirmə imkanlarına münasibəti aktuallaşdırmaqdır. Həmin münasibətlərin, iqtisadi fəaliyyətin müxtəlif mərhələlərində kəmiyyətcə və keyfiyyətcə qiymətləndirilməsi, investisiya cəlbediciliyinin start vəziyyətini xarakterizə etməyə imkan verir.

Sahədə optimal qərar qəbulunun təmin edilməsində rəqəmsal platformasından istifadə yüksək ehtimalla ciddi müsbət nəticələr verə bilər. Müvafiq mənbələrdə həmin nəticələr kimi aşağıdakılar qeyd edilir: "idarəetmədə qərar qəbulunun sistemləşdirilməsi və optimallaşdırılması; sahəyə dövlət investisiyalarının optimallaşdırılması; kiçik və orta biznesin inkişafı üçün platformaların yaradılması; xarici investisiyaların cəlb edilməsi üçün şəraitin yaxşılaşdırılması" [7].

İnvestisiya cəlbediciliyinin təmin edilməsi aqrar iqtisadiyyatın dinamik inkişafının həlledici şərtidir. Aqrar istehsal subyektinin investisiya cəlbediciliyi, ona vəsait qoyuluşunun məqsədəuyğunluğunu şərtləndirən mühit yaradan amillərin təsiri altında formalaşır. Sahənin investisiyaya artan tələbatının ödənilməsi səmərəli istehsal strukturunun formalaşdırılmasını tələb edir. Aqrar sahədə investisiya, innovasiya və struktur siyasəti prioritetlərinin birgəliyi, investisiya cəlbediciliyinə ciddi müsbət təsirə malik amildir.

Aqrar iqtisadiyyatda işgüzar fəallığın səviyyəsi, ilk növbədə iqtisadi subyektin maliyyə vəziyyətindən və investisiyaya olan tələbatın ödənilməsi səviyyəsindən, həmin səviyyə isə investisiya cəlbediciliyindən asılıdır. Sahəyə investisiya yönəldən investorun qərarı bir çox amillərin təsiri nəzərə alınmaqla qəbul edilir. Sahə və müəssisə səviyyəsində həmin amillərə subyektin marketinq

kompleksinə daxil olan investisiya məhsulu, qiymətin əmələgəlməsi, yayılma və kommunikasiya, rəqiblər, vasitəçilər, digər investorlar, habelə qərar qəbul edən investorun şəxsi xarakteristikaları aid edilməlidir [5].

İnvestisiya qərarları hazırlanarkən mövcud maliyyə resursları, müəyyən edilmiş investisiya tələbatı, yüksək ehtimallı risklər və bir sıra bu kimi digər amillər səciyyələndirilməli, dövlətin aqrar sahədə investisiya siyasətinin prioritetləri nəzərə alınmalıdır. Məlumdur ki, investisya fəaliyyətində gəlirlik səviyyəsi və risk ehtimalı, əksər hallarda düz mütənasibdir. Odur ki, hər bir investor üçün "vəsait qoyuluşu gəlirlik və risk dərəcəsi baxımından dövri surətdə təhlil olunmalıdır. Aktiv portfelə uyğun gəlmirsə, investor onu satmalı və daha münasib alətlər əldə etməlidir. Nəhayət investor dayanıb hər bir sent mənfəəti gözləməməlidir. Ən yüksək qiyməti gözləyən, adətən özünün vəsait qoyuluşlarının dəyərinin azalmasını müşahidə etməli olur" [9, s.869].

Kənd təsərrüfatının investisiya cəlbediciliyini azaldan, qeyri-aşkar amillər qismində, müvafiq mənbələrdə aşağıdakılar qeyd olunur: "müəssisələrin yüksək borc (kredit) yükü, innovasiya fəallığının aşağı səviyyəsi və köhnəlmiş texnologiyalardan istifadə, kənd təsərrüfatı müəssisələrinin və ümumilikdə sahənin idarə edilməsində köhnəlmiş yanaşmalardan istifadə və idarəetmənin qeyri-səmərəli təşkili. Aşağıdakı istiqamətlərdə institusional dəyişikliklər və islahatlar zəruridir: birincisi, aqrar-sənaye istehsalının texnoloji səviyyəsinin yüksəldilməsi hesabına sahə strukturunun dəyişdirilməsi; ikincisi, sahənin fəaliyyəti və inkişafı proseslərində dövlətin roluna yeni baxış (tədricən rəqabətin xeyrinə himayədarlıqdan imtina edilməsi)" [10, s.6].

İnvestisiya fəaliyyətinin, o cümlədən aqrar sahədə və aqrar-ərzaq sektorunda tənzimlənməsi azad bazar prinsiplərinə zidd olmamalı və rəqabət imkanlarını məhdudlaşdırmamalıdır. İnvestisiya mühitinin əlverişliyi investisiya proseslərinin tənzimlənməsi sisteminin səmərəliliyi ilə bilavasitə əlaqədardır. Belə ki, "investisiyaların tənzimlənməsi üçün maliyyə və kredit mexanizmi, investisiya münasibətlərinin müəyyən bir sahəsini əhatə edən vahid investisiya sisteminin ayrılmaz hissəsi kimi çıxış edir. Bu mexanizm maliyyə və investisiya institutlarının investisiya münasibətlərinə məqsədyönlü təsir imkanlarını təmin edir və maliyyə bazarının müxtəlif seqmentləri arasında nağd pul axınının yenidən bölüşdürülməsi üçün lazımi şərait yaradır" [8, s.336].

Aqrar sahədə investisiya cəlbediciliyinin hərtərəfli və obyektiv qiymətləndirilməsində maliyyə vasitəçiləri maraqlı tərəflərdir. Onların bu istiqamətdəki fəaliyyəti dövlətin investisiya siyasətinin reallaşmasına xidmət etməlidir. Odur ki, tənzimlənən investisiya sistemində prioritetlərin gerçəkləşməsində maliyyə vasitəçiliyi investisiyaların maliyyələşdirilməsi mexanizmini, sahənin əsaslı vəsaitlərə çıxışını asanlaşdırmaq istiqamətində təkmilləşdirilməlidir.

"Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri elmi təşkilatların, müəssisələrin, firmaların, şirkətlərin innovasiya fəallığının artırılmasıdır. Bu mərhələdə innovasiyanın inkişafının fərqli cəhəti daha proqressiv texnoloji proseslərə və çevik istehsalata tez bir zamanda keçiddir, bu da yeni rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsal etməyə imkan verir" [3, s.139].

Hazırda kənd təsərrüfatı istehsalının investisiya cəlbediciliyi onun məhsulunun xarici bazarlara çıxması imkanlarının reallaşdırılması səviyyəsi ilə əlaqədardır. Günümüzdə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyəti resursqoruyucu texnologiyaların tətbiqi səmərəliliyi ilə bilavasitə əlaqədardır. Məsələ ondadır ki, alternativ və bərpa olunan enerji mənbələrindən, ümumilikdə resursqoruyucu texnologiyalardan istifadəni nəzərdə tutan texnologiyaların tətbiqi üçün zəruri maliyyəyə çıxış üçün investisiya cəlbediciliyi yüksəldilməlidir.

Aqrar sahədə menecmentin yüksək keyfiyyəti onun investisya cəlbediciliyi üçün vacib amildir. Müəssisədə idarəetmənin bütün aspektlərində məsrəf-buraxılış nisbətinin sonuncunu xeyrinə dəyişməsi üçün görülən işlər nəticə yönümlü olduqda investorun bura marağı da artır.

Azərbaycanda kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi məqsədilə müvafiq investisiya infrastrukturunun inkişafı üçün zəruri təməl formalaşır. Belə ki, son iki onilliyə yaxın bir dövrdə ölkə regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları icra edilir. Belə ki, 2004-cü ildən başlayaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə üç dövlət proqramı uğurla yerinə yetirilmiş, hazırda isə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" icra edilir [1].

Aqrar sahədə investisiya infrastrukturunun mövcud vəziyyəti, son illər əhəmiyyətli müsbət dəyişikliklər olsa da, hələ də sahənin texnoloji təminatı baxımından qənaətbəxş sayıla bilməz. İlk növbədə onu qeyd edək ki, investisiya infrastrukturu innovasiyalı fəaliyyəti müşayiət edən risklərin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi baxımından təkmilləşdirilməlidir. Bu baxımdan, mühüm istiqamətlərdən biri investisiya infrastrukturunun innovasiyalı inkişaf tələblərinə uyğun səviyyəyə çatdırılması üçün məqsədli proqramların hazırlanması və icrası üçün müasir institusional təminatın formalaşdırılmasıdır.

İxrac potensialının dəstəklənməsi, ixracyönümlü istehsalın genişləndirilməsi sahənin investisiya cəlbediciliyinin yüksəldilməsinin mühüm istiqamətlərindən biridir.

Kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması üçün sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- investisiyaları daha səmərəli istifadə edən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi məsələsinə diqqətin artırılması;
- innovasiyalara açıq və yüksək texnoloji fəaliyyətə hazır aqrar sahibkarlar sinfinin formalaşdırılması;
- bazarın dəyişən tələblərinə adekvat reaksiya verə bilən, innovasiyalara, o cümlədən rəqəmsal innovasiyalara açıq və rəqabət qabiliyyətli fəaliyyət üçün investisiya tələbatı yarada bilən kadr hazırlığı;
- məhsullarına bazarın müvafiq seqmentində zəruri tələb olmayan müəssisələrin fəaliyyətinin şaxələndirilməsi və yeni istiqamətlərin axtarılması;
- aqrar xidmətlər, istehsal və sosial infrastrukturun inkişafı sayəsində kənd ərazilərinə investorların marağının artırılması;
- kənd ərazilərində xidmətlər bazarının inkişafının stimullaşdırılması.

Milli iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən kənd təsərrüfatının maliyyəyə çıxışının asanlaşdırılması baxımından investisiya fəallığının və cəlbediciliyinin artırılması makro, sahə, region və mikro səviyyələrdə koordinasiya edilən fəaliyyəti obyektiv zərurətə çevirir.

"İqtisadiyyatın rəqəmsallaşmasında həlledici rola malik informasiya sistemlərinin, data mərkəzlərin yaradılması və istifadəsinə özəl investisiyaların cəlb edilməsi, başqa sözlə dövlət-özəl bölmə tərəfdaşlığı (DÖBT) sayəsində, yüksək ehtimalla rəqəmsal iqtisadiyyatın gəlirliyini artırmaq olar. Burada özəl bölməni fəallaşdırmaq üçün motiv vardır. Belə ki, dövlətlə rəqəmsal sektorda tərəfdaşlıq edən özəl bölmə təmsilçisi kredit reytinqinin yüksəlməsi və istehsal güclərindən istifadə üzrə qazandığı uzunmüddətli zəmanət sayəsində, rəqabət qabiliyyətinin əsası olan innovasiyalı fəaliyyət imkanı əldə etmiş olacaqdır" [2, s. 42].

Aqrar iqtisadiyyatın investisiya cəlbediciliyinin artırılması, təbii ki, investorların maraqlarının dəstəklənməsi ilə müşayiət edilməlidir. Bu məqsədlə, əlverişli üsullar və alətlər seçilməli, sahədə investisiya layihələrinin yerinə yetirilməsinə yönəldilən kreditlərə vergi güzəştləri imkanları nəzərdən keçirilməlidir. İnnovasiya maliyyələşməsi prosesi istehsalda məhsul innovasiyaları ilə bitməməli, həmin məhsulların daxili və xarici bazarlarda hərəkətini asanlaşdıran innovasiyalar da əsaslı vəsait qoyuluşu obyekti olmalıdır. Bu məqsədlə istehsaldan istehlaka qədər bütün mərhələlərdə iştirak edən iqtisadi subyektlərin investisiya tələbatı monitoriqlərin obyekti olmalıdır.

Kənd təsərrüfatı subyektlərinin investisiyaya əlyetərliyi imkanlarının genişləndirilməsi baxımında bankların investisiya yönümlü fəaliyyətinin gücləndirilməsi mühüm əhəmiyyətə malikdir. Ölkənin regionlarında bank şəbəkəsinin və xidmətlərinin genişləndirilməsi, aqrar sahənin imkanları baxımından girov mexanizminin yenidən nəzərdən keçirilməsi, bank-investisiya xidmətləri mexanizminin təkmilləşdirilməsi kənd təsərrüfatının investisiyaya tələbatının ödənilməsi səviyyəsini yüksəldə bilər.

Kənd təsərrüfatında investisiya mühitinin yaxşılaşdırılması məqsədilə alternativ maliyyə alətlərindən (fyuçers, forvard, faktorinq, opsion) fəal istifadə perspektivli istiqamətdir. Bununla belə, həmin alətlərdən istifadə mühiti, hələ ki, ən ilkin təşəkkül mərhələsindədir. Odur ki, fyuçers, forvard, faktorinq, opsion fyuçers, forvard, faktorinq və digər bazar seqmentlərinin inkişafı məqsədi ilə müvafiq inkişaf proqramlarının hazırlanması tövsiyə olunur. Əlbəttə, ölkədə alternativ maliyyə

alətləri bazarının inkişaf proqramlarında, tənzimləmənin hüquqi bazasının təkmilləşdirilməsi nəzərdə tutulmalı, həmin alətlərin tətbiqi mexanizmləri yaradılmalı, zəruri infrastruktur formalaşdırılmalıdır.

Kənd təsərrüfatında texnoloji innovasiya fəaliyyətinin əhatə dairəsi mütərəqqi texnologiyaların, maşın və avadanlıqların lizinqə verilmə şərtlərinin sahə xüsusiyyətləri nəzərə alınmaqla optimallaşdırılması rəqabət qabiliyyətinin təmin edilməsi baxımından mühüm müsbət nəticələr verə bilər. Lizinqə əlçatanlığın asanlaşdırılması, ilk növbədə normativ-hüquqi bazada müvafiq təkmilləşdirmələri nəzərdə tutmalıdır. Kənd təsərrüfatında lizinq xidmətinin inkişafı, müvafiq tənzimlənmə sistemi rəqəmsal texnologiyaların tətbiqi sayəsində yeni keyfiyyət səviyyəsinə qaldırıla bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, 2019
2. Balayev R.Ə. Rəqəmsal iqtisadiyyata dövlətin tənzimləyici təsirləri və texnoloji dəstək imkanları haqqında // UNEC Elmi Xəbərləri, İl 7, Cild 7, aprel- iyun, 2019, səh. 35 – 44, s. 42
3. Hüseynova A.D. Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu// Azərbaycanın vergi jurnalı, №4(124)/2015, s.129-144; s.139
4. Glotova I.I., Tomilina E.P., Doronin B.A., Klishina Yu.E., Uglitskikh O.N. Investment Attractiveness of the Company: Definition Approaches and Assessment Methods //Advances in Social Science, Education and Humanities Research, volume 333. Humanities and Social Sciences: Novations, Problems, Prospects (HSSNPP 2019), p.843-848, p.843 https://doi.org/10.2991/hssnpp-19.2019.162How to use a DOI?)
5. Габидинова Г., Хаируллин Б. Процесс принятия решения потребителем на рынке инвестиционных товаров. //Практический маркетинг №8 за 2011 год. https://www.marketing. spb.ru/mr/ social/ investment _market.htm
6. Головецкий Н.Я., Терехова А.И. Инвестиционная привлекательность аграрного сектора экономики в условиях импортозамещения // Интернет-журнал “НАУКОВЕДЕНИЕ” Том 7, №5 (2015) http://naukovedenie. ru/PDF/104EVN515.pdf
7. Есполов Т.И. Цифровизация – ключевой фактор развития АПК// www.eurasiancommission.org › act › dep_agroprom).
8. Инвестиции. под ред. Л.И. Юзвович, С.А. Дегтярева, Е.Г. Князевой. – Екатеринбург: Издво Урал. унта, 2016. – 543 с., с.336
9. Лоренс Дж. Гитман, Майкл Д. Джонк. Основа инвестирование. Москва, Дело, 1997, 870 с., s.869).
10. Цветков В. А., Шутьков А.А., Дудин М. Н., Лясников Н. Повышение инвестиционной привлекательности отрасли сельского хозяйства в России //Финансы: Теория и Практика. 2018, Т.22,№3, с.6-21, с.19).



***Улькер Шахин кызы Мамедова***
***Азербайджанский Университет Кооперации, диссертант***
***Азербайджанская Академия Труда и Социальных Отношений, учитель***
***ORCID-ID 0009-0007-8962-2859***
***ulker555@mail.ru***


## Пути повышение инвестиционной привлекательности сельского хозяйства


***Резюме***

В статье в контексте повышения финансовой безопасности сельхозпроизводителей изучены возможности повышения инвестиционной привлекательности отрасли. Оценены возможности повышения инвестиционной привлекательности в отрасли, учтены факторы, более важные с практической точки зрения, то есть инвестор, направление деятельности и цели вложения средств. При подготовке инвестиционных решений охарактеризовались

имеющиеся финансовые ресурсы, определяемый инвестиционный спрос, высокая вероятность рисков и ряд других подобных факторов,а также рассматривались приоритеты инвестиционной политики государства в агропромышленной отрасли.
***Ключевые слова: сельское хозяйство, инвестиционная привлекательность, финансовое обеспечение, инвестор, аграрная отрасль.***

***Ulker Shahin Mamedova***
***Azerbaijan University of Cooperation, dissertator***
***Azerbaijan Academy of Labor and Social Relations, teacher***
***ORCID-ID 0009-0007-8962-2859***
***ulker555@mail.ru***

**The ways of increasing the investment attractiveness of agriculture**

***Summary***

In the article, in the context of improving the financial security of agricultural producers, the possibilities of increasing the investment attractiveness of the industry are studied. The possibilities of increasing the investment attractiveness in the industry are assessed, factors that are more important from a practical point of view, that is, the investor, the direction of activity and the purpose of investing, are taken into account. When preparing investment decisions, the available financial resources, the determined investment demand, the high probability of risks and a number of other similar factors were characterized, and the priorities of the state investment policy in the agro-industrial sector were also considered.
***Key words: agriculture, investment attractiveness, financial security, investor, agricultural industry.***

**UOT 33.334**

***Fuad Məmməd oğlu BƏDİROV***
***doktorant, AKU***
***fuad652@rambler.ru***

## AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Azərbaycanda emal sənayesinin inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin irsi ilə sıx bağlıdır. Onun rəhbərliyi ilə ölkədə neft, qaz, neft-kimya və kənd təsərrüfatı kimi müxtəlif emal sahələrinin artımını dəstəkləməklə iqtisadi müstəqillik və özünü təmin etmək istiqamətində mühüm addımlar atıldı. Tezisdə Heydər Əliyevin Azərbaycanın emal sənayesinə təsiri və onun davam edən transformasiyası haqqında ətraflı məlumat verilir.
***Açar sözlər: görkəmli dövlət xadimi, Heydər Əliyev, emal sənayesi.***

***

Ölkənin iqtisadi yüksəlişi üçün mühüm sahə olan Azərbaycanın emal sənayesinin kökləri ölkənin Rusiya imperiyasının tərkibində olduğu 20-ci əsrin əvvəllərinə gedib çıxır. Bu dövrdə əsas sənaye sahələri neft emalı və toxuculuq idi. Sovet dövründə Azərbaycanın emal sektoru genişləndi və şaxələndi, hökumət müxtəlif sənaye sahələrinin, o cümlədən kimya, maşınqayırma və metallurgiya sahələrinin inkişafına böyük sərmayələr qoydu.

Bu gün Azərbaycanın emal sənayesi müxtəlif alt sektorlardan ibarətdir:

a) Neft və qaz emalı: Əhəmiyyətli neft və qaz istehsalçısı kimi Azərbaycan güclü neft və qaz emalı sənayesinə malikdir. Ölkədə benzin, dizel, təyyarə yanacağı, sürtkü yağları və müxtəlif neft-kimya məhsulları daxil olmaqla bir sıra məhsullar istehsal edən bir neçə neft emalı və neft-kimya müəssisələri fəaliyyət göstərir [3, s. 67].

b) Qida emalı: Azərbaycanın münbit torpaqları və əlverişli iqlimi onun qida emalı sənayesinin inkişafına kömək etmişdir. Sektor meyvə-tərəvəz konservləri, süd məhsulları, ət və balıq, qənnadı məmulatları, alkoqollu və alkoqolsuz içkilər də daxil olmaqla geniş çeşiddə məhsulları əhatə edir.

c) Tekstil və geyim: Azərbaycanda toxuculuq və geyim sənayesi uzun tarixə malikdir, ipək istehsalı bu sektorun diqqətəlayiq aspektidir. Bu gün sənaye ənənəvi Azərbaycan xalçalarından tutmuş müasir geyim və aksesuarlara qədər bir sıra məhsullar istehsal edir.

d) Tikinti materialları: Azərbaycanın zəngin təbii sərvətləri onun sement, beton, kərpic və müxtəlif metal məmulatlarının istehsalını əhatə edən tikinti materialları sənayesinin inkişafını dəstəkləmişdir.

Son bir neçə onillikdə Azərbaycanın emal sənayesi bir sıra mühüm nailiyyətlər əldə edib, o cümlədən [6, s.74]:

a) Diversifikasiya: Emal sektoru neft və qaza olan ənənəvi diqqətindən kənarda uğurla şaxələnmişdir, qeyri-neft sektorları ön plana çıxır və milli iqtisadiyyata əhəmiyyətli töhfə verir;

b) Xarici investisiyaların cəlb edilməsi: Azərbaycanın biznes üçün əlverişli mühiti və strateji yerləşməsi emal sənayesinin inkişafına təkan verən xarici investorları cəlb etmişdir;

c) Texnoloji irəliləyişlər: emal sənayesi texnoloji irəliləyişlərdən və modernləşdirmə səylərindən, müxtəlif sektorlarda məhsuldarlığın, keyfiyyətin və səmərəliliyin yüksəldilməsindən bəhrələnmişdir.

Azərbaycanın emal sənayesinin gələcəyi ümidverici görünür, onun davamlı inkişafını dəstəkləyən bir sıra amillər mövcuddur [4, s. 99]:

a) Hökumət dəstəyi: Azərbaycan hökuməti emal sənayesinin inkişafını təşviq etmək, təşviqlər təklif etmək və inkişafı təşviq etmək üçün təşəbbüsləri həyata keçirməkdə fəal olmuşdur;

b) Regional əməkdaşlıq: Azərbaycanın strateji yerləşməsi və Müstəqil Dövlətlər Birliyi (MDB) və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) kimi regional ticarət təşkilatlarında iştirakı daha da genişlənmək üçün imkanlar yaradır [9];

c) Davamlı inkişaf: Ölkənin davamlı inkişafa diqqət yetirməsi və ekoloji cəhətdən təmiz texnologiyaların qəbulu yeni, ekoloji təmiz emal sənayelərinin yaranmasına səbəb ola bilər.

Azərbaycanın emal sənayesi özünün ilk dövrlərindən çox böyük yol keçərək milli iqtisadiyyatda mühüm rol oynayan çoxşaxəli və inkişaf edən sektora çevrilib. Davamlı dövlət dəstəyi, texnoloji irəliləyişlər və dayanıqlı inkişafa diqqət yetirməklə bu sənayenin gələcəyi parlaq görünür və Azərbaycana və onun xalqına daha da çiçəklənmə vəd edir.

1993-2003-cü illərdə Azərbaycanın Prezidenti olmuş Heydər Əliyev ölkənin iqtisadi mənzərəsinin formalaşmasında mühüm rol oynamışdır. Onun emal sənayesinin inkişafına uzaqgörən yanaşması nəinki iqtisadi artıma təkan verdi, həm də daha çiçəklənən və özünü təmin edən Azərbaycanın əsasını qoydu. Heydər Əliyevin neft və qaz sektorundakı rolu onun Azərbaycan iqtisadiyyatına verdiyi ən mühüm töhfədir. Onun strateji qərarları ölkəyə öz nəhəng karbohidrogen ehtiyatlarından istifadə etməyə imkan verdi və inkişaf edən neft və qaz sənayesinə yol açdı.

Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) Hasilatın Pay Bölgüsü Sazişi (PSA) kimi də tanınan "Əsrin müqaviləsi" Azərbaycan ilə beynəlxalq neft şirkətləri konsorsiumu arasında imzalanmış təməlqoyma müqaviləsidir. Müqavilə Azərbaycanın Xəzər dənizindəki nəhəng dəniz neft yataqlarının işlənməsini asanlaşdıraraq, ölkənin neft-qaz sənayesində mühüm mərhələni qeyd etdi.

1994-cü ildə H.Əliyev BP, Amoco və ExxonMobil də daxil olmaqla beynəlxalq neft şirkətlərinin konsorsiumu ilə hasilatın pay bölgüsünə dair mühüm saziş olan "Əsrin müqaviləsi"nin imzalanmasına rəhbərlik etmişdir. Bu saziş Azərbaycanın neft və qaz ehtiyatlarının inkişafında dönüş nöqtəsi oldu və nəticədə xarici investisiyaların artmasına və Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri kimi mühüm infrastrukturun tikintisinə gətirib çıxardı.

"Əsrin müqaviləsi" Heydər Əliyevin Azərbaycanın karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün xarici sərmayə və təcrübə cəlb etmək səylərinin nəticəsi idi. Bu, 1991-ci ildə Sovet İttifaqından müstəqillik əldə etdikdən sonra ölkənin neft sektoruna ilk əhəmiyyətli beynəlxalq sərmayə idi. Müqavilə təxminən 7,4 milyard ABŞ dolları məbləğində ilkin sərmayəni əhatə edirdi və layihənin müddəti ərzində ümumi investisiyanın təxminən 40 milyard dollar olduğu təxmin edilir [8, s. 54].

Əsrin müqaviləsinin əsas komponentləri isə aşağıdakılardır:

1. Beynəlxalq Neft Şirkətləri Konsorsiumu: Müqavilə Azərbaycanın dövlət neft şirkəti SOCAR ilə BP, Amoco, ExxonMobil, Statoil, TPAO, Itochu, Pennzoil, Unocal, McDermott daxil olmaqla altı ölkədən 11 beynəlxalq neft şirkətindən ibarət konsorsium arasında imzalanıb. Zaman keçdikcə konsorsium bəzi dəyişikliklərə məruz qaldı, BP isə əsas operator olaraq qaldı.

2. Hasilatın Pay Bölgüsü Sazişi (HPBS): Əsrin Müqaviləsi hasilatın pay bölgüsü sazişi (PSA) modelinə əsaslanır və bu modelə əsasən, Azərbaycan hökuməti və beynəlxalq konsorsium kəşfiyyat, işlənmə, işlənmə xərclərini ödədikdən sonra hasilatı bölüşdürəcəklər. PSA modeli Azərbaycana beynəlxalq neft şirkətlərinin texnologiya və təcrübəsindən faydalanmaqla öz təbii ehtiyatları üzərində suverenliyini qoruyub saxlamağa imkan verir.

3. Dəniz Neft Yataqlarının İşlənməsi: Saziş Xəzər dənizində Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) neft yatağı kompleksinin işlənməsini əhatə edir. AÇG yataqlarında təxminən 5-6 milyard barel çıxarıla bilən neft ehtiyatları var ki, bu da onları dünyanın ən böyük dəniz neft yataqları sırasına daxil edir. Bu yataqlardan hasilat 1997-ci ildə başlayıb və 2021-ci ilə qədər onlar 3,7 milyard bareldən çox neft hasil edib.

4. İnfrastrukturun İnkişafı: Əsrin Müqaviləsi Azərbaycandan xam nefti Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına nəql edən Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri kimi mühüm infrastruktur layihələrinin tikintisinə səbəb oldu. 2005-ci ildə tamamlanan BTC boru kəməri Azərbaycanın ixrac imkanlarını əhəmiyyətli dərəcədə artırmış və ölkənin qlobal bazarlara daha səmərəli çıxışına imkan vermişdir [1, s.192].

"Əsrin Müqaviləsi"nin Azərbaycan iqtisadiyyatı və onun neft-qaz sənayesi üçün geniş təsirləri var. Əhəmiyyətli xarici investisiyalar cəlb etdi, minlərlə iş yeri yaratdı və ölkəni əsas infrastrukturla təmin etdi. Bundan əlavə, o, regionda digər neft və qaz layihələrinin inkişafı üçün katalizator rolunu oynamış, Azərbaycanı qlobal enerji bazarında əsas oyunçu kimi yerləşdirmişdir.

Heydər Əliyev vahid bazardan asılılığı azaltmaq üçün ixrac marşrutlarının şaxələndirilməsinin vacibliyini başa düşürdü. O, Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Supsa boru kəmərlərinin inkişafında əsas rol oynayıb ki, bu da Azərbaycana öz neftini və qazını qlobal bazarlara daha səmərəli ixrac etməyə imkan verib. Onun Azərbaycanda neft-kimya sənayesinin genişlənməsində və modernləşdirilməsində də böyük xidmətləri olmuşdur. Aşağı sənaye sahələri üçün potensialı qəbul edərək, o, həm daxili, həm də ixrac bazarlarını artırmaq üçün əlavə dəyərli emalın təşviqinə diqqət yetirdi [7, s.25].

Ulu öndər H.Əliyevin rəhbərliyi altında həyata keçirilən ən diqqətəlayiq neft-kimya layihələrindən biri yüksək keyfiyyətli polipropilen və polietilen məmulatlarının istehsalı ilə məşğul olan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Polymer şirkətinin yaradılmasıdır. Bu təşəbbüs iqtisadiyyatın şaxələndirilməsi və emal sənayesində yeni məşğulluq imkanlarının yaradılması məqsədi daşıyırdı. H.Əliyev hökuməti neft-kimya sektoruna fəal şəkildə xarici sərmayələr cəlb etdi, stimullar təklif etdi və əlverişli biznes mühiti yaratdı. Bu yanaşma yeni emal müəssisələrinin tikintisinə və mövcud müəssisələrin modernləşdirilməsinə gətirib çıxardı ki, bu da öz növbəsində ölkədə neft-kimya məhsullarının və ixracının həcmini genişləndirdi.

Heydər Əliyev həm də ərzaq təhlükəsizliyinin təmin edilməsində və idxaldan asılılığın azaldılmasında kənd təsərrüfatı sektorunun əhəmiyyətini dərk edirdi. O, Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı sənayesinin modernləşdirilməsi və genişləndirilməsini təşviq etmək üçün bir sıra proqramların təşəbbüskarı olub. Onun rəhbərliyi ilə Azərbaycan hökuməti kənd təsərrüfatının emalı sənayesinin inkişafına kömək etmək məqsədi ilə bir neçə aqro-sənaye parkı yaratmışdır. Bu parklar infrastruktur, logistika və sektorda kiçik və orta müəssisələrin böyüməsini təşviq edən maliyyələşdirmə imkanı daxil olmaqla bir sıra dəstək xidmətləri təqdim etdi. Bu parklar müasir, səmərəli kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasına şərait yaratmaqla Azərbaycan məhsullarının həm daxili, həm də beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılmasına köməklik göstərib [5, s.72].

H.Əliyev hökuməti aqrar sektorda əlavə dəyərli emalın zəruriliyini vurğulayaraq, əsas diqqəti emal olunmuş qida məhsulları, içkilər və qablaşdırma materiallarının istehsalına yönəltdi. Bu strateji dəyişiklik Azərbaycana emal sənayesində daha çox iş imkanları yaratmaqla yanaşı, kənd təsər-

rüfatı məhsullarının ixracını şaxələndirməyə və yeni gəlir mənbələri yaratmağa imkan verdi. Onun rəhbərliyi altında Azərbaycan məhsuldarlığın artırılması, müasir əkinçilik texnikasının tətbiqi və emal edilmiş kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi məqsədi ilə kənd təsərrüfatı sahəsində tədqiqat və təkmilləşdirmələrə investisiyalarını artırdı. Bu yanaşma kənd təsərrüfatının emalı sənayesinin böyüməsinə və modernləşməsinə töhfə verib, ölkəyə daxili tələbatı daha yaxşı ödəməyə və beynəlxalq bazarlarda rəqabət aparmağa imkan verib.

Heydər Əliyevin Azərbaycanda emal sənayesinin inkişafına təsiri ölkənin iqtisadi transformasiyasında özünü aydın göstərir. Neft və qaz, neft-kimya və kənd təsərrüfatı kimi əsas sektorların inkişafı və modernləşdirilməsinə üstünlük verməklə H.Əliyev uzunmüddətli iqtisadi sabitlik və özünü təmin etmək üçün möhkəm zəmin yaratmağa kömək etdi. Onun rəhbərliyilə emal sənayesinin genişləndirilməsi Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, ölkənin neft və qaz ixracından asılılığının azalmasına töhfə verib. Bu, Azərbaycana qlobal əmtəə qiymətlərindəki dalğalanmalara daha yaxşı tab gətirməyə və daha dayanıqlı iqtisadi artıma kömək etməyə imkan verib.

Emal sənayesinin inkişafı həm də Azərbaycan vətəndaşları üçün çoxsaylı iş imkanları yaradıb. Bundan əlavə, modernləşdirmə və texnologiyanın mənimsənilməsinə diqqət yetirilməsi ixtisaslı işçi qüvvəsinin inkişafına, ölkənin qlobal bazarda rəqabət qabiliyyətinin artırılmasına səbəb olmuşdur [2, s.57].

Onun hakimiyyəti dövründə emal sənayesinə qoyulan investisiyalar infrastrukturun, o cümlədən nəqliyyat şəbəkələrinin, logistika vasitələrinin və enerji təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşması ilə nəticələnib. Bu, təkcə emal sənayesinə fayda vermədi, həm də daha geniş iqtisadiyyata müsbət təsir göstərdi.

Heydər Əliyev Azərbaycanda emal sənayesinin inkişafında mühüm rol oynamışdır. Onun strateji baxışı və diversifikasiya, modernləşdirmə və əlavə dəyər emalına sadiqliyi daha möhkəm və özünü təmin edən iqtisadiyyat üçün zəmin yaratdı. Çağırışlar davam etsə də, Heydər Əliyevin irsi Azərbaycanın emal sənayesinin gələcəyini formalaşdırmağa davam edir və ölkə üçün gələcək artım və çiçəklənməyə təkan verir.

## ƏDƏBİYYAT


1. Əliyev A.A., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. B., 2002.
2. Əlirzayev Ə.Q., Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı. B., 1999.
3. Əlirzayev Ə.Q., Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları. B., 2000.
4. Dadaşov İ.Ş., Real bazar iqtisadiyyatının atributları. B., 1996.
5. Dadaşov İ.Ş., Elmi-texniki tərəqqinin istiqamətləri və onların səmərəliliyi. B., 1992.
6. Dadaşov İ.Ş., Sənayedə özəlləşdirmə aparılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad elmləri: nəzəriyyə və praktika. B., 2002.
7. Şəkərəliyev A.Ş., Keçid iqtisadiyyatı və dövlət. B., 2000.
8. Şəkərəliyev A.Ş., Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. B., 1999.
9. The world Bank Global Economic Prospects and the Developinq Countries. 2002.



***Фуад Мамед Бадиров***
***докторант, АКУ***
***fuad652@rambler.ru***


## Роль Гейдара Алиева в развитии перерабатывающей промышленности Азербайджана


***Резюме***

Развитие перерабатывающей промышленности в Азербайджане тесно связано с наследием выдающегося государственного деятеля Гейдара Алиева. Под его руководством были предприняты важные шаги в направлении экономической независимости и самодостаточности путем поддержки роста различных областей переработки, таких как нефть, газ, нефтехимия и сельское хозяйство. В статье представлена подробная информация о влиянии

Гейдара Алиева на перерабатывающую промышленность Азербайджана и ее продолжающиеся преобразования.
***Ключевые слова: выдающийся государственный деятель, Гейдар Алиев, перерабатывающая промышленность.***

***Fuad Mammad Badirov***
***PhD-student, AUC***
***fuad652@rambler.ru***

**Heydar Aliyev's role in the development of processing industry in Azerbaijan**

***Summary***

The development of the processing industry in Azerbaijan is closely related to the legacy of the outstanding statesman Heydar Aliyev. Under his leadership, important steps were taken in the direction of economic independence and self-sufficiency by supporting the growth of various processing areas such as oil, gas, petrochemical and agriculture. The thesis provides detailed information about the influence of Heydar Aliyev on the processing industry of Azerbaijan and its ongoing transformation.
***Key words: outstanding statesman, Heydar Aliyev, processing industry.***

**UOT 338.43**

***Aytəkin Ağaxəlil qızı HÜSEYNOVA***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
***ORCİD-ID 0000-0002-6548-0258***

## MÜASİR İNTEQRASİYA ŞƏRAİTİNDƏ KƏND TƏSƏRRÜFATININ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Xülasə***

Müasir iqtisadi inteqrasiya şəraitində digər iqtisadi sahələr kimi aqrar sahənin də inkişafına xarici iqtisadi əlaqələr daha çox təsir edir. Ərzaq təhlükəsizliyinin əmin edilməsi yönümündə aqrar sahənin xarici iqtisadi əlaqələr mexanizmində liberallaşdırılmanı və himayədarlığı təmin edən vasitələrin effektiv əlaqələndirilməsi mütləqdir.

Ölkəmizdə aqrar sektor üzrə reallaşdırılan tədbirlər nəticəsində ixrac yönümlü aqrar bölmələrin inkişafı məqsədilə təsirli dövlət yardımının həyata keçirilməsi vacib hesab olunur.
***Açar sözlər: ərzaq təhlükəsizliyi, inteqrasiya şəraiti, aqrar sektorun transformasiyası, kənd təsərrüfatı, holdinq tipli kompleks.***

***

Əksər kənd təsərrüfatı müəssisələri üçün aqrar islahatların hazırkı mərhələsində, tədqiqatların göstərdiyi kimi, böhrandan real çıxış yolu kimi kooperasiya və aqrar-sənaye inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Təşkilati-hüquqi idarəetmə və mülkiyyət formasından asılı olmayaraq kənd təsərrüfatı istehsalçılarının inteqrasiyasının müxtəlif formalarında birləşmələri kənd təsərrüfatının və onunla əlaqəli sahələrin sabitləşməsi və inkişafı üçün güclü rıçaq ola bilər.Eyni zamanda, islahatlardan əvvəlki dövrdən fərqli olaraq inteqrasiya prosesləri keyfiyyətcə yeni şəraitdə inkişaf edir, ümumilikdə iqtisadi sistemin və xüsusən də iqtisadiyyatın aqrar sektorunun transformasiyası, iqtisadi münasibətlərin liberallaşması, qeyri-bərabərliyin artması ilə xarakterizə olunur. (1)

Qeyd etmək lazımdır ki, aqrar sahənin davamlı inkişafı kənd təsərrüfatında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlığın daxili imkanları hesabına qeyri-mümkündür. Digər postsovet məkanı ölkələrində olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatı əmtəə istehsalçıları öz maliyyə resursları hesabına optimal müddətdə aqrotexniki tədbirləri reallaşdırmaq imkanlarına malik de-

yillər. Ölkəmizdə kənd təsərrüfatı əmtəə istehsalçılarının sərəncamında olan pay torpaqlarının həcminin az olması onların texnika və digər maddi resurslar əldə etmək imkanlarını məhdudlaşdırır. Məhz bu baxımdan da aqrar sahənin inkişafını təmin etmək üçün bu sahədə həyata keçirilən tədbirləri davam etdirmək lazımdır. Bunun üçün ilk növbədə aqrar əmtəə istehsalçılarının yerli və beynalxalq bazar konyunkturunda baş verən proseslərə müqavimət imkanları araşdırılmalı, eyni zamanda bu yönümdə təşkilati-iqtisadi tədbirlər reallaşdırılmalıdır.

Azərbaycan Respublikasının regionları üzrə aqrar sahənin davamlı inkişafı istehsal həcminin artırılması ilə yanaşı, eləcə də onun maliyyə nəticələrinin yüksəldilməsindən asılıdır. Aparılmış təhlillər göstərir ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinə bir çox faktorlar təsir göstərir ki, bura daxildir: yanacaq, enerji daşıyıcılarının qiymətlərinin səviyyəsi, kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi, məhsulların orta satış qiyməti və maya dəyəri və s.

Ümumiyyətlə, aqrar sahənin davamlı sosial-iqtisadi inkişafı əhalinin ərzaqla təminatına istiqamətlənməklə, gələcək nəsillərin də tələbatının ödənilməsinə xidmət edir. Qabaqcıl inkişaf etmiş ölkələrdə bu sahə üzrə davamlı inkişaf iki məsələni özündə ehtiva edir: birincisi, aqrar-ərzaq kompleksinin resurs potensialının vəziyyəti, mövcud tələbatın ödənilməsi, aqrar-ərzaq kompleksinin idarə olunmasını reallaşdıran institusional təsisatların imkanları və istehsal prosesində istifadə olunan texnika və texnologiyalardan istifadə səviyyəsi yüksəldilməlidir; ikincisi, əhalinin bütün sosial təbəqələrinin ərzaq məhsulları ilə təminatı və həyat səviyyəsinin yüksəldilməsi dövlətin aqrar siyasətinin əsas istiqaməti sayılmaqla aqrar-ərzaq kompleksinin inkişafı daim təmin olunmalıdır.

Məhz buna görə də yaxın perspektiv dövr ərzində ölkəmizdə aqrar sahənin inkişafının yeni davamlı inkişaf modelinin formalaşması uzunmüddətli dinamik artım potensialına malik olmaqla, həyat səviyyəsinin yüksəldilməsi, effektivlik və rəqabətqabiliyyətlilik, ölkənin ərzaq təhlükəsizliyinin təmini məsələlərini həll etməlidir. Aqrar sahənin davamlı inkişafı ərzaq bazarının subyektlərinin yeni iqtisadi strategiyasının formalaşmasını və bazar münasibətlərinə adaptasiyanı zərurətə çevirir.

Azərbaycan Respublikasının regionları üzrə aqrar sahənin davamlı inkişafının təmin olunması dövlətin iqtisadi tənzimləmə vasitələrindən birbaşa asılıdır. Dövlətin iqtisadi tənzimləmə vasitələrinin təkmilləşdirilməsi, onun aqrar sahənin davamlı inkişafının prinsiplərinə və qanunauyğunluqlarına tabe etdirilməsi ölkənin strateji maraqları baxımından mühüm əhəmiyyətə malikdir .

Kənd təsərrüfatında kooperasiya və inteqrasiya münasibətlərinin inkişafında kənd–kredit və sığorta kooperativləri də əhəmiyyətli rol oynayır. Adı çəkilən kooperativ qurumlarının yaradılması, nəticə etibarilə kənd təsərrüfatında fəaliyyət göstərən subyektlər arasında təsərrüfatdaxili kooperasiya münasibətlərinin genişlənməsinə də əhəmiyyətli təsir göstərir. Kredit kooperativləri, əsas etibarilə xırda kənd təsərrüfatı əmtəə istehsalçılarının, bütövlükdə istehsalın iqtisadi səmərəliliyinə doğru stimullarını artırır. Kredit kooperativləri əsasən kooperativ banklarda birləşir və kənd təsərrüfatı əmtəə istehsalçılarına müxtəlif maliyyə xidmətlərini göstərirlər. Kredit kooperativləri eyni zamanda satış, təchizat və digər kooperativlərlə birlikdə fəaliyyət göstərir.

Kənd təsərrüfatında kooperasiya və inteqrasiya münasibətlərinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirləri iki mərhələdə təsnifləşdirmək mümkündür. Birinci mərhələdə kənd təsərrüfatı ilə bağlı kooperasiya münasibətlərinin inkişafına hüquqi-normativ, iqtisadi və təşkilati baxımdan yardım göstərilməsi vacibdir. Təbii ki, kənd təsərrüfatında kooperativ münasibətlərə girən fərdi əmtəə istehsalçılarının stimullaşdırılması vacib məsələlərdən biridir. Məsələn, təkcə bir faktı qeyd etmək lazımdır ki, hazırda mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının əkdikləri torpaq sahəsinin hər hektarına görə, məhsul istehsalına (pambıq, tütün, şəkər çuğunduru) büdcə hesabına subsidiyaların verilməsi həyata keçirilir. Dizel yanacağının qiymətinin qalxmasına adekvat reaksiya verilməklə subsidiya əlavələrinin edilməsi və s. kənd təsərrüfatına daima diqqət göstərildiyini özündə ehtiva edir. Təbii ki, bütün bunlar son nəticədə kənd təsərrüfatı istehsalına marağın artırılmasında əhəmiyyətli rol oynamışdır.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"na əsaslanaraq Sabirabad rayonun Yaxadəllək-Beşdəli kəndlərinin ərazisində 133 ailə könüllü "Birlik İstehsal Kooperativi"ni təsis ediblər. Bu ilin martında isə rayonda ikinci - 231 ailənin birləşdiyi "Axısxalılar toxum istehsal kooperativi" yaradılıb. Aqrar sektorun

indiki mərhələsində kənd kooperativləri xırda pay torpaqlarının konsolidasiyasına nail olmaqla istehsaldakı pərakəndəliyin aradan qaldırılmasına, məhsuldarlığı artırmaqla kənd əhalisinin iqtisadi maraqlarının qorumasına imkan yaradacaq (aqro. gov.az). Bu baxımdan adı çəkilən praktikanın kənd təsərrüfatında kooperasiya və inteqrasiya münasibətlərinin inkişafına da şamil edilməsi mühüm əhəmiyyətə malik olar. Belə ki, kənd təsərrüfatı kooperativinə daxil olan fərdi əmtəə istehsalçılarının hər birinə ünvanlı şəkildə, daha yüksək həcmdə yardımların verilməsi həmin əmtəə istehsalçılarının kooperativlərdə birləşməsinə stimul yaratmaqla kooperativləşmənin genişlənməsinə təkan verə bilər.

İkinci mərhələdə isə yaradılmış kooperativlərin fəaliyyətinin genişlənməsinə zəruri maliyyə yardımlarının göstərilməsi, onların daxili və xarici bazarda möhkəmlənməsinə iqtisadi stimul yaradılması vacibdir. Bu baxımdan xüsusilə ixrac fəaliyyəti həyata keçirən kooperativlərə əlavə dəstəyin verilməsi, eləcə də onların məqsədli investisiya proqramları çərçivəsində dəstəklənməsi mühüm əhəmiyyətə malikdir (2).

Ticarət və sənaye kapitalının kənd təsərrüfatı sahəsinə cəlb edilməsi investisiyalar şəklində həyata keçirilir və iqtisadi nəzəriyyədə o, bir təsərrüfat subyektinin (birbaşa investorun) digər iqtisadi subyektin müəssisəsinin fəaliyyətində uzunmüddətli marağı əldə etməsini ifadə edir. Eyni zamanda, investisiyalar iqtisadi kateqoriya kimi iqtisadiyyatın böyüməsi və inkişafı məqsədi ilə maddi və maliyyə resurslarının hərəkəti və birləşməsi prosesini əhatə edən geniş anlayışdır. İnteqrasiya prosesinin əsas iştirakçıları, tədqiqatın göstərdiyi kimi, hazırda ümumi şəkildə korporasiyalar və xüsusilə inteqrasiya olunmuş strukturlar, eləcə də fərdi şəxslərdir. (5)

Tədqiqatlar göstərdi ki, gələcəkdə iki növ inteqrasiya olunmuş strukturlar hazırlanmalıdır-proqram məqsədli və ixracyönümlü. Proqram məqsədli kənd təsərrüfatı holdinqi regional sosial-iqtisadi inkişaf proqramının idarə edilməsi üçün təşkilati-iqtisadi alət kimi rayon icra hakimiyyəti tərəfindən yaradıla bilər. Bu tip kənd təsərrüfatı təsərrüfatları regional məqsədli proqramların icrasının səmərəliliyini artırmaq üçün təsirli rıçaq ola bilər. Rostov vilayətinin şəraiti ilə əlaqədar olaraq, regionun şərq rayonlarının sosial-iqtisadi inkişafı problemlərini həll etmək üçün belə bir kənd təsərrüfatı holdinqinin yaradılması məqsədəuyğun olardı.

İxrac fəaliyyətinin faktiki istiqamətlərini dəqiqləşdirmək, eləcə də yeni istiqamətləri proqnozlaşdırmaq və kənd təsərrüfatı məhsullarını ixraca satan müəssisə və təşkilatların siyahısını müəyyən etmək məqsədilə rayonda ixracyönümlü kənd təsərrüfatı holdinqi yaradıla bilər.

İnteqrasiya edilmiş təsərrüfat tipli birləşmələrin səmərəliliyini artırmaq üçün kompleks struktura daxil olan kənd təsərrüfatı təşkilatlarında, eləcə də rayon səviyyəsində kənd təsərrüfatı istehsalının inkişafının proqnozlaşdırılmasının təkmilləşdirilməsi problemi xüsusi əhəmiyyət kəsb edir. Bu problem kənd təsərrüfatı təşkilatlarının bir deyil, bir neçə rayon və rayonda yerləşdiyi halda da aktuallaşır.

Rayon səviyyəsində aqrar-sənaye istehsalının inkişafının proqnozlaşdırılması Ümumrusiya Elmi-Tədqiqat İqtisadiyyat və Standartlar İnstitutunun alimləri tərəfindən hazırlanmış FAR-TRADE proqram təminatı əsasında korrelyasiya və reqressiya təhlili, trend və simulyasiyadan istifadə etməklə həyata keçirilməlidir.

Holdinq tipli kompleks formalaşma iştirakçıları arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi aşağıdakılara yönəldilməlidir: mülkiyyət münasibətləri; maddi-texniki baza; maliyyələşdirmə-və investisiya prosesi; marketinq araşdırması; korporativ idarəetmə; paylama münasibətləri və s.

Araşdırmalar göstərdi ki, iqtisadiyyatın aqrar sektorunda inteqrasiya olunmuş birləşmələrin fəaliyyət göstərməsinin mövcud təcrübəsinin ümumiləşdirilməsi praktikada münasibətlərin müxtəlif iqtisadi modelləri inkişaf etmişdir. Eyni zamanda, inteqrasiya strukturunun iştirakçıları arasında iqtisadi münasibətlər modelinə aşağıdakıların daxil edilməsi məqsədəuyğundur:

- inteqrasiya olunmuş formasiyanın yaradılması və fəaliyyət göstərməsinin təşkilati-iqtisadi mexanizmi;
- idarəetmə şirkəti ilə kənd təsərrüfatı holdinqinin təsisçiləri olan iştirakçılar arasında torpaq və əmlak münasibətləri;
- maliyyələşdirmə, planlaşdırma, uçot və nəzarət; gəlirin formalaşması və bölüşdürülməsi və s.

**ƏDƏBİYYAT**

1. Alıyev İ.H. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların кeyfiyyətcə səmərəli aparılması. Baкı: Avropa, 2004,
2. Xəlilov H.A., Milli ərzaq təhlükəsizliyi bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri, "Adiloğlu" nəşriyyatı, Bakı, 2001,
3. Агропромышленные формирования холдингового типа.– М.: Изд.-во МСХА. 2002.
4. Аллахвердиев А.И. Развитие форм кооперации в аграрном секторе АПК: Монография. М.: ЗАО "Экономика, 2003.
5. Гумеров Р.Р. Вопросы развития интегрированных корпоративных структур в агропромышленном комплексе //Российский экономический журнал.2002, № 5-6.

***Айтекин Агахалил кызы Гусейнова***
***Диссертант Азербайджанского Университета Кооперации***

**Основные направления развития сельского хозяйства в условиях современной интеграции**

***Резюме***

В условиях современной экономической интеграции внешнеэкономические связи оказывают большее влияние на развитие аграрного сектора, а также других отраслей экономики. В направлении обеспечения продовольственной безопасности необходимо эффективно согласовывать инструменты, обеспечивающие либерализацию и патронаж в механизме внешнеэкономических связей аграрного сектора. В результате мер, реализуемых в аграрном секторе нашей страны, представляется важным осуществление эффективной государственной помощи для развития экспортоориентированных сельскохозяйственных предприятий.

***Ключевые слова: продовольственная безопасность, условия интеграции, трансформация аграрного сектора, сельское хозяйство, холдинговый комплекс.***

***Aytekin Agakhalil Huseynova***
***PhD student of Azerbaijan Cooperation University***

**The main directions of development of agriculture in the conditions of modern integration**

***Summary***

In the conditions of modern economic integration, foreign economic relations have a greater impact on the development of the agricultural sector, as well as other sectors of the economy. In the direction of ensuring food security, it is necessary to effectively coordinate the instruments that ensure liberalization and patronage in the mechanism of foreign economic relations of the agricultural sector.As a result of the measures implemented in the agricultural sector of our country, it is important to provide effective state assistance for the development of export-oriented agricultural enterprises.

***Key words: food security, integration conditions, transformation of the agricultural sector, agriculture, holding complex.***

UOT: 338.433; 338.43

*Elnur Tahir oğlu ƏLƏKBƏROV*
*Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı*
*e-mail: Elekberov.elnur78@mail.ru*

# KƏND TƏSƏRRÜFATININ DAYANIQLI İNKİŞAFINDA RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

*Xülasə*

Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi, dünya aqrar sahəsinə inteqrasiyası və rəqabətqabiliyyətli aqrar sahənin davamlı inkişafının təmin edilməsində rəqəmsal texnologiyaların tətbiqi istiqamətləri araşdırılmışdır. Eyni zamanda, tədqiqat işində müasir bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq kənd təsərrüfatının dayanıqlı inkişafında rəqəmsal texnologiyaların tətbiqinin mövcud vəziyyətinin öyrənilməsi və onun təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

***Açar sözlər: kənd təsərrüfatı, rəqəmsal texnologiya, aqrar islahatlar, dayanıqlı inkişaf.***

***

Azərbaycan xalqının, II Dünya müharibəsindən sonra ölkənin sosial-iqtisadi inkişafına böyük əmək sərf etməsinə baxmayaraq nəticədə sənaye və kənd təsərrüfatında ciddi irəliləyişə nail olunmurdu. Respublika iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının 60-cı illərdə olan inkişaf səviyyəsi kəndlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq və kənd əhalisinin həyat səviyyəsini yüksəltmək üçün kifayət etmirdi.

Ümummilli lider H. Əliyev 1969-cu ilin 14 iyul ayında respublikaya rəhbər təyin edildikdən sonra Azərbaycan SSR-in iqtisadi inkişafında dönüş yaranaraq gerilikdən inkişafa doğru daha geniş vüsət aldı. Respublika iqtisadiyyatının inkişafı ilə bərabər əhalinin yaşayış səviyyəsi, rayon və kəndlərdə olan sosial infrastrukturun inkişaf etdirilməsi H. Əliyevin əsas strategiyasına daxil edilmişdi. Azərbaycan iqtisadiyyatı 1969-1982-ci illər ərzində yüksək səviyyədə inkişaf etmiş, ölkədə yeni sənaye müəssisələri yaradılmış və əhalinin işlə təmin olunma səviyyəsi yüksəlmişdi.

Heydər Əliyevin rəhbərliyi altında 70-80-ci illər Azərbaycan Respublikasının inkişaf tarixində dönüş illəri olmaqla bərabər, kənd təsərrüfatının və sənayenin inkişafının sürətləndirilməsi ilə müşahidə olunmuşdur. Məhz bu dövrdə əhalinin hər nəfərinə düşən milli gəlir iki dəfə, sənaye məhsulları istehsalı isə üç dəfə artmışdır. Respublikada 250-dən artıq yeni istehsal müəssisələrinin mütərəqqi texnologiya əsasında tikilib istifadəyə verilməsi regionların inkişafına öz müsbət təsirini göstərmişdir

Azərbaycan müstəqillik əldə etdikdən sonra baş verən iqtisadi-siyasi böhran, Ermənistanın ölkəmizə təcavüzü, torpaqlarımızın işğal edilməsi ölkəmizi çətin vəziyyətə salmışdı. Bu ağır və çətin dövrdə xalqın ümid yeri olan sevimli oğlu H.Əliyev xalqın təkidi ilə yenidən Azərbaycana rəhbər seçildi. Ölkəyə 1993-cü ilin iyun ayından rəhbərliyə başlayan H.Əliyev atəşkəsə nail olmaqla bərabər ölkə iqtisadiyyatının sürətli inkişaf etməsinin əsas strategiya olduğunu və bu istiqamətdə iqtisadi islahatların aparılmasının zəruri olduğunu göstərmişdir. Qeyd edək ki, 90-cı illərdə çətin duruma düşən Azərbaycan kəndlisi işsiz qalmaqla bərabər, kolxoz və sovxozlarda çalışanlar əməkhaqqını vaxtında ala bilmirdi, təsərrüfatların vəziyyəti getdikcə çətinləşirdi. Bu ağır durumu aradan qaldırmaq üçün islahatların aparılması qaçılmaz idi. Bütün bunları nəzərə alan Ulu öndər ilk növbədə torpaq islahatlarının aparılmasına və torpaqların Azərbaycan kəndlisinin kənd təsərrüfatı məhsullarının becərilməsi üçün xüsusi mülkiyyətinə verilməsinə xüsusi önəm vermişdir.

Ulu öndər 23 dekabr 1994-cü ildə kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş respublika müşavirəsində aqrar islahatların vacibliyini bir daha vurğulayaraq bildirdi: "...Aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm, eyni zamanda, son dərəcə əhəmiyyətli, məsuliyyətli və taleyüklü məsələdir"(5).

Aqrar islahatların aparılması və yeni təsərrüfat formalarının yaradılması kənd təsərrüfatında baş verən geriləmələri dayandırdı, məhsul istehsalında, xüsusən də ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan məhsulların istehsalında artım baş verdi. Lakin, dünya iqtisadiyyatına inteq-

rasiya və rəqabət qabiliyyətinin güclənməsi bazar iqtisadiyyatının tələbləri əhatəsində aqrar sahədə çoxlu problemlərin mövcudluğunu göstərdi.

Ölkə iqtisadiyyatının davamlı inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxaldan asılılıq səviyyəsinin azaldılması ilk növbədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən aqrar sahənin rəqabət üstünlüklərini qoruyub saxlamağı və inkişaf etdirməyi zəruri edir. Aqrar sahədə istehsal olunan xammal üstünlüklərini qiymətləndirməklə onun imkanlarından istifadə bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq idarəetmənin qabaqcıl üsullarından istifadəni təşviq edir. Dünya siyasətinin rəngarəng vəziyyətində əsas istiqamətin uzunmüddətli strateji hədəflərə istiqamətlənməsi və onların həyata keçirilməsi davamlı olaraq Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirməyə imkan verə bilər.

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2019-cu il Fərmanı ilə "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi istehsalçı fermerlər və onların fəaliyyəti haqqında şəffaflığın təmin edilməsinə və subsidiyaların verilməsi mexanizminin təkmilləşdirilməsinə, istehsalın stimullaşdırılmasına və istehsalda artıma səbəb oldu.

Kənd təsərrüfatı GPS məlumatlarının istifadəsində qabaqcıl olmuşdur. GPS nəzarəti müvafiq kompüter proqramları ilə birlikdə traktorların və özüyeriyən kombaynların hərəkətini optimallaşdırmağa və yanacağa qənaət etməyə imkan verir. Hava proqnozu tətbiqləri, dronlar və digər məlumat idarəetmə sistemləri əkin və məhsul yığımı proseslərini optimallaşdırmağa kömək edir. Əsas və azot gübrələməsi kimi bulud əsaslı saxlama həlləri bitkilər üçün daha səmərəli və daha yaxşı qidalanma təmin edir. Qarğıdalı silosunun yığılması və ya şəkər çuğundurunun yığılması kimi mürəkkəb istehsal proseslərini real vaxt rejimində izləmək və birgə təşkil etmək mümkün olur. Qida verən robotlar, südün tərkibini ölçən cihazlar və ya iqlim nəzarəti sistemləri heyvanların rifahına və ətraf mühitə mühüm töhfə verməklə yanaşı, kənd təsərrüfatı işçilərinin işini asanlaşdırır. Sensor texnologiyasındakı yeni inkişaflar heyvanların davranışlarını izləməyə və qiymətləndirməyə imkan verir [3].

Onu da qeyd edək ki, aqrar sahənin son bir neçə ildə ölkə iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biri olmasına baxmayaraq, rəqəmsallaşma məsələləri onun üçün ən aktual məsələlərdən biri olaraq qalmaqdadır. Aparılan araşdırmalarımız göstərir ki, aqrar sahədə fəaliyyət göstərən fermer təsərrüfatlarının kiçik ölçülərə malik olması səbəbindən və kənd təsərrüfatının xarakterik xüsusiyyətlərinə görə müasir İK texnologiyalarının və ən son iqtisadi idarəetmə vasitələrinin istifadəsinin tətbiqində çoxlu çətinliklər mövcuddur.

İqtisadiyyatın digər sahələrində uğurla tətbiq olunan, biznes və sahibkarlıq mühitinin inkişafı üçün yeni imkanlar yaradan rəqəmsal iqtisadiyyatın əsas aparıcı rola malik olmasına baxmayaraq kənd təsərrüfatında tətbiqi ləng gedir. Lakin, nəzərə almaq lazımdır ki, rəqabət qabiliyyətli iqtisadiyyata nail olunması üçün rəqəmsal iqtisadiyyatın inkişafı qaçılmazdır. Belə ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, rəqəmsal iqtisadiyyatın köməyilə aqrar sahədə inkişafı dayandıran xroniki problemləri aşkar edəcək yeni alətləri müəyyən etmək, təsərrüfat fəaliyyəti üçün maddi, instrumental və enerji ehtiyatlarından əlavə, bu resursların əldə edilməsi və istifadəsi imkanlarını müəyyən edən informasiyalarla təmin etmək mümkündür.

Professor R. Balayev öz tədqiqatlarında qeyd etmişdir ki, inkişaf etmiş ölkələrdə olduğu kimi, aqrar sahədə rəqəmsallaşmanın texniki- texnoloji imkanlarını reallaşdırmaq üçün ilk növbədə motivləşdirmə, iqtisadi davranış və idarəetmə amillərinə önəm verilməlidir. Məsələ ondadır ki, kənd təsərrüfatında özəl bölmə təmsilçisi rəqəmsal texnologiyaları tətbiq etməkdə maraqlı olmalı və bu marağın gerçəkləşdirilməsi üçün təqdim edilən güzəşt və imtiyazlar, bir tərəfdən haqqında danışılan təmsilçini maddi məsuliyyətdən azad etməməli, digər tərəfdən isə güzəşt və imtiyazlar motivləşdirməni real olaraq təmin etməlidir (2).

Azərbaycanda aqrar sahənin rəqəmsallaşdırılması səviyyəsi böyük istehsalçı şirkətlərdə yüksək olsa da kiçik və orta ölçülü təsərrüfatlarda bu hiss olunmur, əslində onların bunu tətbiq etməyə imkanları da yoxdur.

Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, rəqəmsal aqrar sahə müasir kənd təsərrüfatı inkişafının qabaqcıl mərhələsidir və ölkəni sadə və ya böyük kənd təsərrüfatı ölkəsindən güclü kənd təsərrüfatı ölkəsinə keçməsinin yeganə yoludur. İşğaldan azad olunan Qara-

bağın rayonlarının və kənd yerlərinin yenidən qurulmasında elmi və texnoloji innovasiya imkanlarının tətbiqi, rəqəmsal kənd strategiyasının (ağıllı kənd) həyata keçirilməsi, müasir qurğuların və avadanlıqların tətbiqi ənənəvi kənd təsərrüfatının inkişafından daha üstün olduğunu göstərməkdədir. Qeyd etdiyimiz kimi, sənaye və xidmət sahələri ilə müqayisədə kənd təsərrüfatında və kənd yerlərində rəqəmsallaşmanın tədqiqi və tətbiqi hələ də xeyli geridə qalır.

Qeyd edək ki, rəqəmsal kənd təsərrüfatı rəqəmsal kənd inkişafı strategiyasının həyata keçirilməsinin və kənd yerlərinin dirçəldilməsinin hərtərəfli təşviq edilməsinin vacib hissəsidir. "Elektron kənd təsərrüfatı" informasiya sisteminin rəqəmsal kənd strategiyası və "İnternet +" müasir kənd təsərrüfatının güclü şəkildə təşviq edilməsi fermerlər haqqında məlumatların əlçatanlığını təmin etməklə inkişaf strategiyasının hazırlanmasına geniş imkanlar açır. Bu gün kənd təsərrüfatında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə fermerlərin məhsul satışını həyata keçirməsində təcrübələr formalaşmaqdadır. Belə ki, ölkədə fəaliyyət göstərən AZPROMO-nun (Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun) köməyilə sahibkarların istehsal etdikləri məhsulların ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici bazarlarda tanıdılması və təşviqi, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi tədbirləri və s. barədə məlumatların ictimaiyyətə çatdırılması, iqtisadi xəbərlərin, həmçinin İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlara göstərilən dövlət dəstəyi tədbirlərinin daha geniş və operativ yayılması həyata keçirilir (4).

Lakin fermer təsərrüfatların kiçik ölçülü olması və istehsal olunan məhsulların az olması, eyni zamanda istehsalçıların bu sahədə bilik və bacarıqlarının aşağı olması İKT-dən istifadəni məhdudlaşdırır.

Eyni zamanda ölkədə İKT xidmətinin yetərincə inkişaf etməməsi və açıq havada məhsul becərən fermerlər üçün lazım olan informasiya banklarının yetərincə olmaması İKT-nin üstünlüklərini görünməz edir. Bu isə istehsalın və bazarın düzgün proqnozlaşdırılmasına maneə törətməklə bazar tələbi ilə istehsal həcminin uyğunsuzluğuna səbəb olur ki, nəticədə istehsalçı fəaliyyətini zərərlə başa vurur və ya bazarda qıtlıq yaranmaqla, məhsul dəyərindən çox baha satılmaqla istehlakçının xərclərinin artmasına və eləcə də sosial problemlərin yaranmasına gətirib çıxarır.

Rəqəmsal kənd təsərrüfatı, informasiya texnologiyalarının və kənd təsərrüfatının bütün aspektlərinin effektiv inteqrasiyasına imkan verir. Bu da öz növbəsində ənənəvi kənd təsərrüfatının transformasiyası və kənd təsərrüfatı istehsalı üsullarının transformasiyası üçün böyük əhəmiyyət kəsb edir. Son illərdə aparılan islahatlar fermerlərə məhsul istehsalını artırmaq üçün geniş imkanlar açmasına baxmayaraq istehsaldan sonra daha sürətli və səmərəli satışa nail olmaq hələ ki, mümkün olmamışdır. Rusiya Federasiyasına qarşı tətbiq edilən sanksiyalar Rusiya bazarlarına ixracda və məhsul satışında ciddi problemlər yaratmasa da bu bazarın dayanıqlı və ya etibarlı olduğunu söyləmək çətindir. Ölkədə fermerlərin satışla bağlı problemlərini həll edən tipik bir təmsilçi elektron ticarətin mövcud olmasına baxmayaraq hazırda kənd təsərrüfatında tətbiqi çox zəifdir. Bir sözlə, böyük verilənlər, süni intellekt və digər vasitələrlə kənd təsərrüfatının istehsaldan əvvəlki planlaşdırılması, istehsaldaxili əməliyyatlar və istehsaldan sonrakı satışların hərtərəfli optimallaşdırılmış idarə edilməsinin həyata keçirilməsinin təmin edilməsi və bu istiqamətdə işlərin sürətləndirilməsi, yeni bazarların müəyyən edilməsi istehsala böyük dəyişikliklər və təkmilləşdirmələr aparmağa imkan verə bilər.

Rəqəmsal kənd təsərrüfatının inkişafında aşağıdakı əsas problemlər də mövcuddur:

- rəqəmsal infrastrukturun inkişafı digər sahələrlə müqayisədə geridə qalır;
- kənd təsərrüfatı istehsalı və istismarı ilə məşğul olan rəqəmsal obyektlər hələ ki, əlverişli və effektiv deyil;
- kənd təsərrüfatı istehsal mühitinin təbii-iqlim şəraitindən asılılığı və istehsal resursları ilə (təbii və iqtisadi) bağlı məlumatların toplanması və dəqiq çatdırılması yüksək xərc tələb edir və bu sahəyə investisiya qoyuluşu cəlbedicilik baxımından aşağı səviyyədədir;
- kənd təsərrüfatı əməliyyatları üçün tələb olunan cari rəqəmsal infrastruktur bu ehtiyacları ödəyə bilmir.

Rəqəmsal texnologiyanın kənd təsərrüfatı sənayesi zəncirinə nüfuzu kifayət qədər dərin olmadığından emal sənayesinin inkişafı olduqca aşağı səviyyədədir və emal texnologiyası rəqabət-

qabiliyyətli deyildir. Kənd təsərrüfatı sənayesi zəncirində rəqəmsal texnologiyanın bazar əsaslı dəyərinin yaradılması rəqəmsal texnologiya və biznes modellərinin uyğunluğundan asılıdır. Məhz bu baxımdan, dünyada baş verən prosesləri nəzərə almaqla vaxtında və düzgün şəkildə hökumətin töhfəsi olmasa, rəqəmsal kənd təsərrüfatının aqrar sahənin iqtisadi inkişafı üçün yeni mühərrikə çevrilməsi çətin olacaq ki, bu da rəqabət bazarında geri addıma səbəb olur.

## ƏDƏBİYYAT


1. A.H. Vəliyev, F.V. Rüstəmov və başqaları, The Digitalization Effectiveness as an Innovative Factor Development of the Agriculture in Azerbaijan, http://dx.doi.org/10.15549/jeecar.9i2.902
2. R.Ə. Balayev, Aqrar sahədə rəqəmsal mühitin formalaşmasının əsas amilləri və təcrübi aspektləri, https://agroeconomics.az/az/read/16/aqrar-sahede-reqemsal-muhitin-formalasmasinin-esas/
3. Цифровизация аграрного сектора в германии – общие тенденции и направления политической работы, https://agrardialog.ru/news/details/id/3030
4. https://economy.gov.az/.
5. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_avqust2009/88669.htm



***Эльнур Тахир оглы Алекперов***
***Диссертант Центра аграрных исследований***
***e-mail: Elekberov.elnur78@mail.ru***


## Приоритетные направления применения цифровых технологий в устойчивом развитии сельского хозяйства


***Резюме***

В статье рассматриваются направления применения цифровых технологий в развитии сельского хозяйства Азербайджана, его интеграция в мировое аграрное поле и обеспечение устойчивого развития конкурентоспособного аграрного сектора. При этом в соответствии с требованиями современной рыночной экономики определены исследования современного состояния применения цифровых технологий в устойчивом развитии сельского хозяйства и направления его совершенствования.



***Ключевые слова: сельское хозяйство, цифровые технологии, аграрные реформы, устойчивое развитие.***



***Elnur Tahir Alekperov***
***Thesis of the Agriculture Research Center***
***e-mail: Elekberov.elnur78@mail.ru***


## Priority areas of application of digital technologies in the sustainable development of agriculture


***Summary***

The article discusses the areas of application of digital technologies in the development of agriculture in Azerbaijan, its integration into the global agricultural field and ensuring the sustainable development of a competitive agricultural sector. At the same time, in accordance with the requirements of the modern market economy, studies of the current state of the use of digital technologies in the sustainable development of agriculture and directions for its improvement are determined.



***Key words: agriculture, digital technologies, agricultural reforms, sustainable development.***

UOT:33.659

*Lalə Raqif qızı QULİYEVA*
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı*
*lala quliyeva <lala1990@mail.ru>*

# ELEKTRON BİZNESİN CƏMİYYƏTİN GƏLƏCƏYİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Xülasə***

Ötən yüzilliyin ortalarından etibarən bir çox biznes menecerləri anlamağa başladılar ki, internetin əsl dəyəri statik internetə baxmaqda və e-poçt göndərməkdə deyil, internetin biznes proseslərini təkmilləşdirmək, ümumi xərcləri azaltmaq və işin həcmini artırmaq üçün açdığı imkanlarındadır.İnternetin universal islahat vasitəsi kimi təsəvvür ideyası və nəticədə bu sahəyə milyardlarla dollarlıq vəsaitlərin güclü axını ötən əsrin sonlarında müxtəlif növ internet şirkətlərinin yaranmasına səbəb olmuşdur.Baş vermiş qlobal internet inqilabı bu gün biznesin aparılması üsullarına əhəmiyyətli dərəcədə təsir göstərmişdir və indi onun inkişafının yeni, daha mənalı və sağlam mərhələsi başlayır. İstehsalçılarla təchizatçılar və istehlakçılar arasında birbaşa əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi sahəsində dinamik qiymət, tələb və təklifin aqreqasiyası, maliyyə və inzibati əlavələrlə inteqrasiyası ilə xarakterizə olunur ki, bu da real dünyada elektron iqtisadiyyatın gələcəyini,biznes prosesləri optimallaşdırmağa imkan verir. Baş verən proseslər aydın şəkildə göstərir ki, bu gün biznes qurmaq üçün yeni yolların və strateji yanaşmaların imkanlarını və qaçılmazlığını dərk edə bilməyənlər yaxın gələcəkdə daha uzaqgörən rəqiblər tərəfindən kənara atılacaqlar.

***Açar sözlər: elektron biznes, elektron iqtisadiyyat, rəqabət, şirkət, elektron ticarət, yeni texnologiya, Data Mining.***

***

Bu gün qlobal telekommunikasiya şəbəkəsi İnternet bütün təsərrüfat strukturlarına əhəmiyyətli təsir göstərir, müəssisələrə maddi xərcləri azaltmağa, tərəfdaşlarla yeni formada münasibətlər qurmağa, yeni təchizat və satış bazarlarına çıxmağa, əlavə gəlir mənbələri yaratmağa kömək edir. Mübaliğəsiz demək olar ki, internet aktiv biznes mühitinə çevrilir. Eyni zamanda, bəzi müəssisələr istehsallarını daha da genişləndirmək və yeni müştəriləri cəlb etmək üçün yeni imkanlar əldə etmək ümidi ilə Ümumdünya İnternet Şəbəkəsinə daxil olurlar, rəqabət mühiti digərlərini yeni ideyalar və formalar axtarmağa sövq edir.

Şübhəsiz ki, İnternet əhəmiyyətli imkanlar verir. Şəbəkənin qlobal xarakteri və istifadəçilərinin çoxluğu bu interaktiv informasiya mühitinin biznesin inkişafına töhfə verdiyini göstərir. Veb zamana və məsafəyə tabe deyil və təsadüfi deyil ki, onun üçün yeni "24x7" şüarı (gündə 24 saat, həftədə 7 gün, ildə 365 gün) istifadə olunur. Başqa qitədə minlərlə kilometr aralıda yerləşən biznes tərəfdaşı ilə əlaqə ənənəvi rabitə vasitələri ilə müqayisədə xeyli aşağı maliyyə xərcləri ilə bir neçə saniyə ərzində həyata keçirilir. İnternetin köməyi ilə biznes şirkətlərin ölçüsündən, coğrafi mövqeyindən və milli mənsubiyyətindən asılı olmayaraq qloballaşır. [1]:

Hazırda təcrübədə geniş istifadə olunan yeni terminlər yaranıb: elektron biznes (e-biznes) və ya onlayn biznes - internet vasitəsilə biznes proseslərinin aparılması, elektron ticarət (e-ticarət) - internet vasitəsilə alqı-satqı əməliyyatlarının aparılması. Bəzi ekspertlər elektron iqtisadiyyat, virtual biznes, internet biznes kimi ifadələrdən də istifadə edirlər.

Ötən yüzilliyin ortalarından etibarən bir çox biznes menecerləri anladılar ki, İnternetin əsl dəyəri statik internetə baxmaqda və e-poçt göndərməkdə deyil, internetin biznes proseslərini təkmilləşdirmək, ümumi xərcləri azaltmaq və işin həcmini artırmaq üçün açdığı imkanlardadır.Şəbəkə həqiqətən də biznes proseslərinin həyata keçirilməsində əsaslı dəyişikliklər üçün yeni, zəngin perspektivlər təqdim etdi. [2]:

Digər hallarda olduğu kimi təcrübədə yeni texnologiyaların meydana gəlməsi halında da reallıqların yenidən qiymətləndirilməsi baş verdi.İnternetin universal islahat vasitəsi kimi təsəvvür ideyası və nəticədə bu sahəyə milyardlarla dollarlıq vəsaitlərin güclü axını ötən əsrin 90-cı illərinin sonlarında müxtəlif növ internet şirkətlərinin (dot-com şirkətləri) yaranmasına səbəb oldu, lakin

bir neçə illik uğurlu (maliyyə) inkişaf mərhələsindən sonra onlara bəslənən ümidləri doğrultmadan onların bir-birinin ardınca iflasa uğraması müşahidə olundu.

Bununla belə, müsbət təsirli səmərə də mövcuddur. Baş vermiş qlobal internet inqilabı bu gün biznesin aparılması üsullarına əhəmiyyətli dərəcədə təsir göstərmişdir və indi onun inkişafının yeni, daha mənalı və sağlam mərhələsi başlayır. Əgər birinci mərhələ, ilk növbədə B2C (Biznesdən Müştəriyə - biznes alıcıya) həddindən artıq şişirdilmiş səs-küylü və onun ətrafında reklam ilə pərakəndə satış üçün İnternet həllərinin inkişafı ilə xarakterizə olunurdusa, növbəti mərhələ, "yeni" iqtisadiyyatın real zəminə çevrilməsi geri qayıtdıqdan sonra B2B sinfinə (Biznesdən Biznesə) aid olan təsərrüfat subyektlərinin qarşılıqlı əlaqəsi üçün sistemlər və alətlər tətbiq edən və istifadə edən şirkətlərin bazarında aparıcı rolu və uğuru ilə müəyyən ediləcək.

İstehsalçılarla təchizatçılar və istehlakçılar arasında birbaşa əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi sahəsində dinamik qiymət, tələb və təklifin aqreqasiyası, maliyyə və inzibati əlavələrlə inteqrasiyası ilə xarakterizə olunur ki, bu da real dünyada elektron iqtisadiyyatın gələcəyini,biznes prosesləri optimallaşdırmağa imkan verir. Baş verən proseslər aydın şəkildə göstərir ki, bu gün biznes qurmaq üçün yeni yolların və strateji yanaşmaların imkanlarını və qaçılmazlığını dərk edə bilməyənlər yaxın gələcəkdə daha uzaqgörən rəqiblər tərəfindən kənara atılacaqlar. Elektron biznes dünyasının imkanlarını dərk edənlər üçün qlobal bazar zəngin perspektivlər açmaqda davam edir.

B2B e-ticarət sistemləri müəssisələr arasında işgüzar əlaqələri saxlamaq, satış və logistika problemlərini həll etmək, podratçılarla (logistika və çatdırılma) əlaqələri axtarmaq və uyğunlaşdırmaq üçün nəzərdə tutulmuşdur. Bu sistemləri aşağıdakı növlərə bölmək olar:

**Şirkətin korporativ saytı.** Bu şirkətin İnterneti vasitəsilə tərəfdaşlar və podratçılar - təchizatçılar və istehlakçılar ilə ünsiyyət üçün nəzərdə tutulmuşdur. Saytda adətən şirkət, onun personalı, rəhbərliyi haqqında məlumatlar, həmçinin təklif etdiyi məhsul və xidmət növlərinin kataloqları yerləşdirilir.

**Online mağaza.** Alıcılara birbaşa şəbəkə vasitəsilə nümayiş olunan məhsullar üçün sifariş vermək, həmçinin müqavilələr bağlamaq, ödənişlər etmək və çatdırılmalara nəzarət etmək imkanı verir.

Rəqəmsal texnologiyaların əhəmiyyətli təsir göstərdiyi sahələrdən biri istifadəyə əsaslanan sığortanın inkişafıdır. Bu sığorta növü müştərilərə onların sürücülük davranışı və ya enerji sərfiyyatı kimi konkret məhsul və ya xidmətdən faktiki istifadəsinə əsaslanaraq mükafat ödəməyə imkan verir. Sığortaçılar müştəri davranışını izləmək və mükafatları müvafiq olaraq tənzimləmək üçün telematik cihazlardan və digər sensorlardan istifadə edirlər. Bu yanaşma sığortaçıların təhlükəsiz sürücülük davranışını daha aşağı mükafatlarla mükafatlandıra bildiyi avtomobil sığortası sektorunda xüsusilə uğurlu olmuşdur.

Rəqəmsal texnologiyaların təsir göstərdiyi digər sahə yeni paylama kanallarının inkişafıdır. Onlayn platformalar və mobil proqramlar müştərilər üçün məhsulları müqayisə etməyi, qiymət təkliflərini qəbul etməyi və satınalma siyasətlərini asanlaşdırıb. Bu platformalar həmçinin sığortaçılara daha geniş auditoriyaya çatmağa və daha çox fərdiləşdirilmiş xidmətlər təqdim etməyə imkan verir. Bəzi hallarda sığortaçılar müştərilərə ani qiymətlər və məsləhətlər vermək üçün süni intellekt və chatbotlardan istifadə edirlər.

Sığorta sektorunda digər inkişaf tendensiyası fərdiləşdirmədir. İstehlakçılar fərdi ehtiyaclarına və seçimlərinə uyğunlaşdırılmış sığorta məhsulları axtarırlar. Azərbaycanın sığorta şirkətləri bu tendensiyaya cavab olaraq, konkret bazar seqmentlərinə uyğunlaşdırılmış məhsullar təklif ediblər. Məsələn, bəzi şirkətlər paraşütlə tullanma və bungee jumping kimi macəra fəaliyyətlərini əhatə edən səyahət sığortası siyasətlərini tətbiq etdilər.

İnnovasiya həm də müasir dövrdə sığorta sektorunun inkişafına təkan verir. Sığorta şirkətləri yeni məhsul və xidmətləri inkişaf etdirmək üçün süni intellekt (AI), blokçeyn və əşyaların interneti (IoT) kimi yeni texnologiyalardan istifadə edirlər. Məsələn, Azərbaycanda bəzi şirkətlər müştəri məlumatlarını təhlil etmək və fərdi sığorta məhsulları təklif etməyə kömək edən risk profillərini

hazırlamaq üçün süni intellektdən istifadə edirlər. Bundan əlavə, bəzi sığorta şirkətləri iddialar prosesində şəffaflığı və təhlükəsizliyi artırmaq üçün blokçeynin istifadəsini araşdırır.

Azərbaycanda sığorta bazarının inkişafına tənzimləyici islahatlar da təkan verir. Son illər hökumət sığorta sektorunda şəffaflığın və sabitliyin yaxşılaşdırılmasına yönəlmiş bir sıra islahatlar həyata keçirib. Məsələn, hökumət avtonəqliyyat vasitələri üçün üçüncü şəxslərin mülki məsuliyyətinin icbari sığortasını tətbiq etdi ki, bu da ölkədə sığorta məhsullarına tələbatı artırdı. Hökumət həmçinin sığorta sektorunu tənzimləmək və nəzarət etmək üçün məsul olan Azərbaycan Sığorta Nəzarəti Orqanını təsis edib.

Nəhayət, Azərbaycanda sığorta şirkətləri Mərkəzi Asiya və Yaxın Şərq kimi regionun inkişaf etməkdə olan bazarlarına doğru genişlənir. Bu regionlarda sığorta bazarı nisbətən zəif inkişaf edib və Azərbaycanda şirkətlərə öz bizneslərini genişləndirmək üçün imkanlar yaradır. Məsələn, Azərbaycanda bəzi sığorta şirkətləri bu bazarlarda sığorta məhsulları təklif etmək üçün digər ölkələrin şirkətləri ilə tərəfdaşlıq əlaqələri qurublar.

Bundan əlavə, sığortaçılar müştərilərin davranışlarını və üstünlüklərini daha yaxşı başa düşməyə kömək edən texnologiyalara sərmayə qoyurlar. Məsələn, bəzi sığortaçılar müştəri məlumatlarını təhlil etmək və daha fərdiləşdirilmiş məhsul və xidmətlər hazırlamaq üçün istifadə oluna biləcək nümunələri müəyyən etmək üçün süni intellekt və maşın öyrənmə alqoritmlərindən istifadə edirlər.

Müasir dövrdə sığorta bazarının inkişaf tendensiyaları texnoloji tərəqqi, dəyişən istehlakçı davranışları və iqtisadi inkişaflarla şərtlənir. Azərbaycanda sığorta sənayesi rəqəmsallaşma, fərdiləşdirmə, innovasiya, tənzimləmə islahatları və inkişaf etməkdə olan bazarlara genişlənməni əhatə edib. Bu tendensiyalar nəinki müştərilərin rahatlığını yaxşılaşdırdı, həm də sığorta şirkətləri üçün yeni iş imkanları yaratdı. Gələcəkdə Azərbaycanda sığorta şirkətləri rəqabətədavamlı qalmaq və ölkədə və regionda müştərilərin inkişaf edən ehtiyaclarını ödəmək üçün bu tendensiyalara uyğunlaşmağa davam etməlidir [2, s.81].

Yekun olaraq qeyd edək ki, Azərbaycan sığorta bazarı son illər iqtisadi ekspansiya, dəyişən demoqrafik göstəricilər və sektorun liberallaşdırılması kimi amillərin təsiri ilə əhəmiyyətli artım və inkişafa nail olub. Bununla belə, bu artıma baxmayaraq, bazarın potensialını tam reallaşdırmaq üçün hələ də həll edilməli olan bir sıra problemlər və imkanlar mövcuddur. Yenilikləri davam etdirmək və dəyişən şəraitə uyğunlaşmaqla, eyni zamanda sığorta və tənzimləyici məhdudiyyətlər haqqında məlumatlılığın və anlayışın aşağı səviyyəsi kimi problemləri həll etməklə, Azərbaycan sığorta bazarı növbəti illərdə də böyüməyə və inkişaf etməyə davam edə bilər.

## ƏDƏBİYYAT


1. Azernews-dan “Azərbaycanda sığorta bazarının inkişafı”, https://www.azernews.az/business/159500.html
2. “Azərbaycan Sığorta Hesabatı 2022-ci ilin 4-cü rübü”, Business Monitor International, 2022.
3. B.A. Xankişiyev,(2010) “ Sığorta fəaliyyətinin əsasları”, Bakı, 274 səh.
4. Leyla Əliyeva (2011) “Azərbaycanda Sığorta Sistemi: İqtisadi və Sosial Proseslərə Multiplikator Təsiri Kimi”, Bakı: “Qanun Nəşriyyat”. - 108 səh.
5. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu



***Айтен Вагиф кызы Мамедова***
***магистр:***
***e-mail: aytan-mammadova@mail.ru***


## Тенденции развития страхового рынка в настоящее время


***Резюме***

В страховом рынке Азербайджана, как и многих других стран, за последние годы произошли большие изменения и развитие. В настоящее время страховой рынок стремительно

развивается. Различные тенденции возникают в ответ на изменения в технологиях, предпочтениях клиентов и нормативных требованиях. Азербайджан, расположенный в южнокавказском регионе Евразии, в последние годы столкнулся с аналогичными событиями на быстро развивающемся страховом рынке. В этой статье мы рассмотрим основные тенденции на страховом рынке в современное время и их влияние на страховую отрасль Азербайджана.
***Ключевые слова: страхование, рынок, развитие, рост, государство.***

***Aytan Vaqif Mammadova***
***Master:***
***e-mail: aytan-mammadova@mail.ru***

**Development Trends Of The Insurance Market In The Modern Era**

***Summary***

The insurance market of Azerbaijan, like many other countries, has undergone great changes and development in recent years. In modern times, the insurance market is developing rapidly. Various trends emerge in response to changes in technology, customer preferences, and regulatory requirements. Azerbaijan, located in the South Caucasus region of Eurasia, has faced similar events in the rapidly developing insurance market in recent years. In this article, we will examine the main trends in the insurance market in modern times and their impact on the insurance industry in Azerbaijan.
***Key words: insurance, market, development, growth, state.***

**UOT 640.4**

***Könül Mail qızı XƏLİLOVA***
***Magistr***
***E-mail: K.Xelilova@bk.ru***

## AZƏRBAYCAN TURİZMİNİN SOSİAL-İQTİSADİ ƏHƏMİYYƏTİNİ ƏHATƏ EDƏN AMİLLƏR

***Xülasə***

Məqalə Azərbaycanın turizm sahəsindəki inkişafından, onun inkişafına təsir edən amillərdən bəhs edir. Turizmin ölkəmizin iqtisadiyyatında tutduğu yer, onun iqtisadi əhəmiyyətinə nələrin təsir etdiyi qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin turizm sahəsindəki töhfələrindən bəhs edilmişdir.
***Açar sözlər: Turizmin inkişafı, sosial-iqtisadi əhəmiyyət, regional, turistlər, iqtisadiyyat.***

***

Azərbaycan Ön Asiyada yerləşir və Qafqaz dağlarının cənub-şərq hissəsindən Urmiya gölünün cənub və cənub-şərqindəki dağlıq ərazilərə qədər olan sahələri əhatə edir. Azərbaycan Xəzər dənizi ətrafında yerləşən əsrarəngiz təbiətə, tarixi zənginliklərə, gözəl iqlimə sahib olan ölkədir. Vətənimizin relyefi müxtəlifdir, bunlardan ən əsası: düzənlik və dağlardır. Dünyada olan 11 iqlim qurşağının 9-u ölkəmizin təbiətində vardır. Quru subtropik iqlim Kür-Araz ovalığı və Abşeron yarımadası üçün xarakterikdir. Rütubətli subtropik iqlim isə Talış dağları və Lənkəran ovalığı üçün xarakterik iqlim qurşağıdır. Azərbaycan Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları əhatəsində yerləşdiyinə görə turizm iqtisadiyyatı inkişaf etmişdir. Ölkəmizdə turizm sahəsinə xüsusi maraq və dəstək göstərilir, lakin bir sıra qadağalar da mövcuddur ki, bunlardan biri də nadir quş və heyvan növlərinin ovlanmasına qoyulan qadağalardı. Ölkəmizə gələn turistlər ilk növbədə Bakı şəhərinin gözəl tarixi abidələri və tarixi ilə yaxından tanış olurlar. İlk olaraq İçərişəhər, Qız qalası, Şirvanşahlar kompleksi, Qala divarları və gözəl dənizkənarı milli parkla yaxından tanış olub, gəzib-

görürlər. Turistləri öz orijinallığı ilə Fəvvarələr meydanı da cəlb edir.Regional olaraq turizm bir çox rayonlarımızda inkişaf etmişdir. Bunlardan Şəki, Quba, Lahıc-İsmayıllı və Lənkəran-Astara, Lerik kimi bölgələrimizi qeyd etmək olar. Bölgələrimiz gözəl təbiətə, zəngin tarixi abidələrə, milli mətbəxə malikdir.

Dünyada turizmin inkişaf etməsinə səbəb olan amillər kimi aşağıdakıları göstərmək olar:

- ölkələrarası uçus qiymətlərinin əlverişlı olması
- milli gəlirin artması
- insanların saglam və uzunömürlu olmaq istəyi
- yaşam səviyyəsinin və standartlarının artması

Bir sıra bölgələrimizin özünəməxsus yeməkləri vardır və bunlar da turistlərin böyük marağına səbəb olur. Turizm sahəsi dünya kapitalını öz əlində cəmləşdirən bir sahədir. Son illərin nəticə və göstəricilərinə görə turizm Azərbaycanda inkişaf etmis bir sektor kimi qeydə alınır. Beynəlxalq turizm isə dövlətlərarası iqtisadi əməkdaşlığın təməlinin əsasını təşkil edir.

Vətənimizdə turizmin inkişafının sosial-iqtisadi əhəmiyyəti çox böyükdür. Mövsümündən asılı olaraq turizm iqtisadiyyatda mühüm yer tutur. İqtisadi cəhətdən ilkin təsiri, gəlir əldə edilməsi, mənfəət qazanılması, sosial cəhətdən isə yeni turizm yerləri, sektorların açılmasıdır. Turistlər seçim edərkən ilkin əsas fikirləri: regional cəhətdən məkan seçimi, həmin məkanda qarşılanma, xidmət sektorunun mükəmməlliyi, əyləncə, gəzib-görmə, məlumatlanma və s. digər amilləri əsaslı seçim kimi götürürlər. Turizmin inkişafı regional cəhətdən də çox aslıdır. İstehlak rolu isə turizm müəssisələri olan bölgələrdə əhalinin məşğulluğu, əməkhaqqı, məhsul satışı və digər amilləri əhatə edir. Digər tərəfdən də miqrasiya problemlərinin həllinə kömək olur. Turizmin inkişafının iqtisadi rollarından biri də odur ki, strateji problemlərin həlli yollarının tapılmasına kömək etməyə imkan yaradır.

Başqa sözlə qeyd etsək, Azərbaycan Respublikasında turizm sektorunun və bununla bağlı fəaliyyətlərin inkişafı sosial, həm də iqtisadi sahələrə uyğun tətbiq edilən siyasətə dəstək verərək əslində birbaşa olaraq insan kapitalına və bunun nəticəsində insan hüquqlarına göstərilən yüksək münasibətin göstəricisi kimi qeyd edilə bilər. Azərbaycan Respublikasında turizm sahəsində keçmiş sovet təcrübəsinin daha mütərəqqi və müasir Avropa və ümumi mənada Qərb təcrübəsi ilə əvəz edilməsi, respublikada milli turizmin inkişaf etdirilməsi və bu sahədə kadr potensialının yüksək səviyyəyə çatdırılması məqsədi ilə ali təhsilin prioritet istiqamətlərini və turizm siyasətinin perspektivlərini nümayiş etdirir. Milli turizmin inkişafı dedikdə, təbii ki, burada yalnız gözəl, səfalı, füsunkar, mənzərəli təbiət ərazilərində gəzmək, yürüyüş etmək, əylənmək və ya digər müxtəlif rekreasiya fəaliyyətlərinin təşkili nəzərdə tutulmur. Məhz burada diqqət edilən əsas məqam dövlət siyasətinin diqqət mərkəzində olmasıdır.[3] Respublikamızda xüsusi ilə son illər ərzində inkişaf səviyyəsində görünən artım əcnəbi turistlərin ölkəyə olan marağını daha da artırmış və bununla paralel şəkildə qazanc məqsədi ilə Azərbaycana gələn işçi qüvvəsinin sayında yüksəliş müşahidə edilmişdir.[3]

Məlumdur ki, yüksək səviyyədə istirahət etmək hər bir turistin təbii haqqıdır. Bu qanunun həyata keçirilməsində ölkəyə daha çox turist cəlb etmək üçün əlverişli, gözəl təbii, zəngin mühitin olması vacib sayılsa da, o dövlətin insan hüquqlarının qorunması kimi vacib məsələlərdə, sosial hüquqların qorunması və təhlükəsizliyin təmin edilməsi kimi problemlərin həlli daha çox diqqət çəkən məsələlərdən biridir. Azərbaycanda turizm sektorunun inkişaf etdirilməsi keçmiş sovet coğrafiyasında məhdud çərçivədə inkişaf etsə də, vəziyyət müasir dövrdə tamamilə dəyişmişdir. Turizm sahəsində mövcud olan beynəlxalq təcrübənin tətbiqi, turizm sektorunun inkişafında bir sıra bu sahədə peşəkar xarici mütəxəssislərin fikirlərinin öyrənilməsi, bu baxımdan insan hüquqlarının bir hissəsi olan turizm hüququna əməl olunması və hörmət edilməsi Azərbaycan Respublikasında demokratik və hüquqi dəyərlərə olduqca ciddi əhəmiyyət verildiyini göstərir [3].

Ölkəmizə gələn turistlər yerli istehsalımıza böyük maraq göstərirlər. Bunlara misal olaraq bölgələrimizə məxsus olan yeməklər, Basqalda istehsal olunan ipək kəlağayılarımızı göstərmək olar.

İqtisadiyyatın digər sahələrində olduğu kimi turizm sahəsinin də özünəməxsus özəllikləri var-

dır. Turizm gözəgörünməz bir ixracat sahəsidir. Turizm digər xidmət sahələri ilə bilavasitə əlaqəlidir.

Turizm sahəsində əldə olunan gəlir birbaşa iqtisadiyyata, inkişaf etdiyi regionda həyat səviyyəsinin yuksəlməsinə müsbət təsir göstərir.

Regionlara turistlərin axınetmə səbəblərini əhatə edən amillər kimi qeyd etmək olar:

- əlverişli iqlim qurşağı
- gözəl təbiət
- sosial infrastruktur
- otellərin keyfiyyət dərəcəsi
- xidmət sektoru
- nəqliyyat və rabitə
- təhlükəsizliyin təmin edilməsi
- mədəni-tarixi zənginlik

Hər bir xalqın uzaq və yaxın keçmişində onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahilər çox deyil. Xoşbəxt o xalqdır ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Ümummilli lider Heydər Əliyev məhz belə dahilərin sırasına yüksəlmiş Azərbaycan övladı olmuşdur. Bəşər tarixində hər hansı bir vətəndaşın öz dövlətinin timsalına çevrilməsi nadir hadisədir. Yaxın tariximizdə belə zirvəyə yüksələn dahi şəxsiyyətlərdən biri də xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. [3]

Müasir Azərbaycanın dövlətçilik tarixi dedikdə, ilk olaraq, Azərbaycan xalqının öndəri, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş unudulmaz rəhbərimiz Heydər Əliyevi xatırlayırıq. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz xidmətlər göstərmişdir. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman politoloqların, filosofların, tarixçilərin və müxtəlif profilli tədqiqatçıların daim diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Ulu öndər çıxışlarının birində deyirdi: “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub”.

Azərbaycanda milli turizm sektorunu inkişaf etdirmək və turizm resurslarından sosial rifah üçün səmərəli istifadə siyasətinin əsası, digər bütün sahələrdə olduğu kimi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hələ sövet dövründə Azərbaycanda Dağlıq Qarabağ bölgəsində, xüsusilə Xankəndi və Şuşada, həmçinin Mingəçevirdə, Naxçıvanda, Naftalan və Bakının Mərdəkan qəsəbəsində turlarla əlaqəli ofislər, daha sonra isə Qəbələdə Qafqaz və 1969-cu ildə Nabranda yaradılan Dostluq turizm bazalarını qeyd etmək olar. Qeyd etmək lazımdır ki, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. Heydər Əliyev yeddi il sonra 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir [3].

1995-ci ildə “Əsrin müqaviləsi” imzalanan ərəfələrdə ulu öndər Heydər Əliyev öz çıxışlarında həm xarici, həm də yerli iş adamlarını Azərbaycanın paytaxtında və digər füsunkar təbiəti ilə seçilən bölgələrində turizm biznesinə, qonaqpərvərlik sahəsinə sərmayə qoymağa çağırırdı. Bu çağırış tezliklə öz bəhrəsini verdi və nəticədə ölkədə müasir standartlara cavab verən otellərin tikin-

tisi geniş şəkildə həyata keçirilməyə başladı [3]. 1999-cu ildə ulu öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında fərman imzaladı.[2] Məhz bu qanun sayəsində ölkədə turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, bu fəaliyyətlərin əsasını müəyyənləşdirdi. Bu da öz növbəsində turizm sektorunda mövcud münasibətləri tənzimləyərək, iqtisadi və sosial əhəmiyyətə malik turizm rekreasiya ehtiyatlarından düzgün və səmərəli istifadə edilməsi qaydalarını müəyyən etdi.

Müasir dövrümüzdə İlham Əliyevin həyata keçirdiyi ölkəmizi abadlaşdırma siyasəti nəticəsində bölgələrimizdə turizm iqtisadiyyatı çox gözəl inkişaf etmişdir. Azərbaycanın zəngin təbiətinə malik olan bir bölgəsi də Qarabağdır. Bir zamanlar mənfur düşmənlər tərəfindən maddi və mənəvi cəhətdən ziyan görmüş, talanmış Qarabağ azad olunduqdan sonra abadlaşdırılmağa başlandı. İlk növbədə ziyan görmüş tarixi abidələrimiz qorunmağa, abadlaşdırılmağa başladı. Ərazilərin minalardan təmizlənməsi prosesləri hələdə davam edir. Qarabağımız abadlaşdırıldıqdan sonra həmin ərazilərə səyahət edənlərin sayı get-gedə artır. Gələcək illərdə turizm sektoru üçün çox mükəmməl bir seçim olacaqdır. Qarabağ zonası o qədər zəngin təbiətə malikdir ki, buna misal olaraq Laçın rayonunun Minkənd kəndindəki müalicəvi istisuyu göstərmək olar.

Bu gün Azərbaycanın turizm marşrutları üzərində rayonlarda müxtəlif turist layihələri həyata keçirilir, həmin layihələr çərçivəsində bölgələrimiz beynəlxalq səviyyədə təbliğ olunur. Bu sırada "Böyük İpək yolu", "Şərab yolu", "Xalçaçılıq", "Aleksandr Düma Qafqazda" və "Azərbaycanda alman məskənləri" layihələrini qeyd etmək olar. Sözügedən layihələr ölkəmizə gələn turistlərin sayının artırılmasına və çoxçeşidli turizm məhsulunun yaradılmasına xidmət edir. [3]

## ƏDƏBİYYAT


1. Əli Cabbarov, Turizmin iqtisadi əsasları, dərs vəsaiti, ADPU nəşriyyatı, Bakı-2015
2. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı-2017
3. https://azertag.az/xeber/Heyder_Aliyev_ve_Azerbaycanda_turizm-2355398
4. http://anl.az/down/meqale/medeniyyet/2010/iyul/126032.htm



***Конуль Маил кызы Халилова***
***Магистр***
***Электронная почта: K.Xelilova@bk.ru***


**Факторы, связанные с социально-экономическим значением туризма в Азербайджане**


***Резюме***

В статье рассказывается о развитии Азербайджана в сфере туризма и факторах, влияющих на его развитие. Отмечено место туризма в экономике нашей страны и то, что влияет на его экономическое значение. Был обсужден вклад общенационального лидера Гейдара Алиева в сфере туризма.



***Ключевые слова: развитие туризма, социально-экономическое значение, регион, туристы, экономика.***



***Konul Mail Khalilova***
***Master:***
***E-mail: K.Xelilova@bk.ru***


**Factors surrounding the socio-economic importance of Azerbaijan tourism**


***Summary***

The article talks about the development of Azerbaijan in the field of tourism and the factors influencing its development. The place of tourism in the economy of our country and what influences its economic importance have been mentioned. Contributions of national leader Heydar Aliyev in the field of tourism were discussed.



***Key words: Tourism development, socio-economic importance, regional, tourists, economy.***

UOT: 333

***Könül İlqar qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universitetinin magistrı***
***E-mail: gonul@mail.ru***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFI

***Xülasə***

Məqalədə Azərbaycan Respublikasında sosial infrastruktur istiqamətində həyata keçirilən islahatlar araşdırılır. Ulu öndər Heydər Əliyevin sosial infrastrukturun inkişafındakı rolu öyrənilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişaf ilə bağlı həyata keçirdiyi Dövlət Proqramları haqqında məlumat verilir. İşğaldan azad olunmuş ərazilərdə keçirilən islahatlar şərh edilir.

***Açar sözlər: infrastruktur, sosial-iqtisadi inkişaf, dövlət proqramları, milli prioritet,sosial xidmət.***

***

"Bizim dövlətimizin siyasəti iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, birinci növbədə sosial problemləri həll etməkdən ibarətdir" Bu sözlər dahi şəxsiyyət, ümummilli lider, dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin insanların sosial rifahına nə qədər önəm verdiyinin ən bariz ifadəsidir. Ümummilli lider H.Əliyevin rəhbərliyi ilə bugünkü unitar, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövlətinin təməli qoyulub. Heydər Əliyevin milli inkişaf konsepsiyasında daima dövlət büdcəsinin sosial yönümlü olmasına diqqət yetirilib. Ulu öndərin həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasəti ilə Azərbaycan bütün sınaqlardan uğurla çıxmış, ölkədə makroiqtisadi sabitliyin qorunması və əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Ümummilli lider ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması məsələsini daim diqqət mərkəzində saxlayıb. Onun uğurlu sosial-iqtisadi dəstək proqramı ölkəmizi böhranlı vəziyyətdən müvəffəqiyyətlə çıxarıb.

Heydər Əliyevin hakimiyyəti illərində ölkə vətəndaşlarının sosial-iqtisadi hüquqlarının müdafiəsi istiqamətində bir çox mühüm addımlar atıldı, qərarlar, proqramlar qəbul edildi. 1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzül dayandı və bu, sosial sahədə siyasətin konkret istiqamətlərinin müəyyənləşməsinə, islahatlar aparılmasına və sosial siyasətin geniş hüquqi bazasının yaranmasına təkan vermiş oldu. Azərbaycanın sosial siyasətinin əsas istiqamətləri insan haqlarına, demokratik dəyərlərə, liberal iqtisadiyyata əsaslanır. Burada başlıca olaraq məqsəd əmək münasibətləri, aztəminatlı təbəqənin sosial müdafiəsi, pensiya təminatı, sosial müavinətlər, sosial xidmət, sosial sahələrin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, sosial infrastruktur məsələlərini əhatə edirdi.

Heydər Əliyevin siyasəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmamışdı ki, orada inkişaf, tərəqqi olmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanın keçmiş ittifaq respublikaları arasında ən ön sıralardan birini tutmasına gətirib çıxarmışdı.

Ulu öndər Heydər Əliyevin başlatdığı sosial islahatlar cənab Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Proqramlarla idarə etmək metoduna üstünlük verən cənab Prezidentin fərmanları ilə təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşğulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması, ünvanlı sosial yardım, özünüməşğulluq və s. başqa sahələrdə onlarca digər məsələlər həll edilib həyata keçirilməkdədir.

Regionların inkişafı ilə bağlı Dövlət Proqramlarının qəbul edilməsi tarixi zərurət idi. Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycanın gələcəyi baxımından Ümummilli lider Heydər Əliyevin siyasi xəttini davam etdirməyi əsas vəzifə sayan cənab İlham Əliyevin 2003-cü ildə seçicilərin mütləq çoxluğunun inamını qazanaraq dövlət başçısı seçilməsi xalqımız və ölkəmiz üçün çox mühüm hadisə oldu. Cənab İlham Əliyev seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində yerlərdə keçirdiyi görüşlərdə Prezident seçiləcəyi təqdirdə Ümummilli lider Heydər Əliyevin Azərbaycanın hərtərəfli inkişafı ilə bağlı siyasətini irəli aparacağına, bölgələrin inkişafına xüsusi

diqqət yetirəcəyinə dair praqmatik vədlər verirdi. Azərbaycan vətəndaşları İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı elə ilk günlərdən onun öz vədlərinə sadiq qaldığının şahidi oldular. Xüsusi qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin qayğısı sayəsində qısa müddətdə ölkənin regionlarını güclü inkişaf dalğası bürüdü. Bu inkişaf dalğasının yaranmasında, əlbəttə ki, Prezident İlham Əliyevin 11 fevral 2004-cü il və 14 aprel 2009-cu il tarixli fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafı ilə bağlı birinci (2004-2008-ci illər) və ikinci (2009-2013-cü illər) Dövlət Proqramları müstəsna rol oynadı. Sözügedən Dövlət Proqramlarının qəbul olunması tarixi zərurətlə bağlı idi və bir sıra amillərlə şərtlənirdi. Neft sektorundan gələn gəlirlərin iqtisadiyyatın real sektoruna, o cümlədən də, bölgələrin canlandırılmasına yönəldilməsi ölkənin qarşısında yeni inkişaf perspektivlərinin açılması demək idi. Prezident İlham Əliyev regionların inkişafını ilk növbədə dövlətin qarşısında duran mühüm vəzifə kimi səciyyələndirirdi. Bölgələrin inkişafı üçün infrastruktur layihələrinin icrası, sahibkarlığın inkişaf etdirilməsi, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, ərzaq təminatı və bu əsaslarla da bölgələrdə yoxsulluğun, işsizliyin aradan qaldırılması, bütün bu məsələlərin bir-biri ilə əlaqəli şəkildə həll edilməsi Dövlət Proqramlarının mahiyyətini təşkil edirdi [5].

Bu iki Dövlət Proqramı çərçivəsində ölkəmizdə infrastruktur layihələrinin, o cümlədən də, enerji potensialının yaradılması istiqamətində böyük işlər yerinə yetirilib. Azərbaycanda 10 il ərzində 17 elektrik stansiyası istifadəyə verilib. Onların ümumi generasiya gücü isə 2300 MVt.dır. Əgər həmin illərdə yaradılan elektrik stansiyaları tikilməsə idi, bu gün ölkəmizin təxminən 30 faizi işıqsız qalardı. Hər iki proqramın icrası nəticəsində ölkənin müxtəlif bölgələrində bir sıra su layihələri icra olunmuşdu. Artıq respublikamızda insanlara 24 saat ərzində fasiləsiz olaraq Dünya Səhiyyə Təşkilatının standartları səviyyəsində keyfiyyətli su verilir. Dövlət Proqramlarında bu istiqamətdə işləri davam etdirmək, respublikanın əksər kəndlərinə su xətləri çəkmək nəzərdə tutulmuşdur.

Dövlət proqramının həyata keçirilməsi ilə respublikamızda 2700 yeni məktəb istifadəyə verilmiş, 500-dən çox tibb müəssisəsi tikilmiş və ya təmir edilmiş, ölkənin müxtəlif regionlarında 41 Olimpiya İdman Kompleksi tikilmişdir. Dövlət proqramlarının icrası nəticəsində ölkədə 1 milyon 200 min iş yeri açılmış, onların da 900 mini daimi iş yerləri olmuşdur. Respublikada yoxsulluq təqribən 50 faizdən 5,3 faizə enmiş, işsizlik 5 faiz təşkil etmişdir. Bu göstəricilər ilə Azərbaycan hətta inkişaf etmiş ölkələri belə qabaqlayırdı.

Bu illər ərzində yol infrastrukturunun yenilənməsini, yaşayış məntəqələrinin qazlaşdırılmasını, kommunal sektorda reallaşdırılan infrastruktur layihələrini, şəhər və kəndlərin abadlaşdırılmasını, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində görülən işləri də nəzərə alsaq, hər iki Dövlət Proqramının Azərbaycanın mənzərəsini necə dəyişdiyi artıq bizlərə məlumdur.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan sayca III Dövlət Proqramında (2014-2018-ci illər) isə başlanan bütün infrastruktur layihələrini tamamlamaq və yeni hədəflərə çatmaq nəzərdə tutulmuşdur.

Dövlət proqramlarının əsas məqsədi həm də onların dərin sosial məzmunu ilə xarakterizə olunur.

Haqqında bəhs olunan Dövlət proqramlarında sosial sfera ilə bağlı məsələlər prioritet təşkil edir. Ölkəmizdə dinamik iqtisadi inkişaf sosial məzmunlu layihələrlə tamamlanır. Bütün bunlar ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsinin, institusional inkişaf istiqamətində məqsədyönlü siyasət həyata keçirilməsinin, insan amilinə yüksək dəyər verilməsinin bariz nümunələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ildə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrasının davam etdirilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifah halının yüksəldilməsi əsas məqsəd olmuşdur.

İnfrastruktur layihələrinin icrası ilə ciddi məşğul olunur, xüsusilə elektrik enerjisi sahəsində. Bu sahədə ciddi irəliləyiş var. Eyni zamanda qazlaşdırma prosesi davam edir. Ölkəmizin bütün əraziləri, demək olar ki, qazlaşdırma ilə təmin olunubdur.

O cümlədən meliorasiya tədbirləri infrastruktur layihələri arasındadır. 80 min hektar torpağa suyun verilməsi təmin edilmiş, 300-dən çox subartezian quyusu qazılmışdır. 2 böyük su anbarı Taxtakörpü və Şəmkirçay tikilib istifadəyə verilmişdir.

Cənab Prezidentin bölgələrə vaxtaşırı səfərləri Dövlət Proqramlarının icrasını sürətləndirməklə, regionlarda tarazlı inkişafın təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Ölkə başçısı Bakı şəhəri ilə yanaşı bölgələrə - Abşeron, Ağcabədi, Ağdam, Oğuz, Qobustan, Ağsu, Qubadlı, İsmayıllı, Şabran, Şuşa, Kəlbəcər, Füzuli, Şəki, Göygöl, Laçın, Cəbrayıl, Zəngilan, Tərtər, Xızı, həmçinin Gəncə, Sumqayıt şəhərlərinə səfərlər etmiş, bu səfərlər çərçivəsində 160-dan çox obyektin – istehsal müəssisələri, elektrik təchizatı obyektləri, yollar, su təchizatı, layihələri, təhsil, səhiyyə müəssisələrinin açılış və təqdimat mərasimlərində iştirak etmişdir. Müvafiq məsələlərlə bağlı tapşırıq və tövsiyyələrini vermişdir.

2022-ci ildə cənab Prezident İlham Əliyev rayon və şəhərlərin sosial-iqtisadi inkişafı və bəzi mühüm layihələrin icrası üçün dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu və Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 208,1 milyon manat vəsait ayrılması ilə bağlı 44 sərəncam imzalamışdır.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə, yaşıllaşdırma, meşəliklərin salınması istiqamətində işlər 2022-ci il ərzində də uğurla davam etdirilmişdir.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sektorunda həyata keçirilən geniş miqyaslı tədbirlər çərçivəsində avtomobil yollarının çəkilməsi və yenidən qurulması, körpülərin tikintisi, regionlarda yol şəbəkələrinin bərpası işləri də Dövlət Proqramı çərçivəsində davam etdirilmişdir. Ümumilikdə, 2022-ci ildə ölkə üzrə 803,5km, o cümlədən regionlarda 632,3 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş və əsaslı təmir olunmuş, həmçinin regionlarda 300,7 km dəmir yolu xətti yenidən qurulmuş, 113 dəmir yolu tuneli və ya körpüsü tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Avşar – Salmanbəyli - Aşağı Avşar- Xocavənd avtomobil yolunun Oğuz-Şəki hissəsinin, Şükürbəyli- Cəbrayıl- Hadrut avtomobil yolunun Şükürbəyli- Cəbrayıl hissəsinin yenidənqurmadan sonra ölkə başçısı açılışını həyata keçirmişdir.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, su və kanalizasiya sistemlərinin yenidən qurulması işləri davam etdirilmişdir.

Dövlətin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya və rabitə xidmətlərinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılmış, regionlarda 3 ATS istifadəyə verilmiş, 280484 nömrə tutumu artırılmış, 1526,3 km fiber optik kabel çəkilmiş, Bakıda 2 poçt binası əsaslı təmir olunmuşdur.

Ölkə başçısının iştirakı ilə müvafiq xidmət mərkəzlərinin yaradılması prosesi davam etdirilmiş, 7 saylı Bakı “ASAN xidmət”, 2 saylı Gəncə və Sumqayıt “ASAN xidmət” Mərkəzlərinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan 5 saylı DOST Mərkəzinin açılış mərasimləri baş tutmuşdur.

2022-ci il ərzində Dövlət proqramının icrası ilə əlaqədar olaraq regionlarda sosial infrastruktur bazasının müasir tələblərə uyğun qurulması işləri davam etdirilmişdir.

Regionlarda 52 məktəb, 5 uşaq bağçası, 9 tibb müəssisəsi, 10 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Regionların fasiləsiz elektrik enerjisi ilə təmin olunması, abonentlərə göstərilən xidmət səviyyəsinin artırılması məqsədilə 2022-ci ildə 4981,6 kilometr yeni elektrik xətləri çəkilmiş, 2504,9 kilometr elektrik xətləri əsaslı təmir olunmuşdur. Ölkə üzrə 17 transformator quraşdırılmış, 25 transformator əsaslı təmir edilmiş, 12 yarımstansiya tikilmiş, 18 yarımstansiya əsaslı təmir edilmişdir. 2022-ci ilin 15 mart tarixində Azərbaycanda 230 MVt gücündə ”Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilmişdir.

2022-ci ildə də regionlarda mədəni irsin qorunması, tarix və mədəniyyət abidələrinin bərpası və mühafizəsi, mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi üzrə müvafiq tədbirlər diqqət

mərkəzində saxlanılmışdır. Ölkə prezidenti Bakıda “Xanım Fatimeyi Zəhra” məscidinin yeni binasında və “Çəmbərəkənd” parkında yaradılan şəraitlə, Şəki Xan məscidi kompleksində, “Diri Baba” türbəsində, “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olmuş, Ağsuda Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin, Mərkəzi Parkın ikinci hissəsinin, Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin və Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak etmişdir. Həmçinin, Zəngilan, Yuxarı Gövhər Ağa və Ağdam Cümə məscidlərində, Şuşada Şirin su hamamında, Tarzən Sadıqcanın evində və Mehmandarovların malikanə kompleksində aparılan təmir-bərpa işləri davam etdirilmiş, ölkə başçısının iştirakı ilə Tərtərdə Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin, Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında, Suqovuşan qəsəbəsində İşğal və Zəfər muzeyləri komplekslərinin təməlqoyma mərasimləri həyata keçirilmişdir.

Prezident İlham Əliyevin 16.11.2022-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət Proqramının əhatə dairəsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdən ibarətdir. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, Proqramın prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı, ehtimal edilən risklərin idarə olunması, gözlənilən nəticələr, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı nəzərə alınmışdır.

İrimiqyaslı infrastruktur layihələri işğaldan azad olmuş ərazilərdə də icra olunur. Cəmi səkkiz ay ərzində Füzuli Beynəlxalq Hava Limanı tikildi. Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi təşkil olundu. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. 2023-cü ildə Bərdə-Ağdam dəmir yolu istifadəyə veriləcək. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Həmçinin, azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib.

Dövlət proqramına uyğun olaraq yeni generasiya güclərinin yaradılması və mövcud güclərin bərpası istiqamətində işlər davam etdirilmişdir. 100 MVt gücündə Xudafərin və 40 MVt gücündə “Qız qalası” su elektrik stansiyalarının tikintisi davam etdirilmişdir. Kəlbəcər rayonu Lev çayı üzərində ermənilər tərəfindən yandırılan 4,4 MVt gücündə “Kəlbəcər-1” kiçik su elektrik stansiyasının yenidənqurulması başa çatdırılmış və 2022-ci ildə istismara verilmişdir. Eyni zamanda 8,3 MVt gücündə “Çıraq-1”, 3,6 MVt “Çıraq-2”, 6,3 MVt gücündə “Qamışlı”, 3,4 MVt gücündə, “Meydan”, 5,3 MVt gücündə “Soyuqbulaq” kiçik su elektrik stansiyalarının yenidənqurulması başa çatdırılmışdır.Zəngilan rayonunda gücü 42 MVt olan 4 ədəd kiçik su elektrik stansiyasının, Laçın rayonunda gücü 28,35 MVt olan 3 ədəd kiçik su elektrik stansiyasının tikinti işləri aparılır. Yerdə qalan gücün 7200 MVt günəş və 2000 MVt külək enerjisi təşkil edir. Kəlbəcər-Laçın zonasında külək stansiyaları, Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları inşa olunacaqdır.

Həmçinin, “Ağıllı kənd” layihəsi çərçivəsində bərpa-quruculuq işləri sürətlə davam edir. Birinci pilot layihə Zəngilanda icra edildi, Ağalı kəndində 200 evdən ibarət kənd salınıb. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – “ASAN”, “DOST”, kiçik və orta biznesə dəstək xidmətləri mövcuddur. 2022-ci ilin may ayından Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar. Ağalı ağıllı kəndi dünyanın ən müasir kəndlərindən biridir. [4]

İşğaldan azad olunmuş ərazilər nəinki təkcə işğal illərində Azərbaycanın müxtəlif bölgələrində yaşamaq məcburiyyətində qalan insanları bir araya gətirəcək, eyni zamanda, gələcəkdə Azərbaycanın iqtisadiyyatı üçün aparıcı qüvvə olacaq.

Bütün bunlarla yanaşı Prezident İlham Əliyevin 2 fevral 2021-ci il sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan-2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritet”ə əsasən 10 il ərzində ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli prioritetin reallaşdırılması nəzərdə tutulub:

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

İkinci bəndə əsasən "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət" – davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bu prioritet aşağıdakı 3 əsas məqsəd əsasında uğurla reallaşa bilər:

- inkişafdan hər bir vətəndaşın bəhrələnməsi;
- yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət;
- paytaxt və regionların tarazlı inkişafı [4].

Prezident İlham Əliyevin dövlət proqramları sayəsində sosial iqtisadi inkişafımız yeni bir mərhələyə qədəm qoydu.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin dediyi kimi Dövlət Proqramlarının həyata keçirilməsində əsas amal və məqsəd insanların daha yaxşı yaşaması olmuşdur. Hər bir böyük layihənin arxasında düşünülmüş məqsəqyönlü siyasət dayanır. Bu struktur islahatlar sayəsində ölkəmizdə iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olub.

Bu proqramların əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun dinamik inkişafını, əhalinin iqtisadi və sosial tələbatlarının daha dolğun təmin olunmasını, regionların inkişafını, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsini, ətraf mühitin mühafizəsini təmin etməkdən ibarətdir.

Ümumilikdə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası hələ də davam etdirilir və qarşıdakı dövrlərdə də sözügedən tədbirlərin icrası ilə yanaşı işğaldan azad edilmiş ərazilərdə də quruculuq-bərpa, məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallığın təmin edilməsi istiqamətində genişmiqyaslı işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il Fərmanı - https://www.e-qanun.az/
2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən 2022-ci il üçün yekun məlumatlar- https://president.az/
3. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il Sərəncamı - https://www.e-qanun.az/
4. "Azərbaycan-2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı - https://www.e-qanun.az/
5. https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e15860_az.html

***Конуль Илгар гызы Мамедова***
***Магистр Азербайджанского Университета Кооперации***
***электронная почта: gonul@mail.ru***

## Гейдар Алиев и развитие социальной инфраструктуры в Азербайджане

***Резюме***

В статье рассматриваются реформы, проведенные в направлении социальной инфраструктуры в Азербайджанской Республике. Изучена роль великого лидера Гейдара Алиева в развитии социальной инфраструктуры. Представлена информация о реализуемых Президентом Азербайджанской Республики Ильхамом Алиевым Государственных программах,

связанных с социально-экономическим развитием. Объяснены реформы, проведенные на территориях, освобожденных от оккупации.
***Ключевые слова: инфраструктура, социально-экономическое развитие, государственные программы, национальный приоритет, социальная служба.***

***Konul Ilgar Mammadova***
***Master of Azerbaijan Cooperation University***
***E-mail: gonul@mail.ru***

**Heydar Aliyev and the development of social infrastructure in Azerbaijan**

***Summary***

The article examines the reforms carried out in the direction of social infrastructure in the Republic of Azerbaijan. The role of the great leader Heydar Aliyev in the development of social infrastructure is studied. Information is provided about the State Programs implemented by the President of the Republic of Azerbaijan Ilham Aliyev related to socio-economic development. The reforms carried out in the territories freed from occupation are explained.
***Key words: infrastructure, socio-economic development, state programs, national priority, social service.***

**UOT: 336.645.1:336.64**

***Elnur Yaşar oğlu İBRAHİMOV***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***E-mail: ibrahimov-e@list.ru***

# MÜƏSSİSƏLƏRİN DAVAMLI İNKİŞAFINDA MALİYYƏ RESURSLARININ İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Xülasə***

Müstəqil ölkəmiz, demokratik bir dövlət kimi Azərbaycan Respublikasının müəssisələrində çox güclü maliyyə idarəçiliyi siyasətinin həyata keçirilməsinin vacibliyi hər birimizə məlumdur. Bu eyni zamanda bazar iqtisadiyyatının da əsas xassələrindən biri hesab edilir. Bu baxımdan tezisimizdə müəssisələrin davamlı inkişafında, onun təmin edilməsində maliyyə resurslarının idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərinə əsas diqqət yönəlmişdir.
***Açar sözlər: maliyyə resursları, davamlı inkişaf, maliyyə və iqtisadi nəticələr, iqtisadi təhlükəsizlik, iqtisadi səmərəlilik.***

***

Bazar iqtisadiyyatı şəraitində mühasibat uçotu təkcə maliyyə-təsərrüfat fəaliyyətində baş verən əməliyyatları qeydə almaqla məhdudlaşmamalı, xarici iqtisadi fəaliyyətin təşkilinə, valyuta əməliyyatlarının yerinə yetirilməsinə fəal nəzarəti təmin etməlidir. Mühasibat uçotu sisteminin təkmilləşdirilməsinm əsas istiqamətlərindən biri mühasibat uçotu və maliyyə uçotu arasında qarşılıqlı əlaqə modelinin formalaşdırılmasıdır. Dünyanın bir çox ölkələrində vergi uçotu dinamik şəkildə inkişaf edir, Azərbaycanın uçot praktikasında "vergi uçotu" anlayışı istifadə edilir, ancaq bu anlayış ölkə qanunvericiliyi ilə rəsmiləşdirilməmişdir. Nəticədə, müəyyən qanunvericilikdə ancaq "gəlirlərin və xərclərin uçotu" termini qəbul edilmişdir.

Müəssisənin maliyyə nəticələrinin idarəedilməsinin mövcud problemlərinin əhəmiyyət dərəcəsi ilə bölüşdürülməsi aşağıdakı şəkildə mümkündür:

- maliyyə axınının idarə edilməsi (pul kütləsi) 25%;
- maliyyə planının tərtib edilməsi, büdcə planlaşdırma 17%;
- menecment uçot sisteminin inkişafı 14%;
- böhranın idarə olunması 10%;

- maliyyə-iqtisadi strategiyanın inkişafı 5%;
- xərclərin idarə edilməsi 4%;
- maliyyə xidmətlərinin təşkilati strukturu 3%;
- digər vəzifələr 22% [3, 175-178].

Nağd çətinliyə görə pul axınının idarə edilməsi məsələsi maliyyə menecment sahəsinin ən problemli yeridir. Maliyyə sahəsində çətinliklər digər istiqamətlərdən yan keçmədi: planlaşdırma, böhran idarəçiliyi, maliyyə xidmətlərinin təşkilati strukturu, menecment uçotu və s.

Qeyd etmək lazımdır ki, bu maliyyə problemlərinin tam siyahısı deyil. Bundan əlavə, qeyd etmək lazımdır ki, bu çətinliklər müəssisə miqyasında müxtəlifdir, oxşar problemlər qırx işçisi olan müəssisə ilə altı min işçisi olan müəssisələri birləşdirir. Pul vəsaitlərinin hərəkəti maliyyə idarəçiliyində ən çətin məsələ olaraq başda gəlir, bu səbəblə onu qiymətləndirməyə yalnız müəyyən bir müəssisənin rəhbərləri deyil, kifayət qədər müxtəlif mütəxəssislər maraq göstərmişdir. Heç kimə sirr deyil ki, "canlı" pul müəssisənin ümumi gəlirindəki pula faiz nisbətində olduqca balaca bir faizə malikdir, firma üçün bu mənfi nəticədir. Beləliklə, borcları ödəmək üçün nəzərdə tutulan müddətlər artdıqca, mövcud borcun artımını müşahidə edə bilərik (büdcəyə, müəssisənin işçilərinə və s.). Maliyyə menecmentinin üzləşdiyi digər çətinliklər arasında müəssisənin rəhbərliyinin yaxşı inkişaf etmiş bir strategiyasının olmamasını da daxil etmək lazımdı, günümüzdə bu ağır səhv marketinq siyasətində qiymət və digər sahələrdə çoxlu sayda pozuntuya yol açır. Ölkəmizdəki yaranmış iqtisadi vəziyyət, dünya miqyasında maliyyə idarəçiliyinə mənfi təsir göstərməyə bilməz. İqtisadiyyatda qeyri-sabitlik uzunmüddətli proqnozlar verməyə və kompleks sxemlər tətbiq etməyə imkan vermir.

Əlbəttə ki, maliyyə idarəçiliyinin problemlərini tez bir zamanda müəyyənləşdirmək və onların qarşısını almaq, bundan başqa, müxtəlif diaqnostik tədbirlərin həyata keçirilməsinə ehtiyac var: müəssisənin monitorinqi, əldə edilmiş nəticələrin və digər tədbirlərin tədqiqi. Həmçinin, məsələn, pul köçürmələrinin ciddi planlaşdırılması, ödəniş təqvimləri düzəlməli və daha da artmalıdır, müxtəlif ödənişlər həyata keçirilməlidir. Maliyyə və iqtisadi böhranlar sənaye müəssisələrinin potensialına mənfi təsir göstərir: (və ya ümumiyyətlə dayandırır) investisiyalar , proses və məhsul yenilikləri dayanır, əsas kapital köhnəlmiş və tükənmiş olur, elmi və texniki inkişaflar aradan çıxır, ixtisaslı kadrlar və gənc işçilər işdən çıxır və s. Bazar iqtisadiyyatının bütün üzvlərinin cəlb edilməsi və təşəbbüskarlığı artırmaq üçün, dövlət bir sıra işlər görmüşdür: makroiqtisadi islahatlar: qiymət siyasətinin dəyişdirilməsi, bankçılıq, qiymətli kağızlar bazarının inkişafı və s. Yeni anlayışların inkişaf etdirilməsi problemləri ön plana çıxır. Menecment, tənzimləmə, planlaşdırma, müəssisənin çevik inkişafı olmadan həlli mümkün deyildir [2, s.470].

Dünyanın peşəkar mühasibləri tərəfindən mühasibat və vergi uçotu sisteminin iki modeli: "Qitə" (kontinental) və "İngilis-Sakson" qəbul edilmişdir. "Qitə" modelində mühasibat və vergi uçotu faktiki olaraq üst-üstə düşür, "İngilis-Sakson" modeli ayrı-ayrı məqsədlərə nail olmaq istəyən mühasibat və vergi uçotunun 2 sərbəst sistem kimi eyni vaxtda fəaliyyət göstərməsini nəzərdə tutur. Mənfəət vergisi üzrə vergi bazasını formalaşdırmaq üçün əsas məlumat qaynağı rolunu vergi uçotunun informasiyaları oynayır. Fikrimizcə, vergiyə cəlbolunma bazasının şəffaflığını əldə etmək üçün mühasibat uçotundan bir çox əlavə məlumatlar toplanmalıdır.

Maliyyə menecmentindən söz açarkən burada istifadə edilən metodlardan, ilk növbədə bu yöndə maliyyə menecmentinin məzmunundan qaynaqlanan həmin metodların fəaliyyət mexanizminə baxaq.

Hazırda maliyyə resursları üzrə istifadə olunan metodların tərəqqi meyilləri aşağıdakı məsələlərə əsasən dəyişilir:

- maliyyə məsələləri üzrə tədbirlərin görülməsi;
- müəssisə daxilində maliyyə siyasətinin meyillərinin müəyyən edilməsi;
- maliyyə hesabatının doğru hazırlanması və bu yöndə operativ fəaliyyətin göstərilməsi;
- müəssisələrin ayrı-ayrı bölmələrinə əsasən, istehsalda funksional bölmələri üzrə məlumat təminatının təşkili.

Müəssisələrin maliyyə təsərrüfat fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini bildirən mənfəətin müəssisələr hesabına dəyərinin çoxaldıması da maliyyə resurslarının artmasına gətirib çıxarır və

nəticədə maliyyə sistemi daha da möhkəmlənir. Bundan başqa, müəssisələrin istehsal təsərrüfat fəaliyyətinin nəticəsinə pul formasında göstərilərək, onların bundan sonrakı fəaliyyətlərində tam və maliyyə təsərrüfat fəaliyyətindən qazanılacaq gəlirlər də əks olunub.

Özbaşına maliyyələşmə prosesində müəssisələr öz qazandığı gəlir hesabına maliyyələşmə aparırlar. Özünü maliyyələşmə zamanı isə müəssisələr həmişəlik öz resurslarını çoxaltmaq və ən az xərclərlə ən yüksək mənfəəti qazanmaq üçün çalışırlar. Həm dövlət, həm də müəssisələr tərəfindən maliyyələşmənin ayrı-ayrı üsullarından yararlanarkən bu istiqamətdə bəzi qüsurların ləğv edilməsi və mövcud problemlərin yoluna qoyulması üçün, o cümlədən fəaliyyətin inkişaf etdirilməsi yönündə tədbirlər görülməlidir [1, 36-39].

Müəssisələrin hər biri pul vəsaitlərindən qənaətli formada faydalanmaqla ən yüksək mənfəəti qazanmağa və nəticədə öz fəaliyyətlərini tənzimləməyə cəhd göstərirlər.

İndi isə müəssisələrdə maliyyə resurslarının təşkil edilməsinin ümumi prinsiplərinə baxaq. Bu prinsiplər aşağıdakılardır.

Müəssisələrdə maliyyə resursları, ancaq vurğuladığımız kimi cəlb olunmuş əlavə vəsait və xüsusi vəsait hesabına formalaşır. Xüsusi maliyyə resursları müəssisələrin fəaliyyət göstərdiyi andan etibarən ortaya çıxır və nizamnamə fondu təsis olunan zaman müəyyən olunur. Buna səbəb isə, müəyyən bir təsərrüfat fəaliyyətini həyata keçirmək üçün əvvəlcə müəssisənin özünəməxsus maliyyə təminatının olması vacib şərtdır.

Müəssisənin maliyyə təsərrüfat fəaliyyəti, gələcəyini keçmiş və indiki dövr üzrə proqnozlaşdırmanın tətbiq olunacaq maliyyə planının hazırlanması təyin olunur. Maliyyə planının hazırlanması, müəssisələrin normal şəkildə fəaliyyət göstərməsində əsas rol oynayır. Eyni zamanda burada bəzi məsələlərin, maliyyə fəaliyyətinin göstərilməsi üçün maliyyə resursları, gəlirlərin, kapitalın, xərclərin proqnozlaşdırılması da nəzərdə tutulur.

Dövriyyə vəsaitlərinin toxunulmazlığından yararlanır. Əgər xüsusi dövriyyə vəsaitlərinin dəyəri azalarsa, onda müəssisənin gələcəkdə daha sağlam fəaliyyəti və maliyyə dəyişməzliyini itirmək riski ortaya çıxır. Bu səbəbdən də bu prinsip, dövriyyə vəsaitlərinin toxunulmazlığı üçün maliyyə təsərrüfat fəaliyyətinin qaydaya salınmasında böyük əhəmiyyət kəsb edir.

Müəssisə fəaliyyətinin maliyyələşdirilməsi üçün gərəkli maliyyə mənbələri, müddət nöqteyi-nəzərindən qısa, orta və uzunmüddətli olmaqla üç yerə ayrılır: Hər bir müddətə məzmun olaraq açıqlama versək, bu qənaətə gələ bilərik:

Əvvəlki qısamüddətli maliyyə mənbələrindən danışarkən qeyd etmək lazımdır ki, bu maliyyə mənbələrindən ən çox istifadə olunanıdır və eyni zamanda geri qaytarılmaq üzrə nəzərdə tutulan vəsaitlərdir. Qısamüddətli maliyyə mənbələri, bir il içərisində istifadə olunaraq geri qaytarılır, yaxud artıq bu müddətdən sonra onlar mahiyyətini itirir. Bu cür maliyyə mənbələri əsasən dövriyyə aktivlərinin alınmasına yönələrək vəsaitlərin cəlb edilməsi və onların idarə edilməsinin metodlarını mənimsəyir. Bu maliyyə mənbələri aşağıdakılardır:

- qısamüddətli bank kreditləri;
- kreditlərin satışı üzrə daxilolmalar;
- faktoring;
- qiymətli kağızlar bazarında satılan qısamüddətli qiymətli kağızlar;
- başqa qısamüddətli mənbələr.

Bu müəssisələrin fəaliyyəti zamanı maliyyə idarəetməsi, əsasən, maliyyə mənbəyinin müəyyən edilməsi və buna müvafiq olaraq maliyyələşdirmə həyata keçirilməsi vasitəsilə mümkün olur. Günümüzdə müəssisələrin fəaliyyətinin düzgün həyata keçirilməsi nöqteyi-nəzərindən onların maliyyələşməsinə böyük ehtiyac duyulur. Bu səbəbdən də onlar hər zaman istifadə və əldə edilməsindən asılı olmayaraq cəlb edilən vəsaitləri investisiya və maliyyələşmə qoyuluşları formasında sinifləndirir. Cari maliyyələşmə müəssisənin cari fəaliyyətinin təşkili üçün istifadə edilən maliyyələşmə növüdür və bu növ əsasən sadə təkrar istehsal üçün lazım olur. İnvestisiya qoyuluşu isə maliyyələşmə mənbəyi kimi yox, ancaq müəssisələrin maliyyələşmə mərhələlərindən biri kimi özünü göstərir. Müəssisələr tərəfindən maliyyələşmənin qeyd edilən iki əsas mənbə vasitəsilə aparılmasına əsasən öz vəsaitləri hesabına müəssisələrin maliyyələşmə rolunu oynaması onların ilk yarandığı dövrdən bəri özünə çəkdiyi vəsaitləri əhatə edir. Müəssisələr, əsasən yeni səhmdarlar cəlb etməklə

və əlavə səhm buraxmaqla vəsait qazanırlar. Ancaq yenə də günümüzdə müəssisələr yalnız cəlb edilmiş vəsaitlər hesabına fəaliyyət göstərər və normal məbləğdə mənfəət qazana bilməzlər. Bu səbəbdən, yəni normal fəaliyyət üçün onların öz pul vəsaitləri ilə maliyyələşməsi lazımdır. Bundan başqa, əgər müəssisə maliyyələşməni öz vəsaiti ilə edirsə, onda ikinci şəxslər qarşısında məsuliyyət daşımır. Bu zaman qazanılan mənfəət müəssisənin idarə heyəti nümayəndələri arasında qərar qəbul edərək təkrar maliyyələşmə üçün xərclənir [1, s.36-39].

Bazar iqtisadiyyatı şəraitində maliyyə menecmentinin ayrılmaz tərkib hissəsi olan maliyyə təhlilinin əhəmiyyəti xeyli artmışdır. Müasır dövrdə maliyyə təhlilinə dair iki yanaşma mövcuddur. Birinci yanaşmada maliyyə təhlili geniş aspektdə başa düşülür, yəni kapital bazarı da daxil olmaqla ətraf mühit kontekstində təsərrüfat subyektlərinin maliyyəsinin idarə edilməsi ilə əlaqədar analitik işlərin bütün bölmələrini əhatə edir, ikinci yanaşma maliyyə təhlilinin əhatə sferasının mühasibat uçotunun təhlili ilə məhdudlaşdırılmasını nəzərdə tutur.

Maliyyənin təhlil edilməsinin əsas məqsədi müəssisənin maliyyə vəziyyətini obyektiv olaraq səciyyələndirən mühüm parametrləri, başqa sözlə desək, aktiv və passivlərin strukturunda, kreditor və debitor borclarında, xeyirlərdə və dəyən zərərlərdə tətbiq edilən yenilikləri müəyyən etməkdən ibarətdir. Maliyyənin təhlil edilməsi ilə təsərrüfat subyektlərinin maliyyə dayanaqlığını obyektiv şəkildə dəyərləndirmək, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyini müəyyən etmək, mütərəqqi maliyyələşdirmə mənbələrini aşkara çıxarmaq mümkündür.

Müəssisənin maliyyə dayanaqlığını yüksəltmək məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- kreditor və debitor borclarının, qısamüddətli və uzunmüddətli maliyyə qoyuluşlarının səmərəli şəkildə idarə olunması;
- müəssisənin maliyyə ehtiyatının nəzərdə tutulmuş müəyyən qisminin sənədlər portfelinə qoyulması. Əsas fəaliyyətə nisbətən mənfəətin minimum səviyyəsində sənədlərə qoyulan investisiya yüksək likvidlik göstərir;
- rəqabət qabiliyyətinin inkişaf etməsi, məhsulun keyfiyyəti və əmtəənin bazarda irəli getməsinin effektiv olaraq təşkili üsulu ilə məhsulun satışından alınan gəlirin (mənfəətin) həcminin artırılması.

## ƏDƏBİYYAT


1. Şəkərəliyev A.Ş., "Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, onun inkişaf problemləri və perspektivləri". Məqalələr toplusu. 36-39 s.
2. Володин А.А. Управление финансами. Финансы предприятий. 2011, 510 с.
3. Ступаков, В.С. - Риск-менеджмент: учеб. пособие для студентов, обучающихся по специальности "Финансы и кредит" / В.С.Ступаков, Г.С.Токаренко. - Москва: Финансы и статистика, 2005 (Великолук. гор. тип.). - 281, [1] с.: ил., табл.; 24 см.; ISBN 5-279-02843-6 (в обл.)
4. Толкачева Н.А., 2014. Финансовый менеджмент: курс лекций / Н.А.Толкачева. — М.: Директ-Медиа,— s. 55\
5. www.maliyye.gov.az/



***Эльнур Яшар оглы Ибрагимов***
***магистрант, Азербайджанский Университет Кооперации***
***E-mail: ibrahimov-e@list.ru***


## Направления совершенствования механизма управления финансовыми ресурсами в устойчивом развитии предприятий


***Резюме***

Как наша независимая страна, как демократическое государство, всем нам известна важность проведения очень сильной политики финансового управления на предприятиях Азербайджанской Республики. Это также считается одним из основных свойств рыночной

экономики. С этой точки зрения в нашей диссертации основной акцент делается на совершенствовании механизмов управления финансовыми ресурсами в устойчивом развитии предприятий и его обеспечении.
***Ключевые слова: финансовые ресурсы, устойчивое развитие, финансово-экономические результаты, экономическая безопасность, экономическая эффективность.***

***Elnur Yashar Ibrahimov***
***Master Azerbaijan Cooperation University***
***E-mail: ibrahimov-e@list.ru***

## Directions for improving the financial resources management mechanism in the sustainable development of enterprises

***Summary***

As our independent country, as a democratic state, the importance of implementing a very strong financial management policy in the enterprises of the Republic of Azerbaijan is known to all of us. This is also considered one of the main properties of the market economy. From this point of view, in our thesis, the main emphasis is on improving the mechanisms of financial resources management in the sustainable development of enterprises and its provision.
***Key words: financial resources, sustainable development, financial and economic results, economic security, economic efficiency.***

**UOT 911.3**

***Cəvahir Abdulla qızı ASLANZADƏ***
***magistrant, Azərbaycan Kooperasiya Universiteti***
**cevaaa@inbox.ru**

## ÖLKƏNİN TURİZM POTENSİALININ ARTIRILMASINDA LƏNKƏRAN-ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNDAKI TURİZM MƏKANLARININ ROLU

***Xülasə***

Lənkəran-Astara iqtisadi rayonunda turizmin dinamik inkişafı üçün görülən tədbirlərdən, dövlətin bu sahəyə qoyduğu investisiyalardan bəhs edilir. Bütün dünyada turizm sənayesinin çoxsahəli problemlərinin həll yolları araşdırılır. Məqalədə bu iqtisadi rayona gələn turistlər üçün müxtəlif istirahət kompleksləri, otellər və səyahət şirkətlərinin qaneedici fəaliyyəti öz əksini tapır.
***Açar sözlər: turizm, iqtisadiyyat, inkişaf, regional turizm, mənfəət, məkan***

***

Bütün sahələr kimi turizm sahəsini də inkişaf etdirən əsas səbəb bu sahəyə qoyulan yatırımlardır. Turizm iqtisadiyyatına ayrılan investisiya nə qədər çox olarsa, inkişaf da bir o qədər çox olar. Məhz bu səbəbdən gəlirin hansı mənbələrdən və hansı istiqamətdən gəldiyini araşdırmaq, yeni gəlir mənbələri tapmaq üçün yeni yollar axtarmaq lazımdır. Azərbaycan son zamanlarda dünyanın qabaqcıl turizm ölkələri kimi investisiya siyasətini iqtisadi inkişaf strategiyasının daxilində, ondan asılı olaraq öyrənir.

2011-ci ilin "Turizm ili" elan olunması nəticəsində ölkənin mühüm coğrafi mövqeyi, iqlimi, tarixi-mədəni irsi, xalqın adət-ənənələri və qonaqpərvərliyi Azərbaycanın seçilən turizm ölkəsinə çevrilməsinə şərait yarandı. Azərbaycan Prezidentinin sərəncamı ilə həyata keçirilən "Regionların inkişafı ilə bağlı Dövlət Proqramları" mümkün olan bütün regionlarda turizmin inkişafına və turizmlə bağlı olan bir sıra sahələrin də yüksəlişinə böyük təkan verir. Prezident turizm sektorunda olan sahibkarlara sahəni inkişaf etdirmək üçün tövsiyə və tapşırıqlar verir, müntəzəm olaraq regionlara gedir və mövcud vəziyyətlə tanış olur. Dövlət büdcəsindən regionlara ayrılan vəsaitlər turizm sahəsinə, eləcə də başqa sahələrin inkişafına olduqca müsbət təsir göstərir. Respublikanın

tanınmasında turizmin əvəzsiz rolunu və bunun nəticəsində də ölkəyə daha çox valyuta daxil olması məsələsini əsas götürərək çıxış edən Prezident İlham Əliyev deyib: “Turizmin inkişafı daha sürətlə getməlidir. Xüsusilə Avropa Oyunlarından sonra Azərbaycana dünyada maraq daha da artdı. Biz bundan istifadə etməliyik. Nə qədər çox turist gəlsə, Azərbaycanı o qədər də çox adam tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər”. [6, s. 3]

Azərbaycanın regionlarında zəngin və rəngarəng təbiət müxtəlif turizm sahələrinin yaranmasına şərait yaradır.Proqramlar çərçivəsində ölkəmizin bütün bölgələrində yeni çəkilən və ya yenidən qurulan yol, prospekt və xiyabanların, infrastrukturun, xidmət sahələri, həmçinin rabitə, ticarət müəssisələrinin qurulması ölkəmizin bu sahədə daha da yüksək səviyyəyə çatmasına zəmin yaradır. Azərbaycanda yaranan infrastrukturlardan danışarkən son illərdə ölkəmizdə tikilən müasir, möhtəşəm, dünya standartlarına uyğun mehmanxanaların və bu tipli digər məkanların rolunu qeyd etmək vacibdir. Dövlət büdcəmizin imkanları hesabına turizm sahəsinə ayrılan maliyyə vəsaiti onun inkişafına, beynəlxalq tədbirlərdə iştirak edərək dünya təcrübəsindən yararlanmağa imkan verir. (Şəkil 1) 2014-cü ildə ÜMM artımının 1354,4 mlrd. manata, 2015-ci ildə isə 1389,3 manata qalxması turizmin inkişafı nəticəsində baş vermişdir. [8]




***Şəkil 1. Azərbaycan Respublikasının 2010-2014-cü il aralığında turizmə qoyduğu investisiyanın mln. manatla təsviri.***

Azərbaycanda turizmin regional inkişafında mühüm rol oynayan regionlardan biri də əlverişli coğrafi mövqeyə malik olan Lənkəran-Astara iqtisadi rayonudur. Lənkəran-Astara iqtisadi rayonu qərb və cənub hissədən İranla, şərqdən isə Xəzər dənizi ilə həmsərhəddir. Ərazinin relyefinin əsasını 2 oroqrafik vahid təşkil edir ki, bunlar da Talış dağları və Lənkəran ovalığıdır. İqtisadi rayona daxil olan Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı, Yardımlı rayonlarının hər birində turizm potensialı kifayət qədərdir. Eradan əvvəlki dövrlərə aid tarixi abidələr, məbədlər, qalalar, sahildəki çimərliklər, dağətəyi ərazilər, istirahət kompleksləri bu regiona olan turizm axınına güclü təsir göstərir. İqtisadi rayon ərazisində yerləşən relikt-endemik bitkilərin qorunduğu Hirkan Milli Parkı, müxtəlif quş növlərinin qorunub artırıldığı Qızılağac qoruğu buranın turizm potensialının nə qədər zəngin olduğunu sübut edir. Lənkəran-Astara iqtisadi rayonunun ərazisində olan müalicəvi sular, termal bulaqlar əraziyə gələn turistləri həm də kurort-sanatoriya xidmətləri ilə qarşılamağa şərait yaradır. Rayona gələn turistlərin əksəriyyəti MDB ölkələrindəndir, çünki bu ərazi SSRİ dövründən turizm bölgəsi kimi öz aktuallığını qoruyub saxlayır. İrandan da gələn turist sayı kifayət qədər çoxdur. 2007-ci il statistikasında göstərilir ki, son dövrlərdə Avropadan da rayona gələn turist sayı xeyli artmışdır. 2020-ci il fevral ayından etibarən ölkəmizdə Covid-19 koronavirus pandemiyası təsdiqləndiyi vaxtdan başlayaraq dünyanın bütün ölkələrində olduğu kimi, bizim ölkəmizdə də ən çox zərər görən sahə turizm oldu. Hazırda isə pandemiyanın sabitləşdiyi mərhələdə yeni açılan, fərqli dizaynda olan məkanların sayı gündən-günə artır. Yeni yaradılan turizm müəssisələri ilə yanaşı, inşası gələcək üçün planlaşdırılan müəssisələrin də sayı az deyildir.

Ölkəmizin Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna dövlət büdcəsindən ayrılan vəsait burada turizmin inkişafına güclü təsir etmişdir. 2015-ci ildə rayon üzrə ümumi xərclər 151,247 mln. manat olub ki, bunun da 102,540 mln. manatını dövlət büdcəsindən verilən vəsaitlər tutmuşdur. Bu da iqtisadi rayonun ümumi xərclərinin 67,9%-ni təşkil etmişdir. Nəticəyə görə belə deyə bilərik ki, rayon dövlət büdcəsindən çox asılıdır və buranın gəlirləri fərqli təsərrüfat sahələri ilə birgə, son 10 ildə turizm sahələrinin də inkişafının gətirdiyi qazancla üç dəfədən çox yüksəlmişdir. Təsərrüfat obyektlərinin sayının artmasına baxmayaraq,nisbətdə turizmdən alınan gəlir araşdırılan dövr üçün daha çox idi. Təsərrüfat obyektlərinin sayının artırılması üçün 2015-ci ilə qədər Lənkəran iqtisadi rayonunda 2531 sahibkara 102,9 milyon manat güzəştli dövlət kreditləri verilib [2, s 76]. Lənkəran-Astara iqtisadi rayonunda abadlıq-quruculuq üçün ayrılan kapitalın çoxu Dövlət Büdcəsindən götürülən vəsaitdən ibarətdir ki, turizm sahəsinə kapital birbaşa verilmir, amma infrastrukturun və tarixi abidələrin bərpasına və yenidənqurulmasına büdcədən vəsaitlər birbaşa verilir və bu da turizmin inkişafında təkan rolu oynayır.

"Cənub mirvarisi" hesab edilən Astara rayonunda "2010-2014-cü illərdə turizmin inkisafina dair Dövlət proqramı" sərəncamına görə Mədəniyyət və Turizm Nazirliyinin yerli nümayəndəliyi tərəfindən mühüm addımlar atılmışdır. Sahil bölgəsində istirahət guşələri tikilmiş, rayonda turizm agentlikləri yaradılmış, bələdçilərə pulsuz təcrübə proqramları, seminarlar təşkil edilərək onlara rayonun tarixi dərindən öyrədilmişdir ki, onlar da rayonu həm yerli, həm də xarici turistlərə tanıda bilsinlər. Hirkan qoruğunun da böyük hissəsi Astara rayonu ərazisində yerləşir. Ümumiyyətlə, Astara ərazisində turistlərin görməli olduqları tarixi yerlərə misal olaraq Divəkə mağarası, Şindan qalası, həm də Şah İsmayıl Xətainin də gəldiyi güman olunan Ərçivan kəndində yerləşən Xankəndi və Şəhərgah ərazilərini qeyd etmək olar. Bundan əlavə, qədim dövrə aid olan Qum, Pensər, Məhəmməd Hənəfiyyə məscidləri, Ərçivan və Pensər kəndindəki hamamlar, SəncərədəkiLəmlər qədim yaşayış yerləri turistlərin marağını cəlb edən yerlər siyahısındadır. Yanar bulaq, Osman bulağı, Alaşa və Sım kəndindəki bulaqlar ilin bütün fəsillərində tükənmir. Astarada 4 ulduzlu Xəzər, Savalan mehmanxanaları, Sahil və Abşeron istirahət mərkəzləri, 5 ulduzlu "Astara Room", "Blancoboutiquehotel", "Maricel Astara Resort" otelləri müasir üslubda dizayn edilərək ölkəmizin ən cəlbedici məkanları sırasına daxil olub. Son dövrlərdə tikilən belə otellər Astara rayonunun iqtisadiyyatında da ciddi dəyişikliklər yaratmışdır. Ümumiyyətlə 2015-ci ildə Astaranın ümumi gəliri 10,9 mln manat, son illərdə isə 19,7 mln manata kimi artmışdır və bu artımda da turizmdən əldə olunan gəlir önəmli yer tutur. [1, s. 62]

Regionun, eləcə də Azərbaycanın ən güclü iqtisadiyyata malik olan rayonu Cəlilabad rayonudur. Şimaldan Biləsuvar, şərqdən Neftçala, cənubdan Masallı, qərbdən İranla həmsərhəd olan Cəlilabad rayonu ölkəmizin qədim yaşayış məskənləri sırasında verilir. Rayon ərazisində olan tarixi-arxeoloji abidələr rayonun qədimliyindən xəbər verir. Bu abidələrin sayının bəzi mənbələrdə 50-yə qədər olduğu güman edilir. Əlikömtəpə, Mişarçay, Qurudərə yaşayış məskənləri, Yedditəpə, Bəcirəvan kurqanları, Qazan köşkü və s. qədim yaşayış yerləri buraya gələn turistlərin marağına səbəb olur. Regionların inkişafına dair Dövlət Proqramının dəstəyi ilə rayon ərazisində infrastrukturun yenidən qurulması, yeni yolların çəkilməsi, istirahət guşələrinin sayının artırılması rayonun turizm sahəsindən də gəlirinin artmasına səbəb olmuşdur. Talış sıra dağları, Peştəsər, Burovar silsilələri ilə əhatələnmiş füsünkar Lerik rayonu Azərbaycanın ən seçilən yay turizmi bölgələrindən biridir. Yer kürəsinin 11 iqlim tipindən 8-nin olduğu bu rayonun dağlıq ərazisi, çayları, şəlalələri buraya gələn turistləri heyran edir. Son 15 ildə rayon ərazisində onlarla müasir standartlara cavab verən istirahət məkanları, mehmanxanalar, restoranlar tikilmişdir. "Meşəbəyi", "Təbəssüm", "Xəyal", "Cənub" kimi turizm obyektlərində kotec, istirahət evləri, restoran, bar və s. xidmətlər turistlərə təklif edilir. "Relax" turizm, istirahət, əyləncə mərkəzində eyni anda 400 nəfərin qala biləcəyi otel fəaliyyət göstərir. Lerik rayonunda belə istirahət mərkəzlərinin sayının yaxın 10 il ərzində daha da artacağı gözlənilir, çünki rayonun Nücü, Livədirqə, Orand və başqa ərazilərində böyük potensial mövcuddur. Nəinki ölkəmizdə, həm də dünyada uzunömürlülər diyarı kimi tanınan Lerikdə "Uzunömürlülər" muzeyi də fəaliyyət göstərir. Akademik Həsən Əliyev Lerikin gözəlliyini belə təsvir edirdi: "Yazda talış meşələri ətir mağazasını xatırladır, bu dağların mineral bulaqlarını sağlamlıq ocaqlarına çevirmək lazımdır. Buradakı relikt flora və faunanı qorumaq üçün

Karpat meşələrində olduğu kimi meşələr boyu milli parklar salınmalıdır”. Lerik rayonu ərazisində olan qədim yaşayış məskənlərinə misal olaraq Büzeyr mağarası, Oğlan və Qız qalaları, Xoca Seyid türbəsi, Babagil abidəsi, Cabir türbəsi, Lüləkəran məscidi və başqa yerlər turistlərin çox gəzdikləri yerlər siyahısındadır.

Rütubətli, subtropik iqlimi, əlverişli fiziki şəraiti olan, respublikamızın cənub-qərbində yerləşən və cənub bölgəsinin ən böyük şəhəri olan Lənkəran respublikamızda mövcud olan 5 təbii coğrafi vilayətdən biridir. Lənkəran şəhərinin saymaqla bitməyən görməli yerləri buranı turizm üçün əlverişli məkana çevirmişdir. Şəhərdə həm SSS (dəniz, günəş, qum), həm də LLL (milli adətlər, peyzaj, asudə vaxt) istiqamətli turizmin inkişafı üçün əlverişli olan məntəqələr vardır. Burada olan qədim tarixi abidələrə nümunə olaraq Xan evi, Güldəstə minarəsi, Kiçik qala məscidi, Hacı Mirzə hamamı hələ də öz tarixi görünüşünü itirməmişdir. Əbirlər qülləsi, Şeyx Zahid qülləsi və qalıqları qalan Balabur qalasının tarixi əhəmiyyəti böyükdür. Lənkəran şəhərində olan “Xan Lənkəran” eko-otel, “Khazar palace hotel”, “Palıdlı Beach Resort Lankaran”, “Lankaran Springs Resort” kimi otellər yüksək xidmət göstərərək şəhərə gələn milli və xarici turistləri razı salır. Ümumiyyətlə, istənilən şəhəri turistlər üçün əlverişli edən səbəblərdən biri də nəqliyyat infrastrukturunun yaxşı vəziyyətdə olmasıdır. Lənkəranda 2008-ci ildə beynəlxalq hava limanı istifadəyə verilmişdir ki, bundan sonra rayonda gəlmə turizm daha da sürətlə inkişaf etmişdir.

Turizm Xəzər dənizi və Talış dağları arasında yerləşən Masallı rayonunun əsas inkişaf istiqamətlərindəndir. Rayonda keçirilən folklor müsabiqələri səbəbindən Masallının adı ölkəmizdən xaricdə də tanınıb. Rayondakı Mədəniyyət mərkəzi və Gənclər mərkəzində Masallı rayon Regional Mədəniyyət və Turizm idarəsinin təşkilatçılığı ilə bayram tədbirlərinin təşkili, əlamətdar günlərin qeyd olunması daim diqqət mərkəzində saxlanılır. Rayonun turistlərin diqqətini çəkən yerləri sırasında tarixi məkanlar önəmli yer tutur. Masallıda 168 qədim arxeloji, memarlıq abidəsi mövcuddur. Rayonda 40-dan çox turizm obyekti yerləşir ki, burada gün ərzində 2000-dən çox turist qəbuluna imkan var. Rekreasiya və piknik zonası kimi nəzərdə tutulan Viləş çayının rayon ərazisindən keçən sahillərində 20 hektardan çox ərazidə meşə zolağı salınıb və bu ərazilərdə park-bulvar kompleksinin yaradılması planlaşdırılır. Masallıda “Gölüstü”, “Beş Qardaş”, “Gülüstan”, “Daştvənd” və s. istirahət mərkəzləri rayona gələn turistləri layiqincə qəbul edir və ilbəil özlərini təkmilləşdirərək daha da inkişaf etməyə çalışırlar, fotoalbomlar, bukletlər, bannerlər hazırlayırlar. Masallı rayonunun ən məşhur turizm bölgəsi olan İstisu ərazisidir ki, burada sanatoriya fəaliyyət göstərir. İstisuya gələnlər dincəlməklə yanaşı, müalicəvi su ilə müxtəlif xəstəliklərdən də qurtulurlar. Yerin dərinliklərindən 60 dərəcə istiliklə çıxan bu su yel, böyrək, öd kisəsi və başqa bir çox xəstəliklərdə şəfalıdır.

2013-cü ildə Prezidentin ehtiyat fondundan Masallı rayonunda olan mövcud sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq, abadlıq, yenidənqurma işləri görmək üçün 2,0 mln manat, Diyarşünaslıq muzeyi üçün 2,0 mln manat, yeni Uşaq İncəsənət məktəbi tikmək üçün də 2,0 mln manat vəsait ayrılmışdır. [8]

Yardımlı rayonu Peştəsər və Burovar silsilələri arasındakı çökəklikdəki geniş ərazidə yerləşir. Rayonun əsas problemi tarix boyu yollarla bağlı olub. Amma “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın qəbulundan sonra uzunluğu 53 km olan Masallı-Yardımlı yolu çəkilmiş, Yardımlı-Hamarkənd yolu təmir edilmişdir. Son illərdə rayonda turizm inkişaf etdirilir. Yolların təmirindən sonra rayonun turizm üçün əlverişli relyefinin olduğunu demək olar. Masallı-Yardımlı yolundakı 50 m hündürlukdən axan Təkdam şəlaləsi turistləri öz gözəlliyi ilə cəlb edir. Rayonda olan “Deman” istirahət kompleksi, “Şəlalə”, “Moran”, “Qazlı bulaq” və başqa məkanların yaxın gələcəkdə daha da məşhurlaşacağını fərz etmək olar. Yardımlıda idmana xüsusi diqqət ayrılır. Rayonda 2,5 min nəfərlik stadionun olması, 2008-ci ildə kontakt karate və şahmat üzrə respublika birinciliklərinin burada keçirilməsi bunu sübut edir.

Yay turizmi ərəfəsində cənub bölgəsində istirahət mərkəzləri, otellər ən az 80% turistlə dolur, amma qalan fəsillərdə, xüsusilə qışda bu 20%-i ötmür. Halbuki bölgənin qış turizm potensialından istifadə edib turistlərin sayını dəfələrlə artırmaq olar. Cənub bölgəsi dəniz sahilində yerləşdiyi kimi, həm də meşə və dağlıq ərazilərlə əhatələnib. Qış fəslində dağlıq ərazilərə yağan qarın hündürlüyü bəzən 1 m-i ötür ki, bu da rayonda qış turizmi üçün lazımi imkanların olduğunu təsdiqləyir.

Qarın ərimə müddətinin may ayına kimi uzanması dağlıq və dağətəyi ərazilərdə müvafiq infrastrukturun icrası, kanat xəttinin qurulması, xizəkçilik üçün şərait yaradılması, əyləncələrin təşkili yaxın gələcək üçün planlaşdırılır.

Dünya iqtisadiyyatında turizm sənayesinin xüsusi çəkisinin 5% olması Azərbaycanda da artıq bu sənaye sahəsinin inkişafına stimul verir. Dünya təcrübəsindən faydalanaraq daim yenilik axtarışında olmaq, mövcud problemləri həll etmək Azərbaycanın turizmini daha da inkişaf etdirəcəkdir. Görünür ki, büdcədən ayrılan vəsaitlər, sahibkarlığa dəstək üçün verilən kreditlər Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun ərazisində turizm sahəsində yeni inkişaf perspektivləri yaradacaqdır.

Ölkəmizin qeyri-neft sektorundan götürdüyü gəlirin böyük hissəsinin turizmə aid olması bu sahədə atılan addımların vacibliyini göstərir. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin başlıca istiqamətləri” sırasında ixtisaslaşmış turizm, əyləncə müəyyən olunmuş, beynəlxalq turizm ixtisasçıları ilə sahədə olan ən uğurlu modellər təhlil edilərək ölkəmizə tətbiq edilmiş və turizm sahəsi üzrə ilkin strateji yol xəritəsi hazırlanmışdır. Mümkün turizm potensialından istifadənin genişləndirilməsi, bölgələrdə stimullaşdırıcı tədbirlərin görülməsi, yeni turizm marşrutlarının hazırlanması, həmçinin rəqabətə davam gətirə bilən qiymət təkliflərinin yenidən işlənib hazırlanması Azərbaycanın turizm ölkəsi kimi dünya ölkələri arasında daha qabaqcıl yer tutmasına səbəb olacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə təqdimatı. Bakı, 2015, 62 s.
2. Azərbaycan Respublikası Maliyyə nazirliyi Sahibkarlara Kömək Milli Fondu, 2014, illik hesabat. 76 s.
3. Budaqov B.Ə. Azərbaycanın təbiət abidələri. Bakı: “Elm”, 1990, 181 s
4. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı. İqtisad Universiteti, 2011, 492 s.
5. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı, 2002, 546 s.
6. Respublika.az. 2007. 7 mart. 3 s.
7. http://www.president.az
8. World Travel and Tourism Councul. 2014 Issue. 20 s.



***Джавахир Абдулла кызы Асланзаде,***
***магистр, Азербайджанского Университета Кооперации***
***cevaaa@inbox.ru***


## Роль туристических мест Лянкяранско-Астаринского экономико-географического района в повышении туристического потенциала страны


***Резюме***

Обсуждаются меры, предпринимаемые для динамичного развития туризма в Лянкяранско-Астаринском экономическом районе, инвестиции государства в эту сферу. Во всем мире изучаются пути решения многогранных проблем туристической индустрии. В статье отражена удовлетворительная деятельность различных комплексов отдыха, гостиниц и туристических фирм для туристов, приезжающих в этот экономический район.



***Ключевые слова: туризм, экономика, развитие, региональный туризм, прибыль, пространство.***

*Javahir Abdulla Aslanzadeh*
*Master Azerbaijan Cooperation University*
*cevaaa@inbox.ru*

**The role of tourism places in Lankaran-Astara economic-geographical region in increase the tourism potential of the country**

***Summary***

Measures taken for the dynamic development of tourism in the Lankaran-Astara economic region, investments made by the state in this area are discussed. All over the world, solutions to the multifaceted problems of the tourism industry are being explored. The article reflects the satisfactory activity of various leisure complexes, hotels and travel companies for tourists coming to this economic region.

***Key words: tourism, economy, development, regional tourism, profit, space.***

**UOT 338**

***Fidan Faiq qızı ÇƏRKƏZOVA***
***magistrant, Azərbaycan Kooperasiya Universiteti***
***Frustemova6@gmail.com***

## MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Məqalədə Azərbaycan iqtisadiyyatının inkişafı üçün Heydər Əliyevin həyata keçirdiyi islahatlar, onun iqtisadiyyatımıza gətirdiyi töhvələr təhlil edilmiş, bununla yanaşı, müstəqillik dövründə iqtisadiyyatda baş verən yeniliklər, o cümlədən, Bakı-Tblisi-Ceyhan neft boru kəmərinin inşası və istifadəyə verilməsinin ölkə iqtisadiyyatına göstərdiyi müsbət təsir qeyd edilmişdir.

***Açar sözlər - iqtisadiyyat, sosial-iqtisadi inkişaf, müstəqillik, Azərbaycan.***

***

Ümummillli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə başqa sahələrlə yanaşı Azərbaycanın sosial-iqtisadi vəziyyətinin dirçəldilməsinə, onun daha da inkişaf etdirilməsinə, insanların maddi rifah halının yaxşılaşdırılmasına çox böyük önəm vermişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə "İqtisadiyyatı güclü olan dövlətlər hər şeyə qadirdir" prinspini əsas götürmüşdür.

1991-ci ildə ölkəmiz müstəqillik əldə etdikdən sonra və buna qədər olan dövrdə hakimiyyət dəyişmələri, iqtisadiyyatın demək olar ki, idarə olunmaması, dünyada baş verən proseslərdən baş çıxara bilməyən siyasi bir liderin olmaması respublikanın siyasi həyatını və onun iqtisadiyyatını iflic vəziyyətə salmışdır. 20%-dən çox torpaqlarımızın erməni işğalçıları tərəfindən işğal olunması nəticəsində 700-dən çox şəhər və kənd dağıdılmışdır. Sənaye müəssisələri işlərini dayandırmış, aqrar-sənaye kompleksi bərbad vəziyyətə düşmüşdür. Heydər Əliyev bu zaman respublikanın qabaqcıl ziyalılarının təkidi ilə 2-ci dəfə hakimiyyətə qayıtmış və bu qayıdış Azərbaycan üçün yeni dövrün başlanğıcı hesab olunur. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən respublikada mövcud olan ictimai-siyasi böhranı düzgün qiymətləndirmiş, ölkəmizin düçar olduğu bəlalardan xilas etməyin yolunu müəyyənləşdirmişdir. İlk növbədə ictimai-siyasi sabitliyə nail olmaq, ölkənin mövcud iqtisadi potensialından səmərəli istifadə etmək üçün çox gərgin iş aparıldı və uğurlu nəticələr əldə edildi. [2, s. 560]

Respublikanın iqtisadiyyatını daha da inkişaf etdirmək məqsədilə dövlət idarəçiliyində islahatlar aparılmışdır. İlk növbədə, nazirlər kabinetinin səlahiyyət və funksiyaları bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmışdır. Ölkənin iqtisadiyyatı yüksək sürətlə, dinamik inkişaf etdirilərək dünya bazar iqtisadiyyatına inteqrasiya etməkdədir. Yeraltı və yerüstü sərvətlərimizdən xalqın mənafeyi naminə səmərəli istifadə olunur. Aparılan uğurlu neft siyasəti ilə Azərbaycan dünyanın su-

per dövlətləri-ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiya, Çin, Rusiya və digər ölkələrlə iqtisadi və siyasi cəhətdən möhkəm əlaqələr yaratmışdır.

1994-cü ildə dünyanın iri neft şirkətləri ilə qurulmuş müştərək işlər – "Əsrin müqaviləsi" imzalanmış, ardınca "Şahdəniz" sazişinin imzalanması Heydər Əliyevin qətiyyəti və dərin əzmkarlığı nəticəsində baş tutdu. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra aparılan iqtisadi islahatlar, o cümlədən neft sahəsində uğurlar, "Əsrin müqaviləsi"nin imzalanması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, kənd təsərrüfatında çevik torpaq islahatları, sənayenin, xüsusilə qeyri-neft sənayesinin canlanması və s. kimi məsələlərin uğurla həll edilməsi ölkəyə maliyyə axınlarını əhəmiyyətli dərəcədə artırmışdı ki, bu da öz növbəsində ölkənin sahib olduğu maliyyə resursları üzərində müvafiq nəzarətin formalaşdırılması zəruriliyini daha da gücləndirdi. Ulu öndər Heydər Əliyev çıxışlarının birində qeyd etmişdir: "Azərbaycanın Prezdenti olandan gördüyüm işlərin əsasını təşkil edən bu olmuşdur ki, Azərbaycanın vəsaiti qorunsun və onun dağıdılmasına yol verilməsin".

"Əsrin boru kəməri" kimi tarixə düşən Bakı-Tblisi-Ceyhan boru kəmərinin çəkilişi 2006-cı ildə yekunlaşmışdır. Kəmərin başa çatdırılması ilə Azərbaycan nefti böyük həcmdə dünya bazarına çıxarılmışdır. Nəticədə respublikamızın qlobal və regional layihələrdə iştirakı, Qərb, Şərq və Şimal, Cənub ölkələri ilə tarazlaşdırılmış əməkdaşlıq siyasətinin həyata keçirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan dövləti milli mənafelərini əsas tutmaqla beynəlxalq əməkdaşlığın üstünlüklərindən səmərəli istifadə edir və xalqın üzləşdiyi problemlərin həlli istiqamətində uğurlu addımlar atır. Heydər Əliyev neft gəlirlərinin səmərəli istifadə olunması, iqtisadiyyatın inkişafı və gələcək nəsillərin sosial vəziyyətinin yaxşılaşmasına yönəldilməsi üçün 1998-ci ildə Dövlət Neft Fondunun yaradılmasına sərəncam verdi. Hazırda Fondun vəsaitləri 2 milyard dolları keçməkdədir. [2, s. 385]

Heydər Əliyevin rəhbərliyi altında 1970-80-ci və 1993-2003-cü illərdə Azərbaycanda bütün sahələrdə böyük nailiyyətlər əldə edilmiş, möhkəm iqtisadi-siyasi sabitliyə nail olunmuş, qüdrətli ordu yaradılmışdır. Hüquqi demokratik dövlət qurulmuşdur. Uğurlu xarici siyasətin nəticəsi olaraq dünyanın əksər dövlətləri ilə ölkəmizin mənafelərinə uyğun diplomatik əlaqələr yaradılmışdır. XXI əsrin arxada qalan 20 ili Azərbaycanın iqtisadiyyatı köklü dəyişikliklərin baş verməsi ilə xarakterizə olunur. 2005-ci ildə Azərbaycan iqtisadi artım sürətinə görə dünyada ən qabaqcıl mövqeyə çıxmış, ölkəmizdə daha keyfiyyətli və dayanıqlı inkişaf üçün möhkəm zəmin yaradılmışdır.

Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasında "iqtisadi islahatlar" ifadəsi altında Azərbaycan iqtisadiyyatını bazar prinspləri əsasında qurmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və dövlət mülkiyyətinin özəlləşdirilməsini həyata keçirmək, azad sahibkarlığa, vətəndaş təşəbbüskarlığına geniş imkanlar yaratmaq, milli iqtisadiyyatımızı inkişaf etmiş ölkələrin iqtisadi sistemləri əsasında yenidən qurmaq və dünya iqtisadiyyatına fəal ineqrasiya başa düşülür. [3, s. 539]

Yeni Azərbaycan quruculuğunun arxada qalan illəri Heydər Əliyevin iqtisadi strategiyasının haqlı olaraq sosialyönümlü bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmasının alternativliyini sübuta yetirmişdir. Heydər Əliyevin İqtisadi konsepsiyasına görə islahatlar 3 mərhələdə həyata keçirilməlidir. Birinci mərhələ güclü dövlət tənzimlənməsi yolu ilə böhrandan çıxmaq, ikinci mərhələ iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələ iqtisadiyyatın dirçəlişinə və yüksələn xətlə dinamik inkişafına nail olmaq vəzifələrinin həllinə yönədilməsinin məqsədəuyğunluğunu təsdiq etmişdir. [3, s. 539]

Ulu öndərin fəaliyyəti dövründə daxili dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması və inkişafı məsələləri də diqqətdən kənarda qalmamışdır. Maliyyə intizamının gücləndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, yerli və xarici iş adamlarının fəaliyyətinə müdaxilələrin qarşısının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən sui-istifadə halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə Heydər Əliyevin imzaladığı 07 yanvar 1999-cu il tarixli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Fərman dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində çox mühüm addım oldu. Son illərdə dövlət idarəçilik sistemində tamamilə yenidən qurulmuş dövlət xərclərinin idarə olunması, audit sisteminin tətbiqi ilə əlaqədar islahatlar uğurla həyata keçirilmişdir.

Dövlət maliyyə nəzarəti siyasəti ölkədə maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlir və xərclərinin ildən-ilə əhəmiyyətli dərəcədə artmasını təmin etmişdir. Nəticə olaraq 2002-ci

ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü illə müqayisədə 85 dəfə, xərcləri isə müvafiq olaraq 72 dəfə artmışdır.[4]

Bank, gömrük, sığorta, nəqliyyat sahələri də Heydər Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində daha da təkmilləşdirilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü iqtisadi dəyişikliklər nəticəsində həyatın bütün sahələrində olduğu kimi, yol təsərrüfatının fəaliyyətində də tənəzzülə son qoyuldu. Ulu öndər bu sahənin ölkə iqtisadiyyatındakı rolunu düzgün dəyərləndirərək islahatların aparılmasını daim diqqətdə saxlayırdı. Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində bu sektorun inkişafı məqsədilə struktur dəyişiklikləri aparıldı, 1998-ci il avqustun 5-də Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi təsis edildi, 2003-cü il iyun ayının 23-də isə nazirliyin tabeliyində "Yolnəqliyyatservis" Departamenti yaradıldı. Respublika və yerli əhəmiyyətli avtomobil yolları adıçəkilən departamentin balansına götürüldü, onun tabeliyinə verilən yol-istismar idarələrinin fəaliyyəti genişləndirildi. Beləliklə, yol təsərrüfatının inkişafında yeni mərhələ başlandı. Ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri Azərbaycanın dövlət başçısının nəqliyyat infrastrukturunun inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir.

Yenidən hakimiyyətə qayıdışı ilə yalnız hüququn aliliyinə əsaslanaraq idarəetmə sistemi formalaşdıran müdrik rəhbərimizin qısa müddət ərzində dahi uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi və siyasi cəhətdən möhkəmlənməsinə, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin siyasi kursu Azərbaycana təkcə sarsılmaz təməllər üzərində inkişaf edən bir dövlət yox, həm də onun problemlərini həll etməyə qadir güclü siyasi hakimiyyət komandası verib. Doğma Azərbaycanımız əbədiyyətə qədər ulu öndərin yolu ilə irəliləyəcəkdir. [1, s. 129]

## ƏDƏBİYYAT

1. H.A.Əhədov. "Tufanlardan keçən ömür" Səh. 129.
2. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. səh 385, 560.
3. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. səh. 539
4. H.Əsədov, Heydər Əliyev və dövlət maliyyə nəzarəti
5. https://report.az/maliyye-xeberleri/azerbaycan-son-1-ilde-valyuta-ehtiyatlarini-11-artirib/

***Фидан Фаиг кызы Черказова***
***Магистрант АУК***
***Frustemova6@gmail.com***

**Роль Гейдара Алиева в экономическом развитии независимого Азербайджана**

***Резюме***

В статье проанализированы реформы, проведенные Гейдаром Алиевым для развития экономики Азербайджана и вклад, который он внес в нашу экономику, кроме того, отмечены новшества, произошедшие в экономике за период независимости, в том числе положительное влияние строительства и ввода в эксплуатацию нефтепровода Баку-Тбилиси-Джейхан на экономику страны.

***Ключевые слова: экономика, социально-экономическое развитие, независимость, Азербайджан.***

***Fidan Faiq Charkazova***
***Master: Azerbaijan Cooperation University***
***Frustemova6@gmail.com***

**Heydar Aliyev's role in the economic development of independent Azerbaijan**

***Summary***

In the article, the reforms implemented by Heydar Aliyev for the development of the economy of Azerbaijan and the contributions he brought to our economy were analyzed. In addition, the innovations that took place in the economy during the period of independence, including the

positive impact of the construction and commissioning of the Baku-Tbilisi-Ceyhan oil pipeline on the country's economy were noted.

***Key words: economy, socio-economic development, independence, Azerbaijan.***

**UOT 338**

***Aysel Eldəniz qızı Bəhrulzadə***
***magistrant, Azərbaycan Kooperasiya Universiteti***
***aysel.bahrulzade@gmail.com***

## HEYDƏR ƏLİYEVIN İQTİSADİYYATIN İNKİŞAFINDA XİDMƏTLƏRİ

***Xülasə***

Azərbaycanın milli iqtisadiyyatının Ulu öndərin islahatları yolu ilə formalaşdırılması siyasəti ötən əsrdən başlayıb. Azərbaycanın dünya iqtisadiyyatına sürətlə inteqrasiyası və güclü dövlətə çevrilməsinin böyük rolu Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş möhkəm iqtisadi bünövrəyə əsaslanır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük iqtisadi strategiya qarşıya qoyulan məqsədlərə nail olmağa, sosial-iqtisadi dirçəlişə nail olmağa imkan verdi. Heydər Əliyevin uğurlu neft strategiyası Azərbaycan iqtisadiyyatında mühüm rol oynamışdır. Məhz Heydər Əliyevin rəhbərliyi ilə xalqımız müstəqillik əldə edərək, öz milli birliyini və suverenliyini müdafiə etmək imkanı qazanmışdır. Ulu öndər Heydər Əliyev nəinki qısa müddətdə ölkə daxilində münaqişə ocaqlarını söndürə bildi, həm də Azərbaycanın indiyədək rəhbər tutduğu dövlət inkişafının əsas vektorlarını üzə çıxara bildi. Heydər Əliyev Azərbaycanı dünya birliyinin tamhüquqlu subyektinə çevirdi. Ölkə hazırda demək olar ki, bütün beynəlxalq təşkilatlarda təmsil olunur və bir çox regional və geosiyasi proseslərdə fəal iştirak edir.

***Açar sözlər: Heydər Əliyev, iqtisadiyyat, aqrar islahatlar, torpaq islahatı, neft fondu.***

***

Ötən əsrin 90-ci illərinin əvvəllərindən etibarən transformasiya yönümlü islahatlar nəticəsində iqtisadiyyatda kifayət qədər köklü dəyişikliklər yaranmağa başladı. Bu dəyişiklikləri şərtləndirən ən mühüm cəhətlərdən biri keçmiş Sovetlər Birliyinin obyektiv və subyektiv səbəblərdən dağılması və eyni zamanda yeni iqtisadi münasibətlər sisteminin formalaşması ilə bağlı idi. Həmin dövr üçün Azərbaycanın siyasi vəziyyətini səciyyələndirən ən mühüm amillərdən biri Ermənistanın ilhaqı fonunda ərazisinin 20%-nə qədərinin itirilməsi və ölkəyə kifayət qədəri, yəni 1 milyondan çox qaçqın selinin daxil olması idi.

Nəzərə almaq lazımdır ki, ölkə əhalisinin gəlirlərinin aşağı düşməsi, işsizliyin səviyyəsinin güclənməsi və inflyasiyanın hiper səviyyəyə qədər yüksəlməsi, əslində iqtisadiyyatda starqflyasiya meyillərinin dərinləşməsini şərtləndirirdi. Bütün bunlar məhz XX əsrin 90-ci illərinin əvvəlləri üçün Azərbaycan iqtisadiyyatının ən acı mənzərəsi kimi xarakterizə edilirdi.

Məhz belə bir şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev ilk növbədə vətəndaş müharibəsinin qarşısını aldı və ölkəni parçalanmadan xilas etdi. Ölkənin parçalanmadan xilas edilməsi təkcə Dağlıq Qarabağ problemlərinin həllində hərbi-siyasi sabitliyin yaranması ilə deyil, eyni zamanda iqtisadi böhranın qarşısının alınması istiqamətində də güclü səylərin göstərilməsin də özündə ehtiva edirdi.

Məhz belə bir şəraitdə Ulu öndərin həyata keçirdiyi iqtisadi islahatların əsasını məhz aqrar islahatlar təşkil etdi. Aqrar islahatların həyata keçirilməsi 1995-ci ildən etibarən "Aqrar islahatların əsasları", "Kolxoz və sovxozların islahatı" və "'Torpaq islahatları" haqqında Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə başlandı. Bundan əlavə, vətəndaşlara pay-torpaqlarının verilməsi, keçmiş kolxoz, sovxozların əmlakının özəlləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticə etibarı ilə islahatın Azərbaycan modelinin formalaşmasını şərtləndirdi.

Aqrar sahədə həyata keçirilən islahatlar nəticəsində aqrar böhran, demək olar ki, dayandırıldı. Bütün bunların nəticəsi idi ki, 1997-1998-ci illərdən etibarən hiper inflyasiyanın səviyyəsi artıq inflyasiyanın cilovlanması kimi bir mərhələyə daxil oldu. Bütün bunların üzərinə onu da əlavə

etmək lazımdır ki, "Aqrar sahədə islahatların sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən torpaq vergisi istisna olmaqla digər vergilər ləğv edildi və bütün bunlar aqrar əmtəə istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadı. Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı da bu sahədə önəmli addım idi. [1].

Heydər Əliyevin müasir çağdaş Azərbaycan iqtisadiyyatının formalaşdırılmasında əhəmiyyətli rolunu xarakterizə edən mühüm amillərdən biri də neft kontraktları olmuşdur. Belə ki, 1994-cü ildə imzalanan neft kontraktları mahiyyət etibarı ilə iqtisadiyyata əlavə pul kütləsinin daxil olmasında, investisiyaların cəlb edilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, eyni zamanda siyasi böhranın qarşısının alınmasında, hərbi-siyasi sabitliyin qorunub saxlanılmasında da əhəmiyyətli rol oynadı. Təsadüfi deyildir ki, 1995-2000-ci illərdə ölkə parlamenti tərəfindən qəbul edilən qanunların demək olar ki, 90%-dən çoxu ölkənin bazar iqtisadiyyatına keçidini şərtləndirən infrastruktur sisteminin hüquqi təminatını özündə əks etdirirdi.

Həmin dövr üçün ən mühüm məqamlardan biri də artıq 2000-ci illərin əvvəllərindən etibarən iqtisadiyyatın diversifikasiyasına istiqamətləndirilmiş tədbirlərin gerçəkləşdirilməsindən ibarət idi. Belə ki, regionlara investisiyaların qoyuluşu, iqtisadiyyatın diversifikasiyası baxımından digər sahələrin, yəni qeyri – neft sektorlarının inkişafı istiqamətində zəruri tədbirlər həyata keçirilməyə başlandı. MDB ölkələri və digər Şərqi Avropa ölkələri içərisində, demək olar ki, ilk dəfə Azərbaycanda Neft Fondu yaradıldı. Ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edildi. [2]. Neft fondunun yaradılması isə əslində iqtisadiyyatın davamlı inkişafının təmin edilməsinə əlverişli şərait yaratmaqla yanaşı, eyni zamanda neft sərvətlərinin gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətli rol oynayırdı və bütün bunlar məhz Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin ən mühüm tərkib hissəsini təşkil edirdi.

Əslində Heydər Əliyevin çağdaş Azərbaycan iqtisadiyyatında gerçəkləşdirdiyi siyasət məhz davamlı iqtisadi inkişaf impulslarına söykənirdi . Davamlı iqtisadi inkişaf impulsları isə özündə 3 amili ehtiva edirdi ki, bunlardan birincisi: ətraf mühitin mühafizəsi, təbii resurslardan istifadə edilməsi; ikincisi: sosyal dayanıqlılığın təmin edilməsi və nəhayət, üçüncüsü: iqtisadi inkişafın davamlılığının təmin edilməsi idi. Davamlı inkişaf konsepsiyası Heydər Əliyevin çağdaş Azərbaycan iqtisadiyyatında formalaşdırdığı yeni iqtisadiyyat modelinin ən mühüm tərkib hissəsini təşkil edirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyevin neft strategiyası çağdaş Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynamışdır. Bakı-Tbilisi-Ceyhan boru kəməri: Heydər Əliyevin memarı olduğu əsas layihələrdən biri Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin tikintisi idi. Azərbaycan, Gürcüstandan keçərək Türkiyənin Aralıq dənizi sahillərinə qədər çəkilmişdir. 2006-cı ildə fəaliyyətə başlayan boru kəməri Azərbaycan iqtisadiyyatına böyük təkan oldu və öz neftini Rusiyaya güvənmədən Qərb bazarlarına çıxarmağa imkan verdi. Ticarət müqavilələri: H.Əliyev həmçinin Türkiyə və digər türk dövlətləri, o cümlədən Qazaxıstan və Türkmənistanla ticarət müqavilələri bağlamaq üzərində işləyirdi. 1996-cı ildə Azərbaycan Türkiyə ilə azad ticarət sazişi imzaladı ki, bu da iki ölkə arasında ikitərəfli ticarətin artmasına kömək etdi. [3, s.201]

Bundan əlavə, Heydər Əliyevin iqtisadi siyasətinin ən mühüm elementlərindən biri də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması idi. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yoxsulluğun səviyyəsinin azaldılması ilə bağlı davamlı proqramların və qanunvericilik aktlarının qəbul edilməsi bu sahədə vəziyyətin mürəkkəbləşməsinin qarşısının alınmasında mühüm rol oynayırdı.

Heydər Əliyevin çağdaş Azərbaycan iqtisadiyyatında formalaşdırdığı siyasətin ən mühüm tərkib hissələrindən biri də ondan ibarət idi ki, ölkədə ilk dəfə olaraq gizli iqtisadiyyatın mövcudluğu barədə fikirlər ifadə olunmağa başlamışdır. Məhz Heydər Əliyev tərəfindən 2000-ci illərin əvvəllərində ilk dəfə olaraq qeyd edildi ki, Azərbaycan iqtisadiyyatında gizli iqtisadiyyatın impulsları var və biz gizli iqtisadiyyata qarşı mübarizə aparmalıyıq.

Heydər Əliyevin iqtisadi siyasətini xarakterizə edən ən mühüm amillərdən məhz gizli iqtisadiyyatın etiraf olunması gizli iqtisadiyyatın elementlərinin qarşısının alınması istiqamətində zəruri qabaqlayıcı tədbirlərin görülməsini özündə ehtiva edə bilirdi. Ümumiyyətlə Ulu öndərin həyata keçirdiyi iqtisadi siyasətin ən mühüm tərkib elementlərindən biri də, ixtisaslı kadrların irəli çəkilməsi ilə bağlı olmuşdur. Heydər Əliyevin siyasətində bu proseslər hələ keçmiş Sovetlər dönəmində də əhəmiyyətli rol oynamışdır. Belə ki, insanlar xüsusilə Moskvaya və digər MDB ölkələrinə təhsil almaq üçün göndərilir və onlar sonradan Azərbaycanda müxtəlif vəzifələrdə istifadə edilirdi.

Ulu Öndərin çağdaş Azərbaycan iqtisadiyyatında yeritdiyi iqtisadi siyasətin ən mühüm elementlərindən biri, neft kapitalının insan kapitalıyla əvəz olunmasıyla bağlı olmuşdur. Neft kapitalının insan kapitalıyla qarşılıqlı simbiozu iqtisadi münasibətlər sistemində yeni düsturun – postsənaye cəmiyyətinin formalaşdırılması baxımından da əhəmiyyətli rol oynayırdı və bu proses hazırda da davam etməkdədir.

## ƏDƏBİYYAT


1. e-qanun.az/framework/599
2. oilfund.az/fund/about/history
3. Vəliyev X. "Heydər Əliyev və qanunçuluq: çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar", Bakı, "Adiloğlu" nəşriyyatı, 2008, 432 s.



***Айсель Эльданиз кызы Бахрулзаде***
***магистрант, Азербайджанский Университет Кооперации***
***aysel.bahrulzade@gmail.com***


## Услуги Гейдара Алиева в экономическом развитии


***Резюме***

Политика формирования национальной экономики Азербайджана путем реформ Великого Лидера началась еще в прошлом веке. Огромная роль быстрой интеграции Азербайджана в мировую экономику и превращения его в сильное государство основывается на прочном экономическом фундаменте, заложенном Гейдаром Алиевым в период первого руководства Республикой. Великая экономическая стратегия, реализованная под руководством общенационального лидера Гейдара Алиева, позволила достичь поставленных целей и добиться социально-экономического возрождения. Успешная нефтяная стратегия Гейдара Алиева играет важную роль в экономике Азербайджана. Именно под руководством Гейдара Алиева наш народ обрел независимость, получил возможность защитить свое национальное единство и суверенитет. Великий лидер Гейдар Алиев смог не только за короткое время погасить очаги противоречий внутри страны, но и выявить основные векторы государственного развития, которым до сих пор руководит Азербайджан. Гейдар Алиев превратил Азербайджан в полноправного субъекта мирового сообщества. В настоящее время страна представлена практически во всех международных организациях также активно участвует во многих геополитических и региональных процессах.



***Ключевые слова: Гейдар Алиев, экономика, земельная реформа, аграрные реформы, нефтяной фонд.***



***Aysel Bahrulzada Eldaniz***
***master, Azerbaijan Cooperation University***
***aysel.bahrulzade@gmail.com***


## Heydar Aliyev's services in economic development


***Summary***

The policy of forming the national economy of Azerbaijan through the reforms of the Great Leader began in the last century. The huge role of Azerbaijan's rapid integration into the world economy and its transformation into a strong state is based on the solid economic foundation laid by Heydar Aliyev during the period of the first leadership of the Republic. The great economic

time, the share of taxes paid by foreign-invested enterprises increased from 9.3 percent to 19.7 percent in total tax revenues. In general, in 1996-2001, those enterprises paid approximately 600 million dollars to the budget in the form of taxes and social allocations, and 400 million dollars to social funds. Baku-Novorossiysk and Baku-Supsa oil pipelines were initially used to export Azerbaijani oil produced under the "Contract of the Century" to world markets. However, taking into account that the annual production of the fields included in the agreement will be increased to 50 million tons in the coming years, at the initiative of the President of Azerbaijan Heydar Aliyev, the export routes with greater transportation capacity were investigated and the main export pipeline Baku-Tbilisi-Ceyhan was chosen as the optimal option. That is why, taking into account the invaluable services of the phenomenal politician Heydar Aliyev in the implementation of the project, the project participants decided to name the BTC main export pipeline after Heydar Aliyev in 2004. Thus, the BTC project called "Legend of the Three Seas" has become a reality and is contributing to the improvement of the material well-being of our people and making our native Azerbaijan a powerful state. In general, the development dynamics of Azerbaijan's economy, which gained momentum with the oil strategy, continued in a larger scale form in the following years. Although the years 1995-1998 are mainly remembered for the creation of the relevant normative legal framework, this period was also marked by privatization of state property, support of small and medium enterprises, etc. State programs have also been adopted in these directions. [5] The genius Heydar Aliyev, who very correctly assessed that the main factor of economic development in the conditions of the market economy is the formation of private property and various forms of entrepreneurship, made decisions that served the development of entrepreneurship as soon as stability was achieved in the country. In order to assess the true essence of the work done in this field, it would be appropriate to recall an opinion of national leader Heydar Aliyev in 1996: "As a President, I have already determined the state policy in the economy. This is the way of reforms, it is necessary to increase and develop production through reforms, privatize property, give ample space to the development of the private sector, market economy, give equality to people, create conditions for entrepreneurship and entrepreneurship. These are the main principles of our state policy." It is the result of this attention and care that the local entrepreneurial activity in the country expands year by year, strengthens and becomes one of the main sources of income of the state budget. The main goal is to expand the development of this important field and increase its importance in the socio-economic development of the country. In order to achieve this goal, the head of state Heydar Aliyev signed six important decrees in August-September 2002 alone. The adoption of these historic decrees, in essence, strengthened its decisive role by setting specific tasks for the national entrepreneurship, which has great potential, in raising the socio-economic situation of our country to a qualitatively new stage of development. It is as a result of the successive measures carried out in a purposeful way during that period that entrepreneurship has become one of the leading areas of the economy and is bearing its fruit both in the direction of providing employment and increasing budget revenues.

Of course, it is impossible to fully cover the activities of Heydar Aliyev, the savior of the Azerbaijani people, the world-famous politician, who served the development of our country and people, not only in one article, but also in volumes of books. The above-mentioned can be considered as "a drop from the river" in front of the services of the national leader. The development of individual fields of science, social spheres such as education, health care, agriculture and industry in the Republic of Azerbaijan is connected with the name of the national leader. All this necessitates a deeper study of Heydar Aliyev's ideas. Because the genius Heydar Aliyev is not only the saviour of the Azerbaijani people, but also the founder of a well-thought-out strategy that leads the Azerbaijani state to sustainable economic development.

## REFERENCES


1. Elmira Axundova. "Hakimiyyət yükü altında"
2. Elmira Axundova. "Qayıdış"

3. Qərib Məmmədov. “ Heydər Əliyevin torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır.”
4. İrfan Ülkü. “Kızıl yıldızdan hilale”
5. http://www.yap.org.az/az/view/news/36362/1993-cu-ilde-yeniden-hakimiyyete-gelen-ulu-onder-heyder-eliyev-muasir-musteqil-azerbaycan-dovletini-qurub-yaratmaqla-tarix-yazdi

***Улкар Эльшан кызы Мехтиева***
***Аспирант Азербайджанского Университета Кооперации***

**Экономическая политика Гейдара Алиева в регионах**

***Резюме***

Исходя из критериев и целей, поставленных великим лидером Гейдаром Алиевым для перспективного развития республики, уже в 1970 году специалистами Госплана были подготовлены программы восстановительных работ, направленные на социально-экономическое развитие районов республики. В соответствии с намеченным комплексным планом мероприятий, “Схемой развития и размещения производительных сил Азербайджанской ССР на 1971-1980 годы” и на следующем этапе “Долгосрочным экономическим прогнозом Азербайджанской ССР на 1976-1990 годы, схемой развития и развертывания производительных сил”.

***Ключевые слова: Азербайджан, развитие, экономика, регион, указ.***

***Ülkər Elşən qızı Mehdiyeva***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***ulkermehdiyeva93@gmail.com***

**Heydər Əliyevin regionlarda iqtisadi siyasəti**

***Xülasə***

Ulu öndər Heydər Əliyevin respublikanın gələcək inkişafı ilə bağlı müəyyən etdiyi meyar və məqsədlərə əsaslanaraq, artıq 1970-ci ildə Dövlət Plan Komitəsinin mütəxəssisləri tərəfindən respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəlmiş yenidənqurma işlərinin proqramları hazırlanmışdır. Planlaşdırılan kompleks tədbirlər planına uyğun olaraq “1971-1980-ci illərdə Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi sxemi” və növbəti mərhələdə “Azərbaycan SSR-in 1976-1990-cı illərdə uzunmüddətli iqtisadi proqnozu, inkişaf sxemi və məhsuldar qüvvələrin yerləşdirilməsi” tərtib edilmişdir.

***Açar sözlər: Azərbaycan, inkişaf, iqtisadiyyat, region, fərman.***

**UOT 338**

***Xəyalə Rauf qız NƏZƏROVA***
***magistrant, Azərbaycan Kooperasiya Universiteti***
***xayalanazarova1999@gmail.com***

## HEYDƏR ƏLİYEV VƏ ONUN İQTİSADİ İNKİŞAF STRATEGİYASI

***Xülasə***

Məqalə Ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan iqtisadiyyatının inkişafındakı əvəzolunmaz rolundan, onun hakimiyyətdə olduğu illər ərzində gördüyü işlərdən bəhs edir. Məqalədə Heydər Əliyevin rəhbərliyi altında iqtisadi sahədə bir sıra qanunların qəbul edilməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin qurulması, idxal-ixrac prosesləri ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq təşkilat və birliklərə qoşulması, investisiya fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı

məsələlər qarşıya qoyulmuş, müasir Azərbaycan Respublikasının iqtisadiyyatının inkişaf etdirilməsində Heydər Əliyevin rolu öyrənilmişdir.

Azərbaycan Respublikasının iqtisadiyyatı ilə bağlı olan bu tədqiqat işində əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın iqtisadi inkişaf strategiyasının xarakterik xüsusiyyətləri, mahiyyəti, məqsədi, prioritetləri, reallaşma mexanizmlərinin formalaşması mərhələləri sistemli şəkildə təhlil edilmiş, qabaqcıl dünya ölkələrinin təcrübəsi milli reallıqlar baxımından dəyərləndirilmişdir ki, bu da son nəticədə çağdaş Azərbaycan Respublikasının davamlı və dinamik inkişafının mənbələrini, hərəkətverici qüvvələrini daha dərindən və aydın şəkildə dərk etməyə imkan vermişdir.

***Açar sözlər: aqrar islahatlar, bazar iqtisadi sistemi, özəlləşdirmə, neft strategiyası, iqtisadi inkişaf strategiyası.***

***

Ümumiyyətlə, çağdaş Azərbaycan Respublikası və onun iqtisadiyyatının inkişaf etdirilməsi dedikdə, ilk öncə ağla Ümummilli lider Heydər Əliyev gəlir. Məlumdur ki, xalqımızın son otuz illik tarixi məhz Heydər Əliyev kimi böyük bir şəxsiyyətin adı ilə bağlı olmuşdur.

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Bir dövlətin müstəqilliyini qoruyub saxlamaq, onu inkişaf etdirmək, əhalinin rifah səviyyəsini yüksəltmək üçün əvvəlcə ölkəni iqtisadi cəhətdən möhkəmləndirmək lazımdır. Məhz buna görə də Heydər Əliyev hakimiyyətə gəldikdən sonra birinci növbədə iqtisadiyyatın inkişaf etdirilməsinə diqqət yetirdi.

Heydər Əliyevin müstəqilliyimizin ilk illərində həyata keçirdiyi iqtisadi siyasət müstəqilliyimizin qorunub saxlanılması, onun daha da inkişaf etdirilməsinə istiqamətlənmişdir. 1994- cü ildən etibarən ölkəmizin bazar iqtisadiyyatına keçməsi ilə bağlı bir sıra işlər, o cümlədən, müəyyən qanunlar qəbul edilməyə başlandı. 1991-1995-ci illər arasında Milli Məclis tərəfindən aqrar sahə ilə, torpağın özəlləşdirilməsi ilə bağlı olan qanunlar: “Torpaq məcəlləsi”, “Aqrar islahatların əsas istiqamətləri haqqında”, “Kəndli təsərrüfatları haqqında”, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Torpaq vergisi haqqında”, “Kolxoz və sovxozların islahatı haqqında”, “Mülkiyyət haqqında”, “İcarə haqqında” və b. qəbul edilmişdir [3, s. 14].

Bazar iqtisadiyyatına keçdikdən sonra bir sıra vacib məsələlər həll edilməyə başlandı. Müstəqillik dövrü üçün xarakterik olan yeni iqtisadi sistemin yaradılması Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə cavab verməsini əsas amil kimi plana çıxardı.1995- ci il 29 sentyabr tarixli Azərbaycan Respublikası Qanunu ilə “Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı” təsdiq edildi. Bu Qanuna görə ləğv edilmiş dövlət şirkətlərinin tabeliyində olan, dövlət əhəmiyyətli tikinti və inşaat materialları istehsal edən və satan müəssisə və təşkilatlar Səhmdar Cəmiyyətlərinə çevrildilər. Müstəqillik əldə edildikdən sonra bazar iqtisadiyyatına keçilməsi Azərbaycan iqtisadiyyatının sürətli inkişafına təkan verdi. Bazar iqtisadiyyatına keçidin ilk dövrlərində yaradılan əlverişli şəraitlə bağlı olaraq xarici investisiyalar cəlb olunmağa başlandı [4, s. 19-23].

“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”- Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkə iqtisadiyyatını inkişaf etdirməyi prioritet məsələ kimi qarşıya qoydu. Ümumiyyətlə, dağılmış iqtisadiyyatı bərpa etmək və onu inkişaf etdirmək olduqca çətindir və bunun üçün xeyli maliyyə vəsaiti tələb olunur. Buna baxmayaraq, Heydər Əliyev heç nədən çəkinmədən iqtisadiyyatı inkişaf etdirmək üçün köklü dəyişikliklər etmiş, islahatlar həyata keçirmişdir. Belə ki, uzun illər ərzində istifadəsiz qalaraq yararsız hala düşən sənaye müəssisələri özəlləşdirilərək sahibkarlar tərəfindən yenidən bərpa olundu və özəlləşdirmə prosesi nəticəsində əldə edilmiş maliyyə vəsaitləri isə dövlət büdcəsinə daxil olaraq sənaye və digər sahələrin inkişaf etdirilməsinə yönəldilirdi [6, s. 54]. Bu özəlləşdirilmə prosesi nəticəsində əldə olunmuş maliyyə vəsaitləri yerli sitehsal və xidmət müəssisələrinin inkişafı üçün istifadə edildi. Lakin bütün bunlar ölkənin iqtisadi inkişafında ciddi bir dəyişiklik yarada bilmədi.

Xarici investisiyaların ölkəyə cəlb edilməsi, investisiya çatışmazlığının aradan qaldırılması üçün bir sıra vacib islahat və tədbirlərin həyata keçirilməsi zəruri bir şərt kimi meydana çıxdı.

Bunun üçün ən mühüm çıxış yolu isə neft sahəsinin inkişaf etdirilməsi oldu. Bütün bunların nəticəsində isə Heydər Əliyev özünün neft strategiyasını formalaşdırmağa başladı.

Bu strategiyanın mahiyyəti Azərbaycan Respublikasının təbii sərvətləri olan neft-qaz ehtiyatlarını xarici olkələrə hasil edərək onu xarici bazarlarda satmaq və əldə edilən gəliri isə ölkənin iqtisadiyyatını dirçəltməyə yönəltməkdən ibarət idi [3, s. 10].

Ötən əsrin 90-cı illərindən etibarən bütün dünyada neft sənayesi ilə bağlı güclü bir rəqabət yaranmışdır. Bir çox xarici ölkələr neft sahəsinə böyük həcmdə investisiyaların cəlb edilməsində olduqca maraqlı idilər. Həmin illərdə Azərbaycanda da bu sənaye sahəsinə olduqca böyük maraq var idi. Buna baxmayaraq müstəqilliyimizin ilk illərində Qərbin nüfuzlu neft şirkətləri Azərbaycan neft sənayesinə sərmayə qoymaq istəmir və bunu çox riskli hesab edirdilər. Lakin Ulu öndər Heydər Əliyevin yürütdüyü uğurlu siyasət xarici ölkələrin inamını qazandı. Heydər Əliyev 1994-cü il fevralın 4- də "Azərbaycan neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Fərman imzaladı [5, s. 81-84].

Xarici sərmayə qoymadan iqtisadiyyatı bərpa etmək və inkişaf etdirmək qeyri-mümkündür. Bunu düzgün qiymətləndirməyi bacaran Heydər Əliyev ölkənin təbii sərvətlərini istifadəyə vermək üçün xarici ölkələrin neft şirkətləri ilə əməkdaşlıq qurmağa başladı. Xəzər dənizinin Azərbaycan sektoruna aid olan hissəsindən çıxarılan neft-qaz ehtiyatlarını istismar edərək xalqın istifadəsinə vermək və onu dünya bazarlarına çıxarmaq üçün xarici neft şirkətləri ilə neft sazişi imzalandı [6, s. 54].

1994-cü il sentyabr ayının 20-sində "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə neft sazişi bağlandı. Bu müqavilənin bağlanması və onun həyata keçirilməsi müasir Azərbaycan iqtisadiyyatının inkişafının əsas özəyini təşkil edir. Azərbaycan Respublikasının "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi üzrə 7 ölkənin 11 məşhur şirkəti ilə "Əsrin müqaviləsi" adlandırılan saziş imzalandı. Bu müqavilənin olduqca böyük əhəmiyyəti var idi. Dünyanın ən məşhur neft şirkətləri ilə bağlanmış bu müqavilə nəticəsində ölkəyə külli miqdarda xarici investisiya axını baş verdi.

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası hal-hazırkı və gələcək Azərbaycan Respublikasının iqtisadiyyatının daha da inkişaf etdirilməsinin memarı kimi qeyd edilir. Neft sazişi bağlandıqdan sonra onun nəticələri 2004-cü ildən sonra özünü əsaslı şəkildə büruzə verməyə başladı. "Əsrin müqaviləsi"nə əsasən ölkəyə qoyulmuş xarici investisiyalardan düzgün şəkildə istifadə edilməsi üçün Dövlət Neft Fondu yaradıldı.

Ümummilli lider Heydər Əliyev 1999-cu il 29 dekabr tarixli "Azərbaycan Respublikasında Dövlət Neft Fondunun yaradılması haqqında" Fərman imzaladı. Bunun əsas məqsədi güclü iqtisadiyyat yaratmaq, iqtisadi inkişaf dinamikasını inkişaf etdirmək və qoruyub saxlamaq, xalqın rifah səviyyəsini yüksəltməkdən ibarət idi. Dövlət Neft Fondunun yaradılmasında əsas məqsədlərdən biri isə neftin dünya bazarlarında qiymətinin kəskin şəkildə dəyişilməsi dövründə dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığı təmin etməkdir. Dövlət Neft Fondunun yaradılması da Heydər Əliyevin neft strategiyasının əsas tərkib hissələrindən biri idi [2, s. 36-37].

Ölkənin müstəqilliyini müəyyən edən əsas meyarlardan biri də inkişaf etmiş iqtisadiyyata malik olmasıdır. Ulu öndər Heydər Əliyevin iqtisadi və sosial islahatlar proqramlarında keçid dövrü üçün maliyyə nəzarətinin pioritetliyi, vergi yükünün azaldılması, ünvanlı sosial təminat sisteminin tətbiqi, pensiya islahatları, əhalinin sosial-əmək münasibətlərinin bazar iqtisadiyyatı şəraitində nizamlanmasında, onların sosial müdafiəsinin gücləndirilməsində xüsusi əhmiyyətə malikdir. Heydər Əliyevin 1993-2003-cü illərdə imza atdığı bütün beynəlxalq müqavilələrdə Azərbaycanın milli maraqları birinci əsas şərt kimi irəliyə sürülmüşdür. Azərbaycanın xarici ölkələrlə bütün kontraktları şirkət səviyyəsində olmaqla yanaşı, dövlət təminatı ilə həll edilir. Belə ki, "Əsrin müqaviləsi"ndə xarici ölkələrin şirkətləri ilə bağlanan müqavilələr zamanı Heydər Əliyev demişdir: "Siz öz şirkətinizin marağını güdürsünüz, biz isə milli dövlətin marağını təmin etməliyik" [2, s. 87-89].

Onu da qeyd etmək lazımdır kı, ölkə iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə 1997-ci ildən etibarən müəyyən proqram və proqram məqsədli islahatlar həyata keçirilmışdır ki, onun əsası da Heydər Əliyev tərəfindən qoyulmuşdur.

"Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı ölkənin

qeyri-neft sektorunun inkişafı üçün mühüm əhəmiyyətə malikdir.Ümumiyyətlə, Azərbaycan Respublikasında həyata keçirilən bu islahatlar iqtisadiyyatın inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Əsası Heydər Əliyev tərəfindən qoyulan, 2003-2012-ci illəri əhatə edən uzunmüddətli iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, çoxlu sayda yeni iş yerləri yaradılmış, əhalinin məşğulluq səviyyəsi xeyli artmış, yoxsulluq isə nəzərəçarpacaq dərəcədə azalmışdır [1, s. 5-6].

Beləliklə, aparılan tədqiqat nəticəsində belə bir nəticəyə gəlmək olar ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının iqtisadiyyatının inkişaf etdirilməsindəki xidmətləri haqqında kifayət qədər kitab yazılmış, tədqiqat işləri aparılmışdır. Azərbaycan Respublikasının milli iqtisadiyyatının yaradılmasında və inkişaf etdirilməsində Ulu öndər Heydər Əliyevin müstəsna rolu vardır. Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkənin inkişafı üçün vacib işlər görmüşdür. O, haqlı olaraq qeyd edirdi ki, bir ölkənin öz müstəqilliyini qoruyub saxlaması və inkişaf etməsi üçün birinci mühim amil iqtisadi müstəqillikdir. Buna baxmayaraq, müstəqilliyin ilk illərində Azərbaycan iqtisadi baxımdan olduqca zəif idi. Buna görə də Heydər Əliyev iqtisadiyyatı inkişaf etdirmək üçün neft strategiyasını formalaşdırdı. Azərbaycan Respublikasının tarixində olduqca əhəmiyyətli yer tutan "Əsrin müqaviləsi"nəticəsində Xəzər dənizinin Azərbaycan sektoruna aid olan hissəsindən çıxarılan neft-qaz ehtiyatları dünya neft bazarlarına ixrac olunmağa başladı. Bunun nəticəsində də əldə olunan maliyyə vəsaitləri ölkənin daxili sənaye və digər iqtisadi sahələrinin inkişaf etdirilməsi üçün sərf edilməyə başlandı.

Bundan başqa, Heydər Əliyev bir sıra iqtisadi islahatlar, dövlət proqramları qəbul etmişdir. Bunların içərisində ən vacib olanlardan biri isə "Özəlləşdirmə haqqında" Qanun olmuşdur. Belə ki, özəlləşdirmə nəticəsində yararsız halda olan bir çox dövlət müəssisə və təşkilatları özəlləşdirilərək sahibkarlara verildi. Ondan əldə olunan vəsaitlər isə digər yerli sənaye sahələrinin inkişafı üçün istifadə edilmişdir.

Ulu öndər ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə etmişdir: "Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

## ƏDƏBİYYAT


1. Azərbaycan iqtisadiyyatının aktual problemləri, Konfrans materialları, Bakı, Avropa, 2013, 476 s.
2. Muradov Ə.C.və başqaları. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası, Monoqrafiya, Bakı, Şərq-Qərb, 2019, 328 s.
3. Nuriyev X.Ə. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları, Dərs vəsaiti, Bakı, Avropa, 2013, 422 s.
4. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatı 100 ildə. IV hissə, Dərs vəsaiti, Bakı, Letterpress, 2021, 680 s.
5. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatı 100 ildə. III hissə, Dərs vəsaiti, Bakı, Letterpress, 2021, 672 s.
6. Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri, Konfrans materialları, Bakı, Biznes Universiteti nəşriyyatı, 2014, 480 s.



***Хаяла Рауф кызы Назарова***
***магистрант, АУК***
***xayalanazarova1999@gmail.com***


## Гейдар Алиев и его стратегия экономического развития


***Резюме***

Цель исследования заключается в том, чтобы рассказать о незаменимой роли общенационального лидера Гейдара Алиева в развитии современной экономики Азербайджана и

работе, которую он проделал за годы своего пребывания у власти.

Исследовательскую работу можно считать важным источником для широкого круга читателей, особенно для магистрантов и аспирантов, проводящих научные исследования по экономике Азербайджанской Республики.

В статье представлены вопросы, связанные с принятием ряда законов в области экономики под руководством Гейдара Алиева, установлением экономических отношений с зарубежными странами, вступлением Азербайджанской Республики в международные организации и объединения, связанные с импортно-экспортными процессами, развитием инвестиционной деятельности, а также изучена роль Гейдара Алиева в развитии экономики современной Азербайджанской Республики.

Таким образом, в данном исследовании были систематически проанализированы характерные черты, сущность, цель, приоритеты, этапы формирования механизмов реализации стратегии экономического развития Азербайджана, заложенной общенациональным лидером Гейдаром Алиевым и развивающимся Ильхамом Алиевым, основателем Азербайджанской Республики, оценивалась с точки зрения опыта передовых стран мира и национальных реалий, что в конечном итоге позволило более глубоко и ясно понять источники и движущие силы развития устойчивой и динамичной экономики современной Азербайджанской Республики.

***Ключевые слова: аграрная реформа, рыночная экономическая система, приватизация, нефтяная стратегия, стратегия экономического развития.***

***Khayala Rauf Nazarova***
***Master's student, ACU***
***xayalanazarova1999@gmail.com***

**Heydar Aliyev and his economic development strategy**

***Summary***

The object of the study is about the irreplaceable role of national leader Heydar Aliyev in the development of the modern Azerbaijani economy, and the work he did during the years of his power.

The study can be regarded as a significant resource for a wide readership, particularly for undergraduates and graduate students conducting scientific research related to the economy of the Republic of Azerbaijan.

In the article, the adoption of a number of legislation in the economic sector under the leadership of Heydar Aliyev, issues related to the establishment of economic relations with foreign countries, the accession of the Republic of Azerbaijan to international organizations and associations related to import-export processes, and the development of investment activities were put forward, the role of Heydar Aliyev in the development of the economy of the modern Republic of Azerbaijan has been studied.

This, in this study, the characteristic features, essence, purpose, priorities, stages of the formation of realization mechanisms of the economic development strategy of Azerbaijan, which was established by the national leader Heydar Aliyev and developed today by the founder of the Republic of Azerbaijan, Ilham Aliyev, were systematically analyzed, the experience of advanced world countries and evaluated in terms of national realities that ultimately allowed us to understand more deeply and clearly the sources and driving forces of the development of the sustainable and dynamic economy of the modern Republic of Azerbaijan.

***Key words: agrarian reforms, market economic system, privatization, oil strategy, economic development strategy.***

**UOT 338**

***Röya Mustafa qızı HÜSEYNZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***E-mail:huseynzader34@gmail.com***

# HEYDƏR ƏLİYEV SİYASƏTİNİN İQTİSADİYYATIN İNNOVASİYALI İNKİŞAFINDAKI ROLU

***Xülasə***

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında müstəsna rolu olan əvəzsiz şəxsiyyət olub. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə ölkəmizdə yeni iqtisadi yüksəliş başlandı. Müstəqillik illərində iqtisadiyyatın bütün sahələrində nailiyyətlər qazanıldı.

***Açar sözlər: inkişaf strategiyası, siyasət, iqtisadi islahatlar, iqtisadi əlaqələr***

***

Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan milli dövlətçiliyimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun mükəmməl bir məntiqdən meydana çıxdığını ortaya qoyur. Ümummilli lider nəinki ictimai, siyasi, həm də iqtisadi sahədə çox mühüm və həlledici addımlar atıb. Əminliklə söyləmək lazımdır ki, Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında müstəsna rolu olan əvəzsiz şəxsiyyət olub.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətinin iqtisadi inkişafı üçün göstərdiyi ən böyük xidmətlərdən biri məhz milli iqtisadi inkişaf modelinin formalaşdırılması oldu. Bu iqtisadi modelin əsas məqsədi isə ən müasir elmi-texniki yeniliklərin cəmiyyətin bütün sahələrində fəal tətbiqi ilə Azərbaycanı modernləşdirmək idi. Əsasını Ulu öndərin qoyduğu iqtisadi inkişaf modelinin hansı şərtlərdə formalaşdırılmasına nəzər yetirsək, Heydər Əliyevin nə dərəcədə çətin bir missiyanın öhdəsindən ustalıqla gəldiyinin şahidi olarıq.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başladı. Ulu öndər digər sahələrdə olduğu kimi bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. İlk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etdi. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı. Bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Ölkəmizdə müstəqillik illərində iqtisadiyyatın bütün sahələrində qazanılmış nailiyyətlər, yaradılmış iqtisadi, sosial, elmi-texniki, maliyyə potensialı, insan kapitalı, təhsilin dünya standartlarının tələblərinə müvafiq təşkili və idarə edilməsi, istehsal və qeyri-istehsal sahələrinin infrastrukturunun yenidən formalaşdırılması, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına Azərbaycan xalqının müasir tarixinin yaradıcısı, müstəqil dövlətimizin qurucusu Ulu öndər Heydər Əliyevin müəllifliyi və rəhbərliyi ilə həyata keçirilən islahat və inkişaf xarakterli dövlət proqramları, inkişaf konsepsiyaları və strategiyaları nəticəsində nail olunmuşdur. Müasir Azərbaycan tarixində qazanılmış ən böyük uğurlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanı inkişaf etdirməyin aydın yollarını göstərib, ən dəqiq taktika və strategiyanı müəyyən edib. Onun rəhbərliyi altında iqtisadı və dövlət idarəetmə sistemi sahəsində aparılan kompleks islahatlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlığın formalaşmasına güclü təkan verib. Uğurlu daxili və xarici siyasət nəticəsində qısa müddətdə respublikada siyasi və makroiqtisadi sabitlik bərpa edilib və bu əlverişli şəraitdə həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan Respublikası bazar iqtisadiyyatının formalaşdırılması və sahibkarlığın inkişafı sahəsində ciddi nəticələrə nail olub. Həyata keçirilən siyasi və iqtisadi tədbirlər nəticəsində ölkənin sosial-iqtisadi inkişafında, əsasən də makroiqtisadi göstəricilərdə, o cümlədən bütün istehsal və

xidmət sferalarında, xarici iqtisadi əlaqələrdə, əhalinin məşğulluğunda və büdcəyə vergi mədaxilində özəl sahibkarlığın payı ilbəil yüksəlib.[1]

Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən əsası isə bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı. Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatların mühüm istiqaməti olan özəl-ləşdirmə prosesi uğurla həyata keçirildi. 1996-cı ildən ümumi daxili məhsul istehsalı ilbəil artmağa başladı və həmin ildən etibarən dirçəliş dövrü başladı. Ulu öndərin dühası ilə 1997-ci ildən sənaye məhsullarının buraxılışında ciddi artım müşahidə edildi. Neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsulları istehsalında artım daha yüksək oldu. Digər istehsal sahələrində geriləmə meyilləri tamamilə dayandırıldı, hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru da inkişaf etdirildi. Sənayenin inkişafı ilə yanaşı, ümummilli lider ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edildi. Kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşdi, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırıldı. Bir müddət əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan daha sonra xaricə məhsul ixrac etməyə başladı. Bu da sözsüz ki, məhsul istehsalının intensiv artımı nəticəsində mümkün oldu. İdxal-ixrac əməliyyatla-rının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əla-qələri ilbəil genişləndi və inkişaf etdi. 1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə, hətta dördrəqəmli faizə qədər artması müşahidə olunduğu halda, aparılan iqtisadi islahatlar nəticəsində 1995-ci ildən sonra inflyasiyanın birrəqəmli həddə saxlanılmasına nail olundu. [2]

Azərbaycanın iqtisadi siyasətinin öncül istiqamətlərindən biri neft strategiyasının hazırlanması idi. Müəllifi ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də başlanıldı. Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edil-məsində müstəsna rol oynadı. Heydər Əliyevin özünün də vurğuladığı kimi, "Əsrin müqavilə-si"nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı. Bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaq". "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınan bu müqavilənin imzalanması və gerçəkləş-məsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfin-dən işlənilib hazırlanan yeni neft strategiyasının parlaq təzahürüdür. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının istismarını nəzərdə tutan neft müqaviləsinin imzalanması ölkəyə külli miqdarda xarici investisiyanın axınına səbəb oldu. Bu hələ sovet dövründən başlanan danışıqların, Heydər Əliyev tərəfindən atılan konkret addımlarla həyata keçirilməsi idi. Heydər Əliyev düşünülmüş strategiya tətbiq edərək xarici ölkələrin şirkətlərini Azərbaycana gətirdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı, hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun axtarılıb tapıl-ması da mühüm əhəmiyyət kəsb edirdi.

1995-96-cı illərdə yaranmış əlverişli makroiqtisadi sabitlik şəraitindən istifadə edərək, 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə - struktur islahatlar mər-hələsinə başlandı. Xüsusi Dövlət Proqramına uyğun olaraq, ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanıldı, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparıldı, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atıldı. İqtisadi islahatların mühüm istiqamətləri kimi, ölkədə özəl-ləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratdı. 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdirildi.[4]

Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəmərinin işə salınmasına nail oldu. Eyni zamanda hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqların intensivləşdirilməsi reallaşdı. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə Prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərə-

rası saziş imzaladılar. Yaradılan çoxsaylı əngəllərə baxmayaraq, ulu öndərimizin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələr dəf edildi və layihə reallaşdı. 2003-cü ildə isə kəmərin tikintisinə başlanıldı. Nəticədə Azərbaycan neftinin dünya bazarına çıxarılması reallığa çevrildi. Bununla yanaşı, Heydər Əliyev Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin də təməlini qoydu. Heydər Əliyev neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri ilə də yadda qaldı.

Ümummilli Lider Heydər Əliyevin, hər zaman aktual olan bir kəlamını qeyd etmək istərdim: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bəli, memarı Ümummilli lider Heydər Əliyevin olduğu müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə irəliyə doğru inamlı addımlar atmaqdadır. Artıq əminliklə söyləyə bilərik ki, iqtisadiyyatı güclü olan Azərbaycan istədiyi hər şeyə nail olmağı bacaran qüdrətli, demokratik, hüquqi dövlətdir. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi səlahiyyətlərinin icrasına yenicə başladığı dövrdə jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: "Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur." Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və hal-hazırda prezident İlham Əliyevin yaradıcılıqla və uğurla inkişaf etdirdiyi Azərbaycanın iqtisadi inkişaf strategiyasının formalaşması mərhələlərinin, onun sürətli inkişafını təmin edən başlıca amillərin tədqiqi və dəyərləndirilməsi Ulu öndərin iqtisadi irsinin öyrənilməsində və ölkəmizin perspektiv inkişafının prioritetlərinin, məqsəd və hədəflərinin müəyyən edilməsində, reallaşmasında müstəsna əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e15860_az.html
2. https://www.e-qanun.az/
3. HTTPS:/WWW.anl.az
4. HTTPS:/center.wordpress.com



***Роя Мустафа кызы Гусейнзаде***
***магистр, Азербайджанского Университета Кооперации***
***Электронная почта: huseynzader34@gmail.com***


### Роль политики Гейдара Алиева в инновационном развитии экономики


***Резюме***

Гейдар Алиев был бесценной личностью, сыгравшей исключительную роль в развитии экономики Азербайджана. С возвращением к власти Гейдара Алиева начался новый экономический подъем.

Достижения во всех сферах экономики нашей страны за годы независимости.



***Ключевые слова: стратегия развития, политика, экономические реформы, экономические отношения.***



***Roya Mustafa Huseynzade***
***Master of Azerbaijan Cooperation University***
***Email: huseynzader34@gmail.com***


### The role of Heydar Aliyev's policy in the innovative development of the economy


***Summary***

Heydar Aliyev was an invaluable personality who played an exceptional role in the development of Azerbaijan's economy. With the return to power of Heydar Aliyev, a new economic rise began.

Achievements in all fields of economy in our country during the years of independence



***Key words: development strategy, policy, economic reforms, economic relations.***

UOT- 33.657

***Rəşad Adil oğlu ABUDZADƏ***
***Magistrant, AKU***
***E-mail: r.abudzada@avrora.az***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SAHİBKARLIĞIN İNKİŞAFINDA ROLU

***Xülasə***

Məlumdur ki, müasir Azərbaycan tarixində qazanılmış ən böyük uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev milli varlığımızı bütövləşdirmiş, yaxın və uzaq gələcəkdə uğur qazanmağın, Azərbaycanı inkişaf etdirməyin aydın yollarını göstərmiş, ən dəqiq taktika və strategiyanı müəyyən etmişdir. Müstəqil Azərbaycanın memarı olan ulu öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Bu da onu deməyə əsas verir ki, həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial - iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Bu məqalədə məhz həmin vəzifələrin həllinə nail olmaq üçün sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafında ümummilli lider Heydər Əliyevin rolu, orta və iri həcmli müəssisələrdə daxili audit sisteminin yaranması, tətqiq edilməsi, beynəlxalq audit sisteminin araşdırılmasından, beynəlxalq prinsiplərə uyğunlaşdırılmasından bəhs edilir.

***Açar sözlər: Sahibkarlıq fəaliyyəti, maliyyə resursları, daxili audit, kənar audit,informasiya.***

***

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilik bazasının yaradılması sahəsində qəbul edilən sənədlərdə bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa hüquqi təminatın verilməsi və rəqabət mexanizminin formalaşması, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapmışdır. Bu sənədlər iqtisadiyyatın bütün sahələrini əhatə etməklə azad rəqabətin təmin olunmasına və iqtisadiyyatın dinamik inkişafına xidmət etmişdir.

Ölkə iqtisadiyyatının zamanla inkişaf etməsi şəraitində sahibkarlıq fəaliyyətinin genişlənməsi, bir sıra yeni istehsal müəssisələri, təsərrüfat subyektlərinin yaranması ilə əlaqədər böyük miqdarda maliyyə resursları, əmək, mal-material ehtiyatları cəlb edilir. Bu vəsaitlərin cəlb edilməsi ilə yanaşı, onlardan təyinatına uyğun istifadə edilməsi, şəffaflığının təmin edilməsi, eyni zamanda gələcək dövrlərdə də həmin vəsaitlərdən səmərəli istifadə edilməsi vacib məsələlərdən biridir.

Vəsaitlərin hazırkı dövrlərdə yoxlanılması və onların gələcək dövrlərdə də səmərəli istifadəsini təmin etmək məqsədi ilə müstəqil maliyyə nəzarəti formaları yaradılır. Bu maliyyə nəzarət formalarından ən geniş yayılmış və sahibkarlıq fəaliyyətinin bir növü olan audit iqtisadi subyektlərdə maliyyə nəzarətini həyata keçirərək həm sahibkarların, həm mülkiyyətçilərin, həm də dövlətin mənafeyi ilə bağlı iqtisadi məsələlərin daha effektiv həllinə kömək edir. Bir sözlə, auditin əsasını müəssisə rəhbərlərinin, onun mülkiyyətçilərinin, dövlətin marağı təşkil edir. Buna görə də auditi mülkiyyətçilərin mənafeyinin müdafiəçisi adlandırmaq olar.

Azərbaycan Respublikasında daim həyata keçirilən iqtisadi islahatlar nəticəsində audit sahəsi də durmadan inkişaf edir. Bunun sayəsində yüksək keyfiyyətli auditor hüquqi bazası yaradılmış, audit sahəsində yüksək ixtisaslı kadrlar hazırlanması, bu sahəni genişləndirmək və daim inkişafda saxlamaq üçün bir sıra tərbirlər planı hazırlanmışdır. Yeni iri müəssisələrin, onların tərkibində kiçik və orta müəssisələrin yaranması və inkişaf etdirilməsi daxili audit sisteminin vacibliyini bir daha ön plana çıxardı. Bu sahədə daxili audit sistemi daha geniş tətqiq edildi, beynəlxalq audit sistemi araşdırıldı, həmçinin beynəlxalq prinsiplərə uyğunlaşdırıldı. Çünki ölkəmizdə yaranan bu cür müəssisələri, sahibkarlığı inkişaf etdirmək, ölkə iqtisadiyyatında sağlam rəqabət mühiti yaratmaq, yeni investisiyalar cəlb etməklə iqtisadiyyatımızın inkişaf etdirilməsinin əsasında audit sistemi durur.

Hazırkı bazar iqtisadiyyatı şəraitində istehsal sahəsini genişləndirmək, yeni texnologiyalar əldə etmək, müəssisə və təşkilatların işini təkmilləşdirmək üçün vacib amillərdən biri xarici iqtisadi əlaqələr yaratmaq, xarici ölkələrin şirkətləri ilə birgə əməkdaşlıq münasibətləri qurmaq, xarici investisiyaların cəlb edilməsidir. Bunun üçün yerli və xarici iş adamlarına, sahibkarlara dövlət tərəfindən geniş imkanlar yaradılmışdır. Sahibkarlar, mülkiyyətçilər bu münasibətləri qurmamışdan əvvəl tərəf-müqabilinin maliyyə, idarəetmə imkanlarını araşdırır və öyrənir. Daha doğrusu, şirkətin maliyyə hesabatı təhlil edilməli, şirkətin mənfəəti, rəqabət qabiliyyəti, istehsal etdiyi məhsulun çeşidi, şirkətin bazarda dayanıqlığı və digər iqtisadi göstəricilər təhlil edilməlidir. Bunun üçün də dəqiq və düzgün informasiyaya ehtiyac duyulur. Belə ki, müəssisələrin xarici şirkətlərlə bu cür qarşılıqlı münasibətlərinin daimiliyi, dayanıqlı və etibarlı qurulmasının əsasını auditor rəyi təşkil edir. Çünki münasibətlərin gücləndirilməsi üçün şirkətlərin daha dolğun, daha dəqiq və etibarlı informasiyalara ehtiyacları vardır ki, bu kimi mühüm və vacib məsələnin həlli audit xidmətinin köməyi ilə əldə edilir.

Bütün bunlarla yanaşı qeyd etməliyik ki audit yalnız müəssisə və təşkilatların maliyyə nəticələrinin yoxlanılmasını deyil, həmçinin təsərrüfat subyektlərinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün tövsiyələr hazırlayaraq idarəçilərə kömək edən bir sistem kimi də başa düşülür. Eyni zamanda audit bazar iqtisadiyyatı şəraitində müəssisə və təşkilatların daha uğurlu fəaliyyət göstərməsinə, böhran vəziyyəti yarandıqda müəssisənin bu vəziyyətdən çıxmasına yollar göstərən bir sistemdir [2, səh. 3].

Müəssisə və təşkilatlarda daxili nəzarət həm ayrı-ayrı bölmələr, həm də ayrı-ayrı işçilər tərəfindən həyata keçirilir. Bu onu göstərir ki daxili nəzarət daxili auditdən daha geniş anlayışdır. Daxili auditin vəzifəsi isə daxili nəzarət sisteminə nəzarəti həyata keçirir. Müəssisə və təşkilatların fəaliyyətinin yoxlanılması kənardan təşkil olunduğu kimi daxildən də yoxlanılması mümkündür. İqtisadi subyektlərin daxildən yoxlanılmasının bri sıra mənfi və müsbət tərəfləri vardır. Belə ki, mənfi tərəflərə audit fəaliyyətinin daha məhdud çərçivədə olması, müsbət tərəflərə isə audit fəaliyyətinin sahibkarlıq xüsusiyyətini göstərməsini qeyd edə bilərik. Müəssisə və təşkilatlar daxili audit xidmətini təşkil etmək üçün "daxili audit xidməti" bölməsi yaradırlar [5].

Daxili audit sistemi müəssisə və təşkilatların idarə edimməsində ən vacib və ayrılmaz faktordur. Çünki daxili audit sistemi müəssisə və təşkilatların idarə edilməsində nəzarətetmə, idarəetmədə yol göstərici rolunu oynayır. Daxili audit müəssisə və təşkilatların idarəçilərinə yol göstərərək onları şəffaf informasiya ilə təmin edir. Beləliklə də müəssisə haqqında daha dərin və dəqiq məlumat əldə etməyə idarəçilərə kömək edir. Bununla da müəssisədə daha davamlı, daha səmərəli fəaliyyət sahəsi yaranmasına yardımcı olur.

Daxili auditin əsas məqsədi müəssisə və təşkilatların rəhbərlərinin, bununla yanaşı müəssisənin fəaliyyətində maraqlı mülkiyyətçilər, təsisçilər kimi üçüncü tərəfin maraqlarına xidmət etməkdir. Daxili audit müəssisədə mühasibat uçotu yazılışlarını yoxlayır, onu qiymətləndirir və müdiriyyətə təqdim edir, bununla yanaşı daxili audit müəssisədə xərcləri daim nəzarət altında saxlayaraq azalması yolunda, mal-material ehtiyatlarına nəzarət edərək itkilərin qarşısının alınması üçün yollar göstərir, bununla da müəssisənin səmərəliliyinin artırılmasında kömək edir [1, s. 2]. Daxili audit yalnız bu cür neqativ halları aşkar etmir, o eyni zamanda bu halların səbəbini araşdırır və aradan qaldırılması yolunda lazımi tədbirlər planı hazırlayır. Beləliklə də daxili audit müəssisə üçün yararsız xidmətlərin, bunun səbəb olduğu itkilərin, pul və mal vəsaitlərinin mənimsənilməsinin qarşısını alaraq, çətinliklər yarandığı halda lazımi təkliflər hazırlayır.

Daxili audit daxili nəzarət orqanı kimi müstəqil struktur bölməsidir və yalnız müəsisənin rəhbərlərinə tabe olaraq onların müəyyən etdiyi təlimatları yerinə yetirərək sadəcə onlara informasiya və hesabat verirlər. Daxili auditin yüksək səviyyədə təşkili müəssisə daxilində bölmə və şöbələrin, onların əməkdaşlarının işə qarşı məsuliyyətlərini artıraraq təsərüffat əməliyyatlarının icrasında mənfi halların qarşısını alır və bununla da müəssisənin fəaliyyətinin səmərəliliyini artırır. Bütün bunlarla yanaşı daxili audit kənar audit üçün əsaslı informasiya mənbəyi hesab edilir, belə ki, daxili auditin verdiyi informasiya kənar auditin müəssisənin fəaliyyəti ilə daha dərindən tanış olmasına, beləliklə də işinin asanlaşmasına əsaslı kömək etmiş olur.

Beləliklə, daxili audit müəssisə və təşkilatların tabeçiliyində olan bölmələrin fəaliyyətlərinin

daha səmərəli təşkil edilməsi üzərində daxili nəzarət formasıdır. Daxili audit müəssisələrin fəaliyyətinə dair informasiyaları hazırlamaqla yanaşı, menecerlerin Direktorlar Şurasına və digər idarəçilərə təqdim etdikləri hesabatları yoxlayaraq onların düzgünlüyünü və etibarlılığını təsdiq edirlər. Bunlarla yanaşı müəssisə rəhbərləri daxili auditorların verdiyi informasiyalardan istifadə edərək müəssisə daxilində vaxtlı-vaxtında dəyişikliklər edə bilir, müəssisənin faydalılığını artıracaq qərarlar qəbul edə bilirlər.

Azərbaycan Respublikasında təsərrüfat subyektlərinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə daxili audit xidmətinin təşkilinin və həyata keçirilməsinin hüquqi əsaslarını, daxili auditorların hüquq və vəzifələrini müəyyən edən “Daxili audit haqqında” Azərbaycan Respublikasının 332- IIIQ nömrəli Qanununa əsasən:

Daxili audit – təsərrüfat subyektlərinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqla köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyətdir [1]. Beləliklə, müasir iqtisadi şəraitdə idarəetmə fəaliyyətinin daha aktual olduğu bir dövrdə müəssisələrin idarə edilməsində daxili audit sistemi aparıcı yer tutur. Daxili auditin təşkil edilmədiyi müəssisələrdə bir sıra maliyyə səhvləri, o cümlədən dövlət büdcəsinə vergi ödənişləri kimi əhəmiyyətli əməliyyatlar zamanı bir sıra səhvlər yarana bilir ki, bu da vergi qanunvericiliyinin pozulması riskini artırır.

Müəssisələrdə daxili audit bölməsi əsasən orta və iri həcmli müəssisələrdə yaradılır. Kiçik müəssisələrdə birbaşa əlavə xərclərlə bağlı olduğu üçün bu cür müəssisələrdə daxili auditor vəzifəsi əsasən müəssisənin hər hansı bir əməkdaşına və ya kənar auditə həvalə edilir.

Daxili auditin kənar auditdən əsas fərqi müəssisədə fəaliyyət dairəsinin geniş olmasıdır. Belə ki, o müəssisədaxili münasibətlərin tənzimlənməsində, müəssisədə düzgün və çevik qərarların verilməsində, lazımi təhlillərin aparılmasında daha yaxından iştirak edir.

Daxili auditin yaranma prinsipləri müəssisənin təsis sənədlərində qeyd edilir. Daxili auditin funksiya vəzifələrini isə onu yaradan müəssisə təyin edir. Xidmətin işi daxili audit xidmətinin rəhbəri tərəfindən təsdiq edilmiş audit planı əsasında aparılır. Daxili audit bölməsinin rəhbəri auditorların rəylərini yoxlayan, auditorların təkliflərini nəzərə alaraq müvafiq qərarlar qəbul edən şəxslərdir.

Daxili auditin funksiyaları genişdir. Belə ki, daxili auditin funksiyaları əsasən səmərəliliyin qiymətləndirilməsi və ona nəzarət, xüsusi və məqsədli audit, məsləhət xidmətləri, müəssisənin fəaliyyətinin qiymətləndirilməsi ilə əlaqədar xarici mühitin auditi olaraq müəyyənləşdirilmişdir.

Səmərəliliyin qiymətləndirilməsi və ona nəzarət funksiyasını - müəssisənin və bölmələrinin fəaliyyətinə, aktivlər və öhdəliklərdən istifadəyə nəzarət, müəssisə tərəfindən təyin edilmiş müxtəlif idarəetmə qərarlarının tətbiq edilməsinə nəzarət təşkil edir.

Müəssisənin fəaliyyətinin qiymətləndirilməsi ilə əlaqədar xarici mühitin (bazarın, investisiya qoyulan müəssisənin, digər əlaqəli müəssisənin) auditi funksiyası – kənar audit və digər maraqlı tərəfləri müəssisə haqqında yetərli informasiya ilə təmin etmək üçün müəssisənin maliyyə və iqtisadi təhlillərinin aparılması, bu haqda nəticələrin formalaşdırılıb maraqlı tərəflərə təqdim edilməsidir [5].

Daxili auditorlar müəssisə rəhbərləri tərəfindən seçilir, müstəqil olub sadəcə müəssisə rəhbərinə tabe olurlar ki, bu da onların müvəffəqiyyət göstərməsinin səbəblərindən biridir. Müəssisənin fəaliyyətinin səmərəliliyinin artırılması üçün düzgün auditorun seçilməsi əsas şərtlərdən biridir ki, müvəffəqiyyətli auditor öz vəzifə borcunu dərindən bilən, etibar qazanmış, müəssisənin iqtisadi göstəriciləri ilə ətraflı tanış olan, daxili audit xidmətini yüksək səviyyədə yerinə yetirən, yetərli informasiyaları toplayıb təhlil etməyi bacaran mütəxəssislər hesab edilir. Onlar eyni zamanda fəaliyyətlərini mövcud qanunvericilik əsasında həyata keçirməli, müvafiq qayda-qanunlara riayət edərək, vəzifələrini vicdanla, şəffaf qaydada icra etməlidirlər[3,səh.319].

Daxili auditorlar vəzifələrini yerinə yetirərkən beynəlxalq davranış normalarına riayət etməlidirlər. Belə ki, vəzifələrini yerinə yetirərkən peşə şərəfini və obyektivliyini qorumalı, öz müəssisələrinin fəaliyyətinə zidd olan qeyri-qanuni fəaliyyətlərdən uzaq olmalı, müəssisə və təşkilatlarda fəaliyyətləri dövründə peşəkarlıq, mənəviyyat nümunəsi göstərməlidirlər. Daxili auditor aşağıdakı vəzifələri yerinə yetirir:

- Müəssisələrdə mövcud təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi;

- Qərar qəbulu zamanı müəssisə rəhbərlərinin istifadə etdiyi informasiyaların dəqiqliyini və düzgünlüyünü təmin etmək;

- Müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən ilkin sənədlərin,mühasibat uçotu yazılışlarının normativ aktlara uyğunlaşdırılması üzərində nəzarət;

- Müəssisələrin aktivlərinin hərəkətini daim nəzarət altında saxlayaraq, itkilərin qarşısının vaxtında alınması;

İqtisadi nöqteyi-nəzərdən ərzaq təhlükəsizliyi daha çox beynəlxalq ticarətə, ölkənin səmərəli istehsal etdiyi malların satılmasına və "müqayisəli üstünlük" prinsipinə əməl edərək, istehsal etməkdə o qədər də yaxşı olmadığı malların idxalına əsaslanır. Buna görə də ərzaq təhlükəsizliyini özü üçün kifayət qədər ərzaq istehsal etməyən, lakin dünya bazarından ərzaq almaq üçün başqa məhsulları ixrac etməklə tələb olunan pula malik olan bir ölkə təmin edə bilər. Buna görə də, ərzaq təhlükəsizliyi bəzi hallarda ixrac olunan mallar və ərzaq məhsulları arasında ticarət şərtlərindən və dünya ərzaq bazarının konyunkturasından çox asılı ola bilər. Bazardan bu asılılıq son ərzaq böhranından və qlobal ərzaq qiymətlərinin artmasından sonra güclü şəkildə hiss olunur və bəzi ölkələri daha yüksək səviyyədə özünü təmin etməyə can atmağa sövq edir.

## ƏDƏBİYYAT


1. Climate Change and Food Security for the Future (Ravindra Kumar Meena, Deepak Kumar Koli, Ganesh Kumar Koli, Ram Kishor Meena and Khemendra Choudhary), CCS Haryana Agricultural University, Hisar, Haryana (125 004), India, ICAR-Indian Agricultural Research Institute, New Delhi, Delhi (110 012), India, SKN Agriculture University, Jobner, Rajasthan, (303329), India
2. Manap, N. M. A. (2020). The Effectiveness of Food Security Dimension on Food Security in Landlocked Countries. International Journal of Modern Trends in Social Sciences, 3 (14), 116-128.
3. Zhou, Zhangyue. (2019). Global Food Security: What Matters? 10.4324/9781315406947.
4. https://www.fao.org/fileadmin/templates/faoitaly/documents/pdf/pdf_Food_Security_Cocept_Note.pdf
5. http://www.hungerexplained.org/Hungerexplained/Food_security_files/Food%20security%20-%20definitions%20and%20drivers_1.pdf

*Амина Ровшан кызы Эйвазова*
*мастер, АКУ*
*a.eyvaz@mail.ru*

**Пути укрепления продовольственной безопасности**

***Резюме***

Продовольственная самообеспеченность – это способность страны удовлетворять все потребности населения в продуктах питания только за счет собственного национального производства. В статье исследуется продовольственная безопасность стран, выявляются текущие проблемы и будущие риски в этой сфере, в результате исследуются пути обеспечения продовольственной безопасности. Кроме того, применен комплексный подход к данному вопросу, требующему многопланового исследования, путем изучения организационно-практической стороны вопроса параллельно с исследованием теоретических основ обеспечения безопасности пищевых продуктов.

***Ключевые слова: безопасность пищевых продуктов, пищевая промышленность, качественное питание, стабильность.***

*Amina Rovshan Eyvazova*
*master, ACU*
*a.eyvaz@mail.ru*

**The ways of enhansing food security**

***Summary***

Food self-sufficiency is the ability of a country to meet all the food needs of its population through its own national production alone. The article examines the food security of the countries, identifies the current problems and future risks in this area, and as a result, explores the ways of food security. In addition, a comprehensive approach was applied to this issue, which requires multi-faceted research, by examining the organizational and practical aspects of the issue in parallel with the investigation of the theoretical basis of ensuring food safety.

***Key words: food safety, food industry, quality nutrition, stability.***

**UOT 338.332**

*Hikmət ORUCOV*
*magistr, ADİU*
*Hikmetorucov95@gmail.com*

**İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN REİNTEQRASİYASI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ**

***Xülasə***

Yüksək iqtisadi potensiala sahib olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müasir inkişaf perspektivlərinin nəzəri əsasları onun regional inkişaf xüsusiyyətləri və iqtisadi inkişafı şərtləndirən amilləri ilə izah oluna bilər. Belə ki, regional inkişafın həyata keçirilməsində ilkin addım ərazinin homojenliyini müəyyənləşdirməkdir. Bu homojenliyin düzgün dəyərləndirilməsi bu sahədə mövcud problemlərin həlli üçün müvafiq tədbirlər planı işlənib hazırlanmalıdır. Məqalədə işğaldan azad olunmuş ərazilərin müasir inkişaf perspektivlərinin önəmi və praktiki əhəmiyyəti araşdırılmışdır.

***Açar sözlər: inkişaf, perspektiv, Zəngəzur, Qarabağ.***

***

"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli sərəncamında qeyd edildiyi kimi, Azərbaycan Respublikasının ərazisi 14 iqtisadi rayona bölünüb. Bu biznes sahələrindən ikisi işğal olunmuş ərazilərdə yerləşir. Onlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarıdır [7, s.18].

Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər rayonlarının hamısı Qarabağ iqtisadi rayonunun ərazisində yerləşir. Şərqi Zəngəzur iqtisadi rayonuna Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonları daxildir.

"Azərbaycan Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Fərmanına əsasən, işğaldan azad edilmiş rayonlarımızda fərdi sahibkarlıq fəaliyyətinin təşviqi, investisiya artımının sürətləndirilməsi, gömrük və vergilərin tətbiqi və s. bölgənin inkişaf prosesini daha da sürətləndirəcəkdir. Bu sektorların inkişafı üçün həm nəzəri, həm də praktiki cavablar verilməlidir ki, problemin araşdırılması üçün hər şeyi əhatə edən strategiya istifadə olunsun [1].

İşğaldan azad edilmiş ərazilərin müasir inkişaf imkanlarının nəzəri əsaslarını təsvir etmək üçün regional inkişaf xüsusiyyətləri və iqtisadi inkişafa nəzarət edən elementlərdən istifadə etmək olar. Ona görə də torpağın homojenliyinin müəyyən edilməsi regional inkişafın praktikada tətbiqi üçün ilk addımdır. Bu zaman aşağıdakı elementlərə xüsusi diqqət yetirilməlidir:

- regionun coğrafi mövqeyi;
- onun iqlim xüsusiyyətləri;
- qabaqcıl texnoloji yenilikləri tətbiq etmək potensialı;
- onun iqtisadi və insan resurslarından səmərəli istifadə potensialı;
- xidmət sektoru üçün infrastrukturun inkişaf etdirilməsi üzrə qlobal təcrübə əldə etmək potensialı və s. [4, s.29]

***Diaqram 1.***

**İşğaldan azad edilmiş ərazilərin gələcək inkişaf perspektivləri**




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az*

Elm, texnologiya və sahibkarlıq sahələrində Qarabağda və Şərqi Zəngəzurda hər bir inzibati rayon və şəhərin özünəməxsus bilik və bacarıq bazası, eləcə də özünəməxsus adət-ənənələri vardır. Bu xüsusiyyətlər onu göstərir ki, azad edilmiş ərazilərdə fəaliyyət göstərən müəssisə və təşkilatların indi və gələcəkdə regionun insan və sosial kapitalı ilə bağlı bilik aktivləri baxımından heç bir problemi olmayacaq. Əlverişli coğrafi mövqeyinə və iqlim xüsusiyyətlərinə görə işğaldan azad edilmiş ərazilər həm də tarixən mövcud olmuş və müxtəlif sənət, kənd təsərrüfatı və digər sahə-

lərdə inkişaf etmiş təhsil sisteminə malikdir. Bu sistem bu sahələrin inkişafı üçün vacib məkana çevrilmək potensialına malikdir [2, s.22].

Qarabağı və Şərqi Zəngəzuru firavan inkişafın məhsuldar mərkəzləri kimi müəyyən etmək üçün hasilatı sürətləndirmək, xərcləri azaltmaq və vaxt itkisini azaltmaq həyati əhəmiyyət kəsb edir. Bu məqsədlərə nail olmaq üçün hərtərəfli düşünülmüş fəaliyyət planının olması vacibdir. Bu, müxtəlif inkişaf yolları ilə edilə bilər.

Ərazi sistemləri, lokallaşdırılmış istehsal sistemləri, uzun məsafəli subpodratçılığa malik iri firma əsaslı aqlomerasiyalar, kütləvi istehsal və s. bu inkişaf yollarının nümayiş etdirməli olduğu əsas xüsusiyyətlərdir. İşğaldan azad edilmiş ərazilərin məhsuldar ərazilərə çevrilməsi üçün görülməli olan əsas fəaliyyət kateqoriyalarını nəzərdən keçirək [6, s.48]:

1. İlk olaraq, bu ərazilərdə tarixən mövcud olan geniş sənətkarlıq ənənələrinə əsaslanan istehsal mərkəzlərini müəyyən etmək vacibdir. Bu sahələrə rəngkarlıq və xalça istehsalı kimi sahələr daxildir.

2. Sənətkarlığın inkişafı reallaşdıqca, ənənəvi sənət üsullarını və son zamanlar bütün dünyada xüsusi diqqəti cəlb edən qabaqcıl sənət sahələrini gücləndirmək üçün addımlar atılmalıdır.

3. Resursdan çox asılı olan istehsal rayonlarını daha məhsuldar olanlarla əvəz etmək üçün ağıllı texnologiyalardan istifadə genişləndirilməlidir.

4. Böyük şəhərlərə yaxın bir neçə şəhərətrafı qəsəbələrdə və ya əvvəllər inkişaf etməmiş ərazilərdə yüksək texnologiyalı sənaye mərkəzlərinin inkişafı.

5. Böyük şəhərlərin şəhər mərkəzlərində və ya onlara yaxın inkişaf etmiş istehsal və maliyyə xidmətləri şəbəkələrinin yaradılması [3, s.90].

Mövcud texniki irəliləyişlər fonunda, bir sıra sənayelərdə inkişafın əsas mühərrikləri olan rabitə sistemlərindən istifadə etməyin bir sıra yolları mövcuddur:

İşğaldan azad edilmiş ərazilərdəki təsərrüfat və təsərrüfat subyektlərinin xalqın qalan hissəsi ilə əlaqələndirilməsi;

Sözü gedən qurumların davamlı koordinasiyasını təmin etmək üçün sistemlərin yaradılması;

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılmışların regional və beynəlxalq koordinasiyasına nail olmaq [5, s.182].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında iqtisadi əməliyyatlar baxımından, inkişaf etmiş ölkələrdə rabitə şəbəkələrinin yaradılması təcrübəsinə əsasən, rabitə sahəsində yeni texnoloji nailiyyətlər yerli və kiçik biznes üçün daha əlçatan olmalıdır, çünki, onların bu sahədəki boşluqları doldurmağa meyli daha aşağıdır. Bu, azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətlərin həyata keçirilməsi, faydalı resurslardan, maşınlardan, ticarət mallarından və "virtual pul sistemlərindən" istifadə etmək üçün tamamilə yeni çərçivənin yaradılmasında mühüm rol oynayacaq.

Şəhər mərkəzlərində qurulacaq rabitə sistemləri əhalinin struktur dəyişiklikləri ilə yanaşı, sosial, iqtisadi və mədəni baxımdan digər əhəmiyyətli dəyişiklikləri də nəzərə almalıdır. Mədəni nöqteyi-nəzərdən, yeni kommunikasiya məhsulları bu kontekstlərdə, ən azı indiki şəraitdə kommersiya əməliyyatları baxımından inteqrasiya olunmuş kommunikasiya modellərinə çevrilməlidir.

Qarabağda və digər bölgələrdə iqtisadi və sosial şəraitin inkişafı mədəni yüksəlişlə sürətləndiriləcəkdir. Bu sosial şərait hər bir yerin coğrafi kontekstində üstünlük təşkil edən mədəni elementlərin nəticəsidir.

İstənilən halda işğaldan azad edilmiş ərazilərdə diqqətlə və yaxşı planlaşdırılmış inkişaf istiqamətlərindən istifadə edilməlidir. İşğaldan əvvəl ərazidə mövcud olan idarəetmə üsullarını necə tətbiq etmək barədə düşünməklə başlamaq faydalı ola bilər. Bununla belə, qeyd etmək lazımdır ki, qloballaşma və inkişaf edən texnologiya əsrində yeni yanaşmaların yaradılmasına üstünlük verilə bilər.

Planlaşdırma iqtisadi cəhətdən homojen bir mühitin yaradılmasına diqqət yetirməlidir. İqtisadi homojenlik o zaman baş verir ki, regionun məşğulluq strukturu, peşə nümunəsi, xalis miqrasiya, əhalinin sıxlığı, resursların mövcudluğu və sənaye strukturu müqayisə oluna bilər. İqtisadçıların homogen regionlara marağı iqtisadi oxşarlıq dərəcəsi ilə artır.

Nəticə etibarı ilə, homojen iqtisadiyyata malik region müxtəlif fiziki xüsusiyyətlərə malik ola bilər. İqtisadi və ya siyasi kimi bəzi amillərə görə, bir bölgə homojen ola bilər, lakin digər pers-

pektivlərdən olduqca müxtəlif ola bilər. Azad edilmiş rayonların əhalisi öz iqtisadiyyatlarını inkişaf etdirmək üçün birlikdə çalışacaqlar ki, bu da problemin sosial tərəflərinə təsir edəcək. Bu prosedur regionun iqtisadi problemlərinin ortaq həll yolunu müəyyən etməyi asanlaşdıracaq.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası çərçivəsində yataqlara yaxın ərazilərdə bir sıra qızıl-mis yataqlarında geoloji kəşfiyyat işləri artıq başa çatdırılmış, sənaye ehtiyatları ilə bağlı narahatlıqlar dövlət balansına daxil edilmişdir. Bu baxımdan, Ağdərə rayonunun Qızılbulaq qızıl-mis-kolçedan yatağında orta hesabla 1,38% mis aşkar edilmiş yatağın sənaye istifadəsi həlledici əhəmiyyət kəsb edir.

Hesab edirik ki, işğaldan azad edilən ərazilərdə davamlı regional inkişafa nail olmaq üçün davamlı şəhər inkişafında istifadə olunan alətlərə və metodlara diqqət yetirmək çox vacibdir. Bu prosesin səmərəliliyi və Şərqi Zəngəzur və Qarabağda davamlı inkişaf siyasətinin həyata keçirilməsi həyata keçirilən yaradıcı layihələrdən asılıdır. Bununla əlaqədar olaraq, Avropada regional iqtisadiyyatların innovasiya göstəricilərini yaxşılaşdırmaq üçün aşağıdakı tədbirlər planının görülməsi vacib hesab olunur:

1. İnnovasiya prosesinin bütün mərhələlərində son istifadəçilər də daxil olmaqla tələb əsaslı yanaşma;
2. Bütün müvafiq texnologiyalar və sahələr üzrə əməkdaşlığın lazımi keyfiyyətinə və miqyasına nail olmaq üçün aktorların və səlahiyyətlilərin sistematik koordinasiyası;
3. İnnovasiyanın potensialı üzrə biliklərin inteqrasiyası;
4. Avropa Komissiyası tərəfindən müəyyən edilmiş mikro/nanoelektronika, nanotexnologiya, fotonika, qabaqcıl materiallar, sənaye biotexnologiyası və qabaqcıl istehsal texnologiyalarının tətbiqi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Bakı 2021
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/articles/50474
3. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Sərəncamı
4. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 7 iyul 2021-ci il
5. https://ru.president.az/articles.
6. "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 2010. - 270 s.
7. World Bank. 2021. Smart Villages in Azerbaijan: A Framework for Analysis and Roadmap. World Bank



***Хикмет Оруджов***
***магистр, АГУЭ***
***Hikmetorucov95@gmail.com***


**Реинтеграция и перспективы развития освобожденных от оккупации территорий**


***Резюме***

Теоретическая основа современных перспектив развития Карабахского и Восточно-Зангезурского экономических районов, обладающих высоким экономическим потенциалом, может быть объяснена особенностями его регионального развития и факторами, определяющими экономическое развитие. Таким образом, первым шагом в осуществлении регионального развития является определение однородности территории. Должна быть выработ-

тана правильная оценка этой однородности и разработан план соответствующих мероприятий по решению существующих проблем в этой области. В статье рассматривается важность и практическая значимость современных перспектив развития территорий, освобожденных от оккупации.
***Ключевые слова: развитие, перспектива, Зангазур, Карабах.***

***Hikmat Orujov***
***master, ASEU***
***Hikmetorucov95@gmail.com***

**Reintegration and development perspectives of the territories liberated from occupation**

***Summary***

The theoretical basis of the modern development prospects of Karabakh and Eastern Zangezur economic regions, which have high economic potential, can be explained by its regional development characteristics and factors determining economic development. Thus, the first step in the implementation of regional development is to determine the homogeneity of the territory. A proper assessment of this homogeneity should be developed and a plan of appropriate measures to solve the existing problems in this area should be developed. The article examines the importance and practical significance of the modern development prospects of territories freed from occupation.
***Key words: development, perspective, Zangazur, Karabakh.***

**UOT 338.43**

***Aynurə Fazil qızı ALLAHYAROVA***
***Aqrar Tədqiqatlar Mərkəzi***
***Aynurafazil@mail.ru***

## ƏRZAQ BAZARINDA TARAZLIĞIN TƏMİN EDİLMƏSİNİN İQTİSADİ VƏ İNSTİTUSİONAL ƏSASLARI

***Xülasə***

Ərzaq bazarı əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm funksiyalar yerinə yetirir. Məhz bu baxımdan ərzaq bazarında tarazlığın təmin edilməsi cəmiyyətdə sosial və siyasi sabitliyin qorunub saxlanılmasına xidmət edir. Ərzaq bazarında tarazlığın təmin edimәsinə qloballaşma şəraitində çoxsaylı amillər təsir göstərir. Bu amilləri daha çox iqtisadi və institusional aspektdən təsnifləşdirmək mümkündür. Ərzaq bazarında tarazlığın təmin edilməsinin iqtisadi və institusional aspektləri dövlətin strateji maraqlarının qorunmasında, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol alır. Məqalədə ərzaq bazarında tarazlığın təmin edilməsinin institusional və iqtisadi əsasları, eyni zamanda qloballaşma müstəvisində prosesi şərtləndirən amillər araşdırılır.
***Açar sözlər: ərzaq bazarı, tarazlıq, tələb, təklif, iqtisadi münasibətlər, liberallaşma, institusional əsaslar, liberal iqtisadiyyat.***

***

Bazar münasibətləri azad və liberal iqtsiadiyyatın ən mühüm oriyentirlərindən birini təşkil etməklə bütövlükdə bu sistemdə ərzaq bazarı əhəmiyyətli rol oynayır və ərzaq bazarının maddi əsasını kənd təsərrüfatı təşkil edir ki, bu da iqtisadiyyatın mühüm strateji əhəmiyyətli və sosial baxımdan əhəmiyyətli bir sahəsini təşkil edir. Bütövlükdə götürdükdə dövlət tərəfindən cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılması istiqamətində həyata keçirilən tədbirlər sistemində ərzaq bazarına himayəçiliyin tətbiq edilməsi və bütövlükdə ərzaq bazarında tarazlığın təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bir sıra iqtisadçı alimlərin fikrincə, ərzaq bazarı anlayışına xüsusi yanaşma özünü daha çox büruzə verir. Bir qrup müəlliflərdən, o cümlədən A.A.Tomovun, R.R.Avanesovanın və O.P.Nikiforovanın fikrincə, bütövlükdə ərzaq bazarına iqtisadi münasibətlər

sisteminin mühüm tərkib hissəsi kimi yanaşılmalı və bu kompleks sahələri əhatə etməlidir. Xüsusilə istehsal, məhsulun daşınması, saxlanması və reallaşdırılması sahəsində ərzaq bazarı iqtisadi münasibətlər sisteminin ən mühüm tərkib hissəsini təşkil edir. Adı çəkilən müəlliflər xüsusilə qeyd edirlər ki, bu sistemdə özünütənzimləmə mexanizminə daha çox üstünlük verilməsi əslində iqtisadi inkişafda müəyyən risklərin yaranmasına və bir sıra hallarda dayanıqlığın pozulmasına da gətirib çıxara bilir [5, s.13, 3. s.65].

Y.B.Kostrovanın fikrincə, ərzaq bazarı ümummilli bazarın mühüm tərkib hissəsini təşkil etdiyindən bütövlükdə iqtisadi inkişaf üçün xarakterik olan ümumi qanunauyğunluqlar ərzaq bazarına da şamil edilir. Lakin bununla belə ərzaq bazarının maddi əsasını kənd təsərrüfatı təşkil etdiyindən və kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyətləri də mövcud olduğundan bütövlükdə ərzaq bazarı üçün spesifik iqtisadi qanunauyğunluqlar mövcuddur ki, bu iqtisadi qanunauyğunluqlar da ilk növbədə cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılmasına və ərzaq bazarında tarazlığın təmin edilməsinə əsaslanır. Ümumiyyətlə ərzaq bazarı üçün xarakterik olan iqtisadi qanunauyğunluqlar ilk növbədə ərzaq bazarında tarazlığın təmin edilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinin əsasını təşkil edir. [2. s. 7].

Ərzaq bazarının tədqiqi ilə bağlı uzun müddət tədqiqatlar aparmış S.U.Nuraliyevin fikrincə, ərzaq bazarında iqtisadi qanunauyğunluqlar əhəmiyyətli rol təşkil etməklə bütövlükdə ərzaq bazarında məhsulun reallaşdırılmasına öz təsirini göstərir. Başqa bazarlardan fərqli olaraq ərzaq bazarının obyektləri və subyektləri kifayət qədər müxtəliflik təşkil etdiyindən və eləcə də ərzaq bazarı daha çox təbii iqlim xüsusiyyətlərindən asılı olmaqla kənd təsərrüfatında əmtəə təklifinə öz təsirini göstərdiyindən bütövlükdə ərzaq bazarına xüsusi yanaşmanın tətbiq edilməsi, istər iqtisadi və istərsə də idarəetmə qərarlarının qəbul edilməsində bu bazarın özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması vacib şərtlərdəndir. Onu da nəzərə almaq lazımdır ki, vahid iqtisadi coğrafi məkanda yerləşməsindən asılı olmayaraq ərzaq bazarının özünəməxsus regional xüsusiyyətləri mövcuddur və bu bazarda alıcılıq qabiliyyəti, tələb və əmtəə təklifinin xarakterik xüsusiyyətləri əhəmiyyətli rol oynayır [4. s.8].

Ərzaq bazarında tarazlığın təmin edilməsinə yuxarıda qeyd etdiyimiz kimi müxtəlif amillər təsir göstərir və həmin amillərin toplusu bütövlükdə ərzaq bazarında müxtəlif formada təzahür imkanlarına malik olur. Problemə bu aspektdən yanaşdıqda qeyd etmək lazımdır ki, ərzaq bazarında əsas iqtisadi qanunlar kimi bilavasitə ekvalent mübadilə, dəyər qanunu və bütövlükdə əmtəə-pul münasibətlərini özündə əks etdirən qanunauyğunluqlar əsas rol oynayır. Ərzaq bazarının formalaşmasında adı çəkilən qanunauyğunluqlar mühüm əhəmiyyət kəsb etməklə yanaşı, eyni zamanda bu qanunauyğunluqlar bazar özünütənzimləməsi prosesinin tərkib hissəsini də təşkil edir və bütövlükdə ərzaq bazarında tarazlığın təmin edilməsi əsas etibarilə tələbin və təklifin xarakterindəki dəyişikliklərdən bilavasitə asılı olur. Ərzaq bazarında tələblə təklif arasındakı iqtisadi tarazlığın və sosial tarazlığın təmin edilməsi cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılması üçün vacib şərtlərdən biri hesab edilir və problemə bu aspektdən yanaşdıqda ilk növbədə kənd təsərrüfatı və emal sənayesinin mövcud vəziyyətini, eləcə də cəmiyyət üzvlərinin alıcılıq qabiliyyəti tələbinin mövcud durumunu da nəzərə almaq vacib şərtlərdən biri hesab edilir.

Ərzaq bazarında tarazlığın təmin edilməsinə kifayət qədər kompleks aspektdən yanaşılması özünü daha çox doğruldardı. Belə ki, ərzaq bazarına yalnız tələb və təklifin mövcud durumundakı dəyişikliklərin məcmusu ilə yanaşı eyni zamanda ərzaq bazarının infrastrukturunun mövcud vəziyyətini də aid etmək daha doğru olardı ki, bu da ərzaq bazarında tarazlığa öz təsirini göstərmək imkanına malikdir.

Qeyd etmək lazımdır ki, müasir şəraitdə ərzaq bazarında tarazlığın təmin edilməsi kifayət qədər mürəkkəb bir problemi özündə əks etdirir. Problemin mürəkkəbliyini xarakterizə edən amillərdən biri də ondan ibarətdir ki, yuxarıda qeyd etdiyimiz kimi ərzaq bazarında hazırkı şəraitdə kifayət qədər çoxsaylı subyektlər iştirak edir ki, həmin subyektlərin də özünəməxsus maraqları mövcuddur və bu maraqların təmin olunması, daha doğrusu korporativ maraqların aspektindən yanaşdıqda bütövlükdə makrosəviyyədə ərzaq bazarında tarazlığın təmin edilməsində kifayət qədər problemlər yaranır. Belə ki, müasir ərzaq bazarında əsas etibarı ilə ərzaq bazarının subyektini təşkil edən ayrı-ayrı müəssisələr, o cümlədən özəl təsərrüfatlar, müəssisələr, dövlət qurumları, eləcə də sahəvi

assosiasiyalar, maliyyə kapitalı, bundan əlavə beynəlxalq korporasiyalar əhəmiyyətli subyekt kimi iştirak etmək imkanlarına malikdir. Onu da nəzərə almaq lazımdır ki, iqtisadiyyatın liberallaşdırıldığı və qloballaşma prosesinin dərinləşdiyi şəraitdə bütövlükdə ərzaq bazarını daxili sərhədlər şəraitində qurmaq və formalaşdırmaq, eləcə də inkişaf etdirmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın qloballaşdığı şəraitdə xarici iqtisadi əlaqələr kontekstindən yanaşdıqda ərzaq bazarına xarici amillər, daha doğrusu idxal-ixrac amilləri də əhəmiyyətli dərəcədə təsir göstərir. Bütövlükdə ərzaq bazarına təsir göstərən qlobal amillər daha çox iqtisadiyyatın qloballaşması və ölkənin beynəlxalq münasibətlər sisteminin subyekti kimi çıxış etməsi ölkənin beynəlxalq bazarda mühüm rol oynaması ilə sırf bağlıdır. Nəzərə almaq lazımdır ki, bazar münasibətləri şəraitində hər bir müəssisənin, hər bir sahənin, hər bir regionun özünəməxsus maraqları və idarəetmə xüsusiyyətləri və prosesləri mövcuddur və bu aspektdən yanaşdıqda konkret rəqabət mühiti əsasında həmin təsərrüfat subyektlərinin, eləcə də sahələrin və digər qurumların maraqlarının qorunması prosesi kifayət qədər mürəkkəb xarakter daşıyır və eləcə də ayrı-ayrı təsərrüfat subyektləri tərəfindən istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi də bu aspektdə özünü kəskin şəkildə büruzə verir.

Aparılan araşdırmalar göstərir ki, istər milli iqtisadiyyatın aqrar sektorunda və eləcə də aqrar sektorla bağlı qarşılıqlı əlaqəyə malik olan digər sahələrdə və eləcə də maliyyə-kredit, bank sektoru sahəsindəki qurumların mənafeləri də ərzaq bazarına kifayət qədər təsirsiz ötüşmür, eyni zamanda ərzaq bazarında müxtəlif kateqoriyalardan olan istehlakçı təbəqələri iştirak edir və həmin təbəqələr bütövlükdə məhsulun bölüşdürülməsi və mübadiləsi sferasına təsir göstərmək imkanlarına malikdir. Beləliklə, əslində ərzaq bazarında iştirakçıların sayının çoxluğu, subyektlərin maraqlarının kifayət qədər fərqli olması ərzaq bazarında tarazlığın təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir və bu aspektdən yanaşdıqda ərzaq bazarında tarazlığın təmin edilməsinin regional-iqtisadi mexanizmləri formalaşır. Əslində regional iqtisadi mexanizmlərin formalaşması zamanı başlıca maraq ölkənin strateji maraqları aspektində əhəmiyyət kəsb edir. Lakin bununla belə strateji maraqlarla yanaşı ərzaq bazarında iştirakçı təbəqələrin, eləcə də istehlakçıların infrastruktur qurumlarının, maliyyə-kapital sahiblərinin də maraqları öz təsirini göstərir və bu aspektdə ərzaq bazarında tarazlığın təmin edilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi və eyni zamanda zəruri müdaxilələrin həyata keçirilməsi vacib şərtlərdən biri hesab edilir və bütün bunlar bütövlükdə ölkənin ərzaq müstəqilliyinin qorunmasına istiqamətlənmiş başlıca tədbir kimi dəyərləndirilməlidir.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin mürəkkəbliyini xarakterizə edən ən mühüm cəhətlərdən biri də ərzaq bazarının maddi əsasını təşkil edən kənd təsərrüfatı sahəsidir. Kənd təsərrüfatı iqtisadiyyatın digər sahələrindən fərqli olaraq kifayət qədər müxtəlif xüsusiyyətlərə malik olan təbii iqlim şəraitində formalaşır və təbii iqlim şəraitinin fərqli olması və kənd təsərrüfatının ümumiyyətlə torpaq-iqlim xüsusiyyətlərindən asılı olması bütövlükdə kənd təsərrüfatında məhsul istehsalının mövcud durumuna öz təsirini göstərir və bundan əlavə mövsümlüyün və digər bu kimi şərtlərin məcmusu son nəticədə ərzaq bazarında müxtəlif dəyişikliklərin və daha doğrusu təklif tərəddüdlərinin yaranmasına gətirib çıxarır.

Rusiya kənd təsərrüfatı Elmlər Akademiyasının akademiki E.N.Krılatıxın fikrincə, ərzaq bazarında tarazlığın təmin edilməsinə kifayət qədər iqtisadi və institusional aspektdə yanraşılması vacibdir. Bütün bunları müəllif onunla izah edir ki, kənd təsərrüfatı və ərzaq məhsullarının son istehlakçı təbəqəsinə çatdırılması müxtəlif vasitələrdən və müxtəlif maraqlara malik olan subyektlərin qarşılıqlı münasibətləri sistemindən asılı olur. Belə ki, bu zaman birja, topdan və pərakəndə ticarət qurumlarının maraqları və eləcə də logistika və informasiya şəbəkələrinə və digər bu kimi bazar konyunkturuna təsir edən subyektlərin fəaliyyəti əhəmiyyətli dərəcədə təsir gücünə malikdir və bütün bunlar da təbii ki, ərzaq bazarında tarazlığın təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müəllif bu aspektdən yanaşaraq ərzaq bazarında əsas etibarı ilə üç baza tərkib elementini səsləndirməyi vacib sayır ki, bu da bütövlükdə ərzaq bazarında tarazlığın təmin edilməsində əhəmiyyətli faktorlardan biri sayılır.

Aşağıda adı çəkilən üç baza elementi ərzaq bazarında tarazlığa əhəmiyyətli dərəcədə təsir göstərmək imkanına malikdir və qiymətlərin səviyyəsinin dəyişməsində önəmli rol oynayır və eləcə də ərzaq

bazarında konyunktur dalğalanmalarını əslində yönəldir.

Bunlardan birincisi ərzaq bazarının subyektləridir, daha doğrusu satıcılar (məhsulun istehsalçıları və ya vasitəçilər, eləcə də alıcılar, daha doğrusu, topdansatış və pərakəndə satış qurumları, emal müəssisələri, məhsulun saxlanması ilə bağlı fəaliyyət göstərən anbar təsərrüfatları, əhali və dövlət müəssisələridir). Adı çəkilən subyektlər əslində ərzaq bazarında təklifi və tələbi formalaşdıran qurumlar kimi çıxış edir. Bütövlükdə göründüyü kimi istər tələb və istərsə də təklifin daşıyıcıları olan qurumların sayının çoxluğu bütövlükdə ərzaq bazarında fərqli situasiyaların yaranmasına gətirib çıxarır və daha çox bu prosesdən vasitəçilər gəlir əldə etməyə çalışırlar və bütövlükdə ərzaq bazarında əslində qiymətlərin səviyyəsinin yüksəlməsi bir sıra hallarda istehsalçıdan daha çox müxtəlif vasitəçi qurumların maraqları doğrultusunda baş verir və bu da konyunktur dalğalanmalarına öz təsirini göstərməklə tarazlığın bu və ya digər şəkildə tərəddüdlərinə gətirib çıxarır.

İkincisi, ərzaq bazarında fəaliyyətin institusional əsasları. Bu, əsas etibarilə qanunvericilik aktları, ticarət şərtləri, eləcə də bazar konyunkturunun tənzimlənməsini həyata keçirən orqanlar və qurumların fəaliyyəti və tənzimləmənin forma və metodları ilə sıx bağlıdır.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin üçüncü baza elementi ərzaq bazarının infrastrukturu ilə bağlıdır. Bura ilk növbədə maddi-texniki və təşkilati qurumlar, o cümlədən məhsul tədarükü ilə bağlı fəaliyyət göstərən subyektlər, o cümlədən məhsulun daşınması, saxlanması və satışı ilə bağlı fəaliyyət göstərən qurumları, birja, topdansatış strukturlarını, pərakəndə satış şəbəkələrini, eləcə də satıcılar və alıcılar arasındakı maliyyə hesablaşmaları sistemini, informasiya və marketinq xidmətlərini aid etmək olar [1. s.9]

Müəllifin fikirlərindən tamamilə haqlı olaraq belə qənaətə gəlmək olar ki, ərzaq bazarının subyektlərinin özünəməxsus spesifik maraqları, konyunktur dalğalanmaları da əhəmiyyətli rol oynayır. Bununla belə ərzaq bazarının ikinci baza elementi kimi tarazlığa təsir göstərən vasitəçi hesab olunan institusional əsaslar bütövlükdə ərzaq bazarında zəruri dəyişikliklərin yaranmasına gətirib çıxarır. Bu ilk növbədə qanuvericilik aktları və eləcə də beynəlxalq ticarət şərtlərinin dəyişməsi ilə bağlıdır. Məhz bu aspektdən yanaşdıqda ərzaq bazarında konyunktur dalğalanmalarının tənzimlənməsi istiqamətində fəaliyyət göstərən qurumların fəaliyyətinin də çevikləşdirilməsi və fəallaşdırılması bütövlükdə ərzaq bazarında konyunktur dalğalanmalarının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edə bilər.

## ƏDƏBİYYAT


1. Крылатых Э.Н. Агропродовольственные системы: исследование процессов интеграции, конкуренции, инновации. М., 2006. 219 с.
2. Кострова Ю.Б.. Анализ продовольственного рынка России. Монография. Санкт-Петербург, 2014, 184 с.
3. Никифорова О.П., Антохова, И.В. Проблемы развития продовольственного рынка региона в системе межрегионального и международного обмена II Вестник Бурятского Государственного Университета. - 2010. - №2. - С.67-70.
4. Нуралиев С.У.. Продовольственный рынок: проблемы становления и перспективы развития. 2003. 278 с.
5. Томов А.А., Р.Р.Аванесова. Продовольственный рынок региона как объект стратегического управления. Вестник Орембургского Государственного Университета № 5, 2010, 13 с.



***Айнура Фазиль кызы Аллахьярова***
***Центр аграрных исследований***
***Айнурафазил@mail.ru***


## Экономические и институциональные основы обеспечения равновесия на рынке продовольствия

### *Резюме*


Рынок продовольствия выполняет важные функции в удовлетворении спроса населения на продукты питания. Именно с этой точки зрения обеспечение баланса на рынке продо-

вольствия служит сохранению социальной и политической стабильности в обществе. На обеспечение баланса на рынке продовольствия в условиях глобализации влияет множество факторов. Эти факторы можно классифицировать больше с экономической и институциональной точек зрения. Экономические и институциональные аспекты обеспечения баланса на рынке продовольствия играют важную роль в защите стратегических интересов государства, в том числе в обеспечении продовольственной безопасности. В статье рассматриваются институциональные и экономические основы обеспечения равновесия на рынке продовольствия, а также факторы, определяющие процесс на уровне глобализации.
***Ключевые слова: продовольственный рынок, равновесие, спрос, предложение, экономические отношения, либерализация, институциональные основы, либеральная экономика.***

***Aynura Fazil Allahyarova***
***Agrarian Research Center***
***Aynurafazil@mail.ru***

**Economic and institutional foundations of ensuring equilibrium in the food market**

***Summary***

The food market performs important functions in meeting the population's demand for food products. It is from this point of view that ensuring balance in the food market serves to preserve social and political stability in society. Many factors influence the provision of balance in the food market in the context of globalization. It is possible to classify these factors more from economic and institutional aspects. The economic and institutional aspects of ensuring balance in the food market play an important role in protecting the strategic interests of the state, including ensuring food security. The article examines the institutional and economic foundations of ensuring balance in the food market, as well as the factors determining the process at the level of globalization.
***Key words: food market, equilibrium, demand, supply, economic relations, liberalization, institutional foundations, liberal economy.***

**UOT 336.004.384**

***Cəfər Rakif oğlu ABBASOV***
***Magistr, ADİU***
***jaf.abbas99@gmail.com***

## RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ ELEKTRON HÖKUMƏT

***Xülasə***

Dövlət maliyyə nəzarətinin və rəqəmsal transformasiyanın konkret obyekti kimi çıxış edən müəssisə və təşkilatların tədqiqi bu sahədə gələcəkdə atıla biləcək addımlar baxımından olduqca önəmlidir. Məhz rəqəmsal transformasiyanın idarə edilməsinin praktiki aspektlərini və təşkilatların rəqəmsal texnologiyaların tətbiqi imkanlarını öyrənərək ayrı-ayrı müəssisələrin və dövlətlərin fəaliyyətində səmərəliliyi artırmaq mümkündür. Məqalədə məhz rəqəmsal transformasiyanın dövlət maliyyə nəzarəti mexanizmlərinə təsiri araşdırılmış və Elektron Hökumətin bu prosesdəki yeri müəyyənləşdirilmişdir.
***Açar sözlər: rəqəmsal transformasiya, maliyyə, elektron hökumət.***

***

İnformasiya texnologiyalarının davamlı inkişafı yeni və olduqca mürəkkəb sistemlərin yaranmasına səbəb olur. İnsanların gündəlik davranışlarından tutmuş, dövlət idarəetmə sistemlərinə qədər həyatımızın bütün aspektləri bu inkişafın təsirinə bu və ya digər şəkildə məruz qalır. İnfor-

masiya texnologiyalarının idarəetmə sistemləri nə nəzarət mexanizləri nöqteyi-nəzərdən komplekt ləşdirilməsi ortaya çıxan yeni konfiqurasiyaların tətbiq imkanları ilə bağlı yeni məsələləri ortaya qoyur.

Rəqəmsal transformasiya vasitələrinin tətbiqinin hətta ən ənənəvi sənaye sahələrində belə yayılması geniş iş imkanları və təhdidləri yaratdığının aydın göstəricisi idi. Tapşırıqların və proseslərin rəqəmsallaşdırılması müəssisə və təşkilatların rəqabətqabiliyyətliliyi baxımından da olduqca önəmli bir faktora çevrildi [2, s.101].

Rəqəmsal transformasiyanın tədqiqatında müəyyən edilən bir sıra əsas istiqamətlər vardır. Onları aşaıdakı kimi ümumiləşdirə bilərik:

- Rəqəmsal transformasiyanın sürətləndirilməsinə təsir edən əlavə amillərin axtarışı;
- Rəqəmsal transformasiyanın təşkilat üçün yarada biləcəyi yeni risklərin müəyyən edilməsi;
- Şərtlərin müəyyən edilməsi;
- Məhdudiyyətlərin aradan qaldırılması;
- Rəqəmsal transformasiyanın müxtəlif mərhələlərində təşkilatlarda yeni fəaliyyət növlərinin yaradılması şərtlərinin müəyyən edilməsi;
- Rəqəmsal transformasiyanın bütün mərhələlərində dövlət idarəetməsi və təşkilatlarla qarşılıqlı əlaqəyə tövsiyə olunan yanaşmaların formalaşdırılması;

– Rəqəmsal transformasiyanın həyata keçirilməsindən əvvəl onun iqtisadi effektinin qiymətləndirilməsi [4, s.54].

Rəqəmsal transformasiya nəticəsində biznes modeli innovasiyası istehlakçıların gözləntilərini və davranışlarını əsaslı şəkildə dəyişdirdi, ənənəvi firmalara təzyiq göstərdi və bazardakı çoxsaylı firmaların ya dəyişilməsinə, ya da bazardan çıxmasına səbəb oldu.

Bütün bu proseslərin nəticəsində də dövlətlərin maliyyə nəzarəti ilə bağlı strategiyalarında ciddi dəyişikliklər müşahidə edilməyə başlandı. Maliyyə təhlükəsizliyi ilə bağlı təhdidlərin minimuma endirilməsi məqsədilə dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri də Dövlət Maliyyə Nəzarətinin (DMN) təkmilləşdirilməsidir.

Dövlət maliyyə nəzarətinin əhatə etdiyi əsas məqamlara aşağıdakılar aiddir:

- İqtisadi çətinliklər zamanı meydana gələn böhran nəticələrinin aradan qaldırılması yolları;
- Korrupsiyaya qarşı mübarizə ilə bağlı beynəlxalq hüquqi normalara əməl edilməsinin təmin edilməsi;
- Dövlət maliyyə resurslarının, xüsusən də büdcə sistemində toplanan vəsaitlərin qanuni və səmərəli formalaşdırılması;
- Vəsaitlərin bölüşdürülməsi və istifadə edilməsi;
- Vətəndaşların rifahının yüksəldilməsinə yönəldilmiş maliyyə vəsaitlərinin dövlət tərəfindən şəffaf və səmərəli idarə edilməsi sisteminin yaradılması [3, s.78].

Rəqəmsal transformasiya prosesi heterojendir və müxtəlif seçim amillərinin təsirinə məruz qala bilir. Rəqəmsal transformasiya parçalanmış və qeyri-ardıcıl olub, təşkilatların imkanlarını genişləndirməyə, innovativ texnoloji yeniliklərdən istifadədə hökumət tərəfindən göstərilən xidmətlərin strukturunda dəyişiklikləri sürətləndirməyə xidmət edir. Rəqəmsal transformasiya prosesi heç də həmişə dövlət nəzarətinin tam təmin olunması ilə nəticələnmir, lakin inklüzivliyi və ya sistematik yanaşmanı təşviq edə bilən fərqli, ardıcıl olmayan və natamam proseslərin baş verməsini təmin edə bilir [6, s.42].

Çox vaxt rəqəmsal transformasiya əsas altsistemlər kompleksi kimi çıxış edir. Bu altsistemlərə aşağıdakılar daxildir:

- İnsanlar və səlahiyyətlər;
- Mədəniyyət və qarşılıqlı əlaqə;
- İnfrastruktur və alətlər;
- Məlumat;
- Prosesin optimallaşdırılması;
- Biznes modelləri [5, s.103].

Hər hansı bir təşkilatın fəaliyyətinin rəqəmsal transformasiyasında dəyişikliklər üçün əsas olan

məlumatların olması vacibdir. Bunu rəqəmsal transformasiya sahəsində məsələləri öyrənən müxtəlif tədqiqatçılar və praktiklər qeyd edirlər. Tez-tez belə bir fikir yaranır ki, rəqəmsal transformasiya təşkilatlarda təkcə texnoloji transformasiyaları deyil, ilk növbədə təşkilati mədəniyyətdəki dəyişiklikləri ifadə edir.

Dövlət maliyyə nəzarəti, dövlət, bələdiyyə və özəl satınalmaları idarə edən müqavilə sistemi ilə bağlı maliyyə münasibətlərinin idarə edilməsi, təkmilləşdirilməsi və şəffaflaşdırılması istiqamətində atılan addımlardan ibarətdir. Onun dövlət idarəçiliyindəki önəmini aşağıdakı kimi izah etmək olar.

Hal-hazırda dövlət maliyyə nəzarəti dövlət idarəetmə sisteminin mühüm hissəsinə çevrilmişdir. İdarəetmə funksiyası kimi nəzarətin əhəmiyyəti xeyli artmış, yeni nəzarət vəzifələri meydana gəlmişdir.

İnkişaf etmiş ölkələrdə dövlət vəsaitlərinin məqsədyönlü və qanuni istifadəsinə nəzarət vəsaitlərdən istifadənin səmərəliliyinə və onların ayrılmasının əsaslılığına nəzarət sistemləri digər ölkələrə nisbətən daha güclü qurulmuşdur.

Dövlət maliyyə nəzarəti orqanları - səmərəliliyin və effektivliyin qanunauyğunluğu, düzgünlüyü və idarə edilməsi məsələlərini, o cümlədən dövlət proqramlarının icrasının idarə edilməsi məsələlərini əhatə edən vahid maliyyə siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində fəal iştirak etməlidirlər.

Öz ölkələrinin maliyyə və sosial-iqtisadi siyasətinin işlənib hazırlanmasında daha fəal iştirak edən ekspert kimi çıxış edən nəzarət orqanlarının rolu artır.

Maliyyə nəzarəti sahəsi geniş yayılmış standartlaşdırmaya məruz qalmışdır. Standartlar müxtəlif nəzarət sahələri üçün hazırlanır və çox vaxt onların tətbiqi ilə bağlı əlavə praktiki təlimatlar daxildir.

Daxili maliyyə nəzarəti və daxili audit təşkilatın səmərəli fəaliyyətinin tərkib hissəsi kimi qurulur.

Bir tərəfdən nəzarət funksiyasının həyata keçirilməsinin qeyri-mərkəzləşdirilməsi və onun bilavasitə idarəetmə obyektində həyata keçirilməsi meylini ayrılıqda təkmilləşdirmək olar.

Digər tərəfdən, xarici təcrübə maliyyə nəzarətinin təşkili üçün vahid tələbləri özündə əks etdirən və maliyyə nəzarəti orqanlarının fəaliyyətinin daha tam əlaqələndirilməsinə, audit prosedurlarının unifikasiyasına və s. müsbət təsir göstərir [7, s.92].

Bu gün İKT-nin iqtisadiyyatın bütün sahələrinə nüfuz etməsi səbəbi ilə biznes prosesləri daha da mürəkkəbləşdiyi üçün rəqəmsal transformasiya və maliyyə sistemlərinə təsiri kompleks yanaşmanı tələb edir. Texnologiyanın sürəti və texnologiyadan qaynaqlanan dəyişikliklər liberallaşan və qloballaşan iqtisadiyyatda xüsusilə Maliyyə Sektoru üçün bir çox problemlər yaratmışdır. Tədqiqatlar bunu deməyə əsas verir ki, önümüzdəki yaxın bir neçə il ərzində texnologiyanın inkişaf sürəti daha da artacaq və digər sahələrdə olduğu kimi maliyyə sektorunda da fəaliyyət göstərən peşəkarlar, ekspertlər, alimlər və s. bu istiqamətdə daha da ixtisaslaşacaqlar [1, s.39].

İndi, hər növ biznes təşkilatının tək ölkə daxilində deyil, həm də qlobal səviyyədə baş verən dəyişikliklərə uyğun hərəkət etməsinə ciddi ehtiyac var.

Həm dövlət, həm də müəssisə səviyyəsində, maliyyə sahəsində rəqəmsal transformasiya son illərdə aşağıdakı nəticələrə səbəb oldu:

İstehlakçıların təfəkküründə nəzərə çarpan dəyişiklik şirkətləri və firmaları rəqəmsallaşmağa məcbur edir.

Texnologiyadakı dəyişikliklərin sürəti biznes təşkilatlarını müasir rəqəmsal transformasiyanı öyrənməyə, uyğunlaşdırmağa və qəbul etməyə sövq etdi. Maraqlıdır ki, bir şirkətin S&P 500 İndeksində qaldığı orta müddət son 50 ildə təxminən 60 ildən 18-ə yaxın düşmüşdür.

Rəqəmsal paradiqmanın dəyişməsi - məlumat analitikası sahəsində peşəkarları tələb edən və innovativ texnoloji yeniliklərin tətbiq edildiyi biznes sahələrinin formalaşmasını şərtləndirən əsas amillərdən birinə çevrildi.

Bundan əlavə, maliyyə proseslərini asan, sadə, şəffaf və çevik etmək üçün tələb olunan rəqəmsal texnologiyalara uyğunlaşmaq üçün ilk vaxtlar müəssisə və təşkilatlar gücləndirilmiş iş rejimlərinə keçməli oldu.

Rəqəmsal transformasiyanın maliyyə sənayesində müxtəlif aspektlərdən əhəmiyyətini Sxem 1-də aydın şəkildə görmək mümkündür.

***Sxem 1.***

**Rəqəmsal transformasiyanın maliyyə sənayesində əhəmiyyəti**




*Mənbə: Viswanathan, Balachandran. (2022). Digital Transformation in Finance-Need, Challenges and Opportunities for Professionals əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Kompüter texnologiyalarının mənimsənilməsi dövlətin nəzarət mexanizmlərində geniş yayıldığı və böyük səmərəlilik əldə etdiyi üçün rəqəmsal texnologiyaların sürətli inkişafı hökumətlərin bu sahədə əldə edə biləcəyi potensial faydaları genişləndirir. Buna görə də DMN-in potensial faydalarının tədqiq edilməsi, daha yaxşı məlumat əldə etmək və dövlət xidmətlərinin çatdırılması üçün daha səmərəli mexanizmlərin açılması baxımından olduqca əhəmiyyətlidir. Bu mənada həmin faydalar iki əsas istiqamətdə əldə edilə bilər:

Qərarların qəbulunu təkmilləşdirmək üçün əldə olunan məlumatların daha dəqiq olması və qərar qəbul edən orqanlara vaxtında çatdırılması: Daha böyük yaddaş tutumu və hesablama gücü o deməkdir ki, hökumətlər indi vergi sahəsindəki fırıldaqların və yayınmaların aşkarlanması istiqamətlərində geniş təkmilləşdirmələrə səbəb ola biləcək daha çox məlumat toplaya bilər. Elektron qaimə-faktura və yüksək tezlikli məlumatların istifadəsi hökumət qərarlarının qəbul edilməsinin həssaslığını artırmaq üçün lazım olan məlumatları vaxtında ötürür.

Xidmətlərin daha səmərəli çatdırılması: Rəqəmsal texnologiyalar vergilərin yığılması və uyğunluq xərclərini azaltmaq və dövlət xidmətlərinin çatdırılmasının sürətini, hədəflənməsini və etibarlılığını artırmaq potensialına malikdir. Məsələn, vergi bəyannamələrinin elektron şəkildə təqdim edilməsi vergi ödəyiciləri üçün uyğunluq xərclərini azaldıb. Hökumət ödənişlərinin rəqəmsallaşdırılması idarəetmə xərclərini azaldıb, fırıldaqçılıq imkanlarını azaldıb, sosial yardım proqramlarının hədəflənməsini yaxşılaşdırıb və alıcılar üçün gözləmə müddətini azaldıb.

Elektron xidmətlərin dövlət idarələri tərəfindən ilk istifadəsi ötən əsrin 80-ci illərinin sonlarına təsadüf edir. Ayrı-ayrı ölkələrin yürütdüyü dövlət siyasəti kimi İKT-nin tətbiqi, 90-cı illərdən başlayaraq tədricən qlobal səviyyədə müşahidə edildi. İstənilən halda, bu sahədə aparılan araşdırmalardan bu qənaətə gəlmək olar ki, hökumətlər tərəfindən texnologiyaların istifadəsinə istinad edən e-Hökumət konsepsiyasının inkişafına təkan verən əsas amil e-ticarətin yayılması olub.

Rəqəmsal transformasiya, yeni proseslər, məhsullar və xidmətlərin yaradılması və ya dəyişdirilməsi üçün rəqəmsal texnologiyalardan istifadə etməklə biznesin və ya təşkilatın çevrilməsi prosesidir. Bu, biznes proseslərini sadələşdirmək, müştəri təcrübəsini yaxşılaşdırmaq və məhsul və xidmətlərə dəyər əlavə etmək üçün texnologiyadan istifadəni nəzərdə tutur. Rəqəmsal transformasiyanın planlaşdırılması istənilən uğurlu rəqəmsal transformasiyanın vacib hissəsidir. İstənilən məqsədlərə çatmaq üçün rəqəmsal texnologiyalardan istifadə edərək təşkilatın necə çevrilməsi planının hazırlanmasını müəyyənləşdirmək mümkündür.

Maliyyə nəzarətinin səmərəliliyi onun uğursuzluqların qarşısının alınmasında və aradan qaldırılmasında, qərarların qəbulu prosesinin təşkili və idarə edilməsinin təkmilləşdirilməsində və bütün iqtisadi fəaliyyətdə səmərəliliyin artırılmasında verdiyi töhfə ilə müəyyən edilir.

Nəzarət edilən fəaliyyəti tənzimləyən müddəaların tövsiyəsi əsasında qanun pozuntularının qarşısının alınmasına nə qədər diqqət yetirildiyinə görə, nəzarətin səmərəliliyi (buna görə də) daha yüksək olacaqdır.

## ӘDӘBİYYAT

1. Bill & Melinda Gates foundation (2018) Digital Innovation in Public Financial Management. Opportunities and implications for low-income countries. Singapore. https://alphabeta.com/wp-content/uploads/2018/07/pfm-technology-paper-long-version.pdf
2. Filgueiras, Fernando & Palotti, Pedro & Cireno, Flavio. (2019). Digital Transformation and Public Services Delivery in Brazil. 10.13140/RG.2.2.30884.32648.
3. Viswanathan, Balachandran. (2022). Digital Transformation in Finance -Need, Challenges and Opportunities for Professionals.
4. Matveeva N.S. State Financial Control: International Experience. Financial Journal, 2020, vol. 12, no. 2, pp. 69–95. DOI: 10.31107/2075-1990-2020-2-69-95.
5. Muthuraman, Subrahmanian. (2020). Digital Business Models for Sustainability. Gedrag en Organisatie. 33. 1095 – 1102. 10.37896/GOR33.02/115.
6. Popov, Evgeny & Simonova, V. & Cherepanov, Vitalii. (2021). DIGITAL Analysis in Digital Transformation. Economics and Management. 27. 672-686. 10.35854/1998-1627-2021-9-672-686.
7. Viana, Ana. (2021). Digital transformation in Public Adminis. 10.47975/IJDL/1viana.



***Джафар Ракиф оглы Аббасов***
***Магистр, АГЭУ***
***jaf.abbas99@gmail.com***


**Государственный финансовый контроль и электронное правительство в условиях цифровой трансформации**


***Резюме***

Изучение предприятий и организаций, выступающих конкретными объектами государственного финансового контроля и цифровой трансформации, очень важно с точки зрения тех шагов, которые могут быть предприняты в этой области в будущем. Повысить эффективность деятельности отдельных предприятий и государств можно путем изучения практических аспектов управления цифровой трансформацией и возможностей организаций, применяющих цифровые технологии. В статье исследуется влияние цифровой трансформации на механизмы государственного финансового контроля и определяется место Электронного правительства в этом процессе.

***Ключевые слова: цифровая трансформация, финансы, электронное правительство.***



***Jafar Rakif Abbasov***
***Master, ASEU***
***jaf.abbas99@gmail.com***


**Public financial control and electronic government in the context of digital transformation**


***Summary***

The study of enterprises and organizations that act as concrete objects of state financial control and digital transformation is very important in terms of the steps that can be taken in this field in the future. It is possible to increase efficiency in the activities of individual enterprises and states by studying the practical aspects of digital transformation management and the possibilities of organizations applying digital technologies. The article examines the effect of digital transformation on state financial control mechanisms and the place of Electronic Government in this process is determined.

***Key words: digital transformation, finance, electronic government.***

UOT: 336.645.1:336.64

*Fuad Zabit oğlu VERDİYEV*
*Azərbaycan Kooperasiya Universitetinin magistrantı*
*E-mail: verdiyev_fuad@mail.ru*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MÜASİR AZƏRBAYCAN İQTİSADİYYATININ VƏ BANK SEKTORUNUN İNKİŞAFINDAKI MÜSTƏSNA ROLU

***Xülasə***

Təqdim etdiyimiz tezisdə Heydər Əliyevin çağdaş Azərbaycanın iqtisadiyyatının inkişafı üçün həyata keçirdiyi siyasət, iqtisadiyyatın inkişafına və dirçəlməsinə verdiyi töhvələr, müstəqillik dövrünü əhatə edən iqtisadi yeniliklər haqqında araşdırmalar yer tutur. Xüsusilə də çağdaş Azərbaycan iqtisadiyyatının memarı olan Ümummilli liderimiz Heydər Əliyev cənablarının imza atdığı, iqtisadiyyatımızın inkişafında müstəsna rola malik olduğu əsas məqamlar diqqətə çatdırılmışdır.

***Açar sözlər: müasir iqtisadiyyat, sosial-iqtisadi siyasət, dinamik inkişaf, isqtisadi islahatlar, bank sektoru.***

***

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlər ərzində başqa sahələrlə yanaşı ölkənin sosial-iqtisadi vəziyyətinin dirçəldilməsinə, onun inkişaf etdirilməsinə, insanların maddi rifah vəziyyətinin yaxşılaşdırılmasına çox böyük önəm vermişdir. 1988-1993-cü illərdə baş verən kataklizmlər, 1991-ci ildə respublikanın mütəqillik əldə etməsindən sonra və ondan əvvəl tez-tez baş verən hakimiyyət dəyişmələri, iqtisadiyatın demək olar ki, idarə olunmaması, dünyada gedən proseslərdən baş cıxaran siyasi liderin olmaması respublikanın siyasi həyatını və onun iqtisadiyyatını iflic vəziyyətə salmışdır. Sənaye müəssisələri öz işini demək olar ki dayandırmış, aqrar sənaye kompleksi bərbad bir vəziyyətə düşmüşdür. Bu zaman əhalinin müxtəlif təbəqələrinin və ziyalıların təkidli dəvəti ilə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan üçün yeni dövrun başlanğıcına çevrilmişdir. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən ölkədə mövcud olan ictimai-siyasi böhranı düzgün qiymətləndirərək, respublikanı düçar olduğu bəlalardan xilas etməyin yolunu müəyyənləşdirdi.

Respublikada iqtisadiyyatın idarə olunması ilə bağlı 20-dək nazirlik, komitə, şirkət və digər dövlət strukturu ləğv edilmiş, bəzi mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyəti və funksiyaları yeni şəraitə uyğunlaşdırılmışdır. Eyni zamanda bazar iqtisadiyyatının tələblərinə uyğun yeni qurumlar yaradılmışdır.

İqtisadi islahatları dərinləşdirmək və respublikanın iqtisadiyyatını daha da inkişaf etdirmək məqsədi ilə dövlət idarəçilik sistemində islahatlar və yenidənqurma aparılmışdır. İlk növbədə Nazirlər Kabinetinin səlahiyyət və funkiyaları bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmışdır.

Ölkə iqtisadiyyatı yüksək sürətlə, dinamik inkişaf etdirilərək, dünya bazar iqtisadiyyatına inteqrasiya edilib. Aparılan uğurlu neft siyasəti ilə Azərbaycan dünyanın super dövlətləri ilə - ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiya və digər ölkələrlə iqtisadi və siyasi cəhətdən möhkəm əlaqələr yaratmışdır. 1994-cü ildə dünyanın iri neft şirkətləri ilə qurulmuş müştərək işlər – "Əsrin müqaviləsi" artıq öz bəhrəsini verib, "Əsrin boru kəməri" kimi tarixə düşən Bakı – Tbilisi – Ceyhan boru kəmərinin çəkilişi yekunlaşmışdır.

Həyata keçirilən tədbirlər və sahibkarlığın inkişafına göstərilən qayğı regionların iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının daha da inkişaf etdirilməsi və dirçəlməsi üçün möhkəm zəmin yaratmışdır.

2003-cü ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzalamışdır. Bununla da dövlətimizin başçısı bir daha təsdiq etmişdir ki, Heydər Əliyev tərəfindən işlənib hazırlanmış iqtisadi strategiya mütləq davam etdiriləcəkdir. Çünki bu strategiya Azərbaycan xalqının əsas mənafelərinə, müstəqil dövlətimizin iqtisadi qüdrətinin artımına xidmət edir.

İqtisadi inkişafın yeni keyfiyyət mərhələsində bütövlükdə iqtisadiyyata sistemli yanaşma, investisya və struktur siyasətinin müəyyənləşdirilməsi bir tərəfdən Azərbaycanın dünyada baş verən inteqrasya proseslərində səmərəli iştirakına, digər tərəfdən, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsinə şərait yaradan miqyaslı proqramların həyata keçirilməsi zəruridir. Məhz bu vəzifələr uğurla yerinə yetirmək üçün Azərbaycan Prezidenti iqtisadiyyatın tarazlaşmış inkişafının təmin edilməsi və təkrar istehsalın sürətinin mühüm nisbətlərinin proqnozlaşdırılması, respublikanın iqtisadi təhlükəsizliyinin qorunması sahəsində İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin gücləndirilməsi məsələsini vacib vəzifə kimi qarşıya qoymuşdur.

Respublikamızın bugünkü dinamik inkişaf mərhələsinə çatması Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və qarşıya qoyulmuş milli iqtisadi satrategiyanın ardıcıl şəkildə reallaşdırılması istiqamətində aparılan siyasi və iqtisadi islahatların uğurla yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur. Azərbaycan iqtisadiyyatının sıçrayışlı inkişaf yoluna qədəm qoyması və qətiyyətli siyasətin həyata keçirilməsi vacib məsələ kimi qarşıda dayanırdı . Bu işin öhdəsindən yalnız Heydər Əliyev kimi dahi və uzaqgörən siyasətçi gələ bilərdi.

Heydər Əliyev iqtisadi inkisaf konsepsiyasında "iqtisadi islahatlar" ifadəsi adı altında Azərbaycan iqtisadiyyatını bazar prinsipləri əsasında qurmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və dövlət mülkiyyətinin özəlləşdirilməsini həyata keçirtmək, azad sahibkarlığa, vətəndaş təşəbbüskarlığına geniş imkanlar yaratmaq, milli iqtisadiyyatımızı inkişaf etmiş ölkələrin iqtisadi sistemləri əsasında yenidən qurmaq və dünya iqtisadiyyatına fəal inteqrasiya başa düşülür.

Heydər Əliyev iqtisadi islahatlar həyata keçirərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli və kompleksli şəkildə aparılmasını, milli iqtisadiyyatın real vəziyyəti və potensial imkanları, respublikadakı sosial-siyasi durumu zəruri sayırdı. Heydər Əliyevin müəyyən etdiyi və həyata keçirdiyi sosiaa iqtisadi inkişaf modeli bazar mexanizminə əsaslanan səmərəli bir iqtisadiyyat modelidir.

Yeni Azərbaycanın quruculuğunun arxada qalan illəri Heydər Əliyevin iqtisadi strategiyasının haqlı olaraq sosial yönümlü bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmaqla həyatiliyini və vacibliyini sübuta yetirmişdir. Heydər Əliyevin iqtisadi konsepsiyasına görə islahatlar 3 mərhələdə həyata keçirilmiş – dövlət tənzimlənmə yolu ilə böhrandan çıxmaq, iqtisadiyyatın sabitliyini təmin etmək və iqtisadiyyatın dirçəlişinə nail olmaq məqsədəuyğunluğu təsdiq edilmişdir. [1]

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi şəraitindən və strateji mövqeyindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadəsinə yönəlmiş irimiqyaslı beynəlxalq iqtisadi müqavilələrin işlənib hazirlanması və yerinə yetirilməsi üçün son dərəcədə gərgin və səmərəli fəaliyyət həyata keçirmişdir. Ümummilli lider Heydər Əliyevin böyük siyasi iradəsi və uzaqgörənliyi nəticəsində 1994-cü ildə "Əsrin müqaviləsi" və digər imzalanan müqavilələr və onların həyata keçirilməsi müstəqil Azərbaycanın iqrisadi inkişaf strategiyasının parlaq təzahürüdür. [2]

Heydər Əliyev hakimiyyətə döndükdən sonra bank sektorunun formalaşması və inkişafında da bir çox dəyişikliklər olmuşdur. Heydər Əliyevin birbaşa diqqət və dəstəyi ilə bank islahatları dövlət banklarının yenidən qurulması, özəl bankların kapitalizasiyası və konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində həyata keçirilmişdir.

Azərbaycan xalqının ümummilli lideri yeni iqtisadi vəziyyətin və dövlət idarəetmə prinsiplərinin dəyişməsinin dövlət maliyyə nəzarəti sisteminin yenidən qurulmasına və təkmilləşdirilməsinə ehtiyac yaratdığını nəzərə alaraq, bazar münasibətlərinə uyğun müvafiq dövlət nəzarəti mexanizminin yaradılması, tətbiq edilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirmişdir. Heydər Əliyev tərəfindən dövlət maliyyə nəzarəti sahəsində həyata keçirilən çox mühüm və vacib addımlardan biri bu sahədə qayda–qanunun bərpa edilməsi, nəzarət funksiyalarını həyata keçirən dövlət orqanlarının funksiyalarının müəyyənləşdirilməsi, habelə özbaşınalığın və əsassız yoxlamaların qarşısının alınması olmuşdur. [3]

İqtisadi münasibətlərin səviyyəsinə uyğun müvafiq dövlət nəzarəti mexanizmini tətbiq etmək, həmin nəzarətin daha məqbul vasitələrini seçmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq üçün, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq məqsədi ilə ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 17 iyun 1996-cı il tarixli "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxla-

maların qadağan edilməsi barədə" Fərman bu sahədə ciddi və əsaslı müsbət dəyişikliklərlə nəticələndi.[4]

Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan həyatının digər əhəmiyyətli sahələrində olduğu kimi, bank-maliyyə sektorunda da vəziyyət tezliklə müsbətə doğru dəyişdi. Ölkənin maliyyə bazarında sağlamlaşdırma tədbirlərinə başlandı. 1993-cü ildə əmanətlər faiz vergisindən azad edildi. Eyni zamanda məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1993-cü və 1995-1997-ci illərdə, sovet dövründə əmanət kassalarında qoyulmuş vəsaitlərə görə ilk dəfə kompensasiyalar hesablandı. Əmanət kassalarının 1996-cı ildən başlayaraq Azərbaycanda vətəndaşlara özəlləşdirmə çeklərinin verilməsi kimi genişmiqyaslı prosesə cəlb olunması, bu çeklərin əhaliyə əmanət kassaları vasitəsilə verilməsi də ulu öndərin Əmanət Bankına doğma münasibətinin, bu sistemin potensialına yüksək inamının ifadəsi idi. Bu münasibət Ermənistan silahlı birləşmələri tərəfindən yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərimizə dövlət tərəfindən edilən aylıq yardımların ödənişinin məhz Əmanət Bankına həvalə olunması və digər bu kimi dövlət əhəmiyyətli tədbirlərdə də öz əksini tapırdı.[5]

Böyük Heydər Əliyevin əsaslarını qoyduğu milli iqtisadiyyyat və onun inkişaf istiqamətləri 2003-cü ildən bu günə qədər çox ciddi və etibarlı inkişaf yolundadır və bu inkişaf davam etməkdədir. Artıq bir neçə on ildir ki:

1. Azərbaycan iqtisadiyyatının şaxələndirilmə və genişlənməsi prosesi böyük uğurlarla davam etməkdədir. İqtisadiyyatın sahə strukturu tam təşkilatlanmış və makroiqtisadi siyasət yüksələn xətt üzrə istiqamət almışdır. Bunun da nəticəsində ölkə iqtisadiyyatının neft sektoru etibarlı baza olmaqla, qeyri-neft sektorunun inkişaf istiqamətləri müəyyənləşdirilmiş, o, cümlədən turizm infrastrukturu, aqrar inkişaf prosesi, sənayeləşmə siyasəti, milli iqtisadiyyatın əsas sektorlarının perspektivləri və uzaq gələcəyə nəzərdə tutulan tədbirlər həyata keçirilmişdir;

2. Regionların sosial-iqtisadi inkişafında dair Dövlət proqramları uğurlu icrasının üçüncü mərhələsindədir. Bu, iqtisadi rayonların səmərəli ixtisaslaşmasında və məhsuldar qüvvələrdən istifadənin faydalılığının artırılmasında stimullaşdırıcı amilə çevriləcəkdir. Nəticədə isə əmək ehtiyatlarından istifadə ölkənin əsas prioritetləri içərisində yer alan məşğulluq potensialının artırılması və səviyyəsinin yüksəldilməsinə əlverişli zəmin yaradacaqdır;

3. Ölkəmiz dünyanın inkişaf etmiş ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıqda və beynəlxalq təşkilatlara inteqrasiya proseslərində ən etibarlı və çevik tərəfdaşa çevrilmişdir. Bunun da nəticəsində respublikamızın ev sahibliyi etdiyi və edəcəyi dünya miqyaslı yarış və tədbirlərin yüksək səviyyədə baş tutduğunu qürurla qeyd etmək lazımdır.

Təbii ki, sadalanan amillərin hər biri Azərbaycan Respublikasının müasir dünya gerçəklikləri, çağırışları əsasında etibarlı iqtisadi siyasəti nəticəsində təmin edilmişdir. Düşünürük ki, bu mənzərə ölkəmiz və onun gələcək perspektivləri üçün çox uğurlu bir gələcək vəd etməkdədir. Çünki istər ölkəmizin mövcud inkişaf potensialı, istər region ölkələri içərisindəki nizamlayıcı və tənzimləyici funksiya yerinə yetirməsi, istərsə də beynəlxalq təşkilat və qurumların ölkəmiz haqqındakı pozitiv rəyləri də belə qərara gəlməyə əsas verir. Belə ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan Respublikasının 34-cü yerdə təşəkkül tapması qənaətimizi daha da ciddiləşdirir[6][7].

## ƏDƏBİYYAT


1. Heydər Əliyev irsi: Azərbaycanın davamlı inkişaf strategiyası
2. Tufanlardan keçən ömür [Mətn] /A. Əhədov
3. Heydər Əliyev kursu yeni keyfiyyət halında [Mətn] : iqtisadiyyat, siyasət, dinamizm, perspektivlər /S. Səfərov
4. Heydər Əliyev və dövlət maliyyə nəzarəti [Mətn]: Heydər Əliyev - 90 /H.Əsədov
5. 140 illik tarixin intibah dövrü [Mətn]: "Kapital Bank"da ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə konfrans keçirilmişdir /E. Hacalıyev
6. Heydər Əliyev və milli iqtisadiyyat [Mətn] /C.Qasımov
7. https://archive.doingbusiness.org/en/data/exploreeconomies/azerbaijan

***Фуад Забит оглы Вердиев***
***магистрант, Азербайджанский Университет Кооперации***
***E-mail: verdiyev_fuad@mail.ru***

**Выдающаяся роль общенационального лидера Гейдара Алиева в развитии современной Азербайджанской экономики и банковского сектора**

***Резюме***

Диссертация, представленная Гейдаром Алиевым, включает в себя исследование политики, проводимой Гейдаром Алиевым для развития экономики современного Азербайджана, его вклада в развитие и возрождение экономики, а также экономических инноваций периода независимости. В частности, были доведены до сведения ключевые пункты, подписанные нашим общенациональным лидером Гейдаром Алиевым, который является архитектором современной экономики Азербайджана и сыграл исключительную роль в развитии нашей экономики.

***Ключевые слова: современная экономика, социально-экономическая политика, динамичное развитие, экономические реформы, банковский сектор.***

***Fuad Zabit Verdiyev***
***master, Azerbaijan Cooperation University***
***E-mail: verdiyev_fuad@mail.ru***

**The outstanding role of national leader Heydar Aliyev in the development of the modern Azerbaijani economy and banking sector**

***Summary***

The thesis presented by Heydar Aliyev includes my research on the policies implemented by Heydar Aliyev for the development of the economy of modern Azerbaijan, his contributions to the development and revival of the economy, and the economic innovations surrounding the period of independence. In particular, the key points signed by our national leader Heydar Aliyev, who is the architect of the modern economy of Azerbaijan, and which had an exceptional role in the development of our economy, were brought to attention.

***Key words: modern economy, socio-economic policy, dynamic development, economic reforms, banking sector.***

**UOT-338**

***Nuranə Zakir qızı SƏFƏROVA***
***magistr, Azərbaycan Kooperasiya Universiteti***
***E-ünvanı: nsafarova70@gmail.com***

**TƏŞKİLATDAXİLİ MÜNAQİŞƏLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI**

***Xülasə***

Münaqişələr əsasən qaçılmalı olan situasiyalar kimi qiymətləndirilir. Hər bir konfliktin mərkəzində hansısa bir səbəbdən şəxslərin əks mövqeləri, mövcud mühitdə əks vasitə, məqsədə çatmaq üsulları və ya maraqların, tələbatların üst-üstə düşməməsi dayanır.

Münaqişə - rəqibin neytral vəziyyətə gətirilməsi, ona zərbə vurulması və onun məhv olunması üçün qarşıya qoyulmuş məqsəd, konflikt halının açıq toqquşmaya səbəb yaradacaq dərəcədə genişlənməsi, sərvət üçün və ya konkret status üçün mübarizədir.

***Açar sözlər: münaqişə, təşkilat, resurs, dəyər, informasiya, tədqiqat.***

***

Münaqişə məfhumunu ağlımıza gətirdikdə birinci növbədə bu bizdə yaxşı olmayan təəssüratlar əmələ gətirir: təhlükə, düşmənçilik, anlaşmama, cəhd, ümidsizlik, haqlılığı sübutetmə, nifaq və s. hisslər. Bunun üçün də, belə bir fikir əmələ gəlmişdir ki, münaqişə - həmişə neqativdir. Hər birimizə, bilavasitə rəhbərlər, menecerlər üçün konflikt arzuedilməz haldır, ona görə ki, onlar konfliktlərlə lap tez-tez qarşılaşırlar. [1, s. 200]

Münaqişə problemi ilə onun təbiətinin öyrənilməsinin ən önəmli anı konfliktlərin səbəbləri sayılır. Sosioloji və sosial-psixoloji tədqiqatlar münaqişənin aşağıda qeyd edilən əsas səbəblərini göstərməyə imkan yaradır.

Sosial-iqtisadi konfliktlər - hazırkı cəmiyyətimizdə var olan obyektiv sosial-iqtisadi ziddiyyətlərdən yaranır.

Sosial-psixoloji konfliktlər - ayrı-ayrı şəxslərin tələbatları, motivləri, iş məqsədləri və davranışlarından yaranır.

Sosial-demoqrafik konfliktlər - davranma motivlərindən, sosial quruluşdan, şəxslərin cinsindən asılı olaraq arzuladığı məqsədlərindən, təhsilin fərqli səviyyələrdə olmasından yaranır.

Bütövlükdə 4 qrup səbəbə nəzər yetirmək olar:

- şəxslərin tərbiyəsindəki individual müxtəlifliklər
- kommunikativ səhvlər
- mədəni ziddiyyətlər
- təşkilati (qrupların ümumi və həmçinin fərdi məqsədləri arasında olan) müxtəlifliklər.

Konfliktin səbəbi konfliktin əmələ gəlməsinin və inkişafının bütün prosesinə təsir edir. Bunlar konflikt yaratmağa gətirib çıxaran səbəblərdir:

- obyektiv;
- subyektiv;
- aşkar;
- gizli;
- yaxın;
- uzaq;
- əsas;
- ikinci dərəcəli dəyişikliklər.

Qeyd olunan çoxsaylı səbəblər arasından onların iki formasını ayırmaq olar:

- Obyektiv- resursların az olması ilə bağlı olan (material, nüfuz, prestijin yoxluğu və s.)
- Subyektiv- psixoloji (tərbiyə, həmçinin psixikada defisit və s.)

Sosial konfliktlər – yalnız obyektiv səbəblərin nəticəsi sayılmır, eyni zamanda insan psixologiyasının nəticəsi sayılır. Münaqişədəki ən ümumi səbəb adamlar arasındakı sosial ziddiyyətlərdən (şəxsiyyətlərarası, qruplararası) ibarətdir. Eyni zamanda konfliktin səbəbi və onun bəhanəsini ayrımaq lazımdır. Odur ki, bəhanə münaqişənin fəaliyyətinə təkan verən dəqiq insidentdir.

Nəticədə təşkilatdakı konfliktlərin başlıca səbəbləri bölüşdürülməsi mühüm olan resursların az olması, tapşırıqların qarşılıqlı asılı olması, məqsədlər arasındakı fərqlər, təqdim olunmuş dəyərlərdə olan fərqlər, davranış formasındakı fərqlər, təhsilin səviyyəsi, neqativ kommunikasiya və iş yerlərinin balanslaşdırılmaması, motivasiyanın azlığı və s.dir.

**Resursların bölüşdürülməsi.** Təşkilatdakı resurslar həmişə məhdud olur. Təşkilatın rəhbərliyi material, məlumat, insan resursları, maliyyə resurslarını müxtəlif qruplar şəklində elə ayırmalıdır ki, təşkilatı məqsədinə çatdıra bilmək ən effektli yolla gerçəkləşmiş olsun. Bir qayda olaraq adamlar öz problemlərini daha həssas şəkildə qəbul edirlər və buna görə də çox şey qazanmaq istəyirlər. İri həcmdə resursu hər hansı bir rəhbərə, tabelikdə olana və ya qrupa bölmək o deməkdir ki, qalan bölmə və ya rəhbərlərə əsasən ümumi resursun çox az hissəsi veriləcəkdir. Resursların bölüşdürülməsinin zəruriliyi fərqli təbiətli konfliktlərə gətirib çıxarmaqdadır.

**Məqsədlərin fərqliliyi.** Təşkilatın ixtisaslaşan bölmələri, hətta onların alt qrupları özlərinin məqsədini aşkar edir, onlara çatmanın məsuliyyətini daşıyır və əldə edilən nəticəyə əsasən haqq alırlar. Buna görə də bölmələr öz məqsədinə çatmağa lap çox diqqət göstərirlər, nəinki bütün təşkilatın ümumi məqsədinə çatmasına. Məqsədlərdə olan müxtəlifliklər əksər hallarda şəxsiyyət

ilə qrup arasında olan fərq şəklində özünü göstərir.

Münaqişələrin özü təşkilat ixtisaslaşma istiqamətinə getdikcə və müxtəlif bölmələrə ayrıldıqca artmağa başlayırlar. Bu o səbəbdən yaranır ki, ixtisaslaşan bölmələr məqsədlərini özləri müəyyənləşdirirlər və bu məqsədlərə nail olmaq üçün çalışmalı olurlar. Məsələn, satış bölməsi əsasən daha çox fərqli rənglər və ayrı-ayrı məhsulların istehsalının tərəfdarı kimi çıxış edirlər, çünki belə istehsal onların rəqabət üzrə davamlılığını artırır və bu da satış həcmini yüksəldir. Həmçinin istehsal bölməsi ən effektli nəticəyə çatmaq və məsrəflərə qənaət etmək üçün məhsul nomenklaturunun bir olmasının tərəfdarıdır. Təchizat şöbəsi də öz-özlüyündə məhsul vahidinin qiymətini aşağı salmaq üçün xeyli miqdarda xammal və material alma niyyətindədir. Digər yöndən maliyyə şöbəsi mal-materialına nəzərdə tutulmuş maliyyə vəsaitlərindən istifadə etməklə onları investisiya kapitalı olaraq istifadə etmək arzusunda ola bilər.

**Təqdim olunmuş dəyərlər arasındakı fərqlər.** Hansısa bir situasiya barədə əmələ gəlmiş fikir məqsədə çatmaq niyyətindən irəli gəlməkdədir. Situasiyanı obyektiv dəyərləndirmək əvəzinə adamlar qrup və şəxsi tələbatlara pozitiv təsir edəcəyini fikirləşərək situasiyanın alternativləri və başqa aspektləri üzərində düşünürlər və fikirlərini yönəldirlər. Həmin tendensiya satış şöbəsinin rəhbəri, kadrlar şöbəsi və alıcı ilə xidmət şöbələrinin rəhbərlərinin bir məsələni həll etmək cəhdi zamanı əmələ gəlmişdir. Onların da hər biri məsələnin öhdəsindən təkcə onun funksional bölməsinin gələcəyini fikirləşirlər.

**Dəyərlərdə olan müxtəlifliklər.** konfliktin ən çox yayılmış səbəbidir. Misal üçün, tabeçilikdə olan düşünə bilər ki, ondan fikrini soruşan zaman öz fikrini bildirməyə daima hüququ vardır və ona verilmiş tapşırıqları sözsüz icra etməlidir. Araşdırma, layihələndirmə şöbəsindəki yüksək ixtisaslı personal müstəqillik və düşüncə azadlığını həmişə yüksək dəyərləndirir. Əgər onların rəhbəri tabeçilikdə olanların işinə ciddi nəzarət etməyi tələb etmişsə, dəyərlər arasında olan müxtəliflik böyük ehtimal konfliktə gətirib çıxaracaq.

**Natamam kommunikasiya.** İnformasiyanın doğru ötürülməməsi konfliktin səbəbi, eyni zamanda vasitəsidir. O işçilər ilə qrupa bir-birlərinin fikirlərini anlamaqda, eyni zamanda situasiyanı düzgün dəyərləndirməyə əngəl törətməklə konfliktin katalizatoru olaraq çıxış edə bilər. İnformasiyanın ötürülmə məsələsinin genişlənməsi - keyfiyyət kriteriyalarının doğru müəyyən olunmaması, vəzifə öhdəliklərinin doğru anlaşılmaması, eyni zamanda işçilər ilə şöbələrin öz funksiyalarını qavramaması, işçinin işinə olan tələbatın dəyişilməsi və s. kimi konfliktlərin çoxalmasına gətirib çıxarır. Həmin problemlər rəhbərlərin işçilərinin iş təlimatlarını doğru işləyib hazırlamamasından da yarana bilər. [2, s. 247]

İnformasiyanın doğru ötürülməməsi konflikt səbəbi olaraq çıxış edə bilər. Odur ki, onun iştirakçılarının arasında olan kommunikasiya səviyyəsi aşağı düşür, şəxslərin bir-biri barədə yaxşı təsvvürü yaranmır, zidd əlaqələr yaranır- bunların hamısı konfliktin güclənməsini, davam etməsini yaradır. Belə ki, rəhbərlik tabeçilikdə olanlara əməyin verilməsinin istehsalla əlaqəli olmasını və təşkilatın gəlirinin çoxaldılmasının onun rəqibləri qarşısında daha güclü və davamlı mövqe tutması ilə başa sala bilmirsə, tabeçilikdə olanlar məhsuldarlığı azaldaraq həmin prosesə reaksiya göstərəcəklər.

İş yerlərinin balanslaşdırılmaması əsasən təşkilatdakı konfliktlərin daha çox yayılan mənbəyi sayılır. Vəzifə funksiyaları vəsaitlər və buna müvafiq olaraq qaydalar və həmçinin nüfuzla möhkəmlənmədiyi vaxtlarda baş verir. [3, s.176]

**Düzgün olmayan nəzarət.** İdarəetmə üzrə nəzarət şübhə təəssüratı yaratmamalıdır. Bisavad hakimiyyət müəyyən olmayan və həmçinin ümumi nəzarətdən istifadə edir: Hamı, həmişə şübhə altındadır və bu o mənanı verir ki, işçi həmişə günahkar sayılır. Bu cür situasiyada adamın istər-istəməz əsəblərini cilovlaması qeyri-mümkün olur, özünü idarəetməni itirə bilir və pis fəaliyyət göstərməyə başlayır.

**Davranış tərzində olan fərqlər və həyat təcrübəsi.** Şəxs eyniliyi hiss eləmir və digər şəxsləri anlamağa çalışmır. Bu vaxt ünsiyyətdə baryer əmələ gəlir. Əlbəttə ki, hamımızın həyatında qarşılaşdığımız aqressiv olan və münaqişəyə meyilli adamlar vardır ki, hər söylənilən sözü şişirərək böyük nifaq yarada bilərlər. Eyni zamanda belə inadcıl adamlar ətrafda konflikt saçan situasiyalar əmələ gətirirlər. Araşdırmalardan aydın olur ki, avtoritar, fikrində konkret olan, hansısa bir fikrə

qarşı etinasız olan adamlar tez-tez konflikt yaradırlar. Digər tədqiqatlardan məlum olur ki, həyat təcrübəsi, təhsil, iş təcrübəsi, dəyərlər, yaş və sosial xüsusiyyətlərdə olan müxtəlifliklər şöbələr arasında qarşılıqlı anlaşma və əməkdaşlığın səviyyəsini aşağı salır.

Bundan əlavə, araşdırmalardan aydın olur ki, işçilərin hamısını konflikt münasibətdə 3 yerə bölmək olar və bu şəkil 1- də qeyd olunmuşdur.

Şəkil 1-də göstərilən axırıncı qrupu təmsil edənlər bütün heyət üzrə cəmi 6-7 %-dən ibarətdilər. İngilis tədqiqatçısı Robert Bramsonun fikrincə, şöbələrdə yaxşı psixoloji mühiti yaratmaq üçün təşkilat üzvlərinin 1/10-i olan çətin subyektlərə olduqca çox diqqət göstərmək gərəkdir. Qalan 9/10-u özləri qanun-qaydaya can atacaqlar. "Çətin işçilər"in arasında olan Bramson iğtişaş yaradan 5 tipi seçib qeyd edir. Onları qısa olaraq xarakterizə edək: Aqressiv işçi, şikayətçi, tərəddüd edən, məsuliyyətsiz və "hər şeyi bilənlər".




**Şəkil 1. İşçilərin konfliktə münasibətləri**

*Mənbə: Əliyev T. Q., Əliyeva Ş. T., Əliyev R. T. İnsan resurslarının idarə edilməsi. Materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Rəhbərliyə olan hörmətsizlik, yəni əgər işçilərin çoxu idarəetmə formasının və metodlarının praktiki tələblərə cavab vermədiyini fikirləşirlərsə, o vaxt həmin konflikt situasiyanın əmələ gəlməsi üçün səbəb yarada bilər. Rəhbərdə işgüzar, yaxud idarəetmə səriştəsinin olmaması böyük demotivasiya potensialı sayılır.

**Motivasiyanın çatışmaması.** Belə ki, ayrıca şəxslərin tələbatı ilə təşkilatın tələbatı üst-üstə düşürsə, bu halda personal həmin tələbatların ödənilməsinə can atacaqlar ki, bunu isə heç bir vaxt məcburetmə əvəz edə bilməz.

Münaqişə situasiyanın həll olunmasında idarəetmə iyerarxiyası, funksiyaların arasında bağlılıq yaradan xidmətlərdən istifadə olunması, funksiyalararası qruplar, məqsədli qruplar və şöbələrarası iclaslar şəklində inteqrasiya vasitələri xeyli əhəmiyyətlidir. Tədqiqatlardan aydın olur ki, onlara lazımi səviyyədə inteqrasiyanı dəstəkləyən təşkilatlar bunu dəstəkləməyən başqa təşkilatlarla müqayisədə olduqca çox səmərəliliyə nail olurlar. Misal üçün, bir-biri ilə qarşılıqlı münasibətdə olan bölmələr arasında konflikt əmələ gəlibsə - satış, istehsal şöbəsi sifarişlərin həcmi ilə satışı koordinasiya edən aralıq xidmət yaratmaqla məsələni həll edə bilərlər. Sözügedən xidmət satış şöbəsi ilə istehsal şöbəsinin arasında əlaqə yaratmaqla satışa tələb və istehsal güclərinin müəyyənləşdirilməsi, qiymətin əmələgəlmə prosesi və çatdırılma qrafikləri şəklində problemləri həll edəcəkdir. [4, s. 475]

Hazırda istehsal prosesinin sürətlənməsi, beynəlxalq və milli firmalar arasında rəqabətqabiliyyətliliyin çoxalması, təzə innovasiyalar üzrə xüsusi sektorların yaranması ilə xidmətlərin səviyyəsinin artmasına qarşı yaranan tələb ölkədəki əmək resurslarının ictimai istehsala cəlb olunması zamanı onların əməyindən istifadə edilməsinin əlverişliliyinin artmasının, o cümlədən əmək resurslarının idarə olunması özəlliklərin nəzərə alınmasının vacib siyasi və sosial-iqtisadi mövzu kimi qabağa keçməsinə imkan verir. Bunların hamısı məsələnin elmi nöqteyi-nəzərdən geniş şəkildə öyrənilməsini şərtləndirir və mövzunun aktuallığının nə dərəcədə mühüm olduğunu müəyyən edir.

## ƏDƏBİYYAT

1. Abbasov A. (2005) Biznesin əsasları. Azərbaycan Dövlət İqtisad Universiteti, dərslik // B. ümumi elmi redaktəsi ilə. Bakı, “Nurlan”.
2. Abbasov İ.M., Sadıqov R.F. (2013) “Menecment”. Bakı, “Elm”.
3. “Azərbaycan gəncləri 2016” (2016) Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı.
4. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. (2004) “Müasir menecment.” Bakı.
5. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=4353326



***Нурана Закир кызы Сафарова***
***Магистр Азербайджанского Университета Кооперации***
***e-адрес: nsafarova70@gmail.com***


**Внутриорганизационные конфликты и пути их решения**


***Резюме***

Конфликты в основном оцениваются как ситуации, которых следует избегать. В центре любого конфликта по тем или иным причинам находятся противоположные позиции индивидов, противоположные средства в текущей среде, способы достижения цели или несовпадение интересов и потребностей.

Конфликт – это борьба за богатство или определенный статус, с целью нейтрализации противника, нанесения ему удара и уничтожения, расширения ситуации конфликта до такой степени, что она приводит к открытому конфликту.



***Ключевые слова: конфликт, организация, ресурс, ценность, информация, исследование.***



***Nurana Zakir Safarova***
***master, Azerbaijan Cooperation University***
***E-mail address: nsafarova70@gmail.com***


**Intra-organizational conflicts and their solution ways**


***Summary***

Conflicts are mainly evaluated as situations to be avoided. At the center of every conflict, for some reason, there are opposing positions of individuals, opposing means in the current environment, methods of achieving the goal, or non-coincidence of interests and needs.

A conflict is a struggle for wealth or a specific status, with the aim of neutralizing the opponent, striking him and destroying him, expanding the situation of conflict to the extent that it leads to open conflict.



***Key words: conflict, organization, resource, value, information, research.***

**UOT 338**



***Rüfət Teymur oğlu BABAYEV***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***E-mail: RBT_09@mail.ru***


## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA MİKROİQTİSADİYYATIN YARANMASI, FORMALAŞMASI VƏ İNKİŞAFINDAKI ROLU


***Xülasə***

İqtisadiyyat hər bir dövlətin inkişafının əsasını təşkil edir.Dövlətin inkişafında onun iqtisadi üstünlüyü əsas rol oynayır. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bizim dövlətimizin

əsas siyasəti iqtisadiyyatımızı inkişaf etdirməkdir.

***Açar sözlər: İqtisadiyyat, mikro iqtisadiyyat, dünya,inkişaf,dövlət,sosial iqtisadi inkişaf.***

***

18 oktyabr 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz mənfur qonşumuz ermənilər tərəfindən təcavüzə uğradı və dövlətimiz müharibə şəraitinə düşdü. Müharibə, hakimiyyət davaları, hərc-mərclik yeni müstəqillik əldə etmiş ölkəmizdə yaranmış xaos dövlətin mövcud iqtisadi infrastrukturunu məhvə aparırdı. Həmin dövrlərdə milli iqtisadiyyat özünün süqut dövrünü yaşayaraq məhvə doğru gedirdi. İqtisadiyyatı olmayan ölkənin müstəqiiliyi də təhlükə altında idi. Lakin 15 iyun 1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin qayıdışı birinci növbədə ölkəmizi müstəqilliyini itirmə təhlükəsindən, iqtisadiyyatımızı məhv olmaqdan qurtardı.

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, "Böyük Qayıdış" ilə bizə dünyamiqyaslı dahi lider, həmçinin xalqımızın üzləşdiyi hərbi, iqtisadi və digər çətinliklər qarşısında duran, Azərbaycanı qısa zamanda güclü, iqtisadiyyatı inkişaf etməkdə olan bir dövlət kimi dünyaya tanıdan, hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxartmağa qadir bir Ümummilli lider bəxş etmişdir.

Xalqın təkidi ilə hakimiyyətə gələn H.Əliyevin qarşısında vətənini, xalqını, torpağını sevən bir lider kimi çox çətin və məsuliyyətli missiya var idi. İqtisadiyyatı məhv olmuş, hər an vətəndaş müharibəsi ilə üzləşmə təhlükəsi və dünya xəritəsindən silinmə təhlükəsi olan xalqımızın, dövlətimizin qarşısında məsuliyyətli və tarixi bir vəzifə dururdu.

Xalqımız bilirdi ki, ölkəni bu vəziyyətdən yalnız ürəyində vətən, xalq sevgisi hər şeydən öndə olan, zəngin siyasi-iqtisadi və idarəçilik təcrübəsinə malik olan H.Əliyev şəxsiyyəti xilas edə bilər.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkədə yaranmış hərc-mərclikdən, iqtisadiyyatın labüd məhv olmasından xilas olunması siyasətindən başlayaraq mühüm addımlar atdı. Ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində təcili tədbirlər görməyə başladı. İqtisadiyyatın dirçəldilməsi üçün təbii resusların təcili xarici bazarlara çıxardılmasının təmin olunması üçün əhəmiyyətli qərarlar verdi. 1994-cü ildə dünya tarixinin ən böyük iqtisadi müqavilələrindən biri olan "Əsrin Müqaviləsi"nin bağlanmasına nail olaraq, həm təbii resurslarımızın xarici bazara inteqrasiyasına, həm də ölkəmizin dünya miqyasında tanınmasına nail oldu. Heydər Əliyev bütün bu dövr ərzində ARDNŞ -nin prezidenti İlham Əliyevi də beynalxalq neft danışıqlarına cəlb etdi. Beləliklə, İlham Əliyev ümummilli liderimizin layiqli davamçısı, bütün neft-qaz strategiyalarının hazırlanmasında, uğurla həyata keçirilməsində fəal iştirakçı oldu, hal-hazırda da ümummilli liderin siyasətinin layiqli davamçısıdır.Onun bütün fəaliyyətinin mərkəzində özünün vurğuladığı kimi bir ideya dururdu: "Bizim məqsədimiz təkcə neft hasil edib, bundan vəsait əldə etmək deyil, bizim məqsədimiz neftdən gələn bütün mənfəətimizi siyasi-iqtisadi inkişafa sərf etmək, Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir. [2]

Heydər Əliyev "Əsrin müqaviləsi" ilə neft-qaz sektorunun inkişafına ölkəyə yeni investisiyalar qoyuluşuna nail olmasına baxmayaraq, "Bakı-Tbilisi-Ceyhan" layihəsi ilə bu uğuru davam etdirdi. Bakı-Tbilisi-Ceyhan layihəsinin gerşəkləşməsi Azərbaycanın iqtisadi mövqeyini dünyada daha da möhkəmləndirdi, ölkəmizi strateji əhəmiyyətli bir ölkəyə çevrilməsinə yeni təkən oldu. Bu layihə təkcə Azərbaycanın deyil, böyük türk dövlətləri olan Qazaxıstan və Türkmənistanın da neftinin dünya bazarına maneəsiz inteqrasiya etməzinə şərait yaratdı. 2002-ci il sentyabr ayının 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına H.Əliyev Gürcüstan prezidenti E.Şevardnadsze, Türkiyə prezidenti Ə.N.Sezər və ABŞ-ın Xəzər məsələləri üzrə nümayəndəsi S.Menn ilə birlikdə start verdi. Heydər Əliyevin bu uğurları birbaşa Azərbaycanı güclü siyasi-iqtisadi dövlətə çevirirdi. Təkcə neft sanayesinə yox, H.Əliyev həmçinin qaz sənayesinə də xüsusi diqqət ayırırdı. Heydər Əliyevin bu diqqəti Azərbaycanın qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaratdı. H.Əliyev 2001-ci ildə Türkiyədə Azərbaycan və Türkiyə arasında "təbii qazının satışı və alışı" haqqında müqavilə imzalamışdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də inşasına başlanmış və bu kəmərlər Azərbaycanın dünyada iqtisadi və siyasi mövqeyini möhkəmləndirdi. Heydər Əliyevin apardığı bütün bu siyəsətlərin nəticəsində Azərbaycan surətlə çiçəklənirdi, get-gedə inkişaf edərək iqtisadiyyatı bərpa olunurdu. Əvvəldə qeyd etdiyim kimi, Azərbaycanın müstəqillik tarixi iki mərhələyə bölünür: birinci mərhələ 1990-1993-cü illəri əhatə edir və Azərbaycanın sürətlə tənəzzül etdiyi dövrdür, ikinci mərhələ isə 1993-

cü ildən bu günə kimi olan dövrdür ki, bu da Azərbaycanın sürətlə çiçəkləndiyi, güclü iqtisadi bir ölkəyə çevrildiyi və böyüməyə davam etdiyi dövrdür. Bütün fəaliyyəti ilə Heydər Əliyev dövlətimiz üçün Azərbaycan modeli yaratmışdır. Bu model təkcə neft-qaz sektorunu yox, bütün iqtisadi fəaliyyətləri işə saldı, azad iqtisadi mühit kənd təsərrüfatının, sahibkarlığın və başqa sahələrin inkişafini formalaşdırdı. İqtisadi sahələr inkişaf etdikcə xarici dövlətlər ilə iqtisadi münasibətləri yaranırdı, dünyada mövqeyi möhkəmlənirdi. Bu da Azərbaycanın günü-gündən möhkəmlənməsi deməkdir. "Heç bir dövlət, ən böyük dövlət belə yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz" deyən Heydər Əliyev daim çalışırdı ki, Azərbaycan beynalxalq miqyasda tanınsın, xarici dövlətlər ilə iqtisadi əlaqələr qursun, inkişaf sahəsinə malik olsun. [3]

Bütün fəaliyyəti dövründə unudulmaz şəxsiyyət,ümummilli lider Heydər Əliyevin əsas siyasətlərindən biri də Dünya Azərbaycanlılarının həmrəyliyinə nail olmağa çalışması olub. O, xaricdə yaşayan Azərbaycanlıların həmrəy olmasına, soydaşlarımızın birliyi və təşkilatlanmasına nail olmuşdur. Ümummilli lider Azərbaycanı bütün beynəlxalq aləmdə vahid məqsəd ətrafında birləşdirməyə nail olmuşdur. Onun sərəncamı ilə Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Dünya Azərbaycanlılarını vahid ideya ətrafinda birləşdirərək yeni azərbaycançılıq ideyasının əsasını qoydu. Heydər Əliyevin 1993-2003-cü illər ərzində Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə Azərbaycanın iqtisadiyyatının dirçəldilməsində, dünya miqyasında tanınmasında müstəsna rolu olmuşdur. Əsasən iqtisadiyyatın inkişaf cərayanın başlanğıcı kimi "Əsrin Müqaviləsi"ni misal göstərmək olar. 1994-cü il Sentyabrın 20-də "Azəri", "Çıraq" yataqlarının birgə işlənməsi və gəlirlərin pay şəklində bölünməsi müqaviləsini dünyanın 11 ən böyük şirkəti ilə bağlaması artıq Azərbaycan dövlətini dünya iqtisadiyyatı üçün əlamətdar bir dövlətə çevirmişdir. Neft-qaz sənayesinin sürətlə inkişafı ölkəyə kapital axınını sürətləndirdi, dünya şirkətləri azad iqtisadi şəraiti görərək digər iqtisadi sahələr ilə maraqlanmağa başladılar. Bu da ölkədə yeni investisiya qoyuluşları üçün zəmin yaranması demək idi. [6]

Bu gün artıq beynəlxalq aləmdə Azərbaycan sürətlə inkişaf edən, dinamik iqtisadi inkişaf və siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq Azərbaycan beynalxalq kürsülərdə öz sözünü deməyə, öz mövqeyini bildirməyə və qorumağa qadir  azad, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanınır. Bütün bunların əldə olunmasında, 1990-cı illərin əvvəllərində siyasi və iqdisadi böhran içində olan Azərbaycanın iqtisadiyyatında tərəqqiyə nail olunmasında, dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsində, gənc dövlətimizin dünya miqyasında tanıdılmasında ümummilli liderimiz Heydər Əliyevin müstasna rolu olmuşdur. [2]

İlk öncə H.Əliyev ölkədə sabitliyin bərqərar olması ilə yanaşı kiçik və orta sahibkarlığın inkişafı yönümündə islahatlar aparmağa başladı. Birinci növbədə ölkədə azad iqtisadi mühitin formalaşmasına nail oldu. Bu strategiyanın qanuniləşdirilməsi üçün "Haqsız rəqabət haqqında" Qanun, "Təbii inhisarlar haqqında" Qanun qəbul olunaraq, ölkədə antiinhisar qanunvericiliyi formalaşdırıldı. Ulu öndərin müdrik siyasəti nəticəsində, ölkədə siyasi, iqtisadi sabitlik əldə edildi, yeni iqtisadi islahatların reallaşması üçün münbit şərait yarandı. Bütün bu islahatlar nəticəsində ölkədə qeyri-neft sektorunun paytaxt ilə yanaşı bütün regionlarda inkişafı sürətlənmiş, sahibkarlara dövlət dəstəyi göstərilmiş, xüsusi ilə ölkədə kiçik və orta sahibkarlıq formalaşmağa başlamış, inkişaf etmiş, əhalinin sosial rifahi yaxşılaşmış, azad rəqabət mühiti formalaşmağa başlamışdır. [4]

Heydər Əliyevin apardığı siyasi-iqtisadi fəaliyyət nəticəsində Azərbaycanın inkişafı sürətlənərək daha da artmışdır. Heydər Əliyevin hakimiyyəti dövründə bir çox əhəmiyyətli müqavilələr bağlanmış, aktlar imzalanmışdır. Dövlət tərəfindən kiçik və orta sahibkarlığın inkişafı üçün Azərbaycan dövlətinin müxtəlif vaxtlarda qəbul etdiyi "Azərbaycanda Kiçik və Orta sahibkarlığa Dövlət Yardımı Proqramı" (1997-2000), "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" ölkədə kiçik və orta sahibkarlığın inkişafının təməlini qoydu.Bu dövlət proqramları hal-hazırda da Azərbaycan Respublikasının prezidenti, Heydər Əliyev kursunun davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**ƏDƏBİYYAT**

1. Heydər Əliyevin sitatları
2. https:/www.anl.az
3. https:/center.wordpress.com
4. https:/competition.gov.az
5. center.wordpress.comm
6. vikipediya

***Руфат Теймур оглы Бабаев***
***магистр, Азербайджанского Университета Кооперации***
***Электронная почта: RBT_09@mail.ru***

**Создание Гейдаром Алиевым микроэкономики в Азербайджане, его роль в становлении и развитии**

***Резюме***

Экономика является основой развития каждого государства. Ее экономическое преимущество играет ключевую роль в развитии государства. Государство с сильной экономикой способно на все. Основной политикой нашего государства является развитие нашей экономики.

***Ключевые слова: экономика, микроэкономика, мир, развитие, государство, социально-экономическое развитие.***

***Rufat Teymur Babayev***
***Master of Azerbaijan Cooperation University***
***E-mail: RBT_09@mail.ru***

**Heydar Aliyev's creation of micro-economy in Azerbaijan, its role in formation and development**

***Summary***

The economy is the basis of the development of every state. Its economic advantage plays a key role in the development of the state. A state with a strong economy is capable of everything. The main policy of our state is to develop our economy.

***Key words: economy, micro economy, world, development, state, social economic development.***

**UOT 504**

***Ayşən Zəfər qızı ƏLİYEVA***
***magistrant, Azərbaycan Kooperasiya Universiteti***
***Aysen1999@gmail.com***

**XƏZƏR DƏNİZİ SƏVİYYƏSİNİN TƏRƏDDÜDÜ VƏ ONUN PROQNOZU**

***Xülasə***

Məqalədə Xəzər dənizinin səviyyəsinin dəyişkənliyi səbəbləri müxtəlif üsullarla təhlil olunur. Hal-hazırda Xəzərin səviyyəsinin tərəddüdlərinin bütün dəniz və sahil zonası təsərrüfatını böyük çətinliklər və problemlər qarşısında qoyması məsələsi də araşdırılır. Həmçinin qarşıda duran əsas məsələ dənizin səviyyəsinin düşməsi yox, qalxması səbəblərini araşdırmaq və bu prosesin az-çox təminatlı proqnozunu verməyə cəhd göstərməkdir.

***Açar sözlər: səviyyə tərəddüdü, dənizin su balansı, hidroloji müşahidə, səviyyə rejimi, tektonik hərəkətlər və s.***

Xəzər dənizi öz təbii zənginlikləri ilə onun ətrafında yerləşən dövlətləri bəhrələndirdiyi kimi, bir sıra özünəməxsus xüsusiyyətləri ilə böyük problemlər də yaradır. Bu xüsusiyyətlər sırasında dənizsahili zonada məskunlaşmanı və təsərrüfatı böyük çətinliklərlə üzləşdirən səviyyə tərəddüdü xüsusi yer tutur.

Xəzər başqa dənizlərdən və məşhur böyük göllərdən bir sıra əsas əlamətlərinə görə fərqləndiyi kimi, səviyyəsinin çox dəyişkən olmasına görə də, onlardan kəskin seçilir. Geoloji keçmişdə Atlantik okeanı ilə əlaqəsi kəsilən zamanlar Aralıq dənizinin də səviyyəsinin katastrofik düşdüyü vaxtlar olmuşdur. Xəzərin isə Qara dənizlə əlaqələrinin kəsildiyi zamanlar səviyyəsi daha çox tərəddüdlərə məruz qalmışdır [2, s. 353].

Üzərində az-çox daimi hidroloji müşahidələr aparıldığı son 200 ilə yaxın bir dövrdə Xəzər dənizi səviyyəsinin daim qalxıb-enməsi müəyyən edilmişdir. 1760-cı ildən XX əsrin başlanğıcına qədər dənizin səviyyəsi - 26 metrdən yüksək olmuşdur. Lakin bu 140 illik dövrdə onun səviyyəsinin əsas iki nisbi qalxma mərhələsi (1780-1830-cu və 1840-1870-ci illər) olmuşdur. Hər iki mərhələdə səviyyə kiçik tərəddüdlərə də qalmışdır. XVIII əsrin ortalarından XX əsrin başlanğıcına qədər dənizin ən alçaq səviyyələri - 25,5 metrdən (1780-ci illər) və 25,6 metrdən (1850-ci illər) aşağı düşməmişdir. Dərbənd qalasının sualtı hissəsində aparılan arxeoloji tədqiqatlara görə V əsrdə Xəzər dənizinin səviyyəsi-32 m-ə qədər düşmüşdür. XX əsrdə qeydə alınmış ən alçaq vəziyyətindən (- 28,5 m) 3,5 m aşağıdır.

XX əsrin başlanğıcından otuzuncu illərə qədər Xəzərin səviyyəsi fasiləli- ardıcıl düşməyə və yenidən qalxmaya məruz qalmışdır. İyirminci illərin sonunda dənizin səviyyəsi okean səviyyəsindən 25,85 m aşağı idi. 1930-cu ildən1940-cı ilə qədər keçən nisbətən qısa dövrdə (cəmi 10 ildə) dənizin səviyyəsi kəskin aşağı düşmüş və -27,8 m həddinə enmişdir. Sonrakı 40 ilə yaxın bir dövrdə (70-ci illərin sonuna qədər) səviyyə kiçik amplitudlu tərəddüdlərlə -28,5 m-ə qədər düşmüşdür. [1, s. 215].

XX əsrin səksəninci illərindən səviyyə rejiminin təmayülü dəyişməyə başladı və keçən 15 ildə Xəzər dənizinin səviyyəsi 2,5 m-ə qədər qalxdı. Bu proses hal-hazırda davam edir. Əvvəlki səviyyə tərəddüdü mərhələlərində olduğu kimi, son 15 ildə də səviyyənin qalxması ildən-ilə rəvan olmamış, bəzi illərdə zəif (10-15 sm), bəzi illərdə isə sürətli (30-40 sm-ə qədər) getmişdir. Dənizin bu cür səviyyə tərəddüdündən aydın görünür ki, belə qeyri-rəvanlıq dəniz səviyyəsinin başqa dəyişmə dövrlərində də baş vermişdir.

Xəzər dənizinin səviyyə tərəddüdü elmə məlum olan vaxtdan etibarən tədqiqatçılar onun səbəblərini izah etməyə çalışmışlar. Dənizin səviyyə dəyişikliyinin izahına əsasən iki təmayül meydana gəlmişdir. Birinci təmayülə görə dənizin səviyyəsinin dəyişməsinin əsas səbəbi Xəzər dənizi hövzəsində baş verən iqlim dəyişkənliyidir. İkinci təmayülə görə isə dənizin səviyyə tərəddüdü onun dibində baş verən tektonik hərəkətlərlə əlaqədardır. Birinci təmayül əsasən iqlimşünaslar və okeanoloqlar tərəfindən, ikinci təmayül isə geoloqlar tərəfindən irəli sürülmüşdür. Hər iki fikrin tərəfdarları öz mülahizələrini əsaslandırmaq üçün etibarlı dəlillər axtarırlar.

Tədqiqatçıların böyük əksəriyyəti Xəzər dənizinin səviyyəsinin dəyişkənliyini dənizin su balansının gəlir hissəsinin əsasını təşkil edən çayların, xüsusilə Volqa çayının illik axımının həcminin dəyişməsi ilə izah edir. Müəyyən edilmişdir ki, dənizə tökülən bütün çayların illik axımı 80% Volqa çayı hesabınadır.Volqa çayı hövzəsində yağıntıların artması, yaxud azalması, xüsusilə gursulu dövrdə çayın su sərfi həcminin tərəddüdünün dövri dəyişməsi Xəzərin səviyyə tərəddüdünün əsas səbəbi sayılır. 1881-1885-ci illər dövründə Volqa çayının yaz gursulu dövründə su sərfi həcmi 150 km3 olduğu halda, 1971-1977-ci illərdə 0,83 km3-ə qədər azalmış, 1975- 1977-ci illərdə isə cəmi 60 km3 təşkil etmişdir.

XX əsrin əvvəlindən 80-ci illərin başlanğıcına qədər dəniz səviyyəsi düşməyə başlamışdır. Bu göstərilən dövrdə səviyyənin ən sürətli düşməsi 1930-1940-cı illərə təsadüf edir. Qısa dövrdə səviyyə -26 m-dən - 28 m-ə enmişdir. 1937-ci ildən 1938-ci ilə qədər səviyyə 33 sm aşağı düşmüşdür. Maraqlıdır ki, 1980-cı illərdən, yəni səviyyənin tərəddüd təmayülünün dəyişməsindən sonra keçən qısa vaxtda o, 1930-cu ildən 1940-cı ilə qədər olan səviyyə düşməsi sürətinə yaxın bir sürətlə qalxmağa başlamışdır. Yuxarıda göstərildiyi kimi, bəzi illərdə dənizin səviyyəsi 30 sm-dən çox qalxmışdır.

İqlim hidroloji amillə yanaşı dənizin səviyyəsinin tərəddüdlərinə geoloji amil də müəyyən təsir göstərir. Bu, iki yolla baş verir. 1- dənizin dibində çöküntü toplanması, 2- tektonik hərəkərlər nəticəsində Xəzər çökəkliyinin həcminin dəyişməsi. Dənizin dibində çöküntü toplanması çox zəif də olsa səviyyənin qalxmasına səbəb ola bilər. Dənizin dibində tektonik qalxma nəticəsində səviyyə qalxır, enmə nəticəsində isə aşağı düşür. Dənizin dibində və sahil zonalarında yer qabığının dartılması dəniz çökəkliyinin genişlənməsi və suyun səviyyəsinin aşağı düşməsi ilə nəticələnir. Əksinə, dənizin dibində və onu əhatə edən quru sahələrində Xəzər çökəkliyinə yönəlmiş üfüqi hərəkətlər zamanı səviyyənin qalxması baş verir. Son zamanlar bu proses alimlərin diqqətini daha çox cəlb edir və onun Xəzər dənizinin səviyyə rejiminə təsirini öyrənmək məqsədilə tədqiqatlara başlanmışdır. Bu məqsədlə Xəzər dənizinin bütün perimetri üzrə müasir xüsusi cihazlarla təmin edilmiş çoxsaylı müşahidə məntəqələri təşkil edilməsi və kosmosdan həmin məntəqələrin hərəkət istiqamətini və sürətini müəyyən etmək nəzərdə tutulmuşdur. Bu geniş proqramda Xəzərətrafı ölkələrin hamısı iştirak edir [3, s. 24].

Xəzərin qeydə alınmış tərəddüdlərinin səbəblərini izah etməkdə tədqiqatçılar çox çətinlik çəkməsələr də, onun probleminin həllində hələlik lazımi müvəffəqiyyət əldə edə bilməmişlər. Buna görə də Xəzər səviyyəsinin bu vaxta qədər təklif edilmiş proqnozları əksər hallarda özünü doğrultmamışdır. Volqa hövzəsinin (o cümlədən Moskva şəhərinin) temperatur rejiminə, yağmurların paylanma rejiminə, su balansı xüsusiyyətlərinə, günəş fəallığına görə dənizin səviyyəsinin proqnozları verilmişdir. Lakin, bu şıltaq dəniz əksər hallarda özünü bütün proqnozların əksinə aparmışdır. 70-ci illərdə, hətta 80-ci illərin əvvəllərində dənizin səviyyəsinin düşməsinin qarşısını almağa yönəldilmiş təkliflər irəli sürülmüş və layihələr hazırlanmışdır.Bunlardan Qaraboğaz Qol körfəzinin qarşısının kəsilməsini (ildə bura Xəzərdən 25 $km^3$ –dən 6 $km^3$-ə qədər su daxil olur və orada buxarlanırdı), şimal çaylarından (Peçora və Vaçeqda hövzəsindən) Volqa hövzəsinə ildə 40 $km^3$ su verilməsi və başqa layihələr hazırlanmasını göstərmək kifayətdir. Bu tədbir və layihələr ona görə hazırlanırdı ki, bütün proqnozlara əsasən 2000-ci ilə qədər dənizin səviyyəsinin aşağı düşəcəyi gözlənirdi. Lakin yuxarıda göstərildiyi kimi, dənizin səviyyəsi bu proqnozların əksinə olaraq sürətlə qalxmağa başladı və özünün 1940-cı il vəziyyətinə (-26 m) qayıtdı.

Səviyyənin qalxmaqda davam etməsi bütün dəniz və sahil zonası təsərrüfatlarını böyük çətinliklər və problemlər qarşısında qoydu. Hazırda elm qarşısında duran əsas məsələ dənizin səviyyəsinin düşməsi yox, qalxması səbəblərini araşdırmaq və bu prosesin az-çox təminatlı proqnozunu verməyə cəhd göstərməkdir.

## ƏDƏBİYYAT


1. M.Ə. Müseyibov. Azərbaycanın fiziki coğrafiyası. Bakı-1998, 399 s.
2. R.M. Məmmədov. Xəzər dənizinin hidrometeorologiyası. Bakı-2013,466s
3. eco.gov.az http:// eco. gov.az .xezer-dənizi
4. http:// sputnik.az xəbərlər
5. http://report. az.cografiyasunas-ali..
6. http: //www azerbaijan- news. az.xe…



***Айшан Зафар кызы Алиева***

***магистр, Азербайджанского университета Кооперации***

***Айсен1999@gmail.com***


## Колебания уровня каспийского моря и его прогноз


***Резюме***

В статье по-разному анализируются причины колебания уровня Каспийского моря.В настоящее время решается вопрос о том, что колебания уровня Каспийского моря ставят перед собой всю экономику моря и прибрежной зоны. исследуются также большие трудности и проблемы. Кроме того, главный вопрос впереди — исследовать причины подъема,

а не падения уровня моря, и попытаться дать более или менее гарантированный прогноз этого процесса.

***Ключевые слова: колебания уровня, водный баланс моря, гидрологические наблюдения, уровенный режим, тектонические движения и др.***

***Aishan Zafar Aliyeva***
***Master, Azerbaijan Cooperation University***
***Aisen1999@gmail.com***

**Vasculations of the Caspian sea level and its forecast**

***Summary***

The article analyzes the causes of fluctuations in the level of the Caspian Sea in different ways. At present, the issue is being resolved that fluctuations in the level of the Caspian Sea put the entire economy of the sea and the coastal zone in front of them. major difficulties and problems are also explored. In addition, the main question ahead is to investigate the causes of the rise, rather than the fall, of sea level, and try to give a more or less guaranteed forecast of this process.

***Key words: level fluctuations, sea water balance, hydrological observations, level regime, tectonic movements, etc.***

**UOT: 33.379.85**

***Ülviyyə Zakir qızı ƏLİYEVA***
***doktorant, AKU***
***aliyeva_ulviyya19@yahoo.com***

## AZƏRBAYCANIN DAĞ RAYONLARINDA TURİZMİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Şərqi Avropa ilə Qərbi Asiyanın kəsişməsində yerləşən Azərbaycan uzun müddətdir ki, zəngin mədəniyyəti və zəngin təbii sərvətləri ilə tanınır. Son illər Azərbaycan məşhur turizm məkanına çevrilib, onun dağlıq əraziləri dünyanın hər yerindən gələn qonaqlar üçün getdikcə daha cəlbedici olur. Bu ərazilərdə turizmin inkişafında mühüm rol oynayan əsas şəxsiyyətlərdən biri Azərbaycanın mərhum prezidenti və ümummilli lideri Heydər Əliyevdir. Tezisdə Əliyevin rəhbərliyi və vizyonunun ölkənin dağlıq bölgələrində turizmin inkişafına töhfə verdiyi müxtəlif yollar araşdırılır.

***Açar sözlər: Ümummilli lider, Heydər Əliyev, dağ rayonları, turizm, inkişaf.***

***

Azərbaycanın mərhum prezidenti və ümummilli lideri Heydər Əliyev ölkənin turizm sənayesinin inkişafının aparıcı qüvvəsi olub. Onun Azərbaycan SSR Kommunist Partiyasının birinci katibi vəzifəsində işlədiyi dövrdən başlayaraq turizmi inkişaf etdirmək üçün göstərdiyi ilk səylər indi çiçəklənən və çoxşaxəli bir sahənin əsasını qoydu. Onun Azərbaycanda turizmi inkişaf etdirmək üçün əsas strategiyalarından biri bu sektoru şaxələndirmək, onun geniş maraq və üstünlüklərə cavab verməsini təmin etmək olub. Onun rəhbərliyi müxtəlif turizm alt sektorlarının, o cümlədən ekoturizm, macəra turizmi və mədəni turizmin böyüməsini təşviq etdi. Bunun nəticəsidir ki, Azərbaycanın dağlıq bölgələri indi yürüyüş və yamac paraşütündən tutmuş tarixi yerləri kəşf etməyə və yerli mədəni tədbirlərdə iştiraka qədər müxtəlif fəaliyyətlər və təcrübələr təklif edir. Onun rəhbərliyi ilə Azərbaycan hökuməti dağ rayonlarını turistlər üçün daha əlverişli etmək üçün ölkənin infrastrukturuna böyük sərmayələr yatırıb [9, s.166].

Yolların, hava limanlarının və ictimai nəqliyyat sistemlərinin təkmilləşdirilməsi ziyarətçilərin ucqar və dağlıq ərazilərə səyahətini asanlaşdırıb. Müasir mehmanxanaların, kurortların və turizm obyektlərinin tikintisi də səyahətçilər üçün rahat və xoş təcrübə yaratmağa kömək edərək, Azər-

baycanı həm yerli, həm də beynəlxalq turistlər üçün getdikcə daha cəlbedici bir məkana çevirib.

Heydər Əliyev Azərbaycanın nadir mədəni irsinin və təbii mühitinin qorunub saxlanmasının vacibliyini dərk etmiş və bu qiymətli sərvətlərin qorunması üçün siyasət həyata keçirmişdir. Onun rəhbərliyi çoxsaylı muzeylər, mədəniyyət mərkəzləri və tarixi yerlər yaratdı ki, bu da dağlıq bölgələrə gələn turistlərin əsas cazibə mərkəzinə çevrildi. Bundan əlavə, qorunan ərazilərin və təbiət qoruqlarının yaradılması ölkənin biomüxtəlifliyinin qorunmasına və dağlıq əraziləri ziyarətçilərin diqqətini cəlb edən təmiz landşaftların saxlanmasına kömək etmişdir.

Turizm sənayesinin inkişafı üçün güclü infrastrukturun vacibliyini dərk edən H.Əliyev Azərbaycanın müxtəlif regionlarını birləşdirəcək yolların, körpülərin və nəqliyyat sistemlərinin tikintisinə üstünlük verib. Bu layihələr turistlərin ölkənin mənzərəli mənzərələrinə, tarixi yerlərinə və mədəni görməli yerlərinə asanlıqla daxil olmaq üçün lazımi zəmin yaratdı [3]. O, nəqliyyat infrastrukturu ilə yanaşı, mehmanxanaların, kurortların və istirahət obyektlərinin inkişafına da rəhbərlik edib. Onun bu sahədəki səyləri ölkənin getdikcə daha çox turist qəbul etməsini təmin etdi, onları müxtəlif büdcələrə və üstünlüklərə cavab verən rahat və müasir şəraitlə təmin etdi.

Heydər Əliyevin Azərbaycanda turizmlə bağlı ilk baxışları ətraf mühitin mühafizəsinə güclü diqqəti əhatə edirdi. O, çoxlu mühafizə olunan ərazilərin və qoruqların salınmasında mühüm rol oynayıb və bu, ölkənin nadir flora və faunasının, eləcə də heyrətamiz mənzərələrinin qorunub saxlanılmasına xidmət edib. Bu qorunan ərazilər nəinki Azərbaycanın təbii sərvətlərinin qorunmasına kömək etdi, həm də ekoturistlər və təbiət həvəskarları üçün əsas diqqət mərkəzinə çevrildi [5, s. 26].

Heydər Əliyev iqtisadi artıma təkan vermək və həyat səviyyəsini yüksəltmək üçün infrastrukturun təkmilləşdirilməsini vacib hesab edirdi. Onun rəhbərliyi altında hökumət ucqar dağ rayonlarını ölkənin qalan hissəsi ilə birləşdirmək üçün yolların, körpülərin və tunellərin tikintisinə üstünlük verdi. İnfrastruktura qoyulan bu sərmayələr təkcə ticarəti asanlaşdırmayıb, həm də bu ərazilərdə yaşayan insanlara təhsil və səhiyyə kimi mühüm xidmətlərin göstərilməsinə şərait yaradıb [1]:

**Yol və Nəqliyyat İnfrastrukturu.** Heydər Əliyevin rəhbərliyi altında infrastrukturun inkişafının əsas istiqamətlərindən biri də yolların və nəqliyyat şəbəkələrinin tikintisi və təkmilləşdirilməsi olmuşdur. Dağ rayonlarının ölkənin digər bölgələri ilə birləşdirilməsinin vacibliyini dərk edən Əliyev administrasiyası yolların, körpülərin və tunellərin tikintisinə üstünlük verib. Bu layihələr nəinki yerli icmalar üçün əlçatanlığı yaxşılaşdırdı, həm də bu regionlarda ticarət və iqtisadi artımı asanlaşdırdı.

**Enerji və kommunal xidmətlər.** Elektrik enerjisi və təmiz suya çıxış istənilən regionun inkişafı üçün çox vacibdir. H. Əliyevin dövründə Azərbaycanın dağlıq rayonlarının etibarlı enerji təchizatına çıxışını təmin etmək üçün enerji sektoruna əhəmiyyətli investisiyalar qoyulmuşdur. Bölgənin bol su ehtiyatlarından istifadə edərək su elektrik stansiyaları tikilmiş, milli elektrik şəbəkəsinin ucqar rayonlara qədər genişləndirilməsi üçün səylər göstərilmişdir. Bundan əlavə, yeni su təchizatı və kanalizasiya qurğularının tikintisi yerli sakinlərin həyat keyfiyyətini yaxşılaşdırmışdır.

**Təhsil və Səhiyyə Obyektləri.** Heydər Əliyev başa düşürdü ki, keyfiyyətli təhsil və səhiyyə xidmətlərinə çıxış dağlıq rayonların sosial və iqtisadi inkişafı üçün vacibdir. Onun prezidentliyi dövründə yerli əhalinin əsas xidmətlərə daha yaxşı çıxışını təmin edən çoxsaylı məktəblər, xəstəxanalar və klinikalar tikildi. Əliyev administrasiyası həmçinin bu ucqar ərazilərdə işləmək üçün ixtisaslı müəllimlərin və tibb mütəxəssislərinin cəlb edilməsi üçün stimullar tətbiq edərək, ixtisaslı kadr çatışmazlığını aradan qaldırıb.

**Telekommunikasiya infrastrukturu.** Telekommunikasiya şəbəkələrinin genişləndirilməsi Azərbaycanın dağlıq rayonlarında infrastrukturun ümumi inkişafında mühüm rol oynamışdır. Əliyev administrasiyası telefon xətlərinin və internet xidmətlərinin quraşdırılmasına və təkmilləşdirilməsinə sərmayə qoydu, daha yaxşı rabitə və məlumat mübadiləsinə imkan verdi. Bu gücləndirilmiş əlaqə şəhər və ucqar ərazilər arasında rəqəmsal uçurumu aradan qaldırmağa kömək etdi, iqtisadi artımı və dağlıq bölgələrdə imkanları gücləndirdi.

**Təbii fəlakətlərin qarşısının alınması və idarə olunması infrastrukturu.** Azərbaycanın dağlıq əraziləri sürüşmə, uçqun və sel kimi təbii fəlakətlərə meyillidir. Əliyevin rəhbərliyi altında

hökumət fəlakətlərin qarşısının alınması və idarə olunması infrastrukturuna, o cümlədən erkən xəbərdarlıq sistemlərinə və fövqəladə hallara reaksiya mərkəzlərinə sərmayə qoyub. Bu təşəbbüslər dağ icmalarının davamlılığını artırdı və təbii fəlakətlərin regionun inkişafına təsirini azaltmağa kömək etdi.

Heydər Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyəti ölkənin dağlıq rayonlarının infrastrukturunun inkişafında mühüm irəliləyişlər əldə etdi. Onun administrasiyasının nəqliyyat, enerji, təhsil, səhiyyə, telekommunikasiya və fəlakətlərin qarşısının alınması infrastrukturuna sərmayələri bu sahələrin ümumi böyüməsinə və çiçəklənməsinə töhfə verdi.

Dağ rayonlarının inkişafını prioritet hesab edən H.Əliyev Azərbaycanın gələcəyini formalaşdırmaqda davam edən qalıcı miras qoyaraq bütün ölkə ərazisində resursların və imkanların daha balanslı və ədalətli bölgüsünü yaratmağa kömək etdi [2].

Heydər Əliyev fəaliyyəti dövründə müxtəlif sektorlarda, o cümlədən Azərbaycanın dağlıq bölgələrində turizmin inkişafında mühüm irəliləyişlər olub. Hazırda təbii gözəllikləri və mədəni irsi ilə məşhur olan bu mənzərəli ərazilərdə turizmin təşviqi və inkişafı üçün aşağıdakı tədbirlər həyata keçirilmişdir [7, s. 65].

**Milli parkların və mühafizə olunan təbiət ərazilərinin yaradılması.** Heydər Əliyevin dağlıq bölgələrdə turizmin inkişafı ilə bağlı ən diqqətəlayiq təşəbbüslərindən biri milli parkların və xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması olmuşdur. Məsələn, 2006-cı ildə yaradılmış Şahdağ Milli Parkı regionun biomüxtəlifliyini qorumaq və dayanıqlı turizmi təşviq etmək məqsədi daşıyırdı. Bu qorunan ərazilər nəinki dağlıq ərazilərin təbii gözəlliyini qoruyur, həm də ekoturizm və macəra səyahətləri üçün imkanlar yaradır. Şahdağ Milli Parkı kimi qorunan ərazilərin yaradılması dayanıqlı turizmi təşviq etməklə yanaşı, dağ rayonlarının təbii gözəlliklərini qoruyub saxlamağa kömək etdi [6, s. 224].

**Turizm İnfrastrukturuna İnvestisiya.** Turizmin potensialını iqtisadi artımın hərəkətverici qüvvəsi kimi dərk edən H.Əliyev administrasiyası dağlıq rayonlarda turizm infrastrukturunun inkişafına sərmayə qoyub. Bu investisiyalara mehmanxanaların, qonaq evlərinin, restoranların və ziyarətçi mərkəzlərinin tikintisi, iş yerlərinin yaradılması və yerli iqtisadiyyatın yüksəldilməsi daxildir. Təkmilləşdirilmiş yol və nəqliyyat infrastrukturu da bu əraziləri yerli və beynəlxalq turistlər üçün daha əlçatan edib.

**Mədəni Turizmin Təşviqi.** Azərbaycanın dağ rayonları zəngin mədəni irsə, çoxsaylı tarixi yerlərə və ənənəvi kəndlərə ev sahibliyi edir. Heydər Əliyev hökuməti bu irsin turizm üçün dəyərini dərk etdi və onun qorunub saxlanması və təbliği istiqamətində addımlar atdı. Tarixi yerləri qorumaq üçün bərpa və konservasiya layihələri, yerli adət və ənənələri nümayiş etdirmək, orijinal təcrübələr axtaran turistləri cəlb etmək üçün mədəni tədbirlər və festivallar təşkil edilib.

**Macəra turizminin inkişafı.** Macəra turizmi bütün dünyada artan tendensiyadır və Azərbaycanın dağ bölgələri yürüyüş, dağ velosipedi və xizək sürmə kimi fəaliyyətlər üçün çoxsaylı imkanlar təklif edir. H.Əliyevin rəhbərliyi ilə macəra turizmi infrastrukturunun inkişafı, o cümlədən piyada yollarının, xizək kurortlarının, dağ velosipedi obyektlərinin tikintisinə səy göstərilmişdir. Bu inkişaflar turistlərə maraqlı açıq hava fəaliyyəti ilə məşğul olarkən dağ bölgələrinin təbii gözəlliklərini kəşf etməyə imkan verdi [8, s. 55].

**Beynəlxalq Marketinq və Əməkdaşlıq.** Heydər Əliyev Azərbaycanın beynəlxalq arenada turizm məkanı kimi marketinqinin vacibliyini dərk etdi. Onun administrasiyası beynəlxalq turizm təşkilatları ilə əməkdaşlıq edir və ölkənin dağlıq bölgələrini nümayiş etdirmək üçün səyahət yarmarkalarında və sərgilərdə iştirak edirdi. Bu səylər Azərbaycanın turizm məkanı kimi tanınmasına kömək etdi və dağlıq bölgələrə getdikcə daha çox beynəlxalq ziyarətçi cəlb etdi.

Göründüyü kimi, Heydər Əliyev Azərbaycanın dağlıq bölgələrində turizmin inkişafında mühüm rol oynamışdır. Onun milli parkların yaradılması, turizm infrastrukturuna sərmayə qoyuluşu, mədəni və macəra turizminin təşviqi və Azərbaycanı beynəlxalq bazara çıxarmaq təşəbbüsləri turizm sənayesinə uzunmüddətli təsir göstərmişdir. Bu gün Azərbaycanın dağlıq bölgələri öz təbii gözəllikləri, mədəni irsləri və maraqlı açıq hava fəaliyyətləri ilə getdikcə mütləq ziyarət edilməli yerlər kimi tanınır. Bu ərazilərdə turizmin inkişafında H.Əliyev irsi ölkənin iqtisadi yüksəlişinə və çiçəklənməsinə töhfə verməkdə davam edir [4, s.7].

Azərbaycan heyrətamiz təbiət mənzərələrinə malikdir, dağlıq ərazilər də istisna deyil. Heydər Əliyev turizmin potensialını sosial-iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi tanıyırdı. Otellər, restoranlar və ziyarətçi mərkəzləri də daxil olmaqla turizm infrastrukturuna investisiyalar iş yerləri yaratdı və yerli iqtisadiyyatları gücləndirdi.

H.Əliyev administrasiyası dağ rayonlarında təhsilin və səhiyyənin vacibliyini vurğulayıb. Bu ərazilərdə yeni məktəblərin, xəstəxanaların və poliklinikaların tikintisi yerli əhalinin zəruri xidmətlərdən istifadəsini təmin etdi. Bundan əlavə, hökumət ixtisaslı müəllimləri və tibb mütəxəssislərini ucqar rayonlarda işləməyə həvəsləndirmək üçün stimullar tətbiq edərək, ixtisaslı kadr çatışmazlığını aradan qaldırmağa kömək etdi [1].

Kənd təsərrüfatı Azərbaycanın dağlıq bölgələri üçün mühüm sahədir. Heydər Əliyev hökuməti fermerlərə öz təcrübələrini müasirləşdirməyə və məhsuldarlığı artırmağa kömək etmək üçün siyasət və maliyyə dəstəyi tətbiq etdi. Subsidiyalar, təlim proqramları və müasir texnika ilə təminat fermerlərə yeni texnologiya və texnikaları mənimsəməyə imkan verdi. Bu tədbirlər kənd təsərrüfatı məhsullarının artmasına və dağ icmalarının ərzaq təhlükəsizliyinin yaxşılaşmasına kömək etdi.

H.Əliyev administrasiyası təbii mühitin gələcək nəsillər üçün qorunmasının vacibliyini dərk edirdi. Yuxarıda adı çəkilən Şahdağ Milli Parkı kimi milli parkların yaradılması və meşəbərpa layihələrinin həyata keçirilməsi biomüxtəlifliyin qorunmasına və ekoloji dayanıqlığın təşviqinə yönəlmiş əsas təşəbbüslər idi. Bu səylər Azərbaycanın dağlıq bölgələrinin unikal ekosistemlərini qorumaqla yanaşı, onların turizm məkanları kimi cəlbediciliyini də artırıb.

Heydər Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyəti ölkənin dağ rayonlarının sosial-iqtisadi inkişafında mühüm irəliləyişlər əldə etdi. Onun infrastrukturun yaxşılaşdırılması, turizmin təşviqi, təhsilə və səhiyyəyə sərmayə yatırılmasına sadiqliyi bu ərazilərdə yaşayan insanların həyatına uzunmüddətli təsir göstərmişdir. Bundan əlavə, onun ətraf mühitin qorunması və davamlı inkişafa diqqəti bu bölgələrin təbii gözəlliklərinin gələcək nəsillər üçün qorunub saxlanmasını təmin etdi. Əliyev irsi Azərbaycanın dağlıq rayonlarının davamlı inkişafı və çiçəklənməsini formalaşdırmaqda davam edir.

Heydər Əliyevin Azərbaycanda turizmi inkişaf etdirmək üçün göstərdiyi ilk səylər bu gün ölkənin inkişaf edən turizm sənayesinin təməlinin qoyulmasında mühüm rol oynamışdır. Onun infrastrukturun inkişafı, ətraf mühitin mühafizəsi, mədəni irsin təbliği və beynəlxalq əlaqələrə diqqəti hazırda dünyanın hər yerindən ziyarətçiləri cəlb edən müxtəlif və davamlı turizm sektoru üçün zəmin yaradır. H.Əliyevin turizmə olan baxışı və sadiqliyi irsi sənayeni formalaşdırmağa davam edir və Azərbaycanın səyahətçilər üçün cəlbedici və canlı məkan olaraq qalmasını təmin edir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı. 02.02.2021
2. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. 27.12.2021.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın Statistik Göstəriciləri. Bakı: 2021.
4. Babaxanov N. "Qarabağ: Turizm cənnəti", "Türkistan" qəzeti, 15.12.2021, s.9.
5. Budaqov B. Azərbaycanda turizm. Bakı: "Nafta-Pres" nəşriyyatı. 2021, 32 s.
6. Eyvazov E.T., Balabəyova N.Ş. Beynəlxalq nəqliyyat əməliyyatları, Bakı, 2019, Elm və təhsil, 336 s.
7. Əvəzli K. (2016), "Turizmin Sosial-İqtisadi Nəticələri". Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 81 s.
8. Hüseyn A. "Covid-19 Pandemiyasının Turizm Sektoruna Təsirinin Qiymətləndirilməsi, "İpək Yolu" jurnalı, 2021, № 2. s. 50-58.
9. İbrahimov İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Bakı. 2022. 239 s.

*Ульвия Закир гызы Алиева*
*докторант, АУК*
*aliyeva_ulviyya19@yahoo.com*

**Роль Гейдара Алиева в социально-экономическом развитии горных районов Азербайджана**

***Резюме***

Расположенный на перекрестке дорог Восточной Европы и Западной Азии, Азербайджан издавна известен своей богатой культурой и богатыми природными ресурсами. В последние годы Азербайджан стал популярным туристическим направлением, а его горные районы становятся все более привлекательными для посетителей со всего мира. Одной из главных фигур, сыгравших важную роль в развитии туризма в этих районах, является покойный президент и общенациональный лидер Азербайджана Гейдар Алиев. В статье рассматриваются различные способы, которыми лидерство и дальновидность Алиева способствовали развитию туризма в горных районах страны.

***Ключевые слова: Общенациональный лидер, Гейдар Алиев, горные районы, туризм, развитие.***

*Ulviyya Zakir Aliyeva*
*Ph.D – student, AUC*
*aliyeva_ulviyya19@yahoo.com*

**The role of Heydar Aliyev in the socio-economic development of the mountain regions of Azerbaijan**

***Summary***

Located at the crossroads of Eastern Europe and Western Asia, Azerbaijan has long been known for its rich culture and rich natural resources. In recent years, Azerbaijan has become a popular tourist destination, and its mountainous areas are becoming more and more attractive for visitors from all over the world. One of the main figures who played an important role in the development of tourism in these areas is the late president and national leader of Azerbaijan, Heydar Aliyev. The thesis examines various ways in which Aliyev's leadership and vision contributed to the development of tourism in the mountainous regions of the country.

***Key words: National leader, Heydar Aliyev, mountain regions, tourism, development.***

**UOT 631.45**

*Ruhəngiz Maqsud qızı ƏMİROVA,*
*Magistr*
*rufa.amirova.1979@mail.ru;*

*Köçəri Şamil oğlu ALLAHVERDİYEV*
*kafedra müdiri.c.e.n., dosent,*

**MÜNBİTLİYİ POZULMUŞ ŞORAN TORPAQLARDA FİTOMELİORASİYA**

***Xülasə***

Mütəxəssislər bildirir ki, şoranlaşmış torpaqların münbitləşdirilməsində meliorativ tədbirlərlə yanaşı, həm də üzvi və mineral gübrələrin verilməsi, eyni zamanda, çoxillik ot bitkilərinin əkilməsi əhəmiyyətlidir. Xüsusilə, şoran torpaqların münbitləşdirilməsi üçün həmin sahələrdə yonca bitkilərinin əkilməsi çox faydalıdır. Davamlı sortların becərilməsi, növbəli əkin dövriyyəsinə əməl

edilməsi, ən yaxşı sələf bitkisinin seçilməsi çox əhəmiyyətlidir. Üçyarpaq yonca önəmli dərəcədə vertisillium göbələklərinin inkişafının qarşısını alır. Dərin dondurma şumu, torpağın pH- nın 6,5-7,0 səviyyəsində saxlanması, nitrat azotundan istifadə, torpaqların dezinfeksiyası, son olaraq isə toxumların dərmanlanması çox vacibdir. Fitomeliorasiya üsulunun üstünlüyü ondan ibarətdir ki, müxtəlif variantlarda əkilən bitkilər şoran torpaqlarda olan mikroorqanizmlərin və mikroelementlərin kəmiyyət göstəricilərinə müsbət təsir edir. Fitomeliorasiyanın digər üstünlüyü isə başqa meliorativ üsullardan iqtisadi baxımdan ucuz başa gəlməsidir.

***Açar sözlər: humus, bozqır, ətraf mühit, şoran torpaq, eroziya, deqradasiya.***

***

Ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən olmuşdur ki, ulu öndərin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, Bakıda yaşıllıq zolaqlarının genişləndirilməsi üçün verdiyi tapşırıqları bu gün də uğurla həyata keçirilməkdədir.

Ətraf mühitin mühafizəsi, sağlamlaşdırılması, qorunması daima Respublika Prezidenti İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Buna Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbiətin qorunması ilə bağlı imzaladığı sərəncamları, ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət proqramını, bu sahədə hüquqi bazanın yaradılmasını, milli parkların təşkili istiqamətində görülmüş mühüm işləri göstərmək olar. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli 1697 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün "Kompleks Tədbirlər Planı" qəbul edilməsi də buna nümunədir.

Məqalədə şoran torpaqların üzvi tərkibinin optimizasiyası və aktual problemlərindən bəhs edilir. Şoran torpaqlar, onun əmələgəlmə səbəbləri və bu torpaqlarda üzvi maddələrin tərkibinin optimallaşdırılması zərurət kəsb edən məsələlərdəndir. Şoran torpaqlar Azərbaycanın düzənlik rayonlarında quru bozqır və səhra-bozqır zonasında daha geniş yayılıb. Belə torpaqlar respublika ərazisinin 1,3-1,5%-ni əhatə edir. Mil-Qarabağ, Muğan-Salyan, Şirvan düzlərində, Samur-Dəvəçi ovalığı, Naxçıvan düzü və Abşeron yarımadasının suvarılan zonalarında bu torpaqlar daha geniş yayılmışdır.Profilində bitkilər üçün toksiki miqdarda asan həll olan duzların toplandığı torpaqlar şorlaşmış torpaqlar adlanır. Şorlaşmanın kimyəvi xassəsindən asılı olaraq torpağın üst horizontunda duzların miqdarı 0,6-0,7 və 2-3% və ya daha çox olur. Xloridli şoran torpaqlarda xlor ionunun miqdarı (quru qalıqda xlorun faizlə miqdarı) 40%-dən çox olur. Xloridli şoranlar Muğan düzündə, cənub-şərqi Şirvanda, Abşeron yarımadasında, Siyəzən-Sumqayıt massivində geniş yayılmışdır. Torpaq üzərində aparılan hər hansı düzgün olmayan əməliyyat təkcə məhsuldarlığın və keyfiyyət göstəricilərinin aşağı düşməsinə deyil, ekoloji tarazlığın pozulmasına, uzun müddət münbitliyin itirilmısinə və başqa çatışmazlıqlara gətirib çıxarır. Torpaqəmələgəlmədə canlı orqanizmlərin, ilk növbədə yaşıl bitkilərin və mikroorqanizmlərin xüsusi rolu var. Onların fəaliyyətinin təsiri altında dağ süxurlarının torpağa çevrilməsi və münbitliyinin formalaşması ilə bağlı əhəmiyyətli proseslər, o cümlədən bitki qidasının əsasını təşkil edən elementlərin və azot birləşmələrinin konsentrasiyası, üzvi maddələrin sintezi və parçalanması, bitkilərin və mikroorqanizmlərin həyat fəaliyyətinin məhsulları ilə dağ süxurlarının mineral birləşmələrinin qarşılıqlı təsiri və s. baş verir [1. s, 39]. Torpaqda humusun tərkibinin azalması, struktur-aqreqat vəziyyəti, aqrokimyəvi və bioloji xassələri, torpağın ekoloji funksiyalarının qismən itirilməsi, torpağın deqradasiyası və məhsuldarlığın pisləşməsi və kənd təsərrüfatının dayanıqlığının azalması ilə müşahidə olunur. Torpağa daxil olan çirkləndiricilər onun morfologiyasına, su, fiziki, fiziki-kimyəvi, kimyəvi və bioloji xassələrinə mənfi təsir göstərir. Onun bitki örtüyünü, torpaq canlılarını, mikroorqanizmlərini, fermentlərini, bakteriyalarını məhv edir və dəyişdirir. Çirklənməyə məruz qalmış qranulometrik tərkibi yüngül olan torpaqlarda bir sıra çirkləndiricilər torpağın dərinliklərinə hopur. Nəticədə torpaq öz məhsuldarlığını tam itirir. Torpaq məhfumu olmaqdan çıxır. Torpaqda olan kimyəvi maddələrin yüksək miqdarda konsentrasiyası ilk növbədə bitki orqanizmində, daha sonra bu bitkilərlə qidalanan heyvan və insan orqanizmində bir sıra problemlərin yaranmasına gətirib çıxarır. Belə dəyişikliklərin çoxu neqativ xarakterlidir və torpaqların deqradasiyasına səbəb olub. Deqradasiya (latınca deqradatio-azalma, geriyə getmək, pisləşmə, keyfiyyətin itməsi) dedikdə torpağın strukturunu

pozan, mənfi xarakterli kimyəvi xassələri yaradan və nəhayət onun münbitliyinin itməsinə və keyfiyyətinin pisləşməsinə səbəb olan proses və təsirlərin nəticəsi başa düşülür. Deqradasiyanın əsas forması meşəsizləşmə, səhralaşma, duzlaşma və torpaqların eroziyaya uğramasıdır. Tərkibində çoxlu miqdarda duzların olması şoranların ən səciyyəvi cəhətidir. Duzların yüksək konsentrasiyası bu torpaqların su və qida rejimlərinə mənfi təsir göstərir. Duzların hiqroskopikliyi səbəbindən bitkinin mənimsəyə bildiyi suyun miqdarı kəskin şəkildə aşağı düşür. Şoranlar aşağı təbii münbitliyə malikdir. Suda həll olan duzların torpaq məhlulunda yüksək konsentrasiyası bitkinin su təminatını kəskin şəkildə pozur və onların məhv olmasına səbəb olur. Şorlaşmış torpaqlarda bitən mədəni bitkilərin mineral qidalanması və maddələr mübadiləsi pozulur, inkişafı ləngiyir, fotosintez zəifləyir və nəticədə məhsuldarlıq və onun keyfiyyəti aşağı düşür.

Hazırda əkinçiliyin inkişafına mənfi təsir göstərən amillərdən biri torpaqların şoranlaşması və şorakətləşməsidir. Bu növ şorlaşmış torpaqlarda əsasən natrium-karbonat və bikarbonat duzları üstünlük təşkil edir. Qarabağ düzünün mərkəzi və Naxçıvan MR-in Arazsahili hissələrində təsadüf olunur ki, bu torpaqlara sodalı şoranlar deyilir.

Sulfat ionu üstünlük təşkil edən torpaqlardır və ümumi duzların 40%-dən çoxunu natrium-sulfat duzu təşkil edir. Cənubi Muğanda, Şirvan və Qarabağ düzlərində və s. geniş yayılmışdır ki, belə torpaqlar sulfatlı şoranlar adlandırılır.

Xlorlu-sulfatlı, sodalı-sulfatlı, sulfatlı-sodalı və s. kimi duzların qarışığı əsas yer tutur və yayılmasına görə digərlərindən daha geniş ərazilərdə yayılmışdır. Bu ərazilər Kür Araz ovalığı, əsasən də mərkəzi Aran zonası (Kürdəmir, Yevlax, Ucar, Ağdaş, Zərdab) qarışıq şoranlar hesab olunur. Ümumilikdə şoran torpaqların formalaşmasında, duzların əsas mənbələrindən biri səthə yaxın yerləşmiş minerallaşmış qrunt sularıdır. Lakin vulkan püskürməsi və quru iqlim şəraitində bitki qalıqlarının aerob şəraitdə parçalanması nəticəsində torpaqda böyük miqdarda asan həll olan duzlar toplanır. Quru iqlimin hakim olduğu rayonlarda, xüsusən də səhra və yarımsəhra vilayətlərində buxarlanmanın düşən yağıntılardan bir neçə dəfə yüksək olması qrunt sularında və torpaqəmələgətirən süxurlarda toplanması üçün əlverişli şərait yaradır. Əsasən aşagıdakı bu göstəricilər şoranlaşmış torpaqlar üçün səciyyəvi xarakter almışdır.

***Cədvəl 1.***

***Şoranların bəzi göstəriciləri***

| Horizontlar | Humus, % | CO2, % | pH, su çəkimi | Quru qalıq, % |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| Çəmən xloridli-sodalı (-bozqır) | | | | |
| A | 8,09 | - | 9,1 | 1,23 |
| AB1 | 4,79 | 6,0 | 9,5 | 1,03 |
| B1 | 3,03 | 1,6 | 9,4 | 1,00 |
| B2 | 1,75 | 1,5 | 9,2 | 0,75 |
| B3 | 1,00 | 7,2 | 9,4 | 0,55 |
| C | 0,45 | 3,6 | 9,2 | 0,37 |
| Çəmən xloridli-sulfatlı (bozqır) | | | | |
| A | 3,14 | 0,9 | 7,4 | 1,85 |
| B1 | 1,11 | 4,0 | 7,3 | 1,79 |
| B2 | 0,50 | 4,0 | 7,4 | 1,36 |
| C | - | 3,1 | 7,3 | 1,57 |

Şoranlarda humusun miqdarı bu və ya digər zonada şorlaşmanın dərəcəsindən və növündən asılıdır. Əksər hallarda şoranlar az humuslu torpaqlar hesab olunurlar. Humusun tərkibində fulvoturşular üstünlük təşkil edir. Şoranlarda azot və küli maddələrin miqdarı azdır [2.s325].

Şorlaşmış torpaqların ekoloji qiymətləndirilməsi: Qiymətləndirmədə "bioloji duzadavamlılıq" və "aqronomik duzadavamlılıq" anlayışlarından istifadə edirlər. Bioloji duzadavamlılıq – məhsulvermə qabiliyyətini saxlamaqla bitkinin şorlaşmış torpaqlarda tam fərdi inkişaf tsiklini həyata

keçirmək qabiliyyətidir. Bu zaman üzvi maddənin bitkidə toplanması aşağı intensivliklə baş verir. Aqronomik duzadavamlılıq – kənd təsərrüfatının tələblərinə uyğun olaraq yüksək məhsulvermə qabiliyyətini saxlamaqla bitkinin şorlaşmış torpaqlarda tam fərdi inkişaf tsiklini həyata keçirmək qabiliyyətidir. Kənd təsərrüfatı və yem bitkiləri duzadavamlılığına görə fərqlənirlər. Aparılmış tədqiqatlar nəticəsində kənd təsərrüfatı bitkiləri duzadavamlılığına görə üç qrupa bölünmüşdür.

Davamsız – lobya, yonca, turp, kərəviz, alma, armud, portağal, qreyfrut, gavalı, badam, ərik, şaftalı, limon, avakado və s.

Orta davamlı – çovdar, buğda, soya, qarğıdalı, düyü, kətan,günəbaxan, pomidor, kələm, kartof, istiot, yerkökü, soğan, noxud və s.

Davamlı – arpa, şəkər çuğunduru, pambıq, ispanaq, qulançar, xurma palması və s.

Şoranlar çox vaxt düzgün aparılmayan suvarma nəticəsində də yaranır. Şoranların yaranmasında bitkilərin də rolu böyükdür. Bitki qalıqlarının minerallaşması nəticəsində yaranmış duzlar torpağın üst horizontlarında toplanır. Onların akkumulyasiyasının miqyası bitkilərin bioloji xüsusiyyətlərindən asılıdır [3, s. 322].

Şoranlaşmaya qarşı zəruri tədbirlər: şorlaşmanın qarşısının alınması üçün becərilən bitkilərin vegetasiya müddətində suvarma normasını, sayını və müddətini gözləmək, işlənmiş suyun vaxtında sahədən kənarlaşdırılması vasitəsilə əldə edilir. Suyun kapilyarlarla qalxmasının qarşısını almaqdan ötrü torpağın üst horizontları yumşaq vəziyyətdə saxlanmalıdır. Qrunt sularının qalxmasının qarşısını alan tədbir kimi suvarma kanalları boyunca ağac bitkilərinin əkilməsinin əhəmiyyəti böyükdür. Ağac bitkiləri transpirasiyaya böyük miqdarda su sərf edərək qrunt suyunun səviyyəsini aşağı salır və suyun torpaq vasitəsilə buxarlanmasını azaldır və bununla da torpaqların şorlaşmasının qarşısını alır. Mineral və üzvi gübrələrin əsaslı surətdə uyğunlaşdırılması təsərrüfatlarda düzgün gübrələmə sisteminin tətbiqinə imkan verir ki, bu da əkinçilikdə maddələr dövranını yaxşılaşdırır [4, s. 14].

Fitomeliorasiyada çirklənmiş torpaqların bitkilərindən istifadə etməklə təmizlənməsi ətraf mühitdə bitkilər və mikroorqanizmlər arasında təbii tarazlıq yaradan mahiyyət etibarı ilə ekoloji üsul hesab olunur. Fitomeliorasiya tətbiq edilməsi onunla səciyyəvidir ki, bitkilərin geniş sahəni əhatə edən kök sistemi yaranır və kök zonasında mikroblar koloniyası yığılır, tezliklə kök sistemini dövrələyən mikroblar ekssudat yaradaraq bilavasitə rizobakterial qatın fəaliyyətinə toxunur. Sahədə aparılan fitomeliorasiya tədbirləri aşağıdakılara səbəb olur: 1) Bitkinin çürük qalıqları və köklərin rizobakterial xüsusiyyəti çrkli torpaq qatını stimulyasiya edir, buradakı oksigen rejiminə təsir göstərir. 2) Absorbsiyanın və ya evapotranspirasiyanın genişlənməsi nəticəsində bitkilərin kök zonasına çirkləndiricilərin nəql edilməsi yavaşıyır. 3) Sonradan buxarlanan su kütləsinin bir hissəsinin bitkilər tərəfindən udulması, çirkləndirici maddələrin reaksiya yolu ilə daha effektli parçalanmasına səbəb olur. Bu halda mikroorqanizm destruktorların maksimal konsentrasiyası birbaşa bitkinin kökləri zonasında yaranır. Bu zaman bitki mikroorqanizmləri kök sistemini ekssudatları ilə (şəkər, spirt, üzvi turşular və s.) təmin edir, mikroorqanizmlər isə çirkləndirici maddələrin parçalanmasında katalizator olan indusibel fermentlər törədərək torpağın təmizlənmə qabiliyyətini artırır. Şoranlar güclü qələvi reaksiyası, udulmuş əsasların cəmində maqnezium (50%) və natriumun (20% və daha çox) üstün olması ilə seçilir [5, s. 54].

Fitomeliorasiyada əsas rol bitkilərin üzərinə düşür. Bitkilər torpaqdan (və ya qrunt sularından) çirklənmiş maddələri udur və kökaltı sahədə cəmləşdirir, suyu isə buxarlandırır. Mahiyyət etibarı ilə fitomeliorasiya torpağın təbii bərpa edilməsi müddətlərinin aralıq dövrü olaraq, insanlar tərəfindən çirklənmiş sahələrin təbii bərpasında istifadə edilən bir prosesdir.

Mütəxəssislər bildirir ki, şoranlaşmış torpaqların münbitləşdirilməsində meliorativ tədbirlərlə yanaşı, həm də üzvi və mineral gübrələrin verilməsi, eyni zamanda, çoxillik ot bitkilərinin əkilməsi əhəmiyyətlidir. Xüsusilə, şoran torpaqların münbitləşdirilməsi üçün həmin sahələrdə yonca bitkilərinin əkilməsi çox faydalıdır. Davamlı sortların becərilməsi, növbəli əkin dövriyyəsinə əməl edilməsi, ən yaxşı sələf bitkisinin seçilməsi çox əhəmiyyətlidir. Üçyarpaq yonca önəmli dərəcədə vertisillium göbələklərinin inkişafının qarşısını alır. Dərin dondurma şumu, torpağın pH- nın 6,5-7,0 səviyyəsində saxlanması, nitrat azotundan istifadə, torpaqların dezinfeksiyası, son olaraq isə toxumların dərmanlanması çox vacibdir. Fitomeliorasiya üsulunun üstünlüyü ondan ibarətdir ki,

müxtəlif variantlarda əkilən bitkilər şoran torpaqlarda olan mikroorqanizmlərin və mikroelementlərin kəmiyyət göstəricilərinə müsbət təsir edir. Fitomeliorasiyanın digər üstünlüyü isə başqa meliorativ üsullardan iqtisadi baxımdan ucuz başa gəlməsidir.

## ƏDƏBİYYAT


1. Babayev M.P. Azərbaycanın antropogen torpaqlarının nümunəvi biomorfogenetik təsnifatı və diaqnostikası / M. P. Babayev. – Bakı: Elm, - 2000. –s.39
2. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları/Bakı –"Elm" – 2007-325s
3. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları/Bakı –"Elm" – 2007-322s
4. A.M. Hüseynov, N.V. Hüseynov, K.Y. Məmmədova. AQROKİMYA-Bakı-2018-14s
5. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatları/ Q.Ş. Məmmədov. – Bakı: - 2002, -54 s.



***Кочари Шамиль оглу Аллахвердиев,***
***заведующий кафедрой к.э.н., доцент***
***Рухангиз Максуд Амирова, магистр***


### Фитомелиорация на засоленных почвах с нарушенным плодородием


***Резюме***

Специалисты отмечают, что, помимо мелиоративных мероприятий, важное значение в удобрении засоленных почв имеют органические и минеральные удобрения, а также посадка многолетних трав. В частности, очень полезно сажать растения люцерны на тех участках, где удобряют засоленные почвы. Очень важно выращивать устойчивые сорта, соблюдать севооборот и выбирать лучший предшественник. Клевер значительно подавляет развитие вертициллезных грибов. Очень важны вспашка глубокой заморозки, поддержание pH почвы на уровне 6,5-7,0, использование нитратного азота, обеззараживание почвы и, наконец, опрыскивание семян. Преимуществом метода фитомелиорации является то, что растения, высаженные в разных вариантах, положительно влияют на количественные показатели микроорганизмов и микроэлементов в засоленных почвах. Еще одним преимуществом фитомелиорации является то, что она экономически дешевле других мелиоративных методов.



***Ключевые слова: гумус, степь, окружающая среда, засоленная почва, эрозия, деградация.***



***Kochari Shamil Allahverdiyev***
***head of the department c.e.n., associate professor***
***Ruhangiz Maqsud Amirova***
***Master's degree***


### Phytomelioration in fertility disrupted saline soils


***Summary***

Experts say that, in addition to melioration measures, organic and mineral fertilizers, as well as planting of perennial grasses, are important in fertilizing saline soils. In particular, it is very useful to plant alfalfa plants in those areas to fertilize saline soils. It is very important to cultivate sustainable varieties, follow crop rotation and choose the best predecessor plant. Clover significantly inhibits the development of verticillium fungi. Deep freezing plowing, keeping the soil pH at 6.5-7.0, using nitrate nitrogen, disinfecting the soil, and finally spraying the seeds are very important. The advantage of the phytomeloration method is that plants planted in different variants have a positive effect on the quantitative indicators of microorganisms and trace elements in saline soils. Another advantage of phytomeloration is that it is economically cheaper than other meliorative methods.



***Key words: humus, steppe, environment, saline soil, erosion, degradation***

**UOT: 338:65.2/4**

***Zaur Cahangir oğlu ƏSƏDOV***
***AR Elm və Təhsil Nazirliyi***
***İqtisadiyyat İnstitutunun doktorantı***
***https://orcid.org/0000-0001***
***e-mail: zaur.asadov.89@gmail.com***

# AZƏRBAYCANIN QEYRİ-NEFT SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAVAMLI FƏALİYYƏTİNİN ANTİBÖHRAN TƏDBİRLƏRİ

***Xülasə***

Məqalədə son illər baş verən iqtisadi böhranların Azərbaycanın makro iqtisadiyyatına və qeyri-neft sənaye müəssisələrinin davamlı fəaliyyətinə mənfi təsirləri açıqlanmış, onların aradan qaldırılması istiqamətində təşkilati-iqtisadi və sosial xarakterli təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: böhranlar, makro iqtisadiyyat, qeyri-neft sektoru, sənaye müəssisələri.***

***

Qlobal iqtisadi-maliyyə böhranları qədim tarixə təsadüf edərək son iki yüzilliklər dövründə dünya iqtisadi sisteminə inteqrasiya olunmuş və əksər ölkələrdə iqtisadi təhlükələr yaratmışdır. Böhranlar Azərbaycan iqtisadiyyatından da yan keçməmiş, ölkədə aparılan islahatlara və həyata keçirilən qabaqlayıcı tədbirlərə baxmayaraq ayrı-ayrı qeyri-neft sənaye müəssisələrinin fəaliyyətinə öz mənfi təsirini göstərmişdir. Nəticədə, respublikamızın bir sıra sənaye sahələrində yaradılmış əlavə dəyərin tərkibində və ÜDM-də emal sənayesi məhsullarının həcmi və xüsusi çəkisi yüksələn xətlə artsa da, onun ölkə iqtisadiyyatındakı ümumi payı azalmaqdadır. İxracın tərkibində emal məhsullarının xüsusi çəkisi aşağıdır. Müəssisələrin anbarlarında hazır məhsul ehtiyatının (qalığının) həcmi ildən-ilə artır, müəssisələrin xeyli hissəsi zərərlə işləyir, kapital verimi göstəricisinin səviyyəsi ildən-ilə aşağı düşməkdədir.

Azərbaycanın sənaye müəssisələrinin fəaliyyəti, innovativ durumu, maliyyə dayanıqlığı, xarici-iqtisadi fəaliyyəti, idarəetmə texnologiyalarından istifadə imkanları, antiböhran idarəetmə mexanizmləri kontekstində sistemli formada tədqiq edilməsinə zəruri ehtiyac duyulur [1,2,3].

Son illər tədqiq edilən problemə dair apardığımız tədqiqatların məntiqi nəticəsi kimi qeyri-neft sənaye müəssisələrinin davamlı fəaliyyətinin antiböhran tədbirlərinin aşağıdakı istiqamətlərinin icrasına diqqət yetirilməsini məqsədəuyğun hesab edirik:

a) Antiböhran idarəetmənin dövlət tənzimlənməsi üzrə:

- Mədənçıxarma sənayesinin qeyri-neft sahələri və emal sənayesinin bütün alt sahələrini əhatə etməklə Azərbaycan Respublikasının Antiböhran Konsepsiyasının işlənilməsi və qəbul edilməsi;
- Xarici investisiyalı və müştərək müəssisələrin iqtisadi fəaliyyət sahələrində bərabər yerləşdirilməsi üzrə müvafiq təşviq mexanizminin işlənilməsi;
- Ölkə iqtisadiyyatının şaxələndirilməsi, onun qlobal və regional istehsal şəbəkəsi ilə əlaqələndirilməsi prosesinə birbaşa xarici investisiyaların fəal cəlb edilməsi;
- Emal sənayesi sahələrinə yönəldiləcək birbaşa xarici investisiyaların təsirinin əvvəlcədən ölçülməsi və müəssisə səviyyəsində göstəricilərə təsirinin müəyyən edilməsi;
- Hazırda Azərbaycandan xammal kimi ixrac edilən kimya, əlvan metal, pambıq mahlıcı və digər sənaye, kənd təsərrüfatı məhsullarının ölkə daxilində emalı üzrə müştərək müəssisələrin yaradılması, yeni və ixrac edilə bilən məhsulların istehsalının təşkilinin prioritet kimi çıxış etməsi;
- Sənaye məhəllələrinin, texnoparkların və dəyər zənciri başa çatan aqroparkların şəbəkəsinin genişləndirilməsi hesabına ixrac yönümlü və idxalı əvəz edən qeyri-neft məhsullarının geniş çeşidli istehsalının təşkili;
- "Sənaye-4" inqilabının tələblərinə uyğun İKT-yə əsaslanan ekosistem yaratmaq üçün ciddi struktur dəyişikliyinin aparılması;
- Azərbaycanın maşın və avadanlıqlar istehsal edən neft-maşınqayırma və elektronika müəssisələrinin Azərbaycanın sənaye korporasiyasının strukturuna daxil edilməsi;

- Azərbaycanın yüksək gəlirli ölkələr sırasına daxil olunması üçün iqtisadiyyatda sürətli rəqəmsal meyillərin gücləndirilməsi hesabına qlobal dəyər zəncirinə inteqrasiyanın dəstəklənməsi;
- Bütün iqtisadi fəaliyyət sahələrində rəqəmsal texnologiyaların tətbiqi imkanlarının yeni müstəvidə icrası üçün müvafiq normativ-hüquqi bazanın yaradılması;
- Qlobal dəyər zənciri nəzərə alınmaqla, respublikanın emal sənayesində müqayisəli üstünlüklərin aşkar edilməsi üçün elmi-tədqiqat işlərinin genişləndirilməsi əsasında prioritet sahələrin müəyyən edilməsi, onların arasında kooperasiya əlaqələrinin formalaşdırılması, seçilən sahələrdən məqsədli investisiya-innovasiya layihələrindən geniş istifadəyə üstünlük verilməsi;
- Emal sənayesi sahələrində beynəlxalq standartların və keyfiyyət menecmentinin tətbiqinə münbit şəraitin yaradılması;
- Qeyri neft-qaz sektorunun geniş şaxələndirilməsi hesabına valyuta gəlirlərinin artırılması;
- Daxili və birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına fəal cəlb edilməsi hesabına aşağı investisiya, dayanıqlı məzənnə, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi, dayanıqlı və yüksək ödənişli yeni iş yerlərinin yaradılması, yüksək keyfiyyətli insan kapitalının formalaşmasının təmin edilməsi.

b) Sənaye sektorunun innovasiya fəaliyyətinin və infrastrukturunun genişləndirilməsi üzrə:

- Emal sənayesinin alt sahələrinin spesifik xüsusiyyətləri, texniki-texnoloji durumu nəzərə alınmaqla uzunmüddətli dövrü əhatə edən sahə innovasiya proqramının, elmi təşkilatları cəlb etməklə işlənilməsi və həyata keçirilməsi;
- həmin proqram çərçivəsində emal sənayesinin alt sahələrində birbaşa xarici investisiyaları cəlb etmək üçün məqsədi investisiya-innovasiya layihələrindən istifadəyə üstünlük verilməsi, eləcə də ölkəyə yüksək texnologiya və bilik gətirə bilən birbaşa xarici investisiyaların emal sənayesi sahələrinin axınını sürətləndirmək üçün müvafiq təşviq mexanizmlərinin tətbiqinə nail olunması;
- əqli mülkiyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dəstəyin genişləndirilməsi hesabına rəqabətə davamlı sənaye məhsullarının istehsalının çıxarılması;
- emal sənayesinin alt sahələrində əsas istehsal fondlarının aktiv hissəsinin birbaşa xarici investisiyaların cəlb edilməsi hesabına yeniləşdirilməsi nəticə etibarı ilə sahənin innovasiya aktivliyini yüksəltməyə təminat yaratmaqla yüksək keyfiyyətli, geniş çeşidli ixrac yönümlü və idxalı əvəz edən məhsullar istehsalına imkan vermiş olacaqdır;
- İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müştərək müəssisələr yaratmaqla mədənçıxarma sənayesi sahələrinin inkişafı əsasında ixrac məhsullarının həcminin artırılması;
- İnnovasiya infrastrukturunun ölkənin bütün ərazilərində geniş şəbəkəsinin yaradılması.

c) Sağlam və rəqabətli biznes mühitinin formalaşdırılması istiqamətində:

- Dövlət – özəl əməkdaşlığın beynəlxalq biznes və menecment təcrübəsi əsasında genişləndirilməsi və təşviq olunması;
- Qeyri-neft sənayesi müəssisələrində istehsal edilən məhsulların ixracının stimullaşdırılması, şaxələndirilməsi və xarici bazarlara fəal inteqrasiyasını təmin etmək məqsədi ilə sahibkarların ucuz xammal və maliyyə resurslarına əlçatanlığı, ixrac yönümlü məhsullara aşağı faizli kreditlərin verilməsi, beynəlxalq standartların tətbiqi, müəssisələrdə geniş istifadə edilən texniki şərtlərin, mənəvi cəhətdən köhnələn avadanlıqların və texnologiyaların daha mütərəqqisi ilə əvəz olunması istiqamətində kompleks tədbirlərin icrasının dəstəklənməsi;
- Açıq iqtisadiyyat modelinin IV inqilabının tələblərinə uyğunlaşdırılması üçün emal sənayesinin alt sahələrinin texniki-texnoloji səviyyəsinin, innovasiya aktivliyinin birbaşa xarici investisiyaların fəal cəlb edilməsi hesabına yüksəldilməsi, həmin sahədə xammal ixracından dəyər zənciri boyunca dərin emala keçirilməsi. Həmin modelə sürətli keçidi təmin etmək üçün ekosistemi dərindən bilən mütəxəssislərin qarşısının alınmaması məqsədilə onların əməyinin yüksək təşviqi;
- Sağlam və rəqabətli biznes mühitinin formalaşdırılması üçün məqsədli və startap layihələrinin işlənilməsi və icrasına üstünlük verilməsi;
- Emal sənayesi sahələrində beynəlxalq standartların və keyfiyyət menecmentinin tətbiqinə münbit şəraitin yaradılması;

- Kiçik və mikro ölçülü müəssisələrin əlavə dəyərin yaradılmasında fəaliyyətinin genişləndirilməsi üçün müvafiq təşviq mexanizmlərindən istifadəyə üstünlük verilməsi;
- Mikro və kiçik müəssisələrin müflisləşmədən qorumaq üçün onların sənaye məhəllələrinin və texnoparkların tərkibinə daxil edilməsi prosesinin intensivləşdirilməsi;
- Qeyri-neft sektorunda məhsul istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinin dəyər zəncirlərində iştirakı payının artırılması məqsədilə xarici investorlarla əlaqənin genişləndirilməsi;
- Kiçik, orta və iri müəssisələrin mütərəqqi idarəetmə bacarığına sahib olması, istehsal etdikləri məhsulların keyfiyyətinin yüksəldilməsi, yeni növ məhsulun istehsal edilməsi, xərclərin azaldılması, yüksək ödənişli və sağlam iş yerlərinin yaradılması üçün investorlarla birbaşa dialoq mexanizmlərinin tətbiq edilməsi;
- Zərərlə və aşağı rentabelli işləyən emal müəssisələrində məhsuldarlığın artırılması üçün sahibkarlıq fəaliyyəti imkanlarına bərabər çıxışın təmin edilməsi prinsipinə üstünlük verilməsi;
- Ölkənin sənaye müəssisələrində riskin idarə edilməsi şöbəsinin, orta müəssisələrdə isə riskin idarə edilməsi üzrə səlahiyyətli menecer vəzifəsinin təsis edilməsi və onların iştirakı ilə müvafiq Konsepsiyanın işlənib hazırlanması [4, səh.7].

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. Bakı, 2022, 83 s.
2. Dayanıqlı inkişafın yeni keyfiyyət mərhələsi. Akademik Z.Səmədzadənin 80 illik yubileyinə həsr olunan Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, "AİI", 2022, 814s. (İqtisadiyyat.com)
3. Əliyev Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanın iqtisadi təhlükəsizliyinin aktual məsələləri// AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası №5, Bakı, "Elm", 2020, s.5-12.
4. Əsədov Z.C. Qlobal iqtisadi-maliyyə böhranı və onun Azərbaycan iqtisadiyyatına təsirinin bəzi aspektləri// "İqtisadi artım və ictimai rifah" № 4, Bakı,"AVROPA" 2022, s.85-95.



***Заур Джахангир оглу Асадов***
***Министерство науки и образования АР***
***Докторант Института Экономики***
***https://orcid.org/0000-0001***
***e-mail: zaur.asadov.89@gmail.com***


### Антикризисные меры для непрерывной работы ненефтепромышленных предприятий Азербайджана


***Резюме***

В статье раскрыты негативные последствия экономических кризисов, произошедших в последние годы, на макроэкономику Азербайджана и непрерывную деятельность ненефтяных промышленных предприятий, а также даны организационные, экономические и социальные предложения и рекомендации. для их устранения.



***Ключевые слова: кризисы, макроэкономика, ненефтяной сектор, промышленные пред-приятия.***



***Zaur Jahangir Asadov***
***AR Ministry of Science and Education***
***Doctoral student of the Institute of Economics***
***https://orcid.org/0000-0001***
***e-mail: zaur.asadov.89@gmail.com***


### Anti-crisis measures for continuous operation of non-oil industrial enterprises of Azerbaijan


***Summary***

In the article, the negative effects of the economic crises that have occurred in recent years on the macro-economy of Azerbaijan and the continuous activity of non-oil industrial enterprises have

been disclosed, and organizational, economic and social suggestions and recommendations have been given in order to eliminate them.

***Key words: crises, macroeconomics, non-oil sector, industrial enterprises.***

**UOT: 336.645.1:336.64**

***Ellada Dilsuz qızı HƏSƏNOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***MBA-003D qrup magistrantı***
***E-mail: ellada.h858@gmail.com***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TÜKƏNMƏZ MƏNƏVİ İRSİ MÜASİR İQTİSADİYYATIMIZIN QİDA MƏNBƏYİDİR

***Xülasə***

Tarixin xalqımıza bəxş etdiyi görkəmli şəxsiyyət – dünya şöhrətli siyasət və dövlət xadimi, fenomen insan, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etmək olan, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi ötən illərdə xalqımızın qəlbində əbədiləşmiş, ideya və əməlləri isə ölkəmizin gələcəyinə nur saçır. Təqdim etdiyim tezis ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsinə ithaf olunur.

***Açar sözlər: ümummilli lider, iqtisadi və siyasi müstəqillik, bazar iqtisadiyyatı, valyuta-kredit, türk dünyası.***

***

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi, bank sektorunun formalaşması və inkişafında da dönüş nöqtəsi olmuşdur. Heydər Əliyevin birbaşa diqqət və dəstəyi ilə bank islahatları dövlət bankların yenidən qurulması, özəl bankların kapitalizasiyası və konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində həyata keçirilmişdir.

Ulu öndərin ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması, bütün sahələrdə köklü islahatların aparılması, iqtisadiyyatın, regionların və sahibkarlığın inkişafı sahəsində gördüyü misilsiz xidmətlər danılmazdır. [3]

Ulu öndər Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır. Azərbaycan yarım əsrdən artıqdır ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Heydər Əliyev bütün türk dünyasının sevimlisi, türkdilli xalqların fəxr etdiyi öndərdir. [1]

Ümummilli liderimiz Heydər Əliyev keçmiş SSRİ məkanında yaranmış Müstəqil Dövlətlər Birliyi çərçivəsində hamının öyrənmək istədiyi siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, bütün dünya siyasətçiləri arasında ən uzaqgörən şəxsiyyət kimi həmişə nüfuzlu və hörmətlidir. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir.

Ümummilli lider Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GÜAM, MDB və başqa beynəlxalq təşkilatların toplantıla-

rında daim qlobal bəşəri problemlərə öz orijinal baxışı ilə fərqlənirdi. Çünki ulu öndərin, sözün həqiqi mənasında, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi. O, bu gün bütün dünyada Azərbaycanın rəmzinə çevrilib. Məhz ona görə də böyük liderimizin doğum gününü xalqımız böyük təntənə ilə qeyd edir.

Həmin dövrdə qarşıda Azərbaycan Respublikasının nicat yolunun müəyyən edilməsi dururdu. Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə dəvət olunmuş Heydər Əliyev görünməmiş enerji ilə fəaliyyətə başladı, ölkədə qayda-qanun yaratmaq, daxili sabitliyi təmin etmək, silahlı qüvvələri möhkəmləndirmək, erməni təcavüzkarları və onların havadarlarının hücumlarını dayandırmaq, beynəlxalq aləmə Azərbaycan həqiqətlərini çatdırmaq üçün böyük işlər gördü.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş, "Əsrin müqaviləsi" respublikamızın müstəqillik salnaməsinə qızıl hərflərlə həkk olundu və Heydər Əliyevin neft strategiyası adı aldı. Müstəqilliyini bərqərar edən Azərbaycan Respublikası öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha əyani şəkildə bəyan etdi. Postsovet məkanında yaranmış dövlət ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyasda saziş imzalamaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını yaratdı. Bununla da Prezident Heydər Əliyev o dövrün böhranlı sosial-iqtisadi şəraitində növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

"Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi. Xarici investorların ölkəmizə axını sürətləndi və Azərbaycanda yeni neft-qaz kontraktlarının bağlanmasına güclü təkan verdi. Ümummilli liderin rəhbərliyi ilə 24 fevral 1995-ci ildə – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) təsis edildi. Beynəlxalq şirkət Azərbaycan neftinin dünya bazarına çıxarılması layihəsini hazırladı. 9 oktyabr 1995-ci ildə rəhbər komitə ilkin neft layihəsi və ilkin neft ixracı marşrutunun iki variantını, Rusiyadan keçən şimal marşrutunu və Gürcüstandan keçən Qərb marşrutunu təsdiq etdi.

Azərbaycan xalqının tərəqqi etməsi və dünyada tanınmasına bütün həyatını sərf etmiş ulu öndər müstəqillikdən əvvəlki dövrdə də böyük quruculuq işləri görmüşdür. Belə ki, neft, kimya, maşınqayırma, energetika, sənaye sahələri, kənd təsərrüfatı, şəhərsalma, təhsil, elm, səhiyyə, incəsənət sahələrini inkişaf etdirən ulu öndər Azərbaycanı dünyada tanıtdırdı. Hazırda Azərbaycanın müasir inkişafı həmin dayaqlara söykənir.

Qeyd etmək lazımdır ki, respublikamızda imzalanmış 23 beynəlxalq neft müqaviləsi çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkar milli kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar açmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin təmin edilməsi və bazar münasibətlərinin inkişaf etdirilməsi sahəsində aparılan iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Ölkəmiz iqtisadi və siyasi müstəqillik qazandıqdan sonra dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı əldə etmişdir. Bu müstəqilliyin qazanılmasında isə Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ümummilli lider Heydər Əliyev göstərirdi: "Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir. Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz". Böyük rəhbərin müəyyən etdiyi iqtisadi siyasət strategiyasının başlıca istiqamətlərini sabitləşdirmə, islahatlaşdırma, dünya iqtisadi inteqrasiyasına qoşulma, sosial-iqtisadi inkişaf və xalqın rifahının yüksəldilməsi və s. təşkil edir.

Bazar münasibətlərinə keçid dövründə ölkəmizdə baş verən iqtisadi dəyişikliklərin, daha da sürətləndirilən islahatların aparılmasında və ictimai-siyasi münasibətlərin formalaşmasında Heydər Əliyevin xüsusi rolu vardır. Belə ki, ümummilli lider müxtəlif mülkiyyət növlərinə əsaslanan,

bazar iqtisadiyyatına keçidi nəzərdə tutan, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, azad sahibkarlığa hüquqi təminatın yaradılması, dünya təsərrüfat sisteminə inteqrasiyanın güclənməsi və s. iqtisadi inkişaf məsələlərinə daim diqqət yetirirdi. Bu baxımdan ulu öndər göstərirdi: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir".

Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə mülkiyyətin çoxnövlülüyü əsasında müxtəlif təsərrüfat formalarının, daxili bazarın yaranması və fəaliyyəti üçün bazar infrastrukturunun yaradılması, biznes və sahibkarlıq fəaliyyətinin inkişafı, özəlləşdirmə proqramının həyata keçirilməsi, xarici iqtisadi əlaqələrin bərpa edilməsi, maliyyə, kredit, bank işi, pul tədavülünün yenidən qurulması, inflyasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü iş aparır. Bu işlərin həyata keçirilməsində dövlət öz funksiyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir.

Hazırkı dövrdə elmi-texniki və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, heç bir ölkə xarici iqtisadi əlaqələrsiz və digər ölkələrlə əməkdaşlıq etmədən öz milli iqtisadiyyatının optimal inkişafını təmin edə bilməz. Ona görə də bütün ölkələr öz aralarında beynəlxalq və regional səviyyədə maddi nemətlərin, xidmətlərin istehsalı və mübadiləsi sahəsində iqtisadi əlaqələrə girirlər. Belə ki, Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri ölkənin ixrac potensialının artırılmasıdır. Qeyd etmək lazımdır ki, hazırda respublikanın xarici ticarət əlaqələri ilbəil genişlənərək ÜDM-də xüsusi çəkisi artmaqdadır. Bu artım əvvəlki illərdə, əsasən, idxalın həcminin artması hesabına baş verirdisə, son illər ixracın yüksəlməsi xarici ticarət dövriyyəsini artıraraq, müsbət saldonun əldə olunmasına imkan yaratmışdır.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçısının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Heydər Əliyev siyasətinin layiqli davamçısı, əsl lider İlham Əliyev göstərir ki, ulu öndərin Azərbaycan tarixində rolu və fəaliyyəti əvəzolunmazdır. Bu, bir həqiqətdir və bizim vəzifəmiz: "Bu siyasətə sadiq olmaq, onu davam etdirmək, yeni formalarla zənginləşdirmək və Azərbaycanı gələcəyə doğru aparmaq bizim nicat yolumuzdur. Mən çox şadam ki, son bir il ərzində qarşımızda duran bütün vəzifələr, qəbul edilmiş bütün proqramlar, verilmiş bütün vədlər uğurla yerinə yetirilir və son bir il ərzində Azərbaycan daha da güclənmiş, dünyada öz mövqelərini daha da möhkəmləndirmişdir. Əminəm ki, Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar ölkəmizi daha da, hərtərəfli inkişaf etdirəcəkdir".

Qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin nəzəri irsi ölkə alimləri tərəfindən tədqiq edilir və praktikada tətbiq olunur. Bu isə ölkəmizə yeni uğurlar gətirir. Biz bu gün əmin ola bilərik ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyev ideyaları Azərbaycan xalqını işıqlı gələcəyə və yeni-yeni qələbələrə aparır. Onun əziz xatirəsini qədirbilən xalqımız daim uca tutacaqdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşdirilən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir. Bütün bunlar isə bizə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycanın dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəyinə heç bir şübhə yaranmır.

## ƏDƏBİYYAT

1. http://anl.az/down/meqale/azerbaycan/2010/may/118779.htm
2. https://www.elibrary.az/docs/qazet/qzt2020_14657.pdf
3. https://azertag.az/xeber/Heyder_Aliyev_ve_maliyye

*Эллада Дилсуз кызы Гасанова*
*Магистрант Азербайджанский Университет Кооперации*
*E-mail: ellada.h858@gmail.com*

**Неиссякаемое духовное наследие великого лидера Гейдара Алиева является основной базой нашей современной экономики**

***Резюме***

Дорогая и незабвенная память о Гейдаре Алиеве, выдающейся личности, подаренной историей нашему народу, всемирно известном политическом и государственном деятеле, феноменальной личности, целью которой было творить дела, строить нравственность, служить народу, архитекторе и основателе Независимое Азербайджанское государство, общенациональный лидер Гейдар Алиев в последние годы увековечен в сердцах нашего народа, а его идеи и дела проливают свет на будущее нашей страны. Представленная мной диссертация посвящена дорогой и незабвенной памяти общенационального лидера Гейдара Алиева.

***Ключевые слова: общенациональный лидер, экономическая и политическая независимость, рыночная экономика, валютно-кредитная, тюркский мир.***

*Ellada Dilsuz Hasanova*
*Master Azerbaijan Cooperation University*
*E-mail: ellada.h858@gmail.com*

**The inexhaustible spiritual legacy of the great leader Heydar Aliyev is main source of our modern economy**

***Summary***

The dear and unforgettable memory of Heydar Aliyev, an outstanding personality gifted by history to our people - a world-famous politician and statesman, a phenomenal person, whose goal was to create deeds, build morals, serve the people, the architect and founder of the independent Azerbaijan state, the national leader, Heydar Aliyev, has been in the hearts of our people in recent years. immortalized, and his ideas and deeds shine light on the future of our country. The thesis I presented is dedicated to the dear and unforgettable memory of national leader Heydar Aliyev.

***Key words: national leader, economic and political independence, market economy, currency-credit, turkish world.***

**UOT 502.504**

*Məryəm Muxtar qızı HÜSEYNOVA*
*magistrant, Azərbaycan Kooperasiya Universiteti*
*meryemagayeva718@gmail.com*

**AZƏRBAYCAN RESPUBLİKASINDA TƏBİİ FƏLAKƏTLƏRİN TƏSƏRRÜFATLARA VURDUĞU ZƏRƏRLƏR VƏ ONLARDAN QORUNMA YOLLARI**

***Xülasə***

Azərbaycanda təbii fəlakətlərdən sellər, daşqınlar, sürüşmələr, zəlzələlər baş verərək hər il çoxlu dağıntılara səbəb olur. Məqalədə təbii fəlakətlərlə mübarizə işi, onlara qarşı təbliğat işi, insanları təbii fəlakətlərə "hazırlama" işləri geniş təhlil olunur. Bundan başqa Azərbaycanda tez-tez baş verən və böyük əraziləri əhatə edən sel hadisələrinin coğrafiyası müəyyən edilir və ona qarşı qabaqlayıcı tədbirlər təklif olunur.

***Açar sözlər: təbii fəlakət, sel, daşqın, selli çay, sel ocaqları, turbulent sel, struktur sel və s.***

***

Azərbaycan Respublikasının coğrafi mövqeyi, səth quruluşunun müxtəlifliyi, 825 kilometr məsafədə şərq tərəfdən Xəzər dənizi ilə əhatələnməsi, müxtəlif xarakterli iqlim göstəriciləri, baş verən qlobal iqlim dəyişiklikləri, ilbəil sürətlə artan antropogen amillər və s. ilə əlaqədar dünya okeanları sahillərində baş verən bir neçə növ təbii fəlakətlərdən başqa, yerdə qalan bütün təbii fəlakətlərə Azərbaycanda rast gəlinir. Belə təbii fəlakətlər respublika iqtisadiyyatına hər il orta hesabla 30-50 milyon ABŞ dolları miqyasında ziyan vurur, ayrı-ayrı ekstremal illərdə isə bu zərərlər milyard dollarlarla hesablanır.

Azərbaycanda tarixən bir dəfə baş verən zəlzələdən 80 min nəfər, seldən 398 nəfər, sürüşmədən isə 600 nəfərin ölməsi məlumdur. Azarbaycanda təbii fəlakətlərdən ölənlərə dair göstərilən məlumatlar dünyada ən çox ölüm halları qeyd edilmiş kataloqa daxil edilmişdir. Son 10-15 il ərzində Azərbaycanda baş verən sellər, daşqınlar, sürüşmələr, zəlzələlər və s. hər il höyük dağıntılarla yanaşı, bır neçə nəfərin ölməsi ilə nəticələnmişdir. Bu qədər zərərlərin müqabilində, Azərbaycanda təbii fəlakətlərlə mübarizə işi, insanlar arasında onlara qarşı aparılan təbigat işi, başqa sözlə, insanların təbii fəlakətlərə "hazırlanma" işləri heç də tələb olunan səviyyədə deyildir.

Dünyanın inkişaf etmiş ölkələrində əhali arasında aparılan təbligat işi hökumət səviyyəsində çox yüksək təşkil olunmaqla, bu işlərə elə uşaq bağçalarından, məktəblərdən, litseylərdən, ali məktəblərdən başlanılır və bunun nəticəsində təbii fəlakətlərin baş verdiyi ölkələrin əhalisi özlərini bu fəlakətlərdən necə qorumaları barədə geniş bilik və vərdişlərə yiyələnirlər.

Azərbaycanda isə bu işlər əsasən bu və ya digər təbii fəlakət baş verdiyi vaxt yada düşür və həmin andan insanlar arasında təbliğat işlərinə start verilir. Halbuki, Avstraliyada, Yaponiyada, ABŞ-da, Almaniyada və s, ölkələrdə yerli televiziya, radio verilişlərində, demək olar ki, təbii fəlakətlərin olub-olmamasından asılı olmayaraq hər gün təbliğat xarakterli verilişlər təşkil olunur. Həmin ölkələrdə çoxsaylı "reabilitasiya" sağlamlıq mərkəzləri fəaliyyət göstərir və ilboyu təbii fəlakətlərdən zərər çəkənlərə tibbi və mənəvi yardım göstərilir [1, s.131].

Bu məqalədə Azərbaycan Respublikası ərazisində baş verən, ən çox iqtisadi zərərlərə, dağıntılara, bəzən də insan ölümünə səbəb olan aşağıda göstərilən təbii fəlakətlərə qarşı mübarizə aparmaqla bu hadisələr zamanı insanlara verilmiş tövsiyələrə əməl olunarsa, insan ölümünü əsaslı surətdə azaltmaq yolları göstərilir.

Azərbaycanda təbii fəlakətlərdən tez-tez təkrarlanan və böyük əraziləri əhatə edəni sellərdir. Sellər digər fəlakətlər içərisində Azərbaycanın iqtisadiyyatına ən çox zərər vurur. Sellər torpaqları, əkin sahələrini, meşələri, meyvə və üzüm bağlarını, əkin və tərəvəz sahələrini yararsız hala salır, yaşayış evlərini, mühəndis-kommunikasiya xətlərini, müxtəlif təsərrüfat obyektlərini dağıdır, insan tələfatına səbəb olur. Azərbaycan əhalisi daima sel təhlükəsi altında yaşayır. Belə ki, on səkkiz inzibati rayonun ərazisində yerləşən 500-dən çox şəhər və kənd yaşayış məntəqəsi fəsillərlə və ya mütəmadi sellər tərəfindən dağıntılara məruz qalır. Bunlardan Şəki, Zaqatala, Balakən, Qəbələ, Oğuz, Göyçay, Ordubad və s. kimi iri inzibati rayon mərkəzlərini göstərə bilərik. Respublikanın dəmir yollarının 300 km-i, avtomobil yollarının 1000 km-i, 100-lərlə körpü fasilələrlə sellər tərəfindən dağılır, yararsız hala düşür.

Azərbaycan özünün səth quruluşunun müxtəlifliyi ilə xarakterizə edilərək, respublikanın ərazisinin orta yüksəkliyi 384 metr olmaqla 60%-ni dağlar, 18%-ni isə dünya okeanı səviyyəsindən aşağıda yerləşən ərazilər təşkil edir. Deməli, Azərbaycan ərazisinin 60%-də sellərin olma ehtimalı vardır. Respublika ərazisinin 40%-ə qədərini təşkil edən düzən ərazilərdə, o cümlədən Kür-Araz ovalığında, Abşeron yarımadasında sellərə təsadüf olunur. Respublikada sahəsi 3282 $km^2$ bərabər olan 43 selli hövzə var. buraya Azərbaycanda olan 1200 çaydan 170-i daxildir. Sellərin gətirdiyi materialların tərkibindən asılı olaraq onlar turbulent sellərdir, gətirdiyi materialların təxminən üçdə birini bərk materiallar təşkil etsə də, onlar böyük dağıdıcı qüvvəyə malik olmurlar. Struktur sellər: gətirmə materiallarının tərkibindən asılı olaraq daşlı-palçıqlı, çınqıllı-palçıqlı və palçıqlı olmaqla çox dağıdıcı qüvvəyə malik olub, keçdikləri əraziləri gətirdikləri asılı materiallarla, əsasən gil, palçıqla örtür, böyük tələfatlara səbəb olur. Bu cür sellər Kiş, Şin və s. çaylarda daha çox təsadüf edilir. Sellərin baş verməsi və davamiyyəti əsasən leysan yağışlarından, onların davametmə müddətindən və intensivliyindən, qar örtüyünün qalınlığı və onun ərimə müddətindən, çay

yatağının relyefi və təbii şəraitindən, çayın üzunluğundan, antropogen amillərdən və s. asılı olaraq leysan yağışlarından 1-2 saat sonra, qarların intensiv ərimısindən 5-10 saat sonra baş verir. Sel bir neçə dəqiqədən bir neçə saatadək davam edir. Belə ki, Azərbaycan tarixində ən dağıdıcı və faciəvi sellərin biri 1910-cu il avqust ayında, gecə vaxtı leysan yağışı nəticəsində baş verib, 2 saat davam edib. Şin çayından keçən bu selin nəticəsində Şəki rayonunun Başgöynük kəndində 130 ev dağılıb, 398 nəfər adam ölüb, 10 minlərlə mal-qara tələf olub.Sellər çox yüksək sürətlə hərəkət etməsi ilə seçilərək, onun orta sürəti saniyədə 3,0 metr, bəzən də saniyədə 10-15 metrə bərabər olur, selin özü ilə gətirdiyi asılı materialın həcmi bir neçə milyon kubmetr olur. Sellər bəzən ağırlığı 100- 200 ton olan daşları çox asanlıqla hərəkət etdirir. Belə iri daşlara Kiş çayının yatağında tez-tez rast gəlmək olur. Yaxınlaşmaqda olan dağıdıcı selin səsini, gurultusunu, "nəriltisini", 100 m-dən bir neçə kilometrədək məsafədən eşitmək olur. Sel sularının orta hündürlüyü 3-5 m-ə, nadir hallarda 10 m-ə çatır. Belə nadir selə 1864-cü ildə Şinçayda, 1931-ci ildə Ordubadçayda, 1936 və 1955-ci illərdə Kişçayda keçən selləri misal göstərmək olar. Bu sellər çoxlu insan ölümünə və böyük dağıntılara səbəb olmuşdur [2, s. 408].

Azərbaycanda sellər haqqında ilk yazılara XVII əsrin axırlarında rast gəlinsə də, XVIII-XX əsrlərdə bu problem Çar Rusiyasının və Sovet hökumətinin daimi nəzərində olsa da, sellərin qarşısının alınması bu günədək öz müsbət həllini tapmamışdır. XX əsrin birinci yarısından Azərbaycanın alim və mütəxəssisləri bu problemin elmi araşdırmalarına daha çox fikir versələr də, Azərbaycanda sel problemi ilə məşğul olan layihə institutları, ixtisaslaşdırılmış tikinti təşkilatları yaradılsa da, sellərin baş verməsi daha tez-tez olub, yayılma arealları genişlənmiş və vurduğu zərərlər isə ilbəil artmaqda davam edir. [4, s. 43].

Azərbaycanda son 100 ildə 200 dağıdıcı sel hadisəsi qeydə alınmış, onların vurduğu zərər təxminən 0,5 milyard ABŞ dolları miqdarında olmuşdur. Bu rəqəm "fantastik" görünsə də nəzərə almaq lazımdır ki, yalnız 1998-ci ildə baş vemiş sellər nəticəsində Azərbaycan iqtisadiyyatına 50 milyon ABŞ dolları miqdarında zərər dəymişdir. Son 100 ildə Kişçayda 20 dəfə, Balakənçayda 15 dəfə, Göyçayda, Şinçayda, Vəndamçayda, Girdimançayda, Ordubadçayda, Kendeçayda və s. hər birində 12 dəfə belə dağıdıcı sel təkrarlanmışsa, onda izahata ehtiyac qalmır.

Azərbaycanda sellərə qarşı son 100 ildə dövlət səviyyəsində müdafiə-qoruyucu işlər aparılıb və bu işlərə milyard ABŞ dollarından artıq vəsait sərf olunsa da, demək olar ki, əsaslı səmərə əldə edilməmişdir. Bu, aparılan işlərin pərakəndəliyi, selli hövzələrdə ancaq sellər keçəndən sonra ayrı-ayrı kiçik sahələrin müdafiəsi, təmir işləri üçün ayrılan vəsaitlərin görülən işlərin tam başa çatması üçün kifayəl etməməsi, mühəndis-qoruyucu obyektlərin müxtəlif təşkilatlar tərəfindən, müxtəlif ərazilərdə aparılması, meşə və kolluqların müdafiə məqsədi və yanacaq üçün qəddarcasına qırılıb məhv edilməsi, şelli hövzələrin sel əmələ gələn ərazilərində dəfələrlə normadan artıq xırda və iribuynuzlu mal-qaranın otarılması, selli hövzələrin gətirmə konuslarının tənzimlənməməsi və s. nəticəsində baş vermişdir [3, s.121].

Selli ərazilərdə yaşayan insanlar sellərin baş verməsini əvvəlcədən iqlimin kəskin dəyişməsi, havanın hərarətinin kəskin surətdə artması, uzunmüddətli və ya qısamüddətli leysan yagışların yagması əlamətlərinə görə çox vaxt müəyyən edə bilirlər. Gecə vaxtı bunu müəyyən elmək çətindir. Keçmiş zamanlarda, xüsusi olaraq yaz və yay aylarında yaylaqlarda qoyun sürülərinin çobanları müxiəlif siqnallarla, tüfənglərdən atəş açmaqla baş verməkdə olan sel haqqında xəbərdarlıq edirdilər və bunun nəticəsində bəzi hallarda insanlar öz həyatlarını sellərdən qoruya bilmişlər. Bununla bərabər, elmin, texnikanın inkişaf etməsi nəticəsində əhalini selin baş verməsi haqda vaxtından əvvəl xəbərdar etmək üçün çox sadə iş üsulu olan avtomat xəbərdaredici qurğularından istifadə edilə bilər.

Hazırda Azərbaycan iqtisadiyyatında əsas fikir neft və qaz sənayesinə yönəldilmişdir. Ancaq unutmaq olmaz ki, hər il neft və qaz sənayesindən əldə eldiyimiz gəlirin böyük bir hissəsini təbii fəlakətlərin, o cümlədən sellərin hər il Azərbaycan iqtisadiyyatına vurduğu zərərlərin bərpası hesabına itiririk. Buna görə də sellərə qarşı mübarizə işi dövlət səviyyəsində həll edilməlidir.

Sel təhlükəsi olan yaşayış məntəqələrində əhalinin sellər haqqında ümumi təsəvvürləri olsa da, aşağıdakı məsələlərə xüsusi diqqət yetirmələri tövsiyə olunur:

- Sel baş verməmişdən əvvəl sellərə dair yuxarıda xarakterizə edilmiş ümumi məsələlər – selin

başvermə səbəbləri və selin sürəti, davametmə vaxtı, gətirdiyi asılı materiallar və s. məsələlər haqqında əhalinin ətraflı məlumatı olmalıdır;

- Sellərə məruz qalan yaşayış məntəqələrinin icra orqanları və bələdiyyələrin nəzdində daimi fəaliyyət göstərən fövqəladə hallara qarşı mübarizə qrupları yaşayış məntəqələrinin əhalisinin sayı, yaşayış evlərinin, təsərrüfat obyektlərinin siyahısı, onların sellərə məruz qalmaları haqqında məlumat toplamalı, sel olduğu təqdirdə əhalinin müvəqqəti olaraq hara köçürülməsinə dair iş planına malik olmalıdır. Həm də bu haqda yerli əhalini vaxtaşırı məlumatlandırmalıdır. Bu qrup lazımi texniki və rabitə vasitələri ilə təmin olunmalıdır;

- Sellərin mütəmadi keçə biəcəyi ərazilərdə yaşayış evləri, təsərrüfat obyektləri inşa edilməməli, çay yamacında və kəndin ətrafında olan meşə və kolluqların qırılması qəti qadağan edilməlidir. Əgər bu və ya digər yaşayış məntəqəsi sellərə mütəmadi məruz qalıb dönə-dönə dağılıbsa və bunun nəticəsində insan tələfatı olubsa, belə yaşayış məntəqələrinin yerli əhalinin razılığı ilə təhlükəsiz ərazilərə köçürülməsi haqqında Respublika Nazirlər Kabineti qarşısında məsələ qaldırılmalıdır;

Sellərin başvermə ehtimalı hiss edildikdə, evdə olan sənədlər, pul və qiymətli əşyalar, bir, iki günlük azuqə ehtiyatı, isti paltar və s. evin ən münasib, tez ələ gələn və görünən yerində toplanmalı və lazım olan anda tez götürüb təhlükəsiz əraziyə qaçmalı, evdən çıxmamış su, elektrik, qaz xətləri bağlanmalı, yanan soba söndürülməlidir. İlk növbədə xəstələri, qocaları, uşaqları evdən çıxarmağa səy göstərilməlidir.

Nəzərə alın ki, sel gələrkən özü ilə gətirdiyi daşlar çox ağır olduğundan, sizə xətər yetirməməsi üçün, çalışın tez bir an içərisində sel keçən ərazini tərk edin. Təhlükəsizliz, sel titmayan ərazidə mövqe seçin. Mal-qara saxladığınız tövlələrin qapılarını tez açın ki, mal-heyvan qaçıb seldən qorunsunlar. Sellərin gecə ola biləcək ehtimalını nəzərə alaraq, hər bir ailənin cib fənəri ilə təmin edilməsini unutmaq olmaz. Sel vaxtı ölənlər və itkin düşənlər müəyyən edilməli, yaralananlara ilkin təcili yardım göstərilməsi təmin olunmalıdır. Sel keçən ərazinin əhalisi üçün vacib əhəmiyyətli obyektlərin: xəstəxana və ambulatoriyaların, məktəblərin, çörəkbişirmə müəssisələrinin, poçt-teleqraf, işıq, qaz, su və s. kimi sahələrin fəaliyyəti təcili təmin edilməlidir. Sel vaxtı əgər çoxlu sayda mal-qara ölübsə, yoluxucu xəstəliklərin baş verməməsini təmin etmək üçün cəsədləri bir yerə toplayıb, yandırılması və basdırılması həyata keçirilməlidir. Sel nəticəsində dağılmış yaşayış evlərinin, təsərrüfat obyektlərinin, mal-qaranın hesabatını (uçotunu) aparıb, onların bərpa ediləbiləcəyi və ya yenidən inşa olunacağı müəyyən edilməlidir. Dəyən zərər müəyyənləşdirilib, əlaqədar təşkilatlara onun ödənilməsi və ya yardım göstərilməsi üçün müraciət olunmalıdır.

Azərbaycanda tez-tez təkrarlanan və çoxlu dağıntılara səbəb olan sellərə qarşı həmişə hazır olmaqla, deyilənlərə riayət edilməklə özünüzün, ailə üzvlərinin və yaxınlarınızın həyatını xilas edə bilərsiniz.

## ƏDƏBİYYAT


1. N.A.Babaxanov. Təbii fəlakətlərin iqtisadi və sosial coğrafi öyrənilməsi. Bakı-2004, 308 s.
2. N.A.Babaxanov. Təbii fəlakətləri ram etmək olarmı. Bakı-2006, 503 s.
3. N.A.Babaxanov. Təbii fəlakətlərin coğrafiyası, nəzəri-ekoloji əsasları. Bakı-2016, 485 s.
4. https:// az. m. wikipedia. orq.wiki
5. https:// az. m. wikipedia. orq.wiki
6. https://525. az. news, 13628 –azeri.



***Марьям Мухтар кызы Гусейнова,***
***Аспирант, Азербайджанский Университет Коперации***
***meryemagaeva718@gmail.com***


## Ущерб, причиненный стихийными бедствиями хозяйствам Азербайджанской Республики, и пути их предотвращения


***Резюме***

Стихийные бедствия, такие как наводнения, оползни и землетрясения, происходят в Азербайджане каждый год и вызывают большие разрушения. В статье широко анали-

зируется работа по борьбе со стихийными бедствиями, работа по пропаганде против них, работа по “подготовке” людей к стихийным бедствиям. Кроме того, определяется география наводнений, которые часто происходят в Азербайджане и охватывают большие территории, и предлагаются превентивные меры против них.
***Ключевые слова: стихийное бедствие, паводок, затопление, затопленная река, поймы, турбулентный паводок, структурный паводок и др.***

***Maryam Mukhtar Huseynova***
***postgraduate student***
***Azerbaijan Cooperation University***
***meryemagaeva718@gmail.com***

**Damage Caused by natural disasters to the economy of the Republic of Azerbaijan and ways to prevent them**

***Summary***
Natural disasters such as floods, landslides and earthquakes occur in Azerbaijan every year and cause great destruction. The article extensively analyzes the work of combating natural disasters, the work of propaganda against them, the work of “preparing” people for natural disasters. In addition, the geography of floods, which often occur in Azerbaijan and cover large areas, is determined, and preventive measures against them are proposed.
***Key words: natural disaster, flood, inundation, flooded river, floodplains, turbulent flood, structural flood, etc.***

**UOT-338**

***Şamil Fəxri oğlu İBRAHİMBƏYLİ***
***Magistrant, Azərbaycan Koopersiya Universiteti, qrup: M-369***
***E-mail: shamilibrahimbeyli@gmail.com***

## MÜƏSSİSƏLƏR HAQQINDA ANLAYIŞ VƏ ONLARIN NÖVLƏRİ

***Xülasə***
Məqalədə müəssisələrin yaranması və idarəedilməsi təcrübəsindən, onun növləri və təşkilati – hüquqi formalarından bəhs olunur. Burada müəssisənin məhsuluna, işlərinə və xidmətlərinə olan ictimai tələbatın ödənilməsinin dövlət tərəfindən iqtisadi üsullarla tənzimlənməsi, müəssisənin öz fəaliyyətini necə həyata keçirməsi haqqında məlumatlar öz əksini tapır. Məqalədə Azərbaycanda və xaricdə yaradılan müəssisələr haqqında qeydlər aparılıb.
***Açar sözlər: müəssisə, müəssisənin növü, mülkiyyət forması, qanunvericilik, müəssisə əmlakı.***

***

Menecment – idarəetmənin iqtisadi mexanizminin üsul, prinsip və funksiyalarını tətbiq etməklə, material, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə etmək yolu ilə, bazar şəraitində istənilən fəaliyyət növü ilə məşğul olan firmanın qarşısına qoyduğu məqsədə nail olması üçün həyata keçirilən peşəkar fəaliyyət növüdür. [5]

Menecment ingilis sözüdür, “management” sözündən götürülüb idarəçilik; nəzarət; bacarıq; qabiliyyət; müəssisəyə rəhbərlik mənalarında işlədilir. Bu istehsalın və ya ticarətin idarəedilməsi; gəlirlərin artırılması və istehsalın səviyyəsinin yüksəldilməsi məqsədi ilə işlənib hazırlanmış və inkişaf etdirilmiş idarəetmənin formalarının, prinsiplərinin, üsullarının, metodlarının məcmusu kimi başa düşülür. “Menecment” ayrıca bir elmi fənn kimi qiymətləndirilmişdir.

Müəssisələrin yaranması və idarəedilməsi təcrübəsi çox qədimdir. Lakin həm idarəetmə, həm də qədim təşkilatlar indikindən çox fərqli olmuşlar. İdarəetmənin çox qədim olmasına baxmaya-

raq, o bir elm, təsərrüfatçılıq və tədqiqat sahəsi kimi nisbətən yenidir. [4] Təbii sərvətlərdən istifadə olunması, cəmiyyət üçün faydalı olan istehlak mallarının yaradılması və bazar tələbatının ödənilməsi, işçinin bilavasitə istehsal vasitələri ilə təması müəssisələrlə bağlıdır. İstehsalın bütün həlqələrində ən başlıca amil və ən əsas özək müəssisədir. [1, s. 32] Müəssisə - mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və qazanc əldə edilməsi məqsədilə məhsul istehsal edən, işlər görən və xidmətlər göstərən, qanuna müvafiq yaradılan hüquqi şəxs olan müstəqil təsərrüfatçılıq subyektidir.

Müəssisə, onun növləri və təşkilati – hüquqi formaları barədə aşağıdakıları bilmək vacibdir.

Təsərrüfat fəaliyyətinin növü və xarakterinə görə bütün müəssisələr aşağıdakı beş qrupa ayrılır:

a) Sənaye müəssisələri - sənayenin müxtəlif sahələrində yaradılır və fəaliyyət göstərir;

b) ticarət müəssisələri – əmtəələrin alqı – satqısı üzrə əməliyyatları həyata keçirir;

c) nəqliyat müəssisələri – yüklərin daşınması ilə məşğul olur;

ç) nəqliyyat – ekspeditor müəssisələri isə məhsulların istehlakçılara çatdırılması ilə məşğul olurlar;

d) sığorta müəssisələri - əmlakın və yüklərin sığortalanması ilə məşğul olur. [1,s.32]

Müəssisələr özünün balansına, möhür və ştampına malik olan hüquqi şəxslərdir. Müəssisə ictimai mənafeyə xidmət etməklə, mənfəət əldə etmək məqsədi daşıyır. Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisə, mülkiyyət formalarının müxtəlifliyi ilə fərqlənir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən mülkiyyətin 3 forması mövcuddur. Bunlar aşağıdakılardır:

- dövlət mülkiyyəti;
- xüsusi mülkiyyət;
- bələdiyyə mülkiyyəti.

Dövlət mülkiyyəti bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da mövcuddur.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən əmlak paylarının bölünmək hüququ olmayan mülkiyyətçilərin yaratdığı müəssisələr dövlət müəssisələri hesab olunur. Dövlət müəssisələrinin nizamnamə fondu dövlətə məxsusdur. Dövlət müəssisələrinin timsalında büdcədən maliyyələşən və təsərrüfat hesablı müəssisələr fəaliyyət göstərə bilərlər. Dövlət müəssisəsi bütün öhdəliklərinə öz əmlakı ilə cavabdehdir. Dövlət müəssisələrinin aşağıdaki növləri vardır:

1. Əmlakı tamamilə dövlətə məxsus olan müəssisələr;
2. Səhmlərin nəzarət paketi dövlətə məxsus olan müəssisələr.

Qeyri-dövlət müəssisələri qeyri-dövlət mülkiyyəti əsasında yaranır. Qeyri-dövlət müəssisələri Vergilər Nazirliyindən və ya Ədliyyə Nazirliyindən qeydiyyatdan keçməklə yaranır. Bu cür müəssisələr bir və ya bir neçə şəxs tərəfindən təşkil oluna bilərlər. Yəni qeyri-dövlət müəssisələrinin yaranmasında fəaliyyətdə olan bir və ya bir neçə qeyri-dövlət müəssisələri də iştirak edə bilərlər. Qeyri-dövlət müəssisələrinin mülkiyyəti xüsusi mülkiyyətdir və nizamnamə kapitalı dövlətə məxsus deyil. Qeyri-dövlət müəssisələri dövlət müəssisələrinə nisbətdə daha çox müstəqildirlər. Qeyri-dövlət müəssisələri fəaliyyətini özü planlaşdırır, daha müstəqil strategiya həyata keçirirlər. [2, s. 24, 25, 26]

Mülkiyyət formasından asılı olmayaraq qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi, mənfəət alınması məqsədilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfatçılıq subyekti müəssisə adlanır. Müəssisə təşkilati-hüquqi forması göstərilməklə xüsusi ada malik olur.

Ölkəmizdə müəssisənin fəaliyyəti "Müəssisələr haqqında" AR-in qanunu və AR-in digər qanunvericilik aktları ilə təzimlənir. Xarici investisiyanın cəlb edilməsilə yaradılan müəssisələrin fəaliyyəti "Müəssisələr haqqında" AR Qanuna ilə yanaşı, "Xarici investisiyanın qorunması haqqında" AR Qanunu və AR-in beynəlxalq müqavilələri ilə tənzimlənir.

Müəssisənin əsas vəzifələri aşağıdakılardır:

- məhsul buraxılışında, işlərin yerinə yetirilməsində və xidmətlərin göstərilməsində ictimai tələbatların qane edilməsi;
- mənfəətin əldə edilməsi və bu əsasda qanunvericiliyə uyğun olaraq müəssisənin əmək kollektivinin üzvlərinin sosial-iqtisadi maraqlarının reallaşdırılması;
- büdcə və təsərrüfatçılıq tərəfdaşları-tədarükçülər, istehlakçılar, banklarla qarşılıqlı münasibətlərin yaradılması və s.

Müəssisənin məhsuluna, işlərinə və xidmətlərinə olan ictimai tələbatın ödənilməsi dövlət tərəfindən iqtisadi üsullarla tənzimlənir. Özünün fəaliyyətini həyata keçirmək üçün müəssisə əmlakını formalaşdırır. Onun əmlakı müəssisənin mülkiyyətində, operativ idarəsində və tam təsərrüfatçılıq səlahiyyətində ola bilər. Müəssisənin əmlakının əmələ gəlməsi mənbələri bunlardır:

- təsisçinin pul və maddi payları;
- məhsul satışından, görülən işlərdən, göstərilən xidmətlərdən, habelə təsərrüfat fəaliyyətinin digər növlərindən alınan gəlirlər;
- qiymətli kağızların satışından əldə edilən gəlirlər;
- bank kreditləri və digər kreditlər;
- kapital qoyuluşu və büdcədən dotasiyalar;
- hüquqi və fiziki şəxslərin verdikləri xeyriyyə vəsaitləri və ianələr;
- AR-in qanunvericilik aktları ilə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlər.

Qanunvericiliyə uyğun olaraq xüsusi, dövlət və bələdiyyə, ictimai və dini müəssisələrin mülkiyyətində olan müəssisələr yaradıla və fəaliyyət göstərə bilər. İqtisadiyyatda mülkiyyət formasından asılı olaraq xüsusi, bələdiyyə və dövlət müəssisələri, həmçinin dövlətin və bələdiyyənin, xarici dövlətlərin, əcnəbi hüquqi şəxslərin və vətəndaşların, habelə ictimai müəssisələrin mülkiyyətində olan əmlakın birləşdirilməsilə qarışıq mülkiyyət forması əsasında müəssisələr fəaliyyət göstərirlər.

Dövlət müəssisəsi öz öhdəliklərinə görə qanunvericiliklə müəyyən edilən qaydada məsuliyyət daşıyır. Belə müəssisənin öhdəliklərinə görə dövlət məsuliyyət daşımır. Müəssisə dövlətin öhdəliklərinə görə məsuliyyət daşımır.

Bələdiyyə müəssisəsini yerli hakimiyyət orqanları təsis edir. Belə müəssisələrin əmlakı da müvafiq səviyyəli büdcə yığılmaları, yaxud digər bələdiyyə müəssisələrinin hesabına yaradılır.

Müəssisənin bazar münasibətlərində fəaliyyət mexanizmi əhəmiyyətli dərəcədə dəyişir. Bu dəyişiklik bir sıra bütöv istiqamətlər üzrə gedir.

Bazarın müəssisə qarşısında irəli sürdüyü əsas tələblərdən biri ondan ibarətdir ki, müəssisə öz fəaliyyətinin nəticəsilə təkcə məhsul, yaxud xidmətlər göstərməsin. Müəssisə həm də özünün istehsalı ilə mənfəətin əldə edilməsini təmin etmiş olsun. Başqa sözlə, gəlirlər resurslara çəkilən xərcləri həmişə üstələməlidir. Belə üstünlük nə qədər çox olarsa müəssisə bir o qədər mənfəətli işləyər.

Xaricdə müəyyən tip müəssisələr yaradılır. Tanınmış iqtisadçı Q.Berqli tərəfindən müəssisənin gələcəkdə tövsiyə edilən 6 imkanı maraq doğurur: inkubatorlar; evdə görülən biznes; kiçik bazarlar; poçtla sifarişləri yerinə yetirən müəssisə, səyyar müəssisələr yaxud müvəqqəti xarakterli müəssisələr, əmtəələrin axşam qonaqlığında və əmtəənin nümayiş etdirilməsi zamanı satışı.

Biznesin bu tipləri bir sıra ümumi xüsusiyyətlərə malikdir:

- fəaliyyətin şəxsi xarakterdə olması;
- ilkin kapitala olan tələblərin çox aşağı və ya çox çevik olması;
- bu müəssisələrin çox çevik və dəyişkən olaraq düşünülməsi.

Onlar bir sıra xüsusiyyətlərə görə fərqlənirlər.

İnkubatorlar bir qayda olaraq süni istiliyin köməyilə kült yatma üçün aparatdır. Bu biznesə, tətbiq edildikdə nəzərdə tutulur ki, hər hansı bir müəssisə sanki başqasını təmin edən zont (çətir) kimi xidmət göstərir.

Evdə görülən biznes "sakit" biznes olmalı, baxılan rayonda birgə yaşayış qaydalarını pozmamalıdır. Bu fəaliyyətin evlə məhdudlandırılması mütləq deyildir. Ev biznesinin bir çox xidmət növləri, məsələn, pianonun köklənməsi, məşqçi işi, ekskursiya rəhbərinin işi, məsləhətlərə görə xidmətlər və s. var.

Kiçik bazarlar hazırda RF-də geniş yayılmışdır. Bu biznesdə kiçik istehsalçılarla yanaşı pərakəndə və topdansatış ticarətçiləri də iştirak edə bilərlər. Bütün dünyada belə bazarlar çox geniş yayılmışdır.

"Poçtla-xidmətlər" biznesi yüksək ixtisaslaşdırılmış biliklər, səylərin, vaxtın, kapital imkanlarının bir yerə cəmlənməsini tələb edir. Zəmanətli mənfəəti təmin edə biləcək kifayət qədər sifariş əldə etmək üçün bir çox sayda insanları əhatə etmək lazımdır. [3, s.123,124,125,126,129,130]

## ƏDƏBİYYAT

1. Ağasəf İmran, Menecment (dərslik), ADNA nəşriyyatı, Bakı – 2007, 32 s
2. İ.M.Abbasov, R.F.Sadıqov Menecment (dərs vəsaiti), Bakı Biznes Universiteti nəşriyyatı, Bakı – 2013, 24 s
3. İ.B.Əmirov, Z.E.Hacıyeva, Menecment, Bakı – 2015, 123 s
4. www.referat.ilkaddimlar.com
5. www.az.wikipedia.org

***Шамиль Фахри оглы Ибрагимбейли***
***Магистр Азербайджанского Университета Кооперации***
***E-mail: shamilibrahimbeyli@gmail.com***

**Понимание сущностей предприятий и их типов**

***Резюме***

В статье рассказывается об опыте создания и управления предприятиями, его видах и организационно-правовых формах. Здесь отражены сведения о его регулировании экономическими методами, о том, как предприятие осуществляет свою деятельность. В статье сделаны заметки о предприятиях, созданных в Азербайджане и за рубежом.

***Ключевые слова: предприятие, вид предприятия, форма собственности, законодательство, имущество предприятия.***

***Shamil Fakhri Ibrakhimbeyli***
***Azerbaijan Cooperation University, Master***
***E-mail: shamilibrahimbeyli@gmail.com***

**Understanding of enterprises and their types**

***Summary***

The article talks about the experience of establishment and management of enterprises, its types and organizational - legal forms. Here reflects information about its regulation by economic methods, about how the enterprise carries out its activities. The article contains notes about enterprises established in Azerbaijan and abroad.

***Keywords: enterprise, type of enterprise, form of ownership, legislation, enterprise property.***

**UOT 663.3**

***Kamil Arif oğlu İSMAYILOV,***
***b.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti***
***kamil61ismayilov@gmail.com***

## SPİRTƏ QICQIRMA PROSESİNDƏ MİKROORQANİZMLƏRİN ROLU

***Xülasə***

Karbohidratlı maddələrin əsas çevrilmə tiplərindən biri qıcqırmadır. Bu fermentativ parçalanma prosesi olub, anaerob şəraitdə enerji ayrılması ilə qlikoliz yolu ilə gedir və qıcqırmanın növü piroüzüm turşusu əmələ gələndən sonra müəyyənləşir.

***Açar sözlər: qıcqırma, mikroorqanizmlər, spirt, göbələklər, bakteriyalar.***

***

Tənəffüsdən fərqli olaraq qıcqırma elə bir metabolitik prosesdir ki, burada ATF regenirə olunur və üzvi substratın parçalanma məhsulları, ayrılan hiqrogen yenə də üzvi birləşmələrə verilir, yəni qıcqırma zamanı hidrogen həm donor, həm də akseptor rolunu icra edir. ATF-in fosforlaşması

oksidləşmə reaksiyası olub, bu yolla hüceyrə $CO_2$ ayırmaqla oksidləşən karbondan azad olur. Oksidləşmənin ayrı-ayrı dövrləri dehidratlaşma yolu ilə gedib, hidrogen NAD-a verilir və NAD N2-nin tərkibində olan hidrogen akseptoru substratın parçalanmasının aralıq məhsulu rolunu oynayır. NAD-ın regenerasiya ilə son məhsulu bərpa olunub, hüceyrədən xaric olur. Karbohidratların qıcqırması nəticəsində etanol, laktat, propianat, butirat, suksinat, $CO_2$, $N_2$ və s. alınır.

Karbohidratların qıcqırma mexanizmindən məlum olmuşdur ki, şəkərlərin qıcqırması iki dövrdə gedir. Birinci dövrdə şəkərlərdən hüceyrəni təşkil edən birləşmələr sintez olunur, ona görə də mühitdə qıcqırmanın ilk turşulu məhsulları əmələ gəlir. İkinci dövrdə isə mühitdə əsas məhsullar alınır. Piroüzüm turşusunun çevrilməsi mikroorqanizmlərin spesifikliyi ilə əlaqədardır [1, s. 99]. Maya göbələkləri spirtə qıcqırmada piruvatdekarboksilazaların köməyi ilə piroüzüm turşusunu sirkə aldehidi və $CO_2$-na parçalayır. Sirkə aldehidi hidrogenin son akseptoru olub etil spirtinə kimi bərpa olunur:

$$CH_3COCOOH^- = CH_3CHO + CO_2$$

$$CH_3CHO + NAD.H + H^+ = C_2H_5OH + NAD$$

Yağ turşusuna qıcqırmada bakteriyalar sirkə aldehidini kondensasiya yolu ilə yağ turşusuna çevirir. Homofermentativ süd turşusuna qıcqırmada bakteriyalar hidrogen akseptoru kimi piroüzüm turşusundan istifadə edib, onu süd turşusuna kimi bərpa edir. Digəri, heterofermentativ süd turşulu qıcqırmada iştirak edən bakteriyalar hidrogen akseptoru kimi həm piroüzüm, həm də sirkə turşusundan istifadə edir.

Spirtə qıcqırma karbohidratların, anaerob şəraitdə maya, bəzi kif göbələkləri və bir çox bakteriyalar tərəfindən qıcqırması nəticəsində etil spirti, $CO_2$ və aralıq məhsulların əmələ gəlməsi ilə xarakterizə olunur. Bu prosesi aparan mikroorqanizmlər anaerob şəraitdə aktivliyini saxlayan piroüzüm turşusunun dekarboksilaza fermentinə malik olurlar [2, s.148]. Bu fermentlə piroüzüm turşusundan $CO_2$ ayrılır. Əmələ gəlmiş sirkə aldehid reduksiya olunmuş NAD-dakı hidrogenin akseptoru rolunu oynayır. Spirtə qıcqırma turş mühitdə (pH 4.0-4.5) gedir.

$$C_6H_{12}O_6 = 2CH_3CH_2OH + 2CO_2 + 28 \text{ kkal}$$

Qələvi mühitdə bisulfatın iştirakı ilə etil spirti əvəzinə qliserinlə sirkə aldehidi əmələ gəlir:

$$C_6H_{12}O_6 = C_3H_5(OH)_3 + CH_3CHOHO + CO_2$$

Deməli, qliserin normal spirtli qıcqırmanın gedişinin süni dəyişdirilməsi nəticəsində əldə edilir.

Qliserin 10-15% şəkərə 4-20%-ə qədər bisulfat və ya Ca əlavə etməklə əldə edilir. Belə halda qıcqıran şəkərin 21-37%-i qliserinə çevrilə bilər.

Etanolun əsas törədicisi Sacchoromyces cinsinə aid olan maya göbələkləri, Mucor cinsindən olan kif göbələkləri və bakteriyalardan Pseudomonas lindneri, Sarcina ventriculi və s. bu prosesdə iştirak edir. Ayrı-ayrı mikroorqanizmlərin növləri müxtəlif miqdarda etil spirti əmələ qətirir[3, s. 120]. Maya göbələkləri şəkərləri qıcqırdarkən çoxlu miqdarda spirt əmələ gətirdiyinə görə bundan şərab və pivə istehsalında istifadə edilir. İçkilərin istehsalında tətbiq edilən maya göbələklərinin əmələ gətirdikləri qıcqırmanın xüsusiyyətlərinə görə iki qrupa bölürlər: üst qıcqırma əmələ gətirən maya göbələkləri – Sacch.cerevisae, alt qıcqırma əmələ gətirən maya göbələkləri – Sacch.ellipsoideus.

Üst qıcqırma əmələ gətirən maya göbələkləri mühitdə 20-24°C-yə qədər temperatur olduqda qıcqırmanı intensiv aparır. Belə qıcqırmada qıcqıran mayenin üst səthinə qaz qabarcıqlarının çıxması nəticəsində çoxlu miqdarda köpük toplanmış olur. Bu qıcqırmada əmələ gələn qaz qabarcıqları mayenin səthinə qalxdıqda özləri ilə bərabər maya hüceyrələrini də mayenin üst səthinə qaldırır. Üst qıcqırma əmələ gətirən maya göbələklərindən etil spirti və çörək mayası istehsalında geniş istifadə olunur.

Alt qıcqırma əmələ gətirən maya göbələklərindən xüsusilə şərab və pivə istehsalında istifadə olunur. Alt qıcqırma əmələ gətirən maya göbələkləri prosesin gedişində temperaturu 4-10°C-yə qədər yüksəldə bilir. Proses üst qıcqırmaya nisbətən sakit şəraitdə gedir və maya hüceyrələri də qidalı mühitin alt hissəsində toplanır [4, s.171]. Bunun da şərabın şəffaf olmasında böyük rolu vardır.

Bütün maya göbələkləri 30-35°C-də yaxşı inkişaf edə bilir. Spirtdə qıcqırma prosesi 0-56°C-də tamamilə dayanır. Qıcqırmada etil spirti və $CO_2$-dən başqa aralıq məhsullarından 1-3.5%-ə qədər

qliserin, 0.5% kəhrəba turşusu, bir qədər sirkə aldehidi, mürəkkəb efirlər və s. əmələ gəlir.

Qıcqırmada iştirak edən şəkərin 1%-i maya hüceyrələrinin özlərinə sərf olunur, az bir hissəsi maya hüceyrələrində ehtiyat qida maddəsi – qlikogen şəklində toplanır, qalan hissəsi isə göbələklər tərəfindən axıra qədər parçalanır. Mayedə şəkərin miqdarı 30%-ə kimi olduqda şəkər tam qıcqıra bilmir, çünki əmələ gələn 15%-ə qədər etil spirti göbələklərə öldürücü təsir göstərir və beləliklə qıcqırma prosesi dayanır. Spirtə qıcqırmanı əmələ gətirən maya göbələkləri fakultativ anaerobdur. Mühitə oksigen verildikdə maya göbələkləri oksigenli şəraitdə tamamilə inkişafdan qalır.

Şəkərlərin etil spirti və CO2-yə çevrilməsi prosesi çox mürəkkəb bir proses olub, maya hüceyrələrinin tərkibində olan müxtəlif fermentlərin təsiri ilə tənzim olunur. Spirtdə qıcqırma bir-birinin ardınca davam edən müxtəlif dövrlərdə gedir, son məhsul olaraq etil spirti və karbon qazı əmələ gəlir. Prosesin gedişində çox müxtəlif aralıq məhsulları əmələ gəlir.

Hazırda sənayedə etil spirti istehsalında xammal kimi kartof, qarğıdalı, darı, buğda, lərgə və bir sıra nişasta ilə zəngin dənlərdən, şəkər sənayesinin tullantısı olan melassadan istifadə olunur. Bu məqsədlə ağac və sellüloz-kağız sənayesinin tullantısı da əlverişli xammal mənbəyidir[5, s.287]. Pivə istehsalında cücərdilmiş arpadan istifadə edilir, şərabçılıqda əsasən üzüm şirəsindən, müxtəlif meyvə şirələrindən çoxçeşidli şərablar hazırlanır.

Spirtdə qıcqırmanın gedişi üçün müəyyən şərait lazımdır. Burada şəkərin miqdarı 10-15% olmalı, bu çox və ya az olduqda qıcqırmanın sürəti yavaşıyır, 30-35% şəkərli mühitdə isə proses tamamilə dayanır. Mühitin pH-ı4.0-4.5, temperaturu isə 30°C olmalıdır. Mühitin pH-ı qaldırıldıqda, qələvi mühitdə qıcqıran mayedə qliserinin miqdarı artır və bundan qliserin istehsalında istifadə olunur. Normal spirtə qıcqırma anaerob şəraitdə gedir və göbələklərin iştirakı ilə həmişə sivuş yağı da əmələ gəlir.

Spirtə qıcqırma prosesindən etil spirti, qliserin istehsalında, şərabçılıqda, pivə və çörəkbişirmədə istifadə olunur. Çox vaxt spirtə qıcqırma süd turşusuna qıcqırma ilə eyni zamanda gedir. Bu proseslərdə maya göbələkləri ilə yanaşı süd turşusu bakteriyaları da iştirak edir.

Spirtdə qıcqırmaya zərər verən mikroorqanizmlər də çoxdur. Spirtə qıcqırmanı əmələ gətirən göbələklərlə yanaşı prosesdə yabanı göbələklər və bakteriyalarda iştirak edir. Onlar pivəyə və şəraba xoş gəlməyən dad və qoxu verməklə şəffaflığını itirib, dadını dəyişir. Pivə və şərabın xarab olmasında Mycoderma göbələkləri daha fəal iştirak edir. Onlardan əlavə süd turşusu bakteriyaları da şərab və pivənin şəffaflığının itməsinə səbəb olur. Pivə istehsalında Micrococcus və Sarcina cinsli mikroorqanizmlər pivəni xarab edir. Sirkə turşusu bakteriyaları spirtə qıcqırmada mənfi rol oynayır. Bu bakteriyalar spirti sirkə turşusuna parçalayır. Bu da məhsulların keyfiyyətinin enməsinə və onların yararsız hala düşməsinə səbəb olur.

Süfrə şərabı ağzı açıq qaldıqda tezliklə turşuyur, yəni şərab sirkəyə çevrilir. Bu sirkə turşusu bakteriyaları ilə əlaqədardır. Etil spirti əvvəlcə sirkə aldehidinə, sonra isə sirkə turşusuna qədər oksidləşir:

$$CH3CH2OH + O2^{-} = CH3COOH + H2O + X \text{ kkal}$$

Natamam oksidləşmə prosesi bakteriyalar üçün enerji cəhətcə əlverişlidir. Spirt oksidləşdikdən sonra bu bakteriyalar alınan məhsulu CO2 və suya parçalayır. Etil spirtini oksidləşdirən bakteriyalar təbiətdə hər yerdə təsadüf edilir, onlara havada tozla birlikdə, yetişmiş meyvələr üzərində, turşudulmuş meyvə və tərəvəz məhsullarında rast gəlmək olur. Bakteriyalar əsasən xırda Drisophila cinsinə aid olan milçəklər vasitəsilə yayılır.

Bu prosesdə Asetobacter cinsinə mənsub olan bakteriyalar iştirak edir. Növlərindən A.pasteurianum, A.aceti, A.orleanense, A.xylinum, A.schutzenbachil və s. göstərmək olar. Bu növlər bir-birindən morfoloji-kultural və fizioloji xüsusiyyətləri ilə fərqlənir. Onlar hərəkətli və ya hərəkətsiz, turş mühitdə inkişaf edən qrammənfi, spor əmələ gətirməyən çöpşəkilli aerob mikroorqanizmlər olub, qeyri-əlverişli şəraitə düşdükdə öz adi formasını dəyişib, uzun saplara çevrilir ki, sapların da ortasında və ya sonunda kolbavari şişkinliklər əmələ gəlir, yəni involyusion formalar alınır. Sirkə turşusu alınması aerob şəraitdə əmələ gəldiyinə görə prosesdə O2-yə böyük ehtiyac vardır. Bakteriyalar mühitdə müxtəlif miqdarda turşu əmələ gətirir. Bu bakteriyalar 30oC temperaturda, mühitdə 10-12% etil spirti olduqda prosesi daha fəal aparır.

## ƏDƏBİYYAT

1. Fətəliyev H.K. Şərabın mikrobiologiyası. Dərslik, Bakı, 2015, 324s.
2. Fətəliyev H.K. Alkoqollu içkilərin texnologiyası. Bakı: Elm, 2007, 516 səh.
3. Fətəliyev H.K., Mikayılov V.Ş. Tünd alkoqollu içkilər. Bakı: Elm, 2007, 172 səh.
4. Fətəliyev H.K. Şərabın texnologiyası. Bakı: Elm, 2011, 596 səh.
5. Саришвили Н.Г., Рейтблат Б.Б. Микробиологические основы технологии шампанизации вина. М.: ПП., 2000, 364 стр.



***Кямил Ариф оглы Исмайылов,***
***к.б.н., доцент, Азербайджанский Университет Кооперации***
***kamil61ismayilov@gmail.com***


### Роль микроорганизмов в процессе брожения спирта


***Резюме***

Одним из основных видов углеводного обмена является брожение. Это процесс ферментативного разложения, который протекает путем гликолиза с выделением энергии в анаэробных условиях, а тип брожения определяется после образования пировиноградной кислоты.



***Ключевые слова: брожение, микроорганизмы, спирт, грибы, бактерии.***



***Kamil Arif İsmayilov***
***PhD biology, docent Azerbaijan University of Cooperation***
***kamil61ismayilov@gmail.com***


### The role of microorganisms in the fermentation process of alcohol


***Summary***

One of the main types of carbohydrate metabolism is fermentation, which is a process of enzymatic breakdown. This process occurs anaerobically, resulting in the release of energy through glycolysis, and the type of fermentation is determined after the production of pyruvate



***Key words: fermentation, microorganisms, alcohol, yeast, bacteria.***

**UOT: 334.012;334.7**



***Mənzər İsrail qızı QARAYEVA***
***Dissertant, Azərbaycan Respublikası Elm və***
***Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu***
***E-mail: menzer_m@mail.ru***


## AZƏRBAYCANDA BİZNES SEKTORUNUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ


***Xülasə***

Azərbaycanda biznes sektorunun inkişafına olan münasibət dəyişməkdədir. Xüsusilə də son on ildə bu sahələrin inkişafına olan dövlət qayğısı artıb, aparılan islahatlar isə dərinləşib. Biznes mühitinin yaxşılaşdırılması üçün aparılan islahatlar Azərbaycanın bu sahədə beynəlxalq reytinq göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. Məqalədə ölkəmizdə biznes sektorunun müasir inkişaf səviyyəsi qiymətləndirilir, bu sahədə olan əsas problemlər qeyd edilir və onların həlli yolları irəli sürlür.



***Açar sözlər: biznes mühiti, sahibkarlıq sektoru, regional inkişaf, sahibkarlıq subyektləri.***


***

Müasir dövrümüzdə dünyanın əksər ölkələrində bazar iqtisadiyyatının hakim mövqeyə malik olması onların iqtisadiyyatlarının inkişafında biznes sektorunun rolunu artırmışdır. Bazar iqtisa-

diyyatı mühitində biznesin inkişafını müxtəlif vasitələrlə təmin etmək və biznes mühitinin cəlbediciliyini artırmaq itqisadi siyasətin əsas istiqamətlərindən birinə çevrilmişdir. Təsadüfi deyidlir ki, dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi inkişafının formalaşmasında, Ümumi Daxili Məhsulunun yaradılmasında kiçik və orta sahibkarlıq subyektləri əsas paya sahibdir. Biznesin normal fəaliyyəti isə sözsüz ki, həmin biznesin fəaliyyət göstərdiyi mühitdən asılıdır. Buna görə də inkişaf etmiş dövlətlər biznesin inkişafını təmin etmək və inkişaf etdrimək üçün ilk olaraq səmərəli biznes mühitini formalaşdırmağa çalışırlar. Səmərəli biznes mühitinin bir çox istiqamətlər üzrə iqtisadiyyata müsbət təsirini nəzərə alaraq onun yaradılması və təmin edilməsi üçün dövlətlər istər iqtisadi, istərsə də hüquqi islahatlar həyata keçirirlər. Səmərəli biznes mühiti yalnız yerli sahibkarların deyil, eyni zamanda xarici sahibkarların cəlb edilməsi üçün də mühüm vasitədir. Təcrübə göstərir ki, biznes mühitinin sağlamlaşdırılması xarici sahibkarların cəlb edilməsinə, ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların artmasına və iqtisadiyyatın maliyyələşməsinin təmin edilməsinə imkan yaradır. Bu istiqamətdə dövlətlər tərəfindən müxtəlif addımlar atılır. Cənub-Şərqi Asiya dövlətlərinin inkişafında bu istiqamətdə həyata keçirilən strategiyanın böyük faydası olmuşdur. Əlverişli biznes mühiti yaratmaqla onlar dünyanın bir çox böyük şirkətlərini öz bazarına cəlb etmiş və bununla da sürətli iqtisadi inkişafa nail olmuşlar. Bu ölkələrdə işçi qüvvəsinin ucuz olması, aşağı vergilər və digər bu kimi vasitələrlə daha da cəlbedici biznes mühitinin yaradılması əsas rola malik olmuşdur. Biznes mühiti özündə çoxsaylı faktorları, iqtisadi fəaliyyətə təsir edə biləcək qüvvələri birləşdirərək, zamandan və məkandan asılı olaraq dəyişdiyindən özündə bu kimi müxtəlif xüsusiyyətləri birləşdirir [8]:

Biznes mühiti biznesin fəaliyyətinə əsaslı surətdə təsir göstərən bütün xarici amillərin cəmidir.

Biznes mühitinə aid olan amillər və qüvvələr müştərilər, bazardakı rəqiblər, hökumət, təchizatçılar, mədəni, siyasi, texnoloji və hüquqi şəraiti əhatə edir.

Biznes mühiti dinamik xarakterə malikdir və daima yaranmış şəraitə uyğun olaraq dəyişir.

Biznes mühitində baş verən dəyişiklikləri proqnozlaşdırmaq çətindir. Ona görə ki, gələcək dövrdə baş verə biləcək sosial və iqtisadi dəyişikliklərin xarakterini dəqiq müəyyənləşdirmək mümkün deyildir.

Biznes mühiti regiondan və ölkədən asılı olaraq dəyişir. Bu fərqin formalaşamasına təsir edən əsas amillər müxtəlif ölkə və regionlarda iqtisadi, siyasi və sosial mühitin fərqli olmasıdır.

Biznes mühitini onu formalaşdıran faktorların xarakteri baxımından iki əsas sahəyə bölmək olar: iqtisadi və qeyri-iqtisadi mühit. İqtisadi mühit iqtisadi şərait, iqtisadi siyasət və hər hansı bir ölkənin iqtisadi sistemi kimi qəbul edilir. Qeyri-iqtisadi mühitə isə sosial, siyasi, hüquqi, texnoloji, demoqrafik və təbii faktorları aid etmək olar. Bütün bu faktorlar biznesin fəaliyyətinə əsaslı şəkildə təsir etmək imkanlarına malikdir və biznes strategiyalarının qurulmasında əsas rol oynayır.

Azərbaycanda həyata keçirilən əsaslı iqtisadi islahatlar milli iqtisadiyyatın strukturunu dəyişməklə, biznes mühitinin inkişafına təkan verməkdədir. Belə ki, bu baxımdan biznes subyektlərinin təmsil olunduğu qeyri-neft sektorunun iqtisadiyyatdakı payı artması ilə müşahidə olunur. Son on ildə qeyri-neft ÜDM-i hər il orta hesabla 3,5% artıb, nəticədə bu göstərici - 2,2 dəfə yüksəlməklə 58 milyard manata çatmışdır. Həmçinin, 2012-ci illə müqayisədə 2022-ci ildə iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri-neft sənayesi - 2,3 dəfə, kənd təsərrüfatı - 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyümüşdür [2; 3]. Ölkədə həyata keçirilən islahatlar nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi 83%-i ötmüşdür. Özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi qeyri-neft/qaz özəl investisiyaları olmuşdur. 2021-ci ildə qeyri-neft/qaz özəl investisiyaların cəmi qeyri-neft/qaz investisiyalarda payı 44,6%-ə çatmışdır [1;3]. İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlməsi ilə müşahidə olunmaqdadır. Əsasən də dövlət investisiyaları hesabına yaradılmış müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsində mühüm rol oynamaqdadır. Qeyd etmək lazımdır ki, son on ildə bisnes subyektlərinin sayı - 3,1 dəfə artmış, onların qeyri-neft ÜDM-dəki payı isə 23,7% təşkil etmişdir. Azərbaycanda qeyri-neft ixracının 26%-ini məhz kiçik və orta biznes subyektləri həyata keçirir [3].

Qeyri-neft sektorunun, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynamışdır. 2011–2021-ci illərdə ölkənin qeyri-neft iqtisadiyyatına bütövlükdə 11,1 mlrd. ABŞ dolları həcmində birbaşa xarici investisiya yatırılmışdır. Xarici investisiyalar yüksək məhsul-

dar sahələrdə rəqabətli dəyər zəncirinin inkişafına və müasir infrastrukturun yaradılmasına yönəldilmişdir. Xarici investorların fəal cəlbini əlverişli biznes mühiti və makroiqtisadi sabitlik şərtləndirmişdir. Azərbaycanda aparılan dövlət siyasəti biznes sektorunun inkişafının dəstəklənməsi ilə müşhaidə edilməkdədir. Belə ki, son on ildə həyata keçirilən iqtisadi siyasətdə [1;2;3]:

Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması;

Haqsız rəqabətin qarşısının alınması diqqət mərkəzində saxlanmaqdadır.

Azərbaycanda biznes mühitinin inkişafında artıq irəliləyişlər müşahidə olunmaqdadır. Belə ki, ölkəmizin makroiqtisadi göstəricilərində biznes subyektlərinin verdiyi töhfə genişlənməsi ilə diqqəti cəlb edir. Xüsusilə də, 2010-cı illə müqayisədə 2021-ci ildə ölkə iqtisadiyyatında yaradılan əlavə dəyərdə bu subyektlərin payı 1,6 dəfə artmaqla - 16,4% təşkil etmişdir. Həmçinin, müqayisə edilən dövrdə iqtisadiyyatda muzdla işləyənlərin sayında bu sahədə çalışanların payı -1,4 dəfə, əsas kapitala yönəldilən investisiyalarda – 1,8 dəfə yüksəlməsi ilə müşahidə edilmişdir. Artıq, iqtisadiyyatda fəaliyyətdə olan subyektlərin sayında biznes müəssisələrinin payı 99%-i keçmişdir [4;5].

Regionlarda sahibkarlıq mühitinin səmərəli inkişafı özəl sektorun strukturlarının davamlı fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə də sahibkarlıq - biznes fəaliyyəti əhalinin məşğulluğu, onun işləyən hissəsinin gəlir səviyyəsi, regional və bələdiyyə büdcələrinin gəlirləri ilə bağlı problemləri həll etməklə yanaşı həm də sosial gərginlik ocaqlarını aradan qaldırır, yerlərdə sosial vəziyyətin yaxşılaşmasına bilavasitə təsir göstərir. Bu da biznes strukturlarının səmərəliliyinin artırılmasını, makro, meso, mikro səviyyələrdə fəaliyyət göstərən inkişaf amillərinin aktivləşdirilməsini təmin edən bölgələrin sahibkarlıq mühitinin formalaşmasını zəruri edir. Biznes mühitinin regional inkişafı da ölkənin iqtisadi siyasətində əsas aparıcı istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Hazıradək ölkədə həyata keçirilən regional siyasət və proqramlar biznes sektorunun inkişafına kifayət qədər təsir etmişdir. Ölkə başçısının müvafiq fərman və sərəncamları ilə Sumqayıt Kimya Sənaye Parkı və Mingəçevir Sənaye Parkı, həmçinin Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri yaradılmışdır. Bütün bu tədbirlər regionlarda sənaye sahəsində fəaliyyət göstərən sahibkarların, o cümlədən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyətə malikdir [1;2;3].

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün mühitin yaxşılaşdırılması istiqamətində islahatların həyata keçirilməsinə baxmayaraq bu sahədə regional inkişafda problemlər hələ ki, mövcuddur. İlk öncə onu qeyd etmək lazımdır ki, ölkədə fəaliyyət göstərən biznes subyektlərinin əsas hissəsi Bakıda yerləşməkdədir. Belə ki, hazırda biznes subyektlərinin 49%-i paytaxtın payına düşür. Müvafiq göstərici üzrə sonrakı üstün mövqeyi ilə Abşeron-Xızı (9,1 %), Lənkəran-Astara (6%) və Şəki-Zaqatala (5%) fərqlənməkdədir. Təbii iqtisadi rayonlarımızın mövcud imkan və potensialları nəzərə alınmaqla bu bölgünün dəyişməsinə ehtiyac vardır [4;5].




**Qrafik 1. Sahibkarlıq subyektlərinin sayının regionlar üzrə bölgü səviyyəsi (2021).**
*Mənbə: https://www.stat.gov.az/source/entrepreneurship/*

Qeyd edilməlidir ki, hər ildə yeni biznes subyektlərinin yaradılmasına baxmayaraq, onların fəaliyyətinin dayandırılması və ləğv edilməsi kimi də problemli proseslər davam etməkdədir. Müasir təcrübədən çıxış etsək son on ildə yeni yaradılan müəssisələrin illik artım tempi 8-10% yüksəldikcə, fəaliyyətini dayandıran və ya ləğv olunan bu subyektlərin sayı isə 2-3% azalması ilə müşahidə olunur. Bu amil bazar rəqabət şərtlərindən və müasir tələblərə uyğun fəaliyyətin təşkili prinsiplərindən irəli gəlsə də, lakin, biznes mühitinin sağlamlaşdırılması üçün yaradılan əlverişli şərait də burada öz təsirlərini göstərməkdədir. Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə mövcud biznes subyektlərinin istehsal etidyi məhsulların və ya göstərdikləri xidmətlərin dəyərinin strukturunda da köklü fərqlər mövcuddur. Belə ki, illər üzrə bu subyektlərin istehsal etdiyi məhsulların (xidmətlərin) əsas hissəsi (47%) sayı az olan orta müəssisələrin payına düşür. Lakin, saylarının biznes subyetlərinin xüsusi çəkisində 85%-dən çox olmasına baxmayaraq, mikro (38%) və kiçik biznes subyektləri (17%) tərəfindən istehsal olunan məhsulların (xidmətlərin) biznes subyektləri tərəfindən istehsal olunan məhsullardakı (xidmətlərdə) payı orta müəssisələr ilə müqayisədə iki dəfə azdır. Ümumilkdə isə, ölkəmzidə iqtisadi fəaliyyət növləri üzrə subyektlər tərəfindən istehsal olunan məhsulların (xidmətlərin) xüsusi çəkisində biznes subyektlərinin xüsusi çəkisi – 23,9% təşkil etməkdədir. Həmçinin, iqtisadi fəaliyyət növləri üzrə mövcud subyektlərin istehsal etidyi məhsulların və ya göstərdikləri xidmətlərin dəyərində orta biznes subyektlərinin payı – 10,8% təşkil etdiyi halda, bu göstərici kiçik biznes müəssisələri üzrə - 4,1%, mikro bines müəssisələri üzrə isə - 9% səviyyəsindədir [4].




**Qrafik 2. Sahibkarlıq subyektləri tərəfindən istehsal olunan məhsulların (xidmətlərin) iqtisadiyyatda payı (%).**

*Mənbə: https://www.stat.gov.az/source/entrepreneurship/.*

Biznes subyektlərinin perspektiv inkişafı baxımından önəmli olan əsas kapitala investisiya qoyuluşlarının həcmi son on ildə 1,7 dəfə artmaqla – 2021-ci ildə 3,4 milyard manat səviyyəsində olmuşdur. Belə inkişaf tendensiyası müsbət qarşılansa da, lakin burada bir sıra ciddi problemlər qalmaqdadır: Biznes subyektlərinin əsas kapitala investisiya qoyuluşları bilavasitə (94%) onların öz daxili imkanları hesabına həyata keçirilməkdədir. Bank və qeyri-bank təşkilatları belə kapital-investisiya qoyuluşlarında olduqca zəif iştirak edirlər.

İnvestisiya qoyuluşlarında dövlət maliyyələşməsi zəifdir. Həmçinin, yalnız müştərək və xarici kapitallı biznes subyektlərinin investisiya təminatında xarici mənbələrdən istifadə olunur.

Biznes subyektlərin investisiya qoyuluşları onların strukturu baxımından da ciddi fərqlənməkdədir. Xüsusilə də, kiçik və orta biznes subyektlərində əsas kapitala yönəldilən investisiyaların həcmi öz üstün mövqeyi ilə seçilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. - Bakı: - 2016. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. – Bakı: – 2019, – 181 s. http://www.e-qanun.az/framework/41320

3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası/ - Bakı: 2022, 453 s. https://e-qanun.az/framework/50013
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. – Bakı, 2023. https://www.stat.gov.az/source/entrepreneurship/.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankı. – Bakı, 2023. https://www.cbar.az/page-41/macroeconomic-indicators
6. Ataşov B., Novruzov N., İbrahimov E. Müəssisələrin maliyyəsi. Bakı. Kooperasiya Universiteti 2009.
7. Məmmədov, Y.Ə. Azərbaycan Respublikasında fond bazarının formalaşması və inkişaf istiqamətləri. /Y.Ə.Məmmədov. – Bakı: "Avropa" nəşriyyatı, - 2016, - 162 s. http://elibrary.bsu.az/books_90/N_9.pdf.
8. Баумоль, У.Д. Предпринимательство: производительное, непроизводительное и деструктивное // Российский журнал менеджмента. – 2013. Т.11. - №2. – С.61–84.
9. Багиев Г.Л. Проблемы обеспечения экономической устойчивости организации в условиях риска / Г.Л. Багиев, С.А. Полынцов // Проблемы управления рисками. – 2010. – №1. – С. 43-47.
10. Белкина Е.Н. Методика оценки уровня развития предпринимательской среды / Е.Н.Белкина, К.Р.Мусаева, М.М.Адашев // Научный журнал КубГАУ, – №125(01). – 2017. С. 611– 622.
11. Терентьева Т.В. Исследование проблем повышения качества управления предпринимательскими структурами /Т.В. Терентьева// Экономика и управление: теория и практика. – №3. – 2010. – С.68-76. 17.
12. Квитанцева Ю.А. Факторы, влияющие на доходы организации / Ю.А. Квитанцева, И.Р. Ухов // Студенческий форум: научный журнал. – №5(5). Часть 1. М., Изд. "МЦНО", 2017. – С. 16-18.

***Манзар Исраил кызы Гараева***
***Диссертант Институт экономики Министерства науки и образования Азербайджанской Республики***
***E-mail:menzer_m@mail.ru***

**Особенности развития сектора бизнеса в Азербайджане**

***Резюме***

В Азербайджане меняется отношение к развитию сектора бизнеса. В частности, в последнее десятилетие возросла государственная забота о развитии этих отраслей, а проводимые реформы углубились. Реформы, проведенные для улучшения бизнес-среды, привели к улучшению показателей международного рейтинга Азербайджана в этой области. В статье оценивается современный уровень развития сектора бизнеса в нашей стране, отмечаются основные проблемы в этой области и предлагаются пути их решения.

***Ключевые слова: бизнес-среда, предпринимательский сектор, региональное развитие, хозяйствующие субъекты.***

***Manzer Israel Qarayeva***
***Dissertant Institute of economics of the Ministry of Science and education of the Republic of Azerbaijan***
***E-mail:menzer_m@mail.ru***

**Features of the development of the business sector in Azerbaijan**

***Summary***

The attitude towards the development of the business sector in Azerbaijan is changing. In particular, over the past ten years, state care for the development of these areas has increased, and

the reforms carried out have deepened. The reforms carried out to improve the business environment have led to the improvement of Azerbaijan's international rating indicators in this area. The article assesses the modern level of development of the business sector in our country, highlights the main problems in this area and puts forward ways to solve them.
***Key words: business environment, entrepreneurial sector, regional development, business entities.***

**UOT 336.027**

***Rəşad Arzuman oğlu MUSTAFAYEV***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***
***E-mail: resad_320_m@mail.ru***

## VERGİ SİSTEMİNİN TƏNZİMLƏMƏ PROSESİNDƏ ROLU VƏ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

Vergilər müasir iqtisadiyyatda çox böyük rola malikdir. Vergilər vasitəsilə gəlirlər dövlət büdcəsinə cəlb edilir. Bazar iqtisadiyyatı şəraitində vergilərin bir sıra xüsusiyyətləri vardır. Onlardan biri də tənzimləmə funksiyasıdır. Vergi tənzimlənməsi üsullarından istifadə edilməsi vergilərin tənzimləyici funksiyasından maksimal dərəcədə istifadə etməyə maneçilik törədən fiskal funksiya ilə bağlı ziddiyyətlərlə müşayiət olunur. Vergi güzəşt və imtiyazlarının iqtisadiyyatın vergi tənzimlənməsi prosesində rolunun araşdırılması, xarici ölkələrdə və respublikamızda istifadə olunan vergi güzəştləri sisteminin müqayisəli təhlili böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Qeyd edilməlidir ki, bütün əsas vergi növlərinə vergi güzəştləri tətbiq olunur və onların hər birinin məqsədli təyinatı müvafiq vergi növünün xüsusiyyətindən asılıdır.

İqtisadiyyatın vergi tənzimlənməsi, vergi sisteminin inkişafı, vergi sahəsində yeni element və metodların tətbiqi məsələləri biznes mühiti üçün həmişə aktual olmuşdur. Respublikamızda müntəzəm olaraq vergi sisteminin modernləşdirilməsi və vergi ödəyiciləri tərəfindən onun mənimsənilməsinə nail olunması istiqamətində məqsədyönlü addımlar atılır. İqtisadiyyatın vergi qanunvericiliyində aparılan dəyişikliklərə necə reaksiya verəcəyini qabaqcadan müəyyənləşdirmək çox mürəkkəb bir prosesdir. Bu zaman bir-birini təkzib edən aşağıdakı iki reaksiyanın baş verməsi mümkündür: - iqtisadiyyat ona təklif edilmiş vergi stimullaşdırıcı tədbirləri və məhdudlaşdırıcı sanksiyaları qəbul edir. Bu zaman iqtisadiyyata investisiya qoyuluşunun həsmi artır, gizli iqtisadiyyatdan leqal iqtisadiyyata kapital axını artır. Biznes tez bir zamanda bir vergi sığınacağını qanunvericilikdə məhdudiyyəti olmayan digər vergi sığınacağı ilə əvəz edir.
***Açar sözlər: vergi siyasəti, tənzimləmə, büdcə, gəlir, təkmilləşdirmə.***

***

Vergi tənzimlənməsindən istifadə edilməsi üçün başlanğıc şərt təkrar istehsal prosesinin gedişinə dövlət müdaxiləsinin iqtisadi cəhətdən məqsədəuyğunluğudur. Dövlət müəyyən dövrdə müvafiq vergiqoyma sistemini tətbiq etmək və ya onu təkmilləşdirmək, vergi dərəcəsini müəyyənləşdirmək, onun quruluş və formasını dəyişmək, vergi güzəştləri müəyyən etmək, ləğv etmək və s. vasitələrdən istifadə etməklə əsaslı vəsait qoyuluşunu stimullaşdırır və ya məhdudlaşdırır, həm də əhalinin həyat səviyyəsinin formalaşmasına təsir göstərir.

Vergi siyasətinin gələcək inkişafı istiqamətlərindən fiziki şəxslərin gəlir vergisinin optimallaşdırılmasının, nağdsız ödənişlərin stimullaşdırılmasının, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prosedurunu tənzimləyən normativ-hüquqi bazanın yaradılmasının, vergi bəyannamələrinin əvvəlcədən doldurulması sisteminin tətbiqinin, elektron auditin və digər innovativ yeniliklərin tətbiqinin əhəmiyyəti nəzərə alınmalı və reallaşdırılmalıdır.

Dövlətin vergi siyasətinin müxtəlif fəaliyyət sferalarında səmərəli şəkildə həyata keçirilməsi fiskal siyasətin prioritetlərindən hesab edilir. Vergi siyasəti menecerlər tərəfindən həyata keçirilən proqram, fəaliyyət metodu və ya hərəkətləri olan vergilər sahəsində ideologiyanın və məqsədlərin həyata keçirilməsi formasıdır. Təcrübədə vergi siyasətinin formalaşması müəyyən prinsiplərə söy-

kənir və bu prinsiplərin nəzərə alınması vergi idarəçiliyinin hər bir sahəsində vergiyə cəlb edilmənin vacib şərtidir.

Dövlətin vergi tənzimlənməsinin son məqsədi iqtisadi həyatın müxtəlif aspektlərinə təsir göstərməklə ölkənin büdcə sistemində istehsalın, satışın və iqtisadiyyatın gəlirlərinin artımı əsasında vergi daxilolmalarının artmasına şərait yaratmaqdan ibarətdir. Dövlətin vergi tənzimlənməsinin xüsusiyyətləri makroiqtisadi strategiyanın və iqtisadiyyata şüurlu təsirin mövcudluğu, inkişafında davamlı və zamanla nisbətən sabitdir [2, s. 26]. O, ayrı-ayrı müəssisələri deyil, bütövlükdə bütün iqtisadiyyatı və onun seqmentlərini əhatə edir.

Vergi siyasəti subyektlərin fəaliyyətinin bütün aspektlərini və qarşılıqlı əlaqələrin qurulması mexanizmini əhatə edir. Bu əlaqələrin rasional qurulması vergiləri minimuma endirməyə imkan verir. Vergi siyasəti ilk növbədə, büdcəyə minimum vergi ödənişlərini təmin etməlidir. Eyni zamanda, hər bir vergi ödəmə növü üzrə vergitutma bazasının formalaşdırılması və vergi ödənişlərinin azaldılması üçün tədbirlər kompleksi hazırlanmalıdır.

Vergi siyasətinin inkişafı mərhələsində iqtisadi subyektlərin hansı struktur bölmələrinin bu problemi obyektiv və bacarıqla həll edə biləcəyini müəyyən etmək vacibdir. Hər bir müəssisədə vergi planlaşdırılması prosesi özünəməxsus şəkildə təşkil edilir. Bunun üçün adətən xüsusi xidmət formalaşdırılır və ya bu funksiyalar əlavə yük kimi baş mühasibə verilir. Vergilərin optimallaşdırılması həm də maliyyə mütəxəssisi tərəfindən həyata keçirilə bilər, lakin ideal olaraq vergi planlaşdırıcısı bunun üzərində işləməlidir [1, s. 32]. Planlaşdırılan gəlir və xərclər haqqında məlumat varsa, təqvim yalnız ödəniş tarixini deyil, həm də planlaşdırılan məbləği əks etdirir. Bu məlumat sonradan vergi yükünün dinamikasını təhlil edərkən lazım olur ki, bu da vergi planlaşdırmasının effektivliyi haqqında nəticə çıxarmağa imkan verir. Faktiki olaraq alınan gəlirlər və hesablanmış vergilər haqqında məlumatlar, optimallaşdırma tədbirlərinin həyata keçirilməsinin nəticələrini təhlil etmək və ya onları gələcək dövr üçün planlaşdırmaq mümkün olur.

Vergilər ölkənin ümumi daxili məhsulunu və milli gəliri tənzimləyən ən mühüm alətdir və büdcənin formalaşmasına məqsədyönlü təsir göstərir. Bu baxımdan büdcə gəlirlərinin strukturuna nəzər saldıqda məlum olur ki, 2020-ci illə müqayisədə 2022-ci ildə gəlirlər 18,6% artmışdır. Sair daxilolmalar istisna olmaqla (32,4% azalma) digər vergilərin həcmi, müqayisə olunan dövrdə büdcə gəlirlərinin tərkibində əhəmiyyətli dərəcədə yüksəlmişdir [5].

Vergi planlaşdırılmasının effektivliyi aşağıdakı kimi xarakterizə olunur: əgər dəyişən vergilərin gəlirə nisbəti kimi müəyyən edilən səmərəlilik əmsalında cüzi dəyişikliklər olarsa, o zaman təşkilatda vergi planlaşdırması müəyyən təkmilləşdirmələri tələb edir. Vergi siyasətinin formalaşdırılması, eləcə də istənilən idarəetmə qərarlarının hazırlanması vergi siyasəti subyektinin fəaliyyətinə təsir edən amillərin təhlilinə əsaslanmalı və bu qərarların qəbulu prosesində onun prioritetlərinin müəyyənləşdirilməsinə kömək etməlidir. Əksər hallarda, bu cür təsirin xarakteri şirkətin məqsədyönlü təsirinin köməyi ilə dəyişdirilə bilməz və vergi siyasətində əhəmiyyətli dərəcədə çevikliyi nəzərdə tutur ki, bu da onu yaranan imkanlar və məhdudiyyətlər dəstinə uyğunlaşdırmağa imkan verir [4, s. 61].

Qeyd edilənlər göstərir ki, dövlətin sosial-iqtisadi göstəricisi vahid, proporsional, mütərəqqi və ya reqressiv vergi dərəcələrinin tətbiqinin rasionallığını, habelə birbaşa və dolayı vergilərin nisbətini müəyyən edir. Vergi tənzimlənməsi praktikada bir proses kimi vergi tənzimlənməsi mexanizmi vasitəsilə həyata keçirilir ki, bura daxildir:

- vergi tənzimlənməsinin subyektləri və obyektləri;
- vergi tənzimlənməsinin subyektlərinin və obyektlərinin təsir və qarşılıqlı əlaqə formaları;
- vergi tənzimlənməsi üsulları;
- vergi tənzimlənməsi alətləri [3, s. 566].

Vergi tənzimlənməsinin subyektləri, bir tərəfdən səlahiyyətli orqanlar tərəfindən təmsil olunan dövlət, digər tərəfdən isə sahibkarlıq subyektləridir. Hökumətin göstərişləri və normativ konsolidasiya üsuluna əsaslanan dövlət vergi tənzimlənməsi formal və mərkəzləşdirilmişdir. Beləliklə, vergi tənzimlənməsini dövlətin vergi siyasətinin subyektlərin maliyyə resurslarına təsirini xarakterizə edən sosial münasibətlər sisteminin tərkib hissəsi kimi müəyyən etmək olar.

## ƏDƏBİYYAT

1. Məmmədov Ə.C. Seyfullayev İ.Z. "Vergi və investisiya mühiti", Bakı, 2013, 376 s.
2. Rzayev P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Bakı: "İqtisad Universiteti" 2013, 392 s.
3. Агирбова А.А. Налоговая система как правовая категория и институт финансовой системы государства // Аллея науки. 2017. Т. 2. № 15. С. 565-569.
4. Лыкова, Л. Н. Налоги и налогообложение [Текст] / Л.Н. Лыкова. — М.: Издательство Юрайт, 2019. - 357с.
5. www.stat.gov.az

***Рашад Арзуман оглу Мустафаев***
***Докторант Азербайджанского Университета Кооперации***
***Электронная почта: resad_320_m@mail.ru***

### Роль и характеристики налоговой системы в регулирующем процессе

***Резюме***

Эффективная реализация налоговой политики государства в различных сферах деятельности считается одним из приоритетов фискальной политики. Налоговая политика – это форма реализации идеологии и целей в области налогов, которая представляет собой программу, метод работы или действия, осуществляемые менеджерами. На практике формирование налоговой политики основывается на определенных принципах, и учет этих принципов является важным условием налогообложения в каждой сфере налогового администрирования.

Конечной целью государственного налогового регулирования является воздействие на различные стороны экономической жизни и создание условий для увеличения налоговых поступлений в бюджетную систему страны на основе роста производства, продаж и доходов экономики. Особенностями государственного налогового регулирования являются наличие и развитие макроэкономической стратегии и осознанное воздействие на экономику, и они относительно стабильны во времени [2, с.26]. Он охватывает не отдельные предприятия, а всю экономику и ее сегменты.

***Ключевые слова: налоговая политика, регулирование, бюджет, доходы, совершенствование.***

***Rashad Arzuman Mustafayev***
***PhD student of Azerbaijan Cooperation University***
***E-mail: resad_320_m@mail.ru***

### The role and characteristics of the tax system in the regulatory process

***Summary***

Effective implementation of the tax policy of the state in various spheres of activity is considered one of the priorities of the fiscal policy. Tax policy is a form of implementation of ideology and goals in the field of taxation, which is a program, method of operation or actions carried out by managers. In practice, the formation of tax policy is based on certain principles, and consideration of these principles is an important condition for taxation in every area of tax administration.

The ultimate goal of the state's tax regulation is to influence various aspects of economic life and create conditions for increasing tax revenues in the budget system of the country based on the growth of production, sales and income of the economy. The characteristics of the state's tax regulation are the existence and development of the macroeconomic strategy and the conscious impact on the economy, and are relatively stable over time [2, p. 26]. It covers not individual enterprises, but the entire economy and its segments.

***Key words: tax policy, regulation, budget, revenue, improvement.***

**UOT 336.338**

***Eltun Məzahir oğlu NAĞIYEV***
***Magistr, Azərbaycan Kooperasiya Universiteti***

# AZƏRBAYCANDA MALİYYƏ BAZARININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNİN ROLU

***Xülasə***

Tezisdə Azərbaycan Respublikasında maliyyə bazarının təşəkkülü və inkişafı ilə bağlı məsələlər müasir reallıqlar kontekstində şərh olunmaqla, burada Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından başlayaraq müasir dövrümüzə qədər maliyyə bazarlarının formalaşdırılması və inkişafı meyillərinə nəzər salınır. Burada həmçinin son dövrlərdə ölkəmizdə maliyyə bazarlarının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü işlərlə bağlı məqamlar öz əksini tapmışdır.

***Açar sözlər: maliyyə bazarları, qiymətli kağızlar, maliyyə aktivləri, institusional tərəqqi, iqtisadi inkişaf.***

***

Milli iqtisadiyyatın təşəkkülü və inkişafını maliyyə bazarının formalaşdırılması olmadan təsəvvür etmək mümkün deyildir. Məhz bu aspektdən yanaşılmaqla ölkəmizin siyasi müstəqilliyinin bərpa olunmasından sonra həyata keçirilən iqtisadi islahatlar çərçivəsində əsas prioritetlərdən biri ölkədə maliyyə bazarının müasir dövrün çağırışları və tələbləri nəzərə alınmaqla formalaşdırılması olmuşdur. Ümummilli lider Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra onun milli iqtisadiyyatın yenidən qurulması istiqamətində həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət çərçivəsində xüsusi yer tutan istiqamətlərdən biri də maliyyə bazarlarının inkişaf etdirilməsi və onun məzmununun keyfiyyət parametrləri baxımından təkmilləşdirilməsi olmuşdur.

Azərbaycan Respublikasında maliyyə bazarlarının formalaşması bilavasitə maliyyə institutlarının yaradılması ilə əlaqədədir. Bu proses mahiyyət etibarı ilə təkmilləşmiş qanunvericilik bazası olmadan həyata keçirilmiş və həyata keçirilməkdə davam edir. Maliyyə institutlarının tipindən və maliyyə alətlərinin növündən asılı olaraq Azərbaycanın maliyyə bazarını aşağıdakılara bölmək olar: pul bazarı, qiymətli kağızlar bazarı, sığorta bazarı, valyuta bazarı və qızıl bazarı. [3, s. 49]

"Financial market" sözünün tərcüməsi "maliyyə bazarı" deməkdir. Müasir mənada maliyyə bazarı elə bazar növüdür ki, burada maliyyə aktivləri (qiymətli kağızlar) alına və satıla bilər. Bu anlayış ilk dəfə məşhur iqtisadçı C.Tobinin 1963-cü ildə nəşr edilmiş məqaləsində dövriyyəyə salınmışdır, lakin o dövrlərdə maliyyə bazarı pul bazarı və kapital bazarının məcmusu ilə əlaqələndirilmədiyinə görə o dərəcədə də geniş yayılmamışdı. 1978-ci ildə ingilis ensiklopediyasında – "The New Encglopedia Britanica" "Financial market" anlayışı artıq bazar haqqında ümumi məqalədə xatırladılırdı. Görünür ki, müasir mənada (pul bazarı və kapital bazarlarının məcmusu) "maliyyə bazarı" anlayışının yayılmasında 1974-cü ildə ABŞ-da R.Robinsonun "Maliyyə bazarları: yığım və sərvətin yerləşdirilməsi" adlı məqaləsinin müəyyən əhəmiyyəti olmuşdur. [5, s. 54]

Bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq Azərbaycan hökumətinin qarşısında onun maliyyə bazarında rəqabətqabiliyyətliliyini möhkəmləndirmək məqsədilə maliyyə bazarlarının təkmilləşdirilməsinin zəruriliyi məsələsi yaranmış olur.

Müasir Azərbaycan maliyyə bazarlarını nəzərdən keçirərkən onun aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:

- regionların inkişaf səviyyəsində xeyli dərəcədə fərqlilik;
- sosial yönümlülük;
- maliyyə bazarında maliyyə agenti qismində aparıcı mövqeyin kommersiya banklarına mənsubluğu;
- maliyyə bazarının iki sektor ilə məhdudiyyətliyi. [5, s. 58]

Azərbaycan Respublikasının Prezidentinin 16 may 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı Dövlət Proqramı"nda göstərilir ki, "Hazırda ölkəmiz daha yüksək sosial-iqtisadi dirçəliş mərhələsinə

qədəm qoymuşdur. Artıq inzibati-amirlik üsul-idarəsinə söykənən formasiyadan yeni azad sahibkar və bazar münasibətlərinə əsaslanan sosial-iqtisadi quruluşa keçid tamamlanmışdır. Bu gün başlıca hədəf kimi bərqərar olmuş yeni iqtisadi sistemin daha da yetkinləşməsi gündəlikdədir". Dövlət Proqramının başlıca məqsədi müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitallaşma imkanları təqdim edən və yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılmasıdır.

Son illər ölkəmizdə yürüdülən iqtisadi islahatlar azad bazar əlaqələri əsasında işləyən iqtisadi sistemin bərqərar olmasını təmin etmişdir. Əlverişli maliyyə sahəsinin təşəkkül tapması və institusional tərəqqisi yönündə geniş əhatəli islahatlar yürüdülmüş, bu istiqamətdə idarəetmə, nəzarət və nizamlanma beynəlxalq normalara müvafiq inkişaf etdirilmiş və nəticədə, bankların rəqabət bacarığı əhəmiyyətli səviyyədə artırılmışdır. Respublikamızın fond bazarının inkişafını ləngidən problemlər vardır ki bu maneələri tez bir zamanda aradan qaldırmaq mütləqdir. [4 s. 3]

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" isə ölkəmizdə maliyyə xidmətləri bazarının inkişafında yeni bir keyfiyyət mərhələsinin başlanması kimi səciyyələndrilir. Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində müəyyən edilmiş məqsədlərə çatmaq üçün 2020-ci ilədək 5 strateji hədəf və 16 prioritet hazırlanmışdır. Sözügedən beş hədəf arasında ilkin strateji hədəf olaraq "Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması" və ikinci mühüm hədəf kimi isə "Maliyyə bazarlarının inkişafı" müəyyənləşdirilmişdir. Sözügedən sənəddə göstərilir ki, 2025-ci ilədək maliyyə xidmətləri sektoru güclü və diversifikasiya olunmuş maliyyə institutlarından təşkil olunacaq, davamlı artım və mənfəətlilik nümayiş etdirəcəkdir. Eyni zamanda, bank sektorunda konsolidasiya prosesinin sürətlənməsi, bankların maliyyə nəticələri arasında fərqlərin azalması müşahidə ediləcəkdir. Nəticədə banklar böyüyəcək, xidmət portfeli diversifikasiya olunacaq və bank olmayan yeni maliyyə institutları yaranacaqdır. Bank olmayan yeni maliyyə institutlarının təqdim edəcəyi əlavə kredit məhsulları istehlak kreditlərinə alternativ çıxış imkanları yaradacaq və sektorda rəqabəti gücləndirəcəkdir. Maliyyə bazarlarında şəffaflığın artması və sektorun tam formalaşması nəticəsində uzunmüddətli perspektivdə maliyyə xidmətləri sektoruna daha çox xarici investor cəlb ediləcəkdir. [2]

Qeyd olunanlar ölkəmizin milli iqtisadiyyatının maliyyə seqmentində, o cümlədən maliyyə bazarının formalaşdırılması istiqamətində olduqca ciddi və rasional addımların atıldığını və bu istiqamətdə proseslərin davamlı və ardıcıl xarakter aldığını ifadə etməyə imkan verir. Göstərilən istiqamətdə işlərin daha intensiv xarakter alması üçün milli iqtisadiyyatın maliyyə bazarları seqmentində fəaliyyət göstərən subyektlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və bu aspektdə işlərin dünya təcrübəsindən yararlanmaqla həyata keçirilməsi daim diqqət mərkəzində saxlanmalıdır.

## ƏDƏBİYYAT


1. "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 16 may 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. Ataşov B.X. Maliyyə bazarları. Ali məktəb tələbələri üçün dərslik. Bakı, "Kooperasiya" nəşriyyatı, 2016.
4. Əliyev T. Azərbaycanda qiymətli kağızlar bazarının mövcud problemlərinin həlli istiqamətləri. Naxçıvan Universitetinin Elmi Əsərləri, 2022, № 2.
5. Kərimova G.R. Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri. "Audit" jurnalı, 3 (2020), Cild 29, səh. 53-64.

*Эльтун Мазахир оглу Нагиев*
*Магистр, Азербайджанский Университет Кооперации*

**Роль экономической политики Гейдара Алиева в формировании и развитии финансового рынка Азербайджана**

***Резюме***

В тезисе вопросы, связанные с образованием и развитием финансового рынка в Азербайджанской Республике, трактуются в контексте современных реалий, и здесь рассматриваются тенденции формирования и развития финансовых рынков, начиная с возвращения Гейдара Алиева в политическую власти и до наших дней. Также отражены моменты, связанные с целенаправленной работой, проводимой в направлении развития финансовых рынков в нашей стране в последнее время.

***Ключевые слова: финансовые рынки, ценные бумаги, финансовые активы, институциональный прогресс, экономическое развитие.***

*Eltun Mazahir oglu Nagiyev*
*Master, Azerbaijan Cooperation University*

**The role of Heydar Aliyev's economic policy in the formation and development of the financial market in Azerbaijan**

***Summary***

In the thesis, the issues related to the formation and development of the financial market in the Republic of Azerbaijan are interpreted in the context of modern realities, and here the tendencies of the formation and development of financial markets, starting from Heydar Aliyev's return to political power and up to the present day. It also reflects the points related to the purposeful work carried out in the direction of the development of financial markets in our country in recent times.

***Key words: Financial markets, securities, financial assets, institutional progress, economic development.***

*Sona Elşad qızı QULİYEVA*
*magistrant, Azərbaycan Kooperasiya Universiteti*
*sona quliyeva01 @gmail.com*

**AZƏRBAYCANIN MİNERAL SU EHTİYATLARININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ**

***Xülasə***

Məqalədə Azərbaycanda mineral su mənbələri minerallaşma dərəcəsinə, kəmiyyət və keyfiyyət göstəricilərinə görə təhlil olunur. Burada mineral su mənbələrinin yayılmasına geoloji quruluşun təsiri, həmçinin mineral su mənbələrinin rejiminə təsir edən amillər geniş analiz olunur. Bundan əlavə, mineral sulardan səmərli istifadə olunmaq yolları öyrənilir.

***Açar sözlər: mineral su, minerallaşma, hidro-kimyəvi, barneloji, termal su, subtermal və s.***

***

Azərbaycan keçmiş sovet respublikaları arasında müalicəvi və mineral su mənbələrinin kəmiyyətinə və keyfiyyətinə görə birinci yeri tutur. Respublikamızda 500-dən artıq mineral su mənbəyi və 700 təbii axını ilə çıxan çeşmələr vardır. Təbiətdə nadir halda rast gəlinən mineral sular (İstisu, Darıdağ, Sirab, Qızılvəng və s.) böyük debitə malikdirlər. Bu suların minerallaşması 0,5-150 q/l arasındadır. Cüzi miqdarda bu suların tərkibində mikroelementlər də mövcuddur.

Suların tərkibində karbon qazı, kükürd qazı, azot qazı, metan qazı, radon qazı və digər qazlar iştirak edir.

Temperatura görə sular müxtəlifdir: soyuq (200 C-yə qədər), subtermal (20-370 C), termal (37-420 C) və yüksək termal (420 C-dən artıq) növlərə bölünür [1, s. 94].

Termal və mineral suların fiziki-kimyəvi tərkibinin müxtəlifliyi onların hansı hidro-kimyəvi zonada əmələ gəlməsindən asılıdır.

Mineral su mənbələrinin yayılmasına geoloji quruluşa əsasən Böyük və Kiçik Qafqazda, Talış zonasında, Lənkəran düzənliyində və Kür ovalığında təsadüf edilir.Bir neçə mineral su mənbəyi rejimli nəzarətdə saxlanır. Bunlar Mərkəzi Naxçıvan hidrokimyəvi zonasında olan Badamlı, Sirab və Darıdağ, Kəlbəcər hidrokimyəvi zonasında olan İstisu, Şirvan hidrokimyəvi zonasında olan Turşsu, Daşkəsən-Gədəbəy hidrokimyəvi zonasında olan Qızılca və Lənkəran hidrokimyəvi zonasında yerləşən bir neçə mineral su mənbələridir.

Böyük Qafqaz zonasında 153 mineral su mənbəyi qeydə alınıb. Bunların əsas hissəsi azotlu-metallı-kükürdlü, karbonatlı isti və soyuq mineral sulardır. Natrium hidrokarbonatlı, natrium-kalsium-hidrokarbonatlı və kükürd iyli sular üstünlük təşkil edir. Suların istiliyi 9-490 C, PH -7-8-dir. Su mənbələrinin sutkalıq debiti bir neçə min litrdən 100 min litrə qədərdir.

Kiçik Qafqazın dağ rayonlarında 190-a qədər mineral su mənbələri mövcuddur. Burada soyuq su mənbələri ilə yanaşı, isti su mənbələri də var. Bir qayda olaraq isti su mənbələrinin debiti 300 mindən 1,5 mln. litr/sutka təşkil edir.

Bunlar zəif minerallaşmış (minerallaşmanın ümumi miqdarı 1 q/l-dən 10 q/l-ə qədər, nadir hallarda 30 q/l-ə çatır) kalsium-hidrokarbonat, natrium-hidrokarbonat, natrium-xlor-hidrokarbonat və natriumlu-xlorlu sulardır ki, müalicəvi xüsusiyyətlərə malikdirlər [1, s.95].

Naxçıvan dağlarında 203 mineral su mənbələri aşkar edilib. Bunlardan 200-ü karbon qazlı, 3-ü isə hidrogen sulfudlidir. Kimyəvi tərkibcə hidrokarbonatlı suların müxtəlif növləri burada iştirak edir. Darıdağ mərgümüşlü suyu əsasında barneloji kurort yaradılması məqsədəuyğundur. Sənaye əsaslı sudoldurma zavodlarının (sirab, badamlı, vayxır və s.) genişləndirilməsini də məqsədə müvafiq hesab edirik.

Talış zonası üzrə 182 su mənbəyi aşkar edilib. Bunlar soyuq və isti sulardır (13-160 C) və kalsium-hidrokarbonatlı, əksəri natrium-xlorid tərkibli olmaqla PH 5,9-9-a çatır [5, s. 182].

Gündəlik məhsuldarlıqları müxtəlif olmaqla yanaşı, hidrogen-sülfid iylidirlər. Kiçik və Böyük Qafqaz dağlarında, həmçinin dağlıq Talış zonasında yerləşən su mənbələrinin kimyəvi tərkibinin araşdırılması göstərir ki, bu zonalarda təbii yolla çıxan suların hamısı (sayı 738-dir) içməli olmaqla yanaşı, kurort tikintisi üçün də iqtisadi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Kür-Araz düzənliyi zonasında suyun öz-özünə çıxması halına rast gəlinmir. Bu zonada mineral-termal sular neft üçün qazılan quyuların lay sularını kəsdikdən sonra aşkar olunub. Bu sular yüksək minerallaşma dərəcəsinə (20-30 q/l), müəyyən istiliyə (9-430 C) malikdir, kimyəvi tərkibinə gəldikdə isə natriumlu- xlorlu olmaqla yanaşı, suyun tərkibində yodun miqdarı yüksəkdir (30-35 mq/l). Bu sularda həmçinin səbəst hidrogen sulfid ionları iştirak edir. Sulu laylarda qazılan quyuların gündəlik debiti 12 min l/sutka təşkl edir. [ 2, s. 86].

Azərbaycan Respublikasının ərazisində təbii çıxan və çıxarılan termal suların sayı 200-dən yuxarıdır. Termal suların səmərəli və məqsədyönlü istifadəsi respublikamıza xeyli gəlir gətirə bilər.

Son illər respublikamızın paytaxtında və ayrı-ayrı mərkəzi şəhərlərində qonşu dövlətlərdən (İran və Türkiyədən) gətirilən qazlaşdırılmış adi sular satılır.

Bundan başqa, bəzi “işgüzar” adamlar Kür suyuna qaz vuraraq “Sirab”, “Badamlı” etiketləri altında satırlar. Bütün bu xoşagəlməz halları aradan qaldırmaq üçün dövlət və milli burjuaziyanın nümayəndələri mineral su çıxan rayonların ərazisində kiçik və böyük sudoldurma zavodları tiksələr, həm özləri xeyli gəlir əldə etmiş olar, həm də həmin rayonlarda yaşayan əhalinin bir qismi işlə təmin olunar. Nəticədə həm əhalinin sağlamlığı qorunar, həm də respublikamızın əvəzsiz neməti olan mineral suyun itirilməsinin qarşısı alınar. Son olaraq “Regionların sosial-iqtisadi inkişafı” Dövlət Proqramı həyata keçirilər, əhalinin yoxsulluğu aradan qaldırılmış olar.

Ekoloji nöqteyi-nəzərdən sular məqsədyönlü istifadə edilərsə, mineral sularla şorlaşmış və

xarab olmuş ərazilər azalar və yaxud yox olar. Bu gün müstəqil respublikamızın yerüstü və yeraltı təbii sərvətlərinin məqsədyönlü və səmərəli istifadə edilməsi hər bir Azərbaycan vətəndaşının müqəddəs borcu və dönməz amalı olmalıdır. Əgər biz bu gün öz təbii sərvətlərimizə qənaətlə yanaşmasaq, bir neçə ildən sonra gələn nəslimizi xarici dövlətlərdən asılı vəziyyətə salmış olarıq. Odur ki, təbii sərvətləri elə işlətməliyik ki, gələcək nəsillərimizə də bir şey qalmış olsun.

Azərbaycanın bütün fiziki-coğrafi vilayətlərində müxtəlif tərkibli mineral su bulaqları aşkar edilmişdir. Mineral bulaqların bir qrupunun suyu soyuq, bir qrupunun möhtədal (ılıq), bir qrupununki isə istidir. Respublika ərazisində adi və müalicəvi suyu ilə seçilən külli miqdarda mineral bulaqların bəziləri öz əhəmiyyətinə görə dünya şöhrəti qazanmışdır. Bu baxımdan mədə-bağırsaq xəstəliklərinin müalicəsində əvəzsiz əhəmiyyətə malik olan Kəlbəcər İstisuyu Çexiyadakı Karlovı-Varı və Şimali Qafqazdakı Jeleznovodsk suları ilə, böyrək xəstəlikləri müalicəsində istifadə edilən Şabran rayonundakı Qalaaltı Qərbi Ukraynada Karpat dağlarının ətəyindəki məşhur Truskaves suları ilə müqayisə edilir. Hər iki mineral suların yanında sanatoriya fəaliyyət göstərir [6, s. 60].

Mineral bulaqlar vulkanogen süxurlardakı və qranitoidlərdəki çatlardan çıxır. Yuxarı İstisu sahəsində mineral bulağın biri birbaşa çayın dibindən fəvvarə vururdu. İstisu bulaqlarında suyun temperaturu 21-610 arasında tərəddüd edir. Suların balneoloji əhəmiyyətini artıran onların radioaktivliyidir. Bu bulaqların gündəlik su debiti 1 milyon litrdən çoxdur. Lakin bunun çox cüzi hissəsi istifadə edilir. İstisu kurortunda müalicə olunanlar həm bu sulardan içir, həm də vanna qəbul edirlər. Bundan başqa su şüşələrə doldurularaq ölkənin müxtəlif regionlarına, xüsusilə Bakı şəhərinə göndərilir.

Minkənd mineral bulaqları eyni adlı çayın dərəsində səthə çıxan 6 böyük debitli qaynaqdan ibarətdir. Bu qaynaqların ümumi debiti 1,5 mln. litrdən artıqdır. Suyun temperaturu 25-29° arasındadır. Yayda bulaqlar ətrafında yüzlərlə alaçıq və çadır qurulur. Qaynaqlar sahəsində xəstələr primitiv dayaz quyular qazaraq təbii vannalar qəbul edirlər. Minkənd bulaqlarından bir qədər aşağıda gündəlik debiti 0,6 mln. litrdən artıq olan və temperaturu 8,8° ilə 19° arasında dəyişən Əhmədli mineral bulaqları yerləşir.

Turşsu və Şırlan bulaqları Qarqarçayın qollarından Zarıslı və Xəlfəli çaylarının mənbələrinə yaxın bir-birindən 8 km məsafədə yerləşir. Turşsu bulaqları Şuşa-Laçın yolu üzərindədir. Suyun temperaturu 8,2-9,6°, minerallaşma dərəcəsi 3,9 q/litr, sərbəst karbon qazının miqdarı 2,45-2,57 q/litrdir. Turşsuda suyu şüşələrə dolduran zavod tikilmişdir.

Qızılcan mineral bulaqları suyunun temperaturu 7-12°, gündəlik debiti 20 min litrdən çoxdur. Sular karbon qazlı - hidrokarbonat - kalsium - maqnezium - natrium tiplidir.

Lənkəran vilayətində dağətəyi zonada yerləşən tektonik qırılmalar üzrə bir sıra mineral bulaqlar qrupu yerləşir. Bunlara Masallı, Lənkəran, Astara mineral bulaqları daxildir. Masallı mineral bulaqları kimyəvi tərkibinə görə xloridli-natriumlu-kalsiumlu sulara aiddir. Bu bulaqlar temperaturuna görə (50- 64°) termal sulara aid edilir. Minerallaşması 17 q/litrə çatır [6, s. 61].

Lənkəran mineral bulaqları qrupu Lənkəran şəhəri yaxınlığında (12 km qərbdə) dağ ətəyində yerləşir. Lənkəran mineral bulaqları qrupu bir-birindən 3 km məsafədə yerləşən Yuxarı və Aşağı Lənkəran bulaqlarına ayrılır. Yuxarı Lənkəran bulaqlarında suyun temperaturu 43-46°-yə, gündəlik debiti 900 min litrə çatır. Aşağı Lənkəran bulaqları dəniz səviyyəsindən 30-40 m yüksəkdədir. Bu bulaqlarda suyun temperaturu 41-43 °-yə çatır. Lənkəranda İstisuyun üzərində müalicə və istirahət ocağı yaradılmışdır.

## ƏDƏBİYYAT


1. C.İ.İsmayılov. Azərbaycanın mineral xammal yataqlarının sənaye genetik tipləri, iqtisadi və ekoloji qiymətləndirilməsi. Bakı-2009, 218 s.
2. S.A.Rzayeva. Azərbaycan Coğrafiya Cəmiyyəti. BDU. Bakı-2012.
3. A.D.Aslanov, V.C. Əhmədova. Mineral və termal sular. Bakı-1997, 107 s.
4. Бабаев В.М. Минеральные воды горно- складчатых областей Азербайджана. Баку, 2000.
5. K.Ş.Allahverdiyev. Geomorfologiya. Bakı-2006, 43 s.
6. M.A.Müseyibov. Azərbaycanın fiziki coğrafiyası. Bakı-1998. 399 s.

*Сона Эльшад кызы Гулиева*
*Аспирант, Азербайджанский Университет Коперации*
*Сона Гулиева01 @gmail.com*

**Характеристика запасов минеральных вод Азербайджана**

***Резюме***

В статье проанализированы источники минеральной воды в Азербайджане по степени минерализации, количественным и качественным показателям. Здесь широко анализируется влияние геологического строения на распространение источников минеральной воды, а также факторы, влияющие на режим источников минеральной воды. Кроме того, изучаются пути эффективного использования минеральных вод.

***Ключевые слова: минеральная вода, минерализация, гидрохимическая, барнеологическая, термальная вода, субтермальная и др.***

***Sona Elshad Guliyeva***
***postgraduate student Azerbaijan Cooperation University***
***Sona Guliyeva01@gmail.com***

**Characteristics of the mineral water reserves of Azerbaijan**

***Summary***

The article analyzes the sources of mineral water in Azerbaijan in terms of the degree of mineralization, quantitative and qualitative indicators. Here, the influence of the geological structure on the distribution of mineral water sources, as well as factors affecting the regime of mineral water sources, is widely analyzed. In addition, ways of efficient use of mineral waters are being studied.

***Key words: mineral water, mineralization, hydrochemical, barneological, thermal water, subthermal, etc.***

**UOT 332.004**

***Rafael Sabir oğlu HÜSEYNOV***
***Azərbaycan Kooperasiya Universiteti, dissertant***
***rafael.huseynov.77@gmail.com***

# ÖLKƏNİN AQROBİZNES SİSTEMİNDƏ ELEKTRON XİDMƏTLƏRİN TƏŞKİLİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

Aqrobiznes sistemində elektron xidmətlərin təşkili və təkmilləşdirilməsinin zəruriliyi sahənin öz xüsusiyyətlərindən əlavə xarici təsirlərdən irəli gəlir. Bu sistem iqtisadi (biznes) mühit ilə yanaşı təbii mühitlə də sıx bağlıdır. Ona görə iqlim dəyişikliklərinin proqnozlaşdırılması, təbii resurslardan səmərəli və qənaətlə istifadə elektron xidmətlərin genişləndirilməsini tələb edir.

Təqdim olunan məqalədə aqrobiznes sistemində süni intellekt, dron və digər texniki vasitələrdən bir mərkəzdən sensorlar vasitəsilə istifadə imkanları və təcrübəsi nəzərdən keçirilmişdir.

***Açar sözlər: aqrobiznes, xidmət, tələbat,məhsuldarlıq, texnologiya, proqnozlaşdırma, idarəetmə.***

***

Dünyada baş verən iqlim dəyişikliyinə analoji olaraq, respublikamızda da hava şəraitində gözlənilməz hallar yaranır və havanı proqnozlaşdırmaq çətinləşir. Ölkəmizdə dağlıq və dağətəyi ərazilərlə yanaşı aran bölgələrində də təbii fəlakətlər müşahidə olunmaqdadır.Vegetasiya dövrləri

üçün tələb olunan yüksək yağış dövrləri quraqlıq dövrləri ilə əvəz olunur. Bitkiçilikdə yetişdirilən məhsulların daha isti temperatur, həddindən artıq yağış və ya daşqın səbəbindən əlavə fəsadlarla üzləşəcəyi gözlənilir. İstiliyə dözümlü növlər bir seçimdir, lakin suyun idarə edilməsi başqa bir zərurətdir. Uzun müddət davam edən daşqınlar və su altında qalan məhsullar isti yay aylarında zərərli ola bilər. Eyni zamanda, temperatur yüksəlir və daha çox quraqlıq gözlənilir, məhsulların istər yağış, istərsə də suvarma suyuna tələbatı artır.Bu kimi problemlər ölkəmizin aqrobiznes sistemində elektron xidmətlərin tətbiqinin genişləndirilməsini və İEÖ təcrübəsi əsasında təkmilləşdirilməsini zəruri etmişdir.

Avropanın bir çox yerlərində, xüsusən də cənubunda (məsələn, İspaniyada) bitkiçilikdə suvarma cədvəlinin tərtibində tarixi ənənə formalaşmışdır və suvarma sahəsində geniş təcrübə vardır. Planlaşdırma suvarma tətbiqləri çox vaxt məhsulun istehsal həcminin qiymətləndirilməsinə, yağışın ölçülməsinə və torpağın rütubətliliyinin uçotuna əsaslanır. Ərazidə torpağın rütubətliliyinin tədqiqi və hava proqnozu isə elektron xidmət informasiyaları ilə yenilənir. Bu təcrübənin resbublikamızın kənd təsərrüfatında tətbiqi sahənin rentabelliyini yüksəldə bilər.

Göstərilə bilər ki, ərazisi şirin su ilə az təmin olunan İsrail dövlətinin kənd təsərrüfatında tətbiq edilən damçılama su təchizat sistemi və onun elektron xidmətlər vasitəsilə idarə edilməsi məhsuldarlığı maksimumlaşdırmağa imkan vermişdir. Həmin dövlətin birbaşa dəstəyi ilə respublikamıza yeni innovativ texnologiyaların gətirilməsi gözlənilir Bu texnologiyaların tətbiqi ilə kənd təsərrüfatı maksimum məhsuldarlığı hədəfləyir[6].

İnternetə qoşulmuş avtomatik hava stansiyaları vasitəsilə hava məlumatlarının ölçülməsi indi etibarlı olmaqla bərabər həm də elektron xidmət olaraq ucuzdur. Aşağı qiymətli şəbəkəli meteoroloji stansiyalar düzgün quraşdırıldığı və yerləşdiyi şəraitdə yağış, temperatur və rütubətin ölçülməsi üçün çox etibarlıdır. Bununla belə, dünya təcrübəsinə əsasın tövsiyə olunan Penman Monteith metodu ilə buxarlanmanın qiymətləndirilməsi də küləyin sürəti və radiasiya məlumatlarını tələb edir.Son iki dəyişən (külək və günəş) üçün aşağı qiymətli sensorlar daha az etibarlıdır [5]. Süni intellektə əsaslanan idarəetmə modellərində aşağı qiymətli hava stansiyalarını inteqrasiya etmək və onları yüksək keyfiyyətli hava stansiyaları ilə birləşdirmək üçün elektron xidmət məlumatlarının mənimsənilməsi prosedurları olmalıdır.

Aqrobiznes sistemində elektron xidmətlərin təşkili məqsədilə tətbiq edilən sensorlar vasitəsilə torpağın rütubətliyinin monitorinqi aparılır. Bu monitorinq tensiometrlərin vasitəsilə reallaşdırılır. Adətən temperatur eyni sensor daxilində ölçülür və temperaturun tənzimlənməsinə imkan verir. Keçiriciliyə əsaslanan sensorlar ən aşağı qiymətə malikdir və onlara nəzarət etmək də asandır. Tipik olaraq, daxili elektronların ətrafında xaricdən örtülmüş məsaməli material istifadə olunur. Tensiometrlər faydalı ölçmələrdən bəzilərini təmin edir, çünki onlar su potensialını ölçürlər, bu da köklərin suyu necə asanlıqla udması ilə birbaşa bağlıdır.Rəqəmsal tensiometr həmçinin ölçmə diapazonunu 150 kPa-a qədər genişləndirir ki, bu da əl ilə verilən ekvivalent diapazondan demək olar ki, iki dəfə çoxdur [4, s.15]. Bu elektron xidmət sistemi respublikamızda indi müşahidə olunan su qıtlığı şəraitində səmərəliliyi ilə fərqlənir.

Avropa İttifaqı ölkələrində tətbiq edilən Time Domain Reflectometer (TDR) və Frequency Domain (FDR) sensorları əkinçilik üçün çox bahalıdır. Onlar torpağın dielektrik davamlılığını ölçmək üçün daha mürəkkəb üsuldan istifadə edirlər. Suyun mineral və ya üzvi komponentlərdən və havadan daha yüksək dielektrik sabitliyinə malik olduğundan, çox dəqiq bir üsuldur və əksər tətbiqlər üçün heç bir kalibrləmə tələb etmir. Bu metoda əsaslanan İsrail təcrübəsində də torpağa əkilmiş olan taxıla tələbinə uyğun olaraq üzvi və mineral komponentlər verilir, nəticədə taxılçılıqda məhsuldarlıq ərzaqlıq buğda sortu üzrə hər hektara 6 tona yaxın olur [4,s.17].Bu kimi mütərəqqi texnologiyanın tətbiqi nəticəsində taxıl idxal edən ölkəmiz taxıl ixracatçısına çevrilə bilir.

Almaniyada minimum 150 Avro dəyərində sensor içərisində elektronikanı ehtiva edə bilər. Mövcud elektronika daha yüksək tezlikdə işləyir və o qədər də amortizasiya olunmur.Bu elektron sensorların xidmətlərindən hətta torpağın nəmliyini və keçiriciliyini eyni vaxtda ölçmək üçün istifadə edilə bilər. Təəssüf ki, sensor ölçmələri çox vaxt xüsusi monitorlara multipleksləşdirilmiş bağlantılar tələb edir. Bu, böyük sahələr üçün daha az tətbiq olunur və həm də iqtisadi baxımdan bahalı bir üsuldur. Qeyd etmək olar ki, uzaqdan zondlama radar və ya mikrodalğalı üsullar yalnız

torpağın 1 sm-lik dayaz səth qatlarını ölçə bilər və əksər üsullar daha dərin təbəqələrin modelləşdirilməsinə əsaslanır.

Avropanın bir çox ölkəsində mobil yağış silahları olan çevik çarxlar istifadə olunur. Bununla belə, bu, yüksək təzyiq tələb edən və yüksək külək sürüşmə itkilərindən əziyyət çəkən bir üsuldur. Yağış silahları günəş paneli GPS, təzyiq və püskürtmə bucağına nəzarət və internet vasitəsilə uzaqdan idarə oluna bilər. Bundan əlavə, suvarma üzərində daha aşağı təzyiq əhəmiyyətli enerji qənaəti deməkdir. Elektron xidmətin köməyi ilə daha bərabər şəkildə suvarılmaya, sistemdə təzyiq və boşalmaya nəzarət edilə bilər [5].

Damcı suvarmada suya daha çox qənaət edilə bilər. Sistem külək itkilərinin və torpağın buxarlanmasının qarşısını alaraq birbaşa kök zonasını təmin edir. Damcı suvarma sistemi daimi quraşdırılmır və buna görə də çevik deyildir. Bu, torpaqda bitkinin becərilməsi üçün və əkin dövriyyəsi üçün əlavə çətinliklər yaradır.Digər tərəfdən damcı suvarma sisteminin uzaqdan elektron idarə olunması və sistem daxilində təzyiqin ölçülə bilinməsi reallaşır. Buna görə də torpağın və suyun monitorinqi ilə birlikdə yüksək dərəcədə avtomatlaşdırma mümkündür.

Kənd təsərrüfatında damcı suvarma üçün elektron tənzimləmə sistemlərində su, ümumiyyətlə, yaxın 6-7 gün üçün temperatur və ümumi hava şəraiti üçün proqnozlar dəqiqdir.Bununla belə, yağışı proqnozlaşdırmaq daha çətindir. Buna görə də, yerli meteoroloji stansiyalar hələ də faydalıdır və aqrobiznes sisteminə inteqrasiya edilməlidir[6].

Süni intellekt çoxlu mənbələrin və böyük həcmli məlumatların inteqrasiyasına, məhsulun çoxməqsədli idarə olunmasına, eləcə də suyun qorunmasına proaktiv cavab verməyə imkan yaradır. IoT vasitəsilə böyük və müxtəlif sensor şəbəkələrinin onlayn bağlantısı suvarma və drenajın planlaşdırılması üçün torpaq-su balansı modellərini idarə etmək üçün vacibdir. Bu, davamlı və iqtisadi məhsul artımı üçün su səviyyələrinin iqlimə uyğunlaşdırılmasına səbəb olur. Eyni zamanda, su təchizatı və suyun səviyyəsinə elektron nəzarət monitorinqi aparıla və yerli su balansı modelinə inteqrasiya oluna bilər. Məlumatların assimilyasiya alqoritmləri modeli müşahidə olunan dəyişənlərlə yeniləməlidir. Çox sayda sensor IoT tərəfindən eyni vaxtda və çox qısa fasilələrlə izləndiyi üçün məlumatların davamlı avtomatik yoxlanılması və korreksiyası çox vacibdir.

Yaxın gələcəkdə respublikamızın bütün iqtisadi zonalarında elektron xidmətlərin köməyi ilə suvarma ilə bağlı qərarlar daha kiçik sahələrdə və hətta bitkilər üzrə aparılacaqdır. Respublikamızda su qıtlığı və ətraf mühitə təsir məsələləri ciddiləşdikcə, suyun məhsuldarlığını artıran (su vahidi üçün maksimum məhsul) və ətraf mühitə təsirləri minimuma endirən elektron xidmətlərin təşkili həyata keçirilməlidir. Bu, maksimum məhsuldarlığa çatana qədər suyun aşağı qiymətini saxlamaq deməkdir. Aqrobiznes sistemində həddindən artıq suvarmaya xərclərin edilməsi məhsulun maya dəyərinin əhəmiyyətli dərəcədə artması deməkdir.Qeyd etmək lazımdır ki,respublikamızın işğaldan azad edilmiş ərazilərində su ehtiyatları ölkənin su potensialının 25-30 faizinə bərabərdir. Bununla bərabər bir çox aran rayonlarında şirin suyun qıtlığı müşhidə olunmaqdadır.Bu səbəbdən də aqrobiznes sistemində su təchizatı ilə əlaqəli elektron xidmətlər təşkil edilməlidir.

## ƏDƏBİYYAT


1. Qasımlı, V.Ə. Aqrar sahənin modernləşdirilməsinin iqtisadi problemləri: / iqtisad üzrə elmlər doktoru dis. avtoreferatı. / - Bakı, 2017. – 51s.
2. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. – Bakı: Kooperasiya, - 2018. – 480 s.
3. Mənsimzadə, İ.A. İnformasiya texnologiyalarından istifadə əsasında kənd təsərrüfatında biznesin inkişaf istiqamətləri. i.f.d. diss-nın avtoreferatı. Bakı, 2017. – 27 s.
4. Бельский, В.И. Преимущества и проблемы цифровизации сельского хозяйства // Проблемы экономики. – 2019. №1 (28). – с.12-19.
5. Магомедов, А.М.Цифровизация как ключевой фактор развития сельских территорий и сельского хозяйства // Современные технологии управлени [Электронный ресурс]. URL: http://sovman.ru/article/9204/.
6. https://agroeconomics.az/az/article/37/aqrar-sahenin-innovasiyali-inkisafinin-prioritet-i/

*Рафаэль Сабир оглы Гусейнов*
*Азербайджанский Университет Кооперации, докторант*

**Перспективы развития организации электронных услуг в системе агробизнеса страны**

***Резюме***

Необходимость организации и совершенствования электронных услуг в системе агробизнеса обусловлена внешними воздействиями помимо собственных особенностей отрасли. Эта система тесно связана с экономической (деловой) средой, а также с природной средой. Поэтому прогнозирование изменений климата, эффективное и экономное использование природных ресурсов требуют расширения электронных услуг.

В представленной статье были рассмотрены возможности и опыт использования искусственного интеллекта, дронов и других технических средств через сенсоров из одного центра в системе агробизнеса.

***Ключевые слова: агробизнес, сервис, спрос, производительность, технология, прогнозирование, управление.***

***Rafael Sabir Huseynov***
***Azerbaijan Cooperation University, doctoral student***

**Development prospects of the organization of electronic services in the country's agribusiness system**

**Summary**

The need to organize and improve electronic services in the agribusiness system comes from external influences in addition to the field's own characteristics. This system is closely related to the economic (business) environment as well as the natural environment. Therefore, the prediction of climate changes, the efficient and economical use of natural resources require the expansion of electronic services.

In the presented article, the possibilities and experience of using artificial intelligence, drones and other technical tools through sensors from one center were considered in the agribusiness system.

***Key words: agribusiness, service, demand, productivity, technology, forecasting, management.***

**UOT 338.004**

***Rafiq Məcid oğlu RZAYEV***
***AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat***
***İnstitutunun böyük elmi işçisi***
***rafiqrzayev74@mail.ru***

## İNNOVATİV İNKİŞAF VƏ RƏQƏMSAL İQTİSADİYYATDA İNSAN KAPİTALININ ROLU

***Xülasə***

Məqalədə innovativ inkişaf və rəqəmsal iqtisadiyyatda insan kapitalının rolu araşdırılmış, nəzəri və praktik cəhətdən özünü doğrultmuş beynəlxalq təcrübə nəzərdən keçirilmişdir. Bu sahədə riskləri müəyyən etməklə qarşısını almaq və üstünlüklərindən daha çox yararlanmaq imkanları təhlil edilmişdir. Ölkəmizdə də rəqəmsal iqtisadiyyata transformasiyanın yaxın gələcək üçün prioritet inkişaf strategiyası olduğu vurğulanmış, insan kapitalının, intellektual potensialın inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

***Açar sözlər: rəqəmsal iqtisadiyyat, insan kapitalı, innovativ inkişaf, informasiya cəmiyyəti, rəqəmsal texnologiyalar.***

***

İqtisadi proseslərin sürətli inkişafı, mahiyyətinin dəyişməsi onların həyata keçirilməsinə yeni yanaşmalar tələb edir. Bu istiqamətlərdən biri də kompüterləşmə və yüksək texnologiyalara əsaslanan rəqəmsal iqtisadiyyatın formalaşdırılması və daha da inkişaf etdirilməsidir. Bu texnologiyalar yeni bazar imkanları yaradır və müxtəlif sektorlarda əhəmiyyətli iqtisadi təsirlərə malik olur.

Rəqəmsal iqtisadiyyat rəqəm şəklindəki məlumatların əsas istehsal amili olduğu iqtisadi fəaliyyətdir. Bu halda böyük həcmdə informasiyanın emalı və onun təhlilinin nəticələrinin istifadəsi ənənəvi idarəetmə formaları ilə müqayisədə əmtəə və xidmətlərin müxtəlif növ istehsalı, texnologiyaları, avadanlıqları, saxlanması, satışı və çatdırılması səmərəliliyini əhəmiyyətli dərəcədə artırmağa imkan verir.

"Rəqəmsal" (elektron) iqtisadiyyat hibrid dünya şəraitində mövcud olan iqtisadiyyatdır. Hibrid dünya real və virtual aləmlərin birləşməsinin nəticəsidir və real aləmdəki bütün "həyati" hərəkətləri virtual dünya vasitəsilə yerinə yetirmək imkanı ilə xarakterizə olunur.

Qlobal internetin yaranması və tərəqqisi, o cümlədən telekommunikasiya texnologiyalarının və rabitə vasitələrinin inkişafı, virtual malların, elektron pulların kütləvi şəkildə meydana çıxması və s. rəqəmsal iqtisadiyyatın inkişafını şərtləndirir və sürətləndirir.

Rəqəmsal iqtisadiyyat üç səviyyə ilə təmsil olunur [1]:

- konkret subyektlərin qarşılıqlı fəaliyyətinin həyata keçirildiyi bazarlar və iqtisadiyyat sektorları;
- bazarların və iqtisadiyyat sektorlarının inkişafı üçün bilik və təcrübələrin formalaşdığı platformalar və texnologiyalar;
- normativ tənzimləmə, informasiya infrastrukturu, kadrlar və informasiya təhlükəsizliyi.

Rəqəmsal iqtisadiyyat qlobal miqyasda sürətlə inkişaf edir. O, dünyada innovasiyaların, rəqabətqabiliyyətliliyin və iqtisadi inkişafın ən mühüm hərəkətverici qüvvəsi hesab olunur. İş prinsipləri rəqəmsal texnologiyalara əsaslanan təşkilatlar öz regionlarında və ölkələrində iqtisadi artım nöqtələri kimi qəbul edilirlər.

Rəqəmsal iqtisadiyyat, ümumilikdə, inkişafın əsasını təşkil edir və müxtəlif sahələrə, o cümlədən bank işi, pərakəndə satış, nəqliyyat, enerji, təhsil, səhiyyə və digər sahələrə təsir edir. Qlobal internet, böyük məlumatlar və mobil cihazların istifadəsi kimi rəqəmsal texnologiyalar sosial qarşılıqlı əlaqə üsulları, iqtisadi münasibətlər və institutlar yaradır. Müəyyən problemləri birgə həll etmək üçün iqtisadi agentlərin əməkdaşlığının və koordinasiyasının yeni yolları meydana çıxır.

ABŞ, Kanada, Yaponiya, Almaniya kimi əksər inkişaf etmiş ölkələr yaxın onilliklər üçün strateji hədəf kimi öz cəmiyyətlərində rəqəmsal iqtisadiyyatı daha da inkişaf etdirirlər. Rəqəmsal iqtisadiyyatın ən çox inkişaf etdiyi əsas ölkələr sırasına Norveç, İsveç, İsveçrə, Danimarka, Finlandiya, Sinqapur, Cənubi Koreya, Böyük Britaniya, Honq Konq və ABŞ daxildir. Təsadüfi deyil ki, bu ölkələrin təxminən hamısı bir çox istiqamətlər üzrə dünya reytinqinə başçılıq edir və "xoşbəxt ölkələr" hesab olunurlar.

Rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində Avropa ölkələrinin təcrübəsi diqqətə layiqdir. Belə nümunələrdən biri Avropada Digital Single Market (DSM) Strategy-nin – Vahid Rəqəmsal Bazar Strategiyasının yaradılmasıdır. DSM strategiyası Avropa rəqəmsal iqtisadiyyatının artım potensialını maksimumlaşdırmaq məqsədi daşıyır. Bu, hər bir avropalıya, xüsusilə inklüziv rəqəmsal cəmiyyət üçün vacib olan rəqəmsal bacarıqlarının səviyyəsini artırmaqla öz üstünlüklərindən tam istifadə etməyə imkan verir.

Bu strategiya çərçivəsində onun iş prinsiplərini həyata keçirməyə imkan verəcək üç əsas istiqamət hazırlanmışdır:

1) bütün Avropada istehlakçılar və müəssisələr üçün rəqəmsal əmtəə və xidmətlərə daha yaxşı çıxış;

2) vətəndaşların rifahının yaxşılaşdırılmasına və iqtisadiyyatın çiçəklənməsinə töhfə verən rəqəmsal şəbəkələr və innovativ xidmətlər üçün qanunvericilik şəraitinin yaradılması;

3) rəqəmsal iqtisadiyyatın artım potensialının maksimuma çatdırılması.

Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyəsini aşağıdakı göstəriciləri əks etdirən indikatorlar sistemindən istifadə etməklə qiymətləndirmək olar:

- iqtisadiyyatın yüksək texnoloji sektorunun inkişaf səviyyəsi, onun istehsal məhsullarında və xidmətlərində payı;
- elmi tədqiqatlara, proqram təminatının yaradılmasına, təhsil xərclərinə və əlavə kadr hazırlığına investisiyalar;
- informasiya və kommunikasiya avadanlıqlarının işlənib hazırlanması və istehsalı;
- elm və yüksək texnologiyalar sahəsində iş yerlərinin yaradılması;
- korporasiyalar, vençur firmalar, universitetlər və elmi-tədqiqat təşkilatları arasında əməkdaşlığın göstəriciləri;
- beynəlxalq bilik axınları, elm və innovasiya sahəsində beynəlxalq əməkdaşlıq;
- alimlərin, mühəndislərin, tələbələrin hərəkətliliyi;
- internetin yayılma dinamikası;
- beynəlxalq ticarətdə yüksək texnologiyalı məhsulların payı.

Azərbaycan Respublikasında da rəqəmsal iqtisadiyyata transformasiya yaxın gələcək üçün prioritet inkişaf strategiyasına çevrilmişdir. Xüsusilə rəqəmsal texnologiyaların inkişafı ölkəmizin iqtisadiyyatı üçün innovasiyaların hərəkətverici qüvvəsi rolunu oynayır və bununla da milli iqtisadiyyatın qlobal rəqabət qabiliyyətini, ölkənin milli təhlükəsizliyini təmin etməkdə ciddi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə hazırda ölkəmizdə rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi, həmçinin müasir texnoloji sahələri dəstəkləyən rəqəmsal cəmiyyətin inkişafı sahəsində aparılan islahatlar ölkəmizin dünya dövlətləri arasında mövqeyinin yüksəldilməsinə xidmət edir.

2 fevral 2021-ci ildə imzalanmış “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Sərəncam və 22 iyul 2022-ci ildə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası istiqamətində ciddi öhdəlikləri özündə əks etdirir.

Onu da qeyd edək ki, Azərbaycan Dünya Bankının hazırladığı “GovTech Yetkinliyi İndeksi”nin (GovTech Maturity İndex - GTMI) 2022-ci il üzrə hesabatında [2] yüksək nəticələr əldə etmişdir. Belə ki, 198 ölkəni qiymətləndirən indeksdə Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə daha yüksək pilləyə qalxaraq, yalnız 35% ölkənin daxil ola bildiyi 69 ölkədən ibarət qrupda yer almışdır. Hesabatda Azərbaycanın hökumət xidmətlərinin göstərilməsində rəqəmsal texnologiya və innovativ həllərdən istifadə etməsi xüsusi vurğulanır. Hökumətin rəqəmsallaşması sahəsinin əsas aspektlərini ölçən “GovTech Yetkinlik İndeksi”nə görə, Azərbaycan rəqəmsallaşma sahəsində hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və rəqəmsal texnologiyalardan istifadənin təşviqi üzrə yüksək qiymətləndirilmişdir. Bu qrupa həmçinin, Almaniya, Rusiya, Sinqapur, Birləşmiş Krallıq, ABŞ və digər ölkələr də daxildir. [3]

Rəqəmsal iqtisadiyyatın inkişafında, fikrimizcə, insan kapitalına xüsusi əhəmiyyət verilməlidir. Rəqəmsal iqtisadiyyat formatında təkcə təşkilatların intellektual kapitalı deyil, həm də prinsipial olaraq yeni keyfiyyət tələblərinin irəli sürüləcəyi insan potensialı tədqiqat, təhlil və proqnozlaşdırma obyekti olmalıdır.

Azərbaycan Respublikasının təhsil sistemi də IT mütəxəssislərinin və rəqəmsal iqtisadiyyatın hazırlanması üçün kifayət qədər potensiala malikdir. Onu da qeyd edək ki, rəqəmsal iqtisadiyyatda insanın rolu dəyişəcək, lakin bu, narahatlığa səbəb olmamalıdır. Müasir mütəxəssisin hazırlanması təkcə peşəkar bacarıqların formalaşdırılması nəzərə alınmaqla həyata keçirilməməlidir, o, həm də yeni düşüncə tərzinə malik bir mütəxəssis olmalıdır. Kadrlar komandada işləməyi bacarmalıdır, təəssüf ki, iyerarxik sistemlərdə bu heç də həmişə mümkün olmur. Rəqəmsal iqtisadiyyatın prinsiplərini reallaşdırmaq üçün peşəkar səriştə ilə deyil, öyrənmək, komandada işləmək bacarığı və nailiyyət motivasiyası ilə bağlı olan bilik və bacarıqları (soft skills) formalaşdırmaq və həyata keçirmək lazımdır.

Belə kadrlara yüksək keyfiyyət tələbini stimullaşdırmaq, müəllimlərin yenidən hazırlanmasını

bir daha nəzərdən keçirmək, təhsil sahəsində dövlətin və özəl sektorun tərəfdaşlığının inkişafını davam etdirmək lazımdır. Ali təhsil sistemində kütləvi sistemdən fərdi təhsil proqramlarına, layihəyönümlü təlimə, onlayn təhsilin inkişafına keçmək lazımdır.

Rəqəmsal inqilab və bununla bağlı istehsalın avtomatlaşdırılması, robotlaşdırılması, şübhəsiz ki, kadr inqilabına da səbəb olacaq. Əmək bazarı artıq əhəmiyyətli dərəcədə dəyişir və "rəqəm" iqtisadi fəaliyyətin müxtəlif sahələrinə nüfuz etdikcə bu bazarı daha qlobal dəyişikliklər gözləyir. Oksford Biznes Məktəbinin tədqiqatçıları Karl Frey və Mişel Osborn proqnozlaşdırırlar ki, yaxın 20-30 il ərzində müasir dünyada iş yerlərinin təxminən 47%-i avtomatlaşdırılacaq və bütün dünyada milyonlarla iş yerləri ixtisar olunacaq [4]. Tədqiqatlara görə, avtomatlaşdırmanın ən aşağı riski sosial və yaradıcı vərdişlər, habelə analitik bacarıqlar və qeyri-sabitlik, qeyri-müəyyənlik şəraitində qərar qəbul edərkən innovativ yanaşma tələb edən peşələr üçün səciyyəvidir.

Qeyri-xətti düşüncə, asimmetriya, təkrar olunmayan tapşırıqlar, prioritetlərin tez-tez dəyişməsi insanın iştirakını tələb edən cəhətlərdir. Süni intellekt insanların şəxsi ünsiyyətini əvəz etməyə, onların əməyini sıxışdırmağa və vəzifələrinin öhdəsindən yaxşı, bəzən isə daha yaxşı gəlməyə imkan verir. Ancaq bu, emosional xarakterli qərarlar qəbul etmək zərurətinə təsir etmir. Hazırda belə bir işin öhdəsindən yalnız insan gələ bilir.

İlkin mərhələlərdə həm işsizliyin, həm də ixtisaslı işçi çatışmazlığının mövcud olacağı bir vəziyyətlə qarşılaşmaq ehtimalı var. Cəmiyyətin heç də bütün üzvləri işlərini yenidən tənzimləyə və yeni ixtisaslara yiyələnə bilməyəcəklər. İT texnologiyalarını zəif bilmələri səbəbindən yeni peşələrə uyğunlaşa bilməyən pensiya yaşında və pensiyaya qədər yaşda olan bəzi insanlar üçün çətinliklərin yaranacağı gözlənilir.

Gələcəkdə belə peşələr meydana çıxa bilər: fərdi brend-menecer; virtual vəkil; dövlət orqanlarının nümayəndələri ilə ünsiyyət platformasının moderatoru; infostilist; rəqəmsal dilçi; virtual həkim; taym-broker; interfeys dizayneri.

Eyni zamanda, süni intellekt hüquqşünas, mühasib, rekruter kimi peşələri sıxışdıracaq.

Rəqəmsal iqtisadiyyatın əhəmiyyətini təhlil edərək, onun inkişafında görünən üstünlükləri və riskləri ayırd etmək olar [5].

Əsas üstünlüklər:

- əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artması;
- mərkəzləşdirilmiş idarəetmə, vergitutma və nəzarətin sadəliyi;
- bütün iqtisadi proseslərin (təhsil, tibbi, sosial və s.) qlobal avtomatlaşdırılması və standartlaşdırılması;
- bürokratiyanın və korrupsiyanın azaldılması;
- dövlətin sosial-iqtisadi həyatının "şəffaflığının" artması;
- siyasi həyatın sadələşdirilməsi;
- minimumlaşdırma, sonrakı mərhələlərdə isə iqtisadiyyatın və istehsalın insan amilinin qeyri-sabitliyindən asılılığının, demək olar ki, sıfıra endirilməsi.

Əsas risklər isə bunlardır:

- yad İT texnologiyaların həyatın və fəaliyyətin bütün sahələrinə nüfuz etməsi;
- milli kibertəhlükəsizliyə artan təhdidlər;
- işsizlik səviyyəsinin artması;
- insan və kadr potensialının yoxsullaşması;
- mexaniki təfəkkürün inkişafı (xüsusilə uşaqlarda);
- fərdilik, təxəyyül və fantaziyanın azalması;
- real ətraf aləmlə əlaqənin yox olması və insanın özünə qapanması.

Beləliklə, rəqəmsal iqtisadiyyata keçidin mümkünlüyünü və zəruriliyini ümumiləşdirərək, cəmiyyətin aşağıdakı vəzifələri həll etməyə hazır olmasını nəzərə almaq lazımdır [6]:

1) əmək məhsuldarlığının yüksəldilməsi zamanı əhalinin məşğulluğunun təmin edilməsi. Belə bir yanaşma yalnız işçilərin digər sənaye sahələrinə yenidən bölüşdürülməsi ilə deyil, həm də işin özünün tamamilə fərqli bir şəkildə dərk olunması və icrası ilə əldə edilə bilər;

2) əmək məhsuldarlığının artırılması zamanı cəmiyyətin həyat keyfiyyətinin yaxşılaşdırılması mexanizmlərinin işlənib hazırlanması. Rəqəmsal iqtisadiyyatın imkanları əhalinin həyat səviyyə-

sinin yüksəlməsinə, eləcə də orta təbəqənin formalaşmasına töhfə verməsə, cəmiyyətdə bərabərsizliyin daha da artması rəqəmsal iqtisadiyyatın qurulmasına mane ola bilər;

3) həm orta, həm də ali təhsildə fundamental təhsilə qayıdış - cəmiyyətin yeni şəraitdə həyata hazırlanmasının yeganə mümkün yoludur, çünki məşğulluğun mahiyyəti dəyişir, yüksək əmək məhsuldarlığına malik iqtisadiyyat mürəkkəbləşir və intellektual əmək daha çox tələb olunur;

4) informasiya məhsulunun qiymətlərinin müəyyən edilməsi mexanizminin işlənib hazırlanması. İqtisadiyyatın rəqəmsallaşması dövründə ənənəvi bazar mexanizmləri artıq işləməyəcək;

5) qanunvericiliyin daha da təkmilləşdirilməsi, ölkədə institusional islahatların həyata keçirilməsi, habelə yeni üsulla işləmək qabiliyyətinə malik bacarıqlı kadrların müvafiq olaraq hazırlanması;

6) rəqəmsal texnologiyaların tətbiqi və əmək qabiliyyətli əhalinin bir hissəsinin azad edilməsi, habelə pensiya yaşının mümkün qədər uzadılması ilə əlaqədar əmək bazarında vəziyyətin mütəmadi monitorinqinin və ətraflı təhlilinin aparılması tələb olunacaq.

Azərbaycanda da rəqəmsal iqtisadiyyatın inkişafı fonunda insan kapitalının formalaşdırılmasına xüsusi diqqət ayrılır. Belə ki, ölkəmizdə rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkilinə, yerli innovasiya mühitinin formalaşdırılmasına, insan kapitalının, intellektual potensialın inkişafına, insanların rəqəmsal texnologiyalara dair bilik və təcrübələrinin artırılmasına xidmət edən bir sıra təşkilatlar fəaliyyət göstərir ki, onlardan biri də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs kimi yaradılan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyidir. Nüvə elmi və texnologiyalarının sınaq təcrübələrini aparmaq, fiziki və hüquqi şəxslərə innovasiya yönümlü elmi-tədqiqatlarına və innovativ layihələrinə (startaplara) dəstək vermək, müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasında yardım göstərərək ölkədə İKT sahəsində əlçatan təhsil və karyera imkanlarını təmin etmək, rəqəmsal hökumət və rəqəmsal cəmiyyətin qurulması və təşkilini həyata keçirmək Agentliyin prioritet istiqamətləridir. Agentlik bir sıra proqram və layihələr həyata keçirir ki, onlardan "Technest" təqaüd proqramına və "Rəqəmsal Azərbaycana doğru" layihəsinə qısa nəzər salaq.

"Technest" təqaüd proqramı 2021-ci ilin oktyabr ayından Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü ilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nəzdində yaradılmışdır. Məqsəd ölkədə İKT sahəsində kadr bankının yaradılması prosesinə töhfə vermək və əmək bazarındakı kadr ehtiyaclarını qarşılamaqdır. Proqram fəaliyyətinin ilk ili olan 2021-2022 tədris ilində 600-dən çox gəncə təhsil üçün təqaüd ayırmışdır və onların gələcəyin peşəsinə yiyələnməyinə təkan vermişdir. Fəaliyyətinin ikinci ilində qarşıya qoyulan məqsəd təqaüdçü sayını 3000 nəfərə qaldırmaqdır. "Technest" təqaüd proqramı mütəxəssislərin hazırlanması məqsədilə İKT sahəsində ölkənin qabaqcıl tədris mərkəzləri ilə əməkdaşlıq çərçivəsində ən tələbatlı ixtisaslar üzrə İKT kurslarına müsabiqə yolu ilə tələbə qəbulunu təşkil edir.

"Rəqəmsal Azərbaycana doğru" layihəsi regionlarda rəqəmsal savadlılığın artırılması, İKT üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, regionun İKT sahəsində mövcud potensialının ölçülməsi, mütəmadi aparılan monitorinqlərə əsasən tədbirlərin görülməsi və inkişafa dəstəyin göstərilməsi məqsədilə həyata keçirilir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin 24 noyabr 2022-ci il tarixindən start verdiyi regional layihə çərçivəsində Azərbaycanın 60-dan çox şəhər və rayonlarında İKT üzrə maraq və təcrübəyə sahib, bu sahədə çalışan, tədris alan və karyera hədəfləyən region sakinləri ilə maarifləndirici, məlumatlandırıcı təlimlərin, eyni zamanda icra orqanları, müvafiq təşkilat və qurumlarla ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub. "Rəqəmsal Azərbaycana doğru" layihəsinin prioritetlərindən biri də İKT sahəsində mütəxəssislərin yetişdirilməsi və onların öz bölgələrində işlə təmin olunmasını təmin etməkdir. Bu məqsədlə regionlara səfərlər zamanı "Technest" Təqaüd Proqramı çərçivəsində mentorlar və ölkənin qabaqcıl tədris mərkəzləri tərəfindən gələcəyin innovativ peşələrinin tanıdılması istiqamətində təlimlər keçirilir və interaktiv müzakirələr təşkil olunur. İştirakçılar tədris mərkəzləri tərəfindən yerindəcə imtahan olunaraq təqaüd proqramına cəlb olunur [7].

## ƏDƏBİYYAT

1. Введение в “Цифровую” экономику / А.В. Кешелава и [др.]. ; под общ. ред. А.В. Кешелава. – М. : ВНИИгеосистем, 2017. – 28 с.
2. https://www.worldbank.org/en/programs/govtech/2022-gtmi.
3. Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə yüksəlib. https://marja.az/101855/azerbaycan-yuksek-reqemsallasma-seviyyesine-gore-birinci-pilleye-yukselib.
4. https://www.oxfordmartin.ox.ac.uk/downloads/academic/future-of-employment.pdf
5. Зайцева, А.В. Опасности цифровой экономики: факторы изменения основ человеческого взаимодействия / А.В. Зайцева. – М. : РЭУ им. Г.В. Плеханова, 2017.
6. Подмаркова, И.П. Концепция реализации бюджетно-налоговой политики в цифровой экономике / И.П. Подмаркова // Междунар. науч. конф., посвящ. 90-летию С.П. Капицы. – М. : РосНОУ, 2018. – С. 154–160.
7. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. https://www.digital.gov.az/az/projects/our-projects

***Рафиг Меджид оглы Рзаев***
***Старший научный сотрудник Института Экономики***
***Министерства Науки и Образования АР***
***rafiqrzayev74@mail.ru***

**Роль человеческого капитала в инновационном развитии и цифровой экономике**

**Резюме**

В статье исследована роль человеческого капитала в инновационном развитии и цифровой экономике, рассмотрен теоретически и практически обоснованный мировой опыт. В этой области возможности избежать и воспользоваться преимуществами были проанализированы путем выявления рисков. В нашей стране было подчеркнуто, что переход к цифровой экономике является приоритетной стратегией развития на ближайшее будущее, и определены перспективы развития человеческого капитала и интеллектуального потенциала.

***Ключевые слова: цифровая экономика, человеческий капитал, инновационное развитие, информационное общество, цифровые технологии.***

***Rafig Mejid Rzayev***
***Senior researcher at the Institute of Economics***
***Ministry of Science and Education of the Republic of Azerbaijan***
***rafiqrzayev74@mail.ru***

**The role of human capital in innovative development and the digital economy**

***Summary***

In the article, the role of human capital in innovative development and digital economy is investigated, theoretically and practically based world experience is considered. In this area, opportunities to avoid and use advantages were analyzed by identifying risks. In our country, it was emphasized that the transition to the digital economy is a priority development strategy for the near future, and the prospects for the development of human capital and intellectual potential have been determined.

***Key words: digital economy, human capital, innovative development, information society, digital technologies.***

UOT 663.241

*Azər Tapdıq oğlu TAĞIYEV*
***texnika üzrə fəlsəfə doktoru, dosent əvəzi,***
***Azərbaycan Kooperasiya Universiteti,***
***azer. tagiev.79@mail.ru***

***Yusif Nizami oğlu LƏZGİYEV***
***doktorant, Azərbaycan Üzümçülük və***
***Şərabçılıq Elmi Tədqiqat İnstitutu,***
***yusif.lezgizade@gmail.com***

# QIRMIZI ÜZÜM SORTLARINDAN AĞ ŞƏRAB NÜMUNƏLƏRİ ALINMASININ TƏDQİQİ

## XÜLASƏ

Mədrəsə sortundan müəyyən üsullarla qırmızı, çəhrayı və ağ şərablar alınması tədqiq olunmuşdur. Çəhrayı şərab alınması üçün bu sortda rəng maddələrinin yerləşdiyi qabığın zərif rejimdə lət hissədən ayrılması aparılır. Mədrəsə üzüm sortundan ağ şərablar hazırlanması məqsədlə fenol birləşmələrinin müxtəlif üsullarla kənar edilməsi üsulları araşdırılmışdır.

***Açar sözləri: üzüm, sort, şərab, şirə, rəng, antosianlar.***

***

Qırmızı üzüm sortlarından ağ şərabların alınması yalnız onlardan rəng maddələrini kənar etməklə mümkün ola bilər. Xarakterik komponent olan aldehidlər rəng maddələri ilə reaksiyaya girə bilər [1, s.145-149]. Hüceyrə qılafı rəng və aşı maddələri adsorbsiya edə bilir. Aşı maddələrlə zəngin olan şərab materialları xeresləşdirildikdə, yaxud proses palıd çəlləklərdə getdikdə maya pərdəsi tutqunlaşır, məhv olur və qabın dibinə çökür. Bu zaman şərab materialı çirkli hala gəlir. Beləliklə, tanin xeres pərdəsi əmələ gəlməsini ləngidir.

Təsərrüfatda seçilən bircinsli sahələrin miqdarı üzümlüklərin sahəsindən, sortların sayından, torpağın müxtəlifliyindən və relyefin xarakterindən asılı olaraq dəyişə bilər. Lakin üzümlüklərin həddindən artıq xırdalanması və ondan çoxlu sayda kiçik sahələrin ayrılması da məqsədə müvafiq sayılmır. Çünki bu halda üzümün yetişməsi üzərində nəzarət işlərinin həcmi artmaqla ağır zəhmət tələb olunur. Ayrılan sahələrin optimal ölçü və miqdarı təsərrüfatın baş üzümçü mütəxəssisi, zavod şərabçısı və laboratoriya müdiri tərəfindən əvvəlki illərin təcrübəsi də nəzərə alınmaqla hər bir fərdi hal üçün ayrıca müəyyənləşdirilir.

Ayrılan sahələrin həcmi buradakı üzüm məhsulunun günün yarısından az və iki gündən çox olmadan yığımına imkan verməlidir. Üzümün yetişməsi üzərində müşahidə aparılan bircinsli sahələrin sayı 40-dan çox (çox fərqli təbii şəraiti və üzümlüklərinin sort tərkibi olan təsərrüfatlar üçün) və 10-dan az olmadan (az sort və bircinsli üzümlük massivləri ilə xarakterizə olunan təsərrüfatlar üçün) müəyyən olunur [3, s.52].

Mürəkkəb üzvi maddələr arasında qırmızı rəng verən antosianlarla yanaşı sarı rəng verən xlorofillər vardır. Karotinoidlər və taninlər kimi tərkib hissələri də rəngdə iştirak edə bilər. Qırmızı, çəhrayı və ağ şərabların rəngsizləşdirilməsi, yaxud yüngül modifikasiyası üçün aktiva color everget D100, Color Sorb adlandırılan fəallaşdırılmış kömürlərdən istifadə olunur. Şərabın rəngsizləşdirilməsi fəallaşdırılmış kömür tozundan istifadə edilməklə aparıldıqda toz yüksək tozlandırıcı aparatlarla şəraba vurulur. İlkin işçi məhlul kütləyə görə faizlə sudan yaxud təmizlənmiş şərabdan istifadə edilməklə hazırlanaraq mexaniki qarışdırıcıların köməyilə şərabla qarışdırılır. Qarışdırma əvvəlcədən müəyyən edilmiş vaxt ərzində həyata keçirilir. Əməliyyat başa çatdıqdan sonra kömürün məhluldan ayrılması aparılır [4]. Bunun üçün şərab filtr presdən və ya buna bənzər süzgəclərdən keçirilməklə təmizlənir. Fəallaşdırılmış kömür tozlarının hissəciklərinin şərabdan ayrılması xüsusi çətinlik törətmir və yaxşı ayrılır. Adətən ilkin işçi məhlul 10-15%-li hazırlanır (çəkiyə görə).

Color Sorb fəallaşdırılmış kömür tozu 20 kq-lıq standart kisələrdə (çoxqat kağızlı), yaxud 5 və ya 1 kq-lıq xüsusi kağız kisələrdə göndərilir.

Color Sorb fəallaşdırılmış kömürlə şərabın təmas müddəti 120-130 dəqiqədir. Proses adi temperaturda aparıla bilər. Qarışdırma dəqiqədə 60 dəfə dövr etdirilməklə aparılır.

Tərkib göstəricilərinin təhlili enokimyada nəzərdə tutulan metodikalara uyğun yerinə yetirilir [2, s. 32-150].

Mədrəsə üzüm sortunda rəng maddələri əsasən qabıqda yerləşdiyi məlumdur. Odur ki, yumşaq rejimdə emal edilməklə ondan çəhrayı rəngli şərablar alınır. Bunu işdə əldə rəhbər tutsaq da yenə müxtəlif üsullarla emal olunmanın Mədrəsə şərab materialının tərkibinə, xüsusilə də azotlu maddələrin miqdarına təsiri tədqiq olunmuşdur (cədvəl.1).

***Cədvəl 1***

***Mədrəsə üzüm sortundan müxtəlif texnoloji üsullarla hazırlanmış şərab materiallarında azotlu maddələrin miqdarı***

| **Texnoloji üsullar** | **Azotlu maddələrin miqdarı, mq/dm3** | |
|---|---|---|
| | **Ümumi azot** | **Amin azotu** |
| "Ağ üsul" | 230 | 136 |
| "Qırmızı üsul" | 340 | 156 |
| Termovinifikasiya (600C) | 261 | 134 |

Göründüyü kimi "əzintidə saxlanma" ümumi azotla daha zəngin material alınmasına rəvac verir. Termovinifikasiya zamanı azotlu maddələrin çevrilmələrə məruz qalması ilə baş verən proseslər onun miqdarındakı azalma ilə nəticələnmişdir. Qeyd olunan üsulların hər biri ilə alınmış şərab nümunələri, həm də fenol birləşmələrlə zənginliyi ilə diqqət çəkir. Xüsusilə də termovinifikasiya zamanı ətir maddələrinin dəyişməsi heç də həmişə orqanoleptikada müsbət şəkildə əksini tapmır. Yüksək temperaturda şirəyə keçən aşı maddələrin böyük miqdarı dadda əlavə kobudluq yaradır ki, bu da dequstasiya qiymətinə mənfi təsirini göstərmiş olur. "Qırmızı üsul"la alınan şərab materialı dad və ətir zənginliyi ilə seçildiyi kimi aşılayıcı maddələrin büzüşdürücü tonu ilə də diqqət çəkir. Odur ki, belə material da xeres üçün yararlı sayıla bilməz.

Mədrəsə üzüm sortundan "ağ üsul"la alınmış şərab materialı zərif dadı və incə buketi ilə seçilmişdir. Burada rəng və aşılayıcı maddələrin miqdarı təsir edən səviyyədə olmamışdır. Şərab nümunələrində fenol birləşmələrinin miqdarının tədqiqi də orqanoleptikanın nəticələrini təsdiq etmiş olur.

Qırmızı üzüm sortlarından "ağ üsulla" alınan şərab materiallarının tərkibində azotlu maddələrin miqdarı tədqiq olunmuşdur (cədvəl 2).

***Cədvəl 2***

***"Ağ üsulla" alınmış qırmızı şərab materiallarında azotlu maddələrin miqdarı***

| **Şərab materialları** | **Miqdarı, mq/dm3** | |
|---|---|---|
| | **Ümumi azot** | **Amin azotu** |
| Mədrəsə | 260 | 110 |
| Xındoqnı | 246 | 112 |
| Saperavi | 236 | 122 |
| Merlo | 293 | 174 |

Məlum olmuşdur ki, üzüm sortlarından asılı olaraq alınmış şərab materiallarında ümumi azotun miqdarı 236 (Saperavi) – 293 mq/dm3 (Merlo), amin azotu isə 110 (Mədrəsə) – 174 mq/dm3 (Merlo) arasında tərəddüd etmişdir.

Müxtəlif qırmızı üzüm sortlarından hazırlanmış şərab nümunələri fəallaşdırılmış kömürdən istifadə edilməklə işlənmişdir. Bunun üçün Everget D100 aktiva kolor fəallaşdırılmış kömürünün 5-100 q/hl arasındakı fərqli dozalarından istifadə edilməklə sınaq aparılmışdır. Məlum olmuşdur ki, 80-100 q/hl arası doza daha optimal nəticə alınmasını təmin etmişdir. Aktivləşdirilmiş kömürlə yanaşı həm də jelatinin əvəzedicisi olan Kolagel Clar preparatından istifadə olunmuşdur. Bu preparatın istifadə dozası 15-40 q/hl, bəzi hallarda isə hətta 30-80 q/hl-ə qədər olmuşdur.

Everget D100 aktiva kolor fəallaşdırılmış kömürü və Kolagel Clar preparatı ilə birgə işlənməklə məlum olmuşdur ki, qırmızı şərablardan fenol birləşmələrinin kənar edilməsi üçün Everget D100 aktiva kolor fəallaşdırılmış kömürü 80 q/hl və modifikasiya olunmuş Kolagel Clar jelatininin 70 q/hl dozası daha optimal təsir gücünə malik olmuş və fenol birləşmələrinin daha səmərəli kənarlaşmasını təmin etmişdir (cədvəl 3).

***Cədvəl 3***

***Mədrəsə şərab materialında fenol birləşmələrinin miqdarına Kolagel Cların dozasının təsiri***

| S/s | Preparatın dozası, q/hl | Ümumi fenol birləşmələri, mq/dm3 | Antosianlar, mq/dm3 |
|---|---|---|---|
| 1. | Nəzarət işlənmədən | 650 | 180 |
| 2. | 15 | 590 | 170 |
| 3. | 30 | 502 | 120 |
| 4. | 45 | 380 | 90 |
| 5. | 60 | 252 | 20 |
| 6. | 70 | 210 | - |
| 7. | 80 | 210 | - |

Kolagel Cların dozasının artması ilə müəyyən mərhələyədək fenol birləşmələrinin kənarlaşdırılması düz mütənasib olmuşdur. Lakin 70 q/hl dozadan sonra vəziyyət dəyişilməz qalmışdır.

Preparatın dozasının optimallaşdırılması üçün aparılan təcrübələr zamanı nəzarət, yəni işlənilmə aparılmayan nümunədə ümumi fenol birləşmələrinin miqdarı 650 mq/dm3, o cümlədən antosianlar 180 mq/dm3 təşkil etmişdir. Altı təcrübə variantında preparatın dozası 15 q/hl-dan 80 q/hl-ə qədər artırılmışdır. Məlum olmuşdur ki, 60 q/hl preparat dozasında ümumi fenol birləşmələrinin miqdarı 252, antosianların miqdarı 20 mq/dm3 təşkil etmişdir. Odur ki, preparatın dozasındakı sonrakı artım 10 q/hl seçilmişdir və nəticədə 70 q/hl preparat dozasında antosianların miqdarına təsadüf olunmamışdır. Bunu nəzərə alaraq Mədrəsə şərab materialında Kolagel Cların istifadə dozası 70 q/hl olaraq müəyyən edilmişdir.

Kolagel Clarla işləndikdən sonra şərab materiallarının tərkib göstəricilərinin bir çoxu əsasən dəyişilməz qalmışdır. Əsaslı dəyişiklik ümumi fenol birləşmələrinin və antosianların miqdarında olmuşdur.

## ƏDƏBİYYAT


1. Fətəliyev H.K. Şərabın texnologiyası. Bakı, Elm, 2011,596 səh.
2. Fətəliyev H.K. Şərabçılıqdan praktikum. Bakı: Elm, 2013, 328 səh.
3. Fətəliyev H.K., Heydərov E.E. Süfrə şərablarının müasir texnologiyası. Dərs vəsaiti. Bakı, 2017, 336 səh.
4. Rəhimov N.K., Məhərrəmova M.H., Qurbanova A.A., Kazımova İ.H., Yusifova M.R., Nəsrullayeva G.M. Şərabçılıq və qıcqırtma istehsalının texnologiyası. Bakı, 2019



***Азер Тандыг оглы Тагиев***
***доктор философии по технике, доцент,***
***Азербайджанский Университет Кооперации,***
***azer.tagiev.79@mail.ru***

***Юсиф Низами оглы Лезгиев***
***докторант, Азербайджанский научно-исследовательский***
***институт виноградарства и виноделия,***
***yusif.lezgizade@gmail.com***


## Исследование отбора белых вин из красных сортов винограда


***Резюме***

С помощью определенных методов было изучено производство красных, розовых и белых вин из сорта Медресе. Для получения розового вина из этого сорта, кожица содержащая

красящие вещества, в деликатном режиме, отделяется от кожуры. Для приготовления белых вин из сорта винограда Медресе, различными методами проводятся удаление фенольных соединений.
***Ключевые слова: виноград, сорт, вино, сок, цвет, антоцианы.***

***Azer Tapdig Taghiyev***
***Doctor of Philosophy in Technology, Associate Professor,***
***Azerbaijan Cooperation University,***
***azer.tagiev.79@mail.ru***

***Yusif Nizami Lezgiyev***
***doctoral student, Azerbaijan Scientific Research***
***Institute of Viticulture and Winemaking,***
***yusif.lezgizade@gmail.com***

## A study of white wine sampling from red grape varieties

***Summary***

The production of red, pink and white wine from madrasa variety by certain methods was studied. In order to obtain pink wine, in this variety, the rind, where the color substances are located, is separated from the lath part in a gentle mode. In order to prepare white wines from Madrasa grape variety, phenolic compounds were removed by different methods.
***Key words: grapes, variety, wine, juice, color, anthocyanins.***

**UOT 338.336**

***Natiq Teymur oğlu TAHİRZADƏ***
***Magistr, Azərbaycan Kooperasiya Universiteti***

## HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏT KURSUNDA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ MALİYYƏ ŞƏFFAFLIĞININ GÜCLƏNDİRİLMƏSİNİN YERİ

***Xülasə***

Tezisdə Azərbaycan Respublikasında sahibkarlıq subyektlərində maliyyə şəffaflığının gücləndirilməsi ilə bağlı məsələlər müasir reallıqlar müstəvisində şərh olunmuşdur. Burada sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsində maliyyə şəffaflığının təmin olunmasının rolu müxtəlif aspektlərdə əsaslandırılmış və aparılan islahatların sahibkarları qanuni əsaslarla və şəffaflıq prinsipinin gözlənilməsi yolu ilə fəaliyyətə sövq etməsinin nəticələri açıqlanmışdır.
***Açar sözlər: sahibkarlıq, biznes mühiti, maliyyə şəffaflığı, iqtisadi islahatlar, maliyyə resursları, vergi yoxlamaları.***

***

Ölkə iqtisadiyyatının inkişafının və milli iqtisadiyyat subyektləri arasında hüquqi əsaslı bu və ya digər münasibətlərin genişləndirilməsinin və səmərəliliyinin artırılmasının başlıca şərtləndirici amillərindən biri kimi şəffaflıq prinsipinin ən yüksək səviyyədə gözlənilməsi çıxış edir. Bu həmçinin ölkədə münbit və səmərəli sahibkarlıq mühitinin formalaşdırılmasının başlıca şərtlərindən hesab olunur. Məhz belə bir mühüm aspektdən çıxış edərək, ümummilli lider Heydər Əliyevin iqtisadi siyasət strategiyasının əsas prioritetlərindəm birini milli iqtisadiyyatda şəffaflıq prinsipinin optimal səviyyədə gözlənilməsi təşkil etmişdir. Belə bir mühüm prioritetin səmərəli şəkildə reallaşdırılması məqsədilə ölkə rəhbərliyi tərəfindən müxtəlif məzmunlu strategiayaların və dövlət proqramlarının işlənib-hazırlanması və icrasının təmin olunması ilə bağlı olaraq müvafiq dövlət qurumlarına tapşırıqlar verilmişdir. Ayrı-ayrı dövlət qurumları isə özlərinin fəaliyyət istiqamət-

lərinə uyğun olaraq işləyib-hazırlamış olduqları proqram və strategiyalarda maliyyə şəffaflığının gözlənilməsini və təmin olunmasını müstəsna məqam kimi nəzərə almışlar.

Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətində mühüm yer tutan, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, söylədiyi proqram xarakterli nitqlərdə həlli vacib mühüm vəzifə kimi qarşıya qoyulan maliyyə nəzarəti və şəffaflıq problemləri ilə bağlı məsələlərin tam həcmdə yerinə yetirilməsi ölkəmizdə sosial-iqtisadi münasibətlərin daha sağlam əsaslar üzərində formalaşmasına, iqtisadi-maliyyə fəaliyyətində şəffaflığın tam təmin edilməsinə şərait yaradan mühüm amilə çevriləcəkdir. [2; s. 4]

Sahibkarlıq subyektlərində maliyyə şəffaflğının gözlənilməsi onların zəruri maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsində olduqca mühüm əhəmiyyət kəsb edir. Bu mənada, Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Azərbaycanda sahibkarlığın inkişafına bir çox istiqamətlərdə dəstək olacağı şübhəsizdir. [1] Strategiya qeyri-neft-qaz sektorunun prioritet sahələri üzrə artım tempinin sürətlənməsinə, idxaldan asılılığın azaldılmasına, yerli sənayenin inkişafına, rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasına, ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verəcək. Sənədin icrası, eyni zamanda, ixrac potensialının yüksəldilməsinə, özəl və xarici investorların ölkə iqtisadiyyatındakı rolunun artırılmasına və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da genişləndirilməsinə gətirib çıxaracaqdır. [4] Azərbaycanda sağlam və şəffaf biznes mühitinin formalaşdırılması makroiqtisadi sabitliyin təmin olunması ilə yanaşı, milli iqtisadiyyata xarici investisiyaların axınının artımıına da yol açmış olacaqdır. Bu isə nəticə etibarilə, ölkədə dayanıqlı inkişafın təmin olunmasına zəmin yarada bilər. Göstərilənlərlə yanaşı, mütərəqqi maliyyələşmə mexanizmlərinin yaradılması sahibkarlıq subyektlərinin maliyyə resurslarına əlçatanlığının yüksəldilməsini şərtləndirmiş olacaqdır.

Ölkəmizdə sağlam və şəffaf biznes mühitinin gücləndirilməsi makroiqtisadi sabitliyin davamlılığının təmin olunması ilə yanaşı, milli iqtisadiyyata xarici investisiyaların cəlb olunmasının daha da təşviqinə yol açacaqdır.

Sahibkarlıq subyektlərinə zəruri dəstək mexanizmlərinin tətbiqinin səmərəliliyinin və şəffaflığının yüksəldilməsi istiqamətində müşahidə olunan bu və ya digər çətinliklər sırasında isə, sahibkarların bir qisminin maliyyə savadlılığının lazımi səviyyədə olmaması, mühasibat uçotunun təşkili ilə bağlı işlərin müvafiq standartlara uyğun olmaması, həmçinin, şəffaflığın artırılması istiqaməsində stimullaşdırıcı tədbirlərin lazımi səviyyədə olmaması və bütün bunların fonunda sahibkarlıq subyektlərinin uzunmüddətli maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu xüsusi olaraq vurğulanmalıdır. Bu və ya digər məzmunlu dəstək mexanizmlərinin səmərəliliyinin artırılması məqsədilə yeni təşviq və maliyyə mexanizmlərinin müəyyənləşdirilməsinə, eləcə də biznes layihələrinin reallaşdırılmasına dəstək üzrə mexanizmlərin təkmilləşdirilməsinə ciddi zərurət vardır.

Aparılan islahatlar sahibkarlara qanuni əsaslarla fəaliyyət göstərməyin müsbət tərəflərini real surətdə özündə təcəssüm etdirdiyinə görə, sahibkarlar da öz növbələrində fəaliyyətlərində şəffaflıq prinsipinin gözlənilməsinə səy göstərirlər. Şəffaf fəaliyyətin istər sahibkarlıq subyeklərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində, istərsə də ölkədə rəqabət mühitinin yaxşılaşdırılmasında olduqca mühüm əhəmiyyəti vardır. Sahibkarlıq mühitinin şəffaflığına nail olunması istiqamətində görülən işlər nəticə etibarilə sahibkarlıq subyektlərində qanunun aliliyinin gözlənilməsi meyillərini daha da artırmış olur. Vergi və gömrük sahəsində, həmçinin kiçik və orta sahibkarlığın inkişafı, ixracın və investisiyaların təşviqi ilə bağlı icra olunan davamlı tədbirlər sahibkarları şəffaf fəaliyyətə sövq edir. Ümumilikdə, iqtisadiyyatda şəffaflığın təmin olunmasını, o cümlədən, sahibkarlıq subyektlərində kölgə fəaliyyətindən şəffaflığa doğru üz tutmanı şərtləndirən çoxsaylı amillər sırasında ilk növbədə, sahibkarlıq subyeklərinin öz fəaliyyətlərinə maliyyə resurslarını cəlb etmələri üçün mütləq surətdə şəffaf fəaliyyət göstərmənin labüdlüyünü anlamaları xüsusilə vurğulanmalıdır.

Bu çərçivədə həssas məqamlardan biri şəffaflığın sahibkar-işçi münasibətlərində də özünü təcəssüm etdirməsidir. Şəffaflıq eyni zamanda vergi ödəmələrinin həcminin artmasına gətirib çıxarmaqla yanaşı, vergi məbləğlərinin və vergi dərəcələrinin artırılması hesabına deyil, məhz

vergi ödəyicilərinin sayının artırılması hesabına formalaşmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq sahibkarlıq subyektlərində yoxlamaların azaldılması, bu çərçivədə vergi sistemində kameral və səyyar vergi yoxlamalarının, operativ nəzarət və xronometraj, yəni müşahidə sistemlərinin tətbiq olunması yoxlamaların maksimum dərəcədə daha səmərəli variantlarının seçilməsinə gətirib çıxarmışdır. Sahibkarlıq subyektlərində isə səyyar vergi yoxlamaları deyil, kameral yoxlamalara üstünlük verilir. Son dövrlər sahibkarlıq subyektlərinin davamlı şəkildə maarifləndirilməsi sayəsində biznes strukturları daha çox vergi və mühasibat uçotu sahəsində təcrübəsi olan mütəxəssisləri işə cəlb edirlər. [3]

Ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində iqtisadi sahədə də gəlirlərin tam şəffaflaşması istiqamətində bir çox yeniliklər müşahidə olunmaqdadır. Müşahidələr göstərir ki, ciddi nəzarət tədbirləri və dövlətin həyata keçirdiyi təşviqyönlü mexanizmlər iqtisadi sahələrdə ciddi şəffaflığın yaranmasına şərait yaratmışdır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası". Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Novruzov V.T. İqtisadi siyasətdə şəffaflıq amili. "Azərbaycan" qəzeti, 1 avqust 2010-cu il, s. 4.
3. Sahibkarlar şəffaf işləməyin vacibliyini anlayırlar. 10.03.2020 / https://vergiler.az/news/taxes/7619.html
4. Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanları daha da genişlənəcək. 29.07.2022 / https://vergiler.az/news/articles/19137.html



***Натиг Теймур оглу Тахирзаде***

***магистр: Азербайджанский Университет Кооперации***


## Место усиления финансовой прозрачности субъектов предпринимательства в курсе экономической политики Гейдара Алиева


***Резюме***

В тезисе вопросы, связанные с усилением финансовой прозрачности субъектов предпринимательства в Азербайджанской Республике, разъяснены на контексте современных реалий. Здесь в различных аспектах обосновывается роль обеспечения финансовой прозрачности в расширении доступа к финансовым ресурсам субъектов предпринимательства, а также разъясняются результаты реформ, побуждающих предпринимателей действовать на законных основаниях и в расчете на принцип прозрачности.



***Ключевые слова: предпринимательство, бизнес среда, финансовая прозрачность, экономические реформы, финансовые ресурсы, налоговые проверки.***



***Natig Teymur Takhirzade***

***Master, Azerbaijan Cooperation University***


## The place of strengthening the financial transparency of business entities in the course of Heydar Aliyev's economic policy


***Summary***

In the thesis, issues related to strengthening the financial transparency of business entities in the Republic of Azerbaijan are explained in the context of modern realities. Here,, the role of ensuring financial transparency in expanding access to financial resources of business entities is substantiatedin various aspects, and the results of reforms that encourage entrepreneurs to act legally and based on the principle of transparency are explained.



***Key words: Entrepreneurship, business environment, financial transparency, economic reforms, financial resources, tax audits.***

# III BÖLMƏ
## ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİ

**UOT 82-3.512**

***Bəyalı Xanalı oğlu ATAŞOV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***elm və innovasiyalar üzrə prorektoru, i.e.d.,***
***professor, Əməkdar elm xadimi***

# ƏBƏDİYYƏT DASTANI - ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV

***Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamından:***

*"2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.*

*Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".*

***Xülasə***

Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bir fenomen şəxs kimi həyat və fəaliyyətinin müxtəlif aspektlərinə diqqət yetirilmiş, ölkəmizin əbədi müstəqillik qazanmasında, beynəlxalq aləmdə nüfuzunun artmasında, elmimizin, təhsilimizin, səhiyyəmizin, iqtisadiyyatımızın və digər sahələrimizin inkişafında bu əbədiyaşar şəxsiyyətin əvəzedilməz rolundan bəhs edilir.

***Açar sözlər: Heydər Əliyev, ümummilli lider, fenomen şəxs, dövlət müstəqilliyi, əbədiyaşar azərbaycanlı.***

***

Elə insanlar var ki, onları xatırladıqca əməllərinin tükənməz bir çeşmə olduğunu bir daha görürsən. Zaman çox simalar yetirib: tarix yazanlar da olub, dünyaya qənim kəsilənlər də. Adı min bir hörmətlə yad edilənlər dünyamızın yeni dövrünə iz saldılar, xalqın gələcək taleyini nurlandıraraq onu parlaq sabahlara apara bildilər. Elə ulu öndər Heydər Əliyev kimi.

Lider faktoru tarix boyu dövlətlərin və xalqların taleyində həlledici siyasi və səfərbəredici qüvvə kimi özünü büruzə verib. Dövlət quruluşundan, təbii-iqtisadi imkanlarından, coğrafi mövqeyindən, cəmiyyətin milli və mənəvi intellektindən asılı olmayaraq hər bir ölkənin inkişafında, beynəlxalq nüfuzunun yüksəldilməsində, onun tarixinin təşəkkül tapmasında qətiyyətli, daxilən qüdrətli və uzaqgörən siyasi liderlərin böyük rolu olub. Tarixə nəzər salsaq görərik ki, belə dahi liderlər öz dövlətinin əsaslarının, onun milli ideyalarının yaradıcısına çevrilir, xalqını həmin ideyaların, dövlətçilik dəyərlərinin ətrafında qətiyyətlə birləşdirə, səfərbər edə bilirlər. Elə ulu öndər Heydər Əliyev kimi.

Böyük mütəfəkkir və filosof Mark Avreli yazırdı ki, hər bir xalqın gerçək potensialı yalnız fenomenal liderlik keyfiyyətlərini öz parlaq simasında yaşadan şəxsiyyətlərin dövlətçilik fəaliyyətində açıla bilər. Milli inkişaf yolunun banisinə çevrilən, xalqları dünya miqyasında tanıdaraq layiqli mövqelərə çıxaran belə xarizmatik liderlər həm də sabit milli dövlətçilik ənənələri formalaşdıraraq böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığına nail olurlar. Bugünün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur magistralından kənarda təsəvvür etmirlər. Ruslar üçün bu şəxsiyyət Rusiya dövlətinin dövlətçilik ənənələrinin əsasını qoymuş I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçil, fransızlar üçün Şarl de Qoll, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir! [1].

Xalqımız dahi şəxsiyyət, ulu öndər Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyini onun ölməz ruhuna, əziz və unudulmaz xatirəsinə dərin ehtiramla, tükənməz minnətdarlıq hissi ilə qeyd edir. Azərbaycanda gerçəkləşən müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, möhkəm əsasları olan vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük tarixi şəxsiyyətlərdəndir. Belə insanlar yüz ildən, min ildən bir dünyaya gəlib böyük bir missiyanı yerinə yetirirlər. Bu cür insanlar onlara verilən ömür payını millətinə, vətəninə, dövlətinə xidmətdə görürlər. Öz dəyərli fəaliyyətləri ilə təmsil olunduqları xalqın yoluna işıq salıb, qaranlıqdan aydınlığa çıxarırlar. Biz bugünkü iqtisadi gücümüzə, hərbi qüdrətimizə, dünya siyasi düzənində qazandığımız bütün uğurlara görə Ulu Öndərə borcluyuq. Bügünkü siyasi kursun təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulub və indi uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin banisi kimi böyük ehtiramla anılır. Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda respublikamızda dərin iqtisadi-siyasi və mənəvi böhranın hökm sürdüyü bir dövrdə xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıtdı, özünün dərin zəkası, yüksək idarəçilik keyfiyyətləri, quruculuq və xilaskarlıq missiyası ilə ümummilli liderlik zirvəsinə ucaldı. Böyük öndər Heydər Əliyev qısa zamanda ictimai-siyasi sabitliyi təmin etməklə ölkə iqtisadiyyatındakı tənəzzül prosesinin qarşısının alınmasına xidmət edən bir sıra zəruri tədbirlər həyata keçirdi. İqtisadi sahədə mərhələlərlə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanırdı.

Təcrübə göstərir ki, istənilən dövlətdə davamlı sosial-iqtisadi inkişafa və yeniləşməyə yalnız çoxmülkiyyətli iqtisadiyyat, azad rəqabət və liberal qiymətlər şəraitində nail olmaq mümkündür. İqtisadi transformasiya prosesi adətən təkamül yolu ilə baş verir və bir qayda olaraq iqtisadi münasibətlərin bütün səviyyələrini əhatə edir. Bu baxımdan Azərbaycanda bazar iqtisadiyyatına təxminən 30 illik keçid dövrünü üç əsas mərhələyə ayıra bilərik: 1991-1995-ci illəri əhatə edən tənəzzül, 1995-2003-cü illəri əhatə edən dirçəliş və 2003-cü ildən sonrakı müddəti əhatə edən dayanıqlı inkişaf mərhələləri.

Birinci mərhələ üçün olduqca mürəkkəb siyasi və sosial-iqtisadi vəziyyət səciyyəvi idi. 90-cı illərin əvvəlində Sovet İttifaqının süqutu, müəssisələr arasında mövcud təsərrüfat əlaqələrinin pozulması, siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. Bu neqativ proseslər əhalinin güzəranının ağırlaşmasına səbəb olmuşdu. 1991-1995-ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3, adambaşına orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqı isə 5,7 dəfə azalmışdı. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Ümummilli lider Heydər Əliyev respublika iqtisadiyyatındakı tənəzzül prosesinin və hiperinflyasiyanın qarşısını almaq, makroiqtisadi sabitliyə nail olmaq üçün ilkin mərhələdə sərt büdcə-kredit siyasətinə üstünlük verdi. Hökumətin çevikliyini, işləkliyini təmin etmək üçün yeni dövrün tələblərinə uyğun struktur islahatları başlandı, habelə özəlləşdirmənin birinci mərhələsinin həyata keçirilməsi istiqamətində qətiyyətli qərarlar qəbul edildi. 1996-cı ildən etibarən dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi prosesinə başlanılması sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində koordinal dəyişikliklərə səbəb oldu. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət edirdi. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına əlverişli mühit formalaşdırdı.

1995–2003–cü illəri əhatə edən dirçəliş mərhələsi Azərbaycanın dünya iqtisadi sistemində

layiqli yer tutması, ölkə iqtisadiyyatına xarici investorların cəlb olunması məqsədilə sərmayələrin qorunması ilə səciyyəvidir. Bu dövrdə iqtisadi inkişafın sürətləndirilməsinə xidmət edən mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Ölkəmizdə 40-a yaxın ikitərəfli sazişlər imzalandı, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri quruldu. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4, iqtisadiyyatla məşğul olanların orta aylıq real əməkhaqqı 5,1 dəfə artdı. İnflyasiya səviyyəsi 3-4 faizə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Dirçəliş mərhələsində əldə olunmuş nailiyyətlər növbəti 3-cü mərhələnin sonunda bazar iqtisadiyyatına keçidlə başa çatdırıldı və ölkə iqtisadiyyatının davamlı inkişafı, respublikamızın dünyanın inkişafda olan dövlətləri arasında layiqli yer tutması üçün möhkəm zəmin yaratdı [2].

Bütün bunlar ona gətirib çıxardı ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli – Azərbaycan modeli formalaşdı. Bu modelin fərqləndirici xüsusiyyətini isə inkişaf üzrə müəyyən olunmuş strateji istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan və gələcəyə hesablanan cəsarətli qərarların qəbul olunması, dövlət büdcəsinin ilbəil dinamik artımında sosialyönümlülüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması, mütərəqqi dünya təcrübəsindən bacarıqla bəhrələnmə təşkil edir.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın gələcək inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toparlayır.

Müasir Azərbaycanda elə bir sahə, elə bir istiqamət, elə bir uğur və nailiyyət yoxdur ki, orada Heydər Əliyev dühasının bəhrəsi, Heydər Əliyev imzası olmasın. Ulu öndər Heydər Əliyevin hər bir sahədə mükəmməl siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu, Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, dərin biliyi və xalqa sonsuz sevgisinin bəhrəsidir. İstər sovet dönəmində, istərsə də müstəqillik illərində hakimiyyətdə olduğu dövrlərdə onun çox incəliklə yanaşdığı bir sahə də vardı – elm və təhsil. Bu qayğını o vaxtlar SSRİ-nin tərkibində olan Azərbaycanın 70-ci illərə qədərki dövrdə başqa respublikalarla müqayisədə çox da üzdə olmayan elm və təhsil sistemlərinə də şamil etmək olar. Uğurlu təhsil strategiyasının müəllifi, akademik və tətbiqi elmin bacarıqlı təşkilatçısı Heydər Əliyev fəaliyyəti dövründə bu sahələrin də tərəqqisi, onların yeni tələblərə cavab verməsi üçün daim dəstəyini və diqqətini əsirgəməyib. Bu yolda olan maneələrin aradan qaldırılması, mövcud elmi potensialın Azərbaycanın gələcək intellektual resurslarının artırılmasına yönəldilməsi üçün çalışıb. Hələ 70-ci illərdə respublikanın təhsil infrastrukturunun dəyişilməsinə, yenilənməsinə, yeni ali təhsil və peşə məktəblərinin açılmasına xüsusi diqqət yetirib. Statistik məlumatlarda məhz 70-ci illərdə respublikada tələbə sayının 70 mindən 100 minə çatdırılması böyüməkdə olan nəslə dövlət qayğısı idi. Xalqın gələcək quruculuq yoluna işıq saçacaq, dayaq olacaq bilikli bir nəslin yetişməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir. Məhz buna görə də Ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin güngüzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərlik etdiyi illər Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu.

Qeyd etməyi özümə borc bilirəm ki, Ulu öndərimizin atalıq qayğısı Azərittifaqın təhsil müəssisələrindən də yan keçməmişdir. Xatırladıram ki, Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 saylı "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Azərittifaqın hər iki təhsil müəssisəsi (o vaxtkı Azərbaycan Kooperasiya İnstitutu və Bakı Kooperativ Texnikumu) yeni yaradılan Azərbaycan Dövlət İqtisad Universitetinin tərkibinə verilmişdi. Azərittifaqın idarə heyətinin müraciətini, eləcə də rəhbərimiz, çox hörmətli

Eldar Quliyevin ciddi səylərini və ölkədə iqtisadi profilli mütəxəssislərin hazırlanması zərurətini nəzərə alan Prezident Heydər Əliyev həmin ilin 30 avqust tarixli 391 saylı fərmanı ilə müdriklik göstərərək indiki Azərbaycan Kooperasiya Universitetini, həmçinin Bakı Kooperasiya və Biznes Kollecini müstəqil qurumlar kimi saxlamaqla yanaşı onların gələcək fəaliyyətini daha da genişləndirmək barədə müvafiq tapşırıqlar verərək bugünkü inkişaf səviyyəsinə çatdırmışdır. Məhz buna görə də biz qədirbilən kooperatorlar bu tarixi şəxsiyyətə həmişə özümüzü borclu hesab edir və Ulu Tanrıdan ona rəhmət diləyirik.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi və yaradıcısı olduğu kimi, hazırda üzvlərinin sayı 800 mini ötmüş, ölkəmizin ən nüfuzlu siyasi qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyasının da ilk rəhbəri və ilhamvericisi məhz elə Heydər Əliyev oldu.

Beləliklə, bu gün Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükünü daşıyan fenomenə çevrilmişdir. Bu fenomeni ulu öndərin öz millətinə, Vətəninə həsr olunan, hər səhifəsi son yarıməsrlik tariximizin şanlı salnaməsi olan ömür kitabı, bir qərinədən artıq Azərbaycana rəhbərlik fəaliyyəti, xalqın ona – ümid və nicat mənbəyi kimi baxdığı liderinə olan böyük sevgisi və inamı yaratmışdır. Zamana sığmayan ümummilli liderimizin 100 illik yubiley xatirəsi onu həmişə əziz tutan milyonları bir daha öz işığına toplayır, nuruna bürüyür.

Bu günün reallıqları, eyni zamanda, ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi bu fikrin də təsdiqidir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Xarici siyasətin uğurlu daxili siyasətin davamı olduğunu nəzərə alsaq, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunda iqtisadi uğurlar böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, bir faktı nəzərə alaq ki, iqtisadi inkişaf demokratikləşmə prosesi ilə vəhdət təşkil etməlidir. Azərbaycan dövlətinin siyasətində bu vəhdətin qorunması uğurlu addım kimi dəyərləndirilir. Ulu öndər Heydər Əliyev Azərbaycanın strateji kursunda demokratik inkişafın əsas yer tutduğunu önə çəkərək, heç bir qüvvənin ölkəmizi bu yoldan döndərmək iqtidarında olmadığını bəyan etmişdi.

Bir sözlə, Heydər Əliyev 34 ildən artıq bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız ulu öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Qeyd edilənlərin fonunda bir daha bu reallıq aydın dərk olunur ki, düzgün seçilən yol, möhkəm təmələ əsaslanan siyasət ölkənin davamlı inkişafını təmin edir, beynəlxalq münasibətlər sistemində yeri və rolunu möhkəmləndirir. Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir. Ulu öndərin dövlətçilik fəlsəfəsi bugünkü Zəfərimizdə yaşayır. Bəli, bu gün gənc, müstəqil Azərbaycanın bütün sahələrdə nail olduğu tərəqqinin, 44 günlük Zəfərimizin təməlində ulu öndər Heydər Əliyev ideyaları dayanır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs bu gün Azərbaycanın möhtəşəm Xalq-Ordu-Prezident sarsılmaz birliyini yaratmışdır. "Dəmir yumruq" əməliyyatı nəticəsində tarixi Qələbə qazanaraq 30 ildən bəri düşmən tapdağı altında qalmış ərazilərimizə sahib çıxdıq. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər və ərazi bütövlüyümüzün təmin olunması isə ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin daha da təkmilləşdirərək müasirləşdirdiyi və inamla həyata keçirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsidir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu öndərin arzuladığı zirvələri fəth edir. Həm döyüş meydanında, həm də diplomatiya cəbhəsində düşmən üzərində qazandığımız zəfərlər qürur mənbəyi, tariximizin şanlı səhifəsidir.

Ümummilli liderimiz bu gün aramızda yoxdur. Təsəllimiz odur ki, Heydər Əliyevin zəngin ideyalarının davamçısı olan layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında gələcəyə inamla addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriy-

yətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik, bundan sonra da belə olacağıq. Əbədiyyət rəmzinə çevrilmiş Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları həmişə yaşayacaqdır! Xalqımız Heydər Əliyevi hər zaman minnətdarlıqla anacaq. O elə bir zirvədir ki, yüz illər ötsə də, nur saçan əməllərilə xatırlanacaq [3].

## ƏDƏBİYYAT


1. Ataşov B.X. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Azərbaycan Kooperasiya Universitetində 20 aprel 2013-cü il tarixdə keçirilmiş və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş konfransın materialları. "Kooperasiya" elmi-nəzəri jurnal, Bakı, 2013, № 1, s. 5-8.
2. Ataşov B.X. Müstəqil Azərbaycanın maliyyə və audit sisteminin inkişafında Heydər Əliyevin tarixi rolu. Azərbaycan Dövlət İqtisad Universitetinin təşkilatçılığı ilə 6 may 2021-ci il tarixdə onlayn keçirilən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş respublika elmi-praktik konfransın materialları. Bakı, 2021, s. 139-145.
3. Heydər Əliyev. Həyatının 100 anı. Müəlliflər: Fikrət Nağıyev, Emil Nəsirli. Ensiklopediya nəşriyyatı. Bakı-2023, 672 s.



***Байали Ханалы оглы Аташов,***
***Проректор по науке и инновациям***
***Азербайджанского Университета Коперации,***
***доктор экономических наук, профессор,***
***Заслуженный деятель науки***


**Легенда вечности - общенациональный лидер Гейдар Алиев**


***Резюме***

В статье рассматриваются наиболее яркие страницы жизни и деятельности общенационального лидера азербайджанского народа Гейдара Алиева как феноменальной личности, рассказывается о незаменимой роли этой исторической личности в обретении нашей страной государственной независимости, повышении авторитета республики на международной арене, развитии отечественной науки, образования, здравоохранения, экономики и других областей.



***Ключевые слова: Гейдар Алиев, общенациональный лидер, феноменальная личность, государственная независимость, вечно живой азербайджанец.***



***Beyali Khanali Atashov***
***Vice-Rector for Science and Innovations of***
***Azerbaijan Cooperation University,***
***Doctor of Economic Sciences, Professor, Honored Scientist***


**The story of eternity - national leader Heydar Aliyev**


***Summary***

The article focuses on various aspects of the life and activities of the national leader of the Azerbaijani people, Heydar Aliyev, as a phenomenal person, and talks about the irreplaceable role of this eternal personality in gaining our country's eternal independence, increasing its reputation in the international world, and in the development of our science, education, health, economy and other fields.



***Key words: Heydar Aliyev, national leader, phenomenal person, state independence, eternal Azerbaijani.***

UOT: 338.433; 338.43

*Vilayət Abbas oğlu ƏLİYEV*
*Azərbaycan Kooperasiya Universitetinin*
*"İstehlak mallarının ekspertizası"*
*kafedrasının müdiri, professor*
*ORCİD-İD- 0000-0002-6302-5454*

# RİFAH VƏ İNKİŞAFA HƏSR OLUNAN ÖMÜR

***Xülasə***

Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider, qüdrətli və böyük insan Heydər Əliyev Azərbaycan xalqının tarixi yaddaşına saysız-hesabsız fəxarətlər həkk etdirmişdir. XX əsrdə Ulu tanrı Azərbaycan xalqına Türk dünyasının fəxri olan ulu öndəri əvəzedilməz Heydər Əliyev zəkasını, siyasi dühasını bəxş etdi.

Heydər Əliyev öz fəaliyyəti ilə tarixin gedişinə təsir edən, tarixdə silinməz izi qalan fenomenal insanlardan olub. Onun Azərbaycan xalqı üçün etdiyi müasir müstəqil Azərbaycanın quruculuğuna verdiyi misilsiz töhfələr hamı tərəfindən minnətdarlıqla etiraf olunur. Əslində Heydər Əliyevin tərcümeyi-halı, həm də doğma Azərbaycanın inkişaf mərhələləri, keçdiyi yol, qazandığı uğurlarının təsdiqi və təsviridir.

***Açar sözlər: Heydər Əliyevin silinməz izi, irsi, zəkası, keçdiyi yol, türk dünyasının fəxri, siyasi dühası.***

***

Ulu öndər Heydər Əliyev Azərbaycana 34 il rəhbərlik etmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik fəaliyyəti ilə 1969-cu ildə çağdaş tariximizdə yeni era başladı. Heydər Əliyevin dahiliyi, müdrikliyi, idrakı, kamilliyi, iradəsi və dünyagörüşü yüzlərlə möhtəşəm elmi mövzunun predmetidir. [Az.qəzet 5 may 2022].

Bununla yanaşı indiyə qədər tarix haqqında irəli sürülmüş müddəalar arasında seçim etməli olsaydıq yəqin ki, belə bir fikrə üstünlük verərdik: tarix şəxsiyyət yaradıcılığının nəticəsidir. Buna görə də xalqların taleyində şəxsiyyət amilinin rolu müstəsnadır. Dövlətlərin və xalqların tarixində siyasi liderlərin, böyük şəxsiyyətlərin əvəzolunmaz xidmətləri vardır. Məhz güclü liderlərin sayəsində hər bir xalq özünün düzgün inkişaf yolunu seçmiş, dövlətçiliyini qoruyub gücləndirmişdir. Ümummilli lider Heydər Əliyev XX əsrdə xalqımızın taleyində müstəsna rolu olan belə bir tarixi şəxsiyyətdir. Anadan olmagının 100-cü ildönümündə ulu öndəri ehtiramla anırıq. Heydər Əliyev şəxsiyyəti öz xalqına sədaqətlə xidmət etməyin simvoludur. Məhz 70-ci illərdə onun fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadiyyatı yüksək templə inlişaf edərək yeni-yeni zirvələr fəth etdi, iri sənaye obyektləri inşa edildi. Kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər əldə edildi.

Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadiyyatı inkişaf etdirmədən insanlarda ruh yüksəkliyi, vətənə, torpağa məhəbbət yaratmadan ordu quruculuğu sahəsində dönüş yaratmaq mümkün deyil. Bu baxımdan milli iqtisadi sistemin yaradılması, beynəlxaq iqtisadi münasibətlərin güclənməsi ordu quruculuğunun inkişafına yeni bir təkan verdi və Ermənistanın təcavüzünün qarşısının alınmasında əsaslı rol oynadı. Bu, Heydər Əliyev müdrikliyinin nəticəsi idi. 44 günlük müharibə və uzaqgörənliyi bunu bir daha sübut etdi. Bu gün Azərbaycan xalqı haqlı olaraq qalib, güclü, nüfuzlu dövləti ilə fəxr edir. Çünki hazırda Azərbaycan çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayır, ardıcıl və möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir.

Təhsil sistemi köklü surətdə yenidən təşkil edildi, tələbələrin Azərbaycandan kənarda təhsil alması istiqamətində geniş və perspektivli işlər görüldü. Respublikada iqtisadiyyat sahəsində ixtisaslı və dünya standartlarına cavab verə bilən mütəxəssislər ordusu hazırlandı.

Yeniləşən Azərbaycan təhsil çağırışını irəli sürməklə cəmiyyət haqqında böyük bir dəyişikliyin əsasını qoydu. Bu təşəbbüs çox böyük ictimai dəstək qazandı. Təhsilə insanların marağını artırdı, təhsilin strateji hədəfimiz olduğunu nəzərə alaraq yeni layihənin məqsədi təhsil sahəsindəki mövcud problemlərin həllinə köməklik göstərməkdir. Təhsil islahatının memarı olan Heydər Əliyevin müdrik tövsiyələri əsasında təhsil sahəsində də böyük uğurlar əldə edilmişdir.

Texniki, mədəni, sosial sahələrdə sadaladığımız nailiyyətlərin qazanılması fövqəladə və uzaqgörən lider H.Əliyevin öz xalqına sonsuz istək və məhəbbətinin ifadəsinin real nəticələri idi.

XX əsrin sonunda Azərbaycan ikinci dəfə müstəqillik qazandı. Müstəqilliyimizin ilk illərində 1991-1993 cü illərdə Azərbaycanda mürəkkəb, acınacaqlı və çətin vəziyyət, siyasi hərc-mərcilik, iqtisadi böhran hökm sürürdü. Belə bir mürəkkəb dövrdə respublikanın rəhbərlik və idarəetmə sükanı xalqın birmənalı və yekdil dəstəyi ilə Milli liderə tapşırıldı. Dünyaşöhrətli, müdrik siyasi xadim, milli liderimiz sözün həqiqi mənasında Azərbaycan xalqını, onun başının üstünü almış fəlakətdən xilas etdi. Xarici dövlətlərə səfəri zamanı və dünyanın mötəbər tribunalarında gənc müstəqil Azərbaycan adlı dövlətin çiçəklənməsindən, onun inkişafının gələcək perspektivlərindən danışıldı. Bunlar dünya siyasətinin nəhəng liderlərindən biri olan Heydər Əliyevin xarici siyasət sahəsindəki uğurları idi. Dahi siyasi xadimin rəhbərliyi sayəsində respublikamızda siyasi-iqtisadi, mədəni və dövlət quruculuğunda qazanılan uğurların miqdarı ölçüyəgəlməz dərəcədə artdı.

1994-cü ildə "Əsrin Müqaviləsi" adlanan neft kontraktının imzalanması bu nailiyyətlərin danılmaz olmasında həlledici rol oynadı. "Əsrin Müqaviləsi" respublikamızın qapılarını tərəqqipərvər bəşəriyyətin üzünə geniş açdı. Xalqımıza təbii sərvətdən özü istədiyi kimi istifadə etmək imkanının reallaşdırılması da Heydər Əliyevin fitri uzaqgörənliyi və misilsiz xidmətidir.

Ulu öndər "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Azərbaycanın iqtisadi inkişafı üçün güclü təməl formalaşdırdı. Təbii resursların ölkəmizin, xalqımızın rifahına yönəlməsinə nail oldu. Heydər Əliyev ölkənin demokratik inkişaf amilini, strateji hədəflərini təhdid edən qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoydu və nizami ordu quruculuğunu böyük uğurla həyata keçirdi. Cəbhə bölgəsində atəşkəsə nail olub, sülh danışıqlarına başlamaqla həm Azərbaycanın sülh niyyətini bütün dünyaya nümayiş etdirdi, eyni zamanda müəyyən bir dövr üçün bütün imkanları, resursları ölkəmizin hərtərəfli inkişafına yönəltmək üçün zəruri vaxt qazandı.

"Əsrin müqaviləsi"nin imzalanmasında və uğurlu icrasında, ölkədə yeni siyasi mədəniyyətin formalaşmasında, vətəndaş cəmiyyətinin möhkəmlənməsində, Azərbaycanın diplomatiyasının uğurlarında, hətta idman və gənclər hərəkatının genişlənməsində və bununla gənc nəslin vətənpərvərlik tərbiyəsində, bir sözlə, bütün sahələrdə Heydər Əliyev siyasətinin öncül icraçısı məhz İlham Əliyev cənabları idi.

Xatırladaq ki, Milli lider hələ təhlükəsizlik orqanlarında işlədiyi zaman, xüsusilə bu orqana rəhbərlik etdiyi dövrdə ölkənin milli mənafeyinin müdafiəsi sahəsində xeyli iş görmüşdür. Bir çox dövlətlərin kəşfiyyat fəaliyyətini zərərsizləşdirmiş, çox dəyərli peşəkar əməliyyatlar həyata keçirmişdir. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Təhlükəsizlik xidməti orqanlarında azərbaycanlı sabit və sıravi əməkdaşların sayını artırmışdır. Sovetlər birliyi dövründə Azərbaycan Respublikası yeganə bir respublika idi ki, burada Dövlət Təhlükəsizlik Komitəsinin sədri milli kadr idi. Bu da milli liderimizin böyük nüfuza malik olmasından xəbər verirdi. Sonralar ulu öndər qeyd edirdi ki, 1953-cü ildən sonra Dövlət Təhlükəsizlik orqanlarında həm kəşfiyyat, həm də əks-kəşfiyyat sahəsində çox gözəl peşəkar azərbaycanlı kadrlar yetişmişdi.

Heydər Əliyev Moskvada olarkən Sovet dövlətinin xarici siyasət xəttinin həyata keçirilməsində də fəal iştirak edirdi. Xarici ölkələrə göndərilən nümayəndə heyətinə başçılıq edirdi. Milli liderimiz Sovet İttifaqının rəhbərləri arasında ən intellektual, nüfuzlu şəxs kimi zirvəyə yüksəlmişdir. Əldə etdiyi nailiyyətlərə görə Heydər Əliyevə SSRİ Ali Sovetinin 1983-cü il 7 may tarixli fərmanı ilə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verildi. Heç bir mübaliğəsiz demək olar ki, o zaman Heydər Əliyev sovet dövlətinin lideri səviyyəsinə yüksəlmişdir. Təsadüfi deyil ki, K.U.Çernenkodan sonra SSRİ-də hakimiyyətə ən real namizədlərdən biri məhz Heydər Əliyev idi. Uzun illər SSRİ-nin xarici işlər naziri olmuş A.A.Qromıko qeyd etmişdir ki, bizim siyasi büroda ancaq üç adam nisbətən cavandır. Romanov,Qorbaçov və Əliyev. Axırıncı mənə daha çox xoş gəlir. Onun vaxtında Azərbaycanda xüsusən, kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və ləyaqətli adamdır. Amma, təəsüf ki, onun namizədliyi istisna olunur. O, nəyə görə? Milliyyətinə görə?–Sualına belə cavab vermişdi: "bu məsələdə də milliyyətinə görə".

Beləliklə, Kremldə hakimiyyətə M.Qorbaçov gətirildi. Sonralar Heydər Əliyevə qarşı Qorbaçovun apardığı gizli oyunlar aşkar olundu. 1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosu-

nun üzvü Heydər Əliyevin vəsifəsindən azad edilməsi barədə xahişi təmin etmişdir.

Müstəqillik adlanan müqəddəs zirvəyə çatmaq kimi arzuya nail olmaq hər bir xalqın tarixində enişli-yoxuşlu, çətin müşayiət olunmuş, bununla belə həmin zirvəni fəth etmək heç də hamıya nəsib olmamışdır. Tarix göstərir ki, o xalq müstəqillik zirvəsinə yüksəlib ki, həmin dövrdə xalqın başında duran, xalqa yol göstərən şəxs öz siyasəti, ağlı və zəkası ilə digərlərindən üstün olsun, ən başlıcası isə xalqına sədaqətli olsun. Müstəqillik bu və ya digər obyektiv tarixi səbəb və şəraitdən asılı olaraq əldə oluna bilər. Azərbaycan xalqı da müstəqilliyə gedən yolda bəzi maeələrdən yan keçmədi. Bu maneələr daha mütəşəkkil, kəskin və ciddi şəkildə özünü büruzə verdi. 1993-cü ilin iyununda artıq başlanmış vətəndaş müharibəsi, Azərbaycanın parçalanmasına, dövlət və hakimiyyət nümayəndələrinə qarşı sui-qəsdlər və sair Azərbaycanın yaxın tarixinə qara hərflə həkk olunan bu acı və təəssüf doğuran dəhşətli hsdisələrin qarşısını almaq, dəf etmək yenilməz cəsarət, dönməz inam, tükənməz ağıl, uzaqgörən siyasətin sahibi dahi şəxsiyyət, milli liderimizə nəsib oldu. Azərbaycan xalqının və onun müstəqil dövlətçiliyinin quruluşu yalnız Heydər Əliyev şəxsiyyətinə mənsub ola bilərdi.

Milli öndərin müstəqil Azərbaycana 10 illik prezidentliyi dövründə çox böyük işlər görüldü. "Əsrin müqaviləsi" imzalandıqdan sonra iqtisadiyyat yüksək templərlə inkişaf etdi. Bu, respublikada digər sahələrin inkişafının əsasını qoydu.

H.Əliyev respublikada dövlətçiliyin qurulmasına və möhkəmlənməsinə çox böyük diqqət yetirirdi. Yenicə müstəqilliyini qazanan Azərbaycanda hakimiyyətdə olan bəylərin bacarıqsızlığı və səriştəsizliyi ucbatından Azərbaycan xalqı arzuladığı və uğrunda şəhidlər verərək nail olduğu sevinc hissini yaşaya bilmirdi. Bu baxımdan respublikada aparılan uğurlu islahatlar, əldə olunan nailiyyətlər cənab Heydər Əliyevin misilsiz xidmətlərindəndir.

Müasir Azərbaycanın ictimai-mədəni həyatının elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Bu sahələr içərisində elmin xüsusi yeri vardır. İstər Sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyevin elmi siyasəti milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

Müstəqillik illərində Heydər Əliyev təhsil sistemində baş verən boşluqlara, deformasiyalara da böyük qüvvə şərf etmişdir. Heydər Əliyev 1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edərək deyirdi: Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçildikdən sonra dərhal birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırma nəticəsində mənə aydın oldu ki, Azərbaycandan kənarda Respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təsüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Məlumdur ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. İki-üç ildən sonra kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum. Azərbaycanda xüsusilə ali təhsilin vəziyyəti ilə daim maraqlanmışam.

Bizim Universitetimizin bugunkü fəaliyyətinə görə ulu öndərə minnətdarıq. Milli liderimiz 2000-ci ildə Nazirlər Kabinetinə göstəriş vermişdir ki, Azərbaycan Kooperasiya Universitetinin inkişaf etdirilməsi üçün tədbirlər görsün. Onun hesabınadır ki, bu gün biz lisenziya almış və akkreditasiyadan keçmiş, çox yüksək maddi-texniki bazaya, gözəl laboratoriya və kabinetlərə, işıqlı auditoriyalara malik universitetdə çalışırıq.

Azərbaycan Kooperasiya Universitetinin professor–müəllim heyəti bu gün həm də milli ideologiyamızın formalaşması, genişlənib, inkişaf etdirilməsi və təbliği sahəsində böyük fəallıq nümayiş etdirir. Təhsil müəssisəsində ulu öndərin mənəvi irsinin, bu fövqəlbəşər şəxsiyyətin zəngin dövlətçilik təcrübəsinin, idarəetmə fəlsəfəsinin öyrənilməsi və gənc nəslə çatdırılması mühüm vəzifə kimi qiymətləndirilir. Hazırda universitetdə fəaliyyət göstərən "Heydər Əliyev məktəbi" bu istiqamətdə ciddi araşdırmalar aparır. Ulu öndərin həyatının şərəfli səhifələrinin dolğun şəkildə ictimaiyyətə çatdırılması, onun zəngin ideya-fəlsəfi dünyagörüşünə əsaslanan müasir dövlətçilik konsepsiyasının təbliği və bu konsepsiyadan irəli gələn vəzifələrin tələbələrə aşılanması yönündə mühüm işlər görür.

Həqiqətən də ulu öndərin ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycanın Prezidenti İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasətin sayəsində xalqın milli mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Müstəqil Azərbaycanın son illər qazandığı böyük iqtisadi nailiyyətləri bu gün Azərbaycan Kooperasiya Universitetində çoxsaylı tələbə-müəllim heyəti də öz gündəlik həyatında hiss edir və ardıcıl olaraq həyata keçirilən, hər bir ölkə vətəndaşının mənafeyinə əsaslanan islahatları böyük rəğbətlə qarşılayırlar. Hamıda belə bir səmimi və qəti inam var ki, milli müstəqilliyə davamlı təminat yaratmış ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən cənab İlham Əliyev yaxın perspektivdə Azərbaycanı dünyanın inkişaf etməkdə olan ölkəsindən hərtərəfli inkişaf etmiş çevirəcəkdir. Beləliklə, Azərbaycan tarixinin yeni möhtəşəm səhifələri yazılır.

Təsadüfi deyil ki, ulu öndər "Mən ona özüm qədər inanıram" deyərək cənab İlham Əliyevi xalqa təqdim edəndə, əslində xalq da o şəxsiyyətə Heydər Əliyevin inandığı qədər inanırdı. Birmənalı şəkildə inanırdı və sonrakı dövrlərdə biz bu inamın gücünü gördük.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük vətən müharibəsində əldə etdiyi qələbə bu həqiqətin möhtəşəm sübutu oldu.

Bir məqamı da xüsusi qeyd edək. Ulu öndər Heydər Əliyev 1993-cü ildən etibarən Müstəqil Azərbaycan dövlətini qurarkən bu çətin və şərəfli missiyanın yerinə yetirilməsində onun ən yaxın, ən sadiq və ən fədakar yardımçısı məhz İlham Əliyev idi. "Əsrin müqaviləsi" nin imzalanmasında və uğurla icrasında ölkədə yeni siyasi mədəniyyətin formalaşmasında vətəndaş cəmiyyətinin möhkəmlənməsində, Azərbaycan diplomatiyasının uğurlarında, hətta idman və gənclər hərəkatının genişlənməsində və bununla gənc nəslin vətənpərvərlik tərbiyəsində, bir sözlə, bütün sahələrdə Heydər Əliyev siyasətinin ən öncül icraçısı məhz İlham Əliyev cənabları idi. İlham Əliyevin qurduğu tarixin ən qüdrətli Azərbaycanı Ulu öndərin tarixi missiyasına verilən möhtəşəm dəyərdir. Prezident İlham Əliyevin qurduğu bu dövlət dünyaya bir nümunədir. Vaxtı ilə ümummilli liderin söylədiyi məşhur kəlam vardır ki, "Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün Azərbaycanın həqiqətən dünyanın siyasi, iqtisadi, mədəni üfüqlərində parladığını görürük. Bu gün Azərbaycan enerji təhlükəsizliyində sülh, sabitlik və inkişaf mühitinin də əsas təminatçılarından biridir. Bu gün yaxın və uzaq ölkələrdə hərbi münaqişələr, o cümlədən Rusiya və Ukrayna arasında baş verən münaqişələr, orada olan həqiqətlər İlham Əliyev müdrikliyini bir daha dərk etməyimizə kömək göstərir. Böyük tarixi zəfərimizlə nəticələnmiş 44 günlük Vətən müharibəsinin tam mahiyyətini hər birimiz üçün aydınlaşdırır.

Azərbaycan prezidenti 44 günlük münaqişənin mürəkkəb gərginliyini o qədər həssaslıqla, incəliklə idarə etdi ki, müharibə Azərbaycan xalqının, haqqın, ədalətin zəfəri ilə başa çatdı. Əsrlərdən sonra ilk dəfə torpaqlarımızı geri aldıq. İki əsrlik münaqişəyə, 30 illik müharibəyə Prezident İlham Əliyev son qoydu.

Prezident İlham Əliyevin qurduğu tarixin ən qüdrətli Azərbaycanı Heydər Əliyev irsinə, ulu öndərin tarixi missiyasına verilən ən möhtəşəm dəyərdir. Prezident İlham Əliyevin qurduğu Azərbaycan hər cəhətdən dünyada bir nümunədir. Azərbaycanın həqiqətən dünyanın siyasi, iqtisadi, mədəni üfüqlərində günəş kimi parladığını görürük. Çox təskinlik verən haldır ki, cənab prezident milli liderimizin arzularını yüksək peşəkarlıqla reallaşdırır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti № 92 5 may 2022-ci il
2. "Azərbaycan" qəzeti № 93 6 may 2022-ci il
3. "Azərbaycan" qəzeti 7 may 2022-ci il

***Вилаят Аббас оглы Алиев***
***Азербайджанский Университет Кооперации***
***«Экспертиза товаров народного потребления»***
***заведующий кафедрой, профессор***
***ORCİD-İD- 0000-0002-6302-5454***

**Жизнь, посвященная процветанию и развитию**

***Резюме***

Истинный гражданин, исторический деятель и общенациональный лидер, могущественный и великий человек, Гейдар Алиев, наш народ, имеющий историю азербайджанского народа, оставил в памяти истории неисчислимые почести выдающимися деятелями. Гейдар Алиев, великий лидер, гордость тюркского мира, Великий Бог XX века, подарил народу Азербайджана свой незаменимый ум и политический гений.

Гейдар Алиев был одним из феноменальных людей, повлиявших своей деятельностью на ход истории и оставивших неизгладимый след в истории. Несравненный вклад, который он внес в строительство современного, независимого Азербайджана для азербайджанского народа, признается всеми с благодарностью. По сути, биография Гейдара Алиева также является подтверждением и описанием этапов развития его родного Азербайджана, его пути, его достижений.

***Ключевые слова: Неизгладимый след Гейдара Алиева, наследие, ум, путь, гордость тюркского мира, политический дух.***

***Vilayat Abbas Aliyev***
***Azerbaijan Cooperation University***
***“Expertise of consumer goods”***
***head of the department, professor***
***ORCİD-İD- 0000-0002-6302-5454***

**A life dedicated to prosperity and development**

***Summary***

A true citizen, a historical figure and a national leader, a powerful and great man, Heydar Aliyev, our nation, which has a history of the Azerbaijani people, has engraved innumerable honors in the memory of history with outstanding figures. Heydar Aliyev, the great leader who is the pride of the Turkic world, the Great God in the 20th century, gave the people of Azerbaijan his irreplaceable intelligence and political genius.

Heydar Aliyev was one of the phenomenal people who influenced the course of history with his activities and left an indelible mark in history. The incomparable contributions he made to the construction of modern, independent Azerbaijan for the people of Azerbaijan are gratefully acknowledged by everyone. In fact, Heydar Aliyev's biography is also a confirmation and description of the development stages of his native Azerbaijan, his path, and his achievements.

***Key words: The indelible mark of Heydar Aliyev, heritage, mind, path, pride of the Turkic world, political spirit.***

*Müslüm Hətəm oğlu NƏZƏROV*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*dosent, fəlsəfə elmləri doktoru*
*E-mail: muslimnazarov@mail.ru*

# SOSİAL-HUMANİTAR TƏHSİL PROSESİNDƏ TƏLƏBƏLƏRİN İNTELLEKTUAL MƏDƏNİYYƏTİNİN İNKİŞAFININ KONSEPTUAL ƏSASLARI.

*Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.*

***Ümummilli lider Heydər Əliyev***

***Xülasə***

Məqalədə peşəkar universitet hazırlığının humanitar istiqaməti, tələbələrin intellektual mədəniyyətinin inkişafı konsepsiyası təqdim edilir. Tədqiq olunan fenomenin konseptual əsasları, sosial-pedaqoji sistemi tələbələrin intellektual mədəniyyətinin inkişafı prosesinin aydınlaşdırılmasını ehtiva edir. Humanitar elmlərdə tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün sosial-pedaqoji sistem, sosial və humanitar təhsil prosesində tələbələrin intellektual mədəniyyətinin inkişafında sosial-pedaqoji sistemin komponentləri, peşəkar universitet hazırlığının humanitar istiqaməti təhlil olunur.

***Açar sözlər: humanitar, intellektual, mədəniyyət, sosiallaşması, modelləşdirilmə, konsepsiya, sistem, fəaliyyət.***

***

Bəşər sivilizasiyasının tarixi sübut edir ki, cəmiyyətin yüksək intellektual və yaradıcı potensiala, qeyri-adi analitik qabiliyyətlərə malik insanlara həmişə ehtiyacı olub və indi də lazımdır. Onlar bir standart kimi, səy göstərməli olduğu ən yüksək göstərici kimi lazımdır.

Gələcək mütəxəssisin intellektual mədəniyyətinin inkişafı həm elmi, həm nəzəri, həm də praktiki xarakterli bir problemdir ki, bu da istehsalat və insan həyatının digər sahələrinin intellektual bacarıqlı işçilərə yüksək tələbatı ilə bağlıdır. Müasir cəmiyyətə yüksək intellektual və yaradıcı potensiala malik, qeyri-standart situasiyalarda müstəqil və məsuliyyətlə qərar qəbul etməyi bacaran, öz bacarıqlarının daim təkmilləşdirilməsinə ehtiyacı olan savadlı insanlara, yəni özünə hazır olan fəal və təşəbbüskar vətəndaşlara ehtiyac var. Bu, intellektual mədəniyyət fenomenində özünü göstərən intellektin keyfiyyətcə inkişafı istiqamətində məqsədyönlü iş tələb edir.

Humanitar elmlər üzrə tələbələrin intellektual mədəniyyətinin inkişafının sosial-pedaqoji sisteminin konsepsiyası tələbələrin intellektual təcrübəsinin belə mütəşəkkil transformasiyası əsasında şəxsiyyətin intellektual sosiallaşması nəzəriyyəsinin müddəalarını əks etdirir. Bu konsepsiyanın metodologiyası ümumi elmi və konkret elmi səviyyələrlə, onun həllinə sistemli, sosial-pedaqoji, ekoloji-institusional yanaşmalar kompleksi ilə təmsil olunur; nəzəriyyələr. sistemlər, mədəniyyət, təşkilat, fəaliyyət, informasiya, kommunikasiya, idrak təkamülü; təhsilin metasəviyyəli təşkili vasitələri.

Sosioloji səviyyə humanitar fənlər üzrə tələbələrin intellektual mədəniyyətinin inkişafı sistemində strukturlaşmanı, onun iştirakçılarının tərkibini və statusunu, sosial münasibətlərin strukturunda onların rolunun, ünsiyyət üsullarının müəyyən edilməsini təmin edir.

Metodologiyanın kulturoloji səviyyəsi cəmiyyətdə informasiya və biliyi idarə edən insanların məqsədləri, dəyərləri və tələbləri, habelə innovasiyalar vasitəsilə intellektual elitanın subkulturasına aid olan tələbələrin xüsusiyyətlərini müəyyən etməyə və əsaslandırmağa imkan verir. Sonuncuda metodikanın pedaqoji səviyyəsi də yenilənir. Sosial-humanitar təhsil müəssisəsində tələbələrin intellektual mədəniyyətinin inkişafı ilə bağlı ali təhsil pedaqogikasının yanaşmaları, prinsipləri və metodları sistemini əhatə edir.

Humanitar elmlər tələbələrinin intellektual mədəniyyətinin inkişafına sistemli yanaşma, nəzərdən keçirilən prosesin vəzifələrini həyata keçirən təhsil müəssisəsinin daxili və xarici mühitinin

bir-biri ilə əlaqəli altsistemləri sistemi ilə təmsil olunur. Baxılan prosesə münasibətdə yanaşmanın mahiyyəti ondan ibarətdir ki, tələbələrin intellektual mədəniyyətinin inkişafı ümumi dəyərlərlə bağlı olan təhsil müəssisəsinin xarici və daxili reallığı ilə tələbələrin qarşılıqlı əlaqələrinin məcmusudur. Fərdi dəyərlər və qrupun dəyərləri, bu qarşılıqlı təsirlərdə ümumilik üst-üstə düşür, onlar hissənin və bütövün bağlanmasının mənbəyidir.

Sosial-pedaqoji yanaşma tələbələrin intellektual mədəniyyətinin inkişafı sisteminin sosial-pedaqoji istiqamətini aydınlaşdırır, şəxsiyyətin intellektual tərbiyəsinin ənənəvi və innovativ pedaqoji metodlarının davamlılığı prinsipinin dəyərini müəyyən etməyə imkan verir.

Ekoloji-institusional yanaşma kontekstində tələbələrin intellektual mədəniyyətinin inkişafı vəzifələrinin həll olunduğu ətraf mühitin səmərəliliyinin artırılması strategiyası və prinsiplər toplusunu müəyyən edir.

Sistemlər nəzəriyyəsi konsepsiyanın metodoloji əsasları - altsistemlər blokları sistemlərinin sərhədlərini, sistemlər arasında əlaqələrin mənasını izah etməyə, sistemin dinamik tarazlığını təmin edən bu əlaqələrin homeostatik əhəmiyyətini müəyyən etməyə imkan verir.

Mədəniyyət nəzəriyyəsi onun mahiyyətinin, ümumi qanunauyğunluqlarının və funksiyalarının aşkar edilməsinə, intellektual mədəniyyətin müəyyənedici amillərinin, onun inkişaf prosesi, idrak, metodoloji, bədii və yaradıcılıq mədəniyyəti, təfəkkür və nitq mədəniyyəti, fəaliyyət mədəniyyəti ilə intellektual mədəniyyət arasında əlaqə yaratmaqdır.

Fəaliyyət nəzəriyyəsinin müddəalarına əsaslanaraq məqsədləri və inkişaf yollarını, tələbələrin peşədə intellektual resursdan səmərəli istifadə etmələrini, müvafiq dəyərləri və münasibətləri aktiv və fəal şəkildə mənimsəmələri ehtiyaclarını qeyd etmək olar.

İnformasiya nəzəriyyəsi tələbələrin intellektual mədəniyyətinin inkişafının mahiyyətini dərk etməkdə ən mühüm amildir: informasiya ilə işləmək, şifahi şəkildə ötürülmə yolları ilə, yazılı və başqa üsullarla müəyyən edilir.

İnsan kapitalı dedikdə, biz insanın təhsil, intellektual, fiziki, sosial və innovasiya mədəniyyətinin sintezini başa düşürük ki, həmin bu sintez də təhsil və təlimə investisiyalar qoyuluşu yolu ilə artırıla bilər. [1, s.77].

İntellektual fəaliyyəti metasəviyyəyə uyğun gələn humanitar elmlər üzrə tələbə universitetdə mənimsədiyi humanitar texnologiyaları aşağıdakı kontekstdə dərk etməyə qadirdir: humanitar mədəniyyət kodu (dəyərlər matrisi); humanitar elmlərin elmi konvensiyaları (həqiqəti aydın şəkildə təsbit edilən və ya aksiomalar, metaforalar, məqsədlər, tələblər və s. şəklində aydın təsbiti nəzərdə tutan bir çox elmi müddəalar); humanitar biliklərin həqiqətini humanitar elmlər arasında konsensus əsasında qiymətləndirmək yolları (nisbi, situasiya, cəmiyyətin inkişafının praktiki tələbləri ilə müəyyən edilir).

Tələbənin intellektual mədəniyyəti inteqrativ şəxsiyyət xarakteristikasıdır, onun fərqləndirici xüsusiyyətləri intellektual özünü inkişaf etdirməyə və özünü təhsilə yönəltmək, rasional problem həll etmək üçün bilik və bacarıqlara sahib olmaq, ortaya çıxan ziddiyyətləri yaradıcı şəkildə aradan qaldırmağa hazır olmaqdır [7].

Tələbələrin intellektual mədəniyyətinin formalaşması onların universitetdə tədris prosesində peşəkar inkişafında mühüm həlqədir, əhəmiyyətini qiymətləndirmək çətindir. Bu istiqamətdə iş müəyyən pedaqoji şəraitin yaradılması, təhsil fəaliyyətinin məzmununun keyfiyyətcə fərqli seçilməsi, işin üsul və formalarının seçilməsi ilə bağlıdır.

**Təhsil mədəniyyəti.** Mədəniyyət, təhsil, pedaqogika bir-biri ilə əlaqəlidir, "mədəniyyət" sözünün latın dilindən tərcüməsi buna sübutdur: "becərmə, tərbiyə, təhsil, inkişaf, ehtiram". Cəmiyyətin tərəqqisi istehsalın vəziyyətindən və mədəniyyətin yayılmasının effektivliyindən asılıdır... Bəşəriyyətin və hər bir fərdin tərəqqisi təhsilin keyfiyyətindən, dünyanı tanıma və öyrənmə metodlarından asılıdır [2, s. 31].

Tələbələrin intellektual mədəniyyətinin inkişafının sosial-pedaqoji sisteminin açıqlanmasının əsası üçün humanitar elmlər üzrə aşağıdakı müddəaları qəbul etmək olar:

1. humanitar elmlər üzrə tələbə sosial-pedaqoji təsir obyektidir, lakin intellektual mədəniyyətin inkişafı prosesində təsir subyektinə çevrilir;

2. tələbələrin intellektual mədəniyyətinin inkişafı - humanitar elmlər aşağıdakılardan ibarət

vahid pedaqoji prosesin atributiv strukturunda həyata keçirilir:

- dinamik stabil pedaqoji strategiyalar (sistemin özünütənzimləmə mexanizmi funksiyasını yerinə yetirən, onun normativ-metodiki təminatı);
- hədəf taxıl (sistemin mənbəyi kimi çıxış edən, onun performans-qiymətləndirici dəstəyi);
- sistemin təşkilati-məzmun komponentini əks etdirən pedaqoji şərtlər toplusu;
- sistemin səmərəli həyata keçirilməsi yollarını müəyyən edən, onun təşkilati-metodiki təminatı funksiyasını yerinə yetirən pedaqoji texnologiyaların məcmusu.

3. humanitar elmlərdə tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün sosial-pedaqoji sistem elmi yaradıcılıq sistemləri ilə tələbələrin peşəkar humanitar və texnoloji təcrübəsinin "birləşdiyi" sosial-pedaqoji məkanın bir hissəsidir.

Sosial və humanitar təhsil prosesində tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün sosial-pedaqoji sistemin komponentləri bunlardır: metodoloji, təşkilati-məzmun, metodik və meyar-qiymətləndirici.

1.Sistemin normativ-metodoloji komponenti sosial-pedaqoji sistemin ilkin konseptual əsaslarının altsisteminin səviyyəsidir, onun vasitəsilə elmin mahiyyəti, funksiyaları, yanaşma və prinsipləri açılır. Bu konsepsiyanın əsas məzmununu açıqlayaraq, aşağıdakı nəticələrə gəlmək olar:

- tələbələrin intellektual mədəniyyətinin inkişafı;
- humanitar elmlər - daha böyük (sosial, humanitar) sistem və onun tərkib elementlərinin (alt sistemlərinin) təbiətindən təbii asılılığa malikdir;
- humanitar elmlər tələbələri kütləvi sosial intellektləşmə və intellektual sosiallaşması prosesləri ilə tərs mütənasibdir;
- kütlələrin intensiv intellektuallaşması, cəmiyyətdə yeni (bazar) münasibətlərinin inkişafı və idrak fəaliyyəti şəraitində tələbələrin intellektual fəaliyyətinin transformasiyasına (becərilməsi mənasında) yönəlmiş sosial və humanitar təhsilin adaptiv-funksional modelidir.

2. Sistemin təşkilati-məzmun komponenti sosial-pedaqoji sistemin həyata keçirilməsi üçün pedaqoji şəraitin altsisteminin səviyyəsidir.

Humanitar elmlərdə tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün sosial-pedaqoji sistem belə pedaqoji şərtlərin həyata keçirilməsi ilə təmin edilir, bunlardan zəruri olanlar: təhsil komponentinin genişləndirilməsi məqsədinə nail olmağa yönəlmiş strateji şərtləndirilmiş pedaqoji fəaliyyətlər məcmusudur.

3. Sistemin metodik komponenti - işlənmə humanitar elmlər tələbələrinin intellektual mədəniyyəti pedaqoji texnologiyalarla təmin edilir. Bu texnologiyaların funksiyası transformativdir. Qeyd etmək olar ki: a) humanitar fənlər üzrə tələbələrin intellektual mədəniyyətinin inkişafı o halda həyata keçirilir ki, didaktik proses pedaqoq xarakteri daşıyır; b) humanitar fənlər üzrə tələbələrin intellektual mədəniyyətinin inkişafı əgər həyata keçirilirsə didaktik prosesdə intellektual təhsil təşkilati öyrənmə mexanizmlərini əhatə edir; c) humanitar fənlər üzrə tələbələrin intellektual mədəniyyətinin inkişafı didaktik proses həvəsləndirici xarakter daşıdıqda həyata keçirilir.

İntellektual kapitalın idarə olunmasının Azərbaycan modelinin aşağıdakı prinsiplər üzrə qurulmasını məqsədəuyğun hesab edirik: 1) fundamental biliklərin generatoru kimi elmi sferanın prioritetliyi prinsipi; 2) ölkə elmi elitasının dünya elmi birliyi ilə sıx qarşılıqlı təsirlərinə, intellektual resurs və ideyalar mübadiləsinə əsaslanan acıqlıq prinsipi; 3) olkənin rəqabətqabiliyyətliliyini təmin edən strateji elm sahələrində liderlik prinsipi; 4) sosial konsensus çərçivəsində elmi birliyin, biznesin, dövlətin və cəmiyyətin maraqlarının inteqrasiya etdirilməsi prinsipi [1, s. 92].

Humanitar elmlər tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün pedaqoji texnologiyalar tələbələrlə işləmək texnologiyalarıdır. Humanitar elmlər tələbələrinin intellektual mədəniyyətinin inkişafı üçün pedaqoji texnologiyalarda istifadə üçün uyğunlaşdırılmış mövcud qaydaların variantı aşağıdakı ifadələrə malikdir: humanitar elmlər tələbələrinin öyrənmə prosesinə rəhbərlik etmək cəhdlərinə qarşı prinsipial tənqidi münasibət saxlamalı və inkişaf etdirməlidir;

İntellektuallar sinfinin formalaşmasına və inkişafına təsir edən sosial-iqtisadi amillər arasında ali təhsilin inkişafını, gəlir səviyyəsini göstərmək olar. Bu iki amilin ikisi də "intellektuallar sinfi"nin təşəkkül tapmasına təsir göstərir [3, s. 53].

3. Sistemin meyar-qiymətləndirici komponenti sosial-pedaqoji sistemin transformasiya olunmuş nəticəsinin altsisteminin səviyyəsidir - ona göstəricilər – intellektual səriştə, intellektual tərbiyə, tələbələrin intellektual həssaslığı daxildir.

Nəticənin diaqnostik üsulları aşağıdakılardır: səviyyə göstəricilərinin miqyası, rəsmiləşdirilməsi, funksional təhlili, həyata keçirilməsi üçün proqnozlaşdırıcı ssenarilərin qurulması.

Sistemin inkişafının mənbəyi ziddiyyətlərdir:

- sosial və humanitar sahənin səmərəli fəaliyyət göstərməsinə dövlətin və cəmiyyətin ehtiyacı, onun əhalinin tələbatına uyğunluğu və bunda konkret fərdin intellektual mədəniyyətinin yeri və rolunun dərk edilməməsi arasında;

- humanitar problemlərin həllində öz intellektual resursundan rasional və məsuliyyətlə istifadə etməyə hazır olan işçiyə dövlətin və cəmiyyətin ehtiyacı ilə sosial-humanitar təhsil müəssisəsində peşəkar hazırlığın lazımi səviyyədə olmasını təmin etməyən mövcud şərait arasında;

- tələbələrin intellektual mədəniyyətinin inkişafı üçün sistematik nəzəri və metodik dəstəkdə sosial və humanitar təhsil müəssisəsinə ehtiyac və bu barədə müəllimlər və tədris prosesinin rəhbərləri arasında fikirlərin kifayət qədər formalaşmaması arasında;

Sistemin mərkəzi əlaqəsi kütləvi sosial intellektuallaşma fenomeni ilə müəyyən edilən tələbələrin istiqamətləndirilmiş intellektual sosiallaşmasıdır.

Sosiallaşma sosial təcrübənin mənimsənilməsi və aktiv təkrar istehsalı prosesidir ki, bu da praktik və nəzəri fəaliyyət bacarıqlarının mənimsənilməsi, münasibətlərin şəxsi aspektə çevrilməsi prosesini əhatə edir [4, s.93]. Deməli sosiallaşma, cəmiyyətin fərdin ictimai həyatda iştirakı üçün zəruri hesab etdiyi dəyərləri, münasibətləri və bacarıqları insanın mənimsəməsi prosesidir.

Xüsusi təşkil edilmiş pedaqoji məkanın keyfiyyəti onun meyarlarının nə qədər dəqiq işlənib hazırlanmasından və tətbiq olunmasından asılıdır. Bu konsepsiyanın əsas meyarları bunlardır: koqnitiv-informasiya; həvəsləndirici oriyentasiya; refleksiv fəaliyyət.

İdrak-informasiya meyarına tələbələrin əldə etdikləri biliklərin məcmusu (tələbələrin intellektual səriştəsinin göstəriciləri ilə xarakterizə olunur): sosial-humanitar sahə, onun məqsədləri, dəyərləri və tələbləri haqqında məlumat əldə etmək olar.

İntellektual bilik yaradıcı əxlaqi insan təcrübəsi prosesində yaranan nəzəri abstraksiyalarla birbaşa bağlıdır . Deməli, əqli bilik nəzəriyyəsi əxlaq nəzəriyyəsinə əsaslanır.[5]

Motivasiya-istiqamət meyarına tələbələrin şəxsi keyfiyyətləri məcmusu (tələbələrin intellektual tərbiyəsinin göstəriciləri ilə müəyyən edilir): əsaslı eqoizm; şəxsi məsuliyyət; intellektual interaktivlik; yaradıcı təşəbbüs; ünsiyyətcillik; qavrayış; peşəkar perspektiv.

Refleksiv-fəaliyyət meyarı tələbələrin bacarıq qrupları (tələbələrin intellektual həssaslığının göstəriciləri toplusu daxildir) vasitəsilə aşkarlanır: pedaqoji təsir aktlarına adekvat reaksiya vermək, pedaqoji qarşılıqlı əlaqənin mənalarını dərk etməkdən ibarətdir.

Beləliklə, intellektual mədəniyyətin yüksək inkişafı tələbələrin gələcəkdə peşəkar uğurları, bir mütəxəssisin, müxtəlif sahələr üzrə bakalavrın həyat keyfiyyətini təmin edən konkret nəticə əldə etməyə yönəlmiş elmi və praktik fəaliyyətə fəal cəlb edilməsini nəzərdə tutur.

## ƏDƏBİYYAT


1. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosiomədəni problemləri. Monoqrafiya. – Bakı: “Mütərcim”, 2018. –296 s.
2. Nəzərov M.H. Təhsil fəlsəfəsi. (Dərs vəsaiti) Bakı. ADPU-2021, 496 s.
3. Nazarov. M.H. Sociocultural problems of education in modern times. Monograph. Германия. 2022. 293 p.
4. Яковлева, А.С. Понятие социализации в гуманитарных отраслях знаний// Молодой ученый. - 2022.-№ 32 (427).-С. 93-95.-URL: https://moluch.ru/archive/427/94430/

### *İnternet resursları*

5. https://core.ac.uk/download/pdf/151223983.pdf
6. https://en.wikipedia.org › wiki › İntellektual_Kapit
7. https://cyberleninka.ru › article › intellektualnaya-kultura...



***Муслим Гатам оглы Назаров***
***Азербайджанский Государственный***
***Педагогический Университет***
***доцент, доктор философских наук***
***Электронная почта: muslimnazarov@mail.ru***


## Концептуальные основы развития интеллектуальной культуры студентов в процессе социально-гуманитарного образования


### *Резюме*

В статье представлена концепция развития интеллектуальной культуры студентов гуманитарного направления профессиональной вузовской подготовки. Концептуальная основа изучаемого феномена включает выяснение процесса развития интеллектуальной культуры учащихся как социально-педагогической системы. Социально-педагогическая система развития интеллектуальной культуры обучающихся гуманитарного профиля, компоненты социально-педагогической системы развития интеллектуальной культуры обучающихся в процессе социально-гуманитарного образования, социально-педагогическая система анализируется развитие интеллектуальной культуры студентов гуманитарного направления профессиональной вузовской подготовки



***Ключевые слова: гуманитарный, интеллектуальный, культура, социализация, моделирование, концепция, система, деятельность.***



***Muslim Hatam Nazarov***
***Azerbaijan State Pedagogical University***
***associate professor, doctor of philosophy***
***E-mail: muslimnazarov@mail.ru***


## Conceptual bases of the development of students' intellectual culture in the process of social-humanitarian education.


### *Summary*

The article presents the concept of development of intellectual culture of students of humanitarian direction of professional university training. The conceptual basis of the studied phenomenon includes the clarification of the process of development of students' intellectual culture as a socio-pedagogical system. The socio-pedagogical system for the development of the intellectual culture of students in the humanities, the components of the social-pedagogical system for the development of the intellectual culture of students in the process of social and humanitarian education, the social-pedagogical system for the development of the intellectual culture of students of the humanitarian direction of professional university training are analyzed.



***Key words: humanitarian, intellectual, culture, socialization, modeling, concept, system, activity.***

UOT:338:7: 338:008.

***Yaşar Əzimağa oğlu MƏMMƏDOV***
***i.e.d., dos. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi***
***İqtisadiyyat İnstitutu, "Monetar və fiskal tənzimləmə problemləri şöbəsinin müdiri***
***E-mail: y.mammadov59@gmail.com***
***mammadov60@mail.ru***
***ORCİD 0009-0009-3161-2492***

# MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN İNKİŞAFI KİMİ MUSİQİ SƏNAYESİNİN FORMALAŞMASI

***Xülasə***

Milli musiqi sahəsinin inkişafına ölkəmizdə diqqət artırılmaqdadır və bu sahədə dövlət qayğısı aydın şəkildə nəzərə çarpır. Son iyirmi ildə bu sahənin təşkili və inkişafı baxımından zəruri olan hüquqi bazanın formalaşdırılmasına, tənzimləmə və maliyyə sisteminin yaradılmasına diqqət artırılmışdır. Məqalədə milli musiqi xidmət bazarının inkişaf xüsusiyyətləri və meyilləri qiymətləndirilir. Mövcud sahədə qalmaqda olan problemlər müəyyən edilərək, onların həlli yolları irəli sürülür.

***Açar sözlər: milli musiqi, musiqi xidmət bazarı, konsert xidmətləri, tənzimləmə və maliyyələşmə sistemi, rəqəmsal texnologiyalar.***

***

Milli musiqi sənətinin inkişafında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu danılmazdır. Heydər Əliyev dərin köklərə malik milli musiqimizin və eyni zamanda müasir musiqi sənətinin gözəl bilicisi olmuşdur. Onun fəaliyyəti dövründə milli və professional musiqimizin dünyada tanınması, bəstəkarların, ifaçıların, musiqişünasların fəaliyyətinin yüksək qiymətləndirilməsi, yaradıcılıq evlərinin tikilməsi, bu sahədə maddi təminatın yaxşılaşdırılması, fəxri adlar, ordenlər və medallarla təltif olunması istiqamətlərdə ciddi addımlar atılmışdır [8]. Musiqi sənət sahəsi biznes inkişaf yoluna keçməklə artıq kreativ iqtisadiyyatın aparıcı bir sahəsinə çevrilir və özündə həm beynəlmiləşmə, həm də milli mahiyyət xüsusiyyətlərini ifadə etməsi ilə müşahidə olunur. Özün-özünü yarat prinsipinə əsaslanmaqla əksər ölkələrin musiqi sənət sahələri daxili dinləyici auditoriyasını əhatə etməklə kifayətlənməyərək, region və dünya bazarlarına da inteqrasiya meyilliyi ilə diqqəti cəlb edir [13]. Bu sahə həm də iqtisadiyaytın bir sahəsinə çevrilməklə musiqi sənayesini formalaşdırır. Müvafiq sahədə əvvəlki dövrlərdən fərqli olaraq idarəetmə, maliyyələşmə və tənzimləmə formaları da əsaslı şəkildə bazar prinsiplərinə uyğunlaşmağa başlayır. Müasir dövrdə musiqi məhsulunun ərsəyə gəlməsində müxtəlif amillər mühüm rol oyanyır (hüquqi baza, tənzimləmə mexanizmləri, ifaçılar, kollektivlər, menecerlər, dizynerlər, marketinq-reklam şirkətləri, bəstəkarlar, əsas və texnoloji vəsaitlər və s.) [17]. Müasir dövrdə musiqi sahəsi rəqəmsal texnologiyalar ilə daha sıx təmasda olmaqla, yeni bir inkişaf dövrünü yaşamaqdadır. Son iyirmi ildə bu amil tam aydınlığı ilə müaşhidə olunur, belə ki, musiqi sahəsinin hər bir növü yeni rəqəmsal texnologiyalar ilə təqdim edilir. Bu həm canlı musiqi – konsert tədbirlərində, həm də elektron daşıyıcılar vasitəsi ilə təqdimdə nəzərə çarpır. Mövcud inkişaf musiqi sahəsinin milli müstəvidən qlobal – kommersiya məkanına keçməsini tezləşdirir, dinləyici auditoriyasının genişlənməsinə təsir edir. Məhz belə proseslərin nəticəsidir ki, 2015-ci ildə rəqəmsal musiqi təqdimatları üzrə əldə edilən gəlirlərin həcmi canlı (fiziki) konsert və digər tədbirlərdən daxil olan gəlirləri üstələmişdir [14]. Musiqi səsyazma sənayesinin inkişafı xüsusilə diqqəti cəlb edir. Belə ki, maliyyə böhranı və dünyada baş verən siyasi-iqtisadi gərginliklərə baxmayaraq son on ildə qlobal səviyyədə bu sahdə orta artım templəri nəzərə çarpıb. Göstərmək mümkündür ki, 2016-cı ildə musiqi səsyazma sənayesinin gəlirləri 5,9 dəfə artmışdır ki, bu da həmin bazarda 1997-ci ildən sonra ən yüksək göstərici hesab edilir [15]. Həmin sənayenin qlobal səviyyədə böyüməsinin davamlı olmasında daha çox iri musiqi – konsert biznesinin (şirkətlərinin) və səsyazma studiyalarının xüsusi rolu vardır. Musiqi biznesinin belə inkişafı həm də konsert və digər

tədbirlərin, səsyazma studiyalarının rəqəmsal texnologiyalarının imkanlarından bilavasitə geniş istifadəsi ilə bağlıdır. Göstərə bilərik ki, qlobal musiqi biznes bazarının 2016-2017-ci illərdə gəirləri 50%-dən çox artmıdır. Həmin dövrdə dünyada 100 milyondan çox dinləyici ödənişli abunə istifadəçisi olmaqla, bu bazarın rəqəmsal imkanlarından istifadə etmişdir. Musiqi bazarından əldə edilən gəlirlərin 50%-i rəqəmsal texnologiyaların hesabına baş verir və burada internet və elektron səsyazma vasitələrinin xüsusi rolu vardır [14].

Rəqəmsal inkişaf iri həcmli informasiya tutumlu bazaların yaradılması ilə diqqəti çəkir və "Big Data" (iri informasiya bazası) kimi bazalar musiqi sahəsində də mühüm istiqamət kimi inkişaf etməkdədir. Tədqiqatlar göstərir ki, "Big Data" texnologiyalarının imkanlarından istifadə edən istifadəçilərin sayı hər il yüz milyonları keçməkdədir [12]. Rəqəmsal texnologiyalar vasitəsilə dünyanın hər hansı bir region, ölkə və bölgəsində musiqiçi və ya sənətçinin (musiqi qrupunun) məşhurluğu, verdiyi konsertin reytinqi kimi vacib amilləri qiymətləndirmək mümkün olur. Belə yanaşma musiqi biznesinin və sənətinin perspektiv istiqamətlərinin müəyyən edilməsində və maliyyələmə məsələlərində mühüm əhəmiyyət kəsb edir [11]. Rəqəmsal musiqi sahəsinin əhatə dairəsi ildən-ilə artır, sosial medianın istifadəsinin genişlənməsi ilə yüz milyonlarla insanın musiqi dünyası və zövqləri haqqında məlumatların bazası formalaşır. Müasir dövrdə insanların musiqi zövqlərinin çoxşaxəliliyi yaranmaqdadır və bu prosesdə rəqəmsal texnologiyaların təsiri daha yüksəkdir. Musiqi dünyasının rəqəmsallaşma mərhələsi artıq bu sahədəki biznesin inkişafında da özünü göstərməkdədir. Belə ki, müasir dünyada istər qlobal, istərsə də ayrı-ayrı-ölkələr səviyyə-sində musiqi binesindən əldə edilən gəlirlər rəqəmsal texnologiyaların tətbiqi nəticəsində dəyiş-məkdədir. Belə ki, 2016-cı illə müqayisədə 2017-ci ildə canlı musiqi formatından əldə olunan gəlirlərin həcmi 7,6% azalmışdır. Son dövrlərin təcrübəsi göstərir ki, canlı formatda keçirilən tədbirlər (gəlirlər, dinləyici auditoriyası və s.) dünya musiqi bazarının 34%-ni təşkil edir. Almani-ya və Yaponiya ölkələrində canlı musiqi formatında keçirilən tədbirlər hələ ki, öz müəyyən üstün-lüklərini saxlamaqdadır [14]. Musiqi biznes bazarının 2019-cı ildəki inkişafı daha çox qeyri-məh-dud formatda dinləyicilərin iştirakı və bu baxımdan əldə edilən gəlirlərin 22,9% artımı (11,4 ABŞ $) ilə yadda qalmışdır. Qeyd edək ki, COVİD-19 pandemiyası dövründən əvvəlki ildəki belə yük-səlişdə rəqəmsal texnologiyaların imkanlarından geniş istifadə xüsusilə əhəmiyyət kəsb etmişdir. Həmin dövrdə ilk dəfə olaraq, dinləyicilərin iştirakı ilə keçirilən musiqi tədbirlərindən əldə edilən glirlərin həcmi dünya səsyazma studiyalarının gəlirlərinin 50%-i, ümumi musiqi bazarı gəlirlərinin isə 56,1%-i səviyyəsində olmuşdur. Digər tərəfdən, ödənişli audio musiqi istiqamətində dinləyici-lərin sayının və bu sahədən əldə edilən gəlirlərin artması da (24,1%) diqqəti cəlb etmişdir [13]. Bununla yanaşı canlı formatdan fərqli olaraq, 2019-cı ildə dinləyicilərin rəqəmsal texnologiyalar vasitəsi ilə (internet, uzaqdan qoşulma və s.) musiqi yükləmə və qoşulma (dinləmə) səviyyəsi 15,3% azalmışdır. Bir sıra region və ölkələrin musiqi bazarında bu sahədə azalma meyli daha yüksək olmuşdur (5-8%). Belə ki, Latın Amerikası ölkələrində rəqəmsal musiqi gəlirlərində ən kəskin azalma baş verdiyi halda, canlı formatda təşkil edilən musiqi tədbirlərindən gəlirlərin həcmi artmışdır. Bu amil deməyə əsas veir ki, bəzi ölkə və regionlarda rəqəmsal musiqi tədbirlərindən canlı formatda keçirilən tədbirələrə meyillik yüksəlib [13]. Musiqi bazarında canlı formatda iştirakdan əldə edilən gəlirlərin həcmi 2019-cu ildə bütün dünya üzrə 5,3% azalmışdır. Qeyd edil-məlidir ki, belə formatda keçirilən konsert tədbirlərindən əldə olunan gəlirlərin həmin dövrdə dünya musiqi bazarındakı payı – 21,6% təşkil etmişdir. Lakin bəzi ölkələrdə canlı konsert tədbirlə-rindən əldə olunan gəlirlərdə müəyyən artım meyilləri müşahidə olunmuşdur. ABŞ musiqi baza-rında belə artım - 3,2% təşkil etdiyi halda, İspaniyada bu göstərici – 7,2% səviyyəsində olmuşdur. Maraqlı haldır ki, 2019-cu ildə vinil plastika satışından əldə olunan gəlirlərin həcmi dünyada 5,3% artmış, bu gəirlər canlı formatda keçirilən musiqi tədbirlərindən əldə olunan gəlirlərin 16%-inə bərabər olmuşdur [13]. Qeyd etmək lazımdır ki, dinləyicilər belə retro üsulla musiqi dinlənməsində bu tip plastinkalara üstünlük verməkdədir. Heç də təsadüfi deyil ki, Amerika Səsyazma Sənayesi Assosiasiyasının hesablamalarına (RIAA) görə, 2022-ci ildə vinil plastinkaların satışı ən yüksək rekord səviyyəsində olmuşdur. Belə plastikaların satışından əldə olunan vəsaitlər ilk dəfə CD disklərinin satışlarından əldə olunan gəlirləri üstələmişdir [10; 18 ].

Dünyada müəllif hüquqları qorunmaqla təşkil edilən musiqi tədbirlərindən və konsertlərdən

əldə edilən gəlirlərin həcmi 2019-cu ildə 3,6% azalması ilə nəzərə çarpmış, bu amil həm də 2018-ci ildə əvvəlcədən aparılan ödənişlər ilə də bağlı olmuşdur. 2017-ci illə müqayisədə 2019-cu ildə müəllif hüquqları qorunmaqla təşkil edilən konsert tədbirlərindən əldə olunan gəlirlərin həcmi – 8,7% artmışdır [13]. Musiqi bazarının yeni bir sahəsi kimi inkişaf edən sinxronizasiya üzrə gəlirlərin artması diqqəti cəlb edir. Belə ki, dünyada 2019-cu ildə reklamlar, filmlər, müxtəlif oyunlar və televiziya verilişləri zamanı calandırılan musiqidən əldə edilən gəlirlər 5,8% artmışdır. Bu göstərici 2017-ci illə müqayisədə 2018-ci ildə 11,6% artması ilə özünü göstərmişdir. Sinxronizasiya üzrə əldə edilən gəlirlərin ümumi musiqi bazarındakı payı 2,4% təşkil etmişdir [13]. COVİD-19 pandemiyasının fəsadlarının sürdüyü 2021-ci ildə dünya musiqi bazarındakı inkişaf səviyyəsi 18,5% təşkil etmişdir. Bu inkişaf daha çox səsyazma və digər şirkətlərin, studiyaların bazara çıxardığı ödənişli məhsullar və rəqəmsal yüklənən musiqilər nəticəsində mümkün olmuşdur. Qlobal musiqi bazarının gəlirləri həmin ildə 25,9 milyard ABŞ $ təşkil etmiş, ödənişli musiqi abunə xidmətlərindən daxil olan gəlirlər 21,9% artmaqla 12,3 milyard ABŞ $ olmuşdur. Rəqəmsal texnologiyaların tətbiqi nəticəsində 2021-ci ildə ödənişli musiqi abunə xidmətlərindən dünyada 523 milyon insan istifadə etmişdir. Qeyd etmək lazımdır ki, bu dövrdə musiqi sahəsində ümumi yayım (abunə ödəniş, radio, televiziya tədbirlərində, musiqi tədbirlərində reklam və s.) üzrə əldə olunan gəlirlər 24,3% artmaqla 16,9 milyard ABŞ $ təşkil etmişdir. Həmin dövrdə canlı formatda təşkil olunan musiqi tədbirlərindən əldə edilən gəlirlərin həcmi 16,1%, müəllif hüquqları qorunmaqla təşkil olunan konsertlərdən gəlirlər isə 4% artması ilə müşahidə edilmişdir [16].

Musiqi sənətinin inkişafı Azərbaycanda özünəməxsus tarixi ilə fərqlənir və bu tarixin kökü əvvəlki əsrlərə gedir. Həmin dövrlərdəki mənbələr göstərir ki, milli musiqi mədəniyyətimizin formalaşması müxtəlif mərhələlərdən keçmişdir. Sovet dövründə ölkəmizdə musiqi sahəsinin inkişafı üçün şərait yaradılmış, bu sahədə ali və orta təhsil müəssisələri fəaliyyətə başlamışdır. Məhz keçən əsrin ikinci yarasından başlayaraq dünya səviyyəsində tanınan milli sənət ifaçılarımız, musiqi kollektivlərimiz həmin dövrün tarixində öz silinməz izlərini qoymuşdur [7]. Müstəqillik əldə edildikdən sonra Azərbaycanda musiqi sahəsinin inkişafı baxımından diqqəti cəlb edən bir sıra islahatlar həyata keçirilmişdir. Belə ki, bu sahənin inkişafı üçün zəruri hüquqi baza formalaşdırılmış, musiqi xidmətlərinin təşkili və tənzimlənməsi, maliyyələşməsi ilə bağlı mexanizmlər yaradılmışdır. Təbii ki, ilkin addımda bu tədbirlər önəmli hesab edilsə də, lakin, bu xidmət sahəsinin təkmilləşdirilməsi və inkişafı baxımından islahatların dərinləşdirilməsi vacib hesab olunmaqdadır [1]. Müasir milli musiqi xidmətlərinin inkişafı həm də bu sahədə vacib olan bazarın yaranmasını, belə fəaliyyətin təşkilində yeni iqtisadi mexanizm və alətlərin tətbiqini zəruriləşdirir. Azərbaycanda musiqi sahəsinin inkişaf göstəricilərində diqqəti cəlb edən bir sıra dəyişikliklər baş vermişdir. Belə ki, 2000-ci illə müqayisədə 2021-ci ildə konsert müəssisələrinin sayı cüzi olsa da (3) artmışdır. Həmin dövrdə filarmoniyaların sayında da ciddi dəyişiklik baş verməmiş (1), musiqi kollektivlərinin sayı isə azalmışdır (1), lakin, konsert zallarının sayı artmaqla 5-ə çatmışdır. Qeyd etmək lazımdır ki, konsert zallarının artmasında yeni istifadəyə verilən və birbaşa kommersiya əsasında fəaliyyət göstərən müəssisələr xüsusi rol oynamışdır [3].

Ölkəmizdə son on ilin məlumatlarına nəzər saldıqda görünür ki, musiqi müəssisələrinin təşkili səviyyəsində dövlət və özəl müəssisələr arasında ciddi fərq diqqəti cəlb etmir. Saylarının hələ ki, çox olmamasına baxmayaraq, yeni istifadəyə verilən musiqi-konsert zalları bir sıra funksiyaları ilə də çıxış edir (konsert, kino, teatr və s. tədbirlər). Həmçinin, fəaliyyət göstərən konsert zallarının texnoloji təminatında da irəliləyişlər baş verməkdədir. Ümumilikdə, konsert müəssisələrinin strukturunda filarmoniyaların xüsusi çəkisi - 31% təşkil eydiyi halda, bu göstərici konsert zalları üzrə - 31%, müstəqil kollektivlər üzrə isə - 38% olmaqla nəzərə çarpır [3]. Azərbaycanda keçirilmiş konsertlərin sayı 2000-ci illə müqayisədə 2021-ci ildə azalması ilə müahidə olunub. Təbii ki, canlı formatda keçirilən və COVİD – 19 pandemiyasının əhatə etdiyi 2020-2021-ci illəri nəzərə almasaq, belə azalma meyli əvvəlki dövrlər üzrə müqayisədə də aydın nəzərə çarpır. Belə ki, 2000-ci illə müqayisədə 2019-cu ildə keçirilmiş konsertlərin sayı 19% azalmışdır. Qeyd edək ki, bu göstərici müxtəlif musiqi müəssisələrində eyni şəkildə olmamışdır. Müqayisə olunan dövr ərzində filarmoniyalarda keçirilən konsertlərin sayı 74% azalmaqla - 573, müstəqil kollektivlər tərəfindən keçirilən konsertlərin sayı 1,4 dəfə azalmaqla - 304 təşkil etmişdir. Lakin, həmin dövrdə konsert

zallarında keçirilən musiqi tədbirlərinin sayı əksinə olaraq 3,3 dəfə artmaqla 347-yə çatmışdır [3].

Azərbaycanda konsert müəssisələrinə gələnlərin sayında da fərqli göstəricilər müşahidə edilməkdədir. Belə ki, 2000-ci illə müqayisədə 2019-cu ildə bu musiqi müəssisələrinə gələnlərin sayı 1,5 dəfə artmaqla 495 min nəfər təşkil etmişdir və bu göstərici ölkə əhalisinin 20%-inə bərabərdir. Qeyd edək ki, musiqi tədbirlərinə gələnlərin sayı müəssisələr üzrə kifayət qədər fərqlənir. Belə ki, müqayisə edilən dövrdə filarmoniyalarda keçirilən konsertlərə gələnlərin sayı 1,4 dəfə azalmaqla – 114 min nəfər təşkil edilmişdir. Digər tərəfdən, həmin dövrdə konsert zallarına gələnlərin sayı 2,1 dəfə artmaqla – 297 min nəfər, müstəqil kollektivlərin keçirdiyi tədbirlərə gələnlərin sayı isə 2,3 dəfə artmaqla – 84 min nəfər olmuşdur [3; 4; 5]. Qeyd etmək vacibdir ki, konsert tədbirlərinə gələnlərin sayında baş verən artım daha çox yeni tikilən və bilavasitə özəl-kommersiya prinsipləri ilə fəaliyyət göstərən müəssisələrin hesabına baş vermişdir. Ölkədə müvafiq sahədə əldə olunan irəliləyişlərə və müəyyən imkanlara baxmayaraq, milli musiqi xidmət bazarının ciddi problemləri qalmaqdadır [2]. Belə ki, bu sahədə mövcud olan hüquqi-normativ bazanın əsaslı şəkildə təkmilləşdirilməsinə və onun müasir dövrün tələblərinə uyğunlaşdırılmasına ehtiyac artmaqdadır. Musiqi xidmət bazarının regional inkişaf sahəsində olan ciddi fəqliliklərin aradan qaldırılması üçün köklü islahatların aparılması da önəmli hesab olunmalıdır. Musiqi sahəsində mövcud olan tənzimləmə və maliyyələşmə sistemindəki boşluqların aradan qaldırılması və bu sahədə iqtisadi baxımdan səmərəli mexanizmlərin tətbiqi də məqsədəuyğun hesab olunur.

## ƏDƏBİYYAT


1. Azərbaycanda mədəniyyətimizin, milli musiqimizin inkişafına dövlət səviyyəsində yüksək qayğı göstərilir. 18.09.2020. https://www.yeniazerbaycan.com/Medeniyyet_e55328_az.html
2. Azərbaycanda konsert biletlərinin qiyməti niyə bahadır? https://nocomment.az/azerbaycanda-konsert-biletlerinin-qiymeti-niye-bahadir-sebebler/;
3. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/education/
4. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/budget_households/
5. Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/paid_services/
6. Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/paid_services/; https://www.cbar.az/page-41/macroeconomic-indicators
7. Musiqi sənətinin inkişaf tarixi. https://azerbaijan.az/related-information/256
8. Musiqidə əbədiləşən ömür. http://anl.az/down/meqale/medeniyyet/2010/iyul/127250.htm
9. Pop-ulduzlar Bakıdakı konsertlərdən gəlir götürə bilirmi? https://modern.az/medeniyyet/25419/pop-ulduzlar-bakidaki-konsertlerden-gelir-gture-bilirmi/site_url/lang/news/cat/69
10. Продажи виниловых пластинок впервые превысили продажи компакт-дисков. https://www.ixbt.com/news/2023/03/11/prodazhi-vinilovyh-plastinok-vpervye-prevysili-prodazhi-kompaktdiskov.html
11. Big data: размер имеет значение? Khabr. 20.03.2014. https://habrahabr.ru/company/odnoklassniki/blog/216401/].
12. Big Data: Does Size Really Matter? (11.10.2017)https://www.eckerson.com/articles/big-data-does-size-really-matter
13. Global music report: The industry in 2019. IFPI. https://www.ifpi.org/wp-content/uploads/2020/07/Global_Music_Report-the_Industry_in_2019-en.pdf
14. Global Music Report 2017. https://www.musikindustrie.de/fileadmin/bvmi/upload/06_Publikationen/GMR/GMR2017_press.pdf
15. International Federation of Phonographic Industry. https://lenta.ru/lib/14167670/

16. IFPI issues Global Music Report 2021. https://www.ifpi.org/ifpi-issues-annual-global-music-report-2021/
17. Rentfrow, Peter J., McDonald, Jennifer A., & Oldmeadow, Julian A., 2009, You Are What You Listen To: Young People's Stereotypes about Music Fans. Vol 12(3) 329–344. retrieve from http://www.sagepub.co.uk/journalsPermissions.nav
18. YEAR-END 2022 RIAA REVENUE STATISTICS. https://www.riaa.com/wp-content/uploads/2023/03/2022-Year-End-Music-Industry-Revenue-Report.pdf

***Яшар Азимага оглу Мамедов***
***доктор экономических наук, доцент***
***Министерства Науки и Образования Азербайджанской Республики Институт Экономики***
***заведющий отдела "Проблемы монетарного и фискального регулирования"***

**Становление музыкальной индустрии как развитие национальных духовных ценностей**

***Резюме***

Развитию национальной музыкальной сферы в нашей стране уделяется все большее внимание, и государственная забота в этой сфере отчетливо заметна. За последние двадцать лет усилилось внимание к формированию правовой базы, созданию нормативно-финансовой системы, которая необходима с точки зрения организации и развития данной сферы. В статье оцениваются особенности и тенденции развития национального рынка музыкальных услуг. Выявляются проблемы, которые остаются в текущей сфере, выдвигаются пути их решения.

***Ключевые слова: национальная музыка, рынок музыкальных услуг, концертные услуги, система регулирования и финансирования, цифровые технологии.***

***Yashar Azimaga Mammadov***
***doctor of economics, associate professor***
***Ministry of Science and Education of the Republic of Azerbaijan Institute of Economics***
***head of the department "Problems of Monetary and Fiscal Regulation"***

**The formation of the music industry as the development of national spiritual values**

***Summary***

Attention to the development of the national music sphere is increasing in our country, and state care in this area is clearly noticeable. Over the past twenty years, increased attention has been paid to the formation of a legal framework, the creation of a regulatory and financial system necessary from the point of view of the organization and development of this area. The article evaluates the development features and trends of the National Music service market. Problems that remain in the current field are identified and ways to solve them are put forward.

***Key words: national music, music service market, concert services, regulatory and financing system, digital technologies.***

UOT 334.45

***Tahir Şükür oğlu ŞÜKÜROV***
***i.e.n., dosent, Azərbaycan Kooperasiya Universiteti***
***shukurov.1951@mail.ru***
***hthttps://orcid.org/0009-0006-7398-3193Previewpublicrecord***

# MÜASİR ŞƏRAİTDƏ ALİ MƏKTƏB TƏHSİLİNDƏ İNNOVASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN ZƏRURİLİYİ

***Xülasə***

Məqalədə müasir şəraitdə ali məktəb təhsilində innovasiya texnologiyalarının tətbiqinin əhəmiyyəti, zəruriliyi və rolu nəzəri və praktiki cəhətdən əsaslandırılmış, təhsil prosesində onların tətbiqi metodları və alınan nəticələrin faydalılığı məsələlərinə baxılmışdır. Məqalədə həmçinin innovasiya texnologiyaları anlayışının mahiyyəti, onların əsas xarakterik cəhətləri, təsnifatı və ali təhsil müəssisələrinin tədris prosesində tətbiqi problemlərinin həllinin səmərəli yolları şərh edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti müxtəlif yeniliklərin, təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarının tətbiqi, təşkili və idarə edilməsində təhsilverənlərin və təhsilalanların fəaliyyətinin yeni biliklər əsasında təşkilindən ibarətdir.

Məqalədə ali məktəblərin tədris prosesində innovasiya texnologiyalarının tətbiqinin rolunun yüksəldilməsi və onların təhsil sistemində dayanıqlı inkişafının təmin edilməsinin zəruri şərtləri müəyyən edilmiş və ali təhsildə bu texnologiyaların tətbiqini idarə etmək üçün innovasiya bankının yaradılması, innovasiya proseslərinin müəyyən edilməsi, formalaşması və inkişafı üçün zəruri şərtlər əsasında tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: innovasiya; innovasiya texnologiyaları; ali təhsil; innovasiya prosesləri.***

***

Qlobal informasiya-kommunikasiya texnologiyaları dövründə insan kapitalının inkişaf etdirilməsi ölkəmizdə ali təhsil sistemi qarşısında mühüm vəzifələr qoyur. Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı və güclü mütəxəssis kadr potensialının formalaşdırılması baxımından müasir ali təhsil müəssisələrinin başlıca vəzifəsi səriştəli, çevik və rəqabətqabiliyyətli mütəxəssis hazırlamaqdan ibarətdir. Odur ki, rəqabət şəraitində bu vəzifənin yerinə yetirilməsinin mühüm şərti ali məktəblərdə tədris prosesində təlim və təhsilin yeni formaları və innovasiya texnologiyalarının tətbiqindən xeyli dərəcədə asılıdır. Ali təhsil sisteminin tədris prosesində yeniləşmiş modern texnologiyalarının tətbiqi kreativ məkanı genişləndirməyə, təhsilalanların tədris fəaliyyətinin səmərəli növlərinə və öz biliklərinin yüksəldilməsi metodlarına həvəsləndirilməsinə imkan verir.

2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi çərçivəsində aparılan elmi araşdırmalar göstərir ki, Ümummilli lider H.Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə elm və təhsilin inkişafına daim diqqət yetirilmiş, onun müasir texnologiyalarla təminatı və tətbiqi istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir.

Elmi-pedaqoji araşdırmaların nəticəsi göstərir ki, ali təhsildə innovasiya texnologiyalarının tətbiqi tədris prosesini daha optimal elmi əsaslarla tənzimləməyə və onun zəruri istiqamətə yönəlməsinə şərait yaradır. Nəzərə almaq lazımdır ki, ali məktəb təhsilində innovasiya texnologiyaları bilik və vərdişlərin daha səmərəli yollarla öyrədilməsi imkanlarını həyata keçirən, təhsilalan və təhsilverənlər arasında qarşılıqlı fəaliyyətin yeni metodları kimi anlaşılır.

Azərbaycan alimlərinin əsərlərində - *"İnnovasiya" (ingiliscə "innovation"- sözündən götürülüb, mənası "yenilik" deməkdir) dedikdə, geniş mənada təlim-tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedoqoji sistemdə həyata keçirilən yenilik başa düşülür* [4, s. 232]. Bununla yanaşı, ali təhsildə innovasiya texnologiyaları müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, bilik iqtisadiyyatında təhsilalan və təhsilverənlərin birgə fəaliyyətini nəzərdə tutur. Rusiyalı pedaqoqların fikrincə, "*innovasiyalı proses dedikdə, yeniliklərin yaradılması, istifadəsi və yayılması üzrə kompleks fəaliyyət başa düşülür*" [5]. Fikrimizcə, bu o deməkdir ki, innovasiya təhsilalanların şəxsiyyətinə və onların qabiliyyətinin

inkişafına yönəlmiş əmək fəaliyyətində istifadə edilən yeni metodları, forma, vasitə və texnologiyanı müəyyən edir. Odur ki, müasir rəqəmsal bilik iqtisadiyyatının inkişafı şəraitində universitet təhsilində keyfiyyətin yaxşılaşdırılması tədris prosesinin modernləşməsi, o cümlədən innovasiyalı kompyuter və multimedia texnologiyalarının tətbiqi olmadan mümkün deyil.

Aparılmış tədqiqatlar göstərir ki, müasir dünyada bir neçə meyara görə təsnifləşdirilə bilən informasiya çox dəyərli texnoloji məhsullardan biri hesab edilir. İnsanın informasiyanın qavranılması növlərinin (görmə, eşitmə, qoxu hissi, toxunma, dadmaq) bölgüsü prinsipi həmin meyarlardan biridir.

Pedaqoji sahənin aparıcı alimlərinin tədris prosesində innovativ metodların tətbiqinin, tələbələrin dünyagörüşünün və intellektual səviyyəsinin inkişafına müsbət təsir müddəaları ilə razılaşaraq demək olar ki, ali təhsildə innovasiya texnologiyalarının tətbiqinin əsas məqsədi daim dəyişən və yeniləşən dünyada insanları – məzunları əmək bazarına hazırlamaqdır. Belə təhsilin, təlimin və ya öyrənmənin mahiyyəti bütünlükdə burda ali təhsil müəssisələrində tədris prosesini insanın potensial imkanlarına və onların yerinə yetirilməsinə yönəltməkdən ibarətdir. Beləliklə, aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, ümumiyyətlə, təhsildə innovasiya ilk növbədə öz imkanlarının tətbiqinin hər hansı sahəsində müvəffəqiyyətə uğrayan şəxsiyyətin yaradılmasına yönəldilməlidir. Rusiyalı pedaqoq-alimlərin fikrincə, *"innovasiyalı metod – yaradıcılıq potensialı və müstəqil öyrənmənin aktuallaşmasını nəzərdə tutan yaradıcılıq qabiliyyəti və müstəqilliyin (problemli öyrənmə - təhsil metodu, elektron metodiki vəsait, elektron təhsil-öyrənmə proqramı, viktorina) inkişafına yönəlmiş, təhsildə elm və informasiya texnologiyalarının müasir nailiyyətlərindən istifadəyə əsaslanmış metoddur"* [5].

Mütəxəssis sahə alimlərinin təhsildə innovasiya texnologiyalarının tətbiqi ilə bağlı əsaslandırmaları bizə onu deməyə əsas verir ki, həqiqətən təhsildə , xüsusilə ali təhsildə innovasiya texnologiyaları - kompyuter koqnitiv informasiyaların verilməsi imkanlarını xeyli genişləndirir və tələbələrdə bilik almaq hissinin artırılmasına imkan verir.

Nəzərə almaq lazımdır ki, rəqəmsal - "ağıllı bilik iqtisadiyyatı" şəraitində ali təhsilin səmərəliliyi yalnız tədris edilən fənlər üzrə bilik, bacarıq və vərdiş əldə etməyə deyil, həm də müasir cəmiyyətə adaptasiya üçün zəruri səriştələrin (əməliyyat, koqnitiv, kommunikativ və özünütəhsil) formalaşmasına kömək edən texnologiyalara keçidlə əlaqədardır. Beləliklə, aparılmış tədqiqatların nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, hər hansı tədris fənninin öyrənilməsində "biliksiz tədris prosesində daha mürəkkəb materialların mənimsənilməsi mümkün deyil" prinsipi mövcuddur. Ümumiyyətlə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək ali təhsil müəssisələrində tələbələrin innovasiyalı metodlarla öyrədilməsinin əsasında peşə fəaliyyətinin anlaşılmasına yaradıcı innovasiyalı yanaşmanı formalaşdırmağa, müstəqil düşüncəni inkişaf etdirməyə və optimal qərar qəbul etmək bacarığına kömək edən aktiv metodlar dayanır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əsas hədəfləri *"ən qabaqcıl elmi nailiyyətlərdən və innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsini" [1] və "təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılmasını"* [2] nəzərdə tutur. Bütün bunlar əsas verir ki, təhsildə innovativ metodların tətbiqinin genişlənməsi, sürətlənməsi və səmərəliliyi üçün ali təhsil müəssisələri ilk növbədə modern kompyuter texnologiyaları bazasına və şəbəkəyə, təhsilverənlər və təhsilalanlar isə müvafiq bilik, bacarıq və vərdişlərə malik olmalıdırlar.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2021-ci ildə 2017-ci il ilə müqayisədə Azərbaycan təhsil müəssisələrində mövcud olan kompyuterlərin sayı təxminən 3 faiz artmış və yalnız 2021-ci ildə ölkə müəssisələrindəki bütün kompyuter texnologiyalarının 21 faizi bu sahənin payına düşmüşdür. Müqaysə edilən dövrdə İKT vasitələrindən istifadə edən təhsil müəssisələrinin sayı 5,1 faiz yüksələrək 944-dən 992 vahidə çatmışdır [3, s.42, 43]. Bütün bunlar onu deməyə əsas verir ki,rəqəmsal inkişaf şəraitində innovasiya texnologiyaları və multimediya vasitələrinin tətbiqi kompyuter texnologiyası ilə sıx əlaqədardır. Ali təhsil müəssisələrində çalışan professor-müəllim heyə-

tinin iş yeri müasir kompyuter və çoxfunksiyalı, kompleksla (skaner surərçıxarma, printer) təmin olunmalıdır. Multimedianın tətbiqi ilə normal dərs məşğələsi aparmaq üçün proyektor və ya ikinci monitor lazımdır. Hesab edirik ki, sonuncunun əvəzinə proyektorla müqayisədə daha yüksək səmərəyə malik laye kristal televizordan istifadə etmək olar. Qarşıya qoyulmuş məqsəddən asılı olaraq təhsilverənlər, həmçinin internetə çıxışı mövcud olan rəqəmsal kamera tələb edə bilərlər. Bu halda müəllimin biliyi, səriştə və bacarığına, həmçinin kompyuter texnikası ilə işləmək vərdişlərinin inkişaf etdirilməsinə tələblər də artırılmalıdır. Ali təhsildə müasir innovasiya texnologiyalarının tətbiqi şəraitində tələbələr qarşısında aldıqları ixtisasa və öyrəndikləri fənlərə aid informasiyanın elektron şəbəkədə axtarışı və onlarla işləmək üzrə vəzifələr qoyulur, aidiyyatı saytlar tövsiyə edilir. Nəzərə almaq lazımdır ki, tələbələrin ixtisas kafedralarının tələbə elmi cəmiyyətinin konfranslarında təqdimat və məruzələr etməyə hazırlanması onların təhsil prosesinə aktiv cəlb edilməsi yollarından biridir. Multimedia təqdimatlarının texnoloji imkanları praktiki olaraq hər hansı vəzifələrin öhdəsindən gəlməyə imkan verir. Məhz bu ali təhsil müəssisələri üçün aktual olan yuxarıda qeyd etdiklərimiz universitet innovasiya texnologiyalarının hazırlanması və tətbiqi yolu ilə təhsil xidmətinin keyfiyyətinin hərtərəfli yüksəldilməsini zəruri edir. Bu onu deməyə əsas verir ki, təhsil xidməti bazarının qloballaşmasının müasir inkişafı şəraitində bütün dünyada ali təhsilin keyfiyyətinin yüksəldilməsi probleminə böyük diqqət yetirilir. İndi insan həyatının bütün sferaları innovasiya ilə əlaqədar sözlərlə zəngindir. Onların tətbiqi təhsil xidməti sferasından da yan keçməmişdir. Belə ki, Universitet təhsilində innovasiya ilk növbədə təhsil prosesinin yenidən qurulması və canlanmasına imkan verən dəyişiklik və yeniliklərin tətbiqini zəruri edir.

Qeyd etmək lazımdır ki, 2021-ci ildə təhsil müəssisələrində internetə çıxışı olan kompyuterlərin sayı ölkə üzrə mövcud kompyuterlərin 22,8 faizini təşkil etmişdir. Təhsil müəssisələrinin 70,8 faizi Lokal (LAN), 21,1 faizi daxili (intranet) və 8,1 faizi xarici şəbəkə (ekstranet) istifadəçiləridir [3 s.45].

Azərbaycanda təhsilin inkişafının müasir strategiyası təlimin qeyri-ənənəvi üsullarından istifadənin artırılmasına yönəldilmişdir. Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, innovasiya texnologiyalarının tətbiqi bilik əldə edilməsi prosesini sadələşdirir və sürətləndirir.

Qeyd etmək lazımdlır ki, ali təhsil müəssisələrində, xüsusilə pedaqoji fəaliyyətdə yeni təhsil proqramlarının (standartların) tətbiqi tədris prosesinin özündə, o cümlədən tədris metodikasında dəyişikliklər edilməsini nəzərdə tutur. Bu səbəbdən müasir pedaqoji heyət təlimin-öyrətmənin passiv formadan aktiv formasına keçməlidir. Bu o deməkdir ki, təhsil verənlər təhsil prosesində yeni texnologiya və yaradıcılıq mühitindən istifadəyə imkan verən təlimin-öyrətmənin yeni strategiyasını seçməlidirlər.

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı və modernləşməsi şəraitində universitet təhsilində tədris və öyrətmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Bu metodların müntəzəm şəkildə tətbiqi və yenilənməsi öz növbəsində ali təhsildə tədrisin keyfiyyət təminatı sisteminin zəruri hissəsinə çevrilməlidir.

Dünyada, o cümlədən ölkəmizdə müasir texnologiyaların inkişafının hal-hazırkı səviyyəsində investisiya və innovasiya siyasətinin həyata keçirilməsinin formalaşması və təminatında yaxın gələcəkdə iştirak edəcək ali təhsil sistemində təhsilalanların innovasiyalı metodlarla hazırlanması xüsusi yer tutur. Gələcək bakalavr-magistr mütəxəssislərin təhsili və tərbiyəsi hal-hazırda yüksək innovasiya sıxlığı ilə xarakterizə olunan təhsil məkanında baş verir.

Tədris prosesində tətbiq edilən innovasiyalı təhsil texnologiyalarının əsasını tələbələrin fərdi şəxsiyyət xüsusiyyətləri nəzərə alınmaqla gələcək mütəxəssislərin peşə maraqlarının sosial sifarişi təşkil etməlidir. Təhsilverənlərin təlim prosesində istifadə etdiyi innovasiya metodları həm tələbələrin, həm də müəllimlərin yaradıcılıq bacarığının yeni yanaşmaya nail olmağa kömək edəcəkdir.

Təhsil sahəsinin mütəxəssis alimləri təcrübədə eksperiment olaraq müəyyən etmişlər ki, multimediadan istifadə edərkən dərk edilmiş informasiyanın kəmiyyəti və keyfiyyəti yüksəlir və onun tam qavranması üçün zəruri olan vaxt ixtisar edilir.

Beləliklə, fikrimizcə, ali məktəblərdə innovativ texnologiyaların geniş istifadə edilməsi təlim–təhsil prosesini tamamlamağa və modernləşdirməyə imkan verəcəkdir. Bütün bunlar ali məktəbdə

təhsilin və tədris prosesinin nəticələrinin yaxşılaşdırılmasına, onun keyfiyyətcə yeni səviyyəyə qalxmasına və tələbələrin tədris fəaliyyətinin motivasiyasına müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"// Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. [Elektron resurs]: president.az/az/artkcLes/new/9779
2. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"//Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 noyabr tarixli 711nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. -Bakı: Qanun,-2018,-4 s.
3. Azərbaycanda İnformasiya Cəmiyyəti-2022./Rəsmi nəşr/(Statisitk məcmuə).Bakı:-2022. [Elektron resurs]: https://www/org/webmar/& stst.qov.az/menu 6/statisticaL-year books/I socielty-2022 zip/
4. İbrahimov, F.N, Pedaqogika. F.H.İbrahimov, R.L.Hüseynzadə /2 cilddə, 1I cild- Bakı:-Mütərcim-2012,- 693 s.
5. Бисерова, А.Г. Опыт и перспективы внедрения инновационных методов в учебной процессе./А.Г.Бисерова, Л.М.Байболатова,Е.М.Рослякова [və.b]. //Современные наукоемкие технологии, к:-2015,- №10,-s.75-77: [Електронный ресурс].-URL:https://top-technoloqies. ru/ru/article/view?id=35162
6. Зорик, В.В., Каринуду Г.К. Использование инновационной технологии в образовательном процессе. // Международный журнал прикладных и фундаментальных исследований -2016, № 4-1. с.157-158: [Електронный ресурс]. URL:https://applied-reslarch ru/ru/ article /new/



***Тахир Шукюр оглы Шукюров***
***к.э.н, доц. Азербайджанский Университет Кооперации***


## В современных условиях необходимость приминения инновационной технологии в высших учебных заведениях


***Резюме***

В статье теоретически и практически обоснованы важность, необходимость и роль применения инновационных технологий в высших учебных учреждениях в современных условиях, рассмотрены способы их применения в образовательном процессе и полезность полученных результатов. Также в статье описывается сущность понятия инновационных технологий, их основные характеристики, организация и эффективные пути решения задач применения в образовательном процессе высших учебных заведений.

Прикладное значение исследования заключается в организации деятельности педагогов и студентов по применению, организации и управлению различными нововведениями в целях, содержании, методах и формах обучения на основе новых видений.

В статье даны рекомендации по повышению роли применения инновационных технологий в образовательном процессе высшей школы и обеспечению их устойчивого развития в системе образования. Кроме того, в статье также выдвигаются рекомендации, основанные на необходимых условиях создания инновационного банка для управления применением инновационных технологий в высшей школе, выявлением, формированием и развитием инновационных процессов.



***Ключевые слова: инновации; инновационные технологии; высшее образование; инновационные процессы.***

*Tahir Shukur Shukurov*
*Candidate of Economics, Associate Professor of*
*Azerbaijan Cooperation University*

## In modern conditions the need to use innovative technology in higher educational institutions

***Summary***

The article theoretically and practically substantiates the importance, necessity and role of the application of innovative technologies in higher educational institutions in modern conditions, considers the ways of their application in the educational process and the usefulness of the results obtained. The article also describes the essence of the concept of innovative technologies, their main characteristics, organization and effective ways of solving the problems of application in the educational process of higher educational institutions.

The applied value of the study lies in the organization of the activities of teachers and students in the application, organization and management of various innovations in the purposes, content, methods and forms of education based on new visions.

The article gives recommendations on increasing the role of innovative technologies in the educational process of higher education and ensuring their sustainable development in the education system. In addition, the article also puts forward recommendations based on the necessary conditions for creating an innovation bank to manage the use of innovative technologies in higher education, the identification, formation and development of innovative processes.

***Key words: innovations; innovative technologies; higher education; innovative processes.***

**UOT 001.37**

***Sara İbrahim qızı SƏFƏROVA***
***f-r.e.n., dos., Azərbaycan Kooperasiya Universiteti***
***e-mail: ssara65@mail.ru***

## HEYDƏR ƏLİYEV İRSİ, ELMİN VƏ TƏHSİLİN İNKİŞAFI

***Xülasə***

Məqalədə Ulu öndər Heydər Əliyevin müasir cəmiyyətin inkişafının əsasını təşkil edən elm və təhsil haqqında fikirləri əks edilib. Ulu öndər Heydər Əliyevin elm və təhsilə diqqəti, dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşması qeyd edilib. O, dövlətimizin gələcək inkişafının təminində, intellektual bazanın yaradılmasında təhsilin inkişafına önəmli yerin verilməsini əsas məqsəd kimi qiymətləndirirdi.

***Açar sözlər: Azərbaycan, Heydər Əliyev, təhsil, dəyər, multikulturalizm, inteqrasiya.***

***

*"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".*

***Ümummilli lider Heydər Əliyev***

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafına misilsiz xidmətləri olmuşdur.

Ulu öndər Azərbaycanda səhiyyə, neft sənayesi, kənd təsərrüfatı və digər sahələr kimi təhsilə də xüsusi qayğı göstərmiş, onun inkişafına, səmərəli fəaliyyət göstərməsinə böyük diqqət yetirmişdir. Çünki Ümummilli lider Heydər Əliyev xalqın tərəqqisində və uğurlar qazanmasında təhsilin rolunu, əhəmiyyətini nəzərə alaraq onu yüksək qiymətləndirirdi.

Ulu öndər Heydər Əliyev ölkənin inkişafında təhsilin xüsusi rolunu nəzərə almış, elm-təhsil problemlərinə həmişə diqqətlə yanaşmışdır. Ümummilli lider bu haqda deyirdi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" [1].

Ulu öndər Heydər Əliyev "Təhsil millətin gələcəyidir" deyirdi [*2*]. Elm və təhsil sahəsinə xüsusi diqqət göstərirdi. Onun qayğısı və rəhbərliyilə elm və təhsil sahələrinin yenidən, daha da inkişaf etməsi üçün mühüm addımlar atılırdı. Azərbaycanda təhsil sahəsində islahatların aparılmasında, təhsil almaq üçün hər bir vətəndaşa eyni hüququn verilməsində Ulu öndərin böyük xidmətləri olmuşdu.

Ümummilli lider Heydər Əliyev " Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun" [2] söyləmişdi.

"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" [1] deməsi Ümummilli liderin xalqının gələcəyini, onun formalaşmasını hər zaman düşünən görkəmli bir şəxsiyyət olduğunu göstərir.

Ulu öndər elmin, təhsilin hər zaman əsas, vacib bir sahə olduğunu qeyd edirdi. "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" [2] demişdir. Buna görə də Ulu öndər gənclərin başqa ölkələrdə ali təhsil almasına geniş imkanlar yaradırdı.

Ulu öndərin ölkəyə rəhbərlik etdiyi müddətdə Azərbaycanda təhsil sistemi daha da təkmilləşdi. Təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün müxtəlif tədbirlər işlənib hazırlanırdı. Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilirdi.

Müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, Azərbaycan Respublikasının beynəlxalq aləmə, qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində və ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında Heydər Əliyevin rolu inkaredilməzdir.

Ümummilli lider Heydər Əliyev elmin, təhsilin, səhiyyənin, iqtisadiyyatın və digər sahələrdəki problemlərin həllinə həmişə kompleks yanaşırdı. Bu cür yanaşma da ona rəhbərlik etdiyi illərdə uğurlara nail olmağa təkan verdi. İstər sosial-iqtisadi və istərsə də siyasi istiqamətdəki nailiyyətlər bu yanaşmanın nəticəsidir [3, s. 597].

Uğurlarla həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilirdi. Həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılırdı.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan xalqının tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hər bir müstəvidə bərpa etməsi olmuşdur.

Ümummilli lider Heydər Əliyev Respublikamızda təhsilin bütün pillələrində aparılan islahatların daim yeniləşdirilməsi uğrunda həmişə çalışmışdır. O, Azərbaycanda təhsilin beynəlxalq əlaqələrini genişləndirərək dünya təhsil sisteminə inteqrasiyasını intensivləşdirmişdir. Azərbaycan Respublikasında dünyəvi təhsilə inteqrasiya yolunun seçilməsi, ölkəmizdə elm, təhsil problemlərinin ümumi inkişafı dövlət siyasəti ilə vəhdət təşkil edir. Dünyanın sivil dövlətlərilə diplomatik əlaqələrin yaradılmasında sosial-iqtisadi, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulmasının zərurət olduğu özünü əks etdirdi. Strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatların aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmışdır. Bu sahəyə olan diqqət və qayğını hər zaman önə çəkirdi.

Heydər Əliyev təhsilimizin dünya standartlarına uyğun inkişafı üçün tarixi əhəmiyyətli fərmanlar, sərəncamlar, islahatlar, dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da elmdə, təhsildə onlarla problemlərin həllinə yönəlmişdir.

Ümummilli liderin fəaliyyətində təhsilin inkişafı hər zaman prioritet sahə olmuşdur. Onun uzaqgörənliklə söylədiyi konseptual fikirləri, tarixi tövsiyələri bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi əsas istiqamətlərdən biri olub. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”,-deyən Ümummilli lider təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşırdı. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib.

Ulu öndər Heydər Əliyevin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu.

Ümummilli lider Heydər Əliyev elm, təhsil sahələrinə göstərdiyi qayğı ilə bərabər həmişə müəllimə və müəllim əməyinə də yüksək qiymət verirdi. “Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram” - deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşardı.

Hazırda, XXI əsrdə dünyada elm və təhsilin inkişafı naminə kompleks tədbirlər həyata keçirilir. Ümumiyyətlə, bu da hər bir dövlətin, xalqın sürətli inkişafına, intellektual gələcəyinə xidmət edir demək olar. Yeni informasiyanın, iqtisadiyyatın, intellektin formalaşdığı bir mühitdə, cəmiyyətin inkişafında təhsilin və elmin rolu əvəzsizdir. Ulu öndər Heydər Əliyev “…təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq…” [2] demişdir.

Heydər Əliyev tərəfindən dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində təhsil və elmin müstəsna yer tutması haqqında konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyev milli müstəqillik, milli dövlət quruculuğu strategiyası dövlət müstəqilliyinin, cəmiyyətin demokratik inkişaf yolunun yalnız təhsildən keçdiyinə əsaslanırdı.

Təhsil, elm Heydər Əliyev siyasətinin aparıcı hissəsi olmuşdur. Ümummilli lider “Təhsil dövlətin təməl daşı, millətin gələcəyidir” deyirdi [4, s. 588]. Bu da onun ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü olub, xalqını sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq ifadəsidir.

Ümummilli lider gənclərimizin milli ruhda tərbiyə olunmasına, milli-mənəvi dəyərlərimiz əsasında formalaşmasına diqqət ayırırdı. Onun müəyyənləşdirdiyi strateji inkişaf xətti elmin və təhsilin səviyyəsinin ictimai tərəqqinin əsas şərti kimi qəbul edilir.

Heydər Əliyevin Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi cəmiyyətin formalaşmasındakı xidmətlərindəndir.

Ulu öndər qeyd edirdi ki: “Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu, asan məsələ deyil. Bu, bir çox amillərlə bağlıdır, ondan asılıdır... Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar...” [2].

Ulu öndər Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycan xalqının milli ruhunun hədsiz yüksəlməsidir. Milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzuları və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndərimizin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır.

Heydər Əliyev "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır" deyirdi [2].

Deməli, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti real şəkildə müsbət təzahürünü göstərmişdir. Ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir.

Heydər Əliyev öz çıxışlarında dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" [1].

Təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni əhatə etsə də onların birini digərindən ayırmaq mümkün deyildir. Bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmalıdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə öz yüksək intellekti, zəngin təcrübəsilə, milli mədəniyyətimiz haqqında hərtərəfli məlumatlı olduğu üçün milli-tarixi siyasətimizi işləyib hazırlamışdır. Bu baxımdan Azərbaycanda ötən illər iqtisadiyyatın, elmin, təhsilin, səhiyyənin və digər sahələrin sürətli inkişafı ilə yadda qalmışdır.

Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik tariximizdə, xalqının xoşbəxt gələcəyi, qüdrətli Azərbaycan dövlətinin yaradılması və inkişafı, xalq qarşısındakı xidmətləri misilsizdir.

Bu gün Azərbaycanda təhsil sahəsi ilə yanaşı, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələr də çox sürətlə inkişaf edir. İnkişafına görə Azərbaycanın dünyanın öndə gedən ölkələrindən biri olmasına daima çalışılır. Bütün bu nailiyyətlərin əsasını isə ümummilli lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan dahi şəxsiyyət Heydər Əliyevin uğurlu siyasəti təşkil edir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyevin müdrik kəlamları: Heydər Əliyev təhsil haqqında.
2. Ulu öndər Heydər Əliyev təhsil haqqında. Azərbaycan müəllimi.- 2010.- 10 dekabr.- S.4.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.



***Сара Ибрагим кызы Сафарова***
***Азербайджанский Университет Кооперации***
***к.ф.-м.н., доц.***
***e-mail: ssara65@mail.ru***


## Гейдар Алиев наследие, развитие науки и образования


***Резюме***

В статье отражены представления великого лидера Гейдара Алиева о науке и образовании, которые являются основой развития современного общества. Было отмечено внимание великого лидера Гейдара Алиева к науке и образованию, его подход к образовательной политике как одному из основных принципов государственности в стратегии государственного строительства. Главной целью в обеспечении будущего развития нашего государства, создании интеллектуальной базы он считал отведение важного места развитию образования.



***Ключевые слова: Азербайджан, Гейдар Алиев, образование, ценность, мультикультурализм, интеграция.***

*Sara Ibragim Safarova*
*Azebaijan Cooperation University*
*of the department Associate Professor*
*e-mail: ssara65@mail.ru*

**Heydar Aliyev heritage, development of science and education**

***Summary***

The article reflects the ideas of the great leader Heydar Aliyev about science and education, which are the basis of the development of modern society. Great leader Heydar Aliyev's attention to science and education, his approach to educational policy as one of the main principles of statehood in the strategy of state construction was noted. The main goal in ensuring the future development of our state, creating an intellectual base, he considered the allocation of an important place for the development of education.

***Key words: Azerbaijan, Heydar Aliyev, education, value, multiculturalism, integration.***

**UOT 658.3**

*Yasəmən Əli qızı ƏLİYEVA*
*i.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti*
*email: eliyevayasemen3@gmail.com*

## KADR EHTİYATLARI VƏ ONLARIN FORMALAŞMASI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Xülasə***

Son illərdə müəssisələrin idarə edilməsinin əsas subyektləri olan idarəetmə kadrlarının hazırlığı sisteminin innovativ inkişaf etdirilməsi dövrün əsas mövzularından birinə çevrilmişdir. Xarici mühitin dinamikasının artması, elmi və texnoloji tərəqqinin davamlı inkişafı , təsərrüfat subyektlərinin daha çox mürəkkəb sosial-iqtisadi sistemlərə çevrilməsi öz növbəsində iqtisadiyyatın mürəkkəbliyinə uyğun olaraq müəssisələrdə yeni idarəçilik kadrları tələb edir. Bu baxımdan, məqalənin əsas məqsədi işçilərin inkişafı sisteminin təkmilləşdirilməsi və kadr hazırlığı səviyyəsinin artırılması, müasir qurumların innovativ imkanlarının və müasir metodlarının araşdırılmasının aktuallığını artırmaqdır.

***Açar sözlər: kadr ehtiyatları, idarəetmə kadrları, insan resursları, kadr hazırlığı, kadrlarla iş sistemi, kadr ehtiyatlarının formalaşması.***

***

Kadr ehtiyatları sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin malik olduğu fiziki və intellektual imkanların məcmusunu təşkil edir. Onun tərkibində ən mühüm və aparıcı yeri fiziki və zehni cəhətdən inkişaf etmiş əmək qabiliyyətli yaşında olan əhali tutur. Bu isə o deməkdir ki, konkret sosial-iqtisadi tarixi inkişaf mərhələsində, hansı ölkədə ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən əhalinin fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox məhsuldar insan resurslarına malikdir. [1. s.238]

Kadr ehtiyatları dedikdə yalnız məşğul olanlar deyil, olmayanlar da nəzərdə tutulur. Həm də əmək ehtiyatları real deyil, potensial işçi qüvvəsi kimi təzahür edir. Bir sözlə, əmək ehtiyatları həm fəaliyyət göstərən və həm də potensial işçi qüvvəsini özündə inteqrasiya etdirir. Müasir cəmiyyətdə kadr idarəçiliyində əsas istiqamətlərdən biri kadr ehtiyatlarının hazırlanması və təşkil edilməsidir. Bu istiqamət təşkilatda çox vacibdir. Kadr ehtiyatları - hazırlıq seçimindən (qiymətləndirməsindən) keçmiş və yeni iş yerində birbaşa vəzifələri vaxtında yerinə yetirmək üçün lazım olan müəyyən sayda işçinin formalaşdırılmasıdır.

Kadr ehtiyatı iki növə bölünür - xarici və daxili. Adətən bu, təşkilatda hər hansı bir vəzifəyə, daha çox orta və ya yüksək vəzifələrə əvvəlcədən seçilmiş insanlar qrupudur. Mütəxəssislər xüsu-

silə diqqətlə qiymətləndirilir, onlar rəsmi vəzifələrin icrası üçün zəruri olan şəxsi, peşəkar və işgüzar keyfiyyətləri müəyyənləşdirirlər. Kadr ehtiyatı iqtisadiyyatın ən əsas ehtiyatıdır, ehtiyatlardan səmərəli istifadə edilməsi isə iqtisadiyyatın vəziyyətinin mühüm göstəricisidir. Digər tərəfdən kadr ehtiyatı ölkə əhalisinin həyat fəaliyyətinin və maddi rifahının əsasını təşkil edir.

Müasir dövrdə ölkəmizdə bacarıqlı və ixtisaslı idarəetmə kadrlarının formalaşdırılması problemi daha da təkmilləşir. Qeyd etməliyik ki, idarəçilik və menecment ixtisasları son illərdə insanlar arasında daha çox populyar olmasına baxmayaraq, bu sahədə ixtisaslı mütəxəssislərin çatışmazlığı problemi hələ də aktualdır. Aydındır ki, hazırda ölkəmizdə bu sahədə bəzi problemlər mövcuddur. Bu ilk növbədə nəzəri əsasların olmaması və bütün ixtisas qruplarına aid olan peşəkar idarəetmə kadrlarının hazırlanmasında istifadə olunan metodoloji yanaşmanın fərqli olmamasından irəli gəlir.

İdarəetmə kadrlarının hazırlığı geniş və çoxtərəfli bir məsələdir və inkişafı müxtəlif elmlərin nümayəndələrinin birgə səylərini tələb edir. Eyni zamanda, bizim fikrimizcə bu problemin bəzi iqtisadi və təşkilati aspektlərinin araşdırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi üçün effektli yolları müəyyən edər və həm də təşkilatın idarəetmə aparatının fəaliyyəti ilə bağlı bir çox digər məsələlərin uğurla həllinə müəyyən təsir göstərə bilər. Hazırda ölkəmizdə əksər ali təhsil müəssisələrində, tədqiqat institutlarında, eləcə də təşkilat və firmalarda idarəetmə kadrlarının hazırlanması sisteminin modernləşdirilməsi və bu sahədə islahatların aparılması ilə ciddi məşğul olurlar. Əsas məqsəd isə sürətlə dəyişən mühitə və əmək bazarındakı rəqabətə uyğunlaşa bilən idarəetmə mütəxəssisləri yetişdirməkdir.

İdarəetmə kadrları dedikdə təşkilatın xüsusi fəaliyyəti sahəsinə aid olan, idarəetmə funksiyalarının həyata keçirilməsinə yönəldilmiş, təşkilatın fəaliyyətinin yekun nəticələrinə nail olmaq üçün məsuliyyət daşıyan işçilər nəzərdə tutulur.[3, s. 63.]

Bunlara əsasən xətti və funksional idarəçilik kadrları aiddir. Təşkilatlarda idarəetmə kadrları ən mürəkkəb idarəetmə obyekti hesab olunur. Maddi aktivlərdən fərqli olaraq, insanlar müstəqil qərar qəbul edir və onlara qoyulan tələbləri qiymətləndirirlər.

Bundan əlavə, idarəetmə kadrları bir kollektivdir, hər bir əməkdaş öz şəxsi maraqlarına malikdir, idarəetmə təsirlərinə çox həssasdır və onlara qarşı reaksiyaları çox vaxt proqnozlaşdırmaq çətindir. İdarəetmə kadr hazırlığının müasir anlayışlarını, idarəetmə kadrlarının artan əhəmiyyətini, motivasiyasını öyrənmək, onların düzgün hazırlanması şirkətin qarşısında duran strateji vəzifələrə uyğun olaraq formalaşmasına əsaslanır.

Hazırda bazar münasibətləri şəraitində kadr ehtiyatları və onların formalaşması problemi daha da aktuallaşır. Lakin müasir dövrdə kadr ehtiyatları və onların formalaşması məsələlərinə lazımi qədər fikir verilmədiyinə görə ayrı-ayrı firmaların, şirkətlərin və sahələrin iqtisadi vəziyyətinə xeyli dərəcədə mənfi təsir göstərmişdir. Dünyanın bir çox inkişaf etmiş ölkələrindən İngiltərə, Fransa, ABŞ və Yaponiyada kadr ehtiyatları və onların formalaşması üzrə proqramlar işlənib hazırlanmışdır. Həmçinin kadr ehtiyatları və onların formalaşması mexanizmi üzrə milli mərkəzlər də yaradılmışdır. Bu mərkəzlərə Avropa və Asiya milli mərkəzlərini misal göstərmək olar.

Ümumiyyətlə, firma və müəssisələrin məqsədlərinə nail olmaq üçün düzgün planlaşdırılmış, seçilmiş və ixtisaslaşdırılmış kadrları müəssisədə saxlamaq və məqsədyönlü şəkildə istiqamətləndirmək lazımdır. Bu fəaliyyətlər kadrların idarə edilməsinin ən vacib şərtlərindəndir. Müəssisə rəhbərləri insan resursları ilə bağlı olan siyasətin meydana gəlməsində bəzi ünsürlərin əhəmiyyətinin artdığını artıq dərk etmişlər. Məsələn, işçilərin qorunması, onları düzgün qiymətləndirmək, həyat standartlarına uyğun əməkhaqqının verilməsi, yaradıcılıq sahəsində bəzi sınaqların verilməsi, işçilərin hər birinə qarşı eyni səviyyədə münasibət göstərilməsi və iş mühitinin rahatlığına nail olunması bu ünsürlərdəndir.

İdarəetmə kadrları mahiyyət baxımından təşkilatın uzunmüddətli hədəflərə çatmasında və təşkilatın inkişafının ümumi konsepsiyasının (strategiyasının) həyata keçirilməsində əsas rol oynayan elementləridir.

Bu baxımdan, firma və təşkilatlar da idarəetmə kadrlarının effektiv fəaliyyətini çalışdıqları iş sahələrində yox, həmçinin cəmiyyətin lazımi inkişaf istiqamətlərini əhatə etməklə, çevik idarəetmə metodları vasitəsilə müntəzəm olaraq təkmilləşdirməlidir. Buna nail olmaq üçün idarəetmə

proseslərini həyata keçirən kadrların səmərəli və çevik idarəetmə fəaliyyətini yerinə yetirməsi üçün kadrların hazırlıq prosesi zamanı müasir üsul və metodlardan istifadə olunmalıdır.

Digər tərəfdən müəssisənin və ya təşkilatın strateji və perspektiv inkişafını həyata keçirən idarəetmə kadrları yalnız istehsal-təsərrüfat fəaliyyəti ilə deyil, həm də ən əsası bütün sahələrdə çalışan işçilərin kollektiv fəaliyyətinin mərkəzləşdirilmiş şəkildə idarəetmə kadrları tərəfindən aparılmasına nail olmaqdır.

Müasir cəmiyyətdə kadr idarəçiliyində əsas istiqamətlərdən biri kadr ehtiyatlarının hazırlanması və təşkil edilməsidır. Bu istiqamət təşkilatda çox vacibdir. Personal ehtiyatları hər hansı bir kadr fəaliyyətində əsas bir əlaqə və mühüm komponentdir. Hazırda müəssisənin etibarlılığını yaxşılaşdırmaq və təmin etmək üçün müvafiq iş aparmaq çox vacibdir. Məsələn, bu anlayış nədir, təşkilatdakı rolu nədən ibarətdir, məqsədləri, prinsipləri və növləri, kadrların idarə olunması nədir?

Kadr ehtiyatları - hazırlıq seçimindən (qiymətləndirməsindən) keçmiş və yeni iş yerində birbaşa vəzifələri vaxtında yerinə yetirmək üçün lazım olan, imkanları olan müəyyən sayda işçinin formalaşdırılmasıdır. Başqa sözlə, kadr ehtiyatları şirkətin tələb olunan vəzifələrə köçürülməsini təmin etmək üçün planlaşdırılan potensial işçiləridir.

Kadr ehtiyatı daxili və xarici olmaq bacarığına malikdir. Daxili ehtiyata gəlincə, şirkətin işçilərindən ibarət olmaqla əməliyyat və perspektivə bölünür. Əməliyyat yüksək səviyyəli menecerləri əvəz edən və hər hansı əlavə təlim tədbirləri xaricində müəyyən mövqelərdə işləyən işçilərdir. Perspektiv böyük potensiala malik işçilər, lakin əlavə təlim tədbirlərinə ehtiyacı olan işçilərdir.

Kadrlarla iş idarəetmə sisteminin və idarəetmə nəzəriyyəsinin mühüm cəhətlərindən biridir. Kadrlarla iş sistemi dedikdə, burada geniş əhatəli məsələlər -kadrların seçilməsi, yerləşdirilməsi, irəli çəkilməsi, onların ixtisasının artırılması, işçi kateqoriyaları və vəzifə nomenklaturasının (Hər hansı elm, təhsil və sənət sahəsində işlənən əsas termin və anlayışların məcmusu) müəyyənləşdirilməsi və təhlili, onların işinin təşkili, planlaşdırılması, əməyinin qiymətləndirilməsi sistemləri və s. nəzərdə tutulur. Həmin məsələlərdən bəziləri idarəetmə əməyinin təşkili məsələləri ilə də əlaqədardır. Kadrlarla aparılan iş onların hazırlanması və ixtisasının artırılması məsələləri ilə də əlaqədardır. Onlardan istifadə olunması məsələsi də ən vacib problemlərdən biridir.

Hər bir ölkə üçün intellektual, müasir təfəkkür tərzinə və yeni idarəçilik təcrübəsinə malik kadr bazasının formalaşdırılması dövlətin inkişafının əsas şərtlərindən biri kimi qəbul edilir. Bu baxımdan təklif olunan yeni mexanizm ölkənin bütün vətəndaşlarına dövlət idarəçiliyində təmsil olunmaq üçün bərabər imkanlar yaradır. Müasir Azərbaycan reallığında bu, inqilabi addım kimi də xarakterizə oluna bilər.

Kadr ehtiyatlarının formalaşması kadr potensialını açıqlamağa kömək edir və həmçinin kadrların "boşluqları" bağlandıqda təcili ehtiyac olduqda kömək edə bilər. Kadrlar ehtiyatlarının formalaşması aşağıdakı məqsədlərə əsaslanır:

1. Müəssisə və şirkəti yaradılmış strategiya və mədəniyyətə uyğun olaraq öz bizneslərini inkişaf etdirməyə hazır yüksək peşəkar və səmərəli işçilərin bir hissəsi ilə təmin etmək;
2. Professional liderlərin-menecerlərin saxlanması və motivasiyası;
3. İşəgötürənin müsbət nüfuzuna dəstək.

Təşkilatın kadr ehtiyatı hər bir qurumun yaranmasında və inkişafında böyük əhəmiyyət kəsb edir. İnsan resursları bütün müəssisənin inkişafı və perspektividir. Xüsusi ehtiyat tədbirləri sistemi kimi kadr ehtiyatlarının formalaşması ənənəvi olaraq aşağıdakı mərhələləri əhatə edir:

1. Risk zonasında mövqelərin müəyyən edilməsi müəyyən tədbirlər vasitəsilə həyata keçirilir, məsələn:
   - regionda əmək bazarının nəzərdən keçirilməsi;
   - boş yerlərin tutulması üçün ərizəçilərin sayının qiymətləndirilməsi;
   - şirkət üçün bu mövqenin dəyərini təhlil etmək;
   - saytdakı işçilərlə davam edən vəziyyətin qiymətləndirilməsi.
2. Ərizəçilərin qiymətləndirilməsi və seçilməsi - işçilərin məhsuldarlığının bəzi xüsusiyyətlərinin tətbiqi ilə aparılır.
3. Şəxsi inkişaf planlarının təşkili - şirkətin mövcud ehtiyacı və strategiyasını nəzərə almaq.
4. Yeni yerə təyinat.

Müəssisə ehtiyatı ilə işləmək müəssisənin özü tərəfindən hazırlanmış və ya daha uğurlu formalaşma variantlarından götürülən xüsusi modellərlə də həyata keçirilə bilər.

Azərbaycanda idarəetmə kadrlarının hazırlığının perspektivlərini müəyyənləşdirən başlıca istiqamətlər aşağıdakılardan ibarət ola bilər:

- dövlətin inkişafını, onun funksiya və vəzifələrinin inkişafını və təkmilləşdirilməsini nəzərə almaqla kadr hazırlığının qabaqcıl xüsusiyyətlərinin təmin edilməsi;
- dövlət təhsil standartlarına əməl olunması, bütün təlim növlərinin, forma və metodlarının çevik şəkildə tətbiq olunması, təlim prosesinin intensivləşdirilməsi və optimallaşdırılması əsasında onun məqsədəuyğun inkişafına nail olunması;
- yeni qəbul olunmuş qulluqçuların və kadr ehtiyatlarının hazırlanmasının və ixtisasının artırılmasının təkmilləşdirilməsi.

İdarəetmə kadrlarının hazırlığının və ixtisasının artırılması sisteminin təkmilləşdirilməsi üçün mütəxəssislərin və ixtisasların hazırlanmasının səviyyə və istiqamətlərini, bu sahədə hazırlığın dövlət keyfiyyət standartlarını təmin edəcək tədris proqramlarının təkmilləşdirilməsi tələb olunur. Belə bir sistemin yaradılması zamanı aşağıdakıların nəzərə alınması məqsədəuyğun olardı:

- idarəetmə kadrlarının peşəkar hazırlığı prosesində onların idarəetmə fəaliyyətinə hazırlanmasına, qərar qəbuluna, strateji idarəetməyə xüsusi diqqət yetirilməsi;
- təhsil səviyyəsi, ixtisaslaşma istiqaməti, vəzifə və peşəkar ixtisas xüsusiyyətlərindən asılı olaraq kadrların təlimi üçün seçmə normativlərin tətbiq edilməsi;
- idarəetmə kadrları hazırlayan təhsil müəssisələrinin məzunlarının əldə etdiyi peşəkarlıq potensialından səmərəli istifadə etmək üçün onların işlə təminatına zəmanətlərin verilməsi;
- kadr hazırlığı müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması;
- kadr hazırlığı, yenidən hazırlanması və ixtisasının artırılması sistemində dövlət idarəetmə sisteminin islahatlarının ən aktual məsələlərinin dərindən öyrənilməsinin təmin edilməsi və sairə.

İdarəetmə kadrlarının hazırlığı sistemində ən aktual məsələlərdən biri idarəetmə kadrlarının elmi səviyyəsini artırmaq, bu sahədə elmi kadrların çatışmazlığını aradan qaldırmaq üçün doktorantura yolu ilə yüksək ixtisaslı kadr hazırlığı sisteminin genişləndirilməsi, beynəlxalq elm məkanına inteqrasiyanı sürətləndirmək üçün dünyada qəbul olunmuş ixtisaslar və istiqamətlər üzrə kadr hazırlığını təmin etməkdir.

Kadr ehtiyatları və onların formalaşması mexanizminin təkmilləşdirilməsi müəyyən sistemə əsaslanmalıdır. Burada ən başlıca cəhət müəyyən peşə tələblərinin müəyyən edilməsidir. İkinci cəhət hər bir mühəndis-texniki işçilər, mütəxəssis və qulluqçuların fərdi qabiliyyətinin öyrənilməsi və onun qabiliyyətinin obyektiv qiymətləndirilməsidir. Üçüncü cəhət isə rəhbər kadrlar ehtiyatı planının hazırlanması və bu planda rəhbər işə namizədlərin təyin olunmasıdır. Burada hər bir rəhbər işçinin icra edəcəyi işin məzmunu və funksiyalarının həcmi nəzərə alınmaqla onlara qarşı ümumi tələblərlə yanaşı konkret tələblər də irəli sürülür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu “Davamlı inkişaf naminə kadr potensialının təlmilləşdirilməsi” Azərbaycan modeli. Bakı, 2018, s.238.
2. Seyfəddin Qəndilov. “Heydər Əliyevin idarəçilik irsi dövlətin kadr hazırlığının əsas qayəsini təşkil edir”. Bakı, 2010, s.3.
3. T.Y.Bazarov, rus dil. tərc. H. S. Zeynalov . “Heyətin idarə edilməsi”. Bakı, 2012, s. 63.



***Ясеман Али kызы Алиева***

***dоцент Азербайджанский Университет Кооперации***

***Э- почта: eliyevayasemen3@gmail.com***


**Кадровый ресурс и механизм его формирования улучшение**


***Резюме***

В последние годы инновационное развитие системы подготовки управленческих кадров, являющейся основным предметом управления предприятием, стало одной из главных тем

эпохи. Увеличение динамики внешней среды, непрерывное развитие научно-технического прогресса, превращение хозяйствующих субъектов в более сложные социально-экономические системы, в свою очередь, требуют на предприятиях новых управленческих кадров в соответствии со сложностью экономики. В связи с этим основной целью статьи является совершенствование системы развития сотрудников и повышение уровня подготовки кадров, повышение актуальности исследования инновационных возможностей и современных методов современных учреждений.

***Ключевые слова: кадровые ресурсы, управленческий персонал, человеческие ресурсы, обучение персонала, система работы с персоналом, формирование кадровых ресурсов.***

***Yaseman Ali Aliyeva***
***docent Azerbaijan Cooperation University***
***e-mail: eliyevayasemen3@gmail.com***

**Personnel resources and the mechanism of its formation improvement**

***Summary***

In recent years, the innovative development of the management personnel training system, which is the main subject of enterprise management, has become one of the main topics of the era. The increase in the dynamics of the external environment, the continuous development of scientific and technological progress, the transformation of economic subjects into more complex socio-economic systems, in turn, require new management personnel in enterprises in accordance with the complexity of the economy. In this regard, the main goal of the article is to improve the system of employee development and increase the level of personnel training, to increase the relevance of researching the innovative capabilities and modern methods of modern institutions.

***Key words: Personnel resources, Management personnel, human resources, personnel training, Personnel work system, Formation of personnel resources.***

**UOT 37**

***Gülnarə İbrahim qızı QURBANOVA***
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***
***AKU-nun "Sosial elmlər və təhsil" kafedrasının müdiri***
***E-mail: gulnare.qurbanova@rambler.ru***

## AZƏRBAYCAN TƏHSİLİNİN ƏBƏDİYAŞAR QURUCUSU

***Xülasə***

Yüksək mənəvi dünyası, ali və milli ideyalara, ümummilli mənafelərə bağlılığı ilə tarixdə iz qoyan böyük şəxsiyyətlər hələ sağlıqlarında milyonların qəlbində silinməz iz qoymuşlar. Onlar əbədiyyət qazanmış, xalqının tarix səhifəsində əbədiyaşar olmuşlar. Fəxr və iftixar hissi ilə deyə bilərik ki, ümummilli lider Heydər Əliyev hələ sağlığında xalqının qəlbində əbədi abidəsi ucalan dünyaşöhrətli siyasətçi, tarix yazan şəxsiyyətdir.

***Açar sözlər: müstəqil Azərbaycan, azərbaycançılıq ideologiyası, ümummilli lider, ulu öndər, elm və təhsil.***

***

Yüksək mənəvi dünyası, ali və milli ideyalara, ümummilli mənafelərə bağlılığı ilə tarixdə iz qoyan böyük şəxsiyyətlər hələ sağlıqlarında milyonların qəlbində silinməz iz qoymuşlar. Onlar əbədiyyət qazanmış, xalqının tarix səhifəsində əməllərilə tanınmışlar.

XX əsr Azərbaycan tarixinin əbədiyaşar siması Heydər Əliyev məhz o şəxsiyyətlərdəndir ki, qətiyyətli addımları ilə tanındı, sevildi. Azərbaycan xalqının dövlətçilik şüurunun, möhtəşəm idarəçilik məktəbinin, dövrün ictimai-siyasi, fəlsəfi fikrinin yaranmasında əvəzsiz rolu və yeri ilə

seçildi. Əminliklə deyə bilərik ki, XXI əsrin ilk onilliyində apardığı qətiyyətli siyasət ilə müstəqil Azərbaycanın dünyada tanınması, layiqli yer tutması, ən çətin mərhələni – iqtisadi keçid dövrünü uğurla başa vurması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin sonunda tarixdə ikinci dəfə qazanılan müstəqilliyimizin qorunması bu fenomen şəxsiyyətin adı ilə bağlıdır. Ümummilli lider xalqın demokratik ideyaları və milli dövlətçilik təfəkkürü ilə uzlaşan fəaliyyət prioritetləri, milli inkişaf strategiyasını uğurla həyata keçirmişdir.

İstər sovet dönəmində, istərsə də müstəqillik illərində humanizm ideyalarının möhkəm təmələ çevrilməsində, idarəçilikdə demokratik ənənələrin bərqərar olmasında, dövlətçiliyin mükəmməl prinsiplərinin yaranmasında səy və bacarığını əsirgəmədi. Uğurlu daxili və xarici siyasətilə Azərbaycanın nəinki regionda, dünyada tanınmasında misilsiz xidmətlər göstərmişdir. Ulu öndər xalqın milli kimliyinin təcəssümü olan maddi-mənəvi dəyərlərin qorunmasına, adət-ənənələrin yaşanmasına və gənc nəslə aşılanmasına daim xüsusi olaraq diqqət yetirirdi. Heydər Əliyev çıxışlarında qloballaşma prosesinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlərin hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsinin müasir dövrün ən aktual məsələlərindən birinə çevirdiyini vurğulayırdı. Tarixin sınanmış təcrübələri göstərir ki, sosial rifaha xidmət edən, düşünülmüş siyasət yürüdən, mövcud potensialı bu istiqamətdə səmərəli şəkildə səfərbər edən dövlətlər milli tərəqqiyə nail ola bilirlər.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər təyin edillməsilə Respublikamız inkişaf və tərəqqi yoluna qədəm qoydu. Bu inkişaf və tərəqqinin ən dəqiq yolu təhsildən, gənc nəslin tərbiyəsindən keçdiyini yaxşı bilirdi. Milli ideologiyamız olan azərbaycançılığın yaradıcısı və ideya müəllifi olan Heydər Əliyev milli-mənəvi dəyərlərimizin yaşaması və yeni nəsillərə ötürülməsi naminə böyük işlər görmüşdür. 30 illik ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycan elminə və təhsilinə göstərdiyi diqqət və qayğı xüsusi olaraq qeyd edilməlidir.Ulu öndər elm və təhsilin hər bir xalqın, millətin hərtərəfli inkişafında böyük rol oynadığını dərindən bilirdi. “Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”- deyən ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Azərbaycan elminin və təhsilinin inkişafında böyük uğurların, nailiyyətlərin qazanılması danılmazdır.1969-1982-ci illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində, şəhər və qəsəbələrində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərimizin sayı 12-dən 17-yə artmışdır. Bu ali təhsil müəssisələrində oxuyan tələbələrin sayı 70 min nəfərdən 100 minə çatdırılmışdır. Bu dövrdə ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən qiymətli ənənələrdən biri də tələbələrin gərəkli, daha tələb olunan ixtisaslara yiyələnmələri üçün azərbaycanlı gənclərin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi olmuşdur. Statistik rəqəmlərdə də bu göstərici aydın əks olunub. 1969-cu ildə Azərbaycandan kənara cəmi 47 nəfər göndərilmişdisə, 80-ci illərin əvvəllərində hər il 1000-1400 nəfər gənc respublikadan kənarda təhsil almağa göndərilib. Onların əksəriyyəti azərbaycanlı gənclər idi. Böyük siyasətçi Heydər Əliyevin milli təəssübkeşliyi sayəsində təkcə 1982-ci ildə 550 nəfər azərbaycanlı gənc SSRİ-nin ali hərbi məktəblərinə göndərilmişdi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 70 - 80-ci illərdə keçmiş SSRİ-nin 170-dən çox nüfuzlu ali məktəblərində respublikada ən çox ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Bu gənclər təhsillərini başa vurduqdan sonra hazır milli kadrlar kimi vətənə qayıdaraq ən vacib istehsal, elm və sənaye sahələrində uğurla fəaliyyət göstərmişlər.

Ötən əsrin 70-c illərində Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış bir çox elmi-texniki institutlar, laboratoriyalar bu gün də müstəqil dövlətimizin inkişafında öz töhfəsini verməkdədir. Bütün bunlarla yanaşı Ümummilli lider elm və təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Ulu öndərin Azərbaycan təhsilinə bu qayğı və diqqəti müstəqillik illərində də diqqətdən kənarda qalmayıb.1993-cü ildə xalqın təkidi və tələbi ilə Respublikamıza rəhbərlik edən Heydər Əliyev həyatımızın bütün sahələrində olduğu kimi, elm və təhsilin hərtərəfli inkişafına, bu sahədə yaranmış problemlərin həllinə kompleks şəkildə yanaşmışdır. Bu dövrdə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsini öyrənərək, Azərbaycanda təhsil strategiyasının həyata keçirilməsi üçün önəmli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Ulu öndərin hər tədris ilinin başlanğıcında da ölkədəki məktəblərdə olması bir ənənə halını almışdı.

“Təhsil millətin gələcəyidir” - deyən ümummilli lider təhsili hər cəhətdən üstün sayıb.

“Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq” – bu fikri ilə ulu öndər Heydər Əliyev təhsilimizin fədailərini dəyərləndirirdi.

“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”- deyirdi Ulu öndər.

“Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun”- deyən Heydər Əliyevin ən ümdə arzuları çin olub. Hələ 90 -cı illərdə məktəb dərslikləri ilə tanış olarkən milli dərsliklərin hazırlanması, bu dərsliklərdə məhz azərbaycançılıq ideologiyasına geniş yer verilməsi tövsiyəsilə Ümummilli lider Heydər Əliyev sabahın qurucularının düzgün tərbiyələndirilməsinin nə qədər böyük əhəmiyyət kəsb etməsini göstərmiş oldu: “Keçən dövrlərdə, 70-ci illərdə, 80-ci illərin əvvəllərində Azərbaycanda ildə 100 məktəb binası tikilib istifadəyə verilirdi. Bu da tamamilə adi hal idi. Biz balalarımızı, uşaqları təhsilə cəlb etmək üçün hər il yeni məktəb binaları tikirdik, yaradırdıq, istifadəyə verirdik. Bu, bizim fəaliyyətimizin mərkəzi, əsas məqsədlərindən biri idi və buna nail olurduq”. [1, səh. 260]

Ulu öndər Heydər Əliyev hakimiyyəti dövründə elm və təhsillə bağlı bir çox qərar və fərmanlar imzalayıb. Bu sənədlərin hər biri Azərbaycan təhsilinin yeni istiqamətlərini müəyyən etməklə bərabər, təhsil alan Azərbaycan gəncinə yeni üfüqlərin açılmasında bir mayak olub. Ulu öndərin gənclərə diqqət və qayğısı bütün fəaliyyəti boyu mühüm yer tutub: “Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpaqlarımıza daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa, olsun. Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir”. [2, səh. 204]

Bilirik ki, dövlətin iqtisadi qüdrətini, onun elmtutumlu və rəqabətədavamlılığını elmi tədqiqatların, geniş araşdırma və təhlillərin səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Hakimiyyətə gəlişinin ilk ilində ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyi ilə bağlı çıxışında bu elm və təhsil ocağının Azərbaycan ziyalıları üçün bir məbəd olduğunu vurğulayıb. “Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam”, - deyən Ulu öndər Heydər Əliyev BDU-ya olan rəğbətini daim büruzə verməklə yanaşı, bu ali təhsil ocağının qarşısında bir sıra məsul vəzifələr müəyyənləşdirmişdir. [3, səh. 8]

Azərbaycanın gələcək inkişafının strategiyasını düzgün müəyyən edən, bir zərgər dəqiqliyilə onun həyata keçirilməsinin taktiki yollarını müəyyənləşdirən Heydər Əliyevin 1969-cu ildə BDU-nun 50 illik yubileyində Azərbaycan dilində çıxışı da cəsarətli addım idi. Böyük müdriklik, yüksək peşəkarlıq, beynəlxalq diplomatiyanın ən incə sirlərini bilmək və ondan çıxış yollarını araşdırmaq bacarığı, meydana çıxan problemləri çevik və diplomatik həll etmək məharətilə Heydər Əliyev uzaq üfüqləri aydın görə bilirdi.O, xalqına arxalanırdı. Xalqı ən böyük dayaq sanırdı. Hakimiyyətdə olduğu illərdə əlçatmaz görünən ən çətin layihələrin gerçəkləşməsinə, bir nəslin deyil, gələn nəsillərin yüksək rifahı naminə böyük həyat təcrübəsilə bir məktəb yaratdı: “Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Xatirimdədir, 70-ci illərdə mən bir neçə dəfə çox narahatçılıqla göstərişlər verdim ki, rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatına çox yer verilsin. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır. Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun”. [5, səh. 161].

Azərbaycanın çox böyük elmi- texniki potensialı,yüksək səviyyəli təhsil almış vətəndaşlarının olduğunu, xalqımızın yüksək elmə , biliyə, savada, malik bir xalq olduğunu vurğulayan ümummilli lider Heydər Əliyev bu xüsusiyyətlərə görə Azərbaycan müəllimlərinə daim hörmət və ehtiramla

yanaşıb: "Şəxsən mənim müəllimə həmişə böyük hörmətim olubdur.İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə bağlıdır, eyni zamanda, mənim kimi bizim də, xüsusən mənim də müəllimə böyük hörmətimlə, ehtiramımla bağlıdır. Mən indi də - onillər keçib üstündən – müəllimlərimi heç vaxt unutmamışam və ömrümün son dəqiqələrinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur.Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, can sağlığı, səadət diləyirəm". [1, səh. 262]

Müəllimə bundan uca, bundan dəyərli qayğı, diqqət, məhəbbət ola bilərmi? Bir ömür boyu bütün sahələrin inkişafına diqqət yetirən Ulu öndər ən qısa bir vaxtı da müəllimlərlə görüşməyə sərf edib. Heydər Əliyev strategiyasının mükəmməl təməli də məhz bununla bağlıdır. Ölkənin ən çətin, ən ümidsiz vəziyyətində ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunmasında bütün səylərini əsirgəmədi, varlığı ilə bütün çətinlikləri adlaya bildi.O, 90-cı illərdə təkcə müharibənin ağrı-acısı ilə deyil, həm də dövlətçiliyimizə zərər vuran proseslərin də qarşısını ala bildi.Azərbaycan vətəndaşının sərbəst, rahat yaşaması üçün ictimai-siyasi sabitliyin bərqərar olmasına nail oldu. Ölkənin xoşbəxt sabahlarının böyüməkdə olan nəslin bilik və bacarığı ilə nurlanacağına əmin idi Ulu öndər. Xalqı ilə daim öyünən, onunla iftixar hissi keçirən Heydər Əliyev: "Fəxr edirəm ki, belə böyük xalq ona rəhbərlik etmək üçün mənə etimad göstərib",- deyirdi. [1, səh. 267].

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın təhsilli gənclərə, vətənpərvər nəslə bir əmanət olduğunu vurğulayaraq demişdir: "Ancaq sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, cürbəcür maneələrlə bağlı olan yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Bu, sizin vəzifələrinizdir və güman edirəm ki, hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır". [4, səh. 155]

Müstəqilliyimizin ilk illərində keçirilən Azərbaycan gənclərinin I Forumu həqiqətən, tarixi bir hadisə idi. Xüsusən, bu forumda ölkə prezidenti, dünyaşöhrətli bir siyasətçinin proqram xarakterli çıxışı hələ neçə-neçə nəslin gələcəyə inamlı addımlarına, aydın sabahlarına bir mayak oldu.Diqqət edin, müstəqilliyin bərpasından cəmi beş il ötüb. Ölkə hələ çətin iqtisadi vəziyyətdə, minlərlə qaçqın və köçkünlər çadır şəhərciyində, işğal və talan olunmuş ərazilərdən didərgin düşən insanların ağır vəziyyətilə bağlı məsələlərin həlli ilə yanaşı Ümummilli lider gənc nəslin də qayğılarının həllinə, gənc nəslin təlim-tərbiyəsinə diqqətini əsirgəməyib. Bu Forumda ölkə rəhbəri Heydər Əliyev müstəqil Azərbaycanın etibarlı, yüksək düşüncə və intellektə malik, azərbaycançılıq ideologiyasına sadiq vətəndaşlarının tərbiyələnməsinə dövlətin diqqət və qayğısını bir daha əks etdirmiş oldu:" Bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə çatmaqdır". [4, səh. 159]

Vətən sevgisi ən ülvi bir hiss, ən ali bir sevgidir.Vətənsiz insan məsləksiz, əqidəsiz olur. Ayağı Vətən torpağında olan insan qüdrətli, rəşadətli olur, xarüqələr yaratmağa qadir olur. Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: "İnsanlığı şərtləndirən əsas cəhətlər hansılardır? Birinci növbədə vətən sevgisi! İkinci növbədə zəmanəsinin tələbləri səviyyəsində elmlərə sahib olmaq!... Təyyarənin uçması üçün ona enerji lazım olduğu kimi, insanın uçması üçün də ona od lazımdır, ürək odu! Bu od isə yalnız sevgidir, Vətən sevgisi!" [5, səh. 307]

Ulu öndər Heydər Əliyev gənclərimizi həqiqi vətəndaş kimi böyütmək üçün onlarda Vətən sevgisi hissinin aşılanmasının nə qədər vacib bir məsələ olduğunu bilirdi.Təlim-tərbiyənin ən müqəddəs sevgilə aşılanması sabah güclü ordu, möhkəm birlik olacağını vurğulayaraq Gənclərin I Forumundakı çıxışında bu məsələyə xüsusi diqqət yetirərək deyib: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim

tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik. Ona görə də gənclərə mən nə demək istəyirəm? Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir". [4, səh. 160].

Elm və təhsil islahatları hər zamanın tələbi ilə, ardıcıl şəkildə aparılıb. Zamanında verilən qərarlar bu sahənin inkişafında xüsusi əhəmiyyət kəsb edib. 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur. Ümummilli lider Heydər Əliyevin təhsil siyasəti konsepsiyası ilə ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün müvafiq şərait yaradılmışdır. Son onilliklərdə tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Təkcə müstəqillik illərində 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər.

Ulu öndərin uzaqgörən strategiyası bugünkü qələbələrimizin təməl daşına çevrildi. Açdığı hər bir yol bu gün xalqımın qalibiyyət səsini sərhədlərimizi aşaraq çox uzaqlara çatdıra bildi.Qeyri-adi hafizəsi, dəqiq strategiyası, düzgün taktikası ilə böyük siyasət meydanında bu gün də adı hörmət və ehtiramla çəkilən Heydər Əliyevin quruculuq siyasəti dəqiq və aydın bir yolda idi. Bu yolun davamı 44 günlük döyüş meydanında ZƏFƏR sevincini xalqımıza yaşatmış oldu.Qələbə müjdəsi ilə ölkə prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının xalqına müraciətində deyilir:" Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" [6]

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Ulu öndərin böyük rolu, titanik zəhməti görünməsin. Onilliklər ötsə də, bu böyük şəxsiyyətə olan xalq sevgisi tükənməyəcək.Ölkə Prezidenti İlham Əliyev cənablarının ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı imzaladığı sərəncamda deyilir: "Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir... Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir". [7]

Heydər Əliyev dühası hər zaman xalqımın yolunda yanan məşəldir. Onun başladığı dəqiq siyasi

kurs bu gün layiqli davamçısı Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan tarix üçün çox qısa görünən vaxt ərzində təkcə regionda deyil, qloballaşan dünyada öz yeri, öz sözü, öz nüfuzu ilə seçilən layiqli yer tutur. Deyirlər, dağın əzəməti uzaqdan daha möhtəşəm görünür.Ulu öndər Heydər Əliyevin əməlləri də, xalqının tərəqqisi naminə gördüyü işlər də zaman keçdikcə daha möhtəşəm, daha əlçatmazdır: Sən elə bir zirvəsən, Küləklər neyləyəcək?! Dünənim, bu günümsən, səninlədir gələcək!

**ƏDƏBİYYAT**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 7-ci cild, Azərnəşr, Bakı 1998
2. Əsrə bərabər otuz il, "Qorqud" nəşriyyatı, Bakı 2008
3. 525-ci qəzet.-2019.-25 sentyabr.-№129, səh..8
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 5-ci cild, Azərnəşr, Bakı 1998
5. Bəxtiyar Vahabzadə. "Sadəlikdə böyüklük" "Yazıçı", Bakı 1978
6. https://www.bakupost.az/
7. https://president.az/az/



***Гюульнара Ибрагим кызы Гурбанова***
***доктор философских наук, доцент,***
***заведующий кафедрой***
***«Социальные науки и образование» АКУ***
***злектронная почта: gulnare.qurbanova@rambler.ru***


**Вечный основатель Азербайджанского образования**


***Резюме***

Великие личности, оставившие след в истории своим высоким духовным миром, привязанностью к высшим и национальным идеям, национальным интересам, еще при жизни оставили неизгладимый след в сердцах миллионов. Они завоевали вечность и жили вечно в истории своего народа. С чувством чести и гордости мы можем сказать, что общенациональный лидер Гейдар Алиев является всемирно известным политиком и деятелем истории, чей вечный памятник воздвигнут в сердцах его народа еще при его жизни.



***Ключевые слова: независимый Азербайджан, азербайджанская идеология, национальный лидер, великий лидер, наука и образование.***



***Gulnara Ibrahim Gurbanova***
***doctor of Philosophy in Philology,***
***Associate Professor, head of the "Social sciences***
***and education" cahir of AKU***
***e-mail: gulnare.qurbanova@rambler.ru***


**Eternal founder of Azerbaıjan education**


***Summary***

Great personalities who left a mark in history with their high spiritual world, attachment to higher and national ideas, and national interests, left an indelible mark in the hearts of millions while they were still alive. They won eternity and lived forever in the history of their people. We can say with a sense of honor and pride that national leader Heydar Aliyev is a world-famous politician and history-maker, whose eternal monument is raised in the hearts of his people even during his lifetime.



***Key words: independent Azerbaijan, Azerbaijani ideology, national leader, great leader, science and education.***

**UOT 372.8:1**

*Firuzə Nuru qızı ƏLİYEVA*
*AMEA Fəlsəfə İnstitutunun*
*aparıcı elmi işçisi, fəl. üzrə fəl.dok. dos.,*
*AKU Sosial Elmlər və Təhsil kafedrasının müəllimi*
*firuza.eko@gmail.com*
*ORCID ID: 0000-0002-2990-2089*

# HEYDƏR ƏLİYEV STRATEGİYASI KİV-DƏ

***Xülasə***

Məqalədə Heydər Əliyevin kütləvi informasiya vasitələrinə münasibəti, Azərbaycan həqiqətlərinin dünya informasiya məkanına çatdırılmasında rolu əks olunub. Eyni zamanda, Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları avadanlıqları ilə təchiz olunmasında görkəmli dövlət xadimi, ümummilli liderin yürütdüyü uzaqgörən siyasət öz əksini tapmışdır.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Azərbaycanda KİV-in hərtərəfli inkişafında böyük rol oynamışdır. Görkəmli dövlət xadiminin ən böyük silahlarından biri söz idi. O, xalq kütlələrini öz arxasınca aparanda, ölkə üçün mühüm layihələrin həyata keçirilməsində, yolunu azmış birisini düz yola yönəltmək zərurəti yarananda sözdən ustalıqla istifadə etməyi bacarırdı. Cəmiyyətin həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi. Məhz Heydər Əliyevin sayəsində müstəqil Azərbaycanın informasiya agentliyi dünya informasiya məkanına çıxmış, Azərbaycan reallıqlarının yayılma coğrafiyası geniş vüsət almışdır.

***Açar sözlər: müdrik, Ümummilli lider, uzaqgörən, fenomen.***

***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanda KİV-in hərtərəfli inkişafında böyük rol oynamışdır. Görkəmli dövlət xadiminin ən böyük silahlarından biri söz idi. O, xalq kütlələrini öz arxasınca aparmağı, ölkə üçün mühüm layihələrin həyata keçirilməsində, yolunu azmış birisini düz yola yönəltmək zərurəti yarananda sözdən ustalıqla istifadə etməyi bacarırdı. Natiqlik ona Allah vergisi idi. Onun natiqlik məharəti incəliklərinə qədər cilalanmışdı. O, xalqla elə danışırdı ki, hər bir vətəndaş hamıya deyilən sözləri şəxsən ona ünvanlanmış qəbul edirdi. Bunu hər bir adam bacarmazdı. Bu yalnız H.Əliyevin fitri istedadı idi. Ulu öndər jurnalist peşəsini yüksək qiymətləndirərək deyirdi: "Bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişməyəcəyəm."

Heydər Əliyevi bütün səfərlərində jurnalistlər müşayiət edirdi. Özü də onlar həm dövlət KİV-ni, həm də müstəqil, hətta müxalifət nəşrlərini təmsil edirdi. O, deyirdi ki, KİV-in səviyyəsini qaldırmaq lazımdır. KİV düşmənlərin məkrlərini ifşa etməklə yanaşı, ölkəmizi beynəlxalq səviyyədə təmsil etməyi, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmağı və beləliklə də, Ermənistanla informasiya müharibəsində qalib gəlməyi bacarmalıdır. İnformasiya həqiqi, obyektiv olmalıdır.

1970-80-ci illərdə Rusiya KİV-i yazırdı: "Azərbaycanda KİV postsovet məkanında dərin araşdırmalar tələb edən nadir hadisədir. Bütün MDB ərazisində daha azad və müstəqil jurnalistlər tapmaq çətindir və onlar ictimai proseslərə real təsir göstərirlər." (Aygül Osmanova, "Azərbaycanda iki hakimiyyət var: Heydər Əliyevin hakimiyyəti və KİV")

Aygül Osmanova yazırdı: "Bəli, görünür biz hamımız həm azərbaycanlı jurnalistlərdən, həm də Heydər Əliyevin KİV-ə və söz azadlığına münasibətindən, həqiqətən, çox şey öyrənməliyik."

Bəli, həqiqətən Heydər Əliyevdən öyrənməli çox şey var, çünki bu gün nəinki dostlarımızın yazdığı və dediyi, hətta əleyhdarlarımızın da etiraf etməyə məcbur olduğu söz və fikir azadlığı bizə Ulu öndərdən miras qalmış sərvətdir.

İKT-nin son illər sürətlə inkişaf etməsi idarəetmənin bütün sahələrində tətbiq edilərək cəmiy-

yətin hər bir üzvünə mövcud imkanlardan faydalanmağa şərait yaradır.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi sübut edir ki, elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Bu siyasətin aparıcı qüvvəsini informasiya-kommunikasiya texnologiyaları təşkil edir. İKT son illər sürətlə inkişaf edərək gündəlik həyatda insan fəaliyyətinin bütün sahələrinə, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilmişdir.

Azərbaycanın inkişaf tarixinə nəzər salsaq görərik ki, respublikamızda rabitənin, elektron avadanlıqlar və informasiya texnologiyalarının geniş vüsət alması məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan iqtisadiyyatının inkişafını uzaqgörənliklə düşünən Ümummilli lider informasiya-kommunikasiya texnologiyalarının inkişafının əsasını məhz ötən əsrin 70-ci illərində qoymuşdur.

1970-80-ci illərdə Elmlər Akademiyasında, universitetlərdə elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neftqazavtomatika" və digər elmi-tədqiqat müəssisələri yaradıldı. Heydər Əliyevin köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını- BESM-6 gətirildi. Respublikada avtomatlaşdırılmış idarəetmə sistemləri-RASRU-"Azərbaycan", respublika kompüter şəbəkəsi, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış netçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. "AZON", "Nord" elm-istehsalat birlikləri, Radiozavod, Elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Sonralar Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Şirvanda, Gəncədə, Sumqayıtda və Bakıda 30-dan artıq elektron və cihazqayırma zavodları işə salındı. Elmi-tədqiqat institutlarının nəzdində "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başladı. Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi təhsil ocaqlarında İKT ixtisasları üzrə mütəxəssislər hazırlanması üçün maddi-texniki baza yaradıldı. Beləliklə, bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən "Universitet-İqtisadiyyat və Hökumət" üçqat spiral modelinin tətbiqini Azərbaycanda Heydər Əliyev həyata keçirdi.

Müstəqilliyin ilk illərində ölkəmizin ağır, gərgin vəziyyətində xalqın təkidi ilə hakimiyyətə ikinci dəfə qayıdan Ümummilli lider Heydər Əliyev informasiya- kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirmişdir. Məhz Heydər Əliyevin səyi nəticəsində Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin "Bakcell" və "Azərcell" birgə müəssisələrinin yaradılması ilə ölkəmizdə mobil rabitənin inkişafının əsası qoyulmuşdu. İlk beynəlxalq telefon stansiyasının yaradılması da məhz Heydər Əliyevin səmərəli fəaliyyəti nəticəsində həyata keçirildi. Respublikamızda radio-televiziya yayımının müasir tələblərə uyğun təşkili, milli televiziya proqramının süni peyk vasitəsi ilə yayımlanmağa başlanması, Avropa və Yaxın Şərq dövlətləri ilə yanaşı blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının əhalisinin milli televiziya proqramlarının həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün Azərbaycanın İKT sahəsindəki fəaliyyəti məhz Heydər Əliyevin uzaqgörən strategiyasının əsasını təşkil edir. 2003-cü il fevralın 17-də Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" (2003-2012-ci illər) ölkəmizdə bu sahənin inkişafına güclü təkan verdi. Cənubi Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu strategiya Azərbaycanın İKT sahəsində qələbəsini bütün dünyaya bəyan etdi.

Bütün bunların nəticəsində Azərbaycan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük imkanlara malik olmuşdur. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan İKT sahəsində regionun aparıcı ölkəsinə çevrildi. XXI əsr informasiya cəmiyyətinin yaradılması, zəngin təbii sərvətlərin insan kapitalına çevrilməsi və yüksək intellektual səviyyənin formalaşması cəhətdən yeni eranın başlanğıcı sayılır. Qloballaşan, yeniliyə doğru can atan dünyanı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları - internet, yüksək texnologiyalar və qlobal

rabitə imkanları olmadan təsəvvür etmək belə mümkün deyildir. Yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələ-telekommunikasiya və informasiya texnologiyaları sahəsində "inqilabi" dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək, dövlətlər və xalqlar arasındakı məkan və zaman fərqlərini aradan qaldırmaqdır.

Qərb iqtisadiyyatına geniş inteqrasiya, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində qabaqcıl dövlətlər sırasına çıxmaq üçün uğurlu addımlar atılmasına şərait yaratmışdır. Belə ki, respublikamızda İKT məhsullarının istehsalı üçün yeni müəssisələr yaradılmış, nəticədə məhsul istehsalının həcmi 2003-cü illə müqayisədə 6-7 dəfə artmışdır. [1, 2]

Yeni texnologiyaların tətbiqi rabitə və informasiya xidmətlərinin keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Ən ucqar yaşayış məntəqələrində peyk texnologiyası vasitəsi ilə telefonlaşdırma istiqamətində böyük işlər görülmüş, nəticədə ölkə ərazisinin tam telefonlaşdırılması başa çatmışdır. Cənubi Qafqaz və Mərkəzi Asiyada konveyer üsulu ilə kompüter istehsal edən ilk kompüter zavodu – "Kür" Mingəçevir şəhərində istifadəyə verilmişdir.

Son illər respublikamızda elektron kütləvi informasiya vasitələrinin sürətli inkişafı, ölkəmizdə yeni informasiya sistemlərinin yaradılmasına və radio-televiziya yayım-texnologiyalarının yerləşdirilməsinə zəmin yaratmışdır. Hazırda Azərbaycan televiziyası və radiosunun əhatə dairəsi əhalinin 99,9 faizinə çatdırılmışdır.

Son 5 ildə, İKT sektorunda gedən proseslərə uyğun olaraq, internet xidmətləri dinamik olaraq inkişaf etməkdədir. Belə ki, respublikamızda fəaliyyət göstərən internet Servis Provayderlərinin sayı 3 dəfə artaraq 30-u keçmiş, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən internet klubların sayı 1000-i ötmüşdür. Demək olar ki, bütün rayon mərkəzlərində fiber-optik xətt vasitəsi ilə genişzolaqlı xidmətlər, həmçinin sürətli internet xidməti üçün geniş imkanlar yaradılmışdır. Eyni zamanda ölkə ərazisində bütün internet provayderlərə eyni şəraitin yaradılması məqsədilə şəhərlərarası telefon kanallarından müvəqqəti olaraq ödənişsiz istifadəyə şərait yaradılmışdır ki, bu da regionlarda internetin inkişafına müsbət təsir göstərmişdir. Bütün bunlar Ulu Öndərin ölməz ideyalarının nəticəsi olaraq Azərbaycanda həyata keçirilmişdir.

Rusiyalı jurnalist Oleq Siqanov "Zamanı qabaqlamış Ümummilli lider" məqaləsində yazırdı: "Heydər Əliyev Azərbaycan üçün lazımi vaxtda elə nadir, zəruri şəxsiyyət, ziyalı sinfinin hakimiyyətin zirvəsinə çatmış elə bir nümayəndəsi oldu ki, o özünün fenomenal siyasi keyfiyyətləri sayəsində nəinki yeni milli ideyanı-müasir dövrün çağırışlarına adekvat olan yeni Azərbaycan dövlətçiliyi ideyasını formalaşdırmağa, həm də millətin ən geniş siyasi və intellektual qüvvələrini-bu ideyanı həyata keçirən, Azərbaycanı mütərəqqi inkişaf orbitinə çıxarmağa qabil olan əla idarəçilikləri və cəsarətli novatorları öz ətrafında sıx birləşdirməyə və onları bu məqsədə istiqamətləndirməyə müvəffəq oldu. Əliyev bunu hətta o vaxtda edə bildi ki, çoxları onun uğur qazanacağına inanmırdı, siyasi qeyri-sabitlik xaosu tarixi üfüqləri, tarixi perspektivləri görünməz etmişdi. Heydər Əliyev bunu bacarırdı". [1,3]

Qeyd etmək lazımdır ki, Azərbaycanı istər sovet dövründə, istərsə də müstəqillik illərində dünyaya tanıdan ermənilərin güclü təbliğat maşınının və ondan da güclü lobbisinin məkrli səyləri sayəsində ölkəmizi düşdüyü informasiya blokadasından məhz Heydər Əliyev çıxarmışdır.

Heydər Əliyev 1993-cü ildə Prezident kimi özünün ilk xarici səfərini Fransaya etmişdi ki, bu da təsadüfi deyildi. O, dekabrın 21-də Parisdə mətbuat konfransında demişdi: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycanla Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur. Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yalan təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələr, ikitərəfli münasibətlərin inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir. Mən belə düşünürəm ki, bu günlər ərzində biz bunu etməyə müvəffəq olduq. [2, 128]

Bu mənada "Daşnaksütyun" partiyasının lideri Z.Kirakosyan demişdi ki, Heydər Əliyev Ermənistanla yanaşı, dünyada erməni lobbisini də sarsıtdı. Həqiqətən də Heydər Əliyev bu sahədə o vaxt heç kəsin - nə siyasətçilərin, nə təbliğat qurumlarının, nə də kütləvi informasiya vasitələrinin

görə bilmədiyi işi gördü.

Heydər Əliyev o vaxtlar Azərinform adlanan agentliyin təkmilləşdirilməsi ilə bağlı konkret tapşırıqlar verir, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Məhz bunun nəticəsində Azərinform SSRİ-nin əsas informasiya orqanı olan SİTA sistemində çox nüfuzlu bir quruma çevrildi.

1972-ci ilin yayında Azərinform o dövr üçün müasir avadanlıqlarla təchiz edilmişdi. O dövr üçün bu asan məsələ deyildi. Lakin Heydər Əliyevin güclü nüfuzu və təsiri sayəsində bu məsələ həll edilmiş oldu. 70-ci illərdə SİTA özünün Moskvadakı baş ofisini kompüterləşdirməyə başlayanda, Heydər Əliyev hörmət əlaməti olaraq, Azərinformu da o dövr üçün ən yeni sayılan “Olivetti” kompüterləri ilə təchiz etmişdi. Cəmiyyətin həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi. Məhz Heydər Əliyevin sayəsində müstəqil Azərbaycanın informasiya agentliyi dünya informasiya məkanına çıxmış, Azərbaycan reallıqlarının yayılma coğrafiyası geniş vüsət almışdır. Tarixi şəxsiyyət olan görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycanın daimi və əbədi yaşaması uğrunda apardığı mübarizə unudulmazdır. Görkəmli şairimiz S.Vurğun demişdir:

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

## ƏDƏBİYYAT


1. Heydər Əliyevin İKT siyasəti müasir mərhələdə. “Azərbaycan” 2009, 10 may
2. O.Siqanov. Zamanı qabaqlamış Ümummilli lider. “Azərbaycan”, 2009 15 aprel.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. B.,1997.
4. Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası, Bakı 2009.



***Фируза Нуру Алиева***
***Ведущий научный сотрудник Института***
***Философии и Социологии НАНА,***
***Доктор философии по философии, доц.,***
***Преподаватель кафедры социальных наук и образования АКУ***
***firuza.eko@gmail.com***
***ORCID ID: 0000-0002-2990-2089***


## Стратегии Гейдара Алиева в средства массовой информации


***Резюме***

В статье отражено отношение Гейдара Алиева к средствам массовой информации, его роль в донесении правды Азербайджана до мирового информационного пространства. В то же время нашла свое отражение дальновидная политика, проводимая выдающимся государственным деятелем, общенациональным лидером в оснащении Азербайджана оборудованием информационно-коммуникационных технологий.


Общенациональный лидер азербайджанского народа Гейдар Алиев сыграл большую роль в всестороннем развитии СМИ в Азербайджане. Он умел вести за собой народные массы, умело использовать это слово при осуществлении важных для страны проектов, когда возникала необходимость направить заблудших на верный путь. Одним из величайших орудий выдающегося государственного деятеля было слово. Высоко оценивая роль средств массовой информации в жизни общества, Гейдар Алиев уделял большое внимание построению работы государственного информационного органа независимого Азербайджана на

уровне современных требований. Именно благодаря Гейдару Алиеву информационное агентство независимого Азербайджана вышло в мировое информационное пространство, получила широкое распространение азербайджанских реалий.

***Ключевые слова: мудрый, национальный лидер, провидец, феномен.***

***Firuza Nuru ALIYEVA***
***Leading researcher of the İnstitute of Philosophy of***
***Azerbaijan National Academy Of Sciences,***
***PhD in philosophy, associate professor ,***
***Teacher of the Department of Social Sciences and education AKU***
***firuza.eko@gmail.com***
***ORCID ID: 0000-0002-2990-2089***

**Heydar Aliyev strategy in mass media**

***Summary***

The article reflects the attitude of Heydar Aliyev to the mass media, his role in conveying the truth of Azerbaijan to the world information space. At the same time, the far-sighted policy pursued by an outstanding statesman, a national leader, found its reflection in equipping Azerbaijan with information and communication technology equipment.

The national leader of the Azerbaijani people Heydar Aliyev played a big role in the comprehensive development of the media in Azerbaijan. One of the greatest weapons of the outstanding statesman was the word. He was able to lead the masses of the people after himself, skillfully use the word in the implementation of important projects for the country, when it became necessary to guide someone who had gone astray on a straight path. He spoke to the people in such a way that every citizen accepted the words spoken to everyone addressed to him personally. Not every person could do this. Highly appreciating the role of mass media in the life of society, Heydar Aliyev paid great attention to the establishment of the work of the State Information body of independent Azerbaijan at the level of modern requirements. It was thanks to Heydar Aliyev that the Information Agency of independent Azerbaijan entered the world information space, and the dissemination of Azerbaijani realities became widespread.

***Key words: wise, National Leader, visionary, phenomenon.***

**UOT: 378.4**

***Tariyel Müsəllim oğlu QURBANOV***
***i.f.d. aparıcı elmi işçi,***
***AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu***
***tariyel188@mail.ru***

***Asif Mirlazım oğlu MUSTAFAYEV***
***i.f.d. aparıcı elmi işçi,***
***AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu***
***ORCID-ID:0000-0002-3989-1598***
***asif5252@rambler.ru***

**AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNTEQRASİYASININ PERSPEKTİVLƏRİ**

***Xülasə***

Təqdim olunmuş məqalə elm və təhsilin inteqrasiyasının perspektivlərinə həsr olunmuşdur. Məqalədə ilk olaraq qabaqcıl ölkələrin bu sahədə təcrübələrinə baxılır və Azərbaycanda onun

perspektiv imkanları qeyd edilir. Xüsusi ilə də ölkə başçısının 28 iyul 2022-ci ildə imzalamış olduğu fərman diqqətdə saxlanılmaqla müəyyən fikirlər irəli sürülmüşdür. Fərmanın imzalanması elm və təhsilin inteqrasiyasında yeni mərhələnin başlanğıcını qoydu.

***Açar sözlər: elm, təhsil, inteqrasiya, Azərbaycan, Finlandiya, Sinqapur və s.***

***

Elm və təhsilin inteqrasiyası elmi prinsiplərin, metodların və biliklərin təhsil sisteminə daxil edilməsi prosesinə aiddir. Təbiətdən sosial və humanitar sahələrə qədər müxtəlif fənlərdə biliklərin tədrisini və mənimsənilməsini yaxşılaşdırmaq üçün elmi konsepsiyaların istifadəsini əhatə edir.

Elm və təhsilin inteqrasiyası elmi məlumatları və fikirləri anlamaq, təhlil etmək-qiymətləndirmək bacarığı mənasını verən elmi savadlılığı inkişaf etdirməyə yönəlmişdir. Həm də tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə və maraq, təcrübə və dəlillərə əsaslanan düşüncəni təşviq edən elmi düşüncəni populyarlaşdırmağa yönəlmişdir.

Elm və təhsilin inteqrasiyası elmi mövzuların tədris planına daxil edilməsindən tutmuş elmi tədqiqatların tədris metodu kimi istifadəsinə qədər müxtəlif formalarda ola bilər. Bu, elmi anlayışları öyrətmək üçün simulyasiya və virtual laboratoriyalardan istifadə kimi texnologiyanın təhsil prosesinə inteqrasiyasını da əhatə edir.

Elm və təhsilin inteqrasiyasının əsas üstünlüklərindən biri də tələbələrin ətraf aləmə və cəmiyyətə təsir edən mürəkkəb problemləri daha dərindən anlamalarına kömək edə bilməsidir. Həm də onları iqlim dəyişikliyi, biotexnologiya və süni intellekt kimi 21-ci əsrin problemlərinə hazırlamaq məqsədi daşıyır. Ümumiyyətlə, davamlı və firavan gələcəyə töhfə verə biləcək elmli, savadlı və məlumatlı bir əhalinin formalaşması üçün elm və təhsilin inteqrasiyası olduqca vacibdur. Məhz bu baxımdan bu problem daima dövlətin və cəmiyyətin diqqət mərkəzində olmuşdur. Belə ki, 28 iyul 2022-ci ildə ölkə başçısının imzalamış olduğu "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı bu sahədə irəliyə doğru atılan ən ümdə addımlardan hesab olunmuşdur [1]. Ümumiyyətlə elm və təhsilin inteqrasiyası dünyanın müxtəlif ölkələrində və bölgələrində əhəmiyyətli dərəcədə dəyişən mürəkkəb bir məsələdir. Bəzi ölkələr elm və təhsilin inteqrasiyasında əhəmiyyətli irəliləyişlər əldə etdilər, digərləri isə hələ də bu sahədə problemlərlə üzləşməkdədirlər.

Elm və təhsili uğurla birləşdirən ölkənin bir nümunəsi Finlandiyadır. Finlandiya tez-tez elm və təhsili birləşdirən bir ölkənin uğurlu nümunəsi kimi göstərilir. Fin təhsil sistemi davamlı olaraq dünyanın ən yaxşılarından biri hesab olunur və elmin təhsilə yönəldilməsi bu müvəffəqiyyəti asanlaşdırdı. Finlandiyanın elm və təhsili birləşdirməsinə kömək edən əsas amillərdən biri də müəllim hazırlığı sistemidir. Finlandiyadakı bütün müəllimlərdən Təhsil üzrə magistr dərəcəsi tələb olunur və elmi pedaqogikada geniş təhsil alırlar. Bu, tələbələrə praktiki təcrübələr və tədqiqatlar vasitəsilə elmi anlayışları öyrənməyə imkan verən sorğuya əsaslanan təlim metodlarının öyrədilməsini əhatə edir.

Finlandiyanın təbiət elminə yanaşmasının digər vacib cəhəti onun bərabərlik və əlçatanlığa diqqət yetirməsidir. Fin məktəbləri bütün şagirdlərə sosial-iqtisadi mənşəyindən və coğrafi mövqeyindən asılı olmayaraq təbiət elmlərini öyrənmək üçün bərabər imkanlar verir. Bu, yaxşı təchiz olunmuş laboratoriyalar və texnologiyalar kimi yüksək keyfiyyətli resursların təmin edilməsi və müxtəlif öyrənmə ehtiyaclarını ödəyən inklüziv təlim metodlarından istifadə etməklə həyata keçirilir. Finlandiyanın elm-təhsil yanaşması müəllimlər, elm adamları və siyasətçilər kimi müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığı da əhatə edir. Bu əməkdaşlıq elmi təhsilin həm cəmiyyətin, həm də iqtisadiyyatın ehtiyaclarına uyğun olmasını təmin etməyə kömək edir [2].

Ümumiyyətlə, Finlandiyanın elm və təhsilin inteqrasiyasındakı müvəffəqiyyəti, güclü müəllim hazırlığı sistemi, bərabərlik və girişə vurğu və əməkdaşlığa əsaslanan yanaşma da daxil olmaqla amillərin birləşməsi ilə izah edilə bilər. Bu amillər fin tələbələri arasında elmi maraq və maraq mədəniyyətinin formalaşmasına kömək etdi ki, bu da ölkənin təhsildə ümumi uğuruna kömək etdi.

Başqa bir nümunə, elmi təhsil üçün yüksək qiymət alan Sinqapurdur. Sinqapur elm və təhsili uğurla birləşdirən bir ölkənin başqa bir nümunəsidir. Ölkə davamlı olaraq Beynəlxalq Tələbə Qiymətləndirmə Proqramı (PISA) kimi beynəlxalq qiymətləndirmələrdə elm təhsili sahəsində ilk yerlərdən birini tutur.

Sinqapurun elm təhsili sahəsində uğur qazanmasına səbəb olan əsas amillərdən biri də müəllim hazırlığına diqqət yetirməsidir. Sinqapurlu müəllimlər həm fənnin məzmunu, həm də tədris metodları haqqında bilikləri əhatə edən elmi pedaqogikada geniş təlim keçirlər. Bu təlim bir sıra davamlı təhsil proqramları və kursları vasitəsilə həyata keçirilir və müəllimlərə elmi təhsildə ən son inkişaflardan xəbərdar olmağa kömək edir. Sinqapurun elm təhsili yanaşmasının digər vacib cəhəti onun tədqiqata əsaslanan öyrənməyə diqqət etməsidir. Sinqapur məktəbləri şagirdlərə ən müasir laboratoriyalara və avadanlıqlara giriş imkanı verir və şagirdləri təcrübə və araşdırmalara təşviq edir. Bu yanaşma elmi konsepsiyaların dərindən başa düşülməsinə kömək edir və tənqidi düşüncə və problem həlletmə bacarıqlarını inkişaf etdirir. Sinqapur STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) təhsilinə də böyük diqqət yetirir. Ölkədə Tələbələr üçün interaktiv sərgilər və seminarlar təqdim edən Sinqapur elm mərkəzi və müəllimlər üçün təlim və mənbələr təklif edən Sinqapur STEM Akademiyası da daxil olmaqla bir sıra STEM təlim təşəbbüsləri və proqramları hazırlanmışdır [3].

Ümumiyyətlə, elm və təhsilin inteqrasiyası vahid yanaşma tələb edən çoxşaxəli bir məsələdir. Bu, müəllimlərin maliyyələşdirilməsi və hazırlanması kimi struktur və sistem maneələrinin və elm təhsili ilə əlaqəli mədəni və ictimai münasibətlərin aradan qaldırılmasını əhatə edir. Bununla birlikdə, uğurla həyata keçirildikdə, elm və təhsilin inteqrasiyası Tələbələr üçün daha yaxşı nəticələrə səbəb ola bilər və daha yenilikçi və davamlı cəmiyyətlərin inkişafına kömək edə bilər.

Elm və təhsilin inteqrasiyasını formalaşdıran bir neçə müasir tendensiya var. Bu tendensiyalar cəmiyyətin və iqtisadiyyatın dəyişən ehtiyaclarına və elm və texnologiyanın nailiyyətlərinə əsaslanır. Elm və təhsilin inteqrasiyasındakı əsas tendensiyalardan bəziləri bunlardır:

1. STEM təhsilinə diqqət: STEM təhsili (elm, texnologiya, mühəndislik və riyaziyyat) bu bacarıqlara sahib işçilərə tələb artdıqca getdikcə daha vacibdir. STEM təhsilinin kurrikuluma inteqrasiyası tələbələrə tənqidi düşüncə, problem həlletmə və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və onları STEM sahələrində karyeralarına hazırlamağa kömək edə bilər.

2. Rəqəmsal texnologiya: elmi təhsildə rəqəmsal texnologiyanın istifadəsi artmaqdadır və modelləşdirmə, virtual laboratoriyalar və məlumat təhlili proqramı kimi vasitələr getdikcə daha çox yayılmışdır. Bu texnologiyalar tələbələrə elmi anlayışları daha interaktiv və əyləncəli şəkildə öyrənməyə kömək edə bilər və fərdi öyrənmə imkanları təyin edə bilər.

3. Fənlərarası yanaşma: müxtəlif elmi fənlərin və tətbiqetmələrin real dünyada inteqrasiyasını əhatə edən elm təhsilinə fənlərarası yanaşmaların əhəmiyyətinin tanınması artmaqdadır. Bu, tələbələrə müxtəlif elm sahələri arasındakı əlaqələri görməyə və elmi anlayışlar haqqında daha vahid bir anlayış inkişaf etdirməyə kömək edə bilər.

4. Sorğuya əsaslanan öyrənmə: sorğuya əsaslanan öyrənmə tələbələrin elmi konsepsiyaları Praktiki təcrübələr və tədqiqatlar vasitəsilə fəal şəkildə öyrənməsini əhatə edir. Bu yanaşma tələbələrə elmi anlayışları daha dərindən başa düşməyə və maraq və yaradıcılıqlarını inkişaf etdirməyə kömək edə bilər.

5. Əməkdaşlıq: müəllimlər, elm adamları və sənaye mütəxəssisləri kimi müxtəlif maraqlı tərəflər arasında əməkdaşlıq elmi təhsildə getdikcə daha vacib hala gəlir. Bu, elm təhsilinin cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına uyğun olmasını təmin etməyə kömək edə bilər və tələbələrə öz biliklərini real həyatda tətbiq etmək imkanı verə bilər.

Ümumiyyətlə, elm və təhsilin inteqrasiyasındakı mövcud tendensiyalar tələbələri sürətlə dəyişən dünyanın tələblərinə hazırlamağa yönəlmişdir. STEM təhsili, rəqəmsal texnologiya, fənlərarası yanaşmalar, sorğu əsaslı öyrənmə və əməkdaşlığı birləşdirərək, elm təhsili tələbələrə 21-ci əsrdə uğur qazanmaq üçün lazım olan bacarıq və bilikləri inkişaf etdirməyə kömək edə bilər [4].

Azərbaycan son illərdə elm və təhsilin inteqrasiyasında əhəmiyyətli irəliləyiş əldə etməklə, elmi təhsilin keyfiyyətinin yüksəldilməsinə və STEM bacarıqlarının inkişafına xüsusi diqqət yetirib.

Azərbaycanın elm və təhsilin inteqrasiyasına yanaşmasında əsas təşəbbüslərdən biri də ölkədə baş elmi müəssisə kimi xidmət edən Azərbaycan Milli Elmlər Akademiyası hesab olunur. Akademiya elmi tədqiqat və təhsilin inkişafına böyük diqqət yetirməklə STEM bacarıqlarının inkişafını dəstəkləmək üçün universitetlər və digər qurumlarla sıx əməkdaşlıq edir.

Azərbaycanın elm və təhsilin inteqrasiyasına yanaşmasının digər mühüm cəhəti onun innova-

siya və sahibkarlığın inkişafına yönəlməsidir. Hökumət, ölkə daxilində startaplara və digər STEM müəssisələrinə qaynaq və dəstək verən bir sıra texnoloji parklar və innovasiya mərkəzləri yaratdı.

Gələcəyə baxaraq demək olar ki, Azərbaycanda elm və təhsilin inteqrasiyasının gələcək inkişafı üçün bir neçə perspektiv var. Bunlara daxildir:

1. STEM Təhsilinin Genişləndirilməsi: Tələbələrdə tənqidi düşüncə, problem həlletmə və ünsiyyət bacarıqlarının inkişafına vurğu ilə Azərbaycanda STEM təhsilinin miqyasının və dərinliyinin genişləndirilməsinə ehtiyac var.
2. Əməkdaşlığın genişləndirilməsi: STEM sahələrində İnnovasiya və sahibkarlığı təşviq etmək üçün universitetlər, tədqiqat institutları və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsinə ehtiyac var.
3. Qadınların iştirakını təşviq etmək: daha çox qadın tələbəni STEM təhsili və karyerasına təşviq etmək lazımdır, çünki hazırda qadınlar Azərbaycanda STEM sahələrində kifayət qədər təmsil olunmur.
4. Rəqəmsal texnologiyanın tətbiqi: onlayn resurslara, virtual laboratoriyalara və interaktiv və fərdiləşdirilmiş öyrənməni dəstəkləyə biləcək digər alətlərə çıxış təmin etməklə elm təhsilinə rəqəmsal texnologiyanın tətbiqinə ehtiyac var.

Ümumiyyətlə, Azərbaycan Elm və təhsilin inteqrasiyasında əhəmiyyətli nailiyyətlər əldə edib və yaxın illərdə gələcək inkişaf üçün imkanlar var. STEM təhsilini genişləndirməklə, əməkdaşlığı genişləndirməklə, qadınların iştirakını təşviq etməklə və rəqəmsal texnologiyaların tətbiqi ilə Azərbaycan ölkədə elmi-tədqiqat və innovasiyalar üçün möhkəm zəmin yaratmağa davam edə bilər.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 28 iyul 2022-ci il
2. Organisation for Economic Cooperation and Development (OECD). (2019). PISA 2018 Results (Volume I): What Students Know and Can Do. https://doi.org/10.1787/5f07c754-en
3. Ministry of Education Singapore. (2022). Science Education. Retrieved from https://www.moe.gov.sg/education/programmes/science-education
4. National Science Teachers Association (NSTA). (2020). The Future of Science Education: Trends and Priorities. https://www.nsta.org/resource/future-science-education-trends-and-priorities



***Тариэль Мусаллим оглы Гурбанов***
***к.э.н. ведущий научный сотрудник,***
***Министерство Науки и Образования АР Институт Экономики***
***tariyel188@mail.ru***

***Асиф Мирлазым оглы Мустафаев***
***к.э.н. ведущий научный сотрудник,***
***Институт Экономики Министерства Науки и Образования АР***
***ORCID-ID:0000-0002-3989-1598***
***asif5252@rambler.ru***


## Перспективы интеграции науки и образования в Азербайджане


***Резюме***

Представленная статья посвящена перспективам интеграции науки и образования. В статье впервые рассматривается опыт передовых стран в этой области и отмечаются ее перспективные возможности в Азербайджане. В частности, были выдвинуты определенные идеи с учетом указа, подписанного главой страны 28 июля 2022 года. Можно сказать, что подписание указа положило начало новому этапу интеграции науки и образования.



***Ключевые слова: наука, образование, интеграция, Азербайджан, Финляндия, Сингапур и др.***

***Tariyel Musallim Gurbanov***
***p.h.d. leading researcher,***
***AR Ministry of Science and Education Economic Institute***
***tariyel188@mail.ru***

***Asif Mirlazim Mustafayev***
***i.f.d. leading researcher,***
***AR Ministry of Science and Education Institute of Economics***
***ORCID-ID: 0000-0002-3989-1598***
***asif5252@rambler.ru***

**Prospects for the integration of science and education in Azerbaijan**

***Summary***

The presented article is devoted to the prospects for the integration of Science and education. The article first examines the experience of leading countries in this area and notes its promising opportunities in Azerbaijan. In particular, certain opinions were put forward by keeping in mind the decree signed by the head of the country on July 28, 2022. It can be said that the signing of the decree marked the beginning of a new stage in the integration of Science and education.

***Key words: science, education, integration, Azerbaijan, Finland, Singapore, etc.***

**UOT: 331.101 (004:33)**

***Кифаят Аслан кызы Худавердиева***
***Доцент Азербайджанский Государственный***
***Экономический Университет***
***ORCİD-İD 0009-0005-1930-4172***
***e-mail: kifayat60@mail.ru***

# ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ В АЗЕРБАЙДЖАНЕ – РОЛЬ ИННОВАЦИЙ В ЦИФРОВОМ ОБРАЗОВАНИИ

***Резюме***

Основной целью исследования является изучение основ инновационной деятельности промышленных предприятий и роли человеческого капитала в расширении их инновационной деятельности. В ходе исследования использовался метод теоретического анализа. Инновации являются источником стабильного экономического роста в современной экономике. Инновационная деятельность в промышленности является особым видом экономической деятельности. В целом возрастающие требования к обеспечению эффективности экономических процессов и устойчивости экономической системы обусловливают необходимость инноваций в регулируемом интенсивном развитии. В целях повышения инновационной активности в промышленности страны приоритетной задачей является формирование и совершенствование механизмов развития человеческого капитала на предприятиях, инвестирование в кадры, способные создать ценность для предприятия в будущем, и грамотное управление ими. проблема. Основной целью развития человеческого капитала является приоритет местного научного и трудового потенциала в предпринимательстве в результате повышения инновационной активности в отрасли. Считать, что инновационная деятельность в отрасли имеет большое значение для укрепления позиций экономики страны на мировом рынке или поддержания экономического роста.

***Ключевые слова: человеческий капитал, промышленность, стоимость, инновации, эффективность.***

***

В результате технологического развития предприятия постоянно находятся в процессе изменений и инноваций, чтобы продолжить свое существование и усилить свою деятельность в условиях обострения конкуренции. На современном этапе, в результате воздействия

глобализации и информационной экономики, в сферах бизнеса определяется множество новых понятий и понятий, вновь совершенствуются существующие понятия. [1,стр249]

При переходе от индустриальной экономики к информационной экономике изменения, происходившие в политической, социокультурной, экономической и технологической сферах, естественно, не обошли стороной и предприятия. В этом процессе изучение концепции человеческого капитала является одним из приоритетных вопросов. В частности, следует отметить, что рынки все больше меняются, конкуренция усиливается, различия между продуктами и услугами уменьшаются, информация становится важной силой, и этот фактор привлекает внимание делового мира к человеческому капиталу как к структуре, которая создает разницу и может добавить ценности предприятию — это ценность человеческих знаний. Другими словами, человеческий капитал – это сам человек. В связи с этим основной целью статьи является рассмотрение роли человеческого капитала на предприятии.[2-16]

Человеческий капитал является важнейшим компонентом экономического развития и роста. Это относится к знаниям, навыкам, способностям и опыту, которыми обладают люди и которые позволяют им выполнять труд, чтобы производить экономическую ценность. Одним из наиболее эффективных способов наращивания человеческого капитала является образование и обучение. Это включает формальное образование, такое как начальное, среднее и высшее образование, а также профессиональную подготовку, ученичество и другие формы обучения на рабочем месте. Образование и профессиональная подготовка могут вооружить людей знаниями и навыками, необходимыми им для достижения успеха на рынке труда и адаптации к изменениям на рынке труда. [3, стр 428]

Инновации и человеческий капитал являются тесно связанными понятиями в отрасли. Инновации относятся к разработке новых или улучшенных продуктов, процессов и систем, а человеческий капитал относится к знаниям, навыкам и способностям людей, которые позволяют им выполнять труд и создавать экономическую ценность. Человеческий капитал является ключевым двигателем инноваций. Квалифицированные и знающие работники лучше оснащены для выявления и решения сложных проблем, разработки новых идей и улучшения существующих продуктов и процессов. В свою очередь, инновации могут стимулировать развитие человеческого капитала. Компании, которые инвестируют в исследования и разработки и продвигают инновации, могут предоставить своим сотрудникам возможность развивать новые навыки и знания, тем самым увеличивая свой человеческий капитал. [4, стр 219]

Для инноваций необходима высококвалифицированная и знающая рабочая сила, а инновации стимулируют развитие человеческого капитала. Компании и отрасли, которые отдают приоритет инвестициям как в инновации, так и в человеческий капитал, скорее всего, будут более конкурентоспособными, адаптируемыми и успешными в долгосрочной перспективе.

Инновации являются одним из основных показателей в обеспечении развития предприятий, регионов и экономики в целом. Инновации можно охарактеризовать как фундаментальный фактор глобальных изменений, происходящих в мире. Это культура инноваций, изменений и дифференциации, основанная на глобальной информационной практике, основанная на глобальных связях и направленная на то, чтобы выйти за рамки существующего научного признания.

Инновационный потенциал предприятия формируется в результате соединения его внутреннего инновационного потенциала с внешними инновационными источниками. Внутренний инновационный потенциал промышленных предприятий – это человеческий капитал, который состоит из знаний и опыта, умений и качеств, способов управления имеющимися ресурсами. [5 ,стр 216]

Внешний инновационный потенциал промышленных предприятий – это наличие конкуренции, научно-исследовательских подразделений, внешних источников финансирования. Практика успешно развивающихся предприятий подтверждает, что сегодня выживают те, кто быстрее реагирует на изменения и постоянно внедряет инновации.




**Схема 1. Ведущие стратегические направления по человеческому капиталу**
**Источник: Подготовлено автором**

Конкуренция за качественный человеческий капитал является главной чертой мирового инновационного развития, она обеспечивает повышение гибкости высококвалифицированных кадров и процесса обмена знаниями. Человеческий капитал считается основным фактором развития современного предприятия. [6, стр. 270]

В экономической литературе упоминается о существовании трех видов человеческого капитала: человеческий капитал, пригодный для фирмы, человеческий капитал, подходящий для отрасли, и индивидуальный человеческий капитал. Первые два вида человеческого капитала имеют ограниченное влияние на инновационную деятельность в регионе или государстве, касаясь только навыков и знаний, которые считаются ценными в конкретной фирме или отрасли. В отличие от этих двух людей, индивидуальный человеческий капитал относится к знаниям, которые применимы к широкому кругу фирм и отраслей.[7, стр 283]

Формирование человеческого капитала в отрасли относится к процессу развития и совершенствования навыков, знаний и способностей сотрудников для повышения их производительности и общей производительности. Этого можно достичь с помощью различных подходов, включая формальное образование и программы обучения, обучение на рабочем месте и непрерывное профессиональное развитие. [8-23]

Инновационный подход к формированию человеческого капитала в отрасли может включать использование технологий для повышения качества обучения. Эти симуляции также можно настроить в соответствии с конкретными потребностями каждого сотрудника, предоставляя индивидуальный опыт обучения, соответствующий их индивидуальным требованиям. Еще одним инновационным подходом к формированию человеческого капитала в отрасли может быть внедрение модели непрерывного обучения, в которой сотрудникам предлагается постоянно совершенствовать свои навыки и знания на протяжении всей своей карьеры. Этого можно достичь с помощью онлайн-курсов, семинаров и других программ обучения, а также регулярных обзоров эффективности и сеансов обратной связи. Эта модель не только дает сотрудникам возможность учиться и расти, но и позволяет компании быть в курсе последних отраслевых тенденций и технологических достижений.[9-11]

Кроме того, компании также могут поощрять своих сотрудников брать на себя ответственность за собственное обучение и развитие, предоставляя им ресурсы и поддержку, необходимые им для достижения своих целей. Это может включать, среди прочего, доступ к платформам онлайн-обучения, программам наставничества и грантам на профессиональное развитие. Предоставляя сотрудникам возможность контролировать свой рост и развитие, компании могут культивировать культуру постоянного совершенствования и инноваций.

Человеческий капитал считается основным фактором развития современной экономики. Человеческий капитал – это экономическая категория, характеризующая знания, навыки, способности и другие превосходящие стороны личности, обладающие личностными качествами, позволяющими создавать индивидуальное, социальное и экономическое благополучие. [10-13]

## ЛИТЕРАТУРА


1. Yalçın vd., (2019) «Исследование влияния изменений в образовании», Niğde Üniversitesi İİBF Dergisi, Vol:2, Sayı: 1, p.249
2. Беккер, Г. (2021). Человеческий капитал. Нью-Йорк: Национальное бюро экономических исследований.
3. Гагацка М., (2017) Человеческий и социальный капитал и инновационность микропредприятий, Варшава, стр. 428.
4. Доманский С.Р., (2020) Человеческий капитал и экономический рост, PWN, Варшава, стр. 219.
5. Матур, В. К. (2019) «Стратегия регионального экономического развития, основанная на человеческом капитале», Ежеквартальный журнал экономического развития, 13 (3), стр. 216.
6. Орлов А.И., Орлова Л.А. (2020) Современные подходы к инновационному менеджменту и инвестициям // Экономика XXI века. - #12. стр. 270
7. Соете, Л. (2021) «От промышленной к инновационной политике», Журнал промышленности, конкуренции и торговли, 7 (3–4), стр. 283.
8. https://geostrategiya.az/news.php?id=54
9. https://www.investopedia.com/terms/h/humancapital.asp
10. https://www.worldbank.org/en/publication/human-capital/brief/the-human-capital-project-frequently-asked-questions



***Kifayət Aslan qızı Xudaverdiyeva***
***dosent, Azərbaycan Dövlət İqtisad Universiteti***
***e-mail: kifayat60@mail.ru***


## Azərbaycanda insan kapitalı - rəqəmsal təhsildə innovasiyaların rolu


### *Xülasə*

Sənaye müəssisələrinin innovativ fəaliyyətinin əsaslarını və onların innovativ fəaliyyətinin genişləndirilməsində insan kapitalının rolunu öyrənməkdir. Araşdırma zamanı nəzəri təhlil metodundan istifadə edilmişdir. Müasir dövrdə iqtisadiyyatda sabit iqtisadi artımın mənbəyi innovasiyalardır. Sənayedə innovativ fəaliyyət iqtisadi fəaliyyətin xüsusi növüdür. Ümumiyyətlə, iqtisadi proseslərin səmərəliliyinin və iqtisadi sistemin dayanıqlığının təmin edilməsinə artan tələblər tənzimlənən intensiv inkişafda innovasiyaları zəruri edir. Ölkə sənayesində innovativ fəallığın artırılması məqsədilə müəssisələrdə insan kapitalının inkişafı mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsi, gələcəkdə müəssisə üçün dəyər yarada biləcək kadrlara investisiya qoyuluşu və onların səriştəli idarə olunması prioritet məsələdir. İnsan kapitalının inkişafının əsas məqsədi sənayedə innovativ fəallığın artması nəticəsində sahibkarlıq fəaliyyətində yerli tədqiqat və əmək potensialının prioritetləşdirilməsidir. Nəzərə alaq ki, sənayedə innovativ fəaliyyət ölkə iqtisadiyyatının

dünya bazarında mövqelərinin möhkəmlənməsində və ya iqtisadi artımın qorunub saxlanılmasında böyük əhəmiyyət kəsb edir.
***Açar sözlər: insan kapitalı, sənaye, xərc, innovasiya, səmərəlilik.***

***Kifayat Aslan Khudaverdieva***
***docent, Azerbaijan State Economic University***
***e-mail: kifayat60@mail.ru***

**Human capital in Azerbaijan - the role of innovations in digital education**

***Summary***

The main purpose of the study is to study the basics of innovative activity of industrial enterprises and the role of human capital in expanding their innovative activity. The method of theoretical analysis was used during the study. Innovations are the source of stable economic growth in the modern economy. Innovative activity in industry is a special type of economic activity. In general, the growing requirements for ensuring the efficiency of economic processes and the sustainability of the economic system necessitate innovation in regulated intensive development. In order to increase innovative activity in the country's industry, the priority task is to form and improve mechanisms for the development of human capital in enterprises, invest in personnel that can create value for the enterprise in the future, and competently manage them. problem. The main goal of human capital development is the priority of local scientific and labor potential in entrepreneurship as a result of increasing innovative activity in the industry. To consider that innovative activity in the industry is of great importance for strengthening the position of the country's economy in the world market or supporting economic growth.
***Key words: human capital, industry, cost, innovation, efficiency.***

**UOT 376**

***Hafizə Mobil qızı ABDİNOVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***Filologiya üzrə fəlsəfə doktoru, "Tərcümə" kafedrası***
***Bakı, Azərbaycan Respublikası***
***E-mail:Abdinova2017@mail.ru***
***ORCID ID:0009-0006-3924-1743***

***Şəfa Ələt qızı ABDULLAYEVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***Baş müəllim, "Tərcümə" kafedrası***
***Bakı, Azərbaycan Respublikası***
***E-mail: shafa19791@mail.ru***
***ORCID ID: 0009-0004-8644-2455***

**MULTİKULTURAL AZƏRBAYCAN MÜƏLLİMİ HEYDƏR ƏLİYEV PRİZMASINDA**

***Xülasə***

Hər zaman olduğu kimi təhsilin öndə duran vəzifələrindən biri peşəkar kadrların hazırlanması və bu istiqamətdə mühüm işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsidir. Bu mənada mədəni, əxlaqi, multikultural tələblərə cavab verən yüksək ixtisaslı, təhsildə innovativ inkişaf üçün bilik və bacarıqlar toplusunu təqdim etmək iqtidarında olan müəllimlər böyük önəm kəsb edir.

Məqalədə qarşıya qoyulan əsas məqsəd ölkəmizin tədris müəssisələrində multikultural müəllimin obrazının, tələbələrə dərsi ötürmə bacarıqlarının müəyyən edilməsi və multikultural mühitdə səmərəli fəaliyyət və ünsiyyət qura bilməyi bacaran gələcək müəllimlərin hazırlanmasıdır. Bunun

üçün multikultural müəllim bu kimi keyfiyyətlərə malik olmalıdır: hər bir mədəniyyətə uyğun davranış bacarığı; müxtəlif etnik qruplardan olan kollektivdə qarşılıqlı, yaradıcı fəaliyyət təşkil etmək və tələbələrin mədəniyyətlə bağlı bilik və bacarıqlarını zənginləşdirmək bacarığı; etnik mənsubiyyətinə görə tələbələrin qavrayış və davranışının psixoloji xüsusiyyətlərini bilmək və nəzərə almaq bacarığı; təhsil prosesinin multikultural oriyentasiyasını təmin etmək, kollektivdə mədəniyyətlərarası münaqişələri proqnozlaşdırmaq, qarşısını almaq və həll etmək bacarığı və s.

***Açar sözlər: multikulturalizm, multikultural müəllim, multikultural metodika, tolerantlıq, mədəniyyətlərarası ünsiyyət***

***

Dünyada sürətlə dəyişən, bir-birini əvəzləyən reallıqlar fonunda bəzən gözləmədiyimiz hadisələrlə, faktlarla üz-üzə qalır, baş vermiş gerçəkliklərin təhlilini sona çatdırmadan yeniləri ilə üzləşirik. Lakin istənilən halda yeni dünya nizamı üçün alternativi olmayan bir reallıq vardır ki, onu nəzərə almadan proseslərin arzu olunan məcraya yönəldilməsi mümkünsüz görünür. Bu, multikulturalizm məfkurəsi, onun cəmiyyətdə təcəssüm olunması tələbidir. Sözü gedən bu sadə həqiqəti nəzərə almadan ümumdünya məkanında qarşılıqlı razılığa, ədalətli tarazlığa nail olmaq çətindir.

Multikulturalizm müxtəlif etnik mədəniyyətlərin qarışdığı qlobal inteqrasiya prosesidir. Bu proses Azərbaycandan da yan ötməyib. Azərbaycan müxtəlif millətlərin və xalqların bir – birilə qarşılıqlı inteqrasiya şəraitində yaşadığı və anlaşdığı multikultural ölkədir. Bunun bariz nümunəsi kimi, hal- hazırda Azərbaycan Respublikasında yaşayan bir sıra xalqları təmsil edən insanların öz doğma dillərində, eləcə də istədikləri digər dillərdə danışmalarını göstərə bilərik. Demək olar ki, onların hamısı yaşadıqları ölkəyə hörmət əlaməti olaraq dilimizə də mükəmməl şəkildə yiyələnmişlər. Onlar bu dildən həmçinin Azərbaycanda yaşayan digər millətlərin nümayəndələrilə ünsiyyət qurmaq üçün ortaq dil vasitəsi kimi istifadə edirlər.

Ölkəmizin etnik-mədəni siması müxtəlifdir. Bəzən müxtəlif etnik qruplar arasında münasibətlərdə tolerantlığın olmaması, bir tərəfdən etnik zəmində baş verən münaqişələr sosial amillərin nəticəsidirsə, digər tərəfdən gənc nəslin multikultural təhsilinə etinasızlıqdır. Multikultural dünya və çoxmillətli Azərbaycan dövləti kontekstində multikultural təhsil müasir təhsilin mühüm hissəsinə çevrilir ki, bu da tələbələrə başqa mədəniyyətlər haqqında məlumat əldə etməyə, xalqların adət-ənənələrində, həyat tərzində, mədəni dəyərlərində ümumi və xüsusi cəhətləri anlamağa, tələbələri digər mədəniyyət sistemlərinə hörmət ruhunda tərbiyə etməyə kömək edir, eləcə də müəllimin pedaqoji mədəniyyətinin tərkib hissəsinə çevrilir.

Öz fəaliyyətində multikulturalizm prinsiplərini həyata keçirən bir pedaqoq mədəni dəyərlərə hörmət etmək, dialoq aparmaq, əməkdaşlıq yaratmaq, tolerantlığı təbliğ etmək, etnik ayrı-seçkiliyi aradan qaldırmaq kimi bacarıqları ehtiva etməlidir. Multikultural müəllim tələbələrə multikultural keyfiyyətləri aşılayan, multikulturallığın məqsəd və vəzifələrini fəal şəkildə həyata keçirməyə istiqamətləndirən bir insandır. O, aşağıdakı vəzifələri öz üzərinə götürməlidir:

- şagird və ya tələbələr arasında istənilən fərqliliyin tolerantlıqla qəbul edilməsi, qarşılıqlı hörmət hissinin yaradılması;
- münaqişələrin sülh yolu ilə həll edilməsinin izahı;
- tələbələrə öz şəxsiyyətlərini dərk edib qəbul etmələrində istiqamətin verilməsi;
- tənqidi düşünmənin aşılanması;
- məsələlərə yaradıcı baxışın öyrədilməsi və s.

Öncəliklə qeyd etmək istərdik ki, həm cəmiyyətdə, həm də təhsildə etnik-mədəni fərqliliyin aradan qaldırılmasında, tolerantlıq münasibətlərinin formalaşmasında və beləcə multikultural mühitin yaradılmasında demək olar ki, müəllim birbaşa məsul şəxsdir.

Bəs multikultural müəllim hansı keyfiyyətləri daşımalıdır? Əvvəlcə onu qeyd edək ki, burada bir sıra multikultural keyfiyyətlərdən söhbət gedir ki, onlar da daima bir-biri ilə vəhdət təşkil edir. Multikultural müəllimdən danışarkən onun şəxsi keyfiyyətləri böyük əhəmiyyət kəsb edir. Belə ki, o, yüksək mədəni keyfiyyətlərə malik olmalı, davranışlarında multikulturalizmin xüsusiyyətlərini əks etdirməlidir. O, multikulturalizmlə bağlı kifayət qədər bilik və bacarıqlara malik olmalıdır, daima üzərində işləyərək multikultural təhsil sisteminin müasir tələblərinə cavab verməlidir. Multikultural müəllimin səriştəliliyi dedikdə təhsil alanlara multikultural təhsil aşılamaq, sinifdə müx-

təlif millətlərin nümayəndələri arasında dostcasına münasibətlər əldə etməyə nail olmaq, yaranan problemlərə multikultural prizmadan baxıb onları qarşılıqlı razılaşma yolu ilə həll etmək nəzərdə tutulur.

Yuxarıda sadaladığımız multikultural müəllimin əsas keyfiyyətlərini ümumiləşdirsək belə bir sıralama əldə etmiş oluruq: psixoloji, pedaqoji və sosial-mədəni faktorlar. Bu faktorlara pedaqoji mədəniyyət faktorunu da artırmaqla multikultural müəllimin əsas keyfiyyətlərini tamamlamış oluruq.

Danılmaz bir faktdır ki, insan mədəniyyəti çoxşaxəlidir. "Şəxsiyyət mədəniyyəti" anlayışı onun inkişaf və kamillik dərəcəsini, o cümlədən insanın tərbiyə və təhsil prosesində əldə etdiyi bilik, xarakter, yaddaş və təxəyyül keyfiyyətlərini ehtiva edir. Hər bir mədəni insanın keyfiyyətləri istənilən peşəkar müəllim üçün böyük əhəmiyyət kəsb edir. Onun yetişdirdiyi tələbələrin mədəniyyət səviyyəsi müəllimin ümumi mədəniyyət səviyyəsinin göstəricisidir. Daxili və xarici mədəniyyətin bilavasitə müəllim peşəsi ilə bağlı olan xüsusi cəhətləri var. Bu aspektlərə, pedaqoji nəzəriyyə və əlaqəli elmlər sahəsində erudisiya, tələbələrin tədrisində və tərbiyəsində liderlik mədəniyyəti, müəllimin peşəkar nitq mədəniyyəti və onun pedaqoji taktı, multikultural təhsil daxildir [4].

Peşəkar bilik - bacarıq və bacarıqların elmi əsaslandırılmış tərkibini əks etdirən müəllimin səriştəsinin normativ modelini təmsil edir. Müəllimin peşəkar səriştəsi pedaqoji mədəniyyətin məzmunudur. Pedaqoji fəaliyyətin strukturunda bir-biri ilə əlaqəli üç komponent var: konstruktiv, təşkilati və kommunikativ. Bu pedaqoji fəaliyyətin funksional növlərinin uğurla həyata keçirilməsi üçün xüsusi bacarıqlara ehtiyac duyulur.

Konstruktiv fəaliyyət, öz növbəsində üç hissəyə bölünür: konstruktiv və mənalı (tədris materialının seçilməsi və tərtibi, pedaqoji prosesin planlaşdırılması və qurulması), konstruktiv-operativ (öz hərəkətlərinin və tələbələrin hərəkətlərinin planlaşdırılması), konstruktiv və maddi (pedaqoji prosesin tədris və maddi bazasının layihələndirilməsi).

Təşkilati fəaliyyət tələbələri müxtəlif fəaliyyətlərə cəlb etməyə, komanda yaratmağa və birgə fəaliyyət göstərməyə yönəlmiş hərəkətlər sisteminin həyata keçirilməsini nəzərdə tutur.

Kommunikativ fəaliyyət müəllim və şagirdlər, tələbələr, digər müəllimlər, ictimaiyyət nümayəndələri və valideynlər arasında pedaqoji məqsədəuyğun münasibətlərin qurulmasına yönəldilmişdir [2, s.15].

Müəllimin peşəkar səriştəsi onun nəzəri və praktiki hazırlığının vəhdəti kimi təqdim edilə bilər:

- Pedaqoji tapşırıqlar qoymaq bacarığı,
- Pedaqoji qarşılıqlı əlaqə metodlarını proqramlaşdırma bacarığı,
- Pedaqoji fəaliyyət göstərmək bacarığı,
- Pedaqoji problemin həlli prosesini və nəticələrini öyrənmək bacarığı və s.

Müəllimlik təkcə bir peşə deyil, onun mahiyyəti həm bilik ötürmək, şəxsiyyət yetişdirmək və həm də insanda şəxsiyyəti təsdiqləmək kimi yüksək bir missiyadır. Ulu öndər H. Əliyev əbəs yerə deməyib:

*Mən dünyada müəllimdən yüksək ad tanımıram.*

*Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.*

*Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir.*

*Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.*

*Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq [1, s. 4].*

Bu baxımdan pedaqoji təhsilin məqsədi, xarakterizə olunan müəllimin davamlı və peşəkar inkişafı kimi təqdim edilə bilər:

- vətəndaşlıq məsuliyyəti və sosial fəaliyyət;
- uşaqlara sevgi və onlara ürəyini vermək bacarığı;
- həqiqi zəka, mənəvi mədəniyyət, başqaları ilə birlikdə işləmək arzusu və bacarığı;
- yüksək peşəkarlıq, elmi və pedaqoji təfəkkürün innovativ üslubu, yeni dəyərlər yaratmağa və yaradıcı qərarlar qəbul etməyə hazır olmaq;

- özünü daimi təhsilə həsr etmək və hər zaman buna hazır olmaq;
- fiziki və psixi sağlamlıq, yüksək peşəkarlıq.

Yuxarıda qeyd olunduğu kimi, multikultural müəllim obrazı özündə müxtəlif ölkələrdən olan insanlarla ünsiyyət qurmaq bacarığı, multikultural təhsil üzrə bilik və bacarıqlar toplusu, təhsil texnologiyalarından xəbərdar olmaq, təhsil məkanında müvafiq fəaliyyət növlərini həyata keçirmək kimi bacarıq və xüsusiyyətləri cəmləşdirir. Həmçinin dünya müstəvisində multikultural müəllim dedikdə qarşı tərəfin müxtəlif yönümlü fərqliliklərinə tolerantlıq, etik və hüquqi mədəniyyət nümayiş etdirərək, asanlıqla ünsiyyət qurma, mübahisədən qaçınma, güzəştə getmə bacarıqlarına malik təcrübəli və peşəkar şəxs nəzərdə tutulur. Multikultural müəllimin həmçinin sadaladığımız xüsusiyyətləri tələbələrə çatdırmaq səriştəsi də yüksək olmalıdır ki, gələcək kadrların multikultural mədəniyyətlərinin nə dərəcədə yüksək olub-olmaması birbaşa onların öhdəsinə düşür.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanın da özünəməxsus multikultural müəllim obrazı vardır:

1. Tələbələrdə mədəniyyətlərarası anlayışı qəbul edir;
2. Tələbələrdə digər insanlara qarşı dostcasına münasibəti inkişaf etdirə bilir;
3. Sinifdə müxtəlif mədəniyyətlərin vasitəçisi rolunu oynamağı bacarır;
4. Mədəni dəyişiklikləri qəbul edə və tənqidi yanaşa bilir;
5. Tələbələrdə mədəni fərqliliklərə qarşı tolerant münasibəti tərbiyə edə bilir [3].

Ümumiyyətlə multikultural müəllimin xüsusiyyətlərinə onun şəxsi keyfiyyətləri təsir göstərməkdədir. Təbii olaraq belə bir keyfiyyətlərə malik olan mütəxəssislər dünyada yaşayan müxtəlif xalqlar arasındakı fərqliliyə tolerant münasibət bəsləyən, müsbət yanaşan gənc nəsli yetişdirə biləcəkdir.

## ƏDƏBİYYAT


1. Ulu öndər Heydər Əliyev təhsil haqqında. "Azərbaycan müəllimi" - 2010. - 10 dekabr.- s.4.
2. Зайцев, В. С. Поликультурное образование в системе профессиональной подготовки студентов – будущих педагогов. Учебное-методическое пособие. Издательство «Библиотека А. Миллера», 72 с.
3. https://multiculturalism.preslib.az/az_a4.html
4. https://www.academia.edu/59081386/Az%C9%99rbaycan_Multikulturalizmi



***Нафиза Мобил кызы Абдинова***
***Азербайджанский Университет Кооперации***
***Доктор философии по филологи кафедры перевода***
***Баку, Азербайджанская Республика***
***Электронная почта: Abdinova2017@mail.ru***
***ORCID ID:0009-0006-3924-1743***

***Шафа Алат кызы Абдуллаева***
***Азербайджанский Университет Кооперации***
***Старший преподаватель кафедры перевода***
***Баку, Азербайджанская Республика***
***Электронная почта: shafa19791@mail.ru***
***ORCID ID: 0009-0004-8644-2455***


# Поликультурный Азербайджанский педагог в призме Гейдара Алиева


***Резюме***

Как всегда, одной из первостепенных задач образования является подготовка профессиональных кадров и качественное выполнение важной работы в этом направлении. В этом смысле большое значение имеют высококвалифицированные педагоги, отвечающие культурным, нравственным, поликультурным требованиям и способные представить комплекс

знаний и умений для инновационного развития в образовании.

Основной целью исследования является определение имиджа поликультурного педагога в образовательных учреждениях нашей страны, способности донести урок до учащихся, и в то же время одной из важнейших задач, стоящих перед педагогом, является подготовка будущего учителя, способного эффективно общаться в поликультурной среде. Для этого поликультурный педагог должен обладать следующими качествами: способность к культуросообразному поведению; умение организовать совместную, творческую деятельность в коллективе из разных этносов и обогащать знания и умения учащихся, связанные с культурой; умение знать и учитывать психологические особенности восприятия и поведения учащихся в силу их этнической принадлежности; умение обеспечивать поликультурную направленность образовательного процесса, прогнозировать, предупреждать и разрешать межкультурные конфликты в коллективе и т.д.

***Ключевые слова: поликультурность, поликультурный педагог, поликультурная методика, толерантность, межкультурная коммуникация.***

***Hafiza Mobil Abdinova***
***Azerbaijan Cooperation University***
***Doctor of Phylosophy in Phylology, Department of Translation***
***Baku, Republic of Azerbaijan***
***E-mail: Abdinova2017@mail.ru***
***ORCID ID: 0009-0006-3924-1743***

***Shafa Alat Abdullaeva***
***Azerbaijan Cooperation University***
***Senior Lecturer, Department of Translation***
***Baku, Republic of Azerbaijan***
***E-mail: shafa19791@mail.ru***
***ORCID ID: 0009-0004-8644-2455***

## Multicultural Azerbaijani Teacher in the Prism of Heydar Aliyev

***Summary***

As always, one of the main tasks of education is the training of professional personnel and the high-quality performance of important work in this direction. In this sense, highly qualified teachers who meet cultural, moral, multicultural requirements and are able to present a set of knowledge and skills for innovative development in education are of great importance.

The main goal of the article is to determine the image of a multicultural teacher in the educational institutions of our country, the ability to teach students, and to prepare future teachers who can effectively work and communicate in a multicultural environment. For this, a multicultural teacher should have the following qualities: the ability to behave according to each culture; the ability to organize mutual, creative activities in a team from different ethnic groups and to enrich students' knowledge and skills related to culture; the ability to know and take into account the psychological characteristics of students' perception and behavior due to their ethnicity; the ability to ensure multicultural orientation of the educational process, to predict, prevent and resolve intercultural conflicts in the team, ans so on.

***Key words: multiculturalism, multicultural teacher, multicultural methodology, tolerance, intercultural communication.***

UOT: 31633

***Tural Mahmud oğlu SALIFOV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Aqrar sahənin və sənayenin iqtisadiyyatı”***
***kafedrasının baş müəllimi, s.ü.f.d.,***
***E-mail: tural_salifov@mail.ru***

# AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xülasə***

Məqalədə Azərbaycanın müasir təhsil sistemində keçirilmiş islahatlar, Azərbaycan elminin və təhsilin inkişafında H.Əliyev siyasətinin rolu tədqiq edilmiş, təhsilin inkişaf göstəricilərinin müqayisəli qiymətləndirilməsi aparılmışdır. Həmçinin məqalədə ölkəmizin milli kadr potensialının formalaşdırılması, təhsilin milliləşdirilməsi proseslərindən başlayaraq müasir təhsil sisteminə keçidin xüsusiyyətləri öz əksini tapmışdır.

***Açar sözlər: təhsilin milliləşdirilməsi, milli kadr potensialı, insan potensialı indeksi, rəqabətli insan kapitalı, rəqəmsal səriştələr.***

***

Hər bir ölkənin müstəqilliyinin saxlanılmasında, milli iqtisadi uğurlarında və insan kapitalının inkişafında təhsil sistemi və təhsil siyasəti əhəmiyyətli rola malikdir. *“Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır.”* Digər sahələrdə olduğu kimi Ulu öndər Heydər Əliyev ölkəmizdə təhsilin milliləşdirilməsi prosesinə, milli Azərbaycan elminin inkişafına və milli kadr potensialının formalaşdırılmasına xüsusi diqqət və qayğı göstərmişdir. Ulu öndərin həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində Azərbaycanın bugünkü təhsil siyasətinin təməli qoyulmuş və bu gün uğurla davam etdirilməkdədir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına töhfəsi XX əsrin 80-ci illərindən başlamışdır. Həmin illərdə Azərbaycanın təhsil sisteminə rəhbərlik edən H.Əliyev ilk dəfə olaraq Azərbaycanlı gənclərin ölkədən kənar yerlərdə təhsil almaları üçün böyük təşəbbüs göstərmişdir. Belə ki, həmin dövrlərdə SSRİ-nin iri şəhərlərində yerləşən 170-dən artıq tanınmış, nüfuzlu ali məktəblərdə 15 mindən artıq azərbaycanlı gəncin təhsil alması təmin edildi. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanması prosesi ölkəmiz üçün vacib addım idi. Həmin gənclər zəruri hesab edilən 250-dən çox ixtisas üzrə ali təhsilə yiyələndilər [3]. 1980-ci ildən etibarən artıq il ərzində 1000-1400 nəfərə yaxın gənc SSRİ üzrə nüfuzlu təhsil ocaqlarına oxumağa göndərilirdi.

Müstəqilliyimiz bərpa edildikdən sonra xaricdə təhsil prosesi Ulu öndərin siyasi xətti ilə daha da genişləndi. Müxtəlif istiqamətlərlə Azərbaycan gəncləri nüfuzlu universitet məzunları olurdular ki, bu istiqamətlərə qarşılıqlı təhsil mübadilə proqramı həyata keçirən beynəlxalq təşkilatların təqaüdləri, ölkəmizin təhsil sahəsində qurduğu əməkdaşlıq müqavilələri çərçivəsində, dövlət tərəfindən ayrılan təqaüdlər hesabına və Azərbaycan hökumətinin qəbul etdiyi sahəvi Dövlət Proqramları xətti daxil idi.

Həmin dövrdə həmçinin Azərbaycanda ali hərbi təhsil sisteminin inkişafına da xüsusi diqqət göstərilməyə başlandı. Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda C.Naxçıvanski adına Hərbi Məktəb yaradıldı və hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafında mühüm rol oynadı [3]. Hərbi ixtisaslı kadrların hazırlanması prosesi 1972-ci ildən başlamışdır.

H.Əliyev həmin dövrdə təhsillə yanaşı elmin inkişafını da diqqətdən kənar qoymadı. Onun təşkilatçılığı ilə XX əsrin 70-ci illərində Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası gücləndirildi və Akademiyanın kadr potensialının möhkəmləndirilməsi istiqamətində uğurlu nəticələr əldə edildi. Həmin dövrdə H.Əliyevin rəhbərliyi ilə 5 yeni ali təhsil müəssisəsi fəaliyyətə başladı. Beləliklə, ölkəmizdə ali məktəblərin sayı 17-yə, ali məktəb tələbələrinin sayı isə 100 minə çatdırılmış oldu.

1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırıldı [3].

1998-ci ildə Heydər Əliyev tərəfindən “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında” Sərəncam və 1999-cu ildə komissiyanın hazırladığı “Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı” imzalandı. Bu proqramın imzalanması ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bərabər, milli təhsil ənənələrinə sadiq qalmanı da təmin etdi [9].

Müasir dövrdə yeni texnologiyaların sürətlə inkişaf etməsi təhsil sistemində də yeni yanaşmaların qəbul edilməsinin əhəmiyyətini günbəgün artırmaqdadır. Bu gün müasir təhsil daha çox eksperimental öyrənməyə diqqət yetirməyə başlamış, praktiki aspektləri əsas tutaraq vizuallaşdırma, təsəvvür və düşünməyə yönəldilmişdir. Bu isə biliklə yanaşı daha vacib bacarıqların formalaşdırılmasını şərtləndirir və yeni nəsildə məsuliyyət hissinə müsbət yanaşmanı asanlaşdırır.

Son dövrlərdə bütün dünyada baş verən qlobal proseslər, sürətli keçidlər və dəyişikliklər müasir təhsilə keçid ehtiyacını daha da artırır. Müasir təhsil məhz gələcək nəsli gözlənilməz problemlərə hazırlamağa xidmət edir.

Azərbaycanın müasir təhsil sistemini təhlil edərkən ilk öncə onu qeyd etməliyik ki, ölkəmizdə təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2021-ci ildə 3.3 milyard manatdan 2022-ci ildə 3.9 milyard manata çatdırılmışdır. 2013-cü illə müqayisə aparsaq görərik ki, 2.8 dəfə artım qeydə alınmışdır [7].

Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən böyük qətiyyət və uğurla davam etdirilmiş, həyata keçirilən sosial-iqtisadi islahatlar, dövlət başçısının müəllifi olduğu müasir idarəetmə modeli nəticəsində Azərbaycan yalnız regionda deyil, dünyada lider dövlətlərdən birinə çevrilmiş, beynəlxalq reytinqlərdə mövqelərini əhəmiyyətli şəkildə yaxşılaşdırmış, “Doing Business-2020” hesabatına əsasən dünyanın ən islahatçı 64 ölkəsi arasında 34-cü sırada yer almışdır [10, s.4].

Ümummilli lider tərəfindən əsası qoyulmuş xaricdə təhsil almaq ənənəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan gənclərinin bakalavr, magistr və doktorantura səviyyələri üzrə xarici ölkələrdəki reytinqli universitetlərdə təhsil almaları məqsədilə təsdiq edilmiş Dövlət Proqramları ilə daha geniş vüsət almış oldu və ölkəmizdə insan kapitalının inkişafına zəmin yaratdı.

Təhsilin inkişafı istiqamətində qəbul edilmiş mühüm strateji sənədlərdən biri Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” oldu. Strategiyanın qəbulunda əsas məqsəd Azərbaycanda sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarət idi [4].

Burada nəzərdə tutulan müasirləşdirmə qabaqcıl texnologiyaların, idarəetmə metodlarının və innovasiyaların sosial-iqtisadi həyata tətbiqini şərtləndirirdi. Bu məqsədlə də əsas prioritet istiqamət kimi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi götürülmüşdür [4].

Qeyd etmək lazımdır ki, ölkənin təhsil sisteminin əsas vəzifəsi insan kapitalı potensialının artırılmasına və bununla da ölkə iqtisadiyyatının qlobal və beynəlxalq sistemə inteqrasiyasını təmin etməkdən və beynəlxalq aləmdə ölkənin rəqabət qabiliyyətinin artırılmasından ibarətdir.

Strategiyada təhsil sektorunda insan resurslarının müasirləşdirilməsi qeyd edilirdi. Burada tədrisdə innovativ metodlardan istifadə, tədris aparanlarda yüksək səriştə bacarıqlarının formalaşdırılması nəzərdə tutulurdu. Bu addımlar sonda təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmaların işlənib hazırlanmasına səbəb oldu.

Strategiyada nəzərdə tutulan əsas məqamlardan biri də Ömürboyu Təhsil (Life Learning) təhsil imkanlarının yaradılması idi. Artıq bir sıra ali təhsil ocaqlarında Ömürboyu Təhsil Mərkəzləri fəa-

liyyət göstərir ki, bu da universitetlərin müəllim heyətinin daima təkmilləşdirilməsini hədəfləyir.

Göründüyü kimi, insan potensialının inkişafında əsas aspektlərdən biri təhsildir. Çünki İnsan Potensialı İndeksi qiymətləndirilərkən insan həyatının təkcə iqtisadi tərəfləri yox, onun sosial tərəfləri də müxtəlif indikatorlar üzrə qiymətləndirilir. İnsan inkişafı ictimai həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişləndirilməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir. Daha dəqiq desək İnsan Potensialı İndeksinin mahiyyəti hər bir insanın fərdi qabiliyyətini həyata keçirməsi üçün əlverişli sosial, iqtisadi və ekoloji şəraitin yaradılmasından ibarətdir. 1990-cı ildən başlayaraq əksər ölkələrdə BMT-nin təşəbbüsü və dəstəyi ilə hər il "İnsan inkişafı haqqında hesabat" adlı toplu nəşr edilir. Azərbaycanın bu indeks üzrə qiymətləndirilməsi 1995-ci ildən başlanmışdır. Bu indeks qiymətləndirilərkən nəzərə alınan faktorlardan biri əhalinin savadlılıq dərəcəsidir [8, s. 40-45].

Dünya Bankının apardığı tədqiqatın nəticələri göstərir ki, ABŞ-ın milli sərvətinin 76%-ni insan kapitalı, 19%-ni istehsal, 5%-ni təbii resurslar təşkil edir. Avropa ölkələrində insan kapitalı 74%, istehsal 24%, təbii resurslar yalnız 2% təşkil edir [8, s. 61].

Birləşmiş Millətlər Təşkilatının 2021/2022-ci il üzrə İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan 191 ölkə arasında 91-ci sırada qərarlaşaraq, "yüksək insan inkişafı" qrupunda yer alır [11, s. 278]. Azərbaycan iqtisadi inkişaf tempini sürətləndirərək yoxsulluğun azaldılması və orta ömür uzunluğu göstəricisinin artması baxımından böyük nailiyyətlər əldə etmişdir. Bununla yanaşı, aparıcı beynəlxalq təşkilatların statistik təhlilləri Azərbaycan təhsilinin beynəlxalq rəqabətə davamlılıq göstəricilərinin və Azərbaycan Respublikasının ərazisində yerləşən ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsinin zəruri olduğunu göstərir.

Ölkəmizin hazırkı strategiyasına nəzər salsaq görürük ki, qarşıda duran əsas prioritetlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri olan "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"na nail olmaqdır [2].

Bu prioritet üzrə qarşıya qoyulmuş əsas hədəf dünyada getdikcə artan rəqabətə hazırlıqlı olmaq üçün müasir təhsil, innovasiyaların təşviqini şərtləndirən yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdan ibarətdir. XXI əsrin tələblərinə uyğun təhsil sisteminin uğurla reallaşdırılmasına nail olmaq bu prioritetin üç əsas məqsədlərindən biridir [2].

XXI əsrin tələblərinə uyğun təhsil birinci mərhələdə dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı, müasir və güclü təhsilə arxalanmaq, məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payını davamlı şəkildə artırmaq, "ömürboyu təhsil"ə xüsusi önəm verməkdən ibarətdir [2].

Sonrakı mərhələdə isə ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşməni davam etdirmək, inteqrativ tədris təcrübəsini inkişaf etdirmək, bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq nəzərdə tutulur [2].

Göründüyü kimi, qloballaşan dünyada cəmiyyətin artmaqda olan tələbatı təhsilin inkişafında yeni meyillərin yaranmasına səbəb olmuş, yeni texnologiyaların sürətli inkişafı bugünkü təhsil sisteminin qarşısında yeni vəzifələr qoymaqda davam edir. Ümumilikdə, belə nəticəyə gəlirik ki, əhalinin keyfiyyətli təhsil səviyyəsini formalaşdırmaq üçün təhsilin bütün pillələri üzrə, yəni məktəbəqədər tərbiyə, ibtidai, orta, ümumtəhsil, peşə, orta ixtisas və ali məktəblərdə təhsil səviyyəsi yüksəldilməli və yeni mexanizmlər müəyyən edilməlidir. Çünki yüksək intellektli insan kapitalının formalaşma prosesində ali təhsilin böyük rolu vardır.

Rəqabətli insan kapitalı həm də güclü iqtisadiyyatın formalaşmasına xidmət edir. Bunun üçün təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir.

İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalı və ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə rəqabətqabiliyyətliliyini təmin edilməlidir.

## ƏDƏBİYYAT

1. Akif Nəzərov, Müasir təlim texnologiyaları (mühazirə xülasələri) dərs vəsaiti, Bakı 2012 http://anl.az/el/Kitab/Azf-269214.pdf
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, https://president.az/az/articles/view/50474
3. Azərbaycan Müəllimi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı https://www.muallim.edu.az/news.php?id=24039
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, https://president.az/az/articles/view/9779
5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, https://edu.gov.az/news-and-updates/16731
6. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu, https://e-qanun.az/framework/46590
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/
8. Davamlı inkişafın sosial və fəlsəfi problemləri. Bakı, "Elm və təhsil", 2019, 312 səh.
9. Sevinc QARAYEVA, Təhsil sahəsində beynəlxalq əlaqələr: Azərbaycanın milli mənafeyi naminə. "525-ci qəzet".- 2012.- 3 mart.- S.10 -11 http://www.anl.az/down/meqale/525/2012/mart/237204.htm
10. Doing Business Report, 2020 https://archive.doingbusiness.org/en/reports/global-reports/doing-business-reports
11. Human Development Report 2021/2022, https://reliefweb.int/report/world/human-development-report-20212022-uncertain-times-unsettled-lives-shaping-our-future-transforming-world-enruzh?gclid=EAIaIQobChMI2bW13cPP_QIV4xJ7Ch0R7wb_EAAYASAAEgKrBvD_BwE



***Турал Махмуд оглы Салыфов***
***Азербайджанский Университет Кооперации***
***Старший преподаватель кафедры, «Экономика аграрного сектора и промышленности» к.ф.д.,***
***E-mail: tural_salifov@mail.ru***


### Роль Гейдара Алиева в развитии Азербайджанской науки


***Резюме***

В статье были изучены реформы, проведенные в современной системе образования Азербайджана, роль политики Г.Алиева в развитии азербайджанской науки и образования, проведена сравнительная оценка показателей развития образования. Также в статье отражены особенности перехода к современной системе образования, начиная с формирования национального кадрового потенциала нашей страны и процесса национализации образования.



***Ключевые слова: национализация образования, национальный кадровый потенциал, индекс человеческого потенциала, конкурентоспособный человеческий капитал, цифровые компетенции.***



***Tural Mahmud Salifov***
***Azerbaijan Cooperation University***
***Senior lecturer of the Department***
***"Economics of the agrarian sector and industry", PhD***
***E-mail: tural_salifov@mail.ru***


### Heydar Aliyev's role in the development of Azerbaijani science


***Summary***

In the article, the reforms carried out in the modern education system of Azerbaijan, the role of H. Aliyev's policy in the development of Azerbaijani science and education were studied, and a

comparative assessment of the development indicators of education was carried out. Also, in the article, the characteristics of the transition to the modern education system, starting with the formation of the national personnel potential of our country and the process of nationalization of education, are reflected.
***Key words: nationalization of education, national human resources potential, human potential index, competitive human capital, digital competencies.***

**UOT: 94(479.24)**

***Aytan Abas Huseynova***
***Azerbaijan Cooperation University,***
***Head teacher of the department "Translation",***
***candidate for a degree of the department***
***"Literary theory and world literature" of***
***Baku Slavic University***
***ORCID-ID: 0009-0004-1962-200X***
***E-mail: ayabener82@mail.ru***

# THE SOCIAL-MORAL CONFLICT IN ENGLISH LITERATURE AT THE END OF THE XX AND IN THE BEGINNING OF THE XXI CENTURY (FEMALE PROSE)

***Abstract***

Heydar Aliyev's broad and successful State women's policy manifested itself both within the country and abroad, and foreign experience was studied and applied. Female prose is the special theme in the world literature and art. Today it is very important to pay attention to the female role in the society. But from the centuries the writers always wrote about the role of women in the family, in the society and in the whole space. Because the woman is the saver of home fire, the family values and the parent of children. The author has written about the family and female problems and the solutions of these problems in the article. The author also has issued about the main woman and man writers (Jane Austen, sisters Bronte, Rosamunda Pilcher, Charles Dickens, etc.) in the English literature.
***Key words: family problems, female prose, female characters, family, family values.***

***

Saying "no one should have any doubts that I will devote the next part of my life to the development of the Republic of Azerbaijan as an independent state wherever it is" Heydar Aliyev's life path has become a vivid example of service to the motherland. The multifaceted activity of Heydar Aliyev, who carved his name in the history of Azerbaijan, the history of socio-political thought of Azerbaijan in the fateful period from the 70s of the last century to the beginning of the XXI century in the fate of our motherland and people, is a bright and invaluable example for the younger generation.

Heydar Aliyev's initiative on admission to international organizations in the broad reflection of women's rights in our country and the settlement of problems within the framework of legislation has also yielded positive results. Heydar Aliyev's broad and successful State women's policy manifested itself both within the country and abroad, and foreign experience was studied and applied. Azerbaijan joined a number of international organizations, adopted their conventions and protocols on women's issues and improved the theme of women's rights in our legislation. After Azerbaijan's restoration of its state independence in 1991, its election to a number of organizations led to an increase in the role of women in the development of society and the establishment of State independence.

Women's literature has often been defined by publishers as a category of writing done by women. Though obviously this is true, many scholars find such a definition reductive. What makes the history of women's writing so interesting is that in many ways it is a new area of study. The

tradition of women writing has been much ignored due to the inferior position women have held in male-dominated societies. It is still not unheard of to see literature classes or anthologies in which women are greatly outnumbered by male writers or even entirely absent. The onus of women's literature, then, is to categorize and create an area of study for a group of people marginalized by history and to explore through their writing their lives as they were while occupying such a unique sociopolitical space within their culture. [9, 56]

Before the introduction of women's literary history colleges into academia and the renewed efforts of scholars to explore, recover, and preserve the literary tradition, women themselves were often the only champions of themselves, their contemporaries, and their predecessors. Mary Wollstonecraft's *A Vindication on the Rights of Women* (1792) is a landmark treatise that paved the way for many women after her to not only publish their works but also to engage in the overall critical discourse surrounding the issue of women in literature.

Yet for the most part, the majority of people interested in reading and responding to works written by women were other women. One prime example of this is *The Female Advocate: A Poem Occasioned by Reading Mr Duncombe's Feminead* (1774) by Mary Scott. The poem was Scott's first publication and is notable because it praises other women writers publishing at the time, including children's writer Sarah Fielding and Anna Laetitia Barbauld, a writer whose political opinions eventually led to her being blacklisted after she published an inflammatory poem on her disagreement with the British Empire's involvement in the Napoleonic wars. [9, 56]

The family thematic in literature is being followed so many ages. From the first sight it can be seemed that "the family thought" became less essential for literature. Because "the human being in the world where the madness becomes as norm, doomed to the loneliness" [4]. But in the XX century it got the special part in literature, because the revolution, fights and wars destroy the first system of morality, practically neutralized many family qualities.

At the end of the XX century for English literature and partly the English novel had serious changes in political, social and cultural life of society that happened after World War II. Literature of this period developed under the different ways of literary imagination of tradition and modernity.

The spread of modern ideas marked the period of anti Victorian in English literature, however in the 30s and 60s of the XX century there was "Victorian Renaissance", returning to the traditions of English realistic novel.

The literature of the 90s went through one of the moments, unaccustomed to its phenomenon of freedom. The writer Yuriy Buyda wrote: "this – was the fear in front of the freedom. Suddenly happened what we were expecting" [6, 73]

Virginia Woolf's *A Room of One's Own* (1929) is often considered a driving force behind this movement. Considered by many to be Woolf's master work, the long form essay is told through a fictionalized narrator and presents an argument on the necessity of both a metaphorical and literal "room" for women's literature within the literary tradition. The book also served as the inspiration for the literary journal *Room* (formerly titled *Room of One's Own*). The journal was launched in 1975 and specifically seeks to publish and promote works by female writers.

Second wave feminism in the '70s and '80s sparked a resurgence in forging a place for the works of women. Colleges began offering courses in women's history and literature. Presses were founded that dedicated themselves to publishing lost or ignored works by women. In recent years a greater emphasis on intersectionality has encouraged exploration into the relationship between race, gender, religion, and class to even further prove the importance of the acknowledgment of the place of marginalized groups in literature. [9, 56]

M. Bradbury noted that the tendency of English literature at the last third part of the XX century carried the epidemic character. At this time when Margaret Tetchier tried to give "rebirth" to the Victorian qualities, but the novels by Ch. Dickens and other classic writers were published with great issues, the remarkable quantity of writer looked back to the past, to the XIX century, when "the individualism was seemed tough and the social activity was clearer". [1, 145]

Since the end of the 50s and the beginning of the 60s there were changes in aesthetic cognition,

partly in prose and poetry. There appeared the classical and modern principles of literary creation. In the 70s and 80s the sphere and the function of the main character had been expanded, the orientation to free position of identity had been strengthened, on the first line there had been appeared the identical intonation, irony, lyric, etc.

At this period we can also meet so popular problems such as “human being and society”, “family and society”, “history and modernity”.

“Female prose” as the literary – aesthetic category, “feminism” in social – cultural life of modernity is considered one of the main literary movements in literature. As we said above it was the period of post – modernism, and it means in woman literature and prose we can also find the main features of post – modernism. One of the main conceptions of post – modernism is considered that the world is text itself. And since the 90s of the last century in English literature there appeared some characteristics features of new phenomenon – post-realism. But in our article it is clear to pay attention on the post – modernism.

In English literature the post – modernism is presented by the literary works of Peter Acroid, Juliana Barns, David Lordge, and Angela Carter. If we paraphrase the well-known formula of Rolan Burt about “the death of author” it is easy to have the logical conclusion about “the death of reader”.

But “female prose” – is the special theme in the literature and art. It is known that many ages the role of woman in the society was lowed. Agatha Christie, George Sand, Fransuaza Sagan, Margaret Mitchell, Jane Austen, Rosamunde Pilcher, Lyudmila Ulitskaya and others in the literature always raised these questions about female emancipation. It is exactly the breakout into English “female prose”.

The excel of “female prose” in the context of modern literature is based first of all on the following factors: woman-author, and that’s why all themes of novels and narrative works connect with female destiny. Because of it “the female prose” officially was accepted s the literary appearance at the end of the XX century, and today it is highlighted as the stable phenomenon of English literature. The researchers say that the cases that happen and appear in “female prose” happen in other processes as “male prose” too. The problems those are raised in the English literature by women writers are always keen.

Except this we meet that sometimes the heroine drops into those cases where they have to show their strength, force and will. One of the critics said “In extreme situation when the man has to die, the woman has to survive” [3, 196].

There are also some political questions those appeared in “female prose”: the search of life meaning, the connection of identity and society, needs and care of “small person”, etc. In English prose there is also the theme of “lost paradise”. As the Russian writer Lyudmila Ulitskaya said in one of her interview, “The world of man and the world of woman are different. Sometimes they cross each other, but not the whole. In woman world there appear the meaning of questions about the love, family and children” [5, 78]

One of the main parts of social-moral conflict in English literature, exactly, is family problem. Family and inner connection can be called one of the important moments in literary works of many modern writers. Family is the gathering character of valuable little world of identity. First of all human being formed in the family, in the atmosphere where he grows. That’s why the writers, who often approached this theme of family, research the situation where the hero (main character) develops, describe the family way and traditions, and learn various systems of education and so on. But the family prose in English literature did not have the enormous social sharpness. Re-reading the realistic novel “Dombey and son” by Charles Dickens and romantic books by Jane Austen (“Pride and Prejudice”), Charlotte Bronte (“Jane Eyre”) you reprove it. In English literature the happiness of girl or young lady consists of lucky marriage.

It is also the style of life, the sample of good family, etc (“The castle of Otranto”, “Udolf secrets”, “The castle of Rekrent”, etc). No one can penetrate into any English home and realizes it secrets. But another main essential and popular saying that we can meet in English literature is the “skeleton in the closet”. It means that in each house they have so many horrible family secrets, as

we always meet in the literary works. These secrets are always concealed so deeply. We can meet these situations in the novels by Charles Dickens (“Life and adventures of Nicolas Nicolby”, “The Great Expectations”, etc.).

With the conception of “family”, each person associates as the best warm feelings, bright and unforgettable memories. In family circle there appear the civil feelings and moral values of human being with that he enters the way of any society, carrying out the multifarious social functions. One of the main functions is the continuation of the gems. The birth of children, preparing them for the adolescence make family one of the essential structures of any civilized society. During many centuries in the history of humanity the family had so changes in it that connected with the development of social connections. Family is the cell of society, wealth and development that in a whole identifies the life activity of government and nationality.

The change of woman status tempted the necessity of creation of new characters in literature. They accept “the challenges of society, find the golden centre between career and private relationship. This is how the image (character) is formed as free, independent, self-enough women with the improved intelligent” [7, 56].

## LITERATURE


1. Bjork E. L. campus clowns and the canon, David Lodge’s campus fiction? University of Umea, 1933, page 145
2. Colder J. Woman in marriage in Victorian fiction, L. 1976
3. А.А. Потебия, Эстетика и поэтика, М. 1976, стр.196
4. Дипломная работа №2037. Проблема семейного разлада в современной прозе (Л. Пертушевская, П. Санаев, О. Павлов, И. Васильково)
5. Красавченко Г. Н. Реальность, традиции, вымысел в современном английском романе. М. Наука, 1990, стр. 127-154
6. Куликова А. Ю. Швецова В. В. Русская литература конца XX – начала XXI веков. Реферат. Большой Карай, 2013
7. Ремаева Ю.Г. Постфеминисткая проза Британии на рубеже XX – XXI в. Автореферат, Нижний Новгород, 2007, стр. 22
8. С. П. Толкачев Современная Английская литература. Учебное пособие, М. 2008
9. The history and importance of women’s literature By Adrienne Rivera. Apr 12, 2020



***Aytən Abas qızı Hüseynova***
***Azərbaycan Kooperasiya Universiteti***
***“Tərcümə” kafedrasının baş müəllimi,***
***Bakı Slavyan Universitetinin***
***“Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı”***
***kafedrasının dissertantı***
***ORCID-ID: 0009-0004-1962-200X***
***E-mail: ayabener82@mail.ru***


## XX əsrin sonu və XXI əsrin əvvəllərində ingilis ədəbiyyatında sosial-mənəvi münaqişə (qadın nəsri)


***Xülasə***

Heydər Əliyevin geniş və uğurlu dövlət qadın siyasəti həm ölkə daxilində, həm də xaricdə özünü büruzə verirdi və xarici təcrübə öyrənilərək tətbiq edilirdi. Qadın nəsri dünya ədəbiyyatında və sənətində xüsusi bir mövzudur. Bu gün cəmiyyətdəki qadın roluna diqqət yetirmək çox vacibdir. Ancaq əsrlər boyu yazıçılar həmişə qadının ailədəki, cəmiyyətdəki və bütün məkandakı rolu haqqında yazmışlar. Çünki qadın ocağın, ailə dəyərlərinin və uşaqların valideyninin qoruyucusudur. Məqalədə müəllif ailə və qadın problemləri və onların həlli yolları haqqında yazır. Müəllif ingilis ədəbiyyatında əsas qadın və kişi yazıçılar (Jane Austen, Bronte bacıları, Rosamund Pilcher, Charles Dickens və s.) haqqında da yazmışdır.



***Açar sözlər: ailə problemləri, qadın nəsri, qadın personajları, ailə, ailə dəyərləri.***

*Айтен Абас кызы Гусейнова*
*Азербайджанский Университет Кооперации*
*Старший преподаватель кафедры "Перевод",*
*диссертант кафедры "Теория литературы и мировая литература"*
*Бакинского Славянского Университета*
*ORCID-ID: 0009-0004-1962-200X*
*E-mail: ayabener82@mail.ru*

**Социально-нравственный конфликт в английской литературе конца XX и начала XXI века (женская проза)**

***Резюме***

Широкая и успешная государственная женская политика Гейдара Алиева проявлялась как внутри страны, так и за рубежом, изучался и применялся зарубежный опыт. Женская проза-особая тема в мировой литературе и искусстве. Сегодня очень важно обратить внимание на женскую роль в обществе. Но испокон веков писатели всегда писали о роли женщины в семье, в обществе и во всем пространстве. Потому что женщина-хранительница домашнего очага, семейных ценностей и родитель детей. В статье автор пишет о семейных и женских проблемах и путях их решения. Автор также написал о главных писательницах-женщинах и мужчинах (Джейн Остин, сестры Бронте, Розамунда Пилчер, Чарльз Диккенс и др.) в английской литературе.

***Ключевые слова: семейные проблемы, женская проза, женские персонажи, семья, семейные ценности.***

**UOT 008:316:42**

*Vüqar Qaracan oğlu KƏRİMLİ*
*Kulturologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, Elmi katib*
*ORCİD İD: 0000-0001-5868-8109*
*yanshaq@gmail.com*

## AZƏRBAYCANDA ETNO-MƏDƏNİ MÜXTƏLİFLİK HEYDƏR ƏLİYEVİN FİKİRLƏRİ FONUNDA

***Xülasə***

Müəllifin təqdim etdiyi məqalə Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda milli münasibətlər tarixi, mədəni reallıqların tənzimlənməsi, milli-etnik mənsubiyyətindən asılı olmayaraq ölkədə yaşayan xalqların milli düşüncəsinin oyanışı dövrünü tədqiq edir. Azərbaycan ərazisində tarixən yaşayan azsaylı xalqların tarixinin, mədəniyyətinin dərindən araşdırılması, çoxmillətli bir dövlətdə etnik millətçilik fəsadlarının qarşısını almaq, tənzimləməyin Heydər Əliyevin müdrik mədəni siyasəti nəticəsində mümkün olması bildirilir. Sovet hakimiyyəti illərində azsaylı xalqların tarixi və mədəniyyətinə diqqət yetirilməsi ideyasının müəllifi də məhz Heydər Əliyevdir. Bununla yanaşı məqalədə əsası Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən birgəyaşayış ənənəsi və multikulturalizmin Azərbaycan modelinin ən effektiv model kimi bir çox dünya ölkələri tərəfindən öyrənilməsi, mənimsənilməsi faktları öz əksini tapmışdır.

***Açar sözlər: Heydər Əliyev, mədəniyyət, milli-mənəvi dəyərlər, azsaylı xalqlar, etnik qruplar.***

***

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri misilsizdir. Zaman keçdikcə biz Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. "Heydər Əliyev Azərbaycanı azərbaycanlılara qaytardı" fikrinin bir şaxəsi də məhz milli mədəniyyətlə bağlıdır. Müdrik şəxsiyyətin həmişə söylədiyi – "yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək"- fikri

hamının dilinin əzbəri və əməli fəaliyyətinin əsas xətti olmuşdur. O, hətta siyasəti də böyük mədəniyyətlə aparmağın lazım olduğunu tövsiyə edirdi [5; s.12-13]. Bu səbəbdən də Azərbaycan mədəniyyətinin tarixi inkişaf yolu məhz Heydər Əliyevin himayəsi altında davam etmişdir. Ulu öndərin dediyi kimi: "Biz öz mədəniyyətimizlə, milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" [4; s.123-124].

Bu gün Azərbaycan dünyada birgəyaşayış ənənəsinin nümunəvi modeli kimi tanınır. Məlumdur ki, Azərbaycan tarixən müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu məkan olmuşdur. Burada tarix boyu Zərdüştilik, Atəşpərəstlik, Yəhudilik, Xristianlıq və İslam kimi dünyanın böyük dinləri yayılmışdır. Tarixdə olduğu kimi, günümüzdə də bu vəziyyət eyni qaydada davam edir.

Etnik qrupların mədəni, siyasi əsaslarının formalaşması və birgəyaşayış modelinin yaradılmasında Heydər Əliyevin xidmətləri çoxşaxəlidir. Heydər Əliyev Sovetlər dönəmində, totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün bütün sahələrdə geniş islahatların həyata keçirilməsinə nail olmuşdur.

Bir qədər Sovet dövrü tarixinə nəzər salsaq görərik ki, hələ Sovet hakimiyyətinin ilk illərində Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yanında Milli azlıqlar şöbəsi yaradılmışdır. Milli azlıqlar arasında hələ o dövrdə mədəni-maariflənmə işinin təşkilinə xüsusi diqqət yetirilməyə başlanılmışdı. Milli azlıqlar şöbələri məktəblər, kitabxanalar və digər mədəni-maarif idarələri açır, yeni dərsliklər və ədəbiyyat nəşr edirdi. Bu dövrdə respublikanın çoxmillətli tərkibini nəzərə alaraq, Azərbaycan hökuməti tərəfindən milli azlıqların maraqlarına xələl yetirmədən doğma dildə danışmaları, qəzetlərin nəşri, məktəblərin açılması haqda normativ-hüquqi aktlar qəbul edilmişdi. Hələ o dövrdə Azərbaycanda "Hökumət müəssisələrində dövlət dili, yerli əhalinin dili və yerli azlıqların dili haqqında" Dekret qəbul olunmuşdu [6; s. 35-36]. Lakin sonralar Sovetlər ölkəsində yeni Konstitusiya qəbul edildi. Çoxmillətli ölkədə sosial dəyişikliklər prosesində milli məsələ öz əhəmiyyətini itirməyə başladı. Sosializm quruculuğunda milli məsələnin təhrif olunması əhalisi müsəlman olan respublikalarda xüsusilə aydın şəkildə təzahür etdi. Heydər Əliyevin kifayət qədər mürəkkəb olan bu dövrdə min cür maneələri dəf edərək atdığı addımlar olmasaydı, bu gün müasir Azərbaycanın mədəni quruculuğundan söz gedə bilməzdi. Buna görə də Azərbaycanda milli-mədəni müxtəliflik, birgəyaşayış ənənəsi birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Onun birinci rəhbərliyi dövründə yaradılan sağlam mühit dinlər, xalqlar, cəmiyyətlər arasında sabitlik, dostluq, birlik toxumu səpib. Heydər Əliyevin bütün xalqlara, dinlərə eyni gözlə yanaşması sayəsində ölkəmizdə yaşayan hər bir xalqın nümayəndəsi sülh, əmin-amanlıq içərisində yaşayıb. "Biz qonşumuzdan milliyyətini, kilsədə, sinaqoq və ya məsciddə ibadət etməsini soruşmadan bununla yanaşı yaşamalıyıq. Yalnız bu halda potensial riskləri azalda bilirik" [2; s.49].

Bir model kimi multikulturalizm anlayışı avstraliyalı alim Çandran Kukatasın qeyd etdiyi kimi XX əsrin 60-cı illərində Kanadada meydana gəlmişdir. Multikulturalizm anlayışının meydana gəlməsindən əvvəl etnik, irqi, dini və mədəni müxtəlifliklərlə üzləşən Qərb ölkələri bu polietnik mənzərəni yaradan miqrantların axını hesabına nail olmuşlar.

Azərbaycanda isə bu dəyərlər süni axın nəticəsində deyil, əzəldən bu ərazidə yaşamış xalqların birgəyaşayış ənənəsinə görə mümkün olmuşdur. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür, biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən Ulu öndər bütün sonrakı fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltmişdi. Tarix boyu formalaşan milli keyfiyyət, humanist ənənə artıq reallıq olmuş və dünyada multikulturalizmin Azərbaycan modeli mükəmməl nümunəyə çevrilmişdi. Bu da bir çox dövlətlər üçün böyük maraq kəsb edir. Lakin Azərbaycanda əsrlər boyu bu dəyər, müxtəlif xalqların və konfessiyaların birgəyaşayış ənənəsi mövcud olsa da, cəmiyyətin multikultural xarakteri məhz Heydər Əliyevin dövlətçilik dühası, onun siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində yüksəldilmiş, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qəbul edilmişdir.

Doğrudur, əvvəllər multikulturalizm ifadəsi istifadə edilmirdi. Amma multikulturalizm ənənəsi Azərbaycanda əsrlər boyu artıq mövcud idi. Ulu öndər bu ənənəni əsaslandıraraq dövlət siyasətinin vacib hissəsinə çevirmişdir. Heydər Əliyevin Azərbaycana bəxş etdiyi ən mühüm dəyər həm də Azərbaycançılıq ideologiyasıdır. Artıq o, multikulturalizm məfkurəsinin də zəruri bir hissəsidir. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün xalqları bir torpaq, bir amal ətrafında

birləşdirən elə Azərbaycançılıqdır. Heydər Əliyevin belə bir ifadəsi var: "Biz bir yerdə dünya üçün maraqlıyıq, ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik" [1; s. 68]. Azərbaycançılıq bizim multikulturalizm dediyimiz anlayışı tamamlayan ifadədir.

Sovet rejimi dövründə digər xalqlara qarşı ideoloji məhdudiyyət tətbiq olunurdu. Ruslar hegemon xalq və ya "böyük qardaş" hesab olunurdular və onları nə tarixi, nə də digər məsələlərdə ittiham etmək olmazdı. Qafqaz Albaniyasının qədim paytaxtı Bərdə rus qoşunları tərəfindən iki dəfə dağıdılmış və talan edilmişdi. Şəhər elə dağıdılmışdı ki, bir daha heç vaxt əvvəlki görkəmini bərpa edə bilməmişdi. Bu fakt 1941-ci ilin milli tarix dərsliklərində olsa da, 1946-cı və ondan sonrakı illərdə dərsliklərdən çıxarılmış, anti-rus mövqe hesab edilmişdi. Akademik Heydər Hüseynov 1949-cu ildə Azərbaycanda fəlsəfi fikrin tarixini yazarkən Şeyx Şamil və onun üsyanını da öz kitabına daxil etmişdi. Bu, Kommunist rejimini sərt tənqid etməsinə səbəb olmuş və akademikin intiharına gətirib çıxarmışdı. Bu kimi tənqidlərdən təmizlənmək üçün hətta Azərbaycan tarixi yenidən yazılmışdı. Məhz belə bir dövrdə milli maraqların qorunmasında, mürəkkəb bir məqamda belə məsələnin öhdəsindən Heydər Əliyev gələ bilmiş və milli düşüncənin təhlükəsizliyi üçün münbit zəmin yaratmışdı.

Ulu Öndər Azərbaycan ərazisində tarixən yaşayan azsaylı xalqların tarixinin, mədəniyyətinin dərindən araşdırılması ideyasını irəli sürürdü. Sovet hakimiyyəti illərində azsaylı xalqların tarixinə diqqət yetirilməməsinin əsas səbəbləri kimi sosial-ideoloji və siyasi şərtlərin olduğu göstərilirdi.

Sovetlər Birliyinin dağılmasından sonra postsovet məkanında bir çox respublikalarda etnik təmizləmə siyasəti həyata keçirilərkən Heydər Əliyev Azərbaycanda yaşayan etnik qruplar, dini konfessiyalar, milli azlıqlara aid 50-dən artıq beynəlxalq sənəd qəbul etmişdi. Azərbaycan BMT, ATƏT, Avropa Şurası, YUNESKO ilə əməkdaşlığını formalaşdırdı. Azərbaycanın qoşulduğu konvensiyalar onun daxili qanunvericilik aktlarında əks olunurdu. Azərbaycan Respublikası Konstitusiyasının din-dövlət maddəsi, bərabərlik hüququ, milli mənsubiyyət hüququ, vicdan azadlığı hüququnun təsbiti, bunların qanunvericilik aktlarında da əksini tapması, Azərbaycanın multikultural təhlükəsizliyinin təmin olunmasında böyük rol oynadı. Azərbaycanda müstəqillikdən öncə cəmi 17 məscid mövcud olduğu halda, Ulu öndərin təşəbbüsü ilə Azərbaycanda yeni tikilmiş məscidlərin, təmir-bərpa edilmiş ziyarətgah və dini məbədlərin sayı 1236-ya çatdırılmışdı [7; s. 375-376].

Ümummilli lider azsaylı xalqlarla keçirdiyi görüşlərinin birində belə söyləmişdi: "Mən görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşdür" [6, s.14]. Bu kəlamdan göründüyü kimi Ulu öndər azsaylı xalqları Azərbaycandan, Azərbaycanı isə bu xalqlardan ayrı hesab etmirdi. Azərbaycanda yaşayan bütün xalqların və millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmayıb və buna görə də bu xalqlar vahid polietnik Azərbaycan millətinin nümayəndələri hesab olunurlar.

Heydər Əliyevin həyat və yaradıcılıq yoluna nəzər saldıqda onun fəaliyyətinin ilk dövründən başlayaraq ömrünün sonuna kimi gördüyü işlərin şahidi oluruq. Ona görə də Heydər Əliyev irsini daim öyrənmək, qorumaq, təbliğ və tətbiq etmək bugünkü və gələcək nəsillərin qarşısında duran ən vacib və aktuallığını heç vaxt itirməyən qlobal məsələdir. Hələ sağlığında əfsanələşən, siyasət zirvəsini fəth etmiş nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidi olmuşuq. Onun böyüklüyünü etiraf edən ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi bu günlərdə yenidən göz önündə canlanır, qəlbimizdə bir daha qürur və iftixar hissləri oyadır.

Ümummilli lider Heydər Əliyevin qoyduğu zəngin dövlətçilik irsi və həyat fəlsəfəsi daim diqqət mərkəzində olacaqdır. Çünki Ulu öndərin həyat və yaradıcılıq fəlsəfəsi öz xalqına həmişə sədaqətlə xidmət etmək, Azərbaycan Respublikasını müstəqil bir dövlət kimi formalaşdırmaq və onu çoxmillətli dövlət kimi görmək olmuşdur. Bu siyasətin davamı olaraq prezident İlham Əliyev vətəndaş həmrəyliyini möhkəmləndirir, sabitlik və təhlükəsizlik mühitinin təmin edilməsi istiqamətində mövqeləri daha da dərinləşdirir.

Ulu öndər Heydər Əliyevin mədəniyyətin inkişafında bir siyasətçi və milli lider kimi əvəzolunma rolunu və xidmətlərini ciddi elmi zəmində araşdırmaqla, ümummilli liderin obrazını, ömür yolunu, mübarizələrini və qələbələrini təhlil etməklə, Azərbaycan mədəniyyətinə böyük töhfə

vermiş olarıq. Heydər Əliyev elə bir tarixi şəxsiyyət idi ki, çox vaxt zamanla hesablaşmır, öz zamanını yaradırdı və nə qədər ki, Azərbaycan var olacaq, Heydər Əliyev adı əbədi yaşayacaqdır.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. B., "Bakı", 2001, 547s.
2. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild, B., "Nurlar" 2008, 492 s.
3. Dünya azərbaycanlılarının I qurultayında "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi" "Azərbaycan" qəzeti, 9 noyabr 2001-ci il.
4. Kərimli V.Q. Azərbaycan mədəniyyətində Heydər Əliyev. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi "Mədəniyyətşünaslıq" Elmi-Metodiki Mərkəzi, Heydər Əliyev və Azərbaycan mədəniyyəti II Respublika elmi konfransının materialları., Bakı 2017, s.121-124
5. Kərimli V.Q. Heydər Əliyevin mədəni siyasəti. AMEA Memarlıq və İncəsənət İnstitutu "İncəsənət və mədəniyyət problemləri" Beynəlxalq elmi jurnal № 2(44). Bakı, 2013. S. 9-14.
6. Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları: tarix və müasirlik. B., "Elm", 2000, 440 s.
7. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015.



***Вугар Гараджан оглы Керимли***
***Доктор философии в области культурологии, доцент***
***Ученый секретарь Института Архитектуры и искусства***
***Национальной Академии Наук Азербайджана***
***ORCİD İD: 0000-0001-5868-8109***
***yanshaq@gmail.com***


### Этнокультурное разнообразие Азербайджана на фоне мыслей Гейдара Алиева


***Резюме***

Статья, представленная автором, рассматривает личность Гейдара Алиева сквозь призму формирования единой азербайджанской нации на основе различных по этнической принадлежности народов, проживающих в Азербайджане. Переоценка приоритетов в истории национально-этнических отношений, пробуждение национального самосознания и предотвращение возможности этнического столкновения приходится именно на период правления Гейдара Алиева.

В статье получает своё утверждение мысль, что достоверно изучить историю и культуру малочисленных коренных народов Азербайджана, предотвратить последствия национализма в полиэтническом государстве стало возможным благодаря мудрому политическому курсу Гейдара Алиева. Одновременно в статье подчёркивается тот факт, что азербайджанская модель сосуществования и мультикультурализма, основанная Гейдаром Алиевым и успешно продолженная на сегодняшний день президентом Ильхамом Алиевым, изучена и принята многими странами мира, как наиболее эффективная модель.



***Ключевые слова: Гейдар Алиев, культура, национально-нравственные ценности, малочисленные народы, этнические группы.***



***Vugar Qarajan Karimli***
***Culturologist (Ph.D), associate professor***
***Scientific Secretary, Institute of Architecture, and Art, ANAS***
***ORCİD İD: 0000-0001-5868-8109***
***yanshaq@gmail.com***


### The ethnocultural diversity of Azerbaijan against the background of Heydar Aliev's thoughts


***Summary***

The article presented by the author considers of personality of Heydar Aliev through the prism of formation of the united Azerbaijani nation of the basis of different ethnic groups living in Azerbaijan. The re-evaluation of priorities in the history of national-ethnic relations, the awake-

ning of national identity and the prevention of the possibility of ethnic confrontation is precisely during the reign of Heydar Aliev.

The article states that it is possible to study the history and culture of the small indigenous peoples of Azerbaijan faithfully, to prevent the cosequences of nationalizm in a multi-ethnic state, thanks to the wise political course of Heydar Aliev. At the same time, the article underlines the fact that the Azerbaijani model of coexistence and multiculturalism, founded by Heydar Aliev and successfully continued to date by president Ilham Aliev, has been studied and accepted by many countries of the world, as the most efficient model.

***Key words: Heydar Aliyev, culture, national and moral values, small nations, ethnic groups.***

**UOT 37.01**

***Vüsalə Loğman qızı GÜLMALIYEVA***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun***
***"Məntiq" şöbəsinin elmi işçisi,***
***vusalagulmaliyeva86@mail.ru***

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ

***Xülasə***

Məqalədə insan həyatında gənclik deyilən bir dövrün əhəmiyyəti və mühümlüyündən danışılır. Cəmiyyətdə gənclərin nə qədər önəmli bir təbəqə olduğu göstərilir. Gəncliyin bir millətin yaşaması, inkişafı üçün təməl daşı olduğu və eləcə də bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin vacib şərt olduğu qeyd edilir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlərin Azərbaycan gəncliyinin inkişafına təkan verilməsi, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynaması vurğulanır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Məqalədə həmçinin Ümummilli liderimiz Heydər Əliyevin öz siyasətində daima gənclərə qayğı göstərdiyi, onların bir fərd kimi yetişməsinə xüsusi önəm verdiyi də vurğulanır.

***Açar sözlər: gənclik, dövlətçilik, vətəndaş, dövlət siyasəti, cəmiyyət, milli-mənəvi dəyərlər, təhsil, vətənpərvərlik.***

***

Bildiyimiz kimi, "gənc" sözü fars dilindən tərcümədə xəzinə, özündən sonra zəngin irs qoymaq deməkdir. [1, s. 3] Gənclik insan ömrünün qızıl dövrüdür. Müdriklərdən biri belə demişdir: Həyat gənclik nöqteyi-nəzərindən sonsuz bir gələcəkdir. Məhz bu dövrdə yaşamaq, yaratmaq həvəsi, həyat enerjisi, istedad, potensial ən yüksək pilləyə çatır. İnsan həyatının müqəddəratı gənclik dövründə qoyulur desək, heç də yanılmarıq, çünki müdrikliyin də, xoşbəxtliyin də təməli bu dövrdə qoyulur. Gənclik dövrünü əgər gülə bənzətsək, gülün inkişaf etməsi və gözəlləşməsi üçün ona ciddi diqqət və qulluq lazım olduğu kimi, eləcə də həyatlarının ilk baharını yaşayan gənclərə də düzgün istiqamətdə inkişafı üçün qayğı və diqqətin olmasına ehtiyac var. Gəncliyə diqqət və qayğını yetərincə verə bilməyən və layiqli şəkildə yetişdirməyi bacarmayan cəmiyyət gələcəklərini şübhə altına alan, bugünün mirasını gələcəyə ötürə bilməyən cəmiyyətdir. Gəncliyini itirmiş millətlər ruhunu itirmiş cəsəd kimidirlər. Ruhu olmayan cəmiyyət sözün həqiqi mənasında millət adını qazana bilməz. Əgər bir toplu millət adını qazanmaq istəyirsə, tarixə və insanlığa bir sözü olmalı və sözü olması üçün gənclərini ən yaxşı şəkildə yetişdirməlidir. Çünki mənəvi baxımdan sağlam, intellektli, savadlı gənclərin yetişdirilməsi hər bir xalq və ölkə üçün çox əhəmiyyətlidir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli-mənəvi dəyərlərinə sadiq, əyilməz, alnıaçıq, həm də tükənməz güc olan Gənclik həm də yeni nəslin yetişdirilməsi deməkdir. Burada Çin atalar sözünü

xatırlamaq yerinə düşər. "Əgər bir il sonrasını düşünürsənsə buğda ək, on il sonrasını düşünürsənsə ağaç ək, yüz il sonrasını düşünürsənsə, insan yetişdir". Məhz bütün bu deyilən amillər uzaqgörən ümummilli liderimiz Heydər Əliyev tərəfindən çox düzgün şəkildə təhlil olunaraq qiymətləndirilmişdir. Heydər Əliyevin gənclik haqqında bir kəlamı gəncliyin necə mühüm bir qüvvə olduğunun real sübutunu göstərir. "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". [2] H.Əliyev böyük kimi gənclərə zəngin üfüqlər açmaqla bilirdi ki, onların gözlərindəki işıq bütün qaranlıq görünən problemləri aydınlaşdırmaq gücünə malikdir və eləcə də əzmli olmaqları gələcəyə mütləq ümid deməkdir. "Bir nəslin taleyini əvvəlki nəsil təyin edir" aforizminə istinad edərək həqiqətən də ümummilli liderimizin Azərbaycan dövlətinin gələcəyi üçün gənclərlə bağlı çox mühüm addımlar atdığı hamımıza yaxşı məlumdur. Məhz ilk dəfə 1997-ci ildə Ulu öndərimizin sərəncamı ilə dərin srateji məqsədləri özündə ehtiva edən "2 fevral Azərbaycan Gənclər günü" təsis edilmişdir. Dünyada isə bu yalnız 1998-ci ildə 12 avqust tarixində Lissabonda keçirilən konfransda BMT-nin qərarı ilə təsdiq edilmişdir. Bu da liderimizin uzaqgörənliyinin bir daha əyani sübutudur.

Ulu öndərimizin gəncliyə diqqət silsiləsindən hələ 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan H.Əliyev 1994-cü ildə iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyini, 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurasını yaratdı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də, 2 fevral 1996-cı ildə gənclərin I Forumu keçirildi. Forumda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığını vurğuladı. Həmin dövrdə gənclərin problemlərinin həllini təmin edən fərmanların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. [3] 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirəlayiqdir. Məhz ümummilli liderimiz dövlət tərəfindən qayğı və diqqətlə əhatə olunan gənclərin düzgün yetişdirilməsində həm də ailənin, tərbiyənin, elmin, savadın, təhsilin nə qədər mühüm rol oynadığını bilərək bu istiqamətdə də əhəmiyyətli dərəcədə faydalı olan qanun və sərəncamlar vermişdir. Çünki H.Əliyev müdrikcəsinə anlayırdı ki, ölkənin dayanıqlı inkişafı, xalqın isə gələcək müqəddəratı kompleks şəkildə inkişaf edən gənclərdən asılıdır. H.Əliyev yaxşı bilirdi ki, artıq əsas problem bilməmək deyil, bildiyinə əməl etməməkdir. Ona görə də sağlam ruhlu və yüksək mənəvi tərbiyəyə malik olan gənclərin yetişdirilməsi sağlam ailədə verilən düzgün tərbiyədən birbaşa asılıdır. Məhz bu istiqamətdə 90-cı illərdə Ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm beynəlxalq Konvensiyalara qoşulmuş və respublikamızda müvafiq qanunlar qəbul edilmişdir. Ulu öndərimiz gələcək nəsil övladlarının, cəsarətli, qorxmaz, sağlam, yüksək mənəvi tərbiyəyə malik olan gəncliyin yetişdirilməsində, istər milli, maddi və istərsə də mənəvi dəyərlərimizi təbliğ etmək və gənc nəsillərə ötürmək kimi mühüm vəzifənin "ana"dan başladığını bilərək qadın-ana şəxsiyyətinə mühüm önəm vermişdir.

Digər tərəfdən ümummilli liderimiz milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilli gənclərin əvəzsiz rolunu həmişə vurğulamışdır. Heydər Əliyevin Azərbaycan təhsilinin inkişaf yolundakı böyük xidmətlərindən biri də 1970-1980-ci illərdə təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin ən məşhur ali məktəblərində xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq Azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəs-sislər kimi

hazırlanmasına imkan və şərait yaratmasıdır. Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli liderimiz Heydər Əliyev siyasətinin büyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metodların tətbiqi önə çəkilmişdir.

Daha sonra H.Əliyev gənclik çağının insan həyatında ən canlı və dinamik dövr olduğunu və bu dövrün özəlliklərinin hər birinə xüsusi yanaşmağın elə həm gəncin özünə, həm də cəmiyyət və insanlıq üçün çox qiymətli dəyərlərə dönməsini öz çıxışlarında xüsusilə qeyd etmişdir. Məhz burada ən önəmli məsələ insan həyatının ən coşqulu dövrünün duyğularını necə yönətməkdən asılıdır. H.Əliyev müdrikcəsinə bilirdi ki, gənclər idarə olunan bir mexanika, format edilə biləcək bir texnologiya, bir proqram və ya üzərində rahatca yaza və silə biləcək bir qaralama deyil. Məhz ümummilli liderimiz hər bir gəncin bir aləm, bir fərd olduğu düşüncəsi ilə hərəkət edərək gənclərlə mütəmadi olaraq keçirilən görüşlərdə onları anlamış, dəyər vermiş, birlikdə vaxt keçirmiş, onlara məsuliyyət və öhdəlik verərək gənclərin qarşısında yeni bir üfüqün açılmasına səbəb olmuşdur. Digər tərəfdən ulu öndər H.Əliyev yaxşı bilirdi ki, müsbət nümunə, əyanilik son dərəcə qiymətli bir vasitədir, hətta əxlaqi nüfuz cəmiyyətdə əxlaqi həyatı tənzim edən bir amildir. Məhz H.Əliyevin şəxsiyyəti, ədaləti, müdrikliyi, nəcibliyi, humanizmi, cəsarəti, xeyirxahlığı, qayğısı, diqqət kimi ali etik dəyərləri cəmiyyətdə formalaşan hər bir gəncin şüuraltına təsir edərək həmin gənclərin özləri də bilmədən bu ali dəyərləri mənimsəyirlər. XX əsrin ən möhtəşəm zəka sahiblərindən biri olan Viktor Frankla görə, insan olmaq - deməli özünə yox, nəsə başqa şeyə, hansısa varlığa yönümlü olmaqdır. Elə müxtəlif dövrlərdə və müxtəlif məkanlarda yaşayıb-yaratmış mütəfəkkirlərin, görkəmli dövlət xadimlərinin ən möhtəşəm xidmətləri bəlkə də ondan ibarət olmuşdur ki, özlərində bütün bəşəriyyətin, yaşadıqları cəmiyyətin dərdlərini, ehtiyaclarını, arzu və istəklərini hiss və dərk edərək "əksliklərin toqquşması"nın ağır yükünü üzərlərinə götürmüş, birləşdirici simvol-mahiyyətin yaranmasına və qərarlaşmasına çalışmışlar. Böyük zəka və iradə sahibi H.Əliyevin həyat və yaradıcılığı bu həqiqətin əsaslı sübutudur. Məhz H.Əliyev yaxşı bilirdi ki, cəmiyyətdə canlı və anlaşıqlı ideya olmadıqda, dövlətin, millətin siyasi, iqtisadi və mənəvi inkişafının əsasları sayılan ideoloji oriyentirlər olmadıqda hökmən o cəmiyyətdə boşluq yaranır. Bu isə dövlətçiliyin formalaşması prosesinə və millətin simasına mütləq təsir göstərir. İdeoloji sistemi, cəmiyyəti mənən dirçəltmək, onun yaradıcılıq potensialını gücləndirmək, ictimai şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirməyə qadir struktur qurmaq niyyəti H.Əliyev siyasətinin əsası olmuşdur. H.Əliyevin bütün fəlsəfi konstruksiyası məhz xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Biz o ideyaları ideologiya kimi qəbul edirik ki, onun nəticələri, onun insanlara təsir gücü, işləmə mexanizmi, nə qədər geniş aspektli olması və s. amillərdən asılıdır. Məhz H.Əliyevin gənclərlə bağlı cəmiyyətə aşıladığı mənəvi ideyalar bu gün də gəncləri bu yöndə düşünməyə vadar edir.

"Hansı gənclər bizə lazımdır?" sualına ümummilli liderimizin verdiyi cavablardan məlum olur ki, bizə ən çox önəmlini sadəcə önəmlidən, onu da önəmli olmayandan ayırmaq, prioritetləri müəyyən etmək, ən önəmli olan problemlərdən danışmaq və sürətli, ağıllı həll etmək qabiliyyətlinə malik, dünyada gedən dəyişikliklərlə ayaqlaşmağı bacaran, dəyişilməyə açıq olan, vətənpərvər, dəyanətli, mədəni, cəsarətli, iradəli, millətinə xidmət etməyi qarşısına məqsəd qoyan bir gənclik lazımdır. Çıxışlarının birində H.Əliyev demişdir: "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir". Görkəmli alman filosofu K.Marks əsərlərinin birində qeyd etmişdir ki, "Əgər insan ancaq özü üçün işləsə, bəlkə də məşhur alim, dahi mütəfəkkir, böyük şair ola bilər, lakin o heç vaxt həqiqətən kamil insan ola bilməz". Məhz Heydər Əliyev təkcə Azərbaycanın gənclərinin hərtərəfli inkişafı üçün yox, Azərbaycan dövlətinin inkişafı üçün mühüm addımlar ataraq kamil insan adını qazanmışdır.

Fəlsəfədə varislik deyilən bir prinsip var. Bu prinsip əsasında mütərəqqi dəyərləri mühafizə etmək və gələcək nəsillərə ötürmək amili önəmli bir faktordur. Varislik prinsipi ilə mütərəqqi qüvvələrin qarşılıqlı fəaliyyəti nəticəsində mənəvi sərvətləri qorumaq və bərpa etməklə sonrakı nəsillərə düzgün bir şəkildə çatdırmaq mümkündür. Məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti və bu siyasətin mütərəqqi ideyaları varislik prinsipi əsasında bu gün prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir. Belə bir deyim var: "Dahinin yanında dahi yetişər". Həqiqətən də, cənab prezidentimizin dahiyanə şəkildə apardığı gənclər siyasəti bizə bunu deməyə əsas verir. Çünki sosial həyatın bütün sferalarında gənclərin rolu nəzərəçarpacaq dərəcədə çoxdur. Nümunə kimi, 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni, hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir.

Ölkə Prezidenti gənclərimiz üçün təhsilin vacib olduğunu daim tövsiyə edib. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Dünyada baş verən qlobal hadisələrin tez-tez dəyişməsi, sürətli inkişaf, yeni texnologiyaların yaranması, onların idarə olunması hərtərəfli biliyə malik gənclərin yetişməsi zərurətini yaradıb. Bu baxımdan, dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Cənab Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur. Gənclər Fondunun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsidir. [4]

Dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu Proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir.

Ulu öndərimizin gənclərdə ən yüksək qiymətləndirdiyi Vətən sevgisinin aliliyini, sahiblənməyi biz 26 sentyabr 2020-ci il tarixində Ali Baş Komandanın rəhbərliyi altında həyata keçirilən Vətən müharibəsində həm ön və eləcə də arxa cəbhədə iştirak edən gənclərimizin timsalında gördük. Çünki ulu öndər tərəfindən yaradılmış mühitdə böyüyən gənclər də öz növbəsində özlərindən sonra gələn gənclərə bir millətin sahib olduğu ən önəmli şeyin Vətəni və bayrağı olduğunu bildirdilər. Cənab Prezidentimizin 2 fevral 2022-ci il tarixində Azərbaycan Gənclər gününün yaranmasının 25 illiyinə həsr olunuş Gənclər Forumunda gənclərin çıxışlarını dinləməsi, suallara cavab verməsi bir daha dövlətin gənclərə olan münasibətinin göstəricisidir.

Bəşəriyyət təkcə ideyaları deyil, həm də hərəkəti alqışlayır. Məhz ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və hal-hazırda da prezident İlham Əliyevin rəhbərliyi altında gənclərin inkişafı ilə bağlı aparılan bu cür mütərəqqi hərəkətlər gənclərin gözündə işığı canlandırır, bu işıqla qaranlıq görünən bütün problemlər aydınlaşır, əzm və qərarlılıqları gələcəyə ümid olur.

**ƏDƏBİYYAT**

1. Gəncliyin fəlsəfəsi. Könül Bünyadzadə, Bakı, Nurlar -2009, 250 s.
2. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. YAP, 6 may 2020.
3. https://www.azerbaijans.com/content_656_az.html
4. http://www.anl.az/down/meqale/yeni_az/2014/aprel/363849.htm

***Вусала Логман гызы Гюльмалиева***
***Институт философии и социологии НАНА***
***Научный сотрудник отдела "Мантиг"***
***vusalagulmaliyeva86@mail.ru***

**Общенациональный лидер Гейдар Алиев и современная Азербайджанская молодежь**

***Резюме***

В статье рассказывается о значении и важности периода в жизни человека под названием Молодость. Показано, насколько значительным является слой молодежи в обществе. Отмечается, что молодежь является краеугольным камнем выживания, развития нации, а также что для существования нации необходимо наличие у нее здоровой молодежи. Потому что дальнейшее укрепление государственности, независимости, надежное обеспечение будущего в каждой стране во многом зависит от подготовки потенциальных кадров интеллектуального уровня, превращения их в ведущую силу. В этой связи подчеркивается, что меры, принимаемые в нашей стране в сфере работы с молодежью, способствуют развитию азербайджанской молодежи, играют большую роль в ее самоутверждении в обществе. Сегодня правильное воспитание подрастающего поколения занимает важное место в политике страны. Результатом успешного продолжения Президентом Ильхамом Алиевым Государственной молодежной политики, основанной общенациональным лидером Гейдаром Алиевым, является то, что сегодня азербайджанская молодежь оправдывает себя во всех сферах. В статье также говорится, что наш общенациональный лидер Гейдар Алиев в своей политике всегда заботился о молодежи, уделяя особое внимание ее воспитанию как личности.

***Ключевые слова: молодежь, государственность, гражданин, государственная политика, общество, национально-нравственные ценности, образование, патриотизм.***

***Vusala Logman Gulmaliyeva***
***ANAS Institute of Philosophy and Sociology***
***Scientific worker of "Mantig" department***
***vusalagulmaliyeva86@mail.ru***

**National leader Heydar Aliyev and modern Azerbaijani youth**

***Summary***

The article talks about the importance and significance of the so-called Youth period in human life. It is shown what an important layer of youth is in society. It is noted that youth is the cornerstone for the survival and development of a nation and that Healthy Youth is an important condition for the existence of a nation. Because the further strengthening of statehood, independence and reliable guarantee of the future in each country largely depends on the training of potential personnel of an intellectual level and their transformation into a leading force. From this point of view, it is emphasized that the measures taken in the field of work with young people in our country play a great role in giving impetus to the development of Azerbaijani youth and their self-affirmation in society. Today, the correct upbringing of the younger generation occupies an important place in the country's politics. As a result of the successful continuation by President Ilham Aliyev of the State Youth Policy founded by national leader Heydar Aliyev, today

Azerbaijani youth have justified themselves in all spheres. The article also states that our national leader Heydar Aliyev always cares about young people in his policy and attaches special importance to their growth as individuals.

***Key words: youth, statehood, citizen, state policy, Society, national-moral values, education, patriotism.***

**UOT 390**

***Xanımağa Nəbi qızı İSMAYILOVA***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***"Azərbaycan fəlsəfə tarixi" şöbəsinin elmi işçisi***

## HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ AZƏRBAYCANDA QADINLARIN İCTİMAİ HƏYATI

*"Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır."*

***Ümummilli lider Heydər Əliyev***

***Xülasə***

Məqalədə Azərbaycan Respublikasının ictimai-siyasi, sosial və mədəni həyatında baş verən hadisələr açıqlanır, qadınların ictimai fəallığı təhlil edilir. Bildiyimiz kimi, Heydər Əliyev dövlət başçısı olduğu 2 dövrdə (1969-1982; 1993-2003-cü illər) həmişə qadınların həm ictimai, həm də mədəni həyatda fəallığını təmin etməyə çalışmışdır. Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycan Respublikasının birinci katibi işlədiyi müddətdə daima qadınları diqqət mərkəzində saxlayırdı. Müəssisələrdə və rayon təşkilatlarında qadınlara məsul vəzifələrin ayrılmasını təmin edirdi. Həmin illərdə, məlum olduğu kimi, Azərbaycan dövləti SSRİ-nin tərkibində mövcud idi. O dövrdə Azərbaycanın iqtisadiyyatı, kənd təsərrüfatı çox geniş inkişaf etmişdi. Həmin dövrdə Azərbaycan qadınları məhz Heydər Əliyevin təşəbbüsü və təqdimatı sayəsində SSRİ-nin ali mükafatlarına layiq görülüblər. Ümummilli lider Heydər Əliyev ideyalarının davamı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin və istehsalın bütün sahələrində layiqincə həyata keçirilir.

***Açar sözlər: Heydər Əliyev, İlham Əliyev, milli-mənəvi dəyərlər, cəmiyyətdə qadın.***

***

Hər bir dövlətin, onun xalqının yaşadığı ölkəsində öz qanun-qaydası, milli mentaliteti, adət-ənənələri mövcuddur. Heydər Əliyevin fəaliyyəti dövründə Azərbaycan qadınlarının ictimai həyat məsələlərinə yetirdiyi diqqət və qayğı məqalənin əsas məqsədidir. Qadınlara hörmət, qadın azadlığı, onların ictimai həyatda fəaliyyəti Azərbaycanın görkəmli maarifçiləri tərəfindən hələ XIX əsrin əvvəllərindən başlayaraq həmişə işıqlandırılmış və bu sahədə işlər aparılmışdır. Azərbaycanın tanınmış maarifçilərindən olan "A.A.Bakıxanov, Mirzə Kazım bəy, M.F.Axundzadə, H.B.Zərdabi, C.Əfqani" [7] və bir çox başqaları öz əsərlərində milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, xüsusən də qadınlarımızın cəmiyyətdə özlərini azad hiss etməsi, ölkənin ictimai-siyasi və mədəni həyatında fəaliyyət göstərməsi, kişilərlə bərabərhüquqlu yaşaması kimi məsələləri işıqlandırmışdılar. Bu ideyalar zaman-zaman təkmilləşərək bu günümüzə qədər daha real və inkişaf etmiş formada özünü təsdiq etmişdir.

Azərbaycan dövlətinin bir neçə əsrlik tarixi vardır. Azərbaycanın tarixində özlərini peşələri ilə məşhur edən qadınlarından bəzilərini təqdim edirik: "Azərbaycanın ilk maarifçi qadını, xeyriyyəçi, tərcüməçi Həmidə Cavanşir (Məmmədquluzadə), Azərbaycanın mədəniyyət mərkəzi sayılan, respublikamız üçün böyük əhəmiyyətə malik olan qəhrəman Şuşa şəhərində yaşamış ictimai-siyasi xadim, milli-mənəvi və mədəni dəyərlərimizə öz yaradıcılığında geniş yer ayırmış şairə, həm də ədəbi məclislərin təşkilatçısı Xurşidbanu Natəvan, Məhsəti Gəncəvi, Heyran xanım, Aşıq Pəri, Nigar Rəfibəyli kimi şairələr, Uzun Həsənin anası Sara Xatun, Qaçaq Nəbinin həyat yoldaşı Həcər

xanım kimi qadınlar bir salnamə yaradıblar. Bundan başqa elm sahəsində tarixçi alim, akademik, Azərbaycan Tarix Muzeyinə rəhbərlik etmiş Püstəxanım Əzizbəyova, akademik, tarixçi alim Sara Aşurbəyli, musiqi sahəsində Şərqdə ilk opera yazan bəstəkar Şəfiqə Axundova, Azərbaycanın ilk bəstəkar qadını Ağabacı Rzayeva, caz-muğam sintezini əldə edən bəstəkar Firəngiz Əlizadə, Azərbaycan tibb elminin inkişafında parlaq yer tutan, töhfələr verən oftalmoloq Zərifə Əliyeva, şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru Aida İmanquliyeva, Azərbaycan rəqsləri ilə Moskvanın böyük konsert salonlarında çıxış edən rəqqasələrimiz Əminə Dilbazi, Afaq Məlikova, rəssamlarımız Vəcihə Səmədova, Güllü Mustafayeva, idman sahəsində Dünya çempionları, şahmatçı Aynur Sofiyeva, stend atıcılığı üzrə Zemfira Meftaxetdinova, yazıçılarımız Əzizə Cəfərzadə, Ələviyyə Babayeva, SSRİ-nin və Azərbaycanın Xalq artisti Zeynəb Xanlarova və b.” [9] Sadaladığımız bu məşhurlar öz peşələri ilə Azərbaycanı dünyaya tanıtmış qadınlardır.

Tarixdən də bizə məlumdur ki, XIX əsrdən başlayaraq Azərbaycanda bir neçə rəhbər dəyişikliyi olmuşdur. Azərbaycan 1920-1990-cı illərə qədər SSRİ tərkibində müttəfiq respublika kimi mövcud olmuşdur. Bildiyimiz kimi, Azərbaycan Respublikasının prezidenti olmuş ictimai-siyasi xadim Heydər Əliyev 2 dövrdə (1969-1982, 1993-2003) Azərbaycana rəhbərlik etmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasının 1-ci katibi işlədiyi birinci mərhələdə (1969-1982) qadınların ölkənin ictimai-siyasi, sosial, mədəni həyatında fəaliyyətini həmişə təmin etmiş və onlara daim dəstək olmuşdur. Azərbaycan torpaqlarının ərazi bütövlüyü, xalqın azad, suveren yaşaması, o cümlədən qadınlarımızın hüquqlarının qorunması məsələləri H.Əliyevin əsas prioritetlərindən olmuşdur. Onu da qeyd etməliyik ki, dövlətin idarə edilməsi, eyni zamanda vətəndaşının yaşam tərzi, fəaliyyəti, cəmiyyətin əsas aparıcı qüvvələrindən biri olan qadınlara münasibət, onlara qayğı məhz rəhbərlik edən şəxsdən: prezidentdən asılıdır.Tarix boyu Azərbaycanın və xalqının başına çoxlu müsibətlər gəlmişdir. Müharibələrə, parçalanmalara, öz doğma yurdlarından kütləvi deportasiyalara, soyqırımlara məruz qalmışdılar. Və bütün dövrlərdə Azərbaycan qadınları da bu hadisələrin iştirakçısı və şahidi olmuşlar. Hər dövrün igid, cəngavər başçı qadınları böyük ad-san qazanmışlar. Beləliklə də, məhz Azərbaycanın ictimai-siyasi həyatında, mənəvi, mədəni hadisələrində dövlətinə, xalqına xeyir verən, millilik ənənələrini qoruyub saxlayan görkəmli qadın ordusu yetişmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin dövrdə bütün sahələrlə yanaşı qadınlara və onların problemlərinə, sosial və ictimai həyatına həmişə diqqət yetirilmişdir. İnstitutlarda, rayon təşkilatlarında məsul vəzifələrin qadınlara tapşırılmasını təmin etmişdir. Həmin illərdə məlumdur ki, Azərbaycan dövləti müttəfiq respublikalardan biri kimi SSRİ-nin tərkibinə daxil idi. Elə bu dövrdə də, Azərbaycan iqtisadiyyatının bir sahəsi olan kənd təsərrüfatı çox geniş inkişaf etmişdi. Hətta istehsalatda fərqlənən qabaqcıl qadınlarımızın SSRİ Ali Sovetinin qurultaylarına nümayəndə seçilməsi təşəbbüsü də məhz Heydər Əliyevin diqqətində olmuşdur. Bunlardan əməkdə fərqlənən, qabaqcıl azərbaycanlı qadınlarımızdan birinin adını qeyd etmək istərdik. 4-11-ci çağırışlar SSRİ Ali Sovetinin deputatı, 1960-1974-cü illərdə isə SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədr müavini olmuş Şamama Həsənova. [6] Bu ənənələr Azərbaycan qadınlarının müttəfiq respublikaları təmsil edən qadın nümayəndələri ilə sıx əməkdaşlığına, onların qabaqcıl iş təcrübəsini bir-biri ilə bölüşmək kimi imkanlara, dostluğa yol açırdı. Heydər Əliyevin istehsalatda, fabrik və zavodlarda, kənd təsərrüfatı sahələrində, eyni zamanda dövlət orqanlarında rəhbər işlərdə çalışan qadınlara bu qədər diqqət ayırması, münasibəti və qayğısı onların öz işlərini məsuliyyətlə, fədakarlıqla və səylə davam etdirməsinə stimul yaradırdı.

1993-cü ildə Azərbaycan dövlətinə Heydər Əliyev kimi şəxsiyyətin rəhbərlik etməsinin yeni, 2-ci hakimiyyəti dövrü başlandı. Məhz, Azərbaycanda qadın hərəkatı, onların fəaliyyəti Heydər Əliyevin gəlişi ilə daha geniş vüsət aldı.

İkinci dəfə hakimiyyətə gələn H.Əliyev Azərbaycan qadınlarının dövlət quruculuğu sahəsindəki fəaliyyətlərini nəzərə alaraq bir neçə mühüm və əhəmiyyətli qərarlar qəbul etdi.

Məsələn, **Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi, qadınların problemlərini tənzimləyən bir qurumun olması zəruriliyini nəzərə alaraq 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.[5] Bu komitə konkret olaraq qadın və uşaqların problemlərinin həllini**

**asanlaşdırmaq məqsədi güdürdü.** Ümummilli liderimiz Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi.

Müstəqil Azərbaycanın 1995-ci ilin 12 noyabrında qəbul edilən Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır.

Məlumdur ki, bütün dövrlərdə Azərbaycanda qadınlar ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında, elmin inkişafı, uşaqların təlim-tərbiyəsi və s. sahələrdə həmişə çox fəal və mütəşəkkil şəkildə fəaliyyət göstərmişdir. Ölkəmizdə qadınların kişilərlə bərabərhüquqlu olması "kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır (**Bərabərlik hüququ: Maddə 25)**",[2] istər məişət işlərində, istərsə də dövlət orqanlarında, rəhbər vəzifələrdə çalışmaları üçün heç bir maneə olmaması baxımından Azərbaycan Respublikasının Konstitusiyasının 55-56-cı maddəsində öz əksini tapmışdır: "Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır...Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır". [2] Qanunda aydın şəkildə təsbit olunmuş bu maddələrin açıqlaması bir daha sübut edir ki, qadınlar yaşadığı ölkənin azad vətəndaşlarıdır.

Dünyanın yaranışından bəllidir ki, insan həyatın və cəmiyyətin əsasını təşkil edir. Bu da, qadın və kişilərdən ibarətdir. XX əsrin sonlarında bu fikir Azərbaycanda "Gender" [4] termini kimi formalaşdı. Gender sözünə mütəxəssislər bir neçə tərif vermişdir. Lakin sonda nəticə etibarilə Gender anlayışı qadınların fəaliyyətlərini xarakterizə edən qadın-kişi sosial bərabərliyini əks etdirir. Ölkəmizdə aparılan islahatların bir qolu kimi gender qadınların fəaliyyətini və hərtərəfli dinamik inkişafını ifadə edir.

Belə ki, Ümummilli lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini həmişə diqqət mərkəzində saxlamaqla qadınların dövlət strukturlarında, parlamentdə, siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmasına şərait yaratdı. Onları yüksək dövlət mükafatları ilə təltif edirdi. Bu təşkilatçılıq Azərbaycan qadınlarında çox böyük ruh yüksəkliyi yaradırdı.

Nəticədə milli müstəqillik və dövlətçilik ideyalarından bəhrələnərək Azərbaycan qadınları bu gün də dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, elm-təhsil sahəsində fəal iştirak edərək vətənimizin inkişafına layiqli töhfələrini verirlər. Azərbaycan Respublikasının prezidenti, ictimai xadim, Ali Baş Komandan İlham Əliyev cənabları Azərbaycan qadınlarının daha geniş fəaliyyəti üçün dövlət strukturlarında, ictimai işlərdə dövlət səviyyəsində onların bu gün həm siyasi, həm iqtisadi çətinliklər dövründə cəmiyyətin həyatında fəal rol oynayaraq övladlarının sabahı uğrunda səylə çalışmaları üçün çox böyük imkanlar yaratmışdır.

2023-cü il çox əlamətdar hadisələri özündə birləşdirir. Qeyd etmək lazımdır ki, 2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli oftalmoloq-alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Zərifə Əliyevanın anadan olmasının 100 ili tamam olur. Yubileylə əlaqədar Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır".[1]

Bu gün Heydər Əliyevin Azərbaycan və azərbaycançılıq ideyalarından bəhrələnən Prezident İlham Əliyev daha əhatəli və yeniliklərlə dolu fəaliyyətini qətiyyətlə, inamla davam etdirir. Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz qəhrəmanlığı, əzmkarlığı nəticəsində həmişə qalib olmuşdu. Bu günümüzdə də qalib dövlət kimi Azərbaycan dünya tarixində artıq öz yerini təsdiqləyir. Bu, Azərbaycan xalqının azadlıq, xalq-rəhbər birliyinin məcmusudur. Heydər Əliyev

tərəfindən yaradılmış bu ideya-siyasi xətti onun varisi olan Prezident İlham Əliyev dövlət idarəçiliyi, dövlətçilik, kommunikativ sahədə və istehsalın bütün sahələrində uğurla davam etdirir. Yenə də qadınlarımız Ali hüquq orqanlarında, nazirliklər və idarə rəhbərliyində, ictimai qurum və təşkilatlarda, eyni zamanda xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimizdə rəhbər vəzifələrdə çalışırlar. Məsələn, Azərbaycan Pespublikasının Vitse-Prezidenti Mehriban Əliyeva, filologiya elmləri doktoru, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının pektoru Nərgiz Paşayeva, ictimai xadim, şairə, 2011-ci ildən Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyeva, "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi"nin sədri Bahar Muradova, Azərbaycan Respublikası Milli Məclisinin spikeri Sahibə Qafarova və s. Bu, müstəqil, azad Azərbaycan dövlətinin siyasi, iqtisadi, milli-mənəvi və mədəni quruculuq işlərində özünə inamı və yüksək bacarığı ilə dövlətinə və xalqına xidmət edən qadınlarımızın inkişafının sürətli tendensiyasını ifadə edir.

Mehriban Əliyeva, Ümummilli lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsi istiqamətini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən Heydər Əliyev Fonduna 10 may 2004-cü ildən rəhbərlik edir. Ötən illər ərzində məhz Mehriban xanımın tövsiyə və təşkilatçılığı ilə ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat-məktəblərin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxil edilməklə, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib... Xatırladaq ki, respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən bu layihə fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir. Heydər Əliyev Fondunun layihələri sırasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsi və dünyada yüksək yerə layiq olmasıdır".[8] Bundan başqa Akademik Nərgiz Paşayeva Azərbaycanda elm və təhsilin inkişafında xidmətləri olan qadınlarımızdan biridir. "O, Oksford Universiteti kimi ali səviyyəli bir elm-tədris müəssisəsində Nizani Gəncəvi Mərkəzini yaratmışdır. Akademikin "uğurla, məhsuldar, öz fəaliyyət meydanını daha da genişləndirərək fəaliyyət göstərməyə nail olması elmimiz, mədəniyyətimiz üçün həm fəxrdir, həm də böyük qürur duyacağımız ciddi nailiyyətlərin mənbəyidir. Dahi Nizaminin adını daşıyan (və bu adı özünün azərbaycanşünaslıq-qafqazşünaslıq araşdırmaları fonunda, yəni bizim zəmanəmiz üçün heç də az səciyyəvi olmayan populist mülahizələr, iddialarla deyil, elmin, intellektin, sözün geniş mənasında mədəniyyətin bilavasitə təzahürünün nəticəsi olaraq dünyaya yeni müstəvidə təqdim edən!) Mərkəz öz humanist missiyasını, heç şübhəsiz, layihə gücündə həyata keçirməklə şair-mütəfəkkirin yüz illərdir ki, yaşayan, şüurlara, hisslərə get-gedə daha çox qida verən ümumbəşəri ideallarına layiq işlər görür".[3]

Beləliklə, nəticə etibarilə yuxarıda yazdıqlarımızı yekunlaşdıraraq onu deyə bilərik ki, Heydər Əliyevin Azərbaycan, azərbaycançılıq ideyaları və Azərbaycan qadınına olan qayğı, diqqət, onların inkişafı məsələləri özünü yüksək səviyyədə doğrultmuş, bu gün həmin ideoloji xətt özünə yenilikləri də cəlb edərək Azərbaycan modelini yaradır. Bir daha Azərbaycanın azadlığı əbədi olsun ki, dövlətimizin aparıcı qüvvəsi olan qadınlarımız **vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz,** sanballı ideya və fəaliyyətləri ilə irəliyə doğru addımlasınlar.

## ƏDƏBİYYAT

1. Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 03 noyabr 2022// https://president.az/az/articles/view/57771
2. Azərbaycan Respublikasının Konstitusiyası — Azərbaycan Respublikasının əsas Qanunu https://president.az/az/pages/view/azerbaijan/constitution Azərbaycan Respublikasının Konstitusiyası — Azərbaycan Respublikasının əsas Qanunu. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul olunmuşdur.

3. Cəfərov N. Akademik Nərgiz Paşayeva və ya milliliyin beynəlmiləl üfüqləri//https://edebiyyatqazeti.az/news/edebi-tenqid/9755-aka-demik-nergiz-pasayeva-ve-ya-milliliyin-beynelmilel-ufuqleri
4. http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/iyun/443990.htm
5. http://scfwca.gov.az/page/komitenin-tarixi// Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədri Bahar Muradova
6. https://az.wikipedia.org/wiki/%C5%9 Shamama _H%C9%99s%C9%99nova
7. "XIX əsrin II yarısında Azərbaycan maarifçiliyində azərbaycançılıq ideyası məsələləri" http://www.anl.az/down/meqale/ses/2012/mart/238599.htm//
8. Salmanlı R. Heydər Əliyev Fondunun humanizm və xeyriyyəçilik ənənələri// https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-fondunun-humanizm-ve-xeyriyyecilik-eneneleri-1661463011
9. Tarixin ən məşhur Azərbaycan qadınları // https://qadinkimi.az/az/tarixin-en-meshur-azerbaycan-qadinlari/

***Ханумага Наби кызы Исмаилова***
***Институт философии и социологии НАНА***
***Научный сотрудник отдела "История философии Азербайджана"***

**Общественная жизнь азербайджанских женщин в период Гейдара Алиева**

***Резюме***

В статье раскрываются события общественно-политической, социальной и культурной жизни Азербайджанской Республики, анализируется общественная активность женщин. Как известно, в течение 2-х периодов (1969-198; 1993-2003 гг.), когда во главе государства стоял Гейдар Алиев, и в дальнейшем став президентом Азербайджаном всегда своей деятельностью старался обеспечить активность женщин как в общественной, так в культурной жизни страны. Во время своего пребывания на посту Первого секретаря Азербайджанской Республики в 1969-1982 годах Гейдар Алиев всегда ориентировался на женщин. Он добился того, чтобы ответственные должности были закреплены за женщинами в институтах и региональных организациях. В те годы, как известно, Азербайджанское государство существовало в рамках СССР. Особое внимание уделялось Гейдаром Алиевым к женщинам, работающим на производстве, фабриках и заводах, сельскохозяйственных полях, а также в государственных общественных организациях.

Такая политика в отношении к женщинам, разработанная Гейдаром Алиевым успешно претворяется и поныне сегодня Президент Азербайджана Ильхам Алиев являясь продолжателем идей Общенационального Лидера Гейдара Алиева достойно осуществляет в жизнь его политику во всех сферах управления государством и производства.

***Ключевые слова: Гейдар Алиев, Ильхам Алиев, национально-нравственные ценности, женщина в обществе.***

***Khanimaga Nabi Ismailova***
***ANAS Institute of Philosophy and Sociology***
***Researcher of the department "History of Philosophy of Azerbaijan"***

**Public life of Azerbaijani women in the period of Heydar Aliyev**

***Summary***

The article reveals the events of the socio-political, social and cultural life of the Republic of Azerbaijan, and analyzes the social activity of women. As it is known, during the two periods

(1969-1982; 1993-2003), when Heydar Aliyev was the head of the state, and later being the president of Azerbaijan, he always tried to ensure the activity of women both in the public and cultural life of our county. Heydar Aliyev always focused on women during his tenure as the First Secretary of the Republic of Azerbaijan in 1969-1982. He ensured that positions of responsibility were assigned to women in institutions and regional organizations. In those years, as it is known, Azerbaijan existed within the framework of the USSR. At that time, the economy of Azerbaijan, including agriculture, was very highly developed. Heydar Aliyev also paid much attention to the initiative of our women distinguished in production to be elected to the congresses of the Supreme Soviet of the USSR. Heydar Aliyev paid partikular attention to women working in production, factories and plants, agricultural fields, state and public organizations.

Such a policy towards women, developed by Heydar Aliyev, is being successfully implemented to this day. The President of Azerbaijan Ilham Aliyev, being the successor of the ideas of the National Leader Heydar Aliyev, adequately implements his policy in all spheres of state administration and production.

***Key words: Heydar Aliyev, Ilham Aliyev, national and moral values, women in society.***

**UOT: 94(479.24).**

***Etibar Adil oğlu MUSAYEV***
***Tarix üzrə fəlsəfə doktoru, dosent,***
***Gəncə Dövlət Universiteti,***
***etibaradiloglu@mail.ru***

***Bağır Həmid oğlu BABAYEV***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,***
***Naxçıvan Dövlət Universiteti,***
***baqirbabayev59@mail.ru***

## ÇAĞDAŞ AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV İRSİ

***Xülasə***

Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildiyi ilk gündən özünün böyük fəaliyyətini dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, itirilmiş torpaqlarımızın və işğal edilmiş ərazilərimizin qaytarılmasına, Azərbaycanda hüquqi və demokratik dövlətin formalaşmasına, daxili sabitliyin yaradılmasına, xalqın sosial-iqtisadi rifahının yaxşılaşdırılmasına, elm və maarif sahələrinin inkişaf etririlməsi istiqamətində 1969-cu ildən başladığı siyasi fəaliyyətin daha da güclü şəkildə həyata keçirilməsinə yönəltdi.

Elm və maarif sahələrinin inkişafı istiqamətində Heydər Əliyevin yürütdüyü məqsədyönlü siyasətin çox faydalı nəticələri faktlarla göstərir ki, artıq 1970-ci illərdə ali məktəblərdə istehsalın və elmi-texniki tərəqqinin tələb etdiyi yeni bilik sahələri-avtomat idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası və bir çox başqa mütərəqqi ixtisaslar üzrə mütəxəssislər hazırlanmasına başlanması, yeni ali məktəblərin açılışı, təhsilin maddi bazasının gücləndirilməsi, elmi sahəyə və xüsusi ilə alimlərə göstərilən diqqət və qayğı, bunun nəticəsi olaraq isə elmi sahədə kifayət qədər yüksəliş baş vermişdir.

Heydər Əliyev Azərbaycan elminin, təhsilinin inkişafına, çiçəklənməsinə, bu mənəvi irsin qorunub saxlanılmasına və gənc nəslin milli-mənəvi ideyalarla tərbiyə olunmasına daim böyük diqqət və qayğı ilə yanaşmış, Azərbaycanın elmi potensialına, ziyalılarına və aristokratik təbəqəsinə olan mənfi münasibətə son qoyulmuş, Milli Elmlər Akademiyasını müstəqil bir elmi mərkəz kimi formalaşdırmaqla Azərbaycan elminin çiçəklənməsi yolunda mühüm bir mərhələnin başlanğıcını qoymuşdur.

***Açar sözlər: elm, təhsil, tərəqqi, intellekt, konsepsiya, ziyalı.***

***

Azərbaycan elminin inkişafı milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərə inteqrasiya olunmasının ən mühüm və real istiqamətlərindən biridir. Heydər Əliyev Azərbaycan elminin, təhsilinin inkişafına, çiçəklənməsinə, bu mənəvi irsin qorunub saxlanılmasına və gənc nəslin milli-mənəvi ideyalarla tərbiyə olunmasına daim böyük diqqət və qayğı ilə yanaşmışdır. Heydər Əliyev cəmiyyətin mənəvi cəhətdən inkişaf etməsində və kamilləşməsində elmi-texniki tərəqqinin nailiyyətlərini yüksək şəkildə qiymətləndirmişdi.

Azərbaycanın elmi potensialına, ziyalılarına və aristokratik təbəqəsinə olan mənfi münasibətə məhz Heydər Əliyevin 1969-cu ildə hakimiyyət başına gəlməsindən sonra son qoyulmuşdur. Heydər Əliyev alimlərin yaradıcı əməyinə daim yüksək qiymət vermiş və onlara həmişə qayğı göstərmişdir.[2, 40].

1969-cu ildə olduğu kimi yenə də elm, təhsil sahəsində yaranmış xoşagəlməz vəziyyətdə xilaskar missiyasını Heydər Əliyev oynamış oldu. Ölkədə siyasi hakimiyyətə ikinci dəfə gələn Heydər Əliyev sözün həqiqi mənasında bütün sahələrə olduğu kimi elm və təhsil sahəsinə də həyat verdi. Heydər Əliyevin elmə və təhsilə verdiyi qiymət onun milli-mənəvi dəyərlərə nə qədər həssaslıqla yanaşdığını bir daha sübut etdi. O, deyirdi: "Elm və təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək elmə, biliyə, savada, ixtisasa malik insanlar var və onlar cəmiyyətimizin çox böyük hissəsini təşkil edirlər. Əgər bu insanlar olmasaydı, bu gün Azərbaycanın iqtisadiyyatını, mədəniyyətini, sosial rifahını belə güclü inkişaf etdirmək olmazdı. Əgər bu insanlar olmasaydı, bu gün Azərbaycanda elm, təhsil bu potensiala malik olmazdı. Əgər bu insanlar olmasaydı, biz Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməz və dünya miqyasında tanıda bilməzdik. Onları qiymətləndirməli və on illərlə əldə etdiyimiz nailiyyətləri unutmamalıyıq" [1, s.54].

Heydər Əliyev elm və təhsil sisteminin inkişafında atdığı addımlarına bir konsepsiyanı da şamil edirdi. Bu da dövlətin və dövlətçiliyin əsasında elm və təhsilin, milli mədəniyyətin durması konsepsiyası idi. Dövlət müstəqilliyinin əbədiliyi cəmiyyətin sivilizasiyasından və sağlam düşüncəsindən asılıdır. Bü cür cəmiyyət isə bəşəri elmə və milli təhsilə malik insanların olduğu təşkil dövlətdə mövcud ola bilər. Bu konsepsiya ilə hərəkət edən Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün imkanlarını səfərbər edərək elm və təhsil problemini ön plana çəkməyə başladı. İqtisadi və siyasi vəziyyətin nə qədər ağır olmasına baxmayaraq, Heydər Əliyev təhsili və elmi böhran vəziyyətdən çıxarmaq üçün böyük siyasi bacarıq və cəsarət nümayiş etdirmiş oldu. Bütün bunlara tarixi nümunə olaraq 1993-cü il sentyabrın 21-də Azərbaycan Elmlər Akademiyasında akademiyanın üzvləri ilə bir sıra fundamental milli-elmi məsələləri həll etmək üçün keçirdiyi görüşü göstərmək olar. O, bu görüşdə qeyd etmişdir ki, uzun müddət ziyalılarla görüşmək imkanı olmadığına baxmayaraq, qəlbi həmişə vətənlə, xalqla və xalqın milli-mənəvi potensialı olan qabaqcıl ziyalılarla və onların yaradıcılıq işləri ilə olmuşdur. O, deyirdi: "Ziyalılarla görüşmək mənim üçün həmişə böyük bir bayram təsəvvürünü yaradır. Mən ziyalılarla görüşdükdə çox sərbəst və ülvi düşünür, fikirləşə bilirəm" [3, s.148].

Heydər Əliyevin qayğı və diqqəti nəticəsində 1969-cu ildən başlayaraq Akademiya getdikcə formalaşmış zəngin milli-mənəvi keyfiyyətləri və dərinləşməkdə olan elmi yaradıcılıq ənənələrini davam və inkişaf etdirmək, milli-mənəvi dəyərləri yaşatmaq, qorumaq və zənginləşdirmək missiyasını daşıyırdı.

Hakimiyyət sükanı arxasına ikinci dəfə gələn Heydər Əliyevin diqqətini cəlb edən əsas problemlərdən biri də Elmlər Akademiyasının, onun institutlarının və elmi işçilərinin vəziyyəti idi. Uzunmüddətli biganəliyin, laqeyd münasibətlərin nəticəsi idi ki, artıq EA-nın institutları öz fəaliyyətlərini dayandırmaq həddinə gəlib çatmışdılar. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsini icra etdiyi zaman ziyalılarla görüşündəki nitqində böyük narahatçılıq və təəssüflə bu məsələyə toxunaraq demişdir: "Mənə sədalar gəlib çatır ki, Elmlər Akademiyasının institutlarını dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibətlər bəsləyirlər. Biz bunların hamısına son qoyacağıq. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir" [4, s. 381]. Heydər Əliyev öz çıxışında EA-nın yarandığı gündən Azərbaycan elminə verdiyi töhfələrdən danışaraq qeyd etmişdir ki, elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı və itirməməliyik. Məhz bu ülvi münasibət həm də böyük maarifpərvər insan olan Heydər Əliyevin

əslində alimlərə, ziyalılara, elm fədailərinə dərin minnətdarlığının ifadəsi, Azərbaycan elminin parlaq sabahına dövlət qayğısının təminatı idi. Heydər Əliyev həmin görüşdə demişdir: "Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük mənəvi şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox böyük inkişaf əldə etmişdir. Əmin ola bilərik ki, Elmlər Akademiyasının institutları fəaliyyət göstərəcəklər və biz buna geniş imkanlar yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir, Universitetlər, ali məktəblər də inkişaf etməlidir. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, o cümlədən, təhsilimiz və bütün mənəvi sahələr inkişaf edəcəkdir" [4, s. 382].

Heydər Əliyevin diqqətini çəkən bir nöqsan da elmi işçilərin əməkhaqqının və akademiyaya ayrılan vəsaitin azlığı idi. Buna görə də 1997-ci ildə Akademiya üçün dövlət büdcəsindən ayrılan vəsait təxminən 50 faiz artırılmış oldu [4, s.383]. Belə ki, əgər 1996-cı ildə budcədən Elmlər Akademiyasına 17 milyard manat ayrılmışdısa, 1997-ci ildə bu rəqəm 26 milyard manata çatmışdı. Eyni zamanda Heydər Əliyevin 1997-ci il 31 dekabr tarixli sərəncamı ilə Azərbaycan Respublikası Elmlər Akademiyasının işçilərinin aylıq əməkhaqları artırılmışdır. Bu sərəncama əsasən Akademiya işçilərinin əməkhaqqı 50 faiz artırılmışdı. Həmçinin Heydər Əliyev Akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə məvacibinin on dəfə artırılması haqqında da qərar qəbul etmişdi [6, s. 223-224]. Heydər Əliyevin məhz bu görüşü ömrünü elmi axtarışlara həsr edən elm fədailəri ilə birlikdə Elmlər Akademiyasını da həyata qaytardı. Necə ki, onun özü bu görüşdə qeyd etmişdi: "Vəziyyətin necə olmağından asılı olmayaraq elmi tədqiqatlar üçün lazımi vəsait ayrılmalı və tədqiqatçılar üçün lazımi şərait yaradılmalıdır" [4, s. 383].

Aparılan məqsədyönlü siyasətin nəticəsində Elmlər Akademiyasını tərk edərək xarici ölkələrə köçmək məcburiyyətində qalmış 170 alimin böyük bir hissəsi yenidən respublikaya qayıtmışdı. Elmi-tədqiqata maraqları azalmış gənclərin böyük bir hissəsi yenidən elmi sahələrə qayıtmışdılar. Artıq 1996-cı ildə elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə 22976, o cümlədən Elmlər Akademiyasında 8500 elmi işçi çalışırdı. Respublikada Azərbaycan Elmlər Akademiyasının 40 həqiqi, 60 müxbir üzvü, 20-dən çox xarici ölkə akademiyalarının, 40-dan çox ictimai akademiyaların həqiqi üzvləri, 1558 elmlər doktoru, 8860 elmlər namizədi vardı [7, s.120].

Heydər Əliyevin Elmlər Akademiyasına göstərdiyi qayğının nəticəsində bu illərdə Azərbaycan elmi bir sıra nailiyyətlər əldə etmişdi. Akdemik C. Əliyevin seleksiya, A.Suleymanovun fizika – riyaziyyat, A. Mirzəcanzadənin neft-kimya, C.Əliyevin tibb sahələrində əldə etdikləri fundamental elmi kəşflər dünyanın bir sıra qabaqcıl elmi akademiyaları tərəfindən təsdiq olunmuşdu [5, s.122]. 2001-ci il mayın 15-də Heydər Əliyevin fərmanı ilə Elmlər Akademiyası yeni məzmun daşımaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırıldı [4, s. 383]. Bununla da Milli Elmlər Akademiyasının fundamental elmi inkişafında əldə etdiyi fundamental nailiyyətləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təşəkkülündə oynadığı rolu, nüfuzu və akademiya elminin ölkənin inkişafının əsas təminatçısı olduğunu bir daha təsdiqlədi.

Təhsil müəssisələrində Azərbaycan tarixinin ən qədim dövrlərinin böyük incəliklə öyrədilməsi əsas şərt kimi qəbul olunmuşdu. Lakin bu dövrlərin tarixinin araşdırılması çoxlu vaxt və zəhmət tələb edirdi. Buna görə də ilk növbədə XIX- XX əsrlərin tarixinin yazılması nəzərdə tutulurdu. Heydər Əliyev bildirmişdir ki, "XIX- XX əsrlərin tarixinin yazılması üçün mən kifayət qədər xüsusi vəsait ayıracağam. XX əsrin sonunda Azərbaycanın XIX-XX əsrlər tarixinin yazılması zərurəti ondan irəli gəlirdi ki, Sovet hakimiyyəti dövründə yazılan tarixlərdə böyük təhriflərə yol verilib. Bu dövrdə istər yaşlı, istərsə də gənc nəsildən olan tarixçilərimiz eyni bir ideologiyanın tələbi şəraitində fəaliyyət göstərirdilər. Buna görə onları günahlandırmaq olmaz. Ancaq bu təhrifləri aradan qaldırmalı və tariximizin şanlı, ancaq qaranlıq dövrləri səhifələrini yenidən işıqlandırmalıyıq" [4, s. 384-385].

Yuxarıda qeyd olunan bu sözlərin müəllifi Heydər Əliyev Sovet dövründə yaşayıb - yaradan alimləri bununla həm mənəvi təqiblərdən qurtarmış oldu, həm də onları yeni, obyektiv Azərbaycan tarixinin yazılmasına səfərbər etdi. Eyni zamanda XIX- XX əsrlərin tarixinin əhatəli tədqiqi və nəşri üçün şəxsən Heydər Əliyev tərəfindən qrant müəyyən edildi. Heydər Əliyev bütün vasitələrdən istifadə edərək respublikanın ən görkəmli tarixçi-alimlərini bu işə cəlb etmişdir. 1993 və 1995-ci illərdə İqrar Əliyevin redaktəsi ilə "Azərbaycan tarixi", Ziya Bünyadov və Yusif Yusifovun

redaktəsi ilə “Azərbaycan tarixi” (ən qədim dövrlərdən XX əsrin əvvəllərinədək), 1997-ci ildə Süleyman Əliyarlının redaktəsi ilə “Azərbaycan tarixi” I cild kitabları nəşr edildi. Heydər Əliyevin göstərişi ilə AMEA-nın Tarix İnstitutu tərəfindən yeddi cildlik Azərbaycan tarixinin akademik nəşri çap olundu [4, s. 384-385].

Heydər Əliyev Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının alimləri ilə 1997-ci il yanvarın 31-də keçirdiyi görüşdə akademiyanı Azərbaycan xalqının tarixi nailiyyəti adlandırarkən, onun təhsilin inkişafındakı əvəzsiz rolundan danışarkən yeni tarix dərsliklərinin, əsasən də XIX-XX əsrləri əhatə edən dərsliklərin hazırlanmasının vacibliyini vurğulayaraq demişdi: “Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Şübhəsiz ki, dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim tariximiz yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün dərslik yazılsın” [4, s. 384].

Heydər Əliyevin müntəzəm qayğısı nəticəsində orta və ali təhsil müəssisələrində ADR-in tarixinin öyrənilməsinə geniş yer ayrılmışdı. O, 1996-cı il 2 fevral tarixində Azərbaycan Respublikası gənclərinin I Forumunda söylədiyi nitqində qeyd etmişdir ki, “XX əsrin əvvəllərində, 1918-ci ildə Şərqdə ilk olan Azərbaycan Demokratik Respublikası yaranmışdı. Ondan sonrakı dövrdə 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın tarixində xüsusi bir dövr olmuşdu. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı öz mənəvi varlığını qoruyub saxlayaraq böyük inkişaf dövrü keçmişdi. Azərbaycan xalqının tarixinin şanlı səhifələrindən biri də uzun illər qaranlıq qalan, təhriflərə uğradılan Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür. Bu dövrdə böyük şücaət göstərən qəhrəmanlar xalq düşməni adı ilə tarixin qaranlıq səhifələrində dəfn edilmişlər” [4, s.386]. Bununla belə Azərbaycan Xalq Cümhuriyyəti dövrünün araşdırılması sahəsində də Azərbaycanın görkəmli tarixçiləri tərəfindən kifayət qədər fundamental elmi əsərlər və dərsliklər hazırlandı və ADR-in tarixi (1918-1920) geniş şəkildə öyrənilməyə başlandı.

Heydər Əliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi haqqında” 1998-ci il 30 yanvar tarixli sərəncamı tarix elminə böyük tarixi xidmət idi. Heydər Əliyevin bu fərmanının həyata keçirilməsi nəticəsində Cümhuriyyət dövrünə aid sənədlər külliyyatı 1998-ci ildə yeddi cilddə nəşr edildi. Cümhuriyyət dövrünə aid elmi - tədqiqat işləri aparılmağa başlandı. Heydər Əliyevin 1 fevral 2003-cü il tarixli qərarı ilə Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin xatirəsinə möhtəşəm abidə ucaldıldı [4, s. 385].

1997-ci ilin əvvəllərində respublikada 4500-dən çox ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunlarda da 156 mindən çox müəllim dərs deyirdi [5, s.114].

Yüksək ixtisaslı milli kadrların yetişməsinə bütün fəaliyyəti boyu böyük diqqət yetirən Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına lazım olan bütün şəraiti yaratmış oldu. Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra 1997-ci ilədək mindən artıq azərbaycanlı tələbə Türkiyədə, 200 nəfərdən çox Azərbaycan vətəndaşı isə ABŞ-da təhsil almaq imkanı əldə etdi və hər il bu say artmağa başladı. Azərbaycanla Böyük Britaniya arasında bağlanmış müqaviləyə əsasən ali və orta məktəb müəllimləri üçün hər iki ölkədə təkmilləşmə kursları təşkil olundu [5, s.116].

Heydər Əliyevdən sonra bu şərəfli və son dərəcə xeyirxah missiya onun siyasi kursunun layiqli davamçısı və varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1997, 597 s.
2. Əliyev H. Ə. Fəal həyat mövqeyinin formalaşdırılması, mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı: Azərnəşr, 1979, 132 s.
3. Əliyev H.Ə. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxış.- Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1997, 597 s.
4. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil,2004,472s.
5. Qaffarov T.Azərbaycan tarixi: XX əsrin 80-90-cı illəri. Bakı: Mütərcim, 1997,140 s
6. Məmmədov A. Prezidentin imzası, prezidentin qayğısı. Bakı: Şərq - Qərb, 1998, 493 s.
7. Müstəqil Azərbaycan 10 il. Statistika külliyyatı. Bakı: Səda, 2001, 698 s.

***Этибар Адиль оглу Мусаев***
***кандидат исторических наук, доцент,***
***Гянджинский Государственный Университет,***
***etibaradiloglu@mail.ru***

***Багир Гамид оглы Бабаев***
***доктор философских наук, доцент,***
***Нахчыванский Государственный Университет,***
***baqirbabayev59@mail.ru***

## Наследие Гейдара Алиева в развитии современной Азербайджанской науки

***Резюме***

Гейдар Алиев с первого дня своего избрания Президентом Азербайджанской Республики свою большую деятельность сосредоточил на укреплении государственной независимости, возвращении наших утраченных земель и оккупированных территорий, формировании правового и демократического государства в Азербайджане, создание внутренней стабильности, повышение социально-экономического благосостояния народа, развитие областей науки и образования в 1969 г. - направлено на более мощное осуществление политической деятельности, начатой в

Весьма полезные результаты целенаправленной политики Гейдара Алиева в направлении развития областей науки и образования с фактами свидетельствуют о том, что уже в 1970-е годы появились новые области знаний, необходимые для производства и научно-технического прогресса - системы автоматического управления, электрические инженерии, биохимии, техники связи и подготовки специалистов по многим другим прогрессивным специальностям, открытие новых высших учебных заведений, укрепление материальной базы образования, внимание и забота, уделяемые научной сфере и ученым в частности, и как следствие этого, произошел достаточный подъем в научной сфере.

Гейдар Алиев всегда уделял большое внимание и заботу развитию и процветанию азербайджанской науки и образования, сохранению этого духовного наследия и воспитанию молодого поколения национальными духовными идеями. этап в развитии науки.

***Ключевые слова: наука, образование, прогресс, интеллект, концепция, интеллектуальное.***

***Etibar Adil Musayev***
***PhD in history, associate professor, Ganja State University,***
***etibaradiloglu@mail.ru***

***Bagir Hamid oglu Babayev***
***Doctor of Philosophy, Associate Professor, Nakhchivan State University,***
***baqirbabayev59@mail.ru***

## Heydar Aliyev's legacy in the development of contemporary Azerbaijan science

***Summary***

Heydar Aliyev, since the first day of his election as the President of the Republic of Azerbaijan, has focused his great activities on the strengthening of state independence, the return of our lost lands and occupied territories, the formation of a legal and democratic state in Azerbaijan, the creation of internal stability, the improvement of the socio-economic well-being of the people, and the development of the fields of science and education in 1969- directed to the more powerful implementation of the political activity that began in.

The very useful results of Heydar Aliyev's purposeful policy in the direction of the development of the fields of science and education show with facts that already in the 1970s, the new fields of

knowledge required by production and scientific and technical progress - automatic control system, electrical engineering, biochemistry, communication engineering and training of specialists in many other progressive specialties, opening of new higher schools, strengthening of the material base of education, attention and care given to the scientific field and scientists in particular, and as a result of this, there has been a sufficient rise in the scientific field.

Heydar Aliyev always paid great attention and care to the development and flourishing of Azerbaijani science and education, the preservation of this spiritual heritage and the upbringing of the young generation with national spiritual ideas. by establishing it as a scientific center, Azerbaijan has started an important stage in the development of science.

***Key words: science, education, progress, intelligence, concept, intellectual.***

***Ələddin Mehman oğlu MƏLİKOV***
***fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi***
***E-mail: aladdin.malikov@gmail.com***
***https://orcid.org/0000-0001-5830-6764***

## HEYDƏR ƏLİYEVİN LİDERLİK XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

Lider və şəxsiyyəti əsas fərqləndirən onun fərdi, ictimai və mədəni xüsusiyyətləridir. Şəxsiyyət digər bütün keyfiyyət və məziyyətləri ilə yanaşı, elitanı təşkil edən digər şəxslərdən fərqlənməli və spesifik bir xarakterə malik olmalıdır.

Heydər Əliyevin rəhbərlik etdiyi illər ərzində Azərbaycanda çox böyük abadlıq işləri görülmüş, müasir milli memarlığın görkəmli əsərləri sayılan, Azərbaycanın sosial və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi.

***Açar sözlər: Heydər Əliyev, lider, ümummilli lider, fenomenal şəxsiyyət.***

***

Xalq elitasının ən xarakterik elementi liderdir. Lideri əsas fərqləndirən isə onun fərdi, ictimai və mədəni xüsusiyyətləridir. Lider digər bütün keyfiyyət və məziyyətləri ilə yanaşı, elitanı təşkil edən digər şəxslərdən fərqlənməli və spesifik bir xarakterə malik olmalıdır. “Rəhbər və başçı: fərq nədir?” məqaləsində çox doğru qeyd edilir ki, idarəçilik iki hissədə: idarəetmə və politoloji düşüncədə xülasə olur. [2, səh. 26] Amma elə idarəçilər də var ki, həm idarəetməyə və həm politoloji düşüncəyə malikdirlər. Bunlar hər bir idarəçinin göstəricisidir. Əgər idarəçi böyükdürsə, onun idarəçiliyi müxtəlif məsələləri həll edir. Siyasətçi ilə idarəçi arasında olan fərq də məhz budur. İdarəçi işləri düzgün şəkildə yerinə yetirir. Amma siyasətçi düzgün işləri görür. Bu məsələ o qədər əhəmiyyətlidir ki, xalqların taleyini həll edir. Məhz bunu göstərmək üçün və böyük işlər görmək üçün belə şəxsiyyətlər xüsusi bir zamanlarda zühur edirlər. Öz xalqlarının istiqamətini dəyişərək, ölkənin mənafeyinə və xalqının məsləhətlərinə uyğun hərəkət edirlər. S.Xəlilov doğru olaraq vurğulayır ki, bu növ şəxsiyyətlər özləri üçün məqsəd hazırlayır, onu icra etmək üçün qüdrətə çatır və tarixdə dahiyanə iz qoyurlar. Hamımızın gördüyümüz, amma hamımızın eyni cür duya və dərk edə bilmədiyimiz ulu öndər Heydər Əliyev məhz belə şəxsiyyətlərdən idi. [1, səh. 8-9]

Afrikalıların gözəl bir atalar sözü var: “Əgər görürsən ki, su təpə boyunca altdan yuxarı qalxır, deməli, kimsə xeyirxahlığa xeyirxahlıqla cavab vermişdir”. Heydər Əliyev hazırkı qüdrətli və yeni Azərbaycanın memarı və Prezidenti olaraq, Azərbaycanın gələcəyinə olan eşqini, sevgisini və

zəkasını birləşdirərək, Azərbaycanı regionun qüdrətli qütblərindən birinə çevirdi. Ulu öndər, Azərbaycanın güclü qütb olması üçün bütün maneələri bir-bir aradan qaldırdı. Azərbaycanı ifrata varan subyektiv idealizmdən xilas etdi. O, Azərbaycanı dünyanın qüdrətli qütbünə çevirmək üçün lazım olan potansialları bir-birinin ardınca hazırladı. Nəticəsi isə hazırkı qalib Azərbaycandır. Ümummilli liderin gücü və qüvvəsi XX əsrin liderləri ilə müqayisədə təqribən misilsiz idi. O, bu nəticəyə çatmışdı ki, azərbaycanlıların varlı olmasından başqa və dövlətin iqtisadi səhnədən tədrici şəkildə kənara çəkilməsindən başqa inkişaf yolu yoxdur.

Ümummilli lider Heydər Əliyevin liderlik xüsusiyyətlərinə gəldikdə isə bu xüsusiyyətlər kifayət qədər çox olduğundan, təbii ki, bu məqalənin həcminə sığmır.

Kainatın ulu memarı Heydər Əliyevə müdriklik, dahilik, qətiyyət, əyilməzlik, yenilməzlik, mübarizlik, alicənablıq, nadir iş qabiliyyəti, natiqlik istedadı, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı, fenomenal və ensiklopedik yaddaş, universal bilik kimi bir çox xüsusiyyətlər bəxş etmişdir. Müstəqil Azərbaycanın təməl daşını qranitdən yapan Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun qismətinə düşmüş Tanrı payıdır. Uzun illər keçəcək, lakin özünüdərk, özünəqayıdış və özünüifadə kimi milli və dini prosesləri, sovet ideoloji sistemindən çox məharətlə xilas edən Heydər Əliyev bir şəxsiyyət kimi sirr olaraq qalacaqdır. Məhz bu səbəbdən burada bir sıra digər keyfiyyətləri özündə ehtiva edən beş əsas xarakterik xüsusiyyəti müxtəsər şəkildə qeyd edirik.

**Uzaqgörənlik**

Ulu öndərin uzaqgörənliyi ilə əlaqədar çoxlu nümunələr vardır. Bu nümunələr həm strateji, həm də taktiki proseslərdə həddən ziyadə çoxdur. Burada yalnız bu faktla kifayətlənirik ki, ulu öndər hələ Sovet dövründən Azərbaycanlı kadrların hazırlanması, təşkilatlanması və formalaşması üçün çoxlu dərinməzmunlu işlər görmüşdür. Bilirsiniz, hər hansı bir prosesin formalaşması üçün iki əsas şərt lazımdır: tarixi şans və tarixi şəxsiyyət. S.Xəlilov vurğulayır ki, Sovet dövründən başlayaraq tarixi şəxsiyyətimiz olsa da tarixi şansımız yox idi. Amma qeyd etməliyəm ki, tarixi şansı da tarixi şəxsiyyət formalaşdırır. O dövrdə gedən bir çox proseslərə baxdıqda görürük ki, ulu öndər müstəqilliyin formalaşması üçün sanki zəmin yaradırmış. Sən demə, Heydər Əliyev dühası imkansızlıqda da imkan axtarırmış. Ümummilli liderin "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm" sözlərindən sonra bu düşüncəm daha da möhkəmləndi. Heydər Əliyev çox yaxşı bilirdi ki, dünya intellekt dünyasıdır və bu dünyada layiqli yer tutmağımızın yolu insan kapitalından keçir. Bunun üçün kadr hazırlamaq konturlarını zərgər dəqiqliyi ilə cızmışdı. Sadəcə bu faktı qeyd etmək dahi şəxsiyyətin bu sahədə hansı həcmdə işlər apardığını anlamaq üçün yetərlidir. 1969-cu ildən öncə Azərbaycandan xaricə göndərilən tələbələrin sayı ilə həmin ildən sonra göndərilən tələbələrin sayını müqayisə etmək kifayətdir. Başqa bir nümunə isə budur ki, 1969-cu ildən öncə Azərbaycandan olan neçə yazıçı, musiqiçi, alim, mütəfəkkir, rejissor, mədəniyyət xadimi və... SSR-nin ali mükafatlarına layiq görülüb, 1969-cu ildən sonra neçəsi?. Bütün bunlar ulu öndər Heydər Əliyevin təqdimetmə bacarığı və uzaqgörənliyi sayəsində baş tutub.

**Xalqla birgəlik**

Tarix sübut etmişdir ki, millətlərin tale məsələsi olan dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etmək qədər çətindir. Tanrı hər iki neməti Azərbaycan xalqına bəxş etmişdir. Xalq ilə xüsusi münasibətlərin subyekti olaraq lider kommunikativ funksiyanı da yerinə yetirir. Lider bununla, xalqın nəzərində huquq və azadlıqlarının təmin edəcəyini, fərdi və siyasi məsuliyyətini və son nəticədə idarəçiliyin məcmu fəaliyyətini təcəssüm etdirir. Məhz Heydər Əliyevin xarakterik xüsusiyyətlərindən biri də kommunikativlik bacarığıdır. Kommunikativ funksiya cəmiyyətdə Heydər Əliyevin apardığı ən vacib funksiyalardan biridir. Bunun məntiqi nəticəsində ümummilli liderin səfərbəredici funksiyası formalaşır. Heydər Əliyevin səfərbəredici funksiyası həm xalq arasında, həm də dövlətdə bu və ya digər konkret problemlərin həllində əhalinin səfərbər edilməsi qabiliyyətində özünü tamamilə təzahür etdirirdi. "Mən həyatımda üç şeyə: yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam" deyən, otuz ildən artıq bir müddət ərzində Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran, hələ sağlığında ikən canlı əfsanəyə çevrilən Heydər Əliyev, Azərbaycan xalqına uca yaradanın töhfəsidir. 1993-cü ildə "Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı

Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ümumiyyətlə birmənalı qeyd edilməlidir ki, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi dövrün zərurəti idi.

**İslahatçılıq xarakteri**

Ümummilli Liderin islahatçılıq xarakteri çox dərin və müxtəlif istiqamətli olmuşdur. Onun siyasi, iqtisadi və mədəni islahatları həddən ziyadə çoxdur. Məhz bu üç sahədə etdiyi islahatlar geniş bir kitab mövzusu ola bilər. Bu səbəbdən burada çox konkret məsələlərə toxunaraq, geniş nümunələri sonrakı yazılara həvalə edirik.

Azərbaycan bu gün əgər regionun bütün siyasi, iqtisadi və mədəni məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidirsə, bunun təməlləri müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin hakimiyyəti dövründə atılmışdır. Onun misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər, bu gün ölkənin davamlı və dinamik iqtisadiyyatının inkişafı üçün möhkəm zəmin yaradıb. Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi prinsipi artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıdıb. Heydər Əliyev o dövrdə prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərkən deyirdi ki, respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb: "Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, ... respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik". Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etməyi nəzərdə tuturdu.

**Düşməni tanımaq və onunla mübarizə aparmaq üsulu**

Liderin əsas xüsusiyyətlərindən biri də düşməni vaxtında tanımaq, başqa sözlə ifadə etsək, düşmənşünas olmasıdır. Düşmənşünaslıq fitri olsa da onu həyatın keşməkeşli vaxtlarında düzgün tapmaq və ona qarşı doğru mübarizə üslubunu seçmək çox çətin və mürəkkəbdir. Çünki adətən insanlar düşməni vaxtında tanımaqda çətinlik çəkir və tanıdıqdan sonra isə hadisələri düzgün təhlil etmək və qiymətləndirmək daha mürəkkəb olur.

Heydər Əliyev zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində düşməni vaxtında tanımış və ona qarşı addımlar atmağa başlamışdır. Ermənilərin erməni xislətini ilk bilən, ona qarşı müdafiələr planı quran da məhz ulu öndərdir. Ümummilli lider Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən məhz bu xüsusiyyətə əsasən xilas etdi. Heydər Əliyevin başçılığı ilə hazırlanmış yeni Konstitusiya və demokratik əsaslarla addımlayan parlament də Azərbaycanın müasir tarixində tamamilə yeni səciyyəli bir mərhələnin başlanğıcı olmuşdur. Bu illər ərzində Heydər Əliyevin müdafiə sahəsinə olan geniş baxışı və düşmənə qarşı qələbə üçün atdığı təməl addımlar zamanla özünü göstərdi. Bütün bunlar üçün lazım olan mühüm sənədləri hazırlamış və qəbul etmişdi. Respublikamızın hazırda ermənilərlə müqayisədə müxtəlif beynəlxalq tribunalarda haqlı çıxmasının əsası o dövrdə atılmışdır. Fikrimcə, Heydər Əliyevin düşmənlə mübarizə aparmaq üslubu hər şeydən öncə tədqiq olunmalı və öyrənilməlidir. Ulu öndər ilk olaraq atəşkəsi bərpa etdi, sonra bütün imkanları iqtisadiyyatın dirçəlməsinə yönəltdi və daha sonra siyasi müstəvidə addımlar atmağa başladı.

**Tənqidlərə xüsusi diqqət**

Liderlik xalq və ziyalılar tərəfindən tənqidsiz qəbul olunmaq və ya cəmiyyətdə böyük nüfuza malik ola-ola heç bir tənqid edilməmək demək deyildir. Zatən liderlərin liderliyi düz və əyrini tam şəkildə bilmək və öyrənməkdən keçir. Heydər Əliyevin liderliyi, müsbət mənada birmənalı qarşılanmağı, şəxsi keyfiyyətləri və siyasət olimpində mövcudluğundan asılı olmayaraq həmişə məqbul hesab edilməsi heç vaxt ona edilən tənqidləri görməzdən gəlmək xisləti verməmişdi. Heç təsadüfi deyildir ki, xalqımız Heydər Əliyev dühasında liderə xas olan bütün yüksək məziyyətləri görürdü. Bu səbəbdən ona "Ümummilli lider" titulu vermişdilər. Amma digər tərəfdən Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi və təkrarolunmazlığı da onda idi ki, dövrün gündəlik tənqidi mətbuatını oxuyur və tənqidlərə xüsusi diqqət ayırırdı. Təbii ki, belə dahi şəxsiyyət bu tənqidlərin hansı niyyət

və məramla yazıldığını çox yaxşı bilirdi. Məsələ tənqidlərin doğru və ya yanlış olmasında da deyil. Əsas mövzu Heydər Əliyev dühasının bu tənqidləri oxuması, eşitməsi və diqqətə almasıdır. Lideri lider edən əsas xüsusiyyətlərdən ən barizi məhz budur. Çünki tənqidlərdən dərs çıxartmaq hər kəsə nəsib olmur. Heydər Əliyev dühası istənilən tənqidə açıq və onu təmkinlə dinləməyi bacaran şəxsiyyətlərdən idi. Məhz bu xüsusiyyət sayəsində, xalq və idarəçilik vəhdətini güclü təcrübə və iradəsi ilə yüksək müstəvidə birləşdirmişdi.

Heydər Əliyev böyük lider olmaqla yanaşı dövrünün böyük alimi, mütəfəkkiri, habelə böyük ədəbiyyat və sənət bilicisi idi. O, həm qədim, həm də müasir tariximizi az qala əzbər bilirdi. Özü də təkcə mülki tarixi yox, siyasi tariximizi, iqtisadiyyatımızın tarixini, mədəniyyətimizin tarixini və milli-mənəvi dəyərlərimizi heç kim Heydər Əliyev qədər dərindən mənimsəməmişdi. Yekun olaraq qeyd etmək yerinə düşər ki, adətən mürəkkəb zaman kəsimində hər hansı bir məsələni qiymətləndirmək çətin olur. Amma zaman keçdikdən sonra obyektiv dəyərləndirmək mümkündür. Biz hazırda elə bir zamanda yaşayırıq ki, həm o dövrü görmüşük, həm də o dövrdə yaşayırıq. Fikrimcə, zaman keçdikcə daha aydın görünəcək ki, müstəqilliyin ilk dövründən başlayaraq tərəqqini addım-addım keçən respublikamızda Heydər Əliyev şəxsiyyətinin müstəsna rolunu heç bir başqa amillə müqayisə etmək doğru deyildir. Bu səbəbdən yazını ulu öndərin fikri ilə yekunlaşdırıram: “Tarix hər şeyi öz yerinə qoyur”.

## ƏDƏBİYYAT


1. Tərtibçi: Səlahəddin Xəlilov, Heydər Əliyev – 75, Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1998. 184 səh.
2. Məlikov Ələddin, Əmirov Eldar, Rəhbər və başçı: fərq nədir? (Tarixi-politoloji nəzər) // Elm və Həyat jurnalı (ISSN:2710-0944), 2020, №4, səh.25-31 (http://dx.doi.org/10.13140/RG.2.2.22196.37763)



***Аладдин Мехман оглу Меликов***
***Ведущий научный сотрудник Института***
***Философии и Социологии Национальной Академии***
***Наук Азербайджана, доктор философских наук, доцент***
***E-mail: aladdin.malikov@mail.ru***
***https://orcid.org/0000-0001-5830-6764***


## Лидерские способности Гейдара Алиева


***Резюме***

Главными отличительными способностями каждого лидера или личности являются его личные, общественные и культурные показатели. Благодаря именно этим высоким показателям и специфическому характеру выдающиеся личности отличаются о других людей, составляющих элиту общества.

Период правления Гейдара Алиева в Азербайджане остался в истории построением многих памятников современной национальной архитектуры, а также многих социально-культурных объектов, административных центров, дворцов, институтов, издательств, учебных заведений, комплексов и многочисленных городских зданий, отличающихся высокоэстетическими показателями. Благодаря его усилиям были отреставрированы многие архитектурные здания. Общенациональный Лидер, увековечивая в памятниках выдающихся личностей, оставивших след в историческом прошлом и нравственной памяти, прекрасно осознавал этим их позитивное влияние на национальное мышление и сознание народа.



***Ключевые слова: Гейдар Алиев, лидер, Общенациональный Лидер, феноменальная личность.***

*Aladdin Mehman Malikov*
*Leading researcher at the Institute of Philosophy and Sociology of the Azerbaijan National Academy of Sciences,*
*Doctor of Philosophy, Associate Professor*
*E-mail: aladdin.malikov@mail.ru*
*https://orcid.org/0000-0001-5830-6764*

**Leadership characteristics of Heydar Aliyev**

*Summary*

The main difference between a leader and a personality is his individual, social and cultural characteristics. The personality, along with all other qualities and merits, should be different from the other people who make up the elite and should have a specific character.

During the years under the leadership of Heydar Aliyev, a lot of landscaping works were done in Azerbaijan, a number of architectural ensembles, administrative centers, palaces, institutes, publishing houses, teaching corps, complex and its own appearance, which are considered outstanding works of modern national architecture, are of great importance in the social and cultural life of Azerbaijan. several buildings that gave the city a boost were built and put into use. It was thanks to Heydar Aliyev's initiative that many architectural monuments were restored. He knew very well that the transformation of the great personalities who left a mark in the history of the Azerbaijani people into monuments will have an extremely positive effect on the national existence of the people and the strengthening of their national feelings.

***Key words: Heydar Aliyev, leader, universal leader, phenomenal personality.***

**UOT-004**

*Aynur Mobil qızı QASIMOVA*
*pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*“Kompüter elmləri” kafedrası,*
*0000-0001-8669-5701*
*kasumovaaynur@gmail.com*

**İNNOVATİV PROQRAMLAŞDIRMA TƏDRİS METODLARI**

*Xülasə*

Müasir təhsil məkanına inteqrasiya, mövcud təlim metodlarının modernləşdirilməsini və tənqidi düşüncə ilə aktiv, müstəqil və azad bir insanın yaranmasını asanlaşdıracaq müasir təlimlərin öyrənmə prosesinə daxil edilməsini tələb edir. Təhsil strategiyası dəyişdirildi və əsas məqsədi müasir demokratik cəmiyyətin tələblərinə cavab vermək üçün tənqidi düşünmə bacarığı və müasir demokratik cəmiyyətə sadiq olan, azad, aktiv, məlumatlı və məsuliyyətli vətəndaşlar yetişdirmək oldu. Son tədqiqatlar göstərir ki, interaktiv öyrənmə şagirdə yeni material əldə etməklə yanaşı, daha uzun müddət yadda saxlamağa da kömək edir. Məqalədə interaktiv və ənənəvi metodları əks etdirməyə cəhd göstərmir, əksinə, interaktiv metodun üstünlüklərini vurğulamaq və tələbələrdə yaradıcı düşüncə, analitik və mübahisə bacarıqlarını aktivləşdirmək üçün onun effektivliyini vurğulamağa çalışırıq.

***Açar sözlər: Fəal (Interaktiv) təlim metodları, proqram, proqramlaşdırma dilləri, Code.org Scratch, alqoritm.***

***

Bildiyimiz kimi, proqramlaşdırma dilləri ümumilikdə məntiqi əsaslandırma ilə yanaşı problemlərin həlletmə bacarıqlarının inkişafı üçün vacib bir mühit kimi qəbul edilir. Müasir dövrdə onun bütün sahələrdə, əlbəttə ki, həmçinin bütün təhsil səviyyələrində, eləcə də erkən çağlarda inteqrasi-

yası dəyərli sayılır və onu daha ətraflı araşdırmaq qloballaşan mühitin vacib problemlərindən sayılır. Dövlət təhsil müəssisələrində ilk proqramlaşdırma dili kimi, beşinci sinifdən ALPLOGO proqramlaşdırma dili tədris olunur. Bəli, onu vurğulamaq olar ki, bu proqramlaşdırma dili ilk Azərbaycan dilində işləyən proqramdır, ancaq bununla yanaşı onu da qeyd etməliyik ki, proqramda bir qədər çatışmamazlıqlar da vardır ki, şagirdlərin mürəkkəb proqramların yazılmasında bir qədər problemlərlə üzləşməsinə səbəb olur. Bu faktlar baxımından Scratch proqramlaşdırma dili daha böyük imkanlara malik olaraq və hətta daha sadə və işləmə prosesi rahatdır. Məhz buna görə də, Scratch proqramlaşdırma dilinin 5-ci sinif və hətta daha erkən yaşlarda şagirdlərin problem həll etmə bacarıqlarına təsirini araşdırmaq yerinə düşərdi. Diqqət yetirmək olar ki, kiçik yaşlardan proqramlaşdırma dillərinə şagirdləri yönəldərək, şagirdlərdə problemləri sərbəst, öz templərinə uyğun, yaradıcı və bəzən də kreativ yanaşaraq həll etmə qabiliyyətinə, özünə inam, qoyulan problemi sona çatdırmaq kimi bacarıqların yüksəlməsini müşahidə etmək olar. Kiçik yaşlı şagirdlərin düşüncələrini nəzərə alaraq, proqramlaşdırmanın əyləncəli olduğuna görə, bütün şagirdlərin proqramlaşdırmağı sevdiklərini və proqramlaşdırma dillərində işləmək qabiliyyətlərini inkişaf etdirmək istədiklərini açıq şəkildə nəzarət etmək olar.

Proqramlaşdırma dillərini öyrənmək üçün ilk öncə qoyulmuş problemi hərtərəfli anlamaq, qoyulan şərtləri nəzərə almaq, həll yollarını araşdırmaq, üsulları ən optimal, yaxşı formada siniflərə bilmə qabiliyyətinin olması vacib amildir. Bunları nəzərə almaqla proqramın hazırlanması prosesi, onun daxili strukturunun müəyyən edilməsi və ona uyğun olaraq yerinə yetirilmə prosesi kifayət qədər mürəkkəb məsələlərdir və bu məsələlərlə məşğul olmaq əlbəttə ki, müəyyən təcrübə tələb edir. Bildiyimiz kimi, kompüter proqramı dedikdə, kompüterə verilən, kompüterin başa düşəcəyi dildə yazılan və onun tərəfindən yerinə yetirilmək üçün hazırlanan dəqiq təlimatlar ardıcıllığıdır. Qeyd edək ki, proqramlaşdırma, məsələnin düzgün yazılmış həll alqoritminin kompüter tərəfindən yerinə yetirilə bilən hər hansı proqramlaşdırma dilində yazılmış proqramlaşdırma çevrilməsi prosesidir. Proqramlaşdırma yaradıcı bir vəzifədir və burada bir problemi həll etmək üçün şagirdlərdə bir neçə üsul yarana bilər. Eyni bir işi görərkən, məsələn, şəkli çəkmək üçün doğru və ya səhv bir yol olmadığı kimi, əgər qoyulmuş məsələ həllini taparsa, burada düzgün və ya səhv bir yol yoxdur, ediləcək seçimlər var və bir yol digərindən daha yaxşı görünə bilər, amma bu digərinin səhv olduğunu bildirmir. Proqramlaşdırma ilə məşğul olaraq şagirdlərdə daha optimal yolun seçilməsi qabiliyyəti formalaşır. Doğru bacarıq və təcrübə ilə, bir proqramçı bir neçə üsulla qoyulmuş problemi həll etmək üçün proqram hazırlaya bilər. İmkanlar yalnız təsəvvürdəki fantaziyalarla məhdudlaşa bilər. Proqramlaşdırma təsəvvürlərin reallaşdırma imkanları mühitidir.

Əlbəttə ki, qarşıya qoyulan məsələni (problemi) tam araşdırdıqdan sonra onun həlli üçün şagirdlər birinci məsələnin riyazi modelini qurur, daha sonra qoyulan şərtləri nəzərə alaraq, onun həll alqoritmini yaradırdırlar. Bu işdə müəllimlərin vəzifəsi şagirdləri düzgün istiqamətləndirmək, lazımi suallarla nəticəyə yönəltmək, ən çox da şagirdlərin bəzi şərtlərə diqqət yetirməməsini aradan qaldırmaq və bu işdə onlarla aparılan bəzi tədqiqat işlərinin də nəzərdən keçirilməsi tövsiyə olunur.

Proqramlaşdırmada istifadə olunan əsas strukturlar kimi xətti, budaqlanan və dövri alqoritmlər gündəlik həyatda qarşılaşdığımız problemləri həll etmək üçün dərk olunmadan belə fəaliyyətimizdə daima iştirak edir və yalnız proqramlaşdırmanı öyrənərkən bu hallar şagirdlərin diqqət mərkəzinə çevrilir və onlardan xüsusi metodologiyaya, düşüncə tərzinə sahib olmalarını tələb edir.

Araşdırmalar göstərir ki, proqramlaşdırmanın öyrənilməsində əsas problemlər, çoxlu sayda yeni məlumatrın düzgün analizi, riyazi baxımdan giriş və ya çıxış verilənlərin tipinin təyini, proqramlaşdırma dilinin ciddi sintaksisi, əsas riyazi qaydalar, abstrakt təsəvvürlər, eləcə də proqramlaşdırmanı inkişaf etdirərkən düzgün alqoritmik düşüncə tərzinin olması hesab olunur.

Alqoritmin tədrisi zamanı şagirdlərin mürəkkəb alqoritmləri qavramaqlarında yaranan çətinlikləri aradan qaldırmaq üçün onlara alqoritmi vizual olaraq göstərmək lazım gəlir. Bu problemi də aradan qaldırmaq üçun Code.org yüksək dəstəkləyici təlim platformasını göstərmək olar. Burada şagirdlər sadədən mürəkkəbə doğru və hətta sevdikləri oyun mühitində belə alqoritm məsələlərinə baxa bilərlər. Bu saytdan nəinki, şagirdlər həmçinin, müəllimllər də istifadə edə bilər [3].

Burada şagirdləri motivasiya edərək tapşırıqları tam yerinə yetirənlər sertifikasiya ilə də Code.org tərəfindən təltif olunur. Bu, şagirdlərin içərisində nəinki, birinciliyi əldə etmək kimi sağlam rəqabət formasını aşılayır, həmçinin qoyulmüş məsələni tam axıra qədər çatdırmaq kimi bacarıqları şagirdlərdə aşılayır.

Bu platformada hər şagirdin öz tempinə uyğun işləmək imkanı verilir. Şagirdlər belə platformalarda işləyərək alqoritmi yaxşı başa düşdükdən sonra proqramlşdırma dillərinə yiyələnmələri daha düzgün olardı.

Qeyd etmək lazımdır ki, burada müxltəlif dillərdə işləmək olar və xüsusilə də qeyd edək ki, Azərbaycan dilində də işləmək imkanları vardır. Code.org təkcə alqoritmlə kifayətlənmir, burada proqramlaşdırma dillərinə başlanğıc kimi də geniş fürsətlər əldə etmək olar. Burada ilk proqramlaşdırma komponentləri, dəyişənlər, dövr, riyazı əməllər və s. kimi anlayışlara rast gəlmək olar.

Dil seçənəkləri içərisindən, hətta onların həm Azərbaycan, həm də ingilis dillərində tərcümələri ilə şagirdlər tanış olurlar ki, bu da onların gələcəkdə təmiz ingilis dilində olan proqramlaşdırma dillərində rahat işləmələrinə bir istiqamətdir.

Ancaq alqoritmi düzgün başa düşdükdən sonra proqramlaşdırma dillərindən danışmaq olar.

Bu baxımdan, Scratch onlayn mühitində proqramlaşdırma texnologiyasını mənimsəmək, vizual qrafik vasitələrdən "hərəkət", "görünüş", "səs", "məlumat", "nəzarət" və s. komponentləri istifadə edərək, proqramlar tərtib etmək olar. Hər bir yeni dərs üçün şagirdlər müəllimdən tapşırıq üçün təlimatlar, siyahı, təqdimat, iş dəftəri və metodiki tövsiyələr alaraq, dərsə başlaya bilərlər. Dərslərin inkişafına qoyulan tələblərdən biri də Scratch-ın interaktiv və oyun imkanlarından istifadəsidir. Scratch-ın iş sahəsinin dizaynını, maraqlı, multimedia imkanlı, qeyri-standart obyektlərin sprites, səs və qrafika, hərəkət sensorları və hadisə sistemlərinin istifadəsi bu proqrama olan marağı daha da artırır [1, səh. 88].

Verilən bu imkanlar şagirdlərə Scratch, proqramlaşdırmasını öyrənmək üçün vizual mühit ilə maraqlı bir simulyator kimi imkanlar yaradır. Scratch-ın üstün cəhətlərindən biri də, onu yükləmədən işləmək vasitəsidir. Həmçinin o, çoxplatformalı bir məhsul olaraq, Windows, Linux və Mac əməliyyat sistemləri olan hər bir fərdi kompüterlərə quraşdırıla bilən proqram hesab olunur. İstifadəsi çox sadə olduğu üçün tətbiqi uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulmuşdur, lakin böyüklər də bu proqramdan istifadə edə bilərlər. Mühit imkanları geniş olduğundan burada, oyunlar, təqdimatlar, cizgi filmləri, interaktiv dərsliklər yaradıla bilər. Scratch interfeysi çox sadədir, burada işləmək qaydalarını öyrənmək çox vaxt aparmır. Burada şagirdlər hazır bloklardan istifadə edərək, qrammatik səhv etmədən istədikləri maraqlı proqramları yarada bilirlər. Ancaq parametrləri dəyişərək lazımi addımları və ya sürəti düzgün təyin edə bilərlər [2].

Belə dərslərin təşkili şagirdlərdə proqramlaşdırma dillərinə olan marağı başa düşərək, sevərək məşğul olmalarını formalaşdırır.

Sonda qeyd etmək istərdim ki, hər il təhsil proqramları yenilənir və təkmilləşdirilir, yeni interaktiv vasitələr, praktiki iş üçün dərslərin yeni tədris formaları iş proqramlarına daxil edilir. Gələcək informatika müəllimlərinin, proqramlaşdırmanın tədrisinin səmərəliliyinin artırılmasının vacib istiqaməti tədris praktikasının təşkili və şagirdlərin gələcək peşə fəaliyyəti üçün bir vasitə kimi interaktiv tədris texnologiyalarını dərk etməsidir.

## ƏDƏBİYYAT


1. Abdullah Qəhrəmanov, Sevda Sadıqova, İlahə Cəfərova. Scratch 2.2 (II hissə)
2. https://scratch.mit.edu/
3. https://code.org/
4. http://www.informatik.az/load/scratch/24

***Айнур Мобиль кызы Касумова,***
***доктор философии по педагогике,***
***старший преподаватель Азербайджанский***
***Государственный Педагогический Университет***
***кафедра «Компьютерных Наук»,***
***0000-0001-8669-5701***
***kasumovaaynur@gmail.com***

## Инновационные методы обучения программированию

***Резюме***

Интеграция с современным образовательным пространством требует использования существующих методов обучения и внедрения современных процессов в учебный процесс, что будет способствовать становлению активного, независимого и свободного человека с критическим мышлением. Стратегия в области образования была изменена, и ее главная цель - воспитывать свободных, активных, информированных и ответственных граждан, обладающих критическим мышлением и приверженностью современному демократическому сообществу, для удовлетворения требований современного демократического общества.

Недавние исследования показывают, что интерактивное обучение помогает ученику не только легко усваивать новый материал, но и запоминать его в течение более длительного периода времени. Статья не пытается противопоставить традиционные и традиционные методы, а скорее подчеркивает преимущества интерактивного метода и подчеркивает его эффективность для развития у студентов творческого мышления, аналитических навыков и навыков аргументации.

***Ключевые слова: Активные методы обучения, программное обеспечение, языки программирования, Code.org, Scratch, алгоритм.***

***Aynur Mobil Gasimova***
***PhD in pedagogy, head teacher***
***Azerbaijan State Pedagogical University***
***“Computer Sciences” department,***
***0000-0001-8669-5701***
***kasumovaaynur@gmail.com***

## Innovative programming teaching methods

***Summary***

Integration with modern educational space requires modernization of existing learning methods and the introduction of modern activities in the process of learning that will facilitate the establishment of an active, independent and free person with critical thinking. The educational strategy has been changed and its main purpose has become bringing up of free, active, informed and responsible citizens, equipped with the skills of critical thinking and loyal to the modern democratic community in order to meet the demands of present-day democratic society. As a result, the information received is remembered for a longer time. Recent studies show that interactive learning helps the learner not only to easily acquire new material but to memorize it for a longer period of time. The article does not attempt to contrast interactive and traditional methods but rather to highlight advantages of the interactive method and underline its effectiveness to activate creative thinking, analytic and argumentation skills in students.

***Keys words: Active (interactive) learning methods, software, programming languages, Code.org, Scratch, algorithm.***

UOT 37

***Aysu Müqabil qızı BÜLBÜLZADƏ***
***Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin***
***Elmi araşdırmalar, ekspozisiya və fond şöbəsinin əməkdaşı.***
***bulbulzadaysu@gmail.com***

# HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏR SİYASƏTİ

***Xülasə***

Məqalədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyi dövründə Azərbaycanda gənclər siyasətinin formalaşması və həyata keçirilməsi problemindən bəhs edilir. Belə bir fikir əsaslandırılır ki, dövlət suverenliyini əldə etməklə Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başlayıb. İdeyada bildirilir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti dövlət tərəfindən ictimai-siyasi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir. Bu siyasət çox geniş spektri - gənclərin təhsili, sağlamlığı, intellektual və mənəvi inkişafı, onların asudə vaxtlarının təşkili, gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi ilə bağlı məsələləri əhatə edir.

***Açar sözlər: Heydər Əliyev, gənclər hərəkatı, gənclər forumu, gənclər işi, gənclərin təhsili.***

***

Hər bir xalq, o cümlədən azərbaycanlı üçün mühüm tarixi nailiyyət olan dövlət müstəqilliyini əldə etməkdən böyük hadisə yoxdur. Müstəqil dövlətçilik Azərbaycanın çoxəsrlik tarixində ən böyük hadisədir. 20-ci əsrin əvvəllərində Azərbaycanda əldə edilən ilk dövlət müstəqilliyi bütün türk-müsəlman dünyasının tarixində dönüş nöqtəsi yaratdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli müstəqilliyinin acı taleyi müstəqilliyin əldə olunmasından daha çox qorunub saxlanmasının və möhkəmləndirilməsinin vacibliyini inandırıcı şəkildə göstərdi. Görkəmli dövlət xadimi və dünyaşöhrətli siyasətçi Heydər Əliyev isə Azərbaycan xalqının ikinci dövlət müstəqilliyinə nail olmaq şansının ideoloji lideri, bu dövlətin xilaskarı, onun möhkəm dayaqlarını yaradan, onu əbədi sərvətə çevirən tarixi şəxsiyyət oldu.

Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə gəldikdən sonra onun çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən biri də gənc nəslə diqqətin artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi, gənclərin fəal iştirakının təmin edilməsi olmuşdur. Bu da təbiidir, çünki gənclik xalqın ümididir, onun inkişaf və tərəqqisinin əsas meyarı və barometridir, çünki hər bir cəmiyyətin maddi-mənəvi tərəqqisi bilavasitə gənclər siyasətinin düzgün qurulmasından, təşkilindən və aparılmasından, sosial-məişət şəraitinin düzgün qurulmasından asılıdır.

Müstəqilliyin ilk illərində əhalinin bütün təbəqələri, sosial qruplar arasında müşahidə olunan milli oyanış, ictimai-siyasi fəallıq gənclərdən də yan keçməmişdir. Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyət sahələrinə, sosial tərkibinə görə bir-birindən fərqlənən yeni müstəqil gənclər təşkilatları yaradılmağa başladı. İlk gənclər təşkilatları əsasən respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə aparan xalq hərəkatının təsiri altında kortəbii şəkildə formalaşmağa başladı. Amma "1991-1993-cü illərdə respublikada yaranmış gənclər təşkilatlarının əksəriyyətində çaşqınlıq və xaos şəraitində siyasiləşmə və populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o vaxt fəaliyyət göstərən çoxistiqamətli siyasi partiya və qrupların təsiri altına düşdü.

Müstəqil Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış boşluq yalnız 1993-cü ilin iyununda, Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə gəlişi ilə, gənclərə lazımi diqqət və qayğının təzahürü ən mühüm məsələyə çevrildiyi zaman aradan qaldırılmağa başlandı. Beləliklə, Azərbaycanda dövlət gənclər siyasəti 1993-cü ildən formalaşmağa başladı. 1993-cü il sentyabrın 22-də Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev gənclər qruplarından biri ilə görüşərək Azərbaycan gənclərini daha fəal iştiraka çağırdı.

Azərbaycan Prezidenti Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətinin əhəmiyyətini

nəzərə alaraq 1994-cü il iyunun 26-da bu siyasəti həyata keçirmək məqsədi ilə yeni dövlət strukturunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman verdi. [4]. Yeni nazirliyin qarşısında duran mühüm vəzifələrdən biri də gənc nəslin Vətənə, xalqa məhəbbət ruhunda yetişdirilməsi, mənəvi tələbatlarının ödənilməsi, gənclərin sosial-iqtisadi problemlərinin həlli, real həyat tərzinin yaradılması idi.

Azərbaycanda o vaxtkı şəraitdə fəaliyyət göstərən çoxsaylı gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək zərurəti yarandı. Bu mühüm işin həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xüsusi Sərəncamı ilə 1996-cı il fevralın 2-də keçirilən Müstəqil Azərbaycan Gənclərinin I Forumunun böyük əhəmiyyəti olmuşdur. Forumda gənclərin bütün kateqoriyalarını təmsil edən iki mindən çox gənc iştirak edib: tələbələr, hərbçilər, jurnalistlər, siyasi partiyalar və gənclər təşkilatları. Gənclərin iradlarını, təklif və arzularını dinləyən, ölkə gənclərinin problemlərini hərtərəfli öyrənən forumun işində respublika Prezidentinin başçılıq etdiyi bütün dövlət orqanlarının rəhbərləri fəal iştirak etmişlər. Həmin Forumda məruzə ilə çıxış edən Azərbaycan Prezidenti bir fikri vurğuladı ki, gənclərin qarşısında çox böyük vəzifələr durur ki, bunlardan da əsas vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının inkişafına, əbədiyaşarlığına öz güc, bacarıq və istedadını sərf etməkdir [9, s. 315].

Dövlət başçısı çıxışında həmçinin gənclərə Azərbaycan Konstitusiyasını öyrənməyi, onun prinsiplərinə əməl etməyi tövsiyə edib. Prezident gənclərin diqqətini ona yönəltdi ki, Azərbaycan gəncliyinin mühüm vəzifəsi ölkənin ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqları azad etmək, dövlət sərhədlərini bərpa etməkdir [9, s. 319].

Ölkə başçısı gənclərin dövlət quruculuğu prosesində öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün bütün dövlət orqanlarına münbit şərait yaratmağı tövsiyə edib. Bu göstərişin konkret nəticəsi gənc kadrların dövlət idarəetmə strukturunda ən məsul vəzifələrə irəli çəkilməsi idi. İndi ölkənin xalq təsərrüfatının müxtəlif sahələrində - yerli icra hakimiyyətlərində, bələdiyyələrdə, nazirlik və idarələrdə yüzlərlə gənc üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir.

1997-ci il fevralın 1-də Azərbaycan Respublikası Prezidentinin gənclər təşkilatının nümayəndələri ilə görüşündən sonra onların xahişini təmin edən Heydər Əliyev fevralın 2-nin Gənclər Günü elan edilməsi haqqında sərəncam imzaladı. Bu fərman gənc istedadların “Qızıl kitabı”nın, Gənc İstedadlara Yardım Fondunun yaradılmasını məcbur etdi [9, s. 352–353].

Azərbaycanın müstəqilliyi dövründə ölkəyə rəhbərlik etdiyi on illik dövrdə Heydər Əliyev humanist prinsiplərinə sadiq qalaraq, dəfələrlə gənc əsir və ordudan fərarilərə amnistiya haqqında qərar vermiş, onlar üçün hər cür şərait yaratmışdır. 1999-cu il martın 2-3-də Azərbaycan Gənclərinin II Forumu keçirildi. Bu forumda Heydər Əliyev son üç ildə həyata keçirilən fəaliyyətə yekun vuraraq, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə qoyulan vəzifələri də müəyyən etdi, dövlət orqanlarına gənclərin problemləri ilə dərindən məşğul olmağı tövsiyə etdi ki, gənclər ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edirlər [2, s. 7–22].

Azərbaycan Prezidenti Heydər Əliyev ölkəyə rəhbərliyinin bütün tarixi boyu dövlət gənclər siyasətinin normativ aktlarının əsaslarının hazırlanması və təkmilləşdirilməsi istiqamətində mühüm əməli addımlar atmışdır.

“Dövlət gənclər siyasəti haqqında” 1999-cu il tarixli Fərman və bu sərəncamla təsdiq edilmiş müfəssəl tədbirlər planında Azərbaycanda gənclər hərəkatının inkişafının əsas mərhələləri, dövlət gənclər siyasətinin əsas istiqamətləri, gənclər siyasətinin həyata keçirilməsində mövcud problemlər öz əksini tapmışdır [6]. Bu fərman gənclərin ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakına münbit şəraitin yaradılması, dövlət orqanlarının səylərinin gənc nəslin mövcud problemlərinin həllinə yönəldilməsi baxımından tarixi sənəd olub və geri dönməz surətdə həyata keçirilir. Fərmanda nəzərdə tutulmuş tədbirlər planının icrası ilə əlaqədar müvafiq dövlət orqanları - nazirliklər, dövlət komitələri hər il gördüyü işlər barədə ölkə Prezidentinə hesabat təqdim edir.

Sərəncama uyğun olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemlərinin Araşdırılması Mərkəzi, Respublika İstirahət və Uşaq Sağlamlığı Mərkəzi yaradılıb, gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində səmərəli tədbirlər həyata keçirilib [10, s. 239].

1997-2000-ci illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən “Gənc

ailə", "Gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi", "Ordudan tərxis olunmuş gənclərin işlə təmin olunması problemlərinin həlli", "Sosial, İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin iqtisadi və digər problemləri" və s. proqramları təsdiq edilmişdir [10, s. 239]. Əksəriyyəti də 1993-2003-cü illərdə qəbul edilmişdir. Ölkə Prezidenti Heydər Əliyev də dövlət proqramlarında gənclərin həyat və fəaliyyəti ilə bağlı müvafiq meyarları əks etdirmişdir. Uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərini həll etmək və hüquqlarını qorumaq məqsədi ilə 2002-ci il mayın 6-da "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. 14 maddədən ibarət qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, əsas istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmək və bu sahədə yaradılmış münasibətləri tənzimləməkdən ibarətdir. Qanunda qeyd olunduğu kimi, gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, cəmiyyətdə fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir. Bu siyasət çox geniş spektri - gənclərin təhsili, sağlamlığı, intellektual və mənəvi inkişafı, onların asudə vaxtlarının təşkili, gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi ilə bağlı məsələləri əhatə edir. Qanuna görə, "gənclik" dedikdə 16 yaşdan 35 yaşa qədər olan şəxslər nəzərdə tutulur [7].

Gənclər siyasəti ilə bağlı qəbul edilən qanun və sərəncamların əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların qabiliyyət və bacarıqlarının reallaşdırılmasına, ictimai-siyasi həyatda fəal iştirakına köməklik göstərməkdən ibarətdir. Dövlət gənclər siyasəti dövlətin daxili siyasətinin mühüm tərkib hissəsidir. Gənclər siyasətinin əsas məqsədi, prinsipləri və istiqamətləri Azərbaycan Respublikasının Prezidenti və Ali Məclisi tərəfindən müəyyən edilir. Mərkəzi və yerli hakimiyyət orqanları, bələdiyyələr də öz səlahiyyətləri daxilində bu siyasətin həyata keçirilməsində iştirak edirlər. Hazırda Azərbaycan Respublikasında Gənclik Dövlət Proqramının həyata keçirilməsi üçün idarəetmə strukturları formalaşdırılıb və bu strukturlarda yüksək ixtisaslı gənc mütəxəssislər çalışır.

Azərbaycan Respublikasında demokratik dövlət quruculuğunun uğurla davam etdirilməsi, gənclər siyasətinin inkişafı ölkə gənclərinin beynəlxalq əlaqələrinin formalaşmasına və möhkəmlənməsinə güclü təkan vermişdir. Azərbaycan gənclər təşkilatlarının nümayəndələri müxtəlif səviyyələrdə keçirilən dünya, Avropa, regional tədbirlərdə iştirak etmək, gənclərlə iş sahəsində dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiq etmək imkanı əldə ediblər. Ayrı-ayrı milli gənclər təşkilatları müxtəlif ümumavropa strukturları ilə - Avropa Şurasının gənclər təşkilatlarının direktorları, Gənclər Direktorluğu ilə sıx əməkdaşlıq edir.

Avropa İttifaqı ilə təcrübə mübadiləsi aparır, birgə layihə və proqramlar həyata keçirir. 2000-ci ilin aprelində Azərbaycan Gənclər Təşkilatları Milli Şurası Avropanın ən nüfuzlu qeyri-hökumət təşkilatı olan Avropa Beynəlxalq Forumunun tamhüquqlu üzvü, 2002-ci ilin yanvarında isə BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə müşahidəçi üzvü seçilmişdir [10, s. 243].

Azərbaycan Dövlət gənclər siyasətinin müasir tələblərə uyğun qurulması gənclərin, o cümlədən idman sahəsində uğurlu nəticələr əldə etmələrinə münbit şərait yaradıb. Dövlətin diqqət və qayğısına cavab olaraq idmançılar beynəlxalq yarışlarda yüksək nəticələr əldə ediblər. Xüsusilə 2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının yüksək nailiyyətləri (iki qızıl və bir bürünc medal) gələcək qələbələrə olan ümidlərimizi xeyli gücləndirdi. 2003-cü ilin nəticələri bunu inandırıcı şəkildə təsdiqlədi.

Nəticə olaraq, müstəqilliyin ilk illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət gənclər siyasətinin əsas istiqamətləri formalaşdırılıb və bu istiqamətlər respublikada yeni yaranan gənclər hərəkatının əsasını təşkil edib.

## ƏDƏBİYYAT

1. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. - Bakı, 1989.
2. II Azərbaycan Gənclər Forumu. - Bakı, 2000.
3. "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // "Azərbaycan". - 1996. - 22 iyun.

4. “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. // Azərbaycan – 1994 – 26 iyul.
5. Azərbaycan Prezidentinin gənclərlə görüşü. – Bakı, 1997.
6. “Dövlət gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. // Azərbaycan 1999 - 30 iyul.
7. “Dövlət gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. // Azərbaycan 2002 – 10 aprel.
8. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. I və II hissələr / Heydər Əliyev. - Bakı, 1998.
9. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. - Bakı, 2003.
10. Əliyev V. Heydər Əliyev və müasir gənclik / V. Əliyev // “Tarix və onun problemləri” jurnalı. - 2003. - № 3. - S. 235 – 246

***Айсу Мукабил кызы Бюльбюльзаде***
***“Мемориальный комплекс геноцида”в городе***
***Губа Сотрудница отдела научных исследований,***
***экспозиции и фондов***
***bulbulzadaysu@gmail.com***

**Гайдер Алиев и молодёжная политика**

***Резюме***

В статье рассматривается проблема формирования и реализации молодежной политики в Азербайджане в период государственной независимости под руководством Гейдара Алиева, Президента Азербайджанской Республики. Такое представление основано на том, что с обретением государственного суверенитета у молодежи Азербайджана стали формироваться новые принципы, нравственные ценности, система новых взглядов на жизнь. В идее говорится, что молодежная политика, осуществляемая под руководством общенационального лидера азербайджанского народа Гейдара Алиева, представляет собой систему мер, направленных на создание социально-политических, организационно-правовых условий и гарантий со стороны государства. Эта политика охватывает очень широкий спектр – вопросы, связанные с образованием, здоровьем, интеллектуальным и духовным развитием молодежи, организацией ее свободного времени, решением проблем молодежи, защитой ее прав.

***Ключевые слова: Гейдар Алиев, молодежное движение, молодежный форум, работа с молодежью, образование молодежи.***

***Aysu Muqabil Bulbulzadeh,***
***employee of the Scientific Research***
***Exposition and fund department of the***
***“Genocide Memorial Complex” in Guba***

**Heydar Aliyev and youth policy**

***Summary***

The article deals with the problem of formation and implementation of youth policy in Azerbaijan during the period of state independence under the leadership of Heydar Aliyev, President of the Republic of Azerbaijan. This idea is based on the fact that with the acquisition of state sovereignty, the youth of Azerbaijan began to form new principles, moral values, a system of new outlooks on life. The idea says that the youth policy, carried out under the leadership of the national leader of the Azerbaijani people Heydar Aliyev, is a system of measures aimed at creating socio-political, organizational and legal conditions and guarantees from the state. This policy covers a very wide range - issues related to education, health, intellectual and spiritual development of young people, organizing their free time, solving youth problems, protecting their rights.

***Key words: Heydar Aliyev, youth movement, youth forum, youth work, youth education.***

.

UOT 32(327.39)

*Yeganə Ürfan qızı BAXŞIYEVA*
*AMEA Qafqazşünaslıq İnstitutu*
*Qafqaz tarixi və siyasəti (XX-XXI əsrlər)*
*şöbəsinin elmi işçisi*
*ybakhshiyeva@gmail.com*
*ORCİD-İD 0000 0002 2269 0263*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN TƏHSİL SİSTEMİ

***Xülasə***

Müstəqil Azərbaycan dövlətinin bütün sahələrində olduğu kimi elm və təhsil sahəsinin hazırkı uğurlu inkişaf amili ümummilli lider Heydər Əliyev strategiyası və onun yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev Azərbaycan dövlətinin davamlı və uğurlu inkişafı naminə yüksək səviyyəli siyasi nüfuzu, bacarığı ilə dünyanın siyasi arenasına yeni təhsil nümunəsi gətirdi. Məhz bu səbəbdən Azərbaycan gerçəklikləri onun qurub-yaratdığı elmin, təhsilin bütün pillələrində öz əksini tapmışdır.

Məlumdur ki, hər bir cəmiyyətin inkişafının əsasında elmi biliklər, yüksək elmi potensial dayanır. Elmin effektli inkişafı elmi kadrların keyfiyyət və bacarıqlarından, elmdə uzunmüddətli şərtlərin təminatından asılıdır. Hər zaman yüksək elmtutumlu texnologiya və elmi potensiala malik olan ölkələrin firavan və təhlükəsiz həyatının təməl prinsiplərinin elmi nailiyyətlər əsasında reallaşdığını vurğulayan ulu öndərin təhsil konsepsiyası elm və təhsilin vəhdətini özündə ehtiva edərək kompleks xarakter daşıyırdı. Təhsil-elm-texnologiya-cəmiyyətin inkişaf səviyyəsi-təhsil tsikli olaraq Heydər Əliyevin təhsil konsepsiyasında uğurla öz əksini tapmışdı [3]. Eləcə də Heydər Əliyevin təhsil konsepsiyasının əsasında yüksək ixtisaslı kadr potensialının daha çox keyfiyyət aspektindən artırılması prioritet məqsədlərdən birincisi olub.

***Açar sözlər: təhsil konsepsiyası, ulu öndər, texnologiya, azərbaycanlı gənclər, elmi potensial***

***

Bu gün müstəqil Azərbaycan Respublikasının uğurlu təhsil strategiyası ulu öndər Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin istər Azərbaycan SSR-ə, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövrü dövlətimizin tarixində elmin, təhsilin tərəqqi dövrü adlanır. 1972-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları, xüsusilə gənclərin ümumtəhsil məktəblərində orta təhsilə yiyələnmə imkanlarını daha da təkmilləşdirmək sahəsində əsaslı tədbirlərdən biri hesab olunur (1972-ci il "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü il "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında"). Nəticə etibarilə Azərbaycanın hətta ən ucqar regionlarında gənclərin təhsilə cəlb olunması prosesi genişləndi və ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yədək artırıldı. Həmçinin Heydər Əliyev azərbaycanlı gənclərin xarici ölkələrdə ali təhsilə cəlb olunmasını xüsusi diqqət mərkəzində saxlayırdı. Ümummilli liderin himayəsi ilə 1000-dən çox azərbaycanlı gəncin Sovet İttifaqının və Avropa ölkələrinin nüfuzlu ali təhsil müəssisələrində təhsil almasına geniş imkanlar yaradıldı [1; 4].

Ulu öndərin hərbi sahədə təhsilin təkmilləşməsi məqsədilə reallaşdırdığı islahatlar xüsusilə təqdirəlayiqdir. Bu illərdə C.Naxçıvanski adına hərbi məktəbin yaradılması azərbaycanlı gənclərin vətənpərvər ruhda yetişməsinə, ordu quruculuğunun təkmilləşməsinə əvəzolunmaz töhfələr vermişdi [2].

Hər zaman gələcəyimizin Azərbaycan əlifbasından asılılığını vurğulayan dövlət başçısının təhsil siyasətində ilk addımlarından biri azərbaycançılıq ideologiyasına yeni nəfəs bəxş etməsi oldu. Azərbaycançılıq ideologiyasının təməl prinsipində ana dilinin əhəmiyyətini vurğulayan ulu öndər 1978-ci il Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin ana dili kimi təsbitlənməsini həyata keçirdi. Daha sonra "Dövlət dilinin tətbiq işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, "Azərbaycan əlifbası və Azərbaycan dili günü təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli bəyanatı bu uzaqgörən siyasətin davamı oldu.

Təsadüfi deyildi ki, 1993-cü ildə Heydər Əliyev Naxçıvandan Bakıya qayıdarkən Azərbaycan xalqı ilə ilk görüş yeri Azərbaycan Milli Elmlər Akademiyası oldu [2]. Məhz ulu öndərin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyası Milli Elmlər Akademiyası adını aldı. Ümummilli liderin bu addımı türk dövlətçilik ənənələrinə sadiqliyinin, müstəqil Azərbaycanın təməlində elmin, təhsilin dayandığının bariz nümunəsi idi [5, s.120-132].

1998-ci ildə keçirilən Azərbaycan müəllimlərinin 1-ci qurultayında Azərbaycan xalqının, millətinin gələcəyinin təməl prinsiplərinin təhsillə bağlılığını vurğulayan ulu öndərin təhsil siyasəti 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında", 2003-cü il "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" sərəncamlar ilə yüksək səviyyədə inkişaf etdi. Ölkə başçısının rəhbərliyi ilə ali məktəblərdə əsaslı infrastruktur işləri həyata keçirildi, beş yeni ali məktəb ocağı fəaliyyətə başladı [6].

Eləcə də Heydər Əliyevin novatorluq xüsusiyyəti elm və təhsilin inteqrasiyasının beynəlxalq təhsil standartlarına əsasən müəyyənləşdirməsində öz əksini tapdı. Bu siyasətin nəticəsi olaraq elmtutumlu sənaye sahələri Qafqazda rəqabətədavamlı yüksək kadr potensialını yaratmağa müyəssər oldu. Bu uğur, heç şübhəsiz ki, dövlətin təbii-iqtisadi resurslarını müasir elmi-texnoloji səviyyəyə qaldıraraq arzuolunan hədəflərə çatmaqda böyük rol oynadı.

## ƏDƏBİYYAT


1. Elm və təhsilimizin böyük dostu Heydər Əliyev. 21 oktyabr 2022. [Elektron resurs] URL:https://www.muallim.edu.az/news.php?id=22471
2. Heydər Əliyevin təhsil siyasəti. 5 may 2018. [Elektron resurs] URL:https://old.xalqqazeti.com/az/news/politics/103879
3. Heydər Əliyevin İKT siyasəti müasir mərhələdə. [Elektron resurs] URL:http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78153.htm
4. Heydər Əliyev və biliyə əsaslanan inkişaf. [Elektron resurs] URL: https://yeniazerbaycan.com/Siyaset_e11475_az.html
5. Hüseynova, İ.Tarix. Zaman. Düşüncələr. 4 cilddə, I cild . Bakı, - 2016. - 304 s.
6. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti. [Elektron resurs] URL:http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63636.htm



***Егана Урфан кызы Бахшиева***
***научный сотрудник отдела***
***Кавказской истории и политики (XX-XXI вв.)***
***Института Кавказоведения НАНА***
***ybakhshiyeva@gmail.com***
***ORCİD-İD 0000 0002 2269 0263***


## Национальный лидер Гейдар Алиев и система образования Азербайджана


***Резюме***

Как и во всех областях независимого Азербайджанского государства, нынешний фактор успешного развития науки и образования тесно связан со стратегией общенационального лидера Гейдара Алиева и его неустанной деятельностью. Гейдар Алиев своим высоким политическим влиянием и способностями вывел на политическую арену мира новую модель образования во имя устойчивого и успешного развития Азербайджанского государства.

Именно по этой причине реалии Азербайджана нашли отражение во всех основанных и созданных им уровнях науки и образования. Известно, что развитие любого общества основывается на научных знаниях и высоком научном потенциале. Эффективное развитие науки зависит от качества и квалификации научных кадров и обеспечения долгосрочных

условий в науке. Подчеркивая, что основные принципы благополучной и благополучной жизни стран с высокой наукоемкостью, техникой и научным потенциалом реализуются на основе научных достижений, концепция образования великого лидера была комплексной, содержащей единство науки и образования. Образование-наука-технология-уровень развития общества-образование как форма образования удачно отразилось в концепции образования Гейдара Алиева. Также, исходя из образовательной концепции Гейдара Алиева, повышение потенциала высококвалифицированных кадров с более качественной стороны было первой из приоритетных задач.

***Ключевые слова: образовательная концепция, великий лидер, технологии, азербайджанская молодежь, научный потенциал.***

***Yegane Urfan Bakhshiyeva***
***research fellow of the Caucasus history and policy***
***(XX-XXI centuries) department***
***the İnstitute of Caucasus Studies of ANAS***
***ybakhshiyeva@gmail.com***
***ORCİD-İD 0000 0002 2269 0263***

**National leader Heydar Aliyev and the education system of Azerbaijan**

***Summary***

As in all areas of the independent Azerbaijan state, the current successful development factor of science and education is closely related to the strategy of national leader Heydar Aliyev and his tireless activity. Heydar Aliyev brought a new model of education to the political arena of the world with his high-level political influence and ability for the sake of sustainable and successful development of the Azerbaijan state.

It is for this reason that the realities of Azerbaijan are reflected in all levels of science and education that he founded and created. It is known that the development of every society is based on scientific knowledge and high scientific potential. The effective development of science depends on the quality and skills of scientific personnel and the provision of long-term conditions in science. The great leader, who emphasized that the basic principles of the prosperous and safe life of countries with high science-capacity technology and scientific potential are realized on the basis of scientific achievements, the education concept of was complex, containing the unity of science and education. Education-science-technology-level of development of society-education as a form of education was successfully reflected in Heydar Aliyev's concept of education. Also, on the basis of Heydar Aliyev's educational concept, increasing the potential of highly qualified personnel from a more qualitative aspect was the first of the priority goals.

***Key words: educational concept, great leader, technology, Azerbaijani youth, scientific potential.***

**UOT 37**

***Aynur Ramiz qızı ƏLİYEVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***Baş müəllim, t.f.d.***
***aynur.eliyeva.ramiz@mail.ru***

**TƏHSİL HEYDƏR ƏLİYEV FONDUNUN STRATEJİ FƏALİYYƏT SAHƏSİDİR**

***Xülasə***

Fondun "Yeniləşən Azərbaycana yeni məktəb "proqramı yeni məktəblərin tikilməsini, köhnə məktəblərin əsaslı təmirini, təhsil ocaqlarının yeni avadanlıqla, zənginləşdirilmiş kitabxanalarla

təmin edilməsini həyata keçirir. Heydər Əliyev Fondunun həyata keçirdiyi işlər ölkəmizdə XXI əsr təhsilinin tələblərinə cavab verən yeni bilikli nəslin yetişdirilməsinə böyük töhfələr verir.

***Açar sözlər: Təhsildə Heydər Əliyev fenomeni, təhsil siyasəti, pedaqoji kadr hazırlığı, Azərbaycan təhsilinin beynəlxalq əlaqələri.***

***

Ümummilli lider Heydər Əliyevin təhsil siyasəti onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev ölkəmizdə təhsilin inkişaf prioritetlərini, davamlı insan inkişafında təhsilin rolunun artırılmasını, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilməsini daim diqqət mərkəzində saxlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin respublikaya rəhbərliyi dövründə təhsil sistemində də islahatlar prosesi əhəmiyyətli dərəcədə genişlənmiş, onun müxtəlif sahələri üzrə inkişaf proqramları hazırlanaraq həyata keçirilir. Təhsilin inkişafı və təkmilləşdirilməsi məsələsini nəzərdən keçirərkən bu sahəyə dövlət büdcəsindən ayrılan vəsaitə də nəzər salmaq lazımdır. Təhsil xərcləri 2003-cü ildəki 243,2 milyon manatdan 2007-ci ildə 757,0 milyon manata, 2008-ci ildə isə 1,1 milyard manata, investisiya qoyuluşları 5,8 milyondan 220 milyona çatmışdır [1, s.25,27]. Rəqəmləri müqayisə etdikdə məlum olur ki, təhsil xərcləri 2003-cü illə müqayisədə 2007-ci ildə 3 dəfə artıq olmuşdur. 2008-ci ilin göstəricisi isə 2007-ci ildəki rəqəmdən 47 faiz yüksək olmuşdur.

Dövlət siyasətində təhsilə xüsusi diqqət və qayğı onun cəmiyyətin inkişaf səviyyəsi ilə bilavasitə əlaqəli olması ilə bağlıdır və bu, dünya təcrübəsində dəfələrlə sınaqdan çıxmışdır.

Tarixi təcrübə göstərir ki, təbii sərvətlərin zənginliyi dövlətin, cəmiyyətin inkişafında özünəməxsus rol oynasa da, bu istiqamətdə aparılan işlər üçün əsas göstərici deyil. Cəmiyyətin əsas inkişaf göstəricisi dövlətin strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşmasıdır. Sürətlə qloballaşan dünyada davamlı insan inkişafı konsepsiyası hal-hazırda dünyada ən mühüm prioritetə çevrilmişdir.

Qloballaşmanın sürətlə genişləndiyi bir şəraitdə rəqabətin gücləndiyi, illər keçdikcə təbii resursların azaldığı, ekoloji problemlərin kəskinləşdiyi müasir dövrdə təhsil xüsusi əhəmiyyət kəsb edir. Heç də təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri «Təhsil əsri» elan etmişdir.

Təhsil sistemində aparılan islahatlar nəticəsində ölkəmizdə əhalinin təhsil səviyyəsi yüksəlmişdir. Belə ki, indi 15 və yuxarı yaşda olan əhalinin hər min nəfərindən 776-sı ali və tam orta təhsilə malikdir. 2008-ci ildə 15 və yuxarı yaşda olan əhalinin savadlılıq səviyyəsi 99,5 faizə çatmışdır [15].

2008-ci ildə ölkədə 4514 dövlət və 17 qeyri-dövlət gündüz ümumtəhsil məktəbi, 57 dövlət və 3 qeyri-dövlət orta ixtisas məktəbi, 34 dövlət və 14 qeyri-dövlət ali məktəb fəaliyyət göstərmişdir [19].

Azərbaycanın təhsil sistemində aparılan islahatlarda dövlət qurumları ilə yanaşı demokratik təsisatlar da fəal iştirak edir. Bu baxımdan Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi maraq doğurur. Belə ki, Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərinə daxil olan işlərin ümumi həcminin 24 faizini məhz təhsil təşkil edir ki, bu göstərici digər sahələrin ayrı-ayrılıqda hər birinin göstəricilərindən yüksəkdir [6, s.5]. Fondun fəaliyyətində təhsilə belə böyük yer ayrılması ulu öndərin təhsili millətin gələcəyi, cəmiyyətin xüsusi, intelektual cəhətini əks etdirən sahə adlandırması ilə bağlı olub, Heydər Əliyevin bu sahədəki işlərinin davam etdirilməsi zərurətindən və arzusundan irəli gəlir. Xalqımızın intellektual resursunun daim artması onun XXI əsrin rəqabət şəraitində çeşidli geosiyasi, iqtisadi, sosio-mədəni çağırışlara daha hazırlıqlı olmasına şərait yaradır. Bu səbəbdən təhsil strateji önəm kəsb edir.

Ümummilli lider təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində (19 aprel 1999-cu il) qeyd etmişdi ki, "təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Hesab edirəm ki, bu tələblər hər bir ölkədə vardır. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar" [3, s.468].

Ümummilli lider H.Əliyev təcrübəli siyasətçi və dövlət xadimi kimi yaxşı bilirdi ki, intellektual potensial hər hansı bir ölkədə dövlət müstəqilliyinin qorunub saxlanılmasının ən mühüm şərtlərindən biridir.

Heydər Əliyevin adını daşıyan, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili M.Əliyevanın rəhbərlik etdiyi Fondun qarşısında duran məqsədlərdən biri də təhsillə bağlı proqram və layihələrin hazırlanıb həyata keçirilməsidir. Təhsil sahəsində H.Əliyev siyasətinin davam etdirilməsi Fondun prezidenti M.Əliyevanın diqqət mərkəzində durur. Bu isə «həqiqi vətənpərvərlikdən irəli gəlir. Yalnız vətənpərvərlik hissi, vətən sevgisindən qaynaqlanan ali duyğular insanı olduqca çətin, lakin xalqın, dövlətin gələcəyi baxımından strateji əhəmiyyətli işlər həyata keçirməyə sövq edə bilər. Heydər Əliyev Fondunun prezidenti kimi, M.Əliyevanın təhsilə yönəltdiyi böyük diqqət onun gerçək vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin danılmaz sübutudur" [17, s.253].

Məktəb quruculuğunda cəmiyyətin müxtəlif təbəqələrinin iştirakını əhəmiyyətli hesab edən Heydər Əliyev Fondu 2005-ci ilin iyunun 3-də "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının təqdimat mərasimini keçirdi. Müxtəlif qurumların, respublikada fəaliyyət göstərən beynəlxalq təşkilatların iştirak etdiyi dəyirmi masada 100, 230 və 240 şagird yerlik məktəb binalarının layihələri təqdim olundu.

Nəzərdə tutulan layihənin həyata keçirilməsi üçün Heydər Əliyev Fondunun Prezidenti M.Əliyevanın cəmiyyətə əməkdaşlıq müraciəti respublikada geniş əks-səda doğuraraq nəzərdə tutulan proqramın reallaşması üçün şərait yaratdı.

Məktəblərin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə real vəziyyətin öyrənilməsi əsasında konkret tədbirlər planının hazırlanması, iş adamları, ictimaiyyətlə əlaqə, tikinti işlərinə ciddi nəzarət qeyd edilən proqramın 2005-ci ili əhatə edən birinci mərhələsinin uğurla başa çatmasına gətirib çıxartdı.

Azərbaycanın məktəb quruculuğu tarixində xüsusi yer tutan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 2005-ci ildə bölgələrdə 132 məktəb tikilib istifadəyə verildi. Bu məktəblər avadanlıqla, istilik sistemi ilə təchiz olunmuşdu [7, s.95]. Müqayisə üçün deyək ki, 1993-2002-ci illər ərzində Azərbaycanda cəmi 137 yeni məktəb tikilmişdi [10, s.276]. 2005-ci ildə respublika üzrə cəmi müxtəlif mənbələr hesabına ümumilikdə 49 min 732 yerlik 328 yeni məktəb və əlavə korpuslar, o cümlədən 36016 şagird yerlik 194 yeni məktəb, 134 məktəbdə 13 min 716 yerlik əlavə korpuslar inşa edilmişdir. İstifadəyə verilmiş 194 yeni məktəbdən 3 min 836 şagird yerlik 20 məktəb Dövlət Proqramına əsasən, 10 min 120 yerlik 42 məktəb ayrı- ayrı nazirliklər, beynəlxalq və yerli təşkilatlar, bələdiyyələr, iş adamları tərəfindən tikilmişdir. Yeni məktəblərdən 22060 yerlik 132 məktəb, yəni yeni məktəblərin 70 faizi bilavasitə Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmişdir [11, s.159].

Heydər Əliyev Fondunun 2005-ci ildə məktəb tikintisində əldə etdiyi nailiyyət Azərbaycanın Sovet dövründəki göstəricilərini həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə də ötüb keçmişdi. Belə ki, Sovet dövründə Azərbaycanda bir il ərzində məktəb tikintisində ən yüksək göstərici 110 olmuşdu və həmin məktəblərin böyük bir hissəsi də şəhərlərdə inşa edilmişdi [16]. Digər tərəfdən, Heydər Əliyev Fondunun təşkilatçılığı və fəal iştirakı əsasında tikilən məktəblər ən müasir avadanlıqlarla, istilik sistemi ilə təchiz olunmuş, keyfiyyətli tikinti materiallarından istifadə edilməklə yaraşıqlı binalar tikilmişdir.

Heydər Əliyev Fondu tərəfindən 2005-ci ildə inşa edilmiş məktəb binaları 52 rayonu əhatə edirdi. Bu ildə ən çox məktəb Quba (14), Yardımlı və Ağcabədi rayonlarına (hər birinə 6) düşürdü. Məktəblərin tikildiyi 52 rayon üzrə əvvəlki məktəblərin ən yaşlısı Ağcabədi rayonunda 1883-cü ildə bəy evi kimi tikilmiş şəhər 3 saylı orta məktəb, ən cavanı isə Biləsuvardakı Aranlı orta məktəb (1992) olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 11 fevral 2004-cü ildə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üçün Dövlət Proqramı"nda (2004-2008-ci illər) məktəb tikintisi məsələsi də xüsusi yer tutur. Burada yeni məktəblərin, əlavə sinif otaqlarının tikilməsi, mövcud məktəblərdə əsaslı təmir işlərinin aparılması, texniki təchizatın yaxşılaşdırılması və s. məsələlər də nəzərdə tutulmuşdu [18, s.697-704]. Heydər Əliyev Fondu da məktəb quruculuğu ilə bağlı Dövlət Proqramlarının qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsində xüsusi fəallıq göstərir.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ilkin mərhələsində əldə edilmiş uğurlar və

eyni zamanda qazanılmış təcrübə Heydər Əliyev Fondunun bu sahədəki işinin davam etdirilməsi üçün əhəmiyyətli idi.

Yaradılmış işçi qrupu məktəb üçün yararlı olmayan binaların müəyyən edilməsi istiqamətində iş aparmağa başladı. Keçirilmiş monitorinq nəticəsində 100 məktəbi əhatə edən yeni siyahı hazırlandı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 2006-cı ildə də məktəb quruculuğu işinə xüsusi fikir verirdi. Ölkə Prezidenti 2006-cı ildə təhsillə bağlı 24 tədbirdə, o cümlədən yeni məktəb binalarının təməlqoyma mərasimində, əsaslı təmir və bərpa edilmiş məktəblərin açılışında iştirak etmişdir. Heydər Əliyev Fondunun prezidenti M.Əliyeva ölkə Prezidenti ilə birlikdə olduğu tədbirlərdən əlavə, təhsillə bağlı daha 24 tədbirdə iştirak etmişdir [2].

2006-cı ilin aprelin 6-da Heydər Əliyev Fondunda «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsinin təqdimatına həsr edilmiş dəyirmi masa keçirildi. Təqdimat mərasimində M.Əliyeva Heydər Əliyev Fondunun təhsilə xüsusi əhəmiyyət verməsini vurğulayaraq bildirdi ki, «müasir dünyada hər bir ölkənin inkişafı, dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə də Heydər Əliyev Fondu yarandığı gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir [12, s.156].

Heydər Əliyev Fondunun prezidenti M.Əliyeva bildirdi ki, «məktəb tikintisi və təmiri» üzrə hazırlanmış xüsusi proqramda 2006-cı ildə yeni məktəb binalarının, əlavə korpusların inşası, məktəblərin əsaslı təmiri nəzərdə tutulmuşdur. Biz «Yeniləşən Azərbaycana yeni məktəb!» proqramını həyata keçirərkən həm birinci və inanıram ki, həm də ikinci mərhələdə dövlət qurumları ilə sıx, çox səmərəli əməkdaşlıq qurmuşuq.

Hər iki mərhələdə biz məktəblərin layihələrinin hazırlanması zamanı bir sıra dövlət layihə institutları ilə birlikdə çalışmışıq [13, s.164].

«Yeniləşən Azərbaycana yeni məktəb!» proqramının 2-ci mərhələsində 58 yeni məktəb tikilmişdi [8, s.91]. Bu mərhələnin quruculuq işləri müəyyən xüsusiyyətlərinə görə əvvəlki mərhələdən fərqlənir. Belə ki, ilkin mərhələdə tikinti işləri respublikanın regionlarında aparıldığı halda 2-ci mərhələdə regionlarla yanaşı, Abşeron rayonunda və Bakı şəhərində də məktəblər tikilmişdir. Abşeron rayonu üzrə 3, Bakı şəhərinin Səbayel, Nərimanov, Binəqədi, Əzizbəyov, Qaradağ, Sabunçu, Suraxanı rayonları üzrə isə 16 məktəb tikilmişdi. Birinci mərhələdə inşa edilən məktəblər 100, 200, 240 şagird yerlik olduğu halda, ikinci mərhələdə 100, 200, 240 yerlik məktəblərlə yanaşı daha iri tutumlu məktəblər istifadəyə verilmişdir. Lənkəran rayonunda Liman şəhər orta məktəbi 600, Əzizbəyov rayonunda Şüvəlan qəsəbə 156 saylı orta məktəbi 1090 və F.Fərhadoğlu adına Şüvələn qəsəbəsi 230 saylı orta məktəb 1176, Sabunçu rayonu Zabrat qəsəbə 307 saylı orta məktəb 1176 şagird yerlikdir.

Heydər Əliyev Fondu «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ilk iki mərhələsində, yəni 2005-2006-cı illər ərzində ölkədə respublikanın bütün regionlarını əhatə edən 62 rayonda 190 yeni məktəb tikib istifadəyə vermişdir. Bu isə 38 min 964 şagird yerlik məktəblərin inşası və yenidən qurulması deməkdir [9, s.77].

Ümumtəhsil məktəb binalarının tikintisi sonrakı illərdə də davam etdirilmişdir. 3 il ərzində, yəni 2005-2007-ci illərdə dövlət xətti ilə 1500 məktəb tikilmiş və əsaslı təmir olunmuşdur. Bu məktəblərin 300-ü Heydər Əliyev Fondunun payına düşür [5]. «Yeniləşən Azərbaycana yeni məktəb!» layihəsi çərçivəsində ümumtəhsil məktəblərinin tikintisinə və təmirinə xüsusi fikir verilməsi heç də təsadüfi deyil. Azərbaycanın təhsil sistemində əhəmiyyətli yer tutan ümumtəhsil məktəbləri böyüməkdə olan gənc nəslin vətəndaş tərbiyəsində əhəmiyyətli rol oynayır.

Ümummilli lider Heydər Əliyev 31 avqust 1999-cu ildə respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşündəki nitqində təhsil sistemində ümumi təhsilin rolundan danışarkən bildirmişdir ki, «İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb... xüsusi yer tutmalıdır... İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır... Ona görə də orta təhsil sisteminə çox ciddi fikir verməк lazımdır» [4, s.458].

Heydər Əliyev Fondu ali məktəblərə, eləcə də ondan sonrakı mərhələlər üçün hazırlıq kursları-

nın təşkili məsələsinə də fikir verir. Bu məqsədlə hələ 2005-ci ildə Bakının Nizami rayonunda Heydər Əliyev Fondunun Təlim-Tədris Mərkəzinin tikintisi başlanmışdı. Qeyd edilən məktəbin 2007-ci ilin martın 16-da açılışı oldu [14, s.156].

Məktəbin açılış mərasimində Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva da iştirak etmişdir. Üç məktəbdən ibarət olan binada hər növbə 100 nəfər olmaqla gündə 3 növbədə 300 nəfərin məşğul olması üçün əlverişli şərait yaradılmışdır. Fənlərdən və uşaqların sayından asılı olaraq 3,4,8 nəfərlik otaqlar təzə və rahat avadanlıqlarla təchiz olunmuşdur. Binada valideynlər üçün gözləmə otağı da vardır. Hər mərtəbənin foyesində ulu öndərin uşaqlara məhəbbətini, diqqətini əks etdirən fotostendlər, rəsm əsərləri asılmışdır. Məktəbin konfrans salonu istilik sistemi, sanitar qovşağı ilə təmin edilmişdir, elektron avadanlıq qoyulmuşdur. Məktəbdə uşaqlar üçün tanınmış alimlərin mühazirələri təşkil edilir.

Məktəbin həyətində istirahət guşələri yaradılmış, yaşıl xiyaban salınmışdır.

Heydər Əliyev Fondunun fəaliyyətini araşdırarkən diqqəti cəlb edən məsələlərdən biri budur ki, bu qurum ölkə həyatının müxtəlif sahələri ilə bağlı layihələr hazırlayıb həyata keçirərkən əvvəlcədən ciddi hazırlıq işləri aparır, həlli daha vacib, ilk növbədə görülməli olan işləri müəyyənləşdirir və xüsusi proqramlar hazırlayır. Bu isə Fondun fəaliyyətinin səmərəliliyini yüksəldir, ona olan marağı və ictimai dəstəyi daha da gücləndirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan müəllimlərinin XIII qurultayı. Bakı: Çaşıoğlu, 2009, s.25, 27.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 25 yanvar 2007-ci il tarixli, 98 saylı qərarı. «Azərbaycan müəllimi» qəz., 2007, 9 fevral.
3. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir /Tərtib edənlər M.Mərdanov, Ə.Quliyev. Bakı: Təhsil, 2002, s.468.
4. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir /Tərtib edənlər M.Mərdanov, Ə.Quliyev. Bakı: Təhsil, 2002, s.458.
5. Hacızadə A. Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri L.Əliyeva Sankt-Peterburqdakı uşaq evi-məktəbdə olmuşdur. «Azərbaycan» qəz., Bakı: 2008, 6 fevral.
6. Heydər Əliyev Fondu 2004-2007. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2007, s.5.
7. Heydər Əliyev Fondu. 2005-2006. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2006, s.95.
8. Heydər Əliyev Fondu. 2006-2007. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2007, s.91.
9. Heydər Əliyev Fondu. 2006-2007. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2007, s.77.
10. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, s.276
11. Xoşməramlı səfir: 5 kitabda, III kitab. /Tərtibçi: Qasımov A. Bakı: Şəms, 2006, s.159.
12. Xoşməramlı səfir: 5 kitabda, III kitab. /Tərtibçi: Qasımov A. Bakı: Şəms, 2006, s. 156.
13. Xoşməramlı səfir: 5 kitabda, III kitab. /Tərtibçi: Qasımov A. Bakı: Şəms, 2006, s. 164.
14. Xoşməramlı səfir: 5 kitabda, IV kitab. /Tərtibçi: Əliyev Ə. Bakı: Şəms, 2007, s.156.
15. Kərimova S., Əkbərova H. Təhsil Nazirliyinin kollegiyasında ötən il təhsil sahəsində görülmüş işlər, əldə olunan inkişaf diqqətə çatdırıldı, cari ildə qarşıda duran vəzifələr geniş müzakirə olundu. «Azərbaycan müəllimi» qəz., Bakı: 2009, 16 yanvar.
16. Qasımov A. İnsan hüquqlarının etibarlı müdafiəçisi. «Azərbaycan» qəz., Bakı: 2006, 10 dekabr.
17. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi /Tərtibçi və elmi redaktor S.Məmmədəliyeva. Bakı: Nurlar, 2007, s.253.
18. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. (1998-2004). I kitab, Bakı: Çaşıoğlu, 2005, s.697-704.
19. Ölkənin iqtisadi və sosial inkişafı. Dövlət Statistika Komitəsinin məlumatı. «Respublika» qəz., Bakı: 2009, 14 fevral.

***Айнур Рамиз кызы Алиева***
***Азербайджанский Университет Кооперации***
***старший преподаватель, др.***
***aynur.eliyeva.ramiz@mail.ru***

**Образование - стратегическое направление деятельности Фонда Гейдара Алиева**

***Резюме***

Программа фонда «Обновляющемуся Азербайджану – новую школу» реализует строительство новых школ, капитальный ремонт старых школ, оснащение учебных заведений новым оборудованием и пополнение библиотек. Работы, проводимые Фондом Гейдара Алиева, вносят большой вклад в воспитание нового талантливого поколения, отвечающего требованиям образования XXI века в нашей стране.

***Ключевые слова: Феномен Гейдара Алиева в образовании; образовательная политика, подготовка педагогических кадров, международные связи Азербайджанского образования.***

***Aynur Ramiz Aliyeva***
***Azerbaijan Cooperation University***
***Senior Lecturer, Dr.***
***aynur.eliyeva.ramiz@mail.ru***

**Education is a strategic activity area of the Heydar Aliyev Foundation**

***Summary***

The fund's “New school for renewed Azerbaijan” program implements the construction of new schools, the basic repair of old schools, the provision of educational institutions with new equipment and enriched libraries. The works implemented by the Heydar Aliyev Foundation make great contributions to the education of a new generation who meet the demands of the 21st century education in our country.

***Key words: Heydar Aliyev phenomenon in education; educational policy, pedagogical personnel training, international relations of Azerbaijani education.***

***Günel Mobil qızı ASLANLI***
***t.f.d., AKU-nun “Humanitar fənlər”***
***kafedrasının dosenti, t.f.d.***
***g.aslanli-85@mail.ru***
***Orcid:0000-0002-4720-0195***

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA İDMANIN İNKİŞAFI**

***Xülasə***

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda respublika həyatının bütün sahələrində, o cümlədən gənclər siyasəti və bədən tərbiyəsinin təşkili sahəsində böyük inkişaf perspektivləri yarandı. Gənclərin vətənpərvərlik və dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə və mədəni irsinə hörmət ruhunda tərbiyəsi Ulu öndər Heydər Əliyevin gənclər siyasətinin əsas məqsədinə çevrilib.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasəti onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və 2000-ci illərdən başlayaraq Azərbaycan Respublikası dünyanın və regionun aparıcı dövlətlərindən birinə çevrilə bilmişdir.

***Açar sözlər: Heydər Əliyev, gənclər, idman, tərəqqi, siyasət.***

***

Müasir dövrdə gənclərin bir şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyənin və idmanın yeri böyükdür, bu ilk növbədə gənc nəslin potensial imkanlarının açılması, təzahür etməsi və ictimai önəm kəsb etməsi ilə həmahəngdir. Gənclərin fiziki və mənəvi tərbiyəsində idmanın və fiziki tərbiyənin daha bir önəmli tərəfi əmək fəaliyyəti və vətənpərvərlik məsələləri ilə bağlıdır. Belə ki, sağlam həyat tərzi, fiziki hazırlıq istehsalata yüksək əməkqabiliyyətli və peşəkar gənclərin cəlb edilməsinə imkan verir və ölkənin iqtisadi inkişafına təsir edən amil kimi çıxış edir. İkincisi, sağlam gəncliyin yetişdirilməsi Vətənin müdafiəsi işi üçün də vacib şərtlərdən biridir ki, fiziki tərbiyənin və idmanın bu məsələdə rolu böyükdür.

Bütün bu vacib məqamları nəzərə alaraq, müasir dövrdə bütün sivil dövlətlərdə fiziki tərbiyə və idmanın inkişafı gənclər siyasətilə uyğunlaşdırılaraq ümumi strategiyaya tabe etdirilir. Gənclərin fiziki, zehni və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial və iqtisadi problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təqmin olunmasına kömək etmək dövlət siyasətinin prioritetlərindəndir.

Qədim dövlətçilik ənənələrinə və mədəniyyətə malik olan Azərbaycanda gənclər hər zaman cəmiyyətin hərəkətverici qüvvəsi olmuş, idman isə bütün dövrlərdə ölkənin və gənclərin inkişafının əhəmiyyətli amillərindən biri kimi çıxış etmişdir. Atlı idman oyunları, güləş, yumruq döyüşü, şahmat kimi idman növləri Azərbaycanda hələ qədim dövrlərdən yayılmışdır. Orta əsrlərdə bu idman növlərinin inkişafı davam etmiş, yeni dövrdə, xüsusilə XX əsrdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafına xüsusi diqqət ayrılmışdır. 1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərində istər gənclər siyasətində, istərsə də bədən tərbiyəsinin təşkili sahəsində böyük yüksəliş başlamışdır.

Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə bütün sahələrə olduğu kimi, idmanın da inkişafına böyük önəm vermişdir. İlk öncə idmanın maddi-texniki bazasının yaradılması və təşəkkülü üçün xeyli işlər görmüşdür. Bir sıra idman kompleksləri, qurğuları, zalları tikilmiş, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri açılmışdır. 1970-ci illərdə Bakıda 250 idman meydançası və şəhərciyi salınmış, 1973-cü ildə Bakıda möhtəşəm idman sarayı inşa edilmişdir. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Belə ki Heydər Əliyev respublikada bədən tərbiyəsi və idmanın gənclər arasında geniş yayılmasını və inkişafını məktəblərdə gənclərin bədən tərbiyəsi və idmanla əhatə olunmasında görürdü. Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində məktəblərdə bədən tərbiyəsi dərslərinə diqqət artırıldı və bu sahədə irəliləyiş gözəçarpacaq dərəcədə oldu. Artıq 1970-ci ildə orta məktəblər və uşaq-gənclər idman məktəblərində SSRİ-nin 5 idman ustası, 126 usta namizəd, idman birinciləri, 44 min gənc kateqoriyalı idmançılar, 100 mindən çox idmanın müxtəlif növləri üzrə namizədlər yetişdirilmişdir [14, v. 48,50-53, 84]

Ümummilli lider Heydər Əliyev idmanın Azərbaycanın sosial və mədəni həyatında əhəmiyyətindən bəhs edərək qeyd edirdi ki, "İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir" [8, 221].

Müstəqilliyinə yenidən qovuşan Azərbaycan Respublikasında gənclər siyasətinin başlıca istiqamətlərinin müəyyən edilməsi, eləcə də bədən tərbiyəsinin və idmanın təşkili dövlətin sosial siyasətinin prioritetlərindən biri idi. Lakin bu sahələri respublikanın inkişafına istiqamətləndirmək, ölkənin daxili və xarici siyasətinin vasitələrindən birinə çevirmək, Azərbaycan gənclərinin zehni və fiziki potensialından müstəqil Azərbaycan Respublikasının siyasi, sosial və mədəni inkişafı üçün istifadə etmək, beynəlxalq nüfuzunun artırılmasına cəlb etmək üçün güclü dövlət siyasəti və xüsusi idman strategiyasına ehtiyac var idi.

1980-ci illərin sonu Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsinin başlanması, SSRİ-nin dağılması və əvvəlki iqtisadi əlaqələrin qırılması səbəbi ilə ölkədə yaranmış ağır sosial-iqtisadi durum, həmçinin vətəndaş qarşıdurması gənclər siyasətində və bədən tərbiyəsinin təşkilində böyük bir problem yaratmışdı; gənclər siyasətinin yürüdülməsi və idman strategiyasının hazırlanması məsələsi arxa plana keçmişdi. Ölkə rəhbərliyində güclü siyasətçinin olmaması, iqtidarın ölkədəki hərc-mərcliyin qarşısını almaq bacarığından uzaq olması, sosial və iqtisadi sahələr-

də dövlət strategiyasının işlənib hazırlanmaması gənclərin, o cümlədən peşəkar idmançıların Azərbaycanı tərk etməsinə gətirib çıxarmışdı.

Respublika üçün yaranmış bu ağır vəziyyət yalnız 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə Heydər Əliyevin qayıdışı ilə ortadan qalxdı, ölkədə bütün sahələrdə, o cümlədən gənclər siyasətində və bədən tərbiyəsinin təşkilində köklü dəyişikliklər başladı. Gənclərin vətənpərvərlik, Azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması Heydər Əliyevin gənclər siyasətinin başlıca məqsədinə çevrildi. Ulu öndər həyata keçirdiyi gənclər siyasəti və idman strategiyası haqqında deyirdi: "Azərbaycan prezidenti kimi mənim idmana, bədən tərbiyəsinə olan qayğım birinci növbədə millətimin, Azərbaycan millətinin fiziki və zehni sağlamlığı üçün lazımdır. Yəni bu qayğını göstərərək, mən öz millətimizin, xalqımızın, Azərbaycan xalqının, hər bir kəsin tam sağlam olmasını təmin etmək istəyirəm. İdman, bədən tərbiyəsi eyni zamanda mədəniyyətdir" [10, 42, 11].

Cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında, habelə idarəetmə və vətəndaş cəmiyyətinin inkişafı sahələrində gənclərin fəal iştirakının təmin edilməsi, onların intellektual və yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması üçün ilk olaraq Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli fərmanı və Azərbaycan Respublikası Milli Məclisinin 26 iyul 1994-cü il tarixli 861 saylı qərarı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Prezidentin bu fərmanı ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasının ilk addımı oldu və növbəti hüquqi-normativ sənədlər üçün özül yaratmış oldu [5, 20-21]. Bu sənədin qəbulunun ardınca 1994-cü il 26 iyul fərmanı ilə Azərbaycan Gənclər və İdman Nazirliyi təşkil edildi, Azərbaycan Respublikası Prezidentinin 5 mart 1995-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında İdman Fondu yaradıldı [5, 22].

Diqqətəlayiq hal ondan ibarətdir ki, şəxsiyyətin harmonik, hərtərəfli inkişafı, gənclərin əməyə, Vətəni müdafiəyə hazırlanması, onların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkil edilməsi sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılmasına dair tədbirlər görülməsi də bu vəzifələrin içərisindədir [3].

Azərbaycan Gənclər və İdman Nazirliyinin, respublikanın gənclər təşkilatlarının təklifi nəzərə alınaraq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 1996-cı il yanvarın 26-da Azərbaycan gənclərinin Birinci Forumunun keçirilməsi haqqında sərəncam imzaladı. Həmin il fevral ayının 2-də keçirilən Forumda respublika gənclərinin 2000-dək nümayəndəsi iştirak etdi [11, 491]. Forumda şəxsən iştirak edən Ulu öndər Heydər Əliyev nitqində gənclərə müraciət edərək onların milli ruhda tərbiyəsinin və təhsilinin müstəqil Azərbaycan üçün əhəmiyyətini xüsusi vurğulamışdır: "Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir" [9, 318-319].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 23 dekabr 1997-ci il tarixli qərarı ilə qüvvəyə minən "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununun əsas məqsədi bədən tərbiyəsi və idman vasitəsi ilə insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin etmək, əhalinin yüksək əmək qabiliyyəti səviyyəsinə, fəal uzunömürlülüyünə, beynəlxalq aləmdə Azərbaycan idmanının nüfuzunun yüksəldilməsinə nail olmaq və gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlamaq olmuşdur [5, 8]. Qanunda bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, bu sahədə dövlət siyasəti, bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər, idman sahəsində beynəlxalq əlaqələr kimi müddəalarla yanaşı, bədən tərbiyəsi və idmanın maddi təminatı, o cümlədən maliyyə mənbələri, idmançıların hüquqları, əməyinin qiymətləndirilməsi kimi müddəalar da öz əksini tapdı.

Ümummilli lider Heydər Əliyevin gənclər siyasətində və idman strategiyasında həyata keçirdiyi tədbirlər tezliklə öz praktik nəticələrini göstərməyə başladı: Azərbaycan idmançıları müxtəlif

beynəlxalq yarışlarda qələbələrə imza atdılar. İlk dəfə olara 1996-cı il Atlanta Olimpiadasına 23 nəfər idmançı ilə qatılan Azərbaycan 197 ölkə arasında 61-ci yeri tutdu [7].

İstər gənclər siyasəti sahəsində, istərsə də bədən tərbiyəsinin təşkili işində qısa müddət içərisində əldə edilən uğurlar, o cümlədən idmanın hüquqi-normativ bazasının yaradılması və maddi təchizatının təmin edilməsi Azərbaycan idmanının dünya idmanına inteqrasiyasını sürətləndirdi. Digər tərəfdən, Azərbaycanın beynəlxalq nüfuzunun artması, "Əsrin müqaviləsi"nin gətirdiyi iqtisadi və siyasi dividendlər, ölkədə iri miqyaslı islahatların başlaması, sosial siyasətdə əldə edilən nailiyyətlər Azərbaycan gəncləri, o cümlədən idmançıları üçün geniş imkanlar yaratmış oldu. 1997-ci ilin iyulunda Milli Olimpiya Komitəsinin Baş Məclisində İlham Əliyevin MOK prezidenti seçilməsi isə Azərbaycan idmanının fəaliyyətində kardinal dəyişikliklər üçün böyük bir dönüş oldu. Ulu öndər Heydər Əliyevin də dediyi kimi, "1997-ci ildən sonra isə Azərbaycanda olimpiya hərəkatı birdən-birə çox böyük vüsət alıb, təbliğ olunub və bu sahədə çox işlər görülübdür" [10, 11].

İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi Azərbaycanda həyata keçirilən gənclər və idman siyasətinin ardıcıl xarakter daşıdığının bariz nümunəsi oldu: İlham Əliyevin həm yüksək intellekti, həm də təşkilatçılıq qabiliyyəti qısa bir müddət ərzində öz yüksək nəticələrini göstərdi. 2000-ci il Sidney Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları fəal iştirak etdilər və böyük uğurlar qazandılar. Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan idmançılarından 31 nəfər 10 idman növü üzrə Olimpiya Oyunlarına vəsiqə qazandı və Azərbaycan ikinci dəfə müstəqil dövlət kimi Oyunlarda iştirak etdi. İlham Əliyevin Komitə prezidenti kimi yüksək təşkilatçılıq qabiliyyəti sayəsində Azərbaycan idmançıları yüksək səviyyədə səfərbər oldular və Azərbaycanın iki idmançısı – Z.Meftahətdinova və N.Abdullayev qızıl medal, V.Ələkbərov bürünc medal qazandılar [12, 28]. 199 ölkənin iştirak etdiyi Sidney Olimpiadasında Azərbaycanın 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutması Azərbaycan idmanının böyük qələbəsi oldu [1].

Ümumilikdə 1999-2002-ci illərdə Azərbaycan idmançılarının qazandıqları medalların ümumi sayı 674 oldu. Onlardan 228-i qızıl, 173-ü gümüş, 273-ü isə bürüncdür. Bu illərdə dünyanın müxtəlif ölkələrində keçirilən 179 beynəlxalq yarışda Azərbaycanın 1200 nəfər idmançısı iştirak edərək, 166 medal, o cümlədən Olimpiya idman növləri üzrə 15 qızıl, 14 gümüş və 21 bürünc medallara sahib oldular [1].

Eyni zamanda bu dövrdə Azərbaycanda da beynəlxalq idman yarışlarının keçirilməsinə başlandı. Belə ki, Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərliyinə İlham Əliyevin gəlməsindən sonra idman sahəsində köklü dəyişikliklər nəticəsində beynəlxalq idman federasiyaları qitə və dünya çempionatlarının Azərbaycanda keçirilməsi ilə bağlı müraciətlər etməyə başladılar. Azərbaycan Milli Olimpiya Komitəsi ölkədə beynəlxalq yarışların əsas təşkilatçılarından birinə çevrildi: 1999-cu ildə boks üzrə yeniyetmələr arasında Avropa çempionatı ilk dəfə Azərbaycanda keçirildi. Həmin yarışda Azərbaycan boksçuları qitənin əksər güclü komandalarını qabaqlayaraq, Rusiyadan sonra 2-ci yeri tutdular [6].

Yeniyetmələr arasında Avropa çempionatının Bakıda yüksək səviyyədə təşkil olunması və keçirilməsi Beynəlxalq Həvəskar Boks Assosiasiyasının diqqətini cəlb etdi və yeniyetmələr arasında boks üzrə ilk dünya birinciliyinin 2001-ci ildə Bakıda keçirilməsi barədə qərar qəbul olundu [7]. Bu yarışda da Azərbaycan idmançıları 2 qızıl, 4 gümüş, 4 bürünc medalla ümumi hesabda Rusiyadan sonra 2-ci nəticə göstərdilər [6].

2002-ci ilin martında isə qadın voleybol komandaları arasında Avropa top-komanda kubokunun final mərhələsinə də Bakı ev sahibliyi etdi. Voleybol üzrə final mərhələsi yarışlarının keçirilməsində Milli Olimpiya Komitəsinin böyük rolu oldu. Buna görə Milli Olimpiya Komitəsinin prezidenti Avropa Voleybol Konfederasiyasının xüsusi mükafatı ilə təltif edildi. 2002-ci ilin mayında yaşlılar arasında sərbəst güləş üzrə 45-ci Avropa çempionatına da Bakı ev sahibliyi etdi [7]. Əgər 1998-2000-ci illərdə Azərbaycanda 3 beynəlxalq turnir və 1 Avropa çempionatı keçirilmişdisə, 2001-2004-cü illərdə ölkədə artıq 3 Olimpiya təsnifat turniri, 4 dünya çempionatı, 3 Avropa çempionatı, Dünya kuboku, Avropa kuboku, 2 dünya kubokunun mərhələ yarışı, Dünya və Avropa çempionatlarının seçmə mərhələ turnirləri, müxtəlif idman növləri üzrə 16 beynəlxalq turnir keçirilmişdir [2; 3].

2000-ci illərin əvvəllərində Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun güclənməsi, hüquqi-dövlət quruculuğu sahəsində əldə edilən böyük uğurlar, gənclərin siyasətə daha ardıcıl şəkildə qatılması bu dəyişikliklərin hüquqi tərəfini tənzimləməyi şərtləndirdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli fərmanı Azərbaycan idmanının tarixində yeni mərhələnin əsasını qoydu. "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında" Prezident Fərmanına görə, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası ləğv edildi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi. Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2001-ci il tarixli 528 saylı fərmanı ilə isə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin əsasnaməsi təsdiq edildi [5, 43].

Gənclər siyasətinin başlıca istiqamətlərindən biri kimi bu illərdə idmanın inkişafında da böyük nailiyyətlər davam etmişdir. Xüsusilə respublikada bədən tərbiyəsinin təşkili və bölgələrdə idmanın maddi-texniki bazasının gücləndirilməsi bu nailiyyətlərin içərisində yer almışdır. 2000-ci illərin ortalarından başlayaraq Olimpiya idman qurğularının coğrafiyası genişlənməyə başlamışdır. Bu dövrdə bəzi bölgələrdə zona prinsipinin nəzərə alınmasına üstünlük verilmişdir. Sonrakı illərdə isə universal böyük idman qurğularının tikilməsinə başlanmışdır [13]. Bundan əlavə, regionlarda müxtəlif idman növləri üzrə kiçik və orta məşq zallarının salınması da 2000-ci illərin ortalarında səciyyəvi olmuşdur ki, bunun da başlıca hədəfi – ölkədə bədən tərbiyəsinin və idmanın kütləviləşdirilməsinin sürətləndirilməsi olmuşdur. 2000-2002-ci illərdə Bakının Maştağa qəsəbəsində, Naxçıvanda, Gəncədə, Şəkidə müasir tipli idman kompleksləri tikilib istifadəyə verilmiş, Bərdə idman kompleksinin tikintisi başa çatdırılmış, Lənkəran və Quba şəhərlərində idman komplekslərinin tikintisi sürətlə davam etdirilmişdi. Şamaxıda bu tipli kompleksin tikintisinə başlanılmışdır [12, 55]. Paytaxt Bakı isə dünyanın müasir tipli beynəlxalq idman oyunlarının keçirilməsi üçün bütün tələblərə cavab verən idman mərkəzlərindən birinə çevrilmişdir.

Heydər Əliyevin gənclər siyasətində fiziki tərbiyə və idman məsələlərinə böyük diqqəti və qayğısı, xüsusi strategiya hazırlayıb həyata keçirməsi, Azərbaycanın hər kateqoriyadan olan gənclərinin sosial və mədəni həyata fəal bir şəkildə qoşulması on il içərisində Azərbaycanın idman nailiyyətlərini təmin etməklə yanaşı, ölkənin beynəlxalq nüfuzunun da yüksəldilməsində böyük rol oynamışdır. 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin bu strategiyanı davam etdirməsi, Azərbaycan Respublikasında gənclərin fiziki tərbiyəsinə və idmanın inkişafına böyük önəm verilməsi, gənclər siyasətinin idmanın inkişafı ilə qarşılıqlı əlaqədə həyata keçirilməsi bu gün respublikanın qloballaşan və inteqrasiya edən müasir dünyada aparıcı yerini müəyyən edən amillərdən olmuşdur.

2020-ci ildə Ali Baş Komandanın rəhbərliyində 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfər gənclərimizin milli ruhda, Azərbaycançılıq ideologiyası ilə tərbiyə olunduğunun bariz nümunəsidir. Bu gün işğaldan azad edilmiş Qarabağda başlayan quruculuq, bərpa və yenidənqurma işləri bu bölgələrdə infrastruktur quruculuğunun, o cümlədən idmanın kütləviləşdirilməsinin daha böyük nailiyyətlərə yol açacağından xəbər verir.

## ƏDƏBİYYAT


1. Abiyev A. Ölkəmizdə idmanın inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır // "Respublika" qəzeti, 10 oktyabr 2008-ci il.
2. Azərbaycan Milli Olimpiya Komitəsinin 10 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi. 11 oktyabr 2002-ci il // https://lib.aliyevheritage.org/az/1544385.html
3. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəsmi səhifəsi – http://www.mys.gov.az
4. Azərbaycan Milli Olimpiya Komitəsinin 10 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. 11 oktyabr 2002-ci il // "Azərbaycan" qəzeti, 12 oktyabr 2002-ci il.
5. Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər). Bakı, Avropa, 2008 – 256 s.

6. Boks Azərbaycanda // http://abf.az/az/azerbaijan-boxing-federation/boxing-azerbaijan
7. Cəfərov E. İdmanın sürətli yüksəliş dövrü // "Azərbaycan" qəzeti, 14 avqust 2011-ci il.
8. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. 4-cü cild. İyun 1995 – noyabr 1995. Bakı, Azərnəşr, 1997 – 488 s.
9. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. 5-ci cild. Noyabr 1995 – mart 1996. Bakı, Azərnəşr, 1998 – 500 s.
10. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. 42-ci cild. Oktyabr 2002 – noyabr 2002. Bakı, Azərnəşr, 2012 – 213 s.
11. İsmayılov K.N. Azərbaycan Respublikasında gənclər siyasəti // Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s. 489-500.
12. On il öncə başlayan yol. Sənədli publisistika. Bakı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəşri, 2007 – 256 s.
13. Rzalı R. Dövlətin idman siyasəti // "Azərbaycan" qəzeti, 15 iyul 2007-ci il.
14. О состоянии и мерах улучшения физического воспитания учащихся общеобразовательных школ республики. Заседание Бюро ЦК КП Азербайджана от 22 октября 1971 г. Протокол №47 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy.58, iş 128.

***Гюнель Мобиль кызы Асланлы***
***Азербайджанский Университет Кооперации***
***старший преподаватель, др.***
***Orcid:0000-0002-4720-0195***

**Гейдар Алиев и развитие спорта в Азербайджанской Республике**

***Резюме***

С возвращением к власти общенационального лидера Гейдара Алиева в Азербайджане возникли огромные перспективы развития во всех сферах жизни республики, в том числе в молодежной политике и организации физического воспитания. Воспитание молодежи на принципах патриотизма и светскости, в духе уважения к истории и культурному наследию азербайджанского народа стало главной целью молодежной политики Общенационального лидера Гейдара Алиева.

Государственную политику, проводимую Общенациональным лидером Гейдаром Алиевым, успешно продолжил его политический преемник, Президент Ильхам Алиев, и с 2000-х годов Азербайджанская Республика сумела стать одним из ведущих государств мира и региона.

***Ключевые слова: Гейдар Алиев, молодежь, спорт, прогресс, политика.***

***Gunel Mobil Aslanli***
***Azerbaijan Cooperation University***
***Senior Lecturer, Dr.***
***Orcid:0000-0002-4720-0195***

**Heydar Aliyev and the development of sports in the Republic of Azerbaijan**

***Summary***

With the return to power of the national leader Heydar Aliyev in Azerbaijan, wide prospects for development have been opened in all areas of the republic's life, including youth policy and the organization of physical education. Education of young people based on the principles of patriotism and secularism, in the spirit of respect for the history and cultural heritage of the Azerbaijani people, has become the main goal of the youth policy of Great Leader Heydar Aliyev.

The state policy implemented by national leader Heydar Aliyev was successfully continued by his political successor, President Ilham Aliyev, and since the 2000s, Azerbaijan Republic has managed to become one of the leading states of the world and the region.

***Key words: Heydar Aliyev, youth, sports, progress, politics.***

**UOT 37**

***Sevinc Akif qızı NƏSİROVA***
***tarix üzrə fəlsəfə doktoru***
***Milli Azərbaycan Tarixi Muzeyi, elmi katib***
***ORCHİD 0000-0001-5375-7283***
***sevinc.akifkizi@gmail.com***

## HEYDƏR ƏLİYEV-AZƏRBAYCAN ELMİ VƏ TƏHSİLİNİN HİMAYƏDARI

*Təhsil millətin gələcəyidir!*
*Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlayır!*
***Heydər Əlirza oğlu Əliyev***

***Xülasə***

Ümummilli lider, dünyaşöhrətli siyasətçi Heydər Əliyev uğurlu xarici və daxili siyasəti ilə yanaşı, elmə, təhsilə və mədəniyyətə olan qayğısı ilə də tarixdə silinməz izlər qoymuşdur. Savadlı kadrların inkişafına xüsusi ilə diqqət yetirən Heydər Əliyev istər ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, istərsə də 1993-2003-cü illərdə təhsil, elm və mədəniyyət müəssisələrinin təchizatı məsələlərinə, dərsliklərin nəşrinə, Azərbaycan təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiyası məsələlərinə xüsusi diqqət ayırmışdır. Ulu öndər nəinki təhsil və elm mərkəzlərinə, eləcə də bu sahədə seçilən xadimlərin işıqlandırılmasına da böyük əhəmiyyət vermişdir. Heydər Əliyevin təhsil və elmin inkişafına olan qayğısını onun prezidentliyi dövründə imzalanmış sərəncamlardan, fərmanlardan da görmək mümkündür. Hər çıxışında xalqın həyatında təhsilin mühüm rolunu vurğulayan Heydər Əliyev məktəbəqədər təhsil müəssisələrindən başlayaraq ali məktəblərə qədər təhsil müəssisələrinin təchizatı, texniki və kadr bazasının möhkəmləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlamışdır.

***Açar sözləri: Heydər Əliyev, təhsil, elm, elm xadimləri, təhsil xadimləri.***

***

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın ictimai-siyasi həyatına fəal dövlət rəhbəri kimi daxil olmuşdur. Azərbaycan tarixinin parlaq simalarından olan bu möhtəşəm insanın keçdiyi həyat yolu, çoxşaxəli və məqsədyönlü fəaliyyəti Azərbaycanın sürətli inkişafına güclü təkan vermiş, ölkəni öz hüdudlarından kənarda tanıtmış, beynəlxalq miqyasda ölkənin nüfuzunu xeyli dərəcədə yüksəltmişdir. Ümummilli lider H.Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi hadisələrin və şəxsiyyətlərin yaşaması üçün öz qayğısını əsirgəməmişdir.

İstər Sovet hakimiyyəti dövründə, istərsə də Azərbaycan Respublikasının prezidenti olduğu illərdə Heydər Əliyevin çoxşaxəli daxili siyasətinin əsas kursunu ölkədə elm və təhsil məsələləri təşkil etmişdir. Bu unikal şəxsiyyət haqlı olaraq xalqın rifahını yalnız təhsildə, təhsilin elmlə birgə inkişafında görürdü. O, yeri gəldikcə nitqlərində müəllimlik peşəsindən, təhsil almağın əhəmiyyətindən, təhsilli gənclərə ehtiyacdan bəhs edirdi. Müəllimlərin məsuliyyətini daha da artıran və onları ruhlandıran bu qayğının nəticəsidir ki, artıq 2000-ci illərdə bir çox azərbaycanlı gənc tanınmış xarici universitetlərdə yüksək nəticələr göstərmiş, beynəlxalq fənn olimpiadalarının qalibi olmağa başlamışlar [1, s.45].

Tariximizi hər vəchlə saxtalaşdıran Sovet hakimiyyəti illərində yerli savadlı kadrların hazırlanmasına böyük əhəmiyyət verən H.Əliyev hələ 1969-1982-ci illərdə təhsil, elm və mədəniyyət sa-

həsində əvəzolunmaz, xalqın gələcək taleyində mühüm rol oynayan dəyərli addımlar atmışdır.

Bu faktı qeyd etmək kifayətdir ki, təkcə 1978-ci-ildə Sovetlər İttifaqının 151 ali məktəbində Azərbaycandan üç mindən çox tələbə oxuyurdu. Doqquzuncu beşillikdə Azərbaycanın ali məktəblərində 80 min nəfərdən çox ali təhsilli, 95 mindən çox orta ixtisas təhsilli mütəxəssis hazırlanmışdı [elektron senedler toplusu s.12]. 1991-ci ildə Sovet imperiyası dağıldıqdan sonra məhz həmin illərdə təhsil almış kadrlar ölkənin rifahı üçün çalışmağa başlamışdır. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəblərində 250-dən çox ixtisas üzrə on beş mindən çox azərbaycanlı gənc təhsil alıb [6, s.33].

Nadir istedad və yüksək dövlətçilik qabiliyyətinə malik H.Əliyev hər iki hakimiyyəti dövründə də ziyalıları, elm və təhsil xadimlərini daima diqqət mərkəzində saxlayırdı. Bunu Az.KP-nin Birinci katibi olduğu zaman görkəmli şərqşünas alim, akademik Z.Bünyadovun M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində mükafatlandırılması və s. kimi faktlar da təsdiqləyir [4, SMF 3076].

Haşiyədən kənara çıxaraq qeyd etmək yerinə düşərdi ki, Azərbaycan tarixinə və elminə olan sevgi H.Əliyevi hələ 1940-cı ildə Tarix Muzeyinə (hazırda Milli Azərbaycan Tarixi Muzeyi-S.Nəsirova) ekskursiyaçı kimi işləmək üçün ərizə verməyə sövq etmişdir. Belə ki, yarandığı ilk dövrlərdən etibarən Milli Azərbaycan Tarixi Muzeyi yalnız mədəni mərkəz kimi deyil, o cümlədən elmi tədqiqat mərkəzi kimi də fəaliyyət göstərirdi. Uzaqgörən dövlət xadimi kimi H.Əliyev tarixin əyani nümayişi mərkəzi kimi muzeylərin təhsilə, uşaqlarda vətənpərvərlik hisslərinə təsirini hələ gənclik illərində anlayırdı. Hazırda Ümummilli liderin əlyazma şəklində bu ərizəsi, tərcümeyi-halı, kadrların uçotu vərəqəsi muzeydə mühafizə olunur [5, SMF 1684, SMF 1685, SMF 1686]. Bu il açılacaq yeni ekspozisiyada bu sənədlər artıq ictimaiyyət üçün də nümayiş olunacaq.

Müasir dövrün dühası Heydər Əliyev 1993-cü ildə ölkəyə rəhbərlik etdiyi zamandan etibarən də Azərbaycan elminin inkişafı üçün bütün qüvvələri səfərbər etmişdir. Məhz bunun sayəsində Azərbaycan mədəniyyəti, elmi və digər sahələr sürətlə inkişaf etmiş və 1990-cı illərin əvvəllərində yaşanan siyasi böhrandan asanlıqla çıxa bilmişdir. Savadlı gənclərin yetişdirilməsi üçün Azərbaycan gəncləri xarici ölkələrdə dövlət hesabına ali təhsil almağa göndərilmiş və yerli təhsil olcaqları müasir avadanlıqlarla təchiz olunmağa başlamışdır. 1993-cü ildən 2002-ci ilədək Ali Attestasiya Komitəsi tərəfindən 300 nəfərə elmlər doktoru, 2119 nəfərə elmlər namizədi alimlik dərəcəsi verilmişdir [6, s.32].

Azərbaycanda elm və təhsilin inkişafında ən ümdə addımlardan biri də Azərbaycan dili ilə bağlı verilmiş qanunlar və onlardan irəli gələn tədbirlər idi. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyun tarixli fərmanı, 30 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2 yanvar 2003-cü il tarixli fərmanından irəli gələn vəzifələrdə Heydər Əliyevin mənəvi dəyərlərimizə münasibəti açıq ifadə edilmişdir [3, s.7]. Bu qanunlardan sonra vaxtilə əsasən rus dilində nəşr edilmiş bir çox dərslik və dərs vəsaiti, elmi nəşrlər Azərbaycan dilinə tərcümə olunmuş, beləliklə elmi ədəbiyyat daha əlçatan olmuşdur. Bu, Ulu öndərin Azərbaycan xalqı üçün misilsiz xidmətlərindən sadəcə biri idi.

Çoxşaxəli elmi biliklərə malik bu unikal insan elmi kadrların yetişdirilməsinə, universitetlərin təchizatına hədsiz dərəcədə əhəmiyyət vermişdir.

H.Əliyev dünyanın müxtəlif universitetləri tərəfindən fəxri elmi adlara layiq görülmüşdür. Bunlar sırasında dünyanın 30-a qədər nüfuzlu universitetlərinin adlarını çəkmək olar. Misal olaraq, Ankara Hacettepe Universiteti, Tbilisi Dövlət Universiteti və digər universitetlərini adlarını çəkə bilərik [2, s.16-17].

Bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə Azərbaycanın elm məbədi sayılan Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində olan müxtəlif muzeylərin bərpa, təmir və müasir avadanlıqla təchizatı təqdirəlayiqdir (qeyd edək ki, 2022-ci ildən etibarən bu muzeylər Mədəniyyət Nazirliyinə tabedir). Məhz bu siyasətin davamıdır ki, cənab Prezident İlham Əliyev 2004-cü ildə Milli Azərbaycan Tarixi Muzeyinin binasının əsaslı bərpa və təmiri ilə bağlı fərman vermiş, 2004 və 2009-cu illərdə

Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin təmir və rekonstruksiyası ilə bağlı sərəncam imzalamışdır [3, s. 7]. Cənab Prezident bu kimi addımlarla həm Azərbaycanda turizmin inkişafına, həm xarici ziyarətçilərin ölkəmizin qədim tarixi haqqında məlumatlanmasına, həm xalqın zəngin sərvətinin itib-batmadan gələcək nəsillərə çatdırılmasına, ən əsası isə Azərbaycan elmi və tədqiqatçılar üçün əvəzolunmaz şərait yaradılmasına nail olmuşdur [3, s. 7]. Azərbaycan mədəniyyəti, elmi və təhsilinin inkişafı ilə bağlı görülən belə işlərin ardı-arası kəsilmir. Azərbaycan gəncliyi bu gün həm Heydər Əliyevin xatirəsini əziz tutaraq, həm də onun Azərbaycan gəncliyinə olan etimadını doğrultmaq üçün ölkədə elmin inkişafı, Azərbaycan adının daim yüksəklərdən gəlməsi üçün əlindən gələni etməli və ölkənin rifahı üçün çalışmalıdırlar. Bu gün Azərbaycan gəncliyi, gənc alimləri və mütəxəssisləri əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən uğurlu siyasəti dəstəkləyir və ölkənin yüksələn xətlə inkişaf etməsi ilə fəxr edirlər!

## ƏDƏBİYYAT


1. Adıgözəlov Z., Mustafayev İ. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, 2003.
2. Heydər Əliyev. Azərbaycan Respublikası Prezidentinin kitabxanası. Elektron sənədlər toplusu. s.12.
3. Nəsirova S. Ulu öndər Heydər Əliyev dühası və Azərbaycan mədəniyyətinin inkişafı. “Elm” qəzeti (xüsusi buraxılış). Bakı, 2021.
4. Şəkil 1. Milli Azərbaycan Tarixi Muzeyi Sənədli mənbələr fondu SMF 3076. Heydər Əliyev və Ziya Bünyadov.
5. Şəkil 2,3. Milli Azərbaycan Tarixi Muzeyi Sənədli mənbələr fondu 1584, 1585, 1586. Ərizə Tarix Muzeyində ekskursiyaçı işləmək üçün yazılmışdır. Digər iki sənəd isə tərcümeyi-hal və kadrların uçotu vərəqəsidir.
6. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə, 2010.



***Севиндж Акиф кызы Насирова***
***доктор философии по истории,***
***Национальный Музей Истории***
***Азербайджана, ученый секретарь***
***ORCHİD 0000-0001-5375-7283***
***sevinc.akifkizi@gmail.com***


## Гейдар Алиев-покровитель Азербайджанской науки и образования


***Резюме***

Общенациональный лидер, всемирно известный политик Гейдар Алиев оставил неизгладимый след в истории успешной внешней политикой, а также своей заботой науке, образовании и культуре. Г. Алиев, будь то в 1969-1982 гг. или в 1993-2003 гг., когда он руководил страной, уделял особое внимание вопросам снабжения учебных, научных и культурных учреждений, издание учебников и интеграции азербайджанской системы образования в международную систему образования. Великий лидер придавал большое значение не только образовательным и научным центрам, но и освещению выдающихся деятелей в этой области. О заботе Гейдара Алиева о развитии образования и науки свидетельствуют распоряжения и указы, подписанные в период его президентства. Подчёркивая в каждом выступлении важную роль образования в жизни нации, Гейдар Алиев всегда акцентировал внимание на вопросах обеспечения учебных заведений, технической и кадровой базой, от дошкольных учебных заведений до высших учебных заведений.



***Ключевые слова: Гейдар Алиев, образование, наука, ученые, деятели науки.***

*Sevinj Akif Nasirova*
*Dr., The National Museum of History*
*of Azerbaijan, scientific secretary*
*ORCHİD 0000-0001-5375-7283*
*sevinc.akifkizi@gmail.com*

**Heydar Aliyev- protector of Azerbaijan science and education**

***Summary***

National leader, world-renowned politician Heydar Aliyev left an indelible mark in history with his successful foreign policy, as well as his concern for science, education and culture. Heydar Aliyev, who paid special attention to the issues of supplying educational, scientific and cultural institutions, the publication of books, and the integration of the Azerbaijani education system into the international education system, also paid special attention to the development of scientific personel, whether in the years 1969-1982 or in 1993-2003, when he led the country. The great leader attached importance not only to education and science centers, but also to the illumination of distinguished figures in this field. Heydar Aliyev's concern for the development of education and science can be seen from the orders and decrees signed during his presidency. Emphasizing the important role of education in the life of a nation in every speech, Heydar Aliyev always focused on the issues of supplying educational institutions, technical and personnel base, from pre-school educational institutions to higher schools.

***Key words: Heydar Aliyev, education, science, scientists, science figures.***

**UOT 37**

*Nizami Əjdər oğlu MƏMMƏDOV*
*Azərbaycan Kooperasiya Universiteti*
*"Humanitar fənlər" kafedrası, baş müəllim*
*nizamimemmedov028@gmail.com*
*Orcid: 0000-0002-7830-1298*

**HEYDƏR ƏLİYEVİN TƏHSİLİN İNKİŞAFINA QAYĞISI**

***Xülasə***

Məqalədə H.Əliyevin təhsil strategiyasının kökündə fundamental və tarixi əhəmiyyətli məqsədlərin hədəflənməsi göstərilir. Eyni zamanda, H.Əliyevin təhsil sahəsində siyasətinin əsas istiqamətləri diqqətə çatdırılır. Sənayenin müxtəlif sahələri üzrə gənc kadrların SSRİ-nin ali təhsil müəssisələrində oxumağa göndərilməsi, ali məktəblərin sayının artırılması kimi uğurlu işlərin nəticələrinin müstəqilliyin bərpasından sonrakı dövrdə də əhəmiyyəti qeyd olunur. Müstəqil dövlət quruculuğunda Heydər Əliyevin milli təhsil siyasəti və müasir dövrün tələbləri konsepsiyası açıqlanır.

***Açar sözlər: Təhsildə Heydər Əliyev fenomeni; təhsil siyasəti, pedaqoji kadr hazırlığı, Azərbaycan təhsilinin beynəlxalq əlaqələri.***

***

Xalqın, cəmiyyətin inkişafının meyarı təhsildən asılıdır. Sivilizasiyanın məhək daşı elm və təhsillə ölçülür. Təhsil müxtəlif məktəb pillələrində millətin maariflənməsində əsas istiqamətverici rol oynayır. Azərbaycan tarixində görkəmli şəxsiyyətlər və maarifçilər xalqın, cəmiyyətin tərəqqisində təhsilin, məktəbin təşəkkülünə diqqət yetirmişlər. İslam peyğəmbəri Məhəmməd (ə.s.) özünü müəllim adlandırmış, Nizami Gəncəvi müəllimi günəşə, Cəlaləddin Rumi müəllimi yanar şama, dahi Məhəmməd Fizuli müəllimi gənc qəlbin memarına bənzətmişdir, filosof-şair Hüseyn Cavid müəllimlik sənətinə belə dəyər vermişdir:

*Bəxtiyarsan əgər çəkdiyin əmək,*
*Versə cahan süfrəsinə bir çiçək.*

Türk Dünyasının fəxri, Azərbaycan xalqının oğlu, dahi dövlət xadimi Heydər Əliyevin müəllimlik peşəsinə qoyduğu hörmət bu fikirdən aydın bilinir: “Mən Yer üzündə müəllim adından yüksək bir ad tanımıram”. O, xalqın maariflənməsində, şəxsiyyətin yetişdirilməsində təhsilin hakim rol oynadığını dərindən dərk edirdi. Bu sahədə optimal nəticə əldə etmək üçün tədbirlər planı həyata keçirdi. Təhsilimizin 1970-1982-ci illər mərhələsi yeniləşmə, canlanma adı ilə tarixə düşüb. Məhz bu dövrdə orta, orta ixtisas və ali məktəblərdə sistemli dəyişikliklər baş vermişdir. Təhsil siyasətinin məzmununu tədris sahəsində milli kadrlarla milliləşdirmək, respublika üzrə məktəb binalarının inşası, müəllim nüfuzunun yüksəldilməsi, təyinat sistemini kütləviləşdirmək, məktəb yaşlı uşaqların təhsilə cəlb olunması, institutların sayını artıraraq gənclərin ali təhsil almalarına şərait yaratmaq, onların maddi-texniki bazasının gücləndirilməsi təşkil edirdi.

1969-cu il sentyabrın 1-də respublikada 120 orta məktəb açıldı. Onların bir qismi yeni tikilmiş, bir qismi isə səkkizillik məktəbdən orta məktəbə çevrilmişdi. Beləliklə, H.Əliyev hakimiyyətə gəldikdən az sonra Azərbaycanda olan orta məktəblərin ümumi sayı 1130-a çatdırıldı. Həmin il sentyabrın 1-də 1 mln. 130 min şagird dərsə başladı. Bu da 1968-ci illə müqayisədə 70 min nəfər çox idi [1].

1974-cü ildə respublikanın orta məktəblərini 103 min nəfərədək oğlan və qız bitirdi. Bu da 1973-cü illə müqayisədə 13 min nəfər çox idi. Həmin ildə respublikada fəaliyyət göstərən 1540 orta və 1890 səkkizillik məktəbdə 1 mln. 500 min şagird təhsil alırdı [2].

Azərbaycan SSR müəllimlərinin 18-19 may 1978-ci il tarixlərində Bakıda keçirilən IX qurultayı Sov.İKP MK-nın Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin geniş nitqi ilə açılıb. Azərbaycanda müvafiq qərarla bağlı görülən işlər və vəzifələr nitqdə şərhini tapıb. “Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında” partiya və hökumət qərarında əksini tapmış vəzifələrlə bağlı geniş məruzə dinlənilib. [3]

1978-ci ildə ali və orta ixtisas məktəblərini 37262 nəfər bitirdi, ali məktəblərə 20750, orta ixtisas məktəblərinə isə 25805 nəfər qəbul edildi. Bu da 1977-ci ildəkindən 1180 nəfər çox idi. [4]

Bu dövrdə pedaqoji kadrların hazırlığına, ali təhsilli müəllimlərin sayının artırılmasına və kənd məktəblərinin ixtisas üzrə fənn müəllimləri ilə təmin edilməsinə xüsusi əhəmiyyət verilirdi. Bu da kənd yerlərində müəllimlik peşəsinə marağın artmasında, müxtəlif fənlərin dərindən mənimsənilməsində böyük əhəmiyyət kəsb etdi. Beləliklə, bu yeniliklər Azərbaycan kəndində elmə, təhsilə verilən xüsusi qiymətlə səciyyələndi.

Tarixçi-professor M.Qasımlı öz tədqiqat əsərində 1969-1982-ci illər ərzində Heydər Əliyevin elm və təhsilin inkişafına qayğısını elmi araşdırma şəklində təhlil etmişdir. Müəllif dövrün arxiv materialları və KİV-lərində əks olunan statistik göstəricilər və məlumatlar əsasında məntiqi mühakimələr irəli sürür. Xüsusilə müəyyən ixtisaslar üzrə kadr çatışmazlığı problemini həll etmək üçün Heydər Əliyevin gənclərin Moskva, Leninqrad, Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə alması xüsusi qeyd olunmalıdır. Tarixçi-alim yazır: “... 1972-1973-cü illərdə azərbaycanlılar bu məktəblərdə oxumağa çox az gedirdilər. Belə vəziyyətin dərhal aradan qaldırılması tələb olunurdu. Qeyd etmək lazımdır ki, bu istiqamətdə H.Əliyevin aydın və konkret məqsədlər güdən fəaliyyət proqramı var idi. O, qabaqcıl dünya elminə çıxışı sovet sistemi şəraitində azərbaycanlı gənclərin ölkənin nüfuzlu ali məktəblərində mükəmməl təhsil almalarında görür, bu sahədə onlar üçün hər cür şərait yaradırdı. H.Əliyev ölkənin ali məktəblərində müsabiqədənkənar oxumağa gedən gənclərin sayının ildən-ilə artırılmasına Moskvadan böyük inadkarlıqla icazə alır, onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, bu gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Azərbaycanlı gənclər qabaqcıl ali məktəblərdə təkcə elmlərə yiyələnmir, eyni zamanda yaşadıqları şəhərin bir çox tarix, mədəniyyət abidələri ilə tanış olur, xarici dövlətlərdən oxumağa gələn tələbələrlə əlaqələr qurur və respublikanı uğurla təmsil edirdilər” [5, s.69].

H.Əliyev Azərbaycan təhsilinin beynəlxalq əlaqələrin qurulmasına və respublikanın xarici ölkələr, o cümlədən Şərq ölkələri üçün mütəxəssis hazırlayan mərkəzlərdən birinə çevrilməsinə nail olurdu. Onun səyləri nəticəsində Asiya, Afrika, Latın Amerikası, Avropanın müxtəlif ölkələrindən gənclər Azərbaycan ali məktəblərində təhsil almaq üçün gəlirdilər.

H.Əliyev azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində təcrübə keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına nail olurdu. Azərbaycanlı tələbələr ADR, Polşa, Çexoslovakiya, Macarıstan və Yuqoslaviyaya təhsil almağa göndərilmişdi. O, eyni zamanda, gənclərin SSRİ-nin müxtəlif şəhərlərində ən nüfüzlu ali məktəblərdə təhsil almalarına çalışırdı. Azərbaycan üçün yeni olan ixtisaslar üzrə mütəxəssis hazırlayan ali məktəblərə daxil olmaq isə çətin idi. Odur ki, H.Əliyev gənclərin müxtəlif, ilk öncə Moskva, Leninqrad, Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə almağa başladı. Müxtəlif məktəblərə oxumağa göndərilən gənclərin sayı artırıldı.

20-ci əsrin 70-80-ci illərində qabaqcıl məktəblərdə təhsil almış gənclər Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdə müxtəlif sahələrdə dövlətə və xalqa xidmət etdilər. Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyinin ikinci dövründə təhsilimiz müstəqil dövlət quruculuğu prosesində inkişaf edirdi. O, təhsil strategiyasını müasir dövrün tələblərinə və standartlarına uyğun formada qurdu. Heydər Əliyev bu kontekstdə təhsil siyasətini həyata keçirmək üçün imzaladığı fərman və sərəncamlarla hüquqi baza yaratmışdır. Məsələn, 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı.

2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Bununla yanaşı, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək buraya 12 minə yaxın şagird cəlb olundu.

Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir yazının mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin ana dili kimi təsbit edilməsi, o illərdə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" 2002-ci il 4 oktyabr tarixli, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" 2003-cü il 17 fevral tarixli sərəncamlar ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb, mövcud problemlərin aradan qaldırılması yönümündə mühüm addımlar oldu. [6]

Ümummilli lider Heydər Əliyevin əsas xidməti ondan ibarətdir ki, milli təhsil və tərbiyə konsepsiyasını gənc nəslin şəxsiyyətyönümlü vətəndaş və vətənpərvərlik ruhunda böyüməsində əsas götürürdü. Bu konsepsiyanın kökü isə ənənəvi milli xəttin dövlət siyasətinə çevrilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin irsində müəllimlik peşəsinin yüksək yerdə durduğunu Azərbaycan müəllimlərinin I qurultayındakı nitqində bu fikir göstərir: "Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz… mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim. … Pedaqoji Texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxtdan dərs vermək təcrübəm olubdur…"[1].

## ƏDƏBİYYAT


1. Azərbaycan məktəbi yubiley ilində. Azərbaycan SSR maarif naziri M.M.Mehdizadə ilə müsahibə // «Kommunist» qəzeti, 1969, 22 avqust, №196 (14192).
2. Mehdizadə. M. Xalq maarifinin yeni tərəqqisi uğrunda. - «Kommunist» qəzeti, 1974, 1 sentyabr, № 205 (15725).
3. https://www.muallim.edu.az/www.old/arxiv/2013/38/30.htm
4. 1975-ci ildə Azərbaycan SSR Xalq Təsərrüfatının inkişafına dair Dövlət planı haqqında // «Kommunist» qəzeti, 1974, 28 dekabr, № 303 (15823).
5. M.Qasımlı. "Heydər Əliyev-İstiqlala gedən yol 1969-1987 ci illər". Bakı, 2006, 608 səh.
6. https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_Heyder_Aliyevin_tarixi_xidmetleri-2341676
7. Heydər Əliyev. Azərbaycan Müəllimlərinin I Qurultayındakı nitqi. 26 sentyabr, 1998-ci il. "Azərbaycan" qəz. 27 sentyabr, 1998.



***Низами Аждар оглу Мамедов***
***Азербайджанский Университет Кооперации***
***кафедра "Гуманитарных наук"***
***старший преподаватель***
***nizamimemmedov028@gmail.com***
***Orcid: 0000-0002-7830-1298***


## Забота Гейдара Алиева о развитии образования


***Резюме***

В статье указывается, что в основе образовательной стратегии Г. Алиева лежат фундаментальные и исторически значимые цели. При этом вниманию представляются основные направления политики Г.Алиева в сфере образования. Отмечена важность, которую имели и в период восстановления Независимости такие успешные дела Общенационального лидера, как направление молодых кадров различных отраслей промышленности на обучение в высшие учебные заведения СССР, увеличение числа высших учебных заведений и т.д.. Концепция национальной образовательной политики Гейдара Алиева и требования современной эпохи раскрываются в построении независимого государства.



***Ключевые слова: Феномен Гейдара Алиева в образовании; образовательная политика, подготовка педагогических кадров, международные связи Азербайджанского образования.***

*Nizami Ajdar Mammadov*
*Azerbaijan University of Cooperation*
*Department of "Humanities" Senior Lecturer*
*nizamimemmedov028@gmail.com*
*Orcid: 0000-0002-7830-1298*

**Heydar Aliyev's care for the development of education**

***Summary***

The article shows the targeting of fundamental and historically significant goals at the root of H. Aliyev's educational strategy. The main directions of H. Aliyev's policy in the field of education are carefully conveyed simultaneously. The importance of successful works such as sending young personnel in various fields of industry to study in higher educational institutions of the USSR, increasing the number of higher schools in the period after the restoration of independence of results is noted as well. The concept of Heydar Aliyev's national education policy and the requirements of the modern era is explained in the independent state building.

***Keywords: Heydar Aliyev phenomenon in education; educational policy, pedagogical personnel training, international relations of Azerbaijani education.***

**UOT 33.342**

*Xəyalə Nazim qızı RZAYEVA*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*"Kompüter elmləri kafedrasının" müəllimi, doktorant*

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN UĞURLU İNKİŞAFININ BANİSİDİR

***Xülasə***

Heydər Əliyev insanların vətənpərvərliyə, cəsarətliliyə, əzmkarlığa, təşəbbüskarlığa, məsuliyyətliliyə, bütövlükdə Azərbaycan cəmiyyətini sərbəst idrak və düşüncə bazasına, müstəqil dövlətçilik mərhələsinə hazırlayırdı. Heydər Əliyev cəmiyyətin inkişafı naminə xidmət göstərməyi, yeni ictimai əxlaq norması kimi qiymətləndirirdi: "Yeni ictimai əxlaqın bərqərar olması bizim çox böyük nailiyyətimizdir. Cəmiyyətin həyatında mənəvi amillərin rolunun daha da güclənməsi irəliyə doğru hərəkətimizi sürətləndirir. Cəmiyyətimizin mənəvi yüksəlişi təcrübəsinin çox böyük əhəmiyyəti vardır". Heydər Əliyev göstərirdi ki, mənəvi tərbiyə amili şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərə malik olması ilə sıx bağlıdır.

***Açar sözlər: Ulu öndərimiz, mənəvi irsində, tarixi sima, dövlət qurucusu, mənəvi dəyərlərimiz, müstəqil dövlətçilik.***

***

*"Biz əyani şəkildə görürük ki, Heydər Əliyevin timsalında şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev dühası, Heydər Əliyev şəxsiyyəti Azərbaycanın bugünkü uğurlu inkişafının təməlində dayanan bir amildir".*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Ümummilli lider Heydər Əliyev haqqında Azərbaycan Respublikasının I Vitse-prezidenti Mehriban Əliyeva demişdir: Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır.

31 Dekabr–Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində demişdir: "Mən 2022-ci ili "Şuşa İli" elan etmişdim. Biz Şuşanın 270 illiyini çox geniş və böyük təntənə ilə qeyd etdik. 2023-cü il isə "Heydər

Əliyev İli” elan edilib. Ulu öndərin 100 illik yubileyini bu il biz qeyd edəcəyik. Ən böyük hörmətimiz Heydər Əliyevin xatirəsinə, onun yoluna sədaqətimizdir. Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb və bu yolla gedirik”.

Azərbaycan dövlətçiliyini, xalqımızın azadlığı və müstəqilliyini əbədiyyətədək yaşatmaq üçün Heydər Əliyev irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi sərvətlər xəzinəsidir. Yurdumuzun hər bir vətəndaşının, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın bu nadir xəzinəyə yiyələnməsi, Heydər Əliyevin zəngin dövlət idarəçiliyi təcrübəsini, bu dahi şəxsiyyətin öz həyatının ən ağır anlarında belə doğma xalqına necə misilsiz sədaqətlə, cəsarətlə, vurğunluqla xidmət etməsini öyrənməsi Azərbaycanın parlaq gələcəyi deməkdir! [5, s. 7]

Tariximizdə özünəməxsus yer tutan Heydər Əliyev nadir tarixi simalardandır ki, XX əsrin sonunda xalqımızın əldə etdiyi nailiyyətlər bu görkəmli dövlət xadiminin məhz şərəfli adı ilə bağlıdır. Heydər Əliyevin zəngin irsi vətəni, xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərə görə dünyanın ən qüdrətli siyasətçiləri ilə bir sırada dayanan bütöv bir idarəçilik məktəbini yaratmışdır. Xalqımızın dövlətçilik və azərbaycançılıq şüurunu, çağdaş ictimai-siyasi fikrin ən üstün keyfiyyətlərini özündə ehtiva edir. Ulu öndərin xidmətləri sayəsində xalqımız siyasi və iqtisadi müstəqilliyinin möhkəm təməlini yaratmışdır. Bu müstəqil dövləti qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bilmişdir. Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nümunəsi, bugünkü qüdrətli Azərbaycandır.

Ulu öndərimizin bütün həyatı və fəaliyyəti müddətində ünsiyyət qurduğumuz dilimiz, ibadət etdiyimiz dinimiz, milli adət - ənənələrimiz, tarixi keçmişimiz yüksək formada təbliğ edilmişdir. Bunlar mənəvi dəyərlərimizin mühüm komponentləri olaraq göstərilmişdir. Heydər Əliyev bu dəyərlərin xalqımızın uzaq keçmişindən bu günümüzə qədər gəlib çıxmış olan mənəvi tərbiyə sahəsindəki əlamətlərini belə qeyd edirdi: “Hər bir xalqın özünə məxsus öz milli - mənəvi və dini dəyərləri və adət - ənənəsi, vardır. Biz adət - ənənələrimizlə və milli - mənəvi dəyərlərimizlə fəxr edirik. Bizim xalqımız əsrlərlə milli - mənəvi dəyərlərimizi, min illərlə adət - ənənələrimizi yaradırlar. Bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir” [4, s. 188].

Ulu öndərin həyat və fəaliyyətində və mənəvi irsində ləyaqət məsələsi mühüm yer tutur. Ləyaqətlilik anlamı mənəvi tərbiyə sahəsinin əsasını təşkil edir. Çünki insanın bir şəxsiyyət olaraq cəmiyyətdə önəmli fəaliyyəti buradan keçir. Bu səbəbdən Heydər Əliyev: “Həyatın mənasını bu həyatda öz yerini, mövqeyini müəyyən edərək, ləyaqət göstərməkdə və başqaları üçün nümunə olmaqda” [1, s. 94] görürdü.

Heydər Əliyev mənəvi tərbiyənin cəmiyyət həyatındakı rolu barədə hələ Sovet hakimiyyətinin sərt ideoloji təbliğatı dövründə bəhs edərək Azərbaycan cəmiyyətini mənəvi və psixoloji cəhətdən ümummilli mənafelərə xidmət göstərməyə hazırlayırdı. İnsanları vətənpərvərliyə, cəsarətliliyə, əzmkarlığa, təşəbbüskarlığa, məsuliyyətliliyə hazırlayırdı. Heydər Əliyev bütövlükdə Azərbaycan cəmiyyətini sərbəst idrak və düşüncə bazasına, müstəqil dövlətçilik mərhələsinə hazırlayırdı. Heydər Əliyev cəmiyyətin naminə xidmət göstərməyi yeni ictimai əxlaq norması kimi qiymətləndirərək göstərirdi: “Yeni ictimai əxlaqın bərqərar olması bizim çox böyük nailiyyətimizdir. Cəmiyyətin həyatında mənəvi amillərin rolunun daha da güclənməsi irəliyə doğru hərəkətimizi sürətləndirir. Cəmiyyətimizin mənəvi yüksəlişi təcrübəsinin çox böyük əhəmiyyəti vardır”. Heydər Əliyev göstərirdi ki, mənəvi tərbiyə amili şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərə malik olması ilə sıx bağlıdır. [7, s. 52]

Şəxsiyyətin yüksək əxlaqi normalara malik olması onda vətənpərvərlik hissi yaradılmasının başlıca amilidir. Eləcə də yüksək əxlaqa malik olan şəxsiyyətdə milli-mənəvi keyfiyyətlər bütün parlaqlığı ilə təcəssüm edir. Yüksək əxlaq cəmiyyətdə humanist münsibətlərin formalaşmasına zəmin yaradır. Şəxsiyyətin yüksək əxlaqı cəmiyyət həyatında öz bəhrələrini verdikcə onun nüfuzu artır. Ümumbəşəri ideyaların cəmiyyət həyatında bərqərar olunması üçün yüksək əxlaqi normalara yiyələnməyin əhəmiyyəti çox böyükdür. Şübhəsiz, müstəqil dövlət qurucularında yüksək əxlaqın və ümumbəşəri ideyaların təcəssüm tapması ümumdünya kontekstində cəmiyyətin rolunu açıq-aydın göstərən vacib bir amil sayılmalıdır. Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyini Heydər Əliyev görürdü və müstəqil dövlətçilik zəminində şəxsiyyətin yüksək əxlaqi normalara yiyələnməsini zəruri hesab edirdi. Bu münasibətlə Heydər Əliyev göstərirdi ki, “Şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərinin formalaşması, onun hərtərəfli və ahəngdar inkişafının çox mühüm

bir cəhətidir. Tərk edilmiş və insanların davranışında öz təcəssümünü tapmış əxlaq prinsipləri onları yüksəldir, həyatı dərin ictimai məna ilə zənginləşdirir. Bizim mənəviyyatımız ictimai mənafe ilə şəxsi mənaleyi qırılmaz tellərlə bir-birinə bağlayır, insana xalqın səadəti uğrunda mübarizədə fəal mövqe tutmaqda kömək göstərir". Eyni zamanda Heydər Əliyev, mənəvi tərbiyəni ideoloji işin bir tərkib hissəsi hesab edir. Mənəvi tərbiyə Heydər Əliyev təlimində ictimai şüurun milli şüura çevrilməsinin bazası hesab edilir. Milli şüurun formalaşması isə milli ideologiya yaranmasının bazasını təşkil edir. Buradan belə bir məntiqi nəticə meydana çıxır ki, milli şüura, milli ideologiyaya yiyələnmək üçün mənəvi tərbiyə aparıcı yer tutur. [7, s. 53]

Heydər Əliyevin mənəvi irsində tarixi ədalətsizliyin aradan qaldırılmasına yönələn və Sovet imperiyasının aftoritar ideologiyasının və tələbinin hökm etdiyi bir mərhələdə - XX əsrin 30 - cu illərində repressiya qurbanı olmuş dəyərli dramaturq Hüseyn Cavidin cənazəsinini vətənimizə gətirilməsi tarixi şəxsiyyətlərə verilən qiymət baxımından fövqəladə bir hadisə idi. Heydər Əliyev cəsarəti və qətiyyəti nəticəsində 1982 - ci il oktyabr ayının 26 - da dramaturqun cənazəsin Uzaq Sibirdən Respublikamıza gətirdi, 1996 - cı il oktyabr ayının 29 - da doğulduğu Naxçıvan şəhərində onun məqbərəsinin açılışını etdi. Heydər Əliyev həmin məqbərənin açılışında söylədiyi nitqində göstərirdi: "1982 - ci ildə Hüseyn Cavidin cənazəsini Uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi və bu böyük iradə, cəsarət tələb edirdi. Amma xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim" [3, s. 148].

Ulu öndər öz çıxışlarında hər bir vətəndaş üçün onun milli mənsubiyyətinin onun qürur mənbəyi olduğunu bildirirdi. Onun Dünya Azərbaycanlılarının birinci qurultayında səsləndirdiyi kimi: " Milli mənsubiyyət, hər bir insan üçün qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" [2, s. 185] - fikri milli mənsubiyyətə hörmət hissinin formalaşdırılmasında gənclərdə devizə çevrilmişdir.

Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamış, bundan sonra 20-dən çox neft sazişinin ərsəyə gətirmişdir, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əfsanədən reallığa çevrilməsinə nail olmuşdur. Bütün dünyanın diqqətini Azərbaycana cəlb edə bilmişdir.

Uca dağların əzəməti uzaqlardan daha aydın göründüyü kimi, adını tarixə həkk etdirmiş şəxsiyyətlərin də böyüklüyü, əlçatmazlığı qəbul edilir. Onların cismani yoxluğundan müəyyən vaxt keçdikdən sonra, ideyalarının, əməllərinin təntənəsini zaman təsdiqlədikcə üzə çıxır və hamı tərəfindən bilinir. Artıq əfsanələşmiş tarixi şəxsiyyətlər və dünya miqyasında tanınan müdrik insanlar çox olub. Onların da bir çoxu əsrlər, minilliklər bundan əvvəl yaşadıqları üçün bu gün bilmək olmur ki, həmin şəxsiyyətlər həqiqətənmi bu qabiliyyətlərin sahibi olmuşlar, yoxsa insanların arzularının, ideallarının "məhsulu" kimi xəyali qəhrəman qismində, bəzək-düzəklə təqdim edilirlər. Heydər Əliyev isə bizim müasirimiz olmuşdur. Onun dahiliyi, əlçatmazlığı hələ özünün sağlığında dünyanın böyük siyasətçiləri, dövlət xadimləri, müdrik insanları tərəfindən etiraf olunmuşdur. Onlardan bəzilərini, yeri gəlmişkən, yada salaq: YUNESKO-nun sabiq direktoru Federiko Mayor ümummilli liderimizi bir dəfə belə təqdim etdi: "Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli liderdir".

Xalq məfkurəsinin qaynaqlarından bəhrələnən, Heydər Əliyev intellekti daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir. [6, s. 26]

Özünün görkəmli şəxsiyyətlərini hər tarixi inkişaf dövrü yaradır. Amma elə insanlar da var ki, onlar zamanın fövqünə yüksəlirlər. Özləri öz dövrünü yaradırlar. Öz dövrünü Heydər Əliyev özü yaratmışdır və bu dövr hələ davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "1993–2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Xarici əlaqələrimiz bütün ölkələrlə qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur. Bu gün də bu belədir. 1993-cü ildən başlanmış və bu günə qədər davam edən siyasi və iqtisadi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda məhz o illərdə güclü sosial siyasətin əsasları da qoyulubdur. Ona görə, Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır. Onlar tarixi əhəmiyyət kəsb edir".

Ümummilli liderimizin Azərbaycan qarşısında xidmətlərindən biri də öz siyasi varisi İlham Əliyevi ərsəyə çatdıraraq müstəqil dövlətimizin rəhbəri hazırlamasıdır. Cəmiyyətin və dövlətin davamlı inkişafı üçün bu gün dövlətimizə Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərlik etməsi həyati əhəmiyyət daşıyan məsuliyyətli və səriştəli idarəçilik amilini təmin edir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
2. Əliyev H.Ə. Dünya Azərbaycanlılarının I Qurultayında nitqi // Dirçəliş XXI əsr, 2003, № 70, s. 176-186
3. Heydər Əliyev mədəni irsimizin keşiyində: I c, Bakı: 2001, 438 s.
4. Xəlilov S.S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan Universiteti, 2002, 232 s.
5. Mahmudlu Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, «Təhsil», 2011, 608 səh. (548 +60 səh. şəkil)
6. Novruzov S. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi Bakı, "Elm və təhsil", 2019,272 səh.
7. Yusifov M. Milli lider və müstəqil dövlətçilik. Bakı, "Nurlan", 2005, - 212 səh.



***Хаяла Назим кызы Рзаева***
***Азербайджанский Государственный***
***Педагогический Университет,***
***Преподаватель кафедры компьютерных наук,***
***аспирант***


## Гейдара Алиева является основателем успешного развития независимого Азербайджана


***Резюме***

Он готовил людей к патриотизму, мужеству, настойчивости, инициативе и ответственности. Гейдар Алиев готовил азербайджанское общество в целом к основе свободного понимания и мышления, к этапу независимой государственности. Гейдар Алиев оценивал служение обществу как новую норму общественной нравственности и показывал: «Создание новой общественной нравственности является нашим большим достижением. Дальнейшее усиление роли нравственных факторов в жизни общества ускоряет наше движение вперед. опыт нравственного совершенствования нашего общества имеет большое значение». Гейдар Алиев показал, что фактор нравственного воспитания тесно связан с наличием у личности высоких нравственных качеств.



***Ключевые слова: Наш Великий Вождь, духовное наследие, историческая личность, основатель государства, наши нравственные ценности, независимая государственность.***



***Khayala Nazim Rzayeva***
***Azerbaijan State Pedagogical University,***
***Teacher of the Department of Computer Sciences,***
***PhD student***


## Heydar Aliyev is the founder of the successful development of independent Azerbaijan


***Summary***

He prepared people for patriotism, courage, perseverance, initiative and responsibility. Heydar Aliyev was preparing the Azerbaijani society as a whole for the base of free understanding and thinking, for the stage of independent statehood. Heydar Aliyev evaluated service for the sake of

society as a new norm of social morality and showed: “Establishment of new social morality is our great achievement. The further strengthening of the role of moral factors in the life of society accelerates our movement forward. The experience of moral advancement of our society is of great importance.” Heydar Aliyev showed that the factor of moral education is closely related to the personality having high moral qualities.

***Key words: Our Great Leader, spiritual heritage, historical figure, founder of the state, our moral values, independent statehood***

**UOT - 33.342.5**

***Xalidə Mehralı qızı RƏSULOVA***
***Azərbaycan Kooperasiya Universitetinin magistrantı***
***e-mail: khalida316@yahoo.com***

## MÜASİR İDARƏETMƏDƏ LİDERLİK VƏ HEYDƏR ƏLİYEVİN SİMASINDA LİDERLİK BACARIQLARI

***Xülasə***

Məqalədə liderlik anlayışı, bacarıqları, keyfiyyətlərindən bəhs olunur. Liderlik bacarıqları mövzusunda alimlər arasındakı fikir ayrılığının, lider kimdir, necə mükəmməl lider olmaq olar suallarının izahı verilib. Heydər Əliyevin liderliyi əzəmətli ümummilli lider səviyyəsinə yüksəltmiş çox nadir dövlət xadimlərindən olmasından bəhs edilir.

***Açar sözlər: liderlik bacarıqları, effektiv liderlik, anadangəlmə və qazanılmış qabiliyyət, ümummilli lider.***

***

Liderlik anlayışı insanları ümumi məqsədlər üçün səfərbər etmək və istiqamətləndirmək bacarığını nəzərdə tutur. Liderlik -komanda üzvlərinə göstəriş verməklə bərabər lazım gəlsə işi praktiki olaraq izah etmək, iş bölgüsündə ədalətli olmaq və öz öhdəliyinə də müəyyən işləri götürməkdir. Liderlik rəhbərliyin əməkdaşların davranışına təsir etmək, onları özlərini qaydalara uyğun şəkildə aparmağa təşviq etmək üçün bir vasitədir. Liderlik nadir idarəetmə keyfiyyətidir. Liderliyə müasir baxışlar, idarəetmə üslubunun tabelikdəki konkret işçiyə uyğun olaraq dəyişdirilməsindən ibarətdir.

Lider kimdir sualına cavab axtarsaq belə bir izahat vermiş olarıq: Hər hansısa bir məqsədə çatmaq üçün komanda üzvləri öz biliklərini, səylərini, işlərini səfərbər etməlidirlər. Səfərbər olunmuş gücləri isə komanda daxilində bir nəfər tənzimləməlidir. Həmin şəxs “Lider” adlanır.

Əsl lider kollektivin zəif tərəflərini öyrənməli və onları aradan qaldırmağa kömək etməlidir. İşçilər öz liderlərinə güvənib hörmət etməlidirlər. Mükəmməl lider ünsiyyətcil, öyrənməyə meyilli olmalıdır. Yaxşı lider komandasının bələdçisi olmalı və məqsədə doğru getdikləri yolda işçiləri qədər əziyyət çəkməlidir [4, s. 257]. Lider üçün yalnız nəticə deyil, həmçinin ona gedən yol da mühüm əhəmiyyət daşıyır. Rəhbərlər gələcəkdə nə ola biləcəyini əvvəlcədən görə bilib, sonra bunu başqalarına çatdırmaq və görmək istədiyini reallaşdırmaq üçün strategiyanı hazırlayır.

Liderlik fərdin öz iddiası ilə deyil, ardıcıllarının razılığı ilə mövcud olan fenomendir.Bu mənada Day lideri kəmiyyətcə dərketmə fenomeni hesab edir və bildirir ki, bu fenomen “baxanların gözüdür”. Lord və Maher rəhbəri başqaları tərəfindən lider kimi qəbul edilməsi prosesi kimi ifadə edir. “Menecer işləri düzgün aparır, lider isə düzgün işlər görür”,- deyə məşhur alim Peter F. Drucker hesab edib. O, bu sitatla menecer və lider arasındakı fərqi nümayiş etdirib. Karleyl nəzəriyyəsinə əsasən liderin şəxsi keyfiyyətlərində bir çox gizli parametrlər mövcuddur. Məsələn, liderin ideoloji, psixoloji və s. keyfiyyət parametrləri.

Liderlik bacarıqları mövzusunda alimlər arasında fikir ayrılığı mövcuddur. Bəzi alimlər liderlik bacarığının anadangəlmə, bəziləri isə həmin bacarıqlara təcrübə və təlim vasitəsilə nail oluna biləcəyi fikrindədirlər.

Bəzi araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, liderlik xüsusiyyətləri genetik faktordan

asılıdır. Liderlik bacarıqlarının anadangəlmə olmasını iddia edənlər qeyd edirlər ki, müəyyən insanlar xarizmatik və ifadəli olurlar. Bu xüsusiyyətlər insanlara təsir etmək və istiqamətləndirmək üçün təbii qabiliyyətdir.

Liderlik bacarıqlarının sonradan öyrənilə biləcəyi fikrini irəli sürənlərin nöqteyi-nəzərincə isə insan müxtəlif təcrübələr əldə etməklə, daim özünü təkmilləşdirməklə və liderlik təlimlərinə qatılmaqla bu bacarıqlara sahib ola bilər. Bir çox rəhbərlər uğurlu lider olmalarının iş dünyasında öz təcrübə və təlimləri ilə liderlik bacarıqlarını inkişaf etdirməkləri sayəsində meydana gəldiyini qeyd edirlər [6].

Müəyyən qisim alimlərin düşüncəsinə görə isə liderlik məharəti həm anadangəlmə, həm də təcrübə ilə qazanılmış amillərin vəhdətidir. Yəni, təbii liderlik keyfiyyətinə malik olan insan təhsil və təcrübə yolu ilə bu keyfiyyətləri daha da inkişaf etdirmiş olar. Bunun müqabilində də təbii liderlik keyfiyyətləri sonradan qazanılmış bacarıqlarla birləşərək effektiv liderlik simasını yaratmış olur. Beləliklə, belə bir ümumi nəticəyə gəlmək olar ki, liderlik anadangəlmə qabiliyyətlərlə yanaşı, həm də öyrənilmiş bacarıqlarla inkişaf etdirilir. Bu məharət həm irsi olaraq, həm də digərləri ilə birlikdə iş prosesində qazanılır. Buna baxmayaraq, yalnız vacib keyfiyyətlərin optimal toplanışının olması belə şəxs üçün lider hesab olunmasına tam zəmanət vermir. İdarəetmədə liderlik keyfiyyətlərini nümayiş etdirmək üçün şansın, münbit şəraitin olması da önəmlidir. Fərdin öz potensial imkanlarını nümayiş etdirməsi, özünü yetərincə ifadə edə bilməsi üçün zəruri imkanlar mövcud olmalıdır.

Səmərəli liderlik üçün üç qrup amil nəzərə alınmalıdır: keyfiyyətlər, qarşılıqlı rəftar və məqamında qərar qəbul etmək bacarığı [1, s.159].

Hər bir bacarıq kimi liderlik keyfiyyətləri də çox vaxt şüurlu, ardıcıl öyrənmə və təlim yolu ilə inkişaf etdirilir. İstehsal və ya mövqeyindən asılı olaraq, tələb olunan bacarıqlar müxtəlif ola bilər. Mükəmməl komanda lideri müəyyən keyfiyyətlərə malk olmalıdır.Məsələn, motivasiya, cəsarət, yaxşı dinləmək bacarığı, fəallıq, yaradıcılıq, tərbiyə, problemi həll etmək və s. Liderlərin komanda üzvlərini ruhlandırmaq və performanslarını yüksəltmək üçün şəxsi motivasiyaları olmalıdır. Rəhbər həm də öz komandasını böyük işlər görmək üçün ruhlandırmalı və motivasiya etməlidir. Komandalar daha da yaxşı nəticələr əldə etmək üçün sadəcə planın icraçıları deyil, həm də işin həllində həmtəsisçi olduqlarını hiss etməlidirlər. Həqiqi liderlər müxtəlif motivasiya texnologiyalarına sahibdirlər. Birincisi, onlar şirkətin gələcəyi ilə bağlı gördükləri görüntünü təsvir edərkən, onlara ünvanlanan auditoriyada hansı əxlaqi dəyərlərin və ənənələrin olduğunu həmişə nəzərə alır. Bu isə əməyi işçilərin gözündə daha mənalı edir. İkincisi, rəhbərlər müntəzəm olaraq komanda üzvlərini öz planlarının həyata keçirilməsi üçün mümkün yolların müzakirəsinə cəlb edirlər. Buna görə də insanlar öz fikirlərinin dinlənildiyini və təşkilatın həyatına təsir etdiyini düşünürlər. Motivasiyanın digər mühüm üsulu işçilərin korporativ idealın hər cür həyata keçirilməsi üçün səylərini dəstəkləməkdir: göstəriş vermək, onların işi haqqında fikirlərini bildirmək və ədəbli davranış nümunəsi kimi xidmət göstərmək. Bu, tabeçiliyində olanlara peşəkar şəkildə inkişaf etməyə və özünəhörmət hissini artırmağa kömək edir. Nəhayət, səlahiyyətli rəhbərlər öz işçilərinin şəxsi nailiyyətlərini dəyərləndirir və onları ruhlandırmağı unutmurlar. Bu, insanlara yalnız müvəffəqiyyət sevinci deyil, həm də qiymətləndirdikləri təşkilatın üzvü olduqlarını bilməyə kömək edir. Əgər lider bütün bu qaydalara əməl edərsə, işin özü onun tabeliyində olan şəxslər üçün ilham mənbəyinə çevrilir [5, s.120]. Çətinliklərin öhdəsindən gəlmək üçün lider komanda üzvlərinə cəsarət aşılamalıdır. İşçiləri diqqətlə dinləmək rəhbər və işçilər arasında güclü ünsiyyətin və etibarlı münasibətin əsasıdır. Fəal lider uğur qazanmaq ehtimalını artırmaq üçün təşəbbüskar olmalı, komanda ilə birgə fəaliyyət göstərməlidir. Yaxşı liderlər status-kvonu şübhə altına alırlar. Onlar yalnız öz yaradıcılıqlarına diqqət ayırmırlar, həm də komanda üzvlərində yaradıcılığı dəstəkləyirlər. Rəhbər komanda üzvlərini məşq etdirmək və istiqamətləndirməklə onların tam potensialının üzə çıxmasına nail ola bilər. Problemi həll etmək qərar qəbuletmə prosesinin hər bir səviyyəsində vacib qabiliyyətdir. Lider problemlərin strateji və konseptual səviyyədə həllinə yardım etməlidir.

Liderliyə hansı aspektdən yanaşılmasından asılı olaraq alimlər nəzəriyyələrdə fərqli meyarlara əsasən liderləri müxtəlif tiplərə bölürlər. Buna misal olaraq, “Xarizmatik lider”, “Əsl qəhrəman lider”, “Qrup lideri”, “ Siyasi Lider”, “ Ümummilli lider” və s. göstərmək olar. Ümummilli liderlər

nəinki bir xalq, dövlət, həmçinin dünya miqyasında da sayılıb-seçilən, liderlik etməyi bacaran fenomen şəxslərdir. Ümummilli liderlərə Ulu öndər Heydər Əliyevi, Mustafa Kamal Atatürkü, Mahatma Qandi, Teodor Ruzvelt və s. misal göstərmək olar. Belə liderlər dünyada, regionda, ölkədə geosiyasi, sosial-siyasi, iqtisadi vəziyyəti dəyişmək iqtidarında olurlar.

Müasir siyasi-hüquqi nəzəriyyələrin görkəmli yaradıcılarının fikrinə əsasən, hər bir rəhbər millətə real lider ola bilmir və yaxud əksinə, hər bir lider ölkəyə faydalı rəhbərlik etməyi bacarmır. Xalqımızın Ulu öndəri Heydər Əliyev isə dövlət başçısı funksiyasını liderliklə üzvi surətdə birləşdirərək Ümummilli lider adını qazanmışdır. Heydər Əliyev liderliyi əzəmətli Ümummilli lider səviyyəsinə yüksəltmiş çox nadir dövlət xadimlərindəndir. Ulu öndər qeyri-adi liderlik istedadına malik dövlət başçısı, unikal şəxsiyyətdir. Heydər Əliyev geniş fəlsəfi və siyasi görüşlərə malik bir şəxsdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikada sağlam mənəvi-siyasi mühit yaranmış, iqtisadiyyat, elm və mədəniyyətin inkişafında böyük nailiyyətlər əldə edilmişdir.Ulu öndər mövcud nöqsanlara qarşı barışmaz mövqe tutmuş, kütlələrlə daim əlaqə saxlamış, insanlara həssas və qayğıkeş yanaşmışdır. Rəhbərə xas olan yüksək keyfiyyətləri- təşkilatçılıq qabiliyyəti və tükənməz enerjini özündə ehtiva edən bu dövlət xadiminin işgüzarlığı və təşəbbüskarlığı ölkəmizin hərtərəfli inkişafına təkan vermişdir. Ümummilli lider fəaliyyəti dövründə qarşısına respublikamızın müstəqilliyini möhkəmləndirmək, hüquqi, dünyəvi, demokratik dövlət yaratmaq, ərazi bütövlüyünü qoruyub saxlmaq məqsədini qoymuş,ölkəmizin qüdrətli dövlətə çevrilməsi üçün qətiyyətli addımlar atmışdır. Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, hərc-mərclikdən xilas etmiş, milli ordunun formalaşması üçün zəmin yaratmışdır. Vətəndaş müharibəsi, daha doğrusu, hamının hamıya qarşı müharibəsi həddində qəlizləşmiş ağır ictimai -psixoloji durumdan düzgün çıxış yolu tapması, düşünləşmiş, müstəqilliyin qazanılması ilə ümummilli rifah və səadət qazanılacağı haqda ümidləri boşa çıxmış, məyus həmvətənlərini çox qısa bir zamanda sosial həyata qaytara bilməsi ölməz liderin xarizmasına xas olan ən bariz keyfiyyət kimi qiymətləndirilir. Heydər Əliyev ona görə tarixi şəxsiyyətdir ki, o, daim xalqın istək və arzularını həssaslıqla duymuş və müstəqillik dövründəki naşı sələflərindən fərqli olaraq , bu istəkləri gerçəkləşdirməyi bacarmışdır [2, s. 5]. Ümummilli liderin sayəsində ölkəmiz öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur [3, s. 352].

Heydər Əliyevdə bir çox dövlət başçılarında olmayan cazibə qüvvəsi, diplomatik bacarıq, istedad var ki, onun şəxsiyyətinə simpatiyanın dərəcəsini, hətta onun düşmənlərinin də yanında qat-qat artırır. Harada olursa olsun, kimlərlə görüşürsə görüşsün, bu şəxs özünə qarşı rəğbət hissi doğurur.

Ulu öndər əvəzedilməz siyasi liderdir. Xalqın ona inamı və etibarı sonsuz və sarsılmaz olmuşdur. Çünki xalq onu təkcə prezident kimi deyil, böyük lider kimi, millət atası kimi sevmişdir. Xalqın şəriksiz lideri kimi bu cür hörmət və ehtiram qazanmaq hər dövlət rəhbərinə nəsib olmur. Azərbaycan xalqının Heydər Əliyevə məhəbbəti sonsuzdur və o, hər zaman böyük lider olaraq, qəlblərdə yaşayacaq.

## ƏDƏBİYYAT


1. Ağasəf İmran, Menecment, Dərslik, "Nurlan" nəşriyyatı, Bakı-2007.
2. Alqış Musayev, Heydər Əliyevin siyasi obrazı, "Adiloğlu" nəşriyyatı, Bakı-2005.
3. İsmayıl Eyyubov, Azərbaycanın siyasi təlimlər tarixi, Dərslik, Bakı-2017.
4. Yasəmən Əliyeva, Menecmentin əsasları, Dərs vəsaiti, Bakı-2023.
5. Абрахам Залезник " Менеджеры и лидеры: есть ли разница".
6. www.kariyer.net

*Халида Мехрали кызы Расулова*
*Магистр Азербайджанского Университета Кооперации*
*e-адрес: khalida316@yahoo.com*

## Лидерские качества в современном управлении и лидерские навыки по образу и подобию Гейдара Алиева

*Резюме*

В статье рассматриваются лидерские понятия, навыки и качества. Отмечается о том, что ученые расходятся во мнениях по поводу лидерских навыков. Были объяснены вопросы о том, кто является лидером, и как быть отличным лидером. Руководство Гейдара Алиева описывается как один из редких правительственных чиновников, которые возвели его в ранг славного Общенационального лидера.

***Ключевые слова: лидерские качества, эффективное лидерство, врожденные и отработанные способности, общенациональный лидер.***

*Khalida Mehrali Rasulova*
*Master, Azerbaijan Cooperation University*
*E-mail: khalida316@yahoo.com*

## Leadership in modern governance and leadership skills in the image of Heydar Aliyev

*Summary*

The article deals with the concept of leadership, its skills and qualities. It explains the differences of opinion among scholars about leadership qualities, who a leader is, and how to be an ideal leader. The article also talks about how Heydar Aliyev is one of the rare statesmen who raised his leadership to the level of a great National leader.

***Key words: Leadership skills, effective leadership, inherent and drilled ability, national leader.***

**UOT 37**

*Nuridə Biləndər qızı ƏSƏDOVA*
*magistrant, Azərbaycan Kooperasiya Universiteti*
*caviknurik1824@mail.ru*

## ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA ROLU

*Xülasə*

Milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi deməyə əsas verir ki, ölkədə həmin məsələ ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçünsə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün xüsusilə strateji əhəmiyyətə malik təhsildə köklü islahatlar aparmaq Azərbaycan dövlətinin ali məqsədinə çevrilir. Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi zaman kəsiyinin həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dününənə və bugününə diqqət yetirmək zəruridir.

***Açar sözlər: Heydər Əliyev, elm, təhsil, dövlətçilik, strategiya.***

Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyev bu məsələni daim diqqət mərkəzində saxlamış, təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində sovet Azərbaycanında orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-ə çatdırılmışdır.

Bir fakt aydındır ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir.

Ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu dəfələrlə vurğulayaraq demişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

70-ci illərin əvvəllərinə qədər Azərbaycanda orta ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı olduqca aşağı səviyyədə idi. Lakin ümummilli lider qısa müddətdə bu problemin də həllinə nail oldu və 1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatı ənənəsinin əsası qoyuldu. Respublika rəhbərliyinin təhsilin inkişafına göstərdiyi xüsusi diqqət yeni orta ümumtəhsil məktəblərinin tikintisində də öz təzahürünü tapırdı. Həmin illər ərzində 350 mindən çox şagird yeri olan 849 məktəb inşa edilib istifadəyə verilmişdi. 1980-ci ildə respublikada ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sayı 710 minə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə təxminən iki dəfə artıq idi.

Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Böyük rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Heydər Əliyevin təşəbbüsü və himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir. Bu isə respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə səbəb olmuşdur [1.s 4].

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də təhsilin inkişafını diqqətdən kənarda qoymamışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi səciyyələndirilən ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası labüddür.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə güclü əlaqələri olub və indi də var. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. O ölkədə ki, fundamental tədqiqatlar aparılmır, yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Bu mənada "Milli Elmlər Akademi-

yası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri məhz Heydər Əliyevin təhsil siyasəti strategiyasının mühüm tələblərindən biridir [2, s. 36].

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri kimi AMEA alimlərinin birgə proqramlar üzərində işləməsi vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsilin səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Akademik C.Quliyevin fikrincə, "hazırda inkişaf etmiş ölkələrdə elmlə təhsilin inteqrasiyası təşkilati məsələlərin həlli səviyyəsindən daha yüksək mərhələyə - ali təhsilin fundamentallaşdırma mərhələsinə yüksəlməkdədir. Söhbət insan və cəmiyyət dünyası haqqında fundamental vahid elmi biliklərin tədrisindən, mədəniyyətin iki komponenti olan təbiət və humanitar elmlərin vəhdətini təmin etməkdən gedir. Respublikamızda yüksək ixtisaslı kadrların hazırlanmasında, elmi-texniki tərəqqinin təmin olunmasında dövlət ali təhsil müəssisələri xüsusi yer tutur.

Yaxın təhsil tariximizə istinadən deyə bilərik ki, bu gün ali məktəblər elmi araşdırmaların aparılmasına əlavə vəsait əldə etmək məqsədilə müxtəlif qrantların alınması və proqramların hazırlanması üzərində xüsusi iş aparır və nəticələr müsbətdir. Məsələn, BDU-da Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu "Soros" Fondundan 15 min dollarlıq qrant almışdır. Təhsil ocağının kimya fakültəsinin İNTAS Proqramı üzrə Moskva Dövlət Universiteti, Stokholm Texnologiya İnstitutu, Almaniyanın Dramştat Texniki Universiteti əməkdaşları ilə birgə hazırladıqları elmi-texniki layihə Brüsseldə keçirilən müsabiqədə iki dəfə üç il müddətinə xüsusi qranta layiq görülmüşdür.

Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Hər il tələbələrin riyaziyyat, fizika, kimya, informatika fənləri üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələri keçirilir. 2000-ci ildə İran İslam Respublikasında təşkil edilmiş beynəlxalq riyaziyyat olimpiadasında Azərbaycanın ali məktəb tələbələrinin komandası dördüncü yeri tutmuşdur. Azərbaycan MEA-nın Təhsil Nazirliyi və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə gənc tədqiqatçılar və ali məktəb tələbələri üçün neft-qaz mövzusu ilə bağlı keçirdiyi müsabiqələr xüsusi qeyd olunmalıdır. 1998-ci ildə "Neft və Azərbaycanın gələcəyi", 1999-cu ildə "Böyük İpək yolu və Azərbaycan nefti", 2000-ci ildə "Neft strategiyası və Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri", 2001-ci ildə "Neft-qaz hasilatı və Azərbaycanın davamlı inkişafı" mövzularında uğurlu müsabiqələr keçirilmişdir. Bundan başqa, son illər ərzində AMEA-nın Təhsil Nazirliyi ilə birlikdə "Saf su", "Bakı-Tbilisi-Ceyhan" boru xəttinin beynəlxalq və regional əhəmiyyəti" mövzularında beynəlxalq konfranslar, "Üçüncü minilliyin astanasında fövqəladə hallarda insanların və cəmiyyətin təhlükəsizliyi" adlı simpozium hamı tərəfindən böyük rəğbətlə qarşılanmışdır. 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Fransa, Rumıniya, Polşa, Rusiya, Pakistan, Türkiyə, İspaniya, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir [3.s 2].

Statistik məlumatlara əsasən demək olar ki, hazırda ali məktəblərimizdə iyirmidən artıq adda elmi məcmuə nəşr edilir. Son vaxtlar onların sayı artmaqdadır. Fərəhli haldır ki, "BDU-nun xəbərləri" elmi jurnalı Ümumrusiya Elmi-Texniki İnformasiya İnstitutu tərəfindən məzmunu və səviyyəsinə görə həmişə yüksək qiymətləndirilir və burada təbiət, fizika və riyaziyyat elmləri sahəsində çap olunmuş məqalələrin xülasələri həmin elm ocağının referativ jurnallarında çap olunur.

Ümummilli lider Heydər Əliyevin təhsil siyasəti bu gün islahatların zəruriliyinə önəmli diqqət yetirən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu diqqətin və qayğının nəticəsi kimi cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" fərmanda "Bilik günü"nün sentyabrın 15-də keçirilməsini xüsusi qeyd etmək lazımdır. Həmin gün respublikanın bütün məktəblərində ilk dərslərin ümummilli lider Heydər Əliyevin müstəqillik illərində elm, təhsil və gənclər siyasəti sahəsində gördüyü işlərə həsr olunmuş dəyərli söhbətlərlə başlanması, uşaqların yaş və bilik səviyyələrinə uyğun ölkədə aparılan iqtisadi, siyasi, sosialyönümlü islahatlar, tarixə

dönən məqamlar barədə geniş məlumatlar verilməsi nəzərdə tutulmuşdur. Təbii olaraq, bu onun nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar birbaşa təhsildə problemlərin həllinə yönəlmişdir.

Heydər Əliyevin təhsil siyasətinin nəticəsi kimi aparılan islahatlar nəticəsində ötən illər ərzində bir sıra yeni ali məktəblər yaradılmış, bəzi təhsil ocaqlarının statusu artırılmış və profilləri dəyişdirilərək universitetlərə çevrilmişdir. Hazırda Bakı Dövlət Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına, Azərbaycan Tibb Universitetinə, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına, Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Dövlət İqtisad Universitetinə özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərmək hüququ verilmişdir. Ali təhsil müəssisələrinə tələbə qəbulu çoxsaylı ixtisası əhatə edən müxtəlif istiqamətlər üzrə aparılmışdır. Bu istiqamətlər üzrə mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan tələbləri müəyyən edən standartlara uyğun inteqrativ fənlərin proqram və dərsliklərinin hazırlanması işi başa çatdırılmışdır [4.s 73].

Məxsusi olaraq qeyd olunmalıdır ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm amillərindəndir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin sərəncamlarından birinə diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, həmin tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına önəmli kömək göstərir.

Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına uyğun aparılan islahatlar müsbət nəticələr verir. Təhsil islahatlarının aparılmasını zəruri hesab edən ümummilli lider Heydər Əliyev deyirdi: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Həqiqətən də, belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. 2001-2003-cü və ondan sonrakı illər üçün islahat proqramına əsasən fəaliyyətin ümumiləşdirilmiş prioritetlərinə diqqət yetirməklə Heydər Əliyevin təhsil siyasəti strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu təsdiqlənər.

Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompüterləşdirilməsi və informasiyalaşdırılması Proqramının təsdiqi və prosesə tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə üstün sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində işlərin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən təhsil siyasətinin strateji istiqamətləri aydın görünür. İslahatın aparıldığı dövrdə önəmli mahiyyət daşıyan işlərdən biri Azərbaycan təhsili tarixində ilk dəfə olaraq ümumi təhsilin Dövlət Standartlarının və Bazis Tədris Planının hazırlanması və respublika hökuməti tərəfindən təsdiq edilməsi (1999, aprel) olmuşdur.

Bu məqalədə ingilis yumorunun xüsusiyyətlərindən və istifadə üsullarından bəhs edilir və həmçinin məşhur "Qayıqda üç kişi (İti nəzərə almasaq)" əsərinin bir hissəsinin tərcüməsi verilir.

Bilindiyi kimi, yumor insanları yaxınlaşdırır. Və bu yumorun hansı növdə olmasının heç bir fərqi yoxdur.Yumor bizi hər hansı bir vəziyyətdən çıxara da bilər və eyni zamanda, əksinə, vacib bir məsələni korlaya da bilər.

İngilis zarafatlarının əksəriyyəti söz oyununun üzərində qurulmuşdur və bu səbəbdən yazılmış hər hansı bir mətndə, yaxud da tərcüməçinin səsində heç bir zarafat, demək olar ki, müşahidə olunmur.

Yumorun qavranılması hər hansı bir dilin öyrənilməsində yüksək əhəmiyyət daşıyır. Bunu nəzərə alaraq, İngilis dili kurslarında tələbələrin keyfiyyətli tələffüzünə xüsusi diqqət yetirilir.

***Açar sözlər: yumor, əsərlər, ingilissayağı yumor, tərcümə, ingilis cəmiyyəti.***

*Офеля Хикмат кызы Рзайева*
*Магистр*
*E-mail:Nacafova.ofa@gmail.ru*

**Английский юмор как признак острого интеллекта**

*Резюме*

В данной статье повествуется об особенностях английского юмора, его тонкостях и применении, а также дан отрывок перевода знаменитого произведения «Трое в лодке, не считая собаки».

Как известно, юмор сближает людей. И совсем неважно, какой он. Юмор может выручить нас в тяжелой ситуации или же, наоборот, испортить важную встречу.

Большинство английских шуток основано на игре слов, поэтому практически невозможно узреть ничего смешного в написанном тексте или в голосе переводчика.

Понимание юмора считается высшим пилотажем в изучении любого языка, именно поэтому качественному произношению уделяется особое внимание при обучении студентов на курсах английского языка.

***Ключевые слова: юмор, произведения, английский юмор, перевод, английское общество.***

**UOT 504.062**

*Sevinc Elman qızı KAZIMOVA*
*Baş müəllim, Azərbaycan Kooperasiya Universiteti*
*"Ekologiya və Coğrafiya" kafedrası*

**ŞUŞANIN LANDŞAFTLARI**

*Xülasə*

Kiçik Qafqazın landşaftlarının işğal nəticəsində dinamikasında və transformasiyasında ancaq dağıdıcı, fəlakətli dəyişikliklər baş vermişdir. Xüsusilə, meşələrin qırılması, əkin sahələrinin yandırılması, yay otlaqlarının məhv edilməsi landşaftlarda köklü dəyişikliklər yaratmışdır. Şuşa ərazisində yerləşən meşələrdə ağac və kol bitkilərinin 70 növü – endemik qaraçöhrə, ayıfındığı,

yalanqoz, Şərq çinarı, meşə üzümü, şümşad və s. ağaclar qırılaraq dünya florası xəzinəsindən silinmək təhlükəsinə çatmışdır.

***Açar sözlər: relyef, landşaft, ekoloji fəlakət. nival, subnival.***

***

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi son dövrdə ilin ən əhəmiyyətli sosial-iqtisadi, hərbi-strateji vəzifələrinin həllinə əlverişli şərait yaratdı. Otuz illik işğal dövründə vaxtilə ərazidə mövcud təsərrüfat obyektləri, şəhərlər, kəndlər, tarixi-mədəniyyət və təbiət abidələri tamamilə dağıdılmış, təbii sərvətlər, meşələr vəhşicəsinə talan edilmiş və ərazi ekoloji fəlakət zonasına çevrilmişdir.

2020-ci ilin 27 sentyabr-8 noyabr tarixlərində aparılan Vətən müharibəsi Qarabağ, o cümlədən Qarabağın incisi adlandırılan Şuşanı işğalçılardan təmizlədi. Keçən 2 il ərzində şəhər və qəsəbələrin, dəmir və avtomobil yollarının, digər kommunikasiya şəbəkəsinin, işıq və su təminatı sisteminin yenidən qurulması və bərpası istiqamətində xeyli işlər görülmüşdür. Artıq Füzuli şəhərində beynəlxalq hava limanı istifadəyə verilmiş, Zəngilan, Kəlbəcər və Laçında bu sahədə tikinti işləri aparılmışdır.

Şuşa şəhərinin bərpası üçün xeyli işlər görülmüşdür. Füzuli-Şuşa, Ağdam-Füzuli, Füzuli-Zəngilan avtomobil yollarının çəkilişi sürətlə aparılmışdır. İşğaldan azad edilmiş ərazilərin təbii-landşaft örtüyünün bərpası da vacib vazifələr sırasındadır. [6, səh. 334-337]

Azərbaycanın hər bir bölgəsinin özünəməxsus, təkrarsız landşaft strukturu formalaşmışdır. Bunun başlıca səbəbi ərazinin geoloji inkişafı ilə bağlı olan intensiv qırışıq dağəmələgəlmə zamanı relyefin troposferin müxtəlif təbəqələri ilə təmasından biosferdə baş verən struktur dəyişmələridir.

Ərazidə aparılmış landşaft-geomorfoloji tədqiqatların nəticələri göstərir ki, Qarabağın dağlıq hissəsində mütləq yüksəklik 1000-2000 m-dən artıq olmasaydı, bu dağların tutduğu ərazidə də quru subtropik iqlim hakim olardı, quru-bozqır və yarımsəhra landşaftları geniş yayılardı, dağ-meşələri, dağ çəmənləri inkişaf edə bilməzdi, daimi axarlı çaylar yaranardı.

Şuşa şəhəri relyefinə görə dağlıqdır (Qarabağ silsiləsi). Rayonun şərq hissəsi Keçəldağ aşırımı ilə hüdudlanır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725). Yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülmüşdür. Alçaq və dağlıq dağətəyi sahələrdə qurulmuş meşələrin yerində çəmənlər və kserofitlər, kolluqlar var.

Dağ-çəmən landşaftları – subnival-qayalıq landşaft kompleksindən aşağıda 1800-3000 m mütləq hündürlükdə geniş ərazini əhatə edən dağ-çəmən landşaft kompleksləri yayılmışdır. Onlar çətin geomorfoloji proseslər, kəskin parçalanmış relyef, nisbətən sərt iqlim və yüksək antropogen yüklənmə ilə xarakterizə olunur.

Dağ-çəmən landşaftları daxilində nisbi yüksəklik və meyilliyin yüksək olması nəticəsində yamaclarda qravitasiya proseslərinin təsiri ilə yaranan sürüşmə, uçqun, ufantı konusları kimi relyef formaları geniş inkişaf edib, nəticədə yüksək dağ çəmənliklərinin məhsuldarlığının və sahəsinin getdikcə azalması müşahidə edilir.

Alp çəmənlikləri 2700-3200 m mütləq hündürlükdə, sərt iqlim intensiv geomorfoloji şəraitə malik ərazilərdə yayılmışdır. Alp çəmənlərinin, hətta bəzən subalp çəmənlərinin yayıldığı sahələrdə landşaftın formalaşmasında qar örtüyü mühüm rol oynayır. Qar örtüklü günlərin sayı 120-160 gün/il, qalınlığı isə 50-100sm/il arasında dəyişir (Azərbaycan Respublikasının coğrafi Atlası, 2018).

İl ərzində ümumi günəş radiasiyası 140-148 kkal/sm$^2$, radiasiya balansı isə kkal/sm$^2$ arasında dəyişir. Orta illik temperatur 0-20C, orta yanvar temperaturu -6-100C, orta iyul temperaturu isə 5-100 C arasında tərəddüd edir. Orta illik yağıntının miqdarı 400-600 mm, 2294 m mütləq hündürlükdə yerləşən İstisuda 593 mm, Minkənddə isə 670 mm təşkil edir (Əyyubov Ə.C., Rəhimov X.Ş., 1993).

Alp çəmənlikləri landşaftında bitkilərin növ tərkibinin rəngarəngliyi relyefin mütləq hündürlüyündən, yamacların ekspozisiyasından, torpaqların rütubətlənmə və radiasiya şəraitindən asılı olaraq dəyişir. Qayalı və daşlı yamaclarda qayalıq bitki qrupları dağ kserofitləri ilə zənginləşir, alçaq relyef şəraitində hidrofillər geniş yayılıb. (Məmmədov Q.Ş., Xəlilov M.Y., 2002). Dağlıq ərazilərdə subalp çəmənlikləri meşə qurşağı ilə alp çəmənlikləri kompleksi arasında qalan geniş

əraziləri əhatə edir. Bu landşaft kompleksinin aşağı sərhədi meşələrin məhv edildiyi yamaclarda 1700-1800 m-ə kimi aşağı enir.

Subalp çəmənləri 1800-2000 m və 2700-2800 m mütləq hündürlüklər arasında yayılmışdır. Kəlbəcər çökəkliyində, Qarabağ silsiləsində, Həkəri çay hövzəsində və digər ərazilərdə sərhəd 1600-1700 m mütləq hündürlüyə qədər enə bilir (Микаилов А.А., Гарибов Я.А., 1987).

Qar örtüklü günlərin sayı 80-160 gün/il, qalınlığı isə 50-70 sm/il arasında dəyişir. (Azərbaycan Respublikasının coğrafi Atlası, 2018).

İl ərzində ümumi günəş radiasiyası 130-140 kkal/sm2, radiasiya balansı isə 26-35 kkal/sm2 arasında dəyişir. Orta illik temperatur 4-60 C, orta yanvar temperaturu -5-60 C, orta iyul temperaturu isə 8-150 C arasında tərəddüd edir. Orta illik yağıntının miqdarı 700-800 mm-dir (Шыхлинский Э. М., 1969).

Dağ-meşə landşaftları İncə və Qarqar çayları arasındakı əraziləri, Qarabağ silsiləsinin şimal-şərq, Murovdağ silsiləsinin isə cənub yamaclarında 600-700 m ilə 2000-2300 m mütləq hündürlüklər arasında qalan əraziləri əhatə edir. 500-600 m ilə 800-900 m (1000 m) mütləq hündürlüklər arasında ensiz zolaqlar şəklində uzanan alçaq dağlığın meşələrində üstünlük təşkil edən ağac tipi palıd və palıd-vələs qarışığıdır. [5, səh. 96]

Landşaft kompleksində temperatur şəraiti mütləq hündürlükdən və yamacların meylliyindən asılı olaraq dəyişir. Ərazinin oroqrafik quruluşundan və hava kütlələrinin sirkulyasiyasından asılı olaraq atmosfer yağıntılarının miqdarı fərqli olaraq paylanmışdır. 1000-1200 m ilə 1600-1800 m hündürlüklər arasındakı dağ yamaclarını əhatə edən orta dağ-meşə qurşağında orta illik temperatur 4-60C, yanvarın orta temperaturu -40C-dən 40C-yə qədər, iyulun orta temperaturu 12-170 C arasında, atmosfer yağıntılarının orta illik miqdarı isə 500-700 mm arasında dəyişir (Azərbaycan Respublikasının Milli Atlası, 2015).

Yüksək dağlığın meşələri 1600-2400 m mütləq hündürlüklər arasında yerləşən dağ yamaclarını əhatə edir. Alçaq dağlığın meşələrində əsas meşə əmələ gətirən ağac növü gürcü palıdı və vələs, orta dağlığın meşələrində fıstıq və vələs, yüksək dağlığın meşələrində isə şərq palıdıdır.

Kiçik Qafqaz dağlarında fıstıq meşələrinin şərq sərhədi Qarabağda, Xocavənd rayonunda, Böyük Kirs dağının şimal hissəsində müşahidə olunur (Qəribov Y.Ə., 2013).

Bəsit çayı dərəsindəki Şərq çinarı meşələri və Şuşa ətrafındakı ərazinin 20%-ni əhatə edən, palıd, fıstıq, qarağac və digər ağac növləri ilə zəngin olan Topxana meşəsi təbiətin ölkəmiz üçün bəxş etdiyi nadir incilərdəndir.

Alçaq və orta dağlığın meşədən sonrakı meşə-çöl və çöl landşaftları bilavasitə antropogen təsirə məruz qalmış az meyilli, əlverişli relyef sahələrində inkişaf etmişdir. Kiçik Qafqazın cənub-şərq ətəklərində iqlimin aridliyinin artması nəticəsində meşə kompleksinin aşağı sərhədi 500-600 m mütləq hündürlüyə kimi qalxmışdır. Nəticədə ondan aşağıdakı alçaq dağlığın yarımsəhra və quru-çöl landşaftı formalaşmışdır (Budaqov B.Ə., 1996).

Kiçik Qafqazın cənub-şərq yamacında çaylar arasında yerləşən az meyilli hamar suayrıcı zonalarda alçaq və orta dağlığın meşələri antropogen fəaliyyət nəticəsində intensiv qırılmaya məruz qaldığı üçün onların yerində sonradan əmələ gəlmiş dağ çölləri yüksək dağ çəmənləri ilə birləşir və sistemli areallar meydana gəlir. [6, səh.220-225]

Dağ-çöl landşaftları meşə kompleksinin yerində sonradan yaranan törəmə landşaftlardır. Bu landşaftlar üçün qışı quraq keçən mülayim-isti iqlim tipi xarakterikdir. Alçaq dağlığın çöllərində ümumi günəş radiasiyası 120-130 kkal/il, günəşli günlərin miqdarı 2500-2800 gün/il arasında dəyişir. Orta illik temperatur 10-140C, yanvarın orta temperaturu -30C-dən 00C-yə qədərdir, iyulun orta temperaturu isə 20-270C arasında tərəddüd edir. Orta illik yağıntının miqdarı Şuşada 827 m hündürlükdə 587mm təşkil edir. İllik mümkün buxarlanmanın miqdarı 800-1000mm, alçaq sahələrdə 1000-1200 mm arasında dəyişir. Dağ-şabalıdı torpaqlarda inkişaf etmiş bu landşaftlar əkin sahələri və üzüm bağları ilə əvəz edilmişdir.

Alçaq dağlığın yarımsəhra landşaftı düzənliklərin yarımsəhra komplekslərinin dağlıq ərazidə davamını təşkil edir. Onlar yüksək aridliyə malik olan ön dağlıq hissələrdə formalaşır və inkişaf edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının coğrafiyası. I cild. Fiziki coğrafiya. Bakı, 2015, 530 s.
2. Azərbaycan Respublikasının Coğrafi Atlası. Bakı. BKF, 2018, 207 s.
3. Budaqov B.Ə. Azərbaycan təbiəti. Bakı, 1998, 204 s.
4. Əyyubov Ə.C., Hacıyev Q.Ə. Azərbaycan SSR-in iqlim ehtiyatları. Bakı, "Elm" nəşriyyatı, 1984, 133 s.
5. Qəribov Y.Ə. Azərbaycan Respublikasının təbii landşaftları. Bakı, 2013, 135 s.
6. Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: təbii-coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı. Azərbaycan Milli Elmlər Akademiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu Bakı, 2021, 534 s.



***Севиндж Эльман кызы Кязимова***
***Старший преподаватель***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры "Экология и география"***


### Пейзажи Шуши


***Резюме***

В результате нашествия произошли лишь опустошительные и деструктивные изменения в динамике и преобразовании ландшафтов Малого Кавказа. В частности, вырубка лесов, сжигание сельскохозяйственных угодий, разрушение горных районов привели к радикальным изменениям в ландшафтах. 70 эндемичных видов древесно-кустарниковых растений, ежевика, платан, платан, восточный платан, лесной виноград, самшит и др. деревья находятся под угрозой исчезновения из сокровищницы мировой флоры.



***Ключевые слова: облегчения, земля, экологическая катастрофа, ниваль, субниваль.***



***Sevinc Elman Kazimova***
***Azerbaijan Cooperation University***
***Senior Lecturer at the Department of "Ecology and Geography"***


### Landscapes of Shusha


***Summary***

As a result of the invasion, only devastating and destructive changes occurred in the dynamics and transformation of the landscapes of the Lesser Caucasus. In particular, deforestation, burning of agricultural land, destruction of mountainous areas have led to radical changes in landscapes. 70 endemic species of trees and shrubs, blackberry, sycamore, sycamore, oriental sycamore, forest grapes, boxwood and other trees are under threat of extinction from the treasury of world flora.



***Key woods: relief, lands cape, environmental disaster, nival, subnival.***

**UOT 327**



***Гюнай Назим гызы БАБАЕВА***
***Советник в отделе по человеческим***
***ресурсам и внутреннему контролю***
***Азербайджанский Университет Кооперации***
***gunayb.gb@gmail.com***


## ГЕЙДАР АЛИЕВ — ОСНОВОПОЛОЖНИК АЗЕРБАЙДЖАНСКОЙ МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА


***Резюме***

Репутация государства в мире и его международный авторитет во многом формируется на основе культурного достояния этого государства. Именно культура обладает теми

уникальными возможностями, связанными с формированием позитивного образа народов, государств, который в конечном итоге помогает и в решении политических проблем.

Говоря об Азербайджане невозможно не упомянуть о мультикультурализме, который является главным достоянием страны. Основоположником азербайджанской модели мультикультурализма является выдающийся сын азербайджанского народа, политический и государственный деятель прошлого века и нового тысячелетия Общенациональный лидер— Гейдар Алиев.

Благодаря государственному гению Гейдара Алиева, его политической прозорливости и дальновидности веками существовавшая в нашем обществе обстановка толерантности, уважительное отношение к представителям других народов и конфессий, мультикультуральный характер общества были возведены в ранг политических и правовых принципов, признаны в качестве приоритетных направлений политики Азербайджанского государства.

Одной из заслуг политического основоположника азербайджанского мультикультурализма великого лидера Гейдара Алиева перед азербайджанским народом является развитие мультикультурализма в стране. Сегодня Президент Ильхам Алиев настойчиво продолжает эту политику. Политика мультикультурализма, проводимая под руководством Президента Ильхама Алиева, ускоряет интеграционные процессы внутри страны. А в международной плоскости эта политика оказывает мощное влияние на развитие межкультурного и межрелигиозного диалога.

***Ключевые слова: Азербайджан, мультикультурализм, полиэтническое общество, этнокультурное разнообразие, традиции***

***

Образ государства, его репутация в мире, международный авторитет во многом формируются именно на основе культурного достояния этого государства, интенсивности его культурных связей с другими государствами, степени его участия в международном культурном обмене, уровня культурного развития и умения использовать свой культурный потенциал на мировой арене. Именно культура обладает теми уникальными возможностями, связанными с формированием позитивного образа народов, государств, который в конечном итоге помогает и в решении политических проблем.

Сегодня, говоря «Азербайджан», перед глазами появляется его богатство - нефть. Азербайджан – это страна, где нефть течет рекой, однако, это не единственное богатство Азербайджана. Мультикультурализм является главным достоянием страны, девизом повседневной жизни. Основоположником азербайджанской модели мультикультурализма является выдающийся сын азербайджанского народа, политический и государственный деятель прошлого века и нового тысячелетия Общенациональный лидер — Гейдар Алиев.

Азербайджанская Республика – полиэтническое государство, где проживают представители многих этносов, каждый из которых является носителем уникальных особенностей, сохраняет собственную материальную и духовную культуру, язык и самоидентификацию, историческую память и менталитет, этническое самосознание и этнопсихологию.

На территории Азербайджана испокон веков в обстановке добрососедства и братства проживали, наряду с азербайджанцами, русские, белорусы, немцы, лезгины, грузины, аварцы, цахуры, удины, евреи, татары и другие национальные и этнические меньшинства. Более 30 народов и этносов в нашей стране, исповедующих разные религии, в исторически сложившихся условиях совместного проживания сохранили своеобразие культурных и фольклорных традиций. На протяжении веков эти народы живут и творят в нашей стране, сохраняя и развивая свое культурное наследие, что является наглядным доказательством существующих в Азербайджане толерантности и мультикультурализма [7].

Благодаря большому государственному опыту и титаническим усилиям общенационального лидера азербайджанского народа, архитектора и созидателя современного независимого Азербайджана Гейдара Алиева в стране удалось сохранить атмосферу толерантности, ритм вековых отношений дружбы и сосуществования между народами.

Благодаря государственному гению Гейдара Алиева, его политической прозорливости и

дальновидности веками существовавшая в нашем обществе обстановка толерантности, уважительное отношение к представителям других народов и конфессий, мультикультуральный характер общества были возведены в ранг политических и правовых принципов, признаны в качестве приоритетных направлений политики Азербайджанского государства.

Общенациональный лидер дал высочайшую юридическую оценку сложившимся на протяжении веков мультикультуральным ценностям азербайджанского народа и сыграл исключительную роль в формировании мультикультурального общества. Гейдар Алиев подчеркивал: «Многонациональный состав Азербайджана — это наше богатство и преимущество. Мы это ценим и постараемся сохранить. Чем больше государство будет стараться объединить народ, тем богаче оно будет, так как каждый гражданин вносит свой вклад во всемирную культуру и цивилизацию» [6].

Сохранение Азербайджаном мультикультуральных традиций по инициативе и указанию великого лидера Гейдара Алиева было отражено в правовых документах, в том числе Конституции Азербайджана. Принцип толерантности, составляющий основы политики мультикультурализма отчетливо закреплен в ряде статей основного закона Конституции Азербайджана. Согласно статье 25 Конституции Азербайджанской Республики, гарантировано уважение к правам и свободам каждого, независимо от происхождения, расы, религии и языка [3]. На ряду с этим, во многих законах, принятых после возвращения великого лидера к власти, была гарантирована культурная самобытность всех национальных меньшинств, живущих на территории Азербайджана. Политика общенационального лидера, связанная с национальными меньшинствами, всегда позитивно воспринималась международными структурами.

В рамках современной азербайджанской модели государственно-религиозных отношений все конфессии получили одинаковый статус, будучи равны перед законом. В стране создана прочная правовая база для дальнейшего развития толерантности, являющейся характерной особенностью нашего народа. Право свободы совести наших граждан напрямую закреплено в Конституции, а в Законе «О свободе вероисповедания» нашло более широкое отражение [2]. Согласно 48 статье Конституции, каждый гражданин обладает свободой совести, правом свободно определить свое отношение к религии, свободно выражать и распространять свои убеждения, связанные с отношением к религии, свободно выполнять религиозные обряды [3].

Таким образом, Азербайджан, избравший путь осмысленного развития, являясь материнским лоном мультикультурализма, представляет собой уникальную среду для людей, являющихся носителями различных культур и ценностей, а также исповедующих разные религии.

Благодаря независимой политике политического преемника общенационального лидера Гейдара Алиева — Президента Ильхама Алиева Азербайджан имеет веское слово на международной арене, демонстрируя свой путь развития. Успешно продолжаются политические шаги, предпринятые в нашей стране в области сохранения и развития мультикультуральных ценностей азербайджанского народа. Мысль Президента Ильхама Алиева «Мультикультурализм в нашей стране превратился в безальтернативный образ жизни» в широком спектре освещает, по сути, мультикультурализм в Азербайджане, а также все моменты, исходя из выбора мультикультурализма в будущем единственным путем развития человечества и осознания международной значимости данного понятия [4].

Стоит отметить, что Азербайджан имеет все возможности взять на себя глобальную инициативу – находясь на стыке Европы и Азии, Запада и Востока, играя роль моста между двумя разными цивилизациями, как в Восточном, так и в Западном полушариях. Эта идея также достаточно отражается во внешнеполитическом курсе нашего государства. В международных отношениях политика мультикультурализма способствует укреплению международного авторитета Азербайджана, расширению его культурных и гуманитарных связей с мировым сообществом, тем самым повышая уровень информированности зарубежной общественности об Азербайджанской Республики.

Мультикультурализм как элемент мягкой силы способствует не только культурному, но и социально-экономическому развитию Азербайджана, позволяя ему включиться в изучение мирового опыта в качестве полноправного партнера: транслировать ценности азербайджанской культуры как одного из полноправных участников современных международных отношений [1]. Следовательно, продвижение, экспорт национальной культуры, популяризация ее за рубежом, формирование позитивного образа страны способствуют созданию благоприятной внешнеполитической конъюнктуры [5].

Таким образом, одной из заслуг политического основоположника азербайджанского мультикультурализма великого лидера Гейдара Алиева перед азербайджанским народом является развитие мультикультурализма в стране. Сегодня Президент Ильхам Алиев настойчиво продолжает эту политику. Политика мультикультурализма, проводимая под руководством Президента Ильхама Алиева, ускоряет интеграционные процессы внутри страны. А в международной плоскости эта политика оказывает мощное влияние на развитие межкультурного и межрелигиозного диалога. Сегодня мультикультурализм является единственным подходом, который спасет мир, столкнувшийся с войнами и конфликтами.

## ЛИТЕРАТУРЫ


1. Гаман-Голутвина О. В., Сморгунов Л. В., Тимофеева Л. Н. Политика развития, государство и мировой порядок (VIII Всероссийский конгресс политологов, г. Москва, 6–8 декабря 2018 г.) // Политическая наука. 2019. No 1. c. 253-267
2. Закон Азербайджанской Республики О свободе вероисповедания // https://republic.preslib.az/ru_d4-35.html
3. Конституция Азербайджанской Республики // https://president.az/ru/pages/view/azerbaijan/constitution
4. Президент Ильхам Алиев: Мультикультурализм— образ жизни в Азербайджане // https://azertag.az/ru/xeberPrezident_Ilham_Aliev_Multikulturalizm___obraz_zhizni_v_Azerbaidzhane-918990
5. Силантьева М. В. Межкультурный диалог – основа плодотворного взаимодействия в системе международного партнерства // Научные исследования и разработки. Современная коммуникативистика. 2013. Т. 2. No 5 (6). С. 14-17.
6. Толерантность — это уважение к инаковости // https://azertag.az/ru/xeber/Tolerantnost___eto_uvazhenie_k_inakovosti-901643
7. Этническое разнообразие // https://multiculturalism.preslib.az/ru_a3.html



***Günay Nazim qızı Babayeva***
***İnsan resursları və daxili nəzarət şöbəsində məsləhətçi***
***Azərbaycan Kooperasiya Universiteti***
***gunayb.gb@gmail.com***


## Heydər Əliyev – Azərbaycan multikulturalizm modelinin təsisçisi


***Xülasə***

Bir dövlətin beynəlxalq nüfuzu daha çox bu dövlətin mədəni irsi əsasında formalaşır. Məhz mədəniyyət xalqların, dövlətlərin müsbət imicinin formalaşması ilə bağlı o unikal imkanlara malikdir ki, bu da son nəticədə siyasi problemlərin həllinə kömək edir.

Azərbaycandan danışarkən ölkənin əsas sərvəti olan multikulturalizmi qeyd etməmək mümkün deyil. Multikulturalizmin Azərbaycan modelinin banisi Azərbaycan xalqının görkəmli oğlu, ötən əsrin və yeni minilliyin siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevdir.

Heydər Əliyevin dövlətçilik dühası, siyasi fərasəti və uzaqgörənliyi sayəsində əsrlər boyu cəmiyyətimizdə mövcud olan tolerantlıq mühiti, başqa xalqların və konfessiyaların nümayəndələrinə hörmət, cəmiyyətin multikultural xarakteri siyasi zirvəyə yüksəldi və Azərbaycan dövlətinin siyasətinin prioritet istiqamətləri kimi tanınan hüquqi prinsipinə çevrildi.

Azərbaycan multikulturalizminin siyasi banisi ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərindən biri də ölkədə multikulturalizmin inkişafıdır. Bu gün Prezident İlham Əliyev bu siyasəti israrla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən multikulturalizm siyasəti ölkə daxilində inteqrasiya proseslərini sürətləndirir. Beynəlxalq müstəvidə isə bu siyasət mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına güclü təsir göstərir.

***Açar sözlər: Azərbaycan, multikulturalizm, polietnik cəmiyyət, etnomədəni müxtəliflik, ənənələr.***

***Gunay Nazim Babayeva***
***Consultant in human resources and internal control department***
***Azerbaijan Cooperation University***
***gunayb.gb@gmail.com***

## Heydar Aliyev is the founder of Azerbaijanian model of multiculturalism

***Summary***

The reputation of a state in the world and its international authority is largely formed on the basis of the cultural heritage of this state. It is culture that has those unique opportunities associated with the formation of a positive image of peoples, states, which ultimately helps in solving political problems.

Speaking about Azerbaijan, it is impossible not to mention multiculturalism, which is the main asset of the country. The founder of the Azerbaijani model of multiculturalism is the outstanding son of the Azerbaijani people, the political and statesman of the last century and the new millennium, the national leader - Heydar Aliyev.

Thanks to the state genius Heydar Aliyev, his political perspicacity and far-sightedness, the environment of tolerance that existed in our society for centuries, respect for representatives of other peoples and confessions, the multicultural nature of society were elevated to the rank of political and legal principles, recognized as priority areas of the policy of the Azerbaijani state.

One of the merits of the political founder of Azerbaijani multiculturalism, the great leader Heydar Aliyev, to the Azerbaijani people is the development of multiculturalism in the country. Today, President Ilham Aliyev persistently continues this policy. The policy of multiculturalism, pursued under the leadership of President Ilham Aliyev, accelerates the integration processes within the country. And in the international plane, this policy has a powerful influence on the development of intercultural and interreligious dialogue.

***Key words: Azerbaijan, multiculturalism, multiethnic society, ethnocultural diversity, traditions.***

**UOT 504.062**

***Vüsal Fizuli oğlu MƏMMƏDOV***
***Magistrant, Azərbaycan Kooperasiya Universiteti***
***m.vusal 3351@gmail.com***

## BÖYÜK QAFQAZ MEŞƏLƏRİNİN MÜHAFİZƏSİNİN ELMİ-METODİKİ ƏSASLARI

***Xülasə***

Məqalədə Böyük Qafqazın dağ-meşələrinin mühafizəsi, yayılma qanunauyğunluğu, meşə bitkilərinin tərkibi, geobotaniki xüsusiyyətləri, meşə bərpa şəraiti və meşə landşaftları elmi-metodiki əsaslarla təhlil olunur. Daha sonra meşələrin təsərrüfat və kurort-rekreasiya əhəmiyyəti ətraflı analiz olunur və uyğun nəticələr əldə olunur.

***Açar sözlər: dağ meşələri, meşələrin mühafizəsi, alçaq dağ meşə, orta dağ meşə və yüksək dağ meşə və s.***

***

Böyük Qafqazın dağlarının meşə qurşağında üç yüksəklik zonası aydın seçilir. Alçaq dağ meşələri zonasının əsas edifikatoru gürcü palıdı və vələs olduğu halda, orta dağ meşə zonasının edifikatoru fısdıq və vələs ağaclarıdır. Bəzi yerlərdə fısdıq dağətəyinə qədər enir (İsmayıllı rayonunda Topçu meşəsi), Böyük Qafqazın cənub yamaclarında isə subalp çəmənlərinə qədər qalxır.

Dağ-meşə qurşağında monodominant meşələrə çox kiçik sahələrdə rast qəlmək mümkündür. Adətən göstərilən hər bir zonada meşə əmələ gətirən əsas növlərlə yanaşı, bir çox ağac və kol bitkiləri yayılmışdır. Lakin meşənin I mərtəbəsində dominant göstərilən edifikatorlardır. II mərtəbədə nisbətən qısaboylu ağaclar, III mərtəbədə iri və xırda kollar, nəhayət torpaq səthində əsasən xırda kollar və ot bitkiləri inkişaf edir. [1, s. 274].

Tədqiqat zonasında yalnız I mərtəbə ağacları inkişaf edir. Meşə sıx olduğundan günəş şüaları torpaq səthinə çatmır və aşağı yarus bitkiləri (xırda boylu ağaclar, kol və ot bitkiləri) inkişaf etmir. Belə hal Böyük Qafqaz dağlarının yamaclarında təmiz fısdıq meşələrinin yayıldığı şimal ekspozisiyalarda müşahidə edilir.

Böyük Qafqazın dağ meşələrinin bir əlamətdar xüsusiyyəti də göstərilən əsas meşə əmələ gətirən ağac növlərinin yaratdığı meşələrin tərkibində müxtəlif ağac növlərinin iştirak etməsidir. Böyük Qafqazın cənub yamacı meşələrində iştirak edən Kolxida və Hirkan vilayətləri üçün xas olan növlərə həmin dağlıq vilayətin şimal (şimal-şərq) yamacı meşələrində rast gəlmək mümkün deyil. Cənub yamacda dəmirağacı, şabalıd, bəzi həmişəyaşıl relikt kol bitkiləri (məs; qaraçöhrə) yayılmışdır.

Böyük Qafqazın cənub makroyamacında meşə bitkiləri 500-600 m yüksəklikdən 1800-2000 m (2200m) yüksəkliklərə qədər sahələrdə yayılmışdır. Ərazinin geoloji-geomorfoloji quruluşundan asılı olaraq meşələrin arealı daxilində ara-sıra kiçik meşəsiz sahələrə də rast gəlmək mümkündür (dik erozion, uçqun, sürüşmə yamacları, sel ocaqları və sıldırım qayalıqlar).Cənub yamacın meşə qurşağında üç zona (yarımqurşaq) fəqlənir.[1, s. 275].

Aşagı dağ-meşə zonası 500-600 m-lə 800-900 m yüksəkliklərdə ensiz kəmər şəklində uzanır. Şərqdə iqlimin quraqlaşması ilə əlaqədar olaraq zonanın yuxarı sərhədi 1200-1400 m (bəzi yerlərdə 1600 m) yüksəkliklərə qədər qalxır. Zonada hakim meşələr palıd və palıd-vələs meşələridir. Gürcü (yaxud İberiya) palıdı az hallarda təmiz, əksər hallarda isə vələslə, bəzi hallarda isə cökə ilə birlikdə meşə əmələ gətirir. Alçaqdağlıq tirələrin yastı yallarında, az maili yamaclarında təmiz palıd meşəliyinə rast gəlmək mümkündür. Qalan sahələrdə isə əsasən palıd, göyrüş-palıd-palıd-vələs meşələri üstündür.

Alçaqdağlığın çay dərələrində və çökəklərdə rütubətin artması ilə əlaqədar lianlı fısdıq və vələs meşələri inkişaf etmişdir. Rütubətli mərzlərdə həmçinin şabalıd meşəliyinə, yaxud şabalıd-vələs, şabalıd-fısdıq meşəliyinə rast gəlmək mümkündür. Şabalıd ağaclarının meşə bitkiliyində iştirakı yalnız Balakən-Zaqatala və Qəbələ-İsmayıllı sahələrində müəyyən edilmişdir. Cənub yamacın mərkəz və şərq hissələrində şabalıd ağaclarına rast gəlmək mümkün deyil. İ. Səfərov alçaqdağlığın Qəbələ-İsmayıllı meşələri tərkibində dəmirağacı olmasını müəyyən etmişdir.

Palıd və palıd-vələs meşələri altında mürəkkəb tərkibli xırda ağaclar və kolluqlar cəngəlliklər əmələ gətirir. Bu meşələrdə kol bitkilərindən yemişan, əzgil, itburnu, doqquzdon, zoğal, alça, daha kölgəli yerlərdə avropa gərməşovu, daşlı və açıq yerlərdə isə sarağan, sumax kolları inkişaf etmişdir.

Bu zona daxilindəki qayalıqlarda, səpinti və prolüvial çöküntülər üzərində dəmirqara, sarağan, pallas murdarçası, sumax, dovşanalması, qovuqluca, vəhşi gilas, qaramurdarça, böyürtkən kolları, enliyarpaq gərməşov, qayınağacı, palıd, vələs, ardıc və s. ağaclar yayılmışdır.

Alçaqdağ meşələri zonasının talalarında ayıdöşəyi, müxtəlif böyürtkən növləri, gəndalaş, şərqdə isə qaratikan kolları, quru çəmənlər yayılmışdır.

İnsan tərəfindən qırılmış açıq (quru) meşələr bərpa olmadıqda, yerində çöl bitkiləri inkişaf edir. Bu törəmə formasiyalarda əvvəlcə daşdayan, sonralar topal və dağ kserofitləri yayılır. Qırılmış meşələrin yerində çöl formasiyasının inkişafı zonanın şərq hissəsi üçün daha səciyyəvidir.[2, s. 39].

Alçaqdağlığın palıd meşəliyində oduncaq ehtiyatı ayn-ayrı bölgələrdə 200- 400 m3/ha, Kiçik Qafqazın cənubunda isə 150-300 m3/ha təşkil edir.

Ortadağ meşə zonası yaxud fısdıq və vələs-fısdıq meşələri L.Prilipkonun verdiyi məlumata görə, dağ meşə qurşağının daha geniş bir hissəsini tutmaqla, birinci və üçüncü zonalardan az-çox bircinsliyi ilə seçilir. Fısdıq meşələri zonası cənub yamacın qərb hissəsində 900-1400 m yüksəkliklərdə, şərq hissəsində 1000 (1100)—1600 m yüksəkliklərdə yayılmışdır. Lakin cənub yamacın bir çox yerlərində fısdıq ağacı meşə qurşağının yuxarı sərhədinə qədər, yəni 1800-2000 m yüksəkliklərə kimi qalxır. Fısdıq, vələs-fısdıq meşələri qərbdə Gürcüstan Respublikası ilə sərhəddən şərqdə Şamaxı rayonu ərazisinə qədər uzanır. Burada cənub yamac meşələrinin (ortadağ meşə zonası üçün xarakter fısdıq, vələs-fısdıq meşələrinin) şimal-şərq yamac ortadağ meşə zonasının fısdıq meşələri ilə birləşməməsinin əsas səbəbi Qozluçay və Çikilçay hövzələrində həmin meşələrin insanın təsərrüfat fəaliyyəti nəticəsində qırılıb yox edilməsidir.

Fısdıq, vələs-fısdıq meşələri dağ yamaclarında geniş zona əmələ gətirməsinə baxmayaraq, bəzi yerlərdə, xüsusilə Kişçay və Filfiliçay hövzələrində xeyli daralır, Balakən rayonu ərazisində isə çayların dərin dar dərələrində vələs, yalanqoz, qarağac və fısdıqdan ibarət qarışıq meşələr ilə arakəsmə meşəlik əmələ gətirir. Bəzi yerlərdə isə əlverişli iqlim-ekoloji şəraitin olmasına görə bu meşə tipi Qanıx - Həftəran vadisindən yüksəkdağlığa qədər dağ yamaclarını əhatə etməklə, daha geniş zona əmələ gətirir (Göyçay çayı hövzəsində).

Ortadağlıqda, yəni fısdıq meşələri zonasında, fısdıq ağacı bütün cəhətlərə baxan yamaclarda bitdiyi halda, zonanın aşağı sərhədində o əsasən alçaq tirələrin şimal səmtli yamaclarında bitir.

Əsl fısdıq meşələrində meşəaltı kol və ot bitkiləri ya rast gəlinmir, yaxud çox zəif inkişaf edir. Fısdıq-vələs meşələrində isə bir sıra kol və ot bitkiləri yaxşı inkişaf etməklə, torpağın səthini örtür. Fısdıq meşəsi zonasının talalarında zəngin ot və kol bitkiləri inkişaf edir. Meşəsiz sahələrdə ən çox ayıdöşəyi, gəndalaş, gicitkan, xaçgülü və s., bəzən isə çox sıx böyürtkən kolları bitir.

Fısdıq zonasının meşəaltı örtüyü çox rütubətli yerlərdə ayıdöşəyindən, böyürtkəndən, quru sahələrdə isə topaldan ibarətdir. Zonanın daşlı-kəsəkli süxurlar yığınları üzərində böyürtkən, ağ balyonca, moruq, ivançay, çaşır, baldırğan, əvəlik və s. örtük əmələ gətirir. Əhəngdaşı və mergellərin ufantıları üzərində isə daha çox qoyunqulağı, keçiqulağı, skabioza, göyçiçək və s. bitir. [3, s. 42].

Yüksəkdağ meşə zonası həm bu zonada yayılmış ağac növlərinə, həm də meşəaltı örtüyün xarakterinə görə əvvəlki zonadan fərqlənir. Bu zonanın aşağı sərhədi qərbdə 1300-1400 m, şərqdə isə 1400-1600 m yüksəkliklərdən keçir, müasir yuxarı sərhədi isə təbii sərhəd hesab edilmir. Məlumdur ki, dağ meşələrinin yuxarı sərhədi insanların çoxəsrlik fəaliyyəti nəticəsində ən azı 300-500 m aşağı enmişdir.

Dağ meşə qurşağının yuxarı zonasında meşə əmələ gətirən ağac növləri fısdıq (həmçinin subalp fısdığı), şərq palıdı, trautvetter ağcaqayını, tozağacı və b. ağac növləridir. Göstərilən növlər arasında isə fısdıq və şərq palıdı əsas meşə əmələ gətirən ağaclardır. Zonanın aşağı zolağında meşələr orta zolaqda olduğu kimi fısdıq, vələs-fısdıq meşələrindən, yuxarı zolağında, yaxud yarımzonasında isə subalp fısdığı, şərq palıdı meşələrindən ibarətdir. Bu meşələrdə ağcaqayın tək-tək, yaxud qrup halında yayılmışdır. Tozağacı zonanın yalnız yuxarı sərhədində rast gəlir. Bəzi yerlərdə meşənin yuxarı sərhədi seyrək, yaxud çox sıx yerləşən fısdıq ağacından təşkil olunmuş, bəzi yerlərdə isə çox seyrək, hətta park halında rast gələn fısdıq, tozağacı və şərq palıdından ibarətdir. Subalp çəmənləri və kolluqları fonunda tək-tək, yaxud qrup halında fısdıq, palıd və tozağaclarına da rast gəlinir.

Bu zona daxilində yuxarı qalxdıqca və meşələr seyrəldikcə meşəaltında ot bitkilərinin rolu artır. Zonanın yuxarı zolağı əslində meşə-subalp, çəmən-kol yanmzonası kimı qalan zonalardan fərqlənir. Burada zəngin hündürotlu subalp çəmənlikləri, qərbdə isə rododendron kolları yayılmışdır.

Böyük Qafqaz dağlarının şimal-şərq makroyamacında yüksəkliyə görə meşələrin tərkibində ciddi dəyişiklik əmələ gəlmir. Burada da dağ meşələri qurşağında, cənub yamacda olduğu kimi üç əsas meşə zonası ayrılır. Həmin zonaların iqlim-ekoloji şəraiti, yüksəklik sərhədləri, tərkibi cənub yamac meşələrində olduğundan o qədər də ciddi fərqlənmir. Lakin cənub yamac meşələrində rast gələn bəzi həmişəyaşıl kollar (qaraçöhrə), şabalıd burada rast gəlinmir. Hirkan florası reliktlərinə isə olduqca az təsadüf edilir. Şimal-şərq yamacda temperaturun cənub yamaca nisbətən bir qədər aşağı olması, şübhəsiz, meşə bitkilərinin yüksəklik sərhədlərinə təsir göstərir. Lakin həmin sərhəd-

lər antropogen amilin təsiri ilə o qədər dəyişmişdir ki, müasir bitki örtüyünün yayılmasına temperaturun təsiri nəzərə alınmaya bilər.

Şimal-şərq yamacda əsas meşə massivləri Yan silsilənin şimal yamaclarındadır. Burada meşənin yuxarı sərhədi 1600-1800 m yüksəkliklərdən keçir, bəzi yerlərdə isə kiçik meşə talaları 2000 m yüksəkliklərə qədər qalxır (Anıx kəndindən cənubda, Dəliqaya və Zıxır kəndlərindən şimala və s.).

Böyük Qafqaz silsiləsinin şimal yamacında meşələrin yuxan sərhədi Ataçay hövzəsində 1500-1600 m, Gilgilçay hövzəsində 1800-1900 m (2000 m-ə qədər), Cimiçay və Babaçay hövzələrində çay dərələrinin yamaclarında 2200-2400 m-ə qədər yüksəkliklərdən keçir. Lakin Cimiçay hövzəsindən qərbə Başsuayrıcı silsilənin şimal yamacı Babaçayın mənbələrində kiçik meşəlikləri çıxmaqla, meşə örtüyündən məhrumdur. Bunun əsas səbəbi ərazinin çox qədimlərdən sıx məskunlaşması olmuşdur. [4, s. 122].

